**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Tahir Baxşəliyev**

# RUSİYA TARİXİ
# ƏN QƏDİM ZAMANLARDAN GÜNÜMÜZƏDƏK

**Ali məktəblərin bakalavr pilləsi üzrə**
**050206 – «Tarix», 050113 – «Tarix müəllimliyi»,**
**050211 – «Regionşünaslıq (Qafqaz üzrə)» ixtisasları üçün**
**DƏRSLİK**

*Bakı Dövlət Universiteti rektorunun*
*30.11.2020-ci il tarixli R-125 saylı əmri*
*ilə dərsliyə nəşr*
*hüququ (qrif) verilmişdir.*

Təhsil

**BAKI – 2021**

**Elmi redaktor:** ***t.e.d., prof.*** **C.M.Cəfərov**

**Rəyçilər:** ***t.f.d., dos.*** **A.H.Cəlilov**
***t.f.d., dos.*** **A.Ş.Şahmuradov**

**Baxşəliyev T.Ş.**
**B31 Rusiya tarixi ən qədim zamanlardan günümüzədək.**
(Ali məktəblərin bakalavr pilləsi üçün dərslik). Bakı, «Təhsil», 2021, 808 səh.

Dərslikdə Rusiya tarixinin əsas problemləri, ölkənin sosial-iqtisadi, siyasi dövlət məsələləri tarix elminin son tədqiqatları və müasir elmi yanaşma nöqteyi-nəzərindən işıqlandırılmışdır. «Rusiya tarixi» ən qədim zamanlardan XXI əsrin əvvəllərinə kimi olan dövrü əhatə edir. Xronoloji-ərazi və mədəni yanaşma kitabın dövrləşməsinin əsasını təşkil etmişdir. Dərslikdə dövlətçiliyin mərhələləri, sosial-iqtisadi münasibətlərin mahiyyəti, beynəlxalq əlaqələrin xarakteri və təsviri, mədəni inkişafın başlıca tendensiyası müxtəlif tarixi mərhələlərdə obyektiv olaraq ətraflı və dərindən izah edilmişdir. Rusiya tarixinin hadisələri geniş dünya kontekstində qiymətləndirilmişdir.

Dərslikdə Rusiya və onun tərkibinə daxil olan xalqların tarixi tarixi-mədəni standartlara uyğun olaraq obyektiv, ardıcıl və sistematik şərh edilmişdir. Kitab tələbələr, müəllimlər, o cümlədən Rusiya tarixi ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur.

**B $\frac{4306020600}{053}$ 2021**

**© Tahir Baxşəliyev, 2021**

*Atam Baxşəlibəyov Şamil Cavadbəy oğlunun, anam İsmayılova Məhluqə xanım Yusif qızının doğma, işıqlı və əbədi xatirəsinə* ***ithaf olunur.***

## GİRİŞ

Təqribən 2500 il yaşı olan tarix ən qədim elmlərdən biridir. Qədim yunan tarixçisi Herodot bizim eradan əvvəl V əsrdə «Tarix» («История») əsərini yazaraq onun əsasını qoymuşdur. Qədimdə tarixə misilsiz dəyər verərək onu «həyatın müəllimi» («наставница жизни»), tarixçiləri isə hörmətlə «zaman ötürücüsü» («передатчик времени») adlandırmışlar. Qədim yunan mifologiyasında doqquz muzadan biri olmuş Klionun incəsənət və elmin himayədarı kimi təsvir edilməsi qədimdə tarixə olan maraq və diqqətin birbaşa sübutudur. Tarixçilər belə hesab edir ki, çox güman Klio qəhrəmanlıq nəğmələrinin, şan-şöhrətin təcəssümünün muzası (yunan əsatirində elm və incəsənətə himayədarlıq edən ilahələr) kimi klassik və ellinizm zamanı (b.e.ə.V-I əsrlər) tarixin himayəçisi olmuşdur. Klio sifəti tam dərin fikirlərdən ruhlanmış, əlində papirus və ya perqament bükmələmiş gənc qadın görünüşündə təsvir edilmişdir. Tarixin himayəçisi – muzası Klio Zevsin və yaddaş ilahəsi Mnemozinin qızı idi.

İnsan cəmiyyətini öyrənən elmlərdən birinin adı olan tarix termini yunan mənşəlidir. Onun bir çox mənası vardır. Hərfi tərcümədə o bilinmiş, tədqiq edilmişlərə dair rəvayət, hekayətdir. Gündəlik həyatda «hekayə» («рассказ») və ya «hadisə» («происшествие») sözlərinin sinonimi kimi məna kəsb etmişdir. Eyni zamanda bu termini təbiət və cəmiyyətdə bütün prosseslərin ifadə edilməsi məqsədilə istifadə edirlər.

«Tarix» termini humanitar elmlərdən birinin adı olmaqla bərabər məqsədi insan cəmiyyətini öyrənməkdir. Tarix bu günü və gələcəyin inkişaf meylini anlamaq məqsədilə insan cəmiyyətinin keçmişini bütün məkanda konkret və aydın tədqiq etməkdən bəhs edən elmdir. Tarix keçmişi tədqiq etməyi, onun mərhələlərini öyrənməyi, bu mərhələlərin görünməyən səhifələrini açmağı qarşısına məqsəd qoymuşdur. Tarixçilərin qarşısında duran başlıca vəzifə isə hadisələri tədqiq etməkdir. Göründüyü kimi, tarix hər şeydən əvvəl keçmişə dair elmdir. Tarix bitmiş hadisəni öyrənir ki, təbii olaraq bu da keçmişlə bağlıdır. Eyni zamanda, tarix çoxsaylı nəsillərin topladığı insanlığın zəngin sosial-mədəni təcrübəsindən ibarətdir. Ətrafın elmi, o cümlədən sosial dərk

edilməsi insanlığın dünya ilə qarşılıqlı əlaqəsinin vacib tərkib hissəsidir. O, ümumiyyətlə, birlikdə inkişaf edir. Dünya haqqında təsəvvürlər qədimdə və indi əsaslı fərqlənmişdir: dünya dəyişdikdə insan da dəyişilmişdir. Sosial təcrübənin kütləvi inkişafından ibarət olan tarix nəsillərdən-nəsillərə ötürülərək hər dəfə yenidən dərk edilmişdir.

Tarix – xalqın kollektiv yaddaşıdır: tarixi yaddaşın itirilməsi ictimai şüuru pozur, həyatı mənasız və bərbad edir. Xalqın yaddaşının məhv edilməsi onun özünün məhv edilərək qula çevrilməsi deməkdir. V.Q.Belinski yazırdı: «Biz keçmişi soruşdurub və dindiririk ki, o bizə indiki zamanı izah etsin və bizim gələcəyimizə dair işarə etsin». Keçmişdə baş verənlər həyəcan və qürur doğurmasa da, hörmət və diqqətlə araşdırılmağa layiqdi.

Tarix bir sıra sosial əhəmiyyətli funksiya yerinə yetirir. Bunlardan birincisi, ölkənin, xalqın, şəxsiyyətin tarixi yolunu öyrənməkdən keçən bəşəriyyət tarixinin bütün hadisə və proseslərini əks etdirən dərketmə və intellektual inkişafdan ibarətdir.

İkinci funksiya siyasi praktikadır. Onun mahiyyəti tarixin elm kimi cəmiyyətin inkişaf qanunauyğunluğu tarix faktını nəzəri idrak əsasında aşkar edərək subyektiv qərar verməkdən qaçmaq məqsədilə elmi əsaslı siyasi istiqamətin müəyyənləşdirilməsinə yardım etməkdən ibarətdir. Keçmiş, bugün və gələcəyin birliyi insanların öz tarixinə marağının əsasını təşkil edir.

Üçüncü funksiya dünyagörüşüdür. Dünyagörüşü – dünyaya, cəmiyyətə, onun inkişaf qanunlarına münasibət obyektiv reallığa əsaslanarsa, elmi məna kəsb edər. Belə ki, ictimai inkişafda obyektiv reallıq tarixi faktdır. Tarix və onun faktiki tərəfi əsas kimi qalır. Cəmiyyətə dair elm isə ona əsaslanır. Tarixi savadsızlıq müstəvisində ehkamçı və yalançı elm tərəfdarları cəmiyyətə dair spekulyantlıq edirlər. Tarixi faktları bilməyən insanlar bütün ideoloji quraşdırma və həqiqətə dair iddiaları qəbul etməyə məcburdur. Tarixi nəticələrin elmi olması üçün bəhs edilmiş prosesə dair bütün faktları öyrənməklə obyektiv dünya mənzərəsinə sahib olaraq, elmi idrakı təmin etmək mümkündür.

Tarix misilsiz, tərbiyəvi təsir gücünə malikdir. Bu, tarixin dördüncü funksiyasıdır. Öz xalqının və dünyanın tarixini bilmək vətənpərvərlik və beynəlmiləlçilik kimi vətəndaş keyfiyyətləri formalaşdırır, xalqın və ayrı-ayrı şəxsiyyətlərin cəmiyyətin inkişafında rolunu göstərir, bəşəriyyətin inkişafında mənəvi və əxlaqi dəyərlərin dərkinə şərait yaradır. Cəmiyyət qarşısında vicdan, borc kimi kateqoriyaları başa düşməkdə, cəmiyyət və adamların qüsurunu onun insan taleyinə təsirini müəyyən etməklə yardımçı olur.

Başqa elmlər kimi tarix də dünyanın dərk edilməsi və yenidən təşkilinin vasitələrindən biri kimi qərar və fəaliyyətin nəticəsini əvvəldən görməyə xid-

mət edir. Tarixi biliklərin tarix elminə çevrilməsi uzun bir zaman əhatə etmişdir. Rus tarix elminin yaradıcılarından olan M.V.Lomonosov və V.N.Tatişşev hesab edirdilər ki, məhz bilik və maarif tarixi prosesin gedişini müəyyən edir. «Rus dünyası» mədəniyyət tarixini təcəssüm etdirən Rusiya tarixi fövqəladə mürəkkəb və ziddiyyətli hadisələrlə zəngindir. Tarixi və mədəni yaradıcılıq məhsuldarlığının qeyri-adi dərəcədə zəngin olduğu yüksəliş dövrü ilə bərabər, dəhşətli çöküşlə müşayiət olunan mərhələnin biri-birini əvəz etməsi «rus dünyası»nın fərqli tərəfləridir. Rusiya Qərbi Avropa və yaxud Asiya ölkələri ilə müqayisədə özünün bütün tarixi boyu «başqa dünyanı» təmsil etmişdir və etməkdə də davam edir. Belə qeyd etmək yerinə düşər ki, ayrı mədəniyyəti təmsil edir. Rusiyanın «ayrıcalığı», onun digər ölkələrə bənzəməməsi o demək deyildir ki, rus mədəniyyəti başqa mədəniyyətlərdən yaxşıdır və yaxud pisdir. Sadəcə olaraq, hər bir xalqın öz tarixi yolu vardır. Bu tarixi yolun gedişində hər bir xalq onun qarşısında qoyulmuş tarixi dəvətə cavab verərək öz simasını, öz dəyərlərini, öz mənəvi və siyasi mədəniyyətini, öz sosial quruluşunu və iqtisadi həyatını formalaşdırmışdır.

Ölkə tarixinə uzun zaman və əsaslı təsir göstərərək nəticədə bütün Rusiya mədəniyyətinin özünəməxsus xüsusiyyətlərini formalaşdırmış bir sıra faktorları qeyd etmək vacibdir. Bunlardan birincisi rus mədəniyyətinin yaranmasının keçdiyi coğrafi şəraitdir ki, o bu gün də davam edir. Rus mədəniyyətinin xüsusiyyətlərindən biri ondan ibarətdir ki, o Şərqi Avropanın meşə-çöl və çöl rayonları ilə sərhəddə yerləşmişdir. Çöl amili ilə bağlı olaraq burada hökmranlıq edən köçərilər X əsrdən başlayaraq XVIII əsrin sonlarına kimi rus torpaqlarına basqınlar təşkil edərək hətta bu yerləri zəbt belə etmişdir. Daimi xarici təhlükə XIII–XV əsrlərdə monqol-tatar istilaları Rusiya cəmiyyətinin iqtisadi, siyasi, sosial və dövlət əsasının formalaşmasına əhəmiyyətli təsir göstərmişdir.

Əcdadlarının ucu-bucağı görünməyən geniş əraziləri mənimsəməsi əsl tarixi çağırış idi. Artıq XI əsrdə mərkəzi Kiyev olan qədim rus dövlətinin ərazisi Avropada ən böyük ərazi idi. Sonradan – XVI əsrdə rus dövlətinin mərkəzi şimal-şərqə – Moskvaya keçdikdə Rusiya çarlığı Avropanın ən böyük dövlətlərindən biri olmaqla bərabər, ərazisi daim artmışdır.

Başqa bir tarixi dəvət təbii iqlim şəraiti ilə əlaqədardır. Ən qədim zamanlardan uzun əsrlər boyu məhz əkinçilik rus təsərrüfatının əsasını təşkil etmiş, rus kəndlisi isə rus torpaqlarındakı əhalinin əsas hissəsini əhatə etmişdir. Qərbi Avropa və Şərq ölkələrindən fərqli olaraq Rusiyada əkinçilik çox zəhmət tələb edən, məhsuladarlığı aşağı olan bir iş olmuşdur. Sərt təbii şərait, uzun qışı əvəz edən qısa yay mövsümünün sayəsində əkinçilikdə bütün iş günü təxminən 130 gündən ibarət olurdu ki, bu da yüksək məhsul almağa

şərait yaratmırdı. Taxıl çatışmazlığına yalnız XVIII əsrin II yarısından sonra Novorossiya, Kuban və Qara dəniz sahilləri torpaqlarının Rusiyaya birləşdirilməsi ilə son qoyulmuşdur.

Şərq və Qərbdən ibarət iki böyük mədəniyyətin sərhədində yerləşmiş Rusiya üçün növbəti tarixi çağırış onun geosiyasi vəziyyəti ilə bağlıdır. Rusiya hər iki tərəfin nüfuz dairəsini diqqətlə qəbul etməklə yanaşı, özü də Şərq və Qərbin inkişafına təsir göstərmişdir. Bu hər şeydən əvvəl onunla əlaqədardır ki, özünün çoxəsrlik tarixi ərzində Rusiya Qərblə və Şərq mədəniyyəti arasında körpü rolunu oynamışdır. İki müxtəlif mədəniyyət, dünyagörüşü burada qarşılaşaraq rusun özünəməxsus mədəniyyətinin formalaşmasında iştirak etmişdir.

Nəhayət, çoxmillətli Rusiya dövlətinin meydana gəlməsi şübhəsiz tarixi çağırışlardan biri kimi qəbul edilmişdir. Lap əvvəllərdən Rus dövləti yalnız rus xalqının dövləti kimi yaranıb inkişaf etməmiş, rus sərhədləri daxilindəki bütün xalqların dövləti kimi fəaliyyət göstərmişdir. Məntiqi olaraq bütün tarixi boyu dərin etnik münaqişələrə səhnə olmuş Rusiyada bunları aradan qaldırmağa səy göstərmişlər.

Tarixi öyrənərkən onun dövrləşməsinə dair təsəvvürə sahib olmaq vacibdir. «Dövrləşmə» anlayışı seçilmiş meyara uyğun fərqli xüsusiyyətləri nəzərə almaqla tarixi prosesləri xronoloji dövrlərə bölməkdən ibarətdir. Rusiya tarixi ümumdünya tarixinin təbii hissəsidir. XVIII-XX əsrlərdə Rusiya tarix elminin çoxsaylı dövrləşmə variantları hazırlanmışdır ki, onlar da yerli tarixi təfəkkürün inkişafına əhəmiyyətli nüfuz etmişdir. Rusiya tarixinin dövrləşməsi ilə bağlı ilk addımı rus elmi tarixşünaslığının atası hesab olunan V.N.Tatişşev (1686–1750) atmışdır. Onun konsepsiyasının əsasını Rusiyada mütləqiyyət və hakimiyyətin gücü ideyası təşkil etmişdir. Müəllif 5 kitabdan ibarət «Ən qədim zamanlardan Rusiya tarixi» («История Российская с самых древнейших времён» кн.1-5) əsərində və birinci «Rusiya ləhcəsi» («Лексикон Российской») ensiklopedik rus lüğətində Rusiya tarixinin dövrləşməsini belə müəyyən etmişdir:

Vahid hakimiyyət dövrü – IX-XI əsrlər;

Əslzadələrin hökmranlığı dövrü – XII-XV əsrlər;

Vahid hakimiyyətin möhkəmləndirilməsi dövrü – XV əsrin sonlarından Pyotrun hakimiyyətinə kimi.

A.S.Puşkinin birinci tarixçi və axırıncı salnaməçi adlandırdığı görkəmli tarixçi N.M.Karamzin (1766–1826) ölkə tarixinin dövrləşməsini dövlətçiliyin və hakim sülalənin vəziyyətində, Rusiyanın mütləqiyyət tarixində görür. O, Rusiya tarixini mütləqiyyətin tarixi hesab edir. «Rusiya dövlətinin tarixini»

(«История государства Российского») əsərini imperator I Aleksandra həsr etmiş müəllif yazır ki, «xalqın tarixi çara məsxsudur» («история народа принадлежит царю»). N.Karamzinin dövrləşməsi aşağıdakı kimidir:

1. Ən qədim – Ryurikdən III İvana kimi olan dövr – mütləqiyyətin bərqərar olması (udellər sistemi);

2. Orta – III İvandan I Pyotra kimi olan dövr – təkhakimiyyətlilik;

3. Yeni – I Pyotrdan I Aleksandra kimi olan dövr – hökmdarlıq (vətəndaş adətlərinin dəyişdirilməsi).

S.M.Solovyov (1820–1879) fundamental əsəri olan «Ən qədim zamanlardan Rusiya tarixi»ndə («История Российская с древнейших времён») ölkədəki daxili hadisələri, təbiət faktorunu, qəbilə təbiətini, xarici hadisələrin gedişini əlaqələndirərək tarixi proseslərin qanunauyğunluğunu müəyyənləşdirməyə çalışmışdır. S.M.Solovyov Rusiya tarixində dörd əsas dövr müəyyənləşdirmişdir:

1. Siyasi həyatda nəsil münasibətlərinin hökmranlığı (Ryurikdən Andrey Boqolyubskiyə kimi);

2. Nəsil və dövlət mübarizəsinin başlanması (Andrey Boqolyubskidən XVII əsrin əvvəlinə kimi);

a) mübarizənin başlama vaxtı (Andrey Boqolyubskidən İvan Kalitaya kimi);

b) Rusun Moskva ətrafında birləşdirilməsi (İvan Kalitadan III İvana kimi);

c) dövlətin tam qələbə çalması mübarizəsi (III İvandan XVII əsrin əvvəlinə kimi);

3. Rusiyanın Avropa dövlətləri sisteminə daxil olması (XVII əsrin əvvəlindən XVIII əsrin ortalarına kimi);

4. Rus tarixinin yeni dövrü (XVIII əsrin ortalarından XIX əsrin 60-cı illərindəki islahata kimi).

Görkəmli rus tarixçisi V.O.Klyuçevski (1841–1911) hesab edirdi ki, cəmiyyətin inkişafı geosiyasi faktlardan asılıdır, dövləti isə ümummilli barışdırıcı başlanğıc kimi qəbul edirdi. O, üç əsas qüvvə olan insan şəxsiyyəti, adamların cəmiyyəti, ölkənin təbiətini insanların birgə yaşayışının əsası olduğunu ifadə etmişdir. Tarixi tərəqqinin hərəkətverici qüvvəsi isə V.Klyuçevskiyə görə əqli zəhmət və əxlaqi şücaətdən ibarətdir.

«Rusiya tarixinin kursu» («Курс Русской истории») əsərində müəllif coğrafi, təsərrüfat və sosial kriteriyaları tarixin dövrləşməsinin əsası kimi götürmüşdür:

VIII-XIII əsrlər;

Dnepr Rusu, şəhər, ticarət;

XIII-XV əsrin ortaları;

Yuxarı Volqa Rusu, Udel knyazlıqları, azad əkinçilik;

XV əsrin ortaları-XVII əsrin əvvəlləri;

Böyük Moskva, çar-boyar, hərbi əkinçilik Rusu;
XVII əsrin əvvəlləri – XIX əsrin ortaları;
Ümumrusiya, imperiya – zadəgan dövrü.

Sovet tarixşünaslığında Rusiya tarixinin dövrləşməsinin əsasını formasiya nöqteyi-nəzərindən yaxınlaşma təşkil etmişdir:

İbtidai icma quruluşu (IX əsrə kimi);
Feodalizm (IX-XIX əsrin ortaları);
Kapitalizm (XIX əsrin II yarısı-1917-ci il);
Sosializm (1917-ci ildən).

Bu formasiya bölgüsündə Rusiya tarixinin müəyyən mərhələlərində ictimai-iqtisadi inkişafa uyğun daha konkret çərçivələr qeyd edilmişdir. Məsələn, feodalizm dövrü ilkin feodalizm, inkişaf etmiş feodalizm və gecikmiş feodalizm mərhələlərinə ayrılmışdır. Kapitalizm dövrü inhisarçı kapitalizmə qədərki və imperializm mərhələlərinə bölünmüşdür. Sovet tarixi isə hərbi kommunizm, yeni iqtisadi siyasət, sosializmin əsaslarının qurulması, sosializmin tam və qəti qələbəsi, sosializmin inkişafı mərhələlərinə ayrılmışdır.

Yenidənqurma dövrü ilə əlaqədar olaraq Rusiya tarixinin ayrı-ayrı məqam və hadisələri, o cümlədən dövrləşmə məsələləri müxtəlif aspektlərdən qiymətləndirilməyə başlamışdır. Bir tərəfdən Karamzin, Solovyov, Klyuçevski və inqilaba qədərki başqa tarixçilərin dövrləşməsində dönüş baş vermiş, başqa bir tərəfdən yeni dəyərlər və metodoloji nöqteyi-nəzərdən dövrləşmənin qiymətləndirilməsi gündəmə gəlmişdir. Bir çox tarixçilər Rusiya tarixini iki dövrə bölməyi təklif etmişdir:

Qədim Rusdan Rusiya imperiyasına kimi (IX-XVIII əsrlər);
Rusiya imperiyasının çiçəklənməsi və sönməsi (XIX-XX əsrlər).

Müasir dərslik və dərs vəsaiti müəlliflərinin böyük əksəriyyəti Rusiya dövlətçiliyinin formalaşması və inkişafı prinsipini dövrləşmənin əsası kimi qəbul etmişdir:

Qədim Rus (IX-XIII əsrlər);
Mərkəzləşmiş Rus dövlətinin yaranması (XIII-XVI əsrlər);
Rusiya yeni əsrin astanasında (XVII əsr);
Rusiya imperiyası (XVIII-XIX əsrin əvvəlləri);
Sovet dövləti (oktyabr 1917–1991-ci illər);
Rusiya Federasiyası (1991–1999-cu illər).

Dövlət quruluşuna əsasən dövrləşmə Rusiya tarixini feodalizm (IX-XIX əsrin ortaları), kapitalizm (XIX əsrin ikinci yarısı–1917-ci il), sosializm (1917–1991-ci illər) dövrlərinə bölməyə imkan yaratmışdır. 1991–1999-cu illər isə keçid dövrünü təşkil edir.

Hər bir tarixi mərhələ nadirdir. O, zamanın təkrarsız izləri olan ağrılı nöqtələrini, sevinc və ümidini təcəssüm edir. Təkrarsız keçmişi öyrənərkən insanlar cəmiyyətin ümumi qanunlarını dərk etməyə, keçmişi bu günlə birləşdirmiş tarixi əlaqəni izləməyə can atır. K.Yaspers yazmışdır: «Bu günün tarixi keçmiş əsasında yaranır ki, bunun da təsirini biz özümüzdə hiss edirik». Bu günü başa düşmək üçün tarixi bilmək vacibdir. Təqdim etdiyimiz «Rusiya tarixi ən qədim zamanlardan günümüzədək» dərsliyində yer almış tarixi hadisə və faktlar göstərir ki, Rusiyanın tarixi bəşəriyyətin ümumdünya tarixinin bir hissəsidir. Əsrdən-əsrə Rusiya başqa dövlətlərlə və dünya xalqları ilə yanbayan inkişaf etmişdir.

Qədim zamanlardan Rusiya Şərqi Avropa düzənliyindəki torpaqlara sahib olmuşdur. Uraldan Karpata qədər çöllük ərazidə əsrlər boyu hərəkət edən köçərilərlə daim qarşılaşmış rusun əcdadları düşmənə müqavimət göstərərək daha dayanıqlı və mübariz olmuşdur. Zaman-zaman onlar Baltik dənizindən Sakit okeana qədər olan ərazidəki xalqları da öz tərkibinə birləşdirərək çoxmillətli Rusiya dövlətinin yaranmasına zəmin hazırlamışdır. Vahid dövlət çərçivəsində Rusiya xalqları öz mədəniyyətini qoruyub saxlamaqla bərabər, yerli mədəniyyətlərin qarşılıqlı zənginləşməsindən də faydalanmışdır.

XVI-XVII əsrlər Rusiya tarixində xüsusi yer tutmuşdur. Bu dövrdə sərhədləri Orta və Aşağı Volqaboyu, solsahil Ukraynası, Ural və Sibir torpaqları hesabına genişlənmiş vahid Rusiya dövləti qəti olaraq qərarlaşmışdır. Rusiya əhalisi siyasi parçalanmanın, Ordu asılılığını aradan qaldırılmasına müvəffəq olmuşdur.

Vahid dövlətin yaranması mərkəzləşmiş idarəetmə sisteminin meydana çıxması ilə müşahidə olunmuşdur. XVII əsrin sonlarından Rusiyada qeyri-məhdud, mütləq monarxiya bərqərar olmuşdur. Rusiya dövlətçiliyinin inkişafı vergi sisteminin və təhkimçilik hüququnun təsbit edilməsi ilə müşaiyət edilmişdir ki, bu da əhalinin narazılığına səbəb olmuşdur. Bu mənada XVII əsr üsyanlar və sosial sarsıntılarla diqqəti cəlb edir. «Qarışıqlıq» dövrü, «qiyamçı əsr» kimi Rusiya tarixində yerini almış bu dövrdə həm də Rus kilsəsində parçalanma baş vermişdir.

XVI-XVII əsrlərdə Rusiyanın iqtisadi inkişafından söhbət açarkən birinci növbədə manufaktura istehsalının yaranmasını, daxili və xarici ticarətin canlanmasını qeyd etmək olar. Eyni zamanda, vahid Rusiya dövləti Avrasiya xarici siyasət məkanında fəal mövqe tutmağa nail olmuşdur. Avropa ölkələri ilə əlaqə rus mədəniyyətində öz əksini tapmışdır.

XVIII əsr Rusiyası Böyük Pyotrun islahatları, ölkənin tərəqqisi, Rusiyanın mütləq və təhkimçilik imperiyası kimi qitədə qüdrətli Avropa dövlətinə çev-

rilməsi ilə yaddaşlara həkk edilmişdir. XVIII əsr həm də rus dünyəvi mədəniyyətinin formalaşıb inkişaf etməsi ilə seçilmişdir.

«Rusiya tarixi ən qədim zamanlardan günümüzədək» adlı dərs vəsaitində bəhs edilmiş məsələlərdən aydın olur ki, rus cəmiyyətinin əsas institutlarından olan mütləqiyyət və təhkimçilik Rusiya imperiyasının inkişafı yolunda əngələ çevrilmişdir. XIX əsrdə Rusiya imperiyası öz ərazilərini genişləndirməkdə davam etmişdir. Rusiya cəmiyyətində mütləq hakimiyyətə qarşı mübarizə aparmış qüvvələr meydana çıxmışdır. Nəhayət, XIX əsr Rusiya milli şüurunun oyanışı dövrüdür. Rus mədəniyyəti yüksəliş dövrünə daxil olaraq dünya şöhrəti qazanmışdır.

Görkəmli Qərb tarixçisi, Oksford Universitetinin professoru R.Allen yazmışdır: «İyirminci əsr qısa olmuşdur. Onun başlanğıcı 1917-ci il rus inqilabı, yekun mərhələsi 1991-ci ilin dekabrında Sovet İttifaqının dağılması olmuşdur. Əlbəttə, böyük əhəmiyyət kəsb edən başqa hadisələr də olmuşdur – Hitlerin hakimiyyətə gəlməsi, dünya müharibələri, Avropa imperiyalarının dünyanın siyasi xəritəsindən silinməsi, ABŞ-ın qlobal liderliyi. Ancaq bütün bunlar əhəmiyyətli dərəcədə SSRİ-nin iqtisadi artımı və siyasi dəvətinin təsirindən irəli gəlmişdir.»

Rusiya imperiyasının sonuncu hökmdarı II Nikolayın hakimiyyəti dövründə iqtisadiyyat artmış, sərhədlər möhkəmlənmiş, rus mədəniyyəti özünün «Gümüş əsr»inə qədəm qoymuşdur. Çoxpartiyalı siyasi sistemin və parlamentçiliyin meydana gəlməsinin ilkin şərtləri hazırlanmış, bələdiyyə özünüidarə orqanlarının nüfuzu artmışdır. Bununla yanaşı, hakimiyyətlə onun geostrateji rəqibləri arasındakı ziddiyyət artmaqda davam etmişdir. Şəraiti kökündən dəyişmək üçün tədbirlərə ehtiyac olduğu halda çar hökuməti məsələləri həll etməyə tələsmirdi. Birinci Dünya müharibəsi vəziyyəti daha da kəskinləşdirmişdir. Müttəfiqlərin doğru seçilməməsi, hərbi çətinliklər arxa cəbhədə sabitliyi pozmuşdur. Yaranmış daxili gərginlik sürətlə inqilabi şəraitin yetişməsinə təkan vermişdir. 1917-ci ilin fevralında mütləqiyyət devrildikdən sonra ölkədə ikihakimiyyətlilik yaranmışdır. Gücü olmayan Müvəqqəti hökumət və hakimiyyəti olmayan Sovetlər xalqın tələb etdiyi vəzifələri həll edə bilmədikləri üçün 1917-ci ilin oktyabrında hakimiyyət V.İ.Lenin başda olmaqla bolşeviklər tərəfindən zəbt edilmişdir. Bu hadisənin çevriliş, silahlı üsyan və inqilab kimi qiymətləndirilməsinə baxmayaraq, Rusiyada sovet hakimiyyətinin qurulması ölkədə və bütün dünyada hadisələrin inkişaf istiqamətini tamamilə dəyişdirmiş hadisə kimi tarixdə öz yerini almışdır. Rusiya cəmiyyətinin fəal və qeyrifəal təbəqələrinin köməyi sayəsində Vətəndaş müharibəsi və xarici hərbi müdaxilədən qalib ayrılmış «qırmızılar» Birinci Dünya müharibəsi və vətəndaş müharibəsi dövründə dağıdılmış xalq təsərrüfatını bərpa etməyə başladılar.

1920–1930-cu illərin hüdudlarında inzibati bazar iqtisadiyyatından planlı idarəetməyə keçilməsi dünya iqtisadi böhranının ölkədə təsirini azaltmağa şərait yaratmışdır. Plan sistemi Sovet İttifaqında sənaye və kənd təsərrüfatını əhatə etmiş islahatlarla müşayiət olunmuşdur. Bu islahatlar SSRİ-nin Böyük Vətən Müharibəsində qələbəsinin rəhni olmuşdur. Eyni zamanda, İ.V.Stalin hakimiyyətinin kütləvi repressiyalarla bağlı dövlət siyasəti milyonlarla ölkə vətəndaşının fiziki olaraq məhv edilməsinə səbəb olmuşdur. SSRİ-də totalitar cəmiyyət bərqərar edilmişdir.

Dərslikdə müharibədən sonrakı gecikmiş Stalinizm, mülayimləşmə, durğunluq, yenidənqurma və SSRİ-nin dağılması kimi məsələlər xronoloji ardıcıllıqla, problemin mahiyyətinə nüfuz etməklə faktlar və ümumiləşmə əsasında şərh edilmişdir.

Müharibədən sonra «Soyuq müharibə» dövrünün başlanması, Berlin böhranı, Koreya müharibəsi kimi məsələlər ətraflı izah edilmişdir. İ.V.Stalinin ölümündən sonra hakimiyyət uğrunda amansız mübarizə, partiyanın XX qurultayında şəxsiyyətə pərəstişin tənqidi, N.S.Xruşşovun «mülayimləşmə» siyasəti və onun qeyri-ardıcıllığı, Süveyş və Karib böhranları, ölkədə «kollektiv rəhbərlik» sisteminin bərqərar olması, L.İ.Brejnevin hakimiyyəti illərində sovet cəmiyyətinin «durğunluq» dövrü, «inkişaf etmiş sosializm» sisteminin böhranı və b. məsələlər hərtərəfli təhlil edilmişdir.

M.S.Qorbaçovun hakimiyyətə gəlməsi, «yenidənqurma» siyasətinin başlanması və uğursuzluğu, aşkarlıq şəraitində mətbuatda sovet cəmiyyətini tənqid edən məqalələrin artması, «Yeni siyasi təfəkkür» konsepsiyası, 1991-ci il 19-21 avqust qiyamı, Belovej müqaviləsi və SSRİ-nin dağılması, MDB-nin yaradılması və b. mövzular izah olunur.

SSRİ-nin varisi olan yeni müstəqil Rusiya Federasiyasının yaranması, yeni cəmiyyət quruculuğunun çətin yolu, özəlləşdirmə, 1993–1998-ci illərdəki iqtisadi vəziyyət, ictimai-siyasi şərait, Çeçenistan hadisələri, Rusiya 2000–2020-ci illərdə, V.V.Putin və D.A.Medvedev prezident və hökumət başçısı kimi, yeni xarici siyasət və b. məsələlər hərtərəfli və dərindən işıqlandırılmışdır. «Rusiya tarixi ən qədim zamanlardan günümüzədək» dərsliyində qeyd olunduğu kimi, müasir Rusiya dünyada qabaqcıl mövqeyə sahib olmaq, milli tarixi və mədəniyyətini qorumaq, demokratik institututların inkişafını və vətəndaşlarının firavanlığını təmin etmək məqsədilə özünəməxsus inkişaf modeli axtarışında davam etməkdədir.

**Müəllif**

# I FƏSİL
# SLAVYANLARIN MƏNŞƏYİ

## §1. Hind-avropalıların tərkibində slavyanların yeri

Bizim eradan əvvəl III-II minilliklərin kəsişməsində Visla və Dnepr çayları arasındakı ərazilərdə Avropa xalqlarının qədim əcdadları olan tayfalar məskunlaşmışdır. Avropa və Asiyanın ucsuz-bucaqsız ərazilərində daim hərəkət edən qədim hind-avropalılar artıq bizim eradan əvvəl II minillikdən başlayaraq alman, balt və slavyan birlikləri şəklində Mərkəzi və Şərqi Avropada yerləşmişdir.

Bir zamanlar hind-avropalılara mənsub olan insanlar eyni dildə danışırdılar. Hind-Avropa dil ailəsinə slavyan dili ilə bərabər, alman, italyan, balt, kelt, Hind-İran, yunan, erməni, alban və qədim romanlarda yayılmış anatoli, frakiya, illiri və tohar dilləri daxil idi. Bu isə o deməkdir ki, slavyan, alman, kelt, hind, İran, yunan, Roma, alban və başqa xalqlar ən qədim zamanlarda qohum xalqlar idi ki, alimlər onları hind-avropalılar adlandırmışlar. Hind-Avropa dil ailəsi digər dil qrupları kimi müasir rus, Ukrayna və belorus dillərini təmsil edən slavyan dil qrupunun özündə birləşdirir. Rusiya ərazisində yayılmış bir sıra dillər, o cümlədən osetin dili də Hind-Avropa dil qrupuna daxildir.

B.e.ə. II minilliyin ortalarından Mərkəzi və Şərqi Avropadakı alman tayfaları ayrılmağa başladı, baltlar (litvalılar, latışlar) isə ümumi baltslavyan xalqları qrupunu təşkil edirdilər. Məhz o zaman bu ümumi qrup Şərqi Avropanın geniş ərazilərində məskunlaşmışdır. Baltlar Şimali Avropanın şimal rayonlarında, alman tayfaları isə qərbə doğru yer dəyişmiş, cənubda hind-avropalıların yunan, italik qolu yayılmışdır.

Slavyan xalqları Visla çayı hövzəsində cəmləşmişdir. Buradan onlar qərbə – Oder çayına kimi hərəkət etsə də, onları Mərkəzi və Şimali Avropanın böyük hissəsini tutmuş almanlar dayandırmışdır. Slavyanların əcdadları şərqə doğru da hərəkət edərək Dneprə çatmış, onların Oka və Volqa çayları istiqamətindəki yürüşü bu yerlərdə yaşayan uqro-fin tayfaları ilə qarşılaşmışdır. Cənuba – Karpat dağları, Dunay və Balkan yarımadasına doğru da hərəkət etmiş slavyanlar şimalda isə Pripyat çayına çatmışdır.

B.e.ə. II minilliyin ikinci yarısından slavyan dünyasının eyniliyi pozulmağa başlamışdır. Avropa tayfalarında tunc silahların yaranması ilə atlı drujinalar təşkil edilmişdir. Bu isə onların hərbi fəallığını artırmışdır. Müharibələr,

işğallar, köçlər mərhələsi başlamışdır. Artıq sakit əkinçilik və heyvandarlıq tarixə qarışmışdır. B.e.ə II və I minilliyin qovuşuğunda Avropada insanların yeni birliyi meydana gəlmişdir. Slavyanların əcdadları da onlar arasında yer almışdır. Onlar tam şəkildə Avropanın iki rayonunda yayılmışdır: birinci Mərkəzi Avropanın şimal hissəsində – gələcəkdə qərb slavyanlarının meydana çıxdığı yerdə, ikincisi Orta Dnepr üzrə – bir əsrdən sonra şərq slavyanlarının əcdadlarının formalaşdığı və Rus dövlətinin meydana çıxdığı ərazidə.

B.e.ə. X-VII əsrlərdə slavyanların bu qolu bataqlıq və göl filizindən dəmir əritməyi bacarmışdır. Bu yerli məskunlara yeni əmək alətləri, silah hazırlamağa imkan vermişdir ki, onun sayəsində yerli sakinlərin məişəti dəyişmiş, təbiətin, əkinçilik və heyvandarlığın mənimsənilməsində tərəqqi qeyd edilmişdir. Bu həm də müdafiə və hücum müharibəsi aparmağa şərait yaratmışdır.

Bu zaman çərçivəsində şərqi slavyanlar və baltlar əvvəlki kimi bir-biri ilə yaxın olmuşdur. Yalnız əsrlərdən sonra onlar ayrılaraq bir-birini başa düşməmişdir. Şimali İran köçəri tayfaları ilə sıx əlaqə mövcud olmuşdur ki, sonradan kimmeri, skif və sarmat kimi tayfalar proslavyanların gələcək rəqibləri olmuşdur.

Rusiya ərazisində Hind-Avropa dil ailəsini təmsil edən xalqlarla bərabər fin-uqor dil qrupuna daxil olan udmurt, karel, mordva, mari və b. xalqlar da məskunlaşmışdır. Rusiya ərazisinin qədim sakinləri olan tatar, çuvaş, başkir, tuva və yakutlar türk dil ailəsinin nümayəndələri idi. Adıgey, kabardin-çərkəz, çeçen, inquş, avar və b. Qafqaz sakinləri Qafqaz dil ailəsini təmsil edirdi. Buryat və kalmıklar monqol, çukça və eskimoslar isə qədim Asiya dil qrupunun təmsilçiləri idi. Məlum olur ki, Rusiya ərazisində məskunlaşan xalqlar Hind-Avropa, uqro-fin, türk, iberi-qafqaz mədəni-tarixi dil icmalarını təmsil edirlər.

Müasir elmi araşdırmaya əsasən, hazırkı kosmik cismlər təqribən 20 milyard il bundan əvvəl, bizim fəzanın çoxsaylı ulduzlarından biri – Günəş isə 10 milyard il bundan əvvəl yaranmışdır. Günəş sisteminin planeti olan Yer kürəsi isə 4,6 milyard il yaşındadır. Elm adamları belə hesab edir ki, məhz 3 milyon il bundan əvvəl insan heyvanlar aləmindən ayrılmışdır.

Əmək alətlərinin hazırlanması texnikası və xammalının fərqliliyini əsas tutaraq arxeoloji təsnifat ibtidai icma quruluşu mərhələsində bəşəriyyətin keçdiyi yolu üç dövrə ayırmışdır: insanların meydana gəldiyi bizim eradan əvvəl IV-III minillikləri əhatə edən Daş dövrü, bizim eradan əvvəl IV-III minillikdən başlayraq bizim eradan əvvəl I minilliyin əvvəllərini əhatə edən Tunc dövrü və bizim eradan əvvəl I minillikdən başlayan Dəmir dövrü. Öz növbəsində Daş dövrü Qədim Daş (Paleolit), Orta Daş (Mezolit), Yeni Daş (Neolit) və Tunca keçid Mis-Daş (Eneolit) dövrünə ayrılmışdır.

Rusiya ərazisində müasirlərinə bənzər ilk insanlar təqribən 40 min il əvvəl meydana gəlmişdir. Avropa və Asiyanın çox hissəsini buzlar örtmüşdür. Ağır təbii şəraitdə ovçuluq və məhsul toplamaqla məşğul olan insanlar ağac, daş və sümük kimi ibtidai alətlərdən istifadə edirdilər. Sərt iqlim şəraiti insanları oddan istifadə edib onu qorumağa məcbur etmişdir. Dağ rayonlarında insanların ilk yaşayış yeri mağaralar olmuşdur. Təqribən 10 min il əvvəl buz dövrü başa çatmış, Rusiya ərazisində indikinə bənzər iqlim şəraiti bərqərar olmuşdur.

Tədricən ibtidai insanlar mal-qara saxlamağı və torpağı əkib becərməyi öyrəndilər. İlk zamanlar onlar yumşaq və rahat mis alətlərdən istifadə edərək tədricən tunc alətlər hazırlamağa başladılar. Nəhayət, adamlar dəmir alət və avadanlıqla tanış oldular. Bizim əsrdən əvvəl II minilliyin ortalarından başlayaraq Ural dağlarından Yeniseyə kimi uzanan Sibir çöllərində Andronov mədəniyyəti mövcud olmuşdur. Andronov mədəniyyəti təmsilçiləri öz torpaqlarından filiz çıxararaq metal silahlar, təsərrüfat alətləri, məişət əşyaları hazırlamağa başladılar. İbtidai şəraitdə ayrı-ayrı ailələr təbiət qüvvələri qarşısında icmalar şəklində birləşərək təsərrüfatı idarə etmək üçün bir-birinə kömək edirdilər. Belə qohumluq əlaqələri üzrə yaranmış icmalar zaman-zaman daha böyük tayfalar şəklində birləşdilər. Rusiyanın cənub çöllərində maldarlıq, meşə zonalarında əkinçilik, Sibir, Uzaq Şərq, şimalda ovçuluq və balıqçılıqla məşğul olan tayfalar meydana gəlmişdir. Sənətin yaranması ilə tayfalar arasında məhsul mübadiləsi başlandı. Beləliklə, tayfalarda əmlak sahibi olan üst təbəqə yarandı.

## §2. Qədim slavyanların sələfləri

Slavyanların ulu əcdadları Asiyanın dərinliklərindən hərəkət edən güclü Hind-Avropa köçəri tayfaları olan kimmerlərlə qarşı-qarşıya gəlmişdir. Şimali Qara dəniz sahilləri çöllərinə sahib olan kimmerlər slavyanların ulu əcdadlarını Şimal meşələrinə çəkilməyə məcbur etmişdir. Zaman-zaman Asiyanın dərinliklərindən cənubi Ural dağları və Xəzər dənizi keçidi ilə Şərqi Avropaya hücum edən köçəri tayfalar yerli əhalini soyub-talamaqla bərabər onları Şimala doğru qaçmağa sövq etmişdir.

Bizim eradan əvvəl VI əsrdən IV əsrə kimi şərq slavyanlarının əcdadları köçəri skif tayfalarının yeni hücumlarına uğramışdır. Kimmeri tayfalarını sıxışdıran skiflər Aşağı Volqaboyundan Dunayın mənsəbinə kimi olan ərazilərdə yerləşməklə slavyan və baltların təhlükəli qonşularına çevrildilər.

B.e.ə. VII-VI əsrlərdə Qara dənizin şimal sahillərində isə çoxsaylı yunan koloniyaları olan şəhər-dövlətlər (polis) meydana gəlmişdir. Nikolaev yaxınlığındakı Olviya, indiki Sevastopol ərazisindəki Xerson, Rostov-Don yaxınlığındakı Tanais, Pantikapey (Kerç) və b. belə şəhər-dövlətlər idi. Deməк olar ki, bütün şəhər-dövlətlər yunan həyat tərzini əks etdirən quldarlıq respublikaları idi. Yerli skiflərlə ticarət əlaqələri yaradan yunanlar onlardan çörək, balıq alaraq əvəzində parça, şərab, yağ, ziynət əşyaları satırdı.

Yunanlar Qara dənizi Pont Evksinsk (yəni, «Qonaqpərvər dəniz») adlandırmışdır. Azov dənizi Meotida, ona axan iri çayları isə Borisfen (Dnepr), Tanais (Don), Tiras (Dnestr), İstr (Dunay) adlanırdı. Krım yarımadası isə vaxtı ilə burada məskunlaşmış tavrov tayfalarının adı ilə Tavrida adlandırlmışdır. Yunan-skif əlaqələri nəticəsində b.e.ə. V-IV əsrlərdə mərkəzi Pantikarlu olmaqla ellin-skif Bosfor çarlığı yaranmışdır.

B.e.ə. III əsrdə köçəri sarmat tayfaları skifləri Qara dəniz çöllərindən Krıma doğru sıxışdırıb çıxardılar. Sarmatların sahib olduğu ərazilərin sərhədləri Karpat, Visla, Dunaydan başlayaraq Don, Volqa, Urala kimi uzanmışdır. Krıma çəkilən skiflər isə müasir Simferopolun yaxınlığında yerləşmiş Skif Neapolu mərkəz olmaqla Skif çarlığını qurdu. Müasir Rusiya ərazisində yaşayan osetinlərin dili skif və sarmat dilinə ən yaxın olanıdır.

Bizim eranın II-III əsrlərində Germanarixin başçılıq etdiyi alman qot tayfaları sarmatları məğlub edərək qonşu tayfaları, o cümlədən fin və slavyan tayfalarını da qotlara tabe etmişdir. Öz dövlətlərini quran qotlar maldarlıq, əkinçilik və sənətkarlıqla məşğul olurdu.

IV əsrin sonlarından Şərqdən hərəkət edən köçəri hun tayfaları alanları məğlub edib Qafqaza qovduqdan sonra Qara dəniz çöllərində hərəkət edərək Qot dövlətini dağıtdıqdan sonra qılınc və odla cənub slavyanlarının yaşayış məntəqələrinə daxil oldular. Slavyanlar növbəti dəfə həyatlarını xilas edərək məhsuldar cənubi Qara dəniz torpaqlarından gizlənmək üçün meşələrə qaçmağa məcbur oldu.

Ümumilikdə, bizim eranın IV-VII əsrləri tarixə «xalqların böyük köçü» kimi daxil olmuşdur. Xalqların böyük köçünün ən iri çoxsaylı hücumlarından biri olan hun işğalları Avrasiya çöllərində türk və monqol tayfalarının ağalığının başlanğıcı idi. Türk tayfaları olan hunlar Dunay çayı boyu bərəkətli torpaqları öz dövlətlərinin tərkibinə qataraq görkəmli sərkərdə Atillanın başçılığı altında romalıların işğal etdiyi ərazilərə hücum edərək bütün Avropanı qorxu altında saxlayırdılar. İstedadlı sərkərdə və diplomat olan Atillanın Qərbi Avropanı işğal etmək cəhdi 451-ci ildə Şimali Fransadakı Şampan əyalətinin Katalaun çölündə Roma ordusu ilə qarşı-qarşıya gətirdi. Avropanın bir çox

xalqlarının daxil olduğu Roma ordusu Atillanın çoxmillətli ordusunu məğlub etdikdən sonra hunlar Dunaya doğru geri çəkildi. Növbəti dəfə evlənərkən burnundan açılan qanın yuxuda boğazına axması ilə boğularaq vəfat edən Atillanın ölümündən sonra taxt-tac çəkişməsi Hun dövlətinin dağılmasına səbəb oldu.

VI əsrdə Şərqdən Qara dəniz sahillərinə türk dilində danışan türk, avar, bolqar, xəzər tayfalarının basqınları başladı. VI əsrdə Dunay çayı hövzəsində Avar xaqanlığı meydana gəldi ki, onlar da əsasən Bizans imperiyasına dağıdıcı yürüşlər təşkil edirdi. Slavyan torpaqları da avarların viranedici hücumlarına məruz qalmışdır. VIII əsrin sonlarında frankların hücumu ilə Avar xaqanlığı dağıdıldı. Avar xaqanlığından şərqə doğru isə köçərilərin Türk xaqanlığı mövcud idi. Mərkəzi Asiyanın böyük ərazilərini, Xəzəryanı və Azovyanı tayfaları birləşdirən bu dövlət daxili çəkişmələr nəticəsində VII əsrin ortalarında dağıldı. Bu çöl dövlətinin xarabalıqları yerində isə yeni Volqa Bulqarıstanı və Xəzər xaqanlığı kimi dövlətlər yarandı.

VII əsrin birinci yarısında köçəri bolqarlar Azov çöllərində mərkəzi Fanaqoriya olan Böyük Bolqar dövlətini yaratdı. Əvvəllər bir olan Bolqarıstan sonra iki yerə bölündü. Bolqarların bir hissəsi Dunay çayı boyunca Dunay Bolqarıstanı dövlətini yaratdı. Bolqarların başqa bir hissəsi şimala – Kama ilə Volqa arasındakı meşəlik ərazisində Volqa Bulqarıstanı dövlətini qurdu. Dunay Bolqarıstanının köçəri türk tayfaları yerli əkinçi slavyan tayfaları ilə qaynayıb qarışaraq, tədricən onların adət-ənənə və dilini mənimsəyərək vahid bolqar xalqını yaratdı. Volqa Bulqarları Dunaydakı qardaşlarından fərqli olaraq türk adət-ənənələrini və dillərini qoruyub saxladı. Volqa Bulqarıstanının X əsrin əvvəllərində Ərəb xilafəti ilə dostluq əlaqələrini qurması onların islamı qəbul etmələri ilə nəticələndi. Şəhərlərdə məscidlər inşa edildi, müsəlman din xadimləri – mollalar dini ayinləri yerinə yetirməyə başladı, ərəb yazısı geniş yayıldı. XIII əsrin əvvəllərində Volqa Bulqarıstanı monqollar tərəfindən dağıdıldı.

VII əsrin ortalarında Volqadan Dona kimi, Şimali Qafqaz və bütün Krımı birləşdirən Xəzər xaqanlığı yaranmışdır. Volqa ilə Xəzər dənizinə, Don çayı vasitəsi ilə Azov və Qara dənizə çıxış kimi vacib ticarət yollarına sahib olan Xəzər xaqanlığı Bizans, İran, Şərqin Ərəb ölkələri, Şimali Avropa ilə ticarət əlaqəsi saxlayırdı. Xəzər dövlətində türk, ərəb, slavyan, yəhudi və b. xalqların nümayəndələri yaşayırdı ki, onlar da müxtəlif dinlərə xidmət edirdi. VIII əsrdən mərkəzi İtil şəhəri olan xaqanlığın dövlət dini isə yəhudilik idi. Dövlət X əsrin ortalarına qədər yaşamışdır.

Bütün bu tayfa və xalqlar ucsuz-bucaqsız Şərqi Avropa düzənliyində slavyanların sələfləri olmaqla yanaşı, sonradan onlarla qonşu olaraq bir-birinə qarşılıqlı təsir göstərmişdir.

## §3. Şərq slavyanları qədim zamanlarda

Ümumilikdə, slavyanların mənşəyi və yayılması problemi bu gün də müzakirə olunmaqdadır. Kiyev-Peçersk məbədinin keşişi Nestorun qələmə aldığı qədim rus yazılı abidəsi olan «Ötən illərin dastanı» salnaməsində müəllif slavyanların yuxarı Dunay və Drava çayları arasındakı ərazidə yerləşdirmişdir. Buradan romalılar tərəfindən sıxışdırılan slavyanlar yeni Visla və Dnepr çayları ərazisində məskunlaşmışdır. Qədim Roma tarixçisi Tatsitə əsaslanan rus tarixçisi S.M.Solovyov slavyanların ana yurdunun «Dunay» variantını müdafiə etmişdir. S.M.Solovyovun şagirdi tarixçi V.O.Klyuçevski də «Dunay» variantını qəbul etməklə bərabər qeyd etmişdir ki, şərq slavyanları Dunaydan Dneprə yayılmadan təqribən 500 il Karpat dağlarının ətəklərində olmuşlar. Klyuçevskiyə görə, yalnız VII əsrdən başlayaraq şərq slavyanları tədricən müasir Rusiya düzənliyində məskunlaşmışdır.

Müasir ədəbiyyatda slavyanların etnik icma şəklində yerləşmələri ilə bağlı iki yayılmış nöqteyi-nəzər var. Birinci belə baxış Oder-Visla nəzəriyyəsi olub, slavyanların Oder və Visla çayları arasındakı ərazilərdə məskunlaşmasından, digər ideya onların Oderlə Orta Dnepr arasındakı ərazilərdə məskunlaşmasından bəhs edən Oder-Dnepr nəzəriyyəsidir. Slavyanların Hind-Avropa icmalarından ayrılması prosesi isə onların torpaqların əkilməsinə keçməsi ilə birbaşa bağlıdır.

Hunların dövləti yıxıldıqdan sonra Dunay və Dnepr sahillərində, Pripyat, Desna və Yuxarı Oka çayları boyu meşə talalarında əhali yenidən məskunlaşmağa başlamışdır. Bu alimlərin qeyd etdiyi kimi, əsl demoqrafik partlayış olub slavyan əhalisinin sürətlə və böyük miqyasda artaraq Şərqi Avropanın geniş ərazilərinə yayılması demək idi. Bu bizim eranın V-VI əsrlərində baş vermişdir. Slavyan əhalisi, xüsusilə hun atlılarının çata bilmədiyi Karpat ətrafında, Mərkəzi və Şimali Avropanın ərazilərində artmışdır. Slavyanlar arasında güclü köç prosesi baş verirdi. Şimal-şərq meşələrində gizlənmiş əhali cənuba, özlərinin qədim məskənləri olan Orta Dnepr boyuna, Dnestr və Buq çayları hövzələrinə qayıtmağa başlamışdır. Vislaboyundan və Karpatdan slavyanlar Dunayboyu torpaqlara hərəkət etdi ki, V əsrdən bu yerlərin əhalisi öz tərkibinə görə slavyanlardan ibarət olmuşdur. Slavyanlar almanların tərk etdiyi ərazilərdə yerləşərək Qərbdə Elba çayına kimi və Orta Dnepr boyundan şərqə doğru hərəkət etmişdir.

Eyni zamanda slavyanlar arasında cəmiyyətin sosial tərkibinin dəyişilməsi ilə bağlı tayfa başçısı və ağsaqqalların rolu artmış, onların ətrafında döyüş drujinaları meydana gəlmiş, cəmiyyət varlılara və yoxsullara bölünməyə başlamışdır. Dnepr və Dunayboyu əhalisi Balkanlar və yunan şəhərləri ilə ticarəti bərpa etməyə başlamışdır.

V əsrdən başlayaraq əvvəllər skif, sarmat, hun tayfalarının ağalıq etdiyi Dnepr və Dnestr hövzələrində şərqi slavyan tayfalarının «antlar» yəni, İran dilində «ucqar sakin» («жители окраин») adlanan hissəsi möhkəmlənmişdir. Məhz qədim şərq slavyanları – antlar Rusiyanın cənub-şərqində yaşayan İran tayfaları ilə müqayisədə bu cür idi. Bunların slavyan olduğunu qədim yunan müəllifləri də təsdiq edir. Onlar göstərir ki, V-VI əsrlərdə Avropanın cənub şərq hissəsində iki böyük slavyan tayfa təsisatı əmələ gəlmişdir. Bunlardan biri sklavin və ya slavyan tayfa ittifaqı, ikincisi onlara qohum ant ittifaqı idi. Sklavinlərin tayfa ittifaqı Balkan yarımadasının şimal hissəsində, antlar isə aşağı Dunaydan Azov dənizinə olan ərazilərdə məskunlaşmışdır.

Mənimsədikləri ərazilərdə möhkəmlənmiş antlar V əsrdən başlayaraq Dunay üzrə hərəkət edib Balkan yarımadasına, Bizans imperiyasının sərhədlərinə yayılaraq, hətta Balkan slavyanları ilə düşmənçilik belə etmişdir. Bizans isə onları bir-birinə qarşı qoymağa çalışırdı.

Bu onillik ərzində uzun təhlükəli yürüşlərə çıxan slavyanlar güclü hərbi ittifaqlar yaradır, tayfa drujinalarını birləşdirir, çay və kiçik dəniz donanmaları təşkil edərək uzaq məsafələrə çay və dənizlərlə hərəkət etməyə çalışırdılar. Onlar daim Dunayı keçərək Bizans şəhərlərini işğal edir, əhalini əsir götürüb təzminat tələb edirdi. Slavyan dəstələri hətta Aralıq dənizi sahillərinə belə çatırdı. Mahiyyət etibarilə Qərbdə almanların etdiyi kimi şərq slavyanları Balkanlardakı Bizans imperiyasının ərazilərini müstəmləkələşdirməyə başlamışdır. Antların hücumunun qarşısını kəsmək məqsədilə Bizans imperatorları Dunay boyu bir sıra qalalar inşa etdirmişdir. Slavyanların hücumlarının qarşısını kəsə bilməyən Bizans hakimiyyəti onları bahalı hədiyyələr, qızıl, qiymətli parça, qablarla ələ almağa çalışaraq bəzi sərhəd ərazilərini güzəştə gedir, slavyan başçılarını xidmətə qəbul edirdi.

Yalnız cənuba deyil, slavyan drujinaları Balkanlara can atırdı. Baltik dənizindən Karpata kimi Mərkəzi və Şərqi Avropanın geniş ərazilərində yaşayan slavyan əhalisinin böyük kütləsi müstəmlələləşdirmə yürüşünə cəlb olunmuşdur.

Baltik hövzəsindən slavyan tayfalarının bir hissəsi Avropanın dərinliyinə çəkilmiş almanların yerinə qərbə doğru genişlənmişdir. Onların digər hissəsi şərqə – İlmen gölü sahillərinə doğru irəliləmişdir. Burada Baltik sahillərindən şərq və cənuba doğru uzanmış qədim ticarət yolunun kəsişməsində iki slavyan köç axını qarşılaşmışdır. Onlardan biri qərbdən olan slavyan kolonistləri, ikincisi cənubdan olan və zaman-zaman köçərilərin basqınları sayəsində şimala çəkilmiş mühacirlər idi.

İlmen ətrafında güclü slavyan mərkəzi belə formalaşmışdır ki, bu da sonradan Novqorod slovenləri adını almışdır. Mahiyyət etibarilə V-VI əsrlərdə

bütün Şərqi Avropa vasitəsilə bu ərazilərdə yaşamış bütün slavyanları əhatə edən möhkəm xətt uzanmışdır. Köç prosesi slavyan tayfa ittifaqını formalaşdırmış vasitələrdən olmuşdur.

I-II əsrlərdəki antik, VI-VII əsrlərdəki Bizans müəllifləri slavyanları vened, ant, sklavin adları ilə qeyd etmişlər. VI əsrdə slavyanlar sloven adı ilə dünyadakı köç prosesinə qoşuldu. VI-VII əsrlərdə slavyanlar üç əsas istiqamətdə, cənuba – Balkan yarımadasına, qərbə – Orta Dunay, Oder və Elba çayları arasındakı ərazilərə, Şərq və Şimal Şərqi Avropa düzənliyinə yayılmışdır. Bununla eyni vaxtda slayanların üç – cənub, qərb və şərq qollarına ayrılması baş vermişdir. Slavyanların geniş ərazilərə yayılması «xalqların böyük köçü»nün birbaşa nəticəsidir.

Məhz qədim rus torpaqlarında məskunlaşan slavyanlar müasir rus, Ukrayna, belorus xalqlarının ümumi vətəni olmuşdur. Şərqi slavyan tayfalarının yerləşdiyi ərazilər şimalda Neva çayı və Ladoqa gölünə, cənubda Dneprin orta axarlarına, qərbdə Karpat dağlarına, şərqdə Oka çayı sahillərinin sıx meşələrinə kimi uzanmışdır. Slavyanlar məskunlaşdığı yeni ərazilərdə fin-uqor, balt xalqları ilə qonşu oldu. Bunlar müasir karel, mari, mordva, komi, veps xalqlarının əcdadları çud, merya, ves, korel, murom tayfaları idi. Müasir estonlar qədim findilli əhalinin, litva və latışlar isə baltların davamçılarıdır.

Şərq slavyanlarının yeni ərazilərdə yerləşməsi ilə onlar arasında ayrı-ayrı qruplar tayfalar halında birləşdi. Bu qohumluq əlaqələrinə əsaslanan birlik olmayıb müəyyən ərazilərə sahib olan dövlətöncəsi birliklər idi. Rusiya ərazisində 12 tayfa, o cümlədən polyan, drevlyan, volınyan, dreqoviç, severyan, xorvat, tiverli, uliç, rodimiç, kriviç, vyatiç və slovenlər məlum idi. Əsasən əkinçiliklə məşğul olan slavyanlar buğda, arpa, yarma, darı becərirdi. İnək, donuz, keçi qoyun və at saxlayan slavyanlar ovçuluq və balıqçılıqla da məşğul olurdu. Meşələrdən giləmeyvə, göbələk, bal toplanırdı.

Şərq slavyanları təbiət qüvvələrini ilahiləşdirərək ayrı-ayrı ilahi bütlərə səcdə edirdi. Başqa sözlə, şərq slavyanları bütpərəst idi. Onların baş allahı Perun ildırım və fırtına, Dajboq günəş, Striboq külək, Svaroq odu təmsil edirdi. Slavyanlar ağac və daşdan öz inandıqları Allahların fiqurlarını – idollarını hazırlayır və çətin anlarda onlara müraciət edirdilər. Yeraltı dünyanın varlığına inanan slavyanlar ölən adamın qəbrinə yemək və su ilə dolu qab-qacaq, döyüşçülərə silah qoyurdu. Bəzən ölən adamın arvadını da onunla birlikdə dəfn edirdilər.

Slavyanların adətləri təbiətlə sıx bağlı olmuşdur. Məsələn, yazda slavyanlar qışı yola salaraq Maslenits bayramını qeyd edirdilər. Yayda ilin ən uzun günündə gənclər şənlənərək yanan tonqalların üzərindən atlayır, qızlar çələng toxuyaraq onu suya atırdılar.

# II FƏSİL
# RUS IX-XII ƏSRLƏRDƏ

## §1. Şərqi slavyanlarında dövlətin meydana çıxması

VIII əsrə doğru «rus» termini şərqi slavyanlara aid edilmişdir. Uzun illər «rus» sözü ilə bağlı fikirlər onun xarici (norman) və yaxud avtoxton (slavyan) kökdən gəlməsi ilə parçalanmışdır. Xarici tarixşünaslığı təmsil edən R.Payps və H.Devidson belə hesab edirlər ki, əfsanəvi Ryurik Skandinav rus tayfasından olmuşdur. Qeyd etmək lazımdır ki, Skandinaviyada belə bir tayfa adı yoxdur. Akademik B.A.Rıbakov belə hesab edir ki, çox güman rus slavyan tayfalarından birinin adıdır. Bəzi tarixçilər isə «rus» sözünün slavyan icmalarının mövcud olduğu rayondakı Ros çayı ilə bağlı olduğunu qeyd edir. Vaxtı ilə görkəmli rus tarixçisi V.O.Klyuçevskinin də qeyd etdiyi kimi bugün də «rus» termininin tarixi və etimoloji kökü aydınlaşdırılmamışdır.

«Rus» termini ilk dəfə məhz V-VII əsrlərdə ant, slavyan, venedlər haqqında məlumatlarla, eyni zamanda qeyd olunmuşdur. Dnepr və Dnestr çayları arasında yaşayan tayfalardan bəhs edən yunanlar onları ant, skif, sarmatlar, qot tarixçiləri rosomanam (yəni, rusımi – açıqrəngli), ərəblər rusyu kimi qeyd etmişlər. IX əsrdə «rus» adı Bizans, Qərb və Şərq müəlliflərinin əsərlərində təkrarlanmışdır. 839-cu ildəki latın salnaməsində Frank imperatorunun sarayına baş çəkən səfirlər onları «ros» adlanan xalqın göndərdiyini dilə gətirmişdir.

«Ötən illərin dastanı» salnaməsində qeyd olunduğu kimi, polyak tayfasının yaşadığı ərazinin adı «rus» idi. Tarixçilər belə iddia edir ki, bu Ros çayı boyunca yaşamış tayfa ittifaqından birinin adıdır ki, polyaklar da rus adını məhz buradan əxz etmişdir. Beləliklə, «rus» adı şərqi slavyanların yaşadığı cənub torpaqlarında tədricən yerli tayfa adlarını sıxışdıraraq önə çıxmışdır. Şimalda yaranmış «rus» adını isə varyaqlar gətirmişdir. Ümumilikdə, isə «rus» termininin mənşəyi bu gün də tam aydın deyildir.

Şərqi slavyanlarda dövlətin yaranması mürəkkəb və uzun bir prosesi əhatə edir. Məlum olduğu kimi, slavyan tayfalarının başında daxili və xarici nizamı qoruyub saxlamaq məqsədilə başçı vəzifəsini yerinə yetirən knyaz dururdu. Bu vəzifələri yerinə yetirmək üçün knyaz silahlı dəstə – drujina toplayırdı. Tayfa üçün önəmli məsələlərin həllində seçilmiş adamların və bütün döyüşçü kişilərin iştirak etdiyi yığıncaqlar mühüm rol oynayırdı. Belə idarəetmə sistemi sonradan Rus dövlətinin əsasını təşkil etmişdir.

Şərqi slavyanlarda dövlətin bərqərar olmasında onların yaşadığı ərazilərdə Bizansla, Baltik dənizi sahilləri, ərəb Şərqi və latın Qərbi ilə ticarət yollarının mövcud olması vacib amil olmuşdur. Eyni zamanda, ticarət münasibətlərinin inkişafında sahillərində hakimiyyət mərkəzlərinin simvolu olan şəhərlər salınmış Dnepr, Desna, Volqa, Volxov və b. çaylar da əhəmiyyətli rol oynamışdır. Ticarət yolları şərqi slavyanların müxtəlif qruplarının birləşməsində əsas amillərdəndir.

Şərqi slavyanların ərazisindəki birinci dövlətin adı «Rus» olmuşdur. Onun paytaxtı Kiyevin adı ilə alimlər dövləti Kiyev Rusu adlandırmışlar. Dövlət öz adından Kiyev Rusu kimi yox, sadəcə olaraq «Rus» və ya «Rus torpağı» kimi bəhs etmişdir. İllər keçdikcə «Rus» adı Baltik və Qara dəniz arasındakı böyük ərazidə, Oka-Volqa çayları ərazisində və Polşa sərhədlərinə kimi olan torpaqlarda cəmləşmiş tayfaların ümumi adı qəbul edilmişdir.

VIII-IX əsrin birinci yarısında şərqi slavyanlarda tarixçilərin «hərbi demokratiya» («военная демократия») adlandırdığı ictimai quruluş bərqərar olmuşdur. Bu bütün icma üzvlərinin bərabər olduğu ibtidai icma quruluşundan fərqli olaraq özünün tayfa yığıncağı, xalq tərəfindən seçilən başçısı, xalq tayfa qoşunu olan bir təsisat idi. Təbii ki, bu təsisat mərkəzi hakimiyyəti olan, ölkənin bütün ərazisini birləşdirən, təəbələri özünə tabe edən, onların cəmiyyətdə maddi və hüquqi vəziyyətinə görə siyasi rolunu fərqləndirən dövlət deyildi.

Tayfaya, sonra tayfa ittifaqına başçılıq edərək yaxın və uzaq qonşulara basqın təşkil edən başçılar getdikcə daha çox sərvət ələ keçirirdilər. Əvvəllər uzaqgörənlik və ədalətinə əsasən seçilmiş tayfa başçıları tayfa knyazlarına çevrildi ki, onların da tayfa və tayfa ittifaqlarını idarə etmək sahəsində əllərində çox böyük səlahiyyət cəmləşmişdi. Onlar öz sərvəti və tərəfdarlarından ibarət hərbi dəstənin sayəsində cəmiyyət üzərində yüksəlmişdir. Şərqi slavyanlarda knyazla bərabər tayfa ordusunun başçısı voyevoda da fərqlənmişdir. Tayfa qoşunlarından ayrılmış drujinalar da knyaza sədaqəti ilə seçilərək müstəqil dəstə təşkil etmişdir. Bu adamlar əkinçilik, maldarlıq və ticarətlə məşğul olmayıb, yalnız müharibə peşəsinə sahib idilər. «Yeniyetmə oğlanlar» («Отроки») adlandırılmış drujina üçün tayfa ittifaqının gücü durmadan artdığına görə müharibə daimi məşğuliyyətə çevrilmişdi. Onların bəzən yaralanma və hətta həyatları hesabına əldə etdikləri qənimət əkinçi, maldar və ovçunun əməyindən daha yüksək dəyərə malik idi. Bu adamlar cəmiyyətin xüsusi, üstün hüquqlu təbəqəsinə çevrilirdi. Zamanla adlı-sanlı ailə başçıları tayfa içərisində xüsusi yerə malik olmuşdur. Hərbi şücaət və mərdlik nümayiş etdirmiş tayfa əyanları da fərqlənməyə başlamışdır. Bütün bu demokratiya dövlətin yaranma mərhələsində hərbi xüsusiyyət kəsb etmişdir.

Keçid cəmiyyətinin bütün quruluşu boyu hərbi ruh davam etmişdir. Kobud güc, qılınc birilərinin fərqlənməsinə, digərlərinin alçalmasına səbəb olmuşdur. Lakin köhnə quruluşun ənənəsi davam etmişdir. Tayfa yığıncağı – veçe fəaliyyət göstərmişdir. Xalqın seçdiyi knyaz və voyevodalar hakimiyyətin irsən keçici olmasını düşünməyə başlamışdır. Zamanla seçkilərin özü belə knyaz, voyevoda və əyanların təşkil etdiyi tamaşaya çevrilmişdir. İdarəçilik, hərbi güc və təcrübə onların əlində toplanmışdır.

Xalq özü tam olmaqdan çıxmışdı. Tayfanın əsas hissəsini adamlar («люди») təşkil edirdi ki, bu da azad adam mənasını verir. Şərqi slavyanlarda bu mənada «smerd» adı işlənmişdir. «Adam» və «smerd» arasında «voi»lər ayrılmışdır ki, onlar da orduda və xalq yığıncağı, veçedə iştirak etmək hüququ və vəzifəsinə sahib olmuşdur. Veçe uzun illər tayfa özünüidarəsinin və məhkəməsinin ali orqanı olmuşdur. Zənginlik hələ bərabərsizliyin əsas əlaməti deyildi, təsərrüfatda əsas rola sahib olan daha güclü və təcrübəlilər bu baxımdan önə çıxmışdır. Ağır əl əməyinin üstünlük təşkil etdiyi cəmiyyətdə belə adamlar kişilər, patriarxal ailələrin böyük əksəriyyətinin başçıları idi ki, «kişi» («мужи») adlanmış bu adamlar cəmiyyətin yuxarı pilləsində dayanmışdır. Qadınlar, uşaqlar, digər ailə üzvləri, «rəiyyət» («челядь») kişilərə tabe idi. Məhz bu zaman ailələrdə xidmət edən «qulluqçu» («слуга») meydana çıxmışdır. Ailə bağları olmayan «yetim», «xolop», eyni zamanda qonşu tayfaların son dərəcə miskin, kasıb hissəsi cəmiyyətin aşağı hissəsini təşkil etmişdir. Sosial pillənin ən aşağısında məcburi əməklə məşğul olmuş «qullar» yerləşmişdi. Bizans müəlliflərinin məlumatına əsasən slavyanlar müəyyən vaxt keçdikdən sonra onları azadlığa buraxırdı, lakin belə adamlar tayfa içərisində yaşamaqda davam etmişdir. Beləliklə, «hərbi demokratiya» dövründəki tayfa həyatının quruluşu mürəkkəb, şaxələnmiş olaraq qalmışdır və buradakı sosial fərqlilik dəqiq nəzərə çarpmışdır.

VIII əsrin sonu – IX əsrin əvvəllərində şərqi slavyan torpaqlarını əhatə edən iqtisadi və sosial proseslər müxtəlif tayfa ittifaqlarının güclü tayfalararası qruplarda birləşməsinə şərait yaratmışdır. Eyni zamanda, torpaqların tam halda birləşməsinə yardım etmiş ticarət əlaqələrinin inkişafı, slavyanların böyük əksəriyyətinin bu zaman eyni bütpərəstliyə sitayiş etməklə ifadə olunan dini birliyi, xarici düşmənlərdən müdafiə olunmaq və uzaq işğalçılıq yürüşləri təşkil etmək məqsədilə birləşməsi burada əhəmiyyətli rol oynamışdır.

Belə bir öz ətrafına cəlbetmə və birləşmənin mərkəzi Kiyev başda olmaqla Orta Dnepr və şimal-qərb rayonunda İlmen gölü ətrafında, Dneprin yuxarıları, Volxov sahilləri, yəni, «varyaqdan yunana» («из варяг в греки») uzanan yolun əsas dayanacaqlarının yaxınlığı olmuşdur.

Digər tayfa ittifaqları arasında birinci olaraq polyanlarda dövlətin əlamətləri meydana çıxmışdır. Bu diyarın daha tez iqtisadi, siyasi və sosial inkişafı ilə bağlıdır. Polyan tayfa başçıları, sonra Kiyev knyazları bütün Dnepr magistralının açarını əllərində möhkəm saxlayaraq, Kiyevi təbii meşəliklə xarici köçərilərin basqınlarından qoruyan möhkəmləndirilmiş sənət və ticarət mərkəzinə çevirmişdir. Başqa slavyan ərazilərindən fərqli olaraq burada daha əvvəl knyaz hakimiyyəti və hərbi drujina bərqərar olmuşdur. VIII-IX əsrlərin hüdudunda orta Dneprdə «Rus» adını almış dövlət təşəkkül tapmışdır. Bizans, alman, ərəb müəllifləri onu məhz belə adlandırmışdır.

Bu dövrdə rus döyüşçülərinin Bizansın Krım mülklərinə hücumu başlamışdır. Onlar sürətli, böyük qayıqlarla çaylar, Qara, Azov, Xəzər dənizləri ilə hərəkət edərək uzaq məsafələrdə qənimət məqsədilə basqınlar təşkil edirdilər. Krımın cənub sərhədlərində rus döyüşçüləri Suraj (Sudak) şəhərini işğal edib soydular. Bir neçə ildən sonra döyüşkən ruslar zəngin Bizans limanı Kiçik Asiyada yerləşmiş Amastridanı – o vaxtki «Bağdad»ı işğal etdilər. Sonra yerli əhali ilə sülh bağlayaraq oranı tərk etdilər. Hər iki yürüş onu sübut edir ki, Orta Dneprdə özünün əsas hərbi-strateji məqsədi olan güclü yeni dövlət yaranmışdır. Əsas vəzifə bütün Dnepr axını boyu əraziləri mənimsəyərək Krımdakı Bizans koloniyalarına Qara dəniz sahilləri boyu (hansı ki, IX əsrdən Rus dənizi adlandırırdılar) hərəkət etməkdən ibarət olmuşdur. Tez-tez rus drujinaları Şimali Qara dənizdən Azov ətrafına keçərək, aşağı Volqa vasitəsilə Şimali Qafqaz və Cənubi Qafqaza doğru hərəkət etmişdir.

İkinci istiqamətin məqsədi Qara dənizin Qərb sahillərini ələ keçirib Dunayın mənsəbinə doğru irəliləyib Konstantinopola hücum etmək olmuşdur. 860-cı ildə Konstantinopol rus qoşunlarının qəfil hücumuna məruz qalmışdır. İmperator donanması ilə birlikdə hərbi yürüşdə olduğu bir vaxtda ruslar hücum etsə də, şəhərin qala divarlarını keçə bilməyərək danışıqlara başladılar. Külli miqdarda təzminat, hər il pul ödənişi vədi, Bizans bazarında ruslara maneəsiz ticarət etmək hüququ müqabilində ruslar şəhərin mühasirəsindən əl çəkdi. Rus ilə Bizans arasında sülh bağlanması diplomatik münasibətlərin əsasını qoymuşdur. Rus knyazı və Bizans imperatoru şəxsən görüşərək sülhün şərtlərini təsdiq etmişdir.

Bundan bir az sonra rus döyüşçüləri Xəzərin cənub sahillərində meydana çıxmışdır. Bu yürüş Dnepr–Qara və Azov dənizləri–Volqa–Xəzər dənizi yolu ilə başlamış və sonra işlək bir marşruta çevrilmişdir.

## §2. Norman nəzəriyyəsi

IX-XII əsrlərdə Qərbi Avropanın böyük çay hövzələrinin sahilləri vikinqlər tərəfindən dağıdıcı hücumlara uğramışdır. Avropa mədəniyyəti dairəsinə daxil olan vikinqlər 911-ci ildə Şimali Fransada, 1030-cu ildə Cənubi İtaliyada ilk Norman dövlətlərini qurdu. Əsas məşğuliyyətləri ticarət və qənimət əldə etmək üçün soyğunçuluq olan norman tayfaları Şərqi Avropaya, əsas ticarət yolları olan Volqa və Dneprə üz tutdular ki, burada da onlar şərqi slavyanlarla qarşılaşdı.

«Ötən illərin dastanı» qədim rus salnaməsinin xəbər verdiyi kimi, 862-ci ildə beş, o cümlədən iki slavyan (ilmen slovenləri və kriviçlər) və üç fin-uqor (çud, ves, merya) tayfa ittifaqının dəvəti ilə Cənubi Baltikyanı ərazilərdən varyaq-rus knyazlıq sülaləsinin əsasını qoyan üç qardaş – Ryurik, Sineus və Truvor öz drujinası ilə gəlmişdir. Ryurik Ladoqada, sonra Novqorodda, Sineus Beloozeroda, Truvor İzborskdə knyazlıq etmişdir. Sineus və Truvor öldükdən sonra Ryurik təkbaşına knyazlıq etmişdir. Qeyd etmək lazımdır ki, salnamədə şərh edilən hadisə və faktlarda çoxsaylı qarışıq və ziddiyyətli fikir, qiymət və əfsanəyə rast gəlirik.

Salnamədə belə rəvayət edilir ki, Ryurikin iki voyevodası Askold və Dir knyazdan öz drujinaları ilə Trasqrada (Konstantinopol) yürüşə çıxmaq məqsədilə razılıq alır. Dnepr boyu hərəkət edən Askold və Dir Kiyevdə dayanaraq knyazlıq etməyə başlayır. 879-cu ildə Ryurik öldükdən sonra Novqorodda onun əqrəbası Oleq knyazlıq edir. 882-ci ildə Oleq salnamənin Ryurikin oğlu elan etdiyi İqoru yanına alaraq cənub şəhərləri olan Smolensk, Lyubeçi fəth etdikdən sonra Kiyevi ələ keçirərək Askold və Diri öldürür. Beləliklə, Oleq şimal-qərbi və cənub slavyan torpaqlarını öz hakimiyyəti altında birləşdirərək ərazini vahid Rus torpaqlığı, Kiyevi isə dövlətin paytaxtı elan etmişdir. Məhz salnamədə fərz edilən slavyanlar arasında knyazlıq edən ruslardan slavyan torpaqları Rusiya torpaqları və yaxud Rus adlanmışdır. Sonradan, artıq elmi ədəbiyyatda IX əsrin sonlarından şərqi slavyan torpaqlarında meydana çıxan dövlət Kiyev Rusu və yaxud Qədim Rus kimi tanınmışdır.

Tarix elmində bu gün də rus və varyaqların kim olması müzakirəsi davam edir. Məsələnin mahiyyəti ondan ibarətdir ki, qədim tarixi mənbələr rus və varyaqların haqqında ziddiyyətli məlumatlar vermişdir.

Məsələn, «Ötən illərin dastanı»nda varyaqların mənşəyi ilə bağlı üç müxtəlif rəvayət irəli sürülmüşdür. Birinci rəvayətə əsasən, varyaqlar Yutlandiyadan Volqa Bulqarıstanına kimi olan Volqa–Baltik yolunda əmələ gələn dövlət-ərazi təsisatının başçıları idi. İkinci rəvayətə əsasən, varyaqlar almanlardan

fərqli olaraq ayrıca etnos olmuşdur. Üçüncü, sonrakı rəvayətə əsasən, varyaqlar Baltikyanı regionun qərb torpaqlarının müxtəlif etnoslarını, o cümlədən skandinavları əhatə edən xalq idi.

«Rus» termininin mənşəyi ilə bağlı ziddiyyətli rəvayətlərdən yuxarıda bəhs edildiyi üçün onu təkrar etməyə ehtiyac yoxdur.

XVII əsrin əvvəllərində isveç alimi P.Petrey yeni bir iddia ilə çıxış edərək rus və varyaqların isveçli olduqlarını qeyd etmişdir. XVIII əsrdə Peterburq Elmlər Akademiyasında xidmət edən alman tarixçi alimləri Q.Z.Bayer, Q.F.Miller və A.L.Şletser belə bir fikir səsləndirmişdir ki, rus və varyaqlar norman (yəni, alman-skandinav) tayfası olub, slavyan xalqına dövlətçilik gətirmişdir. Beləliklə, rusların mənşəyi ilə bağlı norman nəzəriyyəsi (normanizm) meydana çıxmışdır.

1749-cu il sentyabr 6-da Peterburq Elmlər Akademiyasının yığıncağında akademik Qerxard Miller «Rus xalqı adının mənşəyi» haqqında latın dilində söylədiyi məruzə auditoriyadakıların milli hissiyyatına toxunmuşdur. Birinci olaraq astronom Nikita Popov müəllifi dayandıraraq, məruzənin elm üçün biabırçılıq olduğunu söyləmişdir.

Məruzənin mahiyyəti ondan ibarət idi ki, qədim rus salnaməsini oxuyan alman alimi belə bir nəticəyə gəlmişdir ki, Kiyev Rus dövlətinin əsasını salnaməçi Nestorun «varyaqlar» adlandırdığı normanlar qoymuşdur.

Akademiyanın iclasında baş vermiş hadisəni araşdırmaq məqsədilə görkəmli rus fiziki, kimyaçı, mineroloq, astronom, tarixçi və şair Mixail Vasilyeviç Lomonosovun (1711-1765) baş rol oynadığı komissiya təşkil olundu. M.V.Lomonosovun rəyinə əsasən, tarixçi alman aliminin «Rus xalqı adının mənşəyi» haqqındakı işi ziyankar və təhlükəli təbliğatdır. M.V.Lomonosovun yazdığı «Rus xalqından başlayaraq Böyük Knyaz Birinci Yaroslav və 1054-cü ilə kimi Qədim Rus Tarixi» əsərində rus xalqının və onun dövlət quruluşunun qədimliyi və avtoxton olması nəzəriyyəsini müdafiə etmişdir. M.V.Lomonosova görə, varyaq-ruslar şərqi slavyanların yaşadığı ərazilərə cənub Baltikyanı sahillərdən gəlmişlər və özləri də artıq bu zaman slavyanlar olaraq slavyan dilində danışırdılar. Bu iddianın tərəfdarları isə tarix elmində antinormanizm nəzəriyyəsinin əsasını qoydu. O vaxtdan başlayaraq vətən və xarici tarixi ədəbiyyatda rus xalqının və dövlətinin mənşəyi məsələsi yeni faktlar və fikirlər işığında daim müzakirə obyekti olmuşdur. Qeyd etmək vacibdir ki, tarix elmi məsələ ilə bağlı axtarışlarını davam etməkdədir.

## §3. Kiyev knyazları

Knyaz Oleqdən (879-912) sonra Kiyev taxına əvvəl knyaz İqor (912-945), onun öldürülməsindən sonra dul qalmış arvadı Olqa (945-957) oturmuşdur. Knyaginya Olqa dövləti yalnız oğlu Svyatoslav İqoroviç (957-972) həddibüluğa çatana kimi idarə etmişdir. Ryurikin nəslindən olan Ryurikoviçlər sülaləsi XVI əsrin sonlarına kimi, yəni 7,5 yüz il Rusiyanı idarə etmişdir.

Tarixçilərin böyük əksəriyyəti Kiyev Rusunun tarixini xronoloji cəhətdən şərti olaraq üç dövrə bölmüşdür. Birinci IX əsrdən X əsrin ortalarına kimi davam etmiş birinci Kiyev knyazları, ikinci X əsrin ikinci yarısından XI əsrin birinci yarısına kimi davam etmiş I Vladimir və Yaroslav Mudrının Kiyev dövlətinin çiçəklənməsi, üçüncü XI əsrin ikinci yarısından XII əsrin əvvəllərinə kimi davam etmiş feodal dağınıqlığına keçid dövrü.

Kiyev Rusunun ticarət tərəfdaşı qüdrətli Bizans imperiyası idi. Kiyev knyazları dəfələrlə cənub qonşularına yürüşlər təşkil etmişdir. Hələ 860-cı ildə Kiyevdə knyazlıq edən Askold və Dir Bizansa yürüş təşkil etmişdir. 911-ci ildə knyaz Oleq öz qoşunu ilə Konstantinopolun (Tsarqrad) divarına dayanmışdır. Yürüş nəticəsində salnaməçinin verdiyi məlumata əsasən, yunanlarla rus və yunan dillərində olmaqla iki nüsxədən ibarət müqavilə bağlanmışdır. Bu isə rus yazı sənətinin xristianlığın qəbulundan çox əvvəl yarandığını göstərir. Müqaviləyə əsasən, rus tacirləri bir ay ərzində yunanların hesabına Konstantinopolda yaşamaq hüququna sahib idi, yalnız şəhərdə silahsız gəzə bilərdilər. Bir şərtlə ki, tacirlər öz səfərləri haqqında qabaqcadan Bizans imperatorunu xəbərdar etməli və özləri ilə yazılı sənəd daşımalı idi. Oleqin knyazlığı dövründə bağlanmış bu müqavilə Rusda yığılan malların daşınıb Bizans bazarlarında satılmasına imkan yaradırdı.

Məhz Oleqin knyazlığı zamanı drevlyan, severyan və rodimiç tayfaları Kiyev dövlətinə qatılaraq ona xərac verməyə başladı.

İqorun knyazlığı zamanı 944-cü ildə Bizansla daha az güzəştli şərtlərlə müqavilə yenilənmişdir. Salnaməçi belə rəvayət edir ki, işğal edilən torpaqlardan xəracı varyaq Sveneld toplayırdı. Onun hədsiz varlanması knyaz İqorun drujinasını qıcıqlandırmışdır. Odur ki, onlar knyazı xərac toplamağa yönəlt- mişdirlər. Topladığı yükü Kiyevə yola salan İqor daha çox xərac əldə etmək məqsədi ilə kiçik bir dəstə ilə yenidən drevlyanların torpağına gəlib əlavə xərac tələb etmişdir.

Veçeyə toplaşan drevlyanlar qərara aldılar ki, xərac verməsinlər. Onlar Veçədə çıxan qərara əsasən, hücum edib knyaz İqoru öldürdülər, dəstəsini isə qırdılar. Əslində ayrı-ayrı slavyan torpaqlarında ümumi qərarlar qəbul edən

Veçe yığıncaqlarının mövcud olması Kiyev Rusunda dövlətçiliyin formalaşmasından xəbər verir.

İqorun ölümündən sonra onun dul arvadı Olqa ərinin ölümünə görə drevlyanlardan və onların knyazı Maladan amansız qisas alır. Drevlyanların paytaxtı İskorosten (indiki Korosten şəhəri) yandırıldı, təqribən beş min nəfər yanğın nəticəsində həlak oldu.

Drevlyanları cəzalandıran Olqa, eyni zamanda xərac toplanmasını qaydaya saldı. Xəracın miqdarı və toplanış yeri dəqiq müəyyən edildi. Ümumən Olqanın dövründə Kiyev dövlətinin daxili və xarici nüfuzu xeyli möhkəmlənmiş, Olqa isə Konstantinopolda xristianlığı qəbul edən ilk rus knyazı olmuşdur. Məhz İqor və Olqanın knyazlığı dövründə tiverlilər, uliçlər və qəti olaraq drevlyanlar yaşadığı ərazilər Kiyevə birləşdirilmişdir.

Olqa və İqorun oğlu Svyatoslav (964-972) tarixçilər tərəfindən müxtəlif cür qiymətləndirilmişdir. Bir qrup onu istedadlı sərkərdə və dövlət xadimi kimi, başqa bir qrup isə məqsədi yalnız müharibələr olan macəraçı knyaz kimi səciyyələndirmişdir. Salnamədə qeyd edildiyi kimi, bütün ömrü yürüşlərdə keçən knyaz bir tərəfdən Rusu köçəri peçeneqlərin basqınından qorumalı, başqa bir tərəfdən digər ölkələrə uzanan ticarət yollarını qorumalı idi. Çoxsaylı hücumları sayəsində Svyatoslav vyatiçlərin torpaqlarını birləşdirmiş, Volqa Bulqarıstanını, Xəzər xaqanlığını məğlub edərək, Taman yarımadasındakı Tmutarakanı ələ keçirmiş, peçeneqlərin basqınlarının qarşısını almışdır. Knyaz Bizansla daha uğurlu müharibə aparmaq və əlverişli ticarət yollarına sahib olmaq məqsədilə dövlətin paytaxtını Dunay üzərindəki Pereyaslavla köçürməyi belə nəzərdə tuturdu. Lakin Bizansla müharibə uğursuz olmuşdur, 100 minlik yunan ordusu tərəfindən mühasirə edilən knyaz çətinliklə mühasirədən çıxıb Rusa getməyə məcbur olmuşdur. Bizansla hücum etməmək haqqında müqavilə bağlanmış, Dunay torpaqları geri qaytarılmışdır. 972-ci ildə Kiyevə qayıdan knyaz Svyatoslav Dnepr keçidində peçeneqlərin qəfil hücumuna düşərək öldürülmüşdür.

Svyatoslavın ölümündən sonra onun böyük oğlu Yaropolk (972-980) böyük knyaz oldu. Onun qardaşı Oleq Drevlyan torpağına sahib oldu. Svyatoslavın qulluqçusu Maluşidən olan üçüncü oğlu Vladimir Novqoroda sahib oldu. Qardaşlar arasındakı çəkişmə, nəhayət, I Vladimirin (980-1015) böyük knyaz olması ilə başa çatmışdır. I Vladimirin knyazlığı zamanı şərq slavyanlarının bütün torpaqları Kiyev Rusuna birləşdirilmişdir. Dövlət aparatının möhkəmləndirilməsinə başlandı. Knyaz oğlanları və böyük drujinaçılar iri mərkəzlərin idarəçiliyinə təyin olundu. Köçəri peçeneq basqınlarından qorunmaq məqsədi ilə Desn, Osetr, Sul, Stuqn çayları boyunca bir çox qalalar inşa edildi.

Ölkəni böyük Kiyev knyazının qardaş və oğlanları olan canişinlər idarə edirdi və onların idarə etdiyi ərazilər nahiyələr («волости») adlanırdı. Nahiyələrin sərhədləri elə müəyyən olunurdu ki, onlar keçmiş tayfa ittifaqlarının hüdudları daxilində olsun. Sərhədlər yeni ərazilərin mənimsənilməsi və ya knyaz oğlanları arasındakı ailə çəkişməsi əsasında dəyişə bilərdi.

## §4. Xristianlığın qəbul edilməsi

Vladimir Syatoslaviçin hakimiyyəti Rusda xristianlığın qəbul edilməsi tarixi hadisəsi ilə əlaqədardır. İqorun dövründə Kiyevdə xeyli xristian var idi və onların Svyatoye İlyi kilsəsi ucalırdı. Olqanın xaç suyunasalma mərasimindən sonra xristianlaşma daha sürətlə yayılmağa başlamışdır. Kiyev sarayının Qərb slavyanları ilə əlaqəsi sübut edir ki, ilk vaxtlar Rus həm Bizansla, həm də Roma kilsəsi ilə xoş münasibətlər yaradaraq tərəflərdən hər hansı birinə meyil etmirdi. Əhalsinin böyük əksəriyyətinin bütpərəst olmasına baxmayaraq, Rus böyük din azadlığı ilə seçilirdi. Burada müsəlman və yəhudilər, Bizansdan olan xristianlar, alman, polyak, çex torpaqlarından olan dindarlar dini ayinləri azad şəkildə yerinə yetirirdilər.

Vladimirin hakimiyyətə gəlməsi bütpərəstliyin uzun müddət təntənəsindən bəhs etmək imkanı yaradırdı. Lakin həyatın öz yolu olmuşdur. Rusun hakim təbəqəsinin nümayəndələri xristianlığın qəbul edilməsi zərurətini gözəl başa düşürdü. Təsadüfi deyil ki, Vladimir təpənin üstündə əsas bütpərəst Allahlardan Perunu ucaldaraq bütpərəstlik dininə söykənərək ölkənin dövlət birliyinin dayağını təmin etməyə çalışmışdır. Birincisi, bunu inkişaf etməkdə olan dövlətin mənafeyi tələb edirdi. Xristian dünyasında bütpərəst kimi qalmaq bütün Avropa ölkələri birliyindən təcrid olunmaq idi. İkincisi, yeni din özünün tək Tanrıya sitayişi ilə monarx başda olmaqla yeni dövlətin varlığına uyğun gəlirdi. Üçüncüsü, xristianlıq cəmiyyətin nüvəsini təşkil etmiş ailənin əsasını möhkəmləndirərək qadına, anaya, uşağa, ümumən insana humanist münasibət tələb edirdi. Bu cəmiyyətin tərəqqisinə təsir etməyə bilməzdi. Dördüncüsü, xristianlığa müraciət mədəniyyətin, ölkənin mənəvi həyatının inkişafına kömək edə bilərdi: xristianlıq yaxşı qurulmuş fəlsəfi sistemə, zəngin dini ədəbiyyata malik idi. Xristian ölkələrilə əlaqə tədricən Rusun bu ölkələrin mənəvi və mədəni dünyasına daxil olmağa zəmin hazırlamış olardı. Beşincisi, Rusda yeni ictimai münasibətlərin yetişməsi, sürətli və dərin sosial təbəqələşmə yeni ideologiya tələb edirdi. Bütpərəstlik və onun təbiət qarşısında adamların bərabərliyi baş verən və artan bərabərsizliyi izah edib, bəraət verə bilməzdi.

Rusun Bizansla iqtisadi, siyasi, mədəni və dini əlaqəsinə baxmayaraq, Bizans üzrə xristianlıq nümunəsi tez bir zamanda rus torpaqlarında rəsmi olaraq qərarlaşmaq üstünlüyünə nail olmamışdır. Salnaməçi qeyd edir ki, Vladimirin yanına müsəlman Volqa Bulqarıstanından, yəhudi Xəzəriyyədən, xristianlığın Roma qolunun möhkəmləndiyi alman torpaqlarından dini missionerlər gəlmişdi. Bizansdan gəlmiş vaiz Vladimirə pravoslav xristianlığının mahiyyətini izah etmişdir. Missionerləri diqqətlə dinləyən Vladimir boyarlar və kiyevlilərlə məsləhətləşmişdir.

İlk zamanlar yeni xristian dininin əlamətləri özünü tam göstərə bilməmişdir. Rus hökuməti qarşısında duran əsas praktik məsələ ondan ibarətdir ki, xristianlığın qəbulundan Rusun şərəfini və sülalənin nüfuzunu yüksəltmək üçün necə istifadə edilsin. Bizans Rusu xristianlaşdırmağa çalışaraq ona siyasi təsir göstərməyə və özünü Rus basqınlarından qorumağa cəhd edirdi.

Bir-birinə əks məqsəd daşıyan Rus və Bizans 987-ci ildə danışıqlara başlamışdır ki, imperiya qiyamçılara qarşı Rusdan kömək xahiş etmişdir. Xaç suyunaçəkmə məsələsinə də toxunulmuşdur. Danışıqlarda Vladimir imperator II Vasilinin bacısı şahzadə Annanın arvadı olmasını istədi. Bu Rusun Avropa və Asiyada dövlət nüfuzunu yüksəldərək ölkə daxilində sülalənin mövqeyini daha da möhkəmləndirmiş olardı. Təsadüfi deyil ki, Avropa və Asiyanın bir çox monarxı Bizans imperator evi ilə qohum olmağa can atırdı.

Rusların köməyinə ehtiyacı olan bizanslılar Vladimirin tələbini qəbul edərək ona xristianlığı qəbul etməyi təklif etdilər. Vladimir razılaşdı. Rus döyüşçüləri Bizansa göndərildi, üsyan yatırıldı. Təhlükə keçdikdən sonra yunanlar Anna və Vladmirin nikahına dair müqavilənin şərtlərini yerinə yetirməyə tələsmirdi. Şərait kəskin dəyişilmişdi. Vladimir əyanları toplayaraq 988-ci ildə Bizans mülkünün Krımdakı mərkəzi Xersonesə (Korsun) hərəkət etdi. Mühasirə bir neçə ay çəkdi. Nəhayət, qaladan dini qulluqçu Anastas oxa bərkidilmiş yazı parçası vasitəsilə bildirdi ki, şəhər divarlarından şərqdə yerləşən su xəttini kəsməklə qalanı ələ keçirmək mümkündür. Döyüşçülər xətti aşkar edib suyu kəsdilər. Şəhər əhalisi qalibə təslim oldu. Bundan sonra Vladimir Konstantinopola çapar göndərdi ki, əgər Anna Xersona onun yanına gəlməsə, rus qoşunu Konstantinopola hücum edəcək. Vladimir xaç suyuna çəkilmək vədini təsdiq etdi. Anna Rusa gəlməkdən imtina edərək ağlayaraq demişdir: «Mənə ən yaxşısı ölməkdir» («Лучше мне умереть»). Bizans imperatoru II Vasili onu dilə tutub Bizansa kömək etməsini istəmişdir. Tezliklə gəmi ilə şahzadə, ətrafı, keşişlər Krım sahillərinə çatdı.

Xersonesdə Vladimir xaç suyuna çəkilərək xristianlığı qəbul edib bu aktın Rus tərəfindən könüllü və Bizansın iradəsindən asılı olmadığını qeyd

etmişdir. Xristianlıqda Vladimir II Vasilinin şərəfinə Vasili adını qəbul edərək onunla bərabərləşmişdir. Xerson imperiyaya qaytarılmışdır. Böyük knyazla drujinanın bir hissəsi də xaç suyuna çəkilmişdir. Eyni ilə bu cür frankların kralı Xlodviq də öz döyüşçüləri ilə xaç suyuna çəkilmişdir.

Xersondan kilsə ikonalarını, avadanlığını, keşişlərin bir hissəsini özü ilə götürmüş Vladimir Kiyevə qayıtdı. O özü ilə Müqəddəs Kliment və Fivanın təbərrüklərini də götürmüşdü. Şəhəri almağa kömək etmiş Anastas keşiş də Vladimirlə birlikdə yola düşmüşdür.

Vladimirin xristianlığı qəbul etməsilə Rus torpaqlarında xristianlığın tam bərqərar olması xeyli vaxt aparmışdır. Yalnız 990-cı ildə Vladimir xristianlığın bütün Rusun ərazisində qəbul edilməsi məqsədilə ilk addım atmışdır. Bu xüsusilə bütpərəstliyin geniş yayıldığı şimalda xalq üçün böyük sınaq olmuşdur.

Birinci olaraq Kiyev əhalisi xristianlığı qəbul etmişdir. Yay günlərindən birində Vladimirin əmri ilə Perun başda olmaqla bütpərəst idolları atılmışdır. Ertəsi gün səhər tezdən şəhər əhalisi çaya gəlmişdir. Kişilər, qadınlar, uşaqlar çaya daxil olaraq keşişlər tərəfindən xaç suyuna çəkilmişdir. Böyük knyazın əmrilə əvvəllər Perunun ucaldığı təpənin yerində birinci – Müqəddəs Vasili kilsəsi inşa edilmişdir. Bunun ardınca bir neçə il ərzində digər rus şəhər və torpaqları da xristianlğı qəbul etmişdir.

Novqorodun xristianlaşdırılması knyazın əmisi Dobrınınə həvalə edilmişdi. Novqorodun bütpərəst əhalisi Dobrıni və keşişlərin xaçlarla şəhərə gəlməsinə qarşı çıxmışdır. Yalnız qanlı toqquşmada bütpərəstlərin Dobrınının həyətini dağıdıb yaxınlarını öldürdükdən sonra Novqorod canişini üsyançıların müqavimətini qıra bilmişdir. Çoxlu adam amansızlıqla cəzalandırılmışdır. Rostov və digər şəhərlərdə də xristianlıq belə çətinliklə yayılmışdır. Kənd yerlərində, meşələrdə bütpərəstlik uzun müddət öz mövqeyini saxlamışdır.

Bizans xristianlığının əsas xüsusiyyətlərindən biri ondan ibarət idi ki, xristianlığa yeni müraciət etmiş xalqlar arasında kilsə ayinlərini yerli xalqın dilində yerinə yetirməyə icazə verilirdi. Roma kilsəsi isə buna yalnız latın dilində icazə verirdi. Bu yeni dini xalqa yaxınlaşdıraraq onun mənəvi həyatının, məişət mədəniyyətinin bir hissəsinə çevirirdi.

Vladimirin Bizans kilsə təşkilatının bir xüsusiyyətini nəzərə almamış olmazdı. Belə ki, onun başında kilsə xidmət adamı kimi Roma papası deyil, dünyəvi hakimiyyətin başçısı imperator dayanırdı ki, patriarx ona tabe idi. Bu ənənə də Rusa sirayət etmişdir.

996-cı ildə Kiyevdə Rusun böyük baş məbədi olan Məryəm Ana kilsəsi daşdan tikilərək başa çatmışdır. Bu kilsəni yunan ustaları və ikonaçəkənləri tikib bəzəmişdir. Vladimir Xersondan gətirdiyi ikona və kilsə avadanlığını məbədə

vermişdir. Burada dini ayinləri Anastas başda olmaqla Xerson keşişləri yerinə yetirmişdir. Bu məbədin təminatı üçün Vladimir knyaz gəlirinin 1/10 hissəsini ayırmışdı. Odur ki, o zamandan etibarən kilsə «desyatinnoy» adlandırılmışdır.

Xristianlıqla bərabər Rusa təhsil, sosial savad gəlmiş, ilk məktəblər açılmışdır. Bura Vladimirin əmri ilə zəngin ailələrin uşaqları cəlb edilmişdi. Analara ağlayaraq, təşviş içində uşaqlarını oxumağa verirdilər. Çünkü bu işlərin nə olduğunu başa düşmürdülər.

İlk zamanlar xristian kilsəsi bütpərəstlik dənizində kiçik bir yer idi. Yalnız sonralar dövlət hakimiyyətinin köməyi sayəsində xalq arasında, şəhər və kəndlərdə kök salmışdır. Bir neçə əsr keçdikdən sonra xristianlıq bütpərəstliyin tam yerini tutmuşdur. Buna baxmayaraq bütpərəstlik axıra kimi təslim olmamışdır. Rusda xristianlığın ehkam, qayda və ənənəsi köhnə bütpərəst anlayışları ilə qeyri-adi şəkildə birləşmişdir. Beləliklə, ikietiqadlılıq meydana gəlmişdir. Xristianlar kilsədə ibadət edərək evdəki ikona qarşısında baş əyərək, eyni zamanda köhnə bütpərəstlik bayramlarını qeyd edirdilər. Məsələn, Kolyadı, yəni qızıl yumurta bayramı İsanın doğum tarixi və xaç suyuna çəkilməsi ilə qaynayıb-qarışmışdır. Maslenitsa (pəhriz bayramı) saxlanmışdır ki, indi də Böyük pəhrizqabağı qeyd olunur. Cəmiyyətin bütün təbəqələrinin nümayəndələri, xüsusilə sadə adamlar İsa peyğəmbərə və sevilən müqəddəslərə etiqad etməklə yanaşı, cin, şeytan, quleybani və su pərisi ilə də hesablaşmaqda davam etmişdir.

Xristianlığın qəbul edilməsinin tarixi əhəmiyyətindən danışarkən ilk növbədə kilsənin inkişafından, onun tədricən Rus zəminində kök salaraq həyatının bütün – iqtisadi, siyasi, mənəvi, mədəni sahələrinə hərtərəfli nüfuzundan bəhs edilir. Kilsə sonradan geniş torpaq sahələri alaraq öz xüsusi təsərrüfatını təşkil etmişdir. Bu, birinci növbədə, monastrlara – dini qardaşlıqlara mənsub olub, qardaşlığın üzvləri olan monaxlar nikahdan və yerdəki işlərdən əl çəkərək özlərini tamamilə Tanrıya həsr edirdilər. Monastrları iqumenlər idarə edirdi. Onlar böyük knyazdan idarə etmək üçün xüsusi torpaqlar alıb burada asılı, yoxsullaşmış adamların əməyindən istifadə edərək əkinçilik təsərrüfatı yaradır, mal-qara, bostançılıqla məşğul olurdular. Monastrlar özünü zəruri olan tələbat malları ilə təmin edirdi. Zamanla onlar ticarət, hətta sələmçilik mərkəzinə çevrilmişdir.

Monastrlarda yüksək əxlaqi keyfiyyətlərə malik çoxlu monaxlar mövcud olmuşdur ki, onlar da xristian ideyasının və xristian əxlaqının mücahidləri olmuşdur. Beləliklə, bu adamlar ətraf aləmə güclü mənəvi və dini təsir göstərmişdir.

Əsrlər keçdikcə iqtisadi cəhətdən güclənmiş, ruslar arasında yüksəktəhsilli kadrlar yetişdirmiş kilsə ölkənin siyasi həyatına daha çox təsir göstərməyə

başlamışdır. Bir çox böyük kilsə başçısı, mitropolitlər, yepiskoplar dövlət çəkişməsində iştirak edərək bu və ya başqa knyazı siyasi mübarizədə müdafiə etmişdir. Lakin kilsə kiçik siyasi maraqlardan üstün durmağa çalışaraq, onun ən yaxşı nümayəndələri Rusiyanın birliyi uğrunda ara çəkişmələrinə qarşı çıxmışdır. Görkəmli kilsə xadimləri çox halda sülhü təminetmə missiyasını yerinə yetirərək ümumrus vətənpərvərlik hərəkatına başçılıq edərək knyazları tamahkarlıq, eqoizm, siyasi məhdudluq və qorxaqlığa görə ifşa etmişdir.

Kilsə və monastrların nəzdində məktəblər təşkil edilmişdir ki, ilk qədim rus ziyalıları monastrların hücrəsindən keçmişdir. Burada ilk rus rəssamları çalışmışdır ki, onlar da illər ərzində gözəl ikonaçəkmə məktəbi yaratmışdır. Monaxlar, kilsə xadimləri qiymətli salnamə külliyatları, müxtəlif növ dünyəvi və kilsə əsərləri, fəlsəfi traktatlar tərtib etmişlər, tərbiyəvi söhbətlər aparmışlar.

İllər keçdikcə böyük knyaz bütün dini və ailə məsələləri üzrə məhkəmə işlərini kilsələrə həvalə etmişdir. Belə məhkəmələr üçün kilsə «nizamnaməsi»ndə kilsə cəmiyyət və ailədə xristianlığın əsas prinsiplərini müdafiə edərək insan sevgisini, dözümlülük, uşaqların valideynlərinə hörmətini, qadın şəxsiyyətinə hörməti, incidilmiş və əzilmişlərin tərəfinin saxlanımasını ifadə etmişdir. Kilsə bütpərəst adətlərini, qızların oğurlanmasını, çoxarvadlılığı, yaxın dərəcəli qohumlarla evliliyi, qızın zorla ərə verilməsini pisləyərək, insan şəxsiyyətinin alçaldılması cinayətini təqib edirdi. Bu mənada kilsə, din xadimləri ailənin, cəmiyyətin, dövlətin möhkəmləndirlməsi işində çalışaraq istismarın səviyyəsini azaltmağa çalışırdı.

Eyni zamanda, ümumən mədəniyyət, təhsilin inkişafına kömək etmiş kilsə bütpərəstlik adət və ənənəsinə əsaslanmış mədəniyyəti bütün gücü ilə boğurdu. Kolyadı və Maslenitsa kimi şən bayramlar təqib edilir, məsxərəçilik cəzalandırılırdı.

İqtisadi, mədəni, dini cəhətdən Rusu Bizans, digər pravoslav ölkələri Bolqarıstan, Serbiya ilə yaxınlaşdırmış kilsə «latınçılığa», Roma papasına qarşı, xüsusilə 1054-cü ildə Bizans və Roma kilsələrinin qəti ayrılmasından sonra mübarizə apararaq, Rusun Qərbdəki mənəvi proseslərdən təcrid olunmasına şərait yaratmışdır.

## §5. Rus Yaroslav Mudrı və Yaroslaviçlər dövründə

I Vladimirin ölümündən sonra hakimiyyət qardaşların böyüyü Svyatopolka (1015-1019) keçdi. Ailə çəkişməsi zəminində onun əmrilə I Vladimirin və drujinanın sevimlisi Boris Rostovski və Qleb Muromski qətl edilmişdir. Rus kilsəsi Boris və Qlebi müqəddəslər sırasına daxil etmişdir. Öz əməlinə görə məlun ləqəbi alan Svyatopolka qarşı qardaşı Novqorod knyazı Yaroslav çıxdı. Novqorodluların və varyaqların köməyi ilə Yaroslav həm də Polşa kralı İgid Boleslavın kürəkəni olan məlun ləqəbli Svyatopolku Kiyevdən Polşaya qovdu.

Sonradan «Mudrı» ləqəbi alan Yaroslavın (1019-1054) knyazlığı dövründə peçeneq basqınlarına son qoyuldu. 1030-cu ildə knyaz Baltikyanı çudlar (estonlar) üzərinə hücum edərək Çud gölü üzərində Yuryev (Estoniyadakı Tartu) qalasının əsasını qoydu. 1035-ci ildə qardaşı Mstislav Tmutarakanskin ölümündən sonra Dneprin şərqindəki torpaqlara da sahib olaraq Kiyevin vahid dövlət başçısı olmuşdur.

Yaroslav Mudrının knyazlığı dövründə Kiyev Konstantinopolla rəqabət edən qabaqcıl Avropa şəhərinə çevrilmişdir. Məlumatlara əsasən, Kiyevdə təqribən dörd yüzə qədər kilsə, səkkiz bazar mövcud idi. 1037-ci ildə Yaroslav peçeneqlərə qalib gəldiyi yerdə Sofiya baş kilsəsini, məbədini inşa etdirmişdir. Yunan dilində «sofiya» – müdrik deməkdir ki, bu da dünyanı idarə edən ilahi əqlə işarə edir. Böyük knyaz Kiyevin Qızıl darvazalarını təsis etdirmiş, kitabların rus dilinə tərcüməsinə, yazılı abidələrin öyrənilməsinə ayrıca önəm vermişdir. Rusun gücü və nüfuzunun artması sayəsində Yaroslav ilk dəfə mənşəcə rus olan dövlət xadimi və yazıçı İllarionu Kiyev mitropoliti təyin etmişdir. Böyük xarici nüfuza malik olan Yaroslav Mudrı və onun ailə üzvləri isveç, fransız, macar, norveç, polyak, alman, Bizans kral və imperatorlarının uşaqları ilə ailə qurmuşdur.

XI əsrin ortalarına doğru Kiyev Rusunda feodal istehsal münasibətləri bərqərar olmuşdur. Əsas istehsal və varlanmaq vasitəsi olan torpaq feodalların əlində cəmləşmişdir. Kəndlilər torpaq mülkiyyətçisi olmayıb, feodaldan ömürlük sahibkarlıq hüququ da daxil olmaqla müəyyən şərtlər daxilində torpaq sahəsi icarəyə alırdılar. Qullardan fərqli olaraq kəndlilərin xüsusi mülkiyyəti olan əmək aləti, mal-qarası, evi olurdu. Feodaldan aldığı torpağın müqabilində kəndli öz əməyinin müəyyən hissəsini feodala işləməyə həsr etməli, öz məhsulunun bir hissəsini ona verməyə borclu idi. Bu torpaq rentası adlanır ki, o da işləyib ödəmə – biyar, natural məhsul və pul – töycü şəklində ola bilərdi.

Feodalizmin kökü, yəni feodal münasibətlərinin formalaşması prosesi uzun və mürəkkəb bir yoldur. Bunun əsası feodal cəmiyyətinin iki əsas sinfi –

feodallar və feodallardan asılı kəndlilər, istehsalın təşkilinin geniş yayılmış forması atadan oğula irsən keçən feodal mülkü (вотчина) idi. Votçinaların sahibi boyar və knyazlar olmuşdur. Kiyev Rusundakı bütün azad əhali «adamlar» adlanırdı. Kənd əhalisinin knyazdan asılı olan əsas hissəsi smerdlər idi. Torpağını və yaşayış vasitələrini itirmiş azad kəndlilər ağır şərtlərlə feodaldan borc məhsul, mal-qara, pul götürərək ondan asılı hala düşürdü ki, onlar da «zakup» qrupuna daxil olurdu. Bunlardan başqa knyaz və boyar malikanələrində əsirlər və yoxsullaşmış kəndlilərdən ibarət qullar çalışırdı ki, belə adamlara «xolop» və ya «çelyad» deyilirdi.

Kiyev Rusunun sosial-iqtisadi həyatının mühüm mənbələrindən biri Yaroslav Mudrının adı ilə bağlı olan «Rus Pravdası» olmuşdur. Yalnız ilk 17 maddə Yaroslav Mudrının dövründə tərtib edilmişdir ki, bu da «Qədim Pravda» və ya «Yaroslav Pravdası» adlanır. Qalan maddə və bölmələr isə onun ölümündən sonra tərtib edilmişdir. «Yaroslav Pravdası» mürəkkəb hüquqi sənəd olub əsasən yaxın qohumlar qan qisasçılığını, azad adamlar, xüsusilə knyaz drujinası üzvləri arasındakı mübahisəli məsələləri nizama salmaq məqsədi daşıyırdı. Novqorodun seçilən adamları da kiyevlilərin istifadə etdikləri hüquqlardan yararlana bilərdi.

Kiyev Rusunda feodal münasibətlərinin inkişaf edib möhkəmlənməsi 1068-1072-ci illərdə kütləvi xalq çıxışları ilə müşayiət olunmuşdur. 1068-ci il Kiyev üsyanı xalqın narazılığının ən parlaq ifadəsi idi. Yaroslavın oğlanları İzyaslav, Svyatoslav və Vsevold Yaroslaviçlər qıpçaqlarla Alt çayı üzərindəki döyüşdə məğlub olduqdan sonra kiyevlilər Veçeyə (xalq yığıncağı) toplaşaraq qıpçaqlarla yenidən döyüşmək məqsədilə knyazdan silah tələb etdilər. Yaroslaviçlər xalqın silahı onlara qarşı işlətməsi qorxusu ilə tələbə rədd cavabı verdi. Belə olduqda salnaməçi qeyd edir ki, xalq varlı boyarların malikanələrini dağıtmağa başladı. Böyük knyaz İzyaslav Polşaya qaçaraq yalnız 1069-cu ildə polyak feodallarının köməyi ilə Kiyev taxtına sahib oldu.

XI əsrin 60-cı illərinin sonları 70-ci illərin əvvəllərindəki Kiyev, Novqorod, Rostov-Suzdal torpaqlarındakı kütləvi xalq çıxışlarından sonra «Rus Pravdası»na «Yaroslaviçlər Pravdası» adını alan, feodalın əmlakı və malikanəsini qoruyan maddələr əlavə edilmişdir. «Yaroslaviçlər Pravdası» qan qisasını ləğv edərək əhali arasında adam öldürməyə görə xüsusi ödəmə qaydası müəyyən etdi ki, bu da əsasən feodalların mülkiyyəti, həyat və əmlakının müdafiəsinə yönəlmişdir. Məsələn, baş drujinaçı, knyazın eşik ağasını («oqnişan») öldürən şəxs 80 qrivna, azad adamı öldürən 40, kənd ağsaqqalı və sənətkarları öldürən 12, smerd və qulları öldürən şəxslər 5 qrivna cərimə ödəməli idi.

Yaroslav Mudrı ölərkən Kiyev dövlətinin torpaqlarnı beş oğlu və vəfat etmiş böyük oğlu Vladimirin oğlu arasında bölmüşdür. Knyaz sülaləsinin nümayəndələrinə sülh və hörmətlə yaşamaqla bərabər, bütün məsələlərdə böyük qardaşları İzyaslavı eşitməyi vəsiyyət etmişdir. Hakimiyyətin nəslin böyüyünə, qardaşdan-qardaşa, o öldükdən sonra böyük qardaş oğluna verilməsi qaydası «növbəti sıra» adını almışdır. Bu qaydaya əsasən Kiyev taxtını Ryurikoviçlər sülaləsinin başında duran tutmalı idi. Sülalə hesablarının mürəkkəbliyi, ayrı-ayrı knyazların qüdrətinin artması, şəxsi məqsədlər knyazlar arasında çəkişmələrə səbəb olurdu.

Bu zaman kəsiyində Rusun ən tanınmış knyazı Vladimir Vsevoldoviç Monomax idi. Onun təşəbbüsü ilə 1097-ci ildə Lyubeçdə knyazların qurultayı olmuşdur. Qərara alınmışdı ki, çəkişməyə son qoyaraq hər kəs öz sahib olduğu torpağı qorusun. Bu əslində faktiki olaraq Rus torpaqlarının parçalanması demək idi. Qurultaydan sonra da knyazlar arasındakı çəkişmələr davam etmişdir. Yalnız XI əsrin ortalarına doğru köçəri qıpçaqların saysız-hesabsız basqınları bir müddət Kiyev Rus dövlətinin knyazlıqlara parçalanmasının qarşısını aldı.

1113-cü ildə İzyaslav Yaroslaviçin oğlu II Svyatopolkun ölümündən sonra Kiyevdə üsyan başladı. Böyük knyazın çörək və duzla alver edərək sələmçiliklə də məşğul olması xalqın səbir kasasını doldurmuşdu. Üsyançılar knyaz idarəçilərinin, iri feodalların və sələmçilərin malikanələrini dağıtdılar. Dörd gün davam edən üsyanda qorxuya düşən boyarlar böyük knyaz taxtına Vladimir Monomaxı (1113-1125) dəvət etdi. «Vladimir Monomax Nizamnaməsi»ni dərc etdirən böyük knyaz güzəştə gedərək sələmçiliyin faizini qaydaya saldı, tacirlərin hüquqi vəziyyətini yaxşılaşdırdı, xoloplar sırasına yazılmaq və smerdlərin ödəmə işlərini qaydalar çərçivəsinə daxil etdi. Rus torpaqlarının parçalanması təhlükəsinin olmasına baxmayaraq, böyük knyaz Kiyev Rusunu öz möhkəm hakimiyyəti altında tuta bildi. Məhz Vladimir Monomaxın dövründə «Ötən illərin dastanı» tərtib edilməyə başlanmışdır. Hakimiyyətin varislik əsasında Bizans imperatorlarından Rus çarlarına keçməsi rəmzi hesab edilən Monomaxın papağı çar tacının vacib atributlarından biri kimi tarixdə öz yerini almışdır. Vladimir Monomax tarixə böyük siyasi xadim, sərkərdə və yazıçı kimi daxil olmuşdur.

Vladimir Monomaxın oğlu I Böyük Mstislav (1125-1132) hələ bir müddət rus torpaqlarının birliyini qoruyub saxlamağa müvəffəq olmuşdur. I Böyük Mstislavın ölümündən sonra Kiyev Rus dövləti tarixdə feodal dağınıqlığı adlanan çoxsaylı müstəqil knyazlıqlara parçalanmışdır.

## §6. Dövlət hakimiyyəti. Erkən feodal münasibətlərinin əmələ gəlməsi. Şəhərlər, ticarət və ordu

IX əsrdə Rusun başında əvvəllər olduğu kimi böyük Kiyev knyazı dururdu ki, onlar da artıq digər knyazların arasında birinci olmayıb ölkənin tamhüquqlu hökmdarı idi. Knyazın tayfasının əvvəlki kişilərini boyarlar adlandırırdılar. Onlar drujina təbəqəsinin üst qatını – qocaman drujinanı təşkil edirdilər. Az tanınmış və nisbətən cavanlar aşağı təbəqə olan kiçik drujinanı təşkil edirdi. Hər ikisi böyük knyazın xidmətçisi sayılırdı. Onlar knyazın hərbi işə, ölkənin idarəetməsinə, məhkəmə, vergi toplanmasına, başqa dövlətlərlə diplomatik münasibətlərə dair müxtəlif tapşırıqlarını yerinə yetirirdilər. Knyazın xidmətində yeniyetmə və uşaqlar adlanan şəxsi qulluqçular və şəxsi drujinalar da fəaliyyət göstərirdi. Onlar hamısı kiçik drujinanın üzvü olub böyük knyaz sarayında və knyaz işlərində müxtəlif məzmunlu qulluq göstərirdilər. Əvvəllər yalnız hərbi funksiya yerinə yetirən böyük və kiçik drujina X əsrin sonu və XI əsrdə idarəetmə aparatına daxil olaraq dövlət hakimiyyətinin vasitəsinə çevrilmişdir. Şəhərlərdə knyaz boyar-posadnikə, orduda voyevodaya, minbaşıya güvənirdi ki, bir qayda olaraq onlar da görkəmli boyar nəslindən olurdu.

Böyük knyaz özü qeyri-məhdud hakimiyyətə sahib idi. O qoşuna başçılıq edir, ölkənin müdafiəsini təşkil edir, işğalçı yürüşlərə istiqamət verir, çox halda hərbi rəis kimi ordunun önündə gedirdi. Böyük knyaz ölkənin bütün idarəetmə və məhkəmə işləri sisteminə rəhbərlik edirdi. Onun hakimiyyəti çoxşaxəli və kompleks şəkildə idi. Qəbilə tayfasının qalıqları dağıldıqca böyük knyazın və onun aparatının mərkəzdə və yerlərdə hakimiyyəti artırdı. Knyaz birinci növbədə cəmiyyətin üst təbəqəsinin təmsilçisi idi, knyaz hakimiyyəti isə onların hamısının mənafeyini qoruyurdu.

XI-XII əsrlərdə Rusda keçmiş quruluşun qalıqları qalmışdı. Məsələn, şəhərlərdə mühüm qərarlar qəbul edilərkən ənənəvi veçe yığıncağı çağrılırdı ki, burada da bütün azad şəhərlilər iştirak edə bilərdi. Onların iradəsi böyük knyazın və yaxud onların vassalı olan digər knyazlıqların siyasətinin formalaşmasında mühüm rol oynayırdı. Veçe köhnə xalq yığıncağının davamı idi. Daha çox nüfuzlu və varlı şəhərlilər veçeni yönləndirməyə başlasa da, yığıncaq hələ də xalq əlamətlərini qoruyub saxlamışdı. Kənd yerlərindəki məhkəmə araşdırmasında yerli kəndli icmasının nümayəndəsinin iştirakı zəruri idi. Bu qəbilə tayfası məişətinin dərin kökündən xəbər verir.

Böyük knyaz hakimiyyətinin bir hökmdardan başqasına keçməsi qaydasının ciddi və dəqiq həddi boyarların, kiçik drujinaçıların, zəngin tacirlərin, din xadimlərinin məafeyini ifadə edirdi. Onlar knyaza yaxın olub öz üstünlük və

gəlirlərinin müdafiəsində knyaza güvənirdilər. Bu adamlar, eyni zamanda cəmiyyətin daha həyat qabiliyyətli və dinamik hissəsini təşkil edirdi. Onların tərəqqisi əsasən təşkilatçılıq və şəxsi bacarıqları ilə bağlı olmuşdur. Odur ki, onların hakimiyyətlə ittifaqı təbii və qanunauyğun idi.

Eyni zamanda ölkəni xarici işğalçılardan qorumaq, ölkə daxilində qayda-qanunu saxlamaq, cinayətkarı cəzalandırmaq, xüsusi mülkiyyət hüququnu müdafiə etmək, şəxsiyyətə qarşı zorakılığı aradan qaldırmaqla knyaz bütün cəmiyyətin marağını təmsil edirdi. Cəmiyyətdə sosial fərqin meydana gəlməsinə baxmayaraq, hələ ayrı-ayrı siniflərin və sosial təbəqələrin hüququ dəqiq müəyyən edilməmişdi. Cəmiyyətin əsas hissəsi azad adamlardan ibarət idi. Yaroslavlın vəsiyyətnaməsinə baxmayaraq, XI-XII əsrlərdə hakimiyyət yaşca böyük olmağa görə, vəsiyyətə əsasən, atadan oğula irsi olaraq, knyazlığın mərkəzi olan şəhər əhalisinin dəvəti ilə müəyyən olunmuşdu. Bəzən knyaz hakimiyyəti güc hesabına zəbt edilərək uzun müddət zor gücünə mövcud olmuşdur. Bütün bunlar möhkəm və ciddi qanuniləşdirilmiş qaydaların olmadığını, cəmiyyətin sabit olmayan keçid xarakterini göstərir. Lakin buna baxmayaraq, XI-XII əsrlərdəki dövlət hakimiyyəti Oleq və İqorun ilk illərdəki hakimiyyətindən əhəmiyyətli dərəcədə fərqlənmişdir.

Məhz bu şəraitdə qəbilə tayfası daxilində baş vermiş əvvəlki keyfiyyət dəyişikliyi Rus həyatı quruluşunun sonrakı inkişafına səbəb olmuşdur. Hər şeydən əvvəl cəmiyyətin nəzərində torpaq əhatə etdiyi əhali ilə böyük dəyər kəsb etmişdir. Belə torpaqlara sahib olmaq o dövr üçün çox böyük gəlir, artıq güc, çiçəklənmə, siyasi hakimiyyət şəxsi zənginliyin artmasını vəd edirdi ki, yalnız bunun üçün obyektiv imkanları olan knyazlar, boyar-drujinaçılar, yeni yaranmaqda olan dini qulluqçular, zəngin şəhərlilər deyil, təbiətən çalışqan və bacarıqlı, enerji dolu fəaliyyəti ilə fərqlənən, şəraitə uyğunlaşmağı bacaran, şöhrətpərəst, hiyləgər amansız insanlar da çalışırdı.

Torpaqda işləyən əhalinin knyaza, boyara, drujinaçılara tabe olmağın birinci mərhələsi onlardan «töycü» («полюдье»), sonradan isə hakimiyyət altında olan əhalidən müntəzəm və qaydaya salınmış xərac toplamaq olmuşdur. Adamlar hələ şəxsən azad idi, ancaq onlar dövlət hakimiyyətinin müəyyən asılılığı altına düşmüşdü. Xərac və yaxud bac Rusda əhalinin dövlətdən asılılığının birinci məlum forması olmuşdur. Kiyev knyazlığı işğal edərək özünə birləşdirdiyi torpaqların əhalisinin üzərinə də, həmçinin öz əhalisinin, kənd icmasının azad üzvlərinə də xərac kəsmişdi. Belə torpaqlar xəraclı, burada yaşayanlar isə xəracçılar adlanırdı. Böyük knyazlıqda dövlət torpaqlarının knyazlaşması baş verirdi ki, alınan xərac yalnız knyazın ehtiyaclarını deyil, bərqərar olan dövlətin tələbatını da ödəməli idi. Beləliklə, dövlət onun

hakimiyyəti atında olan torpaq üzərində özünün ali mülkiyyətini təsdiq etmiş olurdu. Deməli, əraziyə siyasi hüquq sırf təsərrüfat iddiası ilə bağlı olmuşdur.

Xəracın müəyyən olunmasının əsas prinsipi kəndli təsərrüfatında əkin torpaqlarının mövcud olması ilə əlaqədar idi. Torpaq və ona təsərrüfatçılıq edən kəndli verginin əsas obyekti olmuşdur. Böyük Kiyev knyazının bütün şərqi slavyan torpaqları üzərində hakimiyyətinin bərqərar olması ilə yuxarıda da qeyd edildiyi kimi, digər bir proses baş vermişdir: birilərinin varlanması, digərlərinin yoxsullaşması nəticəsində icmada zəngin torpaq sahiblərinin meydana gəlməsi, torpağını itirərək yoxsullaşmış kəndlilərin isə özlərinin varlanmış qonşularının yanında çalışmağa məcbur olması.

XI əsrin ortalarında bu proses sürətlə inkişaf etmişdir. Rusun geniş ərazilərində, xüsusilə Orta Dnepr, Novqorod torpaqlarında torpaqlar daha tez-tez xüsusi əllərə keçirdi. Burada, əlbəttə, böyük knyaz və knyaz ailəsi nümayəndələri birinci sıraya yerləşmişdir. Özlərinin güc və nüfuzundan istifadə edərək onlar ya açıq şəkildə icma torpaqlarını mənimsəyir və yaxud da azad torpaqlara əsirləri yerləşdirərək onları öz işçilərinə çevirib yerlərdə təsərrüfat evi, xüsusi imarət, ovçuluq evi inşa edərək bura öz idarəçilərini yerləşdirib xüsusi təsərrüfatlarını təşkil edirdilər. Əvvəllər knyazla və dövlətlə yalnız illik xərac verməklə bağlı olmuş azad sıravi icma üzvləri onların mülklərini knyaz torpaqlarının sıx əhatə etməsinə, əlverişli əkin sahələrinin, otlaq, meşə, göl, balıq vətəgələrinin knyazın təsərrüfatına keçməsinə, yoxsullaşmış kəndlilərin knyazın himayəsi altına düşərək ondan asılı işçilərə çevrilməsinə qorxu və dəhşətlə baxırdılar.

Avropanın başqa ölkələrində olduğu kimi, knyazın şəxsi mülkü, yəni domenlər meydana gəlirdi ki, bu da kompleks yaşayış torpaqları olub bilavasitə dövlətin və yaxud xanədanlığın başçısına aid idi. Böyük knyazın arvadının qardaşlarının, başqa qohumlarının belə mülkləri ola bilərdi. XI əsrdə belə mülklər az olsa da, onların meydana çıxması torpaq üzərində xüsusi mülkiyyətə, torpaqda çalışan və ağaya mənsub olan asılı adamlardan ibarət yeni qaydaların yaranmasına şərait yaradırdı. Məhz bu zaman xüsusi torpaq mülkləri – boyar və drujinaçıların iri şəxsi mülkləri təşəkkül tapmışdır. Qədim rus təbəqəsinin varlanması vasitələrindən biri böyük knyazın ilk növbədə yerli knyazlara və boyarlara bu və ya digər torpaqlardan xərac toplamaq hüququnun verməsi ilə əlaqədar olmuşdur.

Xərac toplamaq hüququ ilə torpaqlar knyaz və boyarlara onları yedizdirmək məqsədilə ilə verilirdi. Bu onların təminatı və zənginləşməsi vasitəsi olmuşdur. Sonradan şəhərlər də belə «yedizdirmə» sisteminə məruz qalmışdır. Knyazın vassalı sonradan belə «yedizdirmə» («кормление») sisteminin bir hissəsini

öz drujinaçılarından olan vassallarına verirdi. Feodal iyerarxiyası sistemi belə yaranmışdır. «Феод» (lat. feodum) sözü irsi torpaq mülkiyyətçisi demək olub, senyor, yəni torpaq sahibinin müxtəlif hərbi idarəçilik, məhkəmə işləri xidməti müqabilində vassalına bağışladığı hədiyyə idi. Odur ki, feoalizmin sistem kimi əsas əlamətlərindən biri senyor və vassal arasında bütün səviyyələrdə mövcud olan münasibətlər olmuşdur. Belə bir sistem Rusda XI-XII əsrlərdə yaranmışdır. Bu zaman boyar, voyevoda, posadnik və böyük drujinaçıların ilk votçinaları meydana çıxmışdır.

Votçina, yəni iri mülkədara məxsus təsərrüfat kompleksinin atadan oğluna irsi keçən xüsusi mülkü torpaq sahibliyi idi. Lakin bu sahibkarlıq münasibətlərində ali mülkiyyət hüququ böyük knyaza məxsus idi ki, o da votçinanı hədiyyə etdiyi kimi onun sahibinin hakimiyyətə qarşı cinayət əməli aşkar edildikdə alıb başqasına bağışlaya bilərdi.

XI əsrdə kilsə torpaq sahibkarlığı meydana gəlmişdir. Böyük knyaz belə mülkləri ali kilsə iyerarxiyası – mitropolit, yepiskop, monastr və kilsələrə bağışlayırdı. Zaman keçdikcə hökmdarlar öz vassallarına yalnız torpağa sahib olmaq hüququ deyil, öz ərazilərində məhkəmə hüququ da təqdim etmişdir. Mahiyyət etibarilə ərazidə yaşayan əhali öz ağalarının – böyük knyazın vassalının tam asılılığı altına düşürdü ki, onlar da sahib olduğu torpağın və hüququn bir hissəsini öz vassalına hədiyyə etmişdir. Hakimiyyətin torpaqlarında çalışan kəndlilərin və şəhərlərdə yaşayan sənətkarların əməyinə əsaslanan piramidası ucalırdı.

Əvvəllər olduğu kimi, Rusda hələ feodal mülklərinə daxil olmamış çoxlu torpaq sahəsi mövcud idi. XI əsrdə bu sistem hələ yeni yaranmağa başlamışdı. Böyük ərazilər volostlarda yaşayan azad adamlardan ibarət idi ki, onların da dövlətin başçısı olan böyük knyaz kimi yalnız bir ağası var idi. Bu zaman daxilində azad kəndli – smerdlər, sənətkarlar, tacirlər ölkədə çoxluq təşkil edirdi.

Özünün vassal tabeçiliyindən başqa feodal mülklərinin ayrı bir xarakterik əlaməti də mövcud idi. O, asılı əhalinin əməyinin ayrılmaz hissəsi olmuşdur. Knyaz, boyar, drujinaçı, kilsə mülkiyyətçisi olan ağa torpaqlarında çalışan böyük və kiçik kəndlərin sakinlərinə feodal hakimiyyətinin sahibkarlığı şamil edilmişdi. Özlərinin xüsusi ərazilərindəki əkin sahəsi, otlaq, meşə, çaylardan istifadəyə görə torpaq sahibinə natura ilə ödəmə etməli idilər. Ticarət və pul münasibətləri kənd yerlərində inkişaf etmədiyi, təsərrüfatlar natural olduğu üçün istehsal etdiyi məhsuldan pay ayırmalı idi. Məhsul ilə ödəmə taxıl, xəz, bal, mum və s. kimi ola bilərdi. Onlar, eyni zamanda, at-araba mükəlləfiyyəti yerinə yetirərək ağanın tələbi ilə yayda atları qoşulmuş araba, qışda xizək verməli, yol və körpülərin təmiri üçün müxtəlif işlər yerinə yetirməyə borclu

idilər. Bu vəzifələri əvvəllər əhali böyük knyazın, dövlətin xeyrinə yerinə yetirirdisə, indi yeni ağanın – boyarın, drujinaçının, kilsənin, monastrın xeyrinə bu işləri görməyə borclu idi. Eyni zamanda ümumdövlət vəzifə və mükəlləfiyyətləri də qalırdı.

Tədricən kənd yerlərində müxtəlif səbəblərə – məhsulsuzluq, quraqlıq, müharibə dağıntısına və yaxud ağanın borc pul, toxum, mal-qara götürüb əvəzini ödəyə bilmədiyinə görə xüsusi təsərrüfatını itirmiş adamların təbəqəsi meydana gəlmişdi. Onlar torpaq sahibi üçün kənd təsərrüfatı işləri – torpaq şumlamağı, məhsul yığmağı, mal-qaraya qulluq etməyi və başqa vəzifələri yerinə yetirməyi öhdələrinə götürürdülər. Belə adamlar sahibkarla «müqavilə» («ряд») bağladığı üçün onlara «raydoviçlər» deyilirdi. Torpaq sahiblərindən «borc» («купу») almış adamlara isə «zakuplar» adı verilmişdi. Onlar müqavilənin şərtlərini yerinə yetirmədən ağalarının yanını tərk edə bilməzdilər.

Şəhərlər və kənd yerlərində ən hüquqsuz adamlar xoloplar olmuşdur. XI-XII əsrlərdə onları kənd təsərrüfatı işlərinə cəlb edərək torpağa yerləşdirib öz ağasına işləməyə məcbur edirdilər. Getdikcə daha çox adam xolop sırasına daxil olurdu. Azad adam çox böyük ehtiyac üzündən özünü xolop olaraq sata bilərdi. Xolop qadınla evlənən, ağasının yanına xüsusi müqavilə olmadan xidmətə girən insan da xolop sırasına daxil edilirdilər.

Xolopların uşaqları, müqavilənin şərtlərini yerinə yetirə bilməmiş «ryadoviç» və «zakuplar», əsirlər xolop sırasına daxil olurdu. Ümumiyyətlə, Rusdakı xoloplar qədim dünyanın qullarından fərqlənir. Onların bəzi hüquqları var idi. Xolopların öldürülməsi qanunla mühakimə olunurdu. Başqa şahidlər olmadıqda xoloplar məhkəmədə şahidlik belə etmək hüququna malik idi. Xolopların hüququ vəziyyətini yumşaltmağa çalışmış kilsə XI əsrin sonu–XII əsrin əvvəllərində buna nail olmuşdur.

Şəhərlər şərqi slavyanlarda vahid dövlətin yaranmasından çox əvvəl meydana çıxmışdır. Bu ya tayfa knyazlığının mərkəzi idi və yaxud bütpərəst Allahların olduğu yer idi ki, bura da qurbanlar gətirirdilər. Şəhərlər adətən düşmənin çata bilmədiyi dağların zirvəsində, çayların sıldırım dərəsində salınır, canlı ticarət və sənətkarlıq məhsullarının mübadiləsi mərkəzinə çevrilirdi. Rusun təsərrüfat həyatı dəyişdikcə sənət, ticarət, kənd təsərrüfatı tərəqqi edərək vahid dövlət yaranır və köhnə qəbilə tayfası qaydası zəiflədikcə şəhər həyatı da dəyişirdi. Tayfa əyanlarının da yaşadığı əvvəlki şəhərlər öz mövqeyini itirirdi. Məsələn, İqor və Olqanın dövründə Kiyevlə belə rəqabət aparmış derevlyanların mərkəzi İskorosten şəhəri buna misaldır. Xristianlığın qəbulu ilə əlaqədar olaraq çoxlu müqəddəs bütpərəstlik yerləri əhalinin dağılması ilə boş qalmışdır. Ticarət yollarının üzərində yerləşmiş şəhərlər isə canlanmışdır,

çünkü tacir və sənətkarlar mallarını sərfəli qiymətə satmaq məqsədilə bu yerlərə toplaşırdı.

Lakin siyasi və inzibati mərkəzlərə çevrilmiş daha böyük iqtisadi güc və sərvət qazanmış şəhərlər fərqlənirdi. Knyaz, boyarlar, knyaz drujinası belə şəhərlərdə yerləşirdi. Burada knyaz öz köməkçiləri ilə məhkəmə işlərini, öz hakimiyyəti altında olan yerləri idarə edirdi. Eyni zamanda şəhər ticarət və sənətkarlıq mərkəzi kimi inkişaf edirdi. Dini həyat burada cəmləşərək knyazlığın əsas məbədləri, böyük monastrlar, xristian ayinləri yerinə yetirən miropolit və keşişlər belə şəhər mərkəzlərində yerləşirdi.

Şəhərlər bir qayda olaraq əlverişli hərbi-strateji mövqedə yerləşmişdi. Onlar keçilməz qala-qəsrlərlə möhkəmləndirilmişdi. Belə şəhərlər həm də mədəniyyət mərkəzləri olmuşdur. Burada incəsənət inkişaf edir, salnamələr tərtib olunur, kitabxanalar təşkil edilirdi. Bütün bunlar Rusun şəhər həyatını müəyyən edirdi.

Çoxlu Qərbi Avropa şəhərləri qədim Roma şəhər-qəsəbələri və Roma qalalarının yerində meydana gəldiyi halda, Rus yalnız öz gücünə arxalanaraq şəhərlər salmışdır ki, bu da Qərb ölkələrinin şəhərləri ilə müqayisədə Rus şəhər həyatını xeyli ləngitmişdir. Buna baxmayaraq, Şərqi Avropa, o cümlədən Macarıstan, Polşa, Skandinaviyada İsveç və Norveçlə müqayisədə Rusda şəhərlər daha erkən meydana gəlmişdir.

IX əsrdə Rusda dövlətin meydana çıxması, qəbilə–tayfa münasibətlərinin aradan qalxması ilə daha böyük qədim rus şəhərləri yaranmağa başlamışdır. X-XI əsrin əvvəllərində Rusda iç qalası, Kremli olan 30 böyük şəhər mövcud olmuşdur. XI əsrin ortaları–XII əsrin I yarısında belə şəhərlərin sayı 42, XIII əsrin ortalarında isə 62 olmuşdur. Kiyev, Çerniqov, Smolensk, Polotsk, Rostov, Suzdal, Lyubeç, Ladoqa, Pereyaslavl, Permışl və d. şəhər həyatının bütün xarakterik əlamətlərinə malik olan şəhərlərdir. Şəhər əhalisinin əhəmiyyətli hissəsi ticarət adamlarından – zəngin tacirlərdən, başqa ölkələrlə ticarət edən «qonaqlardan», kiçik səyyar tacirlərdən ibarət idi. Şəhərlərdə öz nizamnaməsi, vəsait fondu olan tacir birlikləri meydana gəlmişdir ki, onlar da çətinliyə düşmüş tacirlərə köməklik göstərirdi.

Kiyev, Novqorod, Çerniqov və b. böyük şəhərlərdə xarici tacirlərin həyətləri var idi. Xəzəriyyədən, Polşadan, Skandinaviya ölkələridən olan tacirlərin yaşadığı öz bütöv bir rayonları olmuşdur. Yəhudi və erməni tacir və sələmçi icmaları fəaliyyət göstərirdi ki, onların əlində ticarət və sələmçilik kapitalının böyük bir hissəsi toplaşmışdı. Yəhudi tacirləri öz həmyerliləri ilə əlaqələrindən istifadə edərək rus tacir mərkəzlərini Avropanın uzaq yerləri, o cümlədən İngiltərə və İspaniya ilə belə birləşdirirdilər.

Volqa Bulqarıstanından, Şərq ölkələri, o cümlədən İran, Xarəzm və s. yerlərdən olan tacirlər rus şəhərlərində ticarətlə məşğul olurdu. Rus tacirləri Konstantinopol, Krakov, Reqensburq, Budapeştdə, Skandinaviya, Baltikyanı və alman ərazilərində ticarət edirdilər.

Rusun böyük və kiçik şəhərlərində ticarət qaynayırdı. Ətrafında az əlverişli torpaqlar olan Novqoroda taxıl karvanları daxil olurdu, Volından bütün rus şəhərlərinə duz daşınırdı. Şimaldan cənuba bütün növ balıq məhsulu daşınırdı. Kiyev, Novqorod və başqa böyük şəhərlərdən incə sənətkar əşyaları daşınırdı. Sərhəddəki ölkələrə rus «qonaqları» mum, xəz, kətan, parça, dəri, gümüş, sümükdən hazırlanmış əşyalar və s. aparırdılar. Tez-tez rus tacirləri karvanla birlikdə Xerson, Bulqar, Konstantinopol bazarlarında satmaq məqsədilə rus drujinalarının hərbi səfər zamanı əsir aldıqları «qullar»ı da aparırdılar.

Xarici tacirlər Rusun hər yerində satmaq üçün Bizansdan bahalı parçalar, silah, qiymətli daşlar, qızıl və gümüş bəzək əşyaları, Qafqaz, İran, Xəzər ətrafından rus qadınlarının çox xoşladığı ətir, muncuq, ədviyyat, Flandriyadan zərif mahud parça daşıyırdılar. Rus tacirləri metal məmulatları, o cümlədən silah, şərab və atları ilə Reynyanı şəhərlər, macar, çex, polyak torpaqlarında ticarət edirdilər. Bütün bu müxtəlif çeşidli ticarətdən böyük Kiyev knyazı və yerli knyazlar böyük gömrük haqqı əldə edirdilər. Knyaz evlərinin nümayəndələri də ticarət işlərində öz mallarını tacirlərə əmanət edərək və yaxud karvanlarda öz ticarət nümayəndəsini yerləşdirərək iştirak edirdilər. Hər bir şəhər yaxın əyalətlərin ticarət mərkəzi idi. Ətrafdakı şəhərlərin sənətkarları, kənd yerlərindəki smerdlər öz məhsullarını satmaq və yaxud ehtiyacı olduğu malı almaq məqsədilə şəhər mərkəzlərinə can atırdı.

Rusun bazarında müxtəlif sikkələr işləyirdi. Gümüş qrivna və kun kimi yerli sikkələr, ərəb dirhəmi, Bizans qızıl nomismi və alman taleri ilə ticarət edirdilər. Uzaq şimalın dərinliklərində və cənub çölündə qədimdə olduğu kimi pul vahidi kimi heyvan və mal-qara dərisindən istifadə olunurdu. Təsadüfi deyil ki, qədim zamanlardan Rusda pulu kun, yəni «dələ xəzi» adlandırırdılar ki, bu da metalın deyil, xəzin pula ekvivalent olduğu vaxtlardan xəbər verir.

Ordu, hərbi adamlar qədim rus cəmiyyətinin, rus şəhərləri həyatının ayrılmaz tərkib hissəsi olub, böyük knyaz sarayının, başqa knyaz və boyarlar sarayının üzvi bir hissəsi idi. Bütün tayfa üzvlərinin düşmənə qarşı səfərbər olduğu və yaxud böyük knyazın uzaq səfərlərə on minlərlə həmtayfalılarını apardığı təcrübə artıq tarixə çevrilmişdi. Güclü və vahid rus dövlətinin yaranması ilə hərbi iş müharibənin həyatlarının mənası olduğu peşəkar hərbçilərin əlinə keçmişdi. Onlar knyaza xidmət göstərərək bunun müqabilində haqq alırdılar. Böyük drujina üçün «yedizdirmə» sistemindən istifadə edilir, sonradan

isə torpaq sahəsi ayrılırdı. Kiçik drujina üçün, ələ keçirilmiş qənimətin bir hissəsi verilirdi və s. Drujina ordunun nüvəsini təşkil edərək knyaz ordusunun yaxşı silahlanmış hissəsinə çevrilmişdi. Kiyev böyük knyazının 500-dən 800 nəfərə kimi drujinası olmuşdur. Döyüşçülər ya atla və yaxud kiçik qayıqlarda çay və dənizlərdə hərəkət edirdi. Onlar qılınc, qalxan və xəncərlə silahlanmışdı. Başlarında şişuclu dəbilqə, bədənlərində dəmir geyim onları qoruyurdu. Hər bir drujina öz knyazının yanında döyüşürdü. Knyaz və ya boyar döyüş vaxtı öz drujinasına başçılıq edirdi. Əlbəyaxa döyüş vaxtı xüsusi cangüdənlər knyazı öz bədən və qalxanları ilə düşmən oxu və qılınc zərbəsindən qoruyurdu.

Drujina qədim rus ordusunun yalnız bir hissəsini təşkil edirdi. Başqa bir hissə isə smerd və sənətkarlardan ibarət olmuş «polk» və yaxud sadəcə «voi» idi. Onları böyük knyaz və yaxud knyazlar ölkə üçün xarici təhlükə mövcud olduğu zaman, yəni peçeneq və qıpçaqların basqınları vaxtı və ya uzun yürüşlərlə əlaqədar olaraq orduya cəlb edirdilər. Polklara daxil olmuş şəhərlilər on və ya yüz nəfərdən ibarət dəstələrə ayrılırdı ki, onların da başında onbaşı və yüzbaşı dayanırdı. Kənd əhalisi polklara öz ağsaqqalları ilə daxil olaraq onlar da on və yüz nəfərlik dəstələrə bölünürdü. «Polk»a isə «minbaşı» («тысяцкий») başçılıq edirdi. «Voi»lərin silahları sadə olub oxqabı, ox, nizə və ya ağır hərbi baltadan, əlbəyaxa döyüş üçün isə bıçaqdan ibarət olmuşdur. Baha olduğu üçün dəmir geyimləri olmasa da, hər birinin əlində qalxan olurdu. Döyüş hər iki tərəfin meydana göndərdiyi bahadırların qarşılaşması ilə başlayırdı. Döyüş vaxtı qalxan, nizə, balta ilə silahlanmış piyadalar düşmən süvarisinin önünü kəsmək məqsədilə mərkəzdə yerləşirdi. Sağ və sol cinahlarda süvari döyüşçülər, knyaz drujinası yerləşirdi ki, mərkəz düşmən hücumunun qarşısını kəsdikdən sonra onlar cinahlardan düşməni mühasirəyə alıb məhv etsinlər. Tez-tez rus qoşunları ilə birlikdə muzdlu əsgərlər və yaxud müttəfiq xarici tayfa nümayəndələri, o cümlədən varyaqlar, torklar və b. hücumda iştirak etmişdir. Kiyev knyazları peçeneq və qıpçaqları da hərbi xidmətə qəbul edərək bəzən öz yurddaşlarının üzərinə aparmışdır. Muzdlu və mütttəfiq qoşun bir qayda olaraq rus əsgərlərinə qarışmayaraq öz komandirlərinə tabe olurdu. Uğursuzluq məqamında onlar tez-tez döyüş meydanından qaçırdı. Rus ordusu düşmən qalasına hücum etdikdə xüsusi mühasirə qurğularından, o cümlədən tarandan, yəni ucu dəmir tirdən, daşatıcıdan, hücum nərdivanından, hərəkət edən ağac qüllədən və s. istifadə edirdi.

# III FƏSİL
# RUS TORPAQLARI VƏ KNYAZLIQLARI XII-XIII ƏSRLƏRDƏ

## §1. Müstəqil rus knyazlıqlarının yaranması. Kiyev knyazlığı

Salnamənin təsdiq etdiyi kimi, 1132-ci ildə I Böyük Mstislavın ölümündən sonra Rusun parçalanması artıq fakt idi. Bu Moskva böyük knyazı III İvanın Oka və Volqa çayları arasındakı şimal-şərqi Rus və Novqorodu əhatə edən şimal-qərbi Rus torpaqlarını Moskva dövlətinə birləşdirdiyi XV əsrin sonlarına kimi davam etmişdir. Məhz XII əsrin əvvəllərindən XV əsrin sonlarına kimi davam edən bu dövrü udel (knyaz və feodalların idarə etdiyi yerlər) dövrü kimi səciyyələndirmişlər. Həqiqətən XII əsrin ortalarına doğru Kiyev Rusundan təqribən 15, XIII əsrin əvvəllərində 50, XIV əsrdə 250 knyazlıq və torpaq əmələ gəlmişdir.

Rus dövlətinin siyasi parçalanmasının səbəblərindən biri iqtisadi inkişafla bağlı iri torpaq sahibliyinin və şəhərlərin artıb möhkəmlənməsi olmuşdur. Knyaz drujinaçıları yalnız xəracla deyil, öz torpaq sahələrindən əldə etdikləri gəlir hesabına yaşamağa başlamışdı. Boyarların malikanələrində natural təsərrüfat mövcud olduğu üçün onlar lazım olan hər şeyi buradan əldə edirdilər. Bu isə yerli knyaz və boyarların Kiyevdən asılı olmadan yaşamasına və özlərini müstəqil sahib kimi aparmasına şərait yaratmışdır.

Yerlərdə təsərrüfat əlaqələrinin inkişaf edib möhkəmlənməsi nəticəsində ticarət münasibətləri daha da irəliləmişdir. Köhnə ticarət yolları öz əhəmiyyətini itirdiyi üçün yeni əlaqələr yaratmaq vacib olmuşdur. Başqa dövlətlərlə ticarət münasibətləri yaratmağa cəhd edən yerli knyazlar Kiyevlə daha az əlaqə saxlayırdılar.

Avropa və Ön Asiyada yeni ticarət yollarının yaranması Kiyevin tarixi mövqeyini itirməsinə səbəb olmuşdur. İtaliya şəhərlərinin və tacirlərinin fəallaşması Cənubi Avropa və Aralıq dənizi sahillərinin Qərbi və Mərkəzi Avropa, Bizans və Kiçik Asiya arasındakı sıx əlaqələrə təkan verdi. Səlib yürüşləri Yaxın Şərqi Avropaya yaxınlaşdırdı. Şimali Avropada fəallaşan alman şəhərləri Kiyevdən yan keçərək Novqorod və başqa Şimali-Qərbi rus şəhərləri ilə ticarət əlaqələri saxlayırdı. Artıq «Varyaqlardan yunanlara» gedən yol unudularaq öz əhəmiyyətini itirmişdi.

Kiyev Rus dövlətinin siyasi parçalanmasının əsas səbəblərindən biri də Ryurikoviçlər sülaləsindən olan knyazlar arasında olan ziddiyyət və onların böyük knyazlıq uğrunda apardıqları çəkişmədə ailə mənafeyini müdafiə etmələri olmuşdur. XI əsrin sonlarından başlayaraq iki əsas knyaz qruplaşması, o cümlədən Kiyev knyaz nəslindən olan Monomaxoviçlər (Kiyev knyazı Vladimir Vsevoldoviç Monomaxın nəsli) və Olqoviçlər (Yaroslav Mudrının nəvəsi, Çerniqov knyazı Oleq Svyatoslaviçin nəsli) arasındakı mübarizə daha amansız olmuşdur. Bəzən Monomaxoviçlərin öz içərilərində belə yaxın qohumlar, ata və oğullar Olqoviçlərlə ittifaqa girərək bir-biri ilə amansız mübarizə aparmışdır.

Kiyev Rus dövlətinin siyasi və feodal parçalanması faktiki olaraq 1132-ci ildən başlasa da əslində bu prosesin əsası xeyli əvvəldən qoyulmuşdur. Təsadüfi deyil ki, tarixçi alim V.O.Klyuçevskiyə görə, dövlətin udellərə bölünməsi tarixin 1132-ci ildən deyil 1054-cü ildən, yəni Yaroslav Mudrının vəsiyyəti ilə torpaqları öz uşaqları arasında bölməsindən hesab etmək lazımdır. T.V.Çernikova görə 1132-ci ildən sadəcə olaraq knyazlar böyük Kiyev knyazının bütün Rusun başçısı olması ilə hesablaşmadılar.

Kiyev knyazlığı rus torpaqlarının siyasi mərkəzi olmaq əhəmiyyətini itirsə də, «Rus şəhərlərinin anası» tarixi şöhrətini saxlamışdır. O, rus torpaqlarının kilsə mərkəzi idi. Başlıcası Kiyev knyazlığı Rusdakı məhsuldar torpaqların mərkəzində yerləşmişdir: Dnepr «Avropa yolu» əhəmiyyətini itirsə də, şərqi slavyanların başlıca su yolu olaraq qalırdı. Burada çoxlu iri sahibkar votçina təsərrüfatları və böyük əkinçilik əraziləri mövcud idi. Kiyevdə, o cümlədən knyazlığın Vışqorod, Belqorod, Vasilev, Turov, Vitiçev və d. şəhərlərində minlərlə sənətkar çalışırdı ki, onların hazırladığı məhsullar Rusda və onun sərhədlərindən kənarda belə şöhrət qazanmışdı. Kiyev knyazlığının ərazisi Dneprin sağ sahilinin geniş torpaqlarını, Pripyat çayının demək olar ki, bütün hövzəsini, cənub-qərbdə Volın knyazlığının sərhədlərinə kimi uzanmış torpaqları əhatə edirdi. Cənub, cənub-qərb və cənub şərqdən Kiyev əvvəllər olduğu kimi şəhər-qalalar zolağı ilə mühafizə olunurdu.

1132-ci ildə Böyük Mstislavın ölümü ilə Kiyev taxtı uğrunda Monomaxoviçlərlə (Monomaşiçlər) Olqoviçlər arasındakı mübarizə Kiyev tarixinin dönüş nöqtəsi oldu. Məhz XII əsrin 30-40-cı illərində Kiyev enerjili hakimiyyətpərəst Yuri Dolqorukinin idarə etdiyi Rostov-Suzdal torpaqları, boyarların özlərinə knyaz seçməyə başladığı Novqorod və Smolensk üzərində nəzarəti itirmişdir. Növbəti mübarizədən sonra Kiyev taxtına Oleq Çerniqovskinin nəvəsi knyaz Svyatoslav Vsevoldoviç sahib olmuşdur. Məhz «İqor polku haqqında dastan» («Слово о полку Игореве») müəllifi onu qüdrətli və ha-

kim knyaz kimi bütün rus torpaqları üçün avtoritet olaraq təsvir etmişdir. O, öz gənc əmisi oğlu şimaldan olan «İqor polku haqqında dastan»ın qəhrəmanı knyaz İqora qıpçaqlar üzərinə yürüşü ləngidərək ümumrus qüvvələrinin yığılmasını gözləməyi nəsihət etmişdir. Lakin Svyatoslav Olqoviçin oğlu və məşhur Oleq Çerniqovskinin nəvəsi İqor Svyatoslaviç ehtiyatlı knyazın səsinə qulaq asmayaraq hazırlıqsız çölə hərəkət etmiş və məğlub olmuşdur.

Kiyev knyazlığı üçün keçmiş böyük Avropa siyasəti, Avropanın mərkəzinə, Bizans və Şərqə təşkil edilmiş uzaq yürüşlər tarix olaraq qalmışdır. İndi Kiyevin xarici siyasəti qarşısında iki istiqamət qalmışdı: birincisi, qıpçaqlara qarşı əvvəlki yorucu mübarizəni davam etdirmək; ikincisi, ildən-ilə güclənən Rostov (Vladimir)-Suzdal knyazı Yuri Dolqoruki vaxtında işğal edilmiş Pereyaslavlla bərabər, Kiyevin özünü şimal-şərq və cənub-şərqdən hədələyən knyazlıqla mübarizə aparmaq idi.

Başqa knyazlıqların köməyi ilə qıpçaq təhlükəsinin qarşısını almağı təmin etmiş Kiyev üçün şimal-şərq qonşusu ilə bacarmaq çətin idi. Yuri Dolqorukinin ölümündən sonra Vladimir-Suzdal knyazlığının taxtına onun oğlu Andrey Yuriyeviç Boqolyubsk keçdi ki, o da 60-cı illərdə Monomaxlar sülaləsindən olan knyazın Kiyev böyük knyaz taxtına hüququnu bəyan etmişdir. Vladimir-Suzdal knyazı özünün müttəfiq knyazları ilə 1169-cu ildə Kiyevi üç günlük mühasirədən sonra ələ keçirmişdir. Kiyev öz tarixi ərazisində birinci dəfə xarici düşmən tərəfindən deyil, öz rusları tərəfindən işğal edilmişdi. Bir neçə gün şəhərə daxil olmuş drujina onu soydu, kilsələri yandırıb əhalini öldürərək şəxsi evləri və monastrları talan etdi.

Lakin təhlükə ötüşdükdən sonra belə dəhşətli dağıntıya baxmayaraq böyük knyazlığın mərkəzi tam həyatını yaşamağa başlamışdır. Yaraşıqlı saray və məbədlər, gözəl binalar bərpa edilərək müasirlərini heyran qoyurdu. Məhz Kiyevdə «İqor polku haqqında dastan» yaranmışdır. Svyatoslav Vsevolodoviçin dövründə Kiyev sakitlik və firavanlığa qovuşmuşdur.

Kiyevdə növbəti knyaz olmuş Roman Mstislaviç Volınski ov zamanı özünün qərb ərazilərində uzaq məsafə qət etdiyi üçün polyaklar tərəfindən öldürülmüşdür. Bu hadisə 1205-ci ildə baş vermişdir. Daxili mübarizə yanğınında bir-birinin ardınca rus knyazları məhv olur, rus şəhərləri yanırdı.

## §2. Çerniqov və Şimal knyazlığı

Çerniqov Yaroslav Mudrının qardaşı Mstislavın ona qalib gələrək Çerniqovdan Tumtarakana kimi torpaqların hökmdarı olduqdan sonra ayrılmağa cəhd etmişdir. Onun ölümündən sonra Rus yenidən bərpa olunmuş, Çerniqov və Svyatoslav Yaroslaviçin və onun oğlu Oleqin dövründə növbəti dəfə ayrılmağa cəhd etmişdir. Lakin bu zamanlar Kiyev idarəçiliyi hakimiyyətini güclü əli ilə saxlamışdı. Burada Vladimir Monomax və onun oğlu Mstislav knyazlıq etdiyi zamanlar Çerniqov itaətlə ümumrus siyasətinə tabe olmuşdur. Lakin buna baxmayaraq ildən-ilə Çerniqov knyazlığı daha çox fərqlənirdi. Bu hər şeydən əvvəl knyaz Oleq Svyatoslaviç və onun qoçaq oğlanlarının şəxsi keyfiyyətilə deyil, diyarın iqtisadi və siyasi xüsusiyyətilə bağlıdır. Çerniqov özü böyük Rus şəhərlərindən birinə çevrilmişdi. Burada votçina torpaq sahibliyinə əsaslanan güclü boyar qrupu formalaşmışdı. Öz baş keşişləri var idi. Şəhərdə əzəmətli məbədlər, xüsusi ilə baş kilsə Spas, çoxlu monastrlar ucadılmışdı. Çerniqov knyazlığının döyüşlərdə sınaqdan çıxmış güclü drujinası mövcud idi. Knyazlığın tacirləri bütün Rus torpaqları, hətta onun sərhədlərindən kənarda belə ticarət edirdilər. Çerniqov knyazlığının ərazisi Taman yarımadasından Smolensk knyazlığının sərhədlərinə kimi, Vyatiç meşələrindən, Rostov-Suzdalın Moskva şəhəri sərhədindən qıpçaq çölünə kimi geniş bir sahəni əhatə edirdi. Knyazlığın tərkibinə böyük və tanınmış şəhərlər daxil idi. Bunların arasında severyanlıların torpağında təsis edilmiş yeni Novqorod-Seversk, Putivl, Lyubeç, Rılsk, Kursk, Starodub var idi. Sonradan Bryansk, Kozelsk, Mosalks, Veorotınsk, Mtsensk kimi şəhərlər də məşhurlaşmışdır. Murom və Ryazan da bir sıra illər ərzində Çerniqov knyazlığının tabeliyində olmuşdur. XII əsrin 40-50-ci illərində Desna çayı üzərindəki Novqorod başda olmaqla Seversk torpaqları qismən Çerniqovdan ayrılmışdır. Burada Olqoviçlərin qolundan olan knyaz möhkəmlənmişdir. Buna baxmayaraq, Çerniqov knyazı Seversk knyazlarının ali suzereni idi.

Oleqin və qardaşlarının ölümündən sonra Çerniqovda hakimiyyət onun böyük oğlu Vsevolda keçdi. Sveresk torpağında «İqor polku haqqında dastan»nın uğursuz qəhrəmanı, Novqorod-Severskin məşhur knyazının atası Svyatoslav Olqoviç knyazlıq etməyə başladı. XII əsrin ikinci yarısında Çerniqov knyazları Monomax sülaləsinin nümayəndələri ilə öz əhəmiyyətini itirməyə başlamış Kiyev taxtı uğrunda mübarizə aparmışdır. İlk zamanlar bu mübarizədə monomaxoviçlər qalib gəlsə də, Ryurikoviçlər nəslinin böyüyü Vsevold Olqoviç Kiyevdə möhkəmlənmişdir. O, yalnız bir müddət taxtı tanınmış Rostov-Suzdal knyazı Yuri Dolqorukiyə təhvil verməyə məcbur olmuşdur.

XII əsrin 80-ci illərində Vsevold Olqoviçin oğlu Svyatoslav böyük olduğu üçün Çerniqov böyük knyaz titulunu saxlamaqla Kiyev taxtına sahib olmuşdur. Məhz dastanda bəhs edilmiş Seversk knyazı İqorun 1185-ci ildə qıpçaqlara qarşı yürüşü ilə bağlı hadisə o zamankı Çerniqov və Seversk knyazlarının Kiyev və qıpçaq çölünə qarşı siyasətinin mahiyyətini açır.

Hələ 1180-ci ildə İqor digər Çerniqov və Seversk knyazları ilə birlikdə qıpçaqlarla ittifaqda Smolensk torpaqları uğrunda döyüşmüşdür. Sonra qıpçak xanları Konçak və Kobyakla birlikdə Monomaxlar nümayəndəsinin knyazlıq etdiyi Kiyevə hücum etmişdir. Çerniqov və Seversk knyazları onların nəslinin böyüyü Svyatoslav Vsevoldoviçi Kiyev taxtına əyləşdirmək məqsədi daşıyırdı. Kiyev uğrundakı döyüşdə Çerniqov knyazı məğlub oldu, İqorun müttəfiqi qıpçaqlar Kiyev döyüşçüləri tərəfindən darmadağın edildi, knyaz İqor gələcək rəqibi Konçak xanla bir qayıqda Dnepri keçərək məhv olmaqdan xilas oldu. Bir müddət sonra Svyatoslav Kiyevin o zamankı hökmdarı ilə sülh bağlayaraq Kiyev taxtını ələ keçirdi. Kiyevdə iki knyaz – biri Monomaxların, o biri isə Olqoviçlərin nümayəndəsi kimi fəaliyyətə başladı.

İndi iki əmi oğlu Svyatoslav və İqor biri Kiyevin, o biri Novqorod-Severksin knyazı kimi Rus torpaqlarına hər il basqın edən qıpçaqlarla mübarizəyə başlamışdır. Kiyev knyazı Svyatoslav Pereyaslav, Volın və Qaliç knyazları ilə birlikdə hücum təşkil edərək Dneprin astanasındakı Kobyak xanın qıpçaq dəstəsini darmadağın etdilər. Eyni vaxtda İqor Kursk knyazı Vsevoldla birlikdə özünün keçmiş müttəfiqi Konçak xanın Don qıpçaqlarına qarşı müvəffəqiyyətli yürüş təşkil etmişdir. 1185-ci ilin yazının erkən çağında Konçak cavab yürüşünə çıxdı. Ona qarşı çıxan Kiyev drujinası yenə qələbə çaldı. Svyatoslav Kiyevski qıpçaq çölünün içərilərinə yürüş edərək onları yenidən məğlubiyyətə uğradıb çoxlu qənimət və əsir ələ keçirdi. 1185-ci il yaz döyüşlərində Çerniqov və Seversk knyazları bitərəflik qaydasına riayət edərək iştirak etməmişdir. Kiyev knyazı tərəfindən qıpçaqlar məğlub edildikdən sonra İqor qərara aldı ki, qüvvəsi tükənmiş qıpçaqlara hücum edərək qənimət payını alsın. Seversk knyazının təkbaşına yeni yürüş ideyası belə yaranmışdır.

1185-ci il aprelin 23-də Seversk knyazının dəstəsi çölə daxil oldu. Şimali Donla və Azov dənizi arasında rus qoşunları peçeneqlərin ilk dəstəsi ilə qarşılaşaraq onları dağıtdı və çoxlu qənimət ələ keçirdi. Ertəsi gün qıpçaqların əsas qüvvəsi Konçak xanın başçılığı ilə köməyə tələsdi. Üç gün Azov sahillərinin yaxınlığındakı Qayalı çayının sahilində ruslarla qıpçaqlar arasında qanlı vuruşma baş verdi. Rus drujinası demək olar ki, məhv edildi. Knyaz İqor, digər bəzi knyaz və boyarlar əsir düşdü.

Qıpçaqlar Rus üzərinə, o cümlədən Seversk Pereyaslavl və Kiyev torpaqları istiqamətində hücuma keçdi. Hazırlıqsız və az bir qüvvə ilə hücum təşkil etmiş İqorun yürüşü qıpçaqların irimiqyaslı hücumunu qızışdırmışdı. Yalnız gərgin qüvvə sərf edərək rus knyazları bu hücumun qarşısını ala bilmişdir.

Əsirlikdən qaçmağa müvəffəq olmuş knyaz İqor 1198-ci ildə Olqoviçlər soyunun böyük nümayəndəsi olaraq Çerniqov böyük knyazı olmuşdur. 1150-ci ildə anadan olmuş knyaz İqor 1202-ci ildə Çerniqovda ölmüşdür.

## §3. Qaliç-Volın knyazlığı

Keçmiş Vladimir-Volın torpaqları əsasında təşəkkül tapmış Qaliç-Volın knyazlığı Rusun qərb və cənub-qərb sərhədlərində yerləşmişdir. XI-XII əsrlərdə Vladimir-Volını böyük Kiyev knyazının göndərdiyi ikinci dərəcəli knyazlar idarə edirdi. Burada böyük knyaz Svyatoslav Yaroslaviçin canişini kimi gənc Vladimir Monomax hakimiyyətdə olmuşdur.

Qaliç-Volın təsərrüfat, ticarət və ətraf dünya ilə siyasi əlaqələrin əlverişli olduğu ərazidə yerləşmişdi. Onun sərhədləri bir tərəfdən Karpat dağlarının önünə və Dunayın axınına dayanırdı. Buradan Macarıstana, Bolqarıstana, Dunay çayı vasitəsilə Avropanın mərkəzinə, Balkan ölkələri və Bizansa ticarət yolları uzanırdı. Şimaldan, şimal-şərq və şərqdən bu torpaqlar Kiyev knyazlığı ilə qonşu idi ki, onlar da əvvəlki gücünü itirsə də, qonşularını qüdrətli Rostov-Suzdal knyazlarının basqınından qoruyurdu.

Bu ərazidə vahid Rus dövlətinin mövcud olduğu illərdə bir sıra iri şəhərlər, o cümlədən I Vladimirin şərəfinə adlandırılmış Vladimir-Volın şəhəri inkişaf edib möhkəmlənmişdir. Şəhər uzun illər böyük knyaz canişininin iqamətgahı olmuşdur. Eyni zamanda, duz ticarətinin mərkəzinə çevrilmiş Qaliçdə XII əsrin ortalarından güclü boyar dəstəsi və fəal şəhər təbəqəsi yaranmışdır. Vaxtı ilə az əhəmiyyət kəsb edən Vladimir-Volın ömürlük Yaroslav Mudrının vaxtsız vəfat etmiş böyük oğlu Vladimirin soyundan olan Rostislav Vladimiroviçə verilmişdir. Artıq Peremışl, Doroqobuj, Terebovl, Bujesk, Turiysk, Çerven, Lutsk, Xolm kimi şəhərlər Rostislaviçlərə məxsus idi. Zənginliyi və gözəlliyi ilə seçiliş bu şəhərlər daş qalaları, iç binaları ilə diqqəti cəlb edirdi. Nə vaxtsa bu şəhərlərin çoxu Vladimir, sonra isə Yaroslav Mudrı tərəfindən Polşadan ələ keçirilmişdir. Onlar Rusun tərkibinə daxil olaraq sonradan iki böyük şəhər – Vladimir-Volın və Qaliçlə birlikdə müstəqil Qaliç-Volın knyazlığının dayağı olmuşdur.

XII-XIII əsrlərin qovuşuğunda knyaz Roman Mstislaviç Volınski Volın və Qaliç knyazlıqlarını birləşdirərək Rusun cənub-qərbində böyük və qüdrətli Qaliç-Volın knyazlığını yaratmışdır. Bu baş tutana kimi Qaliç-Volın torpaqları xeyli dramatik hadisələrin, knyazlar, boyarlar arasındakı qanlı çəkişmənin, xarici dövlətlərin, xüsusilə macar və polyakların siyasi münaqişələrə müdaxiləsinin şahidi olmuşdur.

Uzun mübarizədən sonra Qaliç taxtına Yuri Dalqorukinin qızı Olqa ilə evli olan ağıllı, döyüşkən Yaroslav Osmomısl sahib olmuşdur. Məhz onun zamanı Qaliç knyazlığı özünün zənginliyi, Macarıstan, Polşa, Bizansla əlaqələri sayəsində önə çıxmışdır.

Qaliç knyazlığı Rostislaviçlərin möhkəm hakimiyyəti altında olduğu kimi, Volın knyazlığında, Vladimir şəhərində Monomax soyu hökmdarlıq edirdi. Burada Monomaxın nəvəsi İzyaslav Mstislaviç knyazlıq edirdi. Sonra Monomaxoviçlər Volın knyazlığını bir neçə udel knyazlıqlarına böldülər.

XII əsrin sonlarından başlayaraq digər böyük rus dövlət-knyazlıqda da birləşməyə, mərkəzləşdirilmiş hakimiyyətə meyil meydana çıxmağa başlamışdır. Xüsusilə bu xətti knyaz Roman Mstislaviç daha qətiyyətlə həyata keçirmişdir. Şəhərlilərə, kiçik torpaq sahiblərinə arxalanmış knyaz boyarların müqavimətini qıraraq udel knyazlarını özünə tabe etmişdir. Yaroslav Osmomıslın ölümündən sonra Qaliçdəki hakimiyyət çəkişməsindən istifadə edərək 1199-cu ildə Roman Mstislaviç Volın və Qaliçi birləşdirmişdir. Sonradan o, Kiyev böyük knyazı olaraq Almaniya imperiyasının ərazisinə bərabər olan böyük torpaqlara sahib olmuşdur. Roman Mstislaviç Yaroslav Osmomısl kimi mərkəzləşdirilmiş hakimiyyət siyasətini davam etdirərək boyarların separatizmini qıraraq şəhərlərin inkişafına şərait yaratmışdır. Fransa, İngiltərə və Avropanın digər dövlətlərində meydana gəlməkdə olan mərkəzləşdirilmiş hakimiyyət siyasəti yolu ilə davam edən böyük rus knyazlıqlarının hökmdarları torpaq münasibətlərinə əsasən onlardan asılı olan kiçik torpaq sahiblərinə və inkişaf etməkdə olan şəhərlərə arxalanırdı.

Roman Mstislaviçin siyasətini onun oğlu, Monomaxlar nəslinin beşinci budağı Daniil Romanoviç davam etdirmişdir. 1205-ci ildə atası vəfat etdikdə onun cəmi dörd yaşı olmuşdur. Qaliç-Volın boyarları baş qaldırdığı üçün knyaginya azyaşlı varislə Polşaya qaçmağa məcbur olmuşdur. Boyarlar Qaliçdə knyazlıq etməyə İqor Severskinin oğlanlarını dəvət etmişdir. Hakimiyyət mübarizəsi nəticəsində bir çox boyar ailəsi öldürülmüş, ən çox isə sadə adamlar döyüş meydanında, təsərrüfatları isə arxa cəbhədə məhv olmuşdur.

1211-ci ildə Daniil Qaliçə dönsə də, boyarlar onu və anasını yenidən qovaraq hakimiyyəti öz tərəfdarına vermişdi ki, bu bütün Ryurikoviçlər arasında

narazılığa səbəb olmuşdur. Yalnız 1221-ci ildə Daniil Volın taxtını geri qaytarmış, 1234-cü ildə isə Qaliçdə möhkəmlənmişdir. İstedadlı sərkərdə olan knyazın şəxsi qəhrəmanlığı haqqında əfsanələr danışılmaqdadır. Zəngin Qaliç boyarları ilə mübarizədə Daniil Romanoviç şəhərlilərə və drunijanaya arxalanmışdır. Lakin Daniil Romanoviç knyazlıqda möhkəmləndikdən sonra da boyarlar onun mərkəzləşdirilmiş hakimiyyət siyasətinə qarşı mübarizə apararaq Macarıstan və yaxud Polşa ilə gizli sövdələşərək knyazlığın siyasi və hərbi gücünü sarsıtmağa səy göstərmişdir.

### §4. Böyük Novqorod

Müasirlərinin adlandırdığı «Ağa Böyük Novqorod» («Господин Великий Новгород») rus knyazlıqları arasında xüsusi yer tutmuşdur. Novqorod torpaqları Baltikdən Ural dağlarına qədər, Ağ dənizdən və Şimal Buzlu okeanından Volqa və Oka çayları arasındakı böyük məsafələrə kimi nəhəng əraziləri əhatə etmişdir.

Artıq IX əsrdə Rusun şimal-qərbində mərkəzi slavyan torpaqları kimi tanınmış Novqorod sürətlə böyüyərək IX əsrin sonlarından Kiyevin rəqibinə çevrilmişdir. Kiyev knyazlıqları Novqoroda özünün şimal dayağı kimi baxırdı.

Novqorod, Çerniqov, Polotsk, Pereyaslavl, bir az sonra Rostov və yaxud Vladimir-Volın kimi Monomaxoviçlər, Olqoviçlər və ya Rostislaviçlər knyaz qolunun «mülkü» («опричнина») olmamışdır. Bura göndərilmiş knyazlar müvəqqəti adamlar olub onların hakimiyyəti bu torpaqlarda kök salmamışdır. Novqorodun xüsusi vəziyyəti qədim şəhərin həyat quruluşu ilə bağlı olmuşdur.

Novqorod əvvəldən varyaq knyazlarının iqamətgahı kimi deyil, ticarət və sənət mərkəzi kimi inkişaf etmişdir. Şəhər məşhur «varyaqdan yunana uzanan yol»da yerləşmişdir. Novqorodlular Şimal meşələrindən əldə etdiyi xəz ticarəti aparır, sənətkarlar daxili və xarici bazara öz məmulatlarını çıxarırdı. Novqorod ustaları dəmir və dulusçuluq, qızıl və gümüş işlərində, silah, dəri, dülgərlik sahəsində xüsusi məharətə sahib idilər. Küçə və rayonlar çox halda sənətkarlıq peşələrinin adını daşıyırdı: dəmirçi, dulusçu, zirehçi və s. Rusun başqa şəhərlərindən əvvəl Novqorodda iri tacirlərin birliyi, kredit sistemi yaranmışdır. Zəngin tacirlərin çay və dəniz gəmiləri ilə yanaşı, anbarları da var idi. Onlar zəngin daş evlər, kilsələr inşa etdirmişdilər. Novqoroda çoxlu xarici tacir gəlirdi. Burada olan «Alman» və «Qot» karvansarası alman torpaqları ilə

şəhərlərin sıx ticarət əlaqəsindən xəbər verir. Ticarətlə tacirlər, sənətkarlarla yanaşı, boyarlar, kilsə nümayəndələri, şəhər arxiyepiskopu da məşğul olurdu.

Novqorodun uğurlu təsərrüfat inkişafı yalnız şəhərlərin əlverişli təbii və coğrafi mövqeyi ilə bağlı olmayıb IX əsrdəki varyaq istilasından sonra bir daha düşmən hücumuna məruz qalmaması ilə bağlı idi. Nə peçeneqlər, nə də qıpçaqlar bu yerlərə çata bilməmişdir. Alman cəngavərləri isə sonradan meydana çıxmışdır. Bu xalqın əməyini qoruyaraq diyarın inkişafı üçün münbit zəmin hazırlamışdır.

Zamanla Novqorodda iri boyar torpaq sahibləri böyük güc əldə etmişdir. Onların torpaq mülkləri əsas ticarət məhsulları olan xəz, bal, mum, balıq və başqa torpaq, meşə, su nemətlərini verirdi. Məhz boyarlar və iri tacirlər uzun məsafələrə çay və dəniz ekspedisiyaları təşkil edərək xəzli heyvan ovçuluğu məqsədilə yeni torpaqlar əldə edirdilər. Boyarların, tacirlərin, kilsənin mənafeyi birləşərək bu ağaların Novqorodun siyasi həyatında fəal rol oynamasına səbəb olmuşdur. Onlar isə sənətkarları və başqa adamları öz arxasınca aparırdılar. Novqorod daim vahid cəbhədə Kiyevin siyasi təzyiqinə, Rostov-Suzdal knyazlığı tərəfindən olan həmlələrə qarşı sipər çəkmişdir. Novqorodlular rus torpaqlarında özlərinin xüsusi vəziyyətini, suverenliyini bir nəfər kimi müdafiə edirlər. Lakin şəhərin daxili həyatında belə bir birlik yox idi, tez-tez sadə şəhərlilərlə yuxarı təbəqə arasında toqquşma baş verir, aşağılar boyarlar, varlı tacirlər, sələmçilər əleyhinə üsyan edirdi. Dəfələrlə üsyançılar arxiyepiskop sarayına belə daxil olmuşdur. Şəhər əslzadələri arasında da birlik yox idi. Ayrı-ayrı boyar və tacir klanları bir-biri ilə rəqabət aparırdı. Onlar torpaq, gəlir, güzəşt, öz tərəfdarlarını knyaz, posadnik və minbaşı etmək uğrunda mübarizə edirdilər.

Buna oxşar vəziyyət Novqorod torpaqlarına daxil olmuş böyük şəhərlərdə – Pskov, Ladoqa, Beloozera, İzborskda da davam etmişdir. Şəhərlilərin hər biri Novqorod knyazlığının tərkib hissəsi olaraq nisbi müstəqillik, Novqorod əyanları ilə öz hüquq və imtiyazları uğrunda mübarizə aparmışdır.

Novqorod Kiyevlə yalnız təsərrüfat, ticarət işində deyil, şəhərin xarici görünüşü sahəsində də rəqabət aparmışdır. Burada Volxovun sol sahilində dağın zirvəsində daş divarlardan ucaldılmış Kremli inşa edilmişdi ki, başqa rus iç qalalarından fərqli ağac-torpaq möhkəmləndirilməsi ilə əhatə olunmuşdur. Yaroslav Mudrının oğlu Vladimir gözəlliyi və monumentallığı ilə Kiyevin Sofiyası ilə rəqabət edə bilən öz Sofiya məbədini inşa etdirmişdir. Kremlin qarşı tərəfində bazar yerləşmişdi ki, burada da adətən veçe yığıncaqları olurdu. Şəhər həyatının vacib məsələləri, hakimiyyətin seçilməsi, dəvət edilmiş knyazların namizədliyinin müzakirəsi Novqorodun hərbi siyasətinin müəyyən edilməsinə dair qərarlar qəbul olunurdu.

Novqorodun sol sahili ilə sağ sahili arasında Volxov çayı üzərindən körpü salınmışdır ki, bu da şəhərin həyatında əhəmiyyətli rol oynayırdı. Düşmənçilik edən müxtəlif novqorodlu qruplar və onların tərəfdarları dəfələrlə körpü üzərində yumruq davasına çıxmışlar. Şəhər hakimiyyətinin qərarı ilə ölümə məhkum edilmiş cinayətkarlar körpü üzərindən Volxov çayının dərinliklərinə atılırdı.

Volxov çayının sahillərində çoxsaylı körpülər yerləşmişdi. Burada çay və dəniz gəmiləri sıx şəkildə dayanmışdı. Yanğın baş verdikdə bir gəmidən o birinə keçərək digər sahilə belə çatırdı. Şəhərin ətrafında məbədlər salınmışdı ki, bunlar da əlavə müdafiə səddi yaradırdı. Şəhərin cənubunda, İlmen gölü sahilində Yuryev məbədi, şimalda isə Antoniev məbədi yerləşmişdi.

Novqorod yüksək məişət mədəniyyətinə malik idi. Çoxlu ağac döşəmələrlə fərqlənən Novqorodda hakimiyyət şəhər küçələrinin təmizliyi və qayda-qanuna xüsusi diqqət yetirirdi. Şəhərlilərin yüksək mədəniyyətini onların toz ağacı qabığı yazma sənətinə sahib olması bacaraığı sübut edirdi. Toz ağacı qramotalarını arxeoloqlar qədim Novqorod yaşayış yerlərində qazıntı apararkən aşkar etmişdir. Təkcə boyarlar deyil, tacirlər və sadə adamlar da bir-birinə qramotalar göndərirdi. Bu borc iltizamı, istiqraz xahişi, dəfnə dəvət, arvadına kağız, ərizə qramotası, sevgi məktubu və hətta şeirdən ibarət qramotalar idi.

Novqorodun bu torpaqlara daxil olmuş şəhərlərin təsərrüfat, siyasi, sosial və mədəni xüsusiyyəti ona gətirib çıxarmışdır ki, ölkənin şimal və şərqi birləşdikdən sonra Novqorod özünün «ayrıcalığı» uğrunda daim Kiyevlə mübarizə aparmışdır. Artıq XI əsrdə Kiyev knyazlarının canişin oğullarını qəbul edən yerli əyanlar çalışırdı ki, öz knyazlarını elə «yedizdirsin ki» onlar «Ağa, Böyük Novqorod»un mənafeyini müdafiə etsin.

Kiyev knyazlarının hakimiyyətinin zəifləməsi, siyasi seperatizmin inkişafı Novqorodun Kiyevdən daha çox müstəqillik sərgiləməsinə zəmin hazırlamışdır. Bu xüsusilə Böyük Mstislavın ölümündən sonra daha açıq şəkildə özünü büruzə vermişdir. Kiyev taxtında Monomaxın digər oğlu Yaropolk əyləşmişdi. Novqorodda isə Vsevold Mstislaviç knyazlıqda davam etmişdir. O, Novqorodu tərk edərək Pereyaslavl taxtına uğursuz cəhd etdikdən sonra geri dönərkən şəhər knyazı qəbul etməyərək qovmuşdur. Ancaq Novqorodun qoşuna komandanlıq etməsi, sərhədlərin qorunması üçün knyaza ehtiyacı var idi. Odur ki, Vsevold Mstislaviçin yaxşı dərs aldığını düşünən boyarlar onu geri qaytarmışdır. Lakin Kiyev hakimiyyətinin ruhunda tərbiyə almış knyaz öz sülalə mənafeyi nöqteyi-nəzərindən çıxış edərək Novqorodu Suzdalla mübarizəyə cəlb etmişdir ki, bu qarşıdurmada da Novqorod qoşunu məğlub olmuşdur. Bu hadisə novqorodlu boyar, tacir, kilsə xadimləri və «qara camaat»ın knyaza qarşı çıxmasına səbəb oldu. 1136-cı il mayın 28-də Pskov və Ladoqa nümayəndələrinin işti-

rakı ilə Veçe yığıncağının qərarı əsasında knyaz və ailəsi Arxiyepiskop sarayında nəzarət altına alınaraq iki ay 30 nəfər silahlı döyüşçünün əhatəsində saxlanılmışdır. Sonra onu sadə adamların mənafeyini müdafiə etmədiyi, suzdallılarla mübarizədə orduya pis başçılıq etdiyi, Novqorodu cənubdakı knyaz ailəsi daxili çəkişməsinə cəlb etdiyi üçün şəhərdən qovdular.

1136-cı il hadisəsindən sonra Novqorodda hakimiyyət qəti olaraq iri boyarları, zəngin tacirləri, arxiyepiskopu təmsil edən şəhər əslzadələrinin əlinə keçdi. Novqorod başqa rus knyazlıqlarından fərqli olaraq tam müstəqillik yolu ilə irəliləyərək bir neçə iri boyarın, zəngin tacir soyadının, posadnikin və arxiyepiskopun siyasətini müəyyənləşdirdiyi özünəməxsus aristokratik respublikaya çevrildi.

## §5. Vladimir-Suzdal knyazlığı

Rusun şimal-şərqi uzun müddət şərqi slavyan topraqlarının ən ucqar əyalətlərindən olmuşdur. XI-XII əsrlərdə Orta Dnepr boyundakı Kiyev, Novqorod, Çerniqov və digər şəhərlər özlərinin əlverişli coğrafi mövqeyinə, təsərrüfat və siyasi inkişafına görə şərqi slavyan əhalisinin əsas hissəsini öz ətrafında cəmləşdirərək inkişaf etmiş, iqtisadi, siyasi, dini və mədəni mərkəzlərə çevrilərək vahid dövlətin meydana gəlməsinin əsasını təşkil etdikləri bir zamanda Vladimir-Suzdal knyazlığının yarandığı Oka, Volqa, Klyazma çayları arasındakı ərazilərdə ibtidai əxlaq hakim olmuşdur.

Yalnız VIII-IX əsrlərdə burada cənub-qərbdən hərəkət edən vyatiç tayfaları meydana çıxmışdır. Bu zamana kimi burada diyarın əsas yerli xalqları olan uqro-fin, qərbdə isə balt tayfalrı sakin olmuşdur. Torpaqların slavyan mənimsənilməsi iki istiqamətdə – Orta Dnepr ətrafından cənub-qərb və qərbdən, Novqorod torpaqlarından Belozera və Ladoqadan şimal-qərbdən davam etmişdir.

Oka, Volqa, Klyazma çayları arasındakı ərazidə xüsusilə gələcək Suzdal Rusunda əkinçiliyə əlverişli olan torpaqların mövcudluğu, yüz kilometrlərlə uzanmış otlaqlar slavyan əhalisini bu yerlərə cəlb etmişdir. Əlverişli iqlim əkinçilik və maldarlığın inkişafına imkan yaradır, sıx meşələr xəzlə zəngin olub, giləmeyvə, göbələk, arıçılığın verdiyi bal və mumla məşhur idi. Geniş və sakit axan çaylar balıqla dolu idi. Ciddi və sistemli əmək sayəsində bu torpaqlar sakinləri yedizdirib, geyindirib, ev tikmələri üçün materialla təmin edib, yaşamaq məqsədilə hər imkana sahib idi.

Şimal-şərqi Rus torpaqları, eyni zamanda demək olar ki, xarici istilaçıların basqınlarına məruz qalmamışdır. Bizim eranın I minilliyində köçərilərin amansız basqınları bura gəlib çatmamışdır. Sonra bu torpaqlar varyaqların qılıncını, qıpçaq atlarını görməmişdir. Buradakı həyat Orta Dneprdə olduğu kimi parlaq və dinamik olmasa da, sakitliyi ilə diqqəti cəlb edir. XII əsrdə Vladimir-Suzdal nəsillər arasındakı mübarizədə fəal rol oynasa da, özü təsadüfən qanlı toqquşma meydanına çevrilmişdir. Knyazlar tez-tez öz drujinasını cənuba – Çerniqov, Pereyaslavl, Kiyev və hətta Vladimir-Qaliç Rusuna kimi aparmışdılar. Bütün bunlar tədricən torpaqların mənimsənilərək inkişaf etməsinə, ticarət faktoriyalarının, varlı şəhərlərin salınmasına şərait yaratmışdır. XI əsrdə bu torpaqlarda Rostov, Suzdal, Yaroslavl, Murom, Ryazan kimi şəhərlər mövcud idi. Vladimir Monomaxın dövründə onun şərəfinə Klyazma üzərində Vladimir və Pereyaslavl (şimal) şəhərləri salınmışdı.

XII əsrin ortalarında Vladimir-Suzdal Rusu şərqi slavyan, urqo-fin, balt torpaqlarının böyük ərazilərini əhatə edirdi. Onun sərhədləri şimalın Tayqa meşələrindən başlayaraq aşağı Şimali Dvinadan, Ağ dənizin sərhədlərindən cənubda qıpçaq çölünün sərhədlərinə qədər, Volqanın yuxarılarından şərqə Smolensk və qərb, şimal-qərbdə Novqorod ərazisinə kimi uzanırdı.

Rostov, sonradan Rostov-Suzdal knyazlığı adlanmış Vladimir-Suzdal Rusu Vladimir Monomaxın knyazlığı dövründə yüksəlmişdir. Burada knyazlıq etməyə özünün kiçik oğlanlarından Yuri Vladimiroviçi göndərmiş Vladimir Monomax qıpçaqlarla sülh bağlayaraq oğlunu Qıpçaq xanının qızı ilə evləndirmişdir. Zamanla Yuri kiçik qardaş olaraq başqa qardaşlarının kölgəsində qalmışdır.

Yaşa dolduqca, yaşlanmış knyazlar dünyasını dəyişdikcə Rostov-Suzdal knyazının səsi Rusda daha tez-tez eşidilməyə başlamış, o, ümumrus məsələlərində birinciliyə iddiasını ortaya qoymuşdur. Birincilik məsələsi yalnız Dolqoruki ləqəbi almış knyazın başqa torpaqları işğal etməsi siyasətilə əlaqədar olmayıb, böyük ərazisi olan diyarın iqtisadi, siyasi, mədəni xüsusiyyətləri ilə bərabər öz iradəsinə müvafiq yaşamaq məqsədi olmuşdur. Bu əsasən böyük və zəngin şimal-şərq şəhərlərinə aid idi. Qədim şəhərlər Rostov və xüsusilə Suzdalda güclü boyar təbəqəsinin olması şəraitində knyazlar özünü narahat hiss etdikəri halda Vladimir, Yaroslavl kimi yeni şəhərlərdə knyazlar şəhər təbəqəsini, tacirlərin üst qrupuna, sənətkarlara və xidməti müqabilində böyük knyazdan torpaq almış kiçik torpaq sahiblərinə arxalanırdı.

XII əsrin ortalarından Yuri Dolqorukinin səyi nəticəsində Rostov-Suzdal knyazlığı əvvəllər öz drujinasını Kiyev knyazının köməyinə göndərdiyi halda, böyük müstəqil knyazlığa çevrilərək öz xarici sərhədlərini genişləndirmək

məqsədilə fəal siyasi fəaliyyətə başlamışdır. Yuri Dolqoruki rus tacilərinin Volqa yoluna mane olaraq Xəzər dənizi və şərqə uzanan yolları kəsən Volqa bulqarları ilə daim müharibə aparmışdır. Qarışıq və sərhəd torpaqları uğrunda Novqorodla rəqabətdə olmuşdur. Yuri Dolqoruki uzun illər knyaz tacı uğrunda müharibədə iştirak etmişdir.

Sülalədaxili mübarizədə iştirak edən Novqoroda qarşı Çerniqov knyazı Svyatoslav Olqoviçlə müttəfiq kimi çıxış etmişdir. Svyatoslav Olqoviç yaşca Rostov-Suzdal knyazından böyük olduğu üçün knyaz taxtına daha çox hüququ var idi, odur ki, Yuri ona qoşunla kömək edərək özü Novqorod torpaqlarına uğurlu yürüş təşkil etdi. Svyatoslav knyaz taxtını ələ keçirə bilmədi, lakin Smolensk torpaqlarını işğal etdi. Sonra müttəfiq knyazlar danışıq və dostluq ziyafəti üçün 1147-ci il aprelin 4-də Suzdal sərhəd şəhəri Moskvada bir araya gəldi. Salnaməçinin qeyd etdiyi kimi, knyazlar bir-birinə hədiyyələr təqdim etdikdən sonra böyük ziyafətdə iştirak etdilər. Beləliklə, tarixi mənbələrdə birinci dəfə Moskvanın adı çəkilmiş oldu. Yuri Dolqoruki bir çox başqa şəhər və qalalarını, o cümlədən Zveniqorod, Dmitrov, Yuriyevski-Polski, Ksnyatinin əsasını qoymuşdur.

XII əsrin 50-ci illərində Yuri Dolqoruki, nəhayət, knyaz taxtını ələ keçirmiş, 1157-ci ildə isə Kiyevdə vəfat etmişdir.

1157-ci ildə Rostov-Suzdal knyazlığının başına Qıpçaq knyaginyasından olan Yuri Dolqorukinin oğlu Andrey Yuriyeviç (1157-1174) keçdi. O, təqribən 1120-ci ildə, hələ babası Vladimir Monomax sağ ikən doğulmuşdur. 30 yaşına qədər şimalda yaşamış yeni knyaz atasının verdiyi Udel knyazlığının şəhəri Vladimir-Klyazmada uşaqlıq və gəncliyini keçirmişdir. O, təsadüfi hallarda cənubda olur, Kiyevi sevmirdi. Yuri Dolqorukinin ölümündən sonra Rostov və Suzdalın boyarları Rostov-Suzdal torpaqlarında böyük knyazların öz oğlanlarından birini bura təyin etmək ənənəsinə son qoyaraq bu yerdə sülalə xətti ilə knyazlığı təsdiq etmək məqsədilə Andreyi öz knyazları seçdilər.

Lakin Andrey onların hesabını alt-üst etdi. Hər şeydən əvvəl o digər Rostov-Suzdal taxtında olan qardaşlarını uzaqlaşdırdı. Gələcək Vladimir Suzdal knyazı Vsevolod Yuryeviç Bolşoye Qnezdo da onların arasında idi. Sonra Andrey Yuri Dolqorukinin köhnə boyarlarını və döyüşlərdə gücünü itirmiş drujinasını işdən uzaqlaşdırdı. Şimali-Şərqi Rusun hakimi olmağa çalışan Andrey Yuriyeviç öz siyasətində şəhərə və şəhərli təbəqəsinə arxalanırdı. O, öz iqamətgahını boyar Rostov və Suzdalından yeni şəhər Vladmirə köçürdü. Şəhərin yaxınlığındakı Boqolyubov kəndində Andrey ağ daşdan əzəmətli saray tikdirdi ki, bina buna görə Boqolyubov ləqəbini almışdır.

1169-cu ildə Andrey Boqolyubovski öz müttəfiqlərilə hücumla Kiyevi alıb talan etdirdi. Bununla da o, qədim Rus paytaxtına, sevmədiyi cənuba öz hörmətsizliyini nümayiş etdirmiş oldu. Lakin knyaz Kiyevi özünün ikinci dərəcəli qohumalarının birinə verərək, paytaxtı Klyazma üzərindəki Vladimirə, şəhər kənarındakı ağ daşlı Boqolyubov sarayına qayıtdı. Sonra Andrey yenidən Kiyevə hücum təşkil etsə də, onu ələ keçirə bilmədi. Knyaz atası Yuri Dolqoruki kimi Volqa bulqarları ilə də müharibə aparmışdır.

Andrey Boqolyubovskinin fəaliyyəti getdikcə Rostov-Suzdal boyarları arasında narazılığa səbəb olurdu. Knyazın əmri ilə onun arvadının qohumlarından biri, tanınmış boyar, Moskva mülkünün sahibi Stepan Kuçkanın edam edilməsi bardağı daşıran son damla oldu. (Moskva uqro-fincə başqa qədim Rus Kuçkova adını daşımışdır). Edam edilmiş boyarın mülkündə Andreyin əmri ilə onun möhkəmləndirilmiş qəsri tikilmişdir. Beləliklə, Moskvada birinci qala meydana gəlmişdir.

Edam edilmiş boyarın qardaşı, başqa qohumları Andrey Boqolyubovskiyə qarşı sui-qəsd təşkil etdilər. Sui-qəsddə, eyni zamanda, knyazın arvadı, yaxın xidmətçiləri – saray açarçısı osetin Anbal və qulluqçu Yefrem Moizeviç cəlb olunmuşdu. Qəsd ərəfəsində Anbal yataq otağında knyazın qılıncını oğurlamışdı. 1174-cü il iyunun 29-da qəsdçilər saraya daxil olaraq knyazın yataq otağına yönəldilər. Qapını sındıran sui-qəsdçilər silahsız knyaza bir neçə qılınc və xəncər zərbəsi vuraraq otağı tərk etdilər. Lakin hələ ölməmiş knyazın iniltisini eşidən açarçı Anballa birlikdə geri qayıdaraq knyazı pilləkənlərin aşağısında qətl etdilər. Sonra sui-qəsdçilər knyazın yaxın adamlarına divan tutaraq xəzinəsini soydular. Andrey Boqolyubovskinin həlak olması Vladirmir Suzdal Rusundakı mərkəzləşdirmə siyasətini dayandırmadı. Rostov və Suzdal knyazlarının Andreyin yaxın qohumunu taxta əyləşdirib onun arxasından hakimiyyəti idarə etmək məqsədi məlum olduqda «daha kiçik adamlar» ayağa qalxdı. Vladimir, Suzdal, Pereyaslavl və b. şəhərlərin daha kiçik adamları Vladimir-Suzdal taxtına knyazın qardaşı Mixaili dəvət etdilər.

Mixailin ölümündən sonra şəhərlərin arxasında dayandığı Yuri Dolqorukinin üçüncü oğlu Vsevolod Yuryeviç (1154-1212) Yuryev şəhəri yaxınlığındakı açıq döyüşdə düşmənlərini məğlub edərək Vladimir-Suzdalda hakimiyyəti əlinə aldı. Qiyamçı boyarlar tutularaq həbsxanaya salındı, əmlakları isə müsadirə olundu. I Vsevolod Yaroslavoçin və II Vsevolod Olqoviçin ardınca III Vsevolod böyük knyaz oldu. 8 oğlu, 8 nəvəsi olan knyaz «Bolşoe Qnezdo» ləqəbini almışdır. Boyarlarla mübarizəsində Vsevolod Bolşoe Qnezdo yalnız şəhərlərə deyil, ildən-ilə yetkinləşən zadəganlığa da

arxalanırdı (Mənbələrdə onları «yeniyetmə» («отрок»), «qılınclı» («мечник»), «qridi», «ən kiçik drujina» («меньшая дружина») və s.adlandırırdılar). Onlar torpaq müqabilində knyaza xidmət edir və böyük knyazın hakimiyyəti möhkəmləndikcə zadəganların da nüfuzu ildən-ilə artırdı. Mahiyyət etibarilə onlar bütün dövlət xidməti işlərini yerinə yetirirdilər: orduda, məhkəmədə, səfirlik işlərində, vergi toplanmasında, saray işlərində, knyaz təsərrüfatının idarə olunmasında və s.

Knyazlıq daxilində öz mövqeyini möhkəmləndirmiş III Vsevolod Rusun siyasi həyatına daha çox nüfuz etməyə başlamışdır. Novqorodun daxili işlərinə müdaxilə edir, Kiyev torpaqlarında ərazi ələ keçirir, Ryazanı tam olaraq öz nüfuz dairəsi altına daxil edirdi. 1183-cü ildə Volqa Bulqarıstanına qalibiyyətli yürüş təşkil etmişdir. 58 yaşında öldükdən sonra qardaşlar arasındakı daxili mübarizə altı ildən sonra yalnız 1218-ci ildə Yuri Vsevolodoviçin taxta sahib olması ilə başa çatmışdır. Bununla da köhnə nəslin yaşlı nümayəndəsinin taxta çıxması ənənəsi pozulmuş oldu. Bundan sonra böyük knyazın iradəsi əsas olaraq qəbul edildi. Şimal-şərqi Rus hakimiyyətinin mərkəzləşdirilməsi yolunda irəliyə doğru daha bir addım atılmış oldu. Monqol-tatar hücumu Rusiyanın siyasi həyatının təbii inkişafını pozaraq bu işi xeyli arxaya atdı.

## §6. Qədim Rusun mədəniyyəti

Xalqın mədəniyyəti onun tarixinin bir hissəsidir. Onun yaranması ölkənin təsərrüfatının, cəmiyyətin siyasi və mənəvi həyatının, idarəçiliyin formalaşmasına təsir edən faktorlarla birbaşa bağlıdır. Xalqın əqli, istedadı, əl qabiliyyəti ilə əlaqədar olan, onun mənəvi aləmini, münasibətlərə baxışını əks etdirən amillər mədəniyyət anlayışına daxildir.

Qədim Rus mədəniyyəti rus dövlətçiliyinin yaranması ilə bir vaxta təsadüf edir. Xalqın yaranması, eyni zamanda, təsərrüfat, siyasi və mədəni yollardan keçmişdir. Müxtəlif tayfalardan yaranan Rus dövlətinin mədəniyyəti də şərqi slavyanların ümumi mədəniyyəti kimi meydana çıxmaqla yanaşı, özünün yerli səciyyəvi xüsusiyyətlərini də saxlamışdır. Ümumi rus mədəniyyəti bir tərəfdən polyan, severyan, rodimiç, sloven və b. şərqi slavyan tayfalarının ənənələrini ifadə etdiyi halda, ikinci bir tərəfdən ticarət etdikləri, döyüşüb barışdıqları qonşu fin-uqor, İran, balt, türk tayflarının təsirindən də yararlanmışdır. Xüsusilə Qədim Rus mədəniyyəti dünyanın ən qabaqcıl mədəniyyətlərindən biri olan qonşu Bizans mədəniyyətindən zəngin təcrübə mənimsəmişdir.

Uzun illər rus mədəniyyəti, o cümlədən şifahi xalq yaradıcılığı, memarlıq, heykəltəraşlıq, bədii sənət və s. bütpərəstlik dininin, dünyagörüşünün təsiri altında yayılmışdır. Rusda xristianlığın qəbulundan sonra yeni din xalqın dünyagörüşünü dəyişərək gözəllik, bədii yaradıcılıqla estetik təsirin təsvirini önə çəkmişdir. Kilsə və xristianlıq rus mədəniyyətinə yeni dinlə bağlı olan ədəbiyyat, memarlıq, incəsənət, savad, məktəb, kitabxana işində əhəmiyyətli təsir göstərmişdir. Bununla bərabər, rəsmi din şəhərlərdə, bütpərəstlikdən qaynaqlanan adət və ənənə isə mövqeyini Rusun ucqarlarında, xüsusilə şimal-şərqi torpaqlarında, kənd yerlərində qoruyub saxlamışdır. Əsasən, xalqdan qaynaqlanan bütpərəstik mənəvi ənənəsi erkən orta əsrlərdə rus mədəniyyətinə dərin təsir göstərmişdir.

Rusda yazı sənətinin yaranması 988-ci ildə xristianlığın qəbulundan xeyli əvvələ aiddir. X əsrdə yaşamış müəlliflər daş və ağac üzərində rus yazılarından bəhs etmişlər. Salnamənin məlumatına əsasən, 911-ci ildə knyaz Oleqin yunanlarla müqaviləsi yunan və rus dillərində tərtib edilmişdir. 1949-cu ildə sovet arxeoloqu D.V.Avdusin Smolensk altında qazıntı zamanı X əsrin əvvəlinə aid üzərində «горушна» (ədviyyə) yazısı olan gildən qab tapmışdır. Bu isə o deməkdir ki, bəhs edilən zamanda şərqi slavyanlar arasında yazı, əlifba mövcud olmuşdur.

Xristianlığın qəbul edilməsi zamanı Rusun öz əlifbası var idi. Xristianlığın qəbulu yazı mədəniyyətinin, maarifin sonrakı inkişafına səbəb olmuşdur. Həqiqətən, Salonik şəhərindən olan missioner qardaşlar Kirill və Mefodi IX yüzilliyin 60-cı illərində slavyan hərfləri ilə yazılmış İncili görmüşlər. Onlar eyni zamanda rus əlifbasını yaratmaq şərəfinə nail olmuşlar. Mütəxəssislərin böyük çoxluğunun fikrinə əsasən, IX yüzilliyin ikinci yarısında qlaqolitsa əlifbasını yaradan Kirill və Mefodi sonradan yunan yazısı əsasında onu təkmilləşdirərək hazırkı əlifba olan Kiril əlifbasını tərtib ediblər ki, bu da I Pyoturun döründə və 1918-ci ildə sadələşdirilmişdir.

Qədim Rusda savadlı adamların yayılmasına dair çoxlu məlumatlar zəmanəmizə gəlib çatmışdır. Vladimirin knyazlığı dövründə Rusa Bizans, Bolqarıstan, Serbiyadan savadlı din adamları, tərcüməçilər səfər edirdi. Xüsusi ilə Yaroslav Mudrı və onun oğlanlarının zamanı çoxlu yunan və bolqar dini və dünyəvi məzmunlu kitablar tərcümə edilmişdir. Bizans tarixi əsərləri, xüsusilə xristian müqəddəslərinin həyatlarını əks etdirən kitablar yayılmışdır. Belə tərcümələri savadlı adamlar, o cümlədən knyazlar, boyarlar, tacirlər, kilsələrdəki dini qulluq adamları oxuyurdu.

İlk savadlı rus adamları olan yazı üzü köçürənlər, tərcüməçilər I Vladimirin və Yaroslav Mudrının knyazlığı dövrünə kilsələrin nəzdində açılan məktəblərdə

formalaşmışdılar. XI-XII əsrlərdə Rusda meydana çıxan savadlı adamları əsasən zəngin şəhərlilər, knyaz-boyar üst təbəqəsi, tacirlər, varlı sənətkarlar təmsil edirdilər. Uzaq kənd yerlərində isə əhali demək olar ki, əsasən savadsız olmuşdur.

Qədim Rus mədəniyyəti tarixdə rus salnaməçiliyi mühüm yer tutur. Tədqiqatçılar belə hesab edir ki, salnamələrin qələmə alınması XVIII əsrə kimi davam etmişdir. Salnaməçilik dövlət işi hesab edildiyi üçün onu tərtib etmək ən savadlı və müdrik adama tapşırılırdı. Adətən salnaməçi kilsədəki keşiş və yaxud monastrdakı rahib ola bilərdi. Rusda ilk salnamə xristianlığın qəbulundan sonra X yüzilliyin axırlarında meydana çıxmışdır. Kiyevdə salnamə Desyatın kilsəsində, Kiyev-Peçera monastrında, Novqorodda Sofiya məbədində qələmə alınmışdır. Artıq XI əsrdə ayrı-ayrı salnamələrdən toplanan salnamə külliyatları yaranmışdır. Salnamələrin üzü köçürülərkən çox halda mətinlər ixtisar və ya əlavə olunaraq dəyişdirilmişdir.

Qədim salnamələrdən biri XII əsrdə Kiyevdə tərtib edilən «Ötən vaxtın dastanı»dır. Salnamənin müəllifi ənənəvi olaraq Kiyev-Peçera monastrının rahibi Nestor hesab edilir. Bəzi tədqiqatçılar belə hesab edir ki, Nestor «Ötən vaxtın dastanı»nın müəllifi ola bilməzdi, ona görə ki, bu istedadlı rahibə məxsus olan əsərlər quruluşu, dili, qiymət və faktlarına əsasən adı çəkilən salnamədən əhəmiyyətli dərəcədə fərqlənir.

Kiyevdən fərqli olaraq ayrı-ayrı yerli knyazlıqların da öz salnamələri yaranmışdır. Bir-birindən fərqli olan yerli salnamələr torpaqlarını əhatə edən hadisə və mövzulardan bəhs etmişdir. Məsələn, «Pskov salnaməsi» hərbi hadisələrin qəhrəmanlıq xronikasını, «İpatyev salnaməsi» Qaliç-Volın knyazlığındakı yerli düşmənçiliyi, «Lavrentyev salnaməsi» Vladimir-Suzdal torpağında vahid və möhkəm böyük knyazlıq ideyasını təsvir etmişdir.

Rus torpaqlarının birliyi ideyası XII-XIII əsrlərdə yaranan əsərlərin ana xəttini təşkil etmişdir. Bu dövrün əzəmətli abidəsi şimali Novqorod knyazı İqor Svyatoslaviçin 1185-ci ildə qıpçaqlara qarşı yürüşünə həsr edilən hadisənin təsviri olmuşdur. «İqor polku dastanı» adlanan əsərdən bəhs edən A.A.Zimin və bir sıra başqa alimlər belə hesab edir ki, hadisələr XIV əsrin sonlarında yaranan «Zadonşina» əsərində təqlid edilmiş, XVIII əsrdə tərtib edilmişdir.

«İqor polku dastanı»nın müəllifləri knyazın qıpçaqlarla döyüşdə məğlub olmasının səbəbini knyazlar arasında olan çəkişmə və düşmənçilikdə, onların böyük Kiyev knyazına tabe olmaması vəziyyətində görür və onları birliyə səsləyirdilər.

Salnamə mədəniyyətilə birlikdə Qədim Rus ədəbiyyatı da yaranmışdır. Mitropolit İlarionun dini-fəlsəfi və ədəbi-bədii əsəri hesab edilən «Qanun və

bərəkət haqqında dastanı» buna misaldır. Bu abidə 1040-1050-ci illərin qovuşuğunda Kiyevdə meydana çıxmışdır və çox güman ki, 1051-ci ildə İlarionun mitropolit taxtına seçilməsi ilə bağlı söylədiyi nitqin məzmunudur.

Böyük qədim rus fikir adamı və yazıçısından biri də müqəddəslər heyətinə daxil edilən Kirill Turovsk (1182-ci ilə kimi vəfat edib) olmuşdur. Böyük yaradıcılıq irsi qoymuş Kirill Turovskinin ədəbi irsi dövrünün başqa yaradıcı adamların əsərlərindən əhəmiyyətli dərəcədə fərqlənərək çox böyük və zəngin mahiyyət daşımışdır.

XI əsrin sonlarında rus müqəddəslərinin həyatı, yaşayışı haqqında ilk yaradıcılıq nümunələri yaranmışdır. Bu müqəddəslərin dünyəvi həyatı, onların sağlığında və öldükdən sonra etdikləri möcüzələr haqqında söhbətlərdən ibarət idi. Müqəddəslərin yaşam dəyərləri, tərzi, söylədikləri adamları mənəvi dəyərlər əsasında istiqamətləndirmək məqsədilə yanaşı, onlara həqiqət və yalan, xeyir və şər, günah kimi əməllər haqqında biliklər aşılamışdır.

Müasir zəmanəmizə gəlib çatmış qədim rus əlyazmasından ibarət belə kitablardan biri 1056-1057-ci illərdə qələmə alınmış Novqorod posadniki Ostromirovun «Ostromirov İncili» olmuşdur. Bibliya kitablarından, Bizans ilahiyyətçilərinin əsərlərindən parçaların yer aldığı digər bir kitab Kiyev böyük knyazı Svyatoslav Yaroslaviçin 1073-cü ildəki əlyazması «Məcmuə»si olmuşdur.

Rusun keçmişindən bəhs edən epik əsərlər kimi bılinalar tarixi həqiqətlərin bədii təsviri olaraq qədim mədəniyyətin inkişafında əhəmiyyətli mövqeyə malikdir. Ən qədim bılinalar tarixi nağıl formasında epik qəhrəmanların fantastik varlıqlarla mübarizəsindən bəhs edir. Adətən, rus qəhrəmanları tarixi düşmən olan yadelli işğalçıların obrazı olan əcaib qorxulu varlıqlarla döyüşərək onlara qalib gəlir. «Dobrınya və İlan», «Alyoşa Popoviç və Tuqarin İlanoğlu» və b. misal çəkmək olar. Tarixi-qəhrəmanlıq bılinaları konkret xarici işğalçılardan, onların döyüşçüləri ilə yerli cəngavərlərin mübarizəsindən bəhs edir. «Vasili və Batıqa», «Mamayev davası», «Suxman» belə bılinalardır. Şəhər məişətindən bəhs edən «Sadko», «Vasili Buslayeviç» bılinaları xalq arasında məşhurdur.

Qədim Rusun mədəniyyətində mühüm yerə malik olan memarlıq sənətində uzun zaman ağac sənəti hakim rol oynamışdır. Xristianlığın qəbulundan sonra daşdan tikililər yaranmağa başladı. Birinci daş tikililər məbədlər, onu inşa edənlər isə Bizansdan dəvət edilmiş yunanlar olmuşdur. Memarlar zəngin heykəltəraşlıq və boyakarlıq nümunələri ilə bəzədilmiş daşdan əzəmətli binalar inşa edirdi. Mütənasib, harmonik və dəqiq formalar, bol qızıl naxışlı bəzək işləri, bina fasadlarında heykəltəraşlıq əsərləri daş tikililərdə geniş miqyas almışdır. XI əsrin ikinci yarısından Qədim Rusda inşa edilən məbədlər rus və

Bizans tarixi memarlıq ənənəsinin birliyi sayəsində çoxqübbəli inşa edilmişdir. Məsələn, Kiyevin Sofiya kilsəsinin on üç qülləsi mövcud olmuşdur. Kiyevlə birlikdə Novqorod və Polotskdə də Sofiya kilsələri, Çerniqovda Spassk kilsəsi inşa edilmişdir. Ümumən, XI yüzillik-XII yüzilliyin əvvəllərində Qədim Rusun ərazisində öz quruluşuna əsasən bir-birinə bənzəyən təqribən 15 daş məbəd inşa olunmuşdur. Bizansdan əxz edilən məbəd quruluşu günbəz-xaç adını almışdır. Məbədin şərq hissəsində mehrab yerləşirdi ki, burada da Tanrıya ibadət həyata keçirilirdi. Mehrab hissəsi zəngin parça və bəzəklərlə, ikonlarla süslənir, dindarların ibadət etdiyi kilsə zalından ayrılırdı. Qərb hissəsində eyvan yerləşirdi ki, dini ibadət zamanı knyaz ailəsi və yaxınları ilə bu hissədə olurdu. Şəhərlərdəki baş kilsələr təkcə memarlıq abidəsi deyil, həm də dini sənət əsəri hesab olunurdu. Zəngin məbədlər inşa etdirən knyazlar ümid edirdilər ki, müqəddəslər Tanrıdan onların günah əməlləri üçün bağışlanma təmənna edə bilər.

Qədim Rusun mədəniyyətində daşdan inşa edilən knyaz sarayları əhəmiyyətli yer tutur. Onlar geniş və əzəmətli tikililər olmaqla bərabər, bəzək və naxışlarına görə də zəngin olurdu. Vladimirdə Andrey Yuryeviç Boqolyubski dövründə daş tikililər geniş yayılmışdır. Vladimiri Rusun siyasi və dini mərkəzinə çevirmək istəyən knyaz Məryəm Anaya pərəstiş əlaməti olaraq əzəmətli Uspensk kilsəsini inşa etmişdir. Böyük knyazlıq Kiyevdən Vladimirə köçdükdən sonra mitropolit də öz iqamətgahını artıq Rusun baş məbədi hesab edilən Uspensk kilsəsinə köçürmüşdür. Vsevolod Bolşoye Qnezdo Vladimirdə rus memarlığının incisi hesab olunan təkqübbəli Dmitriyev kilsəsini tikdirmişdir. Bu rus daşoyma sənətinin ən parlaq nümunəsi idi.

Rusun mədəniyyətində ikona yaradıcılığı mühüm yer tutmuşdur. İkona yaradıcılığı təkcə memarlıq abidəsi olmayıb, əsasən ilahi dünyaya açılan pəncərə, Tanrıya uzanan yolu təcəssüm edirdi. İkona qarşısında dayanan pravoslav insan təkcə onun gözəlliyi qarşısında valeh olmur, o həm də dua edərək ikonada təsvir edilən müqəddəsdən Tanrı qarşısında onun günahlarının bağışlanmasına vasitəçi olmasını təmənna edir. Deməli, insan özü də saf, təmizürəkli olur ki, ikonanın bu dərin mənasını Rusda yaxşı anlayırdılar. Odur ki, ikona sənətkarları işə fikir və qəlb təmizliyi ilə başlaya bilərdi.

Birinci rus ikonaları Bizansdan gəlmiş, yaxud Bizans nümunələrinin üzü köçürülmüşdür. Artıq XI əsrdə ikona sənətkarlığında rus xüsusiyyətləri ön plana keçmişdir. Novqorod ikona məktəbi üçün ideyanın aydınlığı, təsvirin reallığı önə çıxmışdır. Yaroslavl, Vladimir, Pskov və b. şəhərlərin ikona məktəbi yaradıcılığı daha geniş yayılmışdır. XI əsrdə rus ikona sənətkarlığı ustalarından Alimpiy, Olisey, Georginin adlarını misal çəkmək olar.

Qədim rus ustaları zərgərlik sənəti sahəsində böyük işlərə imza qoymuşdur. Qədim Rusda zərgərlik sənətinin mərkəzi Kiyev olmuşdur ki, burada da təqribən 50 xəzinə aşkar edilmişdir. Rus sənətkarlarının düzəltdiyi gözəl zinət əşyaları çoxrəngli mina ilə, qızıl sıxac, incə metal krujevalarla, əlvan daşlarla bəzədilirdi. Məsələn, zərgərlik ustası Lazar Boqşa xaç hazırlayaraq onu Polotsk kilsəsinə hədiyyə etmişdir. Yarım metrlik Yefrosiniya Polotskaya xaçı qızıldan hazırlanaraq bahalı daşlar və mirvari ilə bəzədilmişdir ki, bu tətbiqi memarlıq sənətinin nadir incilərindəndir.

Xalqın mədəniyyəti onun məişəti və gündəlik həyatı ilə sıx bağlı olduğu kimi məişət, ölkənin təsərrüfat inkişafı da mədəni proseslərlə birbaşa bağlı olmuşdur. Qədim Rusda şəhərlərdə on minlərlə adam yaşayırdı. Kiyev böyük, əzəmətli və zəngin bir şəhər kimi qabaqcıl Avropa şəhərləri ilə belə rəqabət aparırdı. Kəndlərdə, xüsusi ilə ölkənin şimal-şərq hissəsində əhali az, bəzən iki-üç həyətdən belə ibarət olurdu. Saraylar və evlər xalça, bahalı yunan parçaları ilə bəzənirdi.

Saraylarda, varlı boyar evlərində drujinaçılar, qulluqçular, saysız-hesabsız çelyadlar xidmət göstərir, buradan knyazlıq, şəhər, kəndlər idarə olunurdu. Böyük məclislər təşkil edilir, süfrəyə şərab, yerli bal, ət, ov əti verilirdi. Qadınlar kişilərlə bərabər stol başında əyləşir, idarəçilik işlərində yaxından iştirak edirdi. Varlılar şahin, qartal, itlərlə ovda iştirak edirdi. Sadə xalq üçün cıdır, müxtəlif yarış və oyunlar təşkil olunurdu.

Dneprin aşağı sahillərində hətta Hindistan və Bağdaddan gətirilmiş əşya və ərzağın olduğu canlı ticarət, alış-veriş olurdu. Dneprdə yüzlərlə böyük və kiçik gəmilər lövbər salmışdır. Burada, eyni zamanda, çoxyelkənli knyaz qayıqlarına, iti tacir qayıqcıqlarına rast gəlmək olardı.

Sənətkarlar, çalışan əhali ağac və yerdən olan qazma evlərdə yaşayırdı. Kənd adamları isə əsasən, daşdan ev peçi olan qazma və yarımqazma daxmalarda yaşayırdı. İnsanlar öz yaşam həyatı uğrunda cəsarətlə mübarizə apararaq, yeni torpaqlar əkib-becərir, mal-qara saxlayır, arıçılıqla, ovçuluqla məşğul olur, düşməndən, cənubda köçərilərdən müdafiə olunurdu.

Ümumiyyətlə, Qədim Rusun mədəniyyəti xeyli yüksək səviyyədə inkişaf etmişdir. Onu demək kifayətdir ki, Qədim Rus dövlətində şəhərlilərin böyük əksəriyyəti yazmağı bacaran savadlı adamlar olmuşdur. Arxeoloji qazıntılar nəticəsində Böyük Novqorodda tapılan mindən çox tozağacı qramotaları bunu bir daha təsdiq edir.

Qədim Rusun mədəniyyətinin inkişafının mühüm yekunlarından biri onun qədim rus xalqından qaynaqlanması olmuşdur. Bu mədəniyyət üçün isə səciyyəvi xüsusiyyət onun vahid dilə, qismən siyasi birliyə, ümumi əraziyə, ümumi tarixi kökə sahib olması idi.

# IV FƏSİL
# RUS TORPAQLARININ VƏ KNYAZLIQLARININ XIII ƏSRDƏ MONQOL VƏ XAÇLI YÜRÜŞLƏRİNƏ QARŞI MÜBARİZƏSİ

## §1. Monqol-tatar yürüşləri

XII əsrdə monqol tayfaları müasir Monqolustan və Buryatiyanın ərazisində, başqa sözlə Mərkəzi Asiyanın Orxon, Kerulen, Tolı, Selenq, Onqin, Onon çayları hövzələrində, qərbdə Xubsuqul, şərqdə Buir-Nur və Kulun-Nur göllərinin sahillərində məskunlaşmışdır. Monqol tayfaları monqol, merkit, kereit, oyrat, nayman, tatar kimi müxtəlif adlar daşıyırdı. Çoxsaylı tatarlar Buir-Nur gölü sahilində yaşayırdılar ki, sonradan monqolların birliyi altında birləşdilər. Xarici aləmdə, xüsusi ilə Rusda məhz «tatarlar» adı yeni dövlətin təmsil etdiyi xalqların adı kimi təsbit edilmişdir.

XII əsrin ikinci yarısında monqol tayfaları arasında V-VII əsrlərdə Qərbi Avropa, VIII-IX əsrlərdə şərqi slavyanlar arasında baş verən oxşar sosial proseslər olmuşdur. İbtidai icma münasibətləri dağılmış, xüsusi mülkiyyət yaranmışdır, monqol cəmiyyətinin təsərrüfat əsasını qohumluq icması deyil, ailələr müəyyən etməyə başladı. Bu onların həyat tərzini kökündən dəyişdirdi. Ölkənin cənubi çöllük ərazilərində köçəri-maldarlar, şimali meşə zonlarında ovçu və balıqçılar məskunlaşmışdır. Cənub tayfalarının təsərrüfatı daha yaxşı inkişaf etdiyi üçün onlar həm də daha varlı idi. Tayfa başçıları və ağsaqqalları olan noyonlar, onların ailələri minlərlə baş mal-qaraya sahib olaraq tayfasının ali zümrəsini təşkil edirdi. Xan başda olmaqla tayfanın seçilən böyükləri belə formalaşırdı. Maldar-aratların əsas hissəsi getdikcə daha tez-tez monqol cəmiyyətinin varlı yuxarı təbəqəsindən asılı vəziyyətə düşürdü.

Xanlar, noyonlar əldə etdikləri sərvətin hesabına öz tayfalarına nəzarət etmək, müharibə zamanı istifadə məqsədilə drujinaçı-nökərlər tuturdular. Beləliklə, lap əvvəldən monqollarda dövlətin meydana gəlməsi, yəni xanların hakimiyyəti yuxarı təbəqənin, nökər qvardiyasının yaranması hərbi xüsusiyyət daşıyırdı.

Monqolların bütün həyatı at üstündə keçirdi. At monqolların maldarlar olaraq hərəkət vasitəsi, ov və müharibədə sadiq dostu, ət, süd təminatçısı olmuşdur. Monqollar möhkəm, cəld və cəsur tərbiyə olunurdular ki, bu da onların çətin və sərt həyat tərzinə uyğunlaşmaq bacarığını şərtləndirirdi.

XII yüzilliyin II yarısında monqol tayfaları arasında birincilik uğrunda mübarizə başladı. XII yüzilliyin 50-ci illərinin sonu-60-cı illərin əvvəlində tayjiut tayfasının başçısı bahadır (qəhrəman) Esugey monqol tayfalarının əksəriyyətini öz hakimiyyəti altında birləşdirdi. 1162-ci ildə onun böyük oğlu Temuçen (Temujin, Temuçin), yəni Çingiz xan doğuldu. Esugeylə düşmənçilik edən tatarlar onu zəhərlədi, ulusu isə dağıtdı. Uzun zaman onun dul qalan arvadı və azyaşlı uşaqları aclıq içində monqol çöllərində dolaşdılar. Yetkinlik yaşına çatan Temuçen yeni drujina toplayaraq atasına tabe olan yerləri ələ keçirdi. 1190-cı ilə doğru hələ otuz yaşı olmayan Temuçen monqol tayfalarının əsas hissəsini amansız mübarizə şəraitində birləşdirərək xan tacına sahib oldu. Düşmənləri ilə mübarizədə amansız və hiyləgər olan Temuçen onları bir-birinə qarşı qaldırmağı, vəziyyətə uyğun hərəkət etməyi, yeri gəldikdə geri çəkilməyi bacaran bir başçı idi.

Monqolların böyük əksəriyyətini tabe edən Temuçen bir sıra islahatlar həyata keçirdi. Cəmiyyət və ordusunu onminlik sistem əsasında quraraq, bütün yaşlı əhalini «tme» (on minlik), minlik, yüzlük və onluq əsasında ayırdı. Sülh və müharibə şəraitində fəaliyyət göstərən dəstələrin başında ciddi vəzifə pilləsinə tabe olan rəislər dururdu. Temuçen «gecə» və «gündüz» növbəsinə bölməklə özünün şəxsi qvardiyasını yaratmış, şəxsi əmlakını idarə etmək məqsədilə işləri qaydaya salmış, yaxın noyon və nökərlərini vergidən azad edərək onlara xüsusi güzəştlər vermişdi. Monqol tayfalarını özünə tabe etməyi davam etdirən Temuçen son olaraq atasını zəhərləyərək öldürən tatarları ram etmişdir.

Monqol-tatar tayfaları arasında baş verən sosial-iqtisadi proseslər vahid Monqol dövlətinin yaranmasına səbəb olmuşdur. 1206-cı ildə Onon çayı yaxınlığında monqol əslzadələrinin qurultayında (xural) Temuçen böyük xaqan elan edilərək Çingiz xan – «böyük xan» titulunu aldı (1206-1227). Çingiz xan başında durduğu monqol imperiyasını ümumi hüquq normaları əsasında qanunlar külliyatı olan Böyük Yasaya uyğun idarə etməyə başladı. Monqolların dövlət hərbi maşını fəaliyyətə keçdi. Yaxşı təşkil edilmiş, güclü və təcavüzkar ordu yaradan Çingizxan qonşu dövlətləri bir-birinin ardınca fəth etməyə başladı.

1206-1211-ci illərdə Çingiz xan Şimali Asiyada yerləşən buryat, yakut, qırğız, tanqut, uyğur tayfalarını, dəniz sahilindəki yerləri tabe etdi. 1211-ci ildə Çingiz xan Şimali Çinə hücum edərək 1213-cü ildə onun paytaxtı olan Pekini tutdu. Çinin fəth edilməsi sayəsində ölkənin zəngin elmi, mədəni, hərbi potensialı monqol dövlətinin xidmətinə keçdi. Çingiz xan qurduğu dövlətdə uyğur yazısını tətbiq etdi, təcrübəli Çin məmurlarını idarəçilik işlərinə

cəlb etdi, alimləri, hərbi mütəxəssisləri öz ətrafına topladı. Yay və oxlarla, qılınc və qalxanla silahlanmış cəld və əzəmətli monqol süvari ordusu, Çin hərbi texnikası olan divar və daşdeşən maşınlar, yanacaq maddəsi, o cümlədən neftlə uzağaatılan döyüş sursatı əldə etdilər.

Kəşfiyyat işinə xüsusi önəm verən Çingiz xan hərbi yürüşə başlamadan əvvəl tacirlər, səyyahlar, casuslar vasitəsilə rəqib dövlətin siyasi mövqeyi, torpaqları, dostları və düşmənləri, müdafiə qurğuları haqqında məlumat toplayırdı. Monqol səfirləri də bu kəşfiyyat işlərində iştirak edirdi. Qısa müddət ərzində təkmil hərbi texnikaya malik olan böyük və əzəmətli ordu yaradan monqollar arasında ciddi intizam var idi. Qorxaqlıq edərək savaş meydanından qaçan döyüşçünün bütün ailə, yəni onluq üzvləri ölüm cəzası alırdı. Rəqib düşmənlə amansız rəftar edən monqollar müqavimət göstərən şəhərləri yandırıb dağıdır, sənətkarları, qadın və uşaqları əsir götürüb kişi əhalini qırırdılar.

1219-1220-ci illərdə monqol qoşunları Orta Asiyanı fəth etdi. Buxara, Səmərqənd, bir neçə ay müqavimət göstərən Xarəzm və Urgənc təslim oldu. Xarəzm-şah Məhəmməd dini liderlərin və yerli xanların arasında nüfuz sahibi deyildi. Açıq döyüşdən imtina edən Xarəzmşah qalaların müdafiəsinə üstünlük vermişdir. Odur ki, say cəhətdən rəqiblərindən az olan monqollar onları hissə-hissə məğlub etmişdir. Şəhərlər yerlə-yeksan edilmiş, sənətkarlar, qadın və uşaqlar qul kimi götürülmüş, kişi əhalisi isə qılıncdan keçirilmişdir. Monqol işğalı nəticəsində çiçəklənən Orta Asiya uzun müddət tənəzzül dövrünə qədəm qoymuşdur.

Orta Asiyadan monqol qoşunları Şimali İrana hücum etdi, Xəzərin cənub sahilindəki torpaqlardan Azərbaycana daxil olub, Şamaxı şəhərini tutub, Şimali Qafqaza keçdilər. Burada onlar qıpçaqların köməyi ilə ciddi müqavimət göstərən alanları (osetinləri) məğlub etdilər. İşğallarını davam etdirən monqol qoşunları qıpçaqların yaşadığı torpaqlara daxil olaraq Azov sahilindəki yerləri, Krımı tutaraq qədim Bizans şəhəri Surojemi (Sudak) ələ keçirdilər.

Rusun sərhədində yerləşən qıpçaq çöllərinə gənc, istedadlı sərkərdə Cəbə və təcrübəli, nisbətən yaşlı Subatayın başçılığı altında iki zərbə qüvvəsi daxil olmuşdu. Qıpçaq xanı Kotyan kömək məqsədilə Qaliçdə knyaz olan kürəkəni İgid Mstislava məktub yazaraq rus knyazlarından kömək istədi. Monqollara Rusa məğlub olan digər köçəri tayfalardan biri kimi şübhə ilə yanaşan və özlərinə güvənən rus knyazları amansız düşmənə qarşı birgə sipər təşkil edə bilmədi. Monqol-tatarlara qarşı yürüşdə iştirak etməyə Kiyev knyazı Mstislav Romanoviç, Çerniqov knyazı Mstislav Svyatoslaviç, Vladimir-Volın knyazı Danil Romanoviç və kiçik knyazlar razı oldular. Qüdrətli Vladimir-Suzdal knyazı, Vsevold Bolşoye Qnezdonun oğlu Yuri Vsevolodoviç yürüşdə iştirak etməkdən imtina etdi.

Birləşmiş rus qoşunu ilə Cəbə və Subutayın tumeni («tma») arasında əsas döyüş 1223-cü il mayın 31-də Azov dənizi sahili yaxınlığındakı Kalka çayı boyunda oldu. Rus qoşunlarının ilk zərbəsinə tab gətirən monqol-tatar qoşunu hücuma keçdi. Qıpçaqlar döyüş meydanından qaçdıqdan sonra Qaliç və Volın dəstəsi knyazları başda olmaqla cəsarətlə döyüşdüklərinə baxmayaraq, məğlub oldular. Döyüşdə demək olar ki, iştirak etməyən Mstislav Kiyevskiyə Cəbə və Subutay qoşunu ilə vətənlərinə dönməyə icazə verdiklərini bildirdilər. Knyaz və qoşunu döyüş meydanını tərk etmək istəyərkən düşmənin xaincəsinə hücumuna uğradılar. Bütün drujinaçılar öldürüldü, knyazlar isə başda Mstislav Kiyevski olmaqla əsir alındı. Onların əl-ayağını bağlayaraq yerə atıb üzərlərinə taxta lövhələr qoyaraq üstündə monqol sərkərdələrinin qələbə məclisini qurdular. Kalka döyüşündə altı tanınmış rus knyazı öldürüldü, sadə döyüşçülərin isə yalnız on nəfərindən biri evlərinə dönə bilmişdi. Təkcə Kiyev qoşunu təqribən 10 min nəfər adam itirmişdi.

Kalka döyüşündən sonra 1225-ci ildə Monqolustana geri dönən monqol-tatarlar Çindən Orta Asiya və Cənubi Qafqaz kimi əraziyə sahib olmuşdu. Çingiz xan işğal edilmiş torpaqları öz oğlanları arasında bölüşdürdü. Qərb torpaqları onun böyük oğlu Cuçiyə çatdı, lakin onun 1227-ci ildə ölümündən sonra oğlu gənc və fəal Batı Qərb ulusunun başına keçdi. 1235-ci ildə Çingiz xanın üçüncü oğlu, yəni böyük xan Ugedeyin başçılığı altında toplanan monqol xanlarının qurultayında var-dövləti ilə məşhur olan Volqa bulqarları və Rus ölkələrinə yürüş təşkil etmək qərarı qəbul olundu.

1236-cı ilin son payızında ucsuz-bucaqsız Volqaboyu çöllərində saysız-hesabsız monqol-tatar qoşunlarının hücumu başladı. Volqa Bulqarıstanı darmadağın edildi və yaza doğru müstəqil dövlət kimi fəaliyyətini dayandırdı.

Cənub-qərb istiqamətində hücuma keçən monqol-tatarlar Xəzər dənizinin şimal sahillərindən şimal meşələrinin kənarına qədər cənubda alanlarla, şimalda qıpçaq çöllərinə, ondan da şimalda Volqaboyunun meşəlik torpaqlarında yaşayan mordva, burtas, mokşi tayfalarına ağır zərbə vurdular.

1237-ci ilin payızında monqol qoşunları yerli xalqları əzərək Donun yuxarılarına çıxıb, Ryazan knyazlığı ilə sərhəddə, indiki Voronej şəhəri rayonunda cəmləşdi. 1237-ci ilin qışında rus çayları buz bağladıqdan sonra qoşun donmuş buz üzərindən şimal-şərqi rus torpaqlarına hücuma keçdi. Batı təqribən 150 minlik 12-14 tüməni hücuma apardı. Təqribən 100 min nəfərlik yaxşı silahlanmış rus ordusunda isə hər knyazlığın ayrı-ayrı drujinası və xalq qoşunu mövcud idi ki, bu da onların birliyini zəiflədirdi. Ryazan knyazlığında bir sıra şəhərləri tutan işğalçılar 1237-ci ilin dekabrında mərkəz Ryazana yaxınlaşdılar. Üç gün çətinliklə düşmənə müqavimət göstərən şəhər dekabrın

21-də təslim oldu. Knyaz Yuri, ailəsi, Ryazan yepiskopu öldürüldü, şəhər qarət edilib yandırıldı, Rusun fəthi başlandı.

1238-ci il yanvarın 1-də tatar-monqol ordusu Ryazandan şimala, Böyük Vladimir knyazlığına yönəldi. Knyaz Yuri Vsevolodoviçin topladığı birləşmiş qoşun Kolomna yaxınlığında düşmənlə döyüşə başladı. Rus qoşunu məğlub oldu, Batı Moskva çayı buzu üzərindən keçərək Kolomnanı tutdu və kiçik qala olan Moskvanı mühasirəyə aldı. Beş gün müqavimət göstərən şəhər də alındı və yandırıldı. Tatarlar donmuş çay üzərindən hərəkət edərək Vladimir şəhərinə yaxınlaşdılar. Təslim olmaqdan imtina edən şəhər hücumla alındı və qarət edilərək yandırıldı. Şimal-şərqi Rusun başqa şəhərləri də, o cümlədən Suzdal, Rostov, Yaroslavl, Pereyaslavl, Kostroma, Qaliç, Tver və d. işğal olundu. Şimalda yeni ordu toplayan Vladimir böyük knyazı Yuri Vsevolodoviç və onun oğlu, Novqorod knyazı Aleksandrdan (gələcək Nevski) gözlədiyi köməyi almadıqdan sonra 1238-ci ilin martın 4-də Siti çayının sahilində monqol-tatarlarla həlledici döyüşə başladı. Düşmən tərəfindən qəfil mühasirəyə alınan rus döyüşçüləri var-gücləri ilə döyüşsələr də, məğlub oldular. Böyük Vladimir knyazı da döyüşdə həlak oldu.

Novqoroda uzanan yolun açıq olmasına baxmayaraq, tatar-monqollar Torj şəhərini tutub geri döndülər. Cənuba doğru hərəkət edən düşmən kiçik Kozelsk qalasını almaq üçün yeddi həftə onu mühasirədə saxladı. Böyük itki hesabına şəhəri tutan işğalçılar onun bütün əhalisini qırdılar.

Cənub çöllərində dincəldikdən sonra tatar-monqollar 1239-cu ildə ikinci dəfə Rusa hücum edib Murom vilayətini, Orta Volqada Nijni Novqorodu, Cənubi Rusdakı Pereyaslav, Çerniqov knyazlıqlarını işğal etdilər. Sonra yenə cənuba doğru hücum edən qoşun Krımı tutdu. Ayrı-ayrı tümənlər isə Şimali Qafqaz və Cənubi Qafqazı işğal etdi.

1240-cı ilin payızında Batı 600 minlik ordu ilə Rusa üçüncü yürüş zamanı Kiyevə hücum etdi. Dnepri keçən monqol-tatar ordusu noyabrda «rus şəhərlərinin anası» hesab edilən Kiyevə yaxınlaşdı. Kiyevdə knyazlıq edən Çerniqov knyazı Mixail kömək almaq məqsədi ilə Macarıstana getdiyi üçün şəhərin müdafiəsinə voyevoda Dmitr başçılıq edirdi. Bir-birinin ardınca şəhərə dağıdıcı yürüşlər edən işğalçılar son olaraq şəhər müdafiəçilərinin sığındığı Desyatina kilsəsini divardeşən texnika ilə dağıtdılar. Şəhərin sağ qalan müdafiəçiləri və yaralı voyevoda məbədin çökməsi ilə həlak oldular. Şəhər, onun qızıl darvazaları, Sofiya kilsəsi talan edilib, soyulub məhv edildi.

Monqol-tatarların növbəti hədəfi Qaliç-Volın knyazlığı oldu. Knyazlığın torpaqlarında ciddi müqavimətə baxmayaraq işğalçılar dəhşət saçaraq Vladimir-Volın şəhərini ələ keçirdi. Şəhərdə ələ keçirdikləri əsrlərin başlarına

dəmir çivlər vuran düşmən əsgərləri amansız vəhşiliklərini bir daha nümayiş etdirdilər. İstedadlı sərkərdə, knyaz Danil Romanoviç ailəsilə möhkəm Xolm (təpə) qalasında dayanaraq düşmənin bir neçə hücumunu dəf etdi. Monqol-tatarlar qalanı almaqdan vaz keçib qərbə doğru yönəldilər. Dörd ayda bütün cənub və cənub-qərbi Rusu istila edən Batı «Frank dənizinə qədər», yəni Atlantik okeanına kimi irəliləmək məqsədilə Macarıstan və Polşanın sərhədlərinə çıxdı.

Hunların keçdiyi yolu təkrarlamaq məqsədilə 1241-ci ildə Batının qoşunları Polşa, Macarıstan, Çexiya, Moldaviya, Valaxiyanın torpaqlarına daxil oldu. Polşanın o zamankı paytaxtı Krakov və Macarıstanın paytaxtı Budapeşt işğal olundu. Böyük Rus torpaqlarında minlərlə döyüşçü itirən tatar-monqol ordusu Çexiya və Polşada bir neçə məğlubiyyətə düçar oldu. Xorvatiya və Dalmasiya tatar-monqol süvarisinin daxil olduğu son ərazilər oldu ki, burada da Qərb ölkələrinin birləşmiş ordusu qarşısında bir neçə məğlubiyyətə uğrayan monqol-tatar ordusu 1242-ci ildə geri döndü.

Volqaboyunun aşağı axarlarında, geniş köçəri çöllərində Batı öz qərərgahı olan Saray-Batını qurdu. Bu qüdrətli dövlətin paytaxtı idi ki, tatarlar onu Qızıl Ordu (Золотая Орда) adlandırmışdır. Qızıl Ordu dövləti Qaraqorumda mərkəzi yerləşən böyük Monqol imperiyasının bir hissəsi olub böyük xana tabe idi. Batının qurduğu yeni dövlətin sərhədləri şərqdə İrtışdan qərbdə Karpata kimi, şimalda Uralın ətəklərindən cənubda Şimali Qafqaza kimi böyük bir ərazini əhatə edirdi. Rus torpaqları Qızıl Ordu dövlətindən vassal asılılığını qəbul etmişdi. Böyük Novqorod hücuma məruz qalmasa da, Batının hakimiyyəti altında idi. İşğaldan yalnız Polotsk və Smolensk knyazlıqları qaça bilmişdi.

## §2. Rusun şimal-qərb sərhədlərində İsveç və alman xaçlılarının işğalçılıq yürüşlərinə qarşı mübarizə

Şərqdən Batının başında durduğu monqol-tatar işğallarının Rus torpaqlarına istilaçı yürüşləri şimal-qərbdə başqa bir düşmənin fəallaşmasına səbəb olmuşdur. Rus bir zamanlar öz hakimiyyətini Baltik dənizi sahilləri və Finlandiyada yayaraq genişləndirmişdi. Novqorod knyazlığı fin əsilli em, korel, vodi, ijor tayfalarını, o cümlədən Şərqi Baltikyanı torpaqlarda çudları (estlər) öz hakimiyyəti altına almışdı.

Rusun zəifləməsindən istifadə edən alman cəngavərləri Baltikyanı torpaqları ələ keçirmək istəyirdilər. Alman imperatoru torpaqsız cəngavərləri təmin etmək məqsədilə onların şərqdə məskunlaşmış yerləri ələ keçirmələrini dəstəkləyirdi. Yerli bütpərəstləri tabe edərək onlar arasında xristianlığın yayılmasını arzu edən Roma katolik papası da bu işğalı dinə xidmət kimi qələmə verirdi.

İşğal planlarını həyata keçirmək üçün Qərbi Dvinanın mənsəbində Riqa qalasının və Riqa yepiskopluğunun əsasını qoydular. 1202-ci ildə isə zəbt etdikləri torpaqlarda alman ruhaniləri və cəngavərlər «Qılınclılar ordeni»ni yaratdılar. Onların məqsədi Şimali Baltikyanı yerləri, xüsusilə çud və latış tayfalarının yaşadığı əraziləri işğal edərək bütpərəstlər arasında xristianlığı yaymaq idi. Ağ plaşlarının yaxasında qara xaç işarəsi gəzdirən cəngavərlər özlərini Allahın qulluqçuları, işlərini isə müqəddəs hesab edirdilər. Yerli bütpərəst tayfaları və Roma kilsəsinə tabe olmayan rus pravoslavları kafir hesab edərək katolikliyi qəbul etməyə, ya da ölməyə sövq edirdilər. Əslində məqsəd yeni torpaqların, xalqların və ticarət yollarının ələ keçirilməsi idi.

Baltikyanı torpaqlarda Birinci səlib yürüşü vaxtı (1096-1099) alman cəngavərləri tərəfindən Yerusəlimdə yaradılan davakar Tevton ruhani ordeni meydana gəlmişdir. Onları Baltikyanı ərazilərə bütpərəst pruss tayfaları ilə mübarizə aparmaq məqsədilə Polşa knyazları dəvət etmişdir.

Fin torpaqlarını və Neva sahillərini işğal etmək istəyən İsveç də düşmən qüvvələrinin sırasında yer almışdır. Şimal-qərbi rus torpaqlarının sərhədlərində yer alan başqa bir rəqib güc Litva knyazlığı olmuşdur. XII yüzilliyin sonu–XIV yüzilliyin əvvəlində bir çox litva tayfaları qüdrətli ittifaqda birləşərək Novqorod və Polotsk ərazilərinə hücumlar etməyə başladı. Eyni zamanda «Qılınclılar» ordeni məhsuldar Litva torpaqlarını tutmaq məqsədilə hücuma keçdi. Beləliklə, Rus və Litva «Qılınclılar» ordeni şəklində vahid düşmənə qarşı dayanmalı oldular. XIII yüzilliyin ikinci onilliyində polotsk knyazları litvalılarla birlikdə

bir neçə dəfə «Qılınclılar» ordeninə qarşı birgə mübarizə aparmışdır. Novqorod isə alman cəngavərləri ilə Çud torpaqları uğrunda döyüşmüşdür. Pereyaslavl knyazı Yaroslav Vsevolodoviç fin torpaqlarına hücum edərək isveçlilərin bu yerləri tutmasına mane olmuşdur.

1238-ci ildə Yaroslav Vsevolodoviç Vladimir böyük knyazı oldu, oğlu Aleksandrı isə Novqorodda knyazlıq etməyə təyin etdi. 1221-ci ildə anadan olan Aleksandrın anası cəsur döyüşçü İgid Mstislavın qızı idi. XIII yüzilliyin 20–30-cu illərinin əvvəllərində gənc knyaz Novqorodun alman, İsveç, Litva ilə amansız mübarizəsinin şahidi olmuşdur. Novqorod knyazı Aleksandr özünü ağıllı və uzaqgörən dövlət xadimi kimi göstərmişdir.

1236-cı ildə Litva qoşunları «Qılınclılar» ordenini məğlub etmiş, qalan cəngavərlər Tevton Ordeni ilə birləşərək «Livoniya» ordenini təşkil etmişdir. Tevton cəngavərləri Pskov üzərinə hücuma keçərək İzborsk qalasını, sonra yerli satqınların köməyi ilə Pskovu işğal etdilər. Eyni zamanda danimarkalılar Novqoroda mənsub olan Fin körfəzi sahillərindəki çudların yaşadığı əraziyə basqın etdilər.

1240-cı ilin iyul ayının əvvəllərində İsveç cəngavərləri Neva sahillərinə çıxdı. Katolik keşişlərinin xeyir-duası ilə gəmilər vasitəsilə yola çıxan isveç cəngavərlərinin məqsədi Novqorodu işğal etmək idi. İsveç ordusunun başında sərkərdə yarl (knyaz) Fasi və kralın kürəkəni yarl Birger dururdu. Sahilə çıxan İsveç qoşunları cəbhə xətti təşkil edərək, döyüş səngərləri qazmağa başladılar. Düşmənin sayı, döyüş sursatı və mövqeyi haqqında İjorsk gözətçilərinin başçısı Pelqusidən ətraflı məlumat alan Aleksandr 1240-cı il iyulun 15-də səhər saat $9^{00}$-da İsveç ordusu üzərinə qəfil hücum etdi. Qəfil yaxalanan isveçlilərin bir hissəsi qaçaraq gəmilərə doluşdu, digərləri İjori çayının o biri sahilinə qaçmağa tələsdi. 19 yaşlı knyaz cəsarətlə döyüşərək nizəsi ilə yarl Birgeri üzündən yaraladı ki, onu da zorla gəmiyə daşıdılar. İsveç işğalçı qoşunları darmadağın olundu, gəmiləri isə doğranıb batırıldılar. Döyüşdə salnaməçinin verdiyi məlumata əsasən, cəmi 20 nəfər itirən novqorodlular bu qələbə münasibətilə təntənəli dua mərasimi təşkil etdilər. Knyaz Aleksandr Neva üzərindəki bu qələbə münasibətilə «Nevski» ləqəbini qazanmışdır.

Bir az sonra novqorodlularla Aleksandr Nevskinin münasibətləri pozuldu və knyaz doğma yuvası olan Pereyaslavl-Zalesskiyə yola düşdü. Bundan istifadə edən Tevton cəngavərləri 1240-1241-ci illərdə Novqorod ərazilərinin bir hissəsini tutaraq burada Koporye qalasını saldılar. Novqorodlular yenidən Vladimir knyazı Yaroslav Vsevolodoviçə müraciət edərək oğlanlarından birini onlara knyaz göndərməyi xahiş etdilər. Aleksandrın kiçik qardaşı Andrey

Novqoroda gəlsə də, alman cəngavərlərinin qarşısını ala bilmədi. Novqorodluların təkrar müraciəti ilə Aleksandr Nevski yenidən şəhərə gələrək onun müdafiəsini təşkil etməyə başladı. Ordunu yenidən təşkil edən knyaz müttəfiqləri korel və ijorlarla, Ladoqadan gələn polkla Koporyenin üzərinə hücum edib onu dağıtdı. 1242-ci ilin ilk yazında birləşmiş rus ordusu qərbdən hücum edib Pskov şəhərini aldı. Bu vaxt ərzində bütün qüvvələrini səfərbər edən, ağır silahlarla silahlanan atlı alman cəngavər süvarisi və piyada qoşun «paz» və ya «donuz» şəklində düzülərək düşmənə mərkəzdən ağır zərbə vurmaq məqsədilə döyüşə hazır vəziyyətdə idi. Odur ki, açıq sahədə cəngavərlərlə döyüşün ümidsiz olduğunu başa düşən knyaz əsas savaş meydanı üçün Çud gölü sahilinin sıx meşəlik sahəsini seçdi.

1242-ci ilin aprelin 5-də səhər tezdən «donuz» şəklində düzülmüş Tevton cəngavərləri rus ordusu üzərinə hücum etdi. «Ox atanlar» ordenin mərkəzi hissəsini hədəf alsalar da, cəngavərlər rus ordusunu mərkəzi hissədən bölməyə cəhd etdilər. Cinahlardan hücuma keçən rus drujinaçıları alman cəngavərlərini çox da möhkəm olmayan buz üzərinə sıxışdırmağa başladılar. Ağır geyimli qoşun nazik göl buzunun altına batmağa başladı, pərən-pərən düşən cəngavərlər qarşı sahilə qaçaraq canlarını qutarmaq istəyirdilər. Rus salnaməçisinin məlumatına əsasən, buz gölündə 500 cəngavər, çoxlu sayda onların müttəfiqi çudlar həlak oldu, 50 adlı-sanlı səlibçi əsir alındı. Tevton ordusu tam məğlubiyyətə uğradı. Bu tarixi qələbə nəticəsində ordenin şərqə yürüşü uzun müddət dayandı, şimal-qərbi rus torpaqlarının müstəqillik yolu müəyyən olundu.

# V FƏSİL
# RUS TORPAQLARI XIII ƏSRİN II YARISI – XV ƏSRİN SONLARINDA. MƏRKƏZLƏŞMİŞ RUSİYA DÖVLƏTİNİN YARANMASI

## §1. Rus torpaqları Qızıl Ordunun hakimiyyəti altında

Qızıl Ordu dövlətinin yaranması ilə rus torpaqları onun hakimiyyəti altına düşdü. Rusun iki yüz qırx il davam edən əzabverici ordu əsarəti (monqol-tatar əsarəti, «ordu əsiri») dövrü başladı. Rus knyazlıqları siyasi müstəqilliklərini itirdi. Artıq ordu xanı ali hökmdar hesab olunurdu ki, onlar da XV əsrin sonuna kimi Rusda çar adlanırdı. Yalnız xanın qərarı ilə rus knyazları öz taxtına sahib ola bilərdi. Rusun ordudan vassal asılılığı şərti böyük Vladimirin və kiçik udel knyazlarının xandan yarlık (tatar-monqol xanlarının fərmanı) almaları idi. «Çar xəracı» adı altında ildə hər bir nəfərdən yarımrubldan iki rubla qədər bac alınırdı ki, bu da o deməkdir ki, əhali bir il ərzində qazandığını verməyə məcbur idi. Əlavə olaraq, xalq ordu qarşısında 13 növ biyar (mükəlləfiyyət) yerinə yetirməyə borclu idi. Yalnız kilsə xərac verməkdən azad edilmişdir. Bacı toplamaq üçün rus şəhərlərində xanın baskakı (canişin) yerləşirdi. Tez-tez rus torpaqlarına soyğunçu basqınlar edən «ordu döyüşçüləri» minlərlə kəndli, sənətkar, qadın, uşağı əsir alaraq qul kimi satırdılar. 1275-1300-cü illərdə rus knyazlıqları 15 belə böyük basqına uğramışdır. Kiçik monqol dəstələri də şəhər və kəndlərdə şəxsi var-dövlət ələ keçirmək məqsədilə hücumlar təşkil etmişdir.

İstilaçı və soyğunçu monqol-tatar hücumları Rus torpaqlarının demoqrafik və iqtisadi tənəzzülünə səbəb olmuşdur. Məlum olduğu kimi, monqol-tatar hücumu ərəfəsində Rusun 12 mln. çox əhalisi olmuşdur. Bu say hətta 400 il keçdikdən sonra da bərpa olunmadı, belə ki, XVII yüzilliyin sonlarında Rusiya dövlətində yalnız 11 mln. adam yaşayırdı. İqtisadi tənəzzülə məruz qalan Rusda yüzlərlə inkişaf etməkdə olan şəhərlər məhv edildi, qalan şəhərlərdə isə uzun zaman daşdan tikinti işləri dayandı.

Monqol-tatarların hücumu sayəsində Rus torpaqları da bir-biri ilə daha az əlaqə saxlayan iki – cənub-qərb və şimal-şərq hissəsinə bölündü. Polotsk, Minsk, Smolensk, Qaliç – Volın, Kiyev, Çerniqov, Novqorod – Seversk torpaqlarını əhatə edən çənub-qərbi Rus daha çox Qərbə meyil edərək artıq XIV əsrin sonunda Litva və Polşanın, qismən Macarıstanın hakimiyyəti altına düşdülər. Yalnız Vladimir, Tver, Moskva, Ryazan və d. knyazlıqları əhatə

edən Şimal-şərqi Rus iqtisadi və siyasi potensialını yeni müstəqil rus torpaqlarının birliyi uğrunda mübarizəyə qoruyub saxlamışdır.

Rus knyazları monqol-tatarların hökmranlığını müxtəlif cür qəbul etmişdir. Knyazların bir hissəsi müqavimət göstərməyin, bu məqsədlə müttəfiqlər tapmaq tərəfdarı olmuşdur. Başqa bir hissə isə müvəqqəti olaraq düşmənə tabe olmağı daha düzgün addım hesab etmişdir. Qaliç knyazı Danil Romanoviç Orduya qarşı dayanmaq məqsədilə qərb qoşunları olan Macarıstan və Polşa ilə ittifaq bağladı. Hətta Roma papası 1253-cü ildə ona «Rusun kralı» kimi tac qoymuşdur. Lakin Qərbdən lazım olan köməyi ala bilməyən knyaz sonda Orduya boyun əyməyə məcbur olmuşdur.

Şimal-şərqdə Orduya qarşı Aleksandr Nevskinin kiçik qardaşı Andrey Yaroslaviç dayanmışdır. Lakin Nevryuyann ordu qoşunlarına məğlub olan knyaz Novqoroda, ordan isə İsveçə qaçmışdır. Yalnız bir neçə ildən sonra knyaz Rusa dönmüşdür.

Aleksandr Nevski isə Ordu ilə düşmənçilik etməyin təhlükəli olduğunu bilirdi. Odur ki, knyaz doğma torpaqları yeni soyğunlardan qorumaq məqsədi ilə monqol-tatarlarla, nəyin bahasına olursa olsun, sülhü saxlamaq tərəfdarı idi. Ordu hökmdarlarının rus knyazları arasında qəsdən təşkil etdikləri böyük knyazlıq çəkişməsindən sonra yalnız 1252-ci ildə böyük Vladimir knyazı Aleksandr Yaroslaviç Nevski (1220-1263) olmuşdur. Diplomatik və hərbi bacarığı sayəsində Ordu ilə sülhü təmin edən böyük knyaz qərb sərhədlərində də bir çox uğura imza atmışdır. 1262-ci ildə Litva ilə bağlanmış sülh müqaviləsinə əsasən, Polotsk Aleksandrın nüfuzu altında keçmişdir, həm də Orduya qarşı birgə çıxış etmək imkanı yaranmışdır. Riqa, Tevton ordeni, Lyubek ilə azad ticarət müqavilələri imzalanmışdır ki, bu da qərb sərhədlərinin müvəqqəti də olsa təhlükəsizliyini təmin etmişdir.

Ordu ilə münsibətlərdə Aleksandr Nevski kövrək sülhü saxlamağa çalışırdı. Odur ki, knyaz öz təbəələrindən ordu bacını vaxtında verməyi tələb edirdi. 1257-ci ildə Novqorod əhalisi Ordu «sayıcılarının» adamları siyahıya almaq tədbirinə qarşı üsyan etdikdə knyaz onu yatırmışdır. 1262-ci ildə şimal-şərqi rus torpaqlarında yenidən Ordu «sayıcılarına» qarşı üsyanlar qalxdı. Ordunun yeni yürüşünün qarşısını almaq məqsədi ilə Aleksand Nevski xanın qərargahına getdi. Danışıqların uğurla başa çatmasına baxmayaraq, Aleksandr Nevski Ordudan ölümcül xəstə ayrıldı, 1263-cü ilin noyabrın 14-də sxima (yüksək rahiblik dərəcəsi) qəbul edərək 43 yaşında vəfat etdi. Belə fərz olunur böyük knyaz Aleksandr Nevski Orduda zəhərlənmişdir. 1547-ci ildə övliya kimi qəbul edilən Aleksandr Yaroslaviç Nevski əvvəlcə Vladimirdə kilsədə dəfn edilmiş, sonra onun nəşi 1724-cü ildə Sankt-Peterburqdakı Troitsa kilsəsinə köçürülmüşdür.

## §2. Rus torpaqlarının birləşdirilməyə başlanması. Moskvanın yüksəlişi

Aleksandr Yaroslaviç Nevskinin ölümü Vladimir böyük knyaz taxtı uğrunda daxili mübarizəni növbəti dəfə qızışdırdı. Əvvəlcə onun oğlanları Dmitri və Andrey Alkesandroviçlər doğma əmiləri YaroslavYaroslaviç Tverski və Vasili Yaroslaviçlə döyüşdü. Sonra Dmitri və Andrey bir-biriləri ilə vuruşdu. Hər dəfə knyazlar kömək üçün Orduya müraciət edirdi ki, onlar da növbəti dəfə torpaqları talan edirdilər.

Ordu xanları XIV yüzillikdə «parçala və hökmüranlıq et» prinsipinə əsaslanaraq rus knyazları arasındakı taxt mübarizəsin daha da qızışdırırdı. Təsadüfi deyil ki, XIV yüzillik ərzində böyük knyaz titulu bir neçə rus knyazına eyni vaxtda təqdim edilmişdir. Bunlar Tver, Moskva, Ryazan, Smolensk, Nijeqorodsk böyük knyazlıqları olmuşdur. Orduda belə hesab olunurdu ki, siyasi rəqabət rus torpaqlarının birləşməsinə mane olmalıdır. XIV yüzilliyin əvvəllərində paytaxt şəhəri kimi Vladimirin mövqeyi zəifləməyə başlamışdır. Bunun müqabilində Tver, Ryazan, Nijni Novqorod və Moskva kimi mərkəzlərə malik olan şimal-şərqi rus knyazlıqları nüfuz və gücünü artırdı. Böyük knyaz Andrey Aleksandroviçin ölümündən sonra böyük knyaz titulu uğrunda Mixail Yaroslaviç Tverski və Yuri Daniloviç Moskovski mübarizəyə başladı. İki onillik ərzində davam edən mübarizəyə Ordu da cəlb edilmişdir, belə ki, knyaz Yuri Ordu xanının qızı ilə evli idi. Nəticədə, 1318-ci ildə Mixail Tverski Orduda şəhid olmuş, sonradan övliya qəbul edilmişdir. 1324-cü ildə knyaz Mixailin oğlu Tver knyazı Dmitri Mixayloviç atasının qisasını alaraq knyaz Yuri Moskovskini qətl etmişdir. Bir ildən sonra Ordu xanının əmri ilə knyaz Dmitri buna görə edam edilmişdir.

Beləliklə, knyaz sülalələri arasındakı qanlı mübarizədə XIV əsrin 20-ci illərində müasirlərinin Kalita («pul kisəsi») ləqəbi verdikləri İvan Daniloviç (təq. 1288-1340) heç kimin gözləmədiyi halda rus knyazları arasında «başçı» olmuşdur. Tarix təsdiq etmişdir ki, İvan Daniloviç əlinə düşən bu fürsətdən Moskva knyazlığının sonrakı yüksəlişi üçün potensial yaratmaq məqsədilə maksimum bəhrələnmişdir. İvan Daniloviç Kalita knyazlığı dövründə ya satınalma, ya da işğal vasitəsilə kiçik udel knyazlıqlarını Moskvaya birləşdirməyə başladı. Knyaz öz fəaliyyətində çox vaxt qalan şəhər (земство) özünüidarə vasitəsindən istifadə edirdi ki, bu «zemstvo hakimiyyəti» də yerli şəhərləri də Moskvya doğru çəkirdi. Hətta daha iddialı Böyük Novqorod belə özündə başqa knyazlıqlardansa Moskva hökmdarlarının nümayəndəsini görmək istəyirdi. İvan Kalita Ordudan xəracı özü toplamağa icazə almağa nail oldu

ki, bu da yerli xalqın nifrət etdikləri «baskakların» Rusa gəlmələrinə mane oldu. Ağıllı diplomat olan Moskva knyazı bir neçə onillik ərzində rus torpaqlarını soyğunçu Ordu hücumlarından xilas etmişdir. Boyun əymək istəməyən yerlərdə knyaz özü Rostov və Pskovda olduğu kimi ixtişaşları yatırmışdı. Təsadüfü deyil ki, salnaməçi İvan Daniloviçin knyazlığından sonra bütün Rusda bərqərar olan «sakitlikdən» bəhs etmişdir.

İvan Kalitanın dövründə Moskva knyazı ilə Rus pravoslav kilsəsi arasında sıx münasibətlər yaranmışdır. Bunun sayəsində yeni mitropolit Pyotr (1325-ci ildə vəfat edib) Vladimirdən Moskvya köçdü, Moskva siyasi mərkəz olmaqdan əlavə, həm də bütün rus torpaqlarının dini mərkəzinə çevrildi. Ölümündən sonra 1339-cu ildə mitropolit Pyotrun kilsə tərəfindən müqəddəs (övliya) elan edilməsi nəticəsində Moskva birinci övliyasına sahib olmuşdur. Bu isə Tanrının Moskva və Moskva knyazlığını xüsusi olaraq seçməsinə olan inamın ifadə edilməsidir ki, rus torpaqlarının Moskva ətrafında birləşdirilməsində sözügedən faktor əhəmiyyətli rol oynamışdır. Əgər bu inam olmasa və müasirlərinin şüurunda kök salmasa, onda Moskva üzərinə düşən Rusu Ordu hakimiyyətindən xilas etmək missiyasını yerinə yetirə bilməzdi.

XIV əsrin 40-cı illərindən Rusun Ordu əsarətindən azad etmək üçün əlverişli və qeyri-əlverişli xarici şərait yaranmışdır. Ordu daxilindəki hakimiyyət mübarizəsi nəticəsində 30 ildə otuza yaxın xan dəyişilmişdir ki, bu da hakimiyyətin əhəmiyyətli dərəcədə zəifləməsinə səbəb olmuşdur. Qızıl Ordu dövləti özü isə ayrı-ayrı kiçik uluslara bölünmüşdür.

Belə əlverişli şəraitlə yanaşı Böyük Litva knyazlığının güclənməsi və Rusun daxili işlərinə qarışması xarici vəziyyəti çətinləşdirən amil idi. Artıq XIV əsrin əvvəllərində knyaz Gedimin, ikinci yarısında oğlu Olgerdin knyazlığı dövründə Litva dövləti demək olar ki, bütün cənub və cənub-qərb rus torpaqlarını öz ərazisinə daxil edilmişdi. Kiyev, Çerniqov, Vladimir-Volın Böyük Litva knyazlığının şəhərləri hesab olunurdu. Smolensk knyazı özünü Gedimin «kiçik qardaşı» sayırdı.

XIV-XV əsrlərdə knyazlığın ərazisində yeni şərqi slavyan xalqları formalaşmışdır. Dnepr üzərində, Böyük Litva knyazlığının kənarında (Okraine–Ukrayne) Ukrayna, şimalda Pripyat və Qərbi Dvina çayları arasında, Beloy Rus ərazisində belorus xalqlarının yaranması başlamışdır. Eyni zamanda, şimal-qərb və şimal-şərqi qədim rus torpaqlarında müasir rus xalqı formalaşmışdır.

Knyaz Olgerdin ölümündən sonra oğlu Yaqaylo katolikliyi qəbul edib, polyak şahzadəsi ilə evlənərək Polşa kralı oldu. Onun qardaşı oğlu Vitovt Litva taxtına oturdu ki, hər iki dövlət yaxınlaşmağa başladı. 1410-cu il iyulun 1-də Qryunvald (Qryunfeld) adlanan yerdə Polşa–Litva qoşunu ilə Tevton

cəngavər ordusu arasında döyüş baş verdi. Avropa tarixinin mühüm döyüşlərindən biri cəngavərlərin məğlubiyyəti, ordenin dağılması ilə başa çatdı.

XVI əsrdə Böyük Litva knyazlığı və Polşa dövləti ittifaq (uniya) bağlayaraq Reç-Pospolita, yəni kralın əyanlarını seçdiyi «respublika» dövlətini yaratdılar. Artıq, XIV əsrdən başlayaraq Litva knyazlığının Dneprə kimi olan rus torpaqlarını öz ərazisinə daxil edərək, Smolensk, Okanın yuxarılarındakı knyazlıqlara, Pskov və Novqorod torpaqlarına hücum etməsi rus torpaqlarında birinci olmaq üstündə Moskva knyazlığının ciddi rəqibinin meydana çıxdığını göstərirdi.

Bu şəraitdə İvan Kalitanın Moskvanı yüksəltmək siyasətini onun oğlanları Semyon Qordı (1340-1353) və İvan II Krasnı (1353-1359) davam etmişdir. Onların knyazlıqları dövründə Dmitrov, Kostroma, Starodub knyazlıqları və Kaluqa rayonu Moskva knyazlığının tərkibinə daxil edilmişdir. Onlar öz rəqiblərini pul, silah, hiylə vasitəsilə məğlub edirdilər. 1359-cu ildə Moskva knyazlığının taxt-tacına doqquz yaşlı Dmitri İvanoviç, yəni Dmitri Donskoy sahib oldu. Məhz bu ildə amansız daxili çəkişmələr nəticəsində Qızıl Ordu iki hissəyə bölündü. Volqa çayının qərb hissəsində Çingiz xanın nəslindən olmayan temnik (on minlik qoşun başçısı) Mamay başçı oldu. Volqadan şərqə doğru uzanan torpaqlarda isə Saray xanı hakim idi ki, onlar arasında da daim mübarizə gedirdi.

Dmitri İvanoviç boyarların əhatəsində bir neçə dəfə Saraya gedərək böyük knyazlıq üçün yarlık (fərman) xahiş etmişdir. Hədiyyələrlə, alçalmaq hesabına nəhayət üçüncü dəfə xandan Moskva knyazı belə bir fərman ala bilmişdir. Yalnız temnik Mamayın təsdiqindən sonra böyük knyaz titulunu qəbul edən Dmitri İvanoviç bu alçaldıcı qəbulları yaddan çıxarmamışdır.

Eyni zamanda öz sərhədlərini daha da genişləndirən Moskva knyazlığına şimal-şərqi rus torpaqlarının yarısı daxil idi. Şəhərin təsərrüfatı durmadan inkişaf edirdi. Təsadüfü deyil ki, məhz Dmitri İvanoviç Moskvada ağ daşdan qala – Kremli tikdirmişdir (1367).

XIV əsrin 60-cı illərinin sonu 70-ci illərinin əvvəllərində Böyük Litva knyazı Olgerd üç dəfə Moskvanı mühasirəyə alsa da, şəhər ağ daşdan divarlarla mühafizə olunduğu üçün onu ala bilmədi. Moskvanın başqa bir rəqibi olan Tver Litva dövlətinə arxalanaraq 1375-ci ildə Ordudan böyük knyazlıq yarlıq – fərman almağa cəhd etdiyi üçün knyaz Dmitrinin yürüşünə uğramışdır. Tver knyazı Moskvanın başçılığını qəbul edərək Orduya qarşı birgə hərəkət etmək haqqında razılığa gəlmişdir.

Rus knyazları arasında Dmitri İvanoviç birinci olaraq ənənəni pozaraq 1361-ci ildən ona xərac ödəməkdən imtina etdi. Buna cavab olaraq qüvvələrini yenidən səfərbər edən temnik Mamay rus torpaqlarına qarətçi basqınlar təşkil

edərək Moskva knyazını yenidən xərac verməyə məcbur etmişdir. 1377-ci ildə Mamay Rusa növbəti hücum təşkil etdi. Düşmənə qarşı Nijeqorodsk-Suzdal və Moskva knyazlığının qoşunu çıxdı, Pyan çayı döyüşündə sayıqlığını itirən qoşun başçısının təqsiri üzündən düşmən qəfil hücum edərək rus qoşununu məğlub edib, Nijni Novqorodu tutub yandırdı. Mordova torpaqlarındakı bu ağır məğlubiyyətdən dərs çıxaran Moskva və Ryazan döyüşçüləri 1378-ci ildə Voje çayı döyüşündə Beqiçin başçılıq etdiyi ordu qoşunlarını darmadağın etdilər. Bu rusların Ordu üzərində açıq sahədə birinci qələbəsi idi.

Voje çayı qələbəsi Mamayı yeni yürüşə daha ciddi hazırlanmağa sövq edirdi. Böyük ordu toplayan Mamay Krımdakı Genuya koloniyalarından ağır italyan piyada qoşunu tutdu, Litva knyazı Yaqaylo və Ryazan knyazı Oleqlə ittifaqa dair müqavilə imzalandı.

Moskva knyazı Dmitrinin başçılığı altında Tver və Suzdal knyazlıqlarından başqa bütün şimal-şərqi knyazlıqlar birləşmişdi. Böyük Novqorod, Smolensk və Ryazan knyazları da qoşun göndərmədi. Tarixçilər hər iki düşmən tərəfin 50-150 min nəfər döyüşçüsü olduğunu təsbit etmişdir. Kolomnada toplanan rus qoşunu 1380-ci il avqustun axırında yürüşə başlayaraq Dona tökülən Nepryadva çayında mövqeyi tutdular. Don çayını da keçən rus ordusu ilə Ordu döyüşçüləri arasındakı vuruşma 1380-ci il sentyabrın 8-də, təqribən səhər saat 11-də oldu. Kulikovo çölü eni 4-5 km, şimala doğru yüksəkliklər, meşə və çaylarla əhatə olunmuşdur. Bu isə monqol-tatar süvarisinin keçmə manevrinin qabağını kəsirdi və həm də onlar yalnız qarşıdan hücum edə bilərdilər. Knyaz Dmitrinin polkları bir neçə qat döyüş xətti qurmuş, Serpuxov knyazı Vladimir Andreyeviçin və Volın Voyevodası Dmitri Bobrokun döyüşçüləri isə meşədə pusquda dayanmışdı. Döyüşün başlanması ilə hücuma atılan monqol-tatarlar rus qoşununun ön hissəsinə ağır zərbə vuraraq hücumların davam etdirirdi. Qəflətən meşədən çıxan rus qoşunu hücuma keçən düşmənə arxadan zərbə vurdu. Monqol-tatar qoşunları pərən-pərən düşərək qaçmağa başladılar. Qaçan düşməni xeyli təqib edən rus döyüşçüləri tatar-monqolları darmadağın etdilər. Bu tarixi qələbə sayəsində Donskoy ləqəbi qazanan böyük Moskva knyazı Dmitri İvanoviç də ağır yaralanmışdı. Mamayın müttəfiqi Yaqaylo gecikdiyi üçün döyüşdə iştirak etmədi. Kulikovo döyüşündəki tarixi qələbə rus torpaqlarının monqol-tatar zülmündən azad edilməsi mübarizəsində Moskvanın əhəmiyyətini və yerini daha da möhkəmlətmişdir.

Məğlub temnik Mamay cənuba qaçdı, onun qoşununun bir hissəsi xan taxtını ələ keçirməyə namizəd olan Toxtamış tərəfindən məhv edildi, qalan döyüşçülər isə Toxtamışın ordusuna qoşuldu. Mamay Krımdakı Genuya kolo-

niyasının Kafı (Feodosiya) şəhərinə gəldi və burada özünün əvvəllki müttəfiqi genuyalılar tərəfindən öldürüldü.

Kulikovo döyüşündə Mamayın məğlubiyyəti onun rəqibi Toxtamışın Orduda mövqeyinin möhkəmlənməsinə səbəb olmuşdur. Məhz Toxtamışın hakimiyyəti altında Qızıl Ordunun birliyi təmin edildi və o, yenidən «rus ulusu» üzərində hakimiyyətini bərpa etmək istədi.

Bu məqsədlə yeni böyük ordu toplayan Toxtamış 1382-ci ilin yayında Oka çayını keçərək Moskvya hücum etdi. Qəfil basqından xəbər tutan Moskva knyazı Dmitri Donskoy yeni qüvvə toplamaq məqsədilə təcili olaraq Pereyaslavla, sonra isə Kostromoya yola düşdü. Müqavimətə rast gəlməyən Toxtamış ordusu Kremlə bir neçə hücum təşkil etdilər. Kremli yürüşlə ələ keçirə bilməyən Toxtamış hiyləyə əl atdı. Bir qədər xərac alıb, Kremlə daxil olub ona baxmaq və heç kimə pislik etmədən şəhəri tərk etməyə and içdi. Moskvalılar Kremlin darvazalarını açdıqdan sonra tatarlar içəri daxil olub müdafiəçiləri qətlə yetirdilər, knyaz sarayını, boyarların evini, kilsəni soyub taladılar, knyaz xəzinəsini ələ keçirib qədim kitabları yandırdılar. Dmitri Donskoyun və Serpuxov knyazı Vladimirin qoşunlarının Moskvaya yaxınlaşması xəbərini alan Toxtamış Moskvanı tərk edib yol boyu Ryazan knyazlığını da qarət edərək Orduya geri döndü. Toxtamışın yürüşü Moskvanı Orduya yenidən xərac verməyə məcbur etdi.

Toxtamış xanın viranedici basqınından sonra knyaz Dmitri Donskoy bir neçə illər ərzində dağılmış knyazlığının bərpası ilə məşğul olmuşdur. 1389-cu ildə 39 yaşında vəfat edərkən Dmitri İvanoviç son 150 ildə ilk dəfə olaraq «böyük knyazlığı» Ordudan razılıq almadan Moskva knyazının irsi mülkü olaraq votçina kimi oğlu Vasiliyə təslim etmişdir. Bu vaxtdan etibarən böyük knyazlıq titulu qəti olaraq Moskva knyazlarına keçdi ki, onlar da varis məsələsini Ordudan razılıq almadan özləri həll etməyə başladılar.

Dmitri Donskoyun oğlu Vasili Dmitriyeviç (1389-1425) atasının siyasətini davam etdirsə də, Ordu ilə açıq münaqişəyə girmirdi. Onun knyazlığı dövründə Nijni Novqorod, Qorodets, Murom Moskvaya birləşdirildi.

XIV yüzilliyin sonlarında Səmərqənd hakimi Əmir Teymur (Tamerlan) (1136-1405) bütün Orta Asiyanı, Şimali Qafqazın bir hissəsini özünə tabe edərək Qızıl Ordu dövlətinə hücum etdi. 1395-ci ildə amansız və qətiyyətli sərkərdə, dövlət başçısı Timur Toxtamış xanın ordusunu məğlub edərək, şəhər və kəndləri talayıb dağıdaraq Rusa doğru hərəkətə başladı. Toxtamış canını xilas edərək Litvaya qaçdı, Timur isə yoluna çıxan hər şeyi məhv edərək Yelets şəhərinə çatıb qəfil geri döndü və Rus rahat nəfəs aldı. Ordunun zəifləməsindən istifadə edən I Vasili xərac verməyi dayandırdı.

1425-ci ildə I Vasilinin ölümündən sonra taxta onun on yaşlı oğlu Vasili Vasilyeviç (fasilələrlə 1425-1462) çıxdı. Kiçikyaşlı knyazın anası, ağıllı və qürurlu qadın olan Sofiya Vitovtovna işlərə başçılıq edir, babası qüdrətli böyük Litva knyazı Vitovt isə qəyyumluq edirdi. I Vasilinin qardaşı Yuri Dmitriyeviç Zveniqorod və Qaliç Merskdə (indiki Qaliç şəhəri və Kostromo vilayəti) knyazlıq edirdi və bir neçə oğlanları var idi. Vasili Yuryeviç və Dmitri Yuryeviç (Şemyaka ləqəbli – tatarca paltar deməkdir) knyazın böyük oğlanları idi. Böyük knyaz taxtına sahib olan II Vasili ilə Zveniqorod knyaz ailəsi arasındakı taxt-tac mübarizəsi 20 il davam edərək bir çox ailə faciəsinə səbəb olmuşdur. Mübarizədə iştirak edən tərəflər Moskva taxtına, yəni bütün Rus torpaqlarına nəzarətə can atırdı.

II Vasili, əmisi Yuri Dmitriyeviç və oğlanları arasında dəfələrlə əldən-ələ keçən Moskva böyük knyazlıq taxtı nəhayət qohumları tərəfindən kor edilib Tyomnı ləqəbi alan II Vasilinin hakimiyyətə yenidən sahib olması ilə başa çatmışdır.

Rus torpaqlarını əsarətdə saxlayan Qızıl Ordu dövləti də daxili çəkişmələr və mübarizələr şəraitində getdikcə zəifləyirdi. Çingiz xan sülaləsinin ayrı-ayrı qolları arasındakı hakimiyyət davası Ordunun siyasi parçalanma yoluna qədəm qoymasına səbəb olmuşdur. Artıq XV əsrdə Qızıl Ordu dövlətinin parçalanma prosesi başladı.

1420-ci ildə Krım xanlığı meydana gəldi ki, Hacı Gərayın xanlığı dövründə bu dövlət tam müstəqil olmuşdur. XVI əsrdən başlayaraq Krım xanlığının paytaxtı Baxçasaray şəhəri idi. XVIII əsrin sonlarına kimi mövcud olan Krım dövlətinin sərhədləri yarımadadan başqa Şimali Qara dəniz çöllərini də əhatə edirdi.

XV əsrin II yarısında Sibir çayları Tobol və İrtış çayları arasındakı ərazidə Sibir xanlığı yarandı ki, banisi İbak (İbrahim) xan olmuşdur. Qərbi Sibir ərazisini əhatə edən dövlətin paytaxtı Tümen, Kaşlık (Sibir) olmuşdur. Sibir xanlığının cənubunda maldarlıq, qismən əkinçilik yayılmışdır. Eyni zamanda yerli əhali ovçuluq və balıqçılıqla da məşğul olurdu. 1555-ci ildə Sibir xanı Yadigar xan Moskvadan asılılığı qəbul etmişdir.

1437-ci ildə Orta Volqaboyu ərazisində paytaxtı Qazan şəhəri olmaqla Qazan xanlığı yaranmışdır. Ulu Məhəmməd xanın qurduğu dövlət əlverişli coğrafi mövqeyə malik idi ki, mühüm ticarət yolları onun ərazisindən keçirdi. Əhalinin məşğuliyyəti əkinçilik, maldarlıq, meşə arıçılığı və sənətkarlıq idi. Moskva knyazlığı ilə Qazan xanlığı arasında qarşılıqlı basqınlar nəticəsində çoxlu qənimət əldə olunurdu. Moskva knyazlığının Qızıl Ordudan vassal asılılığı başa çatdıqdan sonra Rusiya–Qazan münasibətləri kəskinləşdi.

1460-cı ilin əvvəllərində Aşağı Volqa boyunda Həştərxan xanlığı meydana gəlmişdir. Qasım xanın qurduğu dövlət Xəzər dənizinə çıxışa nəzarət etməklə əlverişli coğrafi mövqeyə malik olmuşdur. Əhalinin əsas məşğuliyyəti maldarlıq olub, balıq vətəgələri, duz göllərinə sahib idi. Dövlətdə feodal təsərrüfat sistemi hökm sürürdü.

Qızıl Ordunun yerli xanlıqlara parçalanması Rus torpaqlarının Ordudan vassal asılılığının başa çatması prosesini sürətləndirmişdir.

### §3. Mərkəzləşmiş Rusiya dövlətinin yaranması

1462-ci ildə başı bəlalar çəkən II Vasili vəfat etdi. Moskva taxtına onun 22 yaşlı böyük oğlu III İvan Vasilyeviç çıxdı. Atasının vəsiyyəti əsasında taxta sahib olan yeni knyazın titulunu Ordunun təsdiq etməsinə ehtiyac olmasa da, rus torpaqları xərac verməkdə davam edirdi. Rus torpaqlarının böyük əksəriyyəti Moskva dövlətinin tərkibinə daxil edilsə də, Novqorod, Tver, Ryazan knyazlıqları, Pskov müstəqil olaraq qalırdı. Eyni zamanda, knyaz ailəsinin hakimiyyəti altında olan udel knyazlıqları da mövcud idi.

Məlum olduğu kimi, Batı Qızıl Ordusunun yerində meydana gələn Böyük Ordu və Saraydan ayrılan Qazan, Krım, Sibir xanlıqları bir-biri ilə rəqabət edərək həm də rus knyazlıqlarından xərac tələb edirdi. III İvan knyazlığının ilk illərindən Moskva dövlətinin azadlığı və müstəqilliyi uğrunda yeni yaranan xanlıqlarla mübarizəyə başlamışdı. Daxili mübarizəni kəskinləşdirməmək, ailədə sülhü qoruyub saxlamaq məqsədilə Udel knyazlıqlarına toxunmadı. Ancaq qardaşı Yuri öldükdən sonra varisi olmadığı üçün Dmitrov knyazlığını dövlətin tərkibinə daxil etmişdir. Eyni zamanda, III İvan müxtəlif vasitələrlə müstəqil rus knyazlıqların Moskvaya birləşdirmək siyasəti yeridirdi. Məsələn, III İvan Yaroslavlı knyaz ailəsindən pulla alaraq formalaşmaqda olan Rus dövlətinə qatmışdır. Ryazan knyazlığı üzərində patronat (hamilik) təyin etmişdir. Novqorod və Tverin məsələsi daha mürəkkəb idi. Böyük Novqorod Respublikası Moskva qarşısında müstəqilliyini saxlamaq məqsədilə Litva ilə danışıqlar apararaq ondan kömək almaq ümidində idi. Belə bir vaxtda III İvan Novqoroda qramota (fərman) göndərərək Novqorod Respublikasını özünün «ata yurdu» adlandırmışdır. Bu şəhərdə boyarlar, tacir və sənətkarlar arasında ciddi həyəcanla qarşılandı. Şəhərdə veçe iclasına toplanan novqorodlular Moskva knyazının xolopu olmaq istəmədiklərini bildirdilər.

Münaqişəni silahlı yolla həll etməyi qərara alan III İvan hazırladığı yürüşə ümumrus xüsusiyyəti vermək məqsədilə knyaz nəslindən olan adamları, boyarları, dvoryanları, tacirləri yığaraq onların razılığını aldı. Həm də yürüşə dini məna verən III İvan bəyan etdi ki, Novqorod Litva ilə müqavilə bağladığı üçün bu hücum «kafirlərə» qarşı – katolikliyə yönəlmişdir.

«Əsl dini» xilas etmək bayrağı altında III İvan böyük və əzəmətli ordu ilə Novqorod knyazlığına hücum etdi. 1471-ci ilin iyulun 14-də Şelon çayının sahilində Novqorod qoşunu ilə Rus qoşununun ön dəstəsi arasında tarixi döyüş baş verdi. Novqorodlular məğlub oldu, Böyük Novqorod Respublikası III İvanın «votçinası» olduğunu qəbul etdi.

Litva ilə yaxınlaşma tərəfdarı olan şəhər posadniki Boretski edam olundu, bir çox boyar və əyanlar Kolomnıya sürgün edildi. Novqorod Moskvaya böyük miqdarda təzminat ödədi.

Şelon məğlubiyyətindən sonra edam edilən posadikin dul qalan arvadı Marfa Boretskayanın başçılığı ilə Novqorodda qiyam başladı. Moskvanın tərəfdarları edam edildi, Moskva tacirləri şəhərdən qovuldu. 1477-ci ildə Moskva böyük knyazı Novqorodu ələ keçirmək üçün yenidən rus ordusunu göndərdi. Şəhəri mühasirə edən qoşun Novqorod əyanlarını danışıqlara məcbur etdi. Yeni müqaviləyə əsasən, Novqorod rus dövlətinin bir hissəsinə çevrildi. 1478-ci ilin yanvar ayında III İvan təntənə ilə «öz votçinası» – Novqoroda daxil oldu. Böyük knyaz canişinləri şəhərdə hakimiyyəti ələ aldı. Moskvanın qəti əleyhdarları və Marfa Boretskaya həbs edilərək sürgünə göndərildi. Bir ay Novqorodda qalan böyük knyaz şəhərdə Moskva qayda-qanununu qurdu. Moskvaya qayıdan III İvanın arxasınca Novqorodun azadlıq və müstəqillik simvolu olan Veçe zəngini də xizəkdə daşıdılar.

1478-ci ildə böyük knyaz III İvan Orduya xərac verməyi dayandırdı. Qızıl Ordunun varisi Böyük Ordu xanı Əhməd Rusa yürüş təşkil etməyə hazırlaşdı. Məqsədinə çatmaq üçün Əhməd xan Litva knyazı və Polşa kralı IV Kazimirlə birgə hərəkət haqqında razılığa gəldi. Moskva böyük knyazı III İvan isə Krım xanı ilə ittifaq müqaviləsi imzaladı. Həlledici anda Krım xanının qoşunları Litva torpaqlarına basqın təşkil edərək Polşa kralı IV Kazimirin qüvvələrini zərərsizləşdirdi.

1480-ci ilin yayında Əhməd xan böyük ordu ilə Rusa doğru yürüşə başladı. III İvan qoşunu yığaraq onun qarşısına çıxdı. Rus və Ordu qoşunları Okanın qolu olan kiçik Uqra çayına hər iki tərəfdən yaxınlaşaraq döyüş mövqeyi tutdu. Demək olar ki, bir ay ərzində hər iki böyük ordu qarşı-qarşıya dayanaraq döyüşə girməyə cəsarət etmədi. Şaxtaların düşməsilə Əhməd xan Ordu qoşununu döyüş meydanından çəkib apardı. Rus qəti olaraq Ordu

damğasını üzərindən atdı. Tezliklə Orduya qayıtmağa macal tapmayan Əhməd öldürüldü.

Ordu üzərində qələbə III İvanın rus torpaqlarını birləşdirməsi və mərkəzləşmiş dövlət hakimiyyətinin yaradılması sahəsində yeni uğurları ilə müşayiət olundu. 1485-ci ildə böyük knyaz Tverə hücum etdi. Tver knyazı III İvanın vəfat edən birinci arvadının qardaşı Mixail Borisoviç Litvaya qaçdı. Tver təslim olduqdan sonra Moskva knyazı Vyatkaya hücum etdi və bütün Vyatka diyarı Moskva Rusuna birləşdirildi. Ordu, Novqorod, Tver üzərindəki qələbələrdən sonra III İvan qardaşlarının Udel knyazlıqlarını da Moskvaya qatdı.

Moskva böyük knyazı III İvan 30 illik hakimiyyəti dövründə şimal-şərqi və şimal-qərbi Rusun siyasi xəritəsini dəyişdirdi, öz aralarında daxili mübarizə aparan ayrı-ayrı knyazlıqların yerində Rusiya adlanan qüdrətli vahid müstəqil dövlət yaratdı. Başında «bütün Rusun padşahı» durduğu yeni dövlətin gerbi Bizans və Müqəddəs Roma (Alman) imperiyasından əxz edilən ikibaşlı qartal idi. Bunun mənası ondan ibarətdir ki, Avroasiya dövlətinə çevrilən Rusiyanın gerbindəki qartalın başlarından biri Avropaya, o biri isə Asiyaya baxır.

XV əsrin 80-ci illərindən başlayaraq rus dəstələri daha tez-tez Litva, Smolensk, Çerniqov, Polotsk knyazlıqlarında görünməyə başladılar. XV əsrin sonunda Litva ilə bağlanan müqavilə əsasında Vyazma Moskvya birləşdi. 1500-1503-cü illərdəki rus-litva müharibəsindən sonra Moskva qoşunu Çerniqov, Bryansk, Mtsensk, Rılsk, Qomel və b. rus şəhərlərini Rus üçün əldə etdi. 1514-cü ildə Moskva Smolenskə sahib oldu. 1510-cu ildə Pskov, 1521-ci ildə Ryazan knyazlığının Moskva dövlətinə birləşdirilməsi ilə demək olar ki, bütün şimal-şərqi və şimal-qərbi rus torpaqları Moskvanın hakimiyyəti altına düşdü. Rus torpaqlarının birləşməsinin başa çatması nəticəsində vahid əraziyə malik olan yeni mərkəzləşmiş müstəqil Rusiya dövləti formalaşdı.

Dövlətin vahid ərazisinin bərqərar olması ölkənin müvafiq idarəetmə sisteminin, yeni hakimiyyət orqanlarının yaranmasını tələb edirdi. Əvvəllər də olduğu kimi, Rus dövlətinin başında böyük knyaz dururdu. Lakin bu əvvəlki knyazlar arasındakı birinci knyaz deyil, vahid dövlətin başçısı, monarx idi ki, hakimiyyəti bütün rus torpaqlarına aid idi. Yerli udel knyazlarının hüquqları məhdud idi, belə ki, onlar öz sikkələrini zərb edə bilməzdi, məhkəmə hüquqları isə xeyli məhdud müəyyən edilmişdi. Əsas idarəetmə orqanlarından biri Boyar Duması oldu. Dumaya knyazın yaxın məsləhətçiləri, böyük şəhərlərin canişinləri, knyaz təsərrüfatının ali vəzifə sahibləri və sarayın baş qulluqçuları daxil olurdu, sayları 25-30 nəfərə çatırdı.

Yeni formalaşan dövlətdə müxtəlif sahələrin idarəetmə işlərilə məşğul olan prikazlar meydana gəldi ki, bunların da başında boyar və yaxud mirzələr

dururdu. Prikazlar böyük knyazın əmri («приказывал») əsasında bu və ya başqa bir işi aparmaq məqsədilə təşkil olunmuşdu.

Yerli idarəçiliyin yeni sisteminə keçilmişdi. Böyük knyazın adından qəzaları yerli əhalidən yığdığı vergi əsasında dolanan boyar və əyanların nümayəndələri olan «yedizdirilənlər» («кормленщики») idarə edirdi ki, onlar da mərkəzi hakimiyyətin ciddi nəzarəti altında idi. Mərkəzi hakimiyyət iri torpaq sahiblərinin, kilsənin hüquq və güzəştlərini xeyli məhdudlaşdırmışdı.

Knyaz və boyar drujinası tarixə qovuşdu. Bunların yerinə zadəgan – mülkədarlardan ibarət böyük knyaz ordusu yarandı. Onlar böyük knyazın xidmətinə «atları, adamları və silahları» ilə gəlməyə borclu idi, yəni onlar yaxşı silahlanmış süvari olmaqla bərabər, həm də özləri ilə piyada polku üçün kəndli və xolopları da gətirməli idi. Belə xidmətin müqabilində zadəgan – mülkədarlar hökümdardan torpaq payı alaraq onun sadiq qulluqçularına çevrilirdilər.

Ölkənin mərkəzləşmiş idarəetmə sisteminin yaranması 1497-ci ildə qəbul edilən vahid Rusiyanın birinci qanunlar kodeksi olan Qanunnamə ilə rəsmi təsbit edildi. Burada yalnız yeni idarəetmə sistemi deyil, həm də monarxın, Boyar dumasının, yerli idarəetmə orqanlarının rolu, məhkəmə işi qaydaları, ölkədə yaşayan əhalinin həyatı və əmlakı, şəxsiyyətə və xüsusi mülkiyyətə qarşı cinayətin cəzası məsələləri öz əksini tapmışdır. Qanunnamənin birinci maddəsində qeyd olunurdu ki, məhkəmə obyektiv və ədalətli olmalıdır. Hakimlər, boyar və mirzələr məhkəmə qərarı qəbul edərkən rüşvət almamalı, dostluq və qisasçılıq hissi ilə hərəkət etməməlidirlər. Şəxsiyyət və xüsusi mülkiyyəti müdafiə edən yeni qanun oğurluq, quldurluq, qəsdən adam öldürmək üçün ölüm hökmü təsbit etmişdir. Yeni qanun kəndlilərin hüququnu sıxışdıraraq onlara yalnız ildə iki həftə, yeni bir həftə Yuriyev gününə (noyabrın 26-sı) qalmış, bir həftədə Yuriyev günündən sonra əkin işlərini başa çatdıraraq bir torpaq sahibinin yanına, yaxud boş torpaqlara keçməyə icazə verirdi. Bu zaman onlar torpaq sahibinə ev haqqı («пожилое») ödəməyə borclu idi.

Göründüyü kimi, bəhs edilən dövrdə Qərbi Avropada kəndlilərin və şəhərlilərin feodalların və dövlətin hakimiyyətindən azad edilməsi prosesininin başladığı halda, Rusiyada bu asılılıq artıb möhkəmlənmişdir.

Rus torpaqlarının birləşməsi prosesində rus kilsəsi mühüm rol oynamışdır. 1448-ci ildə rus iyerarxiyası pravoslav və katolik kilsəsinin Roma papasının başçılığı altında birləşməsini bəyan edən 1439-cu ilin iyulunda imzalanmış Florensiya uniyasını rədd edərək Ryazan keşişi İonu mitropolit seçdilər. Bu tarixdən başlayaraq Rus pravoslav kilsəsi faktiki olaraq avtokefal, yəni özünü idarə edən mərkəz oldu. Artıq rus mitropolitini Konstantinopol patriarxı de-

yil, rus kilsə xadimləri özləri seçirdi. Bu Rusun dünya pravoslav dini mərkəzlərdən birinə çevrilməsinə şərait yaratdı. Ancaq Bizans kilsəsinin bir hissəsi olmaqdan azad olan rus kilsəsi böyük ölçüdə dünyəvi hakimiyyətdən asılı vəziyyətə düşdü.

XV əsrin sonu–XVI əsrin əvvəllərində böyük mülkiyyətçiyə çevrilən kilsə çox halda ölkənin ideya həyatını müəyyən edirdi. Bu bir tərəfdən dövlətin kilsənin torpaqlarını özünə tabe etmək istəməsi, başqa bir tərəfdən dini inancla bağlı kilsə daxili mübarizənin qızışması ilə müşahidə olunurdu. Kilsə daxili mübarizə bidətçiliyin meydana çıxması ilə əlaqəli olmuşdur. XIV əsrdə Novqorodda bidətçi «striqolnikov»lar meydana çıxmışdır. Adəti üzrə belə keşişlər saçlarını xaç şəklində kəsdirərək belə hesab edirdilər ki, əgər dini əqidə ağıla dayanarsa, möhkəm olar. XIV əsrin sonunda əvvəlcə Novqorodda, sonra Moskvada kafir jidovstvuyuşix (jid – cühud) hərəkatı yayıldı ki, onları da yəhudi tacirlərinin təşkil etdiyi hesab edilir. Bidətçilər ruhanilərin hakimiyyətini inkar edərək bütün insanların bərabərliyini tələb edirdilər. Bu isə o demək idi ki, kilsənin torpaq və kəndliyə sahib olmaq hüququ olmamalıdır.

III İvan da bir müddət bu fikri dəstəkləyirdi. Kilsə ruhaniləri arasında da bu məsələdə birlik yox idi. Mübariz kilsə xidmətçiləri Uspensk məbədinin əsasını qoyan İosif Volotski (hazırda Moskva ətrafındakı İosifo – Volokolam məbədi) başqa olmaqla bidətçilərin qəti əleyhinə çıxdılar. İosif və ardıcılları (iosiflyanı və ya tamahkarlar) kilsənin torpaq və kəndlilər üzərində hüquq sahibi olmasını müdafiə etdilər. İosiflyanların opponentləri də bidətçiləri müdafiə etmirdilər, lakin kilsənin sərvət və torpaq mülkləri yığmasının əleyhinə idi. Bu ideyanın tərəfdarları tamahkarsızlar və ya Voloqodçidə Sorı çayında sovməədə yaşayan təriqətçi rahib Nil Sorsknin adı ilə Sorenami adlanırdı.

1502-ci ildəki kilsə məclisində III İvan iosiflyanları müdafiə etdi. Kafirlər və ya dönüklər edam edildi. Rus kilsəsi dövlət və milli kilsə oldu. Kilsə iyerarxiyası çarı Tanrı nüfuzuna malik dünyəvi hökmdar elan etdi. Kilsə və məbədlərin torpaq sahibi hüququ saxlandı.

# VI FƏSİL
# RUSİYA DÖVLƏTİ XVI ƏSRDƏ

## §1. Moskva çarlığının yaranması. İvan Qroznı

III İvan hakimiyyəti vəsiyyəti əsasında oğlu III Vasiliyə (1505-1533) verdikdə Rusun idarəçiliyində 66 böyük şəhər mövcud olmuşdur. III Vasili dövləti möhkəmlətmək məqsədi ilə Udel knyazları olan qardaşlarının hüquqlarını məhdudlaşdıraraq, hətta varisləri olmaması üçün onların evlənməsinə belə mane olmuşdur. Yalnız kiçik qardaşı, Starits Udel şəhərinin knyazı Andrey evlənərək oğul-uşaq sahibi olmuşdur ki, buna görə də varisləri olan Starits knyazlığı XVI əsrdə III Vasili və onun oğlu IV İvan Qroznının (1533-1584) vahid dövlət hakimiyyətinə mane olmuşdur.

III Vasilinin hökmdarlığı dövründə şəxsi hakimiyyətini daha da möhkəmləndirən padşahın bütün əyanları, zadəganlar, sənətkar və kəndlilər özlərini onun xolopu adlandırırdılar. Məhz bu dövrdə Rusiya cəmiyyətində böyük knyazın hakimiyyətini bütün gücü ilə müdafiə edən belə bir fikir formalaşmışdı ki, padşahın hökmü – Tanrının hökmüdür. Hökmdara qul tabeçiliyi sonradan Rusiyanın bütün idarəetmə sisteminə yayılmışdır. Knyaz və boyarlar böyük knyaza səcdə edirdi və öz mülklərində də vassal, qulluqçu, tabeliklərində olan insanlardan belə xolop tabeçiliyini tələb edirdilər. Beləliklə, hər bir adam yuxarıda dayananın qarşısında xolop, aşağıdakının qarşısında ağa idi. Məhz formalaşmaqda olan mərkəzləşmiş Rus dövlətinin hökmdarları III İvan və III Vasilinin amiranə və etiraza dözümsüz şəxsi keyfiyyətləri tabeçiliyin səcdə məzmununu şərtləndirən amil olmuşdur.

Lakin bu o demək deyildir ki, böyük knyazın hakimiyyəti mütləq qeyri-məhdud olmuşdur. Belə ki, məşvərətçi orqan kimi Boyar Duması fəaliyyət göstərirdi. III Vasilinin dövründə yerliçilik («местничество») sistemi yaranmışdır. Mahiyyəti odur ki, hər bir iri feodal, knyaz, boyar, duma mirzəsinin idarəetmə sistemində yeri onların nəsil şəcərəsinin dərin kökü və nüfuzu ilə müəyyən olunurdu. Daha qədim kökdən gələn, sıx qohumluq əlaqələri ilə bağlı olan əyanlar hərbi istedadı, idarəçilik bacarığı, diplomatik qabiliyyəti olmadığı halda yürüş zamanı baş polklara başçılıq edir, idarəçilikdə yüksək yer tutur, Duma və xarici qonaqların qəbulu vaxtı padşaha yaxın əyləşirdilər. III İvan zamanı yeni-yeni yaranmağa başlayan prikazlar III Vasili dövründə sistem

halında bərqərar oldu və ölkənin idarəçiliyinin əsas vasitəsinə çevrildi. Rusiyada yeni idarəçilik sisteminin yaranması həm də süründürməçilik və rüşvətxorluğun yayılması ilə müşayiət olundu. III Vasilinin varisi olmadığı üçün arvadı, gözəl qadın Solomoniya Saburovu zorla rahibə edərək, böyük knyazı nüfuzlu Qlinskilər nəslindən olan gənc litvalı Yelena Vasilyevna Qlinskaya ilə evləndirdilər. Knyaz Qlinskilər Moskva knyazının qulluğuna keçmişdilər. 1530-cu ildə yeni böyük knyaginya III Vasilinin varisi olan İvanı doğdu. Üç ildən sonra ov zamanı ağır xəstələnən III Vasili üçyaşlı oğlu IV İvanı və gənc, gözəl litvalı arvadını Moskva dövlətinin başına gətirərək vəfat etdi.

1533-cü ildə IV İvan Vasilyeviç böyük knyazlıq taxtına əyləşdi. Ölkəni faktiki olaraq, idarə edən anası Yelena Qlinskaya 1538-ci il aprelin 3-də çox gənc yaşında vəfat etdi. Yeniyetmə yaşında olan böyük knyaz IV İvanın 7 yaşı olduğu üçün bir müddət dövlət işləri ilə bir-biri ilə amansız mübarizə aparan Boyar Dumasının üzvləri məşğul olurdu. Onların fəaliyyəti və bir-biri ilə çəkişməsi dövlətin işlərinə mənfi təsir etməklə yanaşı, gələcək hökmdar düşmənçilik, amansızlıq, saxtalıq, qorxu şəraitində böyüyürdü. IV İvanın təhsili ilə heç kim mütəmadi məşğul olmadığı üçün, gənc hökmdar öz üzərində fərdi çalışaraq, xüsusilə dövlətin, hərbi yürüşlərin tarixindən bəhs edən kitablarla, başqa ölkələrin dövlət quruluşundan, diplomatiyasından, Rusun və özünün soykökündən ibarət olan yazılı məlumatlarla daha yaxından maraqlanırdı. Qeyd etmək yerinə düşür ki, İvan Qroznının dövrünü anlamaq üçün onun dramatizm və dəhşətli hadisələrlə dolu uşaqlığına nəzər salmaq vacibdir.

1547-ci il yanvarın 16-da Kremlin Uspensk kilsəsində mitropolit Makar IV İvanın başına çar çələngin qoyaraq rəsmi olaraq təntənəli tacqoyma mərasimini təsdiq etdi. 1547-ci il fevralın 3-də yeni rəsmi çar elan edilən IV İvan sevimli və qayğıkeş həyat yoldaşı, ağıllı məsləhətçisi olan Anastasiya Romanovna ilə evlənmişdir. Bir neçə aydan sonra Moskvada yanğın baş verdi, dörd min nəfərdən çox adam öldü. Çar yanğında özünün Vorobyov kəndindəki igamətgahında gizləndi. Şəhərdə şayiə yayıldı ki, yanğını İvanın nənəsi Anna Qlinskaya cadugərliklə törədib. Kremlə toplaşan əhali kütləsi Qlinskiləri tələb edərək çarın dayılarından biri Yurini ələ keçirib parça-parça etdilər. Başqa boyarların da evlərini dağıdıb yandıran kütlə çarı tapmaq məqsədi ilə Vorobyov iqamətgahına yollandı. Xalqı çox çətinliklə sakitləşdirmək mümkün oldu. Çar başa düşdü ki, sadə adamlar yoluna çıxan hər bir şeyi silib-süpürüb atmağı bacaran qorxulu qüvvədir. Çarın qüdrətli qohumları olan Qlinskilər saraydan uzaqlaşdırıldıqdan sonra dövlət məsələlərində məsləhətçilər adi və çarla bir yaşda olan insanlar arasından seçilməyə başlandı. Çarın öz

ətrafına topladığı yaxın adamları «Избранная Рада» (yəni Seçilmiş Şura) adlanırdı. Məhz bu adamlar çara durmadan dövlət hakimiyyətini möhkəmləndirmək yolunda məsləhət verirdi.

Ölkənin mərkəzləşmiş idarəetmə sistemini təşkil edərək dövlət aparatını təkmilləşdirmək, hərbi sahədə qayda-qanun yaratmaq zəruri olmuşdur. Gənc çar IV İvan özünün yaxın məsləhətçiləri ilə 1550-ci ildə bu işləri həll etməyə başladı. Hər şeydən əvvəl çar Boyar Dumasının tərkibini artırdı. Boyar, zadəgan, ruhanilərdən ibarət yeni dövlət idarəetmə orqanı olan Zemstvo məclisi təşkil olundu. Tacirlər, posad adamları, kazaklar da Zemstvo məclisində iştirak edirdilər. 1549-cu ildə fəaliyyətə başlayan, mühüm dövlət işlərini, xüsusilə xarici siyasət və maliyyə işlərini həll edən Zemstvo Məclisi 1680-ci ilə kimi mövcud olmuşdur. Ümumdövlət seçkili orqanının fəaliyyəti göstərir ki, təbəqə qrupu hakimiyyət sistemində əhəmiyyətli yer tuturdu.

Prikazlar sistemi inkişaf etməkdə davam etmişdir. İvan Qroznı dövründə təqribən 20, XVII əsrin sonunda isə 50 prikaz mövcud olmuşdur. Məsələn, səfirlik (посольский) prikazı dövlətin xarici siyasətilə, Razryad prikazı boyar və zadəganların hərbi xidmətilə, mülkədar (поместный) prikazı qulluq adamlarına mülklərin ayrılması ilə və s. məşğul olurdu. Prikazların başında boyar və yaxud dyak (mirzə) dayanırdı, dyak köməkçiləri (подьячий) onlara tabe idi. Ölkədə vergi sahəsində islahat həyata keçirildi. Əvvəllər mövcud olan «yedizdirmə» sistemi 1556-cı ildə ləğv olunaraq yeni qayda tətbiq edildi.

Buna əsasən yerli ağsaqqallar qara camaat, şəhərli, seçilmiş zadəgan və mülkədar mülklərindən xış (vergi qoymaq üçün yer ölçü vahidi) hesabı ilə vergi toplayırdı. Əhalinin və torpaq sahiblərinin qeydiyyata alınması üçün xüsusi siyahıyaalma tədbiri nəticəsində yazılı siyahı kitabları tərtib edilirdi ki, vergilər də onların əsasında toplanırdı. Torpaq islahatı yerli idarəetmə sistemini dəyişdirdi. Qəza hakimiyyətini quberniya rəisləri (губные старосты), zadəganlardan, seçilən şəhər prikazçikləri, varlı kəndlilər və posad adamlarından seçilən zemstvo rəisləri təmsil edirdilər. Yeni sistem yerlərdə hakimiyyəti möhkəmləndirmişdir.

IV İvanın islahatları arasında köhnəlmiş və dağınıq 1497-ci il «Qanunnamə»si yerinə, yeni 1550-ci il «Qanunnaməsi»ni qəbul etməsi xüsusi yer tutmuşdur. 99 maddədən ibarət olan yeni «Qanunnamə»nin üç maddəsi yeni olmaqla yerdə qalanları əsaslı dəyişdirilmişdir. Canişin və nahiyə rəislərinin (волостелей) hakimiyyəti məhdudlaşdırılaraq yerli və mərkəzi inzibati orqanların nəzarəti altına salınmışdır. Yerli seçkili vəzifələrin əhəmiyyəti artaraq onların məhkəmədə iştirakı zəruri olmuşdur. Kəndlilərin əvvəlki Yuriyev günündə bir torpaq sahi-

binin yanından başqasına keçməsi hüququ təsdiq olunurdu. Ancaq bəzi hallarda kəndlilərin xolop olaraq ayrılmaq hüququ ləğv edilə bilərdi. Bu zaman «Qanunnamə»də xolopları ağalarının özbaşınalığından qoruyan hüququ statusu haqqında maddə yer almışdır. Birinci dəfə sənəddə rüşvətxorluğa qarşı cəza müəyyən olunmuşdur. Zaman-zaman dəyişikliyə məruz qalsa da, İvan Qroznının «Qanunnamə»si 1649-cu ilə qədər Moskva dövlətinin əsas qanunlar toplusu qalmışdır. 1530-cu ilin ortalarında hələ anası Yelena Qlinskayanın qəyyumluğu zamanı pul islahatı həyata keçdi. Ölkənin əsas pul vahidi Moskva rublu oldu ki, bu da 200-dən çox kiçik pul vahidindən ibarət idi.

Ölkənin silahlı qüvvələri mühüm dəyişikliyə məruz qaldı. Ordunun əsasını zadəgan qoşunu təşkil edirdi. Hərbi xidməti qaydaya salmaq məqsədilə xidmətə dair «Qanunnamə» (Nizamnamə) qəbul olundu. Xidmətin dəqiq qaydası, atlı döyüşçü üçün irsi və müvəqqəti olmasından asılı olmayaraq ayrılan torpağın miqdarı tam müəyyən olunurdu. Bu vəzifəni həll etmək üçün hər bir belə döyüşçüyə 150 desyatin torpaq ayrıldı. Hərbi yürüş zamanı xidmət adamlarına xidmət haqqı nəzərdə tutulurdu. Bir qədər sonra IV İvan hakimiyyəti daimi strelets qoşunu yaratdı. Əgər zadəganlar «atadan» xidmət adamı kimi öz soykökünə əsasən qulluq edirdisə, streletslər seçim əsasında qulluq edirdilər. İlk zamanlar strelets qoşununun sayı təqribən üç min nəfərə çatırdı. Xüsusilə xarici ölkələrdən, o cümlədən Almaniya, Polşa, Fransa, İsveç, Şotlandiya və b. yerlərdən muzdlu hərbçilər dəvət olunurdu. Bütün bu tədbirlər rus ordusunun döyüş qabiliyyətini artırırdı.

IV İvan Qroznının bu islahatları nəticəsində Rusiyada dövlətin idarə olunmasında hökmdarla yanaşı, zümrələrin nümayəndələrinin də iştirak etdiyi təbəqə – nümayəndəlik monarxiyası bərqərar olmuşdur.

## §2. İvan Qroznının xarici siyasəti. Livoniya müharibəsi (1558-1583)

IV İvan Qroznının xarici siyasətinin əsas istiqamətlərindən biri məhsuldar torpaqları olan, şərqdə yerləşən Kazan və Həştərxana sahib olmaq idi. Bir tərəfdən zadəganlarına torpaq payı ayırmaq zərurəti, başqa bir tərəfdən şərq ölkələri ilə Moskva çarlığının əlaqələrinə əhəmiyyərli yol açan Volqa ticarət yolunun əl keçirilməsi marağı məsələnin qısa bir vaxtda həll olunmasını tələb edirdi. Başqa bir tərəfdən, Rus dövlətilə Kazan xanlığı arasındakı qanlı toqquşmalar zaman-zaman davam etmişdir ki, İvan Qroznı buna son qoymaq

istəyirdi. 1552-ci il iyunun 1-də 150 minlik rus ordusu başda çar olmaqla Kazana doğru hərəkət etdi. Avqustun 23-də şəhərə yaxınlaşan son ordu bir neçə dəfə cəhd etsə də, möhkəm müdafiəsi olan şəhəri ala bilmədi. Belə olduqda sentyabrın 30-da əsas şəhər darvazalarının altında lağım atılaraq partladıldı. Qanlı döyüşdən sonra oktyabrın 2-də şəhər alındı və Kazan xanlığı süqut etdi. Volqada yaşayan əhali Rus dövlətinin tərkibinə daxil oldu. Bəziləri rus çarının hakimiyyətini könüllü olaraq qəbul etdi. Başqırdlar dəqiq müəyyən edilən bəxşiş müqabilində IV İvandan öz mülklərinin sahibi olmaq hüququ almışdı. Kazanın süqutuna kimi çuvaşlar «padşaha qulluq etmək» arzusunda olduqlarını bildirərək Moskva qoşunu tərəfdə Kazan xanlığına qarşı döyüşdə iştirak etdilər. Mari və udmurtlarla rus dövlətinin münasibətləri bir xeyli mürəkkəb olaraq qalmışdı.

1556-cı ildə 30 minlik rus ordusu Həştərxana yaxınlaşdı və heç bir müqavimətə rast gəlmədən şəhəri tutdu. Sonuncu Həştərxan xanı Yamgürçəyin dəstələri məğlub oldu. Tezliklə XIV yüzilliyin sonlarında Volqa ilə İrtış çayları arasındakı çöllük ərazidə meydana gələn, Qızıl Ordudan ayrılan köçərilərin Noqay Ordu dövləti də rus çarından asılılığı qəbul etdi. Beləliklə, bütün Volqa ticarət yolu Moskva rus dövlətinin əlinə keçdi ki, bu bir tərəfdən Rusiyanın Şimali Qafqaz və Orta Asiya xalqları ilə əlaqələrini artırdı, başqa bir tərəfdən Volqa ticarət yoluna nəzarət etmək imkanı əldə edən Rus dövlətinin Şərq ölkələrilə münasibətləri xeyli möhkəmləndi. Başlıcası, Rus dövləti şərqdən davam edən soyğunçu tatar basqınlarından birdəfəlik azad oldu. Ölkənin cənub sərhədlərinin təhlükəsizliyini təmin etmək məqsədilə birinci Tula müdafiə xətti tikildi.

Volqaboyu torpaqlarının işğal edilməsi Rus dövlətinin şərq və cənubda mövqeyini xeyli möhkəmləndirdi. Çar IV İvan Qərbə – bir vaxtlar Polşa krallarına qarşı mübarizədə Moskvanın müttəfiqi olan, hazırda isə «Yuriyev pulu» haqqını verməkdən imtina edib pravoslav əhalisini sıxışdıran Livoniyaya hücum etməyi planlaşdırdı. 1558-ci ilin yanvarındakı birinci Livoniya yürüşü müvəffəqiyyətli oldu, Narva, Derpt, Revel ələ keçdi. Alıst, Rakobor, Krasnı, İzborsk, Vışqorod, Oreşek şəhərlərində rus qarnizonları yerləşdirildi. 1559-cu ildə barışıq imzalandı. Livoniya magistri barışıqdan istifadə edərək Polşa kralı ilə ittifaq bağlayıb ondan hərbi kömək aldı.

1562-ci ildə IV İvan Livoniyanın müttəfiqi Litvaya hücum etmək məqsədilə Zemstvo məclisini çağırdı, əsas hədəf isə Polotsk seçildi. Qoşunun başında duran çar vəsiyyatnamə tərtib edərək böyük oğlu İvanı varis, kiçik qardaşı Fyodoru Suzdal-Udel knyazı elan etdi. Noyabrın 30-da yürüşə başlayan çar ordusu iki aydan sonra Polotska çataraq top atəşindən sonra şəhər uğrunda

döyüşə başladı. Fevralın 14-də Polotsk yandırıldı və təslim oldu. Çar təntənə ilə Moskvya döndü. 1564-cü il yanvarın sonunda Ulla çayında Litva polku knyaz P.İ.Şuyski başda olmaqla rus ordusunu məğlub etdi, sərkərdə öldürüldü, 600 nəfərdən çox dvoryan əsir düşdü. Cəza tədbirlərindən ehtiyat edən bir çox Voyevoda, o cümlədən çarın xoş münasibət bəslədiyi görkəmli hərbi sərkərdə, knyaz A.M.Kurbski Litvaya qaçdı. Bu azmış kimi A.M.Kurbski çara məktub göndərərək onu qaralayıb öz əməlini təmizə çıxarmağa çalışmışdır. Çar isə qaçqın knyazla mübarizəyə başlayaraq hakimiyyətin mahiyyətini, ondan asılı olanların vəzifə və borcunu izah etmişdir. 1564-cü ilin iyulunda çar Böyük Litva knyazlığına təkrar hücum təşkil etsə də, uğur qazana bilmədi.

1569-cu ildə Böyük Litva knyazlığı Polşa ilə uniya imzalayaraq vahid Reç-Pospolita dövlətində birləşdilər. Artıq Rusiyanın qərb sərhədlərində Avropa timsalında təlim görüb silahlanmış qüdrətli ordu dayanmışdır.

İvan Qroznı Livon Ordeni cəbhəsində hərbi əməliyyatları dayandıraraq Reç-Pospolita ilə sülh bağlayıb nisbətən zəif İsveçdən torpaqlar işğal etmək niyyətində idi.

1571-ci ilin aprelin 5-də Krım xanı Dövlət-Gəray Moskvaya hücum edərək mayın 24-də şəhəri yandırdı. Krım tatarlarının hücumundan şimala qaçan IV İvanın Moskvanı başsız qoyması ilə şəhəri yandırıb külə çevirən Dövlət-Gəray yüklü qənimətlə ölkəsinə döndü.

1572-ci ilin yanvarında İsveç kralı III Yuxanla müharibə edən IV İvan İsveç torpaqlarına daxil oldu. İsveçlilər yaya kimi barışıq imzalamağı təklif etdilər. Krım xanının yeni basqınından ehtiyat edən çar razı oldu.

1572-ci ilin iyulunda Krım xanı Dövlət-Gəray növbəti dəfə Moskvaya hücum təşkil etsə də, onu şəhərin 45 kilometrliyində knyaz M.İ.Vorotınskinin polku qarşıladı. Ağır zərbə alan krımlılar döyüş meydanından qaçdılar. 1572-ci ilin payızında çar və hər iki oğlu isveçlilərə qarşı yürüşə başlayaraq Estoniyanın Payda, Kalover, Korkus şəhərlərin ələ keçirdilər. Livoniya yürüşü də davam edirdi. 1575-ci ildə Salis və Pernov işğal olundu. Nəticədə Revelə Tallinə (başqa adı Kalıvan) kimi olan bütün sahilboyu torpaqlar çarın əlinə keçdi. 1577-ci ilin yanvarında rus ordusu Reç-Pospolitaya tabe olan Livoniya torpaqlarına hücum edərək Reveli mühasirə etdi. Revel və Riqadan başqa demək olar ki, bütün şəhərlər çar İvana təslim oldu. Lakin bu iyirmiillik müharibədə sonuncu uğur oldu. Yeni uğursuzluqlar çarın uzun illər dövləti tükədərək əldə etdiyi qələbələrə son qoydu.

Polşa-Litva dövlətinin yeni kralı seçilən təcrübəli və güclü Transilvaniya knyazı Stefan Batori Polotska hücum edib 1579-cu ildə onu Litvanın tərkibinə qatdı. Növbəti il kral Veliki Lukaya hücum edib buranı aldı. Çar tez-tələsik

barışıq istədi. Rus dövlətinin mövqeyinin zəifləməsindən istifadə edən İsveç kralı 1580-ci il noyabrın 4-də hücuma keçib Korel və ətrafını aldı.

1581-ci ilin avqustun 18-də Stefan Batori Pskovu mühasirəyə aldı. İlk vaxtlar polyak qoşunu uğur qazansa da, tezliklə voyevoda knyaz İ.P.Şuyskinin başçılıq etdiyi qoşun onları geri oturtdu. Uzun danışıqlardan sonra 1582-ci ildə Yam-Zapolsk adlanan yerdə sülh müqaviləsi imzalandı. 10 il müddətinə bağlanan sülhün şərtlərinə əsasən, Polotsk və Livoniya torpaqları Reç-Pospolitaya keçdi, Veliki Luki və Velijadan başqa ətrafı Rusiyaya qaytarıldı. Bir il sonra 7 il müddətinə İsveçlə imzalanan Plyussk sülhünə əsasən, Rus dövləti Estoniya və Kareliyadakı ərazilərdən imtina etdi. Beləliklə, iyirmi illik Livoniya müharibəsi ölkə üçün heç bir nəticə vermədən başa çatdı, hətta İvan-qorod rayonunda Rusun vaxtı ilə ələ keçirdiyi bir sıra torpaqlar belə itirilmişdir.

Ural dağlarının arxasında Qızıl Ordunun bir parçası olan Sibir xanlığı yerləşmişdir ki, burada da Sibir tatarları və onların tabe etdiyi Xantı, Mansi xalqları yaşayırdılar. Xanlıqda əhali əsasən ovçuluq və maldarlıqla məşğul olurdu. Sibir xanlığının tatar-türk üst təbəqəsi islama, yerli xalqların nümayəndələri bütpərəstliyə etiqad edirdi. Kazanın süqutundan sonra Sibir hökmdarları Rusiyadan asılılığı qəbul etdilər. Sibirin yeni xanı Kuçum Moskvaya bac ödəməkdən imtina edərək tez-tez sərhəddə yerləşən ruslarla qarşı-qarşıya gəlirdilər.

Uralı əhatə edən torpaqları çarın icazəsi ilə varlı sənayeçilər olan Stroqanovlar mənimsəməyə başladı. Onların əsas işi duz emal etmək idi ki, soyuducu olmadığı üçün qida məhsullarını xarab olmaqdan xilas edən duz çox gəlir gətirən bir nemət olmuşdu. Tez bir zamanda bu işdən zənginləşən Stroqanovlar öz hesablarına şəhərcik və qalalar salaraq onların müdafiəsini kazaklara tapşırdılar. Belə kazak dəstələrindən birinin komandiri ataman Yermak Timofeyeviç təqribən 600 nəfərlik dəstə ilə 1581-ci ildə Sibirə yürüş təşkil etdi. Yermak Çusov çayını, sonra Ural aşırımını və Tagil çayını keçib İrtış çayındakı Kucumun paytaxtı Kaşılıka hücum etdi. Qılınc və oxla silahlanmış xanlığın əsgərləri kazakların odlu silahı qarşısında davam gətirmədən döyüş meydanından qaçdılar. 1582-ci ilin oktyabrında Yermak və kazaklar Sibir xanlığının boş qalmış paytaxtına daxil oldu. Qışı burada keçirən Yermak ətraf əhalini rus təəbəliyinə qəbul edərək onlara yasak (dəri xəracı) kəsdi. Onlar indi Kuçuma deyil, Moskvaya xərac verməyə borclu idi. Bir neçə ildən sonra tatar türkləri Yermakın dəstəsinə qəfil basqın təşkil etdi, qaçmaq istərkən İrtış çayına atılan ataman boğulub öldü. Yermakın ardınca Sibirə kazak, strelets, kəndli, sənətkar və ovçular axışdı. XVI yüzilliyin sonunda Kuçum qəti olaraq məğlub oldu və Sibir xanlığı süqut etdi. Sibirin mənimsənilməsində bir çox Sibir xalqları Rusiya dövlətinin təəbəliyinə qəbul oldu.

## §3. Opriçnina. Ryurikoviçlərin Moskva sülaləsinin başa çatması

IV İvan alçaldıçı və təhqir olunan uşaqlıq illərini, boyarların özbaşınalığını heç zaman unutmadı, odur ki, iri boyarları düşməni hesab edirdi. Xüsusilə 1553-cü ildə ağır xəstə olarkən çar vəsiyyətnamə tərtib edərək Boyar Dumasından, Seçilmiş Radadan, udel knyazı Vladimir Staritsk və onun ailəsindən birinci uşağı Dmitriyə and içməyi tələb etmişdir. Boyarların və çarın yaxın ətrafının böyük əksəriyyəti azyaşlı körpəyə and içməkdənsə, yaşlı, yumşaq knyaz Vladimiri seçməyi üstün tuturdular. Tezliklə çar sağaldı, körpə varis baxıcısının səhlənkarlığı sayəsində öldü, digər oğlu İvan yeni varis elan olundu. Lakin çar baş verənləri unutmadı.

Bütün bunlar nəticəsində IV İvan qəti olaraq öz hakimiyyətinin ilahi mənşəli qeyri-məhdud səlahiyyətə malik mütləq hökmdar ideyasını qəbul etmişdir. Lakin İvan Qroznının ölkədə qeyri-məhdud mütləq hökmdar hakimiyyətinin yeganə başçısı olması ideyası Rusiya cəmiyyətinin buna hazır olmaması nəticəsində ziddiyyətli idi. Belə ki, udel Rusunda hələ bir çox qaydalar qalmaqda davam edirdi. İri knyazlar və boyarlar dövlətin xidmətçiləri olsa da, öz hərbi dəstələri var idi. Novqorod və Pskov bəzi azadlıqlarını saxlamışdı. Boyar Duması, sonra meydana gələn Zemstvo Məclisi fəaliyyət göstərirdi. Bir çox knyaz və boyarlar narazılıq etdikləri üçün edama və ya sürgünə göndərilirdi.

Əlavə olaraq, 1564-cü ildə rus ordusu Livon Ordeni qoşunları qarşısında məğlub oldu, bir çox knyaz, o cümlədən çara yaxın Kurbski çarı qanunsuzluq, qəddarlıq və məğrurluqda təqsirəndirərək Litvaya qaçdı.

1564-cü il dekabrın 3-də bazar günü Kremlin darvazalarından çar, ailəsi, yaxınları və mühafizəsi ilə çıxaraq bir aydan sonra özünün Aleksandrov kəndindəki sarayına yerləşdi (indiki Vladimir vilayətindəki Aleksandrov şəhəri). Buradan çar mitropolitə məktub göndərərək Moskvanı satqınlara görə tərk etdiyini bildirdi. Moskvanı posad adamlarına, bütün qara camaata, sadə insanlara göndərdiyi qramotada onların deyil, satqın boyar, prikaz adamı, zadəganların əleyhinə olduğunu xəbər verdi. Bir neçə gündən sonra şəhərlilər şəhər yığıncağında çardan xahiş etdilər ki, paytaxta qayıdıb satqınları istədiyi kimi cəzalandırsın. Qorxuya düşən boyarlar günahkarcasına çarın onları edam etmək və ya bağışlamaq hüququnun olduğunu qəbul etdilər. Hər bir kəsə aydın idi ki, bundan sonra hökmdarlıq etmək qorxunc və qanlı olacaq.

Artıq Qroznı olan IV İvan bildirdi ki, dövlətə qayıdır, amma özünün xüsusi opriçnina təsərrüfatını yaradaraq onu saxlamaq məqsədilə ölkənin qərbi,

cənubi və mərkəzində bir sıra şəhər və torpaqları götürür. Qalan torpaqları boyarlar və prikaz adamları əvvəlki adətlə idarə edəcəkdir. İvan Qroznı dövləti iki hissəyə – zemşina və opriçninaya (opriç – başqa) böldü. Mahiyyət etibarı ilə opriçnina dövlət içərisində dövlət idi. Çar burada ayrıca Boyar Duması, prikazlar, ordu təşkil etmişdir. Öklənin digər bir hissəsi zemşina, yəni qalan torpaqlar adlanırdı. Buranı köhnə Boyar duması idarə edirdi. Çar opriçnina hissəsinə ölkənin daha zəngin və strateji cəhətdən əlverişli mövqedə olan yerlərini əlavə etmişdi. Novqorod ərazisi, Volqa üzərindəki ticarət yolu, duzçıxarma rayonları, böyük malikanə və mülklərin yerləşdiyi mərkəzi qəzalar, Moskvanın bir hissəsi, Qərbdəki sərhəd rayonları buraya daxil idi.

Eyni zamanda, IV İvanın cangüdənləri olan şəxsi çar qvardiyası təşkil edildi ki, onların sayı beş min nəfərə çatırdı. Bura Qroznıya şəxsi sədaqəti ilə seçilən adamlar daxil idi. Opriçniklər qara paltar geyərək atlarının boynunda it başı və kiçik süpürgə gəzdirirdilər. Bu isə o demək idi ki, onlar satqını iyləyib, dişi ilə gəmirib ölkədən atmalı idilər.

Opriçninanın məqsədi tez bir zamanda aydın oldu. Münasib olmayan adamlarla qanlı haqq-hesab çəkilməyə başlandı. Birincilərdən olaraq Kazanın alınması qəhrəmanı knyaz Aleksandr Qorbat edam edildi. Opriçnina ərazisindən çoxlu boyar və dvoryan Kazan altına sügün edildi. Vladimir Staritskinin udeli əlindən alınaraq başqası ilə əvəz olundu. Çar knyazı zəhər qəbul etməyə məcbur etdi, bütün ailəsi isə məhv edildi. Opriçnina əleyhinə Uspensk kilsəsindəki dini ayinlərində çıxış etdiyi üçün mitropolit Filipp çar tərəfindən əvvəlcə Tver kilsələrindən birinə salındı, sonra isə baş opriçnik cəlladı olan Malyuta Skuratov tərəfindən boğularaq öldürüldü.

Opriçnina tarixində 1570-ci ildə çar başda olmaqla opriçniklərin Novqoroda qanlı basqını ayrıca yer tutur. Novqorod Qərbə açıq şəhər kimi hələ qədimdən çarın nifrətinə səbəb olmuşdur. 1570-ci ilin yanvarında çar Novqoroda daxil oldu. Opriçniklər boyarları tutaraq Volxov çayında boğur, taxılı yandırıb mal-qaranı məhv etdilər. Şəhəri soyub talayan, adamları qətl edən çar və onun opriçnikləri minlərlə xizəkli araba dolu qarət edilən sərvətlə geri döndülər.

Moskvya qayıdan İvan Qroznı daha bir amansız edam səhnəsi qurdu. Çar moskvalı prikaz adamları ilə, Moskvaya qovulan novqorodlularla haqq-hesab çəkərək onların çoxunu edam etdirdi. Onların arasında İzbrannoy (seçilmiş) Radanın yeganə sağ qalan üzvü, səfirlik prikazının rəisi İvan Mixayloviç Viskovat da var idi. Çar özü və ətrafı nizə ilə müdafiəsiz adamları deşərək, qılıncla başlarını vururdular.

Opriçnina getdikcə daha vəhşi forma alırdı. Minlərlə adam öldürülməsinə baxmayaraq, edamların sonu görünmürdü. Minlərlə opriçniklər soyğun, qorxu, ölüm saçaraq günahı olmayan adamların əmlakını ələ keçirmək üçün onları şərləyib düşmən kimi ifşa edirdilər. Qroznının başlatdığı bu biabırçılıqda hətta şəhərlilər və xoloplar belə iştirak edərək haqq-hesab çəkmək istədikləri adamları çuğulçuluq edib tutdururdular. Tezliklə opriçniklər bir-biri haqqında xəbərçilik edərək çarın yanında fəxri yer, güzəşt, gəlir qazanmaq məqsədilə qarşı tərəfi dövlətə xəyanətdə ittiham etməyə başladılar. Hərbçilər və hərbi sərkərdələr də opriçninadan ağır zərbə aldı. İstedadlı rus sərkərdəsi, voyevoda M.İ.Vorotınski edam olundu, bir çoxları xaricə qaçdı.

1572-ci ildə opriçnina edamları səngiməyə başladı. Çünki İvan Qroznı opriçninanın köməyi ilə hər cür müxalifəti, xüsusiləşmiş udel ocaqlarını, onun mütləq hökmdar ideyası və idarəetmə metodu ilə razılaşmayan açıq və gizli rəqiblərini məhv etmişdi. Xüsusilə Moskva altında Krım tatarları ilə mübarizədə opriçnina qoşununun bacarıqsızlığından sonra çar hətta «opriçnina» sözünü belə işlətməyi qadağan edərək qoşunu buraxmışdı.

Livoniya müharibəsi, Krım xanın basqınları, opriçninanın azğınlığı ölkəyə sayı-hesabı olmayan itkilər gətirmişdi. Müharibə və opriçnina çoxlu istedadlı hərbi rəisləri, knyaz, boyar və prikaz adamlarının, o cümlədən tacir, sənətkar və kəndlilərin ölümünə səbəb olmuşdur. Vergilər artır, ölkədə quldurluq, soyğunçuluq hökm sürür, insan həyatı dəyərini durmadan itirirdi. Kəndlilərin çoxu meşələrə, boş torpaqlara qaçır, kazaklara qoşulurdu. Ölkənin bir çox qəzasında mülkədar təsərrüfatlarında çalışan demək olar ki, yox dərəcəsində idi. Bu şəraitdə İvan Qroznı 1581-ci ildə «qadağan edilmiş illər» haqqında qayda müəyyən edərək kəndlilərlə xüsusi fərman olana kimi Yuriyev günündə başqa təsərrüfata keçməyi qadağan etdi. «Al, nənə, bu da sənin Yuriyev günün!» sözü belə meydana gəlmişdir. Bu müvəqqəti vəziyyət kimi nəzərdə tutulsa da, sonradan daimi olmuşdur. 1581-ci ildə bu və ya başqa torpaq sahibinin mülkünə yazı kitabı əsasında təhkim edilən kəndlilər və onların törəməsi öz ağasını və onun mülkünü tərk edə bilməzdi. Beləliklə, kəndlilər tam olaraq öz sahibindən asılı vəziyyətə düşdü ki, onları da yalnız torpaqla birlikdə alıb-satmaq olardı. Bu əslində Rusiyada 1861-ci ilə qədər edən davam təhkimçilik hüququnun başlanğıcı demək idi.

IV İvan Qroznının hakimiyyətinin son illərində üç oğlu qalmışdı. Böyük oğlu İvan İvanoviç xəstə atasından fərqli olaraq özünü cəsur döyüşçü və ağıllı dövlət adamı kimi tanıtmışdır. Ata ilə oğul arasında tez-tez mübahisə, çəkişmə olurdu. IV İvan bir dəfə onun arvadını təhqir etdiyi üçün oğlu arva-

dını müdafiə edərək çarın əlindən tutmağa çalışdıqda atasının dəmir əsa ilə zərbəsinə uğradı və bir az sonra vəfat etdi. İkinci oğlu, xəstə və dindar Fyodorun (1557-1598) uşağı yox idi. Azyaşlı Dmitri (1582-1591) IV İvanın yeddinci arvadı Mariya Naqoyadan doğulmuşdur və taxta çıxmağa hüququ məhdud idi. 1584-cü ilin əvvəlində xəstə çarın vəziyyəti ağırlaşdı və IV İvan Qroznı vəfat etdi.

IV İvanın ölümündən sonra taxta onun xəstə və Allah qorxusu olan 27 yaşlı oğlu Fyodor keçdi. Zorakılıq və amansızlığa qarşı olan yeni çar vaxtının çoxunu ibadət və kitab oxumaqla keçirirdi. Çox işləri çar atasının sevimli opriçnik knyazlarına, boyarlara etibar edirdi ki, tezliklə onlar arasında qanlı çəkişmələr başladı. Bu mübarizədən amansız, qəddar, eyni zamanda ağıllı Boris Qodunov qalib çıxdı. Bacısı çarın arvadı olduğu üçün tezliklə o rəqiblərini sıxışdıra bildi. Şuyski qardaşları sürgünə göndərildi, birinci çariça Anastasiya Romanovanın boyar qohumlarının mövqeyi ağır zərbə aldı, 1589-cu ildə Rusiyada patriarxlıq təşkil edilərək onun başına Qodunovun tərəfdarı İov təyin olundu. 1591-ci ildə Uqliçdə müəmmalı şəraitdə azyaşlı şahzadə Dmitri boğazı kəsilmiş şəraitdə tapıldı.

Boris Qodunovun Dmitrinin ölümünü araşdırmaq məqsədilə göndərdiyi heyət belə bir nəticəyə gəldi ki, Dmitri «bıçaqcıqla» oynayarkən özü-özünü kəsib. Təbii bu dəhşətli günahın sahibi tarixi iddiaya görə Boris Qodunov olmuşdur.

1598-ci il yanvarın 7-də çar Fyodor İvanoviç öldü. Ryurikoviçlər sülaləsi Rusiyada sona çatdı. Çariça İrinanın tezliklə saçı vurularaq rahibəliyə göndərildi. Rusiya taxt-tacı boş qaldı.

# VII FƏSİL
# RUSİYA XVII ƏSRDƏ

## §1. Qarışıqlıq dövrü

Çar Fyodorun ölümü, daxili düşmənçilik, sosial münaqişə, xarici müdaxilə mürəkkəbləşən uzun sülalə böhranına səbəb oldu. Düz 15 il rus adamları «Monamaxın şapkası»nı bu və ya başqa namizədin başına qoysa da, taxta əyləşən heç bir hökmdar onlara görə Böyük Rusiya dövlətinə layiq deyildi. Məsələ ondan ibarətdir ki, Rusiyanın çoxəsrlik tarixində padşahın seçilməsi heç bir zaman gündəlikdə olmamışdır. Kiyev Rusundan başlayaraq ölkəni yalnız Ryurikoviçlər sülaləsi idarə etmişdir ki, hökmdar taxtı uğrunda mübarizə də yalnız onlar arasında olmuşdur. Moskva knyazları bütün torpaqları öz ətrafında birləşdirərək «Bütün Rusun» hökmdarı olmuşdur. Nəticədə Rus dövləti xalqların könüllü birliyi kimi deyil, Moskva knyazlarının udelləri ətrafına birləşdirməsi hesabına yaranmışdır. Böyük knyaz, sonra çar birləşmənin başlanmasının təməli olmuşdur. Onun itirilməsi ilə tam dağılaraq parçalara bölünmüşdür. Məhz əsasən bu səbəbdən Rusiyada «Qarışıqlıq dövrü» baş vermişdir.

1598-ci ildə Zemstvo Məclisində müflisləşən Kostromo boyar nəslindən olan Boris Fyodoroviç Qodunov (1552-1605) Rusiyanın çarı seçildi. 15 yaşında olarkən gənc, qarasaçlı və yaraşıqlı Boris İvan Qroznıya təqdim olundu. Çar onu bəyənərək Eşikağası prikazının stryapçisi təyin etdi. Daimi çara yaxın olması, yaraşıqlı xarici görünüşü, xoşrəftarı və ağılı sayəsində o, xidməti pillələrdə sürətlə yüksəlməyi bacarmışdır. Xüsusilə yeni çarın vaxtilə opriçnik olaraq IV İvanın ən qəddar əmrlərini yerinə yetirən Malyutı Skuratovun qızı ilə evlənməsi və bacısı İrinanın Fyodor İvanoviçin arvadı olması onun mövqeyini daha da möhkəmlətmişdir. 30 yaşında, İvan Qroznının ölümündən iki il əvvəl boyar yüksək rütbəsini alan Boris Qodunov ən nüfüzlu dövlət adamlarının sırasına daxil olmuşdur. Bacısının əri çar Fyodorun ölümündən sonra rəqibləri ilə amansız mübarizə nəticəsində öz adamı mitropolit İovun da köməyi ilə Novodeviçe kilsəsində, sonra isə ikinci dəfə Uspensk kilsəsində çar tacını almışdır.

Çar seçildikdən sonra Boris Qodunov əvvəlki amansız və ədalətsiz siyasəti yumşaldaraq öz hakimiyyətini möhkəmlətmək, xalqın hörmətini qazanmaq niyyətində idi. Artıq çarlığın birinci günlərində o and içdi ki, beş il ərzində qan tökməyəcək, Qroznı dövründəki sərt repressiyaları təqib etmədən ölkəni

ədalət və xoşniyyətlə idarə edəcək. Zadəganları öz tərəfinə çəkmək məqsədilə çar onların gecikən məvaciblərini paylatdı, bir çox boyarın rütbəsini artırdı. Sadə adamlardan alınan vergi qalığını ləğv etdi. Tacirlərə müxtəlif güzəştlər müəyyən edərək ölkə daxilində və xarici dövlətlərlə ticarəti daha da təşviq edirdi. Prikazlarda qayda yaratmaq istəyən yeni çar rüşvətxorluğa qarşı qəti çıxaraq rüşvətxor məmur və hakimlərə sərt tədbirlər müəyyən etmişdi. Çar həbsxanalardan çoxlu dustağı azad etdi.

Yeni çar Boris Qodunovun xoşniyyətlə həyata keçirdiyi tədbirlər onun hakimiyyətə olan hərisliyi, boyar və dyaklara qarşı olan qəlbindəki şübhələrlə bağlı olaraq demək olar ki, mahiyyətini əks istiqamətdə dəyişdi. Get-gedə hər şeydən şübhələnən çar donosçuların verdiyi xəbərlərə əsaslanmağa başladı. Hətta çar xolopların öz ağalarından belə xəbərçilik etməsini şirnikləşdirirdi. Boyaralara qarşı təşkil edilən xəbərçilik işindən çarın rəqibləri, xüsusilə qüdrətli Romanovlar boyar nəsli ağır nəsibini aldı ki, bu da Boris Qodunovun nüfuzunu və mövqeyini əhəmiyyətli dərəcədə aşağı salmışdır. Eyni zamanda, çar «mestniçestvo»nu məhdudlaşdırmışdır ki, bu da dövlətin marağını təmsil etsə də, knyaz və boyarların mənafeyinə ciddi zərbə idi.

Artıq 1601-ci ildən başlayaraq ölkənin bütün həyatında ciddi böhran əlamətləri hiss olunmaqda idi. 1601-ci ildə ardı-arası kəsilməyən yağışlar, ardınca don məhsulu məhv etdi. Eyni vəziyyət iki il ardıcıl davam etdi. Rusiyanın əsasən mərkəzi qəzalarını vuran təbii fəlakət aclığa səbəb oldu. Taxıl məhsulu zay olduğu üçün çörəyin qiyməti iki-üç dəfə artdı. Knyaz, boyar, tacir, ruhanilər taxıl ehtiyatları hesabına vəziyyətdən istifadə edərək qara camaatın çörəyi ilə alver edərək sərvətlərinə sərvət qatırdılar. Alverçi və dəllallıq edən adamlar taxılı ucqarlardan alıb baha qiymətə satırdılar. Bütün bunlar dəhşətli aclığa səbəb oldu. Sadə insanlar acından ölməmək üçün pişik, it əti, saman və s. yeyirdilər. Salnamə məlumatlarına görə, hətta aclıqdan adam əti belə yeyirdilər.

Çar Boris Qodunov taxıl ehtiyatından xalqa taxıl paylatsa da, bu yalnız Moskva posad əhalisinə aid idi. Odur ki, ucqarlardan, öz mülklərindən knyaz, boyar və zadəganlar tərəfindən qovulmuş kəndli və xoloplar Moskvaya axışaraq küçələri doldurdu. Xaqlın vəziyyəti düzəltmək məqsədilə çar Boris Qodunov 1601-ci il noyabrın 28-də «Yuriyev günü»nü bərpa etdi. Lakin bu Moskva qəzasına və dövlət torpaqlarına aid deyildi. Əyan zadəganları öz kəndlilərini, çar isə dayağı olan zadəganları itirməyə başladı. Boris Qodunovun 1603-cü ilin avqustunda verdiyi ikinci fərmana əsasən yaşadığı və çalışdığı mülklərdən, yeməkdən məhrum edilərək küçəyə atılan xoloplar azadlığa çıxırdı. Beləliklə, minlərlə evsiz xolop Moskva ətrafında quldur dəstələrinə

birləşir və ya cənub torpaqlarına üz tuturdular. Yaşayış vasitələrindən məhrum olan insanlar silah gücünə yollarda tacir karvanlarına hücum edir, varlı adamların taxıl anbarlarını soyaraq quldurluq və soyğunçuluqla məşğul olurdular.

Xüsusilə 1603-cü ildə üsyana qalxmış ac xolop və kəndlilər Xlopko Kosolapanın başçılığı altında Moskvaya gedən yolları tutaraq, boyar və zadəganların mülklərinə hücum edərək varlı adamların əmlakını ələ keçirirdilər. Boris Qodunov voyevoda A.F.Basmanovu çoxlu qoşunla Xlopko Kosolapanın dəstəsini dağıtmağa göndərdi və Moskva altında əsl qanlı döyüş baş verdi. Yaralı ələ keçən Xlopko Kosolapa edam olundu, Basmanov da döyüşdə həlak oldu. Üsyançıların sağ qalan hissəsi ölkənin cənub-qərb torpaqlarına qaçdı. Beləliklə, «böyük aclıq» xalqın faciəsini daha da artıraraq adamları qan, ölümlə müşayiət olunan mübarizəyə sövq etdi.

Məhz bu illlərdə Boris Qodunov yeni, daha təhlükəli vəziyyətlə qarşılaşmışdır. Meydana çıxan bir nəfər bəyan etmişdir ki, o ölümdən qaçıb qurtaran şahzadə Dmitridir. Alimlərin çoxu belə hesab edir ki, şahzadə Dmitrinin adı altında gizlənən şəxs müflisləşən Qaliç dvoryan nəslindən olan Qriqori Otrepyev olmuşdur. O, boyar Romanovların malikanəsində xidmətə başladıqdan sonra rahib kimi Çud kilsəsində qulluq etdikdən sonra Litvaya qaçmışdır. Tezliklə zəngin Polşa knyazı Adam Vişnevetskinin mülkündə yerləşən Qriqori Otrepyev özünü şahzadə Dmitri elan etdi. Başqasının adını mənimsəyən yalançı Sandomir voyevodası Yuri Mnişekin sarayına yerləşərək onun 16 yaşlı qızı katolik qadın Marina ilə nişanlandı. Yalançı Dmitri də gizli olaraq katolikliyi qəbul edərək Zaporojye Seçində öz ordusunu yaratdı. Ölkənin hər yerinə müraciətlər yayan fırıldaqçı, xüsusilə kazaklar qaçqın xolop və kəndlilər arasında qızğın tərəfdarlar qazandılar. Xalq arasında belə bir şayiə dolaşırdı ki, bu, həqiqətən də, ədalətli və mehriban çar Dmitri İvanoviçdir. Hakimiyyəti ələ aldıqda Polşa kralına Çerniqov-Seversk torpaqlarını, Mnişekə Novqorod və Pskovu, Papaya katolikliyin yayılmasını vəd edərək Yalançı Dmitri 1604-cü ilin oktyabrında 2000 muzdlu əsgərlə Dnepri keçərək rus torpaqlarına daxil oldu. Birinci döyüşdə çar qoşunları fırıldaqçının dəstəsini dağıtsa da, tez bir zamanda don kazakları, kəndli və xoloplar, onun tərəfinə keçən zadəgan və strelets dəstləri hesabına Yalançı Dmitrinin qoşunu 15 min nəfərə çatdı. Cənub və cənub-qərb torpaqları döyüşsüz düşmən tərəfinə keçdi. Kromı şəhəri altındakı döyüşdə çar qoşunları fırıldaqçının tərəfinə keçdi.

1605-ci il aprelin 13-də 54 yaşlı çar Boris Fyodoroviç Qodunov vəfat etdi. Oğlu 16 yaşlı Fyodor Borisoviç yeni çar elan olundu. Moskvaya daxil olmağa tələsməyən Yalançı Dmitri «məlahətli fərmanlar»ını yaymaqda davam edirdi ki, avantürist boyarlara əvvəlki şərəfini, zadəganlara xoşniyyət və

xidmətdə istirahət, tacirlərə güzəştlər, bütün xalqa xoşrəftar, sakitlik və firavanlıq vəd edirdi. 1605-ci il iyunun 1-də belə bir fərmanı A.S.Puşkinin əcdadlarından biri olan Qavril Puşkin Moskva Kremlinin yanında xalqa oxuduqdan sonra əhali silaha sarılaraq Kremlə daxil oldu və Moskva üsyançıların əlinə keçdi. Bu zaman Serpuxova yaxınlaşan Yalançı Dmitrinin tələbi ilə streletslər çariçanı iplə boğdu, Fyodor Qodunovu isə öldürdülər. Çarın bacısı Kseniyanı bir qədər sonra saçını vurduraraq rahibə kimi Kirill-Belozersk kilsəsinə göndərdilər. 1605-ci il iyunun 20-də Yalançı Dmitri zəng səslərinin sədaları altında Moskvaya daxil oldu. Bir az keçdikdən sonra Yalançı Dmitri anası Mariya Naqoyun, yəni, rahibə Marfanın İvan Qroznının arvadının görüşünə getdi. Ana Yalançı Dmitrinin oğlu olduğunu qəbul etdi.

Yalançı Dmitri artıq anasının da qəbul etdiyi həqiqi çar kimi fəaliyyətə başlayaraq Boyar Duması ilə münasibətlərini qaydaya saldı. Boris Qodunov dövründə sürgünə göndərilən bir çox boyar və dyak, o cümlədən sağ qalan Romanovlar Moskvaya qaytarıldı. Birinci gündən Yalançı Dmitrinin köməyi ilə zadəganaların zəhmət haqqı ikiqat artırıldı. Aclıq dövründə qovulan xoloplara azadıq verdi, ölkənin cənub-qərb ərazilərində yaşayan əhalinin bir hissəsini vergidən azad etdi. Polşa kralına vəd etdiyi torpaqları verməkdən imtina edən Yalançı Dmitri katoliklərə isə Rusiyada məbəd tikməyə icazə vermədi. Bununla bərabər, Yalançı Dmitri yanında çoxsaylı polyak və xarici cangüdən, əsgər saxlayırdı. Onun yaxın məsləhətçiləri polyaklar idi ki, bu da rus xalqını qıcıqlandırırdı. Çarın nişanlısı Marina Mnişek iki min polyak şlyaxtaçısının əhatəsində toy məclisi üçün Moskvaya gəldikdə bu xəbər daha tez yayıldı. Pravoslav keşişinin əlindən priçastiyeni və gəlinlik paltarını almağı imtina edən Marinanın davranışı, onu əhatə edən Polşa panlarının və əsgərlərinin şəhərdə özlərini sahib kimi aparması, moskvalıları soymağı, qadınları təhqir etməsi, silah və itlərlə kilsəyə daxil olmaları nəticə etibarilə Yalançı Dmitrini məhv etdi. Şəhərdə polyakalara və Marinaya qarşı qəzəb və nifrət baş qaldırdı. Knyazlar Şuyski və Qolitsın narazı boyarları sui-qəsd təşkil etməyə istiqamətləndirdi. 1606-cı il mayın 17-də şəhərlilər, eyni zamanda 200 nəfərlik zadəgan dəstəsi, başda sui-qəsdçi boyarlar olmaqla, Kremlə hücum etdilər. Pəncərədən atılaraq qaçmağa çalışan Yalançı Dmitri ələ keçdi və qılıncla kəsilərək öldürüldü. Meyiti üç gün Qızıl meydanda qaldıqdan sonra külünü topla gəldiyi istiqamətdə atdılar. Marina Mnişek və atasını həbs edərək Yaroslavla göndərdilər.

Qarışıqlıq Rusiyada qaynaşmaya səbəb olmuşdu, bütün inciklik və narazılıq üzə çıxmışdır. Qarışıqlığın əsas lokomativi, aparıcı qüvvəsi isə xalqın böyük əksəriyyəti olan sadə adamlar idi. Ölkədə baş verən mühüm hadisələrdə si-

yasi mübarizə təcrübəsi olmayan xalq əsas rol oynayırdı. Onların böyük əksəriyyəti nəyin doğru, nəyin yalan oluğunu bilmirdi, bundan da ayrı-ayrı qruplar və yaxud adamlar öz xeyirlərinə istifadə etdirdi. Belə bir vəziyyətdə Yalançı Dmitri öldükdən sonra alçaqboylu, gözləri yaxşı görməyən 50 yaşlı Vasili Şuyski (1552-1612) yeni çar elan olundu. Ryurikoviçlər nəslindən olan yeni çar özünün Qodunovdan daha çox çar olmaq hüququ olduğunu bildirərək daim çar taxtına can atırdı. Lakin boyar çarın hakimiyyətə gəlməsi Rusiyada qarışıqlığın qarşısını almaq yerinə onu daha da artırdı. Zadəganların bir hissəsi – Yalançı Dmitrinin tərəfdarları əldə etdiklərini itirməmək məqsədilə yeni çarın hakimiyyətini qəbul etmədilər. Artıq bir neçə gündən sonra belə bir şayiə yayıldı ki, çar ölümdən xilas olaraq gizlənir və tezliklə üzə çıxacaq. Antiboyar əhvali-ruhiyyənin mərkəzi Yalançı Dmitrinin dostu və tərəfdarı olan Putivl şəhərciyinin voyevodası knyaz Şaxovskinin torpaqları idi. Ryazan, Yelets və digər şəhərlər Putivli müdafiə edirdi. Polşada isə Fyodor Qodunovu qətl edənlərdən biri olan zadəgan Molçanov özünü xilas olan çar Dmitri elan etdi. Tezliklə cənub və cənub-qərb torpaqlarında güclü üsyan başladı. Son iki ildə Rusiyanın sadə adamları çar Dmitrinin bəxş etdiyi azadlıqları unutmadıqları, başqa bir tərəfdən kəndlilərin posad adamlarının çox hissəsinin hakimiyyətin idarəçiliyindən çıxaraq özlərini azad hiss etdikləri üçün onlar boyar-knyaz Moskvasına tabe olmaq istəmirdilər. Beləliklə, 1606-cı ildə Rusiyada vətəndaş müharibəsi başladı ki, cəmiyyətin aşağı və orta təbəqəsi olan zadəgan və posad adamları yuxarı təbəqəyə qarşı əlində silah mübarizəyə qalxdı. Məqsəd isə hakimiyyətin zəbt edilməsi idi. Belə bir şəraitdə XVII əsrin əvvəlində Rusiyada baş verən hadisələr ölkəni iki hissəyə yəni, Putivl və Moskva olmaqla rəqib mübarizə mərkəzlərinə ayrılmasına gətirib çıxardı.

Payıza doğru Yelets altında böyük üsyançı dəstə formalaşdı ki, çar Şuyskinin göndərdiyi knyaz qoşunu da onların tərəfinə keçdi. Əsasən Rusiyanın cənub qəzalarının zadəganlarından ibarət olan qoşuna zadəganlar İstoma Paşkov, Prokopi Lyapunov, Qriqori Sunbulov başçılıq edirdi. Putivldə Yalançı Dmitrinin Moskvaya birinci səfərində iştirak edən kazak, qaçqın xolop, kəndlilər və s. ibarət olan başqa bir ordu meydana gəldi. Bu qoşunda da əyanların, zadəgan və xidmət adamlarının nümayəndələri təmsil olunmuşdu. Orduya isə sadə, adi insan, təcrübəli döyüşçü İvan Bolotnikov başçılıq edirdi. Knyaz Teletevskinin hərbi xidmətində olan Bolotnikov kazakaların yanına qaçaraq Krım tatarları ilə döyüşdə əsir düşərək Türkiyəyə satılmış, böyük qayıqda avarçəkən olmuş, dəniz döyüşlərində italyanlar tərəfindən azad olunaraq Avropaya getmiş, Polşada özünü xilas olan Dmitri elan edən Molçanovla görüşmüşdür. Molçanovun verdiyi məktubla Putivlə gələn Bolotnikov voyevoda

Dmitri Şaxovski tərəfindən tezliklə böyük orduya çevrilən üsyançı dəstəsinə komandir təyin olunmuşdur. Moskvaya doğru yola çıxan Bolotnikovun ordusu bir neçə uğurlu qələbədən sonra Moskva altında Yeletsdən gələn zadəgan qoşunu ilə birləşsə də, onlar arasında razılıq yox idi. Onları yalnız çar Dmitri şüarı birləşdirirdi, hər birinin məqsədi isə fərqli olmuşdur.

1606-cı ilin oktyabrında qoşun Kolomensk kəndində yerləşmişdir, Paşkov və Lyapunov «xolop» Bolotnikova tabe olmamaq üçün dəstəsini ayrı saxlayırdı. Moskvanı mühasirədə saxlayan üsyançılardan dekabrın 2-də əvvəl Lyapunovun Ryazan zadəgan qoşunu, sonra Paşkovun dəstəsi Şuyski ilə gizli danışıq nəticəsində xəyanət edərək onun tərəfinə keçdilər. Cəbhənin bir hissəsi açıldığı üçün hökumət qoşunları üsyançıları sıxışdırmağa başladı. Onların çoxu döyüş meydanında həlak oldu, bir çoxu əsir düşərək elə döyüş meydanında edam olundu. İki gün çar qoşunlarına müqavimət göstərən Bolotnikov Kaluqaya çəkilməyə məcbur oldu, qoşunun bir hissəsi isə Tulaya qaçdı. Tulada üsyançılara özünü çar Fyodor İvanoviçin oğlu Pyotr elan edən növbəti bir fırıldaqçı qoşulmuşdu. Bir neçə min nəfərlik kazak, xolop, kəndlilərdən ibarət dəstəsi olan «Pyotr» Bolotnikovun üsyançıları ilə birləşərək Tula və Kaluqa altında bir neçə qələbə qazandılar. 1607-ci ilin noyabrında Tula yaxınlığında Yalançı Dmitrinin tərəfdarı Şuyskinin düşməni, Bolotnikovun keçmiş sahibi knyaz Teletevskinin başçılığı altında üsyançılar Şuyski ordusuna ağır zərbə vurdu. Lakin knyaz və Bolotnikov bu qələbəni inkişaf etdirə bilmədilər. Hər iki ordu müstəqil olaraq Tulaya çəkildi və burada çar Şuyskinin 100 minlik ordusu tərəfindən mühasirə edildi. Çar verdiyi fərmanlarla üsyançları tərk edən xoloplara azadlıq, qaçqın kəndlilərin axtarıb tapılmasını 5 ildən 15 ilə çıxarılmasını bəyan etdi ki, bu da üsyançıların parçalanmasına, təhkimçilik qaydalarını sərtləşdirildiyi üçün zadəganların möhkəmlənməsinə xidmət edirdi. 4 ay Tulanın daş divarları arasında müqavimət göstərdikdən sonra yerli Upa çayının qabağı kəsilərək şəhərə yönləndirildi. Şəhərdə aclıq başladı. Barıt və döyüş sursatları suyun altında qaldığı üçün üsyan başçıları Şuyski ilə danışıqlara başlamağa məcbur oldu. Şəhəri təhvil verəcəkləri təqdirdə üsyançıları bağışlamağı vəd edən çar andına əməl etmədi. Yalançı Pyotru tezliklə asdılar, Bolotnikovu şimala sürgün edərək, 6 aydan sonra gözlərini çıxarıb çayda boğdular. Lakin üsyançılarla hökumət qoşunlarının mübarizəsi xeyli davam etmişdir.

1607-ci ilin yayında yeni bir fırıldaqçı meydana çıxdı. Bu xarici görünüşünə əsasən Yalançı Dmitriyə bənzəyən, avaraçılıq edən müəllim idi. Polyak şlyaxtaçıları Molçanovla birlikdə ona çar Dmitri adını mənimsəməyi təklif etdilər. Növbəti avantürada daha fəal iştirak edən polyak kralı muzdlu döyüşçüləri, Zaporojye və Don kazaklarından, bolotnikovçu üsyançıların bir hissəsindən

ibarət olan 30 minlik qoşunu 1608-ci ilin yazında hazır etmişdir. Rus adamları yenidən II Yalançı Dmitrinin şəxsində «xeyirxah çar» axtarışına çıxdı. Odur ki, Rusiyanın əsas cənub və qərb şəhərləri II Yalançı Dmitrini qəbul etdilər. Ölkənin şimal, şimal-şərq və mərkəz şəhərləri Şuyskiyə sadiq qaldılar.

1608-ci il mayın 1-də ikinci Yalançı Dmitrinin qoşunu Volxov şəhəri altında çar ordusunu məğlub edib Moskvaya yaxınlaşdı. Moskvanı ala bilməyən II Yalançı Dmitri Tuşino altında öz qərərgahını qurdu ki, bu səbəbdən də Rusiya tarixində o «Tuşino oğrusu» ləqəbi ilə tanınmışdır. Fırıldaqçı çar buada özünün idarəçilik orqanlarını – boyar dumasını, prikazları yaratdı. Rostov mitropoliti Filaret Romanovu patriarx təyin etdi. Beləliklə, Rusiyada 2 çar, 2 hökumət, 2 paytaxt yarandı ki, bu qarışıqlıq dövrünün apogeyi, yəni ən yüksək zirvəsi oldu. Tuşino qərargahına polyaklar tərəfində pulla ələ alınıb gələn Marina Mnişek II Yalançı Dmitrinin əri olduğunu təsdiq etdi və gizli onunla nişanlandı. Rus torpaqlarında özbaşınalıq edən şlyaxtaçılar, xüsusilə dəstə komandiri Lisovskinin şəhər və kəndləri soyub talaması xalqın səbir kasasını aşırdı. Bir çox rus adamı «Tuşino oğrusu»nu tərk etməyə başladı. Payızda polyaklar zəngin Troitsa-Sergiyev kilsəsinə hücum etsə də, keşiş, posad adamı və kəndlilər müqəddəs pravoslav məbədini bir ildən çox müdafiə etdilər.

Öz hakimiyyətini və Moskva dövlətini saxlamaq məqsədilə çar Polşa ilə müharibə vəziyyətində olan İsveçlə müqavilə bağladı. 1608-ci ildə Novqorodda danışıqları çarın qardaşı oğlu, gənc istedadlı sərkərdə Mixail Vasilyeviç Skopin-Şuyski aparırdı. İsveçlilər ruslara təcrübəli hərbi sərkərdə Yakob Delaqardi başda olmaqla, əlli minlik korpus verməyi vəd etmişdi. Şuyski Korel şəhərini ətrafı ilə birlikdə İsveçə verməyi öhdəsinə götürdü. 1609-cu ilin yazında müttəfiq ordu Novqoroddan hərəkət edərək II Yalançı Dmitrinin qoşunlarını bir çox şəhərdən vurub çıxardılar. Tezliklə Skopin-Şuyski polyaklara ağır zərbə vuraraq Troitsa-Sergiyev kilsəsini azad etdi. İsveç ordusu Şuyskidən onlara çatan pul vəsaitini almadıqları üçün müqavilədə yazılanın əksinə olaraq rus şəhər və kəndlərini soymağa başladılar. İsveçlilərin Rusiya ərazisinə daxil olması ilə bağlı Polşa kralı Rusiya ilə olan müqaviləsini pozaraq payızda Smolenski mühasirə etdi. Artıq II Yalançı Dmitri onlara lazım olmadığı üçün «Tuşino oğrusu» və Marina Mnişek Kaluqaya qaçdırlar. Artıq Rusiyada iki deyil, üç hakimiyyət mərkəzi yaranmışdı: Moskva, Tuşino, Kaluqa. II Yalançı Dmitri qaçdıqdan sonra Tuşino patriarxı Filaret Romanov və ətrafı çar Şuyskini başqa bir adamla əvəz etmək məqsədilə Rusiya taxtına Polşa kralının gənc oğlu Vladislavı dəvət etmək fikrinə gəldilər. Bu zaman artıq Skopin-Şuyskinin qoşunu polyak dəstələrini bir neçə döyüşdə məğlub edərək Moskvaya daxil oldu. Moskvaya daxil olan 24 yaşlı istedadlı sərkərdə bir dəfə də olsa

məğlub olmamışdır və xalq onu qəhrəman kimi qarşılayaraq gələcək çar kimi tərif etməyə başladı. Bundan son dərəcə narahat olan Şuyski ailəsinin təşkil etdiyi bir məclisdən sonra sərkərdə lal oldu və öldü. Bu çar Şuyskinin onsuz da aşağı olan nüfuzunun heç olmasına şərait yaratdı. İsveçliləri ölkəyə dəvət edən, Polşa ilə müharibə vəziyyəti yaradan çar Şuyskinin onsuz da aşağı olan nüfuzu demək olar ki, qalmamışdı. Xalqın qəzəbinə səbəb olan son hadisələr çarın qardaşı Dmitri Şuyskinin Kluşin altındakı döyüşdə polyaklara məğlub olması və II Yalançı Dmitrinin Kaluqadan çıxaraq bir neçə cənub şəhərini tutub Kolomensk şəhəri yaxınlığında düşərgə qurması oldu. Moskva yenidən mühasirə vəziyyətinə düşdü.

Moskva və Tuşino boyarları posad adamları və streletsləri də cəlb edərək sui-qəsd təşkil edib 1610-cu il iyulun 17-də Şuyskini taxtdan saldılar. Rahib kimi başı qırxılan Şuyski qardaşı ilə birlikdə polyaklara təhvil verildi, iki il sonra əsirlikdə öldü. Çevrilişin başında görkəmli Moskva boyarları F.İ.Mstislavski, V.V.Qolıtsın və Boyar Dumasının başqa üzvləri dururdu. Onlar yeddi nəfər olduqları üçün yeni hakimiyyət xalq arasında «yeddi boyar hakimiyyəti» adlanmışdır. Boyarlar Polşa ilə müharibəyə son qoymaq üçün tuşinolularla birlikdə rus taxtına yenidən polyak şahzadəsi Vladislavı dəvət etdilər, bir şərtlə ki, o pravoslavlığı qəbul edərək, pravoslav qızla ailə qursun, rus torpaqlarını polyak qoşunlarından təmizləsin. Məsələ Smolenskdən Moskvaya yaxınlaşan polyak qoşununun rəisi getman Stanislav Jolkevski ilə müzakirə olundu. Moskva əhalisi isə Vladislavın xeyrinə and içdi. Tezliklə Moskva səfirliyi başda Filaret Romanov və knyaz Qolıtsın olmaqla Smolensk altına kralla görüşə getdi. Boyar dumasının polyak qoşunu ilə birgə ordusu II Yalançı Dmitrini Moskvadan Kaluqaya qovdu. 1610-cu il sentyabrın 21-də gecə boyarların razılığı ilə polyaklar gizli Kremlə daxil oldu. Ov zamanı II Yalançı Dmitri adamları tərəfindən öldürüldü. Arvadı Marina Mnişek isə bir neçə gündən sonra İvan adlı oğlan uşağı dünyaya gətirdi ki, bu fırıldaqçıların son arzusu idi. Polşa kralı Smolenski mühasirəsini ləğv etməyi rədd edərək oğlunun pravoslav olmasını qəbul etmədi, sonra isə özünə Rusiya taxtını tələb etdi. Şərait olduqca mürəkkəb olaraq qalırdı. Polşa kralı Rusiya ilə müharibəni davam etdirir, İsveç müttəfiqdən düşmənə çevrilmiş, Polşa qarnizonu Moskvada dayanmışdı. Rusiya dövlətçiliyi məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Belə təsəvvür yaranırdı ki, Rusiyanı xarici işğalçılardan xilas edən güc mümkün deyildir.

Rusiya dövlətinin düçar olduğu daxili və xarici bəladan yenə əhalinin ayrı-ayrı təbəqələrini əhatə edən rus xalqı xilas etdi. Xalqı təmsil edən əhalinin orta təbəqəsi, ilk növbədə şəhərlərin varlı posad əhalisi, tacirlər, sənətkarlar,

zadəganlar, dövlət kəndliləri, kazaklar fırıldaqçılara, polyaklara, Şuyski və «yeddi boyar hakimiyyəti»nə qarşı onlarla əlaqədar olmayan boyar və knyazlar ölkənin müdafiəsinə qalxdılar. Vətənpərvərlik hərəkatının başında düşmən qarşısında baş əyməyən ahıl patriarx Germogen dayanırdı. Patriarx polyakların əlaltılarını lənətləyərək əhalini Vladislava tabe olmamağa çağırdı. Rusiyanın şəhərləri ölkəni xarici müdaxiləçilərdən, katolik dinindən xilas etmək məqsədilə Moskvaya köməyə tələsdi. Birinci olaraq, Prokopi Lyapunov başda olmaqla Ryazan qalxdı. 1611-ci ilin əvvələrində dəstələr şəhərlərdən Moskvaya doğru hərəkətə başladı. Eyni zamanda ataman İvan Zarutski və knyaz Dmitri Trubetskoyun başçılıq etdikləri kazak dəstələri Moskvaya doğru yola çıxdılar. Məqsədi Moskvanı polyaklardan xilas etmək olan birinci xalq yığma qoşununun başında keçmiş Zemstvo məclisinə bənzər bütün torpaqların Şurası dayanırdı ki, ona da qoşun rəhbərləri başçılıq edirdi.

1611-ci il martın 19-da xalq qoşunu düşərgəsindən Moskvaya gizli daxil olan voyevoda D.M.Pojarskinin başçılığı ilə üsyan başladı. Üsyançılar polyakların bir neçə hücumunu dəf etdikdən sonra polyak qoşunu üsyanı alovla boğmağa qət edərək şəhəri yandırdılar. Üsyançılar yaralanan Pojarskini döyüş meydanından çıxararaq Troitsa-Sergiyev kilsəsinə, oradan isə Nijni Novqorod altındakı meşəlikdə olan kəndi Muqreyevə apardılar. Birinci xalq qoşunu dəstələri yandırılan, dağıdılan şəhəri almaq uğrunda mübarizəyə başladı. Moskva ətrafında baş verən hadisələrdən istifadə edən polyak qoşunu 1611-ci ilin iyulun 3-də Smolenski, isveçlilər isə Novqorodu və onun ətraf torpaqlarını işğal etdilər.

Azadlıq hərəkatına rəhbərlik etmək məqsədilə birinci xalq qoşunu knyaz Dmitri Timofeeviç Trubetskoy, ataman İvan Martınoviç Zarutski və voyevoda Prokopi Petroviç Lyapunov olmaqla hökumət seçdi. Bütün yerlərin Şurası hərəkatın yaxın vəzifələrini müəyyən edən «Hökm» («Приговор») qəbul etdi. «Hökm»də əsas vəzifə votçina sahibi olan boyarların, zadəgan-mülkədarların mənafeyini müdafiə etmək idi. Eyni zamanda kazak dəstələrinin Rusiyanın şəhərlərindən çıxarılması, onlara soyğunçuluq və adam öldürməyin qadağan edilməsi, votçina və mülkədar mülklərindən qaçan kəndlilərin axtarıb tapılması kimi məsələlər də «Hökm»də öz əksini tapmışdı. Bu birinci xalq qoşunu başçıları arasında münaqişəyə, nəticədə isə kazakların Lyaponovu qılıncla kəsməsinə səbəb oldu.

Qanlı faciə ilə bitən çəkişmələrə baxmayaraq, xalq qoşunu payız və qışda iki dəfə Moskvanı ələ keçirməyə cəhd etsə də, buna nail ola bilmədi. Sentyabr ayında Xodkeviçin korpusunun Moskvaya yaxınlaşması ilə şəhərdəki polyak qarnizonu xilas oldu. Zarutskinin kazak dəstələri ilə Xodkeviçin qoşunu ara-

sındakı döyüşdə də heç bir tərəf qələbə çala bilmədi. 1611-ci ilin qışına doğru birinci xalq qoşunu qəti olaraq dağıldı.

Rusiya dövlətini və pravoslav dinini xaricilərdən xilas etməyi qarşısına məqsəd qoyan xalq hərəkatının növbəti mərkəzi Orta Volqaboyunda başlıca strateji mövqeyə malik olan, mühüm ticarət və sənətkarlıq mərkəzi Nijni Novqorod oldu. Yeni yaranan hərəkatın lideri çox da gənc olmayan, Nijeqorod posad adamı, zemstvo rəisi, ət taciri Kuzma Miniç Minin idi. Təmiz, ədalətli, satılmayan adam kimi şəhərdə nüfuz sahibi olan Kuzma Minin ümumi məqsəd naminə əhalinin əmlakının bir hissəsindən vaz keçməsinə dəvət edərək, özü sərvətini və arvadının zinət əşyalarını verdi. Minlərlə adam onun etdiyini təkrarladı. Kim nə bacarırdı, onu da verdi: pul, bəzək əşyası, daş-qaş və s. Vətənpərvərlik hərəkatı bütün Rusiya şəhərlərini bürümüşdü. Hər yerdən vəsait toplanıb Nijni Novqoroda göndərilirdi. Yığılan vəsaitdən formalaşmaqda olan orduya xidmət haqqı müəyyən olundu. 33 yaşlı knyaz Dmitri Mixayloviç Pojarski təcrübəli hərbi sərkərdə, vətənpərvər kimi qoşuna voyevoda təyin olundu.

1612-ci ilin martında yığma xalq qoşunu Moskvaya doğru deyil, yuxarı Volqa üzrə Yaroslavla hərəkat etdi. Çünki ataman Zarutski və boyar Trubetskoyun qoşunu hələ Moskva altında dayanaraq nəzarət etdikləri ərazilərdə soyğun və zorakılıqla məşğul olurdu. Yaroslavlda dörd ay dayanan ikinci xalq yığma qoşunu özlərinin hökumətini, yəni «bütün torpaqların Şurasını», Boyar Dumasını, prikazları yaratdılar. İkinci xalq qoşunu hökuməti Rusiyanın bütün yerlərinə fərmanlar göndərərək xalqı Moskvanı, Rusiya dövlətini xilas etmək məqsədilə köməyə, ordu və vəsait toplamağa dəvət etdi. Qayda-qanun, sabitlik təbliğ edən yeni Yaroslavl hökuməti atdığı addımlarla ölkədə ümumrusiya vətənpərvərlik hərəkatını alovlandırdı.

1612-ci il iyulun 27-də ikinci xalq qoşunu Yaroslavldan Moskvaya doğru hərəkət etdi. Getman Xodkeviçin Moskvaya tələsməsi xəbərini alan Pojarski tez hərəkət edib Moskva çayının qərb sahilində dayanaraq Qərbdən Kremlə gedən yolu kəsdi. Moskva çayının sağ sahilində isə birinci xalq qoşununun Trubetskoyun başçılıq etdiki kazak taboru dayanmışdır ki, onlar da Kremlə gedən yolu cənub-qərbdən qoruyaraq polyak qarnizonunu mühasirədə qalmağa məcbur edirdi. Avqustun 22-də polyak qoşunu Moskva çayını keçərək Kremlə hücuma başladı. Pojarski onları Novodeviçe kilsəsinin yanında qarşıladı və hər iki tərəfdən 10-12 min nəfərlik ordu qanlı döyüşə başladı. Avropada ən yaxşı süvari qoşun kimi qəbul edilən polyak süvariləri hücum edib rus ordusunun sol cinahını çayın sahilinə sıxışdırdı. Eyni zamanda Kremldəki polyak qarnizonu ruslara arxadan zərbə endirməyə cəhd etsə də, uğur qazanmadı. Çayın o biri sahilində dayanan Trubetskoyun kazak dəstəsi Pojarski xalq

qoşununun tökülən qanını seyr edirdi. Xodkeviçin qələbəyə yaxın olduğu bir vaxtda Trubetskoyun əmri olmadan yüzlərlə süvari Moskva çayını keçərək polyakların sol cinahına zərbə vurdular. Kazakların bu hücumu döyüşün həlledici anı oldu, ikinci xalq qoşunu əsgərləri yenidən hücuma keçdilər

Xodkeviç taktikanı dəyişərək avqustun 24-də qoşunu Don kilsəsi istiqamətində Moskva çayının o biri tərəfindən Kremlə doğru hücuma başladı. Pojarski və Trubbetskoyun kazak dəstəsini sıxışdıran Xodkeviç belə güman etdi ki, Zamoskvereçye onun əlindədir, odur ki, yüklə dolu araba karvanını Kremlə keçirmək üçün bura yerləşdirdi. Yük polyak ordusunun hərəkət qabliyyətini azaltdı. Kuzma Minin bir neçə yüz zadəgan süvarisi ilə Xodkeviçin ordusunun sol cinahına zərbə vurdu. Bunun ardınca xalq qoşunu və kazaklar hücum edib polyak qoşunun geri oturtdular, hərbi yükü isə ələ keçirdilər. Sentyabrın axırlarında hər iki xalq qoşunu və «Şura» nəhayət birləşdi. İki aya kimi mühasirədə qalan polyak qarnizonu oktyabrın 22-də danışıqlara və təslim olmağa razı oldular. Bu zaman yenə öz təşəbbüsləri ilə hücuma keçən kazaklar Kremlin Kitayqorod rayonunu aldılar. Oktyabrın 26-da polyak qarnizonu təslim oldu. Ertəsi gün Qızıl meydanda birləşən Pojarskinin polku və Trubetskoyun kazakları Kremlə daxil oldu. Qərbdən III Sigizmundun ordusu hücuma keçsə də, ön hissələrin Moskva ətrafında məğlub olması və polyakların Moskva qarnizonunun ləğv edilməsi Polşa kralının geri qaytarılmsına səbəb oldu.

Bununla «Qarışıqlıq dövrü» hələ başa çatmadı. Zarutski kazakları və II Yalançı Dmitrinin Marina Mnişekdən olan oğlu İvanla birlikdə cənubdan təhlükə yaradırdı, Polşa ilə müharibə davam edirdi, ölkə idarəedilməz vəziyyətdə idi. 1612-ci ilin axırlarından Rusiyanın bütün təbəqələri, o cümlədən boyar, zadəgan, kilsə xadimləri, posad əhalisi, kazaklar Moskvaya seçilmiş nümayəndəli orqan olan Zemstvo məclisinin yığıncağına toplaşdılar. Nümayəndələr arasında hətta qara camaatın və sarayın şəxsən azad olan kəndliləri də təmsil olunmuşdur. Məclisin qarşısında duran əsas məsələ yeni Rusiya hökmdarını seçmək idi. Birinci olaraq Məclis üzvləri qərara gəldi ki, Rusiya taxtına xaricilər – nə Polşa, nə də İsveç şahzadələri seçilsin. Rusiya taxtına yerli on nəfərə kimi namizəd var idi. Birinci olaraq, qədim knyaz nəslindən olan F.İ.Mstislavski və V.V.Qolitsının adı çəkildi. Birinci polyaklarla bağlı özünü hörmətdən salmışdı, ikinci isə polyak əsirliyində idi. Zadəgan və kazaklar knyaz D.M.Trubetskoyun namizədliyini irəli sürsə də, boyarlar onun mənşəyinin kifayət qədər qədim olmamasını əsas tutaraq qəbul etmədilər. Knyaz D.M.Pojarskini də namizədliyi də yeni şəraitə uyğun qəbul edilmədi.

Kazaklar 16 yaşlı Mixail Romanovun namizədliyini irəli sürdülər. Tuşino patriarxı Filaretin oğlu olan Mixail kazaklara yaxın idi. Eyni zamanda, o,

polyak əsirliyində olan əzabkeş atasının şərəfini təcəssüm etdirirdi. Boyarlar onu qədim aristokrat kökündən olduğu üçün müdafiə etdilər. Belə ki, Mixail İvan Qroznunun birinci arvadı Anastasiya Romanovanın qardaşı uşağının nəvəsi idi. Həm də boyar qrupu taxta onlardan asılı olan hökmdarı seçərək onun müstəbid hakimiyyətini məhdudlaşdırmaq niyyətində idi. 1613-cü il fevralın 21-də Mixail Fyodoroviç Romanov Rusiya dövlətinin çarı seçildi, «Qarışıqlıq dövü» başa çatdı.

### §2. Rusiya XVII əsrin I yarısında

Yeni çar Mixail Romanov gənc və təcrübəsiz idi. Lakin boyarların çarı idarə edə biləcəkləri niyyəti baş tutmadı. Yeni çarın ətrafında tez bir zamanda nüfuzlu boyar, knyaz, zadəgan, dyaklardan ibarət tərəfdarları qrupu yarandı. Bir az sonra çarın atası patriarx Filaret əsirlikdən qayıtdı və faktiki olaraq oğlunun hakimiyyət şəriki oldu. Təcrübəli, ağıllı, möhkəm xarakterli 64 yaşlı patriarx dini və dünyəvi hakimiyyəti öz əlində birləşdirdi. Yeni prikazlar yaranır, köhnələr isə yenidən bərpa olunurdu. Onların başına sağ qalmış boyar və dyaklar təyin olunurdu. Yeni dövlət sistemində Minin və Pojarski də təmsil olundu. Minin Duma zadəganı oldu. Voyevoda boyar rütbəsi alaraq hökumət və orduda mühüm yer tutdu. İlk gündən birinci Romanovlar monarxiyası özlərindən əvvəl XVI əsrdə olduğu kimi mütləq hakimiyyət formasında meydana gəlmişdir. Yeni çar Kostromadan Moskvaya hərəkət edərkən boyarlar çara müraciətlərində özlərini onun «xolopları» adlandırırdılar, gənc çar isə onlardan sözsüz tabeçilik tələb edirdi. Bununla yanaşı, çar hər yerdə özünü bütün xalqın, o cümlədən «Qarışıqlıq dövründə» incidilən və təhqir edilənlərin müdafiəçisi, ədalət və qayda-qanunun təminatçısı kimi təqdim edirdi. Xalqla yeni hakimiyyətin bir tam kimi birliyi belə yarandı.

Yeni çar hakimiyyəti ehtiyatlı və uzaqgörən siyasət yeridərək ölkənin bütün təbəqələrini birliyə, sakitliyə təşviq edirdi. Heç bir boyar, zadəgan, dyak keçmiş əməllərinə görə təqib edilmir, hər biri öz əvvəlki mövqeyini, torpağını, rütbəsini saxlayırdı. Çar hakimiyyəti «Qarışıqlıq dövrü» sonrası ilk illərdə seçkili orqanlar olan Boyar Duması və Zemstvo məclisinin xidmətindən davamlı istifadə edirdi. Seçkili orqan üzvləri tez-tez toplaşaraq mühüm dövlət əhəmiyyətli məsələləri, o cümələdən, vergi, xarici siyasət işlərini həll edirdilər. Artıq yeni çarın hakimiyyəti möhkəmləndikdən sonra, xüsusilə patriarx Filaretin Moskvaya gəlməsi ilə Zemstvo məclisi daha gec-gec toplanmağa

başladı, XVII əsrin ikinci yarısında isə ümumiyyətlə, Rusiya dövlət sistemindən çıxarıldı. Boyar duması da get-gedə çardan asılı vəziyyətə düşərək onun ayrı-ayrı tapşırıqlarını yerinə yetirməyə başladı.

Rusiya cəmiyyətinin sabitlik yolunda davam etməsi üçün ölkədə dolaşaraq heç kimə tabe olmayan kazak dəstələrini, quldur qruplarını, polyak əsgərlərini ləğv etmək lazım idi. 1615-ci ildə Pojarskinin qoşunu Rusiyanın mərkəzi qəzalarında əməliyyatlar aparan fırıldaqçı Lisovskinin adamlarına bir neçə zərbə vuraraq onları cənuba qovdu, şlyaxtaçı elə orada da öldü. Ryazandan Moskvaya doğru hərəkət edən Zarutski Marina Mnişek və oğlu İvanı bayraq edərək 1612-1613-cü illərdə fırıldaqçıların keçdiyi yolu təkrar etmək niyyətində idi. Lakin çar voyevodaları onu cənuba doğru sıxışdıraraq Voronej altında məğlub etdilər. Ələ keçən Zarutski və İvanı Moskva altında edam etdilər, zindana atılan Marina Mnişek bir il son orada öldü. Ölkənin cənub qəzaları düşməndən azad edilsə də, şimalda, yəni, Voloqodsk, Belozero və Karqopol qəzalarında ataman Balovenin beş minlik kazak dəstəsi dəhşət, soyğun və qorxu yayırdı. Uzun danışıqlardan sonra bağışlanma və yaxşı muzd müqabilində kazakların bir hissəsi atamandan ayrıldı. Yerdə qalan qoşun Moskvaya hücum edərkən məğlub oldu, ataman Baloven tutularaq asıldı. Yalnız XVII əsrin 20-ci illərinin əvvəllərində ölkədə vəziyyət sabitləşdi.

Polşa kralı III Sigizmund Moskvada çarın seçilməsini qəbul etməyərək oğlu Vladislavı qanuni Moskva hökmdarı hesab edirdi. 1613-cü ildə rus polku Qərbə doğru irəliləyərək bir neçə şəhəri azad etdikdən sonra Smolenskə yaxınlaşdı və uzun danışıqlar başladı. Eyni zamanda Novqoroda da qoşun göndərilsə də, məğlub oldu. İsveçlilər əlavə bir çox torpaqları da tutaraq Pskovu mühasirə etdilər. Diplomatiyanı işə salan yeni hakimiyyətin təsiri ilə alman imperatoru Polşa ilə Rusiya, İngiltərə kralı İsveçlə Rusiya arasında danışıqlara vasitəçi olmağa razı oldular. Danışıqların uzanmasından istifadə edən polyak qoşunu Vladislav başqa olmaqla 1617-ci ilin yazında Rusiyaya yürüşə başladı, bir neçə şəhəri tutub Ukrayna kazaklarının getmanı Pyotr Saqaydaçnının köməyi ilə Moskvaya yaxınlaşdı. D.M.Pojarski polyak dəstəsinə Kaluqa altında zərbə vursa da, sentyabrın sonunda polyak qoşunu Moskvanı mühasirə etdi. Moskvanın ciddi müqaviməti polyakları yenidən danışıqlara başlamağa məcbur etdi. 1618-ci ilin dekabrında Troitsa-Sergiyev kilsəsinin yaxınlığındakı Deulino kəndində 14,5 il müddətinə barışıq imzalandı. Sülhün şərtlərinə əsasən, Polşa Rusiyadan olan bütün əsirləri, o cümlədən patriarx Filareti geri qaytarmalı, polyaklar tutduqları Moskvaya yaxın olan şəhərləri tərk etməli, Smolenski isə özlərində saxlamalı idi. Vladislav Rusiya taxtına olan iddiasından əl çəkmədiyi üçün Polşa ilə mübarizə qalırdı. 1617-ci ilin

fevralında Stolbovo kəndində İsveçlə sülh müqaviləsi imzalandı ki, buna əsasən, İsveç kralı Rusiya taxtına olan iddiasından imtina edir, Novqorodu qaytarırdı. Baltik sahillərinin qədim rus şəhərləri Yam, Koporye, Oreşek, İvanqorod İsveçin əlində qalırdı ki, bu da Rusiyanın Baltik dənizinə çıxışını itirməsi demək idi. Faktiki olaraq, qonşuları Rusiyanı XV yüzilliyin sonlarında III İvan dövründəki sərhədlərə sıxışdırmışdır ki, bu «Qarışıqlıq dövrü»nün nəticəsində baş vemişdir.

«Qarışıqlıq dövrü» Rusiyaya ağır zərbə vuraraq onu bir neçə on il geri atmışdır. Mərkəzi və yerli hakimiyyəti bərpa edən yeni çar Mixail Romanov öz yaxın ətrafı ilə «Qarışıqlıq dövrü»nün qalmaqallarını aradan qaldıraraq ölkənin bərpa olunmasına başladı. Çar 1619-cu ildə növbəti Zemstvo məclisini topladı ki, onun da vəzifəsi ölkənin dirçəlməsi məqsədilə tədbirlər müəyyənləşdirmək oldu. Müzakirələrdən sonra Zemstvo məclisi iclasının nəticəsinə əsasən hakimiyyət əhalinin vergi yükünü azaltdı. Hərb zamanı fövqəladə vergilər ləğv edildi, vergilər əhalinin gəlirinə görə hesablanmağa başlandı.

Hakimiyyətin qəbul etdiyi yeni Qanuna əsasən «Qarışıqlıq dövrü»ndə qanunsuz zəbt edilən torpaqlar müsadirə edilirdi. Kazakları sakitləşdirmək məqsədilə dövlətə xidmət etmək istəyənlərə torpaq payı verilir, muzd müəyyən edilirdi. Boyar və zadəganlara öz təsərrüfatlarını «boş» qoymaq qadağan idi. «Qarışıqlıq dövrü»ndə özünün son həddinə çatan sərxoşluqla sərt mübarizə başladı. İri şəhərlərdə və qonaq evlərinin həyətlərində içki müəssisələrinin açılması qadağan olundu. Tez-tez yanğına səbəb olduğu üçün siqar çəkilməsi də yasaq edildi.

Hakimiyyət qaçqın kəndlilərin axtarıb tapılaraq geri qaytarılması tədbirini daha da sərtləşdirərək 5, sonra 9, daha sonra isə 15 il müəyyən etmişdir. 30-cu illərin ortalarında şəhərlərdən qaçan posad adamının axtarıb tapılmasına dair fərman elan olundu. Hakimiyyət ölkənin dirçəldilməsi məqsədilə mülkədar, votçina, kilsə torpaqlarını işçi qüvvəsi ilə, dövləti şəhər və kəndlərdəki vergi ödəyən adamlarla təmin edirdi.

Ölkədə dinc sülh şəraitinin təmin olunması, sadə adamlar üçün ağır olsa da, ümumi qayda-qanunun bərpası nəticəni verdi. Artıq 20-30-cu illərdən başlayaraq kənd təsərrüfatı bərpa olundu. Boş qalmış torpaqlar, xüsusilə mərkəzi qəzalarda, Moskva ətrafında becərilməyə başladı. Üçtarlalı əkin sisteminin yayılması sahəsində məhsuldarlıq artdı. Volqaboyunda və cənubi qaratorpaq zonalarında torpaqları əkməyə başladılar. Krım tatar-türklərinin basqınından qorunmaq üçün Belqorod kərtik və ya nişan sərhəd xətti çəkildi. Kənd təsərrüfatının inkişafı sənətkarların daha çox məhsul istehsal edərək bazara çıxmasına təkan verdi. Maldarlıq, xüsusilə şimalın, Oka, Klyazma, yuxarı Volqa,

Surun çaylaq yerlərində yayılmışdır. Dəri emalı, balıq ovçuluğu xəzinəyə yüklü gəlir gətirirdi.

Qarışıqlığın ağır nəticələrinə baxmayaraq, XVII yüzilliyin 20-30-cu illərində Rusiya sənayesində canlanma da olmuşdur. Moskvada 100 nəfərdən çox adamın çalışdığı topxana mövcud idi ki, burada da top, zəng hazırlayırdılar. Silah palatası odlu və soyuq silahların istehsalı üzrə ixtisaslaşmışdı. Sikkəxana ölkənin ən böyük müəssisələrindən idi ki, burada da Rusiya sikkələri zərb edilirdi. Toxucu evində 100-dən çox toxuculuq dəzgahı işləyirdi ki, burada da çar sarayı və satış üçün parça, kətan və s. hazırlanırdı. 20-ci illərin əvvəllərində Moskvada çap evi bərpa olundu ki, burada da sayları 1000 nüsxəyə çatan dini və dünyəvi kitablar çap edilmişdi. Rusiya üçün yeni olan xaricilərin vəsaiti hesabına filiz, dəri, şüşə emalı zavodları meydana gəlmişdi.

XVII əsrdə «Qarışıqlıq dövrü»nün ilk illərindən sonra birinci Romanovlar sülaləsinin hakimiyyəti Ural və Sibirin zəngin sərvətlərinin mənimsənilməsinə başladılar. Çar Mixail məmurlarla birlikdə Ural ətrafı və Sibirə səfər edərək misəritmə və filiz emalı zavodlarının tikilməsinə şərait yaratdılar. Nerçinsk Dəmirəritmə Zavodu ilk belə müəssisə oldu. Belə müəssisələrin sahibkarları dövlət tərəfindən xüsusi güzəştlərlə təmin olunurdu. Bu zaman rus adamları Yeniseyə kimi gələrək Krasnoyar şəhərinin əsasını qoydu. Hakimiyyət yeni torpaqlardakı yerli xalqlara xüsusi diqqət göstərilməsini tələb edirdi. Belə ki, Volqaboyu və Sibir kəndli və posad adamına təhkimçilik qaydası şamil edilmirdi. 1624-cü ildə çar Mixail Volqadakı öz voyevodalarına göndərdiyi fərmanda çuvaş, mordva, qazan tatarlarına ehmalla yanaşmağı, onları zorla işləməyə məcbur etməməyi, əldə edilən ərzağın dəyərini ödəməyi tələb etmişdir. Sibirə də eyni məzmunlu fərmanı göndərən çar dövlətin qaydasını nümayiş etdirməsi ilə bərabər, sərt məmur və voyevodaların da özbaşınalığının qarşısını almışdır.

Rusiyanın xarici vəziyyəti də tədricən bərpa olunurdu. Yeni çar hakimiyyəti İngiltərə, Hollandiya, İsveç, Türkiyə, Danimarka, Fransa və İran ilə dostluq münasibətləri saxlayırdı. Bir çox yaxın və uzaq qonşu dövlətləri Mixailin çar taxtına seçilməsini dəstəklədi. Yeni hakimiyyət xarici əlaqələri, ticarəti canlandırmaq məqsədilə, ingilis və holland tacirlərinə güzəştlər müəyyənləşdirdi, xarici gəmilər Arxangelskə yanaşdılar. Diplomatik əlaqələrin artması Rusiyanın Qərb dünyası üçün açıq olduğunu göstərmirdi. Xarici işğalçıların, xüsusilə katolik polyakaların Rusiyaya gətirdiyi bəlalar hələ yaddaşlarda hopub qalmışdı. Xüsusilə İngiltərə burjua inqilabından sonra yaranmış vəziyyət, 1649-cu ildə çar fərmanlarında Mixail və onun oğlu Aleksey Mixayloviçin «qardaşım» adlandırdıqları kral I Karlın edam edilməsi Rusiya cəmiyyəində Qərblə münasibətlərdə şübhə və təşvişin yaranmasına səbəb olmuşdu.

Vladislavın Rusiya taxtına iddiası ilə bağlı olaraq Qərb torpaqlarındakı müvəqqəti sakitlik, Krım türklərinin basqınları, Volqaboyu və Ural ətrafında yerli xalqların fəallığı ordunu daim təkmilləşdirməyi tələb edirdi. Məhz Mixail Romanovun çarlığı dövründə hərbi xidmətə xarici ölkədən olan muzdlu əsgər və zabitlərin cəlb edilməsinə başlanmışdır. Səbəbi Qərb dövlətlərinin hərbi elm və texnikasının qabaqcıl olması ilə izah olunurdu. Eyni zamanda, xaricdən silah və sursat, muşket, qılınc, top mərmisi və s. alırdılar. Moskvada strelets polkları ilə bərabər müharibə vaxtı toplanan zadəgan və kazak süvari dəstələrinə əlavə olaraq muzdlu süvari reytar və draqun polkları meydana gəlmişdi. Xarici muzdlu əsgərlərdən və azad rus adamlarından ibarət olan polklar «xarici cərgə» adlanırdı. Draqun polku yüngül süvari və odlu silahla təhciz olunaraq atlı və piyada cərgə ilə döyüşürdü. Reytar polku isə ağır zirehli geyimi, nizə və qılıncı olan döyüşçülər idi. Yeni piyada polkları yaranmışdı. Bunlar yüz və on nəfərlik əvvəlki polklardan fərqli olaraq xarici zabitlərin komandirliyi altında rotalardan ibarət idi. Belə polkların silah-sursatı da əsasən, xaricdən alınırdı.

1632-ci ilin yazında Polşa kralı III Sigizmund öldü, ölkədə taxt-tac mübarizəsi başladı. İsveç və Polşa münasibətləri kəskinləşdi, isveçlilər Polşaya hücum etmyə hazırlaşırdı. Çarın atası patriarx Filaret başda olmaqla bir çox əslzadə Polşa ilə müharibə tərəfdarı idi. 1632-ci ilin yayında Mixail Romanov Zemstvo məclisini çağırdı, yığıncaqdan Polşa ilə müharibə qərarı çıxdı.

1632-ci il avqustun 3-də təqribən 100 min nəfərlik rus ordusu 1609-1611-ci illərdəki Smolensk döyüşünün qəhrəman voyevodası, yeddi il patriarx Filaretlə polyak əsirliyində olan Mixail Borisoviç Şeinin başçılığı ilə 1632-1634-cü illəri əhatə edən Smolensk hücumuna başladı. Rusiya qoşunları Doroqobuj, Novqorod-Seversk, Starodub şəhərlərini tutdu. Şeinin ordusu tezliklə Smolenskə çatıb onu mühasirə etdi. İsveç ordusu isə Polşaya daxil oldu. Qoca və keçmiş xidmətlər ilə yaşayan Şeinin yavaş hərəkət etməsi, Polşadakı döyüşdə İsveç kralının ölməsi Polşa taxtına seçilmiş gənc və döyüşkən Vladislavın Smolenskə hücum edib bir neçə şəhəri alaraq Şeinin ordusunu mühasirəyə salması ilə nəticələndi. Ağır vəziyyətdə olan rus voyevodası barışıq imzalayaraq ordusunu, hərbi təhcizatı, silah-sursatı Polşa kralına verib, bayraqla birlikdə onun qarşısında əyilməli idi. Xarici muzdlu qoşunun bir hissəsi polyakların tərəfinə keçdi. Qələbədən ruhlanan Vladislav Moskvaya hücum etsə də, onu knyaz D.M.Pojarskinin başçılığı altında olan rus qoşunu qarşıladı. Hücumu davam etdirmək iqtidarı olmayan Reç-Pospolita 1634-cü ildə Vyazma yaxınlığındakı Polyanovke çayı üzərində sülh barışığı imzaladı. Sülhün şərtlərinə əsasən, Rusiya polyakların işğal etdiyi Smolensk və başqa şəhərləri geri ala bilmədi. Ancaq Vladislav Rusiya taxtına olan iddiasından əl çəkdi ki, bu da Rusiyanın

Romanovlar mütləq monarxiyasının beynəlxalq mövqeyini möhkəmlətdi. Smolensk məğlubiyyətinə görə Şein və onun yaxın köməkçiləri satqınçılıqda təqsirli hesab edilərək edam olundular, bir çox voyevoda qamçı cəzasından sonra Sibirə sürgün olundu.

1637-ci ildə don kazakları türk qalası olan Azovu işğal etdilər. Çarın asılılığında olan, onun kömək və müdafiəsini hiss edən Don kazaklarının bu yürüşü hətta Rusiya dövlətinin hakimiyyətini təmsil edən adamlara belə məlum olmamışdır. Krım tatar-türklərinin Rusiya torpaqlarına qənimət məqsədilə davamlı basqınları, türk sultanının Krım dövlətini müdafiə etməsi, XVII əsrdə Osmanlı–Rusiya münasibətlərini kəskinləşdirmişdi. Qalanın altından lağım ataraq barıtla onu partladan Don kazakları Azovu ələ keçirdikdən sonra 1637-ci ildən 1642-ci ilə kimi beş il ona sahib oldular. Kazaklar çara müraciət edərək Azovu «öz əlinin altına» almasını təklif etdilər. Çar türklərdən gizli olaraq Azova ərzaq, silah, barıt və s. göndərirdi. Lakin Rusiya Osmanlı imperiyası və Krım xanlığı ilə böyük müharibəyə hazır olmadığı üçün 1642-ci ilin yazında Zemstvo məclisinin də qəbul etdiyi nəticəyə əsasən, çar hakimiyyəti kazaklara Azovu tərk etmək göstərişi verdi. Bundan narazı qalan kazaklar şəhər qala divarlarını partladaraq Azovu tərk etdilər, türklər və Krım qoşunu Azova sahib oldu.

Mahiyyət etibarilə XVII əsrin birinci yarısını çar Mixail Romanovun dövrü adlandırmaq olar. Ona görə yox ki, çar Rusiya dövlətinin başında dururdu, məsələ bundadır ki, Mixail Romanov ölkədə baş verən bütün hadisə və proseslərə öz şəxsi möhürün vurmuşdur. Onun dövlət işlərinə sakit və ciddi yanaşması hətta öz ətrafına yığdığı yaxınlarının belə keçmiş və rəqibləri ilə haqq-hesab çəkməsinə imkan yaratmamış, cəmiyyətdəki ictimai qüvvələrin tarazlığını qoruyub saxlamışdır. Çar heç kimi edam etməmiş və yaxud etibardan salmamışdır. Yalnız birləşmiş dövlətin əleyhinə olanlar, yeni seçilmiş çar kimi onu qəbul etməyən kazaklar, soyğunçu və oğrular, polyak hərbi qoşununun qalıqları sərt cəzalandırılmışdır. Dövlətdə qayda-qanun və sakitliyə xüsusi əhəmiyyət verən çar Mixail kəndli və posad adamlarının qiyamlarını amansızlıqla yatırmışdır. Padşahın, onun ailəsinin, uşaqlarının ünvanına layiq olmayan sözlər söyləmək dövlət əleyhinə ağır cinayət hesab olunaraq cəzası qamçı ilə döyülmək və s. olmuşdur. Çətinliklə ələ aldığı çar hakimiyyətini Mixail ümumxalq mülkü kimi qoruyub saxlamışdır. Mixail Romanovun Yevdokiya Streşneva ilə evliliyindən on uşağı, yeddi qızı, üç oğlu olmuşdur. 1629-cu ilin martında taxtın varisi şahzadə Aleksey (1629-1679) doğulmuşdur. Çar Mixail Romanovun nüfuzu tədricən artmışdır. Artıq heç kimin ağlına belə gəlməzdi ki, çar Mixail zəif və təsir altına düşən bir insandır. 1645-ci il iyulun 12-də 50 yaşlı çar Mixail Fyodoroviç Romanov vəfat etdi.

## §3. Rusiya XVII əsrin II yarısında

1645-ci il iyulun 13-də Mixail Fyodoroviçin ölümündən sonra onun 16 yaşlı oğlu Aleksey Mixayloviç yeni çar oldu. Rusiya tarixində «ən sakit» ləqəbi alan yeni çar Aleksey Mixayloviç hakimiyyətinin birinci illərində dövlətin bütün işlərini onun tərbiyəçisi boyar Morozov aparırdı. Ölkədə hakimiyyətdə sui-istifadə halları, rüşvətxorluq, məhkəmə süründürməçiliyi, məmurların özbaşınalığı geniş yayılmışdı. Yeni çar sadə adamların müraciətinə məhəl qoymur, qara camaatın məsələlərinə baxmırdı. Əhalinin narazılığı durmadan artırdı.

Mülkədarlar qaçqın kəndlilərlə qəti mübarizə aparmağı və onları tam və daimi olaraq torpağa təhkim etməyi hökumətdən tələb edirdilər. Kəndlilər bunun əksinə olaraq daha çox azadlıq, ağalarının yanından ayrılmaq hüququ tələb edərək bir çox hallarda hakimiyyətə silaha sarılaraq müqavimət göstərirdilər. Posad adamları vergilərin artmasına qarşı, tacirlər Rusiya bazarlarında ingilis, hollandiyalı ticarət adamlarına dövlətin müəyyən etdiyi güzəştlərə etiraz edirdilər.

Sosial gərginliyin artması Morozovun başçılıq etdiyi hökumətin bəzi islahatlar keçirməsinə səbəb oldu. Bu əsasən xalqın hesabına feodal, xidmət adamları və məmurların mənafeyinə görülən tədbirlərdən ibarət oldu. Mülkədarların mənafeyinə uyğun bütün kəndlilərin siyahıya alınmasına başlandı ki, mülkədarlar torpağa görə deyil, kəndli həyətlərinin sayına nisbətən vergi versin. Bu isə kəndlilərin daha möhkəm torpağa təhkim olunması idi. Bir çox vergi azaldıldı, bir hissəsi ləğv olundu, əvəzində isə xəzinəni doldurmaq üçün böyük tələbat hiss edilən məhsullara yeni vergi müəyyən edildi. İlk növbədə duza artırılmış vergi müəyyən olundu ki, bu da duzun qiymətinin sürətlə artmasına şərait yaratdı.

Gərginlik durmadan artır, adamlar kütləvi toplaşaraq narazılıqlarını bildirirdilər. Nəticədə hökumət əlavə duz vergisini ləğv edərək, köhnə ikiillik vergiləri tələb etdi. Uğursuz vergi islahatı xalqın səbir kasasını dolduran son damlalar oldu. 1648-ci ilin iyununda xalqın narazılığı son həddə çatmışdı. Çar Troitsa-Sergiyev kilsəsindən ibadətdən qayıdarkən onu qarşılayan kütlə onun ətrafında olan adamların günah əməllərinə dair qramotanı çara təqdim etmək istəsələr də, hökmdar onu qəbul etmədi. Mühafizə dəstələri zor tətbiq edərək kütləni dağıtdı, başçılarını isə tutdular. Ertəsi gün Kremldə xaç yürüşü zamanı daha çox insan kütləvi halda çara yaxınlaşaraq Morozovun yaxın adamları, Zemstvo prikazının rəisi L.S.Pleşyev, topçuluq prikazının rəisi P.T.Traxaniotov və dyak N.İ.Çistıdan şikayət edərək onların istefasını tələb

etdilər. Boyarlar çılğın və narazı kütləni qovmağa çalışsa da, artıq üstünlük xalqın tərəfində idi. Çarın ardınca minlərlə adam Kremlə daxil olaraq narazı qaldıqları boyar və mülkədarları onlara verməyi tələb etdilər. Çar əlində xaç kütlənin qarşısına çıxaraq onları sakitləşməyə, məsələni isə araşdırmağa söz verdi. Lakin artıq heç kim çarı eşitmirdi və şəhərdə qiyam başladı. Xalqın nifrət etdiyi boyar və dyakların sarayları dağıdılıb qarət olundu. Çar bir-birinin ardınca öz köməkçilərini xalqın parçalamasına verməyə məcbur oldu. Pleşyevi Qızıl meydanda edam etdilər, Traxaniotov və Çistını də tapdıqları yerdə parçalayan kütlə çar Alekseyin göz yaşı içində öz sevimlisi Morozova əfv xahiş etməsindən sonra sakitləşməyə başladı.

«Duz» qiyamı adı ilə tarix olan əhalinin çıxışından sonra çar Aleksey çox məsələləri müstəqil həll edərək hökumətdə dəyişikliklər etdi. Mülkədarlara öldürülmüş və gözdən düşmüş boyarların hesabına çoxlu torpaq paylandı, ölkədəki vergi əlavələri ləğv edildi. Bütün bunlar dövlətdə vəziyyəti nisbətən sakitləşdirdi.

«Duz» qiyamından yarım ay sonra Moskvada zadəgan, tacirlər və posad adamının tələbilə Zemstvo məclisi toplandı. Cənub və şimal rus şəhərlərində həyəcanlar davam edirdi. Sibirdə də vəziyyət gərgin olaraq qalırdı. Bir qədər sonra, 1650-ci ildə Pskov və Novqorodu üsyan bürüdü. Bu şəraitdə Məclis XVI əsrdəki köhnəlmiş «Qanunnamə»nin, «Qarışıqlıq» və ondan sonrakı dövrün bir-birinə zidd olan qanun və fərmanlarının yerinə yeni qanunlar külliyatı hazırlamağı nəzərdə tuturdu. Məclisdə təhkimli kəndlilərdən başqa Rusiyanın təmsil olunan bütün təbəqələri yeni qanunlar külliyyatında öz mənafeyinin təmsil olunmasına çalışırdı. Öz növbəsində çar və yeni hökumət böhrandan yalnız əvvəlki qanunsuzluqları ləğv etmək, əhalinin bəzi təbəqələrinə güzəştlər müəyyən etmək hesabına çıxmağı deyil, hər şeydən əvvəl çar hakimiyyətini möhkəmlətmək, cəmiyyətin üst təbəqəsinin birliyini təmin etmək üçün çıxmağı nəzərdə tuturdu. Bu yol Rusiya dövlətinin XVII əsrin ikinci yarısında seçdiyi məqsəd idi. 25 fəsildən ibarət olan yeni qanunlar toplusu qısa bir vaxtda – iki ay yarıma hazırlanmışdı. 1649-cu ilin yanvarında Zemstvo məclisinin qəbul etdiyi və 200 ildən çox fəaliyyət göstərən yeni qanunlar külliyyatı Rusiya həyatının inkişafını müəyyən etmişdir.

Külliyyatın əsas mərkəzi bölməsi 287, quldurluq və soyğunçuluğa, Rusiyanın məhkəmə işləri sisteminə dair bölmə isə 104 maddədən ibarətdir. Bu bölmələr şəxsiyyəti, xüsusi mülkiyyəti, Rusiya əhalisinin hüquqlarını müdafiə edirdi. Ölümə, soyğunçuluğa, quldurluğa, yanğına, başqasının əmlakını qəsbə, şərəfsizlik, dava-dalaşa, şəxsiyyətin təhqir edilməsinə görə sərt cəzalar nəzərdə tutulmuşdu. Saxta sikkə zərb edənlər, möhür basanlar ölüm cəzası alırdı.

Ölkədə qayda-qanun yaratmaq məqsədilə insan həyatını, mülkiyyətini, şərəfini qoruyan ümummədəni maddələrlə yanaşı Külliyyatda çar hakimiyyətinin daha da möhkəmlənməsi üçün tədbirlər sistemi müəyyən olunmuşdur. Külliyyatın «Padşahın şərəfi və onu necə qorumalı» adlı ikinci fəslində Rusiya dövlətini ələ keçirmək niyyəti olanlar və onların tərəfinə keçən xainlər ölüm cəzası alırdı. Hökmdara qarşı qəsd etmək niyyətində olanlar, buna dair məlumatı olub xəbər verməyənlər ağır ölüm cəzası ilə damğalanırdı. Cəmiyyətin daimi əsasını qorumaq məqsədilə Külliyyatda Tanrını təhqir edənlər üçün də edam edilərək yandırılmaq cəzası müəyyən olunmuşdu.

Qanunlar Külliyyatında mülkədarlara qaçqın kəndliləri arvad uşağı ilə birlikdə müddətsiz olaraq axtarıb tapmağa və yeni yazı kitabına salmağa icazə verilmişdir. Artıq indi tapılan qaçqın kəndlilər köhnə sahiblərinin yanına göndərilirdi. Təhkimçilik hüququ təkcə kəndi deyil, şəhərləri də əhatə etməyə başlamışdı.

Beləliklə, 1649-cu il Qanunnaməsi ölkənin iqtisadi inkişafını, sosial münasibətləri, mədəni, ailə əlaqələrini cəmiyyətin sabitliyi üçün əks etdirməklə yanaşı, feodal cəmiyyətinin qalığı olan təhkimçilik münasibətlərini saxlayıb möhkəmləndirərək, şəxsiyyət üzərindəki zorakılıq vasitəsini də özündə əks etdirmişdir. Bir çox cəza növü – adamların yandırılması, qamçı ilə döymək, işgəncələrin tətbiqi, bir çox cinayət əməli üçün ölüm hökmü əslində köhnə feodal cəmiyyətinin qalıqları idi.

XVII əsrin ikinci yarısında kənd təsərrüfatı və sənaye istehsalı xüsusiləşərək ayrılmağa başladı. Mərkəzi və şimal rayonları çovdar və yulaf, cənub taxıl məhsulları üzrə ixtisaslaşmışdı. Orta Volqa və Oka çayları boyu maldarlıq, Xəzər dənizinə doğru aşağı Volqada balıqçılıq inkişaf etmişdi. Ural ətrafından duz, cənubdan bahalı qırmızı balıq, kürü və s. gəlirdi. Bu bazar münasibətlərinin yaranmasına, ölkənin rayonları arasında ticarət əlaqələrinin, ümumrusiya bazarının meydana gəlməsinə təkan verdi. Rusiyada sənayenin əsas təmsilçiləri kənd və şəhər sənətkarları idi. XVII əsrin ikinci yarısından yeni torpaqların mənimsənilməsi, kənd və şəhərlərin meydana gəlməsi, əhalinin artması sənaye mallarına tələbatın yaranmasına, bu isə sənətkarların formalaşmasına kömək etmişdir.

Rusiyanın bir çox mərkəzində Qərbdəki manifakturlara bənzəyən müəssisələr yarandı. Moskvadan cənuba doğru, xüsusilə Tula rayonunda bataqlıq filizinin emalı ilə metal məhsullarının istehsalı başlamışdı. Dəmir və metal məmulatları ölkənin başqa yerlərinə satılırdı. Onlarla dövlət manufakturası çar sarayına, orduya xidmət edirdi. Ticarət müəssisələri Moskva ilə yanaşı, Voloqda, Xolmoqor, Arxangelsk, Tula və başqa şəhərlərdə, o cümlədən Uralda da meydana gəlmişdir.

Rusiyada təhkimçilik hüququ azad işçi qüvvəsinin olmamasına, inkişaf etmiş sənaye ölkələri ilə əlaqənin zəif olması istehsal-texniki təcrübənin çatışmamasına, əhalinin maddi durumunun və alıcılıq qabiliyyətinin aşağı olması sənayenin ləng irəliləməsinə səbəb olmuşdur.

Ölkə iqtisadiyyatının ixtisaslaşaraq canlanması, Rusiyada hər yerdə – böyük şəhərlərdə, şəhərətrafı qəsəbələrdə, kəndlərdə çoxsaylı alış-veriş mərkəzlərinin yaranmasına təkan vermişdir. Topdan satış bazarları yarandı ki, buradan da məhsulu alıb pərakəndə qiymətə satmaq olardı. İxtisaslaşmış bazarlarda ayrılıqda böyük partiyalarla taxıl, metal, duz, dəri və xəz almaq olardı.

Ticarət əlaqələrinin mərkəzi cənubdan taxıl, şimaldan duz, aşağı Volqadan balıq, Sibirdən xəz gətirilən Moskva idi. Nijni Novqorod Rusiyanın cənubu ilə şimalı, şərqlə mərkəzi rayonlar arasında məhsul mübadiləsi vasitəçisi idi. Həştərxan vasitəsilə cənub ölkələri ilə, Arxangelsk limanı ilə şimali Avropa və İngiltərə ilə ticarət əlaqəsi mövcud olmuşdur. XVII əsrin ikinci yarısında Rusiyada iri ticarət başçıları olan Vasili Şorinin, Stroqanov, Demidov qardaşlarının adları səs salmışdır. Onlar duz, xəz, balıq, dəmir emalı kimi istehsal sahələrini öz əllərində cəmləmişdilər. Volqa, Oka, Kamada üzən böyük gəmilər onlara məxsus olmuşdur. Ticarət münasibətlərinin inkişafında şəhər sənətkarları, posad adamları, kəndlilər içərisindən çıxan orta və kiçik tacirlər də iştirak edirdi. XVII əsrin 50-ci illərinin ortalarından ölkənin ayrı-ayrı rayonları arasındakı çoxsaylı kiçik gömrük vergilərinin ləğv edilərək bütün ölkə üzrə vahid məhsul ticarət vergisinin beş faiz miqdarında müəyyən edilməsi ticarət, bazar münasibətlərinin inkişafına müsbət təsir göstərmişdir.

### §4. Ukraynanın Rusiyaya birləşdirilməsi

1569-cu ildə imzalanan Lyublin uniyası Polşa krallığı, Litva Böyük knyazlığı və Şərqi Prussiya hersoqluğundan ibarət vahid Reç-Pospolita (respublika) dövlətini yaratdı. Rusiya torpaqları, o cümlədən Neman çayının şərqində olan ərazilər qədim Qrodno və Novqorod şəhərləri ilə birlikdə Qara Rus, Minsk, Vitebsk, Polotsk, və Smolenskin bir hissəsini əhatə edən Ağ Rus, Litvanın tərkibində, Çervonnaya Rus (Qalitsiya) və Dnestr çayı ilə Dneprin şərq axarları arasındakı əraziləri birləşdirən Kiçik Rus (Malorossiya) Varşavanın tərkibində Reç-Pospolita dövlətinin ərazisinə daxil edilmişdir.

Kiçik Rusiya termini birinci dəfə XIV yüzillikdə Qalitsiyanın sonuncu knyazı II Yurinin sənədlərində işlədilmişdir. Çox güman ki, bu «Qədim Rus»

ideyasının «böyük», genişlənib artmaqda olan Rusa müqabil işlənmişdir. Polşa ilə münasibətlərdə cənub Rusiya torpaqları xüsusi yer tutur. Ukrayna («Okraina») sərhədətrafı ərazilər olub Polşa dövlətinin daxili hissələrilə Krım tatar-türklərinin işğal etdiyi çöllük yerlərin arasında yerləşirdi. 1187-ci ildə Pereyaslav knyazının ölümündən bəhs edən salnaməçi qeyd etmişdir ki, «onu bütün Ukrayna ağlayırdı». Bu zaman Pereyaslav ərazisi Qədim Rusiya dövlətinin sərhədində yerləşmişdi. XV-XVII yüzilliklərdə «Ukrayna» sözü Moskvanın Ryazan, Tula və Don torpaqlarının siyahıyaalınmasında istifadə olunmuşdur.

XVI yüzilliyin ortalarında Rus-Litva dövlətinin cənub-şərq sərhədyanı ərazilərində 50 min nəfərdən çox olmayan əhali yaşayırdı. 60-cı illərdən başlayaraq əhali artmağa başladı və Ukrayna belə yarandı. XVI yüzilliyin ikinci yarısında Ukraynanın əhalisinin artmasının səbələrindən biri Dnepr və Podoliya vadisindən Krım tatarları və türklərin basqınları nəticəsində çoxsaylı əhalinin Böyük Litva knyazlığının qonşu əyalətlərinə köçməsi olmuşdur. Bunun sayəsində təkcə Volında 300 min nəfərə kimi əhali yaşayırdı. Volın knyazlığından kənarda Dnepr torpaqlarında ağalarından, hakimiyyətdən narazı qaçqın adamlar, kazaklar bu yerləri Krım tatarları və tüklərin basqınlarından qoruyurdular. Bu yerlərə qaçan kəndlilər də kazak olurdular ki, onlar da Ukrayna kazaklarının «özü-özündən» yaranmasına gətirib çıxarmışdır.

XVI yüzillikdə yaranan «kazak» (Ukrayna dilində «kozak») sözü Bartolda görə Kiçik Rusiya və polyak variantlı termin kimi türk dilində «kazak», yəni «quldur», «sakitliyi pozan», «macəra axtaran» deməkdir. Beləliklə, bu söz insanın milliyətini deyil, davranış xüsusiyyətini, fəaliyyətini əks etdirir. «Kazak» sözü XV əsrdə rus dilinə daxil olmuşdur. Ryazan torpaqlarının cənub sərhədlərini «Ryazan kazakları» qoruyurdu. III İvan zamanı sərhəd kazak qəsəbələri Moskva dövlətində daimi instituta çevrilmişdir. Cənub sərhədlərini qoruyan Ryazan kazakları ilə yanaşı, Litva ilə sərhədi qoruyan Toropets şəhəri sərhəd kazakları III Vasili dövründəki ələ keçirilmiş Şimal torpaqlarını qoruyan Putivl, Rılsk, Novqorod-Seversk və Starodub sərhəd kazakları meydana gəlmişdir. 1504-cü ilə dair sənədlərdə Moskvanınn sərhəd rayonlarında təkcə «şəhər kazakları»ndan deyil, «kənd», hətta «qəsəbə» kazaklarından bəhs olunmuşdur.

XVI əsrin sonlarında Dnepr kazakları torpağa sahib olaraq öz rəislərinin başçılığı ilə oturaq həyat şəraitində silahlı dəstələr təşkil edərək sərhədi qoruyurdular. Onlar əkinçilik, balıqçılıq, ovçuluqla məşğul olur, ovladıqları qunduz və başqa xəzli heyvanların ticarətini edirdilər. Bratslavl və Vinnitsedə arıçılıq geniş yayılmışdır. Ukrayna kazakları Krımdan Polşaya və geriyə hərəkət edən Genuya, Türkiyədən gələn yəhudi və erməni tacir karvanlarına

qoruyuculuq edirdilər. Hökumətlə əlaqəni yalnız Rus-Litva dvoryanlarından təyin edilən rəislərlə saxlayırdılar.

Ukrayna kazaklarının 1648-ci il üsyanı Polşa tarixinin ağır və çətin dövrünü əhatə edən «Sel» («Потоп») mərhələsinin əsasını qoymuşdur. 19 il (1648-1667) davam edən bu illər polyak və rusların Şərqi Avropa düzənliyinin çay dünyası üzərindəki mübarizənin ikinci mərhələsidir. 1603-1613-cü illəri əhatə edən birinci mərhələdə Polşa Rusiyadakı «Qarışıqlıq dövrü»ndən istifadə edərək Moskvanı tabe etmək məqsədi güdürdü. İkinci mərhələdə isə Rusiya dövlətinin uzaqgörən çarı Aleksey Mixailoviç Romanov tarixi proseslərin gedişini polyak krallarından daha düzgün qiymətləndirərək Moskvanın Polşa üzərində üstünlüyünü təmin etmişdir.

1648-ci il mayın 20-də Polşa kralı IV Vladislavın vəfat etməsi ölkədə vəziyyətin və sosial münasibətlərin kəskinləşməsinə səbəb oldu. Maqnat nə şlyaxta qruplarının taxt-tac namizədi seçmək uğrundakı mübarizəsi milli azadlıq hərəkatının başlanması və Reç-Pospolita hakimiyyətinin devrilməsi üçün əlverişli şəraiti təmin etdi.

Ukrayna xalqının 1648-1654-cü illəri əhatə edən milli azadlıq mübarizəsinin başında Boqdan-Zinoviy Xmelnitski dururdu. 1595-ci ildə kiçik şlyaxtaçı Mixail Xmelnitskinin ailəsində doğulan Boqdan əla təhsil almış, latın, polyak və türk dillərinə sahib olmuşdur. 1620-ci ildə Setsorda türklərlə döyüşdə atası ilə birlikdə iştirak etmiş Mixail Xmelnitski həlak olmuş, oğlu Boqdan isə türklərə əsir düşmüşdür. Türkiyə əsirliyindən qayıtdıqdan sonra kazak reyestr qoşununda qulluq edərək yüksək vəzifə tutmuşdur. 1647-ci ilin payızında kazak starşinası Roman Peştının donosu əsasında Boqdan Xmelnitski həbs edilmiş, dostlarının köməyi ilə həbsdən azad olaraq, aşağı Dneprə qaçmışdır. 1648-ci ilin yanvarında Xmelnitski kiçik bir üsyançı dəstə ilə Zaporojye Seçin tutaraq oradakı polyak qarnizonunu dağıtmışdır. Reyestr kazakalrı üsyançılar tərəfinə keçərək Boqdan Xmelnitskini getman seçmişdir. Əsl getman Nikolay Pototski 1648-ci il fevralın 20-də verdiyi universalda üsyançıları silahı yerə qoyub Xmelnitskini təhvil verməyə çağırmışdır. 1648-ci ilin aprelində getman N.Pototskinin ordusu üsyanın mərkəzi Zaporojye Seçinə doğru hərəkət etdi. Quru yolla hərəkət edən polyak ordusu 1648-ci mayın 6-da Sarı Çayda (Жёлтые Воды) mühasirəyə düşərək darmadağın oldu. Məğlubiyyətdən xəbər alan getman Pototski Korsuna çəkilərək İeremi Vişnevetskinin dəstəsinin gəlməsini gözlədi. Lakin Xmelnitskini düşmənin birləşməsinə yol verməyərək 1648-ci il mayın 16-da getmanın qoşununu qırdı, getman Pototski və köməkçisi Kalinovski əsir alındı. Artıq 1648-ci ilin sentyabrına doğru Xmelnitskinin qoşununda 70 min nəfərə kimi döyüşçü var idi.

1648-ci ilin yayına doğru üsyan bütün Dneprboyu, Podoliyanı, Volın və Qaliçin böyük hissəsini əhatə edən ümumxalq hərəkatına çevrildi. Katolik polyakların yerli pravoslav xalqa etdiyi zülm xalq çıxışlarının dini mahiyyətini önə çəkmişdir. 1648-ci ilin payızında Polşa hökuməti 40 minlik ordu, o cümlədən 8 min alman muzdlu əsgəri yığaraq üsyançılara qarşı göndərdi. 1648-ci sentyabrın 12-14 arasında Pilyavts altındakı döyüşdə üsyançılar polyak qoşununu əzərək 80 top, çox sayda qılınc, qalxan, bayraq ələ keçirdilər. Polyak komandanlığı başda knyaz olmaqla döyüş meydanından biabırcasına qaçdı. Sentyabrın 26-28-də üsyançı dəstələr Lvovu mühasirə etdi. Noyabrın 7-də Seym IV Vladislavın qardaşı Yan-Kazimiri kral seçdi. Yeni polyak rəhbərliyi Xmelnitski ilə danışıqlara hazır olduğunu bildirdi. Pilyavts qələbəsindən sonra Varşavaya yolun açıq olmasına baxmayaraq kazak muxtariyyatı ideyasının tərəfdarı olan Boqdan Xmelnitski 1648-ci noyabrın 14-də ordusunu Ukraynaya doğru yönəltdi. Kiyevə daxil olan getmanı xalq sadə kazak lideri kimi deyil, böyük xalq rəhbəri kimi qarşıladı. Artıq müharibənin birinci ilində Zaporojye, Kiyev, Podolye (Kamentsdən başqa), Dneprin o biri tərəfi, Bratslava daxil olmaqla 300 min kvadratkilometr ərazi polyak ordusundan təmizlənmişdi. Üsyan Volın və Qalıtsyanı əhatə etmiş, Ukrayna ordusu Polşa torpaqlarının özünə, Moldoviya və Transilvaniyanın sərhədlərinə çatmışdı.

1649-cu ilin əvvəlində Ukrayna getmanının siyasi hərakat proqramında qəti olaraq iki vəzifə nəzərdə tutulmuşdu: Reç-Pospolitanın hakimiyyətindən azad olmaq və öz dövlətçiliyini yaratmaq. Rusiya ilə ittifaq bu proqramın vacib tərkib hissəsi idi.

1649-cu ilin iyunun sonunda B.Xmelnitski Krım xanı İslam Gərayın ordusu ilə birlikdə Zbaraj qalası uğrunda İ.Vişnevetskinin başçılığı ilə polyak qoşunu ilə döyüşə başladı. Qalada mühasirəyə düşən polyak ordusuna kömək etmək üçün Polşa kralı 30 minlik ordu ilə yürüşə çıxdı. Kralı qarşılamaq məqsədilə getman Krım qoşunu ilə yola çıxdı. Avqustun 5-də Strip çayın keçmək istəyən polyaklara Ukrayna ordusu ağır zərbə vurdu. Döyüşün gərgin vaxtında Krım tatarları xəyanət edərək çoxlu qızıl müqabilində döyüş meydanını tərk etdilər və Xmelnitskidən düşmənlə barışıq imzalamağı tələb etdilər. 1649-cu il avqustun 18-də Zborov sülh müqaviləsi imzalandı. Sülhün şərtlərinə əsasən, Zaporojye Qoşunu müstəqilliyini saxlayır, reyestr kazakları 40 min nəfər müəyyən olunur, üsyan iştirakçıları əfv edilir, pravoslav və həm də katolik şlyaxtasının bütün hüquqları bərpa olunurdu və s. 1650-ci il yanvarın 12-də Seym Zborov müqaviləsini təsdiq etdi.

Ukrayna xalqının milli-azadlıq müharibəsi feodal quruluşunu ləğv etmədi, ancaq onun formasını dəyişdi. Polyak-şlyaxta katolik feodal üst təbəqəsinin

yerini kazak rəisləri və pravoslav şlyaxtası tutdu ki, onlar da ölkədə Polşa nümunəsində nizam-intizamı təmin etmək istəyirdilər. Bu isə özünü getman hökumətinin praktik fəaliyyətində tam təsdiq etdi. Boqdan Xmelnitski özü feodal ideologiyasının ifadəçisi oldu. Hərbi birliklərdən Ukrayna dövlətçiliyi yarandı ki, ali başçılar hakim təbəqəyə çevrildi, hərbi rəislər isə dövlətin rəhbərləri oldu. Kazak rəisləri Zaporojye Qoşununun və ya Ukrayna getmanlığının suveren dövlət kimi təsdiq olunmasına cəhd etməyərək yalnız Polşa, sonra isə Rusiya tərkibində muxtariyyətlə razılaşdılar.

1651-ci ilin əvvəllərində polyak ordusu Kalinovskinin komandanlığı altında hərbi hücum əməliyyatına başlayaraq Vinnitse altında İvan Boqunun kazak dəstələrini məğlub etdi. 1651-ci il iyunun 28-də 150 minlik polyak qoşunu Volın ərazisindəki Beresteçkada Xmelnitski və Krım xanı İslam Gərayın eyni sayda qoşunu ilə qarşılaşdı. İkigünlük döyüşdən sonra tatarlar savaş meydanını tərk edərkən onları dilə tutmağa cəhd edən Xmelnitskini də özləri ilə apardılar. Getmansız qalan kazaklar müdafiə döyüşlərinə keçərək iyulun 10-da gecə bataqlıqdan keçərək mühasirəni yarmağa çalışdılar. Düşmən kazakların düşərgəsini dağıtsa da, İ.Boqun əsas kazak qüvvəsini xilas etməyi bacardı. 20 minlik Litva qoşunu başda Yanuş Radzvill olmaqla iyulun 25-də Kiyevi alıb əhaliyə divan tutdu. Qısa zamanda yeni qoşun toplayan Boqdan Xmelnitski polyakların ordusunu Ağ Kilsə (Белая Церковь) rayonunda dağıtdı.

1651-ci il sentyabrın 18-də B.Xmelnitski Zborov müqaviləsini ləğv edən Ağ Kilsə sülh müqaviləsini imzalamağa məcbur oldu. Yeni müqaviləyə əsasən, yalnız Kiyev voyevodalığı xüsusi idarəetmə hüququ aldı. Kazak reyestrlərinin sayı iki dəfə azalaraq 20 min nəfər müəyyən olundu ki, onlar da yalnız Kiyev voyevodalığının ərazisində yaşaya bilərdilər. Ukraynada yenidən polyak ordusu yerləşdi. Bütün bunlar Ukrayna əhalisinin narazılığına, ayrı-ayrı üsyanlara səbəb oldu. Kazaklar da müqvailəyə öz qəti etirazlarını bildirdilər. Polşa Seymi də müqaviləni təsdiq etməkdən imtina etdi.

1652-ci ilin martında sərhəddə hərbi əməliyyatlar başladı. 1652-ci il iyunun 1-də Batoqo altındakı döyüşdə tatar süvariləri və B.Xmelnitskinin qoşunu getman Kalinovskinin polyak ordusunu darmadağın etdi. Kalinovski və başqa qoşun rəisləri öldürüldü. Bundan sonra Ukraynada üsyan yenidən alovlandı. Volın, Bratislava, Podoliyanın bir hissəsi Polşa ordusundan azad olundu. Lakin hadisələrin gedişi göstərdi ki, Ukrayna təkbaşına Polşanın asılılığından azad olmağa hazır deyil. Bunun üçün ölkənin lazım olan hərbi-iqtisadi potensialı yox idi. Əhali sonu görünməyən müharibənin ağırlığından yorulmuşdu. Ölkənin təsərrüfatı demək olar ki, dağılmışdı. Xüsusilə 100-dən çox dağıdılmış

şəhər və qəsəbəsi olan sağsahil Ukraynası daha çox dağıntıya məruz qalmışdı. Ölkənin ümuməhali itkisi 35-40% olmuşdur. Bunun nəticəsində kazak ordusunun sayı 1648-1649-cu ildəki 140-150 min nəfərə qarşı 1653-cü ilə yalnız 50-60 min nəfər təşkil etmişdir.

Bu şəraitdə getman hakimiyyəti Moskva və İstanbulla münasibətləri fəallaşdırdı. Yalnız 1652-ci ildə Boqdan Xmelnitski üç dəfə çara müraciət etmiş, iki dəfə səfirlik göndərmişdi. 1653-cü ilin martında getman Moskvaya səfirlik göndərərək Zaporojye Qoşunu ilə Rusiya dövləti arasında razılıq imzalanmasını tezləşdirməyi xahiş etmişdir. Eyni zamanda başqa bir kazak nümayəndəliyi İstanbula göndərilərək sultan IV Mehmetdən Ukraynanı Türkiyənin hamiliyi altına almağı xahiş etmişdir. Moskva və İstanbulla yanaşı, Boqdan Xmelnitski Varşavaya səfirlik göndərərək Polşa ilə danışıqlar aparıb Zborov sülhünün şərtlərini bərpa etmək niyyətində idi.

Lakin «Ukrayna məsələsi»ni zor gücünə həll etmək məqsədilə Reç-Pospolita hökuməti Moldaviya, Valaxiya və Transilvaniya ilə hərbi-siyasi ittifaqı gücləndirdi. 1653-cü il oktyabrın 22-də kral Yan-Kazimir 50 minlik ordu ilə Ukraynaya hücum etdi. Jvantse altında Xmelnitskinin qoşunu polyak ordusunu mühasirəyə alıb uzun müddət ərzində aclıq və fəlakətə düçar etdi. Yalnız Krım xanı İslam Gərayın polyaklarla seperat sülh bağlaması və çox miqdarda ödənc alaraq geri dönməsi Polşa ordusunu ağır məğlubiyyətdən xilas etdi. Getmanın isə ümidi yalnız Moskva çarına qalmışdı.

1653-cü ilin mayın 25-də Moskvada açılan Zemstvo Məclisində Ukrayna məsələsi müzakirə olundu. Məclisdə iştirak edən bütün təbəqələrin nümayəndələri Zaporojye Qoşununun Rusiyanın tərkibinə qəbul etməyə yekdil razılıq bildirdilər. Zemstvo məclisinin qərarını yerinə yetirmək məqsədilə Rusiya hökuməti Ukraynaya boyar Vasili Buturlin başda olmaqla böyük səlahiyyətləri olan səfirlik göndərdi. 1653-cü ilin oktyabr-dekabr aylarında səfirlik Putivl şəhərində Jvanetsk kampaniyasının bitməsini gözlədi. Təntənəli təbəəlik tədbirinin Kiyevdə deyil, daha möhkəm və etibarlı qorunan Pereyaslav şəhərində keçirilməsi qərara alındı. 1654-cü il dekabrın 31-də Rusiya səfirliyinin nümayəndələri, yanvarın 6-da isə Boqdan Xmelnitski Peryaslava gəldilər. Yanvarın 8-də, gündüz saat 3-də Uspensk kilsəsi meydanında toplanan radanın qarşısında çıxış edən Boqdan Xmelnitski pravoslav böyük Rusiya dövlətinin tərkibinə daxil olmağın əhəmiyyətini, qonşu başqa dinlərə xidmət edən dövlətlərin münasibətini, uzun mübarizənin çətinliklərini dilə gətirdi. Sonra getman, Rusiya səfiri və onları müşayiət edənlər Uspensk kilsəsində andiçmə mərasimində iştirak etdilər. Kilsədəki and içmədən sonra Vasili Buturlin rus hökuməti adından getman hakimiyyətinin atributları olan bayraq, sancaq, ferz və şap-

kanı Boqdan Xmelnitskiyə təqdim etdi. Rəislərə hədiyyələr paylandı. Yanvarın 9-da Uspenski kilsəsində ölkənin təbəqələrini təmsil edən 284 nəfər Pereyaslavl Radasının üzvü and içdi. Yalnız bundan sonra V.Brturlin Ukraynanın Rusiyanın tərkibinə daxil olması şərtlərinin müzakirəsinə başladı. Yanvarın 13-də Çiqirinə yola düşən Boqdan Xmelnitski ertəsi gün Zaporojye Qoşununun 177 şəhər və yerinin adını əhalinin and içməsi üçün Rusiya səfirliyinə göndərdi. And içərək Rusiya dövlətinin tərkibinə daxil olmağa razılığını bildirən getmanlığın əhalisi 40 faizdən çox idi ki, bu da öz miqyasına görə hətta Avropa üçün belə yüksək göstərici sayılırdı. Ümumən, 127338 nəfər, o cümlədən 62949 kazak, 62454 meşşan, 188 şlyaxtaçı və 37 kilsə xidmətçisi təəbəliyə and içərək razılıq vermişdi. Kəndlilər feodal asılılığında olan əhali kimi andiçmə kampaniyasında iştirak etməmişdi.

Zaporojye Qoşununun Rusiya dövlətinin tərkibinə daxil olmasına dair Pereyaslav razılaşmasını hüquqi cəhətdən təsdiq etmək məqsədilə 61 nəfərdən ibarət Ukrayna səfirliyi baş hakim S.Boqdanoviç-Zarudnı və Pereyaslav polkovniki P.Teterinin rəhbərliyi ilə Moskvaya yola düşdü. Səfirliklə yanaşı, ruhani və meşşanların da nümayəndələri səfərdə iştirak edirdi. 1654-cü ilin martın 14-də səfirlik getman və bütün Zaporojye Qoşunu adından 23 maddədən ibarət təklifi Rusiya tərəfinə təqdim etdi. «Mart maddələri» və ya «Boqdan Xmelnitski maddələri» adlanan bu sənədin orijinal nüsxəsi mövcud deyildir. Zemstvo Məclisi və Peryaslav radasının qəbul etdiyi qərarlara tərəflərin müxtəlif hüququ statusu nöqteyi-nəzərdən baxmaq lazımdır. Moskva çarlığı bu zaman müstəqil dövlət olmuşdur. Zaporojye Qoşunu isə hüququ cəhətdən Reç-Pospolitanın bir hissəsi olaraq legitim dövlət deyildi. Odur ki, getmanlığın Rusiyanın tərkibinə daxil olması ikitərəfli müqavilə əsasında deyil, padşahın öz təəbələrinə bağışlamaq aktı kimi qiymətləndirilir.

Hüququ cəhətdən müxtəlif səpgilərdə izah edilməsinə baxmayaraq, «Mart maddələri» Ukraynada özünüidarə və getman hakimiyyətini saxlamışdır. Yerli məhkəmələr fəaliyyət göstərirdi. Dövlət xəzinəsinə rüsum ödənmirdi. Reyestr (xidmətdə olub məvacib alan) kazaklarının sayı 60 min nəfər müəyyən edilmişdi. Ukrayna hətta xarici siyasət müstəqilliyini saxlamışdı, Polşa və Türkiyədən başqa bütün dövlətlərlə əlaqə saxlaya bilərdi. Düzdür, tədricən müstəqilliyini məhdudlaşdıraraq Rusiya dövləti Ukraynanı Rusiyanın bir hissəsinə çevirmişdi. II Yekaterinanın dövründə isə getmanlıq və Zaporojye Seçi ləğv edilmişdir.

### §5. 1660-1670-ci illərdəki xalq həyəcanları

XVII əsrin 60-cı illərinin əvvəllərində Aleksey Mixailoviçin hökuməti pul islahatı keçirərək əvvəlki gümüş pulların nominal dəyərində mis sikkələr buraxdı. Dövriyyədə mis və gümüş rubllar meydana çıxdı. Misin gümüşdən ucuz olması səbəbilə hökumət vergi və gömrük rüsumunu gümüş sikkələrlə tələb etməyə başladı. Mis pullar sürətlə dəyərdən düşdü. 1662-ci il iyulun 25-də Moskvada «mis qiyamı» başladı. Minlərlə moskvalı, o cümlədən posad adamı, kiçik ticarətçilər, streletslər, muzdlu işçilər, əsasən yoxsullar meydana toplaşaraq çarın qayınatası İ.D.Miloslavski, varlı tacir V.Şorin və başqa boyarların mis pulların buraxılmasının əsas günahkarları olduğunu qeyd etdilər. Böyük bir qrup çarın yay iqamətgahı olan Kolomensk kəndinə gedərək hökmdara narazılıqlarını dilə gətirdilər. Şəhərdə əzəmətli xalq üsyanı başladı. Xalq varlı tacirlərin evlərini dağıtdı, onların bir çoxu şəhərdən qaçdı. Minlərlə moskvalı yenidən Kolomensk kəndinə yola düşdü. Onlar xainlərin verilməsini tələb etdilər. Çarın sadiq qoşununun kəndə yaxınlaşmasından xəbər tutan Aleksey Mixayloviç kütləni dağılmağa çağırdı. Bu baş tutmadıqda üsyançılara güc tətbiq etməyi əmr etdi. Strelets qoşunu kütləni Moskva çayına sıxışdıraraq çoxlarını suda batırdı. Bütün şəhərdə üsyançı ovu başladı, adamları zindana salaraq sərt orta əsr işgəncələrinə məruz qoydular. Qiyam iştirakçılarını parçalayıb asmağa başladılar. Üsyançılara divan tutulması göstərdi ki, çar və Rusiyanı idarə edən yüksək mənsəb sahibləri hakimiyyəti əllərində möhkəm saxlamışdır, ölkədə bərqərar olan dövlət sistemi isə mövcud nizam-intizamı qorumaq iqtidarındadır.

XVII əsrin 60-cı illərinin sonu-70-ci illərin əvvəllərində Don kazakı Stepan Timofeeviç Razinin (təqribən 1630-1671) başçılığı altında Rusiyada baş verən kazak-kəndli üsyanı qüdrətinə və geniş əhatə miqyasına görə xalq hərəkatı içərisində xüsusi yer tutur. XVI əsrdə azad yer olan Donda kazak qəsəbələri meydana gəlmişdir. Burada onlar xüsusi təsərrüfatlarını yaradaraq dinc vaxtı əkinçilik və heyvandarlıqla məşğul olurdular. Təhlükəli zamanlarda kazaklar atlarını yəhərləyərək silahlanıb sürətli qayıqlara yüngül top qoyub uzun səfərlərə çıxırdılar. Onlar qənimət, «zipun» (kaftanlıq) əldə etmək məqsədilə Krım xanlığına, Türkiyəyə, Xəzər dənizi ətrafı müsəlman ölkələrinə quldur basqınları təşkil edirdilər. Zaman keçdikcə varlı kazaklar bu diyarda çar hakimiyyətinin dayağına çevrilmişdir. Lakin 50-60-cı illərdə Donda vəziyyət dəyişdi. Kazakların sırasına, xüsusilə 1649-cu il vergi və biyarı artıran Qanunnamədən sonra daha çox kəndli və posad adamı qaçıb gəlmişdir. Onların müddətsiz olaraq axtarıb-tapılması qaydasından sonra çar cəza dəstələri Dona üz tutdu. Ancaq Don kazak cəmiyyəti də Zaporojye Seçində olduğu kimi, qaçqınları verməkdən imtina

edirdi. Qaçqınları qaytarmadığı üçün çar hakimiyyəti kazakların Moskvadan hərbi sursat, ərzaq daşınmasına, ticarətə məhdudiyyətlər qoydu. Bu isə, xüsusilə Donun yuxarı Moskva sərhədlərinə yaxın yerlərində şəhərlərdə yaşayan yoxsul («qolıtba») kazakların vəziyyətini daha da ağırlaşdırdı. Burada olan minlərləqaçqın yoxsullaşaraq aclıq, xəstəlikdən ölürdü.

1666-cı ildə kazak atamanı Vasili Us bir neçə yüz yoxsul kazakı toplayıb Moskvaya yola düşdü ki, çarın xidmətinə daxil olsun. Ancaq onları xidmətə qəbul etməyərək Dona qaytarmaları əmr olundu. Tulaya çatan vaxt çoxsaylı yerli təhkimli kəndli və xolop onlara qoşuldu. Bir neçə min nəfərə çatan dəstə yerli boyarların malikanələrini dağıdaraq mülkədar və boyarları öldürdülər. Çar qoşunu kazak dəstəsini cənuba sıxışdırmağa nail oldu, çoxları zindan və sürgündə həyatını itirdi.

1667-ci ilin yazında 37 yaşlı cəsur, hiyləgər, sərt xasiyyətli «domovit» («ev») kazaklarından olan Stepan Razin Donun yuxarılarına yürüş edərək çoxlu yoxsul kazakı, çar voyevodalarının qovduğu Vasili Usu və dəstəsinin qalıqlarını birləşdirdi. Razinin dəstəsi Dondan Volqaya, oradan Yaik çayına keçərək Yaik şəhərciyində qışladı. 1668-ci ilin yazında Xəzər dənizinə açılan razinçilər Persiyanın (İran) tabeliyində olan ərazilərə hücum etdikdən sonra qışı Bakının yaxınlığında keçirərək 1669-cu ilin yazında soyğunçu basqınlarını davam etdirdilər. Artıq bu zaman Razin hərəkatı sosial, yoxsulların varlılara qarşı hərəkatı kimi ilmə qazanaraq məşhurlaşmışdı. Xəzər dənizində fars admiralının donanmasını məğlub edən S.Razin xalq qəhrəmanı kimi Həştərxana daxil oldu. Donun yuxarılarına doğru hərəkət edən Stepan Razin ordusu ilə birlikdə Kaqalnik şəhərciyində möhkəmləndi. Gündən-günə saysız-hesabsız yoxsul və qaçqın Razinin dəstəsinə qoşularaq kazakların sürətlə artmasına səbəb oldu. 1670-ci ilin yazında Stepan Razin bütün ətrafa özünün «Şanlı fərmanlar»ını göndərərək «Boyar və voyevodları öldürün» çağırısını səsləndirmişdir. Onun başqa bir şüarı «Qara camaata azadlıq vermək» idi. S.Razinin başçılığı altında olan hərəkat Rusiya tarixində birinci olaraq mövcud qaydalara qarşı yönəlmişdir, bütün Rusun hökmdarı ilə isə heç kimin işi yox idi.

1670-ci il mayın əvvəlində razinçilər yürüşə başlayaraq Tsaritsin qalasına yaxınlaşdılar, əhali şəhərin qapılarını onların üzünə açdı. Çar hakimiyyəti nümayəndələri, voyevoda, prikaz adamları, strelets qoşunu rəisləri və varlı tacirlər üzərində divan tutma işləri başladı. Volqaboyunun aşağı hissəsi ilə hərəkət edən Razinin dəstəsinə qoşulanlar gündən-günə artaraq üsyançıların on min nəfərlərə çatmasına səbəb oldu. S.Razin Həştərxana hücum edib knyaz İ.S.Prozorovskin müdafiəsinə başçılıq etdiyi şəhəri aldı. Voyevodanı və onun 12 yaşlı oğlunu qətl edən razinçilər hücum edib döyüşsüz Saratov və Samara

şəhərlərini aldılar. Üsyanın gedişində mülk, votçina, kilsə torpaqlarında olan çoxlu kəndli kütləsi razinçilər tərəfinə keçdi. Artıq tez bir zamanda üsyan kazak hərəkatından kəndli-kazak mübarizəsinə çevrildi. Volqaboyu, Mərkəzi Qaratorpaq rayonlarını, Uralöncəsi yerləri, Sloboda Ukraynasını, başqırd, tatar, mari, çuvaş, mordova kəndlərini üsyan alovu bürümüşdü.

S.Razinin Simbirskə birinci hücumu nəticə vermədikdə onu qurudan və Volqada mühasirəyə aldılar. Üsyançılarla mübarizə üçün ən yaxşı polkları ayıran çar Aleksey Mixailoviç onların başında görkəmli rus sərkərdələri Y.A.Dolqoruki və Y.N.Boryatinskini qoydu. Volqaboyuna yaxınlaşan çar ordusu yolboyu ələ keçirdikləri üsyançıların əllərini kəsərək, asaraq, qətl edərək Simbirskə yaxınlaşdılar. 1670-ci ilin oktyabrında şəhər uğrunda amansız döyüş başladı. Döyüşün gərgin vaxtında başından qılınc zərbəsi alan Stepan Razini silahdaşları qayıqla Kaqalnik şəhərciyinə gətirdilər. Çar ordusu üsyançıları məğlub edərək təqib etməyə başladı. Hamıdan çox, bir ilə yaxın davam gətirən Həştərxan da, nəhayət, təslim olmağa məcbur oldu. 1671-ci ilin aprelində domovit kazakları ataman Stepan Razinin yanına danışıq üçün gələrək qəfil hücum edib əl-qolunu bağlayıb dəmir barmaqlıqlı arabada Moskvaya apardılar. Çarın da iştirak etdiyi sorğu-sualdan sonra bütün işgəncələrə dözən və azadlıqda qalan silahdaşlarını satmayan Stepan Razini Qızıl meydanda əhalinin iştirakı ilə şaqqalayaraq öldürdülər. Atamanın qardaşı Frolu da 1671-ci ilin yayında Qızıl meydanda edam etdilər. Üsyan iştirakçıları amansız təqib və edamlara məruz qaldılar.

### §6. Kilsə islahatı və parçalanma

Zaman keçdikcə kilsə Rusiyada böyük qüvvəyə çevrilmişdir. Xarici işğalçılarla mübarizədə, birlik və mərkəzləşdirmə zamanı dövlətin kilsəyə ehtiyacı olmuşdur. Kilsə xaç və duaları ilə xalqı böyük işlərə təşviq edirdi. Nəzərə almaq lazımdır ki, böyük hökmdarlar, xüsusilə Romanovlar dərin dini inamı olan insanlar olmuşdur və onlar dini ibadəti yerinə yetirən xidmət adamlarına xüsusi münasibət bəsləyirdilər. Çar onlara öz keşişləri kimi baxaraq məsləhətlərinə qulaq asırdı. Kilsənin öz növbəsində onları torpaq payı, güzəşt və üstünlüklərlə təmin edən dövlətə ehtiyacları var idi.

Lakin Rusiyada mütəq monarxiya hakimiyyəti möhkəmləndikcə, ölkənin idarə olunmasında güclü ordusu, qanunları, bürokratik aparatı olan sistemin formalaşmasında kilsəyə lazım olan rol ayırmamışdır. Çar hakimiyyəti Ru-

siyada çox böyük torpaq mülkləri, qüdrətli siyasi təsiri, müxtəlif səpkili məhkəmə və vergi güzəştləri olan «dövlət içərisində dövlətlə» barışmaq niyyətində deyildi. Odur ki, XVII yüzilliyin 60-cı illərində bu iki qüdrətli güc mərkəzi növbəti toqquşmaya səbəb oldu.

Bir neçə yüzillik boyu kilsə dini ayinlərinin icra olunmasında nə vaxtsa yunancadan tərcümə olunan kilsə kitablarında savadsız yazı üzü köçürənlərin nöqsanı səbəbilə bir çox səhv və yanlışlara yol verilmişdir. Rusiyalı ikona çəkənlər ikona yaradarkən bir çox hallarda müqəddəs övliyaları və dini hadisələri ciddi yunan keşiş qaydaları əsasında təsvir etməmişdir. Bu azmış kimi hətta Rusiyada xaç vurmaq belə dəyişərək üç barmaqla (Tanrı Ata, Tanrı Oğul, Tanrı Müqəddəs Ruh) xaç vurmaq yerinə, iki barmaqla vurulurdu ki, bu da başqa pravoslav mərkəzlərində təəccüb doğururdu. Odur ki, çar Aleksey Mixailoviçin fəal iştirakı ilə kilsə və dövlətin üst qatlarında kilsəni bu yanlış və səhvlərdən təmizləmək məqsədilə hərəkat başladı. 1652-ci ildə Kremlin Uspenski kilsəsində patriarx taxtına seçilən Nikon (1605-1681) bu yeni kilsə hərəkatının başında dayanırdı. Mordvin olan Nikita Minov, yəni, Nikon uşaqlıqda yetim qalaraq dini kitablar oxuyaraq özünü kilsəyə xidmət etməyə hazırlamışdır. Nijni Novqorod yaxınlığındakı Makaryev məbədində xidmət edərək keşiş olmuşdur. Faciəvi ailə vəziyyəti ilə üzləşərək evləndikdən sonra üç uşağı ölən Nikita ailəsini tərk edərək uzaq Ağ dənizdəki monastra gedərək saçını vurdurub rahib olaraq Nikon adını qəbul etmişdir. Tezliklə onun Tanrını vəsf edən ciddi duaları və sərt yaşam tərzi məşhurlaşaraq Rusiyanın hər yerinə yayılmışdır. Onu monastrın iqumeni seçib bir müddət sonra çara təqdim edirlər. Hündürboylu, qarasaçlı, ciddi, itibaxışlı, səmimi və saf Nikon dindar çara güclü təsir bağışladı və onu Moskvada saxladılar.

Məhz bu zaman çarın ətrafında qısqanc əsl din tərəfdarlarının daxil olduğu dərnək yaranmışdır. Bura çarın keşişi Stefan Vonifatyev, baş keşiş Avvakum, çara yaxın olan savadlı okolniçi Fyodr Mixayloviç Rtişyev və b. daxil idi. Məhz bu dərnəkdə kilsənin köhnə pislikdən təmizlənməsi ideyası yaranmışdır.

Nikonun patriarx təyin edilməsi kilsə islahatını daha da fəallaşdırmışdır. Onun zamanında yeni qaydalar, o cümlədən məbəddə döşəməyə kimi deyil bel səviyyəsində əyilərək ibadət, iki barmaqla deyil üç barmaqla xaç vurmaq, tətbiq edilməyə başlandı. Kitabların genişmiqyaslı mətbəə şriftlərilə düzəldilməsi işi qaydaya salındı. Qədim nümunələri əks etdirməyən ikonalar kilsədə yenilərilə əvəz olundu. Bütün bu tədbirlər kilsənin əsirlərdən qalan yanlışların, o cümlədən bütpərəstliyin qalıqların təmizləməyə xidmət edirdi. Eyni zamanda, Nikon kilsə xidmətçilərinin əxlaqi-mənəvi dəyərlərini önə çəkərək sərxoşluq və başqa neqativ əməllərə qarşı mübarizə aparırdı.

Gözlənilənlərin əksinə olaraq, din xadimlərinin və keşişlərin bir hissəsi bu yenilikləri müqavimətlə qarşıladı. Azsavadlı, dünyəvi işlərin çirkabına bulaşan din xidmətçiləri Nikonun ciddi intizam tələb edən tədbirlərinə düşməncəsinə yanaşdılar. Köhnə kitablara və adətlərə alışan keşiş və rahiblər yeniləşmə prosesində iştirak etmək istəmirdilər, çünkü bu, bilik, güc tələb edirdi.

Başlıcası kilsə islahatçıları dindarların müqaviməti və etirazı ilə qarşılaşdılar. Onilliklərboyu kilsəyə gələrək dilsiz-ağızsız ikonlara və köhnə kitablardakı yazılara alışan dindarlar yeniliyi qəbul etməyərək köhnə kitabları, ikonaları gizlətməyə başladılar. Xüsusilə iki barmaq yerinə yeni üç barmaqla xaç vurulması dindarları dərindən sarsıtmışdı. Onlara belə gəlirdi ki, kimlərsə əsirlik köhnə dini dəyişdirir.

Kilsə islahatının yenilikləri ilə razı olmayanlar özlərini staroveramı, yəni köhnə təriqətçilər adlandırdılar. Beləliklə, Rusiya kilsəsində parçalanma, təfriqə baş verdi. Ölkənin ictimai həyatına mühüm təsir edən bu hadisə son dərəcə kəskin qarşıdurmalara, hətta silahlı mübarizəyə belə səbəb oldu. Köhnə təriqətçilər arasında boyarlar, tacirlər olsa da, əsas kütlə kəndlilər və posad adamlarından ibarət olmuşdur.

Kilsənin Nikonun metodu ilə yeniləşməsi islahatı hətta onun keçmiş müttəfiqlərinin belə narazılığına səbəb oldu. Baş keşiş Avvakum Nikonu insanlar üzərində zorakılıqda, kafirlikdə ittiham etdi. Nikon baş keşişi və tərəfdarlarını sürgünə göndərdi ki, köhnə təriqətçilərin gözündə onlar əzabkeşə çevrildilər.

İlk vaxtlar bitərəf mövqe tutan çar ordunun başında Polşa sərhədlərinə hərəkət edərkən Moskvada hökumətin işlərinə rəhbərliyi Nikona tapşırdı. Ölkə idarəçiliyi işlərinə qarışan patriarx Nikon kilsə torpaq sahibliyinin hüquqlarının məhdudlaşdırılmasına qarşı çıxdı. Kremldəki Uspenski kilsəsindəki moizələrində patriarx dini hakimiyyətini dünyəvi hakimiyyətdən, «keşişliyin», «çarlıqdan» üstün olduğunu dilə gətirdi. Bu çar və patriarxın açıq qarşıdurması oldu. 1658-ci ildə Nikon patriarx yüksək rütbəsindən azad olmadan özünün Moskva altındakı Voskresensk kilsəsinə gedərək çarın onu geri dəvət etməsini gözlədi. Lakin cəmiyyətin ali təbəqəsi Nikonun amiranə təkəbbürlüyü nəticəsində ölkəni dini təfriqəyə sürükləməsinə görə ona qarşı birləşdi. Yalnız 1666-cı ildə Moskvaya toplaşan dini liderlər Nikonu Ümumməclisin qərarı ilə patriarx rütbəsindən azad edərək yeni patriarx seçdilər. Pravoslav din xadimlərinin məclisində açıq elan olundu ki, çar vətəndaş işlərində, patriarx kilsə işlərində üstünlüyə malikdir. Nikon isə son olaraq göndərildiyi Kirill-Belozero kilsəsində 1681-ci ildə öldü.

Nikonun başladığı kilsə islahatı nəticəsində Rusiya cəmiyyətində uzun zaman dini təriqətçilik davam etmişdir. Rusiyanın uzaq, əlçatmaz yerlərində təriqətçi qəsəbələr, keçilməz meşələrin dərinliklərində təriqətçi sovmələr

(skit) əmələ gəlmişdi. Çar qoşunu itaət etməyən adamlara yaxınlaşdıqda onlar iki barmağı ilə xaç işarəsi vuraraq özlərini yandırırdılar.

Bir qədər keçdikdən sonra təriqətçilərin lideri baş keşiş Avvakum oldu ki, o da həm Nikonu, həm də keçirdiyi islahatlara görə çarı ifşa edirdi. Hökumət əleyhinə moizəsinə görə baş keşiş Avvakum 1682-ci ildə tonqalda yandırıldı.

Artıq köhnə təriqətçilər özlərinin adət-ənənələri, köhnə kilsə ikonaları, qədim kitabları ilə rus pravoslav kilsəsinin özünə məxsus bir hissəsi olmuşdu. Onlar arasında dini fanatiklik, yüksək mənəvi əxlaq, əməksevərlik geniş yayılmışdır. Köhnə təriqətçilər arasından çoxlu tacir nəsli, əkinçi, mahir sənətkarlar çıxmışdır. XX yüzillikdə Rusiya pravoslav kilsəsi könə təriqətçilərə lənət qoyan kilsə məclisinin hökmünü ləğv edərək qərara almışdır ki, yeni və köhnə adətlər eyni olaraq xristian dinini ifadə edir.

## §7. Sibir və Uzaq Şərqin mənimsənilməsi

Sibir və Uzaq Şərqin ərazisi Uraldan Sakit okeana kimi uzanır. Sərt iqlim şəraiti bu yerlərin mənimsənilməsini xeyli çətinləşdirmişdir. Keçilməz Tayqa meşələri ucsuz-bucaqsız bir ərazini təşkil edir. Ondan şimala Tundra meşələri uzanırdı. Ancaq Sibirin cənubunda meşəlik ərazisi başlayır.

Sibir ərazisində müxtəlif fin-uqor, türk, monqol və b. dil ailəsinə məxsus olan xalqlar məskunlaşmışdır. Ob çayı üzərində xantı və mansilər yaşayır. Onların şimal-şərqində Yenisey çayında nensilər, şərqə, Yeniseydən Oxot dənizinə doğru eveneklər məskunlaşmışdır. Lena çayı hövzəsində yakutlar, cənuba doğru Baykalda buryatlar yaşayırlar. Ugedey, nanay tayfaları Amur çayı sahillərində, çukça, koryak, itelmenlər Sibir, Çukotka və Kamçatkanın ən şimal-qərbində məskunlaşmışdır. Bu xalqların demək olar ki, hamısı qəbilə cəmiyyəti quruluşunda yaşayırdı. Onların çoxunun əsas məşğuliyyəti ovçuluq və balıqçılıq olmuşdur. Yalnız yakutlar və buryatlar maldarlıqla məşğul olurdular. Amur ətrafında isə əkinçilik yayılmışdır. Çukça və yukagirlər isə hətta daş əsrində yaşayaraq metalı belə tanımırdılar. Odur ki, odlu tüfənglə yeni yerləri fəth edən rus adamları bu işin öhdəsindən asanlıqla gəlmişdir. Sibir və Uzaq Şərq xalqları əsasən bütpərəst olub müxtəlif bütlərə sitayiş edirdilər. Kalmık, tuvalı, buryatlar isə buddist idilər.

Buddizmə sitayiş edən kalmıklar birinci olaraq, Rusiya dövlətinin nüfuz dairəsinə daxil olmuşdur. Cənubi Volqa çöllərində formalaşan Kalmık xanlığı XVII əsrin ortalarında rus çarına sadiqlik andı içərək himayəsinə sığınmışdır. Kalmık xanlığı XVIII əsrin axırına kimi mövcud olmuşdur.

Şərqi Sibirin fəth edilməsi daha asan olmuşdu. Bura gələn ilk səyyahlar şəhərcik, kiçik qala («острог») və ya qışlaq yeri salırdılar. Sonradan bu yerlər Tomsk, Yenisey, Krasnoyarsk, Bratsk, Lensk, İrkutsk şəhərlərinə çevrildilər. Yerli Sibir tayfaları əsasən dinc yolla, bəzən silah gücünə Rus dövlətinin tərkibinə daxil oldular. Başlıcası, avropalıların Amerika qitəsində olduğu kimi yerli xalqlar məhv edilmədi. Sibir xalqları Rusiyanın başqa yerlərində olduğu kimi illik vergi olan yasaq ödəyirdilər. Xəzinəyə ödənilən bu vergi Rusiya dövlətinə böyük sərvət gətirirdi. Odur ki, çar hakimiyyəti Sibir voyevodası və xidmət adamlarından yerli xalqla mehriban rəftar etməyi tələb edirdilər.

1637-ci ildə Sibiri idarə etmək məqsədilə Sibir prikazı təşkil olunmuşdur. Sibir «dövlət votçinası» olduğu üçün onun ərazisində xüsusi torpaq sahibliyi və təhkimçi kəndlilər yox idi. Sibirin mənimsənilməsi onun sərvətlərindən istifadə etməklə yanaşı, diyarın təsərrüfat yüksəlişinə də təkan vermişdir. Sibirin cənubunda şumlama əkinçiliyi geniş yayılmışdır.

Yeni torpaqların fəth edilməsində və ayrı-ayrı xalqların Rusiya dövlətinin tərkibinə daxil olmasında missionerlik hərəkatı ayrı yerə məxsusdur. Xristian əxlaqını təşviq edən rahiblər kilsə hakimiyyətini təmsil edərək bütpərəst və b. din təmsilçilərini pravoslav dininə etiqad etməyə dəvət edirdilər. Rusiya dövləti də yerli xalqların pravoslav dininə etiqat edərək dövlətin dayağına çevrilməsində maraqlı idi. Lakin yerli xalqların satınalma, qorxu, təşviq yolu ilə pravoslav dininə dəvət edilməsi geniş yayılmadı.

1639-cu ildə Tomsk kazakı İvan Yuriyeviç Moskvitin kiçik bir dəstə ilə Ule çayı ilə Oxot dənizinə çıxdılar. Rus adamı Sakit okeana daxil oldu.

1648-ci ildə Yakut kazakı Semyon İvanoviç Dejnyov və xolmoqor prikazçiki Fedot Alekseyeviç Popov yeddi gəmi ilə Kolım çayının mənsəbindən keçərək Böyük Daş Burnuna yaxınlaşıb materiki keçərək Asiyanı Amerikadan ayıran boğazdan irəliləyib Dejnyov Çkotka sahillərinə, Popov Kamçatkaya çatdı.

1643-cü ildə kazak Vasili Daniloviç Poyarkov Amur çayı boyu əraziləri öyrənərək Sakit okeana kimi irəliləmişdir. 1649-1653-cü illərdə onun işini davam etdirən Böyük Ustyuqdan («Великий Устюг») olan ticarət adamı Yerofey Pavloviç Xabarov Amura böyük yürüş təşkil edərək Amurətrafı torpaqları Rusiyaya birləşdirdi. Xabarov şəhəri məhz birinci rus səyyahının şərəfinə adlandırılmışdır. Amur ətrafının Rusiya tərəfindən mənimsənilməsi bu ərazilərə iddiası olan Çinlə toqquşmaya səbəb olmuşdur. Rusiya Amurun sol sahillərini rus adamının mənimsəməyə başlamasına baxmayaraq, bu yerlərdən imtina etməyə məcbur oldu. 1689-cu ildə Çinlə Rusiya arasında birinci dəfə sərhədi (iki ölkə arasında) müəyyən edən Nerçinsk müqaviləsi imzalanmışdır.

XVII əsrdə Sibir Rus dövlətinin tərkibinə daxil oldu. Yerli tayfalar rus çarının təbəəsinə çevrildi. Rusiyalı səyyahlar bir çox mühüm coğrafi kəşflərə imza atdılar.

# VIII FƏSİL
# XIII-XVII ƏSRLƏRDƏ RUS MƏDƏNİYYƏTİ

## §1. Rus mədəniyyəti XIII-XV əsrlərdə

Monqol-tatar işğalı Rusiya mədəniyyətinə ağır zərbə vurmağına baxmayaraq, tədricən Rus və onun mədəniyyəti dağıntının xarabalıqları içərisindən qalxaraq yüksəlməyə başladı. XIII-XV əsrlərin mədəniyyətində iki mərhələ diqqəti cəlb edir. XIII-XV əsrlərdə mədəniyyətin inkişafının daxili hüdudunu 1380-ci ildə Kulikovo döyüşündə rusların monqol-tatarlar üzərindəki qələbəsi müəyyən edir. Artıq bu zaman demək olar ki, ölkənin iqtisadiyyatı bərpa edilmişdir ki, bu da ümumi miqyasda mədəniyyətin XIV əsrin sonları–XV əsrdə inkişafını müəyyən etmişdir.

Tədricən Rusiya mədəniyyəti toparlanaraq canlanmağa başladı. 1274-cü ildə kilsə daxili həyatını qaydaya salmaq məqsədilə Kilsə məclisinin qəbul etdiyi «Mitropolit Kirillin qaydaları» əsl hadisə oldu. Kilsə və vətəndaş qanunvericilik yaddaş kitablarının bərpası prosesi başladı. 1284-cü ildə Ryazan rəhbər kitabı, 1282-ci ildə Sofiya rəhbər kitabı meydana gəldi ki, onlar da «Rus pravdası»na daxil olmuşdur. Ədəbi fəaliyyət də canlanmışdır. Yazıçılardan əvvəl Kiyev-Peçersk kilsəsinin arximandrı (baş monax), sonra Vladimir kilsəsinin keşişi olan Serapion Vladimirskinin yaradıcılığını qeyd etmək olar. Onun «Beş söz-nəsihət» əsərində Rusun talan edilməsi, xalqın əsarət altına alınması aydın bir şəkildə izah edilmişdir.

XIII əsrin sonu–XIV əsrin əvvəlinə aid olan Aleksandr Nevskinin «Həyat»ı («Житие») rus adamlarının sevə-sevə oxuduqları kitablardandır. Ən böyük ədəbi abidə XIII əsrin əvvəlindən 1292-ci ilə kimi olan hadisələrdən bəhs edən Qaliç-Volın salnaməsi idi. Salnamədə Kalka döyüşündən, Batının yürüşündən, Qalıç və Volın uğrunda taxt mübarizəsindən ətraflı bəhs olunur. XIV əsrə aid olan ilk Moskva əsəri Rostov yepiskopu Proxorun qələmə aldığı «Pyotrun həyatı» («Житие Петра») olmuşdur. Tverdə knyaz Aleksandrın tatar canişinini canlı olaraq yandırmasından bəhs edən «Şevkal haqqında nağıl» («Сказание о Шевкале») yaranmışdır.

1380-ci ildəki Kulikovo döyüşündən sonra rus ədəbiyyatında yeni məzmunlu əsərlər meydana çıxmışdır. «Mamayev döyüşçüsü haqqında nağıl» («Сказание о Мамаевом побоище») buna misaldır. Belə hesab olunur ki, 1408-ci ildə Yedigeyin hücumu və Moskva knyazı Vasili Dmitriyeviçin qorxaqlıq göstərib

qaçması bu əsərini yaranmasına səbəb olmuşdur. Çox güman ki, müəllif Dmitri Donskoyun qəhrəmanlığını yada salaraq onun oğluna çatdırmaq istəmişdir ki, Moskva knyazının vəzifəsi torpağını müdafiə etməkdir. Hər şeydən əvvəl bu əsər real hadisələrin salnaməsi deyil, sırf ədəbi abidədir.

Tver taciri Afanasi Nikitinin «Üç dəniz arxasına səyahət» («Хождение за три моря») qiymətli ədəbi abidəsi onun 1466-cı ildən 1472-ci ilə kimi Hindistana səfərindən bəhs edir. Geri qayıdarkən Smolenskdə vəfat edən A.Nikitinin qələmə aldığı yazı Moskvaya gətirilərək salnaməyə daxil edilmişdir. Bu əsər qədim Hindistandan bəhs edən tarixi-arxeoloji abidə olmaqla bərabər, tarixi-ədəbi yaradıcılıq nümunəsi olmaqla yanaşı, həm də rus adamının zəngin daxili dünyasını açıb göstərir.

XIV əsrin ortalarından başlayaraq dağıdılan şəhər və kəndlər bərpa edilməyə başladı. Xüsusilə dağıntıya məruz qalmayan Novqorod və Pskovda bu proses daha sürətlə davam edirdi. Memarlıq və boyakarlıq məktəbinin meydana çıxması diqqəti cəlb edirdi. Düzdür, daş tikililər deyil, əsasən ağacdan hazırlanan alçaq kilsələr, boyar və varlı əyan evləri geniş yayılmışdı. Yavaş-yavaş daş tikililər meydana gəlirdi. Novqorodda XIV əsrdə İç qala müdafiə bürcü, Bolotovda yaraşıqlı Uspeniya kilsəsi daşdan inşa edilmişdi. XV əsrin birinci yarısında Novqorodun müstəqilliyinin qızğın tərəfdarı, baş keşiş Yefim öz sarayını daşdan tamamlamışdır. XIV əsrdə Novqorod memarlığının inkişafında yunan sənətkar Feofan Qrek əhəmiyyətli rol oynamışdır. 70-ci illərdə Bizansdan gələn sənətkar İlin küçəsindəki Spas kilsəsinin boyakarlıq işini tamamlamışdır. Onun təsvir etdiyi müqəddəslər qırmızı-qəhvəyi və ağ işıq zolaqlarının kəsişməsində daha parlaq, ancaq sərt diqqəti cəlb edir. XV əsrin əvvəlində Moskvya dəvət edilən böyük sənətkar Andrey Rublyovla birlikdə Kremlin Blaqoveşen kilsəsi üçün bir sıra ikona çəkmişdir. Belə güman edilir ki, Dmitri Donskoyun hamisi olan Donskoy Məryəm anası ikonası da Feofan Qrekə məxsusdur.

Moskvadakı daş tikintisinin əsas səbəbkarları böyük knyazlar olmuşdur. Birinci ağ daşdan olan kilsələr İvan Klitanın dövründə meydana gəlmişdir. Bu 1326-cı ilə məxsus Uspensk məbədi, 1328-1330-cu illərdəki Bordakı Spas kilsəsi, 1333-cü ildə inşa edilən Arxangel məbədi və 1328-ci ildə gözətçi qülləsi kimi salınmış İoanın Lestviçnik zəngli kilsə idi. Ordu ilə həlledici döyüşə hazırlaşan Dmitri Donskoy 1367-ci ildə Kremlin ətrafında daşdan divar hördürmüşdür.

XV əsrin əvvəllərindən başlayaraq monastr tikintisi geniş miqyas almışdır. 1405-ci ildə Zveniqorod altında daşdan Storojyevsk monastrı, Moskvada 1423-cü ildə Troitsa-Sergiyev, 1427-ci ildə Andronikov monastrları meydana

gəlmişdir. Bu məbədlərin memarlığında yeni Rusiya milli əlamətləri, böyüklük, parlaqlıq, möhtəşəmlik ön plana çıxmışdır.

1408-ci ildə Andrey Rublyov və Daniil Çyornı Vladimirdə Uspensk kilsəsinin boyakarlıq işini həyata keçirdilər. Yüngül, işıqlı rənglərlə üzə düşüncəli baxış həkk edən sənətkarlar, çəkdikləri ikonalara fəal və azad hərəkət mövqeyi seçərək onlara işıqlı sevinc, ümid bəxş edirlər.

Dahi rəssam Andrey Rublyovun (təqribən 1360-1430) təqribən 1423-cü ildə Troitsa kilsəsi üçün çəkdiyi şöhrətli «Троица» («Müqəddəs üçlük») ikonasında Tövratdan götürülmüş mövzuya uyğun olaraq Avraam və Sarra üç mələklə təsvir edilmişdir. İkonada daxili təmkinə və ruh yüksəkliyinə malik üç qanadlı mələk stol arxasında oturub sakit söhbət edirlər. Parlaq və ahəngdar rənglərlə, sakit kompozisiya əsasında çəkilən «Troitsa» rus rəssamlıq sənətində yeni söz olmaqla bərabər, dostluq, razılıq, məhəbbəti tərənnüm edir. Ümumiyyətlə, XV əsri sənətşünaslar Moskva ikona yazanların «qızıl əsri» adlandırmışdır.

XIV əsrin axırlarından başlayaraq Rusiyada sənət dirçəlməyə başlamışdır. Tökmə sənətinin mərkəzi Moskva olmuşdur. Məsələn, 1342-ci ildə Müqəddəs Sofiya («Святая София») Novqorod kilsəsinin zəngini tökmək üçün moskvalı usta Borisi dəvət etmişlər. 1420-ci ildə Moskva ustaları pskovlu sənətkarlara dam örtüyü üçün qurğuşun təbəqələr tökməyi öyrətmişdir.

Moskva zərgərlik sənətkarları yaratdıqları sənət nümunələri ilə tətbiqi incəsənəti daha da yüksəyə qaldırmışlar. Moskvalı usta İvan Fominin qızıl eşmə ilə işlənmiş yaşma fincan belə sənət nümunəsindən biridir. 1410-1431-ci illərdə Troitsa məbədində oymaçı-heykəltəraş Amvrosi çalışmışdır. Onun hazırladığı qızıl qatlama – xaç Sergiyev Posad muzeyində saxlanılır. Moskvada toxuculuq əl işləri də geniş yayılmışdır. Bunların ən gözəl nümunələrindən biri Simyon Qordının dul arvadı knyagina Mariyanın Deisusu təsvir etdiyi örtük idi. XV əsrdə Moskva sarayında gümüş sikkələr zərb etməyə başladılar. I Vasilinin dövründə barıt hazırlamağa başladılar. 1404-cü ildə serb Lazar zəng yaylı böyük saat düzəldərək onu Böyük knyaz sarayında quraşdırmışdır.

XIII-XV əsrlərdə mədəniyyətin bir hissəsini təşkil edən rus adamının məişətinə dair məlumatlar nisbətən azdır. Monqol-tatar və Qızıl Ordu yürüşü zamanı rus adamı köçərilərdən atsürmə bacarığını, hərbi yürüşlərdə sadə yemək və paltar vərdişini mənimsəmişdi.

Yunan ruhanilərinin təsiri daha böyük olmuşdur. Məsələn, mitropolit Kiprianinin vaxtında yeni il Bizansda olduğu kimi sentyabr ayından başlamışdır. Slavyan adları və ləqəbi tədricən sıxışdırılaraq xristianlıqda olduğu kimi nəsli və kökü göstərən soyad meydana çıxmışdır. Kilsə nikahı olmadan evlənmək adəti tarixə qarışmış, qızlar kilsənin icazə vermədiyi üçün 12 yaşından tez

ailə həyatı qura bilməzdilər. Kilsə bir sıra qadağalar, o cümlədən nahara kimi şərab qəbul etməmək, stol arxasında nalayiq söz söyləməmək, öz evində küpəgirən qarıları qəbul etməmək və fala baxmaq üçün onlara müraciət etməmək kimi yeniliklər müəyyən etmişdir.

Varlı və tanınmış ailələrdən olan gənclərin əsas məşğuliyyəti cəngavər döyüşləri idi. Ox, nizə, qılıncla usta davrananlar yüksək qiymətləndirilirdi. Əyan və varlı təbəqə əla atlara sahib olmaq üçün çalışırdı. Böyük mənsəb sahibləri arasında qonaqlıq məclislərini təşkil etmək geniş yayılmışdır. Böyük knyaz belə qonaqlarla bir yerdə, lakin stolun baş tərəfində əyləşərək əylənirdi. Stola müxtəlif çeşidli bal, pivə, qızardılmış ov əti, şirniyyat düzülürdü.

Varlı əyanlar Avropadan gətirilmiş mahud, Şərqdə olan ipək parçalardan tikilmiş xəz, dəri, qiymətli daş-qaşla bəzədilmiş paltar geyirdilər. Sadə adamlar kətandan, qışda isə qoyun dərisindən paltar geyirdilər. Yaşayış evlərinin daxili çox sadə olub, ortada böyük peç, taxt, stol, skamyadan ibarət idi. Varlılar xalça, ipək süfrə, vəhşi heyvan dərisi ilə evlərini bəzəyirdilər. Qiymətli əşyaları zirzəmidə saxlayırdılar.

## §2. XVI-XVII əsrlərdə rus mədəniyyəti

Rusiya milli dövlətçiliyinin təşkili, onun sərhədlərinin genişlənməsi, mütləqiyyətin bərqərar olması, Qızıl Ordunun qəti olaraq məğlub edilməsi rus adamının milli mənlik şüurunun kəskin yüksəlişinə təkan verdi. Dövlətin möhkəmlənməsi, xarici, hərbi uğurlar, yəni Smolensk, Kazan, Həştərxan, Sibirin fəthi, Baltik dənizinə çıxış, patriarxlığın təsis edilməsi Rusiya dövlətinin beynəlxalq nüfuzunun artmasına səbəb olmuşdur.

Artıq XVI əsrin əvvəllərində belə bir fikr səslənmişdir ki, «Moskva üçüncü Romadır». Bu fikir Pskov monaxı Filofeyin moizələrində belə ifadə olunur ki, Rus bütün xristian dünyasının mərkəzidir. Çar hakimiyyətinin Tanrı mənşəli olduğunu qeyd edən rahib onun bütün rus torpaqlarını birləşdirib sahib çıxmasına inanırdı. XVI əsrin əvvəllərində kilsənin mövqeyi ilə bağlı yaranan iki istiqamət iosiflyanlar, yəni kilsənin müstəqil, güclü olması üçün maddi var-dövləti əsas götürənlər, bir də qeyri-tamahkarlar, yəni mənəvi tərəfi önə çəkənlər meydana çıxmışdır. Hər iki tərəfin ideyası ilə bağlı çoxlu əsərlər yaranmışdır. Bu zaman kitabları tərcümə etmək məqsədilə Afondan Moskvaya gələn yunan fikir adamı Maksim Qrek qeyri-tamahkarlarla yaxınlaşaraq xüsusi dərnək qurmuşdur. Burada çar hakimiyyətinin mahiyyəti,

hökmdarın əxlaqi həyat tərzi ilə əlaqədar borcu, hakimiyyəti altında olanları qayğısı və b. məsələlər müzakirə olunurdu. Bu III Vasilinin birinci arvadı ilə nikahı pozub ikinci dəfə evlənməsinin tənqid olunması demək idi. Nəticədə, Maksim Qrek və onun şagirdləri kafirlikdə ittiham olunaraq ayrı-ayrı monastrlara sürgün olundular. Lakin zindanda da alim Maksim Qrek ədəbi fəaliyyətini davam etdirərək bir neçə cilddən ibarət əsərlər toplusunu hazırlamışdır.

Büdət, küfür ideyasının yaradıcılarından biri Feodosi Kosoy olmuşdur. Onun görüşləri, xüsusilə Rusiyanın sərhəd rayonları əhalisi arasında geniş yayılmışdır.

XVI əsrin 50-ci illərində IV İvanın islahatları dövlət quruluşu məsələsinə dair əsərlərin yaranmasına əsas olmuşdur. Bu baxımdan Fyodor Karpovun əsərləri xüsusi maraq doğurur. O yazırdı ki, hər hansı bir ölkədə çar hakimiyyətinin uğurlu olması üçün çar başqa rəislərlə birlikdə ölkəni idarə etməlidir. Onların vəzifəsi qanun və qaydanı təmin edərək günahsızları müdafiə edib günahkarları edam etməkdir. Həqiqət və qanun bütün cəmiyyətin əsası, çar isə ona əməl etməyin təminatçısıdır. Başqa bir publisist, Makaryev kitabsevənlərinə daxil olan Yermolay-Yerazm da belə hesab edirdi ki, çarın vəzifəsi tabeliyində olan insanlara qayğı göstərməsidir.

XVI əsr publisistkasında çar IV İvan ilə Litvaya qaçan knyaz Andrey Kurbski arasındakı yazışma maraq doğurur. Öz opponentinə məktubunda çar iddia edir ki, hakimiyyəti Tanrıdan aldığına görə ona insanlar tərəfindən heç bir məhdudiyyət qoyula bilməz. Özünün «Böyük Moskva knyazının tarixinə dair» («История о великом князе Московском») fundamental əsərində Andrey Kurbski IV İvanı Tanrı qanunlarını tapdalayan cinayətkar adlandırmışdır. İvan Qroznının fəaliyyətindən bəhs edən əsərlər sırasına 1538-ci ildən 1582-ci ilə kimi olan hadisələrə işıq tutan «Çarlığın başlanğıcının salnamə-çisi» («Летописец о начала царства») və «Kazanın tarixi» («Казанская история») yazıları daxildir.

Tarixi dastan mövzusundan bəhs edən əsərlərdən biri də 1581-1582-ci illərdə Pskovun qəhrəman mübarizəsinə həsr edilən «Stefan Batorinin Pskov şəhəri altında meydana çıxması dastanı» («Повесть о пришествии Стефане Батория») olmuşdur. Bir çox kitabsevərlər ensiklopedik toplu yazılı abidələr hazırlamışdır. Məsələn, Blaqoveşensk baş keşişi Silvester evdarlıqdan bəhs edən «Evtikmə» («Домострой») külliyyatını hazırlamışdır. Burada rus ailəsinin əxlaq normalarına dair, xörək hazırlanması, ərzaq məhsullarının hifz edilməsi və s. haqqında çoxlu faydalı məsləhət yer almışdır.

XVII əsrin əvvəllərində rus ictimai fikir tarixinin yüksəlişi hər şeydən əvvəl Qarışıqlıq dövrünün və onun nəticələrinin aradan qaldırılması ilə bağlıdır.

Siyasi, sosial, ailə daxili mübarizənin gedişində cəmiyyətin bütün təbəqələrinin fəallığı artaraq ictimai özünüdərkin yetişməsinə şərait yaratdı. Döyüş meydanlarında rus adamı vətəninin taleyi naminə öz məsliyyətini dərk etməyə başladı. Məhz bu vaxt qarışıqlıq zamanında olmayan «vətənpərvərlik» anlayışı ictimai fikrə hakim olmuşdur.

Siyasi, sosial, milli oyanış qarışıqlıq dövründən bəhs edən müxtəlif janrlı əsər və yazılı abidələrin yaranmasını təmin etdi. Patriarx İovun Boris Qodunovun taxt uğrunda apardığı mübarizədən xəbər verən «Çar Fyodorun şərəfli yaşayışına dair dastan» («Повесть о честном житии царя Федора») yazısı buna misaldır. Vasili Şuyiskinin hakimiyyətə gəlməsi ilə onun taxta olan hüququnu təsdiq edən yazılar meydana çıxdı. Məsələn, «Qrişke Otrepyev haqqında rəvayət» («Сказание о Гришке Отрепьеве») gələcək çarın fırıldaqçı kafirlərlə apardığı güzəştsiz mübarizədən danışaraq oxucunu inandırmağa çalışır ki, məhz Tanrı Vasilini seçərək ona Yalançı Dmitri haqqında həqiqəti agah etmişdir.

1613-cü ildə yeni çar Mixailin seçilməsindən sonra dyak İ.Timofeyevin «Tarix» («Временник»), Avraamiya Palitsının «Troitsa mühasirəsinə dair rəvayət» («Сказание о Троицкой осаде»), tarixi xroniki xülasə olan «Xronoqraf 1617» yazılı abidələri yaranmışdır. Rus yazılı mədəniyyətinin bir hissəsi olan bu tarixi abidələrdə real hadisələr izah edilməklə bərabər, Mixail Romanovun taxta seçilərək sahib olması əsaslandırılmışdır.

Filaretin polyak əsirliyindən qaytarılmasından sonra onun ətrafında kitabsevənlər dərnəyi birləşmişdir. Əsasən qarışıqlıq dövründə ölkənin daxili və xarici vəziyyətinə toxunan müəlliflər yaratdıqları konkret işlərlə yaşadıqları dövrdəki real hadisələri izah edərək rus mədəniyyətinə çox böyük töhfə bəxş etmişlər. 1626-cı ildə Səfirlik prikazının dyakları «Əlyazısı» («Рукопись») toplusunu tərtib edərək göstərdilər ki, rus qarışıqlığının əsas baisi polyak kralı III Sigizmund olmuşdur. Odur ki, Smolensk uğrundakı yeni rus-polyak müharibəsi zərurətdən meydana gəlmişdir. 1626-cı ildə knyaz S.İ.Şaxovsk və knyaz İ.M.Katırev-Rostovski Rus-Polşa müharibəsi ilə bağlı olaraq hadisələri öz baxış nöqtəsindən izah etməyə çalışaraq «Katırev-Rostovskinin povestləri» («Повесть Катырева-Ростовского») yazılarını hazırlamışlar.

Qarışıqlıq dövründən hərtərəfli bəhs edən yazılardan biri də 1630-cu ildə müəllifinin Novqorod mitropoliti Kiprian olduğu fərz edilən «Yeni salnaməçi» («Новый летописец») dastanı olmuşdur. Müəllif qarışıqlıq dövrünün səbəbini hakimiyyətə hüququ olmayanlar arasındakı mübarizədə görür və çar Mixailin Fyodorun yaxın qohumu kimi hakimiyyətə sahib olması ilə bu mübarizənin sona çatdığını əsaslandırır.

Qarışıqlıq dövründən sonra bədii yaradıcılıqda yeni janr tarixi mahnılar yarandı. Bu tərzdə olan yaradıcılıq nümunələrində İvan Qroznı, Yermakın

yürüşü, xilasedici sərkərdə Mixail Skopian-Şuyskinin zəhərlənməsi və s. gərgin süjetli hadisələrdən bəhs edilən mahnılar səslənmişdir. Tarixi hekayət mövzusu da yayılmışdır. 1642-ci ildə kazak yasovulu Fyodor Poroşinin yazdığı «Azov oturması haqqında hekayə» («Повесть об Азовском сидении») əsər sadə kazakların qəhrəmanlığına həsr edilmişdir.

Satirik əsərlər meydana gəlməyə başladı. Məsələn, «Yerşe Yerşoviç haqqında hekayə» («Повесть о Ерше Ершовиче») ədalətsiz boyar məhkəməsini tənqid edir. XVII əsrdə Ezop təmsilinin rus dilinə tərcüməsi rus satira janrının yaranmasında mühüm rol oynamışdır.

Qarışıqlıq dövründən sonra rus ədəbiyyatına Qərbin təsiri artmışdır. Çar sarayında Yepifani Slavinetski, Simeon Polotski, Silvestr Medvedev kimi yazıçılar yığışmışdır. Onlar özlərini filosof, şair, natiq kimi qələmə verərək rus çarlarının əməl və işlərinin şöhrətləndirilməsi məsələsi ilə məşğul olurdular.

XVII əsrin ikinci yarısında elmi monoqrafiyaları xatırladan tarixi əsərlər yaranmışdır. Dvoryan Andrey Lızlovun «Skif tarixi» («Скифская история») əsəri Rus dövlətinin uzun əsrlər boyu tatar və türklərlə apardığı mübarizədən bəhs edir.

XVI-XVII əsrlərdə məktəb təhsilində xüsusi məktəblər önə çıxmışdır. Xidmət adamlarını və dini qulluqçuları hazırlamaq məqsədilə xüsusi məktəblər fəaliyyət göstərirdi. Dyak və dyak köməkçilərini bilavasitə prikazların nəzdində hazırlayırdılar. Onlardan savad, hesablamaq, yaxşı yazmaq tələb olunurdu. Səfirlik prikazının qulluqçuları dil, öz ölkələrinin tarixini, qonşu dövlətlərin tarixi və coğrafiyasını yaxşı öyrənməli və bilməli idilər. Ümumölkədə mövcud olan hər bir prikaz öz işinin mahiyyətinə uyğun xidmətçilər hazırlayırdı. Monastr və kilsələrin nəzdindəki xüsusi məktəblər isə din dərsləri keçirdi.

1574-cü ildə Lvovda birinci çapçı İvan Fyodorov ilk slavyan əlifbasını («Азбука») çap etdi ki, burada da oxu və qrammatik qaydalar üçün mövzular var idi. Hesabı öyrənmək məqsədilə sadə tapşırıqların yer aldığı «Rəqəm hesablama müdrikliyi» («Цифирной счетной мудрости») dərsliyi yarandı. Kilsə məktəblərində xorda oxumaq üçün nəğmə dərsləri keçirildi.

Yüz bab («Стоглав») yəni, dini məsələlərə və dünyəvi işlərə aid yüz babdan ibarət qanun külliyyatında bütün şəhərlərdəki məktəblərin quruluşu müəyyən olunmuşdur. Bu məktəblərdə yalnız ruhani və mirzələr müəllimlik edə bilərdi. Məktəblərə əsasan posad əhalisinin uşaqları gəlirdi. Əyanlar uşaqlarını evdə hazırlamağa üstünlük verirdilər. Bunun üçün onlar lələ («дядек») adlanan xüsusi müəllim və tərbiyəçilər tuturdu. Uşaqlara hərb sənətinin sirləri, at minmək, müxtəlif silahlara yiyələnmək vərdişləri də öyrədilirdi. Qızların təhsili ilə isə demək olar ki, az məşğul olurdular. Tərbiyə

məsələlərində İoann Zlatoustun xüsusi hazırladığı «Uşaqların tərbiyəsinə dair» («О воспитании детей») yazısından istifadə edirdilər. Burada ataların tərbiyə işində xüsusi rolundan, onların uşaqlarının taleyi üçün məsuliyyətindən bəhs olunur. Qeyd olunurdu ki, valideynlərin əsas vəzifəsi uşaqlara ciddi, vicdanlı, xoş xasiyyət, təmənnasız, toxkönüllü, zəhmətsevər olmağı aşılamaqdır.

Artıq XVI əsrdən ortalarında çar fərmanı ilə kitab nəşri emalatxanası yaranmışdır. Tədqiqatçılar belə hesab edir ki, kitab çapının başlanğıcınn 1553-cü ildəki çar fərmanından hesablamaq lazımdır. 1556-cı ildəki başqa bir fərmanda qeyd edilir ki, usta M.Nefedov üç İncil («Евангелие»), iki Zəbur («Псалтырь»), iki Triodi (dini kitab) hazırlamışdır. Getdikcə məşhurlaşan İvan Fyodorov 1564-cü ildə «Apostol» kitabın çap etmişdir. Sonradan Litvaya köçən ustanın işini Moskvada davam etdirdilər. 1565-ci ildə «Sovmə» («Часовник»), 1568-ci ildə Neveji Timofeyevin yeni «Zəbur»u («Псалтырь») çap olunmuşdur.

XVII əsrdə müxtəlif təhsil müəssisələri meydana gəlmişdir. 1634-cü ildə belə məktəblər üçün V.Burtsevin «Əlifba» («Букварь»), Meleti Smotrıtskin «Qrammatika» kitabları meydana çıxdı. Əsrin sonunda Karion İstominin yeni «Əlifba» («Букварь») kitabı və hesabda əsas olan vurma cədvəli meydana gəlmişdir. 1665-ci ildə Nikolay küçəsində Zaikonospassk məktəbi açıldı ki, ona da Simeon Polotski başçılıq edirdi. Burada müxtəlif prikazları təmsil edən mirzə köməkçiləri rus dili, latın və başqa fənləri öyrənirdilər. 1680-ci ildə Möhür sarayının nəzdində 30-dan çox şagirdi olan məktəb açılmışdır.

1687-ci ildə Rusiyada ilk ali təhsil ocağı olan Slavyan Yunan Latın Akademiyası açılmışdır. Akademiyada yaşından, rütbəsindən və vəzifəsindən asılı olmayaraq arzu edən hər bir kəs təhsil ala bilərdi. Burada müxtəlif elmlər, qrammatika, natiqlik, dialektika, fəlsəfə, ilahiyyat və etika dərsləri keçilirdi. Akademiyanın birinci müəllimləri yunan İoanniki və Sofroni Lixudlar olmuşdur. Lakin akademiyanın dünyəvi təhsil istiqaməti tezliklə kilsə dairələrini narahat etdi və müəllim qardaşlar fitnə-fəsad qurbanı olaraq, akademiyadan uzaqlaşdırıldı.

Sibirin, yeni torpaqların mənimsənilməsilə coğrafiya elmi inkiaf edərək mühüm əhəmiyyət kəsb etmişdir. Məsələn, 1627-ci ildə tərtib edilən «Böyük çertyoj kitabında» («Книга Большому чертежу») Rusiyanın bütün şəhərləri və onlar arasında olan məsafə məlumatları toplanmışdır. İlk xəritələr meydana gəlməyə başladı. Fyodor Qodunovun tərtib etdiyi Rusun çertyoju bunlardan biridir.

Mərkəzləşmiş dövlətin yaranması memarlığın inkişafına da mühüm təsir göstərmişdir. Əsas tikili işləri böyük knyazların sonra isə çarların iqamətgahlarında gedirdi.

1475-1478-ci illərdə məşhur italiyalı memar və mühəndis Aristotel Fioravantinin başçılığı ilə Kremlin mərkəzində möhtəşəm Uspensk kilsəsi yenidən

quruldu. Bir-birinin yanında duran beş ağır qızıl qübbəli kümbəzlər vahid və qüdrətli Rus dövlətini təcəssüm etdirir. Dini məbəddən daha çox dünyəvi cəhətləri özündə birləşdirən bu tikili böyüklüyü, parlaqlığı və sadəliyi ilə hər kəsi heyran qoymuşdur.

1505-1509-cu illərdə Aleviz Novı dünyəvi elementləri özündə ehtiva edən Arxangel kilsəsini ucaltdı.

XVI əsrdə qala memarlığı geniş miqyas almışdır. 1500-1511-ci illərdə Nijni Novqorod, 1525-1531-ci illərdə Kolomna, 1514-1521-ci illərdə Tula Kreml qalaları tikdirdi. Moskva Kremli yenidən qurulmağa başladı, Kitayqorod daş istehkamları tamamlandı. Moskva Kremlinin yenidən inşa olunmasında, xüsusilə Kitayqorodun tikilməsində italiyalı memar Petrok Malı mühüm rol oynamışdır.

Qədim zamanlardan başlayaraq Rusda işlənib toplanmış ağac memarlığı təcrübəsi daş memarlığa da təsir etmişdir. 1532-ci ildə Kolomna kəndində III Vasilinin varisi İvanın şərəfinə inşa etdirdiyi Vozneseniy kilsəsi buna parlaq misaldır. Moskva çayının sahilində 462 metr hündürlükdə olan çadır formalı daş kilsə qırmızı və ağ naxışlar altında göyə ucalır. Müasirləri hesab edirlər ki, bu tikili hündürlük, gözəllik, parlaqlığın əsl nümunəsidir. 1555-1560-cı illərdə rus memarları Barma və Posnik Yakovlevlər tərəfindən Kazanın alınması şərəfinə ucaldılmış Moskvanın Qızıl meydanındakı Pokrov kilsəsi və ya Vasili Blajennı məbədi XVI əsr çadır memarlığının ən möhtəşəm abidəsidir. Yüksək çadır ətrafında birləşdirilmiş doqquz kilsədən ibarət məbəd Rus dövlətinin və silahının şöhrətini və vəhdətini təcəssüm etdirirdi.

1667-1668-ci illərdə inşa etdirilən Kolomensk şəhərətrafı sarayı ağac tətbiqi sənət yaradıcılığının ən bariz nümunələrindən biridir. Oyma sənəti, qızılı rənglərlə zəngin olan saray daxili və xarici bəzək işi ilə tamamlanır. 1647-1650-ci illərdə İlya Prorokun Yaroslavlda inşa etdirdiyi kilsənin divarlarında Bibliyadan alınmış mövzular deyil, dünyəvi biçin səhnəsi təsvir edilmişdir. Məhz XVII əsrdə yaranan posad kilsələrinin memarlığı insanlara itaətkarlıq, axirət dünyasına inam deyil, şadlıq, sevinc bəxş edən səhnələr təşviq edirdi. Kilsə xadimləri, patriarx Nikon kilsənin dünyəviləşməsinə əngəl törədərək, xüsusilə çadırvari kilsələrin inşasını dayandırmağı tələb edirdilər.

Böyük Rostovda, Nero gölünün sahilində mitropolit İon XVII əsrin 70-80-ci illərində Kreml formasında öz iqamətgahını inşa etdirmişdir. Möhtəşəm divarları, qülləələri, beş kilsə başlığı olan məbəd XVII əsr rus memarlığının möhtəşəm əsərlərindən biridir.

Sənaye və ticarətin inkişafı memar və inşaatçılardan yeni ticarət otaqları və sənaye müəssisələri tikməyi tələb edirdi. 1661-1665-ci illərdə Kitayqorodda

Moskva Qonaq sarayı tikilmişdir. Arxagelskdə inşa edilən Qonaq sarayı Şimali Dvina sahili boyu 400 metr uzunluqda idi. Bu sarayı 1668-1689-cu illərdə tətbiqi sənət ustası Dmitri Startsev inşa etmişdir.

Mütənasibliyin meydana çıxması rus memarlığında yeni hadisə oldu. Knyaz V.V.Qolitsının Moskvada 1689-cu ildə inşa etdirdiyi evi misal çəkmək mümkündür. Aşağı mərtəbəsi daş, yuxarı mərtəbəsi ağacdan tikilən evin bəzədilmiş 50 otağı, böyük zalı, 46 pəncərsi, 2 yarusu mövcud idi.

XVII əsrin son rübündə rus memarlığında yeni bir istiqamət – Moskva və ya Narışkin barokkosu meydana çıxmışdır. Barokko bədii üslubu üçün dəbdəbəli və zərif bəzək işi xas idi. 1693-1694-cü illərdə L.K.Narışkinin Filyada tikdirdiyi Pokrov kilsəsi bu üslubun ən möhtəşəm abidəsi idi.

XV əsrin sonlarında Moskva boyakarlıq məktəbinin ən böyük nümayəndələrindən biri Dionis (1440-1502) olmuşdur. Oğlanları Vladimir və Feodosi ilə birlikdə ikona yazan Dionisin nümunəvi sənət əsərlərindən biri Feraponto monastrının Məryəm ana kilsəsindəki divar naxışları işidir. Onların təsvir etdikləri müqəddəslər incəliyi, mənəvi zənginliyi, parlaq naxışlı rəngləri ilə seçilir.

1508-ci ildə Dionisin oğlu Feodosi başda olmaqla boyakarlıq arteli Moskvanın Blaqoveşen kilsəsində Məryəm ana mövzusunu işləyərək çəkmişlər. Kremlin Uspensk kilsəsinin naxışları isə 1515-ci ilə aid olub Dionis məktəbi ruhunda yerinə yetirilmişdir.

1547-ci ildə Moskvadakı dəhşətli yanğından sonra Kreml kilsələrinin naxışlarını bərpa etməyə pskovlu ustalar dəvət edilmişdir. Sifarişi yerinə yetirdikdən sonra onlar Bibliya mövzusunda bir sıra qeyri-adi ikonalar çəkmişlər. Məsələn, İsus Xristos döyüşçü yaraq-əsləhində bunlardan biridir.

XVI əsrdə kitab miniatür sənəti çiçəklənmişdir. Xüsusilə əsrin ikinci yarısında bir sıra şəkilli çoxcildli kitab yaranmışdır. 60-70-ci illərdə meydana çıxan «Miniatürlü salnaməli külliyyat» («Лицевой летописный свод») toplusunda 16000 şəkil-miniatür toplanmışdır.

Kitab çapının geniş miqyas alması yeni bədii üslubun – qravyura (oymaçılıq) sənətinin meydana çıxmasına şərait yaratdı. İvan Fyodorovun 1564-cü ildə çap etdiyi Apostol (Əshabə) şəkilli kitabını buna misal çəkmək olar.

XVI əsrin sonlarında ikonayazma sənətində yeni istiqamət olan stroqanovlar məktəbi meydana çıxmışdır. Moskvalı ustalar Prokopi, Çirin, Nikita, Nazari, Fyodor və İstoma Savinlər, Yemelyan Moskvin və b. bu məktəbin ən tanınan nümayəndələri olmuşdur. Onlar varlı sənayeçilər Stroqanovların sifarişlərini yerinə yetirirdilər. Bu ustaların işləri incəliyinə, zəngin naxışına və qızıl məmulatlarından bol istifadəsinə görə seçilirdi. İkonaların çoxu məişət və təbiət mözusu ilə tamamlanırdı.

XVII əsr boyakarlığında dünyəvi mövzuların önə çəkilməsi əsas rol oynamışdır. Simon Uşakov və İosif Vladimirov kimi ikona yazanlar sənətdə estetik meyarları qabartmağa çalışırdılar. Onlar Tanrı anlayışını gözəllik anlayışı ilə əvəz etmək istəyirdilər. Əsrin ortalarında ikona sənətinin mərkəzi boyar B.M.Xitrovun başçılıq etdiyi Silah palatası idi. Bütün boyakarlıq işinə Simon Uşakov və ətrafına topladığı məşhur ikona çəkənlər başçılıq edirdi. Bura xarici rəssamlar gələrək ustaları yağlı boya ilə işləməyə öyrədirdilər. Məhz burada çar ailəsinin, patriarx və boyarların portretləri hazırlanırdı. Simon Uşakov (1626-1686) dövrünün ən istedadlı rəssamlarından biri olmuşdur. 30 ildən çox rus ikona yazma sənətində yeni istiqamətə başçılıq edən sənətkar həm də «İkona yazma həvəskarlarına məsləhət» («Слово к люботщателем иконного писания») traktatının müəllifidir. Sənətkar qeyd edirdi ki, «rəssamlıq – həqiqi həyatın güzgüsüdür». Onun əsərləri təsvir etdiyi mövzunun həcmi, insan simasının düzgün nümayişi, təbii rəngləri ilə fərqlənir.

XVII əsrdə bir sıra tarixi şəxsiyyətlərin portretləri çəkilmişdir. İvan Qroznı, çar Fyodor İvanoviç, çarlar Mixail Fyodoroviç, Aleksey Mixailoviç, patriarx Nikon şəkili çəkilən tarixi simalar idi.

XVII əsr rus freska incəsənətində İlyi Prorok Yaroslavl kilsəsinin divar naxışları xüsusilə fərqlənir. Quri, Nikita və Sila Savin qardaşlarının işlədiyi səhnələr həqiqi həyat mövzuları ilə zəngin olub, canlı insanların yaşamını təsvir edir. Beləliklə, XVII əsrdə rəssamlıqda yeni istiqamət – həqiqi varlığın və canlı insanların təsviri sənəti bərqərar olmuşdur.

XVI-XVII əsrlər həm də, rus mədəniyyətində dekorativ-tətbiqi incəsənətin geniş yayılması ilə səciyyələnir. Artıq cah-cəlal, zinət təkcə çar sarayına deyil, varlı əyanlar, tacir və şəhərlilərin də evlərinə daxil olmağa başlamışdır. Bahalı daş-qaşdan, qızıl və gümüşdən hazırlanmış bəzək əşyaları əl əməyi sənətinin ən yaxşı nümunələri idi. Troitsa-Sergiev kilsəsinin Qızıl xəzinəsində çoxsaylı belə əl işi sənət nümunələri saxlanılır.

Rusiyada tökmə sənəti geniş vüsət almışdır. 1586-cı ildə Moskva topxanasının ustası Andrey Çoxov Moskva Kremlində qorunan 40 tonluq «Tsarpuşkanı» tökmüşdür. Müxtəlif naxış və təsvirlərlə bəzədilmiş «Çar topu» texniki və bədii cəhətdən rus tətbiqi incəsənətinin ən qiymətli sənət əsəridir.

Dekorativ tətbiqi sənətin inkişafında ağacoyma əl işi xüsusi yer tutur. Naxışlı oyma tədricən bitki nümunələrinin təsviri ilə daha da zənginləşmişdir. Ağacla bərabər daşların da oyularaq müxtəlif heyvan fiqurlarının, fantastik varlıqların təsviri əl işlərində öz əksini tapmışdır. Bütün bunlar XVI-XVII əsr rus mədəniyyətinin ayrılmaz tərkib hissəsini təşkil edirdi.

# IX FƏSİL
# RUSİYA XVII ƏSRİN SONU – XVIII ƏSRİN I RÜBÜNDƏ. RUSİYA İMPERİYASININ YARANMASI

## §1. Rusiya dəyişiklik ərəfəsində

1676-cı ildə çar Aleksey Mixailoviç vəfat etdikdə onun qədim boyar əsl-zadə nəslindən olan birinci arvadı M.İ.Miloslavskayadan iki oğlu, Fyodor və İvan, Sofiya böyük olmaqla altı qızı qalmışdır. Çarın ikinci arvadı çox da məşhur olmayan zadəgan nəslini təmsil edən N.K.Narışkina idi ki, onun da Pyotr adlı oğlu və bir qızı var idi. Çar öldükdən sonra tez bir zamanda Miloslavskilər və onlara yaxın olan adamlar 14 yaşlı xəstəhal Fyodoru Kremlin Qranovit palatasında taxta əyləşdirərək ona çar kimi and içdilər. Narışkinlərə qarşı sipər çəkən Miloslavskilər çar taxtı ətrafında birləşərək dövlətdə bütün həlledici mövqeləri ələ aldılar. Ertəsi gün çar Fyodor Alekseyeviçə (1676-1682) strelets polku və Moskva əhalisi and içdi. Yeni hökmdara dair fərmanlar bütün ölkədə yayıldı.

Zəif və gənc hökmdarın hakimiyyətə sahib olması ilə boyar klanları mütləq monarxiya hakimiyyətini zəiflədib boyar aristokratiyasının mövqeyini gücləndirməyə başladılar. Məsələn, «Gizli işlər prikazı və gizli axtarış sistemi» ləğv olundu. Dövlət xəzinəsinə ciddi nəzarət edən Hesablama palatası fəaliyyətini dayandırdı. Patriarxın qəti əleyhinə olduğu, kilsəni çara tabe edən Monastr prikazı işinə son verdi. Eyni zamanda Boyar dumasının rolu əhəmiyyətli dərəcədə artdı. Boyarların təkidli təkliflərindən sonra çar Narışkinlərin qardaşı A.S.Matveyevi Səfirlik prikazınım başçılığından azad etdi, ancaq xaç atası olduğu Pyotoru və onun anasını sarayda saxladı.

Artıq 1679-cu ildə 18 yaşı tamam olan çar tədricən işləri öz əlinə aldı. Bütütn prikazlardan gələn mübahisəli məsələləri həll etmək məqsədilə yenidən bərpa edilən Hesablama palatası işə başladı. Bilavasitə çara tabe olan palatada işlərə, imzaladığı fərmanlara çar özü çox halda təkbaşına qərar verirdi. Çar özünün gənc köməkçiləri okolniçi (boyar rütbəsi) Yazıkov, stolnik (saray xadimi) Lixaçev qardaşları, boyar və voyevoda V.V.Qolitsının iştirakı ilə hərbi, maliyyə, mərkəzi və yerli idarəetmə sistemi sahəsində islahatlar həyata keçirməyə başladı.Yeni quruluşlu polklar bölük və rotalara bölündü ki, onların da başında xarici hərbi rəislər dururdu. Dövlətin xidmət adamları

ərazi əlaməti əsasında bölünürdü. Polklardan ibarət olan doqquz hərbi dairə yarandı ki, ehtiyac olanda onlar bir orduda birləşə bilsin. Bütün hərbi işlərə birləşmiş hərbi prikazların başçısı rəhbərlik edirdi. Əslində ölkədə hərbi işlərin mərkəzləşməsi baş verdi.

Zadəganlara əlavə torpaq ayırmaq məqsədilə çarın əmri əsasında tatar basqınlarının qarşısını almaq adı altında sərhəd nişanlaması cənub istiqamətində daha da dərinliyə çəkilərək arxada qalan torpaqlar mülkədarlara paylanırdı. Qaçqın kəndlilərin axtarıb tapılması daha da sərtləşdirilmişdi.

Maliyyə sahəsində mövcud olan çoxlu əvvəlki vergilərin yerinə xeyli azaldılan vahid strelets pulu müəyyən olundu. Bu həyətbaşına adamların imkanına görə toplanılır, əvvəlki bütün güzəştçilər imtiyazlarını itirirdilər. Çar Fyodor Alekseyeviç yerli idarəçilik sahəsində islahat keçirərək yerlərdə voyevodaların hakimiyyətini, onların mərkəz qarşısında məsuliyyətini artırdı. Yerlərdə bir çox hakimiyyət idarələri ləğv edildi, onların hakimiyyəti, o cümlədən məhkəmə işləri voyevodalara verildi. Fyodor Alekseyeviçin Rusiyanın yeni mədəniyyətə doğru atdığı addımı göstərən yerliçiliyi («местничество») ləğv etməsi ölkənin taleyində mühüm rol oyanmışdır. Çar palatası qarşısında yerliçiliyə aid olan bütün sənəd və kitablar təntənəli surətdə yandırılmışdır.

XVII əsrin 70-80-ci illərinin əvvəlləri Rusiya dövlətinin tarixində yüz ildən uzun bir zamandan sonra ilk dəfə cənubda müdafiədən hücuma keçilmişdir. Rusiya və Polşa üçün Türkiyənin siyasəti təhlükəli olduğuna görə hər iki dövlət öz aralarında 1672-ci il müttəfiqlik müqaviləsi bağlayaraq Türkiyə ilə müharibəyə başladı. Rus ordusu Dnestrdən Azov türk qalasına qədər olan geniş ərazidə hücuma keçdi. Türk ordusuna Ukraynaya daxil olmağa can atan sultan başçılıq edirdi. Eyni zamanda Krım süvariləri cənubi rus qəzalarına hücum etdilər. Azov dənizinə daxil olan rus polklarının uğuru Krım xanının geri qayıdıb doğma torpaqları müdafiə etməsinə səbəb oldu. 1677-ci ildə Polşa kralı Türkiyə ilə sülh bağlayaraq Rusiyanı tək qoydu. Yeni çar dövründə mübarizə davam etmişdir. Rus qoşunlarına gənc voyevoda knyaz V.V.Qolitsın və təcrübəli hərbi sərkərdə knyaz Q.Q.Romodanovski başçılıq edirdi. Yüzminlik türk ordusu Çiqirinə hücum etsə də, məğlub olaraq geri çəkildi. Sultan 1678-ci ildə Çiqirinə yeni böyük ordu göndərsə də, şəhərə tam sahib ola bilmədi. Türk və tatar qoşunu sağsahil Ukraynasının böyük hissəsini işğal etdi. 1681-ci ildə 20 il müddətinə sülh imzalandı, Osmanlı dövləti Rusiyanın solsahil Ukraynası və Kiyev üzərindəki hakimiyyətini tanıdı. Sağsahil Ukraynası döyüşən tərəflər, o cümlədən tatarlar üçün bitərəf zona elan edildi. Bu Krım xanına bu yerlərdən Rus və Ukrayna torpaqlarına basqınlar təşkil etməyə şərait yaratdı.

Fyodor Alekseyeviçin həyata keçirdiyi islahatlar onu I Pyotorla yaxınlaşdırır. Məlum deyil ki, çar sağ olsa idi Rusiya gələcəyə hansı yolla addımlayardı. Lakin Fyodor Alekseyeviçin ömrü qısa oldu və çar 1682-ci ildə 20 yaşında vəfat etdi.

Aprel ayının 27-də çarın ölümündən sonra Narışkinlərlə Miloslavskilər arasında taxt uğrunda mübarizə on yaşlı Pyotrun çar elan edilməsi ilə bitdi. Lakin Miloslavskilər çar Fyodorun həyata keçirdiyi islahatlar nəticəsində vəziyyətləri pisləşən, vaxtlı-vaxtında aylıq haqlarını ala bilməyən, çox zaman hüquqları komandirləri tərəfindən sıxışdırılan strelets polklarının köməyindən istifadə etdilər. 1682-ci ilin mayın 15-də şahzadə Dmitrinin növbəti ölüm günü Uqliçdə strelets polku "Narışkinlər şahzadə İvanı öldürdülər" şayiəsinin yayılması üzrə qiyam qaldıraraq Kremlə daxil olub çar sarayına girdilər. Çariçə Natalya Kirillovna Narışkina Pyotr və sağ-salamat İvanla onların qarşısına çıxdı. Bir an sakitləşən streletsləri öz komandirlərinin oğlu Mixail Dolqorukovun hədələməsi onların qəzəblənib hücum edərək hərbi rəis Dolqorukovu, boyar A.S.Matveyevi, knyaz M.A.Çerkasskini qətl etməsilə nəticələndi. Streletslər Narışkinlərin yaxınları ilə haqq-hesab çəkdikdən sonra qocaman hərbi voyevoda knyaz İvan Andreyeviç Xovanskini özlərinə başçı təyin etdirdilər. Onların tələbilə mayın 26-da Boyar duması patriarxla birlikdə İvan Alekseyeviçi birinci, Pyotru isə ikinci çar elan etdi. Üç gündən sonra çarlığa namizədlərin azyaşlı olması səbəbilə dövlətin idarə olunması onların böyük bacısı şahzadə Sofiyaya tapşırıldı və o qardaşlarının qəyyumu oldu. Səfirlik prikazının başçısı knyaz Vasili Vasiliyeviç Qolitsın təyin olundu ki, o da faktiki olaraq ölkənin daxili və xarici siyasətini ələ alaraq Rusiyanın kansleri oldu. Boyar dumasının, Zemstvo məclisinin mövqeyi xeyli gücləndi.

Moskvada ikihakimiyyətlilik yaranmışdır, bir tərəfdə Xovanskinin başçılıq etdiyi streletslər, ikinci tərəfdə rəsmi qəyyum Sofya, onun kansleri Qalitsın, Boyar duması və prikazlar. Avqust ayının axırında çar sarayı paytaxtı tərk edərək Kolomensk kəndinə yola düşdü. Bir həftədən sonra Moskvadakı bütün vəzifəli adamları dövlət sarayına dəvət etdilər. Çar sarayına yola düşən İ.A.Xovanski və oğlu hökumət qoşunlarını tərəfindən tutularaq qətl edildi. Zadəgan qoşununun başında Moskvya daxil olan Qolitsın streletslərin hakimiyyətin əfvinə sığınmasından sonra vəziyyətə nəzarəti bərpa etdi.

Sofiya qanunsuzluq və rüşvətin ən çox yayıldığı məhkəmə işlərində nizam yaratmaq istəyirdi. Rusiya tarixində ilk dəfə olaraq yeni hökumətin şüarı «qanun» və «qayda» elan edildi. Bəzi cinayətlərə görə ölüm hökmü ləğv olundu. Yeni hökumət təhkimçi kəndlilərin azadlığını yumşaldaraq zadəganların tələbinin əksinə olaraq şəhərlərə qaçan kəndlilərin qaytarılmasını qadağan etdi.

Zadəganlar deyil, yalnız voyevodalar qaçqın kəndlilərin axtarışı ilə məşğul ola bilərdi.

1682-ci il dövlət çevrilişi, strelets üsyanı, yeni qarışıqlıq imkanı Rusiyanın rəqiblərini fəallaşdırdı. Sofiya və Qolitsının bacarığı nəticəsində Rusiya bu çətin beynəlxalq vəziyyətdən çıxa bildi. 1686-cı ildə təntənəli şəraitdə V.V.Qolitsının diplomatik uğuru sayəsində Polşa ilə «Əbədi sülh» imzalandı. Yüzillik düşmənçilik sona çatdı, Polşa Dneprin solsahilini və Kiyevin qəti olaraq Rusiyanın hakimiyyəti altına keçməsini qəbul etdi.

1687-ci ilin yayında rus qoşunları Qolitsının başçılığı altında cənuba, birinci Krım yürüşünə başladı. Qara dəniz sahilindəki güclü türk qalası Oçakov işğal olundu. Lakin Qolitsın hərbi əməliyyatın uğurlu davamını təmin edə bilməyərək geri döndü. 1689-cu ildə Qolitsın müttəfiqlik borcunu yerinə yetirərək ikinci Krım səfərinə başladı. Rus qoşunlarını yeni Ukrayna getmanı İvan Stepanoviç Mazepanın (1644-1709) kazakları da müdafiə edirdilər. Birləşmiş qoşun üç qələbədən sonra tatar süvarilərini məğlub edərək Perekop qalasına yaxınlaşdı. Krım xanı sülh istəyərək Ukraynanın bir hissəsinin Kiyevlə birlikdə Rusiyaya keçməsini qəbul etdi. Qələbə yarımçıq olsa da, gələcəkdə Qara dənizə çıxmaq uğrunda Türkiyə və Krım xanlığı ilə strateji mübarizənin əsası qoyuldu.

Sofiya Narışkin ailəsini, o cümlədən çar taxtına «ikinci» namizəd I Pyotru Moskva altındakı Preobrajensk kəndinə göndərmişdi. Onun müəllimi olan Nikita Moiseyeviç Zotov Pyotra oxumaq, yazmaq, hesablamaq öyrətmişdir. Boş vaxtlarında hərbi oyunlarla məşğul olurdu. Pyotr azyaşlı gənclərdən kiçik qoşun düzəltmişdi ki, bu da «uşaq» («потешные») qoşun adlanırdı. Tezliklə məşqlərdə bərkiyib təcrübə qazanan bu qoşundan iki batalyon yarandı ki, onlar da gələcək Pyotr qvardiyası polkları – Preobrajensk və Semyonov qoşun birliyi kimi formalaşmışdır. Anasının təkidi ilə 17 yaşında gənc və gözəl Yevdokiya Lopuxina ilə evlənən Pyotrla ögey bacısı Sofiya arasındakı hakimiyyət uğrunda amansız mübarizə başladı. Sofiyanın gec-tez hakimiyyəti verməli olduğunu nəzərdə tutan Boyar Duması, zadəganların böyük əksəriyyəti tədricən Pyotru müdafiə etməyə başladılar. 1689-cu il avqustun 7-dən 8-nə keçən gecə Pyotra xəbər çatdırırlar ki, Sofiya və Kremlə dəvət edilən streletslər Şaklovitı başda olmaqla Preobrajensk kəndinə hücum etməyə hazırlaşır. Troitsa-Sergiev monastrına yola düşən Pyotr bütün strelets və əsgər rəislərini monastra dəvət etdi. Onunla danışığa gələn patriarx da monastrda qaldı. Tezliklə iki «uşaq» polku da hərbi geyim və silah-sursatı ilə qanuni hökmdarın sərəncamına gəldi. Avqustun axırında Boyar dumasının üzvləri, prikzaların başçıları, strelets polkları, ardınca Sofiya və Qolitsın monastra doğru yola

çıxdılar. Kansleri yolda dayandırıb ailəsi ilə birlikdə uzaq Karqopola sürgünə göndərdilər. Sofiyanı yolda saxlayıb Moskvya qayıtmağa məcbur edib sonra Novodeviçi monastrına qapatdılar. Streletslərin rəisi Şakloviti və tərəfdarlarını sorğu-sualından sonra edam etdilər. Beləliklə, qanlı hesablaşma və sürgünlərdən sonra I Pyotrun müstəqil çarlıq dövrü başladı.

### §2. I Pyotrun dövrü

1689-cu ildə hakimiyyətə sahib olması ilə Sofiya-Qolitsın islahatlarına son qoyan yeni çar I Pyotr əvvəlki kimi hərbi işlərlə daha çox vaxt keçirirdi. Dənizçiliyə, dəniz gəmilərinə maraq onun fəaliyyətində ayrıca yer tutmağa başladı. Gənc çarın maraq dairəsinə daxil olan növbəti bir məsələ fiziki əməyə, sənətə olan həvəsi olmuşdur. Gənc yaşlarından dülgər, dəmirçi, rəngsaz və b. peşələrə sahib olmaq istəyi onu bütün həyatı boyu müşayiət etmişdir.

Tez-tez Moskva yaxınlığındakı Alman qəsəbəsində («слободе») olan I Pyotr xarici hərbi mütəxəssislərlə, sənətkar, mühəndis, tacirlərlə görüşərək onlardan Avropa haqqında məlumatlar toplayırdı. Pyotr şotlandiyalı general, hərbi biliklərilə fəqlənən Patrik Qordonla (1635-1699) və Avropa adət-ənənələrinin dərin bilicisi isveçrəli Frans Lefortla (1655/1656-1699) dostlaşır. Alman qəsəbəsi sakinlərinin evlərində hərbi sənətə, astronomiya, tibbə dair ədəbiyyatla tanış olan Pyotr alman və holland dillərini öyrənir, Avropa həyat tərzi ilə tanış olur. 1693-cü ilin yayında öz məsləkdaşları ilə şimali Dvinanın mənsəbində olan və ilin çox vaxtı buz bağlayan Rusiyanın yeganə limanı Arxangelskə baş çəkir. Dənizə və dənizçilik işinə olan sonsuz maraq, əsl böyük donanma qurmaq niyyəti onu Şimala çəkirdi. Arxangel limanında ingilis, alman, holland ticarət gəmiləri lövbər salmışdır. Liman müxtəlif dillərdə danışan avropalılarla dolu idi. Pyotr xarici tacirlərin, dənizçilərin, gəmiquraşdıranların evlərinə, gəmilərə daxil olaraq gördükləri ilə tanış olurdu. I Pyotr Arxangelskdə hollandiyalı mütəxəssislərə gəmi sifariş edir, yerli tərsanədə isə ilk iki rus freqatının quraşdırılması başlanılıı.

1694-cü ildə I Pyotrun anası N.K.Narışkina vəfat etdi, çar anasının vəfatını dərin hüznlə qarşılayaraq bir neçə gün çadıra qapanıb-qalmışdır. Tədricən özünə gələn çar öyrənib bildiklərini nəzərdən keçirərkən XVII əsr Rusiyası ilə qabaqcıl Avropanı müqayisə edərək ölkəni əsaslı dəyişikliklər yolu ilə yeniliyə, mədəniyyətə doğru aparmağı qarşısına məqsəd qoymuşdur.

1694-cü ilin yazında Pyotr yenidən Arxangelskə baş çəkdi, tərsanədə inşa edilən gəmini suya buraxdı. Bir aydan sonra şimali Dvina sularında artıq ikinci gəmi üzürdü. Ardınca Hollandiyadan sifariş edilən üçüncü freqat gəldi ki, bu da donanma demək idi. Çar ağ, göy, qırmızı rənglərdən ibarət bayraq fikirləşərək donanmaya təqdim etdi ki, bu Rusiyanın müasir bayrağı oldu.

I Pyotr cənubda təkcə Rusiyanın əsrlik düşməni Krım xanlığını ləğv etmək deyil, Azov və Qara dəniz sahillərinə sahib olub Rusiyanın cənubi Avropaya yolunu açmaq niyyətində idi. Bu məqsədlə, eyni zamanda Osmanlı imperiyası əleyhinə Müqəddəs cəmiyyətə daxil olan müttəfiqlərin tələbi ilə 1695-ci ilin yazında iki rus ordusu cənuba doğru hücuma keçdi. Zadəgan süvariləri kazaklarla birlikdə Boris Petroviç Şeremetevin başçılığı altında Dneprin aşağılarına hücum edərək bir neçə türk qalasını ələ keçirdi. İkinci ordu I Pyotr da başda olmaqla F.Lefort, F.A.Qolovin və P.Qordonun komandanlığı altında Azova hücum etdi. Beləliklə, I Pyotrun 52 illik həyatının 32 ili müharibələrdə keçən günləri başladı. İlk mərhələdə Azov yürüşünün uğursuzluğu çarı ordu və donanmanı yeni yürüşə hazırlamağa səfərbər etdi. Yeni gəmilər, qayıqlar inşa edildi, Rusiyanın cənub Don-Azov donanması meydana gəldi. Qalanı dənizdən mühasirə edən rus donanmasının mövqeyinə görə türk donanması köməyə gələ bilmədi, rus ordusunun top atəşindən sonra hücuma keçən qoşun Azov qalasına daxil oldu. Yeni donanmanın dayanacaq yeri kimi Taqanroq qalası və limanının əsası qoyuldu. Bu gənc çarın birinci böyük qələbəsi oldu.

Pyotr Türkiyənin əleyhinə olan dövlətlərin mövqeyini araşdırmaq, Avropanın sənayesi, hərbi işi, mədəniyyəti, adət və ənənəsini oöyrənmək məqsədi ilə Qərbə 1697-ci ildə səfirlik heyəti göndərməyi qərara almışdır. Eyni zamanda səfirlik nümayəndələri və çar özü də Avropa hərbi sənətini, mühəndisliyi, gəmiqurașdırma və b. sənətləri də öyrənərək Rusiyada tətbiq etmək niyyətində idilər. 250 nəfərdən ibarət olan səfirliyin tərkibinə çar özü də uryadnik Pyotr Mixaylov adı ilə daxil idi. Bu saray tədbirlərinə, qəbul və əyləncələrə az vaxt sərf etmək məqsədi daşıyırdı. Səfirliyə rəsmi olaraq F.Lefort, Səfirlik prikazının rəisi F.A.Qolovin və dyak P.B.Voznitsın başçılıq edirdi. Səfirlik nümayəndələri Kurlyandiya, Brandenburq, Hollandiya, İngiltərə və Avstriya torpaqlarında oldular. Qərb dövlətləri ilə yarımgizli şəraitdə Türkiyəyə qarşı müttəfiq axtarışında olan Pyotr, eyni zamanda Hollandiyanın Saardam tərsanəsində dülgərliklə məşğul olur, yel dəyirmanlarında ustalıq öyrənirdi. Amsterdamda teatra, anatomiya muzeyinə baş çəkən Pyotr gəmiqurașdırma ilə xüsusi maraqlanmışdır. İngiltərədə parlamentdə, elmi mərkəz olan kral cəmiyyətində, Oksford Universitetində olan Pyotr Sikkə sarayında bir neçə dəfə onun mü-

diri İsaak Nyutonla görüşmüşdür. Çar özü və məsləkdaşları səfər nəticəsində çox şey görüb və öyrəndilər. Pyotr əyani olaraq Avropa mədəniyyətini bütün parlaqlığı ilə gördü, şəhərlər, universitetlər, muzeylər, qüdrətli Britaniya donanması çara güclü təsir göstərmişdir.

Lakin Qərbdə olan parlament, xalq nümayəndəliyi sistemi, seçki kimi demokratik ənənələrə çar biganə və yaxud düşməncəsinə münasibət bəsləmişdir. Çar dərk etməmişdir ki, məhz bu siyasi dəyişikliklər İngiltərə, Hollandiya kimi dövlətləri Avropanın qabaqcıl sənaye dövlətlərinə çevirmişdir. Çar Rusiyaya olduğu kimi, yəni mütləq hökmdar, istibdadçı hakim kimi qayıtdı.

Avropa səfəri göstərdi ki, Qərb dövlətləri Türkiyə ilə mübarizədə müttəfiqlik borclarını yernə yetirmək niyyətində deyildilər. Odur ki, çar Türkiyə ilə sülh təmin edib Baltik dənizinə çıxmaq məqsədilə şimala üz tutdu. İndi Rusiyanın müttəfiqləri Polşa, Branderburq, Danimarka və Saksoniya ola bilərdi. Geri dönən zaman çar Venada strelets qiyamına dair xəbər alaraq təcili Rusiyaya tələsdi.

1698-ci ilin avqustunda Moskvaya qayıdan Pyotr Kreml sarayına deyil Preobrajensk kəndinə yollandı. Boyar və prikaz adamlarını qəbul edən I Pyotr şəxsən qayçı ilə onların saqqalını kəsərək «Avropa sifəti» tərzinə salmışdır. Saqqal yalnız dini xidmətçilər və yüksək vergi ödəyənlər saxlaya bilərdi. Çar belə qəti və kobud davranışla Rusiyanı «Avropalaşdırmağa» başladı. Avropasayağı geyim təbliğ edən çar uzun rus kaftanlarının ətəyini kəsərək dərzilərə onu tikmək, tacirlərə isə satmaq qadağan olunurdu. Sevmədiyi arvadı ilə haqq-hesab çəkən I Pyotr onun saçlarını kəsdirib monastra salmağı əmr etdi ki, bu da oğlu Alekseyin məyus olmasına, atası ilə arasının soyuqlaşmasına səbəb oldu.

Pyotr streletslərin işləri ilə də məşğul olaraq onlarla əlaqəsi iddiası ilə çariçə Sofiyanın saçını kəsdirib rahibəliyə göndərdi. Əlavə olaraq iki min nəfərdən çox strelets edam edildi, 195 nəfər isə Pyotrun əmri ilə hücrəsinin qarşısında asıldı. Çar özü yaxın ətrafı ilə nifrət etdikləri streletslərin boynunu vururdu.

Avropada gördükləri mədəniyyəti Rusiyada tətbiq etmək üçün ölkədə ali və orta ixtisas məktəbləri açmaq zəruri idi. Bu işə başlamaq üçün Moskvada İngiltərədən dəvət edilmiş müəllimlərin iştirakı ilə naviqasiya, yəni gəmiçilik elmi məktəbləri açıldı. Şagirdlər məktəblərdə riyaziyyat, həndəsə, kartoqrafiya, astronomiya, naviqasiya elmlərini öyrənir, dənizçilik alət və qurğuları ilə tanış olurdular. Çarın təşəbbüsü ilə Moskvada köhnə slavyan dilində deyil, yeni vətəndaş şriftləri ilə yığılan mətbəə açıldı. 1700-cü il yanvarın 1-dən yeni il köhnə qaydada olduğu kimi dünyanın yaranışı hesab edilən sentybarın 1-dən deyil, Avropanın qəbul etdiyi kimi, İsa peyğəmbərin anadan olması gü-

nündən, yəni yanvarın 1-dən hesablamağa başladı. Yeni il təqvimi ilə birlikdə Rusiyaya yeni il bayramı yolka ağacı ilə birgə qədəm qoydu.

Tədricən çar köhnə hakimiyyət orqanları olan Boyar Duması və prikazların əhəmiyyətini azaltdı. Duma üzvü olan boyarlar qocalıb öldükdə çar onların yerinə yeni adam təyin etmirdi, beləliklə Boyar Duması təbii yolla öz fəaliyyətini dayandırırdı. Prikazların bir hissəsini ləğv edən çar yerdə qalan hissəsini isə birləşdirirdi.

1700-cü ildə Moskvada qoca patriarx vəfat etdikdə Pyotr onun yerinə heç kimi təyin etmədi. Patriarxlığın əmlakı Monastr prikazının sərəncamına tabe edildi. Patriarxın əvəzinə isə kilsənin başına müvəqqəti olaraq ali ruhani vəzifəsini aparan şəxs, yəni naib təyin olundu ki, o da yalnız dini məsələlərlə məşğul ola bilərdi.

I Pyotr dövlət xəzinəsi hesabına Kareliya və Ustyuq diyarında yerli metal emalı zavodları tikdirməyə başladı. Zəngin filiz mədənləri olan Uralda ağır sənayenin ilk zavodları meydana çıxdı. Çünkü yeni ordu və donanmanın top, tüfəng, qılınc və b. hərbi sursata çox ehtiyacı var idi.

## §3. Şimal müharibəsi

1700-cü il avqustun 8-də Osmanlı dövləti ilə 30 il müddətinə Azov və ona bitişik ərazilərdə Rusiyanın hakimiyyətini qəbul edən sülh imzaladıqdan sonra I Pyotr İsveçə məxsus Narva qalasına hücuma keçməyi orduya əmr etdi. Uzun davam edən Şimal müharibəsi başladı ki, Danimarka, Saksoniya, Polşa İsveçə qarşı Rusiya ilə müttəfiq idi. Bu zaman İsveç Avropanın ən qüdrətli dövlətlərindən biri olaraq demək olar ki, bütün Baltik dənizi sahillərini ələ keçirmişdi. İsveç dövlətinin başında Avropadakı hərbi əməliyyatlarda parlaq qələbələr qazanan 18 yaşlı gənc kral XII Karl dayanmışdı.

Rus ordusu Narvaya doğru yola çıxdıqdan sonra XII Karl tez bir zamanda Baltik dənizinin cənub sahillərinə qoşun çıxarıb Kopenhagenə hücum edərək Danimarkanı sülh bağlamağa məcbur etdi. İsveçlilər hücum edərək saksoniyalıları polyak kralı II Avqust başda olmaqla Riqanın mühasirəsindən əl çəkib qaçmağa məcbur etdilər. Bu qələbələrdən sonra «İsveç şiri» ləqəbli gənc kral 15 minlik qoşunla Estoniya sahillərinə çıxaraq Narvaya doğru hərəkət etdi. Bu zaman 40 minlik rus ordusu şəhəri mühasirədə saxlasa da, uğur qazana bilmədi. Hərbi sursat və ərzaq çatışmazlığı, payızda yolların keçilməz çətinliyi, rus əsgərləri arasında yayılan aclıq, xəstəlik, soyuq, köhnə və yeni polkların

döyüş əməliyyatları aparmaq təcrübəsi və bacarığının yetərsizliyi Narva döyüşünün taleyini İsveçin xeyrinə həll etdi. Noyabrın 18-də Narvaya çatan XII Karl ertəsi gün hücum edib rus polklarını ağır məğlubiyyətə uğratdı. Çoxlu rus əsgəri döyüş meydanında öldürüldü, əsir düşdü və ya Narva çayında boğuldu. İsveç kralı rus ordusuna topları təhvil verib öz silahlarını saxlamaq şərtilə qalanı tərk edib Novqorod tərəfə çəkilməyə icazə verdi. Bundan sonra rus çarı ilə haqq-hesabı bitirdiyini düşünən XII Karl II Avqustu təqib etmək üçün Polşaya doğru yola çıxdı.

Narva məğlubiyyəti nə I Pyotrun, nə də Rusiyanın iradəsini sındırdı. Məğlubiyyət ağır zərbə olsa da müharibənin taleyini həll etmədi. Bu dərsdən nəticə çıxaran çar daha böyük əzm və əməksevərliklə gələcək qələbələrin təməlini qoydu. İsveçlə yeni toqquşmaya hazırlaşan I Pyotr Novqorod və Pskovda möhkəm müdafiə qurğuları tikdirdi, Uralda daha keyfiyyətli toplar tökülməyə başladı, hətta çarın əmri ilə kilsə zəngləri çıxarılıb əridilərək toplar üçün metal əldə olundu. Qısa müddətdə 300 müxtəlif çeşidli top hazırlandı. Çarın bu tədbirləri nəticə verdi, XII Karl böyük Reç-Pospolita ərazisində II Avqustu təqib edərkən feldmarşal B.P.Şeremetevin komandanlğı altındakı rus qoşunları 1701-ci ildə Liflyandiyada hücuma keçərək ilk qələbələrini qazandılar. İsveçlilərin Arxangelsk və Pskovu almaq cəhdinə son verildi, hətta Şeremetev ordusu ilə birlikdə general Şlippenbaxın korpusuna hücum edərək onları qaçmağa məcbur etdi.

1702-ci ildə I Pyotrun başçılıq etdiyi rus ordusu isveçliləri Kareliyadan sıxışdıraraq Nevanın mənbəyindəki Noteburq qalasını güclü top atəşindən sonra təslim aldı. Pyotr qalaya Şlisselburq («açar-şəhər») adını verdi. Çünki şəhər Neva çayında hərəkət etməyin açarı idi. Neva çayı boyunca hücumu davam etdirən rus əsgərləri 1703-cü ilin yazında Nienşand qalasını zəbt edərək Baltik dənizinə çıxışı təmin etdilər. 1703-cü il mayın 16-da buradakı adaların birində Pyotr «Sankt-Peterburqun başlanğıcı» olan Petropavlov qalasının əsasını qoymuşdur. Strateji nöqteyi-nəzərdən yeni şəhər – qalanın əhəmiyyəti fövqaladə dərəcədə yüksək idi. Məhz buradan sözün əsl mənasında «Avropaya pəncərə», Baltik dənizinə yol açılırdı. Pyotr bu ərazilərdə admirallıq tərsanəsin yaradaraq Baltik donanmasının qurulmasına başladı. Neva çayı mənsəbinin qarşısında Baltik donanmasının hərbi bazası olan Kronştdat qalasını tikdirdi. 1713-cü ildə I Pyotr Rusiyanın paytaxtını Moskvadan Nevanın sahillərinə köçürdü.

Rus ordusu Baltikyanı ərazilərdə irəliləyərək keçmiş rus şəhərləri Yam və Koporyeni İsveç qoşunlarından təmizlədi. Narvaya hücum edən rus polkları ağır top atəşindən sonra qalanın divarlarını dağıdaraq 1704-cü il avqustun

4-də ona sahib oldular. İndi mənbəyindən mənsəbinə kimi Neva çayı, Kareliya və Baltik, yeni torpaqların çox hissəsi Pyotrun əlində idi, isveçli qoşunu bütün istiqamətdə geri çəkilirdi.

Polşada Varşava və Krakovu da ələ keçirən XII Karl II Avqustu sülh bağlamağa məcbur etdi, barışığın şərtlərinə əsasən, II Avqust Polşa taxtını itirərək yanız Saksoniyanı öz əlində saxladı. Öz tərəfdarı Stanislav Leşinskini taxta əyləşdirən İsveç kralı ordusunu Rusiyaya doğru yönəltdi. I Pyotr Rusiyanın sərhədlərinə yaxınlaşan XII Karlın ordusu ilə əsas döyüşə girməyərək düşməni yorub taqətdən salmaq məqsədilə ölkənin içərilərinə çəkilməyə başlayaraq belorus Polesyesində möhkəmləndi. 1708-ci ilin yanvarında İsveç kralının ordusu Litvada Qrodno, Minsk, Mogilyovu işğal etdi. Ukrayna getmanı İvan Mazepanın onların tərəfinə keçdiyini xəbər alan XII Karl ərzaq əldə etmək və ordusuna dinclik vermək məqsədilə Ukrayna torpaqlarına qədəm qoydu. Lakin burada onu yerli əhalinin partizan dəstələri, tez hərəkət edən rus əsgəri birliklərinin qəfil hücumları qarşıladı.

1708-ci il sentyabrın 28-də Lesnya kəndi yaxınlığında Pyotr 11500 nəfərlik süvari qoşunu ilə XII Karla silah-sursat, ərzaq gətirərək general Levenqaupt başda olmaqla 16 minlik İsveç qoşunu qarşıladı. Bir neçə saat davam edən döyüşdən pərən-pərən düşən İsveç əsgərlərindən yalnız yeddi min nəfərə yaxını əsas ordu ilə birləşə bildi. I Pyotr Lesnya altındakı qələbəni «Poltava döyüşünün anası» adlandırmışdır.

1708-1709-cu illərin payız və qışında Ukraynada hərəkət edən İsveç qoşununu soyuq, aclıq, xəstəlik əldən salmışdı. Məhz bu zaman Mazepa öz tərəfdarları üçün İsveç krallığının bayrağındakı rəngləri təkrar edən sarı-göy bayrağı təsbit etmişdir. 1709-cu ilin aprel ayında sayları azalan İsveç ordusu XII Karlın komandanlığı altında Moskvaya və Krım xanlığına gedən yolu açmaq məqsədilə Poltava şəhərini mühasirəyə aldı. Poltava isveçlilərin bütün qorxulu hücumlarının qarşısını aldı. Üç aylıq müqavimət nəticəsində rus ordusunun əsas qüvvələri I Pyotr başda olmaqla şəhərə yaxınlaşdı. Döyüş yerini özü müəyyən edən çar rus düşərgəsinin qarşısında torpaq istehkamlar – redutlar saldırdı. Vorskla çayı və meşəlik ərazi rus qoşunlarının cinahlarını qoruyurdu. Poltava isə isveçlilərin arxasında qalırdı. XII Karlın Avropanın yarısını döyüşlərlə keçmiş 30 min, I Pyotrun isə 47 min nəfərlik ordusu var idi. Artilleriyada da həlledici üstünlük isveçlilərin 39 topuna qarşı 102 topla rus ordusunda olmuşdur.

1709-cu il iyulun 27-də İsveç ordusu hava işıqlanar-işıqlanmaz dörd cərgə boyu hücuma keçdi. Arxasınca süvarilər hərəkət etdi. Menşikovun süvariləri düşmənin qarşısına çıxaraq onlara xeyli müqavimət göstərdikdən

sonra qurulan redutların arxasına çəkildilər. Torpaq istehkamlarındakı rus əsgərləri isveçliləri yayılım atəşləri ilə qarşıladı. II Karl feldmarşal Renşildə rusların mövqeyinə cinahlardan hücum etməyi tapşırdı. Lakin burada olan rus süvari və piyada polklarının müqavimətilə qarşılaşan isveçlilər XII Karlın əmri ilə yenidən mərkəzə, rus redutlarına hücuma keçdilər. Redutların arasından xeyli itki verərək keçən İsveç ordusu rusların düşərgəsinə 70-80 metr qalmış güclü top atəşi ilə qarşı-qarşıya qaldılar. Meşəyə qaçmağa çalışan İsveç ordusunu XII Karl yenidən döyüş meydanına qaytardı. Səhər saat 9-da hər iki ordu qarşı-qarşıya gələrək top atəşi altında döyüşü davam etdirirdilər. Rus ordusunun mərkəzində dayanan birinci Novqorod piyada polku isveçlilərin hücumuna tab gətirməyib geri çəkilərkən I Pyotr şəxsən ikinci Novqorod piyada polkunu döyüşə apararaq isveçlilərin hücumunun qarşısını kəsib rus ordusuna bütün cəbhə boyu əks-hücuma keçmək əmrini verdi. Eyni zamanda general Bourun və Menşikovun süvariləri cinahlardan isveçlilərə əks-zərbə vurdular. İsveç qoşunu geri çəkilməyə başladı. Atdan yıxılan və üz-gözü qan içində olan XII Karlı əsgərləri zorla döyüş meydanından apara bildilər. Təqib olunmaqdan xilas olan İvan Mazepa bir qrup kazakla qaçdı. Geri çəkilən İsveç ordusu qaçaraq ətraf meşələrdə gizlənməyə cəhd etsələr də, rus süvariləri buna imkan yaratmadılar. Öz düşərgələrinə qayıtmağa çalışan isveçliləri Poltavadan çıxan qala müdafiəçiləri qarşıladılar. İsveç əsgərləri silahı yerə qoyaraq təslim oldular. Üç minə yaxın əsgər və zabit, o cümlədən feldmarşal Renşild əsir alındı. Kralın xəzinəsi, 264 İsveç bayrağı rusların əlinə keçdi. Döyüş meydanında məğlub olaraq qaçan İsveç ordusunu süvari rus polkları iyunun 30-da Dneprin sahilindəki Perevoloçnıda saxladılar və 16 minlik İsveç ordusu tərksilah olundu. XII Karl və Mazepa bir neçə qayıqda çayı keçərək çöllük ərazidən Türkiyəyə yola düşdülər. Bu qələbədən xeyli razı qalan I Pyotr Poltava döyüşü yerində öz şərəfinə kilsə ucaltmağı tapşırdı. Kiyev və Moskvada da qələbə böyük şənlik və təntənə ilə qeyd olundu. Şanlı qələbə haqqında Avropa hökmdarlarına fərmanlar göndərildi. Poltava qələbəsi Rus dövlətinin və onun çarı I Pyotrun nüfuzunu son dərəcə yüksəltdi. Təşəbbüsü əldən verməməyə çalışan I Pyotrun əmrilə Şeremetevin komandanlığı altında rus ordusu Baltikyanı ərazilərdə, Menşikovun korpusu Polşada hərbi əməliyyatlara başladı. Rus qoşunları Vborq, Revel, Riqanı ələ keçirdilər. 1709-cu ilin payızına doğru Liflyandiya, Estlyandiya, Koreliya İsveç qoşunundan tam azad olundu. I Pyotrun köməyi ilə II Avqust özünə gəldi, Stanislav Leşinski Polşadan qaçdı.

XII Karl və Mazepanın təhrikilə 1710-cu ildə Osmanlı dövləti Rusiyaya müharibə elan etdi. Polşa və Baltikyanı ərazilərdəki rus ordusu cənuba gön-

dərildi. May ayında artıq B.P.Şeremetevin ordusu çarla birlikdə Dnestrdə idi. Rus qoşunlarının ləngiməsi 120 minlik türk ordusuna birinci hərəkət edib Dunayda düşərgə quraraq Balkan yarımadasından rusların köməyinə gələ bilən slavyanların yolunu kəsdilər. İyulun əvvəlində türk ordusu Prut çayının sahillərində 38 minlik yorulub əldən düşmüş rus ordusunu mühasirə etdi. 135 minlik türk ordusu və Krım süvariləri ilə iyulun 9-da döyüş başladı. Üç saatlıq döyüşdən sonra hücum dəf edilsə də, mühasirədə olan çar, rus generalları və ordu əsir düşmək təhlükəsi ilə üzləşdi. Odur ki, hərbi şuranı çağıran çar Türkiyədən sülh istəməyi qərara aldı. Təcrübəli diplomat Pyotr Pavloviç Şafirov türklərlə danışıq məqsədilə onların düşərgəsinə yola düşdü. Sülhün şərtlərinə əsasən, Rusiya Azovu Türkiyəyə qaytarır, Taqanroq tikilisini dağıdaraq öz qoşununu Polşadan geri çəkməli idi. Rus ordusu silahı, topu və bayraqları ilə evə qayıda bilərdi.

Prut yürüşündən qayıtdıqdan sonra 1712-ci ildə Fridrixşdat altındakı döyüşdə rus ordusu I Pyotrun başçılığı ilə İsveç qoşununu dağıtdı. 1713-cü ildə İsveçə məxsus olan Finlandiyada hərbi əməliyyatlar aparan rus polkları buranı ələ keçirdilər. Pyotr yaxşı başa düşürdü ki, İsveçə qalib gəlmək üçün onu dənizdə də məğlub etmək lazımdır. Sankt-Peterburqdakı admirallıq tərsanəsində və Kareliyadakı Ladoqa dənizinin yaxınlığındakı Olonetsk tərsanəsində çoxlu gəmi istifadəyə verilməsi sayəsində rus donanması əsasən qaleralardan olmaq etibarilə 200 gəmi ilə 1714-cü ilin iyulunda admiral F.M.Apraksin və Pyotrun başçılığı ilə İsveçin cənub sahilində yerləşən Qanqut (Xanko) burnu yaxınlığında 16 xətt gəmisi və 8 qalerdan ibarət İsveç donanması ilə qarşılaşdı. Yüngül rus qaler gəmiləri ağır İsveç gəmilərilə müqayisədə dar körfəzdə daha cəld və sürətlə hərəkət edərək İsveçin flaqman gəmisini zədələdilər. Düşmənin əsas eskadrası döyüş meydanını tərk edərək İsveçin sahillərinə çəkildilər. İyulun 27-dəki Qanqut burnunda rus donanması dəniz döyüşündə tam qələbə çaldı. Rus dənizçiləri tezliklə Aland adalarını işğal etdilər.

Qələbədən sonra təşvişə düşən böyük Avropa dövlətləri, o cümlədən İngiltərə və Avstriya Rusiya əleyhinə fəaliyyətə başladılar. Odur ki, 1716-1717-ci illərdə Pyotr müttəfiqlər axtarmaq məqsədilə yenidən Avropaya yola düşdü və Hollandiya, Fransa, Prussiyanın müdafiəsinə nail oldu. Rusların yenidən hücuma keçə biləcəyini nəzərə alan XII Karl danışıqlara başlasa da, onun Norveç qalasının mühasirəsi zamanı qəfil ölümü prosesi dayandırdı. Yeni İsveç hökuməti müharibəni davam etdirmək qərarına gəldi. 1720-ci il iyulun 27-də ikinci Rus-İsveç dəniz döyüşü Qrenqam adasının yaxınlığında baş verdi. İsveç donanmasının üstünlüyünə baxmayaraq, rus dənizçilərinin qəhrəmanlığı nəticəsində dörd İsveç gəmisi abordaj edilərək 400 nəfərdən çox

İsveç dənizçisi əsir alındı. İsveçlilərin dəniz toplarının çoxu rusların əlinə keçdi. Düşmənin gəmilərinin bir hissəsi batırıldı, bir hissəsi isə döyüş meydanından qaçdı. Yaxınlıqda olan ingilis eskadrası rus donanmasının döyüş şücaətini görərək hücum etməyə cəsarət etmədi. Növbəti il beş min nəfərlik rus korpusu İsveç sahillərinə çıxaraq ölkənin içərilərinə doğru hərəkət etməyə başladı. Yalnız bundan sonra 1721-ci ilin avqustun 30-da Finlyandiyanın Niştad şəhərində 21 il davam edən müharibənin sülh sazişi imzalandı. Niştad sülhünün şərtlərinə görə, Rusiya Liflyandiya, Estlyandiya, İngermanlandiya, Vıborqla birlikdə Kareliyanın bir hissəsini, Riqa, Revel (Tallin), Derpt (Yuryev), Pyarnu, Baltik dənizindəki bir sıra adaları alırdı. Baltik dənizinə çıxışın qəti olaraq həll edilməsi nəticəsində Rusiya Avropanın qüdrətli dəniz dövlətinə çevrildi. İsveç isə məğlub olaraq ikinci dərəcəli Avropa dövlətinə çevrildi.

1721-ci ilin oktyabrında Rusiyanın ali dövlət orqanı Senat təntənəli şəraitdə I Pyotra «Böyük», «Vətən Atası» və imperator titulları təqdim etdi. Bu vaxtdan etibarən Rusiya başqa dünya dövlətləri kimi imperiya oldu.

Şimal müharibəsi başa çatdıqdan sonra 1722-ci ilin yayında çar qvardiya polkları və süvarilərin iştirakı ilə cənuba doğru hərəkətə keçdi. Volqa ilə Xəzər dənizinə doğru isə general-admiral F.M.Apraksinin başçılığı ilə Volqa donanması yola düşdü. Yürüşdə tatar və kalmık süvariləri nəzərə alınmadan təqribən 50 min nəfər adam iştirak edirdi. İlk döyüşdə qələbə nəticəsində Dərbənd qapılarını çarın üzünə açdı. Çar Həştərxana qayıtsa da, qoşun Kür çayı ilə hərəkət edərək Rəşt şəhərini, sonra isə Bakını aldı. 1723-cü ilin sentyabrında Peterburqda çar hakim dairələri Səfəvi dövlətinin elçisi İsmayıl bəyi şahdan icazəsiz Xəzərsahili ərazilərin Rusiyaya ilhaq edilməsi barədə müqavilə bağlamağa məcbur etdilər. Rusiya Səfəvi şahının hakimiyyətini qorumaq üçün öhdəçilik götürdü. Şah II Təhmasib "müqavilə"nin şərtlərini tanımasa da, Şirvan, Gilan, Mazandaran, Astrabad, Bakı və Dərbənd Rusiyaya ilhaq edildi. Rusiya Xəzər dənizinin cənub-qərb və cənub sahillərini işğal etməyə başladı. İran səfəri I Pyotrun axırıncı hərbi yürüşü oldu.

### §4. I Pyotrun islahatları

Baltik və Azov dənizlərinin sahillərinə çıxan Rusiyanın hərbi və ticarət doanmasına, hərbi-dəniz qalaları və limanlarına tələbatı artdı. Bitmək bilməyən müharibələrlə əlaqədar olaraq orduya top, mərmi, tüfəng, qılınc, hərbi sursat

və geyim lazım idi. Bütün bu vəzifələri həll etmək məqsədilə sənaye sahəsində islahatlara başlamaq tələb edilirdi. Odur ki, Pyotr özünəməxsus ciddiyətlə köhnə ənənələrlə əlaqəni kəsərək yeni Rusiya sənayesini yaratmağa başladı. Burada dövlətin və bilavasitə hökmdarın roluna geniş yer ayrılmışdır. Belə ki, Qərbdə olduğu kimi, burjuaziya münasibətlərinin inkişafı nəticəsində sənayenin yaranması manufakturaların meydana gəlməsinə, bu isə öz növbəsində insanların tələbatını ödəməli olan yüngül və qida sənayesinin formalaşmasına şərait yaratdığı halda Pyotr insanların mənafeyini deyil, dövlətin, ordunun, donanmanın tələbini nəzərə alaraq birbaşa ağır sənayenin, metal, dağ-mədən, gəmiqayırmanın yaradılmasından başladı. Dövlətin vəsaiti hesabına XVIII əsrin əvvəllərində Kareliya, Belozero və Lipetsk qəzalarında yeni filiz emalı zavodları meydana gəldi. Uralda Nevyansk, Kamensk, Uktussk, Alapayev zavodları tikildi. Sibirin uzaq Nerçinsk mədənlərində gümüş emalı zavodu salındı. 1723-cü ildə Pyotrun ikinci arvadı Yekaterina Alekseyevnanın şərəfinə Yekaterinburq metallurgiya sənaye mərkəzinin əsası qoyuldu.

Sənaye islahatının mühüm istiqamətlərindən biri nəhəng gəmiqayırma tərsanələrinin tikintisidir. Belə tərsanələr Peterburqda, Arxangelskdə, Moskvada, Voronejdə yaranmışdır. Moskva və Peterburqda yeni silah zavodları meydana gəldi.

Ağır sənayeyə rəhbərlik etmək məqsədilə Pyotr zavodların tikintisi ilə məşğul olan manufaktura kollegiyası və dağ-mədən işlərilə məşğul olan Berq (almanca «qara» – «dağ») kollegiyasını yaratmışdır. Eyni zamanda, Pyotr sənayenin inkişafına xüsusi kapitalı cəlb etmək üçün fəal tacirlərin, iş adamlarının, hətta varlanmış kəndlilərin belə köməyindən istifadə etməyi nəzərdə tuturdu. Belə iş adamlarına dövlət güzəştli borc ayırırdı. Məsələn, keçmiş tula dəmirçisi Nikita Demidov varlanaraq silahqayırma sahibkarı kimi çardan tikilmiş Nevyansk metallurgiya zavodun mülkiyyət kimi alaraq qısa bir müddətdə istehsalı yenidən təşkil edərək rus ordusu üçün etibarlı toplar istehsal etmişdir. Beləliklə, Uralda iri zavod sahibləri sülaləsi olan Demidovlar məşhurlaşmışdır.

Yeni yaranmaqda olan Rusiya sənayesinin inkişafı iki faktordan – birincisi, vəsaitdən, ikincisi isə işçi qüvvəsindən asılıdır. Vəsaiti əsasən dövlət ayırdığı üçün bu məsələdə çətinlik yaranmırdı. Çar işçi qüvvəsinə dair fərman verərək elan etdi ki, yeni zavodların tikildiyi ərazilərdə yaşayan dövlət kəndlilərini dövlət vergisini ödəmək əvəzinə həmin zavodlara fəhlə kimi qeyd edilir. Qeyd edilmiş və yaxud əlavə yazılmış belə kəndlilər ildə bir neçə ay öz təsərrüfatlarını tərk edərək zavodlar üçün işləməyə borclu idilər. Başqa bir fərmanla I Pyotr zavod sahiblərinə təhkimli kəndlilərin alınmasına icazə verdi. Belə kəndlilər müəssisənin bir hissəsi olub «posession» («mülk») adla-

nır və yalnız müəssisə ilə birlikdə satıla bilərdi. Zavodlarda iş 12-14 saat davam edir, cüzi bir yanlış ağır cəza tətbiqinə səbəb olurdu. Yaşayış şərtlərinin yetərsizliyi, cüzi əməkhaqqı, sahibkarların özbaşınalığı fəhlələrdə istehsalın artırılmasına, sənayenin inkişafına maraq yaratmırdı. Zorakılıq və təzyiqə istinad edən iş metodu Rusiya sənayesinin inkişafına maneçilik törədən əsas səbəb idi.

Lakin buna baxmayaraq, I Pyotr dövlət hakimiyyətindən və təhkimçilik zorakılığından istifadə edərək qısa bir vaxtda Rusiya sənayesini yaratdı. Onun hakimiyyətinin son dövrlərində artıq Rusiyada 200-ə yaxın böyük müəssisə fəaliyyət göstərirdi. Əvvəllər Rusiyada olmayan yeni istehsal sahələri, o cümlədən kimyəvi, barıt, ipəktoxuma və b. meydana gəlmişdir. Ural yeni metallurgiya sənayesinin, Moskva, Yaroslavl, Kostroma yelkənlik, kətan, kəndir, mahud, parça istehsal edən toxuculuq sənayesinin mərkəzləri oldular. Ağır, xüsusilə hərbi sənaye geniş miqyas aldı. Təkcə bir faktı göstərmək kifayətdir ki, Rusiya çuqun əridilməsinə görə Avropada üçüncü yerə çıxaraq xaricə yüksək keyfiyyətli dəmir satmağa başladı.

I Pyotrun sənaye sahəsində həyata keçirdiyi islahatlar, yeni manufaktura və zavodların yaranması dövlətin mənafeyi, ordu və donanmanın tələbatı ilə bağlı olub milyonlarla sadə adamların, şəhər əhalisinin və kəndlilərin vəziyyətinə təsiri zəif idi. Əvvəllər olduğu kimi, Rusiyanın əhalisi gündəlik ehtiyaclarını sənətkarlıq məhsulları ilə ödəyirdilər. Ölkədə sənətkarlıq əhəmiyyətli dərəcədə kənd təsərrüfatı ilə bağlıdır. Təsadüfi deyil ki, Moskva, Yaroslavl, Tula, Nijni Novqorod, Kazan kimi iri sənətkarlıq mərkəzlərilə yanaşı, yerli xammalla işləyən böyük kənd və kiçik şəhərlərdə də sənətkarlıq mərkəzləri meydana gəlmişdir. Şəhərlərdə böyük manufakturaların və kiçik sənətkarlıq məhsullarının istehsalına nəzarəti təmin etmək üçün Pyotr xüsusi orqan olan Baş magistratı təsis etdi. XVIII əsrin 20-ci illərin əvvəlində çar bütün sənətkarların sexlərdə birləşməsi, yeni istehsalın müəyyən sahəsində təşkilatlanması haqqında fərman verdi. Sexlərin təsis edilməsi məhsulun kəmiyyəti və keyfiyyəti üzərində nəzarət etməyə şərait yaradırdı. Hər bir usta hazırladığı əşyanın üzərinə öz nişanəsini həkk edərək işinin səviyyəsini nümayiş etdirirdi. Yararsız işə görə cəza və cərimə kəsilirdi. Kənd sənətkarlarının sex təşkilatı olmadığı üçün hakimiyyət nümayəndələri görülən işlərə dair xüsusi göstərişlər təqdim edirdilər.

Rusiyanın daxili və xarici ticarətinə xüsusi diqqət ayıran I Pyotr düzgün olaraq hesab edirdi ki, bu sənaye və kənd təsərrüfatının inkişafını təmin etməklə yanaşı, xəzinənin də lazım olan vəsaitlə dolmasına yardım edəcək. Ticarət kompaniyalarının təşkil edilməsini xüsusi güzəşt və üstünlüklərlə şirnik-

ləndirən çar bu və ya başqa növ məhsul satmaq hüququ olan monopoliyaların yaranmasına şərait yaratmışdır. İnhisar hüququ alan şəxs xəzinənin pulunu ödədikdən sonra sərf etdiyi vəsaitini qaytarmaq və gəlirini artırmaq haqqında əməli fəaliyyətə keçə bilərdi. Belə qayda həm xəzinəyə, həm də tacirlərə əlverişli şərait yaradırdı.

Sənaye və ticarətin inkişafını təmin etmək məqsədilə I Pyotrun dövründə kanal çəkilişi işləri geniş miqyas almışdır. Pyotrun fərmanı ilə Volqanın sol qolu olan Tvertsa çayını İlmen gölünə tökülən Meta çayı ilə birləşdirən Vışnevolotsk kanalı çəkildi, böyük Volqa yolu Baltik dənizi və Peterburqla əlaqələndirildi. Ladoqa gölünün cənub sahili boyunca 100 kilometrdən çox olan dolama kanal çəkildi.

Pyotr hakimiyyəti xarici ticarətin inkişafına qayğı göstərirdi. Yeni quraşdırılan rus ticarət gəmiləri Baltik, Şimal dənizlərinin sularında üzərək Fransanın sahillərinə, Aralıq dənizinə çatırdılar. Çar dəniz ticarəti ilə məşğul olan yerli tacirləri müdafiə etdiyi kimi, xarici ticarət adamların da mehribanlıqla qaşılayırdı. Rusiyada Riqa, Revel, Narva, Vıborq kimi limanlar fəaliyyətə başladı. Yeni Baltik dənizi yolu ilə Rusiyadan Qərbi Avropaya ənənəvi kətan, kəndir, dəri, taxıl kimi məhsullarla bərabər, dəmir kimi yeni məmulatları mallar da ixrac edilirdi. Ölkənin mərkəzi rayonlarından Volqa ilə daşınan mal Həştərxan limanı vasitəsilə Xəzər dənizinə, oradan isə İrana, Orta Asiyaya, Cənubi Qafqaza yola düşürdü. Cənuba ixrac edilən məhsulların başında balıq neməti dayanırdı. Rusiyaya parça, xalça, bahalı soyuq silah, daş-qaş, bəzək əşyaları idxal olunurdu. Ticarətdən dövlət xəzinəsi ölkənin ehtiyacı olduğu vəsaiti əldə etdiyi üçün çar qarşılıqlı ticarət əlaqələrinə üstünlük verirdi. Təsadüfi deyil ki, I Pyotr birinci olaraq fəal surətdə merkantilizm və proteksionizm siyasətini yeritmişdir. Merkantilizm o deməkdir ki, bu ticarət siyasəti nəticəsində dövlətin başqa ölkələrlə ticarət tarazlığı daim müsbət olmalıdır. Yəni dövlət ucuz alıb baha satmalıdır ki, ixracatın dəyəri idxalın dəyərindən yüksək olsun. Eyni zamanda Fransa və İngiltərə kimi ölkələrdə sənaye və kapitalizmin inkişafının başlanğıc mərhələsində olduğu kimi, Pyotr da proteksionizm siyasəti yeridirdi. Bunun mahiyyəti ondan ibarətdir ki, ticarətdə xarici mallarla gömrük vergisi müəyyən edərkən gənc Rusiya sənayesinin mənafeyini nəzərə alaraq, onun bazarda rəqabət gücünün daha da artırsın.

Çar kənd təsərrüfatı sahəsində Orta Volqaboyunda, Ural ətrafında, Sibirdə, ölkənin cənubunda mənimsənilən torpaqların əkilməsini təmin etmək üçün dövlətin kənd və qəsəbələrini kəndliləri ilə birlikdə məsləkdaşlarına və yaxın ətrafına paylayırdı. Bunun nəticəsində yüz minlərlə kəndli xüsusi sahibkarlardan asılı vəziyyətə düşürdü ki, bu da təhkimçiliyin miqyasını daha da artırırdı.

Kənd təsərrüfatında bir sıra yeniliklər tətbiq etməyə səy göstərən çarın əmrilə Rusiyaya bir neçə min ədəd Litva dəryazı gətirilmişdi ki, bu da məhsul biçinində nisbətən az məhsuldar olan oraqı əvəz etməli idi. Maldarlığa, bağçılığa diqqət ayıran Pyotrun zamanında birinci atçılıq zavodu tikilmişdir. Onun təşəbbüsü ilə cənub rayonlarında barama bəsləmək üçün tut ağacları əkilmişdir. Rusiyadakı meşələrə qayğı göstərən çar onun inkişafına ziyan vermədən kəsilməsini tələb etmişdir.

I Pyotr ordu və donanmada islahatları davam etdirərək kəndli və posad adamlarının öz icmalarından müəyyən edilən sayda əsgər verməli olduqları rekrut əsgər toplanması qaydasına keçildi. Əsgərlər ömürlük xidmət edirdi ki, bu da ölkənin silahlı qüvvələrinin daimi əsaslı olması demək idi. Orduda xidmət növü adamların ömürlük peşəsinə çevrildi. Belə sistem rus ordusunun say tərkibinin artmasını təmin etdi. Məsələn, 1699-cu ildən 1714-cü ilə kimi orduya təqribən 300 min nəfər əsgər çağrılmışdır. Rus ordusunun xarici forması da dəyişdi. Piyadalar yaşıl rəngli kətan kaftan, qara şlyapa, süvari əsgərlər göy kaftan geyirdi.

Qərbi Avropa ölkələrində daimi ordu daxildən və xaricdən toplanan muzdlu əsgərlərdən yaranmışdır. Baxmayaraq ki, Rusiyada ordu təhkimçilik hüququ şəraitində formalaşmışdır, onun milli və xalq mahiyyəti daim öndə olmuşdur. Vətənin müqəddaratının həll olunduğu həlledici döyüşlərdə rus ordusundakı xalqçılıq ruhu mühüm psixoloji faktora çevrilmişdir. Adamlar pula görə deyil, Vətəni xilas etmək naminə döyüşə gedirdilər. Çar qoşunların təlim məşqinə xüsusi önəm verirdi.

Pyotrun dövründə rus əsgəri daha keyfiyyətli Vətən silahı olan çaxmaqdaşı sürgülü-süngülü tüfənglə silahlandı. Artilleriyaya ayrıca qayğı göstərən çarın əmrilə top parkı tamamilə yeniləndi. XVIII əsrin 20-ci illərinin ortalarında rus ordusunda 2500-dən çox səhra topu olmuşdur. Süvarilər belə topla təhciz edilmişdi. Pyotr ağır və intizamsız zadəgan süvari polklarını ləğv edərək yerində yüngül silahlı daimi draqun süvari polklarını yaratmışdır. Çarın toplarla təhciz etdiyi və ayrı-ayrı atlı dəstələrindən ibarət olan yeni daimi süvari korpus cəsarəti, qətiyyəti və manevr etmək bacarığına görə fərqlənirdi. Qərb ordularında süngü müdafiə silahı olduğu halda Pyotr onu əks-hücum vasitəsi etmişdir. Məhz çarın özünün əsgərləri isveçlilərin mərkəzinə süngü əks-hücumuna aparması Poltava döyüşünün müqəddərratını rusların xeyrinə dəyişdirdi.

1716-cı ildə ordunun təşkili, daxili nizam-intizam qaydaları, təlimi və faktiki hazırlığı sistemindən bəhs edən «Əsgər Nizamnaməsi» nəşr olundu. Nizamnamədə rus əsgərlərinin yüksək mənəvi-əxlaqi keyfiyyətinə xüsusi diqqət ayrılmışdır. Rusiyanın hərbi dəniz donanması mahiyyət etibarilə yeni-

dən qurulmuşdur. Artıq XVIII əsrin birinci onilliklərində Rusiyanın üç əsas və baş olan Baltik, köməkçi olanlar Xəzər və Azov donanmaları fəaliyyət göstərirdi. Kronştad və Taqanroq kimi güclü topları olan hərbi-dəniz qalaları var idi. Şimal müharibəsinin başa çatdığı ərəfədə Baltik dənizində Rusiyanın 29 ağır xətt gəmisi, 6 freqatı və 200-dən çox qaleri var idi. Rus donanmasının yaranma təcrübəsi, dəniz döyüşü taktikası çarın iştirakı ilə hazırlanan «Dəniz Nizamnaməsi»ndə əksini tapmışdır.

I Pyotrun tətbiq etdiyi hərbi və donanmanın yenidən qurulması islahatları yerli hərbi kadrlara tələbatı artırırdı. Odur ki, Moskva və Peterburqda hərbi, o cümlədən artilleriya, hərbi-mühəndislik məktəbləri açılmışdır. Sonra yeni paytaxtda zabit kadrları hazırlayan Dənizçilik Akademiyası fəaliyyətə başlamışdır. XVIII əsrin 20-ci illərin əvvəlində rus ordu və donanması özünü yerli kadrlarla təmin etmək iqtidarında olduğu üçün xaricilərin hərbi xidmətə cəlb edilməsi tədricən ləğv edilmişdir.

Yeni ordu və donanmanın yaranması, sənayenin yenidən qurulması, xarici dövlətlərlə əlaqələrin artması, dövlət və müharibələrin vəsaitə olan tələbatının yüksəlməsi dövlətin idarəetmə sisteminin dəqiq, tez və yüksək səviyyədə işləməsini zəruri edirdi. Artıq XVII əsrin sonu – XVIII əsrin əvvəlində çar Boyar dumasını çağırmayaraq onun yerinə özünə sadiq olan tərəfdaşların daxil olduğu Yaxın dəftərxana yaratdı. 1707-ci ildə hərbi səfərdə olan I Pyotr «dəftərxananı» ciddi nəzarətdə saxlayaraq əməkdaşlardan öz işlərini yazaraq imza qoymalarını tələb etmişdir. 1711-ci ildə Prut səfərinə yola düşən Pyotr çarın olmadığı müddətdə ali dövlət orqanı olan Senatı yaradaraq idarəçilik işlərini ona tapşırdı. Çarın təyin etdiyi doqquz nəfərdən ibarət olan Senat ali məhkəmə, icra və qismən qanunverici səlahiyyətə malik idi. Boyar Dumasını əvəz edən Senat tam olaraq çara tabe olub onun təyin etdiyi Senatın baş-fiskalı işlərə nəzarət edirdi. Eyni zamanda, mərkəzi və yerli idarələrdə də fiskal (nəzarətçi) vəzifəsi müəyyən edilmişdir. Bilavasitə çara tabe olan fiskallar mərkəzi və yerli icra orqanlarının fəaliyyətinə nəzarət edərək qanun pozuntularını, rüşvətxorluq və xəzinə oğurluğunu aşkar etməklə məşğul olurdular. Senat üzərində yüksək nəzarətçi general-prokuror və onun köməkçisi baş prokuror oldu. Başqa idarələrdə də prokurorlar fəaliyyətə başladı ki, onlar da «dövlətin gözü» olaraq yalnız çara tabe olurdu. Senatın fəaliyyətində nöqsan aşkar edən general-prokuror onu dayandıra və yaxud öz etirazını bəyan edə bilərdi.

1711-ci ildən başlayaraq I Pyotr kollegiyalar yaratmağa başladı ki, 1720-ci ildə artıq onların sayı 11-ə çatdı. Prikazları əvəz edən kollegiyalar dövlət idarəçiliyinin müəyyən bir sahəsinə nəzarət edir və bütün Rusiya

ərazisində fəaliyyət göstərirdi. Məsələn, ordu işləri ilə Hərbi kollegiya, donanma ilə Admirallıq, beynəlxalq işlərlə Xarici, sənaye və dağ-mədən işlərilə Manufaktura və Berq kollegiyaları məşğul olurdu. Kamer kollegiya büdcənin mədaxil, Ştats kollegiya məxaric, Təftiş kollegiyası dövlət aparatının maliyyə fəaliyyətinə nəzarət işlərilə məşğul olurdular. Ədliyyə kollegiyası məhkəmə, Ticarət kollegiyası ticarət işləri vəzifəsini yerinə yetirirdi. Hər bir kollegiyanın başında prezident, vitse-prezident, məsləhətçi və iclasçı («заседатель») dayanırdı. Hər gün işə çıxan kollegiya üzvləri aylıq əməkhaqqı alır və dövlət məmuru hesab olunurdu.

1721-ci ildə çar kilsə işlərini idarə edən ali orqan olan Sinodu yaradaraq kilsəni qəti olaraq dövlətə tabe etdi. Sinod sözün əsl mənasında dini kollegiya oldu. Çarın təşkil etdiyi siyasi axtarış işlərilə əvvəlcə Preobrajensk prikazı, sonra isə Mərkəzi dəftərxana məşğul olurdu. Mərkəzi dövlət idarələri sistemində siyasi axtarış idarələri təşkil edilərək saysız-hesabsız donosçu və xəbərçilərlə əhatə olunmuşdur. Çox sayda insan xalq üsyanlarında iştirak etdiyinə, dövlətin rəsmi siyasətinin əleyhinə olduğuna görə siyasi axtarış idarələrində dəhşətli işgəncə və təzyiqə məruz qalmışdır.

Bütün bu tədbirlərə baxmayaraq, çar Rusiya həyatının reallığına çevrilmiş korrupsiya, rüşvətxorluq, xəzinə oğurluğu, xidməti vəzifəsindən şəxsi məqsədlər naminə sui-istifadə hallarının qarşısını ala bilməmişdir. Pyotrun ətrafında birləşən insanlar əvvəlki prikaz və voyevoda qaydaları zamanı hamının hər bir şeyi oğurladığı bir dövrdə tərbiyə olunmuşdu. İndi isə çarın adından çıxış edən hakimiyyət nümayəndələri və məmurların sayı və mövqeyi daha da güclənmişdir. Başqa bir tərəfdən vergilərdən, inhisarlardan, xarici ticarətdən və b. dövlətin əlində çoxlu vəsait cəmləşdirmişdir. Demək olar ki, bu şəraitdə XVIII əsrin birinci rübündə yalnız çar oğurlamırdı. Xəzinə oğurluğuna, dövlət vəsaitini şəxsi mənafeyi naminə istifadə etdiyinə görə Sibirin qubernatoru knyaz Qaqarin asılaraq edam edilmiş, baş fiskal Nesterov rüşvət aldığı üçün ölümə məhkum edilmişdir.

Don, Həştərxan və Başqırd torpaqlarında istismar, zorakılıq, yoxsulluğa qarşı xalq hərəkatından sonra çar 1708-1710-cu illərdə ölkəni səkkiz, sonra isə on bir quberniyaya bölərək onların başında çox böyük inzibatçılıq, polis, məhkəmə, maliyyə hakimiyyətinə malik olan qubernatorlar təyin etdi. Məsələn, Sankt-Peterburq quberniyasının qubernatoru çarın sevimlisi knyaz A.D.Menşikov təyin edilmişdi. Moskva, Arxangelsk, Kazan, Kiyev, Smolensk, Sibir və b. kimi quberniyalar yaradıldı. Quberniyaların əraziləri çox böyük olduğu üçün onlar 50 əyalətə, əyalətlər isə mahallara bölünmüşdür. Böyük əyalətlərə qubernator, yerdə qalanlara isə voyevodalar başçılıq edirdilər. Çarın idarəçilik

islahatları şəhərləri də əhatə etmişdir. Şəhər işlərini idarə etmək məqsədilə Baş magistrat vəzifəsi təsis edilmişdir. Şəhər magistrləri varlı şəhərli tacirlərdən, imkanlı sənətkarlar və yerli ziyalılardan seçilirdi.

1722-ci ildə I Pyotr dövlət islahatı sahəsində «Rütbələrə dair cədvəl» («Табель о рангах») sənədinə imza atdı. Sənəd hərbi və mülki dövlət xidmətində rütbə sistemini, irəliçəkilmə qaydasını müəyyən etmişdir. Cədvələ əsasən, bütün hərbi və mülki rütbələr xidmət nərdivanını təşkil edən 14 dərəcəyə bölünür, onun ilk pillələrində ən yüksək rütbələr, orduda general-feldmarşal, donanmada general-admiral, mülki qulluqda kansler, sonuncu pillədə 14-cü dərəcəli rütbələr, praporşik, şkiper, kollegiya registratoru dururdu. Sənədin əsl mahiyyəti ondan ibarət idi ki, əvvəllər insanların istedadından asılı olmayaraq ali xidməti mövqe tutmağı təmin edən əsilzadəlik prinsipi şəxsi xidməti bacarıq şərtilə əvəz edilərək əhalinin qeyri-zadəgan təbəqələri arasından çıxan adamların da rütbə xidməti müqabilində irəliləməsini təmin edirdi. Mülki xidmət sahəsində 8-ci dərəcə, hərbi qulluqda isə 12-ci dərəcə alan xidmətçi insanlar nəsillik zadəgan adını alırdı. Zadəganların mənafeyini nəzərə alan I Pyotr 1714-cü ildə «Vahid varislik» haqqında fərman verdi. Fərmana əsasən, votçina və pomestye mülkləri arasındakı fərq ləğv edilir, mülkədarlar da votçina sahibləri kimi hökmdara xidmət etmək şərtilə öz mülklərinin tam hüquqlu sahibi olurdular. Öz mülklərini itirmək təhlükəsindən azad olan mülkədarlar təsərrüfatlarına daha çox əmək sərf etməyə başladılar. Çarın fərmanı ilə mülkün yalnız bir varisi varislik hüququ alırdı, yerdə qalanları isə dövlət və ya ordu qulluğuna getməyə məcbur qalırdı.

## §5. Xalq üsyanları

1701-ci ildə ordu ilə birlikdə Litvada olan I Pyotr Volqaboyunun aşağı hissəsi Həştərxanda aşağı şəhər əhalisi arasında güclü üsyana dair xəbər aldı. Şəhəri strelets və yoxsul şəhərlilər ələ keçirərək voyevodanı öldürüb ölkənin hər yerinə kömək olmaq məqsədilə qramotalar göndərirdilər. Çar özünün ən yaxşı feldmarşalı olan B.P.Şeremetevi süvarı və piyada polklarla Volqaya göndərdi.

1705-ci ilin iyununda voyevoda Rjevskinin kobud, zor gücünə, təzyiq vasitəsilə idarəetnmə metodu strelets və şəhər əhalisi arasında narazılıq və hakimiyyətə qarşı müqavimət hərəkatının yaranmasına səbəb olmuşdur. Məsələn, voyevoda şəhərə ezam olunan streletsləri həyətyanı sahəsində ağac doğramağa, saman tədarük etməyə məcbur edir, hər bir tüstüdən, hamamdan,

balta və bıçaqların itilənməsindən əlavə xərc tələb edirdi. Həştərxanlıları küçədə tutaraq saqqal və paltarların ətəyini zorla kəsir, tabe olmayanları zindan və quyulara salırdılar. Bu zaman Həştərxanda şayiə yayıldı ki, çar ölüb, Rusiyanı isə dəyişdirilmiş padşah idarə edir. Qəzəb və nifrət hissi son həddə çatan strelets və posad əhli üsyana qalxaraq Kremlə hücum edib voyevodanı və ətrafını qətl etdilər. Yüzlərlə adam həlak oldu. Üsyançılar şəhərdə öz idarə orqanı olan bütün şəhərliləri əhatə edən dairəni yaratdılar. Dairədə ataman, starşina, qoşunun rəhbərləri seçildi. Beləliklə, həştərxanlılar şəhərdə kazak idarə sistemini qurdular. Varlı adamların əmlakını üsyançılar öz aralarında bölüşdürdülər. Terek və Don kazaklarına kömək üçün müraciət edilsə də, heç bir real kömək alınmadı.

Şeremetevin ordusu Aşağı Volqaya daxil olarkən üsyançıların bir hissəsi mitropolitin də dilə tutması nəticəsində çardan əfv diləmək məqsədilə nümayəndələr göndərdilər. Lakin çarın müsbət cavab verməsinə baxmayaraq, cəza dəstəsini geri çəkməməsi həştərxanlıları təslim olan və yenicə əldə etdikləri azadlıqdan vaz keçmək istəməyən şəhərli qruplarına böldü. Şəhərə yaxınlaşan Şeremetevin qoşunu güclü top atəşindən sonra qala divarlarını dağıdıb şəhərə daxil oldu. 1706-cı il martın 13-də Şeremetev Kremlə daxil oldu. Üsyançılar küçə boyu üz-üstə uzanaraq tabe olduqlarını göstərsələr də, yüzlərlə üsyançı, o cümlədən qiyamın rəhbərləri həbs edilərək Moskvya göndərildi, 300 nəfərdən çox üsyançı orada edam olundu.

Tezliklə Ural ətrafı, Orta Volqa və Kamada başqırdların yaşadığı ərazilərdə üsyan alovlandı. Yerli məmurların və mənfəətçilərin özbaşınalığı, müharibə ilə bağlı olaraq başqırdların atlarını müsadirə edib özlərini müharibəyə göndərmək istəmələri milli və dini ziddiyyətləri kəskinləşdirərək üsyana səbəb oldu. 1707-ci ildə yerli başqırd əhalisinin, xanların və müsəlman din xadimlərinin iştirakı ilə əzəmətli üsyan hərəkətə keçdi. Üsyançılar vergi toplayan məmurları, hakimiyyət nümayəndələrini qətl edib, pravoslav məbədlərinə hücum etdilər. Qaraqalpaq, qazax xalqlarına, don kazaklarına kömək haqqında müraciət olundu. I Pyotr 900 nəfərlik ordunu üsyanı yatırmağa göndərsə də, onlar məğlub edildi. Tezliklə Başqırd torpaqlarında başlayan üsyançıların sayı durmadan artaraq Kazanın 30 kilometrliyinə çatdılar. Danışıqlar vasitəsilə çarın üsyana son qoymaq məqsədi baş tutmadı. Çünki üsyançılar onun vədlərinə inanmırdılar. Başqırd yurduna göndərilən yeni ordu birlikləri üsyançıları bir neçə döyüşdə məğlub etdilər, rəhbər xanlar ya öldürüldü, ya əsir alındı və yaxud da cənuba, oradan indiki Türkiyəyə qaçdılar.

Donda yoxsul Kazak şəhərcik və stanitsalarında (kazak qəsəbəsi) yeni üsyan alovları şöləlləndi. Donda gizlənən çoxlu qaçqın kəndli və əsgərləri ax-

tarıb tapmaq məqsədilə Pyotr qaçqınları axtarıb tapmaq və yuxarı Don şəhərciklərini dağıtmaq haqqında əmr verdi. Xüsusilə axtarış dəstəsinə başçılıq edən knyaz Yuri Dolqorukovun amansız davranışı yuxarı Don şəhərciklərinin yoxsul təbəqəsi və hətta Donun mərkəzi Çerkasskda olan kazak starşinası ataman Lukyan Maksimovun müqavimət hərəkatına başlamalarına səbəb oldu. Atamanın çağrısı ilə knyaz Dolqorukovun cəza dəstəsinə qarşı kazaklar arasında üsyan başladı. Üsyançıların başında Seversk stanitsasından olan kazak Kondrati Bulavin dayanırdı. 1707-ci ilin oktyabrında Bulavinin kazakları hücum edərək Dolqorukovun qoşununu qırdı, özünü isə öldürdülər. İlk uğurdan ilhamlanan əhali, o cümlədən kazaklar, qaçqın kəndlilər, yedəkçilər Bulavinin dəstəsinə daxil olmağa başladılar. I Pyotr üsyandan xəbər tutan kimi kazak atamanı, starşinasına fərman göndərərək üsyanın yatırılmasını tələb etdi, varlı kazaklar çar tərəfinə keçərək üsyançılara hücum edib onları dağıtdılar. Əsir alınan üsyançıları ayaqlarından asaraq, qulaqlarını kəsir, güllələyirdilər. K.Bulavin Zaporojye Seçinə qaçaraq Moskva ilə mübarizə üçün yeni tərəfdarlar topladı ki, tezliklə onların sayı beş min nəfərə çatdı. Azovdan hərəkət edən hökumət qoşunlarını darmadağın edən Kondrati Bulavin Çerkassk şəhərinə yaxınlaşarkən əhali qalanı üsyançılara təslim etdi. Kazak dairəsi Bulavini Don qoşununun atamanı seçdi.

Pyotr cəbhədən bir neçə draqun və piyada polkunu çıxarıb öldürülən knyaz Dolqorukovun qardaşı Vasili Vladimiroviçin komandanlığı altında üsyançılara qarşı göndərdi. Çar həm də ona öldürülmüş qardaşının qisasını alıb şəhərciyi yandırmağı, adamları qırmağı əmr etmişdir. İlk döyüşdə hökumət qüvvələri üsyançıları məğlub etməyə nail oldu. K.Bulavin isə qüvvələri parçalayaraq Azov qalasına hücum etdi. Qaladan və Qara dənizdəki gəmilərdən açılan top atəşləri Bulavınçılərin yenidən Çerkasska doğru yönəlməsinə məcbur etdi. Vəziyyətin dəyişdiyini görən varlı kazaklar 1708-ci ilin iyulunda sui-qəsd təşkil edərək Ataman Bulavinin yaşadığı yerə hücum edib yaxın tərəfdarlarını qırdılar, evə daxil olmaq istəyərkən ataman özünü güllələdi. Yeni Don qoşunu atamanı bayraqları Dolqorukovun ayaqları altına sərərək xaçı öpüb padşaha sadiq qalacaqlarına and içdi.

Rusiya cəmiyyəti Pyotr yeniliklərini çətinliklə qəbul edirdi. Bəziləri üçün islahatlar həyatın çətinləşməsi, bir qrupa görə köhnə rus adətlərinin tapdalanması, yuxarı təbəqəyə gəldikdə isə onlar Avropa yeniliklərini qəbul etdikləri halda Pyotr «bizləməsindən» («понукание») narazı idilər. I Pyotrun islahatlarından daha çox zərər görən ruhanilər çarın fəaliyyətindən kəskin şəkildə narazı idilər. Cəmiyyətin həyatında kilsənin nüfuzu aşağı düşmüş, ruhanilərin maddi durumu pisləşmişdi.

Belə bir şəraitdə Pyotrun islahatlarının əleyhdarları ümidlərini vəliəhd şahzadə Aleksey Petroviçə bağlamışdılar. Şahzadə Aleksey Yevdokiya Lopuxinanın Pyotrla birinci evliliyindən doğulmuşdur, bu evlilik siyasi nöqteyi-nəzərdən uğurlu sayılsa da, insani cəhətdən özünü doğrultmadı. Çünki Pyotr və Yevdokiya bir-birinə əks olan iki fərd idi və əsas da ondan ibarətdir ki, Pyotrdan fərqli olaraq Lopuxina dəyişmək istəmirdi. Təsadüfi deyil ki, böyük səfirlikdən qayıtdıqdan sonra Pyotr arvadını kilsəyə göndərmişdir. Bu kiçik varis Alekseylə atası Pyotrun münasibətlərinə ciddi zərbə vurmuş və atasının oğluna demək olar ki, vaxt sərf etməməsinə zəmin hazırlamışdır. Odur ki, tədricən narazı qüvvələr, xüsusilə «köhnəlik» tərəfdarları varisin ətrafında qruplaşmağa başladılar.

Ata ilə oğlu Alekseyin arası 1711-ci ildə Pyotrun Menşikovun evində tanış olduğu litvalı gözəl, cəsarətli, yenilik tərəfdarı Marta Skavronskaya (pravoslav Yekaterina Alekseyevna) ilə kəbin kəsdirdikdən sonra daha kəskin dəymişdir. Dəfələrlə atasının Alekseyi dəyişdirmək təşəbbüsü bir nəticə verməmiş və 1716-cı ildə şahzadə Aleksey Müqəddəs Roma imperiyasının imperatoru VI Karlın yanına qaçmışdır. Çarın göndərdiyi mahir diplomat P.A.Tolstoy qaçqın Alekseyi dilə tutaraq Neapolda gəmiyə dəvət edib qvardiya zabitlərinin müşayiətilə Rusiyaya gətirdi. Sərhəddə həbs edilən Aleksey ilk sorğu-sualdan sonra tərəfdarlarının bir hissəsinin adını verərək taxtdan şahzadə Pyotr Petroviçin xeyrinə əl çəkdiyini təsdiq etmişdir. Moskva və Peterburqda yeni həbslər və sorğu-suallar başlamışdır.

Bir sıra edamlardan sonra 1718-ci il iyunda Alekseyi Moskvadan Peterburqa gətirib Petropavlovsk qalasına saldılar. On günlük vəhşi işgəncədən sonra çarın iştirakı ilə alınan yeni məlumatlar əsasında Alekseyə məhkəmə ölüm hökmü kəsdi. Lakin ölüm hökmü rəsmi şəkildə yerinə yetirilmədi, ona görə ki, işgəncədən öldüyü və yaxud çarın onu boğmağa göndərdiyi adam tərəfindən öldürüldüyü iddia edilir. Növbəti il isə çarın dörd yaşlı varisi kiçik Pyotr vəfat etdi. Üç ildən sonra, 1722-ci ildə çar fərman verərək hökmdara özü varisi təyin etmək hüququ verdi. Eyni zamanda, fərman rus adamlarının çar hakimiyyətinin Tanrıdan olması inamına güclü zərbə vurdu. Təəccüblü deyil ki, bu fərman islahatçı çarın ölümündən sonra saray çevrilişlərinə zəmin hazırladı.

1725-ci il yanvarın 8-də xəstə yatağının ətrafında münasibətlərinin kəskinləşdiyi arvadı Yekaterina Alekseyevna və gözdən düşmüş Menşikovun olduğu imperator I Pyotr əbədi olaraq gözlərini yumdu. Çar ölərkən yerinə varis təyin etməyə macal tapmadı.

## §6. XVIII əsrin I rübündə rus mədəniyyəti

Yeniləşmiş Rusiya mədəniyyət, elm və təhsil sahəsində mühüm dəyişikliklər tələb edirdi. XVIII əsrin əvvəllərində Rusiya böyük Avropa dövlətlərində, o cümlədən Hollandiya, Danimarka, Fransa, Avstriya imperiyası, İngiltərə, Osmanlı dövlətində özünün daimi səfirliyini açmışdır. Xarici ölkə vətəndaşları mülki və hərbi iş üçün daha tez-tez Rusiyaya səfər edirdilər. Yüzlərlə zadəgan gənci dövlətin himayəsi altında xarici ölkələrdə təhsil almağa başlamışdı. Baltik dəniz yolunun açılması Qərbi daha yaxın edərək, xarici ölkələrdəki məlumatların daha asan əldə edilməsini təmin etmişdir. Pyotr hakimiyyətinin dövlət quruculuğu, iqtisadi, hərbi sahədə həyata keçirdiyi islahatlar ölkənin mədəniyyətinin səviyyəsini yüksəltməyi tələb etməklə yanaşı, ölkənin ayrı-ayrı təbəqələrini təmsil edən adamlardan o zamankı Avropa mədəniyyəti və bilikləri təcrübəsini əxz etməyi, öyrənməyi zəruri edirdi. Çarın təkidi ilə Rusiya maarif, elm, mədəniyyət və məişət sahəsində zamanın sınağından keçmiş və Qərb ölkələrini aparıcı mövqeyə daşımış mütərəqqi olan bir çox yeniliyi qəbul etmişdir. Bununla bərabər, Pyotr Avropa ölkələrinin sosial və siyasi sahədəki naliyyətlərini, o cümlədən seçkiləri, xalq nümayəndəliyini, parlamentarizm, şəxsiyyət azadlığı kimi məsələləri qəbul etməmişdir. Rusiyada qəti olaraq təhkimçilik və mütləq hökmdarlıq qaydasını bərqərar edən 1649-cu il Qanunlar külliyyatı fəaliyyət göstərirdi. Qərb mədəniyyətinin aludəçisi olan I Pyotr Rusiyanın siyasi cəhətdən Avropa ölkələrindən asılı olmayan suveren, müstəqil dövlət olmasının əsl tərəfdarı olmuşdur. Bu özünü, xüsusilə Şimal müharibəsi zamanı Qərb ölkələrilə Rusiya arasında olan qarşıdurmada, I Pyotrun imperator titulunun qəbul etməsində və pravoslavlığın Rusiyanın rəsmi dini kimi qalmasında büruzə vermişdir.

Mədəniyyət, təhsil, elm sahəsində islahatlarını tətbiq etməyə səy göstərən Pyotr 1698-ci ildə Avropadan qayıtdıqdan sonra boyarların saqqalını və uzun kaftanlarının ətəyini kəsərək qətiyyətlə adamların xarici görünüşünü dəyişməyə başlamışdır. Zadəgan və şəhərlilər təkcə avropasayağı paltar və ayaqqabı deyil, həm də parik (qoyma saç) qoymalı idilər. Bu isə onların sadə camaatdan fərqlənərək cəmiyyətin yuxarı təbəqəsinə aid olduqlarını göstərirdi.

1699-cu il dekabrın sonunda çar Rusiyada illərin hesablanmasına dair verdiyi fərmanla köhnə Bizans sistemi olan illərin dünyanın yaranmasından, yəni b.e.ə.5509-cu ildən, sentyabrın 1-dən hesablanması yerinə, xristian pavoslav Avropasının Yulian təqvimi üzrə illərin İsanın anadan olması günündən – 1700 il əvvəl yanvarın 1-dən hesablanmasını təsbit etdi. Kilsə illərini köhnə qayda ilə, hesablanmasını saxlayırdı. Beləliklə, Rusiyaya Qərbdə olduğu

kimi yolka, şaxta baba, yanvar yeni il bayram şənliyi gəldi. Paytaxt Peterburqa köçdükdən sonra çar ailəsi, saray, qvardiya, şəhərin bütün əhalisi yeni il şənliyində iştirak edirdi. Təntənəli kilsə mərasimi, küçələrdə, yolka, kütləvi gəzinti, atəşfəşanlıq, evlərdə bəzən çarın da iştirak etdiyi qonaqlıq məclisləri təşkil olunurdu. Əvvəllər olduğu kimi günün səhərdən başlayıb axşama kimi olması sistemi dəyişdirilərək, Avropada olduğu kimi günün yarısından gecə yarısına kimi, yəni gündüz 12-dən gecə 12-ə kimi müəyyən olundu.

1718-ci ildə çar zadəgan və şəhər əhalisinin yuxarı təbəqəsi üçün təmas yeri olan assambleyalar, yığıncaqlar təsis etmişdir. Assambleyalar qışda növbə ilə adlı-sanlı adamların evində təşkil edilir, qonaqlar burada dama, şahmat oynayır, gənclər rəqs edir, sahibkarlar, tacirlər, dövlət adamları peşəkar məsələləri müzakirə edirdilər. Belə ictimai yığıncaqlarda ilk dəfə olaraq qadınlar da iştirak edirdilər. Çarın yeniliklərinin mahiyyəti ondan ibarətdir ki, zadəganlar yaxşı davranış qaydalarını mənimsəsinlər, qılıncoynatmağı, at sürməyi, rəqs etməyi, əcnəbi dildə danışmağı, yazmağı öyrənsinlər. «Gənclərin vicdan güzgüsü» kitabı zadəganlara yaxşı ədalara sahib olmaqda kömək edirdi.

Yeni mədəniyyətin bərqərar olmasının tərkib hissələrindən olan əhalinin savadlılıq səviyyəsi, kitab çapı, mətbəə, nəşriyyat işlərinin geniş miqyas alması, Rusiyada ilk kütləvi dövlət kitabxanasının açılması mühüm əhəmiyyətə malik olmuşdur. Çarın təşəbbüsü ilə mülkü əlifbanın tətbiq edilməsilə çətin oxunan təmtəraqlı kilsə-slavyan hərifləri mətbəə şriftlərindən çıxarıldı, şəkilcə daha sadə olan hərflərlə əvəz olundu. Rəqəmlərin çətin hərfi işarələri ərəb rəqəmlərilə əvəzləndi. Məsələn, bir rəqəmi əvvəl olduğu kimi «A» hərfi ilə deyil, «1» rəqəmilə əvəzləndi.

Yeni mətbəələr onların nəzdində isə oyma emalatxanaları açıldı. Burada tərcümə edilmiş və rus müəlliflərinin yazdıqları dərsliklər, tarix, qrammatika, təbiət və texniki ədəbiyyata aid kitablar, lüğətlər («leksikonlar») nəşr olunurdu. XVIII əsrin əvvəllərində rus oxucusu 64 tərcümə ədəbiyyatı, o cümlədən latın, alman, fransız, yunan, italyan, polyak, İsveç, holland və s. dillərdə olan kitablarla tanış olmuşdur. Bu, böyük mədəni sərvətdir.

1702-ci ildə Rusiyanın mədəni həyatında önəmli bir hadisə olan «Vedomosti» qəzeti çap edilmişdir. Rusiyada və xarici ölkələrdə baş verən hadisələrə dair məlumat yayan qəzetin tirajı 2500 nüsxəyə çatırdı və nüsxələr dərhal satılıbqurtarırdı. Teatr tamaşalarının həvəskarı olan çar Moskvada Qızıl meydanda «Komediya binası» tikilməsinə göstəriş verdi. 1704-cü ildən başlayaraq burada tamaşalar təşkil edilməyə başlandı. Tamaşalarda xarici aktyorlar çıxış etsə də, tədricən bu işə rusları da cəlb etdilər.

Ölkənin mədəni səviyyəsi dəyişdikcə şəhərlərin siması da yeniləşirdi. Çar şəhər hakimiyyətindən Avropa şəhərlərinə bənzər şəhər qurulmasını tələb edərək, tikililəri qayda çərçivəsində nizama salmağı, daş körpülər tikməyi, küçə işıqları çəkməyi tövsiyə edirdi. Peterburqun salınmasına xüsusi önəm verən Pyotr şəhəri Avropadakı kimi daşdan və mərmərdən inşa edərək Rus dövlətinin şan-şöhrəti və böyüklüyünü əks etdirən imperiya mərkəzinə çevrilməsini nəzərdə tuturdu. Peterburqun tikilməsi məqsədilə minlərlə işçi, posad adamı, dövlət kəndlisi cəlb edilmişdir. Gecə və gündüz arabalarla, qışda xizəklərlə tikinti daşı, müxtəlif çeşidli materiallar daşınırdı. Küçələrin, sarayların, ictimai binaların layihələşdirilib tikilməsi üçün italyan və fransız memarları, mühəndis və ustaları dəvət edilmişdir. Tədricən əzəmətli memarlıq ansamblı – Admirallıq, Petropavlov qalası, kollegiyanın binası, Menşikov sarayı, Kunstkamera binası və b. meydana gəlmişdir.

I Pyotrun islahatları XVIII əsrin birinci rübündə dünyəvi məktəblər sisteminin və başqa tədris müəssisələrinin yaranmasına zəmin hazırladı. Ölkənin bir çox şəhərində «rəqəm məktəbləri» açılmışdı. Burada zadəgan, məmur və aşağı kilsə qulluqçusu uşaqları oxuyurdular. Əsgər və dənizçi uşaqları üçün xüsusi məktəblər təsis edilmişdi.

Yeniləşən Rusiyanın tələbatına əsasən ölkədə dağ-mədən, tərcüməçi məktəbləri meydana çıxdı. Slavyan-yunan-latın akademiyasının əsasında slavyan-latın, slvavyan-yunan, slavyan-rus məktəbləri açıldı. Ölkədə ilk dəfə olaraq texniki tədris müəssisələri yarandı. Moskvada açılan naviqasiya məktəbinin ardınca Novqorodda, Narvada belə məktəblər meydana gəldi. Moskva və Peteburqda mühəndis məktəbləri və ilk dəfə tibb təhsil məktəbləri yarandı. Məktəblərdə əsasən, zadəganların uşaqları təhsil alırdı. Pyotr özü məktəblərə şagird seçir, onların təhsilinə ciddi nəzarət edirdi. Çarın fərmanı ilə təhsili olmayan zadəgan uşaqlarına evlənmək qadağan edilmişdi.

Avropaya səfəri zamanı Pyotr Avropa elmilə tanış olmağa xüsusi maraq sərf etmişdir. Çox böyük alimlərlə, ixtiraçılarla görüşmüşdür. İslahatçı çar elmin mədəniyyətin inkişafındakı yerini aydın dərk edirdi. Bu məqsədlə ilk iş olaraq I Pyotr avropalı elm adamlarını yaxşı əməkhaqqı, mənzil şəraiti və başqa güzəştlər verərək Rusiyaya dəvət edirdi. Məsələn, isveçrəli riyaziyyatçı və mexanik D.Bernulli, fransız astronom və kartoqraf İ.Delil buna misal ola bilər. İstedadlı gəncləri oxuyub təhsil almaq məqsədilə xarici ölkələrə göndərən çar bu məsələyə ayrıca diqqət ayırmışdır. Nəhayət, rus sənayesi və dağ-mədən filiz emalı sahəsində elmi-texniki biliklərə xüsusi diqqət ayıran Pyotr bütün ölkəyə geoloji kəşfiyyat dəstələri göndərərək onların daş kömür, filiz, mis, gümüş, neft yataqlarının mənimsəməsinə şərait yaratmışdır. Ölümünə üç həftə qalmış

I Pyotr danimarkalı kapitan Vitus Berinqə Amerika ilə Asiya arasında boğaz olub-olmadığını aydınlaşdırmaq haqqında təlimat imzalamışdır. Yalnız çarın ölümündən sonra Alyaska sərhədlərinə çataraq Asiya və Amerika arasındakı öz adı verilmiş körfəzi kəşf edilmişdir. XVIII əsrin 20-ci illərinin əvvəllərində S.Remizov «Sibirin böyük xəritəsi»ni yaratmışdır. Pyotrun təşəbbüsü ilə astronomiya rəsədxanası, botanika bağı salınmışdır. Astronomik müşahidələr aparılmağa başlanmışdır. 1714-cü ildə Peterburqun Neva sahillərində Rusiyanın ilk təbiətşünaslıq elmi muzeyi olan Kunstkamera tarixi mərkəzi meydana gəldi. Elmi biliklərin inkişafı Rusiyada ali elmi mərkəz olan Elmlər Akademiyasının açılmasına zəmin hazırladı. 1724-cü ildə Elmlər Akademiyasının təsis olunması layihəsi Senatda müzakirə edildikdən sonra I Pyotr tərəfindən təsdiq olundu. 1725-ci ilin sonunda I Pyotrun ölümündən sonra Akademiya fəaliyyətə başladı.

I Pyotrun islahatları ədəbiyyat və incəsənət sahəsində də öz təsirini göstərmişdir. Ənənəvi xalq yaradıcılığı nümunələri olan bılinalar, tarixi mahnılar, nağıllarda «Pyotr» mövzusu qabarıq şəkildə nəzərə çarpır. Mövzuların qəhrəmanı çox halda çar özü, onun qələbəsi və fikirləridir. Eyni zamanda bu əsərlərdə çarın düşmənləri isveçlilərdən, Mazepadan, hökmdara xəyanət edən Sibir qubernatoru knyaz Qaqarinin xəzinə oğurluğundan bədii formada söhbət açılır. Ədəbiyyatda publisist əsərlər yaranır, burada islahatçı çarın məsləkdaşları onun fəaliyyətinə işıq tuturlar. Məsələn, görkəmli kilsə xadimi, yazıçı, Sinodun vitse-prezidenti Feofan Prokopoviçin yaradıcılığı bu istiqamətdə olmuşdur. Onun «Çar hakimiyyəti və şərəfi haqqında dastan» («Слово о власти и чести царской»), «Monarxın iradi ədaləti» («Правда воли монаршей») əsərləri I Pyotrun Rusiyanı dəyişdirməsi islahatlarının əhəmiyyətinə, çarın hakimiyyəti istədiyi ailə üzvünə verə bilmək hüququna malik olmasına və s. həsr edilmişdir.

XVIII əsrin birinci rübündə Rusiyada incəsənət inkişaf etmişdir. Ənənəvi ikonaçəkmə sənətində həqiqi hadisələri əks etdirən dünyəvi mövzular önə çıxmışdır. Xüsusilə portret rəssamlığı geniş miqyas almışdır. İvan Nikitin görkəmli portret ustası olaraq bir çox məşhur adamların şəklini çəkmişdir. «I Pyotr ölüm yatağında» («Петр I на смертном одре») əsəri rəssamın fırçasının məhsuludur. Başqa bir böyük portret ustası İvan Nikitinlə Hollandiyada təhsil almış Andrey Matveev olmuşdur.

Mədəniyyətin bir parçası olan musiqi sahəsində də yeniliklər diqqəti cəlb edir. Ənənəvi kilsə xor əsərləri və xalq mahnıları ilə yanaşı, hərbi marş musiqisi səslənməyə başlamışdır. Parad və qələbə zamanı rus polkları belə musiqi marşının sədaları altında addımlayırdılar.

# X FƏSİL
# RUSİYA İMPERİYASI XVIII ƏSRİN II RÜBÜ VƏ ORTALARINDA. SARAY ÇEVRİLİŞLƏRİ

## §1. Rusiya imperiyası 1725-1740-cı illərdə

I Pyotrun ölümündən II Yekaterinanın taxta çıxmasına kimi, yəni, 1725-1762-ci illər arasında Rusiya taxtında altı nəfər kişi və qadın hökmdar bir-birini əvəz etmişdir. Dövlətin başında dayanan hökmdarların hər birinin fərqli fərdi xüsusiyyətləri ilə yanaşı, ümumi cəhətləri ondan ibarət olmuşdur ki, onlardan heç biri I Pyotr kimi ölkənin ümumrifahı naminə dövlətə fədakar xidmət ideyasına sahib olmamışdır. Dövlətə əsl xidmət etmək yerinə onlar öz mənasız və cəfəng arzu və məqsədlərinin nümayişi ilə seçilmişlər. Müvəqqəti hökmdar və hökmdar qadınların başqa bir fərqli cəhəti ondan ibarətdir ki, faktiki olaraq dövləti onlar deyil, taxt-taca yaxın olan istəkliləri («фавориты») idarə etmişdir.

1722-ci ildə I Pyotrun taxtın varisini təyin etməyə dair fərman verməsinə baxmayaraq, çar qəflətən vəfat edərək öz yerinə varis təyin etməmişdir. Taxta iki namizəd var idi: biri I Pyotrun nəvəsi, edam edilən şahzadə Alekseyin oğlu Pyotr, ikincisi 1724-cü ildə rəsmi tacqoyma mərasimi ilə imperatriçə elan edilən Pyotrun arvadı Yekaterina Alekseyevna. I Pyotr varisi təyin etmək hüququndan istifadə etməyə macal tapmadığına görə taxta çar ailəsinin böyük kişi nümayəndəsi, yəni doqquz yaşlı şahzadə Pyotr sahib olmalı idi. Faktiki olaraq, imperator tacı I Pyotrun arvadı Yekaterina Alekseyevnaya qismət oldu. I Pyotrun vaxtında irəli çəkilən saray əslzadələri şahzadə Alekseyin məhkəmə işi ilə bağlı zərər görə biləcəklərini düşünərək çarın arvadının ətrafında birləşdilər. Daim birincilik uğrunda mübarizə aparan A.D.Menşikov, P.A.Tolstoy, İ.İ.Buturlin, A.V.Makarov, P.İ.Yaqujinski və b. müvəqqəti də olsa, Yekaterina Alekseyevnanı hakimiyyətə gətirmək məqsədilə birləşdilər. Ordunu öz tərəflərinə çəkmək üçün əsgərlərin 16 aylıq əməkhaqqısı ödənildi, qoşuna əlavə pul paylandı. Preobrajensk və Semyonov saray qvardiya polkları zadəganlardan ibarət xüsusi imtiyazlara sahib olmaqla yanaşı, saray çevrilişlərində xüsusi rol oynamağa başladılar. 1725-ci il yanvarın 28-nə keçən gecə hər iki qvardiya polkunun həzin təbil səsi altında sarayın həyatinə daxil olaraq

Yekaterinanı müdafiə etmələri məsələnin Rusiyanın taxtına birinci qadın çariçanın əyləşdirilməsilə bitməsinə səbəb oldu. Mehriban, qayğıkeş, gözəl çariçə həm də təbiətən dayaz, məhdud düşüncəli dul qadın olaraq arzu və hisslərinin əsirinə çevrilərək nəhəng imperiyanı idarə etmək iqtidarına malik deyildir. Odur ki, real hakimiyyət Yekaterinanın istəklisi ağıllı, bir o qədər də hiyləgər və mənsəbpərəst Menşikovun əlində idi. Lakin I Pyotrun sağlığında olduğundan fərqli olaraq knyaz hətta cari məsələləri belə həlletməyə təşəbbüs göstərməyən, özünü itirmiş və əl-qolu bağlı bir adam təsiri bağışlayırdı. Buna baxmayaraq, Pyotrun başladığı bir sıra işləri tamamlamaq mümkün olmuşdur.

Məsələn, 1725-ci ilin fevralında kapitan-komandor Vitus Berinq Birinci Kamçatka səyahətinə çıxdı. I Pyotrun övladı olan Peterburq Elmlər Akademiyasının tərkibinin seçilməsi və dekbarda fəaliyyətə başlaması elan olundu.

I Pyotrun ölümündən sonra onun istəyinə əsasən rəsmi nikaha kimi Yekaterinadan doğulan qızı Annanın Qolştinsk hersoqu Karl-Fridrixlə toyu təşkil olundu. Beləliklə, Böyük Pyotrun qızı XII Karlın oğul nəvəsinin arvadı və gələcək imperator III Pyotrun anası oldu.

Tezliklə Yekaterinanın ətrafında birləşən dünənki qaliblər öz aralarında çəkişməyə başladılar. Bu şəraitdə 1726-cı ilin fevralında imperatriçənin idarəçiliyi nəzdində Ali Gizli Şura təsis edildi. Şuraya A.D.Menşikov, qraf, general-admiral F.M.Apraksin, qraf, kansler Q.İ.Qolovkin, qraf, diplomat, Gizli Dəftərxananın birinci rəisi P.A.Tolstoy, baron, diplomat, vitse-kansler A.İ.Osterman, knyaz D.M.Qolitsın daxil oldu. Bir az sonra Menşikovun narazılığına baxmayaraq, imperatriçənin təşəbbüsü ilə kürəkəni hersoq Karl-Fridrix də Şuranın tərkibinə daxil edildi. Ali Gizli Şura bütün kollegiyaların və başqa orqanların üzərində nəzarət funksiyasını yerinə yetirirdi. Şuranın yaranması Senatın rol və əhəmiyyətinin aşağı düşməsinə səbəb oldu. İmperatriçə yüksək mənsəb sahiblərindən dövlət işləri və dəyişikliklər haqqında öz fikirlərini yazılı təqdim etməyi tələb edərək özü isə dövlət işlərinə vaxt sərf etmək yerinə keçmiş istəklisi Villim Monsun yerini tutan «ürək dostu» Reynqold Qustav Levenvoldun iştirakı ilə uzun-uzadı bayramsayağı şənlik və eyş-işrət məclislərində iştirak edirdi. Təbii olaraq, dövlət işlərini əyləncəyə çevirən çariça və onun ətrafı böyük Pyotrun islahatlarını davam etdirmək gücündən və arzusundan çox uzaq idi. Tez-tez xəstələnən Yekaterinanın fiziki, mənəvi-əxlaqi cəhətdən dövlət işlərinə ciddi nəzarət etmək imkanının olmaması nəvəsi Pyotrun və onun arxasında dayanan ailə və qadın bağlarının nüfuzunun artmasına şərait yaratmışdır. Bunu dərk edən Menşikov azyaşlı şahzadəni qızı Mariya ilə evləndirməyi planlaşdırdı. Yekaterina vəsiyyətnaməsində Pyotru varisi elan edərək birbaşa onun Mariya Menşikova ilə evlənməsini təsbit etmişdir. Eyni

zamanda Yekaterina ölümündən əvvəl Menşikovun təkidi ilə fərman imzalayaraq bu izdivacın əleyhdarlarını və knyazın potensial rəqiblərini sürgünə göndərmişdir.

I Yekaterinanın daxili siyasətindən danışarkən 1725-ci il fevralın 5-də elan edilən fərmanla hər bir nəfər kəndlidən tutulan 74 qəpiklik verginin dörd qəpik azaldılmasını və bunun xalqın sevincinə səbəb olmasını qeyd etmək olar. Lakin buna baxmaraq, vergi qalığı 1725-ci ildə 30 faiz, 1727 və 1728-ci illərdə verginin üçdə bir hissəsini təşkil etmişdir. Vergi borcunun artmasının səbəbi məmurların yığılan vergilərin bir hissəsini oğurlayıb mənimsəməsi olmuşdur. Odur ki, hökumət hər bir nəfər üzrə alınan vergilərin toplanmasını yenidən voyevodalara tapşırdı. Vergi qalığı bir tərəfdən hərbi ehtiyaclar üçün pul vəsaitinin çatışmazlığına, digər bir tərəfdən isə gəlirin azalması şəraitində məsrəflərin kəsilməsi ilə müşayiət olunurdu. Məsələn, 1726-cı ildə uzun müzakirələrdən sonra ordunun xərcini azaltmaq məqsədilə onların Pyotrun zamanında olduğu kimi, kəndlərdə deyil, ərzağın ucuz olduğu bol meşəlik zonası olan şəhərlərdə yerləşdirilməsi qərara alındı. Xərcləri azaltmaq üçün hər bir kollegiyada yalnız 6 nəfər işçi saxlamaq nəzərdə tutulurdu. 1727-ci ildə yerli idarəçilikdə bir-birini təkrarlayan bahalı əyalət, quberniya, qəza idarəetmə orqanları ləğv edildi. Şura, eyni zamanda Baş Magistrat və Yerli Şəhər magistrləri vəzifələrini ləğv edərək şəhər seçkili orqanlarını tarixə qovuşdurdu. 1727-ci ildə voyevodanın «yoldaşları» vəzifəsinin ləğv edilməsi ilə voyevodaların əvvəlki təkhakimiyyətliliyi bərpa edilmiş oldu. Beləliklə, 1727-ci ildə qəbul edilən tədbirlərlə qəza voyevodası ancaq əyalət voyevodasına, o isə quberniya voyevodasına tabe olundu. Bunların hamısı üzərində isə qubernator dayanırdı ki, bu inzibati sistem 1775-ci ilə kimi qalmışdır.

1727-ci il mayın 6-da I Yekaterina vəfat etdi. I Pyotrun 11 yaşlı nəvəsi II Pyotr taxta çıxdı. Yetkinlik yaşına (16 yaş) çatana kimi ölkəni şahzadə qızların da daxil olduğu Ali Gizli Şura idarə etməli idi. Şurada əsas söz sahibi olan Menşikov, nəhayət, çoxdankı arzsusunu gerçəkləşdirərək 1727-ci il mayın 13-də A.S.Şeindən sonra ikinci generalissiumus oldu. Mayın 25-də imperatorun təntənəli şəraitdə knyaginya Mariya Aleksandrovna Menşikova ilə nikah qeyd olundu. Menşikov hakimiyyətə tam nəzarət etmək məqsədilə kürəkənini imperatorun pis vərdişlərindən qorumaq bəhanəsi ilə öz sarayına yerləşdirdi.

Tezliklə əsl-nəcabət sahibi olan Dolqorukovları saraya yaxınlaşdıran Menşikov 18 yaşlı knyaz İvan Alekseyeviçin II Pyotrla səmimi ürək dostluğuna mane ola bilmədi. «Qəyyum» II Pyotrun layiqli «İkinci imperator» olması üçün cidd-cəhdlə oxumasını nəzərdə tutaraq Menşikova görə etibarlı və sözəbaxan Andrey İvanoviç Ostermanı onun müəllimi təyin etdi. Lakin

Osterman da İvan Dolqorukov kimi yavaş-yavaş gələcək imperatora Menşikovun himayəsi və hakimiyyətindən azad olmaq fikrini aşıladı. Menşikovun bir neçə həftəlik xəstəliyi şəraitində azad hərəkət edən II Pyotr gələcək qayınatasından qaçmağa başladı. 1727-ci il sentyabrın 7-də A.Osterman Ali Gizli Şurada çarın qəyyumluqdan azad olaraq tam səlahiyyətli imperator olması haqqında fərmanı oxudu. Bu Menşikovun sonu oldu. Belə ki, II Pyotrla Menşikov arasında barışmaz ziddiyətin mahiyyəti ondan ibarət idi ki, «I Pyotrun sevimlisi Menşikov II Pyotrun sevimlisi deyil, qəyyumu olmaq istəmişdi». 1727-ci ilin sentyabrında Menşikov həbs edilərək, əmlakı müsadirə olunmaqla ailəsi ilə birlikdə Berezova sürgünə göndərildi, iki ildən sonra isə vəfat etdi.

Yeniyetmə yaşında olan və xarakteri yenicə formalaşmağa başlayan II Pyotr Ostermanla dərsləri ilə məşğul olmaq yerinə, idarəçilk işlərindən də uzaq duraraq ingilis səfiri Klavdi Rondonun yazdığı kimi, onun əsas ehtiras və şövqü ovçuluq, əyyaşlıq və mənəvi pozğunluqdan ibarət idi ki, bunları da dostu İvan Dolqorukidən öyrənmişdi. Məsələn, təkcə 1729-cu ilin iyul-avqust aylarında II Pyotr ardıcıl 55 gün ovda olmuşdur. 1729-cu il noyabrın 19-da növbəti ovdan qayıdan II Pyotr Dolqorukovların «əməyi sayəsində» elan etdi ki, 17 yaşlı Yekaterina Dolqorukova ilə evlənməyə hazırlaşır. Noyabrın 30-da 14 yaşlı imperator ürəyincə olmayan 17 yaşlı Yekaterina ilə nişanlandı. 1730-cu il yanvarın 6-da Moskva çayında xaç suyunasalma təntənəli mərasimində şaxtada başıaçıq, uzun müddət dayandığı üçün xəstələnən imperator yanvarın 18-dən 19-na keçən gecə vəfat etdi. Onun ölümü ilə Romanovların kişi nəsli üzrə sülaləsi başa çatdı.

II Pyotrun qısa müddətə də olsa hakimiyyəti dövründə 1729-cu ilin dövlət xərclərini azaltmaq məqsədilə Preobrajensk prikazı ləğv edilərək onun funksiyası Ali Gizli Şura ilə Senat arasında bölüşdürüldü. Adambaşına alınan (can) vergilərinin toplanması qəti olaraq yeni vergi kitabları əsasında qubernator və voyevodalara həvalə edildi ki, bu da oğurluğun azalmasına səbəb oldu. Maliyyə vəziyyətini qaydaya salmaq məqsədilə impertorun göstərişi ilə gömrük haqqını ödəmək şərtilə «azad tütün» ticarətinə icazə verildi. 1728-ci ildə dövlətin duz inhisarı ləğv olunaraq «azad» ticarəti elan olundu. Lakin xəzinəyə daxil olan gəlir azaldığı üçün 1731-ci ildə duzun dövlət inhisarı bərpa edildi. Uzaq Sibirdə dəmirin istehsalına nəzarətin çətinliyi hakimiyyəti hər bir adama İrkutsk və Yenisey əyalətlərində yeni zavodlar tikməyə, qızıl və gümüşdən başqa qalan bütün filiz məhsullarını gömrük haqqı ödəməklə xaricə ixrac etməyə icazə verməyə sövq etmişdir. Kəndlilərin vəziyyətini yüngülləşdirmək üçün Ali Gizli Şura mövsümi işlər vaxtı can vergisi toplamağı qadağan et-

mişdi. Gəmiquraşdırma sahəsində donanmanın qalerlərlə təmin edilməsinin məhdudlaşdırılması qərara alınmışdır. Ümumən azyaşlı II Pyotr müstəqil dövlət idarə etmək bacarığından uzaq olmuşdur.

II Pyotr öldükdən sonra 1730-cu il yanvarın 19-da Ali Gizli Şuranın üzvləri Q.İ.Qolovkin, D.M.Qolitsın, A.Q. və V.L.Dolqorukilər və yığıncağa dəvət edilən Sibir qubernatoru M.V.Dolqoruki, iki feldmarşal M.M.Qolitsın və V.V.Dolqoruki çar taxtına yeni namizədi irəli sürmək məqsədilə müzakirəyə başladılar. Çarlığa yalnız I Pyotrun və onun qadın xətti ilə ögey qardaşı İvanın sülaləsindən namizəd seçilə bilərdi. I Pyotrun qızı Yelizavetanın anasının «aşağı soydan» olması səbəbi ilə hüququ çatdığı halda taxta sahib olması namizədliyi müdafiə edilmədi. Dmitri Mixayloviç Qolitsın çar İvan Alekseyeviçin ortancıl qızı Kurlyandiya hersoginyası, 37 yaşlı Annanın namizədliyi üzərində dayandı. Yığıncaqda iştirak edənlərin hamısı bir səslə onu müdafiə etdi.

Anna İvanovna 1710-cu ildə Kurlyandiya hersoqu Fridrix Vilhelmə ərə verildikdən sonra tez bir zamanda dul qalaraq Mitave hersoqluğunda yoxsul bir həyat yaşamışdır. Hersoqluqda Annanın yeganə təsəllisi rus hökumətinin rezidenti, eyni zamanda onun istəklisi Pyotr Mixayloviç Bestujev-Ryumin və ondan sonrakı istəklisi Ernst İoqann Biron olmuşdur. «Alilər» çarın mütləq hakimiyyətini saray əyanlarının xeyrinə məhdudlaşdırmaq məqsədilə səkkiz maddədən ibarət əhdnamə tərtib etdilər. İlk vaxtlar gizli tutulan əhdnamə Senat, Sinod və generallar qarşısında bəyan edildikdən sonra «alilər»ə qaşrşı müxalif olan qüvvələr sənədin səkkiz nəfərin mənafeyi naminə tərtib edildiyini və ona qarşı olduqlarını bildirdilər. Başqa bir tərəfdən isə II Pyotrun baş tutmayan toyu ilə bağlı olaraq ölkənin hər yerindən Moskvaya çoxlu zadəgan gəlmişdi. Əhdnamədən xəbər tutan zadəganlar da 416 nəfərin imzası ilə sənəd tərtib edərək güzəştlər, o cümlədən zadəgaların xidmət müddətini 20 ilə qədər azatmağı, təkvarislik qanununu ləğv etməyi, zabit kadrları hazırlamaq üçün xüsusit təhsil müəssisələri açmağı və s. təklif etdilər.

1730-cu il fevralın 10-da Anna İvanovna Moskva altındakı Vsesvyatsk kəndinə gələrək II Pyotrun yas mərasiminin başa çatmasını gözlədi. Tezliklə bura Preobrajensk polku və süvari qvardiya dəstəsi gəldi. «Alilər» çalışırdı ki, Anna İvanovna tezliklə Şuraya gəlib «təntənəli yeni dövlət quruluşunu təsdiq edib» çariça kimi fəaliyyətə başlasın. Anna İvanova isə nə Kurlyandiyaya qayıtmaq, nə də gələcək hakimiyyətini məhdudlaşdıraraq «alilərin» istəyinin icra edilməsini istəyirdi. Bu vəziyyətdə 150 nəfərin imzaladığı mütləqiyyəti tam bərpa etmək məqsədilə Ali Gizli Şuranın və baş Senatın yerinə I Pyotrun dövründə olduğu kimi vahid hökumət Senatı yaratmağı tələb edən ərizəsi məsələyə aydınlıq gətirdi. Müxalif qüvvələrin sərt mövqeyi 1730-cu ilin fev-

ralında Anna İvanovnaya imkan verdi ki, «alilər»in tərtib etdiyi Əhdnaməni cırıb atsın, ayın 25-də isə yeni çariçanın taxta çıxması və and içməsi atəşfəşanlıqla qeyd olunsun.

Yeni fəaliyyətə başlayan imperatriçə dərhal zadəganların tələbini yerinə yetirərək Ali Məxfi Şuranı ləğv edərək I Pyotrun vaxtındakı 21 nəfərdən ibarət Senatı bərpa etdi. 1731-ci il noyabrın 6-da 3 nəfər – A.İ.Osterman, qraf Qavril İvanoviç Qolovkin, knyaz Aleksey Mixayloviç Çerkasski başda olmaqla rəsmi Ali hakimiyyət orqanı olan Nazirlər Kabinetini yaratdı. 1735-ci ildə elan etdiyi fərmanla 3 nəfər Nazirlər Kabineti üzvünün imzasının imperatriçənin dərkənarına bərabər tutmağı onun darıxdırıcı idarəçilik işlərindən uzaq qalması ilə bağlı idi. Levortun məlumatına əsasən, Qolovkin və Çerkasski Kabinetə «görüntü üçün» daxil edilmişdi. Onun «ürəyi» və əsl rəhbəri isə «daimi» vitse-kansler Osterman və onun arxasında dayanan Ernst İoqann Biron idi.

İmperatriçə zadəganlara verdiyi sözə əməl edərək, 1730-cu ildə Pyotr dövründəki mayoratı, yəni mirasın böyük oğula çatmasından bəhs edən vərəsəlik sistemini ləğv etdi. 1731-ci il mart fərmanı ilə müvəqqəti pomestya və irsi votçina mülklərinin eyni, «votçina əmlakı» olması elan edildi. İyul ayında 13-dən 17 yaşına kimi zadəgan uşaqları üçün kadet korpusu təsis olundu ki, onlar buranı bitirdikdən sonra zabit rütbəsi alırdılar.

Anna İvanovnanın hakimiyyəti dövründə xaricilərin Rusiyaya axını başladı. Onlara yol açmaq məqsədilə nüfuzlu Dolqorukilər müxtəlif bəhanələrlə paytaxtdan uzaqlaşdırıldılar, sonra isə edam olundular. Knyaz D.M.Qolitsın Şlisselburq qalasına salındı ki, orada da vəfat etdi. Anna İvanovnanın zamanı hakimiyyətin zirvəsində onun istəklisi keçmiş mehtər, indi isə baş komerger qraf Ernst İoqann Biron dayanırdı. Bironla birlikdə Rusiyanın siyasi həyatına avantüristlər – Reynqold qardaşları, Karl Levenvold, K.L.Meqden, İ.A.Korf, Q.F.Diven və b. daxil olmuşdur.

1731-ci ilin mart ayında II Pyotrun dövründə ləğv edilmiş Preobrajensk prikazı Gizli axtarış işləri dəftərxanası adı ilə bərpa olundu. Cəza orqanının başına isə I Pyotrun və P.A.Tolstoyun sadiq şagirdi, ağıllı və ehtiyatlı qraf Andrey İvanoviç Uşakov təyin olundu. Dövlət başçısına sui-qəsdin aşkar edilərək qarşısının alınması və dövlət çevrilişinə cəhdin ləğv edilməsi məqsədilə yaradılan gizli polis əslində, Bironun nəzarəti ilə hakimiyyətin siyasi rəqibləri ilə hesablaşmaq alətinə çevrilmişdir. Məsələn, keçmiş Həştərxan və Kazan qubernatoru 1738-ci ildən P.İ.Yaqujinskinin ölümündən sonra Nazirlər Kabinetinə təyin edilən A.P.Volınskinin Osterman və Bironla çəkişməsi onun böhtana uğrayaraq çariça haqqında ləyaqətsiz sözlər söyləməsi iddiası ilə həbs edilərək ağır işgəncədən sonra 1740-cı ilin iyunun 27-də dilinin kəsilərək,

şaqqalanaraq edam edilməsinə səbəb oldu. Məlum olduğu kimi, bu siyasi prosesin əsl məqsədi hakimiyyətin yuxarı təbəqələrinə daxil olan alman şlyaxtaçılarına qarşı müqavimətin bitərəfləşdirilməsi idi.

Məhz imperatriçənin özünü onun istəklərinə sözsüz əməl etməyə hazır olan xaricilərlə və yerli təlxəklərlə əhatə etməsi onun uzun illər çətinlik və ehtiyacla dolu həyat yolunun bir anda aydınlığa qovuşaraq bağlı qapıların açılmasının nəticəsi idi. Gəncliyin onu tərk etdiyi bir vaxtda əldə edilən azadlıq çariçanı əyləncələr, şənlik və bayram təntənələrinə sövq etmişdir. Ətrafına yığdığı saray qulluqçuları imperatriçəni daim əyləndirib coşduraraq, gecələr ona qorxulu nağıllar danışaraq onun daha da tənbəlləşərək idarəçilik işlərindən uzaqlaşmasına bir növ zəmin hazırlayırdılar. Bütün idarəçilik işlərinə rəhbərlik Biron və 3 nəfər Nazirlər Kabineti başçısının əlində cəmləşmişdi. Ardı-arası kəsilməyən bal məclislər, atəşfəşanlıq, müxtəlif ağlasığmaz əyləncəli şənliklər az qala boşalan ölkə xəzinəsi üçün ağır yükə çevrilmişdi. Məsələn, təkcə sarayın saxlanılmasına sərf edilən pul vəsaiti I Pyotrun dövründə olduğundan beş-altı dəfə çox idi. Feldmarşal B.X.Minixin verdiyi məlumata görə, hakimiyyətə başladığı birinci ildən çariça hər gün kart oynayar, günün birinci yarısı stol arxasından qalxmadan söhbət edər və yaxud təlxəklərin qışqırıqlarına qulaq asar, gündəlik vərdişlərdən darıxdıqda isə otağında dolu olan tüfəngini əlinə alaraq, pəncərədən uçan qaranquş, qarğa, sağsağan və s. quşlara atəş açıb vurardı. Anna İvanovnanın hakimiyyətə başlamasının onilliyi münasibətilə 1740-cı ilin qışında köhnə Qış sarayı ilə admirallıq binası arasında tikilən «Buz ev»də təlxəyə biyabırçı toy edilməsi məclisi xəzinəyə rəsmi sənədə əsasən 30 min rubla başa gəlmişdi.

Tədqiqatçıların fikrinə əsasən, qeyd etmək olar ki, Anna İvanovna əsasən şəxsi xarakterli göstərişlərdən başqa dövlət idarəçilik işlərilə məşğul olmamışdır. Hökumətin bütün cari məsələrini Biron və Osterman həll edirdi. Düzdür, zaman-zaman o səfirləri qəbul edir, gəmiləri suya buraxırdı və s. Qeyd edilən kimi, yeni hakimiyyətin dövründə Senatın I Pyotrun zamanında olduğu kimi funksiyaları özünə qaytarılmaqla yanaşı, general prokuror, baş prokuror və stats-sekretar vəzifələri də bərpa edilmişdir. 1731-ci ildə Berq və Manufaktura kollegiyaları Ticarət kollegiyası ilə birləşdirildi. Məhkəmələrdəki ədalətsizliyin qarşısını almaq məqsədilə bütün mübahisəli məsələlərə «əvvəl olduğu kimi» iddiaçı və cavabdehin iştirakı ilə baxmaq tələb olunurdu. Senatın 1730-cu il fərmanına görə can vergisi toplamağı yenidən qəzalarda yerləşən polkların zabitlərinə həvalə edildi. Məqsəd oğurluq, quldurluq və qaçqın kəndlilərin qarşısının alınması idi.

Qeyd etmək lazımdır ki, bütün tədbirlərə baxmayaraq, XVIII əsr boyu dövlət xəzinəsinə ödənilən vergi qalığı problemi daim qalmışdır. Təkcə bir

faktı demək kifayətdir ki, 1732-ci ilə doğru I Yekaterina və II Pyotrun çarlığı dövrünə dövlət xəzinəsinin illik 6-7 mln. rubl gəlirinə baxmayaraq, vergi borcu 7 mln. rubl təşkil etmişdir. Yalnız adambaşına tutulan vergi borcu deyil, gömrük, tütün, dəftərxana borcu da ildən-ilə artırdı. Dövlət xəzinəsinə daxil olan vəsaiti artırmaq məqsədilə 1731-ci ildə Osterman Komissiyası ticarət sahəsində liberallaşmanı həyata keçirən bütün Rusiyada azad ticarətə icazə verdi.

Əvvəlki hakimiyyətin vaxtında olduğu kimi, donanmanın məsələsi yenidən meydana çıxmışdır. Bəzi məmurlar baha başa gələn hərbi gəmilərin yerinə, yalnız qalerlər inşa etməyi təklif etmişdir. Senator qraf S.A.Saltıkov və admiral S.S.Siversin bu təklifi rədd edərək rus donanmasını I Pyotrun dövründə olduğu kimi, yəni 27 xətt gəmisi, 6 freqat, 2 bərə, 3 bombardumançı gəmidən ibarət saxlamağı, sonra isə onların sayını artırmaq haqqında düşünməyi irəli sürdülər.

Anna İvanovanın hakimiyyəti dövründə dağ-mədən işləri sahəsindəki tədbirlər diqqəti cəlb edir. 1739-cu ildə dağ-mədən sənayesinin xüsusi adamlara verilməsi yolu açıldı. Bironun adamı general berq direkor alman A.K.Şemberq dövlət sənayesinin xüsusi əllərə keçid şərtlərini müəyyən etməli idi. Onlar sui-istifadə edərək küllü miqdarda, yəni 400 min rubl məbləğində pulu iki il müddətində oğurlayaraq onsuz da kasıb olan dövlət xəzinəsini ziyana salmışdırlar. Bununla yanaşı, hələ I Pyotr dövründə başlayan xüsusi sahibkarlıq işi öz nəticəsini vermişdir. Məsələn, 1731-ci ildə xüsusi zavodlar 796 min pud çuqun istehsal etdiyi halda, 1740-cı ildə 1068 min nud, yəni, 34 faiz çox çuqun istehsal etmişdir. 1740-cı ildə Rusiya 25 min tonluq çuqun istehsalı ilə 17,3 min ton çuqun istehsal edən İngiltərəni qabaqlamışdır.

### §2. Saray çevrilişləri

1740-cı il oktyabrın 17-də Anna İvanovna vəfat etdi, onun vəsiyyətnaməsinə görə bacısı qızı Anna Leopoldovna və Anton-Ulrix Braunşveyqskin yeni doğulan körpəsi VI İvan Antonoviç imperator, Biron isə naib təyin olundu. Rusiya cəmiyyəti imperatriçənin sağlığında xarici istəklinin özbaşınalığına çətinliklə dözdüyü halda, Bironun naib təyin edilməsilə yenidən 17 il bu vəziyyətə qatlaşmağa məcbur buraxılmışdır. Bu biabırçılığı davam etdirmək istəməyən adamların milli hissləri onları əməli fəaliyyətə yönəltmişdir. Birinci olaraq, Preobrajenski polkunun qvardiyaçıları narazılıqlarını dilə gətirmişdir. Lakin almanların arasında olan çəkişmə, onların əsas söz sahibi olmaq arzusu

Bironun vəziyyətini daha da kəskinləşdirmişdir. Xüsusilə Bironun naibliyini müdafiə edən feldmarşal B.X.Minix umduğu generalissimus rütbəsini almadıqda tez bir zamanda yeni imperatorun anası Anna Leopoldovnanın tərəfinə keçdi. Onun razılığı ilə 1740-cı il noyabrın 8-nə keçən gecə Minix adyutantı podpolkovnik X.Q.Manşteyn və 80 nəfər qvardiyaçı ilə birlikdə Bironun yay sarayına daxil olub, ağzını, əl-qolunu bağlayıb Qış sarayına apardılar. Səhər saat altıya doğru Bironun üç həftəlik naiblik dövrü başa çatdı, onu ailəsi ilə birlikdə əvvəlcə Aleksandr-Nevski monastrına, sonra Şlisselburq qalasına saldılar. Bironla birlikdə onun qatı tərəfdarı A.P.Bestujev-Ryumin də həbs edildi.

Noyabrın 9-da Anna Lepoldovna özünü hökmdar qadın elan etdi, iki gün sonra təltif edilənlərə dair fərman çıxdı. Minix yenə generalissumus rütbəsini ala bilmədi, əvəzində isə birinci nazir oldu. Osterman kabinet naziri vəzifəsini saxlamaqla general-admiral rütbəsini aldı. A.M.Çerkasski kabinetin tərkibində qalmaqla vitse-kansler vəzifələrini aldılar. Anton-Ulrixə generalissimus hərbi rütbəsi təqdim olundu. Əsasən, hamı razı qalsa da, Minixlə Osterman arasında birincilik üstündə mübarizə davam edirdi. Xarici siyasət sahəsində «Avstriya varisliyi» uğrunda birinci nazirin yeritdiyi bitərəflik siyasəti də Avstriyanı müdafiə edən saraydakı braunşveyqsklərin ürəyincə deyildi. Məhz Minixin təkidi ilə 1740-cı ilin dekabrnda Prussiya ilə ittifaq müqaviləsinin bağlanması qəzəbi daşdıran son damla oldu. 1741-ci ili yanvarında hökmdar qadının göstərişilə birinci nazir Minix bütün hərbi işlərə dair generalissimus Anton-Ulrixə raport verməli idi. Minix istefasının qəbul edilməyəcəyini düşünərək vəzifəsini tərk etmək haqqında müraciət etdi. Şahzadə Anton-Ulrix, Osterman və Qolovkin şahzadə xanıma istefanı qəbul etməyi məsləhət gördülər. Anna Leopoldovna onu Birondan xilas edib hökmdar qadın edən Minixin istefasını qəbul etdi.

Qeyd edilməlidir ki, qısa bir müddətdə hakimiyyətə olan rejimin yıxılmasının əsl səbəbkarı şahzadə Anna Leopoldovna özü olmuşdur ki, belə ki, onun nəhəng imperiyanı idarə etməyə nə həvəsi, nə də bacarığı çatırdı. Laqeyd və tənbəl 23 yaşlı Anna Leopoldovna vaxtının çox hissəsini sevimli saray xanımı Menqden ilə söhbətlərdə keçirərək yalnız onun qohumlarını və xarici səfirləri qəbul edirdi. Yeni hakimiyyət Anna İvanovnanın dövründə olduğundan da çox xaricilərlə əhatə olunmuşdur, həm də onlar önəmli vəzifələr tuturdu. Məsələn, generalissiumus Anton-Ulrix bütün hərbi işə başçılıq edirdi. Ticarət kollegiyasının prezidenti alman Karl Lyudviq fon Menqden idi. Alman A.K.Şemberq dağ-mədən işlərinə rəhbərlik edirdi. Bütün işləri vestfaliyalı Osterman istiqamətləndirirdi. Zadəganların böyük əksəriyyətini qəzəbləndirən məsələ saksoniyalı səfir Linara Anna Leopoldovnanın xüsusi «sevgi» bəsləməsi

«yeni Bironun» imperator sarayında hətta ailə daxilində belə nifaq yaratması idi. Şahzadənin qvardiyaçı əsgərlərə qayğı göstərməməsi, onu əhatə edən adamlardan heç birinin ordu içərisində lazımi nüfuza malik olmaması hakimiyyətin süqutunu sürətləndirmişdir.

Daxili siyasətdə Bironun üçhəftəlik naibliyi və İvan Antonoviçin birillik «çarlığı» dövründə Anna Leopoldovna hakimiyyəti can vergisini 1740-cı ildə 17 qəpik azaltması, hərbi rəislərin mahudun keyfiyyətilə bağlı şikayətləri əsasında məsələnin araşdırılması məqsədilə xüsusi komissiyanın yaradılması və b. xırda işlər diqqəti cəlb edir.

Yuxarıda bəhs olunan məsələlərdən qaynaqlanan hakimiyyətin başı üzərində toplanan qara buludların durmadan artması Fransanın səfiri markiz Şetardi Rusiyaya göndərərək Rusiya və İsveçi müharibəyə təhrik etməyi və I Pyotrun qızı Yelizavetanın xeyrinə çevriliş hazırlamağı ona həvalə etmişdir. Axırıncı tapşırığı Şetard şahzadə xanımın şəxsi həkimi İ.Q.Lestokun fəal köməyi sayəsində yerinə yetirməyə başladı. Gəncliyində Yelizaveta taxta iddia irəli sürmürdü. Lakin Anna İvanovna bacısı qızını Anton-Ulrixə ərə verdikdən sonra onların uşaqları praktik olaraq şahzadə xanımın taxta uzanan yolunu kəsdiyi üçün o saray intriqasına qoşulmağa qərar verdi. Gözəl, mehriban, sakit və qəmli şahzadə xanım tədricən bayram şənliklərində xalqın qarşısına çıxaraq ölkədə yaranmış vəziyyətə qarşı susqun etiraz nümayiş etdirərək Böyük Pyotrun şərəfli və şöhrətli keçmiş qələbələrini yaddaşlarda yenidən şöləndirdi. Onu xüsusilə çoxunun xaç anası olduğu qvardiyaçı əsgərlər daha ürəkdən sevirdilər. Odur ki, Şetardinin məlumatına görə, 1741-ci il yeni il gecəsi saraya təbrik üçün toplaşan adamların ön cərgələrində qvardiyaçıların yerləşməsi xaç analarını hakimiyyətə gətirmək məqsədilə sui-qəsd təşkil etmək işini nisbətən asanlaşdırırdı. Hakimiyyət dəyişikliyi məqsədilə sui-qəsd hazırlanmasına dair müxtəlif nüfuzlu şəxslər tərəfindən dəfələrlə xəbərdar edilməsinə baxmayaraq Anna Leopoldovna inanmayaraq «Bütün bunlar boş dedi-qodudur» demişdir və heç bir önləyici tədbir almamışdır. Onun əsas səhvi ictimai rəyin ölkəni idarə edən xaricilərə qarşı qəzəb, I Pyotrun qızı Yelizavetaya rəğbət hissi istiqamətində olmasını görməməsi olmuşdur.

1741-ci il dekabrın 7-nə keçən gecə Yelizaveta dəmir zireh geyərək Vorontsov, Lestok və Şvartsın əhatəsində xizəklə Preobrajensk polkunun kazarmasına gələrək əsgərləri qiyama qaldırdı. Qrenaderlər Yelizavetanın başçılığı ilə Qış sarayına irəliləyərkən yolda qvardiyaçı əsgərlərin yeni qrupları onlara qoşuldu və sayları 308 nəfərə çatdı. Xüsusi bir dəstə Osterman, Minix, Qolovkin, Menqden, Levenvold və saraya yaxın olan başqa əyanları həbs etməyə göndərildi. 1741-ci il çevrilişinin xarakterik xüsusiyyəti ondan ibarətdir ki,

Yelizavetanı hakimiyyətə zadəganlardan deyil, sıravi qvardiyaçı əsgərlərdən ibarət olan qüvvə gətirmişdir. Çevrilişin başqa bir qabarıq xüsusiyyəti onun almanların və xaricilərin əleyhinə olmasıdır. Çevrilişin təşkilində Fransa və İsveç fəal rol oynayaraq pul yardımı etməklə yanaşı, hətta İsveç «I Pyotrun irsini qorumaq» məqsədilə Rusiyaya müharibə elan etmişdir. Düzdür, sonra İsveçin ərazi güzəşti aşkar olsa da, Yelizaveta Fransa səfiri Şetardi və İsveç səfiri Nolkeyə heç bir vəd verməmişdir.

Vorontsov və Lestokun başçılıq etdiyi qrenaderlər heç bir çətinlik çəkmədən yataqdakı Braunşveyqsk ailəsini, bir il üç aylıq imperatorla birlikdə həbs edərək Petropavlov qalasına saldılar. Yelizaveta Petrovnanın taxta çıxmasına dair hazırlanan manifestdə qeyd edilir ki, körpə imperatorun idarəçiliyi həm xarici, həm daxili siyasətdə narahatlıq və qayda-qanun pozuntusu yaradaraq dövlətin talan edilməsinə səbəb olmuşdur. Manifest topların atəş sədaları altında elan edildikdən, qvardiya polkunun iştirakı ilə yeni imperatriçəyə dua və andiçmə mərasimindən sonra Yelizavetanı heç bir təhlükə gözləmirdi.

Yeni imperatriçə təcili olaraq hakimiyyəti idarə etmək məqsədilə köhnə və yeni hökumət üzvlərindən «On bir nəfər şurası» yaratdı. Keçid dövrü orqanının yeni lideri qraf rütbəsi alan A.P.Bestujev oldu ki, o əvvəlki kabinetin «canı» A.İ.Ostermanı əvəz etdi. Hərbi kollegiyanın başçısı sürgündən qaytarılan 74 yaşlı feldmarşal knyaz V.V.Dolqoruki təyin edildi. Lestok həqiqi gizli müşavir rütbəsini alaraq 7 min rubl maaşla Tibb kollegiyasının direktoru təyin olundu. Şuvalov qardaşları və Vorontsov kamerger fəxri adlarını aldılar. Yelizavetanın istəklisi Aleksey Qriqoryeviç Razumovski həqiqi kamerger fəxri adına layiq görüldü. Kansler A.M.Çerkasski və general prokuror N.Y.Trubetskoy əvvəlki vəzifələrini saxladılar. 1742-ci ildə üç qvardiya polkuna, o cümlədən İngermanland və Həştərxan süvari polklarına xəzinədən 72178 rubl məvacib paylandı. 258 sıravi qvardiya əsgəri 29 təhkimli kəndlisi olmaqla nəsilliklə zadəganlığa daxil edildi.

Məhkəmə həbs olunanlardan Ostermana təkərə bağlayıb öldürərək edam etmək, B.X.Minixə şaqqalayaraq edam, I Yekaterinanın sevimlisi Levenvold, İ.Q.Qolovkin, K.Menqden, həqiqi gizli müşavir Temiryazevə başı kəsilməklə ölüm cəzası kəsmişdir. Yelizaveta ölüm cəzası olanları əfv edərək sürgünə göndərdi. Osterman vaxtı ilə Menşikovu göndərtdiyi Berezova sürgün edildi ki, 1747-ci ildə 61 yaşında orada öldü.

İmperator İvan Antonoviçin və onun ailəsinin taleyi daha faciəli olmuşdur. Əvvəlcə Almaniyaya göndərilməsi nəzərdə tutulsa da, sonradan Arxangelsk yaxınlığındakı Xolmoqorda xarici aləmdən təcrid olunaraq saxlanılmışdır. Burada ailəsinin dörd uşağı doğulmuş, 1746-cı ildə dördüncü uşaq doğularkən Anna Leopoldovna 28 yaşında vəfat etmişdir. Yetim qalmış iki oğlan və iki

qız uşağı 1780-ci ildə II Yekaterinanın fərmanı ilə azad olunaraq Norveçi idarə edən xalalarının yanına yerləşdilər. 1756-cı ilə kimi Xolmoqorda ailəsindən ayrı saxlanılan imperator İvan Antonoviç 16 yaşı tamam olduqdan sonra Şlisselburq qalasına köçürülərək qalan illərini hətta komendantdan belə adsız keçirmişdir. Onunla yalnız bir-iki nəfər inanılmış zabit görüşə bilərdi.

1741-ci il saray çevrilişlərindən sonra Böyük Pyotrun qızının taxta çıxması ölkədə onun atasının siyasətinin davamçısı olması ab-havası yaratmışdı. Rəsmi olaraq Kabinetin ləğv edilməsi və Senatın ali hökumət orqanı kimi fəaliyyətinin bərpa edilməsi I Pyotrun işinin davam etdirilməsi demək idi. İşlərinə son verilən bir çox kollegiyalar yenidən fəaliyyətə başladı, yenidən ordunun 1720-ci ildəki sabit heyətinə keçildi. Bunlarla bərabər yeni hakimiyyətin bir sıra tədbirləri Pyotr dövründəki işlərin tam əksi idi. Məsələn, hərbi işdə heç bir istedadı olmayan A.Q.Razumovski kimilərə feldmarşal rütbəsinin verilməsi və s. belə əməllər sırasına daxildir.

Vaxtı ilə Pyotr soyundan olanların taxta uzanan yolunu kəsmək məqsədilə Anna İvanovna və Osterman nə qədər çalışsalar da, Yelizavetanı ərə verə bilməmişdir. Artıq hakimiyyətə gəldikdə onun 32 yaşı olmasına baxmayaraq, gözəlliyini, şux bədən quruluşunu saxlayaraq şənlənməyi, rəqs etməyi, gözəl geyinməyi sevirdi. Yeni paltarı bir dəfə geyinən imperatriçənin asılqanında 15 min dəst paltarı olmuşdur. Fransız, alman və italyan dillərində sərbəst danışan çariça kitabları sevməsə də, münasibətlərdə sadəliyi, xeyirxahlığı, patriarxal (mühafizəkar) vərdişləri sayəsində qarşı tərəfin diqqət və etibarını qazana bilirdi. Səmimiyyəti və qarşı tərəfi dinləmək mədəniyyətilə seçilən Yelizaveta Petrovnanı idarə etmək, təsir altına almaq göründüyü kimi asan deyildi. Hətta onun istəklisi Çerniqov kazakının oğlu, 1731-ci ildə sarayın kilsə xorunda oxumağa cəlb edilən yaraşıqlı xarici görünüşə malik Aleksey Rozum və ya Aleksey Qriqoryeviç Razumovski təkcə onun intim tərəfdaşı olaraq qalmışdır. O və iki qardaşı qraf adı, varlı votçinalar, 1756-cı ildə feldmarşal hərbi rütbəsi almasına baxmayaraq, daxilən məhdud qabiliyyətli bir insan olan A.Q.Razumovski demək olar ki, heç nəyə qarışmırdı. Onun kiçik qardaşı Kirill Tyubingen və Parisdə təhsil aldıqdan sonra 1746-cı ildə 18 yaşında Peterburq Akademiyasının prezidenti təyin edilmiş, 1750-ci ildə Ukraynanın sonuncu getmanı olmuşdur. Yelizaveta Petrovnanın XVIII əsrin 40-ci illərin sonunda üçüncü istəklisi olan təmannasız İvan İvanoviç Şuvalov 1749-cu ilin payızında kamer-yunker vəzifəsinə təyin edilmişdir. İmperatriçənin ürəyini fəth edən 22 yaşlı gənc əvvəlki istəklidən fərqli olaraq geniş təhsilli bir insan kimi elm, incəsənət, bədii yaradıcılığa hamilik edərək rus mədəniyyəti tarixində şərəfli bir yer tutmuşdur. Çariçanın etibarını qazanaraq onun mətin-

lərini tərtib edən İ.İ.Şuvalov ölkənin daxili və xarici siyasətini müəyyən edən hadisələrə əhəmiyyətli təsir göstərmişdir. Müasirləri bir fikirdə birləşirlər ki, Yelizaveta Petrovna ciddi dövlət işlərilə məşğul olmağı bacarmır və istəmirdi. Bunu həssas bir şəkildə dilə gətirən Şetardi qeyd edirdi: «Əgər o öz səfasını hökmdarın vəzifəsilə uyğunlaşdırsa, onda hər şey yaxşı olardı».

Ümumiyyətlə, müasirlərinin qənaətinə əsasən Yelizaveta Petrovnanın hökmdarlığı dövrü Rusiya üçün faydalı olmuşdur. Birinci növbədə bironçuluğun ləğv edilməsi onun adı ilə bağlıdır. Görkəmi tarixçi alim S.M.Solovyov yazır ki, «Rusiya özünə gəlmişdir. Yüksək idarəçilik vəzifələrinə yenidən rus adamları gəlirdi, nə vaxtsa ikinci dərəcəli yerlərə xaricilər təyin ediləndə, Yelizaveta soruşurdu: Məgər rus yoxdur?». Taxta çıxdıqda qan tökməyəcəyinə söz verən imperatriçə vədinə əməl edərk 1744-cü ildə verdiyi fərmanla ölüm hökmünü ləğv edərək ona axıra kimi sadiq qalmışdır.

Yelizaveta Petrovna özündən çox taxt-taca hüquqi iddiası olanlarla bağlı sərt mövqe tuturdu. Onlardan biri İvan Antonoviç zindanda olduğu üçün heç bir real təhlükə törətmirdi. I Pyotrun böyük qızı Annadan və Qolştinsk hersoqu Karl Fridrixdən olan oğlu Pyotr Ulrix taxt üçün ciddi təhlükə ola bilərdi. Odur ki, çevrilişdən iki ay sonra çariçanın şəxsi səfiri mayor N.F.Korf gizli şəraitdə 14 yaşlı yeniyetməni Peterburqa gətirmişdir. Pravoslavlığı qəbul etdikdən sonra Pyotr Fyodoroviç adı ilə o 1742-ci ilin noyabrında taxtın varisi elan edilmişdir. Tələsikliyin səbəbi XII Karlın qardaşı uşağının nəvəsi olan hersoqun İsveç taxtına namizəd ola bilməsi imkanı idi. Hər halda «tutularaq» xalasının nəzarəti altına alınan gənc hersoq yad bir ölkədə heç bir dayağı olmadan taxtın formal varisi elan edilmişdir.

Qeyd etmək olar ki, xəstəhal görünüşə, səviyyəsiz intellekt, təhsil və maraq dairəsinə malik olan varisin doğum zamanı anası, 1739-cu ildə 11 yaşında olarkən atası vəfat etmişdi. Onun kobud, amansız, işgəncə tərəfdarı olan tərbiyəçisi O.F.Bryummer hersoqun psixikasında və qəribə maraq dairəsində mənfi rol oynamışdır. Oxumaq və kitablardan uzaq olan «gil uşağının» gündəlik həyatında əsas yeri əyləncələr, xüsusilə əsgərcik oyunları, itlərlə «əzablı» təlim və s. olmuşdur. Varis hələ uşaqlıqdan o zamanlar Rusiyanın dostu olmayan Prussiya kralı II Fridrixə pərəstiş edir və özünü onun vassalı sayırdı. Başqa bir tərəfdən, onun tərcümeyi-halını araşdıran A.T.Bolotovun fikrinə əsasən, varis Rusiyanı sevmirdi, ölkəyə nifrət və alçaq nəzərlərlə baxırdı. Məsələn, yalnız Qolştinsk forması geyinir, özünü Qolştiniyadan dəvət edilən zabitlərlə əhatə edir, Rus kilsəsinin adətlərinə hörmətlə yanaşmır və s.

Pyotr Fyodoroviçə alman torpağı Anqalt-Tserbetsk knyazlığından 1729-cu il aprelin 21-də anadan doğulan xala nəvəsi qohumluğu olan Sofiya Frederi-

ka Avqustanı nişanlı seçdilər. 1744-cü ildə fevral ayının 9-da şahzadə Sofiya və anası sarayın yenicə köçdüyü Moskvaya gəldilər. Şahzadə imperatriçənin adaxlısının, hamının xoşuna gəldi. Lakin tezliklə aydın oldu ki, Pyotr və Sofiya xarakter, maraq dairələri və ətraf mühitə münasibətdə tam fərqli fərdlərdir. Tezliklə böyük knyaz nişanlısının məclisindən qaçaraq özünün fiqurlardan ibarət uşaq ordusu ilə və s. məşğul olurdu. Sofiya isə əksinə olaraq pravoslav dininin əsaslarını öyrənir, hətta gecələr belə rus dili ilə məşğul olur, çoxlu ədəbiyyat oxuyurdu. Bütün bunlar ətrafdakıların, xüsusilə imperatriçənin rəğbətinə səbəb olurdu. 1744-cü ilin iyunun 28-də Sofiya pravoslavlığı qəbul edərək Yekaterina Alekseyevna oldu. Ertəsi gün Uspensk kilsəsində nişanlandıqdan sonra o, «Böyük knyaginya» oldu. 1745-ci il avqustun 21-də Kazan kilsəsində nikahları qeyd edilən Pyotr və Yekaterinanın toy şənlikləri 10 gün çəkmişdir. Ailə həyatı demək olar ki, 17 yaşlı Pyotr Fyodoroviçin xasiyyətini dəyişmədi. 9 il keçməsinə baxmayaraq, Romanovlar sülaləsinin Pyotr xətti ilə varisi doğulmadı. Şayiələrə əsasən ərlə arvad arasındakı münasbətlər 1753-cü ilə kimi toydan qabaq olduğu kimi qaldığına görə Yelizaveta Petrovnanın razılığı ilə 27 yaşlı Sergey Vasilyeviç Saltıkovu 25 yaşına kimi bakirəliyini qoruyan Yekaterina Alekseyevnaya birinci sevgili seçdilər. 1754-cü ilin sentyabrın 20-də Pavel anadan oldu ki, onun da atasının Saltıkov olduğu iddia edilirdi. Lakin Pavelin xarici görünüşü və xasiyyəti atasını xatırlatdığı üçün bu həqiqətə uyğun deyil. Uzun zaman gözlənilən varis doğulduqdan sonra Yekaterina Petrovnanın Böyük knyaz cütlüyünə münasibəti kəskin dəyişdi. Hətta imperatriçə bacısı oğlu ilə bağlı qəzəb, nifrət və təəssüf hissinə qapılmamaq üçün onunla bir məclisdə qısa bir zamanda belə olmaq istəmirdi.

1759-cu ilin dekabrın 18-də Yelizavetanın 50 yaşı tamam oldu. Tez-tez xəstələnən hökmdar qadın həkimlərin göstərişlərinə əməl etməyərək əvvəlki həyat tərzini davam etdirirdi. Vəziyyəti gündən-günə ağırlaşan Yekaterina Petrovna 1761-ci il dekabrın 25-də vəfat etdi. Baş senator N.Y.Trubetskoy III Pyotru imperator elan etdi.

Yelizaveta hakimiyyətə gəldikdən sonra 1742 və 1743-cü illərdə can vergisini 10 qəpik azaltmışdır. 1741-ci il dekabrın 12-də elan olunan fərmanla Nazirlər kabineti ləğv edildi, Senatın bütün hakimiyyəti bərpa olundu. Bunun ardınca imperatriçənin göstərişi ilə Pyotr dövrünün müəssisələri, Berq və Manufaktura kollegiyaları, Baş magistrat, Ərzaq dəftərxanası fəaliyyətə başladı. Ümumiyyətlə, Yelizaveta Petrovnanın hakimiyyəti zamanı daxili siyasəti iki, 40-cı illərin sonu – 50-ci illərin əvvəllərindəki birinci, 50-ci illərin əvvəllərində İ.İ.Şuvalov və P.İ.Şuvalov əmiuşaqlarının iştirakı ilə keyfiyyətcə yeni ikinci dövrə bölmək olar. Birinci dövrdə əhəmiyyətli tədbirlərdən biri 1743-

1744-cü illərdə əhalinin siyahıya alınmasının ikinci təftişinin həyata keçirilməsi oldu. P.İ.Şuvalov təklifi ilə qabaqcıl Avropa ölkələrinin maliyyə siyasətinə əsaslanaraq birbaşa əsas can vergisi azaldılaraq əlavə vergilər artmağa başladı. Duz və şərab vergisinin artması xəzinəyə daxil olan vəsaiti çoxaltsa da, bununağırlığı sadə xalqın üzərinə düşürdü.

Yerli sənayenin inkişafını təmin etmək məqsədilə Yekaterinanın hakimiyyəti vaxtı zavodlar tacirlərin ixtiyarına verilmişdir. XVIII əsrin ortalarında onlarla metallurgiya zavodları meydana gəlmişdir. 1750-ci ilə doğru ölkədə yüzə qədər zavod var idi ki, Demidovlar əsas sahibkar olaraq qalırdı. Çuqunun 60 faizi onların payına düşürdü. 1740-cı ildə 25 min ton, 1750-ci ildə 33 min ton, 1760-cı ilə doğru isə 60 min ton çuqun emal edilmişdir. Metal sənayesində icbari əmək üstünlük təşkil edirdi. İpək və pambıq parça manufakturalarında isə muzdlu əməkdən istifadə edilirdi.

Mahud, kətan parça və kağız istehsalı xeyli inkişaf etmişdir. 1725-ci ildə Rusiyada 41 manufaktura olduğu halda, 1750-ci ilə qədər yeni 62 manufaktura fəaliyyətə başlamışdır. 60-cı illərin əvvəllərində toxuculuq manufakturaları bütün manufakturaların yarıdan çoxunu təşkil edirdi. Məhsulun qiymətinə görə birinci yeri kətan, sonra mahud və ipək tuturdu. Manufakturalar ölkənin əyalətlərində, o cümlədən Kaluqa, Yaroslavl, Voronej, Serpuxov, İrkutsk və b. yerlərdə açılmışdır. Əsrin ortalarında əvvəllər yaranan toxuculuq mərkəzləri İvanov, Pavlov, Kineşma daha da inkişaf edib böyüyürdü. Azad muzdlu əməyin çatışmazlığı hakimiyyəti 1744-cü ildə manufakturalarda icbari əməkdən istifadəyə icazə verməyə məcbur etmişdir.

İstehsal qüvvələrinin inkişafı əmək bölgüsünün dərinləşməsi ölkənin daxili və xarici ticarətinin inkişafına şərait yaratmışdır. XVIII əsrin 50-ci illərində Rusiyanın xarici ticarət balansı aktiv olmuşdur. Əsasən zadəgan təsərrüfatları xaricə taxıl, qatran, kəndir ixrac edirdi. Daxili ticarətdə kəndlilər, onların xüsusi bir hissəsi olan «ticarətçi kəndlilər» mühüm rol oynayırdı. P.İ.Şuvalovun təşəbbüsü ilə 1753-cü il dekabrın 20-də imperatriçənin imzaladığı fərmanla ümumrusiya bazarının yaranmasına mane olan ayrı-ayrı torpaqlar arasında mövcud olan gömrük vergisinin ləğv edilməsi yeni kapitalist ukladının yaranmasına yol açılmışdır. Əslində, Yelizaveta Petrovna ölkədaxili gömrük vergisini ləğv etməklə İvan Kalitanın başladığı rus torpaqlarının birləşdirilməsi işini tamamlamışdır. Təbii olaraq, daxili gömrük vergisinin ləğv edilməsi zadəgan-sahibkarların, tacirlərin, manufaktura sahiblərinin və kəndlilərin maraq və tələblərinə cavab verirdi.

Lakin daxili gömrüyün ləğv olunması azad ticarətə mane olan sədləri qısa bir vaxtda aradan qaldırmadı. Zadəganlar üçün əlverişli olan inhisar və ilti-

zam («откуп») hüququ qalırdı. Təəccüblü deyil ki, islahatın müəllifi özü və saray əyanları ən böyük otkup sahibi, iltizamçı idilər. Məsələn, P.Şuvalov Ağ və Xəzər dənizlərində, Ladoqa gölündə dəniz heyvanlarını, balina və balıq ovlamaq inhisar hüququnun sahibi idi ki, bu da ona küllü miqdarda gəlir gətirirdi.1759-cu ildə ona 20 il müddətinə ümumrusiya tütününün vergisini toplamaq hüququ verilmişdi. 1757-ci ildə xarici malların idxalına proteksionist tariflərin müəyyən edilməsi, yerli sənaye və ticarətin inkişafına şərait yaradan qərarın qəbulu ilə gömrük islahatı başa çatmışdır.

İqtisadi sahədə ticarət krediti və pul haqq-hesabı aparmaq məqsədilə bank sisteminin təsis olunması yolunda ilk addımlar atılmışdır. 1753-cü ilin mayında imperatriçə Senata dövlətdə pul faizini azaltmaq məqsədilə xəzinənin hesabına zadəganlar üçün Dövlət Bankını təsis etmək göstərişi vermişdir. Ayrılan kredit illik 6 faiz olmaqla mülkədar təsərrüfatlarının səmərəli fəaliyyətinə yönəldilməli idi. Eyni zamanda ucuz kreditə ticarət kapitalının da ehtiyacı var idi. Odur ki, 1754-cü ilin əvvəlində Pavel Şuvalov ildə 6 faiz olmaqla Senata Ticarət Bankının açılmasına razılıq verməyi təklif etmişdir. Bu ticarət kapitalının ölkəni iqtisadi həyatında oynadığı mühüm rolu nəzərə çatdırır. Yelizaveta Petrovnanın hakimiyyəti illərində Senatın rolu zəifləyərək 1756-cı il martın 14-də yüksək sarayın nəzdində daim fəaliyyət göstərən Konfrans təsis olundu. Müharibə təhlükəsinin artması və ölkədaxili sosial ziddiyyətlərin kəskinləşməsi şəraitində ali hakimiyyət strukturlarının fəaliyyətini koordinasiya etmək məqsədilə yaradılan Ali idarəetmə orqanının həftədə iki iclasını keçirmək nəzərdə tutulmuşdur. İlk vaxtlar imperatriçənin özünün də iştirak etdiyi Konfrans tədricən mərkəzi idarələrin hamısını özünə tabe etmişdir. 1760-cı ildə Senatın tərkibi dəyişdirildi, qocalıb əldən düşmüş Trubetskoyu general prokuror vəzifəsində satılmaz, təmiz və işgüzar knyaz Yakov Pyotroviç Şaxovski əvəz etdi.

1741-ci ilin çevrilişindən sonra Rusiya İsveçlə müharibəyə cəlb olundu. Atasının qızı olduğunu göstərən yeni imperatriçə feldmarşal Lassi ilə birlikdə ordunun başında Şimala hərəkət edərək Finlandiyada İsveç qoşununa bir neçə zərbə vurduqdan sonra 1743-cü ildə sülh istəyən İsveç hökuməti Rusiyaya olan ərazi iddialarından əl çəkdi.

XVIII əsrin 50-ci illərində Avropanın siyasi xəritəsində Prussiya kralı «Böyük» adını qəbul edən II Fridrixin ulduzu parladı. Kral güclü ordu quraraq yaxın alman knyazlıqlarını birləşdirib Böyük Prussiya dövləti yaradıb Şərqi Avropa torpaqlarını zəbt etməyi nəzərdə tuturdu. Prussiyanın təcavüzkar siyasəti Avropada ona qarşı Fransa, Avstriya, İsveçin daxil olduğu koalisiyanın meydana gəlməsi ilə tamamlandı. Rusiya hakimiyyəti Şərqi Avropada onun

maraq dairəsinə daxil olan Polşa və Baltikyanı ölkələrin gec-tez Prussiyanın hücumuna məruz qalacağını nəzərdə tutaraq, yaranan koalisiyaya daxil oldu. Beləliklə, rus əsgərlərinin qanı hesabına Avropada Prussiyanın hegemonluğuna qarşı mübarizə başladı.

1756-cı ildə Rusiya Prussiya ilə Yeddiillik müharibəyə başladı, feldmarşal Apraksinin başçılığı ilə rus ordusu Şərqi Prussiyaya daxil oldu. Qross-Yeqersdorf kəndində rus ordusu Apraksinin komandanlığı altında II Fridrixin feldmarşallarından Q.Levaldın 24 minlik qoşununu məğlub etdi, bu qələbədə döyüşün qızğın vaxtında hücuma keçən gənc general Pyotr Aleksandroviç Rumyantsevin (1725-1796) sərkərdəlik bacarığı parladı. Şərqi Prussiyanın əsas şəhəri olan Keniqsberqə gedən yol açıldı. Ancaq Apraksin qələbəni inkişaf etdirmək yerinə, ərzaq çatışmazlığın və xəstəliyi səbəb göstərərək ordunu qış düşərgəsinə çəkdi. Məsələnin mahiyyəti ondan ibarət idi ki, Yelizaveta ağır xəstələndiyi üçün Apraksin varis Pyotr Fyodoroviçin II Fridrixə olan pərəstişini nəzərə alaraq belə bir addım atmışdır. Tezliklə, çariça sağaldı, Apraksin məhkəməyə sövq edildi və 1758-ci ilin payızında öldü. Rus ordusunun komandanlığına 61 yaşlı mübariz general Pyotr Semyonoviç Saltıkov (1698-1772) təyin olundu ki, o Polşa və Türkiyə ilə müharibələrdə iştirak edərək təcrübə toplamışdır. P.Saltıkovun ordusu 1759-cu ildə hücuma keçərək Frankfurt-Oder alman şəhərini tutdu. 1759-cu ilin avqustunda pruss və rus qoşunları müttəfiq avstriyalıların iştirakı ilə Kunersdorf kəndi yaxınlığında böyk döyüşə başladılar. Saltıkov rus ordusunu II Fridrixin təqribən 50 minlik pruss əsgərlərinə qarşı hücuma apararaq, xüsusilə süngü döyüşündən sonra prussların döyüş meydanından qaçmasını təmin etmişdir. Az qala əsir düşən II Fridrix şlyapasını döyüş meydanında itirmişdi. Döyüşdən sonra o öz nazirinə yazmışdır: «Mən sağ qaldığım üçün xoşbəxt deyiləm!» Qələbədən sonra P.S.Saltıkov general feldmarşal hərbi rütbəsinə layiq görülmüşdür. Berlinə gedən yol açıldı. General Zaxar Qriqoryeviç Çernışev Prussiyanın paytaxtı Berlinə yaxınlaşarkən şəhər hakimiyyəti açarları ona təslim etdi. Beləliklə, birinci dəfə rus ordusu Berlinə sahib oldu. Lakin şəhərə daxil olan ön dəstələr əsas qüvvələrdən çox uzaq düşdüyü üçün 3 gün sonra Berlini tərk etdilər. Növbəti il Rumyantsevin korpusu Baltik sahillərinə çıxdı. 1761-ci ilin dekabrında güclü Kolberq qalası rus donanması ilə birlikdə mühasirə edildi. Müharibənin qələbə ilə başa çatmasına hər cür şəraitin olmasına baxmayaraq, 1761-ci ilin axırlarında Yelizaveta Petrovnanın vəfat etməsi və III Pyotrun taxta çıxması Prussiyanı və kral II Fridrixi xilas etdi. Yeni imperator Avstriya ilə olan ittifaqı pozaraq Prussiya ilə 1762-ci ildə sülh müqaviləsi imzaladı və tutduğu əraziləri geri qaytardı. Yeddiillik müharibənin nəticəsi kimi rus hərb sənətinin

inkişafını, P.A.Rumyantsev və A.V.Suvorov kimi sərkərdələrin yetişməsini göstərmək olar.

XVIII əsrin 40-50-ci illərində ölkə çətin maliyyə böhranı keçirirdi. Zadəganların dəbdəbəli həyat tərzi, Avropanın ən çoxsaylı və qüdrətli ordularından birinin yüksək səviyyədə tutmaq zərurəti, hərbi müəssisələrin istehsal etdiyi məhsulun dəyərinin ödənilməsi əsasən cəmiyyətin aşağı təbəqələrinin çiyinlərinə düşən yeni-yeni xərclər tələb edirdi. Kəndlilər üzərindəki basqı təkcə dövlət tərəfindən deyil, mülkədarlar tərəfindən də gündən-günə artırdı. Zadəganların xidmət müddətinin azaldılması, 25 illik qulluqdan sonra istefaya çıxmaq hüququ onlara təsərrüfatlarına daha çox vaxt ayıraraq bazara xeyli artıq məhsul çıxarmaq imkanı verirdi. Hökumət isə ildən-ilə zadəganların öz təhkimli kəndliləri üzərində hüquqlarını artırırdı.

Ölkədə kəndlilərin torpaqsız satılması miqyası çoxalmışdı. Mülkədarlar kəndlilərin icma torpaqlarını ələ keçirərək öz təsərrüfatlarını artırırdılar. Təbii olaraq, biyar artaraq həftədə 5-6 gün təşkil edirdi. Kəndlilərin öz torpaqlarında işləməsi üçün demək olar ki, vaxtı qalmırdı. Belə bir siyasətin nəticəsi olaraq, əsas işçi qüvvəsi, vergi ödəyicisi olan kəndlilərin qüvvəsinin zəifləməsi ölkənin ümumi həyatına mənfi təsir göstərirdi. Təhkimli kəndlilərə belə vəhşi münasibətin nümunəsini 10 il müddətində 100 nəfərdən çox kəndlisinə əzab-əziyyət və işgəncə verən Saltıçixa ləqəbli mülkədar qadın Saltıkovanın davranışını misal çəkmək mümkündür. Düzdür, sadist qadın məhkəməyə sövq edilərək həbs edilsə də, sistemin bir adamın başqasını istismar edərək əməyini mənimsəməsi qalırdı. Qərbi Avropadan fərqli olaraq Rusiyada «aşağılar»la «yuxarılar» arasındakı kəskin ziddiyyət dərinləşirdi ki, bunu da yalnız güc yolu ilə həll etmək olardı, çünki zadəganlar hökumətin onlara güzəştə getdiyi kəndlilər və onların əməyi üzərində hüquqlarını qoruyub saxlamağa çalışırdılar. Zadəganların əsarətinin artmasına cavab olaraq kəndlilər, işçi adamlar, əsgərlər kütləvi surətdə qaçaraq şəhərlərin tikintisinə, manufaktura və limanlara işə cəlb olunurdular. Hakimiyyət belə qaçqınlara qarşı tədbirlərini sərtləşdirərək hər cür işgəncələrə əl atırdı. Buna baxmayaraq, yüz minlərlə adam, bəzən bütöv kəndin sakinləri Don, Yaik, Ural, Başqırd torpaqları, Ukrayna və Sibirə – mülkədarların olmadığı, azad nəfəs almağın mümkün olduğu yerlərə qaçırdılar. Son dərəcə ağır vəziyyət insanları öz hüquqlarını və şəxsiyyətini daha qətiyyətlə müdafiə etməyə sövq edirdi. Vergi ödənilməsindən imtina edilməsi, biyarın yerinə yetirilməməsi və s. getdikcə daha kütləvi hal alırdı. Kəndlilər və işçilər silaha sarılaraq vergi borcu toplayan hərbi rəislərə, mülkədar və məmurlara, ən çox nifrət etdikləri ağalara qarşı mübarizə aparırdılar. Kəndlilər mülkədarların asılılığından azad edilərək dövlət və yaxud saray kəndliləri

dərəcəsinə daxil edilmələrini tələb edirdilər. Daha qətiyyətli olanları öz ağalarından tam azad olmalarını irəli sürürdülər.

Ural, Tula, Moskva və s. yerli müəssisələrdə çalışan işçi adamlar böyük qruplar halında toplaşaraq günlərlə qəpik-quruşa çalışdıqları ağır iş şəraitinə etiraz əlaməti olaraq işi dayandırır, həyat və əmək şəraitinin yaxınlaşdırılmasını tələb edirdilər. Məsələn, 40-cı illərin sonlarında Moskvanın mahud manufakturalarında 800 nəfər işi atmışdır. Ural, Kazan mahud manufakturalarında da işçilərin etirazı davam etmişdir. İşçilərin müqavimətini sərt bir şəkildə boğan hakimiyyət hərəkatın rəhbərlərini həbsxanaya salır, qalan işçilərə qamçı cəzası verirdi. Artıq Rusiyada təhkimli kəndlilərlə bərabər, yerli müəssisələrdə çalışan işçilər də müqavimət hərəkatına qoşulmuşdu.

Rusiya imperiyasının milli rayonlarında da həyəcan başlamışdı. Xüsusilə Rusiyanın tərkibinə daha əvvəllər daxil olan Volqaboyu, Başqırdıstan, Uralda mülkədarların daha məhsuldar torpaqları ələ keçirmək cəhdi, yerli əhalinin xristianlaşdırmaq siyasətilə bağlı pravoslav keşişlərinin və monastrların fəallaşması yerli əhalinin narazılıq və müqavimətilə qarşılaşdı. XVIII əsrin 40-cı illərinin əvvəllərində Volqaboyunda rus saray və təhkimli kəndlilərin də qatıldığı mordvalıların üsyanı başladı. Altı min nəfərə çatan üsyançılar bir neçə qəzanı bürüsə də, cəza dəstələri üsyanı qan içində boğdu, başçıların isə tonqalda yandırdılar. Başqırdıstanda əsrin ortalarında müdafiə məqsədilə qalalar, o cümlədən Orenburq qalasının tikintisinə başlandı. Hökumətə görə müdafiə qurğuları ölkəni köçərilərin hücumundan qorumaq, gələcəkdə Orta Asiya və Uzaq Şərq ölkələri ilə ticarət əlaqələri yaratmaq nöqteyi-nəzərindən əlverişlidir. Başqırdıstanda dağ-mədən işləri, xüsusilə mis və gümüş emalı ilə məşğul olan dövlət zavodları açılırdı. Taxıl tədarükünü artırmaq məqsədilə bu yerlərə xüsusi güzəştlər müəyyən edilən rus kəndliləri yerləşdirilirdi. Bu tədbirlər bir tərəfdən diyarın təsərrüfat inkişafına, yeni şəhərlərin meydana gəlməsinə səbəb olur, başqa bir tərəfdən yerli əhalinin və onların torpaqlarının hesabına başa gəlirdi. Qalaları və zavodları tikmək məqsədilə yerli başqırd icmalarının milyonlarla desyatin torpağı zəbt edilirdi. Hökumətin yerli başqırd icma torpaqlarının alınıb-satılmasına icazə verməsilə rus mülkədarları və yerli varlılar bu torpaqları ələ keçirirdilər. Əvvəllər yığılan təkcə yasaq vergisi yerinə can vergisi də toplanmağa və getdikcə artmağa başladı. Vəziyyətin kəskinləşməsi nəticəsində XVIII əsrin 30-cu illərin sonu – 40-cı illərin əvvəlində xalq üsyana qalxdı. Hakimiyyət başqırdların yuxarı təbəqəsinə arxalanaraq üsyanı yatırtmaq məqsədilə onu güllə, süngü və nizə zərbəsilə dağıtdı. Ələ keçirdikləri üsyan başçılarını, o cümlədən yerli tarxan, yəni feodalları işgəncə verərək edam edən cəza dəstələrinin amansızlığı xalqın daha da fəal-

laşmasına şərait yaratdı. Üsyan Başqırdıstanın bütün rayonlarını bürüdü. Üsyanı yatırmq üçün əlavə qoşun göndərildi ki, onların da amansızlığı, o cümlədən insanları diri-diri yandırması, boyunlarının qılıncla vurulması, qabırğalarından asılmasına cavab olaraq yerli əhali də vəhşilik və qəddarlığa qarşı eyni amansızlıq göstərərək ələ keçirdikləri cəza dəstəsinin üzvlərini, yerlərdə çalışan rus məmurlarını və zadəganları ailələləri ilə birlikdə işgəncə ilə qətl etməyə başladılar. Ümumiyyətlə, üsyanın gedişində 16 mindən çox başqırd məhv edildi, lakin dövlət güzəştə getməyə məcbur olaraq can vergisini ləğv etdi, başqırd icma torpaqlarının zəbt olunması qadağan olundu. Başqırdlar silah gücünə və insan tələfatı hesabına özlərinin bəzi hüquqlarını qorusa da, yerli torpaqlarda zavodların tikilməsi davam edir, bura zadəgan və rus kəndliləri yerləşirdi. Hökumət ləğv etdiyi can vergisi yerinə dolayı vergilər, o cümlədən yüksək qiymətə duz vergisi müəyyən etdi. Dini ayrı-seçkilik davam edir, müsəlmanlar təqib olunur, məscid tikintisinə icazə verilmirdi.

Bütün bunlar 1755-ci ildə molla Batırşın başçılığı ilə yeni başqırd üsyanının alovlanmasına gətirib çıxardı. O, başqırdları din düşmənləri ilə mübarizəyə səsləsə də, sosial zülmdən daha çox əziyyət çəkən yerli əhali dini fanatizmə meyil göstərmədi. Hökumət üsyanı yatırmaq üçün 40 minlik ordu göndərdi. Üsyan iştrakçılarının çoxu cəza dəstəsinin amansızlığından ehtiyat edərək qazaxların yaşadığı çöllərə, Yaik çayına qaçdı. Batırşı tutub edam etdilər, üsyan məğlub oldu. Yelizaveta Petrovna fərman imzalayaraq üsyanda iştirak edib əfv diləyən başqırdları, uzaq torpaqlara qaçan yerlilərdən könüllü olaraq geri qayıdanları bağışladı. Hökumət həm də, zorla xristianlığın yayılmasından əl çəkərək məscidlərin tikilməsinə icazə verdi.

1761-ci ildə Yelizaveta Petrovnanın ölümündən sonra onun vəsiyyətinə müvafiq olaraq Böyük Pyotrun nəvəsi Pyotr Fyodoroviç, yəni III Pyotr taxta çıxdı. Hakimiyyətdə olduğu bir neçə ay müddətində yeni çarın həyata keçirdiyi və Rusiya cəmiyyətinin yuxarı təbəqəsinin nöqteyi-nəzərindən faciəvi sonla bitən tədbirləri növbəti saray çevrilişinə yol açmışdır. Hər şeydən əvvəl yeni imperator sürgündə olan almanlar Minix, Biron və b. əfv edərək geri qaytardı. Yelizaveta Petrovna dövründə etibardan düşərək sürgün edilən, bir nəfər də olsa, rus dövlət adamı əfv edilmədi. III Pyotr təcili olaraq müharibəni dayandırmaq haqqında II Fridrixlə sülh bağlayaraq zəbt edilən əraziləri qeyri-şərtsiz ona qaytardı ki, bu da Rusiya cəmiyyətində qəzəblə qarşılandı. Növbəti səhv bir addım ondan ibarət idi ki, III Pyotr qvardiyaçılara inanmayaraq, onları tənbəl və «yeniçəri» adlandıraraq özünü Qolştin əsgərlərilə əhatə etmişdi.

Kəskin, iti ağıla, şən, eyni zamanda şıltaq xarakterə, musiqi və incəsənət qabiliyyətlərinə malik olan III Pyotr həm də içki və tütün həvəskarı olmaqla

yanaşı, bütün hərəkətlərilə rus cəmiyyətinin ənənəvi dəyərələrini qəbul etməyərək alman mədəniyyəti qarşısında baş əyirdi.

Dövlət islahatı sahəsində III Pyotrun bir sıra tədbirləri ölkənin avropalaşdırmasına doğru yönəlmişdi. İmperator Gizli Dəftərxananın ləğv edilməsinə dair fərman hazırlayaraq əsassız donoslara görə həbsxanalarda əzab çəkən və ölən on minlərlə adamı xilas etmək istəyirdi. Onun vaxtında sənayeçilərə kəndliləri manufakturalarla birlikdə satın almaq qadağan olunmuşdu. İmperator din azadlığı prinsipini elan edərək bidətçilərin sıxışdırılmasına qarşı çıxmışdır ki, bu da təbii olaraq, rus pravoslav kilsəsi başçılarının narazılığına səbəb olmuşdur. III Pyotr rus elitasının böyük əksəriyyətinin, qvardiyanın, kilsənin və birinci növbədə arvadı Yekaterina Alekseyevnanın şəxsində güclü müxalifətlə qarşı-qarşıya gəlmişdir. Ər-arvad arasında müasibətlər getdikcə daha dərinləşərək belə şayiələrin yayılmasına səbəb olmuşdur ki, III Pyotr Yekaterina ilə nikahı pozaraq onu monastra göndərib sevgilisi ilə evlənəcək.

Tədricən sarayda «Yekaterinanın partiyası» yarandı ki, ona da varis Pavel Petroviçin tərbiyəçisi, savadlı saray əyanı Nikita İvanoviç Panin başçılıq edirdi. Sui-qəsdçilər arasında 27 yaşlı yaraşıqlı Preobrajensk polkunun zabiti, Yekaterianın istəklisi Qriqori Qriqoriyeviç Orlov və onun dörd qoçaq, qətiyyətli qardaşı, süvari qvardiyasının 22 yaşlı yaraşıqlı, nəhəng vaxmistri Qriqori Aleksandroviç Potyomkin, xüsusilə fəal və barışmaz mövqe tuturdular.

1762-ci il iyunun 28-i səhər saat 6-da Aleksey Orlovun müraciəti ilə Yekaterina karetası illə Peterburqa yola düşdü. İzmaylov polkuna gələn Yekaterina Alekseyevnanı əsgər və zabitlər coşqu ilə qarşılayıb ona and içdilər. Semyonov və Preobrajensk polkları da eyni coşqu ilə yeni imperatriçəni qəbul etdilər. Sonra Qış sarayında imperator titulunu qəbul edən Yekaterina Senat, Sinod və dövlət məmurlarının andlarını da qəbul etdi. Kronştada qaçmağa cəhd edən III Pyotr bu baş tutmadıqda geri qayıtmağa məcbur oldu. Yekaterina özü Preobrajensk polku geyimində qvardiyaçı əsgərlərə başçılıq edərək Peterqofa hərəkət etdi. III Pyotr taxtdan əl çəkərək onu Qoliştiniyaya buraxmağı xahiş etdi. Lakin III Pyotru qvardiya zabitlərinin əhatəsində Ropş adlanan şəhərətrafı sarayda həbs etdilər. Yeddi gün burada qaldıqdan sonra Aleksey Orlovun Yekaterinaya yazdığına görə stol arxasından dava-dalaşdan sonra öldürüldü. Məlumata əsasən, isə III Pyotru qvardiyaçılar kəmərlə bağlayaraq öldürmüşdür. Beləliklə, XVIII əsrdə sonuncu saray çevrilişi nəticəsində qvardiyaçılar yenidən öz adamlarını taxta əyləşdirdilər.

# XI FƏSİL
# RUSİYA XVIII ƏSRİN II YARISINDA

## §1. II Yekaterinanın taxta çıxması. «Maarifçi mütləqiyyət»

Rusiya tarixinin əhəmiyyətli bir hissəsi olan Böyük Yekaterinanın «qızıl əsri» Avropa maarifçiliyi ilə sıx bağlı olduğu üçün xüsusi diqqət və maraq doğurmuşdur. Görkəmli tarixçi alim S.M.Solovyova görə «Əgər Pyotrun əsri işıq deyil, şəfəq əsri idisə, XVIII əsrin ikinci yarısında görülən işlər nəticəsində xalqın yetkinləşməsi, şüurun inkişafı, xaricdən daxilə yönəlmə, öz-özünə və özününkünə dönmə əlamətləri aydın görünürdü». Ölkədə baş verən dəyişiklikləri bədii dillə ifadə edən əyan İ.İ.Betski imperatriçəyə demişdir: «Böyük Pyotr Rusiyada adamları yaratdı, Siz Əlahəzrət, onlara ürək əlavə etdiniz».

1917-ci ilin oktyabrından sonrakı yetmiş il ərzində Rusiyanın XVIII əsrin ikinci yarısındakı tarixi qabaqcadan hasil olan yanlış fikrə əsasən qiymətləndirilmişdir. Yekaterinaya mənfi münasibətin yaranmasının səbəblərini adamların faktlara deyil, ona qarşı emosional yanaşmalarında və hökmdarın ölkənin milli maraqlarını ardıcıl qoruyaraq xarici işlər sahəsində yeritdiyi sərt siyasətlə bağlı onun başqa ölkələrdə olan rəqiblərinin siyasiləşdirilən mövqelərilə əlaqədar olmuşdur. Qeyd etmək yerinə düşər ki, hələ sağlığında II Yekaterina gördüyü işlərə əsasən «Böyük» titulunu qəbul etmişdir. Təbii olaraq, sovet tarixşünaslığı bu qiyməti qəbul etməmişdir, yalnız XX əsrin 80-ci illərinin axırlarından onun Rusiyanın tarixindəki böyük rolundan bəhs edilməyə başlanmışdır. Yekaterinanın hakimiyyəti dövründə nəhəng dövlət idarəçiliyi sahəsində həyata keçirilən tədbirlər mütləq dövlət quruluşunun möhkəmləndirilməsinə, zadəganların üstün təbəqə olaraq təyin edilməsinə, dövlətin mənafeyinə tabe olan cəmiyyətin hüquq və üstünlüklərinin təsbit olunmasına, eyni zamanda təhkimçiliyin güclənməsinə səbəb olmuşdur.

V.O.Klyuçevski II Yekaterinanın hakimiyyəti zəbt etməsi ilə bağlı fəaliyyət proqramından bəhs edərək yazırdı: «Ələ keçirilmiş hakimiyyət həmişə borcu ödənilməsini gözləyən veksel xüsusiyyətinə malikdir, Rusiya cəmiyyətinin əhvali-ruhiyyəsinə görə isə Yekaterina müxtəlif və razılaşmayan ümidləri doğrultmalı idi». Tarix təsdiq etdi ki, veksel borcu vaxtında ödənilmişdir. Hakimiyyətə sahib olduqdan sonra imperatriçə tələsmədən, gündən-günə istirahət etmədən çalışaraq qarşıya çıxan əngəlləri aradan qaldıraraq hamını səbirlə,

dostcasına dinləyərək, işə ürək yandıraraq ümumi ədalət, tərəddüdsüz qətiyyət göstərərək qayda-qanunun bərpası, şəxsi təhlükəsizlik və mülkiyyətin qanuni ifadəsinə nail olmağı planlaşdırmışdır. Eyni zamanda o, mübahisəli məsələləri məhkəmə palatasına təqdim etməyi, istismar olunanlara himayədarlıq edərək düşmənlərə qarşı qərəz bəsləməməyi, dostlara tərəfgirlik göstərməməyi nəzərdə tutmuşdur. Yekaterina əmin idi ki, yorulmadan bu istiqamətdə çalışarsa, qələbə təmin edilmiş olar. Başqa bir tərəfdən saraya daxil olan birinci gündən Yekaterina rusların, cəmiyyətin etibarını qazanmağa çalışaraq dəfələrlə bəyan etmişdir: «Mən rus olmaq istərdim ki, ruslar məni sevsinlər». Zaman təsdiq etmişdir ki, o buna da nail olmuşdur.

II Yekaterinanın hakimiyyətdə olduğu ikinci onilliyin sonunun praktik nəticələri xüsusi təsir bağışlayır. Xarici İşlər Kollegiyasının rəhbəri A.A.Bezborodkonun 1781-ci il yazılı məlumatına əsasən, 19 illik çarlığı dövründə «yeni qaydada 29 quberniya qurulmuş, 114 şəhər salınmış, 30 konvensiya və müqavilə imzalanmış, 78 qələbə əldə edilmişdir. Fövqəladə qanunverici və təsisedici 88 fərman, «ümumxalq rahatlığı üçün» 123 fərman verilmiş, ümumi 492 iş» olmuşdur.

II Yekaterina üçün Şlisselburq qalasında saxlanılan 22 yaşlı taxtın qanuni iddiaçısı İvan (İoann) Antonoviç təhlükə təşkil edirdi. 1764-cü il aprelin 1-də Smolensk piyada polkunun podporuçiki Vasili Yakovleviç Miroviç belə bir fikrə gəldi ki, II Yekaterinanı hakimiyyətdən kənarlaşdırıb İvan Antonoviçi taxta çıxarsın. Bu məqsədlə 1764-cü il iyulun 5-də Şlisselburq qalasına növbətçi zabit təyin edilən Miroviç gecə saat 2-də öz tabeliyində olan əsgərlərlə birlikdə komendantı həbsə alaraq şahzadənin saxlandığı qazamata daxil olduqda onu yerdə ölü tapdı. Zabitlər Çekin və Vlasev göstərişə əsasən, İvan Antonoviçi heç bir vəziyyətdə canlı buraxa bilməzdilər. 1741-ci ildə Yelizaveta Petrovnanın ölüm hökmünü ləğv etməsinə baxmayaraq, Miroviçi Objor bazarında edam etdilər.

Taxta iddiaçılar qalmadığı üçün II Yekaterina dövlət idarə işləri ilə yaxından məşğul ola bilərdi. Doğru qərarlar qəbul etmək məqsədilə II Yekaterina I Pyotr kimi ölkənin müxtəlif regionlarına tanışlıq səfərinə çıxdı. 1763-cü ildə imperatriçə Yaroslavl, Kostroma, Rostovda, növbəti il Vıborq, Revel və Riqada oldu. 1767-ci ildə Volqa ilə üzərək Simbirsk, Saratov, Kazanda, 1780-ci ildə Şərqi Belorusiyaya səfər etdi. 1787-ci ildə özünün ən uzun səfəri vaxtı Rusiyanın cənubu, Krımla tanış oldu.

Məlum olduğu kimi, 1762-ci il iyulun 6-da elan edilən Manifestdə iyunun 28-də olan çevrilişin obyektiv səbəbləri izah olunsa da, Pyotr Fyodoroviçin vaxtında verilən dörd fərmana dair heç bir xəbər yer almamışdır. Lakin yeni

şəraitdə imperatriçə şəxsi qəzəb hissinə qalib gələrək kəndlilərin manufakturalarla birlikdə satılmasını qadağan və Gizli Axtarış İşləri Dəftərxanasını ləğv edən fərmanları təsdiq etdi. Zadəganların azadlığına dair Manifestdən irəli gələn məsələlərin mürəkkəbliyi 1785-ci ilə kimi zadəganların onun verdiyi imkanlardan istifadə etməyə şərait yaratmışdır. III Pyotrun kilsə mülklərini dünyəviləşdirmək fərmanını isə II Yekaterina 1762-ci il avqust qərarı ilə ləğv etdi. Təbii olaraq, kilsə iyunun 28-də olan çevrilişi faktiki olaraq müdafiə etdiyi üçün II Yekaterina belə bir addım atmağa məcbur idi.

Bir az sonra təşkil olunan xüsusi komissiyanın təqdimatı əsasında 1764-cü il fevralın 26-da kilsə mülklərinin qəti olaraq dünyəviləşdirilməsi haqqında manifest dərc olundu. Bütün yeparxiyalar üç sinfə bölündü: birinciyə Novqorod, Moskva və Peterburq yeparxiyası, ikinciyə 8 yeparxiya, üçüncüyə 15 yeparxiya daxil oldu. Kişi və qadın monastrları da rahib və xidmətçilərin sayı müəyyən olunmaqla üç sinfə bölündü. Monastrların sayı kəskin azalaraq təqribən mindən 266-ya düşdü. Bundan sonra «faydalı» adlanan 910866 kişi cinsindən olan kəndlilər dövlət mülkiyyətinə keçdi. Onlardan alınan yarım rublluq töycü ildə xəzinəyə 1,5 mln. rubl gəlir gətirirdi. İldən-ilə artan töycü artıq 1783-cü ildə üç rubl təşkil edirdi ki, bu da əsrin sonunda müsadirə edilən kilsə torpaqlarından xəzinəyə daxil olan vəsaitin üç mln. rubla kimi artması demək idi. Beləliklə, 1764-cü il manifestindən sonra ali ruhani və keşişlər maddi cəhətdən dövlətdən asılı vəziyyətə düşərək mütləq dövlət bürokratik aparatının məmurlarına çevrildilər. Monastrlar feodal-torpaq sahibkarlığından ştatlı maaşa keçirildi. Kilsə dövlət içində dövlət olmaqdan çıxaraq mütləq monarxiyanın bir hissəsi oldu, mütləqiyyətin və provaslığın ideoloji dayağı olmaq rolu ona həvalə edildi.

XVIII əsrin ikinci yarısında II Yekaterinanın hakimiyyəti illərində iqtisadi siyasətdə «liberal» xüsusiyyətli addımlar atılmışdır. 1762-ci il iyulun 31-də elan olunan fərmanla azad satılan məhsulların siyahısı artdı. Qatran və ravənd azad satılan məhsul sırasına daxil edildi. Yalnız potaş və iynəyarpaqlı ağacların təbii şirəsi meşələri qorumaq qayğısı ilə xəzinənin inhisarında qalmışdır. Fərman Çinlə ticarət sahəsində dövlət inhisarını aradan qaldırdı. 1762-ci ilin martında sənaye və ticarətdə inhisarın ləğv olunmasına, iyulda isə iki paytaxtdan başqa bütün ölkədə çit inhisarının ləğv edilməsinə dair fərmanlar dərc olundu. 1762-1764-cü illərdə kağız, zər, gümüş istehsalı monopoliyaları ləğv edildi, şəkər zavodlarının açılması azad oldu. 1766-cı ildən 1772-ci ilə kimi ölkənin demək olar ki, bütün limanlarından gömrük haqqı ödəmədən taxıl və un daşına bilərdi. 1767-ci ildə Rusiyanın bütün şəhərlərində peşə azadlığı bəyan edildi. 1775-ci ilin martında bütün istehsal sahələrinə aid

sənaye emalatxanalarına azad fəaliyyət hüququ tanınmış, kiçik peşələrdən alınan vergilər ləğv edilmişdir. 1777-ci ildə fabriklərə məxsus ev dəzgahlarından alınan vergi ləğv edilmişdir ki, bu da böyük vəsait tələb etməyən manufakturalar üçün əlavə kömək idi.

II Yekaterinanın həyata keçirdiyi praqmatik siyasət nəticə etibarilə orta əsr monopoliya qaydasının ləğv olunaraq azad sahibkarlığın elan olunması demək idi. Bu tacirlərin, kəndlilərin varlı təbəqəsinin sənaye fəallığının artması, Rusiyanın iqtisadiyyatında burjua elementlərinin, yəni kapitalist ukladının yaranması ilə müşayiət olunurdu. Məsələn, əgər 60-cı illərin sonunda ölkədə 200 iri toxuculuq müəssisəsi fəaliyyət göstərirdisə, XVIII əsrin sonlarında onların sayı mindən çox idi. Satın alınmış və azad muzdlu işçilərin nisbəti xeyli dəyişilmişdir. Məsələn, kətan fabriklərində 10 min nəfər satın alınmış işçiyə 19 min nəfər azad muzdlu işçi düşürdü. Bəhs olunan vaxtda metallurgiya istehsalı və metal emalı ilə məşğul olan iri müəssisələr 182-dən 200-ə çatmışdır. Belə müəssisələrdə isə 100 mindən çox təhkimli usta, 319 min siyahıya alınan kəndli, yalnız 15 min azad muzdlu fəhlə çalışırdı. Ölkədəki ümumi müəssisələrin sayı 60-cı illərin sonunda olan 683-dən artaraq XVIII əsrin sonlarında 2094-ə çatmışdır ki, onların da bir çoxunun 2-3 minə kimi işçisi olmuşdur. Qeyd edilməlidir ki, sənaye sahəsində çalışan fəhlələrin böyük əksəriyyəti təhkimçilik asılılığında idi, qadağan olunmasına baxmayaraq, dövlət kəndlilərinin dövlətin sərəncamında olan zavod və fabriklərə yazılması davam edirdi.

Məhz, II Yekaterinanın dövründə yeni istiqamətin – «maarifçi mütləqiyyət siyasəti»nin əlamətləri meydana çıxmışdır. «Maarif» termini Qərbi Avropa cəmiyyətində İmmanuil Kantın 1784-cü ildəki «Maarif nədir?» («Что такое просвещение») məqaləsindən sonra meydana çıxmışdır. Qərbi Avropa dövlətlərində feodal sisteminin yeni burjua münasibətləri ilə əvəz olunması yeni maarifçilik axınının meydana çıxmasına səbəb olmuşdur. Onun nəzəri əsasını Ş.Monteskye, Volter, D.Didro, J.J.Russo, Q.E.Lessinq və b. kimi görkəmli filosof, alim və yazıçılar qoymuşdur. Burjuaziyanın tarix meydanına çıxması köhnə feodal qaydaları və institutlarının sərt tənqidi ilə bir vaxta təsadüf edir. Maarifçilərin əksəriyyətini təşkil edən sağ mötədil qanadı inkişafın güc və sarsıntıdan uzaq olan təkamül yolunu müdafiə edirdilər. Avropa maarifçiləri öz nəzəriyyələrində insanların anadan olduğu andan azad və bərabər olduqları fikrinə xüsusi yer vermişdir. Hökmdar və zadəganların tüfeyli həyat sürmələri isə onların nadanlığından irəli gəlirdi. Deməli, hamını və hər bir fərdi maarifləndirmək lazımdır. Xalq başa düşməlidir ki, heç kimə onları istismar etmək hüququ verilməyib, zadəganlar isə istismar etməyin onların «nəcib» adına yaraşmadığı, ümumən cəmiyyətə ziyan vurduqları üçün utanmalıdırlar.

Maarifçilərin utopik ideyasında əsas element ondan ibarət olmuşdur ki, hökmdar özü quruluşun təkmil olmamasını, qanunların ədalətsizliyini anlayaraq onları qadağan etməlidir. Bunu ardıcıl olaraq tətbiq etməklə o daha çox hakimiyyət əldə edə bilər. Maarifçi ideoloqların, ağıllı idrak sahiblərinin taxta sahib olması fikri maarifçi-filosoflarla hökmdarların ittifaqı ideyasına yol açmışdır. Xüsusilə Volter «maarifçi hökmdar» fikrini ifadə edirdi. Bu və başqa dərəcədə Prussiya kralı II Fridrix, İsveç kralı III Qustav, Avstriya imperatoru II İosif maarifçilik ideyasının tərəfdarları olmuşdur. Buradan «maarifçi mütləqiyyət» termini meydaya gəlmişdir.

Maarifçilik ideyası özünə tərəfdarlar cəlb edərək Avropada sürətlə yayılmağa başlamışdır. Rusiyada bu ideya «Volterçilik» kimi yayılmışdı. Yekaterinanın xeyir-duası ilə fransız filosofları Volter, Monteskye, Russo və b. əsərlərinin kütləvi nəşri bu ideyanın ölkədə yayılmasında mühüm rol oynamışdır. II Yekaterina dostlarına yazdığı məktublarda qeyd edirdi: «Volter – mənim müəllimimdir: O və ya daha doğrusu onun əsərləri mənim şüur və ağlımı inkişaf etdirmişdir».

Lakin «maarifçi mütləqiyyət» nəzəriyyəsi ilə II Yekaterinanın real Rusiya şəraitində onu praktik olaraq tətbiq etmək sahəsində böyük məsafə var idi. Bu məsafə ildən-ilə artaraq nəticə etibarilə praktik olaraq II Yekaterinanın maarifçilik ideyasından imtina etməsinə gətirib çıxarmışdır. Bu yolda, xüsusilə iki hadisə – Puqaçov üsyanı və Fransa inqilabı imperatriçənin liberalizminə ağır zərbə vurmuşdur. Xüsusilə Fransa inqilabından sonra II Yekaterina xalqın özünü azad ifadə etmək və təbəqələrin bərabərliyi fikrinin qəti əleyhinə çıxmışdır. Lakin II Yekaterina Avropa qarşısında «ağıllı hökmdar qadın» sifətini saxlamağa səy göstərmişdir. Volter və başqa maarifçilərlə yazışmasında üsyançıların qəddarlığından bəhs edən II Yekaterina kütləvi xalq hərəkatının səbəblərindən və məqsədindən heç nə yazmamışdır. Onun Avropa filosofları ilə yazışmada real vəziyyəti əks etdirməyən məktubları xüsusi ustalıq və bacarıqdan xəbər verir.

1767-ci ildə II Yekaterina ölkənin həyatında baş verən dəyişiklikləri əks etdirə bilən yeni qanunnamənin hazırlanması məqsədilə Rusiyanın ayrı-ayrı yerlərindən müxtəlif təbəqələri əks etdirən deputatları Moskvaya topladı. 1649-cu il qanunnaməsini əvəz etməli olan yeni sənədi tərtib etmək üçün 500 nəfərdən çox deputat yığıncağın açılışında iştirak edirdi ki, kommisiyalar şəklində fəaliyyət göstərən nümayəndələrin ən böyük qrupları şəhərlilər və zadəganlardan ibarət idi. Dövlət kəndliləri, Rusiyanın Volqaboyu xalqları, tatar və başqırdlar da öz seçilmiş nümayəndələrini məclisə göndərmişdir. Senat, Sinod və Kollegiyalar da yığıncaqda təmsil edilmişdir. Yalnız təhkimli kəndlilər və ruhanilər yığıncaqda təmsil edilməmişdir. İmperatriçə deputatlar üçün xüsusi olaraq öz işlərində rəhbər tutmağa borclu olduqların «Tapşırıq»

(«Наказ») belə yazmışdır. «Tapşırıq» əsasən Monteskyenin əsərlərindəki ideyalardan ibarət olub «xeyirxahlıq» və «düzlük» ön planda verilmişdir. Sənəddə Rusiya vətəndaşlarının qanunla müdafiə edilməsindən, hamının bu qanunlar qarşısında bərabər olmasından bəhs olunurdu. II Yekaterina «Tapşırıq»da mülkədarlara məsləhət görürdü ki, töycü və kəndlilərin biyarını elə almaq lazımdır ki, bu təsərrüfata ziyan verib dövləti zərərə uğratmasın. Əlbəttə, hökmdar mütləqiyyətin və təhkimçilik hüququnun əsaslarına toxunmurdu. II Yekaterina «Tapşırıq»da mütləqiyyət hakimiyyətini müdafiə edərək belə hesab edirdi ki, Rusiya kimi nəhəng ölkədə yalnız güclü, mərkəzləşmiş hakimiyyət ölkəni qoruyub dağılmaqdan xilas edə bilər. İmperatriçə ona yazılan sənədlərdə əvvəllər olduğu kimi «qul» və «xolop» sözlərini qadağan edərək «Maarifçilik» ideyalarının Rusiyada da yayıldığını göstərmişdir.

Komissiyaların fəaliyyətində tezliklə təbəqələr arasındakı barışmaz ziddiyyələr ortaya çıxdı. Zadəganlar öz seçicilərinin tələblərinə uyğun qaçqın kəndlilərin axtarıb tapılmasını sərtləşdirilməsini, tacir və sahibkarların ticarət rəqabətinin aradan qaldırılmasını tələb edirdilər. Üçüncü təbəqə kimi çıxış edən şəhərlilər bunun əksinə olaraq ticarətin birinci növbədə şəhərlilərin və tacirlərin hüququ olduğunu irəli sürdülər. Kəndlilər dövlət torpaqlarının xüsusi adamların əlinə keçməsindən və onların təsərrüfatı üçün torpaqların çatışmazlığından şikayətlənirdilər.

Komissiyaların fəaliyyəti zamanı hətta bəzi çıxışlarda ölkədə təhkimçilik hüququnun ləğvi ilə bağlı fikirlər belə səsləndirildi ki, bu da zadəganların ciddi müqavimətilə qarşılaşdı. Tədricən II Yekaterinanın komissiyaların işinə diqqəti azalmağa başladı və onların fəaliyyətini Peterburqda davam etdirmək qərara alındı. Tükiyə ilə müharibə komissiyanın fəaliyyətini dayandırmağa səbəb oldu. Sonradan isə komissiyanın işi bərpa edilməyərək birdəfəlik sona çatdı. Maarifçilik ideyalarını seçkili orqan vasitəsilə Rusiyada yaymağa çalışan II Yekaterina cəmiyyətdəki kəskin ziddiyyətlərin, zadəganların və mütləqiyyət quruluşunun mənafeyi əleyhinə səslənən fikirlərin təhlükəsi qarşısında geri addım atdı.

### §2. Y.İ.Puqaçovun başçılığı ilə 1773-1775-ci illər kəndli müharibəsi

1773-cü il sentyabrın 17-də Don stanitsası Zimoveyovadan olan kazak, təqribən 30 yaşlı Y.İ.Puqaçov rəsmi özünü III Pyotr elan etmişdir. Əvvəl Puqaçov daha cəsarətli bir addım ataraq İ.N.Zarubin-Çike, M.Q.Şiqayev, İ.İ.Ulyanov, D.S.Lesov, T.A.Myasnikov, M.D.Qorşkov və d. kazaklara imperator yox, Don

kazakı olduğunu etiraf etmişdir. Kazakların əhvali-ruhiyyəsini düzgün qiymətləndirən Puqaçov başa düşmüşdür ki, onları onun imperator olub-olmadığı deyil, ağır maddi və sosial vəziyyətləri maraqlandırır. Beləliklə, Puqaçov mübarizənin simvolu, bayrağına çevrilmişdir. Kazak və kəndlilərin böyük əksəriyyəti üçün axıra kimi o «Rusiya imperatoru» III Pyotr olaraq qalmışdır.

1773-cü il sentybarın 18-də Puqaçov 200 nəfər kazakla Yaik şəhərciyinə doğru hərəkət etsə də, onu yan keçərək sərhəd qalalarını bir-bir ələ keçirdi. Müdafiə qalalarındakı qarnizon əsgərləri Puqaçovun dəstəsinə qoşuldu. Yalnız Tatişev qalası puqaçovçulara müqavimət göstərdi ki, buradakı zabit və zadəganlar da qətl edildi. Çoxlu ərzaq, silah, sursat top və xəzinənin pul vəsaitini ələ keçirən Puqaçovun üçminlik üsyançı dəstəsi 20 topla birlikdə oktyabrın əvvəlində Orenburqa hücum etdi. Şəhərin qubernatoru İ.A.Reynsdorp müdafiə qurğularını gücləndirərək 70 top və 3,5 min əsgərlə üsyançıların hücumunun qarşısını ala bildi. Orenburqu təqribən altı ay mühasirədə saxlayan Puqaçovun qərargahı Berd slobodasında yerləşmişdir. Bura tezliklə «İmperator III Pyotr»un dəstəsi ilə birləşmək məqsədilə knyaz Arslanovun başçılığı ilə başqırdlar, ardınca mari, kalmık və b. xalqların dəstələri gəldi.

Orenburqda mühasirədə olanlara kömək məqsədilə general V.A.Karın başçılığı altında min beş yüz nəfərlik dəstə və Salavat Yulayevin 1200 nəfərlik başqırdlardan ibarət qoşunu göndərildi. 20 min nəfərə çatan üsyançılar hər iki dəstəni dağıtdılar, Kar qoşunun qalıqları ilə təqib edilməkdən qurtarıb qaçdı. General Salavat Yulayev Puqaçovun tərəfinə keçdi. Polkovnik P.M.Çernışevin darmadağın edilən dəstəsinin 1200 nəfər əsgəri, kazak və kalmık üsyançılara qoşuldu. Polkovnik və əsir düşən 32 zabiti puqaçovçular asdılar.

A.S.Puşkinin sözlərinə görə özünün təhlükəsizliyi üçün şərəfini «qurban verən» general Karın qaçaraq Moskvada meydana çıxması hökumətin işin ciddiliyini başa düşməsinə və daha qəti tədbirlər görməsinə şərait yaratdı. Üsyanı yatırmaq məqsədilə daimi ordu polklarından ibarət olan üç dəstə Orenburqa göndərildi. 1774-cü il martın 22-də Tatişev qalası yaxınlığında P.M.Qolitsının komandanlığı altında 6,5 minlik hökumət qoşunları ilə 8 minlik üsyançılar arasında həlledici döyüş baş verdi. Yaba, balta, dəyənək ilə silahlanmış üsyançılar üç saatlıq top atəşindən sonra pərən-pərən düşərək məğlub oldular. Puqaçov yaxın silahdaşları ilə Urala, Başqırdıstana keçdi və beləliklə, üsyanın birinci mərhələsi başa çatdı.

Cənubi Uralın zavod rayonlarına daxil olan puqaçovçular öz sıralarını zavod işçiləri və başqırdların hesabına yenidən bərpa etdilər. Troitsk qalası altında general İ.A.Dekolonq və İ.İ.Mixelsonun hökumət dəstələrinə məğlub olan Puqaçov Kazan quberniyasına doğru yönəldi. «III Pyotrun» yaxınlaşmasını

kilsə zəngləri sədası ilə qarşılayan yerli əhali mülkədar mülklərini talan edib yandırır, özlərini isə qətl edirdilər. Yeni axın hesabına dəstəsini 20 min nəfərə kimi artıran Puqaçov Kazanı almağı qarşısına məqsəd qoymuşdur. Ona qarşı Kazanda yerləşən P.S.Potyomkinin 1500 qarnizon əsgəri, 6 min şəhər əhalisi dayanmışdır. Şəhər yoxsulları və kətan manufakturası işçilərinin köməyi ilə iyulun 12-də Kazan alınsa da, hökumət qüvvələrinin yerləşdiyi Kremlə daxil olmaq mümkün olmadı. Mühasirədə olanları köməyə gələn İ.İ.Mixelsonun qoşunları xilas etdi, 2 mindən çox puqaçovçu öldürüldü, iddiaya görə, 10 min nəfər əsir alındı, 6 min nəfər isə qaçıb dağıldı. Puqaçovun sadiq silahdaşı ataman İ.N.Beloborodov da əsir alındı. Puqaçov isə iki min nəfərlik dəstə ilə yenidən təqibdən yaxa qurtara bildi. Kazan uğrunda döyüşlə üsyanın ikinci mərhələsi başa çatdı.

Puqaçov hərəkatı ərzaq, hərbi sursat cəhərdən çətinlik çəkdiyi üçün getdikcə zavod xəzinələrini deyil, əhalinin də əmlakını, mal-qarasını və ərzağını zəbt etməyə başladılar. Başqa bir tərəfdən hökumət ordularının təqribən xilas olmağa çalışan üsyançı dəstələr öz arxalarında dağıntı və xarabalıq qoyurdu. Belə bir şəraitdə zavod əhalisinin üsyançılara münasibəti birmənalı olmamışdır. Tarixçilərin hesablamalarına görə, 64 zavodun işçi və kəndliləri üsyana qoşulmuş, 24-ü isə əleyhinə olmuşdur. Üsyançıların hücumuna məruz qalan 89 zavoddan 20-dən çoxu yandırılıb dağıdılmış, 30-dan çoxu isə talan edilərək fəaliyyətini dayandırmışdır. 27 müəssisə zavod əhalisinin səyi nəticəsində üsyançılardan özünü qorumuşdur. Zavod qəsəbələri və qeydiyyatı olan kəndlərin yandırılıb külə döndərilməsi nəticəsində 2288 kişi cinsindən olan adam məhv olmuş və ya itkin düşmüşdür.

Puqaçov üsyanının üçüncü mərhələsi 1774-cü il iyulun 31-də «Pyotr»un bilavasitə mülkədarların tabeliyində olan kəndlilərə manifestlə müraciət edərək onları təhkimçilik asılılığından azad etməsi, rekrut, can vergilərinin ləğv olunması, torpaq, meşə, balıq ovlamaq, buz göllərindən istifadə etmək hüququnu bəyan etməsilə bağlıdır. Manifestin yekun hissəsində zadəganların kəndlilərə göstərdiyi amansız münasibətə qarşı onların tutularaq edam edilməsi, asılması çağırışı Volqanın sağ sahilindəki klassik təhkimçilik yerlərində əhalinin üsyançılara qoşulmasını sürətləndirmişdir. Saratova yaxınlaşan puqaçovçuların sayı yenə 20 min nəfərə çatdı. Hökuməti yalnıız zadəganlar müdafiə etdiyi üçün ən çox itki onlar arasında olmuşdur. Rəsmi məlumata əsasən, üsyanın gedişində edam olunan üç min zadəganın çoxu məhz 1774-cü ilin yayında öldürülmüşdür. Nijeqorod quberniyasında olan 1425 zadəgandan 348 nəfəri asılmış və yaxud edam edilmişdir. Puqaçovun Saratovda olduğu bir gündə 24 zadəgan, 21 məmur edam olunmuşdur. Bir-biri ilə insanları

edam etmək yarışında iştirak edən hökumət qüvvələri P.İ.Paninin əmri ilə 1774-cü il avqustun 1-dən dekabrın ortalarına kimi 324 nəfər üsyançını edam etmiş, 399 nəfərin qulaqları kəsiməklə qırmanc cəzasına, 1205 nəfər qısa qamçı cəzasına məruz qalmışdır.

Üsyançılar ordusunun tərkibinin dəyişilməsi, öz ağaları ilə haqq hesab çəkdikdən sonra ordudan uzaqlaşan kəndlilərin mövqeyi Puqaçovu Dona, kazakların yanına hərəkət etməyə məcbur etdi. İyulun 23-dən avqustun 6-na kimi Alatır, Saransk, Penza, Petrovsk, Saratovu işğal edən Puqaçov hökumət qoşununun təqibi nəticəsində heç bir yerdə uzun müddət qərar tutmurdu. Saratovdan cənuba, Tsaritsinə hücum edən Puqaçov onu ələ keçirə bilmədi, Don kazaklarına da bəslənən ümid özünü doğrultmadı. 1774-cü il avqustun 24-də Sadnikov balıqçı artelində, Çernı Yarın yaxınlığında üsyançılarla Mixelsonun hökumət qüvvələri arasında acımasız son döyüş oldu. Üsyançılardan iki min nəfəri öldürüldü, altı min nəfər əsir düşdü, qalanları isə ətraf ərazilərə dağıldı. 160 nəfər Yaik kazakı ilə Volqanın sol sahilinə keçən Puqaçovun mübarizəni davam etdirmək üçün heç bir imkanı qalmamışdır. Ona «sadiq» olan L.A.Tvoroqov, F.F.Çumakov və b. özlərini xilas etmək məqsədilə sentyabrın 15-də Puqaçovu tərk-silah edib, əl-qolunu bağlayıb Yaik şəhərinə gətirdilər. 186 nəfər kazak dairəsinin 154 nəfəri onun təhvil verilməsinə səs verdi. Puqaçov dəmir qəfəsdə, ciddi nəzarət altında Moskvaya göndərildi. Senatın müəyyən etdiyi 38 nəfərdən ibarət Ali məhkəmə heyəti 55 üsyançının məsələsinə baxdı. Y.İ.Puqaçov və A.P.Perfilyev şaqqalanaraq ölümə, T.İ.Padurov, V.Tornov, M.Q.Şiqayev asılaraq ölümə, İ.N.Zarubin (Çika) boynu vurularaq ölümə məhkum olundular. Y.Puqaçovu 1775-ci il yanvarın 10-da Moskvanın Bolotnı meydanında edam etdilər. Bir qədər əvvəl Orenburqda A.T.Sokolov (Xlopuşa), Moskvada İ.N.Beloborodov, Ufada İ.N.Zarubin (Çika) edam edilmişdi. Salavat Yulayevi qamçı ilə şallaqladıqdan sonra burun pərlərini qoparıb sürgünə göndərdilər. Puqaçova qarşı sui-qəsdin təşkilatçısı olan doqquz nəfər II Yekaterinanın göstərişi ilə fiziki cəzadan azad edilərək ömürlük Baltikyanı qəsəbəyə göndərildilər.

Puqaçov üsyanı milyonlarla kazak, kəndli və işçi adamların dövlət və təhkimçilik zülmündən narazılıq və qəzəbini nümayiş etdirmişdir. Üsyanın nəticəsi uzun müddət hökumət və mülkədarları müəyyən çərçivə daxilində hərəkət etməyə yönəltmişdir. Daha doğrusu, 1770-ci illərdəki xalq müharibəsi göstərdi ki, təhkimçilik hüququ maarifçilik ideyaları ilə bir araya sığmayan praktik həllini gözləyən bir problemdir. Təsadüfi deyil ki, məhz puqaçovçuluq 1770-1780-ci illərdəki hakim rejimin mövqeyini möhkəmləndirən islahatların keçirilməsinin əsas katalizatoru olmuşdur.

### §3. Y.İ.Puqaçov üsyanından sonra II Yekaterinanın islahatları

Puqaçovun başçılığı altında olan qüdrətli xalq üsyanı Rusiya üçün bir sıra nəticələrə səbəb olmuşdur. Hər şeydən əvvəl ölkənin yerli idarəçilik orqanlarının çatışmazlıqları üzə çıxmışdır. Böyük quberniyalara bölünmüş ölkədə mərkəzin nəzarəti aşağı səviyyədə idi. Eyni zamanda üsyan Rusiyanın üst təbəqəsini, xüsusilə zadəganlarla hakimiyyəti daha sıx birləşdirdi. Gələcəkdə belə sarsıntılara yol verməmək məqsədilə zadəganlar mərkəzi hakimiyyətin, mütləqiyyət quruluşunun möhəmləndirilməsini istəyirdilər.

Xalq həyəcanları Rusiya üçün maarifçi imperatriçənin və onun ardıcıllarının təhkimçilik hüququ sisteminin yumşaldılması ilə bağlı liberal baxışlarının nə qədər təhlükəli olduğunu göstərdi. Qanunnamə komissiyasındakı qarşılıqlı mübahisələr Rusiyadakı təhkimçilik hüququnun ləğvi məsələsinin odla oynamaq olduğunu göstərdi. «Aşağılar»ın zor vasitəsilə öz gündəlik problemlərini həll etmək təşəbbüsü imperatriçə başda olmaqla Rusiyada ehtiyatla başlayan mədəniləşmə hərəkatına son qoydu. Artıq hakimiyyət ölkədə qayda-qanunu bərqərar edərək gələcəkdə sosial qarışıqlıq və dövlətin dağılmasına yol verməmək niyyətində idi.

Üsyan ölkəyə böyük maddi ziyan vuraraq, yüzlərlə kəndin, çoxlu zadəgan malikanəsinin dağıdılıb, yandırılıb viran qalmasına səbəb olmuşdur. Qarşı-qarşıya dayanan rəqiblərin nifrəti və bir-birini məhv etməsi arzusu Rusiyada vətəndaş cəmiyyətinin yaranmasına mane olaraq yeni düşmənçilik, qəzəb toxumları cücərtmişdir. Nəhayət, «aşağılar»ın üsyanı onlara ümid verdi ki, qısa müddətə olsa da, istibdaddan azad olmaq olar, bu isə onlarda məğrurluq və özlərinə hörmət hissini oyatmışdır.

1775-ci ildə II Yekaterina yerli idarəçilik sahəsində islahat həyata keçirdi. Mahiyyəti ondan ibarət idi ki, ölkənin bütün rayonlarını ciddi nəzarət altına alaraq, dövlətin ehtiyatlarından və yerli zadəganlardan bu məsələdə geniş istifadə olunması nəzərdə tutulurdu. Beləliklə, zadəganlar Rusiyanın idarəçilik sisteminə cəlb olunaraq, daha çox təşəbbüskarlıq və müstəqillik göstərməli idilər. İndi Rusiya əvvəlki 23 quberniya yerinə hər biri 300 min nəfərdən ibarət 50 quberniyaya bölünürdü. Ölkənin milli rayonları da bura daxil edilmişdir. Quberniyalar 30 min nəfərdən ibarət olan qəzalara bölünmüşdür. Quberniya idarəçiliyində əsas vəzifə sahibi qubernatorlar, bir neçə quberniyanın birləşməsi nəticəsində meydana çıxan general-qubernatorluğun başında general-qubernator dururdu. Quberniya idarəçiliyi sərəncam verən orqan funksiyası daşıyırdı, sərəncamların yerinə yetirilməsinə isə hökumət nəzarət edirdi. Polis və ordu qubernatorun tabeliyində qalırdı. Bütün təsərrüfat işlərinə Dövlət palatası

rəhbərlik edirdi. «İctimai himayə prikazı» polisə qayda-qanunu saxlamaqda kömək edirdi. Eyni zamanda, o, xalq təhsili, səhiyyə, xeyriyyə, ilahiyyat, yetimxanaları idarə edirdi. Ali məhkəmə sistemi iki – vətəndaş və cinayət işləri palatalarına bölünmüşdür. Zadəgan, tacir və meşşanlar üçün olan xüsusi məhkəmələr onlara tabe idi. Dövlət kəndlilərinin də öz məhkəmələri mövcud idi. Quberniya prokuroru vəzifəsi təsis olundu ki, bütün məhkəmələrə əlavə olunmuş prokurorlar ona tabe idi. Beləliklə, Rusiyada Qərbi Avropa məhkəmə sistemi tipli məhkəmə idarəçiliyi yarandı. Lakin məhkəmələrin təbəqə xüsusiyyəti Qərbi Avropadan keçmişə qayıtmaq demək idi. Qəzalarda «aşağı zemstvo məhkəmələri» fəaliyyət göstərirdi ki, ona da seçilən kapitan-ispravnik başçılıq edirdi. Bu orqan sərəncamverici və məhkəmə işlərini birləşdirirdi. Kapitan-ispravnik və məhkəmə iclasçıları ancaq zadəganlardan seçilə bilərdi.

Qəza və quberniya vəzifələrinə namizədlərin seçilməsi qəza və quberniya zadəgan yığıncaqlarında olurdu. Quberniya və qəza vəzifələrində zadəganlar əməkhaqqı alırdılar. Onlar qubernatora tabe olmaqla imperatriçə tərəfindən təsdiq olunurdular. Beləliklə, zadəganlar yerli idarəçilik sisteminə daxil edilərək mərkəzi hakimiyyətin sadiq dayağına çevrildilər.

II Yekaterina şəhər idarəçiliyini təkmilləşdirmək məqsədilə şəhər islahatı keçirdi. Quberniya və qəzalarda hakimiyyət zadəganlara etibar etdiyi halda şəhərlərdə zadəgan, tacir və varlı şəhərlilər əsas dayaq nöqtəsi oldu. Şəhərlərə şəhər rəisinin rəhbərlik etdiyi magistrat başçılıq edirdi. Magistratın tərkibini yerli tacir və meşşanlar seçirdi. Şəhər rəisini isə zadəganların tərkibindən Senat təyin edirdi. Şəhər əhalisinin tərkibindən qubernatora tabe olan məhkəmə orqanı – «Vicdan məhkəməsi» seçilirdi. Göründüyü kimi, şəhərlərdə tətbiq edilən sistem yerlu özünüidarəçiliklə güclü dövlət nəzarətinin birləşdirilməsinin nəticəsi idi. II Yekaterina həm quberniya, həm qəza, həm də şəhərlər üzərindəki nəzarəti əldən buraxmaq fikrində deyildi.

Ölkədə idarəçilik sistemini təkmilləşdirən hökumət dövlətin mənafeyi naminə daim təhlükə mənbəyi olan kazakalrın azadlığını məhdudlaşdırmağa başladı. Don kazaklarının hüquqları azaldıldı. Yaik kazakları hətta üsyana kimi olan hüquqlarını belə itirdilər. Don və Yaikdə quberniya idarə sistemi bərqərar oldu. II Yekaterina 1775-ci ildə Zaporojye Seçini ləğv etdi. Yerli idarəçilik sahəsindəki islahat və kazakların hüquqlarının məhdudlaşdırılması Rusiya imperiyasının qəti olaraq unitar dövlətə çevrilməsinə səbəb olmuşdur.

II Yekaterinanın islahatları 1785-ci ildə verdiyi zadəganlar və şəhərlər haqqında iki fərmanla başa çatmışdır. «Nəcib Rusiya zadəganlarının hüququ, müstəqilliyi və imtiyazları haqqında» qramotada hakimiyyətin zadəganlara verdiyi bütün hüquq və güzəştlər təsdiq edilirdi. Zadəganlar icbari dövlət

xidmətindən, can vergisindən, hər hansı bir mükəlləfiyyətin yerinə yetirilməsindən azad olunurdu. Zadəganlara bədən cəzası vermək olmazdı, onları ancaq zadəgan məhkəməsi mühakimə edə bilərdi. Zadəganlar cinayət məsuliyyətinə cəlb olunduqda belə onların əmlakı müsadirə edilmir, ailədə irsən başqasına keçirdi. Həmçinin zadəganlara öz malikanələrini idarə etmək, ticarətlə, zavod tikintisilə məşğul olmaq, şəhər mülkiyyətinə sahib olmaq hüququ verilirdi. Quberniya və qəzalarda zadəganlar arasından nümayəndələrin seçilməsi yerli idarəetmə işlərinin zadəganların nəzarətinə tabe etdirilməsi məqsədi daşıyırdı. Yalnız zadəgan yığıncağını qubernator və yaxud general-qubernator çağırmaq hüququna malikdir.

Şəhər idarəçiliyi ilə bağlı elan edilən qramotaya əsasən, şəhər əhalisi altı dərəcəyə bölünürdü. Birinci dərəcəyə zadəganlar, ali məmurlar və ruhanilər daxildir. İkinci dərəcəyə bütün gildiyadan olan tacirlər daxil idi ki, birinci iki gildiya bədən cəzasından və dövlət xidmətindən azad olunurdu. Üçüncü dərəcəyə sexlərdə birləşən sənətkarlar daxil olurdu. Dördüncü dərəcəyə şəhərlərdə yaşayan başqa şəhərdən olanlar və xaricilər daxil idi. Beşinci dərəcəyə 50 min rubl vəsaiti olan tacirlər, 100 min vəsaiti olan bankirlər və şəhər ziyalıları daxil idi. Şəhərlilərin qalan kütləsi altıncı dərəcə hesab olunurdu. Üç ildən bir şəhər həyatını idarə etmək məqsədilə Ümumi şəhər dumasını seçən vətəndaş cəmiyyəti Yığıncağı çağrılırdı. Ümumi duma isə hər dərəcədən bir deputat olmaqla şəhər rəisinin başçılıq etdiyi icra orqanını seçirdi. Şəhər təsərrüfatı və şəhərlilərin gündəlik tələbatı onlara baxırdı. Ümumən şəhər təbəqələrinin vəziyyətini qaydaya salmağa istiqamətləndirilən qramota feodal bölgüsünü tətbiq edərək hakimiyyətin sərt nəzarətini müəyyənləşdirmişdir.

Hər iki qramotada elan olunurdu ki, zadəgan və şəhər təbəqələrinin üzvləri qanunla müdafiə olunurlar. Artıq istintaq və məhkəməsiz adamları həbsxanaya salmaq, cəzalandırmaq, xüsusi mülkiyyətdən məhrum etmək olmazdı.

## §4. XVIII əsrin II yarısında Rusiyanın xarici siyasəti

XVIII əsrin ikinci yarısında Rusiyanın xarici siyasəti qarşısında üç əsas problem dayanmışdır: Polşa-Litva dövlətilə qədim rus torpaqları uğrunda mübarizə; Baltik dənizinə çıxışın təmin edilməsi; Ölkənin iqtisadi inkişafı üçün Cənubi Avropa bazarlarına yol açmaq məqsədilə Qara dənizə, ardınca Bosfor və Dardanel boğazlarına daxil olaraq cənubun məhsuldar topraqlarına sahib olmaq. Bura, eyni zamanda Rusiyanın qədim düşməni, Osmanlı

imperoyasının vassalı Krım xanlığının məhv edilməsi də daxil idi. I Pyotr yalnız bir məsələni – Rusiyanın Baltik sahillərinə çıxmasını, Rusiyanın düşməni İsveçin məğlub edilməsini təmin etmişdir.

XVIII əsrin ikinci yarısında Rusiyanın xarici siyasətinin əsas istiqaməti qərb və cənuba doğru yönəlmişdir. Ona görə ki, hər iki istiqamət üzrə qüvvələr nisbəti əsaslı surətdə dəyişilmişdir. Daxili hakimiyyət çəkişməsi nəticəsində Polşa çox zəifləmişdi. I Pyotrun dövründən başlayaraq Rusiya Polşa taxtına öz tərəfdarını çıxarırdı. Ancaq qədim rus torpaqları hələ də Reç-Pospolitanın tərkibində qalırdı.

Osmanlı imperiyası da öz əvvəlki qüdrətini itirmişdi. Daxili çəkişmələr ölkənin iqtisadi inkişafını dayandıraraq hərbi gücünü zəiflətmişdir. Krım xanlığının süvari qoşunu da artıq dünənin ordusu idi. Buna baxmayaraq, türk ordusu sayca xeyli çox olub müsəlman hissəsinin fanatizmi və yeniçərilərin çoşqun mübarizəsilə fərqlənirdi. Türkiyənin arxasında Rusiyanın rəqibləri Fransa və İsveç dayanmışdı.

Rusiya ildən-ilə hərbi gücünü artıraraq, kütləvi xalq ordusu olaraq hərbi təcrübəsini təkmilləşdirib Pyotr dövründəki hərbi ənənələri davam etdirən görkəmli sərkərdələrin yeni nəslinin meydana çıxmasına zəmin hazırlamışdır. Bunu Yeddiillik müharibə sübut etmişdir.

1763-cü ildə polyak kralı III Avqust öldükdən sonra Fransa, Saksoniya, Avstriya, İspaniyanın etirazına baxmayaraq, Polşa taxtına Rusiyanın «əlaltısı», II Yekaterinanın yaxın dostu Stanislav Ponyatovski seçildi. Prussiya Rusiyanı müdafiə edirdi. Polşada Rusiyanın təsirinin artması sayəsində dissidentlərin hüququnun bərabərləşdirilməsi, yəni başqa dinlərdən olanların, o cümlədən pravoslav və protestantların hüququnun katoliklərlə bərabər olması haqqında qərar qəbul edirdi. Bu qərarın əleyhinə olan polyak maqnat və şlyaxtası Bare şəhərində konfederasiya, yəni hərbi birlik yaratdılar.

Rusiya güc mövqeyindən çıxış edərək Polşaya qoşun yeritdi. Rus qoşunlarına məğlub olan qiyamçılar cənuba çəkilərək kömək məqsədilə Avropa dövlətlərinə müraciət etdilər. Onları Fransa müdafiə etdi, fransız səfiri İstanbulda türkləri inandırdı ki, onun sərhədləri yaxınlığında rus qoşunlarının olması təhlükəlidir. Türkiyə Rusiyadan qoşununu geri çəkməyi və dissidentləri müdafiə etməməyi tələb etdi. Rusiya razı olmadı, Sultan Türkiyəsi ona müharibə eln etdi. Müharibə 1768-ci ildə quruda və dənizdə başladı. Türkiyənin vassalı Krım xanı 70 minlik süvari ilə Rusiyanın cənub vilayətlərini basqın etdi ki, bu da onların sonuncu hücumu oldu. Krım qoşunu böyük qənimət, iki minə yaxın əsir ələ keçirərək geri evə döndülər. Cənuba doğru iki ordu – biri P.A.Rumyantsevin komandanlığı altında Dunaya, ikincisi Azov dənizinə hə-

rəkət etdi. Qafqaza xüsusi korpus göndərildi. Rusiya bütün istiqamətlərdə hücuma keçdi. II Yekaterinanın cəsarətli əmri ilə Baltik donanmasının gəmiləri bütün Avropanı keçərək türklərə cənubdan zərbə vurmağa hazırlaşıdılar. Artıq 1769-cu ildə rus qoşunları Dunaydakı Xotin qalasını, Yassı və Buxaresti tutdular. Qafqazda rus ordusu Kabardini tutdular, onlar Rusiyadan asılılığı qəbul etdilər. Bu vaxt Rusiya osetinlərin müraciətini qəbul edib onu öz himayəsi altına aldı.

1770-ci ildə Larqa çayının Pruta töküldüyü yerdə P.A.Rumyantsevin ordusu 80 minlik türk qoşununa gecə qəfil hücum edərək darmadağın etdi. Ruslar cəmi 29 nəfər döyüşçü itirdi, 61 nəfər isə yaralanmışdır. P.A.Rumyantsev Larqa qələbəsinə görə Rusiyada birinci olaraq yeni təsis edilən I dərəcə Müqəddəs Georgi ordeninə layiq görülmüşdür.

Türk ordusu baş vəzirin rəhbərliyi ilə Kaqul çayına 150 topu olan 150 minlik qoşun çıxarmışdır. Rumyantsevin 27 min nəfər qoşunu, 118 topu vardı. Türk ordusunun düşərgəsi dağ silsilələrinin olduğu yerdə salındığı üçün Rumyantsev öz ordusunu gecə saat ikidə türklərin zəif müdafiə edilən sol cinahına doğru hücuma apardı. Yeniçərilərin qarşısına çıxan rus əsgərlərini Rumyantsev özü süngü döyüşünə apardı. Top atəşi altında rusların həmləsinə davam gətirməyən türklər bütün artilleriyanı buraxib qaçdılar, çoxu əsir düşdü. Bu qələbədən sonra P.A.Rumyantsev general-feldmarşal rütbəsinə layiq görüldü və o Zadunayski fəxri adını aldı.

Rus donanması Aleksey Qriqoriyeviç Orlovun başçılığı ilə 1770-ci ilin mayında Egey dənizinə daxil oldu. Donanmaya bilavasitə admiral Qriqori Andreyeviç Spiridov komandanlıq edirdi. İyulun 24-də Xiossk boğazında, 26-da Çeşmə buxtasında qanlı dəniz döyüşü baş verdi. Türklərin flaqman gəmisinə hücum təşkil edərək rus dənizçiləri abordaj edərək onu batırdılar. Türk dəniz gəmiləri böyüklüyünə görə Çeşmə buxtasında hərəkət edə bilmirdilər. Bunun əksinə, rus dənizçiləri yandırıcı maddələrlə xırda qayıqlarla 15 türk xətt gəmisini, 6 freqatı, 50-yə kimi kiçik gəmini məhv etdilər. Türkiyə özünün Aralıq dənizi donanmasından məhrum oldu.

Növbəti il rus ordusu Krımı işğal etdi. Türklər sülh istədi. Lakin siyasətin işə qarışması nəticəsində Fransa, İngiltərə ilə birlikdə Avstriya və Prussiya da Rusiyanın Balkanlarda mövqeyinin güclənməsini istəmirdilər. 1773-cü ilin yazında türk ordusu itirdiyi torpaqları geri almaq məqsədilə Dunay çayını keçdi. Rus ordusu Rumyantsevin, generallar Potyomkin və Suvorovun komandanlığı altında Dunayı keçərək əks-hücuma başladılar. Suvorov 8 minlik ordusu ilə hücum edərək 40 minlik türk ordusunu Qozluca ətrafında məğlub etdi. Rus ordusu cənuba doğru hücuma keçdi, türklər ikinci dəfə sülh istədi.

1774-cü il iyulun 21-də Kiçik Qaynarcada Rusiya ilə Osmanlı arasında sülh müqaviləsi imzalandı. Sülhün şərtlərinə əsasən, Krım sultanının Krım tatarları üzərində dini liderliyi qalmaq şərtilə müstəqil oldu. Dneprlə Buq çayı arasında olan torpaqlar Kerç və Yeniqala qalaları, Dneprin mənsəbindəki Kinburn qalası, Şimali Qafqazda Kabardin Rusiyaya keçdi. Rusiya Qara dənizdə donanma yaratmaq hüququ almaqla bərabər, rus ticarət gəmiləri Bosfor və Dardanel boğazlarından keçərək Aralıq dənizinə daxil olmaq imkanı qazandı. Qara dənizə və cənubi Avropa ölkələrinə çıxış təmin olundu.

Birinci rus-türk müharibəsi zamanı mühüm bir xarici siyasət məsələsi də ortaya çıxdı. Polşa ilə bağlı müharibənin başladığı kimi onunla da başa çatdı. Rusiya ilə Osmanlı arasındakı danışıqların gedişində Avstriya və Prussiya Rusiyanın Balkanlarda, Qara dəniz sahillərində və Şərqi Avropada nüfuzunun artmasını istəmirdilər. Odur ki, Prussiya kralı II Fridrix Peterburqla «ticarətə» başladı. Kral Rusiyanın Osmanlı dövlətinə qarşı tələblərinin yerinə yetirilməsinin müdafiəsi müqabilində Polşanın bölüşdürülməsini təklif etdi. Avstriya da Rusiyaya öz tələblərini irəli sürdü. II Yekaterina razılaşdı.

1772-ci ildə Polşanın Prussiya, Avstriya və Rusiya arasında birinci bölüşdürülməsi oldu. Prussiya əzəli Polşa torpaqları olan Pomorye və Böyük Polşanın bir hissəsini, Avstriya Qolitsiyanı aldı. Rusiyaya Şərqi Belorusiyadakı qədim rus torpaqları çatdı.

1783-cü ildə Rusiya Krımın imperiyaya birləşdirilməsini elan etdi. Tez bir zamanda burada Sevastopol şəhər-qalası tikilməyə başladı ki, bu Rusiyanın Qara dənizdəki hərbi dəniz bazası oldu. Cənubda Novorossiya adlanan Rusiyaya birləşdirilmiş yeni torpaqların mənimsənilməsinə başlandı. Yeni torpaqların mənimsənilməsi və Krım II Yekaterinanın sevimlisi Q.A.Potyomkinə məxsus idi. Müharibədən sonra imperatriçənin sevimlisi, qraf, şöhrətli knyaz, hakimiyyətin şəriki olan Potyomkin sərkərdəlik bacarığı ilə yanaşı, mahir inzibatçılıq, dövlətçilik, təfəkkür qabiliyyəti olan bir şəxs idi. Məhz Potyomkinin fəal təşəbbüsü ilə Novorossiyada rus kəndliləri, sənətkar və ustalar yerləşdirildi, qalalar tikilərək hərbi qarnizonlarla əhatə olundu. Potyomkin xidməti sahəsində Novorossiyada Xerson, Nikolayev, Yekaterinoslav kimi şəhərlər salınmışdır. Potyomkin Türkiyə ilə mübarizə aparmaq, cənubda Avropaya üz tutmaq məqsədilə tez bir zamanda Qara dəniz donanmasının tikintisinə başlamağı irəli sürmüşdür. Onun təklifi ilə başqa dövlətlərdən gələn kolonistlər – serb, alman, bolqar, volox, albanlar yeni torpaqlarda məskunlaşdı. Q.A.Potyomkin bu işləri sahəsində Krımın qədim yunan adı olan Tavrida sözündən Tavriçeski fəxri soykökünü qəbul etmişdir.

Bütün cənub torpaqlarındakı Rusiyanın mənimsəmə siyasəti, Krım, hərbi donanmanın qurulması Osmanlını qıcıqlandırırdı. Fransa, İngiltərə, İsveç kimi ölkələr də Rusiyanın hərbi gücünün artamasından ehtiyat etdikləri üçün ona qarşı çıxdılar. Rusiya İngiltərənin Şimali Amerika ştatlarına qarşı mübarizəsini müdafiə etmədiyi üçün münasibətlər xeyli kəskinləşmişdir. Rusiya birincilərdən olaraq ABŞ-ın müstəqilliyini tanıdı, gənc respublikaya qarşı İngiltərənin təcavüzünü pislədi, «Silahlı bitərəflik» bəyannaməsi» ilə çıxış edərək ingilislərin dənizdəki təcavüzkar hərəkətinə qarşı olduğunu nümayiş etdirdi.

1787-ci ildə türklər Rusiyadan Krımın qaytarılmasını və Gürcüstan üzərində Osmanlı imperiyasının hakimiyyətinin tanınmasını tələb etdi. Rusiya qəti olaraq rədd cavabı verdi. Türk əsgərləri Dneprin mənsəbindəki Kinburn qalasına hücum etdi. İkinci rus-türk müharibəsi başlandı. Türklər A.V.Suvorovun müdafiə etdiyi Kinburn qalasına hücum etdilər. Onların 5 min nəfər qala müdafiəçilərinin, 1,5 min nəfər əsgəri olmasına baxmayaraq, şiddətli döyüş süngü savaşı ilə qala müdafiəçilərinin qələbəsi ilə başa çatdı. Növbəti il Potyomkin hücumla əvvəl Oçakov, sonra Akkerman və Bender qalalarını ələ keçirdi. Avropa dövlətlərinin təhriki ilə İsveç Rusiyaya qarşı müharibəyə başlasa da, bir neçə məğlubiyyətdən sonra 1790-cı ildə sülh bağlayaraq öz tələblərindən əl çəkdi.

1789-cu ildə A.V.Suvorovun komandanlığı altında rus qoşunları Moldaviyada Fokşan adlı yerdə və Rımnik çayı yaxınlığında türklər üzərində iki qələbə qazandılar. Sentyabrın 11-də gecə müttəfiqi avstriyalılarla birlikdə 25 min qoşunu olan Suvorov 100 minlik türk ordusunun düşərgəsinə qəfil hücum edərək onları pərən-pərən saldı. Baş komandan vəzir və çoxlu türk əsgəri canını qurtarmaq üçün Rımnik çayının sularına atılaraq həlak oldular. Böyük ordudan yalnız 15 min nəfər xilas ola bildi. Bütün türk artelleriyası və hərbi sursat yükü rusların əlinə keçdi. Ruslar yalnız 200 nəfər ölü, 400 yaralı olmaqla döyüşü başa vurdular. İmperatriçə sərkərdəni qraf Rımniksk titulu ilə şərəfləndirdi.

Dunayın sol sahilində möhkəm qala İzmail dayanmışdır ki, onun da 250 döyüş topu var idi. Bir neçə həftə rus qoşunlarına müqavimət göstərən qalanı almağı Potyomkin Suvorova tapşırdı. 1790-cı ilin dekabrında qalanın ətrafını nəzərdən keçirən görkəmli sərkərdə 10 gün ciddi hazırlaşdıqdan sonra dekabrın 2-də gecə saat 3-də sıx dumanda qalaya hücum təşkil etdi. Dörd bir tərəfdən qalaya hücum edən rus qoşunları topları ələ keçirməyə nail oldular. Cənub tərəfdə altıncı dəstəyə general-mayor Mixail İllarionoviç Kutuzov komandanlıq edirdi ki, onlar da qalaya birinci daxil oldular. Altı saatdan çox davam edən qanlı döyüşdə hər küçə, hər daş ev uğrunda mərdliklə döyüşən türklərin müqaviməti qırıldı. Qala ruslara təslim oldu.

Dənizdə gənc Qara dəniz donanması Fyodor Fyodoroviç Uşakovun komandanlığı altında əvvəl Dunayın mənsəbində, sonra Kerç boğazında türkləri məğlub etdi. Qara dənizin qərb sahillərinə hərəkət edən rus donanması Kaliakpi burnunda türk eskadrasını darmadağın etdi. Türkiyə sülh istədi.

1791-ci ilin sonlarında Yassıda bağlanan sülhə əsasən, Rusiya Buq və Dnestr çayları arasındakı əraziləri aldı. Türkiyə Krım və Gürcüstanın Rusiyaya aid olmasını qəbul etdi. Q.A.Potyomkin Yassıdan qayıdarkən çöldəki Nikolayevdə – ona doğma olan Novorossiya torpaqlarında vəfat etdi. Rusiya qəti olaraq Qara dəniz sahillərində bərqərar oldu. Krım Rusiyanın ərazisinə çevrildi. Ölkənin beynəlxalq nüfuzu xeyli artdı. Ancaq Avropa ölkələri qüdrətli Rusiya imperiyasına şübhə və qorxu ilə yanaşmağa başladılar.

Böyük Fransa inqilabı Avropa qitəsində siyasi qüvvələrin mövqeyini dəyişdirdi. İnqilabın ilk günündən II Yekaterina Avropada mövcud dövlət sisteminin zor gücünə dəyişdirilməsini xalq qarşısında cinayət hesab etmişdir. O, inqilabın əsl azadlıq deyil, dağıntı gətirdiyini düşünürdü. Tezliklə Fransa inqilabının humanist, parlaq səhifələrini Yakobin diktaturası, qanlı terror, fransızların mədəni təfəkkürünün təmsilçiləri olan ziyalıların təqib edilməsi əvəz etdi. Kral və kraliça edam olundu. İnqilabçı fanatiklər Avropaya müharibə elan etdilər, sədaqətli Avropa isə Fransaya müharibə elan etdi.

Rusiya hökmdarı bir sıra Anti-Fransa tədbirləri həyata keçirdi. Rusiya təbələrinə Fransanı tərk etmək tapşırıldı. Fransız nəşrlərinə ciddi nəzarət qoyuldu və s. Kralın edam edilməsindən sonra respublikanı tanıyan Rusiyadakı fransızlar ölkəni tərk etməli idi.

Ölkədəki inqilabi əhvali-ruhiyyəyə qarşı mübarizə N.İ.Novikov və Aleksandr Nikolayeviç Radişşev üzərində haqq-hesab çəkilməsilə başa çatdı. Liberal görüşlü yazıçı, jurnalist II Yekaterinanın mütləq hakimiyyətinə və təhkimçilik hüququna qarşı çıxış edən N.İ.Novikov Şlisselburq qalasına salındı.

Görkəmli fikir adamı, ictimai xadim A.N.Radişşev 1790-cı ildə «Peterburqdan Moskvaya səyahət» əsərini buraxdı. Rusiyanın bir paytaxtından digərinə səyahəti qələmə alan müəllif adamların təhkimli vəziyyətinin canlı dəhşətini, hakimiyyətin özbaşınalığını açıb göstərmişdir. Radişşev təkcə mütləqiyyəti deyil, «demokratik» cəmiyyətlərdə olan qəddar tiranları da ifşa edirdi. Radişşevin kitabını oxuyan II Yekaterina onu «Puqaçovdan daha qorxulu qiyamçı» adlandırmışdır. Radişşevi həbs edərək edam cəzasına məhkum etdilər, imperatriçə cəzanı 10 il Sibirə sürgünlə əvəz etdi.

Rusiya İngiltərə və Avstriya ilə birlikdə inqilabçı Fransaya qarşı əsas qüvvə rolunu oyanyırdı. Fransaya müdaxilə etmək planı hazırlanarkən Polşanı bölüşdürmək şərtilə Prussiya da bu ittifaqda yer almağa razılıq vermişdir.

90-cı ilin əvvəllərində polyak seymi dövlətçiliyi möhkəmləndirmək məqsədilə bir sıra qərarlar qəbul etmişdir. Mütləqiyyət irsi elan edilmiş, ölkənin hərbi gücü artmış, rus ordusunun Polşa ərazisində hərəkəti qadağan edilmişdir. Rusiya meyilli maqnat və şlyaxtaçıların Polşaya ordu yeritmək xahişini Prussiya da müdafiə etmişdir.

Beləliklə, 1793-cü ildə Prussiya ilə Rusiya arasında Polşanın ikinci dəfə bölüşdürülməsi baş tutdu. Prussiya yenndən qədim Polşa torpaqlarına Qdansk və Torun şəhərlərinin ətrafı ilə birlikdə sahib oldu. Bütün Belorusiya və XVII əsrin ortalarından arzu edilən sağsahil Ukraynası Rusiyaya keçdi.

Rusiya Fransa ilə mübarizə məqsədilə İngiltərə, Avstriya ilə birlikdə Üçlər İttifaqına daxil oldu. 1794-cü ildə Polşada Tadeuş Kostyuşkonun başçılığı altında qüdrətli xalq üsyanı başladı. Aristokratiya, şlyaxta, şəhərlilər və kəndlilərin iştirak etdiyi üsyanın məqsədi vahid və güclü Polşa dövlətini yaratmaq olmuşdur. Polşa cəmiyyətinin üsyanda iştirak edən «aşağı» təbəqəsinin məqsədi təhkimçilik hüququnun ləğv edilməsi idi. Odur ki, «aşağı»ların antifeodal mövqeyi şlyaxtanın kəndlilərdən ayrılmasına gətirib çıxardı. II Yekaterina üsyanı yatırmağa A.V.Suvorovun başçılığı altınnda qoşun göndərdi. A.V.Suvorovun cəza dəstəsi yolboyu üsyançıların dəstələrini məğlub edərək Varşavaya yaxınlaşdı. Varşavanı işğal etmək məqsədilə A.V.Suvorov Vislanın sağ sahilindəki möhkəmləndirilmiş Praqanı ələ keçirdi. Bundan sonra Varşavada təslim oldu. Üsyançılar silah və artilleriyanı təhvil verdikdən sonra evlərinə dağıla bilərdilər, şəhər əhalisi şəxsi azadlıq və əmlakını qoruyub saxlayırdı. A.V.Suvorov bu qələbədən sonra feldmarşal rütbəsini aldı. Yaralı ələ keçirilən Kotyuşko Petropavlov qalasına salındı.

Avstriya, Prussiya və Rusiya 1795-ci ildə Polşanı üçüncü dəfə bölüşdürdülər. Polşa müstəqil dövlət olaraq varlığını itirdi. Avstriya və Prussiya Krakov və Varşava ilə birlikdə Polşa torpaqlarını bölüşdürdülər. Qərbi Belorusiya, Litva, Kurlyandiya və Volının bir hissəsi Rusiyaya keçdi.

## §5. I Pavel

1796-cı ilin payızında 67 yaşlı II Yekaterinanın iflicöncəsi tutması nəticəsində xəstəliyi başladı. «Yekaterinanın qartalları» qocalıb ölmüşdü. Ordu və qvardiya öz şöhrət və qələbələrindən həzz alırdı. Qvardiya polklarında intizam aşağı düşmüşdü. Kazarmalarda əyyaşlıq, kart oyunları geniş yayılmışdı. Zadəganlar «Yekaterina ananın» xeyir-duası ilə öz müstəqil və azad olmalarının

kefini yaşayırdılar. Məmurlar pozularaq daha az çalışır, öz vəzifələrindən sui-istifadə edərək rüşvətxorluğa yuvarlanırdı. İmperatriçənin gənc sevgililəri, xüsusilə onlar arasındakı son knyaz Platon Zubov həyasızcasına ölkəni soyub-talayaraq öz şəxsi işlərini qururdu. Taxtın varisi 42 yaşlı Pavel Pyotroviç (1754-1801) bütün bunlara nifrət və qəzəb hissi ilə baxırdı. Onunla anası arasında düşmənçilik yaranmışdı. Pavel Yekaterinaya atasının qatili və taxtı zəbt edən adam kimi baxırdı. Yekaterina oğluna rəqib kimi yanaşaraq ondan qorxur və nifrət edirdi.

Pavel bir insan kimi xoşniyyət, şən, əliaçıq, ağıllı idi. O, əxlaq və şərəf prinsiplərinə xüsusi önəm verirdi. Eyni zamanda onun xasiyyətində tündməcazlıq, ötkəmlik, tərslik meydana çıxmışdı. Taxtın varisinin təhsili ilə elmli əyan N.İ.Panin məşğul olaraq ona yaxşı savad vermişdi. Pavel gənc bir adam kimi bütün Avropanı gəzərək ilk vaxtlar fransız maarifçilərinin ideyalarına vurğun olmuşdu. Ancaq yakobinlərin terroru, aristokrat və ziyalılara divan tutulması onu dəhşətə gətirmişdi. Pavel 1793-cü il polyak üsyanına və onun rəhbəri T.Kostyuşkoya rəğbət bəsləmişdir. Fonvizinin komediyalarından həzz alan Pavel insana dəyər verilməsinin tərəfdarı olaraq azadlığı insanın ən qiymətli varlığı hesab edirdi. Bu, xüsusilə anasının ona qəddar təzyigi ilə bağlı daha da güclənmişdi.

Zaman keçdikcə anası tərəfindən bütün dövlət işlərindən uzaqlaşdırılan, onun sevgililəri tərəfindən təhqir olunan gənc adam özünün bütün gözəl əlamətlərini itirməyə başlamışdı. O tədricən əsəbi, dözülməz, şübhəli bir insana çevrilmişdi. Ürəyində qisas almaq istəyinin baş qaldırması sayəsində nə vaxtsa taxta sahib olduqda düşmənlərinə divan tutmağı belə düşünürdü.

Peterburq yaxınlığındakı Qatçina iqamətgahında Pavel saray həyatından fərqli olaraq özünəməxsus bir həyat qurmuşdu. Ciddi nizam-intizama tabe olan kiçik ordusu Prussiya nümunəsində qurularaq əsgəri xidmətin bütün qaydalarına əməl edirdi. Zabit kadrları özü seçərək onlardan nümunəvi xidmət, təşəbbüskarlıq, ehtiram tələb edirdi. Yekaterina onun Qatçina həyatına qarışmırdı.

Pavelin oğlanları ilə münasibətləri faciəvi olmuşdur. Yekaterina onun böyük oğlu Aleksandr və ikinci oğlu Konstantini hələ kiçik yaşlarından atalarından ayıraraq himayəsi altına alıb tərbiyələrilə məşğul olmuşdur. İmperatriçə uşaqları atalarına qarşı köklənmişdir. Oğlanlar, sonra gənclər nənələri ilə ataları arasında qalmışdır. Tədricən taxtın gələcək varisi Aleksandr Pavloviçlə Pavel arasında anlaşılmazlıq, ardınca yadlaşma daha sonra şübhə və nifrət yaranmışdır. Bu, xüsusilə II Yekaterinanın oğlunu deyil, nəvəsini taxtın varisi etmək planının meydana çıxması ilə bağlı daha da kəskinləşmişdir. Hamı bilirdi ki, Pavel II Yekaterinanın gördüyü hər bir işi rədd edir, nənəsinin sonsuz məhəbbətini qazanan Aleksandr isə atası Pavel Petroviçin fikirləri və işlərinə daha tənqidi yanaşırdı.

II Yekaterinanın huşunu itirdiyi xəbərini alan Pavel özünün Qatçina zabitləri ilə saraya gələrək imperatriçənin bütün sənədlərini möhürlətdi. Bu sənədlərin içində II Yekaterinanın nəvəsinin taxta çıxmasına dair vəsiyyətnaməsi olması qorxusu ilə hökmdarın yaxın köməkçiləri, axırıncı sevgilisi Platon Zubov uzaqlaşdırıldı. Qorxmuş və əzilmiş Aleksandr Pavloviç atası ilə birlikdə idi.

Anasının ölümündən sonra taxta çıxan yeni imperator ölkənin daxili həyatında bir sıra islahatlar həyata keçirdi. II Yekaterina dövründə həbsə atılan görkəmli ictimai xadimləri I Pavel əfv etdi. Radişşev sürgündən qaytarıldı, Novikov azadlığa buraxıldı. Yeni imperator Polşanın bölüşdürülməsini pislədi, üsyançılara hörmət əlaməti olaraq Kostyuşkoya Rusiyadan getməyə icazə verildi. Zahirən belə təsəvvür yaranırdı ki, Pavel özünün azadlıqsevər ideallarına qayıdır. Lakin bu əsasən anasının siyasətinə qarşı etiraz səciyyəsi daşıyırdı. Tezliklə Sibirə yeni sürgünlər başladı, görkəmli məmur və «sevimli»lər ev dustağı edildi. Senzura nəzarəti artırıldı, xüsusi mətbəələr bağlandı, Fransa inqilabının pis təsiri altında olan kitab və jurnallar, hətta moda belə təqib olunmağa başladı. Pavelin xüsusi fərmanı ilə dəyirmi Fransa şlyapası, frak, jabo, jilet, toqqalı başmaq geymək qadağan olunmuşdu. Yalnız üçkünc şlyapa, alman kamzolu və ağzıgen, uzunboğaz çəkmə – botfort geymək olardı. Prussiyadakı adət və qaydalar tətbiq olunmağa başladı. Ballarda vals rəqs etmək qadağan edildi. Hərbiçilər hətta əyləncəli gecə və salonlara rəsmi geyimdə – mundirdə gəlməli idilər. I Pavel ölkədə «anadangəlmə güzəştlər»in olmasına qarşı çıxaraq, bütün zadəganlardan vətənə qüsursuz xidmət etməyi tələb edirdi.

Pavelin tələblərində həqiqət payı olsa da, onlar cəmiyyətdə qəddar təzyiq kimi qəbul edilirdi. İmperator fəaliyyəti ilə zadəganlara bağışlanmış qramotanın bir çox maddələrini ləğv edərək, onlara hətta bədən cəzası verməyi belə bərpa etmişdi. Məmurlar səhər saat 6-da işə başlamalı, axşam saat 10-da şəhər yuxuya getməli idi. Qvardiya zabitləri birbaşa xidməti vəzifələrini yerinə yetirərək əsgərlərlə təlim keçməyə cəlb olundular. Əsgərlərlə pis münasibətə görə imperator özü zabitlərin, hətta generalların paqonlarını sökərək onları Sibirə sürgünə göndərirdi. I Pavel orduda oğurluq və dövlət malının qəsb edilməsinə qarşı daha amansız olmuşdur. Onun yaxın köməkçisi qraf Aleksey Andreyeviç Arakçiyev hökmdarın işini heç bir vəzifə və rütbədən asılı olmayaraq xüsusi amansızlıqla davam etdirmişdir. I Pavelin dövründə Pruss mundiri olsa da, hər bir əsgər səliqəli geyindirilib, yaxşı yedizdirilib təmiz kazarmalarda yerləşmişdir.

I Pavel təhkimçilik hüququnun Rusiya üçün məhvdici olduğunu dəfələrlə dilə gətirərək ölkə tarixində birinci hökmdar kimi bu bəlanı məhdudlaşdırmaq sahəsində bəzi ehtiyatlı addımlar atmışdır. İmperator II Yekaterinanın elan

etdiyi növbəti rekrut toplanışın, can vergisi borcunu ləğv edərək kəndlilərə öz ağasından şikayət etməyə icazə vermişdir. Təhkimçilər də daxil olmaqla bütün kəndlilər imperatora and içmək hüququ almışdır. 1797-ci ildə həyət adamlarını və təhkimli kəndliləri torpaqsız satmağı qadağan edən fərman çıxdı. Növbəti il belə bir fərman Ukraynadakı kəndlilərə aid edildi. 1797-ci il aprelin 5-də I Pavelin imzaladığı fərmanla mülkədarlar bayram günlərində kəndliləri biyar işləməyə məcbur edə bilməzdi, eyni zamanda mülkədarlar həftədə yalnız 3 gün kəndliləri biyar işlərinə cəllb edə bilərdi. Mahiyyət etibarilə bu tədbirlər hökumətin Rusiyada təhkimçilik hüququnun ləğv edilməsi siyasətinin başlanğıcı idi. Bu zadəganaların qəti etirazına səbəb oldu, onlar fərmanı sabotaj etmək məqsədilə kəndliləri həftədə 3 gündən artıq biyar işlərinə cəlb etdilər. Eyni zamanda I Pavel əvvəlki xətti davam etdirərək öz sevimlilərinə yeni yüz minlərlə kəndli bağışlayır, zavod sahibi olan tacirlərə öz müəssisələri üçün kəndlilər satın almağa icazə verirdi.

I Pavelin xarici siyasəti də qeyri-ardıcıl və impulsiv idi. Rusiyadakı taxt-tac dəyişikliyi Avropa qitəsindəki köklü yeniliklərlə müşayiət olunmuşdur. Fransa inqilabı dalğası işığını itirmiş, hakimiyyətə iri fransız burjuaziyası sahib olmuşdur. Yakobinçilər darmadağın edilmişdir. İndi artıq Fransadakı yeni hakimiyyət təbəqəsi Avropadakı inqilabi dəyişiklik haqqında düşünmürdü. Onları yeni torpaqların zəbt edilməsi, Fransa burjuaziyasının qitədə nüfuzunun təsdiq olunması maraqlandırırdı.

Fransa ordusunun başında gənc, istedadlı general Napaleon Bonapart dururdu. Onun başçılığı ilə fransız ordusu qələbədən-qələbəyə gedirdi. Fransanın təcavüzünə qarşı qitədə onun əsas iqtisadi rəqibi olan İngiltərənin iştirakı ilə Avstriya və Türkiyə daxil olmaqla böyük koalisiya meydana gəldi. Fransızların öz ölkələrində mütləq monarxiya sistemini dağıdaraq Avropa dövlətlərinin sərhədlərini pozmasından qəzəblənən I Pavel antifransız ittifaqına qoşularaq Avropaya rus qoşunları, Aralıq dənizinə rus donanması göndərməyə qərar verdi. Avstriyanın xahişi ilə qurudakı rus ordusunun komandanlığı 70 yaşına daxil olan A.V.Suvorova tapşırıldı. Donanmanın başına I Pavel F.F.Uşakovu təyin etdi. Hər iki sərkərdə hərbi xidmətləri zamanı heç bir döyüşdə məğlub olmamışdır.

1798-ci ildə Suvorov Venaya, sonra Şimali İtaliyadakı Veronaya gələrək birləşmiş rus-avstriya ordusunun komandanlığını qəbul etdi. Adde çayında Suvorovun ordusu ilə fransızların ilk döyüşü oldu. Müttəfiq ordunun ön dəstələrinə general Pyotr İvanoviç Baqration başçılıq edirdi. İki günlük döyüşdən sonra fransızlar məğlub oldu, Suvorov Milanı tutdu. Fransız hökuməti təcili olaraq general Moronun komandanlığı altında kömək göndərdi. Onlar Suvorovun hücumunun qarşısını ala bilmədilər, müttəfiqlər Turin və digər böyük

şəhərləri təslim edərək Şimali İtaliyanın böyük bir hissəsini fransız ordusundan təmizlədilər. Şimali İtaliyada fransız ordusuna arxalanaraq Avstriyanın zülmündən azad olmağa çalışan yerli inqilabçıların müqaviməti qırıldıqdan sonra avstriyalılar rus ordusunu bu ərazilərdən uzaqlaşdırmaq məqsədilə Suvorova mane olmağa başladılar.

Fransızlar bura Moroya kömək üçün cənubdan şöhrətli general Makdonaldı səfərbər etdilər. Hər iki ordunun birləşməsinə mane olmaq məqsədilə Suvorov bir gündə 50 kilometr məsafə qət edərək Tidon çayında Fransa ordusunu dağıtdı. Onlar tələsik Trebi çayına doğru çəkildilər. İkigünlük döyüş Makdonaldın növbəti məğlubiyyəti ilə başa çatdı. Parisdən İtaliyaya istedadlı general Juberi səfərbər etdilər, 1799-cu il avqustda Novi şəhəri ətrafında 15 saat davam edən qanlı döyüş sayəsində general Juber öldürüldü. Bu döyüşdə gələcək 1812-ci il Vətən müharibəsinin qəhrəmanları Baqration, Mixail Andreyeviç Miloradoviç Suvorovun şagirdləri kimi xüsusi fərqləndilər. Bütün Şimali İtaliya fransızlardan təmizləndiyi üçün Avstriya Suvorova İsveçrə torpaqlarına daxil olmağı təklif etdi.

Suvorovun şanlı İsveçrə səfəri başladı. Düşmənin ön dəstələrini əzən rus ordusu Alpı keçərək Sen-Qotard aşırımını ələ keçirdi. Dar keçidli dağ yolları ilə addım-addım irəliləyən rus ordusu Alpı aşaraq Mutten dərəsinə daxil oldu ki, burada onları general Massenin çoxsaylı Fransa ordusu qarşıladı. Suvorov ordusu geri çəkilir kimi göstərərək, fransız qoşununu tələyə saldı və ruslara əks-hücuma keçmək əmri verdi. Massen və əsgərləri panika içində qaçdılar. Avstriya Suvorovun ordusunu taleyin hökmünə buraxaraq onların ərzaqla təmin edilməsini dayandırdı. Onların satqınlığından qəzəblənən I Pavel nəhayət Suvorovu və rus ordusunu vətənə çağırdı. Rus silahına şöhrət qazandıran hərbi yürüş başa çatdı, Suvorov isə məğlubedilməz olaraq tarixdə öz şərəfli sərkərdəlik yerini tutdu. İtaliyada və İsveçrədəki parlaq hərbi qələbələrinə görə Suvorov italiyalı knyaz titulunu və generalissimus rütbəsini aldı. Ancaq Pavel sərkərdəni soyuq qarşılayaraq onun paytaxta təntənəli girişinə icazə vermədi. 1800-cü ildə sərkərdə özünün Konçansk mülkündə vəfat etdi.

Aralıq dənizinə I Pavel Uşakovun komandanlığı altında rus donanmasını göndərdi, 1798-ci ilin payızında birləşmiş rus-türk eskadrası Dardanel boğazını keçərək İonik adalarına yaxınlaşdı. Balkan yarımadasının qərbinə kimi uzanan əraziləri başda Korfu adası olmaqla, fransız ordusu işğal etmişdi. Fransızlarla danışıqlar heç bir nəticə vermədiyi üçün gəmilərdən açılan top atəşi altında Uşakov hərbi əməliyyatlarla adaları bir-bir ələ keçirməyə başladı. Möhkəmləndirilmiş Korfu adasını 600 toplu böyük qarnizon müdafiə edirdi. Rus donanması adanı dənizdən mühasirə edərək fransız hərbi gəmilərini

uzaqlaşdırdı. Sonra sahilə desant çıxarıldı. Korfunun mühafizəsi 3 ay sürdü. «Korfunun açarı» olan Vido adasına hücum edən Uşakov onu ələ keçirdi. Rus-türk donanması bütün gücünü Korfuya yönəltdi, tezliklə fransızlar adanı təhvil verdilər. Adanın yunan əhalisi Uşakovu çoşğu ilə qarşıladı, adada yerli əhalinin nümayəndəli yığıncağına əsaslanan respublika quruluşu təsbit olundu. Bunun ardınca Uşakov İtaliyanın sahillərinə yaxınlaşaraq Neapol və Romaya daxil oldu. Bu qələbələrdən yalnız Avstriya bəhrələndi. Müttəfiqlər Avstriya və İngiltərənin fitnə-fəsad törətməsi I Pavelin antifransız koalisiyasından çıxmasına şərait yaratdı. İmperator Bonapartın çalxalanan Fransada qanun-qayda yaratmaq fəaliyyətini heyranlıqla müşahidə edirdi.

1800-cü ilin son aylarında Peterburqda vəziyyət son dərəcə kəskinləşmişdi. I Pavel əyanların gizli müqavimətini hiss edərək düşmən, sui-qəsdçi axtarırdı. O tez-tez yaxın köməkçilərini dəyişərək xırda qüsurlara görə belə yaxın ətrafına qəzəblənərək nəticədə yalqız qalmağa məhkum olmuşdur. Tədricən I Pavelə müxalif olan qüvvələr bir-biri ilə əlaqə yaradaraq gizli ictimai fikir formalaşdırırdılar. Xarici siyasət xəttinin kəskin dəyişdirilib Fransa ilə yaxınlaşıb İngiltərə ilə müharibəyə hazırlıq Rusiyanın nüfuzlu dairələrində ciddi narazılıq yaratmışdır. Özünün keçmiş müttəfiqi olan İngiltərəyə I Pavel Hindistanda zərbə vurmaq niyyətində idi. Bu məqsədlə ora Orenburqdan rus korpusu göndərildi. London özünün zəngin müstəmləkəsini itirmək qorxusu qaşısında Peterburqdakı səfirinə I Pavelə qarşı olan qüvvələrə yardım edilməsi tapşırıldı. İngiltərə səfiri tədricən bütün şəxsi əlaqələrini işə salaraq imperatora qarşı olan qəsdin mərkəzi qüvvəsinə çevrildi. Başqa belə bir mərkəz isə taxtın varisi Aleksandr Pavloviçin ətrafında birləşmişdi.

XVIII-XIX əsrin qovuşuğunda Aleksandrın 23 yaşı tamam olmuşdu. O hündürboylu, mütənasib bədənli, göy gözləri və parlaq açıqrəngli saçları olan yaraşıqlı bir gənc adam idi. Gözəl tərbiyə və əla təhsil alan varis üç dildə sərbəst danışaraq Berlin, Paris və Londonda tərcüməçisiz keçinirdi. II Yekaterina öz sevimli nəvəsini humanist maarifçilik ruhunda tərbiyə etmişdi. Onun isveçrəli müəllimi Frederik Sezad de Laqarp əqidəsinə görə respublikaçı, fransız maarifçilərinin ardıcılı idi. O öz şagirdinə şəxsiyyət azadlığına hörmət, insanların zəiflik və nöqsanlarına dözümlülük öyrədərək qeyd edirdi ki, ölkə üçün konstitusiya quruluşu səadət, təhkimçilik hüququ bədbəxtlikdir. Eyni zamanda Aleksandr böyük imperiyanın gələcək mütləq hökmdarı kimi tərbiyə olunaraq onun qərarının heç yerdə və heç kim tərəfindən mübahisə mövzusu olmaması təlqin edilmişdir. Saray fitnə-fəsad şəraiti, xüsusilə nənəsi ilə atası arasında olan mübarizə onu qapalı və ehtiyatlı olmağa sövq etmişdir.

Aydan-aya I Pavellə varisin münasibətləri daha da kəskinləşmiş, imperator arvadını Xolmoqora, oğlanları Aleksandr və Konstantini zindana salmağı be-

lə düşünürdü. Zubov qardaşları ətrafında qvardiya zabitlərinin bir hissəsi toplaşmışdı. Peterburqun general-qubernatoru qraf Palen və b. əyanlar sui-qəsdlərə qoşulmuşdu.

1801-ci il martın 11-də axşam Preobrajensk polkunun polkovnikinin evində toplaşan sui-qəsdçilər qərara aldılar ki, gecə I Pavelin yeni iqamətgahı Mixaylov qəsrini tutub imperatoru oğlunun xeyrinə taxtdan əl çəkməyə məcbur etsinlər. Gecə yarıdan sonra Semyonov və Preobnajensk polkunun batalyonları Mixaylov qəsrinə doğru hərəkət etdilər. Növbətçi II Yekaterinanın son sevgilisi knyaz Platon Zubov, general Leonti Leontiyeviç Benniqsen və adyutant Pavel Arqamakovun ətrafındakı hərbiçiləri saxlayaraq gecə vaxtı hara getdiklərini soruşdu. Səs-küy qaldırdığı üçün ikinci növbətçini öldürən sui-qəsdçilər imperatorun otağına daxil olduqda onu gizləndiyi yerdən tapıb çıxardılar. Qraf Nikolay Zubov qardaşı Platon Pavelə imperator Aleksandrın əmri ilə həbs olunması və taxtdan əl çəkməsi aktını oxudular. Pavel sui-qəsdçiləri nanəciblikdə təqsirləndirdikdə onlar Pavelin üzərinə atılaraq onu yumruqlamağa başladılar. N.Zubov onun sağ əlini sındırdı, Arqamakov ilə şərfi boğazına dolayaraq imperatoru öldürdü. Rusiyada sonuncu saray çevrilişi baş tutdu.

### §6. XVIII əsrin II yarısında Rusiyanın mədəniyyəti

Yeni iqtisadiyyat, idarəçilik, ordu və donanma yeni savadlı, hazırlıqlı və bacarıqlı peşəkar adamlara – alim, mühəndis, usta, müəllim və həkimlərə tələbat yaradırdı. I Pyotrun dövründən başlayaraq islahatların keçirilməsi Rusiyada peşə və sənətə, mütəxəssislərə ehtiyacı durmadan artırmışdır. Xüsusilə II Yekaterinanın hakimiyyəti illərində bu proses daha dinamik xüsusiyyət kəsb etmişdir. Rusiya sürətlə özünün keçmiş orta əsrdəki digər mədəniyyətlərdən təcrid olunmuş vəziyyətindən uzaqlaşaraq maarifpərvər Avropa dövlətinə çevrilmişdir. Qərb mədəniyyətinin Rusiya həyatına fəal təsiri davam etmişdir. Avropa maarifçilik dövrü Rusiya üçün onun əsl dövrü olmuşdur. Təsadüfü deyil ki, müasirlərinin qeyd etdiyi kimi, Rusiya XVIII əsrin bir neçə onilliyi ərzində keçmiş yüzilliklərin geriliyini aradan qaldırmışdır.

Rusiya cəmiyyətinin mənəvi tələbat və maraqları kökündən dəyişərək həyatın yeni humanist əxlaqi meyarları formalaşmışdır. İnsana, insan şəxsiyyətinə və həyatına münasibət dəyişilmişdir. Eyni zamanda, maarifçi humanist fəlsəfənin təsiri altında cəmiyyətin məqsəd və vəzifələrinə, təbiət aləminə, cəmiyyət və təbiət sistemində insanın tutduğu yerə münasibət dəyişilmişdir.

Burjua münasibətlərinin çiçəklənməsi əsasında Qərbdə inkişaf edən maarifçilik istiqaməti Avropanın siyasi tarixində yeni hadisə olub, parlamentarizmin meydana çıxmasına, mütləq monarxiyanın böhranına səbəb olmuşdur. Ümumbəşəri dəyərlər, şəxsiyyətin rolu, humanizm və əxlaq normaları qətiyyətlə orta əsr qaydalarını dəf edirdi. Eyni əlamətlər Rusiyada başqa bir mühitə düşmüşdür: burada feodalizm hökmranlıq etmiş, mütləqiyyət özünün ən yüksək həddinə çatmış, təhkimçilik, adamların qeyri-bərabər hüququ, təbəqə üstünlükləri və məhdudiyyətləri insan münasibətlərinin ayrılmaz hissəsinə çevrilmişdir. Bu Rusiyada hələ də güclü olan köhnə dünya ilə mədəniyyətdə meydana çıxan yeniliyin arasında kəskin ziddiyyətlərin yaranmasını şərtləndirmişdir. Çətinliklə də olsa, yenilik özünə yol açırdı.

Xüsusilə Böyük Pyotrun dövründə Rusiya Qərbdən düşünülməmiş bəzi adətləri əxz etsə də, heç bir zaman öz köklü mədəni adət-ənənəsindən əl çəkməmişdir. Odur ki, bu zaman Rusiya mədəniyyətinin əsas xüsusiyyətlərindən biri – qarşılıqlı zənginləşmə sayəsində köhnə XVII əsr mədəniyyətilə yeni dövrün mənəvi yenilikləri çuğlaşmışdır. Rusiya mədəniyyəti həm də getdikcə kilsənin təsirindən azad olaraq dünyəvi xüsusiyyət kəsb edirdi. Vahid unitar dövlət çərçivəsində XVIII əsrdəki Rusiya mədəniyyəti paytaxt mərkəzlərinin və məhdud zadəgan təbəqəsinin malı olmaqdan çıxaraq əyalətlərə, şəhər əhalisinə, mülkədar mülklərinə və hətta kəndlilər arasında yayılmağa başlamışdır. Maarifçilik ənənəsi, yeni mədəniyyət ünsürləri xalq həyatı, xalq yaradıcılığı ilə təmas edərək qarışmışdır.

Bərabər olaraq əhalinin bütün təbəqələrinə çatmasa da, mədəniyyət insanları cəmiyyət, millət kimi yaxınlaşdıraraq milli şüurun və özünüdərkin formalaşmasına kömək etmişdir.

Yalnız təhkimli kəndlilər bu yeni dünyada qəbul edilməmişdir. Rusiyada maarifçilik əsri nəhayət ona gətirib çıxardı ki, XVIII əsrin sonlarında Rusiya cəmiyyətinin savadlı hissəsi, yeni doğulan Rusiya ziyalıları daha qətiyyətlə ölkədə kəndlilərin təhkimçilik məsələsini müzakirə etməyə başladı. Bu mədəniyyətin ayrı-ayrı sahələrində jurnalistika, kitab çapı, teatr, incəsənətdə özünü əks etdirmişdir.

Eyni zamanda yeni mədəni dəyərlərin çoxmillətli Rusiya şəraitində meydana çıxması onun beynəlmiləl məzmun kəsb etməsini təmin etmişdir. Qərb sərhədlərindən, paytaxt mərkəzlərindən bütün Rusiya üzrə, o cümlədən Volqaboyu, Şimal, Ural və Sibir hüdudlarında yayılan mədəniyyətin nailiyyətləri müxtəlif vaxtda və dəyişik dərəcədə cərəyan etmişdir. Yeni mədəni dəyərlər, maarifçilik ideyaları Rusiyanın digər xalqlarının mədəni adət-ənənələri, nailiyyətləri ilə çulğalaşmışdır. Bütün bunlar dərin sosial və milli ziddiyyətlərə baxmayaraq onların nəhəng Avrasiya dövlətinin taleyinin bir hissəsinə

çevrilərək tədricən özlərini böyük və çoxmillətli dövlətin əhalisi – rusiyalı hesab etmələrinə gətirib çıxardı.

Rusiyada yeni, maarifçi elmi və mədəni ənənələrin yayılmasının əsas səbəblərindən biri zadəganlar olmuşdur. Məhz XVIII əsrin ikinci yarısında ali hakimiyyəti təmsil edən zadəgan dövləti zadəganlar, zadəgan uşaqları, qapalı zadəgan təhsil müəssisələri vasitəsilə Rusiyanı qabaqcıl Avropa mədəniyyətilə tanış etmişdir. Rusiya zadəganları ilə yanaşı, bütün XVIII əsr boyu xaricilər Rusiya mədəniyyətinin inkişafına əhəmiyyətli təsir göstərmişdir. Onlar ölkədə təhsil sisteminin yaranmasında, Elmlər Akademiyasının fəaliyyətində, rus incəsənəti, heykəltəraşlığı, boyakarlığı, teatr və musiqisinin inkişafında yaxından iştirak etmişdir. XVIII əsrin ikinci yarısında zadəgan və xaricilərin iştirakı ilə bərabər ölkənin müxtəlif təbəqələrinin çoxsaylı nümayəndələri də yeni Rusiya dünyəvi mədəniyyətinin meydana çıxmasında yaxından iştirak etmişdir. Tacir ailələrindən və din adamları içərisindən çıxan uşaqları misal göstərmək mümkündür. Görkəmli rusiyalı elm və mədəniyyət xadimləri arasında çoxlu istedadlı dövlət və təhkimli kəndli nümayəndələrinin adlarına rast gəlmək olar.

Hökmdar və hökmdar qadınlar taxtda bir-birini əvəz etsə də, təhsil və maarif sahəsində XVIII əsrin birinci rübündə Böyük Pyotrun dövründə olduğu çoşqunu əldə etmək mümkün olmamışdır. Xalqın savadlanmasını təşkil etmək yerinə, hakimiyyət zadəgan uşaqlarının oxumasının qayğısına qalırdı. 30-cu illərdə Quru şlyaxta (zadəgan) korpusu açıldı. Ardınca qapalı Artilleriya və Mühəndislik korpusları fəaliyyətə başladı. Moskva, Peterburq və digər şəhərlərdə uşaqların yaşayıb oxuduqları xüsusi zadəgan pansionları meydana gəldi. Eyni zamanda ev şəraitində təhsil geniş yayıldı. Mərkəz və əyalətlərdən olan zadəganlar öz şəhər evlərinə və kənd malikanələrinə əsasən alman və fransızlardan xarici müəllimlər, yəni quvernerlər dəvət edirdilər. Onların arasında savadlı ruslara da rast gəlmək olurdu. Lakin pansionat təhsili əsl peşə və ümümhumanizm səviyyəsindən uzaq idi. Belə bir təhsili yalnız ali tədris müəssisələri verə bilərdi. Ölkədə ali məktəblər olmadığı üçün qabiliyyətli gənclər oxumaq məqsədilə Almaniya, Fransa, Hollandiya universitetlərinə üz tuturdular. Bəzən hökumət öz hesabına istedadlı zadəgan uşaqlarını xaricdə təhsil almağa göndərirdi.

Təhsilin qarşısında dayanan vəzifələri həll etmək məqsədilə hakimiyyət Rusiyada iki universitet açdı. Onların biri gələcək rus alimlərini hazırlamaq üçün Peterburq Akademiyasının nəzdində təsis edilmişdi. Universitetə qəbul edilmək akademiyanın gimnaziyasından başlayırdı. Dərsləri Akademiyaya dəvət edilən alman alimləri alman dilində keçirdi. Yalnız XVIII əsrin 50-ci illərində Akademiyada rus alimlırinin və xüsusilə Mixail Vasilyeviç Lomonosovun

fəaliyyətə başlaması və dərslərin rus dilində tədris edilməsi tələbələrin artmasına səbəb olmuşdur.

1755-ci il aprelin 26-da Yelizaveta Petrovnanın taxta sahib olmasının ildönümü münasibətilə Qızıl meydanın yaxınlığındakı keçmiş Baş aptek binasında Moskva Universitetinin təntənəli açılışı oldu. Fəaliyyətə üç – fəlsəfə, hüquq və tibb fakültələri ilə başlayan Universitetin fəlsəfə fakültəsində həm də riyaziyya, mexanika, fizika, coğrafiya, filologiya, tibb fakültəsində isə kimya, biologiya keçilirdi. XVIII əsrdəki Avropa universitetləri içərisində Moskva Universiteti yeganə ali təhsil məktəbi idi ki, burada ilahiyyat elmi tədris edilmirdi.

Universitet birinci açıq, yəni hamı üçün təhsil müəssisəsi oldu. Arzu edənlər universitet professorlarının mühazirələrində iştirak edə bilərdi, kitabxana oxumaq həvəskarlarının üzünə açıq idi. Tezliklə Universitetin mətbəəsi, jurnal və qəzetləri meydana çıxdı. M.V.Lomonosovun təşəbbüsü ilə Universitetə tələbə qəbulu təbəqə fərqi nəzərə alınmadan aparılmışdır. Tələbələrin və gimnaziya şagirdlərinin böyük əksəriyyəti dövlət hesabına təhsil alırdı. Universitetin nəzdində fəaliyyət göstərən gimnaziya iki hissədən, biri zadəgan, digəri zadəgan olmayan uşaqlar üçün nəzərdə tutulmuşdu.

Artıq Moskva Universiteti ilk onillikdə 300 nəfərdən çox tələbə buraxmışdı. XVIII əsrin sonunda onun nəzdindəki gimnaziyada 1000 nəfərdən çox təhsil alırdı. Universitet fəaliyyətə başladıqda onun tələbələri arasında gələcək işıqlı dövlət, elm, mədəniyyət xadimləri, o cümlədən Q.A.Potyomkin, N.İ.Novikov, D.İ.Fonvizin, V.İ.Bajenov, İ.Y.Starov və b. olmuşdur.

Universitetin açılmasında M.V.Lomonosovun dostu və himayədarı, Yelizaveta Petrovnanın sevgilisi İ.İ.Şuvalovun böyük əməyi olmuşdur. Məhz İ.Şuvalov Universitet mətbəəsinin açılmasına, professorların seçilməsinə, Universitetlə bağlı M.Lomonosovun muxtariyyət ideyasının təsbit edilməsinə yaxından köməklik göstərmişdir. XVIII əsrin ikinci yarısında ölkədə elm və maarifin əsl mərkəzinə çevrilən Moskva Universitetinin köməy ilə Kazanda gimnaziya fəaliyyətə başlamış, çuvaş, gürcü, tatar dillərində qrammatika və əlifba meydana gəlmişdir. XIX əsrin başlanğıcından isə Moskva Universiteti Rusiyada yaranan yeni universitetlər üçün bir model olmuşdur.

Zadəganlar üçün təhsil məktəbləri ilə bərabər ölkədə dini tədris müəssisələri də fəaliyyət göstərirdi. Pravoslav ruhanilərin uşaqları 66 dini məktəb və seminariyada təhsil alaraq dyakon və keşiş din xidmətçiləri olurdular.

Sadə xalq üçün də tədricən ümumtəhsil məktəbləri meydana gəlməyə başladı. Pyotr dövründən sonra dövlət kəndliləri, sənətkar, usta, əsgər, matros uşaqlarının təhsil ala biləcəyi üç ildən beş ilə kimi olan məktəblər açılmışdır.

Əsgər uşaqları üçün xüsusi məktəblər fəaliyyət göstərirdi. Lakin sadə xalqı nəzərə alaraq, açılan məktəblər olduqca az olduğu üçün onların böyük əksəriyyəti savadsız idi. XVIII əsrin 80-ci illərində Böyük Yekaterina təhsili orta zümrənin arasında yaymaq məqsədilə Rusiyada xalq təhsili sistemi yaratdı. Əvvəlcə Peterburqda, ardınca daha 25 quberniyada iki və dördsinifli xalq məktəbləri açıldı. Bu məktəblər idarə, müəssisələrdə işləyə bilən savadlı adamlar hazırlayırdı. Məktəbləri müəllim kadrları ilə təmin etmək məqsədilə Peterburqda kollec və seminariyalar açıldı. Əsrin sonunda onlar 400 nəfərdən çox müəllim hazırlamışdır. Ancaq kənd yerlərində belə məktəblər mövcud deyildi, kəndlilərin böyük kütləsi təhsildən uzaq idi. Təhsil sistemini Avropa səviyyəsinə qaldırmaq məqsədilə IIYekaterina İvan İvanoviç Betskinin (1704-1795) fransız maarifçilərinin ideyalarından qaynaqlanan qapalı internat tipli məktəblərin açılması ideyasını qəbul etdi. Ayrı-ayrı olaraq zadəganlar, tacirlər və meşşanlar üçün dərslər mədəni dünyanın maarifçi prinsiplərinin əsas xüsusiyyətlərinə dayanaraq cəza və basqısız inandırma yolu ilə tədris edilməli idi. İ.İ.Betski bir sıra tədris müəssisələri üçün nizamnamə və reqlament hazırlamışdır. O, əqli, fiziki və əxlaqi tərbiyəni uzlaşdıraraq uşaqların fərdi xüsusiyyəti və yaşını nəzərə almağı öyrədirdi.

Peterburqda qapalı təhsil məktəbləri açıldı, bir çox yerlərdə isə məktəblər yeni qaydalar əsasında quruldu. Peterburq yaxınlığında meşşanların içərisindən çıxan qızların təhsil alması məqsədilə Nəcib Qızlar İnstitutu (Smolnı İnstitutu) açıldı. Ancaq bütün bunlar kütləvi təhsilin yayılması üçün kifayət deyildi, əsrin axırlarında hətta zadəganlar arasında, xüsusilə əyalətlərdə savadsız adamlar çoxluq təşkil edirdi.

XVIII əsrin sonunda Rusiyada müxtəlif 550 təhsil müəssisəsi mövcud olmuşdur, bunların da 400-ü xalq məktəbləri idi. Bütün təhsil müəssisələrində 60 min nəfərdən çox şagird oxuyurdu ki, bu da təqribən 40 mln. nəfərlik əhalisi olan ölkə müqabilində olduqca kiçicik bir rəqəmdir. Avropa ölkələrində təhsil müəssisləri universitetlər nəzərə alınmadan minlərlə idi.

Ölkənin maarif sisteminin tərkib hissələrindən biri nəşriyyat və kitab çapı işi olmuşdur. Əgər I Pyotrun dövründə 600 adda kitab işıq üzü görmüşdüsə, XVIII əsrin sonuncu rübündə ölkədə artıq 7500 kitab nəşr edilmişdi. Böyük Yekaterina hökuməti ölkədə xüsusi mətbəələrin açılmasına icazə verdi, senzura məhdudiyyəti yumşaldıldı. Nəticədə, kitab, jurnal, qəzet nəşri sürətlə artdı. Moskva, Yaroslavl, hətta, Tobolskda yerli jurnallar meydana gəldi. Kitab, jurnal, qəzet vasitəsilə ictimai fikir formalaşdırıldı, dünyagörüşlərinin mübarizəsi başladı.

XVIII əsrin ikinci yarısında Rusiya elmini fəlsəfə, fizika və tarix şöbələri olan Elmlər Akademiyası təmsil edirdi. Bir tərəfdən Rusiya elmi Avropa elmi

biliklərini əxz edir, başqa bir tərəfdən, çətinliklə olsa da, öz xüsusi elmi potensialını formalaşdırırdı. Bu, Elmlər Akademiyasının fəaliyyətində yaxşı əks olunmuşdu. İlk vaxtlar yalnız xaricdən dəvət edilən dünya miqyasında tanınan alimlər Akademiyanın üzvü ola bilərdi. Tədricən vəziyyət dəyişilmişdir. Akademiyanın rəhbərliyinə çox halda elmi məsələlərlə bağlı deyil, dəftərxana işləri ilə məşğul olan vəzifəpərəst əyanlar təyin edilirdi. Uzun illər Akademiyanın faktiki rəhbəri kobud və məhdud bir adam olan alman Şumaxer olmuşdur. Onun rəhbərliyi dövründə bir çox xarici alim, o cümlədən almanlar Akademiyanı tərk etmişdir. Yalnız Yelizaveta Petrovnanın hakimiyyəti dövründə cəmiyyətin ayrı-ayrı sahələrində almanların hökmüranlığı başa çatdıqdan sonra Akademiyada da vəziyyət dəyişilmişdir. Elmi tədqiqatlar önə çıxmış, alimlər arasında ruslar artmışdır. XVIII əsrin 40-50-ci illərində Akademiyanın fəaliyyətində Mixail Vasilyeviç Lomonosovu aparıcı rolu bərqərar olmuşdur.

1730-cu ilin qışında Arxangelskin yaxınlığındakı Xolmoqordan pomor kəndlisinin 19 yaşlı oğlu Mixail Lomonosov xizəkli yük karvanı ilə Moskvaya gəlmişdir. Oxumaq həvəsilə alışıb-yanan yaşlı şagirdin Slavyan yunan latın Akademiyasına daxil olmaq istəyinə şübhə ilə yanaşşasalar da, sonda onu qəbul etdilər. Tez bir zamanda əzmlə çalışan Lomonosov daha gənc sinif yoldaşlarını arxada qoyaraq təhsilin ibtidai hazırlıq mərhələsini sürətlə başa vuraraq əlaçı tələbələr sırasında Peterburq Elmlər Akademiyasının Universitetinə ezam olundu. Universitetdə təhsili yüksək səviyyədə başa vuran Lomonosovun istedadını qiymətləndirən Böyük Pyotun nüfuzlu tərəfdarları onu dövlət hesabına dağ işi və metallurgiya ürə oxumaq məqsədilə Almaniya Universitetinə göndərdilər. Beş il xaricdə təhsilini davam etdirən Lomonosov hərtərəfli hazırlıqlı bir mütəxəssis kimi Akademiyaya qayıtdı. Əvvəlcə o, fizika professorunun köməkçisi kimi fəaliyyətə başladı. Onun istedadlı və çoxtərəfli qabiliyyət sahibi olması kimya sahəsində tədqiqatlara başlamasına və əldə etdiyi nəticələrə görə kimya professoru, birinci rus akademiki adını almasına səbəb olmuşdur. Lomonosov yeni fiziki kimyanın yaradıcısı olaraq ölkədə birinci kimya laboratoriyasını təşkil etmişdir. Lomonosov maddənin və hərəkətin itməməsi qanununu kəşf etmişdir. Lomonosov tufan hadisələrinin öyrənilməsini izah etdi, ildırım ilə elektrik qığılcımının eyni təbiətə malik olmasını, şimal parıltısının elektrik mənşəyini sübut etdi. Astronomiya elmi sahəsində əvəssiz xidmətləri olan alim ölkədə birinci rəsədxananı təşkil etmişdir. O, Venera planetində atmosferi kəşf etmiş, kainatın həmcins maddədən ibarət olduğu barədə mühüm bir qənaətə gəlmişdir. Lomonosov, eyni zamanda geologiya, mineralogiya, dağ işi, coğrafiya sahəsində mühüm işlərə imza atmışdır. Şimal dəniz yolunun Rusiya üçün əhəmiyyətini əsaslandıran alim gəmiçilik

məsələləri ilə də yaxından məşğul olmuşdur. Heç bir zaman kabinet alimi olmayan M.V.Lomonosov ölkənin təsərrüfatı və hər bir adam üçün mühüm əhəmiyyət kəsb edən tətbiqi elmlər sahəsində bir çox kəşflərə imza atmışdır. Məsələn, adamları atmosfer elektrik qığılcımından və ildırımdan qoruyan ildırım sipəri ideyası ona məxsusdur. O vətən meterologiya elminin banisidir. Həmçinin böyük alim qeyri-şəffaf şüşə alınması üsulunu hazırlayaraq, onlardan mozaika rəsmləri – pannolar düzəltməyə başladı.

M.V.Lomonosov təkcə təbiət elmləri sahəsində deyil, həm də humanitar elmlər sahəsində gördüyü işlərlə əsl dahi olduğunu təsdiq etmişdir. O «Rus qrammatikası» kitabını yazaraq rus ədəbi dilinin formalaşmasına böyük töhfə bəxş etmişdir. Özünü həm də işıqlı tarixçi kimi təsdiq edən alim «Qədim Rusiya tarixi» («Древняя Российская история») əsərində norman nəzəriyyəsini dəf edərək varyaqların skandinav tayfalarına deyil, cənub Baltika slavyanlarına aid olduğunu iddia etmişdir. Məsələ bu gün də norman nəzəriyyəsinin tərəfdarları ilə əleyhdarları arasında müzakirə mövzusu olaraq qalmaqdadır.

XVIII əsrin ikinci yarısında riyaziyyat, təbiətşünaslıq, biologiya, xəritəşünaslıq, tarix elmi də bir çox nailiyyətlər əldə etmişdir. Məsələn, ilk dəfə «Rusiya imperiyasının Atlası» meydana çıxmışdır. Əsrin ortalarında görkəmli dövlət xadimi və tarixçi Vasili Nikitiç Tatişşev «Rusiyanın tarixi» («История Российская») əsərini yaratmışdır. Müəllifin istifadə etdiyi zəngin mənbələr itirildiyi üçün «Tarix» əsəri canlı tarixi mənbədir. Bunun ardınca knyaz Mixail Mixayloviç Şerbatov və hərbi xadim İvan Nikitiç Boltin Rusiya tarixi üzrə öz əsərlərini hazırladılar.

Böyük Yekaterinanın dövründə «Azad iqtisadi cəmiyyət» («Вольное экономическое общество») təsis edilmişdir ki, bu da Rusiya aqronomluq elminin yaranmasını göstərir. Rusiyada texniki biliklər də yayılmışdır. XVIII əsrin ikinci yarısında İvan İvanoviç Polzunov (1728-1766) Altay zavodunda dünyada birinci olaraq buxar maşını yaratmışdır. Elmlər Akademiyasının nijni-novqorodlu ixtiraçı mexaniki İvan Petroviç Kulibin (1735-1818) çaylarda axına qarşı hərəkət edən gəmilər, özüyeriyən minik arabaları, aynalı projektor, saatlar yaratmışdır. Neva üzərində təxminən 300 metr uzunluğu olan birtağlı körpü layihəsi də ona məxsusdur.

Elmi fəaliyyətin mühüm tərkib hissələrindən biri tədqiqat ekspedisiyalarının təşkilidir. Təsadüfü deyil ki, Rusiya imperiyasının zəngin təbii coğrafiası və sərvətləri Böyük Pyotrun hakimiyyəti illərindən başlayaraq Böyük Yekaterinanın imperatriçəliyinin son dövrlərinə kimi hökumətin, məmurların, dəniz səyyahlarının, geoloqların, xəritəşünas alimlərin diqqət mərkəzində dayanmışdır. Danimarkadan gəlmiş kapitan-komandor Vitus Berinq hələ I Pyotrun dövründə

əsası qoyulan ekspedisiya işlərini davam etdirərək 1733-cü ildən 1741-ci il kimi köməkçisi Aleksey İliç Çirikovla birlikdə yeni ekspedisiyaya yola düşdü. Berinq və onun silahdaşları Asiya və Amerikanı bir-birindən ayıran boğazı kəşf edərək ona Berinq adı verdilər. Ekspedisiyanın işi nəticəsində Şimal-Qərbi Amerika kəşf edildi, Kamçatka, Kuril və Aleut adaları, Şimali Yaponiya tədqiq edilərək xəritəyə salındı. Bu vaxtdan rus adamları Amerika qitəsində fəaliyyətə başladılar. Tacir və tədqiqatçı səyyah Qriqori İvanoviç Şelixov (1747-1795) birinci olaraq Alyaskada rus faktoriyasının əsasını qoydu. Eyni zamanda Rusiya-Amerika kompaniyası meydna gəldi.

XVIII əsrin ikinci yarısında Cənubi Sibir, Aşağı Volqaboyu, Ural, Başqırdıstan, Şimali Qafqaz, Krım, Baykal gölünə müxtəlif ekspedisiyalar təşkil edilmişdir. Bu ekspedisiyalara dair məlumatlar Rusiya və xarici ölkələrdə geniş şərh olunurdu.

XVIII əsrin ikici yarısında ədəbiyyat kilsənin nəzarətindən çıxaraq daha dünyəvi məzmun kəsb etmişdir. Böyük Pyotrun dövründə yeni vətəndaş şriftlərinin meydana gəlməsi bu məsələdə əsas rol oynamışdır. Kilsə nitqindən fərqli olaraq, rus ədəbi dili formalaşmışdır. Kilsə-slavyan dili yalnız dini mətin və ayinlərdə istifadə edilirdi. M.V.Lomonosovun «Rusiya qrammatikası» («Русская грамматика»), yazıçı, tarixçi, N.M.Karamzinin ədəbi yaradıcılığı dil islahatına təsir göstərərək gələcək dilin formalaşmasında xüsusi yerə malikdir. XVIII əsrin 80-ci illərinin sonu – 90-cı illərin əvvələrində Rusiyada ilk dəfə altı cildlik rus dili lüğəti çıxdı.

İstedadlı ədəbiyyatçı I Pyotrun xidmətinə keçən moldaviyalı knyaz Antiox Dmitriyeviç Kantemirin yaradıcılığı prozaik və poetik əsərlərdən, qədim və müasir Avropa klassilərinin kitablarının tərcüməsindən ibarətdir. Onun satirik pyesləri çox məşhur idi. Onlar hörmətsizliyi, lovğalığı, zadəgan xurafatını qamçılayır. Klassik əsərlərlə yanaşı, M.V.Lomonosov və Vasili Kirilloviç Trediakovskinin mədhiyyələri (odaları), rus dramının atası, Peterburq teatrının direktoru Aleksandr Petroviç Sumarkovun faciə və komediyaları, publisistikası geniş yayılmışdır. Yakov Borisoviç Knyajninin orta əsr Rusiya həyatından bəhs edən qəhrəmanlıq faciəsi böyük şöhrət qazanmışdır.

Klassik əsərlərlə bərabər sürətlə inkişaf edən rus ədəbiyyatında Qərbdən gələn və sadə kəndli, şəhərlinin daxili aləminə marağı, hissini izah edən yeni üslub – sentimentallıq meydana gəlmişdir. Yeni üslubun parlaq nümayəndəsi yazıçı Nikolay Mixayloviç Karamzin, onun adi qızın faciə ilə bitən məhəbbət hisslərindən bəhs edən «Yoxsul Liza» («Бедная Лиза») povesti idi. Yazıçının «Rus səyahətçisinin məktubu» («Письмо русского путешественника») əsəri Avropa səfərindən sonra qələmə alınmış və bütün ölkədə sevilə-sevilə oxun-

muşdur. Kitabda Avropa və Rusiyanın tarixi yolunu müqayisə edən müəllif insanı və humanizm dəyərlərini təbliğ edir.

XVIII əsrin başa çatmaq üzrə olduğu bir vaxtda rus ədəbiyyatında realizm meydana çıxmağa başladı. Qavril Romanoviç Dejavinin əsərlərində, Denis İvanoviç Fonvizinin pyeslərində realizm motivləri diqqəti cəlb edir. Onun «Nadan» («Недоросль») komediyası heç bir yenilik, tərəqqini qəbul etməyən, təhkimçilik və öz üstünlüklərindən sıx yapışan zadəganları qırmaclayır.

Rus ədəbiyyatının ayrılmaz bir tərkib hissəsini xalq yaradıcılığı təşkil edir. XVIII əsrin ikinci yarısında hadisə və xalq qəhrəmanları folklor ədəbiyyatının ana xəttini təşkil edir. Məsələn, Yemelyan Puqaçov və Salavat Yulayev haqqındakı qəhrəmanlıq süjetləri geniş miqyasa yayılmışdır. Xalq içərisində geniş yayılmış «Xolopun cəlladı» («Плач холопов») sadə adamların təhkimçilik hüququna nifrətini ifadə edir.

XVIII əsrin ikinci yarısında Rusiyanın çoxlu böyük şəhərlərini bəzəyən memarlıq abidələri yaranmışdır. Peterburq ətrafında əslən italiyalı olan görkəmli memar Varfolomey Rastrelli (1700-1771) əzəmətli saray ansamblları – Peterqofda Böyük Saray, Sarskoe Selodakı Yekaterina sarayını yaratmışdır. Neva sahilində Qış sarayı, Stroqanovlar və Vorontsovlar sarayları, Smolnı monastrının binası onun adı ilə bağlıdır. V.Rastrellinin yaradıcılığı üçün barokko üsulu, binaların dəbdəbəli və əzəmətli olması, dekorativ bəzəklərin zənginliyi, ayrı-ayrı hissələrin mütənasibliyi, sütunların ahəngdarlığında özünün göstərir.

Paytaxt memarlığında imzası olan sənətkarlardan biri də klassik üslubda yaradıcılıqla məşğul olan II Yekaterinanın şotlandiyalı saray memarı Çarlz Komeron olmuşdur. Peterburq ətrafındakı Pavlovski sarayı və park ansamblları, Sarskoe Selodakı «Kameron qalereyası» onun adı ilə bağlıdır.

İstedadlı memar Vasili İvanoviç Bajenov (1737-1799) kilsə xadimi ailəsində doğulmuş, Moskva Universitetində memar Dmitri Vasilyeviç Uxtomskinin tələbəsi olmuş, Bədii Akademiyanı bitirdikdən sonra Roma və Parisdə təhsilini başa vurub Rusiyaya qayıtmışdır. Moskvada Kremllə üzbəüz təpənin üstündə zəngin zavod sahibi Paşkovun evini (indi Dövlət Kitabxanasını) dahi memar tikmişdir. Paşkovun evi memarlıq formalarının yüngüllüyü və ahəngdarlığı ilə fərqlənir. V.İ.Bajenov Roma Akademiyasının professoru, Boloniya və Florensiya akademiyalarının həqiqi üzvü seçilmişdir.

Klassik memarlıq ideyalarını təcəssüm etdirən, memarlıq formalarının sadəliyi və ciddiliyinə, bəzəkli və naxışlı barokko memarlığından fərqli olaraq, binanın xarici tərtibatında ciddiliyə səy göstərən memarlardan biri də Matvey Fyodoroviç Kazakov (1738-1812) olmuşdur. Dəftərxanaçı oğlu olan Kazakov Moskva Universitetinin köhnə binasını, Qolitsın xəstəxanasının (indi 1-ci

şəhər xəstəxanası), «Zadəgan yığıncağı» (indi İttifaqlar evinin sütunlu zalı) binalarını ucaltmışdır.

XVIII əsrin ikinci yarısında rus memarlığının tanınmış nümayəndələrindən biri də Q.A.Potyomkinin Tavrida sarayını və Troitski baş kilsəsi Aleksandr-Nevsk lavrın tikən İvan Yevgenyeviç Starovdur. Yalnız mərkəzi saray və kilsələr deyil, əyalətlərdə geniş malikanə tikintisinə də yer verilmişdir. Ağac sənəti də incəsənətin tərkib hissəsi kimi inkişaf etmişdir. Məsələn, rus ustaları P.İ.Arqunov, Q.Y.Dikuşin, A.F.Mironov Ostankinoda Şeremetev sarayını tikmişdir.

Dünyəvi mədəniyyətin rolunun durmadan artması XVIII əsrin ikinci yarısında boyakarlığın tərəqqisində əksini tapmışdır. Portret boyakarlığının görkəmli nümayəndələri əsgər oğlu Aleksey Petroviç Antropov, Şeremetevin təhkimli rəssamı İvan Petroviç Arqunov, təhkimli kəndli Fyodor Stepanoviç Rokotov, Ukraynadan olan Dmitri Qriqoryeviç Levitski, Vladimir Lukiç Borovikovski rus hökmdarları, əyanlar, dövlət xadimləri, sərkərdələrin portretlərini çəkmişdir.

XVIII əsrin ikinci yarısında rus heykəltəraşlığı memarlıq ansamblarının ayrılmaz hissəsini təşkil etmişdir. 1775-ci ildə II Yekaterinanın göstərişi ilə fransız heykəltəraşı Etyen Moris Falkon I Pyotra həsr edilmiş «Mis atlı» («Медный всадник») heykəlini ucaltmışdır. Heykəltəraş İvan Petroviç Martos Moskvada Minin və Pojarski abidəsini hazırlamışdır.

Lomonosovun yerlisi və cavan dostu Fyodor İvanoviç Şubin (1740-1806) portret heykəltəraşlığında insan fərdiyyətçiliyinin dərin ifadəçisi idi. Pomor kəndlisinin oğlu olan Şubin Lomonosovun köməyi ilə təhsil almaq məqsədilə Peterburq Rəssamlıq Akademiyasına daxil olmuş, buranı bitirdikdən sonra təhsilini Paris və Romada davam etdirmişdir. Şubin II Yekaterina, I Pavel, Lomonosov, Rumyantsev, Suvorov, Potyomkinin büstlərini hazırlamışdır.

XVIII əsrin ikinci yarısında teatr cəmiyyətin mədəni həyatına daxil olmağa başlamışdır. «Rus teatrının atası» Fyodor Qriqoryeviç Volkov (1729-1763) Kostroma şəhərində tacir ailəsində doğulmuş birinci rus aktyoru kimi Yaroslavl milli teatrında fəaliyyətə başlamışdır. Volkov və onun truppası Peterburqa dəvət edilərək ilk peşəkar teatrın əsasını qoydular. Tezliklə ölkənin digər şəhərlərində, o cümlədən Kazan, Tambov, Voronej, Nijni Novqorod, Tobolskda da teatrlar meydana gəlmişdir.

Musiqi sahəsində səyyar opera və balet truppalarının konsertləri ilə bərabər yerli istedadlı rus musiqiçiləri meydana çıxmışdır. Görkəmli skripkaçı və bəstəkar İvan Yevstafyeviç Xandoşkinin musiqisi bu gün də ifa edilir. Ukraynalı bəstəkar Dmitri Stepanoviç Bortnyanskinin kilsə xoralları (xor şəklində oxunan dua) xüsusilə geniş şöhrət qazanmışdır.

XVIII əsrin ikinci yarısında Rusiyada 25-30 min əhalisi olan şəhərlər Peterburq, Moskva, Riqa, Həştərxan, Yaroslavl və Nijni Novqoroddan ibarət idi. 33 şəhərin 3-8 min, 21 şəhərin 10 min, 12 şəhərin 12-dən 30 minə kimi əhalisi var idi. Rusiya şəhərlərinin yarısı kiçik şəhərlər idi ki, onların da əhalisi 500 nəfərdən çox olmurdu.

Düz xətt üzrə əvvəlcədən təsdiq edilən plan əsasında yalnız daşdan tikilən Peterburq, onun prospekt və küçələri şahmat qaydasında nəzərdə tutulmuşdur. XVIII əsrdə burada küçələr dördtin daşdan döşənmişdir. II Yekaterinanın göstərişi ilə Nevanın sahilləri mərmərdən işlənmişdi. Kanallar çəkilir, körpülər tikilir, park və bağlar salınırdı. XVIII əsrin ikinci yarısında Neva prospektində, kanal və çayların Nevaya töküldüyü yol boyu əyanların təmtəraqlı sarayları tikimişdir. Qolitsın, Şeremetev, Stroqanovların sarayları iki əsr yarımdır Şimal paytaxtını bəzəyir. Admirallığın yeni binası, Petropavlovsk qala ansamblı, hökumət binaları, Qış sarayı, Ermitajla birlikdə onlar Peterburqa yeni – Avropa Rusiyası mənzərəsi, rəmzi bəxş edir.

XVIII əsrin sonlarında kübar salonların fəaliyyəti geniş yayılmışdı. Burada fransız dilində siyasət, ədəbiyyat haqqında mübahisələr qızışırdı. Rus ədəbiyyatı biliciləri savadlarını nümayiş etdirir, dövlət məmurları nəzəri baxışlarını təkmilləşdirir, rütbəcə aşağı olanlar sərfəli tanışlıq axtarırdılar. Varlı tacirlərin və məmurların evləri nisbətən sadə olsa da, burada da müasir memarlıq ünsürlərindən geniş istifadə olunurdu.

Moskva da dəyişilmişdi. Peterburqdakı parıltı və dəbdəbə olmasa da, küçələr düzəldilərək qaydaya salınır, qarmaqarışıq tikililər nizamlanırdı. Gecələr şəhərdə çətənə yağı ilə işıqlandırma fənərləri yanırdı. Şəhərin mərkəzi Peterburqda olduğu kimi daşdan deyil, dördtin ağacdan döşənmişdir. XVIII əsrin sonlarında Peterburq və Moskvada ilk su xətti salındı. Bu yalnız seçilmiş adamlar üçün nəzərdə tutulmuşdu, hər iki paytaxtın və ölkə əhalisinin qalan hissəsi quyulardan və ya yaxınlıqdakı su mənbəindən istifadə edirdilər. Şəhər hakimiyyəti şəhərlilərin gigiyena və səhiyyə məsələlərinə diqqət ayırırdı. Bir çox şəhərlərdə ictimai hamamlar meydana gəldi. Əsrin sonunda Moskvada onların sayı 70-ə çatırdı. Varlı şəhərlilərin isə xüsusi hamamları olurdu.

XVIII əsrdə Rusiyada ilk dəfə şəhər xəstəxanaları açıldı. Tibb heyəti hospital və tibbi-cərrahiyyə məktəblərində hazırlanırdı. Əsrin sonunda ölkədə əhali üçün vahid tibbi idarə sistemi bərqərar oldu. Hər bir quberniyada bir həkim, qəzada isə feldşer tibbi xidmət göstərirdi. Bəzi yerlərdə apteklər açılsa da, bu çox az miqdarda idi.

Quberniya şəhərlərinin də görünüşü dəyişilmişdir. Mərkəzdə zadəgan və tacirlərin daş evləri ucalırdı. Belə varlı evlər bəzən mərkəzi malikanələrdən

geri qalmırdı. Meşşanların bir və yaxud ikimərtəbəli daş evləri salınırdı. Orta tacirlər, kiçik zadəganlar, məmurların evlərinin birinci mərtəbəsi daşdan, ikinci mərtəbə ağacdan olurdu. Şəhərlərin mərkəzlərindən kənarda çirkli küçələri olan birmərtəbəli ağac evlər, zorla işıq düşən pəncərələri olan kiçik otaqlar daha çox idi. Küçələrdə mal-qara saxlayan sakinlərin donuz, keçi, qazları dolaşırdı. Kiçik tacirlər, yoxsul sənətkarlar, manufakturalarda işləyən adamlar belə vəziyyətdə yaşayırdılar. Kiçik Rusiya şəhərləri böyük kəndlər kimi iki-üç daş evdən, başqa ağac evlərdən ibarətdi. Şəhər kənarında yerli manufakturalarda çalmağa gələn işçilərin barakları olurdu ki, burada da çirkab, havasızlıq, sıxlıq hökm sürürdü. Belə baraklarda bir neçə onlarla adam, hətta ailələr bir yerdə yaşayırdı.

Rusiya həyatının böyük bir hissəsi böyük və kiçik kəndlər, kənd əhalisi şəhər mədəniyyətindən kənarda qalmışdır. Zadəganların azadlığı fərmanı və bəxş edilən qramotadan sonra dövlət, hərbi qulluqdan azad olan zadəganlar daimi olaraq kəndlərdə yaşamağa başladılar. Yalnız onların ən varlı hissəsi qışda mərkəzi şəhərlərdə olan evlərinə köçərək ailələri ilə birlikdə şəhər ballarında iştirak edirdilər. Qalan zadəganlar isə kəndlərdə yaşayaraq kəndlilərlə çiyin-çiyinə xalq mədəniyyətini, adət və ənənəsini davam etdirirdilər. Adətən onların böyük əksəriyyəti savadsız və azsavadlı idi. Zaman keçdikcə nisbətən savadlı və təhsilli zadəganların malikanələri mədəni mərkəzlərə çevrilir, bura yığışan əyalətin mədəni hissəsi musiqiyə qulaq asır, siyasi yenilikləri müzakirə edir, son çıxan jurnalları nəzərdən keçirirdilər. Kəndlilərin böyük hissəsi ölkədəki məişətdə baş verən yeniliklərdən uzaq olaraq köhnə qaydada çalışır və yaşayırdılar. Səhərdən axşama kimi milyonlarla kəndli ya ağa torpağında, ya öz desyatin sahəsində çalışırdı. Onların koması qara hisli peçlərdən, soyuqda taxta parçası ilə qapadılan pəncərədən ibarət idi. Yalnız XVIII əsrin ikinci yarısından mərkəzi Rusiyanın kəndli evlərində ağac döşəmə, dam örtüyü, «ağ tüstü», yəni tüstü borusu meydana gəlmişdir. Ailə divar boyu yerləşən skamyanın və ümumi stolun ətrafında əyləşərək atanın işarəsilə taxta qaşıqla ümumi qabdan növbə ilə yemək yeyirdilər. Qırmızı küncdə ikona asılı olurdu. Ailə üzvləri skamyanın üzərində yatır, qış vaxtı yeni doğulan heyvanlar da onlarla bir yerdə olurdu. Kəndlərdə həkim, feldşer olmurdu, xəstələri yerli «ara həkimlər» otlarla müalicə edirdi. Odur ki, tez-tez epidemiyalar baş verir, insanlar həyatını itirirdi. Xüsusilə doğuş vaxtı uşaq ölümü yüksək dərəcədə olmuşdur. Rusiyanın çoxsaylı xalqları yaşayış, geyim, məişətdə öz adət və ənənələrini qoruyub saxlamışdır.

# XII FƏSİL
# RUSİYA İMPERİYASI XIX ƏSRİN I YARISINDA

## §1. Rusiya XIX əsrin əvvəllərində

XIX əsrin əvvəllərində Rusiya imperiyası Avropanın ən böyük və qüdrətli dövlətlərindən birinə çevrilmişdi. Rusiyanın sərhədləri Karpat dağlarından, Avstriya imperiyası və Prussiya sərhədlərindən Kamçatkaya, Sakit okeanın sahillərinə, Ağ dəniz və Şimal Buzlu okeanından Krım sahilləri və Qafqaz dağlarına kimi uzanırdı. Rusiya demək olar ki, Qədim rus dövlətinin bütün torpaqlarını, Litvanı, Polşa torpaqlarını, Baltik sahillərinin böyük bir hissəsini öz tərkibinə birləşdirmişdir. Rusiyanın tərkibinə daşdan tikilmiş iri şəhərlər, inkişaf etmiş manufaktura sənayesi, tərsanələri, Mərkəzi və Şimali Avropa ilə sıx əlaqələri olan limanlar daxil edilmişdir. Sibirin Çin sərhədlərinə qədər Amur boyu uzanan ucsuz-bucaqsız əraziləri də Rusiyaya məxsus idi.

Rusiya imperiyasının yeni sərhədləri daxilində demək olar ki, 44 mln. nəfərə yaxın əhali yaşayırdı. Sıx əhalisi olan Polşa, Litva, Baltikyanı, Ukrayna, Belorus torpaqları da imperiyanın tərkib hissəsini təşkil edirdi. Burada məskunlaşan əhalinin təhsil və mədəni səviyyəsi xüsusilə Baltikyanı, Litva, keçmiş Polşa ərazilərində daha yüksək idi. Bu Rusiyanın ümumi mədəni yüksəlişinə əhəmiyyətli təsir göstərmişdir.

Rusiya imperiyasının özünəməxsus xüsusiyyətlərindən biri əhalinin çoxmillətli tərkibə malik olmasıdır. Əvvəlki Volqaboyu, Uralətrafı, Şimal, Sibir, Uzaq Şərq xalqlarına XIX əsrin əvvəllərində Qərbi Rusiya quberniyası sakinləri, Novorossiya və Volqaya köçən xarici, xüsusilə alman kolonistləri əlavə olmuşdur. Eyni zamanda Rusiya pravoslav, katolik, protestant, müsəlman, buddizm, Şimal, Sibir, Uzaq Şərqin bəzi xalqları arasında bütpərəstliyin mövcud olduğu çoxkonfessiyalı ölkə idi. Xalqların qarşılıqlı əlaqə və təsiri onların dəyişik istehsalat fəaliyyətinə, çoxmillətli mədəni dəyərlərin püxtələşərək Rusiya mühitində xalqların beynəlmiləlçiliyinə zəmin hazırlamışdır.

Rusiya on min nəfərlərlə əhalisi olan böyük şəhərləri ilə seçilirdi. Sankt-Peterburq, Moskva, Riqa, Vilno, Nijni Novqorod, Tobolsk və b. belə şəhərlərdir. Ölkə şəhərləri, xüsusilə iki paytaxt miqyasına, xüsusi və ictimai binaların, məbədlərin gözəlliyilə fərqlənirdi.

XIX əsrin birinci yarısında Rusiya ən iri sənaye və ticarət ölkələrindən birinə çevrilmişdir. Əvvəllər olduğu kimi Uralın metallurgiya, dağ-filiz işləri,

Tulanın metal rayonları nəhəng sənaye mərkəzləri kimi fəaliyyət göstərirdi. Ölkənin aparıcı şəhərlərində müxtəlif profilli iri manufakturalar işləyirdi. İmperiyanın sənayesinə zadəgan manufakturaları da öz töhfəsini vermişdir. XIX əsrin əvvəllərində ölkənin sənaye tərəqqisində önəmli yer tutan fəhlə və ustaların azad muzdlu əməyinin tətbiqi Rusiya sənayesinin əhəmiyyətli və ayrılmaz bir hissəsi olmuşdur. Xüsusilə azad muzdlu əməyin tətbiq olunduğu toxuculuq sahəsi daha sürətlə inkişaf edirdi. Tədricən Rusiya Avropanın dövlət nəzarətindən azad olan sənaye ölkələri ilə bir sırada duraraq muzdlu əməyə və yeni texnikaya əsaslanan azad sahibkarlığın faydasını hiss edən müxtəlif təbəqələrin arasından çıxan tacir, meşşan, varlanmış kəndli, keçmiş hərbçi, hətta zadəganlarla işləri davam etdirirdi. Məhz onlar formalaşan orta sinfin, burjuaziya sahibkarların əsas hissəsinə çevrildi.

XIX əsrin əvvəllərində Rusiya ticarəti Baltik və Qara dəniz portları vasitəsilə inkişaf etmişdir. Bu işdə Şərqlə ənənəvi əlaqəsi olan Həştərxan, Orenburq, Tobolsk kimi şəhərlər önəmli mövqeyə malik idi. Rusiyanın qüdrətli imperiyaya çevrilməsi daxili bazarın inkişafına şərait yaratdı. Regionların iqtisadi cəhətdən fərqli xüsusiyyətləri onlar arasında məhsul mübadiləsini gücləndirməyi tələb edirdi. Ölkənin əvvəlki əkinçiliklə məşğul olan cənub və sənaye, sənətkarlıqla tanınan şimal rayonlarına yeni regionlar – məskunlaşmış Novorossiya, Krım, Şimali Sibir, Şimali Qafqaz, sənaye cəhətdən inkişaf etmiş Baltikyanı torpaqlar əlavə edilmişdir. Yeni regionların hamısı öz xüsusiyyət və tələbatları nəzərə alınmaqla əvvəlki daxili gömrük sədlərindən azad olaraq mərkəzləşmiş vahid, unitar dövlətə cəlb olunmuşdur. İldən-ilə ölkədə yarmarkalar geniş miqyas almışdır ki, onlar arasında da xüsusilə Nijni Novqoroddakı Makaryev yarmarkası aparıcı yerə malikdir. XIX əsrin əvvəllərində qurulan Mariinsk və Tixvinsk su sistemi özünün kanal və su bəndlərilə ölkənin cənub rayonları arasında sıx əlaqə yaradaraq Volqa-Oka hövzəsini Şimalla, Baltik sahillərinə birləşdirdi.

XIX əsrin əvvəllərində zadəganlara, yeni formalaşan burjuaziyaya – iri sahibkarlara, tacirlərə arxalanan mütləqiyyət ölkədə vəziyyəti sabitləşdirərək mərkəzi və yerli idarəçilik, mədəniyyət və maarif sahəsində bir çox mühüm islahatlar keçirdi. Ölkənin idarəçilik sistemi və hərbi rəhbərlikdə illər boyu püxtələşən savadlı və vətənpərvər əhvali-ruhiyyəli kadrlar meydana gəldi ki, onlar da həyatlarının məqsədini ilk növbədə vətənpərvərlikdə və Rusiyanın maraqlarında görürdülər. Rusiyanın sərt mərkəzləşmiş idarəçilik aparatı nəticə etibarilə, Rusiya hökmdarlarının mütləq hakimiyyəti belə rəhbər və sərkərdələrin çiyinləri üzərində dayanmışdı.

Böyük Rusiya imperiyası qüdrətli hərbi orduya sahib idi. Qalib rus ordusu Dunayı keçib Balkanlarda hərəkət etmiş, döyüşə-döyüşə Baltikyanı ərazilərdən

şərqi alman torpaqları ilə irəliləyərək Berlinə sahib olmuş, Rusiya bayrağını bütün İtaliya və İsveçrədə dalğalandırmışdır. Bu Saltıkov və Rumyantsev, Potyomkin və Suvorov orduları idi. Məğlubiyyətin nə olduğunu bilməyən Baltik və Qara dəniz donanmaları Spiridov və Uşakovun komandanlığı altında İsveç, türk və fransız dəniz qüvvələrini darmadağın etmişdir.

Ancaq XIX əsrin əvvəllərində Rusiya imperiyası böyük dövlət kimi güc və say göstəricilərinə görə fərqlənirdi. Çox böyük ərazisi, milyonlarla əhalisi, qüvvətli hərbi sənayesi, güclü mərkəzləşmiş hakimiyyəti, əla ordusu olmasına baxmayaraq, Avropa mədəniyyətinin müasir inkişafı nöqteyi-nəzərindən bu səviyyə dünənki gün idi. Avropanın qabaqcıl ölkələri, xüsusilə İngiltərə və Fransa özünün böyük dövlət statusunu başqa xüsusiyyətlərinə görə qazanmışdı. Bu ölkələrin iqtisadi və hərbi qüdrəti vətəndaş cəmiyyətinin inkişafına, insan şəxsiyətinin hüquq və azadlıqlarına, müasir siyasi konstitusiya və parlament institutlarına əsaslanmışdır. Özünün demokratik institutları ilə burjuaziya cəmiyyətinin bərqərar olması və şəxsiyyətin, dövlətin, cəmiyyətin, diqqət mərkəzində yer alması geri dönüşü olmayan bir prosesə çevrilmişdir. Vaxtı ilə intibah, reformasiya, maarifçlik mərhələlərini keçən Avropa indi inqilab, müharibə, qan və iztirab içərisindən keçərək yavaş-yavaş vətəndaş cəmiyyətinə doğru irəliləyirdi.

XIX əsrin əvvəllərində Rusiyada dövlətin əsası mütləq monarxiya quruluşu olaraq qalırdı. XIX əsrin ilk rübündə dövlət xadimi olan M.M.Speranskinin yazdığına görə, əvvəllər olduğu kimi, Rusiyada yalnız filosoflar və yoxsullar azad idi. Hər şey və hamı hökmdarın qarşısında baş əyirdi. Rusiyadakı bürokratik idarə üsulu yeni əsrin əvvəllərində daha da möhkəmlənmişdir. Hələ prikazlar və dyaklar dövrünün yedizdirmə ənənəsindən qaynaqlanan ali vəzifə sahibi qarşısında qul kimi əyilmək, aşağı olanların alçaldılması, insana alçaq nəzərlə, hörmətsiz yanaşılması hökm sürürdü. Rusiya bürokratlarının bu xüsusiyyəti onları avropalı məmurlardan çox fərqləndirirdi. Onlar Rusiya hökmdarlarının mütləq hakimiyyətinin dayağına çevrilərək Rusiya dövlətçiliyinin mədəni səviyyəsini müəyyən edirdilər. Qoqolun «Müfəttiş» («Ревизор») əsərindəki personaj onların xarakterik xüsusiyyətlərinin parlaq bədii təsviridir.

Orta əsr qaydalarına uyğun olaraq, Rusiyada silki quruluş qalırdı. Özündə müxtəlif silkləri əhatə edən orta sinif meydana gəlmişdi. Yeni formalaşan azad muzdlu fəhlələrin də tərkibi müxtəlif olmuşdur. Cədvələ uyğun olaraq, zadəganlar ancaq onlara məxsus olan rütbə xüsusiyyətlərini itirmişdir. Zadəganlar, tacirlər, ruhanilər və kəndlilər çox halda bağlı, xüsusiləşmiş korporasiya olaraq öz hüquq və vəzifələrini təsbit etmişdir. Əvvəllər olduğu kimi, zadəganlar, ruhanilər, sahibkarların böyük əksəriyyəti, iri tacirlər dövlətin vergi təzyiqindən kənarda

qalmışdı. Dövlət idarəçilik sistemi, cəmiyyətin mədəni və ziyalı üst təbəqəsi bu silklərin nümayəndələrindən formalaşmışdır. Ölkədə təhkimçilik sistemi hökm sürürdü. Otuz milyon nəfər kəndlinin yarısı təhkimli idi. I Pavelin kəndlilərin həftədə yalnız üç gün ağa təsərrüfatında biyar işləməsinə dair fərman verməsinə baxmayaraq, zadəganlar onları beş gün işləməyə məcbur edirdi ki, bu isə təhkimli əməyinin, mülkədar təsərrüfatının məhsuldarlığını aşağı salırdı. Saysız-hesabsız məhdudiyyətlər, zümrə ayrı-seçkiliyi dövlət kəndlilərinin də vəziyyətinə pis təsir edirdi. Mövsümçü kəndlilər aqrar sahədəki işlərin azad və dinamik olmasına kömək etsələr də, onların az bir hissəsi varlı və azad adam ola bilirdi. Ona görə ki, Rusiyanın ağır sənayesi əsasən, azad olmayan «qeyd edilmiş» və «posession» kəndlilərin hesabına fəaliyyət göstərirdi. Zadəgan manufakturaları, şərab-tütün zavodları da öz təhkimli işçilərinin əməyindən istifadə edirdi. Bütün bunlar o deməkdir ki, ölkənin əmək ehtiyatlarının əhəmiyyətli bir hissəsi torpaqla, kəndlə bağlı olmuşdur. Mövsümü işlərlə məşğul olan kəndlilər yalnız öz ağalarının və ya kənd hakimiyyətinin razılığı ilə mülkədar yaxud dövlətə haqq ödəməklə yenə azad olmayan işçi sifətini daşıyırdılar. Praktik olaraq Rusiya iqtisadiyyatını yeni səviyyəyə çıxarabilən peşəkar fəhlə sülaləsindən olan işçilər olduqca az idi. Təhkimli, dövlət və digər kəndlilərin həyatı tarixin qədim zamanlarından gələn, Avropa ölkələrində çoxdan unudulan qayda-qanun, ənənənin mövcud olduğu kəndli icmaları vasitəsilə idarə edilirdi. Onun mövcudluğu Rusiyanın siyasi və iqtisadi səviyyəsiyə uyğun olub ölkə həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Şəhərlərə, zavod və manufakturalara gələn mövsümi kəndlilər burada da kənd icması mühiti yaradırdılar. Bu şəraitdə Rusiyanın kənd təsərrüfatı və sənayesi burjua quruluşuna keçən dövlətlərdən geri qalmağa məhkum idi.

Rusiyanın ərazi xüsusiyyətilə bağlı vəziyyət mürəkkəb olaraq qalırdı. Ölkənin mədəni inkişafının göstəricilərindən biri əhalinin sıxlığıdır. Avropada hər kv.verst əraziyə 40-50 nəfər əhali düşdüyü müqabilində Rusiyanın mərkəzi quberniyalarında 8, cənub, şimal-şərq, şərq quberniyalarında 7, bəzən daha az əhali düşürdü. Rusiyanın tərkibinə daxil edilən Şimali Qafqazın, Qazaxıstanın bəzi əraziləri, Aşağı Volqa ətrafı, Sibir inkişaf etmiş Baltikyanı, Qərbi Ukrayna və Qərbi Belorusiyadan fərqli olaraq ölkənin ümumi mədəni inkişafına mane olaraq bu yerlərin sakinləri qəbilə-tayfa münasibətləri səviyyəsində yaşayaraq əsasən, ovçuluq, köçəri maldarlıqla məşğul olurdular. «Avroasiya oxu» hesabına Rusiya getdikcə daha çox Şərqə meyil edirdi. Novorossiya və Krımın mənimsənilməsi də, burada yeni şəhər, liman, tərsanənin, Qara dəniz donanmasının qurulması ölkəyə böyük xərc, gərgin əmək hesabına başa gəlmişdir. Ölkənin iqtisadi, mədəni, mənəvi həyatında mühüm yer tutan böyük şəhərlərin

sakinləri Rusiya əhalisinin cəmi təqribən yeddi faizini təşkil edirdi. Rusiyadakı şəhərlərin böyük əksəriyyəti kiçik şəhərlər idi.

Beləliklə, XIX əsrin əvvəllərində Rusiya iqtisadiyyatında irəliyə doğru hərəkət hiss edilsə də, Qərbi Avropa dövlətlərinin coşqun iqtisadi tərəqqisilə müqayisədə sürət ləng və aşağı olmuşdur. Təhkimçilik hüququ ölkənin inkişafını ləngidirdi.

1801-ci il martın 11-dən 12-nə keçən gecə Rusiyada baş tutan sonuncu saray çevrilişi nəticəsində I Aleksandr (1801-1825) hakimiyyətə sahib oldu. Yeni hökmdar hakimiyyətinin birinci illərində Rusiya cəmiyyətini liberallaşdırmaq sahəsində bir sıra tədbirlər həyata keçirmişdir. Siyasi səbəblərlə Petropavlov, Şlisselburq qalalarında, Sibir sürgünündə və monastrlarda cəza çəkən min nəfərdən çox adam əfv edilərək azad olundu. Xidməti vəzifəsindən azad edilən 12 min nəfər yenidən işinə qaytarıldı. Hindistana göndərilən rus ordusu geri çağırıldı. Əlahəzrət çarın təhqir edilməsi, hökmdar və dövlətə xəyanətlə bağlı mühüm siyasi axtarış institutlarından biri olan Gizli dəftərxana ləğv edildi. 1801-ci ilin payızında I Aleksandr xüsusi fərmanla işgəncə verilməsini qadağan etdi, senzuranı yumşaltdı, Rusiya əhalisi üçün Pavelin qoyduğu paltar və digər qaydalar məhdudiyyətini aradan qaldırdı. Hökmdar I Pavelin məhdudlaşdırdığı Yekaterina dövrünün sənədləri olan şəhər nizamnaməsi və zadəganların imtiyaz qramotasını bərpa etdi. İmtiyaz qramotasında zadəganlara verilən bütün hüquqlar bərpa olundu, belə ki, onlara bədən işgəncəsi tətbiq etmək olmazdı, ordu polklarının əvvəlki adları, rus hərbi forması yenidən həyata vəsiqə qazandı.

I Aleksandr zadəganlar üçün həssas bir məsələ olan təhkimli kəndlilərin də vəziyyətinə toxunaraq 1801-ci il dekabrın 12-də imzaladığı fərmanla torpaq almaq hüququnu tacir, meşşan, dövlət kəndliləri və azadlığa buraxılmış təhkimlilərə də şamil etmişdir. Bu fərmanla zadəganların torpaq üzərində inhisarı pozulmuş oldu. 1803-cü il fevralın 20-də «Azad taxılçılar haqqında» yeni fərman elan olundu. Sənədə əsasən, təhkimli kəndlilər ağalarının razılığı ilə bütün kənd torpaqları ilə birlikdə azadlıqala bilərdilər. Eyni zamanda I Aleksandr I Pyotrun dövründən başlayaraq II Yekaterianın zamanı hədsiz dərəcədə çox yayılmış dövlət kəndlilərini xüsusi mülkiyyətə verilməsi təcrübəsini ləğv etdi.

I Aleksandrın daxili siyasətindən bəhs edilərkən təhsil sahəsindəki işləri qeyd etməmək mümkün deyil. Hökumət Peterburq, Derpt, Kazan, Xarkovda yeni universitetlər açdı. Bir sıra şəhərlərdə gimnaziya və qəza məktəbləri fəaliyyətə başladı. Görkəmli yazıçı və tarixçi N.M.Karamzin tarixşünas adı alaraq Vətən tarixi yaratmaq fəaliyyətində həvəsləndirildi.

I Aleksandr tərəfindən dörd il yarım – 1805-ci ilin payızına kimi fəaliyyət göstərən «Məxfi komitə»nin («Негласный комитет») təşkil edilməsi onun liberal fəaliyyətinə ən parlaq misaldır. I Pavelin hakimiyyəti dövründə taxtın varisi ətrafına sədaqətli gənc dostların yığılaraq onlarla Rusiyadakı hakimiyyətin eybəcərliklərindən, cəmiyyətin əsaslı surətdə yenidən qurulması zərurətindən söhbət edirdi. Qiyamçı polyak əsilzadəsi, Kostyuşko üsyanında iştirak etdiyi üçün həbs edilərək Rusiyada nəzarət altına alınaraq sonradan əfv edilən A.Çartorıysk, Fransadakı inqilabi hadisələrin qanunauyğunluğunu qəbul edərək 1792-ci ildə Rusiyaya dönən varlı əsilzadə qraf V.P.Koçubəy, Fransada olan və inqilabın birinci mərhələsini rəğbətlə qarşılayan Yekaterina dövrü əyanının oğlu qraf P.A.Stroqanov, yüksək təhsil və savada malik, Fransa inqilabi hadisələrilə tanış olan nisbətən yaşlı knyaz N.N.Novosiltsev varisin ətrafındakı dərnəyin iştirakçıları olmuşdur. Söhbət, müzakirə və görüşlərdən xəbər tutan I Pavel dərnəyi dağıtsa da, I Aleksandr hakimiyətə sahib olduqdan sonra dostlar yüksək dövlət vəzifələri alaraq yenidən hökmdarın kabinetində yığışaraq Rusiyadakı gələcək islahatların layihələrini müzakirə etməyə başladılar.

«Məxvi komitə» üzvlərinin yazdıqlarına görə imperator bu islahatların mərkəzində şəxsiyyət və xüsusi mülkiyyət azadlığını, adamların qanunla müdafiə edilməsini nəzərdə tuturdu. Müzakirə edilən problemlər içərisində təhkimçilik hüququ, onun iqtisadi tələbata əsasən ləğv edilməsinin başa düşülməsi kimi fikirlər də ifadə edilmişdir. Hətta kəndlilərin torpaqsız satılmasını qadağan edən fərmanın belə hazırlanmasından söhbət gedirdi. Ancaq bundan xəbər tutan yüksək mənsəb sahibləri qəti etiraz edərək belə bir addımın təhkimçilik hüququnu sarsıdacağını bəyan etdilər. İmperator etirazlar qarşısında çəkinərək geri addım atdı. Tezliklə komitə üzvləri öz planları ilə real həyat arasında uzaq bir məsafə olduğunu qəbul etməli oldular. Onlarda belə bir qənaət hasil oldu ki, xüsusilə təhkimçilik məsələsinin ləğvi mövcud sistem və dəyərlərə qəsd kimi qəbul edilərək mülkədarların qəti etirazına, hakimiyyətlə, şəxsən imperatorla zadəganlar arasında qarşıdurmaya səbəb olar. Bu isə həm hakimiyyət, həm də hökmdar üçün təhlükə deməkdir. Zaman keçdikcə həyat göstərdi ki, nə Komitə üzvləri, nə də imperator özü müzakirə etdikləri islahatları həyata keçirməyə hazırdır. «Məxfi komitə»nin fəaliyyəti yavaş-yavaş sönməyə başladı, dostlar daha az-az görüşməyə yığışırdı. Ancaq belə bir komitənin varlığı sübut edir ki, hakimiyyətin ali pillələrinin özündə belə Rusiyada islahatlara ehtiyac olduğunu, ölkənin yeni mədəni yola yönəltməyi qəbul edən dövlət adamları formalaşmışdır.

Yeni imperator dövlət idarəçiliyi sahəsində nizam-intizam yaratmaq məqsədilə köhnə kollegiyaların əvəzinə 1802-ci ildə Avropada olduğu kimi vahid

rəislik sistemi olan nazirliklər yaratdı. Bu mərkəzi idarəçilik aparatını möhkəmləndirdi. Ancaq köhnə Rusiya idarəçilik sistemindəki sui-istifadə halları, rüşvətxorluq, süründürməçilik yeni hakimiyyət orqanlarına da sirayət etməyə başladı. Odur ki, yeni hakimiyyət orqanları cəmiyyətdə kəskin tənqidlə qarşılaşdı. Məhz belə bir vaxtda imperator on il ərzində yaxın köməkçisi olan Mixail Mixailoviç Speranskiyə son Qərb modelinə uyğun yeni dövlət idarəçiliyi prinsiplərini hazırlamağı tapşırdı.

Kənd keşişinin oğlu olan M.M.Speranski öz qabiliyyəti, bacarığı və zəhməti ilə yüksək mövqeyə sahib, taxta hədsiz sədaqətli bir şəxs idi. I Aleksandrın köməkçilərindən biri olaraq tezliklə o, geniş dünyagörüşü, əla təhsili, mürəkkəb məsələləri qısa və aydın əsaslandırmaq qabiliyyəti, orijinal düşüncə bacarığı sayəsində stats-sekretar təyin olundu. Faktiki olaraq, I Aleksandrdan sonra döv-lətdə ikinci vəzifə sahibi olan M.M.Speranskiyə imperator Rusiyada dövlət isla- hatı planını hazırlamağı tapşırdı. 1809-cu ilə doğru tamamladığı layihədə M.Spe- ranski qanunverici məhkəmə və idarəçilik işlərinə müxtəlif səviyyələrdə xalq nümayəndələrinin cəlb edilməsi ideyasını əsas məsələ olaraq ifadə etmişdir. Nə- zərdə tutulmuşdur ki, qanunvericilər vilayət, qəza, quberniya dumasını və ali dövlət dumasını təşkil etsin. Məhkəmə və icra hakimiyyəti də müvafiq olaraq vilayət, qəza, quberniya və ali dövlət səviyyəsində bərqərar olur, mühüm dövlət qanunları Dövlət Şurasında qəbul edilirdi. M.Speranskinin layihəsində yalnız təhkimli kəndlilər, işləyən adamlar və xidmətçilərin iştirak etmək hüququ olma-yan, lakin qanunla müdafiə edilən geniş seçki hüququ nəzərdə tutulmuşdur. Tə-bii olaraq, ali hakimiyyət ölkədə hökdara məxsus idi, onun sözü həlledicidir. Əgər bu layihə qəbul edilsə, Rusiya XIX əsrin əvvəllərində hakimiyyətin bölün- düyü konstitusiyalı mütləqiyyət quruluşunun bərəqərar olduğu dövlətə çevrilərdi. M.Speranski layihəsini imperatora təqdim etdi, sənəd qəbul olundu. Yeni ali dövlət orqanı Dövət Şurasının yaradılmasına dair imperator fərman imzaladı. Lakin hakimiyyətin bölgüsü prinsipi həyata keçmədi. Zadəganlar Speranskini «fransız cəsusu» adlandıraraq belə hesab edirdilər ki, konstitusiya dəyişikliyi baş verdikdən sonra başqa dəyişikliklər, o cümlədən təhkimçilik hüququnun ləğvi məsələsi meydana çıxar. Eyni zamanda Rusiya fransızlarla ilk döyüşü uduzub Tizlit sülhünü bağladığı üçün I Aleksandrın mövqeyi zəifləmişdi. Ona qarşı əyanların güclü müxalifəti yaranmışdır. Rusiya Fransa ilə yeni müharibənin astanasında dayanmşdı. Odur ki, I Alekesandr M.Speranskini qurban verərək onu bütütn vəzifələrindən azad edib sürgünə göndərdi. Beləliklə, Rusiya yüz il boyu mütləqiyyət bayrağı altında konstitusiya quruluşunu təxirə saldı.

## §2. XIX əsrin əvvəllərində Rusiyanın xarici siyasəti. 1812-ci il Vətən müharibəsi

I Aleksandr «Məxfi komitə»nin üzvü, yaxın dostu, bütün varlığı ilə anqlofil A.Çartorıyskini Xarici İşlər Nazirliyinin rəhbəri təyin etdi. O, sevdiyi Polşasını Rusiya çarının müdfiəsi altında azad və müstəqil olmasını nəzərdə tutaraq Bonapartın Avropa təcavüzünə qarşı İngiltərəni dəstəkləyirdi. Xarici işlər nazirinin mövqeyini getdikcə imperator da bölüşürdü. İmperator Fransanın birinci konsulu Napoleon Bonaparta etibar etmir, onu şəxsən sevmirdi.

Vaxtı ilə Fransa inqilabının, respublikanın, konstitusiyalı quruluşun tərəfdarı olan, diktatura və yakobin terrorunu tənqid edən gənc Rusiya hökmdarı artıq 1801-ci ildə Napoleonun öz hakimiyyətini artırması və Avropadakı iddiaları ilə bağlı onu konstitusiyanı pozmaqda, kral sarayları adətlərini təkrarlamaqda, tiranlıqda təqsirləndirmişdir. Napoleon özünü imperator elan etdikdən sonra bu qiymət daha kəskin olmuşdur. Napoleonun hakimiyyətini möhkəmləndirilməsilə bağlı I Aleksandrın şəxsi münasibəti və fransız təcavüzünün artması təhlükəsi Rusiyanın Avropada mövqeyinin dəyişilməsinə səbəb olmuşdur.

Fransız ordusunun İngiltərəyə hücum etməyə hazırlaşmasından, Napoleonun Hannover və Neapol krallığını işğal etməsindən sonra Parisdəki Rusiya səfiri ölkəsinin bu siyasəti dəstəkləmədiyini nümayişkaranə surətdə ifadə edirdi. Napoleonun Burbonlar nəslindən olan I Aleksandrın arvadı, Rusiya imperatriçəsinin qohumu hersoq Engienskini güllələtməsi, Peterburqda şok yaratdı. Rus hökuməti etirazını bəyan etdi. Cavab olaraq Paris qəzetlərinin birində I Aleksandrın atasını öldürdüyünə işarə edən məqalə dərc olundu. Bu, Aleksandr üçün dönüş anı oldu, Rusiya tez bir zamanda Prussiya, sonra İngiltərə ilə yaxınlaşdı. Beləliklə, Rusiya yenidən böyük Avropa müharibəsinə cəlb edildi.

Fransızların işğalçılıq təhlükəsinin artmasına və imperatorun Napoleona şəxsi münasibətinin pis olmasına baxmayaraq, Rusiya üçün Fransa ilə qarşıdurma obyektiv olaraq məqsədəmüvafiq deyildi, çünki tərəflər qarşılıqlı kompromis yolu ilə Avropa qitəsində özlərini təmin edən nəticəni əldə edə bilərdilər. Rusiya rus-türk müharibəsinin qələbəsini davam etdirərək Bosfor və Dardanel boğazlarını işğal etməyi, Balkan yarımadasında mövqeyini gücləndirməyi nəzərdə tuturdu. Polşanı ələ keçirmək, Moldaviya və Valaxiyanı zəbt etmək, I Pyotrun Baltik siyasətinin məntiqi nəticəsi olaraq Finlandiyanı tutmaq Rusiyanın maraq dairəsini təşkil edirdi.

Fransa isə İngiltərə ilə müharibədə əl-qolunun açıq olmasını təmin edərək öz hakimiyyətini Mərkəzi və Cənubi Avropada yaymaq məqsədi daşıyırdı. Rusiya böyük Avropa dövləti kimi qitəni Bonapartla bölə bilərdi. Fransanın

hədsiz güclənməsi qorxusu, Napoleonun Rusiya imperator sarayına qarşı atdığı addımlarla bağlı Aleksandrın ona neqativ münasibətlərinin kəskinləşməsi buna mane olurdu. Eyni zamanda I Aleksandrın Avropada sülhün əməkdaşlıq, humanizm prinsipləri, millət və insan hüququna hörmət əsasında bərqərar edilməsi ideyası məhz bu vaxt formalaşmışdır. Beləliklə, 1804-cü ildə Novosiltsevi İngiltərə ilə danışıqlar aparmağa yola salan imperator ona xalqlar arasında ümumi sülh müqaviləsi bağlamaq və Xalqlar Cəmiyyəti yaratmaq tapşırığını vermişdir. İngiltərə bu təkliflərə şübhə ilə yanaşsa da, ona qitədə Fransa ilə müharibə məqsədilə Rusiya kimi güclü bir müttəfiq lazım idi. Avstriya və Prussiya da Fransaya qarşı qalxdı. Napoleonun işğalçılıq siyasəti Rusiyanın onunla hərbi qarşıdurmasına gətirib çıxardı. I Aleksandr mübahisəli məsələləri həll etmək məqsədilə Napoleonun onunla görüşmək təklifini rədd edərək Fransadan Avstriyanın işğal etdiyi ərazilərini tərk edərək 1789-cu il sərhədləri daxilinə çəkilməyi tələb etdi. Bonapart qəti yox cavabı verdiyi üçün Rusiya antifransız koalisiyasına qoşuldu, rus ordusu Avropaya yola düşdü.

1805-ci il dekabrın 2-də birləşmiş Rusiya-Avstriya ordusu M.İ.Kutuzovun komandanlığı altında Moraviyada Austerlis adlanan yerdə Napoleon Bonapartın fransız qoşunu ilə qarşı-qarşıya gəldi. Müttəfiq qoşunlarına faktiki olaraq rus çarı başçılıq edirdi ki, onun da Kutuzovun əksinə olaraq səhv mövqe seçimi döyüşün taleyini həll etdi. Austerlis yaxınlığında I Aleksandr və rus ordusu ilk dəfə olaraq Napoleonun hərbi dühasının gücünü hiss etdi, müttəfiqlər darmadağın oldu. Öz qərargahı və ordusu ilə əlaqəni itirən I Aleksandr əsir düşməkdən son anda xilas olaraq Moraviya kəndlisinin komasında gizlənmişdir. Sonra qaçan ordu arasında bir neçə saat at çapan imperator yükünü belə itirmişdir. Ancaq I Aleksandr özünü itirsə də sınmadı, başa düşdü ki, Napoleon kimi rəqiblə yalnız imperiyanın bütün gücünü səfərbər etməklə ciddi hazırlıq, diqqət və ehtiyatlılıq göstərib təcrübəli hərbi kadrlara arxalanıb mübarizə aparmaq olar.

Rusiya-Avstriya ordusunun məğlubiyyəti Avropada qüvvələr nisbətini dəyişdirdi. Fransanın müdafiə etdiyi Türkiyə Qara dəniz sahillərində itirdiyi mövqeləri geri qaytarmağa çalışırdı. Əvvəlki müqavilərin əksinə olaraq Osmanlı dövləti Rusiya gəmilərinin boğazlarından keçməsini qadağan etdi. 1806-1812-ci illəri əhatə edən növbəti Rusiya-Osmanlı müharibəsi başladı və uzun çəkdi. Yalnız 1811-ci ildə M.İ.Kutuzov Dunay ordusuna komandan təyin edildikdən sonra rus ordusu sağ sahildəki Ruşuk və sol sahildəki Slobodze döyüşlərində türk qoşunların məğlub etdi. 1812-ci ilin mayında imzalanmış sülh müqaviləsinə əsasən, Bessarabiya və Qafqazın Qara dəniz sahillərindəki ərazinin böyük bir hissəsi Suxum şəhərilə birlikdə Rusiyaya keçdi.

Moldova və Valaxiya Osmanlı imperiyası tərkibində geniş muxtariyyət aldı, Serbiyaya verilən muxtariyyət əvvəlkindən daha çox idi.

XIX əsrin əvvəllərində Rusiya ilə İran arasında ziddiyətlər 1804-1813-cü illər Rusiya-İran müharibəsinə səbəb olmuşdur. 1801-ci ildə Gürcüstanın könüllü olaraq Rusiyanın tərkibinə daxil olmasından sonra Cənubi Qafqazın başqa xristian xalqları da müsəlman dövlətlərinə deyil, din qardaşları olan Rusiyaya meyil göstərirdilər. Hücuma keçən rus qoşunları Şimali Azərbaycanın ərazisinə daxil oldular, 1813-cü ildə Qacarlar dövləti ilə bağlanmış Gülüstan sülh müqaviləsinə əsasən, İran Cənubi Qafqazın böyük ərazisi, Dağıstan və Xəzər dənizinin qərb sahillərindəki ərazilər üzərində Rusiyanın hakimiyyətini qəbul etdi. Rusiya Xəzər dənizində donanma saxlamaq hüququ qazandı. Bununla da Qafqazın Rusiyaya ilhaq edilməsinin birinci mərhələsi başa çatmış oldu.

Rusiya ordusunun əsas hissəsi Avropa cəbhəsində Napoleona qarşı müharibədə iştirak edirdi. Yeni antifransız koalisiyasına İngiltərə, Rusiya, Prussiya, Saksoniya və İsveç qoşulmuşdur. Güclü Fransa hərbi maşını Avstriyanı sıradan çıxarmışdır.

Əsas hərbi toqquşma Napoleon ordusu ilə Prussiya və Rusiya orduları arasında oldu. Napoleon müttəfiqləri ayıraraq Prussiyanı məğlub edib müharibədən çıxardı. 1807-ci il fevral ayında Preysiş-Eylauda Rusiya qoşunu ciddi müqavimət göstərməsinə baxmayaraq, məğlub olaraq geri çəkildi. 1807-ci ilin iyununda növbəti dəfə Fridlyand altında qarşılaşan fransız və rus ordusunun döyüşündən ruslar ən yaxşı hissələrini itirərək çıxdı. 1807-ci ilin yayında Şərqi Prussiyanın Tilzit adlanan yerində fransız imperatoru ilə müttəfiqlərin sülh danışıqları başladı. Əsas məsələlər Nemanın ortasında salın üzərindəki çadırda görüşən Napoleonla I Aleksandr arasında danışıqlarda həll olundu. Danışıqların gedişində diplomatik məharət nümayiş etdirən I Aleksandr məğlub tərəf olmasına baxmayaraq, heç bir ərazi itkisinə məruz qalmadı, Türkiyə və İsveçlə münasibətdə isə hərəkət azadlığı aldı. Bu o demək idi ki, Türkiyə ilə müharibə qalibiyyətlə başa çatdıqda Rusiya Dunay knyazlıqları Moldaviya və Valaxiyanı, İsveçlə müharibədən sonra Finlandiyanı Napoleonun razılığı ilə özünə birləşdirə bilərdi. Yalnız rus çarının Polşanı taxtın himayəsinə verməsi təklifini Napoleon qəbul etmədi. Tilzit müqaviləsində həm də Rusiya üçün ağır iqtisadi nəticələr doğuran maddələr də var idi. Belə ki Rusiya sülhün şərtlərinə əsasən, İngiltərəyə qarşı təşkil edilən ticarət ittifaqı – Qitə mühasirəsinə qoşuldu ki, bu da ölkənin İngiltərə ilə bütün ticarət əlaqələrinin kəsilməsi anlamına gəlirdi. Beləliklə, I Aleksandrın səyi nəticəsində qalib rəqibin Rusiyanın sərhədlərinə daxil olmasının qarşısı alındı, işğal edilən və alçaldılan Prussiyadan, ikinci rola sıxışdırılan Avstriyadan fərqli olaraq, imperator

öz nüfuzunu saxladı. Rusiyanın ticarət sənaye dairələrində ruh düşkünlüyü ilə qəbul edilən Qitə mühasirəsinə qoşulmaqla I Aleksandr hələ heç bir Rusiya hökmdarına qismət olmayan Dunay knyazlıqlarını və Finlandiyanı ələ keçirmək imkanı qazandı.

Bir ildən sonra 1808-ci ildə Erfurtdakı ikinci görüşdə Napoleon konkret olaraq Finlyandiya, Moldaviya və Valaxiyanın Rusiyaya ilhaq edilməsinə razılıq verdi, ancaq Bosfor və Dardanel boğazlarının işğalına qarşı çıxdı. Erfurtda I Aleksandr gizli olaraq Fransanın Xarici İşlər naziri Taleyranı öz tərəfinə çəkdi və o Rusiyaya işləməyə başladı. Faktiki olaraq, I Aleksandr şəraitə uyğun olaraq Avropanı Napoleonla nüfuz dairəsinə bölsə də, uzaq gələcəkdə onunla müharibəyə ciddi və hərtərəfli hazırlaşmağı qarşısına məqsəd qoymuşdur.

1808-ci ildə İsveçə qarşı müharibəyə başlayan Rusiya Finlandiyada İsveç qoşunlarını məğlub etdikdən sonra 1809-cu ilin qışında Botniçesk körfəzinin buzları üzərindən İsveçin ərazisinə hərbi nazir qraf A.A.Arakçeyevin təşəbbüsü ilə hücuma keçdi. 15 dərəcəyə çatan şaxtada rus ordusu general Barklay-de-Tollinin komandanlığı altında 100 kilometr məsafə qət edərək Umloya zərbə vurdu. General Baqrationun dəstəsi Aland adalarına daxil oldu. General Kulnevin süvarisi İsveçin paytaxtı Stokholma yaxınlaşdı, İsveç sülh istədi.

1809-cu ildəki Fridrixsqam sülh müqaviləsinə görə Finlandiya Rusiyaya keçdi. O, Böyük Finlandiya knyazlığı olaraq muxtariyyət huququ ilə Rusiyanın tərkibinə daxil oldu. Finlandiyada konstitusiyalı quruluş bərqərar oldu, Seym və Dövlət Şurası başda olmaqla xalq nümayəndəliyi təşkil edildi, əyalət üçün ənənəvi olan hüquq və azadlıqlar, ilk növbədə xüsusi mülkiyyət hüququ təsbit edildi. Finlandiyanın konstitusiya quruluşu ilə bağlı bütün sənədlər M.Speranski tərəfindən hazırlanmış çar isə təsdiq etmişdir.

Erfurt görüşündən sonra Rusiya Türkiyəyə qarşı hərbi əməliyyatları fəallaşdıraraq cənub ordusunun komandanlığına M.İ.Kutuzovu təyin etdi. 1811-ci ildəki bir sıra qələbələrdən sonra Türkiyə Rusiyadan sülh istəməyə məcbur oldu. 1812-ci ilin mayında Buxarestdə bağlanan sülh müqaviləsinə əsasən Odessadan və Moldaviyadan cənuba doğru olan və Bessarabiya adlanan torpaqlar Rusiyaya keçdi. Türkiyə ilə sərhəd Prut çayına doğru çəkildi. Serbiya muxtariyyət aldı. Bu serblərin uzun illər türk əsarətindən azad olmasının başlanğıcı oldu.

I Aleksandr Fransa ilə müharibəyə hazırlaşaraq 1808-ci ildən rus ordusunda yenidənqurma və islahatlar həyata keçirər yeni ordu artilleriyası yaratdı. Ordu islahatlarına, silah və sursata, ehtiyatların yaradılmasına «dəmir qraf» («железный граф») ləqəbli A.Arakçeyev rəhbərlik edirdi. Xüsusilə, o rus ordusunun artilleriya parkının yenilənməsində fərqlənmişdir. Təsadüfi deyil ki,

sonradan Borodina döyüşündə fransız ordusunun 587 topuna qarşı ruslar 640 daha yüksək keyfiyyətli top çıxarmışdır. 1811-ci ilin əvvəlində rus ordusunun 225 min nəfərlik heyəti var idi. I Aleksandr bu rəqəmi 300 min nəfərə çatdırmaq istəyirdi. Faktiki olaraq, Qitə mühasirəsini pozan Rusiya İngiltərə ilə ticarət əlaqələrini bitərəf ölkələrin, xüsusilə ABŞ-ın gəmiləri vasitəsilə davam etdirirdi ki, bu da Napoleonu özündən çıxarırdı. Eyni zamanda bu vaxt ərzində I Aleksandr ingilis hökumətilə, yüksək polyak xadimlərlə münasibətlər yaratmışdır. Fransız imperatoru ilə rus çarı arasındakı şəxsi münasibətlər son dərəcə kəskinləşmişdir. Rus ordusu qərb sərhədlərinə doğru irəlilədi, I Aleksandr orduya qoşuldu. Münasibətlərin kəskinləşməsi an məsələsi idi. Artıq bu zaman I Aleksandr ölkənin mənafeyini qorumaq naminə böyük qətiyyət və iradə nümayiş etdirmişdir.

1812-ci il iyunun 12-də dan yeri ağararkən Napoleon ordusu Rusiyanın ərazisinə daxil oldu. Bundan iki gün əvvəl Peterburqdakı Fransa səfiri Rusiya Xarici İşlər Nazirliyinə diplomatik münasibətlərin kəsilməsi və müharibə elan edilməsinə dair nota təqdim etmişdir. Napoleonun 600 minlik «Böyük ordusu» ponton körpülər vasitəsilə Neman çayını keçərək rus kəşfiyyatçılarına, orduya, dinc əhaliyə rast gəlmədən Rusiya imperiyasının sakit və adamsız geniş ərazisində irəliləməyə başladı. Birinci Rusiya ordusunun ön polkları 100 kilometr Şərqdə, Vilno altında yerləşmişdir. Napoleonun hücum etdiyi ilk andan həlledici döyüşə girmək istəməsinə baxmayaraq, heç kim ona əsas vuruşma vermək niyyətində deyildi. Müharibə başladığı vaxtdan etibarən uzunsürən, manevr xüsusiyyəti kəsb edərək fransız ordusunu Rusiyanın içərilərinə doğru çəkməyə başladı. Peterburq, Kiyev və Moskva istiqamətində hücum etmək imkanından fransız imperatoru Moskvanı seçdi. O deyirdi: «Əgər mən Kiyevi alsam, Rusiyanın ayaqlarından yapışaram; Peterburqu ələ keçirsəm, onun başından yapışaram; Moskvanı tutsam, onun ürəyinə zərbə vuraram».

İmperiyanın qərb sərhədlərini müdafiə edən birinci əsas rus ordusu Rusiya-İsveç müharibəsinin qəhrəmanı, general M.B.Barklay-de-Tollinin komandanlığı altında Vilno yaxınlığında yerləşərək Peterburq istiqamətini qoruyurdu. Cənuba doğru yerləşən ikinci rus ordusu general P.İ.Baqrationun komandanlığı altında Moskva istiqamətini müdafiə edirdi. General A.P.Tormasovun üçüncü Qərb ordusu Kiyevi müdafiə edirdi ki, qərb cəbhəsində yerləşən rus ordularının sayı 240 min nəfərə çatırdı.

600 min nəfərdən çox «Böyük ordu»nun əsas hissəsini təşkil edən sol qanada Napoleon komandanlıq edirdi. Sol qanada daxil olan ayrı-ayrı korpuslara istedadlı fransız marşalları Davu, Ney, Udino başçılıq edirdi. Fransız ordusunun mərkəz hissəsinə Bonapartın ögey oğlu general Boqarne rəhbər

təyin olunmuşdur. Fransız ordusunun sağ qanadına Napoleonun qardaşı Jerom başçılıq edirdi. Marşal Makdonaldın korpusu Peterburqa hücum etməli idi. «Böyük ordu»nun tərkibinə otuz minlik Avstriya korpusu, Prussiya hissələri, italiyalı, portuqaliyalı, ispaniyalı, isveçrəli və d. xalqların nümayəndələrinin təmsil olunduğu əsgəri birliklər daxil idi. Fransız ordusu ilə birlikdə 1794-cü ildəki polyak üsyanının iştirakçısı, Varşava Hersoqluğunun hərbi naziri, Napoleonun tərəfdarı general Ponyatovskinin süvari korpusu da hərəkət edirdi. «Böyük ordu» tərkibinə görə «on iki dilli» olmaqla yanaşı, ümumi hərbi mükəlləfiyyət əsasında demokratik prinsiplər üzrə formalaşmışdır ki, bu da onu həqiqi xalq ordusuna çevirmişdir. Ordunun marşal və generalları istedadları və böyük hərbi təcrübəsilə fərqlənirdilər. Ancaq fransız ordusunun tərkibinə məcburi surətdə cəlb edilən başqa millətləri təmsil edən birliklərə Napoleonun işğalçılıq planı yad idi. Bu «Böyük ordu»nu vahid ruhdan bəhrələnməyən qarışıq tərkibə çevirirdi.

Rekrut mükəlləfiyyətli və 25 illik xidmət müddətinə baxmayaraq, Rusiya ordusu da xalq ordusu idi. Onun tərkibi əsasən rus, ukraynalı, belorusiyalı slavyanlardan ibarət idi. Yüksək peşəkarlığı ilə seçilən rus ordusu öz torpaqlarını qoruduğu üçün əsgər və zabitlərin vətənpərvərlik ruhu yüksək idi. Ordu, korpus, diviziyaların başında dövrünün böyük hərbi sərkərdələri – M.İ.Kutuzov, M.B.Barklay-de-Tolli, P.İ.Baqration, A.P.Yermolov, N.N.Rayevski, M.A.Miloradoviç, Y.P.Kulnev, D.S.Doxturov, Don kazaklarının atamanı M.İ.Platov dayanmışdır. Austerlis döyüşündən nəticə çıxaran I Aleksandr müharibənin bu mərhələsində geri çəkilən ordunun birbaşa rəhbərliyindən uzaqlaşsa da, hərbi hadisələrə siyasi və strateji liderliyi davam etdirirdi ki, müharibənin son mərhələsində hərbi təcrübə toplayaraq sərkərdəlik və şəxsi bacarığını nümayiş etdirmişdir.

Əvvəl I Aleksandr müharibəni sülh yolu ilə həll etmək məqsədilə general Balaşovu Napoleonla danışığa göndərdi. Ancaq fransız imperatoru ona görüş təyin etməyərək ordu ilə birlikdə Vilnoya hərəkət etməyi tapşırdı. Yalnız burada onu qəbul edən Bonapart qəzəbini generalın üstünə tökərək danışıq aparmaqdan imtina edərək hansı yolun Moskvaya daha yaxın olduğunu soruşdu. General özünü itirməyərək cavab verdi: «XII Karl Poltavadan keçmişdi».

Müharbənin başlanğıcında 1-ci rus ordusu Şərqə çəkilərək Qərbi Dvinanın qolu olan Drisse çayında fransız ordusunun düşərgəsinə hücum etməyi nəzərdə tuturdu. P.İ.Baqrationun 2-ci ordusu bu zaman cinahlardan fransızlara zərbə vurmalı idi. Ancaq Napoleon qardaşı Jeromun ordusunu və marşal Davunun korpusunu Baqrationun 2-ci ordusu Barklay-de-Tollinin 1-ci ordusu ilə birləşməyə mane olmaq məqsədilə göndərdiyi üçün rus ordularının əsas dö-

yüşə girmək planları baş tutmadı. Hər iki ordunu əsas döyüşə girmədən gələcəkdə birləşmək məqsədilə qoruyub saxlamaq zərurəti yaranmışdı. Beləliklə, hərbi əməliyyat meydanında baş verən obyektiv şərait rus ordusunun ölkənin içərilərinə çəkilməsinə səbəb oldu. Eyni zamanda məlum oldu ki, düşməni yalnız ordunun gücü ilə deyil, həm də bütün xalqın səfərbər olması ilə məğlub etmək mümkündür. Belə bir ideyanı formalaşdıran I Aleksandr özü düşmənin say və mövqe cəhətdən üstünlüyünə qarşı ölkənin geniş ərazisini, xalqın müqavimətini, mübarizəsini qoyaraq fransızları qovana kimi onlarla heç bir sülh danışığı aparmamağı nəzərdə tuturdu.

Müharibənin birinci günlərindən çar xalq qoşununun yaradılmasına dair manifest imzaladı. Bir az sonra imperator zadəganların işğalçılarla mübarizə aparmaq üçün kəndliləri silahlandıraraq hərbi dəstələr təşkil edilməsi təklifini qəbul etdi. Mahiyyət etibarilə bu I Aleksandrın xalqın partizan müharibəsini qanuniləşdirməsi idi. Bu hərəkat düşmənin işğal etdiyi ərazilərdə kortəbii olaraq başlamışdır. Beləliklə, ölkədə təhkimçilik quruluşunun mövcud olduğu şəraitində mürəkkəb sosial-iqtisadi ziddiyətlərə baxmayaraq, hakimiyyət, ordu və xalq vahid vətənpərvərlik ideyası ətrafında birləşmişdi. Məhz bu Rusiyanın Napoleon istilasına qarşı müharibəsini Vətən müharibəsinə çevirmişdir.

Drissk düşərgəsini tərk edən 1-ci ordu baş döyüşdən imtina edərək şərqə doğru hərəkət edib Vitebsk altında Baqrationun 2-ci ordusunu gözləməyə başladı. Bundan istifadə edən fransızların ön dəstələri Vitebsk şəhərinə hücum etdi. İki gün düşmənin hücumunun qarşısını alan Barklay-de-Tollinin 2-ci ordusu «böyük ordu»nun şəhərə yaxınlaşması ilə əlaqədar olaraq gecə çoxsaylı tonqallar yandırıb düşməni aldadaraq səssiz mövqelərini tərk edib Smolenskə doğru çəkildi. Rus ordusunun öz yerində dayanaraq döyüşə hazırlaşdığını fərz edən Fransa imperatoru bir gün də gözləyərək əsas qüvvələrini səfərbər edib bütün gücü ilə əsas döyüşə atılmağı nəzərdə tuturdu. İyulun 16-da fransız süvariləri 1-ci ordusunu öz yerində tapmadı. Bu Napoleonu özündən çıxardı. Baqrationun 2-ci ordusu Vitebskə çıxa bilmədikdən sonra döyüşə-döyüşə Dnepri keçərək Smolenskə hərəkət etdi. Hər iki rus ordusu maneəsiz Smolenskə doğru irəliləməyə başladı. Napoleon ordusu Rusiyanın içərilərinə doğru irəlilədikcə ərazi faktoru hesabına say hesabı ilə davamlı azalırdı. İşğala məruz qalan şəhərlərdə qarnizon saxlanılması, rabitə xətlərini, arxadakı sursat və ərzağı qorumaq məqsədilə ayrılan əsgəri qüvvə və nəhayət, rus qoşunu ilə tez-tez baş verən toqquşmalar fransız ordusu sıralarının seyrəlməsinə şərait yaradırdı. Smolenskə Napoleon yalnız 200 min qoşun gətirmişdi. Rus ordusunun da sıraları seyrəlsə də, daxili ehtiyat hissələrinin cəlb edilməsi ilə bu boşluğu doldurmaq mümkün olmuşdur. Xalq qoşununun silahlanması,

partizan dəstələrinin fəaliyyəti getdikcə müharibənin Napoleon üçün əlverişsiz xarakter kəsb etməsinə şərait yaradırdı, əsas döyüş və sürətli müharibə yerinə, fransız imperatoru uzun sürən hərbi kampaniyaya məruz qalmışdır. Odur ki, Bonapart öz hərbi üstünlüyündən istifadə edərək fəxri sülh bağlamaq məqsədilə ilk cəhd etdi. Lakin I Aleksandr qəti olaraq, fransız imperatorunun sülh danışıqları təklifini rədd etdi.

Artıq iyulun 22-də Smolensk altında rus orduları, nəhayət, birləşdi. Geri çəkilməsinə baxmayaraq, rus orduları Napoleona Avropada görmədiyi müqaviməti göstərmişdir. Digər tərəfdən, Rusiyanın beynəlxalq mövqeyi xeyli möhkəmlənmişdi. İsveç, Türkiyə, İngiltərə və İspaniya ilə ittifaq müqavilələri bağlanmışdı, fransız ordusunun işğalına uğrayan bu xalqlar işğalçılara qarşı azadlıq mübarizəsinə başlamışdır. Xarici siyasət sahəsində uğurlara və Napoleonun İspaniyada, Avropanın işğal etdiyi ölkələrdə xeyli qoşun saxlamaq məcburiyyətinə baxmayaraq, Rusiyanın vəziyyəti ağır olaraq qalırdı. Say cəhətdən xeyli üstün olan Napoleon ordusu baş döyüşə girmək məqsədilə Smolenskin yaxınlığında yeləşmişdi. Başqa bir tərəfdən Rusiya Qafqazda İranla müharibə apardığına görə Qafqaz cəbhəsinə xeyli qüvvə cəlb edilmişdi.

Rusiya ordusunun davamlı geri çəkilməsi zabit və əsgərləri üzürdü. Keçmiş döyüşlərin qəhrəmanları ordunun ölkənin içərilərinə doğru geri çəkilməsini qəbul etməyərək döyüşə can atırdılar. Rus generalları da belə əhvali-ruhiyyəni bölüşürdü. Xüsusilə qızğın xarakterli cəsur Baqration belə əhvalın ifadəçisi olaraq yazdığı xüsusi məktublarda Barklay-de-Tollinin ehtiyatlı taktikası ilə razı olmadığını bildirmişdi. Şotland ailəsindən çıxmış Barklay-de-Tolli rus əsgərlərinin böyük əksəriyyəti üçün xarici olaraq yad bir adam idi və ordu içərisində nüfuzunu itirirdi. Smolensk altında birləşmiş rus ordusunun komandanı olan Mixail Boqdanoviç Barklay-de-Tolli fransızlarla əsas döyüşə girməyi nəzərdə tutaraq şəhəri qorumağı planlaşdırırdı. Smolensk Moskvaya sonuncu təbii sədd idi. Avqustun 2-də Smolensk uğrunda döyüş başladı. Napoleon böyük qüvvəsini işə salaraq rus qoşunlarının zəif olduğu cənub cinahına zərbə vurdu. Rus qoşunları geri çəkilsə də, Myuratın süvariləri rusların arxasına keçə bilmədi. Avqustun 4-də Smolenskə fransızların əsas hissəsi – Ney, Davu, Qruşinin korpusları yaxınlaşaraq hücumla şəhəri almağa cəhd etdilər. Rus ordusunun əsas hissəsi ön dəstələrin ciddi müqaviməti sayəsində geri çəkilib şəhərin lap yaxınlığında mövqe tutdu. Ertəsi gün Napoleon şəhəri hücumla almağı əmr etsə də, rus ordusu xalq qoşunu ilə birlikdə hücumun qarşısını aldıqdan sonra Bonapart Smolenski bombardman edib yandırmağı tapşırdı. Alov və tüstü içində fransızlar yenidən hücum etsələr də, yenidən dəf olundular. Avqustun 6-da gecə düşdüyü üçün imperator səhər şəhəri

almağı düşünsə də, ertəsi gün şəhərin boş qaldığını gördü. Ordu və əhali şəhəri tərk etmişdi, Napoleona yandırdığı insanların olmadığı şəhər qismət oldu. Smolensk döyüşündə fransızlar 20 min nəfər döyüşçü itirdi, Moskva istiqamətində hücum edən fransız ordusu 135 min nəfərə düşdü. Smolenski işğal edən Napoleon ehtiyat hissəsini, ərzaq və atlar üçün yemi daşıyıb gətirmək məqsədilə orduya istirahət verməyi düşünürdü. Lakin yaranmış şərait ona şərqə doğru hücumu davam etdirməyi tələb edirdi, belə ki soyuq, ağır rus payızı başlamaq üzrə idi, partizan müharibəsi nəticəsində qüvvələr durmadan azalırdı. Kampaniyanın isə sonu görünmürdü. Eyni zamanda P.X.Vittenşteynin rus korpusunun müdafiə etdiyi Peterburq və A.P.Tormasovun 3-cü ordusunun cənub istiqamətində «böyük ordu»nun hissələri uğursuzluğa məruz qalmışdır. Tezliklə Moskvaya hərəkət edib əsas döyüşlə rusları məğlub edərək fəxri sülh bağlayıb əldən düşmüş, fransız ordusuna istirahət vermək planı fransız imperatorunun başıca ümidi idi. Odur ki, fransızlar Smolenskdə yalnız beş gün dayandılar, onların şərqə hərəkəti davam etdi.

Avqust günlərində rus ordusu içərisində döyüş ruhu azalmaq yerinə, daha da möhkəmlənmişdi. Eyni zamanda geri çəkilən rus qoşununun komandanı M.B.Barklay-de-Tollinin nüfuzu durmadan aşağı düşmüşdü. Odur ki, Rusiyanın nüfuzlu mənsəb sahibləri, I Aleksandrın yaxın ətrafı, ictimai rəy ordunun baş komandanlığına A.V.Suvorovun silahdaşı, rus-türk müharibəsinin qəhrəmanı 68 yaşlı feldmarşal Mixail İllarionoviç Kutuzovun təyin olunması tərəfində idi. I Aleksandr Austerlits döyüşündəki biabırçılığın şahidi olan M.İ.Kutuzova soyuq münasibət bəsləyərək onu qoca gücsüz hesab edirdi. Rusiya üçün ağır bir vaxtda I Aleksandr ictimai rəyə güzəştə getdi, avqustun 17-də M.İ.Kutuzov ordunun komandanlığını qəbul etdi. Ordu onu böyük ruh yüksəkliyi ilə qarşıladı. Məhz o günlər ordu arasında belə bir məsəl yayılmışdı ki, «Kutuzov fransızları döyməyə gəlib». Təcrübəli sərkərdə bir sıra qətiyyətli tədbirlər, o cümlədən ehtiyat qüvvələri və xalq qoşununun bir yerə yığılması, orduda intizamın möhkəmləndirilməsini, Peterburqa gedən istiqaməti müdafiə edən Vittenşteynin korpusu ilə Tormasovun 3-cü ordusunun fransızları cinahlardan sıxışdırmaq məqsədilə əməliyyatlarının əlaqələndirilməsini və s. həyata keçirirdi. Moskvaya doğru geri çəkilən təcrübəli sərkərdə baş döyüş mövqeyini düzgün müəyyən etməyə çalışaraq başa düşürdü ki, qədim Rusiya paytaxtın döyüşsüz təslim etmək mümkün deyildir.

Avqustun 22-də rus ordusu M.İ.Kutuzovun planına müvafiq olaraq, Borodino çölündə düşərgə saldı. Sağ cinahda general M.A.Miloradoviçin 30 mindən çox piyada və süvari korpusu yerləşmişdi. Mərkəzdə D.S.Doxturovun 13,6 min nəfərlik qoşunu dayanmışdı ki, hər iki qrup M.B.Barklay-de-Tollinin

1-ci ordusuna daxil idi. Təbii müdafiəsi olmayan sol cinahda P.İ.Baqrationun 32 min nəfərlik ordusu yerləşmişdi. Əsas ehtiyat hissəsi və xalq qoşunu M.İ.Kutuzovun sərəncamında idi. Döyüşə hazır rus ordusunun sayı 120 min nəfərdən çox idi. Cinahlarda tez hücum qabiliyyəti olan kazak süvariləri dayanmışdı.

Napoleonun ordusunda 135 min nəfər əsgər və zabit olmuşdur. Artilleriyada fransızların 587 topuna qarşı rusların 624 topu var idi. Rus ordusunun komandanlığı müdafiə döyüşü hazırlayaraq müdafiə xəttini düşmənin yarmasına imkan verməmək üçün cəbhə böyu istehkamlar qurmuşdur. Mərkəzdə Kurqan təpəsində N.N.Rayevskinin 18 topdan ibarət artilleriya batereyası qoyulmuşdu. Sol cinahda Şevardino redutu – Şevardino kəndi yaxınlığında çöl istehkamı qurulmuşdu. Semyonovskaya kəndi yaxınlığında bucaq şəklində torpaq istehkamları – Baqrationun çöl istehkamları salınmışdı. Avqustun 24-də fransız qoşunları hücum üçün daha açıq olan sol cinahdakı Şevardino redutuna həmlə etdilər. Myuratın piyada və süvari hissələri ardı-arası kəsilmədən hücum edir, ruslar isə inadlı müqavimət göstərirdi. Dəfələrlə əldən-ələ keçməsinə baxmayaraq, yalnız beş saatlıq qanlı döyüşdən sonra fransızlar Şevardino redutun ələ keçirsə də Baqrationun köməyə göndərdiyi qrenader və süvarilər fransızları Koloçi çayına doğru sıxışdırdılar. Gecə döyüş başa çatdı, Kutuzovun əmri ilə ruslar dağıdılmış redutları tərk etdilər. Avqustun 25-də həm rus, həm də fransız qoşunları qarşıdakı döyüşə hazırlaşdılar.

Avqustun 26-da şəhər səhər tezdən «böyük ordu» hücuma keçdi. Napoleon əsas qüvvələrini Baqrationun çöl istehkamlarına və rus ordusunun mərkəzində yerləşən Rayevskinin bateriyasına qarşı yönəldi. Rus ordusunun sol cinahına 400 top atəşi altında 45 min fransız qoşunu Napoleon Fransasının ən yaxşı marşalları Myurat, Davu, Neyin komandanlığı ilə hücuma keçdi. İmperator Baqrationun ordusunu dağıdıb, cəbhəni yarıb, 1-ci rus ordusunun arxasına keçmək məqsədi güdürdü. Baqrationun çöl istehkamları uğrunda qanlı vuruşma yeddi saat davam etdi, fransızlar aramsız süngü həmlələri edir, ruslar buna güclü əks-həmlələrlə cavab verirdi. Döyüşün gedişində Vətən müharibəsi qəhrəmanı general P.İ.Baqration top qumbarasından ölümcül yaralandı, onu döyüş meydanından apardılar. Cəsur və qətiyyətli general D.S.Doxturov komandanlığı qəbul etdi. Yalnız səkkizinci həmlədən sonra fransızlar Baqrationun çöl istehkamlarını tutdular. Doxturov geri çəkilən hissələri Semyonovskaya istiqamətində əvvəlcədən hazırlanmış ehtiyat mövqeyinə yerləşdirdi, onlar yeni xətdə vuruşu davam etdirərək bir addım da geri çəkilmədilər. Beləliklə, Napoleon sol cinahda rus ordusunun müdafiə xəttini yara bilmədi.

Günortadan sonra Napoleon mərkəzə hücum təşkil edərək Rayevskinin batereyasını ələ keçirməyə çalışdı. Bu zaman Kutuzov M.İ.Platovun kazak

hissəsini və general F.P.Uvarovun süvarilərini fransızların sol cinahına həmlə etməyə göndərdi. Koloçi çayını keçərək fransız ordusunun arxasında döyüşə başlayan rus süvariləri fransızların düşərgəsində həyəcan yaratdı. Ancaq iki saatdan sonra Napoleon rus süvarilərinin həmləsinin qarşısını alıb yenidən Rayevskinin təpənin üzərindəki mövqeyinə həmləyə başlaya bildi. Bundan istifadə edən Kutuzov yeni qüvvələr hesabına rus ordusunun mərkəzini möhkəmlətdi. Yalnız günün axırında çox böyük tələfat və güclü top atəşi altında imperator dağıdılıb yararsız vəziyyətə düşən batareyanı ələ keçirə bildi. Semyonovskaya çöl istehkamlarını və Rayevski batareyasını ələ keçirmək üçün Napoleonun həmlələri və amansız qanlı vuruşma hücum edən fransız ordusunun 75 faizinin öldürülməsi ilə yekunlaşmışdı. Hər iki mövqeyi tərk edərək yeni xətdə yerləşən rus ordusu bir addım da geri çəkilməyərək gecə yarıya kimi fransız əsgərlərinin üzərinə top atəşi yağdırmışdır. Yalnız gecə döyüş səngimişdir. Napoleon əsgərlərinə əvvəlki mövqelərinə qayıtmaq əmri verdikdən sonra rus hissələri yenidən Rayevski təpəsinə və sol cinahındakı kəndə yerləşdilər.

Borodino döyüşü heç bir tərəfə qələbə gətirmədi. Lakin döyüş məğlubedilməz fransız ordusu içərisində ruh düşgünlüyünə, rus zabit və əsgərlərində Napoleon hərbi maşınına qarşı mərdliklə dayanmadan qaynaqlanan böyük vətənpərvərlik qürur və hissinin yaranmasına səbəb oldu. Borodino döyüşündə rus ordusu 44 min, «böyük ordu» isə 58,5 min döyüşçü itirdi.

Hər iki tərəfin döyüşə hazırlaşdığı bir vaxtda avqustun 27-də səhər M.İ.Kutuzov orduya döyüş mövqeyini tərk edərək Moskvaya doğru çəkilmək əmri verdi. Sentyabrın 1-də Fili kəndində rus qoşununun baş komandanı hərbi şura topladı. Hamını dinlədikdən sonra M.İ.Kutuzov tarixi sözlərini söylədi: «Moskvanı itirmək hələ Rusiyanı itirmək deyildir... ancaq ordu məhv edilsə, Moskva və Rusiya məhv olar». Sentyabrın 2-də M.Kutuzovun əmrinə əsasən rus ordusu Moskvanı tərk etməyə başladı. Sonuncu olaraq Moskvanı M.A.Miloradoviçin süvari qoşun arxa dəstəsi tərk etdi. Qoşunla birlikdə şəhər əhalisi də Moskvadan çıxdı. Təqribən 300 minlik əhalidən şəhərdə cəmi 10-12 min nəfər adam qalmışdır. Artıq ertəsi gün fransızların ön dəstələri, Myuratın süvariləri, arxasınca əsas ordu hissələri Moskvaya daxil oldu. Moskvaya daxil olan Napoleon gözü qarşısında yüzlərlə bərq vuran kilsə günbəzi, gözəl və yaraşıqlı binalar, böyüklük rəmzi Kreml canlandı. İmperator Qərbdə öyrəndiyi kimi şəhər nümayəndələrinin rəsmi Moskvanın açarlarını ona təqdim etməsini gözlədiyi halda, sakit və boş qalan şəhərdə belə bir iş baş vermədi. Məyus olan imperator Kremlə daxil olaraq Moskvanın fransız əsgərləri tərəfindən qarət edilməsinə dair əmr verdi. Fransız əsgərləri evlərə soxulur, şəhəri tərk edə bilməyən əhalini qarət edir, öldürür, ərzaq anbarlarını, mağazaları, şərab saxlanılan yerləri qarət edib soyurdular.

Moskvada olduqları birinci gündən fransız hərbi hissələrinin əsgərləri sərxoş qənimət ovçularına çevrilmişdi. Vətənlərindən min kilometrlərlə uzaqda olan fransız ordu hissələri içərisində nizam-intizam pozulmuşdu. Moskvada yanğın başladı, quru hava şəraiti və güclü külək yanğının yayılaraq altı gün davam etməsinə səbəb oldu. Yanğın nəticəsində evlərin ¾ -ü məhv oldu. Bütün ərzaq anbarlarının yanması fransız əsgərlərini aclıqla qarşı-qarşıya qoydu. Beləliklə, Moskva «böyük ordu» üçün tələ oldu. Ümumiyyətlə, tarixi ədəbiyyatda Moskvadakı yanğının fransızların və yaxud rusların törətməsi məsələsi mübahisəli olaraq qalır. Yanğından sonra Napoleon elan etdi ki, «rus barbarları» kin və qəzəbindən öz paytaxtını yandırdı. Kutuzov isə paytaxtı sərxoş fransız əsgərlərinin yandırdığını söylədi. Faktlar ondan ibarətdir ki, rus vətənpərvərləri fransız əsgərlərinə zərbə vurmaq niyyətilə evləri yandırırdı. Moskvanın general qubernatoru F.V.Rostopçin yanğın əleyhinə olan texnikanın şəhərdən çıxarılmasına dair əmr imzalamışdı. Eyni zamanda sərxoş fransız əsgərlərinin odla ehtiyatsız hərəkətləri də yanğına səbəb olmuşdur. Tezliklə, əsasən, ağac tikililərdən ibarət olan Moskva yanaraq Napoleonun yerləşdiyi Kremli belə əhatəyə almışdır. İmperator təcili Kremli tərk edərək Moskva yaxınlığındakı saraylardan birində yerləşmişdir. Moskvadan Napoleon sülh danışıqlarına başlamaq təklifi ilə Kutuzovun qərargahına nümayəndə göndərmişdi. Kutuzov onları qəbul edərək, sülh danışıqlarına yox cavabı vermişdi. Hətta onların qəbul edilməsi belə çarı son dərəcə hiddətləndirmiş və o feldmarşalı məzəmmət etmişdi.

Moskvanı tərk edərək tarixi cinah manevrini həyata keçirən Kutuzov orduya Ryazan yolu ilə cənub-şərqə hərəkət etməyi tapşırmışdı. Sonra istiqaməti sərt bir sürətlə dəyişən baş komandan Qərbə dönərək ordunu Kaluqa yoluna çıxarmışdı. Tez və gizli bir şəraitdə baş tutan yerdəyişmədən yalnız beş gün sonra Myuratin süvarisi rus hissələrini Podolski yaxınlığında aşkar edə bildilər. Artıq çox gec idi. Bu vaxt ərzində Podolskdan keçən rus ordusu Moskvanın 80 kilometr cənubunda yerləşən Tarutino kəndində düşərgə quraraq fransız ordusunun ölkənin cənub rayonlarına gedən yolunu kəsdi. Burada Kaluqa və Tulada ərzaq və hərbi anbarlar, zavodlar yerləşirdi. Moskvanın yandırılıb dağıdılmasından sonra Napoleon yorulub əldən düşən ordusuna bu rayonlarda qışlamaq şəraiti yaratmağı ümid etsə də, Kutuzov onun yolunu bağlamışdı. Soyuqların yaxınlaşdığı bir vaxtda Vittenşteynin korpusunun müdafiə etdiyi Peterburq istiqamətinə hərəkət etməyin əhəmiyyəti yox idi. İki yol qalırdı – ya döyüşərək cənuba, ya da qərbə, dağıdılan Smolensk yoluna dönmək olardı. Moskvada 35 gün keçirən Napoleon başa düşdü ki, dağıtdığı şəhərdə qaldığı hər gün fəlakət gətirir.

Oktyabrın 7-də fransız ordusu Moskvanı tərk edərək Kaluqa yolu ilə cənub-qərbə Kutuzovun ordusuna doğru hərəkət etməyə başladı. Yüz min nəfər döyüşçüsü olan fransız ordusu hələ də böyük güc təşkil edirdi. Napoleon Moskvada fəaliyyətsiz oturduğu vaxtda Tarutinoya yeni qüvvələr cəlb edilir, top, silah-sursat daşınırdı. Tezliklə rus ordusunun sayı 120 min nəfərə çatdı. Əsgərlər dincələrək yeni qüvvə topladılar. Kutuzov məqsədinə çatdı, rus ordusu sayca fransızları ötüb keçdi. Rus artilleriyası 2 dəfə, rus süvariləri 3,5 dəfə fransız hissələrində olduğundan artıq idi. Bu rus ordusuna əks-hücuma keçməyə imkan yaratdı. Doxturovun korpusu və Platovun kazakları arxasınca əsas rus ordusu yeni Kaluqa yolu ilə hərəkət etməyə başladı. Kaluqa yolunda əsas dayanacaq yer Maloyaroslavl şəhəri idi. Napoleon da bura can atırdı. Fransızların ön dəstəsi rusları qabaqlayaraq şəhəri tutdular. Doxturovun korpusu özünü yetirərək döyüşə başladı. Qanlı döyüşlərin gedişində şəhər 8 dəfə əldən-ələ keçdi. Kutuzovun əsas ordusu şəhərə yaxınlaşdığı üçün Napoleon əsas döyüşə başlamadan orduya Mojayska çəkilib oradan Smolensk yoluna keçməyi əmr etdi. Kutuzov hərbi təşəbbüsü əlinə aldı. Şimal-qərb istiqamətində Vittenşteynin ordusu əsas fransız ordusunu qoruyan fransız hissələrini məğlub edərək qərbi Dvinaya doğru sıxışdırdı. Cənubdan Minskə doğru admiral P.V.Çiçaqovun cənub ordusu ləng və ethiyatla da olsa hərəkət edirdi. Şimal və cənubdan sıxışdırılan fransız ordusu Mojayskidən qərbə dağılmış Smolensk yoluna keçməyə məcbur oldu.

M.İ.Kutuzov bütün fransız hissələrinin Smolensk altında birləşməsinə imkan verməmək niyyəti ilə fransızların cinahına cənub-şərqdən rus ordusunun həmləsini şiddətləndirməyi əmr etdi. Sonra rusların əsas və cənub orduları Vittenşteynin korpusu ilə birlikdə düşməni mühasirəyə alıb Rusiyanın qərb sərhədlərinin yaxınlığında məhv etmək idi. Kutuzov kazak atamanı M.İ.Platova 70 kilometr məsafə təşkil edən fransız ordusuna daim həmlə edərək onları gərginlikdə tutmağı əmr verdi.

«Böyük ordu» Rusiyanın içərilərində M.İ.Kutuzovun təşəbbüsü ilə partizan hərəkatı ilə qarşılaşdı. Xüsusilə 1812-ci ilin payız aylarında partizan mübarizəsi xalq müharibəsinin mühüm bir hissəsi oldu. Partizan hərəkatının əsas qüvvəsi Smolensk, Moskva, Kaluqa quberniyalarının böyük və kiçik kəndlərinin kəndliləri olmuşdur. Öz evlərini tərk edən kəndlilər ov tüfəngi, yaba, çəkic, dəyənəklə silahlanaraq ətrafdakı meşələrdə hərbi dəstələr təşkil edirdilər. Onların arasında xeyli şəhərli, zadəgan, öz ordusundan ayrı düşən zabit və əsgərlər də var idi. Partizan dəstələri düşmənin rabitə xəttini dağıdır, yük və ərzaq daşıyan fransız hissələrinə hücum edir, hərbi məlumat aparan çaparları tuturdular. Beləliklə, cəmiyyət, ordu və xalq arasında qırılmaz bir bağ əmələ

gəlmişdir ki, bu da Rusiyanın Napoleon Fransası üzərində 1812-ci il Vətən müharibəsi qələbəsində həlledici faktor olmuşdur.

Rus ordu hissələri arasında təşkil edilən partizan dəstələri fransızlar tərəfindən işğal edilən ərazilərin içərilərinə doğru cəsarətli yürüşlər edirdilər. M.Kutuzov bu partizan müharibəsini düşməni taqətdən salmaq, eyni zamanda cəbhə yaxınlığındakı quberniyalarda əhalinin ruhunu yüksəltmək vasitəsi hesab edirdi. Axtırsk qusar polkunun podpolkovniki cəsur bir insan, şair Denis Davıdov feldmarşaldan ona süvari dəstə verib düşmən arxasına keçməyə icazə verməsini xahiş etmişdir. M.Kutuzovun razılığı ilə kazak və başqırd süvariləri Denis Davıdovun başçılığı ilə düşmən arxasına qəfil hücum edərək fransızları dəhşətli qorxuya salmışdır. Denis Davıdov 1812-ci il Vətən müharibəsinin qəhrəmanlarından biri olmuşdur. Zabit A.S.Fiqner 800 nəfər partizan dəstəsinin başında Mojaysk yolunda fəaliyyət göstərirdi. A.Fiqnerin partizan dəstəsi Moskvaya kimi hərəkət edərək, fransızlara həmlələr təşkil edərək onların yükünü dağıdırdı. Bir neçə xarici dildə danışan cəsur zabit fransız formasında Moskvaya belə daxil olaraq oradan əldə etdiyi qiymətli hərbi məlumatları rus komandanlığına ötürmüşdür. Zabit A.N.Seslavinin 500 nəfərlik partizan dəstəsi Borovski və Moskva arasındakı yola nəzarət edirdi. Məhz A.Seslavin birinci olaraq Napoleonun Moskvadan hərəkət etməsi istiqaməti haqqında məlumatı rus ordusu komandanlığına təqdim etdi ki, onlar da fransızları Maloyaroslavl altında qarşıladı. Düşmənə başqa partizan dəstələri də ağır zərbə vurmuşdu. Boqorodsk qəzasındakı 6 minlik partizan dəstəsinin başında təhkimçi kəndli Gerasim Kurin dayanırdı. Qjatskda draqun-əsgər Yermolay Çetvertakovun partizan dəstəsində dörd min nəfər fəaliyyət göstərirdi. Smolensk quberniyasındakı Seçevka kəndində kəndxuda arvadı Vasilisı Kojinanın partizan dəstəsi geniş şöhrət qazanmışdı.

Vyazma altında M.Ktuzov kilometrlərlə uzanan fransız ordusuna zərbə endirdi. Miloradoviçin komandanlığı altında rus öndəstələri və Platovun kazakları aryerqard döyüşlərlə geri çəkilən fransız ordusunu qoruyan Davunun korpusuna hücum etdi. Ruslar Vyazmanı hücumla aldı. Altı min fransız əsgəri öldürüldü, 2,5 nəfər əsir düşdü. Bunun ardınca partizan hissələri və kazaklar Yeln altında general Ojeronun briqadasını mühasirə edib əsir aldı. Dnepri keçərkən təqribən min nəfər fransız əsgəri əsir düşdü.

Oktyabrın 28-də Napoleon Smolenskə daxil oldu. Soyulan və dağıdılan şəhərdə Napoleon yalnız 4 gün dayandı, orduya qərbə doğru hərəkət etmək əmri verdi. Şəhərdən Rusiya sərhədlərinə yalnız 50 min nəfər fransız qoşunu soyuq noyabrın əvvəllərində yola düşə bildi. Fransızlarla paralel hərəkət edən Rusiya hərbi hissələri Smolenskin qərbindəki Krasnı şəhərində ikigünlük

növbəti döyüşdə şanlı Napoleon marşalları Ney və Davunun korpuslarını məğlub etdi, 6 min fransız əsgəri öldürüldü, 26 min nəfər əsir düşdü. Orş altında fransız ordusuna yeni qüvvələr qatıldı və onların sayı təqribən 75 min nəfərə çatdı. Üç rus ordusunda 100 min nəfərdən çox zabit və əsgər var idi. Berezin çayına can atan fransızlar yolda onların sürətli hərəkətinə mane olan yük və hətta atlarla daşınmayan artilleriyanı belə atdılar. Rus ordusunun ön dəstələri çaya birinci çatdılar, Napoleon bir qədər gec gəldi və sahildə döyüş başladı. Napoleon susmayan top atəşi gurultusu altında qoşun hissələrin çaydan keçirməyə başladı. 40 min nəfərlik döyüş qabiliyyəti olan fransız ordusundan 23 min nəfəri öldürüldü və əsir düşdü. 2 min nəfər Berezin çayının güclü sularında həlak oldu.Yalnız imperator başda olmaqla 9 min nəfər qarşı sahilə çıxıb Vilno istiqamətində hərəkət etməyə başladı. Mahiyyət etibarilə bu «Böyük ordu»nun sonu oldu. Dünyanın ən böyük sərkərdələrindən biri rus cəsarəti, ordu və xalqın vətənpərvərliyi, rus sərkərdələrinin, xüsusilə feldmarşal M.İ.Kutuzovun hərbi bacarığı sayəsində məğlub edildi. M.İ.Kutuzov fransız ordusunu mühasirə edə bilməməkdə qorxaq Vittenşteni və asta hərəkət edən Çiçaqovu təqsirləndirdi. M.Kutuzov Litva ərazisində də fransa ordusunu təqib etməyə başladı. Napoleon ordusunun qalan hissəsinin komandanlığını marşal Myurata təhvil verib gizli surətdə Parisə qaçdı. Myurat Vilnonu rus qoşunlarından müdafiə edə bilmədi, fransız ordusunun qalıqları Polşa və Şərqi Prussiyaya çəkildi, fransızların tərkibindəki pruss korpusu rusların tərəfinə keçdi. 1812-ci ilin dekabrın 31-də I Aleksandr manifest imzalayaraq Rusiyanın ərazisinə soxulan düşmən üzərində tam qələbəni bəyan etdi. 1812-ci il Vətən müharibəsi başa çatdı.

Rusiyanın siyasi və hərbi rəhbərliyində hadisələrin sonrakı gedişinə fərqli münasibət var idi. M.İ.Kutuzov belə hesab edirdi ki, xarici ölkələrə müdaxilə etmədən müharibəni bitirmək olar, rus əsgərlərini və dağılmış ölkəni yeni sınaq qarşısında qomaq lazım deyil. Avropada Napoleonla mübarizəni Avropa xalqları öz üzərinə götürməlidir. I Aleksandr Napoleonla şəxsi qarşıdurmasını onu axıra kimi məhv edib qalib kimi Parisə daxil olmaqda, keçmişdə özünün alçaldılmasına səbəb olan Austerlis, Tilzit, Moskvanın işğal edilib yandırılmasının əvəzini çıxamaqda görürdü. 1813-cü il aprelin 16-da M.İ.Kutuzov kiçik alman şəhəri Buntslauda vəfat etdi.

Rus ordusu sürətlə qərbə doğru hərəkət edərək Polşa və alman torpaqlarındakı fransız qoşun hissələrini əzib Keniqsberqi, fevralın 20-də isə Berlini aldı. Prussiya Napoleonla hərbi ittifaqı pozub Rusiya ilə Fransaya qarşı ittifaq müqaviləsi bağlamağa məcbur oldu. Avstriya da rus ali hərbi başçıları ilə gizli danışıq apararaq, Rusiya ilə gizli sülh bağlayıb, Fransaya qarşı mübarizədə iştirak etməyə vəd verdi.

Napoleon Bonapart müharibəni davam etdirək məqsədilə yeni 500 min nəfərlik ordu hazırladı. Əsasən hərbi təcrübəsi olmayan gənclərdən ibarət bu ordunun hərbi ruhu əvvəlki şanlı ordudakından çox fərqlənirdi. Düzdür, ordudakı veterenlar əvvəl olduğu kimi öz sərkərdələrinə inanır və sitayiş edirdilər. 1813-cü ilin yayında fransız qoşununun Prineydən çıxarılması sayəsində İspaniya azad oldu, Fransanın hərbi gücü xeyli artdı. 1813-cü ilin yayında hücuma keçən Napoleon Şərqi Almaniyaya daxil olaraq Lyutsen və Bautsen şəhərləri yaxınlığında müttəfiqləri məğlub etdi. Avqustun ortalarında 2 günlük döyüşdə Napoleon Drezden altında birləşmiş rus, pruss, Avstriya ordusunun üzərində qələbə çaldı.

Bütün Avropanın ordusu, hökumətləri və xalqları Napoleon Fransasına qarşı birləşdi. 1813-cü il noyabrın 4-7-də Leypsiq altındakı 3 günlük «Xalqlar döyüşü»ndə hər iki tərəfdən 500 min nəfərdən çox adam iştirak etmişdir. Napoleonun əsas hücumunun qarşısını alan rus və alman qoşun hissələri sonra əks-hücuma keçərək fransızları məğlub etdilər. Birləşmiş müttəfiq M.B.Barklay-de-Tolli komandanlıq edirdi. Dekabrın sonunda müttəfiq ordu hissələri Reyni keçərək Fransanın ərazisinə daxil oldu. Paris altındakı qanlı vuruşmadan sonra fransızlar geri çəkildi. 1814-cü il martın 18-də Fransa paytaxtı təslim oldu, Napoleon taxtdan əl çəkdi.

I Aleksandr dəfələrlə qeyd etmişdir ki, Napoleonla mübarizə aparmaqla bərabər, o fransız xalqının dostu olaraq qalır. Rus imperatoru XVIII Lyudovikin Fransız taxtına bərpa edilməsinə mənfi münasibət bəsləyərək Fransada konstitusiyalı idarəçilik sistemi tətbiq etməyin tərəfdarı olmuşdur. Belə ki, I Aleksandr şəxsən Fransanın yeni konstitusiya «xartiya»sının tərtibində iştirak etmişdir. «Xartiya»Fransanın bütün vətəndaşlarının qanun qarşısında bərabərliyinə, din azadlığının qəbuluna təminat verməklə yanaşı, yeni burjua cəmiyyətinin qanun külliyatı olan Napoleonun Vətəndaş kodeksini toxunulmaz saxlayırdı. İcraedici hakimiyyət krala məxsus idi, ancaq «Xartiya» ölkədə ikipalatalı Assambleya – Parlament təsis edirdi. Onun qanunvericilik hakimiyyəti məhdud idi, lakin kralın təqdim etdiyi qanun layihəsini rədd edə bilərdi.

1814-cü il mayın 30-da qaliblər məğlub Fransaya sülhün şərtlərini diqtə etdilər. Napoleon Elba adasına göndərildi. Fransa Avropada fəth etdiyi yerlərdən məhrum edilərək müharibədən əvvəlki sərhədləri daxilində məhdudlaşdırıldı. Onun Şimali İtaliya və Adreatik sahillərindəki əraziləri Avstriyaya keçdi. Napoleonun işğal etdiyi Belçika və Hollandiya birləşərək müstəqil Niderland krallığını yaratdı. Aralıq dənizindəki vacib strateji mövqeyə malik olan Malta İngiltərəyə məxsus oldu. Parisdə qərara alındı ki, Avropanın gələcək taleyi Vyanada ümumavropa konqresində həll edilsin.

1814-cü ilin payızında 2 imperator, 4 kral, 2 şahzadə, 3 böyük hersoq, 215 knyaz evi başçısı, 450 diplomatın iştirakı ilə Vyana konqresi başladı. Konqresin birinci günündən Avropanı siyasi təsir dairəsinə bölmək uğrunda dünənki qaliblər arasında dərin ziddiyyətlərin olduğu meydana çıxdı. Xüsusilə qitənin 3 qüdrətli dövləti olan İngiltərə, Rusiya və Avstriya müharibədən sonrakı Avropada mübarizəyə başladılar.

Bu təbii olaraq yeni koalisiyaların və növbəti müharibələrin baş tutmasına zəmin hazırlamışdır. Belə bir yeni prossesə təkan verən 1814-cü il Vyana konqresi nəticə etibarilə 1853-1856-cı illərədəki Krım müharibəsinə yol açmışdır.

Qaliblər razılığa gəldi ki, müharibədən sonra bərqərar olan quruluşda legitimlik (latınca «legitimus» – qanuni) prinsipi əsasdır. Bu o deməkdir ki, öz taxtından Napoleon tərəfindən qovulan keçmiş sülalələrin hakimiyyəti bərpa olunurdu. Həm də bu legitimlik xeyli məhdud xarakter daşıyırdı. Məsələn, Fransada Burbonlar sülaləsinin bərpası ilə yanaşı, parlament yaranmışdır, Prussiyada kəndlilərin təhkimli vəziyyəti ləğv edilmişdir və s.

I Aleksandr Rusiya imperiyasının tərkibində geniş muxtariyyət və konstitusiya hüququ verilməklə Napoleonun təşkil etdiyi Varşava hersoqluğunun ərazisini tələb etdi. Ancaq Cənubi Polşa torpaqlarına, Avstriya, Şimali Polşa dənizsahili torpaqlarına Prussiya iddia irəli sürdü. Rusiyanın güclənməsini istəməyən İngiltərə Polşa torpaqlarının Rusiya, Avstriya və Prussiya arasında bölüşdürülməsini təklif etdi ki, bu da I Aleksandrı son dərəcədə qəzəbləndirdi.

1815-ci il yanvarın 3-də üç dövlət – İngiltərə, Avstriya və Fransa Rusiyaya qarşı gizli hərbi ittifaq bağladı. Rusiya ilə hərbi qarşıdurmada onların hər biri 150 min döyüşçü ayırmağı öhdəsinə götürdü. 1815-ci ilin fevralında razılaşdırıldı ki, Polşa çarlığı Rusiyaya keçir, imperator burada konstitusiyalı idarəçilik sistemi bərqərar edir. Poznan və bəzi şəhərlər Prussiyaya verilirdi. Polşanın bir hissəsini – Şərqi Qalitsiyanı Avstriya aldı. Gərgin danışıqların getdiyi bir zaman, martın 6-dan 7-nə keçən gecə Vyana imperator sarayında balın davam etdiyi saatlarda çapar məlumat gətirdi ki, Napoleon Bonapart Elbanı tərk edərək Fransanın cənubuna çıxıb silahlı dəstə ilə Parisə doğru hərəkət edir. Bir neçə gündən sonra əhali və ordunun keçmiş imperatoru ruh yüksəkliyi ilə qarşıladığı xəbəri yayıldı. Napoleonun məşhur yüz günü belə başladı. Vyandakı mübahisə, çəkişmə, gizli danışıqlar dayandı. İngiltərə, Rusiya, Avstriya və Prussiya Napoleona qarşı növbəti koalisiya yaratdı. Hərbi əməliyyatların başlamasından əvvəl kral sarayına daxil olan Napoleon XVIII Lyudovikin sənədləri içərisində 3 dövlətin Rusiyaya qarşı bağladığı gizli müqavilənin mətnini aşkar edib tez bir zamanda I Aleksandra göndərdi ki, müttəfiqlərin Rusiyaya qarşı düşmənçilik və məkri imperatorun nəzərinə çatdırsın. Lakin

I Aleksandr siyasi tərəfdaşlarına güzəştə gedərək elan etdi ki, Avropa üçün çox böyük bir təhlükənin yarandığı üçün xırda işlərə fikir vermək olmaz və sənədi buxarıya atıb yandırdı. 1815-ci il iyunun 18-də Vaterloodakı kartof sahəsində ingilis-pruss hərbi qüvvələri Napoleonu məğlub etdi, Bonopart İngiltərənin əsiri kimi uzaq Atlantik okeanındakı Müqəddəs Yelena adasına sürgün olundu. 1821-ci ildə 54 yaşında iddiaya əsasən zəhərlənərək öldürüldü.

Vyana konqresinin qərarları ziddiyyətli və ardıcıl olmasa da, müharibədən sonrakı siyasi və hərbi vəziyyətin qaydaya salınmasında müəyyən rol oynamışdır. Lakin bu hökmdarları qane etmirdi. Onlar təkcə gücə deyil, həm də hüquqi və mənəvi təminata əsaslanan təsisat istəyirdilər. 1815-ci ildə mövcud qaydalar sərhədlərin toxunulmazlığını, hakim sülalənin hakimiyyətinin müdafiəsini, meydana çıxan dövlət quruluşlarının sabitliyini təmin edən Avropa dövlətlərinin Müqəddəs İttifaqını yaratmaq ideyası yaranmışdı. İdeyanın müəllifi olan I Aleksandr Müqəddəs İttifaqın müqaviləsinin maddələrini öz xətti ilə yazmışdır. Dövlətlər arasında dostluq əlaqələrinin saxlanılması, beynəlxalq şəraitin pozulması zamanı bir-birinə kömək göstərilməsi, öz təbəələrinin qardaşlıq, həqiqət və sülh ruhunda tərbiyə olunması, özünü vahid xristian birliyinin üzvü hesab etməsi və b. bu maddələrin məzmununu təşkil edir. Eyni zamanda Müqəddəs İttifaqın konqreslərində humanitar məsələlər, o cümlədən dəniz quldurlarına qarşı mübarizə, qul ticarətinin qadağan olunması, Avropa çaylarının heç bir məhdudiyyət qoymadan azad olması qoyulmuşdur. Mahiyyət etibarilə Vyana konqresi və Müqəddəs İttifaq Avropada «Vyana sistemi» yaradaraq pis və ya yaxşı olmasından asılı olmayaraq 40 il Avropa qitəsini yeni böyük müharibələrdən müdafiə etmişdir.

«Vyana sistemi»nin həyata keçirilməsi zamanı Avropanın aparıcı dövlətləri arasındakı ziddiyyətlər dərinləşmişdir. Bunun başlıca səbəbi inqilabı hərəkatların nəticəsi olaraq Avropanın ictimai həytında meydana gələn dəyişikliklər olmuşdur. Belə şəraitdə Müqəddəs İttifaq və onun lideri I Aleksandrın qarşısında həqiqi tərəqqi və mədəniyyətə yol açan qan tökmədən təkamül yolu ilə konstitusiyalı orqanlarının bərqərar olması məsələsinə münasibət önə çıxmışdır. Müqəddəs ittifaqın üzvləri məsələyə müxtəlif tərəfdən yanaşırdı. Məsələn, 1820-ci il İspaniya inqilabından qorxuya düşən Fransa tez bir zamanda müdaxilə təşkil edib mütləqiyyət quruluşunu müdafiə etməyi tələb edirdi. I Aleksandr məsələyə fərqli yanaşaraq İspaniyadakı hadisələri hüquq və konstitusiya daxilində olduğunu qeyd edərək, xalq hərəkatının konstitusiyaya əsaslanaraq parlementarizmi təsis etməsini və kralın bunun qəbul etməsini qanunauyğun hesab edirdi. Sonra İtaliya və Portuqaliyada inqilabi hərəkat baş verdi. 1820-ci ildə Neapolda qansız inqilab oldu. Kral II Ferdinand ispan

nümunəsində konstitusiyanın elan edilməsinə, parlamentin təsis olunmasına razı oldu. Cənub inqilabçılarının təsiri altında Avstriya Habsburqlarına tabe olan İtaliyanın şimal əyalətlərində inqilabi hərəkat başladı. Avropanın legitimlik mənzərəsi çat verdiyi üçün Avstriya hərbi müdaxilə tələb etdi. Lakin liberal ruhlu I Aleksandr bu zorakılıq tədbirinə qarşı çıxdı. 1820-ci ildə Müqəddəs İttifaqın Troppaudakı konqresində İspaniya və İtaliyanın cənubundakı inqilabi hadisələrə mənəvi təsir göstərmək haqqında qərar çıxdı. Rusiya nümayəndəliyi ziddiyyətlərin siyasi yolla həll edilməsini təklif etdi. Prussiyanın müdafiə etdiyi Avstriya məsələnin hərbi yolla həllini tələb edirdi ki, nəticədə Rusiya bununla razılaşmalı oldu. Avstriya öz qoşunlarını İtaliya, Fransa isə İspaniya sülaləsini xilas etmək məqsədilə Priney yarımadasına göndərdi. Bütün bunlara baxmayaraq, Müqəddəs İttifaq Avropada şəraitin sabitləşməsində müəyyən rol oynayaraq qitədə yeni hərbi və inqilabi ekstremizmin yaranmasına mane oldu.

## §3. Rusiyada müharibədən sonrakı həyat. Dekabristlər hərəkatı

Qorxulu düşmən üzərində qələbə bütün Rusiya cəmiyyətini ruhlandırmışdı. Sosial vəziyyətindən, təhsilindən, düşmənin darmadağın edilməsində şəxsi xidmətlərindən asılı olmayaraq ölkə əhalisinin hər biri bu qələbəni öz qələbəsi hesab edirdi. Cəmiyyətdə oyanış, işıqlı gələcəyə ümid yaranmışdı. Yorulmuş, dağıdılmış, soyulub talan edilmiş ölkə təsərrüfatını bərpa etməyə başladı. Lakin tezliklə məlum oldu ki, böyük hərbi qələbələr və xalqın vətənpərvərlik ruhu ənənəvi Rusiya həyatını, qayda-qanununu, sosial-siyasi quruluşunu mahiyyət etibarilə dəyişməmişdir. Əvvəlki kimi ölkədə təhkimçilik hüququ, mütləq hakimiyyət rejimi hökm sürür, xalqı ölkənin taleyüklü məsələlərinin həllindən uzaqlaşdırılması üstünlük təşkil edir. Ölkənin dəyişilməsinə bəslənən ümidlə mövcud hərəkətsiz Rusiya cəmiyyəti arasında olan uçurum müharibədən sonra I Aleksandrın hakimiyyətinin və sosial-siyasi quruluşun xarakterik xüsusiyyətini təşkil edirdi.

Bütün Avropanı dolaşan rus ordusunun rekrut-əsgərləri əsasən kəndlilərdən ibarət idi ki, onlar da təhkimçilik hüququnun hər yerdə ləğv edildiyinin şahidi oldular. Avropadakı güclü kəndli fermer təsərrüfatlarının, onların səliqə ilə düzəltdiyi əkin sahilərinin, bağ və bostanlarının şahidi olan rus əsgərləri belə təsərrüfatların Rusiyadakından daha çox məhsul verdiyini təsbit etdilər. Vətənə qayıdan bu adamlar yenidən öz həmkəndlilərinin azad olmayan həyatının, mülkədarların özbaşınalığının, sərt icma qaydalarının şahidi oldular. Müharibədən

sonrakı xalqın ruhyüksəkliyi tez bir zamanda köhnə həyatın gündəlik qayğıları, vergilər, borc, mülkədarların sərt tələbləri ilə qarşılaşdılar. Kənd yerlərində çoxsaylı həyəcanlar, hakimiyyətə itaətsizlik, vergi ödənilməsi və biyarın yerinə yetirilməsindən imtina edilməsi və nəhayət, qaçqınçılıq məhz belə şəraitdə meydana gəlmişdir. Düzdür, təhkimli kəndlilərin bu zaman mülkədar və hakimiyyətə qarşı çıxışları açıq xarakter daşımırdı. Hərbi müdaxilə zamanı xalqın ağır sınaq qarşısında ruh və mənəvi birliyinin yaranması nəticəsində mübarizə metodları əsasən dinc xarakter almışdır.

Fəhlələr arasında da həyəcanlar başlamışdır. Novqorod kətan parça manufakturasının fəhlələri qiyam qaldırdı. XIX əsrin 20-ci illərində Demidovların Uraldakı metallurgiya zavodlarında, Perm müəssisələrində fəhlələrin həyəcanları daimi xarakter almışdı.

1820-ci ildə Semyonov qvardiya polkunun əsgər və zabitləri tərs və sadist komandirləri Şvartsın onlarla kobud və rəhmsiz rəftarına görə qiyam qaldırmışdı. Hakimiyyət tez və sərt təpki göstərərək polkun yerləşdiyi kazarmaları əsgərlərin mühasirəsinə aldı. Qiyamçılar təslim olmağa məcbur oldu, polk buraxıldı və əsgərləri uzaq qarnizonlara göndərildi. İşi araşdıran çar polkovniki məhkəməyə sövq etsə də, bildirdi ki, qanunsuz fəaliyyət tabeçilikdə olanlara öz komandirlərinə qarşı çıxış etmək hüququ vermir. Tezliklə semyonovçuların təsiri altında başqa qvardiya polklarında da narazılıq, həyəcan yarandı. Bu rus ordusunda olan əvvəlki sərt qaydalarla bağlı olmayıb, xarici ölkələrdən qalib kimi qayıdan əsgərlərin gördükləri yeni həyat qarşısında köhnə qaydalarla barışmaq istəməməsinin nəticəsi idi.

Rusiyanın müharibədən sonrakı xarakterik əlamətlərindən biri hərbi məskənlər oldu. Əsgərlərin hərbi xidmətilə kəndli əməyinin birləşdirilməsi sayəsində özünü təmin etməsi təcrübəsi hələ XVI əsrdə alman torpaqlarının, İsveç, Macarıstan, Avstriya ordularında tətbiq olunmuşdur. I Aleksandr ölkənin talan edilməsilə əlaqədar böyük bir ordunun saxlanılmasına vəsaitin çatmaması qarşılığında belə bir ideyanı qəbul etdi. Rusiyadakı bu hərbi-iqtisadi ideya mütləq hakimiyyətə, əhali və təhkimli kəndlilərin hüquqsuzluğuna, rekrutların 25 illik icbari xidmətinə əsaslanırdı. Həm də hərbi məskənlər insanlar üzərində zorakılığı həyat qaydası qəbul edən böyük və kiçik rəislərin tabeçiliyinə verilirdi. I Aleksandr hərbi məskənlərin təşkil edilməsini özü Vyana konqresində, Parisdə, başqa ölkələrdə olarkən ölkədə praktik olaraq hakimiyyəti həyata keçirən qraf A.A.Arakçeyevə tapşırdı. Qısa vaxt ərzində şimal-qərb, mərkəzi və bəzi cənub quberniyalarında dövlət kəndliləri və kazakların həm təsərrüfat işləri, həm də hərbi xidmət vəzifəsini yerinə yetirən məskənləri meydana gəldi. Bütün bunlar dövlətdən heç bir xərc tələb etmirdi.

Hərbi məskənlərdə məskunlar üçün yaşayış evlərindən ibarət qəsəbələr salındı ki, bunlar da müasir koteclərə bənzəyirdi. Onlar arasında şose yollar, yol boyu rabitə evi, qərargah binası, məktəb, qaupvaxt, zabitlər evi, yeni kilsə və s. salınmışdır. Belə rayonlarda hərbi xəstəxana, mətbəə, hətta kitabxana da fəaliyyət göstərirdi. Bütün bunlar sərhədləri dəqiq müəyyən olunan əkin sahələri, mal-qara üçün otlaqlarla əhatə olunmuşdu. Qraf A.Arakçeyev hərbi məskənləri gəlirli təsərrüfatlara çevirmişdi. I Aleksandrın çarlığının son dövrlərində Arakçeyevin təşkil etdiyi məskun Kredit Bankında hərbi məskənlərin 26 mln. kapitalı var idi. Bank maddi cəhətdən məskunlara xidmət edir, zabitlərə güzəştli borc ayırırdı. Məhsulsuzluq zamanı ilə əlaqədar xüsusi çörək mağazaları təşkil edilmişdi. A.Arakçeyev məskənlərdə müxtəlif aqronomluq yenilikləri tətbiq edir, məskunların ticarət sahibkarlığını həvəsləndirirdi.

Hərbi məskənlərdəki həyat səviyyəsi adi Rusiya kəndində olandan çox yüksək idi. Lakin buna baxamayaraq, məskunların özü üçün belə bir həyat əsl cəhənnəm idi. Çünki onlara bu firavanlıq hərbi xidmətlə bağlı hər bir kiçik qaydanın nəzərə alındığı, onların həyatı, məişəti, təsərrüfatı, dini inancı, əxlaq, hətta intim vəziyyətlərinin nəzarət altında olduğu ağır əmək hesabına başa gəlirdi. A.Arakçeyev hərbi məskunlar üçün səhər yuxudan oyanma, peçi qalama, sahəyə və ya hərbi təlimə çıxma, nə vaxt kiminlə ailə həyatı qurmaq, körpələri necə yedizdirib tərbiyə etməyə dair xüsusi təlimat belə hazırlamışdır. Bütün bunlar işin nəticəsi nəzərə alınmaqla hazırlansa da, ənənəvi icma həyat tərzi ilə yaşamış adi kəndlilər üçün bu dözülməz olmuşdur. Xüsusilə Arakçeyevin hətta işdən sonra belə içkini qadağan edərək sərxoşları təqib etməsi məskunları hiddətləndirirdi. Qoyulmuş qadağa pozulduqda məskunları danlamaq və ya daha ağır çubuq cəzası, ayaqlarına kündə vurmaq və s. tətbiq edilirdi. A.Arakçeyevin müəyyən etdiyi nizam-intizama, adətən, kobud aşağı mədəni səviyyəsi olan və rəislərinin gözünə girməyə çalışan kiçik zabitlər nəzarət edirdi. Məskənlərdə yaşayanlar xarici rahatlıq təcəssüm etdirsə də, daxilən qorxulu və amansız qayda-qanunun əsirinə çevrilmişdilər. Şikayətlərin qarşısını amansızlıqla alan Arakçeyevin qiyamı güc hesabına yatırırdı. Dövlət bu sistemi yaratmışdır, hərbi məskunların rəisi isə ona can-başla xidmət etmişdir. Müharibədən sonra Rusiyanın 400 min nəfərə yaxın sadə adamı bu ağır təhkimçilik tələsinin qurbanı olmuşdur.

Hərbi dağıntı, vəsaitin çatmaması, xalqın, xüsusilə təhkimli kəndli və işçi adamların narazılığı, ordudakı həyəcan hökumətdən ölkədə vəziyyəti sabitləşdirməyə dair tədbirlər tələb edirdi. Lakin bir tərəfdən irticaçı hökumət dairələri, bürokratik aparat, azsavadlı və köhnəfikirli mülkədarlar, ruhanilərin böyük bir hissəsi «qaydaların bərkidilərək» ənənəvi qayda-qanunun sərtləş-

dirilməsini, konstitusiya yenilikləri, kəndlilərin azad olması fikrinin rədd edilməsini ifadə edirdi. Digər bir tərəfdən I Aleksandr özünün gənclik liberal ideyalarından əl çəkmədən, ona yaxın olan maarifçi xadimlərin, keçmiş Məxfi komitə üzvlərinin iştirakı ilə Rusiya üçün yeni yollar üzərində düşünürdülər. Nəticədə daxili irticaçı qüvvələrin təzyiqi və yeni liberal fikirlər Rusiyanın daxili siyasətinin ziddiyyətli, əcaib mahiyyət kəsb etməsinə səbəb olmuşdur.

XIX əsrin ikinci onilliyinin sonlarında mülkədarların tələbilə qaçqın kəndlilərə dair hökumətin siyasəti sərtləşdi. Pasport nəzarətinin gücləndirilməsi, qaçqınları gizlədənlərin ifşa edilməsi haqqında fərmanlar imzalandı. Senzura nəzarəti artdı, xaricə getmək qaydaları çətinləşdirildi. Mənəvi işlər və Xalq Maarifi Nazirliyinin işi yenidən qurularaq din dərslərinin tədrisi önə çıxdı. Hətta bir sıra təhsil müəssisələrində din fənlərinin tədrisinin ön planda verilməsi tərəfdarları üstünlük təşkil etməyə başladı. Liberal və maarifçi professorlar universitetlərdə təqib olunaraq işdən azad edilirdi. Mütləq hökmdarın arzu və göstərişlərini yerinə yetirən əlahəzrətin xüsusi Dəftərxanası fərqli nazirlik və idarələrin fəaliyyətini əvəz edirdi. Bütün bunlar hərbi məskənlərlə birlikdə I Aleksandrın hakimiyyətinin son illərində daxili siyasətini irtcaçı xarakterindən xəbər verirdi.

Rusiyanın daxili siyasət məsələlərində qəti addım atmaqdan çəkinən və son dərəcə ehtiyatlı hərəkət edən I Aleksandr ölkənin mərkəzi quberniyaları xaricində bir sıra liberal işlərə imza atmışdır. Məsələn, 1816-1819-cu illərdə çar Baltikyanı zadəganların sərfəli olmadığı üçün kəndliləri azad etmək təşəbbüsünü müdafiə etmişdir. Yeni qaydaya əsasən, yerli kəndlilər torpaq üzərindəki hüququnu itirməklə şəxsi azadlıq alırdılar. Eyni zamanda I Aleksandr öz köməkçisi A.A.Arakçeyevə və maliyyə naziri D.A.Quryevə Rusiyada təhkimçilik hüququnun ləğv edilməsinə dair təklif hazırlamağı tapşırmışdı. Hər iki dövlət xadimi hazırladığı təklifləri çara təqdim etdi. Lakin məsələ yenə yekunlaşmadı, çünki imperator sui-qəsdçilər tərəfindən qətl edilən nakam atası I Pavelin taleyini unutmamışdı. İmperator Məxfi komitənin keçmiş üzvü knyaz N.N.Novosiltsevə Rusiya üçün konstitusiya layihəsi hazırlamağı tapşırmışdı. Beləliklə, «Rusiya imperiyasının Dövlət Nizamnamə qramotası» adlı sənəd hazırlandı. Layihə əsasən yeni parlamentli mütləqiyyət quruluşunda seçkili orqan kimi Dövlət Duması və yerli seçkili nümayəndəli orqan «seym» fəaliyyət göstərməli idi. İkipalatalı seçkili parlamentlə bərabər, layihədə söz, mətbuat, din azadlığı, imperiyanın bütün vətəndaşlarının qanun qarşısında bərabərliyi, şəxsiyyətin toxunulmazlığı elan olunurdu. I Aleksandr sənədi bəyənsə də, islahatın əleyhdarlarından ehtiyat edərək onu təsdiq etmədi. Baxmayaraq ki, I Aleksandr konstitusiya ideyasını Finlandiya və Polşada mü-

dafiə edərək tətbiq etmişdi. 1818-ci ildə Polşa çarlığına konstitusiyalı özünüidarə, xüsusi orduya malik olmaq, azad mətbuat hüququ verilmişdi.

Cəmiyyətdəki həyəcan, islahatlara tələbat, təhkimli kəndlilərin, işçilərin itaətsizliyi, hərbi qəsəbə rejiminin hiddəti Rusiya əhalisinin geniş kütləsini əhatə etmişdir. Savadlı, gənc və çılğın rus zabitlərinə bu daha güclü təsir göstərmişdir. Onların çöxu 1812-ci il Vətən müharibəsinin iştirakçısı kimi xarici yürüşlərdə iştirak edərək qalib olaraq Parisə daxil olmuşdur. Qalib ordunun zabitlərinin böyük əksəriyyəti fransız maarifçilik ideyaları ruhunda formalaşaraq Böyük Fransa inqilabını feodal əsarətini, Burbonlar mütləqiyyətini ləğv etdiyi üçün alqışlayır, «qaraların» qiyamını, yakobin diktaturasını isə qəbul etmirdilər. Onların baxışları çox halda gənc I Alkesandrın və Məxfi Komitədəki dostlarının ideyaları ilə üst-üstə düşürdü. İmperatorun konstitusiya dəyişikliyinə, cəmiyyətin humanistləşdirilməsinə doğru atdığı hər bir addımı ruhyüksəkliyi ilə qarşılayan gənc zabitlər müharibədən sonrakı Rusiya həyatının irticaçı əlamətlərini rədd edirdilər.

İlk vaxtlar zabitlər artel adlanan qvardiya kazarmalarında toplanırdılar. Gənc adamlar qəzetləri oxuyur, cari hadisələri müzakirə edirdilər. Bəziləri isə Rusiyanı yenidən qurmaq məqsədilə fəaliyyətə keçməyi nəzərdə tuturdu. 1816-cı ildə Qvardiya Baş Qərərgahının polkovniki, 24 yaşlı Aleksandr Muravyov gizli «Nicat ittifaqı»nı («Союз спасения») yaratdı. İttifaqın əsasını qoyan altılığa knyaz Sergey Trubetskoy, Matvey və Sergey Muravyov – Apostol qardaşları, Nikita Muravyov və İvan Yakuşkin daxil olmuşdular. Onların hamısı müharibə iştirakçısı kimi rus ordusunun tərkibində xarici hərbi yürüşlərdə iştirak etmişdi. Sonradan qvardiya zabitləri, kavalerqard polkunun 23 yaşlı poruçiki Pavel Pestel, knyaz Yevgeni Obolensk və A.S.Puşkinin dostu İvan Puşşin cəmiyyətə daxil oldu və onların sayı 30 nəfərə çatdı. Yüksəkmənsəbli zadəgan ailələrindən olan gənc zabitlərin hamısı əla təhsil almış, bir neçə xarici dildə sərbəst danışırdı. Onlar mütləqiyyəti konstitusiyalı monarxiya ilə əvəz etməyi, vətəndaş azadlığını elan etməyi, hərbi məskənləri ləğv etməyi öz qarşısına vəzifə qoymuşdular. Təşkilat üzvlərinin heç biri Rusiyada idarəetmə forması kimi mütləqiyyətin ləğv edilməsi məsələsini qoymurdu. «Nicat ittifaqı»nın üzvləri əqidəli monarxist olaraq xalqa etibar etmir, onun qiyamçı özbaşınalığından qorxurdular.

1818-ci ildə «Vorobyov qora»da 1812-ci il Vətən müharibəsi şərəfinə abidə ucaltmaq üçün çar sarayı qvardiya ilə birlikdə bir müddətə Moskvaya köçdü. Moskva kazarmalarında alovlu mübahisələr təşkil edən gənc zabitlər azsaylı və qətiyyətsiz əvvəlki təşkilatın yerinə, daha çoxsaylı, genişmiqyaslı və müəyyən məqsədi olan «Səadət ittifaqı»nı («Союз благоденствия») yarat-

dılar. Yeni gizli cəmiyyət öz fəaliyyətlərində ictimai rəy formalaşdırıb ona dayanaraq Rusiyanı təhkimçilik hüququ və mütləqiyyətdən azad etmək niyyətinə idi. Əvvəl olduğu kimi inqilabi metodu qəbul etməyən cəmiyyət üzvləri gizli təşkilatı leqal fəaliyyətlə əlaqələndirərək, müxtəlif səpkili elmi, təsərrüfat, ədəbi, qadın cəmiyyətlərində iştirak vasitəsilə görüşlərini təbliğ edib ölkənin gələcək dəyişdirilməsinə mənəvi zəmin hazırlamaq məqsədi daşıyırdılar. 200 nəfərdən çox üzvü olan «Səadət ittifaqı»nın proqramına maarifpərvər zabitlərlə bərabər yeni formalaşan rus ziyalıları, yüksək vəzifə tutan gənc adamlar – saray xidmətçiləri və məmurlar da rəğbət bəsləyirdi. Cəmiyyətin ideya tərəfdaları arasında hətta çara yaxın olan adamlar, o cümlədən onun general adyutantları belə var idi.

«Səadət ittifaqı» üç il fəaliyyət göstərdi və əməli olaraq böyük işlərə imza atdı. 1820-1821-ci ildə Avropada yeni inqilablar alovlandı. Semyonov polkunun əsgərləri komandirlərinə itaət göstərməkdən imtina edərək ixtişaş qaldırdılar. Əsgərləri qiyamçı adlandırıb ağır cəzalandırdılar, polkda xidmət edən «Səadət ittifaqı»nın üzvləri, daha inqilabi ruhlu Sergey Muravyov-Anostol və gənc Mixail Bejtujyev-Ryumin Ukraynadakı Çerniqov polkuna göndərildi. Yenə cənubda, Vyatka polkuna komandir təyin olunan Pavel Pestel hərbi xidmətə başladı. Mahiyyət etibarilə gizli cəmiyyəti böhran bürümüşdü. İttifaqın üzvlərinin böyük əksəriyyəti daha qətiyyətli fəaliyyət göstərməyi tələb edərək Rusiyada mütləqiyyəti devirib respublika idarə üsulu yaratmaq məqsədilə İspaniya zabitlərinin inqilabi hərbi çevriliş nümunəsindən istifadə etməyi belə düşünürdülər. Cəmiyyətin digər bir hissəsi ölkənin dəyişdirilməsinin mötədil tərəfdarları idi. 1821-ci ildə «Səadət ittifaqı» özünü buraxdı, hər iki tərəf fərqli istiqamətdə fəaliyyətə başladı.

2-ci ordunun yerləşdiyi cənubda polkovnik Pavel Pestelin rəhbərliyi ilə 1821-ci ildə «Səadət ittifaqı»nın cənub şöbəsi əsasında «Cənub cəmiyyəti» («Южное общество») meydana gəldi. Cəmiyyət özünü gizli «şimallıların» tərkib hissəsi hesab edərək nəzərdə tuturdu ki, inqilab paytaxt Peterburqda baş tutmalıdır. Əyalətin qarşısında duran vəzifə isə paytaxtdakı çevrilişi müdafiə edərək inkişaf etdirməkdir. Odur ki, cəmiyyətin rəhbərliyinin tərkibinə şimal upravasının liderlərindən biri Nikita Muravyevi də daxil etmişdilər. 1822-ci ildə N.M.Muravyov, S.P.Trubetskoy, Y.P.Obolenskinin rəhbərliyi ilə «Şimal cəmiyyəti» («Северное общество») yarandı. Onlar da özlərini «cənublularla» bir hesab edərək onlarla sıx əlaqə saxlayırdılar. Lakin «cənub» və «şimal» cəmiyyətlərinin fəaliyyət proqramı bir-birindən fərqlənirdi.

Pavel İvanoviç Pestelin (1793-1826) «Rus pravdası» adlanan konstitusiya layihəsində hərbi inqilabi çevriliş yolu ilə hakimiyyət amansız inqilabi

diktaturanı həyata keçirən Müvəqqəti inqilabi hökumətin əlinə keçir və Rusiyanın gələcəkdə yenidən qurulması məhz diktatura, mərkəzləşmə və repressiya mövqeyindən yanaşılaraq həll olunurdu. Ümumi səadətə, bərabərlik və ədalətə nail olmaq məqsədilə nəzərdə tutulan tədbirlər içərisində çarın öldürülməsi, uşaqları da daxil olmaqla bütün ailəsinin məhv edilməsi belə yer almışdır. «Rus pravdası» ölkədə mütləqiyyətin ləğv olunmasını, respublika idarə üsulunun təsis edilməsini elan edərək Rusiyanı regionların milli xüsusiyyətlərini nəzərə almadan vahid unitar dövlət kimi təsbit edib, «yəhudi məsələsini» onların Rusiyadan sürgün edilməsi və yaxud məcburi surətdə milli və dini xüsusiyyətlərindən əl çəkməsi hesabına həll edilmə nəzərdə tuturdu. Silklər ləğv olunaraq ölkənin bütün əhalisi Rusiyanın bərabərhüquqlu vətəndaşı elan olunurdu. Hökmdarın yerinə Pestelə görə, ölkədə bir palatadan ibarət Xalq veçesi təsis olunur, icra hakimiyyətini hər il bir nəfərin dəyişdiyi beş nəfərdən ibarət dövlət Duması yerinə yetirirdi. Dumanın başında axırıncı il işləməli olan üzv – prezident dayanırdı. «Rus pravdası»na əsasən 18 yaşına çatmış hər bir Rusiya vətəndaşına seçki hüququ verilirdi. Kəndli məsələsini radikal bir formada həll etməyi təklif edən Pestel torpaqları xüsusilə kəndliləri torpaq payı ilə təmin edən ictimai mülkiyyətə və mülkədarların da sahib ola biləcəyi xüsusi mülkiyyətə bölməyi nəzərdə tuturdu. Beləliklə, «cənub cəmiyyəti»nin «Rus pravadası» proqramında bir tərəfdən ekstremizm, zor əlamətləri, repressiya praktikası, digər bir tərəfdən demokratik ideallar ifadə edirdi ki, bunları da bir yerdə yalnız zor və qan tökməklə həll etmək olardı.

«Şimal cəmiyyəti» və onun rəhbərləri Nikolay Mixayloviç Muravyovun (1796-1843) hazırladığı Konstitusiya proqramına görə Rusiyada mütləqiyyət quruluşu qalır, varislik hüququ olan imperator icra hakimiyyətinin başçısı kimi «Rusiya dövlətinin ali məmuru» elan olunurdu. İmperatora sarayın ştatında olan xidmətçiləri saxlamaq məqsədilə əhəmiyyətli dərəcədə aylıq təyin edilirdi, onlar seçki hüququndan məhrum edilirdi ki, ölkənin taleyinə təsir göstərə bilməsinlər. Muravyovun Konstitusiyası Rusiyanı federativ dövlət bəyan edir, Rusiyanın mərkəzində yerləşən, özünün vətənpərvərlik ənənələri və qəhrəmanlıq keçmişilə seçilən Nijni Novqorodu ölkənin paytaxtı seçirdi. Lakin hər iki cəmiyyətin proqramında ölkənin milli cəhətdən bölüşməsi prinsipi rədd edilmişdir. Muravyov ölkədə ikipalatalı «xalq veçesi» adlanan qanunverici orqan – parlament yaradılmasını nəzərdə tuturdu. N.Muravyov əmlak senzi əsasında seçki keçirilməsini tətbiq edərək yalnız xüsusi mülkiyyətə sahib olan insanların ölkədə siyasəti doğru istiqamətə yönəltməyə malik olduqlarını düşünürdü. Konstitusiyada kəndlilərə iki desyatin torpaq payı ayrılmaqla təhkimçilik hüququnun və hərbi məskənlərin ləğv olunması elan edilirdi.

N.Muravyov və tərəfdarları inqilabi diktaturaya, çarın öldürülməsinə, zorakılığa qarşı çıxaraq belə hesab edirdilər ki, inqilabi çevrilişdən sonra çağrılması nəzərdə tutulan Müəssislər məclisi Konstitusiyanı həyata keçirməlidir.

«Cənub cəmiyyəti»nin radikal hərbi çevriliş, çarın öldürülməsi, inqilabdan sonrakı diktatura ideyası inkişaf edib yayılırdı. Öz görüşlərini təbliğ etmək məqsədilə P.Pestel 1824-cü ildə Peterburqa gəldi. Təlatümlü yığıncaqlarda o «Rus pravdası»nı çevrilişin ideya platforması kimi qəbul etməyi təkid edirdi. Pestelin təzyiqi və «Şimal cəmiyyəti»ndə K.F.Rıleyev, A.A.Bestujyev, Y.P.Obolenski, P.Q.Kaxovskinin simasında ekstremizm tərəfdarlarının meydana gəlməsi sayəsində konstitusiyaçılar geri addım atdılar. P.İ.Pestel «şimallıların» mülayim mövqe tutan rəhbərlərindən gizli Peterburqda «Cənub cəmiyyəti»nin filialını yaratdı ki, bu mülayimlərin etirazına səbəb oldu. Tədricən Aleksandr və Nikita Muravyovlar gizli cəmiyyətdən uzaqlaşdı, knyaz S.P.Trubetskoy tərəddüd edirdi. Nəhayət, qəsdçilər «cənublulara» güzəşt olaraq çevrilişdən sonra Rusiyada respublika təsis etməyə, «şimallılara» güzəşt olaraq Müəssislər məclisi çağırmağa razı oldular. Birgə silahlı çıxış etməyə hazırlıq haqqında da razılıq əldə olundu.

Bu zaman Ukraynanın Poltava quberniyasında kiçik zabitlər P.İ. və A.İ.Borisovlar, İ.İ.Qorbaçevskinin rəhbərliyi ilə gizli «Birləşmiş slavyan cəmiyyəti» («Общество соединённых славян») meydana gəldi. Ordu zabitləri, xırda zadəganları birləşdirən gizli təşkilat Rusiyada mütləqiyyəti devirərək bütün Şərqi Avropanın slavyan xalqlarını ümumslavyan federasiyasında birləşdirmək vəzifəsini qarşısına qoymuşdur. 1825-ci ildə «Birləşmiş slavyan cəmiyyəti» «Cənub cəmiyyəti»nin tərkibinə daxil oldu.

Hadisələr qəsdçiləri tələsməyə məcbur etmişdir. 1825-ci ilin noyabrında Taqanroqda əvvəl heç vaxt xəstələnməyən 47 yaşlı I Aleksandr az bir zamanda xəstələnərək öldü. Ölümqabağı imperator cənub ordusundakı qəsdə dair iştirakçıların tam siyahısı da daxil olmaqla məlumat almışdı. Qəsdçilərin siyahısında çoxlu tanınmış şimallılar, çara yaxın olanlar belə var idi. Taqanroqda aldığı məlumatlardan sarsılan çar həbslər üçü əmr verdi, lakin bir neçə gündən sonra vəfat etdi. Çarın gözlənilməz ölümü rəsmi nikahından övladı olmadığı üçün taxtın varisi məsələsi ilə bağlı vəziyyəti kəskinləşdirmişdi. Vərəsəlik qanununa uyğu olaraq Rusiyanın imperiya taxtı sülalənin kişi xətti ilə ikinci şəxsinə, yəni çarın qardaşı Konstantinə keçməli idi. Konstantin kral ailəsindən olmayan polyak gözəli qrafinya İoanna Qrudzinskaya ilə ailə həyatı qurduğu üçün faktiki olaraq taxtdan imtina etmişdir. Odur ki, Taqanroqa səfər ərəfəsində I Aleksandr vəsiyyətnamə yazaraq taxtın varisi I Pavelin üçüncü oğlu Nikolay Pavloviçi təyin etmişdir ki, onun da bu zaman artıq varisi gələcək imperator

II Aleksandr doğulmuşdu. Öz qərarında tərəddüd edən I Aleksandr vəsiyyətnaməsini gizli saxladığı üçün Konstantin rəsmi varis hesab olunurdu.

Peteburqdakı qəsdçilər belə bir qarışıq siyasi vəziyyətdən istifadə etmək qərarına gəldilər. Onlar Peterburqda Nikolayın rəsmi andiçmə mərasiminə mane olaraq özlərinə sadiq qoşunu Senat meydanına çıxararaq Qış sarayını tutub çar ailəsini həbs edərək Senatın mütləqiyyətin devrildiyini elan etməsini planlaşdırırdılar. Bəyan edilən manifestdə Müvəqqəti inqilabi hökumətin təsis olunması, təhkimçilik hüququnun ləğvi, bütün vətəndaşların qanun qarşısında bərabərliyi, rekrut xidmətinin və hərbi məskənlərin aradan qaldırılması nəzərdə tutulmuşdu. Sonra Müəssislər Məclisinin çağırılması və Rusiyanın gələcək yenidənqurulma proqramının müzakirəsini təşkil etməli idi. Üsyançı qüvvələrin diktatoru, yəni komandanı Baş qərargahın polkovniki knyaz Sergey Pyotroviç Trubetskoy seçildi. Noyabrın 27-də qaydaya uyğun olaraq paytaxt və ordu Konstantinə and içdi.

Həmin gün Nikolay və ailəsi də Konstantinə and içməsinə baxmayaraq, I Aleksandrın Konstantinin taxtdan imtina etməsinə dair vəsiyyətnaməsinin meydana çıxdığına görə yenidən andiçmə dekabrın 14-nə təyin olundu. Artıq Nikolay həm Peterburqda, həm də cənub ordusundakı qəsddən xəbərdar olmuşdu. Odur ki, qəsdçilərin həbsinə dair əmr verdi. Lakin sui-qəsdin qarşısını almaq mümkün olmadı, onun iştirakçıları da son görüşə toplaşaraq dekabrın 14-dəki andiçməyə mane olaraq dövlət çevrilişi etməyi planlaşdırmışdılar. Rılyevin mənzilində həlledici görüşdə o Kaxovskidən xahiş etdi ki, leyb-qrenader polkunun formasını geyinib, saraya daxil olub I Nikolayı öldürsün. Yakuboviçə Qış sarayını tutmaq, sadiq qoşunun digər bir hissəsinə Petropavlov qalasını ələ keçirmək tapşırıldı.

1825-ci il dekabrın 14-də səhər tezdən leyb-qvardiya draqun polkunun stabs-kapitanı A.A.Bestujevin komandanlığı altında Moskva polku Senat meydanına gələrək I Pyotrun abidəsi ətrafında dördbucaq şəklində düzüldü. Üsyan başladı, lakin onun planı pozuldu. Səhər tezdən Kaxovski təkbaşına terrorçu olmaq istəməyərək çarı öldürməkdən imtina etdi. Yakuboviç qətliam törətməmək, çarı və ailəsini öldürməmək məqsədilə üsyançıları Qış sarayına aparmaqdan imtina etdi. Knyaz Trubetskoy meydana çıxmayaraq qərargahın binasından Senat meydanındakı vəziyyəti müşahidə edərək həyatını təhlükə altına atıb-atmamağı düşünürdü. Beləliklə, üsyançıların qarşısına çıxmayan knyaz onları hərbi rəhbərsiz qoydu. Saat 11-ə doğru məlum oldu ki, Senat artıq I Nikolaya and içib, senatorlar evlərinə dağılışıb.

Yeni hökmdar sadiq hərbi qüvvələrin əhatəsində meydana gəldi. Eyni zamanda Peterburqun general qubernatoru Miloradoviç də imperatorla birlikdə

idi. Hökumət hərbi hissələri üsyançılara hücum etsə də, atəşlə geri dəf edildi. Üsyançılara əlavə kömək qoşulması sayəsində onların sayı 30 nəfər zabit olmaqla 3 minə çatdı. Nikolay meydana piyada, artilleriya, süvari qvardiya hissələrini topladı ki, onların da sayı üsyançılardan dörd qat çox idi. Üsyançı ordunun yeni hərbi rəhbəri knyaz Y.P.Obolensk seçildi. Üsyan xəbəri tez bir zamanda Peterburqda yayıldığı üçün 150 min nəfərə kimi «qara» əhali meydanın ətrafına yığıldı. Onlar üsyançılara rəğbət bəsləyərək hökumət əsgərlərinə daş atır, Nikolayın ünvanına qorxu səsləndirirdilər.

Çarlığa qan tökməklə başlamaq istəməyən I Nikolay 1812-ci il Vətən müharibəsinin qəhrəmanı, əsgərlər içərisində böyük nüfuza sahib olan M.A.Miloradoviçi üsyançıların yanına göndərdi. Atını üsyançıların yanına sürən Miloradoviç onlara müraciət edərək, dilə tutub kazarmalara qayıtmağı təklif etdi. Əsgərlər arasında vəziyyətin dəyişmək üzrə olduğu bir vaxtda Y.B.Obolensk general qubernatorun üzərinə atılaraq süngü ilə atını və belindən özünü yaraladı. Kaxovski isə qaçaraq generalı arxadan tapançadan açdığı atəşlə ağır yaraladı. Özünü yetirən zabitlər onu evə apardılar. Günün ikinci yarısı saat 15-də I Nikolay üsyançılara toplardan atəş açmağı əmr etdi. İlk atəş dördbucaq düzülmüş əsgərlərin başı üzərindən atılsa da, onlar sıralarını pozmadılar. Növbəti atəş üsyançıları nişan aldığı üçün mərmilər sıranı pozdu, Nevanın buzları üzərilə Vasilyev adasına qaçmağa cəhd edən əsgərlər top mərmilərinin buzları dağıtması nəticəsində suda boğulmağa başladılar. Tezliklə hər şey başa çatdı. Polis və əsgərlər meyit və yaralıları yığışdırır, bir çox üsyançını buz altına salırdılar. Bütün şəhərdə axtarış və həbslər başladı. Qış sarayı hər tərəfdən imperator qoşunları tərəfdən mühasirə olunmuşdu. Saray meydanında Preobrajensk polku, eger və süvariqardı yerləşmişdi. «Cənub cəmiyyəti» də uğursuzluğa düçar oldu. Cəmiyyətin rəhbəri P.İ.Pestel dekabrın 13-də Peterburqda həbs edilmişdi.

Bir neçə gündən sonra Peterburqdakı üsyandan xəbər alan «Cənub cəmiyyəti» üzvlərindən olan Çerniqov polku verdikləri vədə sadiq qalaraq dekabrın 29-da podpolkovnik S.İ.Muravyov-Apostol və podporuçik M.P.Bestujyev-Ryuminin komandanlığı altında qiyam qaldırdı. Vasilkov şəhərini alan üsyançılar başqa hissələrlə birləşmək məqsədilə Jitomir şəhərinə doğru yola çıxdı. Amma hökumət qüvvələri yolda onların qarşısını kəsib top atəşinə tutdu. Yaralanan S.İ.Muravyov-Apostol əsirlikdə özünə gəldi. Onun dostu Bestujev-Ryumin də əlində silah tutuldu. Üsyançılar dağıdıldı, həbslər başladı.

Dekabrın 17-də Peterburqda altı ay davam edən istintaq komitəsi işə başladı. İstintaqın gedişində üsyanın hazırlanması və gedişi, inqilabi baxışların formalaşması, gizli cəmiyyətlərin yaranmasına dair suallara dekabristlərin

çoxu açıq cavab verərək öz görüş və proqramlarını ətraflı izah etmişdi. Tanınmış zadəgan ailələrindən olan zabitlərin çox hissəsi hərəkətlərinin əsaslı və qanunauyğun olduğunu göstərməyə çalışırdı. I Nikolayın zabitlərin inqilabi qiyama qoşulmağının səbəblərini dərindən araşdırması ətrafdakıları belə təəccübləndirmişdi. Zadəganların bir hissəsi Petropavlovsk qalasındakı ağır şəraitdən, öz talelərindəki qeyri-müəyyənlikdən, edam qorxusundan sınmışdı.

Məhkəmə dekabristləri günahına görə beş nəfərin, o cümlədən Pestel, Rıleyev, Muravyov-Apostol, Bestujev-Ryumin, Kaxovskinin də daxil edilmədiyi 11 dərəcəyə bölmüşdü. Dərəcəyə daxil edilməyən «daha artıq cani» («пущих злодеев») hesab olunan beş nəfər Petropavlov qalasında asıldı. Yerdə qalanların hamısı rütbədən məhrum edilərək ömürlük sıravi əsgərliyə sürgün edilməyə qədər müxtəlif cəzalara məruz qaldı. Əsgərlər qamçı cəzası tətbiq olunmaqla uzaq qarnizonlara sürgünə göndərildi. Cəriməçi Çerniqov polku Qafqaza göndərildi. Dekabrist zabitlərin bir hissəsi də Qafqaza sürgün olunmuşdu. Dekabristlərin işi ilə bağlı 600 nəfərə kimi adam istintaq və məhkəməyə cəlb edilmişdi. Yalnız I Nikolayın ölümündən sonra 30 il sürgün həyatı yaşayan və sağ qalan dekabristlərə əfv elan olunaraq Rusiyanın mərkəzi quberniyalarına gəlməmək şərtilə katorqa həbsxanasından çıxaraq Sibir məskənlərində yaşamağa icazə verildi.

Dekabristlər hərəkatı böyük imperiyanın əhalisinin çox hissəsi üçün diqqət kəsb etməsə də, cəmiyyətin yuxarı təbəqələrini, yeni formalaşmaqda olan ziyalılar üçün unudulmaz iz qoymuşdur. Azsaylı inqilabçıların respublikaçı, təhkimçilik əleyhinə azadlıqsevər görüşləri, hökumətə qarşı cəsarətli mövqeləri, özlərini qurban vermək iradəsi uzun illər gənc və vicdanlı insanlara təsir edərək onları cəmiyyətdəki ziddiyyətləri dekabristlər kimi güc, təzyiq və qəsd yolu ilə həll etməyə səfərbər etmişdir. Bununla bərabər, dekabr üsyanı Rusiyanın mühafizəkar qüvvələrini yeni imperatorun ətrafında birləşdirərək harada meydana çıxamasından asılı olmayaraq inqilabi hərəkata qarşı daha kəskin mübarizə aparmağa sövq etmişdir.

### §4. Rusiya imperiyası I Nikolayın dövründə. Daxili siyasət

I Pavelin dörd oğlundan üçüncüsü olan Nikolay Pavloviç 1796-cı il iyunun 25-də Tsarskoye Seloda anadan olmuşdur. Nənəsi imperatriçə II Yekaterina nəvəsinin doğulmasına çox sevinərək özü onu sarayının eyvanından xalqa göstərmişdir. Nikolay adı verilən böyük knyaz I Aleksandrın ikinci qardaşı olduğu üçün taxta heç bir şansının olmadığını düşünərək ancaq hərbi işlərlə maraqlanmışdır. Nikolay varis olmasa da, I Aleksandr kiçik qardaşını gənc yaşlarından dövlət işlərinə cəlb etmişdir.1814-cü ildə 17 yaşlı böyük knyaz imperatorla birlikdə Parisdə, sonra Napoleona qalib gəlmiş dörd dövlətin iştirak etdiyi Vyana konqresində olmuşdur. Bir az sonra qalib qardaşını İngiltərə, Avstriya və Prussiyaya müşayiət edən Nikolay Prussiyada kral III Fridrix Vilhelmin qızı Frederika Luiza Şarlotta Vilhelminanı sevərək üç il sonra onunla ailə həyatı qurmuşdur. 1817-ci il iyulun 1-də Qış sarayının kilsəsində kəbin kəsilmiş, növbəti il aperil 17-də gələcək imperator II Aleksandr anadan olmuşdur. Prussiya şahzadəsi pravoslavlığı qəbul edərək Rusiyada Aleksandra Fyodorovna (1798-1860) adını almışdır. O 1871-ci ildən Almaniya imperiyasının birinci imperatoru olan I Vilhelmin doğma bacısı idi.

Nikolay Pavloviçin anası imperatriçə Mariya Fyodorovna da Vyurtemberq şahzadəsi kimi alman mənşəli olması I Nikolayı Almaniya ilə qohumluq bağları vasitəsilə birləşdirirdi. Lakin körpə vaxtlarından baxıcısının ingilis qadın olması səbəbilə Nikolay almanlara deyil, ingilislərin adət və ənənəsinə meyil salmışdır. 1816-1817-ci illərdə bir neçə ayı İngiltərədə keçirən Nikolay kral III Georg və Napoleonla müharibənin qəhrəmanı hersoq Vellinqtonun havadarlığı sayəsində ballar, axşam qəbulları, cıdırlarla yanaşı, cəbhəxana, tərsanə, kömür hövzəsi, sənaye müəssisəsi, həbsxana və xəstəxanalara da baş çəkmişdir. Bu zaman İngiltərədə olan hər cür texniki qurğuları, maşınları, ümumiyyətlə, texnikanı çox sevən Nikolay Pavloviç İngiltərədə birinci dəmiryolu çəkilməyə başlayanda qərara almışdır ki, «ağıllı dəmircik» («умная железка») onun ölkəsində də hərəkət etməlidir. Artıq 1837-ci ildə uzunluğu 27 kilometr olan birinci dəmiryolu Peterburqla Tsarskoe Selonun arasında tikilmişdir. Məhz I Nikolayın dövründə 600 kilometrdən çox olan Moskva və Peterburq arasında 10 il tikintisi davam edən dəmiryolu 1851-ci ildə fəaliyyətə başlamışdır və Nikolayev adını almışdır. Bir xeyli əvvəl, 1831-ci ildə Rusiyada texniki mütəxəssis hazırlığının iri mərkəzi olan Peterburq Ali Texniki Tədris Müəssisəsi – Texnlogiya İnstitutu açılmışdır.

I Nikolay taxta çıxarkən şahidi olduğu qanlı 1825-ci il 14 dekabr hadisələri bütün ömrü boyu onun yaddaşında ağır iz buraxmışdır. İmperator idarəçiliyi

dövründə hakimiyyətə qarşı olan fəaliyyətə yol verməməyə böyük səy göstərmişdir. I Nikolay şübhə etmirdi ki, mütləqiyyət, «Tanrının çara verdiyi hakimiyyət» Rusiya üçün vacib idarəçilik formasıdır. Avropadakı konstitusiya və parlament formasına qarşı olan imperator bunların qarışıqlığa, tac qoymuş hökmdarların qanuni hakimiyyətinin legetimlik prinsipinin pozulmasına şərait yaratdığını düşünürdü. Çara görə mütləqiyyət sistemin islahat vasitəsilə yeni idarəçilik orqanları hesabına deyil, mövcud dövlət mexanizmini təkmilləşdirmək yolu ilə sağlamlaşdırmaq mümkündür.

Otuz il ərzində I Nikolay ən kəskin məsələ olan təhkimçilik hüququnun ləğv edilməsini həll etməyə qətiyyət göstərməmişdir. 1826-cı ildən başlayaraq kəndlilərin məsələsi ilə bağlı altı dəfə dövlət komitələri təsis olunaraq hərtərəfli tədqiq edilmişdir. Hökumət kəndli məsələsindəki sui-istifadə hallarını dərk edərək bununla bağlı bir sıra qanunvericilik əsasnaməsi hazırlamışdır. Hətta təhkimçilik hüququnun ləğvi imkanı belə araşdırılmış, meydana çıxan çətinlik və təhlükələrlə əlaqədar hakimiyyət geri addım atmışdır. Yalnız 1824-cü ildə mükəlləfiyyətli kəndlilərə dair fərman qəbul edildi ki, bu da onların keçid ictimai vəziyyətinə yol açırdı. Hakimiyyəti illərində bütün Rusiyanı gəzən yeni imperator hər yerdə dağınıqlığa, xəzinə oğurluğuna, rüşvətxorluğa rast gəlmişdir. Mərkəzlərlə müqayisədə əyalətlərdə vəziyyət daha pis idi. Məmurları cəzalandırıb işdən qovmasına baxmayaraq, bütün hakimiyyəti dövründə başısoyuq, diqqətsiz, şərəfsiz insanlara qarşı mübarizə aparsa da, nəzərə çarpan bir nəticə əldə etməmişdir.

I Nikolay mərhəmət və iltifat nümayiş etdirməyi, istedadlı təşəbbüs fəaliyyətlərinə qayğı göstərməyi bacarırdı. Məsələn, 1826-cı ildə tacqoyma mərasimi zamanı sürgündən Moskvaya dəvət etdiyi A.S.Puşkinə demişdir: «Sən yazdıqlarının hamısını mənə göndərməlisən – bundan etibarən mən sənin senzorun olacam.» Hakimiyyətin şairi qəbul etməsi oxucuların ona marağının artmasına səbəb olmuşdur. 1836-cı ildə N.V.Qoqol «Müfəttiş» («Ревизор») komediyasını yazaraq əyalət məmurlarının məişət və əxlaq məsələlərini gülüş obyektinə çevirdikdə çoxları bu əsəri hakimiyyətə qarşı fəaliyyət kimi görmüşdür. İmperator isə əsərin səhnələşdirilməsinə icazə verərək özü də tamaşanı izlədikdən sonra qeyd etmişdir ki, «onda mənə hamıdan çox tənbeh çatmışdır».

İmperator və onun müşavirləri 1825-ci il 14 dekabr hadisələrindən belə bir dərs çıxarmışdır ki, imperiyanın daxili siyasətini, hakimiyyətin təşkilini elə dəyişdirmək lazımdır ki, bir tərəfdən hökmət əleyhinə oxşar hərəkətə yol verilməsin, digər tərəfdən isə hakimiyyətin əsasını möhkəmləndirirək dövlət maşınının işini yaxşılaşdırsın. Nikolay dövründə Rusiyanın ali dövlət idarəçilik sistemi prinsip etibarı ilə dəyişdirilməmişdir. Bəzi əlavə və dəyişiklik həyata

keçirilmişdir. Yeni nazirliklər, 1826-cı ildə İmperator sarayı, 1837-ci ildə Dövlət əmlakı meydana gəlmişdir. 1826-cı ildə ədliyyə, daxili işlər, maarif nazirliyinin bəzi funksiyalarını özündə birləşdirən Əlahəzrət imperator Dəftərxanasının Üçüncü şöbəsi yaradılmışdır. I Nikolay Rusiya həyatını qanunla idarə etmək məqsədilə qanunvericilik sənədlərinin sistemləşdirilməsi məsələsinin həllini Mixail Speranskiyə tapşırdı. 1830-cu ildə köməkçiləri ilə işi yekunlaşdıran M.Speranski I Ptyotrun atası Aleksey Mixayloviçin çarlığı zamanı verilən ümümi qanunnamədən başlayaraq, 30 min qanunu 45 cilddə toplayaraq «Rusiya imperiyasının tam qanunlar külliyatı»nı («Полное собрание законов Российской империи») hazırladı. İki ildən sonra XIX əsrin 30-cu illərinin əvvəllərində Rusiya ərzisində fəaliyyətdə olan hüquqi aktları əhatə edən 15 cildlik «Rusiya imperiyasının qanun külliyyatı» («Свод законов Российской империи») hazırlandı və imperiyanın bütün dövlət idarələrinə göndərildi. Bu işlərin təşkilindəki xidmətlərinə görə Mixail Speranski 1839-cu ildə qraf tituluna layiq görülmüşdür.

I Nikolayın çarlığı dövründə dövlətin maliyyə vəziyyətini qaydaya salmağa tələbat yaranmışdı. II Yekaterina zamanı hökumət dövriyyəyə çoxlu kağız pul «(assiqnatsii») buraxmışdır. İlk vaxtlar bu əsginasların dəyəri gümüş pulların dəyəri ilə bərabər olmuşdur. Tədricən əsginasların miqdarı artdıqca onun real dəyəri aşağı düşmüşdür. I Nikolayın çarlığı dövründə bir rublluq əsginasın dəyəri gümüş rublun ¼-ni təşkil edirdi. Dövlətin maliyyə sistemində meydana gəlmiş qarışıqlığın aradan qaldırılmasını imperator maliyyə naziri qraf Y.F.Kankrinə (1774-1845) tapşırdı. Qısa zamanda qızıl və gümüşdən ibarət dövlət ehtiyatı yaradan nazir 1843-cü ildə bir gümüş rublu üç rubl əlli qəpik pula dəyişmək kursunu müəyyən etməklə tədricən köhnə əsginasları yeni kağız pul kredit biletləri əvəz etmişdir. I Nikolayın dövründə Rusiyda ilk dəfə daimi təqaüd müəyyən edilmişdir. 1827-ci ildə çarın imzaladığı fərmana əsasən 35 il dövlət xidmətindən sonra insanlar istefaya çıxaraq dövlət təqaüdü almaq hüququna sahib olurdu. Bu şərtlə ki, qüsursuz («беспорочно») xidmət göstərsinlər.

I Nikolayın hakimiyyəti qarşısında dayanmış mürəkkəb məsələlərdən biri təhkimli kəndlilərin azad edilməsi idi. Lakin kəndlilərin hüquqi cəhətdən azad olunaraq ağadan asılı olmaması məsələni həll etmirdi. Torpaqlar mülkədarın sərəncamında qalırdı ki, xüsusi mülkiyyətin toxunulmazlığı prinsipinə görə dövlət bu torpaqları zor işlədərək ələ keçirə bilməzdi. Başqa bir tərəfdən vaxtı ilə A.Arakçeyevin təklif etdiyi kimi torpağı sahibindən əvəzini ödəməklə satın alıb kəndlilərə verməyə dövlətin vəsaiti çatmırdı. Kəndliləri azad edərək onlara özünü təmin etmək şəraitinin yaradılması vəziyyəti daha da kəskinləşdirə bilərdi. Torpaqları əlində saxlayan mülkədarların torpağını əkib-becərmə

işlərini azaltmağa məcbur olaraq kənd təsərrüfatında məhsuldarlığın aşağı düşməsinə, dövlətin ixrac etdiyi taxıldan əldə etdiyi gəlirdən məhrum olmasına şərait yaratmış olardı. Yaşamaq üçün heç bir şəraiti olmayan kəndlilər daha ağır şərtlərlə mülkədarlara işləməyə və yaxud kəndlərdə iş tapa bilməyərək ölkədə dolaşaraq hər an çat verə bilən gərgin vəziyyətə zəmin yarada bilərdi. Bu təhlükələri nəzərdə tutan imperator təhkimçilik hüququnu ləğv etməyərək mülkədarlarla kəndlilərin münasibətini qaydaya salmaq məqsədilə bəzi tədbirlər həyata keçirdi.

1842-ci ildə imzalanmış mükəlləfiyyətli kəndlilərə dair fərmanla torpaq sahiblərinə təhkimçilik münasibətlərini ləğv etməyə, kəndlilərə isə topaqlara sahib olmaq hüququ verilmişdir. Mülkədar ödənc müqabilində kəndlilərə torpaq payı ayıraraq onları azad edə bilərdi ki, belə kəndlilər də mükəlləfiyyətli («обязанные») olurdu. İmperator dövlət mülklərinin kəndlilərilə birlikdə xüsusi mülkiyyətçilərə verilməsini qadağan edərək müflisləşmiş mülkədarlar torpaqlarını xəzinəyə daxil edirdi və keçmiş təhkimlilər «dövlət kəndliləri»nə çevrilirdi. Ukraynanın cənubuna, Bessarabiya, Sibir, Qafqaza qaçan kəndliləri azadlıqda saxlayan hökumət təhkimli kəndlilərini itirən mülkədarlara isə zərərin dəyərini ödəyirdi. XIX əsrin 30-cu illərinin əvvəllərində dövlət kəndlilərinin sayının 8 milyondan çox olduğunu nəzərə alaraq, 1837-ci ildə qraf P.D.Kiselyovun (1788-1872) başçılığı ilə Dövlət Əmlak Nazirliyi yaradılmışdır. Biyar işləri yerinə təsərrüfatların gəliri dəqiq nəzərə alınmaqla ödənc müəyyən edilmiş, dövlət mülkləri və kəndlilərin xüsusi şəxslərə icarəyə verilməsi təcrübəsi ləğv olunmuşdur. Dövlət kəndliləri özünüidarə hüququ alaraq cari işlərə rəhbərlik etmək üçün ağsaqqal və yüzbaşı seçirdilər. Qraf P.D.Kiselyovun rəhbərliyi ilə nazirlik dövlət hesabına çoxlu kənd təsərrüfatı məktəbləri açmışdır ki, burada da təsərrüfatı idarə etməyin yenilikləri ilə tanış olurdular.

I Nikolayın 30 illik hakimiyyəti dövründə idarəçlik işləri ilə məşğul olan xeyli qabiliyyətli «dövlət adamları» meydana gəlmişdir. M.M.Speranski, qraf P.D.Kiselyov və qraf Aleksandr Xristoforoviç Benkendorfu (1783-1844) misal göstərmək kifayətdir. A.Benkendorf I Pyotrun dövründə Rusiyanın tərkibinə daxil edilmiş Şərqi Baltik sahilləri rayonundan olan alman-zadəgan ailəsindən çıxmışdır. Atası general X.İ.Benkendorf I Pavelin çarlığında Riqanın hərbi qubertnatoru olmuşdur. Adi dünyəvi təhsil alan A.Benkendorf 1798-ci ildə hərbi xidmətə başlayaraq Napoleona qarşı müharibədə müxtəlif hərbi kampaniyalarda iştirak etmiş, 1819-cu ildə Qvardiya korpusunun qərargah rəisi təyin edilmişdir. I Nikolayın hakimiyyətinin ilk günlərindən çarın yanında olaraq 1825-ci il 14 dekabr qiyamının yatırılmasında yaxından iştirak etmişdir. O, hesab edirdi ki, bəzi zadəganların müqəddəs vəzifəsini unutması hakimiyyətə

qarşı cinayətkar çıxışa səbəb olmuşdur. 1826-cı il iyulun 26-da A.X.Benkendorf əlahəzrət imperator dəftərxanasının Üçüncü şöbəsinə Baş rəis təyin olundu. Şöbənin əsas vəzifəsi ayrı-ayrı adamların və ya qrupların hakimiyyət əleyhinə hərəkatı ilə mübarizə aparmaq idi. Eyni zamanda vəzifə sahiblərinin sui-istifadə fəaliyyətlərinin aşkar edilərək rəhbərliyə məlumat təqdim edilməsi də tələb olunurdu. Dövlət əleyhinə cinayətlərə qarşı mübarizədə Üçüncü şöbə jandarmlar korpusu vasitəsilə cəmiyyətin və xalqın əhvali-ruhiyyəsinə nəzarət edir, bütün cinayət və siyasi işlər üzrə axtarış və istintaq təşkil edirdi. Rusiyada yarım əsrdən çox fəaliyyət göstərən Üçüncü şöbə yalnız 1880-ci ildə ləğv edilmişdir. Üçüncü şöbə nəzarət, axtarış, xəbərçiliklə yanaşı, onun başçısı ölkədəki vəziyyət və ümumdövlət xarakteri kəsb edən konkret tədbirlərə dair təklifləri çara təqdim edirdi. Üçüncü şöbəyə siyasi cinayətlərlə bərabər, baxılmaq məqsədilə ayrı-ayrı illərdə on minlərə çatan müraciətlər daxil olurdu. Belə müraciətlərin təqribən on faizi mülkədarların öz təhkimli kəndliləri ilə sərt münasibətindən bəhs edirdi. Bundan əlavə, təqaüd, yardım, təltiflərə, borcların vaxtının uzadılması və yaxud ləğv edilməsinə dair kütləvi müraciətlər öz həllini gözləyirdi. Ən mühüm və səs-küyə səbəb olan işləri şöbənin başçısı çarın nəzərinə çatdırırdı.

I Nikolayın imperatorluğu zamanı məşhur dövlət xadimlərindən biri də qraf S.S.Uvarov (1786-1855) olmuşdur. S.Uvarov dövrünün geniş dünyagörüşə malik, bilikli adamlarından biri kimi yeni və qədim dillərə sahib, arxeologiya, fəlsəfə, tarixlə dərindən maraqlanan bir şəxs olmuşdur. Sergey Semyonoviç Uvarov 1811-1822-ci illərdə Peterburq tədris dairəsinin müdiri, 1818-ci ildən ömrünün sonuna kimi Rusiya İmperator Elmlər Akademiyasının prezidenti, 1833-cü ildən 1849-cu ilə kimi maarif naziri olmuşdur. Bir çox elmi əsərlərin müəllifi, xidməti işi sahəsindəki naliyyətlərinə görə 1846-cı ildə qraf tituluna layiq görülmüşdür. Maarif və təhsil işlərinə xüsusi qayğı göstərən S.Uvarov bir tərəfdən əhali arasında ibtidai təhsilin yayılmasına şərait yaratmış, digər bir tərəfdən universitetlərin əsl elm və maarif mərkəzlərinə çevrilməsinə çalışmışdır. XIX əsrin 30-cu illərinin əvvəllərində Peterburq, Moskva, Kazan, Helsinqfors (Helsinki), Xarkov, Derpt (Tartu), Vilno (Vilnyus), Varşava universitetləri fəaliyyət göstərirdi. 1834-cü ildə isə Kiyev Universiteti açılmışdır. Ən yaxşı tələbələri seçib dövlət hesabına oxutmaq məqsədilə xarici ölkələrə, xüsusilə Almaniyanın tanınmış təhsil mərkəzlərinə göndərirdilər. 1755-ci ildə M.V.Lomonosov tərəfindən əsası qoyulan ölkənin ən qədim təhsil ocağı Moskva Universitetində 1831-ci ildə 814 nəfər tələbə təhsil alırdı. Universitetin nəzdində altıillik Nəcib pansion fəaliyyət göstərirdi ki, burada sonradan Universitetə daxil olmaq hüququ ilə zadəganların övladları qəbul

olunurdu. Universitetin nəzdində həm də məktəb və gimnaziyalar üçün müəllim hazırlayan xüsusi Pedaqoji İnstitutut fəaliyyət göstərirdi. XIX əsrin 30-40-cı illərində Rusiya elminin şərəfi olan görkəmli müəllim və tələbələr Moskva Universiteti ilə bağlı olmuşdur. Görkəmli tarixçilər M.P.Poqodin, T.N.Qranovski, S.M.Solovyov onlara misaldır.

Lakin S.S.Uvarovun fəaliyyəti gələcək nəsillərin yaddaşında konkret xidməti işləri ilə deyil, Rusiya dövlətinə qarşı olan insanların «irticaçı» adlandırdığı «rəsmi xalqçılıq nəzəriyyəsi» ilə qalmışdır. Əslində, Sergey Uvarov heç bir nəzəriyyə yaratmamış, 1834-cü ildə dairə təhsil rəislərindən nazir böyüməkdə olan nəsli «pravoslavlıq, mütləqiyyət, xalqçılıq» («православия, самодержавия, народности») ruhunda oxutmağı tələb etmişdir. Nazirin göstərişinin mahiyyəti dəbdə olan «bərabərlik» («равенстве») və «azadlıq» («свобода») nəzəriyyəsinə qarşı Rusiya dövlətçiliyi anlayışını, rus millətinin mənəvi aləmini qoymaqdan ibarətdir. Uvarov formulunda «pravoslavlıq», «dünyagörüşü», «mütləqiyyət» dövlət quruluşunu təcəssüm etdirir, «xalqçılıq» anlayışı isə o deməkdir ki, «pravoslavlıq» və «mütləqiyyət» xalqın ruhuna, onun ölkə və dünyanın qurulması anlayışına uyğundur.

Nəhəng Rusiya imperiyası XIX əsrin birinci yarısında kənd təsərrüfatı ölkəsi olaraq qalırdı. Əhalinin 90 faizi kənd yerlərində yaşayırdı. Onların əsas məşğuliyyəti əkinçilik və torpaqla bağlı olmuşdur. Eyni zamanda kənd yerlərində müxtəlif sənət növləri, xırda kustar istehsal geniş yayılmışdı. İqtisadiyyatın sənaye bölməsi bu zaman ikinci dərəcəli vəziyyətdə idi. 1801-ci ildə Rusiya imperiyasında 95 min işçinin çalışdığı, 25 mln. rublluq satılıq məhsul istehsal edən 2423 sənaye müəssisəsi fəaliyyət göstərirdi. 1854-cü ildə isə 460 min işçinin çalışdığı, 160 mln. rublluq satılıq məhsul istehsal edən 9944 sənaye müəssisəsi var idi. 1854-cü ildə ölkə əhalisinin sayı 70 milyon nəfər, dövlət xərclərinin 350 mln. rubl olmasını nəzərə alsaq, XIX əsrin ikinci yarısının əvvəllərində Rusiya imperiyasının sənaye dövlətləri sırasında olmadığını görərik. 50 il əvvəl olduğu kimi ölkədə 100 nəfər və ondan çox olan sənaye müəssisələrinin sayı olduqca az idi. Rusiyada sənaye və ticarətin cəm- ləşdiyi üç əsas region mərkəzi mövcud idi. İri sənaye müəssisələrinin yer- ləşdiyi Peterburq ölkənin xarici dövlətlərlə əsas ticarət qapısı idi. Moskva və ona yaxın quberniyalar toxuculuq və qida sənaye müəssisələri mərkəzinə çevrilmişdir. Ural isə əvvəllər olduğu kimi filiz xammalı və metal əridilməsi mərkəzi idi. XIX əsrin 40-cı illərindən başlayaraq Donbasda yeni sənaye xammal mərkəzi mənimsənilməyə başlandı ki, sonradan metallurgiya, kömüremalı və ağır maşınqurașdırma mərkəzinə çevrildi.

Böyük müəssisələr olan manufakturalar Rusiyada XVII əsrdə yaransa da, burada əsasən əl əməyindən istifadə edilirdi. Manufakturalar xüsusi şəxslərə və dövlətə məxsus olurdu. Hökumətin sifarişini yerinə yetirən dövlət manufakturaları ilk növbədə ordu və donanma üçün silah, kəndir, kətan parça, dəri, hərbi geyim hazırlayırdı. Manufakturalarda ənənəvi olaraq işçinin icbari əməyindən istifadə olunurdu. Təhkimli kəndlinin razı olub-olmamasından asılı olmayaraq, fabrik və zavodlara yazaraq müəyyən edilən işləri yerinə yetirməyə məcbur edirdilər. Belə işçilərə posession kəndlilər adı verilmişdi. Qərbi Avropa dövlətlərində fəaliyyət göstərən manufakturalarda artıq XVIII əsrdən başlayaraq muzdlu əməkdən geniş istifadə edilməyə başlanmışdı. Rusiyada muzdlu əməkdən XIX əsrin əvvəllərində istifadə edilməyə başlanmışdı. 1830-cu ilə isə doğru ölkənin manufakturalarında çalışan işçilərin 60 faizə yaxını azad muzdlu əməkli işçilər idi.

At gücü kimi sadə dartı qüvvəsinin və su mühərriklərinin yerini tutan buxar mühərriklərinin sənayedə tətbiqi böyük sıçrayışa səbəb olmuşdur. Dünyada ilk buxar mühərriki ilə işləyən maşını rusiyalı İvan İvanoviç Polzunov 1763-cü ildə hazırlamışdır. İşçi qüvvəsinin ucuz başa gəlməsi layihənin mürəkkəb və bahalı olması səbəbilə ixtiraçının maşını geniş miqyasda tətbiq edilmədi. On ildən sonra ingilis ixtiraçısı Ceyms Uattın kəşf etdiyi universal buxar mühərrikli maşın İngiltərə sənayesində, sonra bütün dünyada geniş tətbiq edilməyə başlandı. Uattın mühərriki XIX əsrin sonlarında daxiliyanma mühərriki meydana çıxana kimi işləyərək bütün sənaye sahələrinin çoşqun tərəqqisinə səbəb olmuşdur. Buxar maşınının tətbiqi sənaye müəssisələrinin gücünü və məhsuldarlığını tez bir zamanda artırdı. Əl əməyinin mexaniki əməklə əvəz edilməsi sənaye çevrilişi adlanır ki, bu da İngiltərə, ABŞ, Hollandiya kimi ölkələrdə XIX əsrin ortalarında başa çatmışdır. Rusiyada isə zavod və fabriklərin müasir sənaye quruluşu forması XIX əsrin 80-ci illərinin əvvəllərində bərqərar olmuşdur.

Tədricən 100 nəfərdən çox işçisi olan iri pambıq parça toxuculuq fabrikləri meydana gəlmişdir. 1804-cü ildə Rusiya imperiyasında 199, 1830-cu ildə isə 538 belə fabrik fəaliyyət göstərirdi. Demək olar ki, onların hamısı rus və xarici tacirlərə məxsus olmuşdur. Qubbard, Knop, Nobel, Qujon, Jiro, Şpan, Vaxter xarici ölkələrdən Rusiyaya işləmək məqsədilə gəlmiş mühəndis və texniklər idi. Sənaye çevrilişi sənaye müəssisələrinin, onların məhsuldarlığının artmasına, malın qiymətinin aşağı düşməsinə səbəb olmuşdur.

Sənaye və ticarətin inkişafı şəhər mərkəzlərinin artmasına zəmin yaratmışdır. Rusiyanın Avropa hissəsinin şəhər əhalisi 1811-ci ildən 1856-cı ilə qədər 2,8-dən 5,7 mln. nəfərə çatmışdır. Bu illərdə Rusiya imperiyasının şəhər

əhalisi 75% artaraq 41-dən 72 mln. nəfərə çatmışdır. 15 il, yəni 1826-cı ildən 1840-cı ilə kimi Peterburqun əhalisi 330-dan 470 min nəfərə, Moskvanın əhalisi isə 200-dən 350 min nəfərə çatmışdır. Yalnız dövlət və sahibkarlara məxsus iri fabrik və zavodlarda maşınların tətbiqi geniş miqyas almışdır. XIX əsrin 30-cu illərindən başlayaraq, belə zavod və fabriklərdə istifadə olunan buxar maşınları sayəsində Rusiyada sənaye çevrilişi başlayaraq yarım əsr sonra başa çatmışdır. Peterburqda nəhəng İjorsk, Aleksandov, Peterburq tökmə Putilov dövlət zavodları buxar maşını və buxar qazanları istehsal edirdi. XIX əsrin 30-40-cı illərində Aleksandrov zavodu paroxod kompaniyaları üçün böyük həcmdə buxar maşınları sifarişi yerinə yetirirdi. Krım müharibəsi ərəfəsində Rusiyada 250 min nəfəri əhatə edən bir neçə min sənaye müəssisəsi fəaliyyət göstərirdi. Onların çoxu üçdən əlli nəfərə kimi işçisi olan kiçik emalatxanalar idi.

Böyük maşınqayırma zavodlarının sayı cəmi 25-ə çatırdı ki, onlar da ölkənin tələbatının 30 faizini ödəyirdi. 1850-ci ildən 1860-cı ilə kimi maşınqayırma zavodlarının sayı 99-a, onların əhatə etdiyi fəhlələr isə 12 min nəfərə çatmışdır. Lakin metallurgiya və maşınqayırmanın artım sürətinə görə Rusiya aparıcı sənaye ölkəsi olan Böyük Britaniyadan çox geri qalırdı. Rusiyada 1800-cü ildən 1860-cı ilə kimi domna peçlərinin sayı 142-dən 145-ə, çuqun əridilməsi 9 971 min puddan 18 198 min puda çatdığı halda, bəhs edilən illərdə İngiltərədə domna peçləri 150-dən 565-ə, çuqun əridilməsi isə 9 836 min puddan 23 590 min puda çatmışdır.

## §5. I Nikolayın xarici siyasəti

1795-ci ildə Rusiyanın tərkibinə daxil edilmiş Polşanın ərazisi 1815-ci il Vyana konqresinin qərarına əsasən geçnişləndirilərək Polşa krallığı (Polşa çarlığı) adı altında təsdiq olundu. Bütün Avropa dövlətləri onu Rusiya imperiyasının ayrılmaz hissəsi olaraq qəbul etdi, Rusiyanın imperatoru, eyni zamanda Polşa çarı idi. I Aleksandr «Rusiya Polşasına» konstitusiya bəxş edərək, əvvəlki qanunları, xüsusi xəzinə və ordunu toxunulmaz saxlamışdı. Polşa özünüidarəçiliyinin ali orqanı əhalinin seçdiyi Seym bəyan edildi. 1829-cu ilin mayında Nikolay Pavloviç Varşava kral qəsrində polyak Seymi və voyevodalıqların deputatları qarşısında Polşa kral tacını qəbul etdi.

1830-cu il noyabrın 17-də bir qrup hərbi sui-qəsdçi Varşavadakı böyük knyaz Konstantin Pavloviçin yerləşdiyi Belveder sarayına hücum etdi. Son

anda qaçmağı bacaran Konstantindən fərqli olaraq saraydakılar qətlə yetirildi. Ertəsi gün bütün Polşada rusları və onlara rəğbət bəsləyənləri qarət edib öldürməyə başladılar. Bir neçə həftə və ay ərzində minlərlə adam öldürüldü. Bütün polyak ordusu çara verdiyi andı pozaraq üsyançıların tərəfinə keçdi. Varşavada ölkənin müstəqilliyini elan edən müvəqqəti hökumət təşkil olundu, imperatora sülh danışıqlarına başlamaq təklif edildi. I Nikolay təklifi rədd etdi, üsyançılarla rus ordusu arasında hərbi əməliyyatlar başladı. 1831-ci il fevralın 13-də Varşava ətrafındakı Praqada feldmarşal qraf İ.İ.Dibiçin komandanlığı altında rus ordusu Polşa birliklərini dağıtdı. Polyak birliklərinin qalıqları Varşavada möhkəmləndi.

1831-ci ilin yazında Hindistandan Rusiyaya yayılmış taun xəstəliyi rus ordusunu iflic etdi. Əsgərlərin çoxu, 1831-ci il mayın 29-da qraf İ.İ.Dibiç, iyunun 15-də Polşa çarlığının canişini, böyük knyaz Konstantin Pavloviç xəstəlikdən öldü. 1831-ci il avqustun 28-də general-feldmarşal, qraf İ.F.Paskeviçin komandanlığı altında rus ordusu Varşavaya daxil olub üsyanı yatırdı, onun fəal iştirakçıları xaricə qaçdı. 1832-ci il fevralın 21-də elan edilən «Məhdud statut»a («Ограниченный статут») əsasən polyak konstitusiyası, müstəqil ordusu və maliyyəsi ləğv olundu.

XIX əsrin əvvəllərində Rusiya ilə müharibələrdə məğlub olan Osmanlı Türkiyəsi və İran məğlubiyyətinin əvəzini çıxmaq ümidində idi. Bu məqsədlə başlayan 1826-1828-ci il Rus-İran müharibəsi İranın məğlubiyyəti və 1828-ci il fevralın 10-da Təbrizdən bir qədər cənubdda olan Türkmənçay sülhünün bağlanması ilə yekunlaşdı. Sülhün şərtlərinə görə, İrəvan və Naxçıvan xanlıqları Rusiyaya ilhaq edildi.

1828-ci ilin aprelində Rusiya-Osmanlı Türkiyəsi müharibəsi başladı. Qafqaz cəbhəsində rus qoşunlarının hücumu Osmanlı Türkiyəsini sülh istəməyə məcbur etdi. 1829-cu ildə bağlanmış Ədirnə müqaviləsinə əsasən, Osmanlı Türkiyəsi Cənubi Qafqazın çar Rusiyası tərəfindən zəbt olunmasını qəbul etdi və Cənubi Qafqazın Rusiya imperiyasının tərkibinə daxil edilməsi başa çatdı.

XIX əsrin əvvəllərində Gürcüstanın birləşdirilməsi, qalibiyyətli 1806-1812, 1828-1829-cu illər Rusiya-Osmanlı, 1804-1813-cü və 1826-1828-ci illər Rusiya-İran müharibələrindən sonra Qafqazın Qara dənizdən Xəzər dənizinə kimi böyük ərazilər Rusiyanın tərkibinə daxil edilmişdir. Qafqaz dağ silsiləsinin şimal-şərqində çərkəz, çeçen, ləzgi, inquş, kumık, avar dağlı tayfaları məskunlaşmışdır ki, onlar da yad qanunlara tabe olmurdular. Döyüşkənliyi ilə fərqlənən bu xalqlar ənənəvi olaraq maldarlıq və qismən soyğunçu basqınlarla məşğul olurdular. XIX əsrdə islam dininə xidmət edən bu adamlar arasında dini rəhbər olan imama tam tabeçilik tələb edən müridizm geniş ya-

yılmışdı ki, onlar da qeyri-müsəlmanlara qarşı müqəddəs müharibə – qəzavat elan etmişdi. İslam dinində bu cərəyanın tərəfdarları olan müridlər «kafirlərə» qarşı «cihad müharibəsi»ni şəxsi həyatlarında birinci dərəcəli vəzifə hesab etməyə borclu idilər.

Rusiya imperiyasının istila etdiyi Qafqazda mövqeyi möhkəmləndikcə yerli dağlı tayfalar rus hərbi ekspedisiyalarına, gözətçi məntəqələrinə, yerli mərkəzlərə daha tez-tez hücum edərək soyğunçuluq, qarətlə birlikdə adamları öldürürdülər. Çarizmin Qafqazdakı amansız müstəmləkə siyasəti, hərbi ekspedisiyalar zamanı aulların (kəndlərin) məhv edilməsi, dağlılara vəhşi münasibət yerli əhalini qəzəbləndirdi. XIX əsrin 30-40-cı illərində Dağıstan və Çeçenistanın dağlı tayfaları İman Şamilin (1797-1871) rəhbərliyi altında birləşərək öz azadlıqları uğrunda Rusiya imperiyası ilə müharibəyə başladı. Ali ruhani və dünyəvi hakim olan hərbi-dini dövlətin, yəni imamətin rəhbəri Şamil Dağıstanın Gimri avar aulunda kəndli ailəsində anadan olmuşdur. Müsəlman ruhaniləri arasında tərbiyə görən Şamil gözəl islam təhsili almış, Quran və ərəb ədəbiyyatını dərindən mənimsəmişdir. Ağıllı və mərd bir adam olan imama görə «kafirlərlə» müharibə Tanrıya ibadət etməkdir. 1834-cü ildə Həmzət bəyin vəfat etməsindən sonra imam seçilən Şamil 25 il Rusiya imperiyasına qarşı müharibəyə və ona tabe olmaq istəməyən rəqiblərinə qarşı mübarizəyə başçılıq etmişdir. Müharibə amansız və qanlı xarakter almışdır. Öz arxa cəbhəsindən on, bəzən yüz kilometrlərlə məsafədən aralı düşən rus qoşunları çətin keçidləri olan yerlərdə hərbi əməliyyatlar aparırdı. Hərbi əməliyyatları yalnız yay aylarında aparmaq olardı, qışda isə bu yerləri keçilməz qar örtükləri əhatə edirdi.

Təbii və coğrafi əngəllərlə bərabər xüsusi həyat və qanun normalarına sahib yerli xalqlar arasında hərbi əməliyyatlar aparmaq daha çətin idi. Rus ordu komandanlığı və vətəndaş məmurları dağlı xalqlarla daha ehtiyatlı davranaraq onları incitməməyə və müxtəlif vasitələrlə öz tərəflərinə çəkməyə başladılar. Artıq 1839-cu ildəki rus qoşunlarının hərbi ekspedisiyası ərəfəsində 45 nəfər dağlı knyazı general P.X.Qrabbın hərbi əməliyyatını dəstəkləyirdi. Sərt bir intizama tabe olan Şamilin dağlıları qəfil hücum edib rusların əsgərlərinə zərbə vurduqdan sonra gözlənilmədən dağlara çəkilirdilər. Rus hərbi qoşunu addım-addım irəliləyərək dağlıq ərazilərdə möhkəmlənirdilər. Dəfələrlə Şamilə onun üçün əlverişli sülh şərtləri ilə təklif olunsa da, imam bunu qətiyyətlə rədd etmişdir. Bir neçə dəfə məğlub olaraq mühasirəyə düşməsinə baxmayaraq, Şamilin qoşunları mühasirədən çıxaraq «kafirlərə» qarşı «cihad müharibəsi»ni davam etmişdir.

XIX əsrin 40-cı illərinin sonunda Şamilin hakimiyyəti 400 min nəfərə yaxın əhalinin məskunlaşdığı Çeçenistan və Dağıstanın dağlıq ərazisini

əhatə edirdi ki, onlar da bu torpaqları öz mülkləri kimi qəbul edərək istənilən adama ölüm hökmü və yaxud əfv elan edə bilərdilər. Bu öznəməxsus hərbi-dini dövlətdə – imamətdə sərt qayda hökm sürürdü. Hər hansı bir günaha görə dağlılar çox halda ölüm cəzası alırdılar. Bu dövlətdə hər şey Rusiya imperiyası ilə müharibə aparmaq mənafeyinə tabe idi. Müharibə uzun sürdü, istər rus ordusu, istəsə də hər bir aul uğrunda cəsarətlə vuruşan dağlılar üçün məşəqqətli oldu.

Krım müharibəsi başa çatdıqdan sonra Qafqaz canişini knyaz A.İ.Baryatinski pul və hədiyyələrlə dağlıların ayrı-ayrı başçılarını ələ alaraq onları Şamildən uzaqlaşdırmışdı. 1859-cu ildə Rusiya qoşunları Vedeno aulunda yerləşən Şamilin qərargahını mühasirəyə aldı. 1859-cu ilin avqustundan əvvəlində Şamil az bir dəstə ilə Dağıstanın keçilməz Qunib auluna yola düşdü. Gecə qonşu kəndlərin dağlıları hücum edib Şamilin yük arabalarını soydular. Qunibdə Şamil yalnız atı və əlində olan silahı ilə qalmışdı. 1859-cu ilin avqustun 18-də A.İ.Baryatinski Şamilə onun və yaxınlarının Rusiyanı tərk etməsi şərti ilə təslim olmağı təklif etdi. Şamil Rusiya tərəfinin səmimiyyətinə inanmayaraq cavab vermədi. Rus ordusu hücuma başladı. Şamilin vəziyyəti çıxılmaz idi, hətta onun oğulları belə təslim olmasa, rusların tərəfinə keçəcəklərini bildirdilər. Avqustun 25-də Şamil təslim oldu və sığınacaqdan çıxdıqda rus əsgərlərinin «ura!» sədaları onu çox mütəəssir etmişdir.

Məğlub dövlətin rəhbəri kimi Şamili canişin özü ehtiramla qarşılayaraq silahını belə saxlamaqla xüsusi karetada gözətçilərin müşayiəti ilə Rusiyanın şimalına yola saldılar. Bütün bunlardan çox təəccüblənən Şamili Xarkov yaxınlığında imperator II Aleksandr qəbul etdi. Fəxri əsirin yaşaması üçün geniş gəzinti bağı və kiçik məscidi olan Kaluqa şəhərinin ən yaxşı saraylarından birini ayırdılar. Dağıstandan onun iki arvadını, uşaqlarını, nəvələrini və qohumlarını cəmi 22 nəfər olmaqla saraya yerləşdirdilər. Şamil və yaxınlarını saxlamaq məqsədilə hər il xəzinədən bir neçə on min rubl vəsait ayrılmışdır. 1870-ci ildə Şamilə Məkkəyə həcc ziyarətinə getməyə icazə verilmişdir. 1871-ci il fevralın 4-də Şamil orada vəfat etdikdən sonra Mədinənin müsəlman qəbiristanlığında dəfn olunmuşdur.

1864-cü ildə rus ordusu Qərbi Qafqazda çərkəzləri tabe etdikdən sonra müharibə başa çatmış oldu. Minlərlə adamın həyatı bahasına başa gələn təqribən yarım əsrlik müharibə başa çatdıqdan sonra Şimali Qafqazda sülh bərqərar olmuşdur.

I Nikolay monarxiya dövlətləri ilə dostluq münasibətlərinin tərəfdarı olmuşdur. O, 1815-ci ildəki Napoleon üzərindəki qalib dövlətlərin Vyana konqresinin Avropada müəyyən etdiyi siyasi sistemi müdafiə edirdi. Bunun əsasını

isə legitimlik prinsipi, yəni hökmdarların sabitliyi saxlamaq məqsədilə mövcud padşah sülaləsini müdafiə etməsi təşkil edirdi.

İmperatorun xarici siyasət sahəsindəki belə yanaşma mövqeyi mürəkkəb vəziyyətlə kəsişirdi. Birincisi, Rusiya Balkanlarda və Osmanlı imperiyasının başqa ərazilərində sultanın sərt hakimiyyətinə qarşı çıxan xristian xalqlarına ənənəvi olaraq rəğbət bəsləyirdi. İkincisi, I Nikolayın hakimiyyəti dövründə bəzi Avropa dövlətlərindəki inqilablar nəticəsində hakimiyyətə legitim olmayan hökmdarlar gəlmişdir. 1830-1831-ci illərdəki Polşa inqilabı, 1830-cu ildəki Fransa və Belçika inqilablarından sonra I Nikolay Avropa inqilabları ilə mübarizə mövqeyində dayanmışdır. 1833-cü ildən Rusiya, Avstriya və Prussiya hər yerdə qanuni hakimiyyəti müdafiə etmək məqsədilə razılaşma imzaladılar.

Hətta 1830-cu ildə Fransada baş tutan inqilab nəticəsində Burbonlar sülaləsinin nümayəndəsi X Karl taxtdan salınaraq birbaşa varislə deyil, sülalənin uzaq qolunun nümayəndəsi olan Lui-Filipp Orleanski ilə əvəz edildikdən sonra I Nikolay legitim monarxı dəyişdirmiş Fransaya belə müdaxilə təşkil etmək məcburiyyətində olmuşdur. Amma Fransanın daxili işlərinə müdaxilə olunması müdafiə edilmədiyi üçün baş tutmamışdır. Fransa dövləti ilə münasibətlər isə gərgin olaraq qalmışdır.

I Nikolay möhkəm sülhü bərqərar etmək və Rusiyanın mövqeyini möhkəmlətmək məqsədilə zamanın qüdrətli iqtisadi gücü olan İngiltərə ilə yaxınlaşmaq siyasəti yeridirdi. 1835-ci ildə Rusiya ingilis hökumətinə ingilis-rus ziddiyyətlərini aradan qaldırmaq istiqamətində təklif verdi. Mahiyyəti ondan ibarət idi ki, Balkanların xristian xalqları öz dövlətlərini təşkil edir, Konstantinopol Rusiyanın hakimiyyəti altına keçir və yaxud beynəlxalq nəzarət altında azad liman olur, Misir və Krit İngiltərəyə çatır, Türkiyə Asiyada milli dövlətə çevrilir. Böyük Britaniyanın hakimiyyət dairələri mifə çevrilmiş Rusiya təhlükəsi səbəbilə proqramı rədd etdilər. İngiltərə kraliçası Viktoriya ilə şəxsən görüşmək məqsədilə imperator 1844-cü ilin iyun ayında iki həftəlik bu ölkədə səfərdə olmuşdur. I Nikolay köhnə «Şərq məsələsi»ni həll etmək üçün Türkiyəyə qarşı birgə hərəkət proqramını əlahəzrət nazirin nəzərinə çatdırdı. Sənədlə tanış olan ingilis hökuməti sözdə razılığını ifadə etsə də, heç bir rəsmi qərar qəbul edilmədi. İmperator belə hesab etdi ki, iki dövlətin dost kimi hərəkət etməsi yolunda mühüm addım atmışdır. Lakin I Nikolayın düşündüyünün əksinə olaraq, Britaniyanın hakim dairələri Rusiya ilə hər hansı bir bərabər maraq istiqamətində addım atmaq məqsədindən çox uzaq idi və Rusiyanın maraqları ilə hesablaşmağı arzu etmirdilər.

Avropa dünyasında monarxiyanın əsasını qorumaq, legitimlik prinsipi I Nikolayı məcbur etdi ki, 1849-cu ildə öz müttəfiqi Avstriya imperatorunu

müdafiə etmək üçün yüz minlik rus ordusunu göndərsin. Avstriyadakı inqilab yatırılması bir çox Avropa dövlətində Rusiya əleyhinə əhvali-ruhiyyəni qızışdırdı. Çar imperiyasını «Avropanın jandarması» adlandırmağa başladılar. Tezliklə Krım müharibəsi başladı və məlum oldu ki, imperatorun güman etdiyinin əksinə, Rusiyanın heç bir müttəfiqi yoxdur, onun kömək göstərdiyi Avstriya və Prussiya Rusiyaya qarşı olan düşmən düşərgəsində yer almışdır.

Rusiya imperiyasının XVIII və XIX əsrlərdəki xarici siyasəti ölkənin cənub hüdudlarında baş verən hadisələrlə bağlıdır. XVIII əsrin sonlarından etibarən Osmanlı imperiyasının parçalanması ehtimalı ilə bağlı olaraq, Rusiyanı və başqa böyük dünya dövlətlərini cəlb edən «Şərq məsələsi»nin meydana çıxmasına səbəb olmuşdur. London, Vyana, Paris və Berlindən olan siyasətçilər bir çox onilliklər ərzində mirasın bölüşdürülməsi məsələləri ilə məşğul olmuşdur. Məsələ Rusiya diplomatiyasının və imperatorunun da diqqət mərkəzində dayanmışdır. Rusiya pravoslav xalqlarının hüquq və mənafeyini müdafiə etməklə bərarbər Bosfor və Dardanel boğazları üzərində nəzarətə sahib olmaq məqsədi güdürdü. Bu da qüdrətli Avropa dövlələrinin siyasətinə zidd idi, çünki onlar Rusiya imperiyasının nüfuzunun güclənməsini istəmirdilər.

1853-cü ilin əvvəllərində imperator I Nikolay İstanbula xüsusi nümayəndəlik göndərərək Osmanlı sultanına pravoslavların təqib edilməsini dayandırmağı və Rusiyanın onlar üzərində himayədarlığını qəbul etməyi tələb etdi. Fransa və İngiltərənin Türkiyənin tərəfində olduğunu aydınlaşdıran Osmanlı sultanı 1853-cü il sentyabrın 27-də Rusiyaya müharibə elan etdi.

Hərbi əməliyyatlar Dunay çayı mənsəbində, Qara dənizdə və Gürcüstanın cənubunda davam edirdi. 1853-cü il noyabrın 18-də admiral P.S.Naximovun komandanlığı altında rus hərbi eskadrası Sinop liman şəhəri yaxınlığında türk donanmasını məğlub etdi. İngiltərə və Fransa donanması Qara dənizə daxil olaraq 1854-cü ilin aprelində Odessanı bombaladılar. Müttəfiqlərin 34 xətt gəmisi və 35 freqatı rus donanmasını Sevastopolda mühasirə etdilər. Baltik dənizində 52 xətt gəmisi və freqatdan ibarət ingilis-fransız eskadrası Kronştadı mühasirə edib şimalda Arxangelsk və Kamçatkaya hücum təşkil etsələr də, uğur qazanmadılar. 1854-cü il sentyabrın 2-də 62 min nəfər canlı qüvvəsi və 130 artilleriya topuna malik ingilis-fransız qoşunu Yevpatoriyaya çıxarıldı. Krımda mövqe tutmuş rus ordusunun 33 min əsgər və zabiti, 96 topu var idi. Sentyabrın 8-də Alma çayı döyüşündə ruslar məğlub olaraq Sevastopola çəkildilər. Sevastopol hərbi qarnizonunun cəmi 18 min nəfər müdafiəçi var idi. Onlara vitse-admiral V.A.Kornilov və admiral P.S.Naximov komandanlıq edirdi. Beləliklə, 349 gün sürən Sevastopolun qəhrəman müdafiəsi başladı. Krıma 15 minlik kontingent göndərən Sardiniya krallığı da müttəfiqlərə

qoşuldu. 1855-ci ilin yazında hərbi əməliyyat yenidən alovlandı. Fransız və ingilislərin bir neçə hücumunu dəf edən rus əsgərləri və şəhərin müdafiəçiləri 1855-ci il avqustun 27-də Malaxov təpəsi alındıqdan sonra şimala çəkilməyə məcbur oldular. Qara dəniz gəmiləri Sevastopol buxtasında batırıldı.

Qafqazada rus ordusu 1855-ci il noyabrın 16-da hücum edərək Qars qalasını aldı. Müharibə tərəflərin qüvvələrinə ağır zərbə vurmuşdur. İngiltərə 22 min, Fransa 100 minə yaxın əsgər və zabit itirmişdir. Fransa maliyyə çətinliyi ilə, İngiltərə ictimaiyyətin narazılığı ilə qarşılaşmışdır. Hərbi əməliyyatlar nəticəsində Türkiyə ağır zərbə almışdır. Rusiyanın da maliyyə sistemi pozulmuş, donanma hərbi gücünü itirmiş, çoxlu əsgər və zabit həlak olmuşdur. Hərbi əməliyyatların gedişində qəhrəman rəislər P.S.Naximov və V.A.Kornilov həlak olmuşdur. Növbəti döyüşlərdə Avstriya və Prussiyanın da müttəfiqlər tərəfindən iştirakı gözlənilirdi. Belə bir şəraitdə, bütün dövlətlərdən artıq Rusiyaya sülh vacib idi. 1855-ci ilin sonlarında hərbi əməliyyatlar faktiki olaraq dayandı. Vyanda, ardınca Parisdə sülh danışıqları başladı. 1856-cı il martın 18-də 7 dövlət, o cümlədən Rusiya, Avstriya, Fransa, Böyük Britaniya, Osmanlı dövləti, Prussiya və Sardiniya krallığı Paris sülh müqaviləsini imzaladılar. Rusiya Sevastopol və Krımın başqa şəhərlərinin müqabilində Qars qalasını türklərə qaytardı. Qara dəniz bitərəf elan olunaraq, Osmanlı dövləti və Rusiyaya burada hərbi donanma saxlamaq qadağan edildi. Dunay çayında azad gəmiçilik hərəkatı təsbit olundu. Bütün ölkələrə Osmanlının daxili işlərinə qarışmaq qadağan edildi. Paris sülhü Rusiyanın Qara dənizdə nüfuzunu zəiflətsə də, 14 ildən sonra 1870-ci ildə Rusiya Paris sülhünün şərtlərini yerinə yetirməkdən imtina etdi və sülh qüvvəsini itirmiş oldu.

# XIII FƏSİL
# RUSİYA XIX ƏSRİN II YARISINDA. İŞĞALLAR DÖVRÜ

## §1. 1860-1870-ci illərin islahatları. Təhkimçilik hüququnun süqutu

I Pyotrdan sonra ən böyük islahatçı çar hesab olunan II Aleksandr 1818-ci il aprelin 18-də böyük knyaz, 1825-ci ildən imperator Nikolay Pavloviçin ailəsində doğulmuşdu. I Nikolay imperator olduqdan sonra onun yeddi yaşlı oğlu Aleksandr varis təyin edildi. I Nikolayın qərarı ilə dövrünün savadlı adamlarından biri olan Vasili Andreyeviç Jukovski onun müəllimi təyin olundu. Varisə «ləyaqət üçün təhsil» prinsipi əsasında xüsusi təhsil proqramı hazırlayan V.Jukovski təhsil və tərbiyə işini birləşdirmişdi. İldə iki dəfə imtahan verən şahzadə adətən yaxşı nəticə göstərirdi. Onun təhsilinin tərkib hissəsindən biri 1837-ci ildə V.A.Jukovskinin müşayiəti ilə altı aydan artıq ölkəni gəzməsi olmuşdur. Vəliəhd paroxod və atlar vasitəsilə uzun məsafələr qət edərək Novqorod, Tver, Uqliç, Yaroslavl, Kostromada olduqdan sonra Vyatka, Perm, Orenburq və Uralın mədən zavodlarına baş çəkmişdir. Sibir və Tobolskda olarkən sürgündəki dekabristlərlə görüşmüş və çar atasından onların cəzasını yüngülləşdirməyi xahiş etmişdir. Geri dönərkən Volqa üzərindəki başqa şəhərlərdə, Mərkəzi və Cənubi Rusiyanın müxtəlif məntəqələrində, Azov və Qara dəniz sahillərində və Krımın cənubunda olmuşdur. Aleksandr ölkə səfəri çərçivəsində yerlərdəki vəzifə sahibləri, qədim məbədlər, muzey və tarixi abidələrlə tanış olmaqla yanaşı, sadə adamların da evlərinə baş çəkir, onların məişəti ilə maraqlanır və həyat hekayələrinə qulaq asırdı.

19 yaşında təhsilini başa vuran Aleksandr Nikolayeviç beş – rus, alman, fransız, polyak və ingilis dillərində sərbəst danışır, tarix coğrafiya, hüquqşünaslıq, siyasi iqtisad, riyaziyyat, fizika və Tanrı Qanunu elmlərinə sahib idi. Hündürboylu, yaraşıqlı gənc bir adam olan şahzadə iti ağıla, gözəl davranışa və xoş xasiyyətə malik idi. Dəfələrlə xarici səfərlərdə olan şahzadə babası Prussiya kralı III Fridrix Vilhelmə baş çəkməklə bərabər, 1838-ci il mayın 2-dən 1839-cu il iyunun 23-nə kimi Prussiya, İsveç, Danimarka, Avstriya, Hollandiya, İtaliya, İngiltərə kimi ölkələrdə olmuşdur.Vəliəhd oğlunu uzun müddətə xarici ölkələrə səfərə göndərən I Nikolay onun qeyri-adi şəraitdə müstəqil qərar qəbul etmək bacarığını püxtələşdirməsini nəzərdə tuturdu. Bir ildən artıq avropalılar içərisində yaşayan Aleksandr Nikolayeviç

fərqli ölkələrin idarəçilik sistemi ilə tanış olur, parlamentlərdə iştirak edir, kral ailələrinin qonağı olurdu.

Aleksandrı xarici səfərlərə yola salan imperator onun həm də nişanlı seçməsini arzu edirdi. 1839-cu il martın 13-də Darmştadtdakı teatr tamaşasında on beş yaşlı şahzadə qız Maksimiliana Vilhelmina Avqusta Sofiya Mariya Gessen Darmştadtskayanı görən Aleksandr Nikolayeviç ona aşiq oldu. 1841-ci il aprelin 16-da hələ buna kimi pravoslavlığı qəbul edərək Marii Aleksandrovna adını alan şahzadə Marii ilə Aleksandr Nikolayeviçin nigah mərasimi oldu. Bu nigahdan beş oğlan uşağı, o cümlədən gələcək imperator III Aleksandr (1845-1894) və iki qız doğulmuşdur.

XIX əsrin 40-cı illərinin əvvəllərindən I Nikolay oğlunu dövlət idarəçiliyi işlərinə cəlb etmişdir. Aleksandr Dövlət Şurasının, Nazirlər Komitəsinin və Maliyyə Komitəsinin işində iştirak edirdi. Atası paytaxtda olmadıqda cari işlərə dair qərarları vəliəhd qəbul edirdi. 40-cı illərin sonunda imperator oğlunu dövlət həyatını, o cümlədən mülkədar kəndlilərinin həyatını yaxşılaşdırmaq məsələlərini müzakirə edən Xüsusi Dövlət Komitəsinin rəisi təyin etmişdir. 1849-cu ildə Aleksandr qvardiya komandanı və bütün hərbi-tədris müəssisələrinin rəisi təyin olunmuşdur. Beləliklə, taxta sahib olması ərəfəsində II Aleksandr mürəkkəb dövlət idarəçiliyi mexanizminə bələd, geniş və hərtərəfli bilikli yetkin bir şəxs idi.

I Nikolay 1855-ci il fevralın 18-də günortadan sonra vəfat etdi, martın 5-də dəfn mərasimi təşkil olundu. II Aleksandr Rusiya imperiyasının hökmdarı kimi fəaliyyətə başladı. İmperator uğursuz müharibə, daxili gərgin vəziyyət, pulun çatışmadığı maliyyə pozuntusu ilə qarşılaşdı. Bu məsələləri həll etməyə çalışan yeni imperator 1856-cı ilin martında Parisdə sülh müqaviləsi imzalandıqdan sonra aprel ayında ağıllı və təşəbbüskar knyaz A.M.Qorçakovu (1798-1883) xarici işlər naziri təyin etdi. O, bu vəzifədə 1814-cü ildən Xarici İşlər naziri olan, qocalıb əldən düşmüş və uğursuz diplomatik fəaliyyəti ilə tanınan qraf K.V.Nesselrodu (1680-1762) əvəz etmişdir. Müharibəni başa çatdıran çar və onun hökuməti daxili məsələləri həll etməyə başladı. II Aleksandr tez bir zamanda belə bir qənaətə gəldi ki, ölkəni köhnə qaydalarla idarə etmək mümkün deyildir, dövlət quruculuğu sahəsində əsaslı yenidənqurma və islahatlara tələbat yaranmışdır.

Təhkimçilik münasibətləri problemi ölkə qarşısında dayanan və təcili həllini gözləyən vəzifələr içərisində xüsusi yerə malik idi. 1856-cı ildə moskvalı zadəganlar qarşısında çıxış edən imperator təhkimçiliyin ləğv edilməsinin zəruriliyini yüksək səslə bəyan etdi. Çar fikrini belə ifadə etdi ki, aşağıdan özözünü ləğv etməyi gözləməkdənsə, təhkimçilik hüququnu yuxarıdan ləğv

etmək yaxşı olardı. Azadlığa uzanan yol isə mürəkkəb və uzun olmuşdur. Yalnız beş ildən sonra təhkimçilik hüququ tarixə çevrilmişdir. Bu vaxt ərzində nəhəng hazırlıq işləri görülmüş, dövlət və yerli səviyyələrdə müxtəlif komissiyalar təsis olunaraq gələcək sosial yenidənqurmanın hüququ, maliyyə və inzibati istiqamətləri araşdırılmışdır.

Çar fikirləşirdi ki, gələcək mühüm sənəd olan təhkimçiliyin süqutu aktı bütün xalqın azad və könüllü iradəsini əks etdirsin. Ancaq zadəganların bəzi dairələri dəyişiklik istəmirdi. II Aleksandr mütləqiyyət və imperiya üçün çox işlər görmüş birinci silki təhqir etmək istəmirdi. İmperator güman edirdi ki, zaman çərçivəsində zadəganlar özü dəyişikliyin qaçılmaz olduğunu dərk etməyə məhkumdur. Bu hazırlıq mərhələsinin uzun çəkməsinin əsas səbəblərindən biri idi. Başqa bir məsələ, nəhəng imperiyanın sosial həyatını bu və ya başqa dərəcədə əhatə edən dəyişikliyin mahiyyəti ilə bağlıdır.

1859-cu ilin əvvəlində çarın təşkil etdiyi xüsusi komissiya təhkimçilik hüququnun ləğv edilməsi layihəsini tərtib etdi. Komissiyanın tərkibinə ali dövlət məmurları, hökumət dairələrindən olmayan görkəmli xadimlər daxil olmuşdur. 1860-cı ilin sonunda kəndlilərin təhkimçilik asılılığından azad edilməsi planı hazırlanmışdır. 1861-ci ilin fevralında təhkimçilik hüququnun ləğv olunmasına dair Manifest imzalanmışdır. II Aleksandr atdığı bu addımla nəsillərin yaddaşına böyük islahatçı çar kimi həkk olaraq, hətta atası hakim hökmdar I Nikolayın cəsarət etmədiyi bir məsələni həll etmişdir.

Manifestin elan edildiyi zaman Rusiya imperiyasında kəndlilərin 25 faizi şəxsi azadlıqdan məhrum idi. Torpaqlar əksər halda mülkədarlara məxsus olduğu üçün kəndliləri yalnız hüquqi cəhətdən azad etmək deyil, onların gələcək həyatını iqtisadi şərtlərlə təmin etmək tələb olunurdu. Hökumət islahatı həyata keçirərkən bir tərəfdən kəndlilərə azadlıq bəxş edərək onların yaşaması üçün minimum həyat şərtlərini təmin etməyə, başqa bir tərəfdən zadəganların mənafeyini qorumağa çalışırdı. Əsasən zadəganları təmsil edən torpaq sahiblərinin içərisində digər təbəqələrin, tacirlərin meşşanların, kəndlilərin də nümayəndələrinə rast gəlmək mümkün idi. Rusiya imperiyasında torpaq fondunun təqribən 10%-i onlara, yəni xüsusi adamlara məxsus idi.

1861-ci il fevralın 19-da taxta çıxmasının altıncı ildönümündə çar təhkimçilik hüququnun ləğv edilməsinə dair Manifestlə birlikdə «Təhkimçilik asılılığından çıxmış kəndlilər haqqında əsasnamə»ni təşkil edən bir sıra qanunvericilik aktını təsdiq etdi. Bu gündən təhkimçilik hüququ ləğv edilir, kəndlilərə «azad kənd sakini» adı verilir, onların hüquqi cəhətdən mülkədara aid olması həmişəlik ləğv olunurdu. Manifest və yeni qanunlar nəşr edilərək Rusiyanın bütün kilsələrində oxunmuşdur.

Kəndlilər şəxsi azadlıq və öz əmlakları ilə istədikləri kimi davranmaq hüququ alırdı. Mülkədarlara məxsus olan polis hakimiyyəti kənd icmaları orqanlarına keçirdi. Məhkəmə işlərinin bir hissəsi kəndlilərin seçdiyi volost məhkəmələrinə, digər bir hissəsi vətəndaş hakimlərə həvalə edilirdi. Mülkədarlar özlərinə məxsus olan bütün torpaqlar üzərində sahibkarlıq hüququnu saxlayırdı, amma kəndlilərə daimi istifadə məqsədilə oturaq ev və əkin üçün pay torpaq sahələri ayırmağa borclu idi. Kəndli aldığı torpaq payından istifadə müqabilində onun dəyərini ya mülkədarın torpağında çalışmaqla və yaxud ödənclə ödəməli idi. Mülk və əkin payı torpaqlarının ölçüsü nizamnamə qramotası ilə müəyyən edilirdi ki, bunun tərtib edilməsinə qırx iki il nəzərdə tutulmuşdu. Öz paylarını dəyərini ödəyərək alan kəndlilərə sahibkar kəndlilər, sahib ola bilməyənlərə müvəqqəti mülkiyyətli kəndlilər deyilirdi.

Təhkimçilik asılılığından azad olmuş kəndlilər kənd cəmiyyətlərində birləşərək yeni idarəçilik işlərini kənd yığıncaqlarında həll etməli idilər. Yığıncaqların qərarlarını üç il müddətinə seçilən kənd ağsaqqalı yerinə yetirirdi. Bir yerdə yerləşmiş kənd cəmiyyətləri volostda birləşir, idarə işlərinə kənd ağsaqqallarının yığıncağı başçılıq edirdi. Volost iclasında volost starşinası seçilirdi ki, o da həm icraçı, həm də polis vəzifəsini yerinə yetirirdi.

Hökumətə görə, islahata əsasən kəndlilərə təqdim edilən torpaqlar zamanla onların tam mülkiyyətinə çevrilməli idi. Kəndlilərin aldığı torpaqların əvəzini ödəməyə vəsaiti olmadığı üçün mülkədarlara bu vəsaiti dövlət ödəyirdi. Borc adlanan pulu kəndli az-az, ildən-ilə 49 il ərzində ödəməyə borclu idi. Torpaq payı pulu borcunu ödəmədən kəndli öz pay torpağını atıb başqa yerə köçə bilməzdi. Bunun üçün çox çətinliklə əldə olunan icma yığıncağının qərarı tələb olunurdu.

Təbii olaraq, islahat böyük əksəriyyəti qane etmirdi. Mülkədarlar maliyyə vasitələrini əlində saxlasa da, ucuz işçi qüvvəsindən məhrum olaraq perspektivdə kəndlilərə təsirin itirməyə məhkum idi. Kəndlilər isə torpaqları elə-belə deyil, uzun illər davam edən ödənc müqabilində almaqdan narazı idilər. Kəndlilər arasında belə bir şayiə dolaşmağa başladı ki, əsl çar qramotasında torpaqlar heç bir ödənc olmadan onların istifadəsinə verilir. Həmin sənədi isə ağalar gizlədiblər. Odur ki, Qazan quberniyasının Bezdna kəndində, Penzena quberniyasının Kandeyevka kəndində dövlət məmurlarını qovan kəndlilər «düzgün» hakimiyyətlərini bərqərar etdilər. Bu yerlədə kəndlilərlə ordu hissələri arasında qanlı toqquşma oldu, onlarla adam həlak oldu.

Ümumiyyətlə, çox böyük tarixi əhəmiyyətə malik təhkimçilik hüququnun ləğvi ciddi sosial partlayış meydana gəlmədən baş tutdu. Rusiya imperiyasında axır ki adamlar üzərindəki mülkiyyət hüququ ləğv olundu. Bir çox Qərb

ölkələrində bu proses xeyli əvvəl başa çatmışdır. Bütün çatışmayan cəhətlərinə baxmayaraq, 1861-ci il islahatı ölkənin dinamik sosial dəyişiklik yoluna qədəm qoymasına şərait yaratmışdır.

Rusiyada təhkimçilik hüququnun ləğvi bütün ictimai həyatın istiqamətinə təsir göstərmişdir. 1859-cu ilin əvvəlində II Aleksandr yerli idarələrin yeni quruluşunun layihəsini hazırlamaq məqsədilə xüsusi komissiya təşkil etmişdir. Uzun hazırlıqdan sonra 1864-cü il yanvarın 1-də çar zemstvo idarələri haqqında əsasnaməni təsdiq etdi. Əsasnaməyə əsasən, quberniya və qəza ərazisində torpağı və başqa daşınmaz əmlakı olan bütün təbəqələrin, o cümlədən kənd icmalarının nümayəndələrinə quberniya və qəza zemstvo yığıncaqları vasitəsilə seçkili hakimiyyət orqanlarının işində iştirak etmək hüququ verilirdi. Bu yığıncaqlar ildə bir neçə dəfə çağırılır, işlərə rəhbərlik etmək məqsədilə quberniya və qəza zemstvo idarələri (zemstvolar) yaradıldı. Bu orqanlar yerli əhəmiyyətli təsərrüfat və mədəniyyət məsələləri, o cümlədən yolların çəkilməsi, səhiyyə, xalq maarifi, yanğından sığorta, əhalinin ərzaq təminatı ilə məşğul olurdu. Bu işləri həyata keçirmək üçün vəsait tələb olunduğunu nəzərə alaraq, yerli idarəetmə orqanlarına yerli vergilər təyin etmək hüququ verilmişdi. Birinci zemstvo idarəsi 1865-ci ilin əvvəlində Samara quberniyasında meydana gəlmişdir. İlin sonuna kimi 17 quberniya, 1881-ci ildə isə Rusiyanın Avropa hissəsindəki 33 quberniyada zemstvo idarələri fəaliyyət göstərirdi.

II Aleksandr 1870-ci ildə yerli zemstvo idarələrinin nümunəsi üzrə şəhər özünüidarəsi yaratmaq məqsədilə Şəhər əsasnaməsini təsdiq etmişdir. Əsasnaməyə görə, şəhərdə daşınmaz əmlakı, yəni, evi, torpağı olan bütün təbəqələrin nümayəndələri, ticarət işi ilə məşğul olan adamlar açıq şəhər duması seçkilərində iştirak etmək hüququna sahib olurdu. Şəhər özünüidarəsi orqanları yerli vergi – şəhər rüsumu müəyyən etmək hüququna sahib olurdu.

II Aleksandrın çarlığı zamanı həyata keçirdiyi mühüm dəyişikliklərdən biri də məhkəmə islahatları idi. Köhnə məhkəmələr gizli olub dəftərxana işləri vasitəsilə aparılırdı, cavabdeh olan şəxs çox halda məhkəməyə belə dəvət edilmir, qərarlar üzgörənliklə qəbul olunurdu. 1864-cü il noyabrın 20-də imperator yeni «Məhkəmə nizamnaməsi»ni («Судебные уставы») təsdiq etdi ki, məhkəmə açıq, bərabər, ədalətli və təcili elan olundu. Yeni məhkəmə sistemi müasir yeni dünya normalarına uyğun idi. Andlı iclasçıların, müdafiə hüququnun, çəkişmə prosesinin tətbiqi, məhkəmələrin hökumətdən asılı olmaması ölkədə qanunçuluğun möhkəmləndirilməsinə xidmət edirdi.

II Aleksandrın islahatları içərisində hərbi islahatar əsas yerlərdən birinə sahibdir. 1874-cü il yanvarın 1-də çar Rusiyada ümumi əsgəri mükəlləfiyyətə keçilməsinə dair Fərman imzalamışdır. Yüz ildən artıq vaxtda Rusiyada ali

silkin nümayəndələri əsgəri mükəlləfiyyətdən azad idi. Bütün ağırlıq aralarından rekrut əsgər toplanılan kəndilərin üzərinə düşürdü. Rekrut sayəsində toplanmış əsgərlərin xidmət müddəti 25 il olduğu üçün onlar uzun illər ailəsi və kəndlilərdən ayrı düşürdü. Ümumi əsgəri mükəlləfiyyətə keçilməsini elan edən Manifestdə qeyd olunurdu ki, Vətənin müdafiəsi xalqın ümumi işi və hər bir Rusiya vətəndaşının müqəddəs borcudur. 21 yaşına çatan və hərbi xidmətə yararlı olan bütün kişilər əsgəri xidmətə çağırılırdı. Ailədə olan tək oğlan uşaqları, müəllimlər hərbi mükəlləfiyyətdən azad edilir, alitəhsilli şəxslərin xidmət müddəti azaldılırdı. Piyada hərbi hissələrində xidmət altı il, donanmada isə yeddi il davam edirdi. Dəyişikliklər nəticəsində ordu müasir silahlarla təhciz edildi, buxarla işləyən hərbi donanma meydana gəldi.

II Aleksandrın hökmdarlığı dövründə maarif sahəsində böyük dəyişikliklər baş vermişdir. Odessa və Varşavada yeni iki universitet fəaliyyətə başlamış, Moskvada arxeoloji və kənd təsərrüfatı institutları, Ali lisey («Катковский») açılmışdır. 1863-cü ildə ölkədəki ali tədris müəssisələrinə geniş muxtariyyət hüququ verən Universitet nizamnaməsi təsdiq olunmuşdur. Ali məktəblərin daxili məsələlərinin həlli məmurlardan müəllim heyəti arasından seçilən şəxslərə həvalə olunurdu. Universitetlərin daxili məsələləri seçilmiş rektorların rəhbərliyi ilə tədris müəssisəsinin özünə məxsus idi. Tələbələr üçün mövcud məhdudiyyətlər, o cümlədən vahid forma geyilməsi ləğv olundu, tələbələrin inzibati cavabdehliyinə yalnız tələbə məhkəmələrində baxıla bilərdi.

1864-cü ildə yeni, Məktəb nizanaməsi təsdiq olundu, sənədə əsasən iki növ – klassik və realnı gimnaziyalar təsbit olunmuşdu. Klassik gimnaziyalar əsasən humanitar fənlərə və dillərə, o cümlədən latın və yunan dillərinə üstünlük verərək şagirdləri universitetlərə qəbul olmağa hazırlayırdılar. Realnı məktəblərdə isə təbiət elmlərinə üstünlük verilərək şagirdləri ali texniki məktəblərə hazırlayırdılar. Hər iki məktəb tam orta təhsil verirdi. II Aleksandrın vaxtında aztəminatlı ailələrin, xüsusilə kəndlilərin uşaqları üçün iki və dördsinifli olmaq üzrə geniş ibtidai məktəblər şəbəkəsi meydana gəlmişdi. 1880-ci ildə təqribən 1,5 mln. nəfər şagirdi olan 23 mindən çox ibtidai mək- təb mövcud olmuşdur.

II Aleksandrın çarlığı dövründə, 50-ci illərin ortalarında Rusiyada 70 mln. yaxın əhali yaşayırdı ki, onun da yalnız 10 faizi şəhərlərdə yerləşmişdir. XIX əsrin 90-cı illərində ölkə əhalisinin sayı sürətlə artaraq 130 mln. nəfərə çatmışdır, bunların da yalnız 17 mln nəfəri, yəni 13 faizi şəhər sakinləri idi. XIX əsrin II yarısında əhalinin artımı sürətinə görə Rusiya bütün Avropa ölkələrini ötüb keçmişdi. Bu zaman Rusiyada 25 mln. çox at, 31 mln. iribuynuzlu heyvan, 12 mln. donuz, 63 mln. qoyun var idi. Ölkə kənd təsərrüfatı məhsul-

larının nəhəng dünya tədarükçüsünə çevrilmişdi. XIX əsrin II yarısında Rusiyanın kənd təsərrüfatı əsasən əkin sahələrinin çox hissəsinin və heyvandarlığın 80 faizdən çoxunun olduğu Avropa Rusiyasında inkişaf etmişdir. İmperiyanın Orta Asiya, Sibir, Cənubi Qafqaz kimi yerlərində əhalinin az olması səbəbilə kənd təsərrüfatı istehsalı ümümrusiya deyil, yerli əhəmiyyət kəsb edərək məhdud tələbatı ödəyirdi. Taxıl, ət, quşçuluq məhsulları əsasən Avropa Rusiyasında tədarük edilir, əkinçilik və heyvandarlıq məhsulları xarici dövlətlərə ixrac edilirdi.

Sənaye, şəhər və nəqliyyatın inkişafına baxmayaraq, II Aleksandrın çarlığı dövründə Rusiya kənd təsərrüfatı ölkəsi olaraq qalırdı. Ölkə əhalisinin 90 faizə yaxını kənd yerlərində yaşayaraq əsasən, əkinçilik, maldarlıq və kənd təsərrüfatı məhsullarının tədarükü ilə məşğul olurdu. Təhkimçilik hüququnun ləğv edilməsi kəndin əmək fəaliyyətinə təsir edərək tədricən məhsul artımına səbəb olurdu. Məsələn 60-cı illərin əvvəllərində desyatindən orta hesabla 25 pud taxıl yığılırdısa, 20 ildən sonra bu 40 puda çatmışdır. Kəndli təsərrüfatları ailələrinin tələbatını ödəməklə yanaşı, bazara məhsul çıxararaq əmtəə-pul münasibətlərinə qoşulurdular. Təhkimçilik hüququnun ləğvi kəndliləri hüquqi cəhətdən torpaq sahibi mülkədarlardan azad olmalarını təmin etsə də, ağaların əlində hələ də mühüm iqtisadi vasitələr qalmışdı. 1861-ci il əsasnaməsinə görə kəndlilərin pay torpaqlarının həcmi və müvəqqəti mükəlləfiyyətlilik vəziyyəti xüsusi sənəd olan «nizamnamə qramotası» ilə təsbit olunmalı idi. Bu sənədi yerli zadəgan-mülkədarlar arasından təyin olunan hökumət nümayəndələri barışdırıcı münsiflər tərtib edirdi. Təbii olaraq, bu vəzifə sahibləri əksər hallarda zadəganların mənafeyini müdafiə edirdilər ki, bu da kəndlilərin narazılığına gətirib çıxarırdı. Belə hallar daha çox torpağın münbit və baha olduğu Rusiyanın qara torpaq zonası olan quberniyalarında baş vermişdir. Məhz imperiyanın Orlov, Kursk, Voronej, Tambov, Penza, Kiyev, Poltava, Çerniqov, Xarkov kimi qaratorpaq quberniyalarında kəndlilərə verilən pay torpağının həcmi çox az olmuşdu. Odur ki, bu rayonlarda mülkədar-kəndli münasibətlərindəki ziddiyətlər daha dərin idi.

Çox halda 3-4 desyatin ( hek.-dan bir az çox) olan kəndli pay torpağı ailənin ərzaq tələbatını ödəmirdi. Adətən 8-10 nəfər ailə üzvündən ibarət olan kəndli ailələri hesabına əhali sürətlə artdığı halda, torpaq payı olduğu kimi qalırdı. Torpaq icmanın («şura») xüsusi mülkiyyəti hesab edilir və ailə üzvü («едоков») sayına görə bölünürdü. Ailə tərkibi tez-tez dəyişildiyinə görə torpaqlarda mütəmadi olaraq yenidən bölüşdürülməli idi ki, bu da praktik olaraq mümkün deyildi. Bəzi yerlərdə torpaqların bölüşdürülməsi bir neçə onillikdə bir, bəzilərində isə təhkimçililiyin ləğvindən 1917-ci il inqilabına

qədər bir dəfə də olsun bölüşdürülməmişdir. Nəticədə Rusiya imperiyasında torpaqsızlaşdırılma («обезземеливание») prosesi baş vermişdi. Kəndlilər ailə torpaqlarını öz aralarında bölüşdürərək payların kiçilməsinə, torpağa olan tələbatın kəskinləşməsinə şərait yaratmışdır.

Kənd təsərrüfatı sahəsində məhsuldarlıq olduqca aşağı idi. Kəndli təsərrüfatlarında çox halda köhnəlmiş vasitələrdən istifadə olunurdu, mühafizəkar psixologiya əkinçilərə yeni texniki vasitələrə sahib olmağa mane olurdu, kənd təsərrüfatı işlərində müasir qaydalar tətbiq edilmirdi. Köhnəlmiş üçtarlalı əkin sistemi zamanın tələbinə cavab vermirdi. Mahiyyəti ondan ibarət idi ki, iki il torpaqlar əkildikdən sonra üçüncü il dincə qoyularaq otlaq yerinə çevrilirdi. XIX əsrdə qabaqcıl ölkələrin çoxu üçtarlalı əkin sistemindən imtina edərək növbəli əkin qaydasına keçmişdir. Rusiyada isə köhnə sistem qalmaqda davam edirdi. Avropa Rusiyasının torpaqlarında təqribən 40% çovdar, 20% yulaf, 17% buğda, 7% arpa, 6% qarabaşaq, 3% darı əkilmişdi. Kartof az yayılaraq əkin sahələrinin cəmi 2%-ni təşkil edirdi. Bu əsasən Baltikyanı və Belorusun ərazilərinin payına düşürdü.

Bazara çıxarılan kənd təsərrüfatı məhsulunun əsas hissəsini kəndli təsərrüfatları təmin edirdi. Belə təsərrüfatlarda məhsuldarlıq olduqca aşağı idi. Gübrələrdən, yeni texnikadan istifadə etdikləri üçün mülkədar təsərrüfatlarının məhsuldarlığı üç dəfə yüksək idi. Əkinçilikdə istifadə edilən metal texniki avadanlığı almağa kəndlilərin vəsaiti olmadığı üçün onlar köhnə ağac kotan və xışdan istifadə edirdilər. Torpağın yalnız üst qatlarını 5-10 sm dərinlikdə şumlaya bilən xış məhsuldarlığın aşağı olmasına səbəb olurdu. Tədricən metal kotan və malanın əvvəlcə mülkədar, sonra kəndli təsərrüfatlarında tətbiqi başladı. Aztorpaqlılıq və icma təşkilatı icmaçı kəndlilərin bazar qanunları ilə işləyən istehsalçıya çevrilməsinə əngəl törədirdi. Xüsusilə qaratorpaq ərazilərdə yerləşən kəndlilərin maddi vəziyyəti ağır olaraq qalırdı. Ölkənin şəhər sisteminin inkişaf etdiyi şimal rayonlarında kəndlilər əlavə qazanc dalınca şəhərlər üz tuta bildikləri halda Avropa Rusiyasında bu daha çətin idi. Burada şəhərlər az idi, sadə kəndli məmulatını satmaq isə olduqca mürəkkəb bir məsələyə çevrilmişdi.

Kəndlərdə məhsuldarlığın aşağı olması, kəndlilərin maddi vəziyyətinin pisləşməsi hökumətin zemstvo təşkilatları vasitəsilə kəndlilər arasında müasir aqrotexniki bilikləri yaymağa səfərbər etmişdi. Bu məqsədlə dövlət vəsaiti hesabına ölkənin müxtəlif ərazilərində kəndliləri yeni bilik və təcrübə ilə silahlandırmaq üçün məktəb, kurslar açılmışdı. Ölkədə böyük marağa səbəb olan təcrübə stansiyaları, nümunəvi təsərrüfatlar təşkil edilmişdi. 1865-ci ildə Moskvada kənd təsərrüfatı sahəsində tədqiqatlarla məşğul olan, hökumət və

xüsusi əkinçi və torpaq sahibkarları üçün təkliflər hazırlayan Pyotr Əkinçilik və Meşə Akademiyası açılmışdı.

II Aleksandrın hakimiyyətinin ilk dövründə Rusiya imperiyasının iqtsadi təsərrüfat vəziyyəti ağır olaraq qalırdı. Müharibə ölkənin maliyyə sistemini pozmuşdu. Çəkilən xərc gəliri ötüb keçmiş, pul dəyərini çox itirmiş, xəzinə demək olar ki, boşalmış, azad vəsait sürətlə ölkədən kənara çıxarılırdı. Qəti tədbirlər həyata keçirmək məqsədilə çar cəsarətli qərarlar verməyi bacaran yeni adamları özünə yaxınlaşdıraraq vəzifələrə təyin etməyə başladı. Onlardan biri Mixail Xristoforoviç Reytern (1820-1890) olmuşdur. Almaniyalı zadəgan nəslindən olan M.X.Reytern Rusiya və Avropanın ən yaxşı liseylərindən biri olan Tsarskoselsk liseyində təhsil almış, alman, ingilis, fransız, yunan latın dillərinə sahib idi. Nümunəvi şagird kimi xüsusilə siyasi iqtisad elminə maraq göstərmiş, iqtisadçı alimlərin əsərlərini oxumuşdur. Özünün dediyi kimi, «hesablamağı həmişə sevmişdir». 1839-cu ildə altıillik liseyi bitirdikdən sonra Maliyyə Nazirliyinin bölmələrində fəaliyyətə başlamış, 1862-ci il yanvarın 23-də Maliyyə Nazirliyinin idarə rəisi, dekabrda isə nazir vəzifəsinə təyin olunmuşdu.O hesab edirdi ki, dövlət xalq təsərrüfatının inkişafına fəal kömək etməlidir, yalnız bunun vasitəsilə Rusiyanın maliyyəsini böhran vəziyyətindən çıxarmaq olar. Nazir xüsusi sahibkarlığın təşviq edilməsinə böyük əhəmiyyət verərək maliyyə sahəsində əsaslı islahatlara başlamışdı.

Əvvəllər maliyyə idarəsi «büdcə nazirliyi» funksiyasını yerinə yetirirdi. Onun əsas vəzifəsi vergiləri toplayaraq yığılan vəsaiti müxtəlif tələbat üzrə bölüşdürməkdən ibarət olmuşdur. İdarə və müəssisələrin illik smetaları gec tərtib edilir, tez-tez dəyişdirilərək əlavə xərclər ayrılırdı. Nazirlər çalışırdı ki, Maliyyə nazirinin başı üzərindən smetada nəzərdə tutulduğundan yüksək miqdar üçün çarın razılığını alsınlar. Yeni maliyyə naziri idarənin fəaliyyət praktikasını dəyişərək əvvəllər «dövlət sirri» olan büdcə göstəricilərini hamının tanış ola bilməsi üçün açıq elan etdi. 1862-ci ildən başlayaraq dövlət xərcləri və gəlirlərinə aid cədvəl nəşr olunmuşdur. Məqsəd ondan ibarətdir ki, yeni ilə kimi dövlət smetasının formalaşması başa çatsın, büdcə göstəricilərinə olduğu kimi əməl edilsin. Maliyyə naziri çalışırdı ki, ölkənin gəlir-xərc işlərini uzlaşdıraraq bütün maliyyə sisteminin müflisləşməsinin qarşısını alsın. Bu xərclərin azaldılmasını tələb edirdi. Maliyyə nazirinin atdığı yeni addımlar başqa rəhbərlərin ciddi müqavimətilə qarşılaşmışdı. Məsələn, dövlət xərclərinin böyük bir hissəsi, təqribən 30%-i hərbi nazirliyə ayrılmışdı. Yeni maliyyə naziri sərt qənaət siyasəti yeridərək bu xərcdən 15 mln. rubl kəsilməsini tələb etmişdi. Hərbi nazir D.A.Milyutin çardan görüş alaraq yeni qalaların tikilməsi məqsədilə əlavə 21 mln. rubl vəsait ayırmağı razılaşdırmışdı. M.Reyternin

istefa istəməsi çarın ürəkdən olmasa da, geri addım atmağına səbəb olmuşdur. Çünkü imperator başa düşürdü ki, iqtisadi və maliyyə sahədə islahatlar tələb olunur, bu vəzifəni isə gənc və istedadlı Reyterndən yaxşı heç kim həll edə bilməz.

XIX əsrin 60-70-ci illərində Reytern rəhbərliyi altında tətbiq olunan islahatlar həqiqətən əsl iqtisadi siyasət, Maliyyə Nazirliyi isə onun tənzimləyicisi olmuşdur. Çox rəhbərin anlamadığı halda nazir başa düşürdü ki, ölkənin maliyyə vəziyyətini sabitləşdirmək, rublun dəyərini artırmaq, tarazlaşdırılmış büdcə formalaşdırmaq üçün yalnız vergiləri artırmaq, xarici bankirlərdən borc almaq kifayət deyil. Bu məqsədlə bütün təsərrüfat həyatını sağlamlaşdırmaq, şəxsi təşəbbüskarlığı yaymaq, ölkəyə xaricdən vəsait cəlb etmək, yerli istehsala geniş meydan vermək tələb olunur.

Ölkənin qarşısında duran vəzifələrin yavaş-yavaş həll edilməsi iqtisadiyyatı dirçəltdi. Məhz Reyternin vaxtında Rusiya sırf aqrar ölkədən sənaye-aqrar ölkəsinə çevrilməyə başladı. Onun vaxtında ölkədə ağır sənayedə ilk böyük müasir müəssisə və ilk xüsusi ticarət bankı meydana gəlmiş, nəhəng dəmiryol layihələri həyata vəsiqə qazanmışdı. Təsadüfü deyil ki, Birinci Dünya müharibəsi ərəfəsində Rusiyanın sənaye sıçrayışından bəhs edilərək «rus iqtisadi xariqəsindən» yazarkən birinci növbədə Mixail Xristoforoviç Reytern «atalığı» qeyd olunmuşdur. Onun dövründə vergiqoyma islahatı keçirilmiş, sahibkarlıqla məşğul olanlar üçün bir çox məhdudiyyətlər ləğv edilmiş, xüsusi kompaniyaların fəaliyyəti üçün sadələşmiş qaydalar tətbiq olunmuşdur. 1863-cü ildən 1872-ci ilə kimi Rusiyada üç yüzdən artıq aksioner cəmiyyətlər təsis edilmişdir ki, bu da əvvəllər ölkədə təşkil edilən belə cəmiyyətlərdən dəfələrlə çox idi. Maliyyə naziri dövlət bank siyasətini formalaşdıraraq xüsusi kredit ticarət müəssisəsini təsis etmiş, qiymətli kağızlarla əməliyyat qaydasını nizamlamışdır. Yeni gömrük rüsumu müəyyən edilmiş, ixrac vergisi minimum həddə təsbit olunmuşdur. İdxal malları, xüsusilə ölkə sənayesi üçün nəzərdə tutulmuş maşın və xammal vergisi azaldılmışdı.

Rusiyanı müasirləşdirmək məqsədilə M.X.Reytern dəmiryolu tikintisinə xüsusi əhəmiyyət vermişdir. Krım müharibəsi nəqliyyat yollarının əhəmiyyətini qabartmışdı. Buxar gəmilərinə sahib olan İngiltərə və Fransa öz qoşunlarını daha tez əlavə qüvvə və hərbi təhcizatla təmin edirdi. Maliyyə naziri ölkənin bütün xalq təsərrüfatının inkişafında dəmiryollarının əsas vasitələrdən olduğunu nəzərə alaraq, ona xüsusi diqqət ayırmışdı. Maliyyə Nazirliyinin himayəsi altında Rusiyada dəmiryolu tikintisi sürətlə yayılmışdı. 1865-1875-ci illərdə ölkədəki dəmiryollarının uzunluğu beş dəfəyə kimi artaraq 3842-dən 19029 verstə çatmışdır. Bu məqsədlə Maliyyə Nazirliyi dövlət vəsaiti və xarici istiqrazlardan istifadə etmişdir. Tranzit xətlərini dəmiryol nəqliyyat vasitələri ilə

təmin etmək məqsədilə nəhəng maşınqurașdırma və mettallurgiya zavodları tikilmişdi. Donbas və Bakının mənimsənilməsi sonradan burada rus sənayenin xammal bazasının yaranmasını təmin etmişdir. Bu tədbirlər böyük xərclər tələb etməklə bərabər, tikilmiş dəmiryol və zavodların hesabına dövlətin xəzinəsinə daxil olan gəlir artmışdı. Yük daşıması, o cümlədən xaricə ixrac edilməsi ucuz və asan başa gəlirdi. 1863-cü ildə Rusiya xarici ixracatdan 154,5 mln. rubl, 1867-ci ildə isə 244,8 mln. rubl gəlir götürmüşdü. XIX əsrin 70-ci illərinin əvvəllərində maliyyə nazirinin səyi nəticəsində rublun alıcılıq qabiliyyəti sabitləşdi, Avropa birjalarında Rusiya fondlarının qiymətləndirilməsi yüksəldi.

Maliyyə nazirinin ölkənin sənaye təkamülü yolundakı metod və vasitələrlə münasibəti tədricən dəyişilmişdi. Əvvəllər İngiltərə və ABŞ kimi sənaye sıçrayışı sayəsində zirvəyə yüksəlmiş dövlətlərin maliyyə təcrübəsini tətbiq etmək tərəfdarı olan nazir tədricən Rusiyanın xüsusi bir ölkə olduğu qənaətinə gələrək əvvəlki fikrindən daşınmışdı. Rusiyada fərqli siyasi, iqtisadi və coğrafi şəraitin olduğunu qəbul etmişdir. Banklar vəsaiti istehsala yatırmaq yerinə, qiymətli kağızlarla alver etməklə, kompaniyaları yaradanlar isə sağlam cəmiyyət yaratmaq əvəzinə təsis gəlirləri ilə, gömrük vergisinin azaldılması ilə maraqlanırdılar. Artıq 70-ci illərdə Maliyyə Nazirliyi bir tərəfdən Almaniyada olduğu kimi sahibkarlıq üzərində dövlət nəzarətini sərtləşdirmiş, başqa bir tərəfdən, möhkəm proteksionist gömrük siyasəti həyata keçirməyə başlamışdı.

Maliyyə naziri Reytern şəxsi keyfiyyətlərindən biri populyar olmayan təşəbbüsü müdafiə etməsidir. Məsələn, 60-cı illərin ortalarında o, Alyaskanın ABŞ-a satılması tərəfdarı olmuşdur. Nazir belə hesab edirdi ki, Rusiyanın bu uzaq ərazisini müdafiə etməyə, təsərrüfatını mənimsəməyə güc yoxdur. Bir halda ki bu Rusiya imperiyası üçün əlavə maliyyə xərci və başqa dövlətlərlə hərbi toqquşma təhlükəsi yaradır, ondan azad olmaq daha məqsədəuyğundur. Ünvanına söylənilən bütün tənqidlərə baxmayaraq, Alyaska 1867-ci ildə az bir məbləğə – 7,2 mln. dollara (hazırkı kursla təqribən milyard dollar) ABŞ-a satılmışdır. Əldə edilən vəsait dəmiryollarının tikintisinə sərf edilmişdir.

Reytern Rusiyanın Orta Asiyanın istilasına qarşı çıxaraq bəhs olunan əhalinin sıx olmadığı çöllük ərazilərin strateji əhəmiyyətini qəbul etmirdi. Orta Asiyanın Rusiyanın tərkibinə daxil edilməsi isə külli miqdarda vəsait və qurban tələb edirdi. Maliyyə naziri məsələ ilə bağlı çara meydana çıxa biləcək çətinliklərdən yazsa da, onun dəlilləri qəbul olunmadı. XIX əsrin 60-70-ci illərində Rusiyanın sərhədləri yavaş-yavaş cənuba, Xəzərin şərq rayonlarına doğru uzanmağa başladı. Maliyyə idarəsinin rəhbəri kimi Reytern dərk edirdi ki, mürəkkəb iqtisadi probelmərin həlli siyasi sabitlik tələb edir. Odur ki, hökmdara məruzələrində, Dövlət Şurasının iclaslarındakı çıxışlarında o mü-

haribə əleyhinə çıxaraq beynəlxalq münasibətlərin kəskinləşməsini, müharibənin ölkənin maliyyə vəziyyətini fəlakətə salacağını vurğulamışdı.

XIX əsrin 70-ci illərində Rusiya imperiyasının cənub sərhədlərində Rusiya-Osmanlı müharibəsi təhlükəsi yarandıqda Reytern birinci olaraq silahlı münaqişənin əleyhinə çıxmışdır. II Aleksandrın slavyan xalqlarına qarşı türklərin basqınının önünü kəsməyin Rusiyanın vəzifəsi olduğu fikrinə qarşı dəfələrlə etiraz edən nazir, nəhayət, istefasını tələb etmişdir. Çar bunu qəbul etməyərək 1877-ci ildə hərbi əməliyyatların başlanması səbəbilə tələb olunan vəsaiti ayırmağı tapşırmışdır. Yalnız müharibə başa çatdıqdan sonra, yəni 1878-ci ildə onun istefası qəbul olunmuşdur. M.X.Reytern fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, ona ali Rusiya ordeni – Müqəddəs Andrey Pervozvannı mükafatı təqdim edilmişdir.

## §2. Rusiyanın xarici siyasəti. 1877-1878-ci illərdə Rusiya-Osmanlı müharibəsi

Krım müharibəsindəki məğlubiyyət Rusiya imperiyasının beynəlxalq nüfuzuna ciddi zərbə vurmuşdu. 1856-cı il Paris sülh müqaviləsinə görə, Qara dəniz bitərəf elan olunmuşdu. Rusiya Qara dəniz sularında hərbi donanma və hərbi dəniz cəbhəxanası saxlamaq hüququndan məhrum olmuş, Osmanlı dövlətinin daxili işlərinə qarışmamaq öhdəliyini üzərinə götürmüşdü. Qərb dövlətləri XVIII əsrin ikinci yarısı Böyük Yekaterinann dövründən Qara dəniz sahillərində möhkəmlənmiş Rusiyanı bundan məhrum etmək məqsədi güdürdülər. Lakin Rusiya onun üçün həyati əhəmiyyət kəsb edən bu ərazilərdən əl çəkmək fikrində deyildi. 1871-ci ildə Paris müqaviləsi etibarsız elan olundu.

I Nikolay və onun dəyişməz xarici işlər naziri qraf K.V.Nesselrodun üç onillik ərzində həyata keçirdikləri xarici siyasət kursu xarici təcrid və hərbi məğlubiyyətlə yekunlaşmışdı. Rusiya diplomatiyası onun dövlət maraqlarına zidd olan ideoloji tezisin əsirinə çevrilmişdi. İmperator I Nikolaya görə, dünya dövlətləri iki – özündən və özgə qruplardan ibarətdir. Ənənəvi mütləqiyyət quruluşlu dövlətlər birinci qrupa daxil idi ki, onlar da qayda-qanunu yaradırdı. Müxtəlif parlamentlərin və azadlıqların mövcud olduğu ikinci qrup ölkələr isə qarışıqlıq yayırdı. İmperiyanın dövlət maraqlarının ideoloji yanaşma ilə birləşdirilməsi başqalarının gözündə Rusiyanın qaranlıq və irticanın keşiyində duran «bədheybət» («монстр») kimi tanınmasına səbəb olmuşdu. 1849-cu ildə rus ordusunun Macarıstana daxil olması ölkənin nüfuzuna ciddi xələl gə-

tirmişdi. Bu hərəkət mənəvi-siyasi itkidən başqa Rusiya üçün heç bir nəticə verməmişdir. Krım müharibəsi ərəfəsində isə bir neçə il əvvəl rus ordusunun əməliyyatları əsasında xilas olan Avstriya hakimiyyəti düşmən cəbhəsində yer tutmuşdu. Bu fakt 1815-ci il Vyana konqresinin qəbul etdiyi «legitimlik prinsipi»nin mənasızlığını I Nikolaya xatırlatmışdır.

Krım müharibəsindən sonra imperator II Aleksandr ölkəni təcrid vəziyyətindən çıxarmaq məqsədilə 1856-cı ildə knyaz A.M.Qorçakovu (1798-1883) xarici işlər naziri təyin etmişdir. Knyaz Aleksandr Mixayloviç Qorçakov qədim zadəgan nəslindən olub, atası general-mayor knyaz Mixail Alekseyeviç Qorçakov bir çox hərbi kampaniyaların, o cümlədən 1812-ci il Vətən müharibəsinin iştirakçısı olmuşdur. Aleksandr Mixayloviç A.S.Puşkinlə bir vaxtda Tsarskoselsk liseyində təhsil almışdır. 1820-ci ildə diplomatik fəaliyyətə başlayaraq London, Roma, Berlin, Vyanadakı Rusiya səfirliklərində çalışmışdır.

A.M.Qorçakov yeni xarici işlər naziri təyin olunduqdan sonra onun qarşısında uğursuz müharibədən sonra Rusiyanın beynəlxalq nüfuzunu bərpa etmək, müttəfiqləri səfərbər edərək Paris sülhünün alçaldıcı maddələrindən azad olmaq vəzifələri dayanmışdı. Bu məsələləri həll etmək məqsədilə Rusiya diplomatiyası son dərəcə ehtiyatlı addımlar atmalı idi, çünki ölkədə başlamış islahatlar bir tərəfdən sakitlik tələb edirdi, başqa birtərəfdən isə imperiya qüdrətli Qərb dövlətlərinin birləşmiş qüvvələri qarşısında hələ çox zəif idi. XIX əsrin 50-ci illərinin sonunda İtaliyada hakimiyyət üstündə Fransa ilə Avstriya (1867-ci ildən Avstriya-Macarıstan) arasında ziddiyyətlər kəskinləşdikdə Rusiya diplomatiyası fəallaşdı. Rusiya mübahisəli məsələnin həllində arbitr kimi çıxış edərək Parisi müdafiə etdi. Fransız imperatoru III Napoleon rus çarına dostluq münasibəti nümayiş etdirməyə başladı, 1867-ci ildə II Aleksandr Parisə səfər etdikdə onu təntənə ilə qarşılayaraq, Fransanın Krım müharibəsində iştirakını rəsmi olaraq «səhv» kimi qiymətləndirdi.

Lakin bir neçə səbəbə görə Fransa-Rusiya geosiyasi alyansının yaranması otuz ildən artıq təxirə düşmüşdü. XIX əsrin 50-60-cı illərində iki əsas problem bu yolda keçilməz sədd təşkil etmişdi. Birincisi, Fransa 1856-cı il Paris sülh müqaviləsinin şərtlərinə yenidən baxmaqdan imtina edirdi. İkincisi isə köhnə və xəstə «Polşa məsələsi» idi.

50-ci illərin ikinci yarısından başlayaraq Rusiyanın mərkəzi hakimiyyəti Polşa ölkəsinə münasibətini dəyişdirmişdi. II Aleksandr çalışırdı ki, köhnə inciklikləri unudub imperiyanın bu təlatümlü regionunu sakitləşdirsin. 1830-1831-ci il üsyanının iştirakçıları tamamilə əfv edilmiş, Vatikanla 1847-ci ildə imzalanmış Polşada katolik kilsəsinin işlərini idarə etmək hüququ verən konkordat bərpa edilmiş, məktəb işləri polyakların idarəçiliyinə verilmiş, Varşavada

Tibb Akademiyası açılmışdır. Yerli təsərrüfat ehtiyaclarını qarşılamaq məqsədilə bütün Polşa quberniyalarında şöbələri olmaq hüququ ilə mərkəzi Polşa Əkinçilik Şurası yaratmağa icazə verilmişdir. Polşadakı canişin knyaz M.D.Qorçakov polyaklara rəğbət göstərərək inzibati qərarların qəbulunda əhalinin əhvali-ruhiyyəsini nəzərə almağa səy göstərirdi. Lakin bütün bu tədbirlər Peterburqun gözlədiyi nəticəni vermədi, polyak ictimai qrupları özlərinin Anti-Rusiya fəaliyyətini daha da artırdılar. Eyni zamanda Qərbi Avropanın bir çox ölkəsinin paytaxtlarında, o cümlədən Parisdə güclü mühacir polyak cəmiyyətləri fəaliyyət göstərirdi. Onların arasında polyak əslzadələrinin mənafeyini müdafiə edən «ağ partiyalar» və xırda əkinçi və xidmət adamlarını əhatə edən «qırmızılar» mövcud idi. Polşa mühacirətinin rəhbərləri polyakların müstəqillik tələbi ilə yanaşı, Rusiyanın qərb ərazilərinə də gələcək «böyük Polşa»nın tərkibinə qatmaq üçün iddia irəli sürürdülər. III Napoleon hökuməti özünün ictimai nüfuzunu qorumaq məqsədilə «Polşa məsələsinə» rəğbətlə yanaşırdı.

Rusiyanı zəiflətmək məqsədilə polyak kartından istifadə edən İngiltərənin Baş naziri Palmerston 1862-ci ilin martında palataların ümumi iclasında «polyak azadlığı» haqqında alovlu bir nitq söyləmişdir. Fransada da belə bir məzmunlu çıxışlar səslənsə də, onlar Polşaya görə döyüşmək fikrindən çox uzaq idi. Məqsəd «Polşa məsələsi»ni şişirtməklə Rusiyanın güclənməsinin qarşısının alınmasından ibarət idi.

1861-ci ilin fevralında kütlə ilə rusiyalı əsgərlər arasında toqquşma baş verdi, altı nəfər öldürüldü. 1863-cü ilin əvvəlində Polşa rayonlarında silahlı üsyan başladı. Yanvarın 10-dan 11-nə keçən gecə Polşanın ərazisində yerləşən rus hərbi qarnizonuna hücum başladı. Bunun ardınca imperiyanın idarələri, pravoslav məbədləri, Rusiyanın casusu hesab edilən sadə adamların evləri basqına uğradı. Təqribən bir il yarım xaricdən aldığı müasir silahlarla təhciz olunan üsyançılar fəaliyyətlərini davam etdirdilər. Yalnız 1864-cü ilin mayında üsyançıların müqaviməti qırılmışdı.

1863-cü il Polşa hadisələri Rusiyanın xarici siyasət kursunda dəyişikliyə səbəb oldu. Paris və Londonla dostluq münasibətləri baş tutmadıqdan sonra Polşa məsələsində Rusiyanın tərəfində olan Prussiya ilə yaxınlaşma başladı. 1863-cü ildə Berlinlə Peterburq arasında üsyançıları sərhəd boyunca təqib edərək Rusiyaya verməyi öhdəsinə götürən hərbi konvensiya imzalanmışdır. Prussiya razılaşdırma şərtlərinə sözsüz əməl etmişdir.

II Aleksandrın anası Prussiya şahzadəsi olduğu üçün Romanovlar və Qoqensollerlərin qohumluq əlaqələri Peterburqla Berlin arasında dostluq münasibətlərinin yaranmasını asanlaşdırmışdır. 1862-ci ildən Prussiya hökumətinin və Xarici İşlər Nazirliyinin rəhbəri olan Otto fon Bismark (1815-1898) Prussiyanın 1859-1862-ci illərdə Rusiyada səfiri olmuşdur və o dəfələrlə

çara, knyaz Qorçakova bildirmişdir ki, Rusiya ilə dostluq onun «müqəddəs arzusu»dur. Çar və A.M.Qorçakov da belə hesab edirdi ki, Rusiyanın Avropadakı yeganə müttəfiqi Prussiya ola bilər. Təsadüfi deyil ki, 1864-cü ildə Prussiya Avstriya ilə birlikdə Danimarkaya hücum edib onun cənub əyalətlərini zəbt etdilər. 1866-cı ildə Avstriya-Prussiya müharibəsi başladı, Avstriya məğlub oldu, 32 knyazlıq, qraflıq və krallıqdan ibarət olan Almaniyanın daxilində daha böyük olan Prussiyanın mövqeyi xeyli möhkəmləndi.

1870-ci ildə fransız-pruss müharibəsi başladıqda Rusiya bitərəflik elan edərək Fransaya kömək etmədi. Napoleon Fransası məğlub edildikdən sonra Rusiya hökuməti adından nota ilə çıxış edən knyaz Qorçakov xarici dövlətlərin nəzərinə çatdırdı ki, Rusiya Qara dənizdə donanmaya malik olmamaq vəzifəsini öz üzərindən götürərək hərbi gəmilər inşa etməyə başlayır. Beləliklə, 1856-cı il Paris müqaviləsi qüvvəsini itirmiş oldu.

1871-ci il yanvarın 18-də prussların işğal etdiyi fransız kralının şəhər kənarındakı Versal iqamətgahında Prussiya kralı Vilhelmin Almaniya imperatoru I Vilhelm kimi elan edilməsi baş tutmuşdur. Vahid və qüdrətli Almaniya dövləti yarandı, Bismark imperiyasının Birinci naziri olaraq sözdə Rusiya ilə dostluq əlaqələrindən bəhs edirdi. Bu mövqeyi II Aleksandr və knyaz A.M.Qorçakov müdafiə edirdi. Hadisələrin ardıcıllığı göstərdi ki, Rusiya bu dostluq münasibətlərinə səmimi yaxınlaşdığı halda, kansler Bismarkın mövqeyi dəyişkən olmuşdur. 1873-cü ildə Berlində üç imperatorun – Almaniya, Avstriya və Rusiya görüşündə «Üç imperatorun ittifaqı» («Союз трех императоров») adını almış müqavilə imzalanmışdır. Rusiya çarı II Aleksandr, Almaniya imperatoru I Vilhelm və Avstriya-Macarıstan imperatoru Frans-İosif tərəflərin hər hansı biri təhlükəyə məruz qaldıqda qarşılıqlı kömək etməyi öz öhdələrinə alırdı. Tez bir zamanda müttəfiqlər arasında ciddi fikir ayrılığı meydana çıxmışdır. Almaniyanın kansleri Fransaya yeni zərbə vuraraq onu böyük dövlət kimi məhv edib imperiyanın ərazilərinə sahib olmaq məqsədi güdürdü. Odur ki, 1875-ci ildə Rusiya Bismarkı xəbərdar etdi ki, Fransanın yenidən darmadağın edilməsinə razı ola bilməz. Rusiyanın qəti mövqeyi Bismarkın geri addım atmasına səbəb oldu. Üç ildən sonra Rusiya ilə Osmanlı Bolqarıstan uğrunda müharibədən sonra Rusiya-Almaniya münasibətləri yeni bir sınaq qarşısında dayanmışdır.

Rusiya imperiyası ilə Osmanlı Türkiyəsi arasındakı münasibətlər daim gərgin olmuşdur. Bu əsasən xarici siyasət maraqları ilə bağlı idi. Bosfor və Dardanel boğazlarına osmanlılar nəzarət etdiyi üçün Rusiya donanması Qara dənizdə sərbəst hərəkət edə bilmirdi. Boğazlardan keçmək üçün rus hərbi gəmiləri Osmanlı hökumətinin razılığını almalı, ticarət gəmiləri isə yüksək vergi ödəməli idilər.

Eyni zamanda, Osmanlı dövləti Qafqazdakı azadlıq hərəkatını müdafiə edərək ona mənəvi, maddi və hərbi yardım etmişdir. Bu xüsusilə Şeyx Şamil hərəkatı zamanı özünü açıq büruzə vermişdir. Şimali Qafqazda Şamilə qarşı müharibə başa çatdıqdan sonra orada heç bir hərbi əməliyyat aparılmasa da, Osmanlı dövlətinin özündə fəaliyyət göstərən müxtəlif dini qruplar Qafqazda ruslara qarşı «Müqəddəs müharibə» (cihad) şüarlarını səsləndirirdi ki, bu da Rusiyada narahatlıq doğururdu.

Peterburqla İstanbulun arasındakı münasibətlərin kəskinləşmə səbəblərindən biri də milli-dini məsələ olmuşdur. Osmanlı ərazisində yaşayan əhalinin böyük əksəriyyəti islam dininə etiqad edirdi. İmperiyanın ərazisində həm də başqa xalqların, o cümlədən bolqar, serb, yunan, erməni, yəhudilərin nümayəndələri yaşayırdı ki, onlar da başqa dinlərə xidmət edirdilər. Bu xalqların nümayəndələrinin zaman-zaman sıxışdırılıb təqib edilməsi iddiası ilə Rusiya hökuməti onlara himayədarlıq etməyə səy göstərirdi.

XIX əsrin 70-ci illərində Balkanlarda türklərlə bolqarlar arasında qanlı toqquşmalar baş vermiş, on minlərlə bolqar öldürülmüş, bir çox kəndlər yerli-dibli dağıdılmışdır. Bolqarlarla yanaşı, türklərin hakimiyyəti altında olan qaradağlılar və serblərin bir hissəsi də qanlı toqquşmalardan öz nəsibini almışdır. Baş verənlərlə barışmaq istəməyən Rusiya Avropa dövlətlərinin köməyi ilə vəziyyəti nəzarət altına almağa səy göstərdi. Lakin London, Paris, Berlin və Vyana məsələyə qarışmaq məqsədindən çox uzaq idi. Onlar bir tərəfdən məsələnin Osmanlı dövlətinin daxili işi olduğunu əsas gətirir, başqa bir tərəfdən, «irticaçı çarizm»lə heç bir həmrəyliyin mümkün olmadığını qeyd edirdilər.

Rusiya hökuməti Osmanlıdan slavyanların təqib edilməsini dayandırmağı tələb edərək 1876-cı ilin payızında danışıqlara başladı. Danışıqlar heç bir nəticə vermədiyi üçün II Aleksandr 1877-ci il aprelin 12-də Osmanlı dövlətinə müharibə elan etdi. Hərbi əməliyyatlar Balkanalar və Cənubi Qafqazda davam edirdi. Balkanlarda əsas rus ordusunun komandanı çarın qardaşı böyük knyaz Nikolay Nikolayeviç, Cənubi Qafqazdakı orduya komandan çarın kiçik qardaşı böyük knyaz Mixail Nikolayeviç təyin olundu. II Aleksandr özü orduya gələrək yeddi ay ən mürəkkəb əməliyyatlar vaxtı onlarla birlikdə oldu. İngiltərə və Fransa tərəfindən hər cür kömək alan türklərlə müharibə doqquz ay davam etdi və Rusiyaya 30 min itki hesabına başa gəldi. 1877-ci il iyunun 15-nə keçən gecə rus birlikləri Dunayı keçib iyunun 25-də Bolqarıstanın qədim paytaxtı Tırnovonu tutdu. Şimali Bolqarıstan türklərdən əsasən təmizləndi. 1877-ci il iyulun əvvəlində rus ordusu Şipka aşırımını tutdu. Süleyman paşanın 38 minlik türk ordusu aşırımı qoruyan general N.Q.Stoletovun beş minlik, o cümlədən iki min bolqar vətənpərvəri olan qoşunla qarşı-qarşıya

gəlmişdir. Avqustun 9-12-si arasında türklər aşırıma dəfələrlə hücum etsə də, onu ələ keçirə bilmədilər. Tezliklə köməyə gələn rus ordusu əks-hücuma keçib düşməni geri oturtdu. Rus ordusu 500 nəfəri bolqarlar olmaq üzrə 4 min nəfərə yaxın əsgərini itirdi və yaxud yaralandı.

1877-ci il iyuldan noyabra kimi bolqar şəhəri Plevnada ağır döyüşlər baş verdi. Bir neçə hücumdan sonra türklərin sahib olduğu Plevnanı ala bilməyən ruslar onu mühasirə etdilər. Rus ordusu, eyni zamanda, Plevna ətrafındakı istehkamları bir-bir ələ keçirdilər. 1877-ci noyabrın 28-də Osman paşanın 50 minlik qoşunu mühasirəni yarmağa cəhd etsə də, buna nail ola bilməyərək əsir düşdülər. Plevna uğrunda döyüşlərdə 10 mindən çox rus əsgəri həyatını itirmişdir.

Qafqaz cəbhəsində 1877-ci ilin yazında hücuma keçən rus ordusu oktyabr ayında türk qoşununu məğlub edib Osmanlının içərilərinə doğru bir neçə yüz kilometr irəlilədilər.

1877-ci ilin sonunda hücuma keçən rus ordusu dekabrın 23-də Sofiyanı, yanvarın 3-4-də Fillippopolu, 8-də Andrianopolu ələ keçirdi. Osmanlı imperiyasının paytaxtı İstanbula yüz kilometrdən də az məsafə qalmışdır. Sultan II Əbdül-Həmid və ətrafı həyəcan içərisində paytaxtdan qaçdılar.

İngilis eskadrası Mərmərə dənizinə daxil olaraq İstanbulun reydində durdu. İngilis hökuməti nota təqdim edərək Rusiyanı müharibə ilə hədələdi. Avstriya-Macarıstan da eyni mövqe tutdu. Belə şəraitdə II Aleksandr geri addım atmağa məcbur oldu. Fevralın 19-da San-Stefano adlanan yerdə Rusiya ilə Osmanlı arasında sülh müqaviləsi imzalandı. Müqavilənin şərtlərinə əsasən, Krım müharibəsi vaxtı itirilən Bessarabiyanın cənub hissəsi və Qafqazdakı Qars vilayəti Rusiyaya birləşdirildi. Türklər Balkanlardakı slavyan ölkələrinin müstəqilliyini tanıdı. Lakin Qərb dövlətlərinin tələbilə 1878-ci il iyunun 1-də Berlində açılan beynəlxalq konqresdə San-Stefano sülhünün şərtlərinə yenidən baxıldı. İngiltərə, Avstriya-Macarıstan, Fransa və İtaliya bir cəbhədə Rusiyaya qarşı çıxış etdilər. İyulun 1-də imzalanmış traktatda Bolqarıstanın cənub sərhədləri şimala – Balkan dağ silsiləsinə doğru çəkilərək Osmanlı dövlətinin vassalı elan olundu. Yeni meydana gələn vassal Bolqarıstanı illik bac ödəməli və dövlətin başçısı Sultan olmalı idi. Bolqarıstanın cənub hissəsi Şərqi Rumeli əyaləti adı ilə Osmanlının tərkibində qalırdı. Rusiyanın təklifi ilə əyaləti böyük dövlətlərin razılığı ilə Sultanın təyin etdiyi xristian beş il ərzində idarə etməli idi. Məhz Rusiyanın köməyi ilə bu ərazi 1885-ci ildə Bolqarıstana birləşdirilmiş, 1908-ci ildə isə Bolqarıstan özünü müstəqil elan etmişdir. Osmanlı imperiyası Çernoqoriya, Serbiya və Rumıniyanın müstəqilliyini tanımışdı. Türklər müsəlmanlarla xristianların hüquqlarını bərabərləşdirmək məqsədilə ölkədə islahatlar aparmağı öz üzərinə götürmüşdü. Berlin traktatı mürəkkəb Balkan problemini

həll edə bilmədi və nəticədə onilliklər boyu gərginlik mərkəzi olaraq Birinci Dünya müharibəsinə gətirib çıxardı.

XIX əsrin II yarısında Rusiya imperiyasının ərazi formalaşması başa çatmışdı. Son olaraq Xəzər dənizinin şərq sahillərindəki əhalisi az olan ucsuz-bucaqsız ərazi onun tərkibinə daxil edilmişdir. Ruslar tədricən Orta Asiyanın şimalındakı çöllərdə məskunlaşmağa başlamışdır. I Pyotrun dövründə İrtış çayında Omsk və Semipalatinsk şəhər-qalaları salınmışdır. Anna İvanovnanın hakimiyyəti zamanı köçəri tayfaların böyük əksəriyyəti Rusiyanın təbəəliyini qəbul edərək imperiyanın sərhədlərini qorumağa başlamışdır. XIX əsrin ortalarında müasir Qazaxıstanın böyük hissəsi Rusiyanın tərkibinə daxil olmuşdur. Cənuba doğru – Aral dənizi rayonunda, ondan da cənuba – Amudərya və Sırdərya çayları boyu ərazilərdə Rusiyaya düşmən münasibət bəsləyən üç dövlət yerləşirdi. Rusiyanın sərhədlərinə yaxın olan Kokand xanlığı böyük əraziyə və Kokand, Daşkənd, Xocənd, Qulyab kimi iri Orta Asiya şəhərlərinə sahib idi. Dövləti idarə edən xan qonşulara müharibələr elan edir, rus qəsəbələrinə, hərbi qalalara, tacirlərə hücum edərək rusları əsir götürüb qul kimi satırdı. II Aleksandr əraziyə nəzarəti ələ almaq məqsədilə rus qoşununu səfərbər etmişdir. 1865-ci il mayın 17-də ruslar Daşkənd, 24-də Xocənd şəhərlərini işğal etdilər. Ərazisinin böyük bir hissəsini itirən Kokand xanlığında üsyan yayıldı, tezliklə rus ordusu bütün ölkəni işğal etdi. 1876-cı ildə Kokand xanlığı ləğv olundu, Daşkənd mərkəz olmaqla Türküstan general qubernatorluğu təsis olundu.

Orta Asiyanın ikinci böyük dövləti olan Buxara əmirliyinin Kokanda kömək etməsi iddiası ilə rus ordusu hərbi əməliyyatları Buxaranın ərazisinə keçirərək Səmərqənd şəhərini işğal etdilər. Əmir sülh istəməyə məcbur oldu, 1868-ci ildə bağlanmış sülhə əsasən rus ordusunun işğal etdiyi ərazilər Rusiyanın tərkibinə ilhaq edildi. Başqa yerlərdə imperatora tabe olmaq şərtilə əmirin hakimiyyəti qalırdı.

Kokand və Buxara işğal edildikdən sonra Orta Asiyanın böyük hissəsi Rusiya imperiyasına ilhaq edilmişdir. Amudərya çayının aşağı axarlarında, Qaraqum və Qızılqum isti səhraları ilə əhatə olunmuş Xivə xanlığı yerləşirdi. 1873-cü ilin yazında 12 minlik rus qoşunu 3 istiqamətdə Xivəyə hücum etdi, 1873-cü il mayın 29-da bir neçə top atəşindən sonra rus əsgərləri təntənəli sürətdə Xivəyə daxil oldular. Xivə xanı Türküstan general qubernatorluğunun tərkibinə daxil edilmiş Amudəryanın sağ sahillərinin Rusiya tərəfindən işğalını qəbul etdi, özünü Rusiya çarının vassalı elan etdi.

Orta Asiyanın işğal edilməsilə Rusiya imperiyası böyük bir əraziyə sahib oldu. Rusiya bu ərazilərdə insanların daxili qayda-qanununu, adət-ənənəsini, dinini, əmin-amanlığını saxlamaq məqsədilə Buxara əmirliyi və Xivə xanlığının

dövlət təsisatlarını saxladı. Onlar Rusiyanın tərkibinə muxtar dövlət qurumları kimi daxil oldu. Orta Asiyanın Rusiyaya ilhaq edilməsi bu yerlərin sakinləri olan müxtəlif xalqların həyatında dərin iz qoymuşdur. Yolların, məktəblərin, suvarma kanallarının tikintisi sayəsində Orta Asiya tədricən Rusiyadaxili təsərrüfat həyatının bir hissəsinə çevrilmiş, yerli sənaye müəssisələri, pambıqtəmizləmə, yağ zavodları meydana gəldi.

XIX əsrin son onilliklərində Avropada yeni geosiyasi vəziyyətə meydana gəlmiş, iki dövlət yaranmışdır. Savoysk sülaləsi başçılığı ilə İtaliya dövləti bərqərar olmuşdu. Qoqensoller sülaləsi Prussiyanın bayrağı altında birləşmiş Almaniya imperiyasını təşkil etmişdir ki, bu Rusiyanın maraq dairəsini narahat edirdi. XIX əsrin böyük hissəsində hər iki sülalənin qohumluq əlaqələrinə görə Peterburqla Berlin arasında dostluq əlaqələri davam etmişdir. I Nikolayın arvadı, II Aleksandrın anası Prussiya şahzadəsi Aleksandra Fyodorovna rus adını qəbul etmiş Şarlotta-Karolina idi. Almaniya imperiyasının birinci imperatoru I Vilhelm II Aleksandrın dayısı olurdu. XIX əsrin 60-cı illərində Prussiya Almaniyasının birliyi uğrunda mübarizə apardıqda, 1870-1871-ci illərdə Fransa-Prussiya müharibəsində Fransanı məğlub edərək Almaniya imperiyasını elan etdikdə Rusiya dost bitərəflik nümayiş etdirmişdir.

XIX əsrin 70-ci illərinin sonlarından Rusiya ilə Almaniya arasındakı bu «qəlb dostluğu» ciddi sınaq qarşısında qalmışdır. 1878-ci il Berlin konqresində Avropa dövlətləri Rusiyanın 1877-1878-ci il rus-türk müharibəsində əldə edilən çətin qələbəni heç etmək məqsədilə ona qarşı vahid cəbhədə yer almışdır. Məlum olmuşdu ki, Almaniya beynəlxalq məsələlərdə öz şərq qonşusuna rəğbət hissi ilə yanaşmaqdan çox uzaqdır. Almaniyanın imperiya maraqlarını önə çəkməsi Rusiyanın və çar II Aleksandrın ümidinin boşa çıxmasına səbəb olmuşdur.

1881-ci ildə taxta çıxan III Aleksandrda Anti-Almaniya rəyi formalaşmışdır. Bu da əsasən Prussiya ilə bağlı olmuşdur. XIX əsrdə geosiyasi məsələlərlə bağlı qərarlar dünyanın aparıcı siyasi mərkəzləri olan London, Paris, Peterburq və Vyanada qəbul olunurdu. Əsrin ortalarında Berlin də bu mərkəzlərə qoşulmuşdur. Yalnız əsrin sonlarından daha iki ölkə – Yaponiya və ABŞ siyasi cəhətdən dünyada rəhbər mövqeyə malik dövlətlərin sırasına daxil olmuşdur.

Rusiyanın dünyanın qüdrətli dövlətləri ilə münasibətləri mürəkkəb olaraq qalırdı. Böyük Rusiya imperiyası, onun yavaş-yavaş cənub və şərq istiqamətində genişlənməsi aparıcı dünya dövlətlərini narahat edirdi. Krım müharibəsi Rusiya-Fransa, Rusiya-İngiltərə münasibətlərinə mənfi təsir göstərərək uzun müddət İngiltərə və Fransa ilə yaxınlaşmağa mane olmuşdur. III Napoleonun Rusiyaya rəsmi xoş münasibət göstərməsinə baxmayaraq, 1870-ci ildə

Prussiyaya məğlub olduqdan sonra bir müddət Avropa siyasətində əsas rol oynamaqdan təcrid olmuşdu.

Rusiyanın İngiltərə ilə də münasibətləri gərgin olaraq qalırdı. Londonun Asiyadakı istilaları Peterburqun etirazı ilə müşahidə olunurdu. 1837-1901-ci illər arasında İngiltərənin taxtının sahibi kraliça Viktoriya əqidəli rusofob idi. Krım müharibəsinə yola düşən hərbi eskadranı öz yaxtasında sonuncu mayaka kimi müşayiət edən kraliça bütün dünyaya göstərmək istəmişdir ki, bu yalnız Britaniyanın deyil, onun həm də şəxsi müharibəsidir. 60-cı illərdə Baş nazir İzrael Rusiyanın Əfqanıstan və Hindistanın sərhədlərinə doğru genişlənməsini Britaniya imperiyası üçün böyük təhlükə hesab edirdi ki, bu mövqeyi kraliça Viktoriya da bölüşürdü.

XIX əsrin ortalarında Rusiyanın Orta Asiyanı işğal edərək Xəzər dənizinin şərqinə doğru irəliləməsi Britaniyaya məxsus Hindistanın sərhədlərinə yaxınlaşmaq demək idi. Tezliklə Mərv rayonunda yaranan ziddiyyət az qala iki dövlət arasında müharibəyə səbəb oldu. 1885-ci ilin əvvəlində ingilislər tərəfindən silahlandırılmış əfqan dəstəsi Kuşka qalası ətrafındakı yaxın ərazini ələ keçirərək rus ordusunun yerləşdiyi mövqeyi təhlükə altına aldılar. Çarın əmri ilə rus qoşunları əfqanları qovdu, ingilis təlimatçılar əsir düşdü. İngilis tərəfi üzr tələb etsə də, III Aleksandr soyuqqanlığını qoruyaraq hətta sərhəd dəstəsinin rəisini Georgiyev xaçı ilə mükafatlandırdı. XIX əsrdə İngiltərə-Rusiya arasındakı soyuq münasibətləri hətta iki qohum olan Romanovlar və Hannoverlər sülaləsi də dəyişə bilməmişdir. Rusiyanın vəliəhd arvadının, 1881-ci ildən imperatriçə Marii Fyodorovnanın böyük bacısı Danimarka şahzadəsi Aleksandra Viktoriyanın böyük oğlu, ingilis taxtının varisi Uels hersoqu Albert-Eduardın, 1901-ci ildə kral VII Eduardın arvadı idi. 1874-cü ildə II Aleksandrın yeganə qızı Mariya Aleksandrovna Viktoriyanın ikinci oğlu Edinburq hersoqu Alfredə ərə getmişdir. 1884-cü ildə kraliçanın nəvəsi, Gessen şahzadəsi Yelizaveta III Aleksandrın qardaşı, böyük knyaz Sergey Aleksandroviçə ərə getmişdir. Nəhayət, 1894-cü ilin noyabrında gənc çar II Nikolay ingilis monarxının kiçik nəvəsi, şahzadə Alisa Gessenskaya ilə nişanlanmışdır ki, o sonradan Aleksandra Fyodorovna kimi rus çariçası olmuşdur. Rusiya ilə İngiltərə arasında dövlətlərarası münasibətlər yalnız XX əsrin əvvəllərində yaxınlaşmışdır ki, bu da 1907-ci ildəki İngiltərə-Rusiya ittifaqının yaranması ilə başa çatmışdır.

Anti-Almaniya mövqeyinə baxmayaraq III Aleksandr taxta çıxdıqdan sonra «Üç imperator ittifaqı»nın yenilənməsinə razı olmuşdur. 1881-ci ilin iyununda imzalanmış yeni müqavilədə nəzərdə tutulmuşdu ki, hər hansı üç dövlətdən biri dördüncü dövlətlə müharibə təhlükəsi ilə üzləşdikdə müttəfiq

dövlətlər xoşməqsədli bitərəflik nümayiş etdirməyə borcludur. Türkiyə ilə müharibə olarsa, ərazi dəyişikliyi yalnız tərəflərin razılığı ilə mümkündür. Bu Rusiya üçün əlverişli olmasa da, dünya ölkələrindən təcrid vəziyyətdə qalmamaq üçün müqaviləni qəbul etmişdir.

1882-ci ildə Avropanın siyasi həyatında mühüm hadisə baş vermişdi. Almaniya, Avstriya-Macarıstan və İtaliya gizli «Üçlər İttifaqı»nı («Тройственный союз») yaratdılar. Öz üzərinə ümumi qaydada yalnız əxlaqi öhdəçilik götürmüş «Üç imperatorun ittifaqı»ndan fərqli olaraq yeni yaranan təsisat hərbi-strateji koalisiya olub birbaşa Fransaya və qismən də Rusiyaya qarşı yönəlmişdir. Müqavilə iştirakçıları Üçlər İttifaqının hər hansı birinə qarşı yönəldilmiş razılaşdırma iştirak etməməyə, hərbi əməliyyatlar zamanı bir-birinə hərbi kömək etməyi öz üzərinə götürmüşdür. Bu müqavilə 1915-ci ildə İtaliyanın Antanta tərəfinə keçməsinə kimi dəfələrlə uzadılmışdır.

Balkanlarda Rusiya ilə Avstriya-Macarıstanın mənafeyinin toqquşması Rusiyanın 1887-ci ildə Almaniya ilə üç il müddətinə gizli müqavilə bağlamağa sövq etmişdir. Kansler Bismark Fransaya qarşı müharibə təhlükəsi qarşısında ölkənin şərqdən təhlükəsizliyini təmin etmək məqsədi daşıyırdı, Rusiya özünü sığortalayırdı.

1890-cı ildə Almaniyada vəziyyət əsaslı surətdə dəyişilmişdi. Təkəbbürlü, bədrəftar, sərt bir insan olan II Vilhelm Almaniya imperiyasının başçısı oldu. Rusiya ilə dinc münasibətlərin tərəfdarı yaşlı Bismark istefaya göndərildi. Rusiya ilə Almaniya arasında amansız gömrük müharibəsi başladı.

1887-ci ildə Rusiyanı daha «sözəbaxan» etmək məqsədilə Bismark imperiyasının iqtisadi qüdrətini nümayiş etdirərək Rusiya mallarına, birinci növbədə taxıla qoyulan gömrük vergisini 70% artırdı. Reyxbank Rusiya qiymətli kağızlarının alınmasına avans verməyi və onları girov kimi qəbul etməyi dayandırdı. Rusiya dövlətinin istiqrazlarının və xüsusi kompaniyaların qiymətli kağızlarının dəyəri Berlin birjasında sürətlə aşağı düşdü. Rusiya öz növbəsində alman mallarının gömrük vergsini artıraraq almanlara ölkənin qərb quberniyalarında xüsusi mülkiyyətə sahib olmağı qadağan etmişdi. Rusiyanın dövlət və aksioner qiymətli kağızları 90-cı illərin əvvəllərindən başlayaraq Parisdəki fond bazarına yönəldildi. Almaniyanın iqtisadi basqısı heç bir siyasi nəticə vermədi, əksinə, Rusiyada Almaniya əleyhinə münasibət daha da qızışdı. Nəticədə, Berlinlə Peterburq arasında üç il müddətinə imzalanmış müqavilə uzadılmadı. Bismarkın istefasından sonra kayzer və onun «birinci naziri» kansler L.Kaprivi Almaniyanı Rusiya ilə dövlətlərarası əlaqələrlə bağlamaq məqsədindən çox uzaq idilər. Berlin Rusiyanın yerinə Avropada Vyana ilə dostluq əlaqələrinə üstünlük verirdi. Alman diplomatiyası

gələcəkdə özünün keçmiş rəqibi Fransa ilə Rusiyanın yaxınlaşması ehtimalını nəzərə almamışdı.

XIX əsrin 90-cı illərinin əvvəllərində Rusiya imperiyasının Qərb sərhədlərində qüdrətli siyasi və hərbi strateji gücə malik Almaniya-Avstriya ittifaqı dayanmışdı. Qohumluq əlaqələrinə baxmayaraq, Almaniya üçün Vyana əsas tərəfdaş və yaxın müttəfiq olmuşdur. Belə bir şəraitdə Rusiya gözlənilməz bir addım ataraq Fransa respublikası ilə hərbi-siyasi ittifaq bağladı. Fransada xeyli rusiyalı dissident və taxt əleyhdarlarının yerləşməsinə baxmayaraq, dövlət mənafeyi çar III Aleksandrı mühafizəkar iradəsindən əl çəkib bu ölkə ilə yaxınlaşmağa sövq etmişdi. 1891-ci ilin avqustunda hər iki ölkə siyasi ittifaq təşkil edərək sülh naminə bütün kəskin beynəlxalq məsələlərdə məsləhətləşməyi vəd etdilər. 1892-ci ilin avqustunda Rusiya və Fransa hərbi konvensiya imzaladı. Birinci maddədə qeyd olunurdu: «Əgər, Fransa Almaniyanın müdafiə etdiyi Almaniya və ya İtaliya tərəfindən hücuma məruz qalarsa, Rusiya malik olduğu bütün ordudan Almaniya üzərinə hücum üçün istifadə etməli idi. Əgər Rusiya Almaniyanın müdafiə etdiyi Almaniya və ya Avstriyanın hücumuna məruz qalarsa, Fransa malik olduğu bütün ordudan Almaniya üzərinə hücum üçün istifadə etməlidir». Beynəlxalq müqavilədə göstərilirdi ki, Fransa Almaniyaya qarşı 1300 min, Rusiya 700-dən 800 minə kimi ordu çıxarmalıdır. Peterburqun təklifi ilə fransız-rus ittifaqı gizli qalmalı idi. Belə bir ciddi beynəlxalq müqaviləni uzun zaman gizli saxlamaq mümkün deyildi. Odur ki, bir neçə ildən sonra Fransa və Rusiya öz müttəfiqlik borcunu rəsmi bəyan etmişdir.

1894-cü ilin aprelində taxtın varisi Nikolay Aleksandroviç Gessen şahzadəsi Alisa ilə nişanlandıqdan sonra Fransa ittifaqın gələcəyi üçün xeyli narahat oldu. III Aleksandr birmənalı olaraq elan etmişdi ki, «Üçlər İttifaqı qaldıqca bizim Almaniya ilə yaxınlaşmağımız mükün deyil».

1894-cü ilin oktyabrında Rusiyanın yeni hökmdarı II Nikolay hakimiyyətə başlamışdı. III Aleksandrın yas mərasimində iştirak edən Fransa nümayəndəliyinin başçısı general P.Buadefri qəbul edən yeni çar bildirmişdi ki, həm daxili, həm də xarici siyasətdə atasının işini hörmətlə davam etdirəcək.

XIX əsrin sonlarında Rusiyada hakimiyyətə yeni monarxın gəlməsi Böyük Britaniyanın siyasi dairələrinin Rusiya ilə bağlı mövqeyinin dəyişilməsinə şərait yaratmışdır. Xüsusilə kraliça Viktoriya sevimli nəvəsi Alisa və gənc Nikolayla şəxsən tanış olduqdan sonra ənənəvi rusofobiya mövqeyini dəyişməyə başladı. 1894-cü il noyabrın 14-də II Nikolayın nikah mərasimi münasibətilə hakimiyyəti dövründə ilk dəfə bütün rusiyalı diplomatların iştirakı ilə Vindzor qəsrində təmtəraqlı qəbul təşkil etmişdir. Uşaqlıq illərində Alisaya analıq etmiş yaşlı kraliça Viktoriyaya II Nikolay da böyük hörmətlə yanaşırdı. Ancaq

qohumluq rəğbəti öz yerində, dövlətin mənafeyi çara görə hər şeydən üstün idi. XIX əsrin axırlarında dünya miqyasında Rusiyanın mövqeyi möhkəm idi. Onun təqribən 900 min nəfərlik ən böyük quru qoşunları, İngiltərə və Fransadan sonra dünyada üçüncü donanması mövcud olmuşdur. Müasir hərbi-texniki silahlarla müqayisədə qabaqcıl dünya dövlətlərindən geri qalsa da, bu fərqi azaltmağa səy göstərirdi.

## §3. XIX əsrin II yarısında ictimai hərəkat. İmperator III Aleksandr

XIX əsrin 60-cı illərinin əvvəllərindən Rusiyada həyata keçirilən islahatlar ölkənin iqtisadi inkişafını sürətləndirdi, xüsusi sahibkarlığı bərqərar etdi. Şəhərlər artır, dəmiryolları çəkilir, çoxlu yeni sənaye müəssisələri yaranırdı. Əhalinin təhsil səviyyəsi yüksəlir, yüzlərlə yeni təhsil müəssisəsi açılırdı. Məhkəmə sistemi liberallaşdırılmışdır. Çarın təbəələri öz mənafeyini məhkəmədə müdafiə etmək, vəzifəli şəxslərin özbaşınalığndan şikayət etmək hüququ almışdır. Hakimiyyətin senzuranı yumşaltması nəticəsində 60-cı illərdə Rusiyada yüzlərlə yeni qəzet və jurnal meydana çıxmışdır. Xarici ölkələrə səfər etmək qaydası sadələşdirildiyi üçün minlərlə rusiyalı turist və səyyah ölkəni tərk edir, bir çox insan Avropanın qabaqcıl ali təhsil müəssisələrində təhsil alırdı. Dövlətin siyasəti tədricən Rusiyanı liberal və hüquqi dövlətə çevirmək istiqamətində olmuşdur.

Lakin dövlətin siyasətilə razı olmayan adamlar da var idi. Onlar I Nikolayın dövründə insanların ictimai fəaliyyət sahəsinə hakimiyyətin nəzarətinin, hər bir məsələyə rəislərin müdaxiləsinin tərəfdarı idi. Bu zaman yerlərdəki məmurlar «dövlət mənafeyi» pərdəsi altında özbaşınalıqlarını davam etdirir, tutduqları mövqedən «bəhrələnirdilər». Sərt üfüqi icra nəzarəti kapitalizmin inkişafı, xüsusi sahibkarlığın yayılması ilə bərabər bəzi hüququnu və əmlak vərəsəliyini itirmiş zadəganları da təmin edirdi. Bu ictimai elementlər islahatların əleyhinə olmuşdur. Lakin ölkənin yeniləşməsi kursuna qarşı olan bu adamlar «keçmiş günün» nümayəndələri idi.

XIX əsrin 60-cı illərinin əvvəllərində ölkədəki islahatları «ləng» və «səthi» hesab edən «xalqçılıq» meydana gəlmişdir. A.İ.Gertsen və N.Q.Çernışevski xalqçılıq ideologiyasının banisi, V.Q.Belinskinin «İnsan şəxsiyyəti tarixdən, cəmiyyətdən, bəşəriyyətdən üstündür» sözləri onların əsas şüarı olmuşdur. Bu fikri inkişaf etdirən «kəndli sosializminin» ideoloqu N.K.Mixaylov (1842-

1904) hesab edirdi ki, insan şəxsiyyəti, onun həyatı və maraqları onların nəzəri fikri və praktik fəaliyyətlərində əsas yer tutmalıdır. N.Mixaylova görə şəxsiyyət nə kapitalizmdə, nə də çar diktaturası şəraitində layiq olduğu yeri tuta bilər, odur ki, real sosial ümumi yaşayış formasını dağıdıb bərabərlik və təmənnasızlıq prinsipi əsasında ədalətli cəmiyyət bərqərar olunmalıdır.

İnqilabi xalqçılığın üç əsas cərəyanı mövcud olmuşdur. Təbliğatçı, qiyamçı və qəsdçi cərəyanların nəzəriyyəçiləri P.L.Lavrov, M.A.Bakunin və P.N.Tkaçov idi. Pyotr Lavroviç Lavrov (1823-1900) hesab edirdi ki, inqilabın aparıcı qüvvəsi olan ziyalılar kəndlilərin vəziyyətini yaxşılaşdırmaq məqsədilə mümkün olan hər şeyi etməyə borcludur. Onlar inqilabi təşkilat yaratmalı, xalq içərisində geniş təbliğat aparmalı, onu inqilaba hazırlamalıdır.

Mixail Aleksandroviç Bakunin (1814-1876) qiyamçı cərəyanın nəzəriyyəçisi kimi anarxizmin, yəni hər cür dövlət hakimiyyətini məhv etmək tərəfdarı olmuşdur. O inqilabın əsas qüvvəsini kəndlilərdə görürdü və belə hesab edirdi ki, Rusiya əhalisinin böyük əksəriyyəti dövlət hakimiyyətinin əleyhinə olaraq anarxizmin tərəfdarıdır və hakimiyyəti məhv etmək üçün məqam gözləyir. Rusiya tarixindəki kəndli qiyamları bunu təsdiq edir. Ziyalılar xalqın içərisinə gedərək onu qiyama qaldırmalıdır.

Xalqçılıqda qəsdçi cərəyanın əsasını tənqidçi və publisist Pyotr Nikitiç Tkaçov (1844-1885) qoymuşdur. P.Tkaçov hesab edirdi ki, mütləqiyyətin heç bir sinfi dayağı olmadığına görə kiçik bir qəsdçi qrupu dövlət çevriliş edib, hakimiyyəti ələ alıb, sonra lazımi sosialist dəyişiklikləri həyata keçirərlər. O, inqilabda xalq kütlələrinin roluna inanmayaraq belə hesab edirdi ki, savadsız kəndliləri «təbliğat yolu ilə inandırmaq» mürəkkəb bir işdir. Odur ki, yalnız ziyalılara arxalanaraq xalq üsyanı yolu ilə deyil, hökumət əleyhinə gizli qəsd yolu ilə inqilab təşkil etmək mümkündür.

Öz sosial vəziyyətinə görə xalqçıların böyük əksəriyyəti o zaman deyildiyi kimi, raznoçinlərdən («из разных чинов») ibarət idi. Bir qayda olaraq, onlar aztəminatlı ailələr, o cümlədən keşiş, kiçik məmur, yoxsullaşmış zadəganlar arasından çıxaraq məhz II Aleksandrın islahatları sayəsində təhsil alıb mənsəb sahibi olmaq imkanı qazanaraq cəmiyyətdə mühüm yer tutmuşdur. Onlar ölkəni, xalqı «xoşbəxt etmək» («осчастливить») arzusu ilə bütün Rusiyanı özlərinə görə yenidən qurmaq istəyirdilər. 50-ci illərin sonlarından başlayaraq gizli dərnək və ittifaqlarda birləşərək mövcud ictimai quruluşla mübarizənin strategiya və taktikasını hazırlayırdılar. XIX əsrin 70-ci illərində xalqçıların sayının iki min nəfərdən çox olmasına baxmayaraq, onların fanatikcəsinə özünü qurban vermək aktları rus adamlarının böyük bir hissəsinin rəğbətinə səbəb olmuşdur. «Maarifçi kütlənin» («просвещенной публики») xalqçılara

rəğbəti Rusiya cəmiyyətinin mənəvi-əxlaqi iqlimi ilə bağlıdır. Lap qədimdən Rusiyada pravoslav-xristian ənənəsi əsasında formalaşan sosial-etik normalarda alçaldılmış və təhqir edilmişlərin halına acımaq nəzəri cəlb etmişdir. Xalqçıların ictimai-siyasi görüşləri xristian əxlaqı ilə sosialist nəzəriyyəsinin simbiozundan ibarət olmuşdur.

Tanınmış xalqçı qadın, sosialist inqilabçılar partiyasının qurucusu, 1917-ci ildə mütləqiyyətin devrilməsindən sonra mətbuatın və silahdaşlarının adlandırdığı «rus inqilabının nənəsi» («бабушка русской революции») E.K.Breşko-Breşkovskaya (1844-1934) qoca yaşlarında etiraf etmişdir ki, o iztirab yolunu İncil və övliyaların həyatını oxumasının təsiri altında seçmişdir. Digər bir tanınmış xalqçı, «rus inqilabının babası» («дедушка русской революции»), II Aleksandrın öldürülməsinin təşkilatçılarından biri N.A.Morozov (1854-1946) sürgündə öz günlərini «İsanın əsl tərcümeyi-halı» («Истинного жизнеописания Христа») əsərini yazmaqla keçirmişdir.

Bomba ataraq, qəflətən xəncərlə öldürərək, tapançadan birilərinə atəş açaraq onlar başqalarını xoşbəxt etmək istəyirdilər. Bu sosial fəlsəfənin hər bir insan həyatının öz sərvəti olan ümumi xristianlıqla heç bir əlaqəsi yoxdur. Lakin xalqçılar peşmanlıq hiss etməyərək qanlı aktların «mütləqiyyət despotizminə» qarşı xalq cavabı kimi qəbul edirdilər. Onları Rusiyanın ictimai quruluşuna fanatik nifrət hissi fərqləndirmişdir. XIX əsrin 60-cı illərinin əvvəllərində Rusiyanın müxtəlif yerlərində, universitetlərdə, apteklərdə, mağazalarda əl ilə yazılmış və ya hektoqrafla yığılmış hakimiyyətin ünvanına hədə-qorxu məzmunlu, dövlət quruluşunu devirib yeni ictimai qayda-qanun bərqərar etməyə çağıran vərəqlər yayılmağa başlamışdır.

Birinci xalqçılıq təşkilatı 1861-1863-cü illərdə fəaliyyət göstərmiş, əsasən Peterburq təhsil müəssisələrinin bir neçə onlarla tələbəsini əhatə etmiş «Torpaq və azadlıq» («Земля и воля») olmuşdur. İlk vaxtlar təşkilatın üzvləri belə düşünürdü ki, tezliklə xalq inqilabı nəticəsində rejim məhv olacaq. Onların niyyəti baş tutmadıqdan sonra «Torpaq və azadlıq» təşkilatının üzvləri belə qənaətə gəlmişdir ki, yeni cəmiyyət qurmaq üçün xalqı maarifləndirmək lazımdır. 1861-ci ildə A.İ.Gertsen «Zəng» («Колокол») qəzetində rus inqilabçılarını xalqın içərisinə gedərək inqilabı təbliğat aparmağa çağırmışdır. 60-cı illərdə xalqçılar xalqın içərisinə getməyə başladı ki, bu da 70-ci illərdə ən üst səviyyəyə çatmışdır. Yüzlərlə gənc adam kəndlərə gedərək orada feldşer, yerölçən, veterinar kimi işə başlayaraq imkan düşdükcə kəndliləri başa salmağa çalışırdılar ki, bolluq içərisində yaşamaq üçün hakimiyyəti devirib xalq respublikası qurmaq lazımdır. Onlar kəndliləri üsyana qaldırmağa çalışırdılar. Öz həyatlarından razı olmayan kəndlilər həddindən çox Tanrıya inandıqlarına

və çarın nüfuzunu qəbul etdikləri üçün bu qəribə şəhər gənclərinin qiyam çağırışlarını qəbul etməyərək polisə xəbərçilik edir və yaxud özləri onları kənddən qovurdular. Bu xalq içərisinə getmək on ildən çox davam edərək 70-ci illərin ikinci yarısında tam uğursuzluqla nəticələndi.

Hərəkatın təbliğat mərhələsi uğursuzluğa düçar olduqdan sonra xalqçılar qərara aldı ki, hakimiyyətə qarşı terroru genişləndirmək zəruridir. 1876-cı ildə yeni yaranmış ikinci «Torpaq və azadlıq» («Земля и воля») təşkilatının proqramında qeyd edilmişdir ki, dövlətin işini pozmaq məqsədilə daha çox ziyankar və ya görkəmli hökumət üzvlərini məhv etmək zəruridir. İki yüzə yaxın xalqçını birləşdirən təşkilat partlayış və qətl təşkili planı hazırlayaraq 1878-ci ildə polis rəisi general N.V.Mezentsovu öldürdülər. Xalqçıların bəzisi, o cümlədən gələcək marksist inqilabçı G.V.Plexanov mötədil qanadı təmsil edərək siyasi təbliğatı davam etdirməyi tələb edir, terroru siyasi vəzifəni həll etməyin yeganə vasitəsi kimi qəbul etmirdi. 1879-cu ildə «Torpaq və azadlıq» təşkilatı iki – «Народная воля» və «Черный передел» təşkilatlarına parçalandı. Xalqçıların «barışmazlar» adlanan böyük əksəriyyəti «Narodnaya volya» təşkilatında birləşmişdi. Onlar mütləqiyyəti devirib Müəssislər məclisi çağırmağı, daimi ordunu ləğv etməyi, ictimai özünüidarəçiliyi tətbiq etməyi nəzərdə tuturdular. Terroru mübarizənin yeganə vasitəsi elan edən təşkilatın üzvləri öldürməyi «inqilabi ədalət» («революционным правосудием») hesab edirdilər. Xalqçılar 1917-ci ilin sonlarında ölkənin idarəçiliyinə başlamış, öldürməyi «mükəmməl vasitə», «özünümüdafiə və təbliğat» elan edən bolşeviklərin birbaşa müjdəçisi idi.

Xalqçılar terror fəaliyyətinin lap əvvəlindən hədəf çar olmuşdur. 1866-cı ilin aprelində təhsilini tamamlamayan tələbə D.V.Karakozov Peterburqdakı Yay bağında gəzinti vaxtı II Aleksandrı tapançadan açdığı atəşlə öldürməyə cəhd etmişdir. Sonra başqa cəhdləri də oldu. 1880-ci il fevralın 5-də II Aleksandr Peterburqdakı Qış sarayının otaqlarının birində arvadının qardaşı hersoq Aleksandr Gessenski ilə söhbət edərkən güclü partlayış baş vermişdi. Məlum oldu ki, iki mərtəbə aşağıdakı gözətçi evində iki pudluq barıt cinayətkar tərəfindən yerləşdirilmişdi. Sırf təsadüf nəticəsində çar və ailə üzvləri beşinci sui qəsddən xilas ola bilmişdi. Gözətçi əsgərlərdən 13 nəfəri ölmüş, 45 nəfəri isə yaralanmışdı. Gizli terror təşkilatının üzvləri həbs edilərək məhkəməyə sövq edildi. 60-70-ci illərdə silsilə məhkəmə prosesləri təşkil edilmiş, ölüm cəzası da daxil olmaqla müxtəlif hökm çıxarılmışdır. Ümumən bütün XIX əsrdə Rusiyada siyasi cinayət əməlinə görə 500 nəfərə yaxın adam edam edilmişdi. Cinayət işlərinə əsasən isə, bir nəfər də olsa, ölüm hökmü almamışdır.

Artıq məhkəmə prosesləri çox halda «mərdlik məktəbinə» çevrilmişdi. Hüquqşünasların, publika və jurnalistlərin iştirakı ilə keçirilmiş açıq məhkəmə prosesi terrorçunun özünəməxsus benefisinə çevrilmişdi. Təqsirkarın, onun hüquqşünasının nitqi mövcud ictimai quruluşun əleyhinə yönəlməklə yanaşı, xalqın firavanlığı naminə mübarizə aparmaq alovlu çağırışı ilə yekunlaşırdı. Məhkəmə iclasçılarının hesabatları qəzetlərin diqqət cəlb edən hissəsində çap edilir, təqsirkarın dövlət əleyhinə çıxışı gizli mətbəələrdə çap olunaraq bütün ölkədə yayılırdı. Təbliğat öz nəticəsini büruzə verirdi. İnqilabçıların sırasına daxil olmaq istəməyən xalq arasında «yüksək ideallar» uğrunda özünü qurban verənlərə rəğbət hissi geniş miqyasda yayılmışdı.

Hakimiyyət, kilsə, keçmişi rədd edən bir qayda olaraq təhsilini tamamlamayan bir qrup gənc hökumət əleyhinə olan gizli təşkilatların sırasına daxil olur, araqızışdırıcı vərəqələr yayır, mövcud qayda və qanuna qarşı silahlı mübarizəyə qoşulurdu. Onları yazıçı İ.S.Turgenevin termini ilə «nihilistlər» (latın sözü «əhəmiyyətsizdi» – «ничего»), yəni hər şeyi dananlar adlandırırdılar.

1878-ci il avqustun 4-də «Torpaq və azadlıq» təşkilatının üzvü S.Kravçinski Peterburqun mərkəzində xəncər zərbəsi ilə jandarma rəisi, general adyutant N.V.Mezentsovu öldürdü. Xaricə qaçan xalqçı orada kitabça buraxaraq hakimiyyətə səslənmişdi: «Siz – hakimiyyətin nümayəndələrisiniz. Biz – insanın insan tərəfindən hər cür istismarının, əleyhinəyik, odur ki, siz bizim düşmənimizsiniz və bizim aramızda barışıq ola bilməz».

Siyasi axtarış və dindirmə işlərinə şəxsən nəzarət edən II Aleksandr rəsmi şəxslərin məlumatları ilə yanaşı, həbs və axtarış vaxtı ələ keçən gizli nəşrlərlə də tanış idi. Nihilistlərin əhvali-ruhiyyəsi haqqında təsəvvürü olan imperator onların hakimiyyətə olan dərin nifrətinin səbəbini anlaya bilmirdi. Çar Rusiya həyatının ağır, qaranlıq hətta vəhşi tərəflərinə bələd idi, hesab edirdi ki, siyasi məsələlərdə səbir tələb olunur. Gənc adamlar isə səbirsizliklə alışıb-yanır. Onlar dəyişiklik deyil, dağıntı istəyir. Nə qədər ki, imperator sağdır belə hallara yol verə bilməz. Şəxsi təcrübəsi əsasında çarda belə bir şəxsi əqidə formalaşmışdı ki, mərkəzi hakimiyyətin zəifləməsi sonu bəlli olmayan nəticələr doğurar.

II Aleksandrı nihilist qrupları ilə bərabər paytaxtdakı kütlələrin davranışı da narahat edirdi. 1878-ci il yanvarın 21-də həbsxanaların birində daxili intizam pozulduğu üçün Peterburq şəhər rəisi F.F.Trepovun əmri ilə çubuq cəzasına məhkum edilən dustağın intiqamını almaq məqsədilə zadəgan qadın Vera Zasuliç tapançadan açdığı atəşlə polis rəisini öldürmüşdü. 1878-ci il martın sonunda bu iş üzə məhkəmədə alovlu çıxışlar səslənmiş, andlılar məhkəməsi müqəssirin təqsirkar olmadığını elan edərək, onu birbaşa iclas zalından

azadlığa buraxmışdır. Məhkəmə binası yaxınlığındakı Liteyni prospektində onun şərəfinə kütlə təntənəli qarşılama tədbiri təşkil etmişdir.

Ölkədə qayda-qanun yaratmaq məqsədilə II Aleksandr 1877-1878-ci il Rusiya-Osmanlı müharibəsi vaxtı cəsur və qətiyyətli mövqeyi ilə seçilən qraf M.T.Loris-Melikova (1825-1888) böyük səlahiyyətlər vermişdir. Qraf sərt tədbirlər tətbiq etmək yerinə əmin idi ki, gənc adamların ağıl və qəlbinə yol tapmaqla onları inqilabi mübarizədən çəkindirmək mümkündür. O, nəzərdə tuturdu ki, siyasi idarəçilikdə islahat aparmaqla ölkədə sakitliyi bərpa etmək olar. Onun təkidi sayəsində İmperator dəftərxanasının III şöbəsi ləğv edilərək yerində Daxili İşlər Nazirliyinin tərkibində Polis Departamenti təşkil olundu. Liberal dairələr içərisində nüfuzu olmayan bir sıra vəzifə sahibi işdən uzaqlaşdırıldı. Qraf əhalidən seçilmiş nümayəndələri nəzərdə tutan yeni qanun layihəsi hazırlamağı başladı. Bu məqsədlə Dövlət Şurası nəzdində məşvərətçi kommisiya təsis edilməli idi ki, çar da bu fikri bəyənmişdi.

Lakin bütün bu fəaliyyət xalqçıları öz məqsədlərindən çəkindirmədi. Onlar çarı öldürməklə ölkədə qarışıqlıq və üsyan qaldırmaq vəzifəsini qarşılarına qoymuşdu. «Narodnaya volya»nın rəhbərləri yarımçıq oxumuş tələbə A.İ.Jelyabov və ailəsi ilə əlaqəni kəsmiş general qızı S.L.Perovskaya bir qrup həmfikirləri ilə birlikdə çara qarşı sui-qəsd planı tərtib etmişdir. 1881-ci il martın 1-nə təyin edilmiş qəsdin izinə düşən polis A.Jelyabovu həbs etsə də, plan dəyişilməmişdir. 1881-ci il martın 1-i bazar günü saat $14^{30}$-da Yekaterina kanalı sahilində çarın faytonuna bomba atılmışdır. Bu sayına görə altıncı qəsd idi, yalnıız faytonçu və yoldakı oğlan həlak olmuşdu. Lakin bir neçə dəqiqədən sonra qəsdin yaxınlığındakı iştirakçı yeni bombanı hökmdarın birbaşa ayaqları altına atdı. Kiçik qardaşının yanına qaçan böyük knyaz Mixail Nikolayeviç hökmdarın qan içində parçalanmış ayaqlarını gördü. Monarx ona pıçıldadı: «Təcili saraya, orada ölüm.» Martın 1-i günortadan üç saat on beş dəqiqə keçmiş leyb-həkim S.P.Botkin ölümü qeyd etdi. Rusiyada bir dövr başa çatmış, yeni dövr başlamışdır.

Xalqçılara münasibət bu günə kimi elmi mübahisə doğurmaqdadır. Lakin xalqçılığın mahiyyətini sonradan ölkədə bərqərar olmuş marksist-leninçi-stalinçi hakimiyyətin mövqeyindən ayrı anlamaq mümkün deyildir. Onların Rusiyada «qırmızı təntənəyə» («красного торжества») kimi qalmış nümayəndələri dinc yaşayaraq elit mənzillər, ərzaq payı almış, çarizmin dəhşətləri və öz böyük mübarizələrinə dair xatirə və məqalələr yazmışlar. Ətrafda ölümün tüğyan etdiyi vaxtda milyonlarla kəndlinin məhv edildiyi zaman onlar susmuşlar. Digər bir tərəfdən bolşeviklər xalqçıların «şanlı işlərinin» («славного дела») davamçıları olaraq onların əsas şüar-prinsipi olan arzu edilməyəni

öldürün məntiqi sona çatdırmışdır. Əslində kommunistlərin vəhşiliyini qəbul etmək öz məqsəd və ideallarının saxtalığının təsdiqi demək olardı. Belə bir mərd etirafa isə keçmiş xalqçıların heç biri cəsarət etməmişdir.

1881-ci il martın 1-də saat $15^{35}$-də Peterburqun baş imperator iqamətgahı Qış sarayında II Aleksandr vəfat etdikdən sonra oğlu Aleksandr Aleksandroviç Romanov III Aleksandr adı altında imperator oldu. Taxta çıxana kimi 16 yaşından varis elan olunan III Aleksandr on ildən çox Dövlət Şurasının üzvü olmuş, nazirlər Komitəsinin işində iştirak etmiş, müxtəlif qvardiya hissələrinin komandiri olmuş və on ildən artıq Preobrajenski polku Leyb-qvardiyasısının komandiri olaraq general leytenant hərbi rütbəsinə sahib idi. 1877-1878-ci il Osmanlı Türkiyəsinə qarşı Bolqarıstanın azadlığı uğrunda müharibədə doqquz ay ön cəbhədə rus ordusunun hissələrindən birinə komandirlik edərək özünü cəsur və eyni zamanda ehtiyatlı komandir kimi göstərmişdir.

1866-cı ilin oktyabrında şahzadə Aleksandr danimarkalı şahzadə Marii Sofii Frederike Daqmar ilə evlənmişdir. Pravoslavlığı qəbul edərək Rusiyada Mariya Fyodorovna olan arvadından altı uşağı, o cümlədən gələcək imperator Nikolay (1868-1918) doğulmuşdur.

III Aleksandr hakimiyyətə dövlət idarəçilik sisteminin iflic olması, maliyyənin pozulması şəraitində başlamışdı. Cəmiyyətin müxtəlif təbəqələrində narazılıq durmadan artırdı. Liberal əhvali-ruhiyyəli insanlara görə 60-cı illərdə həyata keçirilmiş islahatların qeyri-ardıcıllığı və yarımçıqlığı ökədəki ağır şəraiti doğurmuşdu. Bəziləri belə hesab edirdi ki, islahat kursu ölkənin ayrı-ayrı sahələrini deyil, ümumiyyətlə, siyasi sistemi əhatə etməlidir. II Aleksandrın çarlığının son dövrlərində nəinki yalnız ziyalılar, hətta cəmiyyətin yüksək dairələrində belə konstitusiyalı-nümayəndəli idarəetmə sisteminə keçməyin zəruriliyindən söhbət açılırdı.

Mühafizəkar dairələrin nümayəndələri sosial qarışıqlığın səbəbini hər şeyin sürətlə dəyişdirilməsində görürdü. Onların əqidəsinə görə, idarəetmənin liberal qaydaları, sosial hüquq və azadlıqların inkişafı, nümayəndəlik idarəetmə forması başqa ölkələr üçün qəbul olunsa da, Rusiya üçün uyğun deyildi. Rusiyada çar hakimiyyətinin prinsipləri yazılı qanunlara deyil, dini-əxlaqi prinsiplərə söykənir ki, bu da mahiyyət etibarilə islahata tabe olmur, yalnız möhkəm və ədalətli hakimiyyət ölkəni böhrandan çıxara bilərdi.

III Aleksandr düşmənlə qətiyyətli mübarizəyə başladı. Çarın öldürülməsi ilə bağlı axtarış və həbslər sayəsində 50 nəfərə yaxın adam həbs olundu. Bilavasitə sui-qəsddə iştirak etmiş beş nəfər məhkəmə tərəfindən ölüm hökmü almışdı. Ümumən III Aleksandrın hakimiyyətdə olduğu 13,5 il ərzində

17 nəfər, o cümlədən 1887-ci ildə çara sui-qəsd təşkil etmək hazırlığı ilə bağlı olaraq Leninin böyük qardaşı Aleksandr Ulyanov edam edilmişdi.

III Aleksandrın hakimiyyətə sahib olduğu vaxtda Rusiyanın təsərrüfat vəziyyəti ağır olaraq qalırdı. Türkiyə ilə müharibə və tədavülə çoxlu kağız pulların buraxılması ölkənin maliyyə vəziyyətini dağılmaq həddinə gətirmişdi. 1881-ci ildə dövlət gəliri 653 mln. rubl olduğu halda, dövlət borcu 1,5 milyard rublu keçmişdi. 1880-ci ildəki məhsulsuzluq iqtisadiyyatı daha da ağır vəziyyətə salmışdı. Pul sürətlə qiymətdən düşmüş, işgüzar fəallıq dayanmışdı.

İmperator Maliyyə Nazirliyinin qarşısında vəziyyəti qaydaya salmaq vəzifəsi qoymuşdu. Məhz uzun müddətdən bəri III Aleksandrın vaxtında büdcəyə nəzarət sayəsində xərc və gəlir tarazlaşdırılmışdır. 1891-ci ildə XIX əsrin böyük iqtisadi layihələrindən biri – bütün Sibirdən keçən nəhəng dəmiryol tikintisinə başlanmışdı. Rusiya yavaş-yavaş kənd təsərrüfatından aqrar-sənaye ölkəsinə çevrilirdi. Əhalinin rifah vəziyyəti də yaxşılaşmışdı. Məsələn, 1881-ci ildə Rusiyanın əmanət kassalarında əhalinin 10 mln. rubl vəsaiti olduğu halda, III Aleksandrın vəfat etdiyi 1894-cü ildə bu 330 mln. rubldan çox olmuşdur. Dövlətin gəlirini artırmaq məqsədilə hökumət xarici mallara qoyulmuş gömrük vergisini artırdı. Yeni birbaşa vergilər müəyyən edilir, köhnə vergilər artırılırdı. Bu tədbirlər ilk növbədə əhalinin imkanlı təbəqələrini əhatə edirdi. 1882-ci ildə vəsiyyətnamə və ya bağışlama yolu ilə bir mülkiyyətçidən başqa mülkiyyətçiyə keçən əmlaka vergi tətbiq olunmuşdu. 1885-ci ildə sənaye müəssisələrinə, şəhərlərdəki daşınmaz əmlaka, yəni ev, mağaza, anbarlara müəyyən edilmiş vergi üç faiz artırıldı.

Eyni zamanda hökumət əhalinin əsas kütləsinin maddi vəziyyətini yaxşılaşdırmadan ölkənin xalq təsərrüfatını yüksətlməyin mümkün olmadığını dərk edərək kəndlilərdən tutulan vergini azaltmağa başladı. 1882-ci ildə illik ödənc haqqı 12 mln. rubl azaldılmış, 1883-cü ildə isə çarın fərmanı ilə can vergisi ləğv olunmuşdur. Bu vergi növü I Pyotrun vaxtında tətbiq edilmiş və əsasən də kəndlilərə aid olmuşdur. Can vergisi zadəgan, keşiş və tacirlərə aid deyildi. Hər il kəndli kişilər təsərrüfatlarının gəliri və əlavə işlərdən əldə etdikləri qazancın müqabilində təyin edilən vergini xəzinəyə ödəməli olurdu. XIX əsrin 60-cı illərinin sonlarında can vergisi 1 rubl 15 qəpiklə 2 rubl 60 qəpik arasında dəyişirdi. 1867-ci ildə bu vergi dövlətə bütün gəlirlərin 10 faizindən çoxunu – 70 mln. rubl qazanc gətirmişdi. III Aleksandrın dövründə mühüm bir addım 1882-ci ildə Kəndli Torpaq Bankının təsis edilməsi olmuşdur. Onun vəzifəsi kəndlilərə və kənd icmalarına torpaq almaq məqsədilə borc vermək olmuşdur. Birinci on ildə kəndlilər bankdan aldığı borcun hesabına 2 mln. desyatindən çox torpaq almışdı.

III Aleksandrın imperatorluğu dövründə sənayenin həvəsləndirilməsi iqtisadi nəticəyə nail olmaqla bərabər əhalinin sosial quruluşunu da dəyişmişdir. 1881-ci ildə Rusiyanın fabrik və zavodlarında 770842 fəhlə işlədiyi halda, 1893-cü ildə onların sayı artaraq 1406792 nəfərə çatmışdır. Muzdlu əməklə məşğul olanların böyük bir qrupunun yaranması hakimiyyəti onların vəziyyətini hüquq çərçivəsində qaydaya salmağa yönəltdi. Odur ki, III Aleksandrın dövründə Rusiya fəhlələrinin qanunvericiliyinin əsasını təşkil edən qanunlar meydana çıxmışdır. 1882-ci ildə Maliyyə Nazirliyinin strukturunda yeni dövlət orqanı olan Fabrik təftişi təsis edilmişdir. Onun vəzifəsi fabrik qanuvericiliyinə nəzarət edərək fəhlələrlə sahibkarlar arasında yaranan ixtilafı aradan qaldırmaq idi. 1882-ci ildəki qanuna əsasən, 12 yaşına kimi uşaqlara fabrik və zavodlarda işləmək qadağan idi, 15 yaşına kimi uşaqlar 4 saatlıq tənəffüslə 8 saat və yaxud birdəfəlik 6 saat işləyə bilərdilər. Yetkinlik yaşı sayılan 16 yaşına çatmamış uşaqlara gecə növbəsində, istirahət və bayram günləri çalışmaq qadağan edilmişdi. 1885-ci il iyunun 3-də imzalanmış qanunla qadınlara və və 17 yaşına çatmamış yeniyetmələrə toxuculuq fabriklərinin gecə növbəsində çalışmaq qadağan olunmuşdu. Əhalinin tələbini nəzərə alaraq, 1890-cı il aprelin 24-də elan olunan yeni əsasnamədə qadın və yeniyetmələrin işləməsinə Fabrik təftişi qurumunun razılığı ilə icazə verilə bilərdi.

1886-cı il iyunun 3-də «Fabrik, zavod və manufakturalarda muzdlu fəhlələrə dair qaydalar» («Правило о найме рабочих на фабрики, заводы и мануфактуры») və «Fabrik sahiblərilə fəhlələrin qarşılıqlı münasibətlərinə dair xüsusi qaydalar» («Особенные правила о взаимных отношениях фабрикантов и рабочих») mühüm normativ aktları meydana çıxmışdır. Sənədlər fəhlələrlə iş verənlərin qarşılıqlı münasibətlərini qaydalar çərçivəsinə salaraq muzdla tutulmuş fəhlələrlə əməkhaqqının miqdarı, yaşayış yerinin icarə haqqı qeyd olunmaqla müqavilə bağlamasını, iş qaydasının pozulmasına görə ayrılan cərimələrin həcmini əks etdirmişdir. Qanun əməkhaqqının ərzaq və yaxud məhsulla ödənilməsini, tibbi yardıma görə haqq tələb edilməsini qadağan edirdi. Müqavilə bağlandıqdan sonra sahibkarlar əməkhaqqını, iş gününü azalda bilməzdi. Ayda bir-iki dəfədən az olmamaq şərti ilə fəhlələrə əməkhaqqı ödənilməli və bu vəsaitdən fəhlənin borcu çıxıla bilməzdi. O zaman üçün belə normativ sənədlər irəliyə doğru böyük addım idi.

1861-ci ildə təhkimçilik hüququ ləğv edildikdən sonra gündəlik işlərlə və kənd icmalarının cari məsələlərilə məşğul olmaq məqsədilə kənd və volost yerli özünüidarə orqanları meydana gəlmişdir. Onlar dövlətin vəzifəli adamı hesab edilən barışdırıcı münsifə tabe olurdu. O, seçilmiş volost rəisini və kənd ağsaqqalını təsdiq və ya rədd etmək hüququna malik olub yerli zadəganlardan

olan başçının razılığı əsasında qubernator tərəfindən təsdiq olunurdu. Kəndli idarəçiliyinin növbəti instansiyası barışdırıcı münsiflərin qurultayı idi. Barışdırıcı münsiflərin mühüm vəzifəsi kəndlilərlə keçmiş ağaları, torpaq sahibi olan zadəganlarla torpaqların bölüşdrülməsinin qaydaya salınmasında barışdırıcı olmaqdan ibarətdir. 1874-cü ildə bu problem əsasən həll edildiyi üçün barışdırıcı münsiflər institutu ləğv edilmişdi.

Lakin yerlərdə kəndli idarəçiliyinin vahid forması formalaşmamışdır. Qanunvericilikdəki boşluqlar vəzifələrin təkrar edilməsinə, inzibati işlərdə qarışıqlıq və özbaşınalığa səbəb olmuşdur. İmperator vəziyyəti nəzarət altına almaq məqsədilə, yəni yeni institut olan zemstvo rəisləri vəzifəsinin təsis edilməsi ideyasını bəyəndi ki, onlar da kəndlərdəki cari işlərlə daha cəld məşğul olmalı idilər.

Əslində bu təkliflə daxili işlər naziri qraf D.A.Tolstoy çıxış etmişdir. O, da belə düşünürdü ki, inzibati və məhkəmə səlahiyyətləri alan zemstvo rəislərinin meydana gəlməsi idarəçiliyin faydasını artıracaqdır. Bir neçə illik müzakirədən sonra Dövlət Şurası Departamenti 1889-cu ilin əvvəlində səsvermə təşkil etdi. 13 nəfər qraf D.Tolstoyun təklifi lehinə, 39 nəfər əleyhinə səs vermişdir. 1889-cu il yanvarın 28-də III Aleksandr Dövlət Şurasının qərarına azlığın lehinə dərkənar qoymuşdur. Yalnız 1889-cu il iyulun 12-də çar fərman imzalayaraq zemstvo rəisi vəzifəsini təsis etmişdir.

Zemstvo rəisləri bəhs edilən rayonda daşınmaz əmlak məsələlərini idarə edən orta və ya alitəhsilli zadəganlar içərisindən qubernator tərəfindən təyin olunurdu. Onlar kəndli özünüidarə orqanları, volost və kənd idarələri, qəzalardan seçilmiş şəxslər üzərində nəzarət hüququna malik idi. Barışdırıcı münsiflərin funksiyası da zemstvo rəislərinə keçirdi.

1864-cü ildə yaranmış zemstvo seçkili özünüidarə orqanlarının işində ciddi nöqsanlar müşayiət olunurdu. Öz işləri üçün vəsaiti xüsusi zemstvo vergisi vasitəsilə təmin etməli olan zemstvolar şikayət edirdilər ki, xəstəxana, məktəb tikib saxlamaq, yollar çəkib təmir etmək üçün vəsaitləri çatmır. Öz növbəsində imkanlı yerli adamlar, sahibkarlar zemstvoların maliyyə özbaşınalığından şikayət edirdilər. Odur ki, uzun müzakirələrdən sonra 1890-cı il iyunun 12-də III Aleksandr quberniya və qəza zemstvo idarələrinə dair yeni əsasnamə təsdiq etmişdir. Əsasnaməyə görə, zemstvo seçkiləri əmlak vəziyyətinə əsasən üç təbəqə – zadəgan, şəhərli və kəndli qrupuna bölünürdü ki, zemstvo yığıncağında zadəganların say üstünlüyü təmin edilsin. Zemstvo yığıncaqları üzərində ali nəzarət daxili işlər nazirinə, cari işlər isə qubernator və onun nəzdindəki xüsusi quberniya zemstvo işləri ilə məşğul olan kollegiyaya həvalə edilmişdi. Zemstvo yığıncağının bütün qərarlarını qubernator təsdiq

etməli idi, qərarla razı olmadıqda isə daxili işlər nazirinə apelyasiya verə bilərdi. Zemstvolar qubernatorun və ya daxili işlər nazirinin qərarından şikayət təqdim edərək məhkəmədə öz hüququnu müdafiə etmək imkanına malik idi.

III Aleksandr 1892-ci il iyunun 11-də 1870-ci il şəhər əsasnaməsini təkmilləşdirərək yeni şəhər əsasnaməsini təsdiq etmişdir. Əvvəlki Əsasnaməyə görə şəhərin xeyrinə ödənmiş verginin miqdarı nəzərə alınmaqla açıq şəhər dumasının seçilməsi praktikası bir tərəfdən iri şəhər vergisi ödəmiş nüfuzlu azlığın, digər bir tərəfdən kiçik ev sahiblərindən ibarət hüquqsuz çoxluğun meydana gəlməsinə səbəb olmuşdur. Faktiki olaraq, şəhər magistratının sahibi şəhərdə daşınmaz əmlakı olmadığı üçün şəhərin abadlaşdırılmasında mənafeyi olmayan adamlar idi. Yeni Əsasnaməyə görə, seçki hüququ daşınmaz əmlak sahibi olan sahibkarlara və bəhs edilmiş yerdə ticarət şəhadətnaməsi olan şəxslərə verilmişdi. Bura paytaxt şəhərləri üçün birinci gildiya, yerdə qalanlar üçün birinci və ikinci gildiyaya daxil olan insanlar aid idi. Vəzifələrin təsdiq olunması, nəzarət, yerli özünüidarə orqanlarının qərarlarından şikayət normasına münasibət zemstvo əsasnaməsindəki kimi idi.

II Aleksandrın 1864-cü ildəki məhkəmə islahatı o zaman üçün ən demokratik dəyişiklik idi. Məhkəmənin hökumət orqanlarından asılı olmaması, məhkəmədə işlərə açıq baxılması, müdafiə hüququ, andlı iclasçıların müəyyən olunması məhkəmə qanunçuluğunu yüksəltməyə yönəlmişdir. Bir neçə məhkəmə instansiyası müəyyən edilmişdir: barışıq məhkəməsi, dairə məhkəməsi, məhkəmə palatası. Xüsusi mühüm işlərə baxılmaq məqsədilə Ali cinayət məhkəməsi təşkil edilmişdir. Andlı iclasçılar məhkəməsi dairə məhkəməsi çərçivəsində fəaliyyət göstərərək cinayət işlərinə baxırdı. Sayı 14 nəfərdən çox olmayan andlı iclasçılar əmlak senzi əsasında yerli əhalidən seçilirdi. Onlar yalnız müqəssirin günahkar olub və ya olmadığını müəyyən edir, cəzanı isə hakim təyin edirdi. Andlı iclasçılar insanı «qanunun hər nöqtəsinə» görə deyil, «səmimi qəlb» üzrə mühakimə etməyə cəhd göstərirdi. Məhkəmə təcrübəsi sübut etdi ki, ağır cinayətlər, o cümlədən siyasi işlərdə belə qaydaların tətbiqi cinayətkarların bəraət almasına səbəb olmuşdur. Məsələn, 1878-ci ildə Vera Zasuliçin andlı iclasçılar tərəfindən bəraət alması buna ən parlaq misaldır.

Məhkəmələrin açıq olması, məhkəmə iclaslarında mətbuat nümayəndələri və xalqın nümayəndələrinin iştirak etməsi burada çox halda hökumət əleyhinə bəyannamənin səslənməsinə diqqəti cəlb edir. Əslində məhkəmə zalı siyasi təbliğat tribunasına çevrilir. Bir çox gənc oğlan və qız üçün bu mahiyyət etibarilə «siyasi universitet» rolu oynayırdı. 1887-ci il fevralın 12-də imperator Dövlət Şurasının məhkəmə iclaslarında azyaşlı və məktəblilərin iştirakını qadağan edən, dini, əxlaqi hisslərin təhqir edilməsi ilə, dövlət hakimiyyətinin

şərəfi, ictimai qaydaların pozulması ilə əlaqədar məsələlərə baxılarkən məhkəmə iclaslarının bağlı elan olunmasına dair qərarı təsdiq etmişdir. Belə hallarda ətraflı hesabatını, məhkəmə araşdırmasının stenoqramını nəşr etməyə icazə verilmirdi.

XIX əsrin 70-ci illərində maarif, xüsusilə ali təhsil sahəsində əsaslı dəyişiklik baş vermişdir. III Aleksandrın hakimiyyəti dövründə Rusiyada Moskva, Derpt (Tartu), Peterburq, Kazan, Varşava, Kiyev, Novorossiya (Odessa), Helsinqfors (Helsinki), Xarkov universitetləri fəaliyyət göstərirdi. 1888-ci ildə Sibirdə birinci olan Tomsk Universiteti açılmışdır. 1863-cü il Universitet Nizamnaməsi rektor və prorektorların seçkili olması, tələbələrin maraqlarına uyğun həmyerlilər birliyi və cəmiyyətlər yaratmaq hüququ, xüsusi universitet məhkəməsi və polisi təşkil etmək də daxil olmaqla tədris müəssisələrinə böyük muxtariyyət imkanı tanımışdır.

Ali məktəblərin muxtariyyəti onların dövlətdən kənar xüsusiləşmiş vəziyyəti burada gizli ədəbiyyatın yayılmasına, tələbə cəmiyyətləri arasında əsasən siyasi məsələlər müzakirə edilərək hökumət əleyhinə təbliğat aparılırdı. Tələbə çıxışları, onların hökumət əleyhinə tədbirlərdə iştirakı adi hal almışdı. Vahid ümumrusiya proqramı mövcud olmadığı üçün universitetlər eyni fənləri öz qaydasına uyğun tədris edirdi.

1882-ci ilin noyabrında maarif naziri İ.D.Delyanov Tolstoyun təqdimatı əsasında universitetin Nizamnaməsinin dəyişdirilməsi layihəsini Dövlət Şurasının müzakirəsinə verdi. Dövlət Şurasının azlıqda qalan üzvləri 1884-cü ilin mayında layihəni bəyəndi, çoxluq «məsələnin öyrənilməsini» irəli sürdü. Tərəfləri dinləyən çar 1884-cü il avqustun 15-də Dövlət Şurası azlığının qərarını təsdiq etmiş, Rusiya imperiyasında universitet Nizamnaməsinin yeni redaksiyası işləməyə başlamışdır. Artıq universitetlərin rektoru seçilmir, təyin olunurdu, səlahiyyətləri isə xeyli məhdudlaşdırılmışdı. Universitetə daxil olmaq istəyən gələcək tələbə siyasi etibarlılığına dair arayış təqdim etməli idi. Tələbələrin təhsil haqqı xeyli artırılmışdı. Onlar vahid geyim forması daşımalı idilər.

1882-ci ildə mətbuat haqqında yeni qayda müəyyən edilmişdir. Daxili işlər, ədliyyə, maarif nazirlərinin və Müqəddəs Sinodun ober-prokurorunun daxil olduğu Kollegiya hər hansı bir nəşri bağlaya bilərdi. Nəticədə 1884-cü ildə aparıcı liberal nəşrlər «Vətən qeydləri» («Отечественные записки») jurnalı, «Səs» («Голос»), «Ölkə» («Страна») qəzetləri fəaliyyətini dayandırmışdı.

III Aleksandrın fəaliyyəti elm dünyasında bu gün də mübahisə mövzusu olaraq qalmaqdadır. Belə ki, imperatorun daxili siyasət sahəsindəki tədbirləri sovet dövründə yazılmış tarixi ədəbiyyatlarda «əks-islahat» («контрреформы») adını almışdır. Bu o deməkdir ki, III Aleksandrın fəaliyyəti Rusiya

mütləqiyyətinin irticaçı xarakterini gücləndirmək məqsədilə II Aleksandrın «Böyük islahatları»na («Великие реформы») qarşı yönəlmişdi. Bu ad elmi olmaqdan çox siyasi xarakter daşıyırdı.

Əslində «əks islahat» anlayışını III Aleksandrın bütün daxili siyasətinə aid etmək mümkün deyildir. Yeni imperator ölkəni inqilabi terrorun tüğyan etdiyi pozulmuş şəraitdə qəbul etmişdir. Rusiyada sakitlik və qayda-qanunu bərqərar etmək məqsədilə gizli terroru məhv etmək lazım idi. Odur ki, imperatorun və hökumətin fəaliyyəti Rusiya dövlətçiliyinin möhkəmləndirilməsinə yönəlmişdir. İqtisadi sahədə islahatlar davam etmiş, əsas kəndli islahatı isə daha da inkişaf etmişdir. Yeni qanunlar mütləqiyyətin əsasını, mərkəzi hakimiyyəti möhkəmləndirərək inqilabi-terrorçu təşkilatlarla, Rusiya cəmiyyətindəki liberal və inqilabi əhvali-ruhiyyə ilə mübarizəyə kömək etmişdir. Bu qanunlar sayəsində Rusiyanın daxili vəziyyəti xeyli möhkəmlənmiş, başlıcası ölkə inqilab olmadan belə dağılmaqdan xilas olmuşdur.

Eyni zamanda imperator III Aleksandrın çarlığı dövründə həyata keçirdiyi tədbirlər nəticə etibarı ilə ziddiyyətli olmuşdur, uğurlarla bərabər, Rusiya cəmiyyəti qarşısında çoxlu problemlər yığılıb qalmışdı. Məsələn, əsasən iri sənaye istehsalının inkişafına yönəlmiş hökumət siyasətinin neqativ tərəfləri meydana çıxmışdır. Birincisi, kiçik və orta sənaye daha az sürətlə inkişaf edərək ölkənin iqtisadi həyatında uğursuzluğa səbəb olmuşdur. İkincisi, hökumət iri sənayenin inkişafı üçün ehtiyac olan vəsaiti kənddən əldə etmişdir. Bunun nəticəsində kənddə sosial və siyasi qeyri-stabil vəziyyət meydana çıxmışdır. Ümumən, XIX əsrin sonlarında Rusiya kəndi çoxsaylı iqtisadi və sosial xarakterli problemlərə qarşılaşmışdır.

Bütün cəhdlərə baxmayaraq, hökumətin az diqqət yetirdiyi fəhlə məsələsi problem olaraq qalırdı. Nəhayət, ən əsas məsələ olan Rusiya dövlətinin siyasi quruluş forması açıq olaraq qalmışdır. İmperator III Aleksandrın tədbirləri Rusiyanın ənənəvi mütləqiyyət və silki quruluşunu əhəmiyyətli dərəcədə möhkəmlətmişdir. Lakin tarixin sonrakı gedişi göstərmişdir ki, Rusiya cəmiyyətində hər kəs belə möhkəmləndirmə ilə razı deyildir.

1894-cü ilin yanvarında III Aleksandr sətəlcəmdən xəstələndi. Tədricən səhhəti düzələn çarın, fevralın 26-da 49 yaşı tamam oldu. Yayın sonlarında imperatorun köhnə böyrək xəstəliyi kəskinləşmiş, 1894-cü il sentyabrın ikinci yarısında çar ailəsi Krıma yerləşmişdi. Həkimlər quru cənub iqliminin imperatorun xəstəliyinə kömək edəcəyini düşünsə də, bu baş verməmişdir. 1894-cü il oktyabrın əvvəllərində çarın yaxın ətrafı vəziyyətin ümidsiz olduğunu hiss etməyə başlamışdır. Həkimlərin ciddi səyinə baxmayaraq, 1894-cü il oktyabrın 20-də saat 14:15-də imperator III Aleksandr Livadidə vəfat etmişdir.

# XIV FƏSİL
# XIX ƏSRDƏ RUSİYADA İCTİMAİ FİKİR VƏ MƏDƏNİ HƏYAT

## §1. Rusiya mədəniyyətinin «Qızıl əsri». XIX əsrin I yarısında mədəni həyat

XIX əsr, sözün əsl mənasında, Rusiya mədəniyyət tarixinin «Qızıl əsri»dir. Məhz bu zaman rusiyalı yazıçı, bəstəkar, rəssam, alim və fikir adamlarının yaratdığı əsərlər bütün dünyada qəbul olunaraq dünya mədəniyyəti xəzinəsinə daxil olmuşdur. Məhz XIX əsrdə zadəgan və xalq mədəniyyətinin birləşməsi nəticəsində vahid Rusiya milli mədəniyyəti formlaşdı. Rus mədəniyyətini təmsil edənlərin böyük əksəriyyəti ədəbiyyat, musiqi, incəsənət, elm sahəsində dünyəvi yaradıcılıq formasından istifadə edərək öz əsərlərində ənənəvi əxlaqi həqiqəti vəsf etmişdir. Beləliklə, dünyəvi mədəniyyət milli ənənə, pravoslav məzmunu və mənası ilə tamamlanmışdır.

Vahid rus milli mədəniyyətinin yüksəlişinə Rusiya hökumətinin maarif sahəsindəki tədbirləri kömək etmişdir. I Aleksandrın dövründə xalq təhsili sahəsindəki islahatlar nəticəsində müxtəlif təbəqələrə məxsus adamların birliyə sahib olmaq imkanı yaranmışdı. I Nikolayın çarlığı zamanı təhsil sistemi inkişaf etmiş təkcə kənd yerlərində dövlət kəndlilərinin uşaqları üçün iki mindən çox məktəb açılmışdır.

I Nikolayın hakimiyyəti illərində dini hissləri əhatə edən əxlaq tərbiyəsinə xüsusi diqqət ayrılmışdır. Bundan əlavə, hökumət təhsil sisteminə silk xarakteri vermişdir. Savad, hesab, Tanrı Qanununun öyrədildiyi birsinifli məhəllə məktəblərində «aşağı təbəqə»nin, kəndli və meşşanların uşaqları oxuyurdu. Rus dili, hesab, həndəsə, tarix və coğrafiyanın əsaslarının tədris edildiyi üçsinifli qəza məktəblərində tacir və sənətkarların uşaqları təhsil alırdı. Zadəgan, məmur və varlı tacirlərin uşaqları geniş və dərin bilik öyrədən yeddisinifli gimnaziyalarda oxuya bilərdilər.

Universitet təhsili dəyişikliyə məruz qalmışdı. 1835-ci ildə yeni Universitet Nizamnanməsi qəbul edildi. Nizamnaməyə əsasən universitetlərin muxtariyyəti məhdudlaşdırılmış, təhsil haqqı artırılmış, tələbə forması müəyyən olunmuş- dur. Məktəb və gimnaziyalar üçün müəllim hazırlamaq məqsədilə universitet-lərin nəzdində pedaqoji institutlar təsis olunmuşdur.

I Nikolayın praktik ağıl tərzi və eyni zamanda Rusiyanın texnika və sənaye sahəsində bilikli mütəxəssislərə ehtiyacı 1830-1850-ci illərdə hökumətin texniki təhsilin inkişafına böyük vəsait sərf etməsinə səbəb olmuşdur. Texniki və ticarət elmlərini öyrənmək məqsədilə qəza və quberniyalarda realnı siniflər açılmış, bəzi müəssisələrdə fabrik məktəbləri meydana gəlmişdir. Texnologiya institutu, Ali Pedaqoji İnstitut, Əkinçilik İnstitutu, Tibbi-Cərrahiyyə Akademiyası, Vətəndaş Mühəndislik İnstitutu, Mədən İnstitutu və b. fəaliyyətə başlamışdır.

Ölkədə fəaliyyət göstərən 20 kadet korpusunda (orta hərbi məktəb) təhsil almış gənclər I Nikolay zamanı təsis edilmiş İmperator, Artilleriya, Mühəndislik hərbi akademiyalarında təhsilini davam etdirə bilərdi. Dini təhsil müəssisələrinin sayı artaraq XIX əsrin ortalarında 48 pravoslav semnariyasına, 223 din məktəbinə çatmışdır.

XIX əsrin birinci yarısı Rusiya elminin coşqun inkişafı ilə müşayiət olunmuşdur. Vahid Rusiya mədəniyyətinin mənbələrindən biri olan Rusiya tarixinə böyük maraq yaranmışdır. Rus milli şüurunun bərqərar olmasında Nikolay Mixailoviç Karamzinin qələmə aldığı 12 cildlik «Rusiya dövlətinin tarixi» («История государства Российского») əsəri böyük rol oynamışdır. Əsərin birinci 8 cildi 1818-ci ildə çıxmış, müəllif onu imperator I Aleksandra həsr etsə də, onu Rusiya cəmiyyətinin bütün təbəqələri üçün yazdığını ifadə etmişdir. Çoxsaylı tarixi mənbələr əsasında parlaq ədəbi rus dilində qələmə alınmış «Rusiya dövlətinin tarixi» əsəri vətən məhəbbətilə süslənərək rus xalqının şanlı keçmişini tərənnüm edir. N.M.Karamzin müasirlərini nəsillərin varisliynə öyrədərək müasir fəaliyyəti keçmişin zəngin ənənəsilə əlaqələndirməyi irəli sürmüşdür. A.S.Puşkin təsdiq etmişdir ki, məhz N.M.Karamzin rus xalqı üçün onun vətəninin tarixini kəşf etmişdir. Tarix elminin inkişafı sahəsində M.P.Poqodin, N.A.Polevoy, N.Q.Ustryalov kimi tarixçilər mühüm fəaliyyət göstərmişdir. T.N.Qranovskinin Qərbi Avropa ölkələri üzrə məqalə və mühazirələri savadlı kütlə arasında geniş şöhrət qazanmışdır.

Rusiyada texniki və təbii-elmi təhsilə yönəlmiş diqqət sayəsində XIX əsrin birinci yarısında riyaziyyat, fizika, kimya, tibb, astronomiya, coğrafiya və b. elmlər üzrə əsaslı uğur əldə edilmişdir. Böyük riyaziyyatçı alim Nikolay İvanoviç Lobaçevski (1792-1856) dəqiq elmlər sahəsində yeni qeyri-evklid həndəsəsi istiqamətinin əsasını qoyaraq dünyamiqyaslı kəşfə imza atmışdır. Parlaq təşkilatçılıq bacarığı nümayiş etdirərək N.İ.Loboçevski 1827-ci ildə Kazan Universitetinin rektoru seçildikdən sonra buranı əsl elm və maarif məbədinə çevirmşdir. Zəngin uniersitet kitabxanası, astronomiya rəsədxanası, kimya laboratoriyası, fizika kabineti təsis edilmiş, «Kazan Universitetinin Elmi Əsərləri» buraxılmışdır.

Rusiyalı astronomların fəaliyyəti dünya miqyasında tanınmışdır. Mixail Qriqoryeviç Pavlov (1793-1840) rus astronomiyasının atası adlandırılmışdır. D.M.Perevozçikov (1788-1880) Moskva Universitetində astronomiya rəsədxanasının əsasını qoymuşdur. Peterburq yaxınlığındakı Pulkov dağında akademik Vasili Yakovleviç Struvenin (1793-1846) təşəbbüsü ilə Pulkov rəsədxanası yaradılmışdır. Bunun üçün xüsusi olaraq Münhendən linzalı teleskop hazırlanmışdı və təsadüfi deyil ki, o zaman Pulkov rəsədxanasını dünyanın «astronomiya paytaxtı» adlandırırdılar.

Elektrik texnikası sahəsində akademik Vasili Vladimiroviç Petrov (1761-1834) seyrək qaz içərisində elektrik qövsünü və elektrik yükünü tətbiq etmiş, təcrübədə işıq əldə olunmasında, metalların əridilməsində bunlardan istifadə etməyin mümkün olduğunu sübut etmişdir. 1832-ci ildə Pavel Lvoviç Şillinq (1786-1837) elektrik minasını kəşf etmiş, birinci elektromaqnit teleqrafını qurmuşdur. Boris Semyonoviç Yakobin (1801-1874) qalvanoplastika metodunu kəşf etmiş, elektrik maşınları, teleqraf, mina elektrotexnikası, elektrokimya yaradılması sahəsində böyük tədqiqalar aparmışdır.

Görkəmli metallurq Pavel Petroviç Anosov (1799-1851) yüksək keyfiyyətli tökmə poladı kəşf edərək metallurgiya sənayesinə böyük töhfə vermişdir. O, eyni zamanda orta əsrlərdə itmiş bulat poladın hazırlanması sirrini açmışdır.

Rusiyada üvzi kimya elmi məktəbinin yaranması Kazan Universitetinin professorları Nikoay Nikolayeviç Zinin (1812-1880) və onun şagirdi Aleksandr Mixayloviç Butlerovun (1828-1886) adı ilə bağlıdır. Rus kimyaçılar məktəbinin banisi N.Zininin əsərləri üzvi kimyanın inkişaf istiqamətini bir çox illər üçün müəyyən etdi və əczaçılıq sənayesinin inkişafı, partlayıcı maddələr hazırlanması üçün əsas oldu. A.M.Butlerov maddələrin quruluşu nəzəriyyəsini yaratmışdır ki, onun əsas müddəaları bugünə kimi elmi və əməli əhəmiyyətini itirməmişdir. Tibbi-Cərrahiyyə Akademiyasının professoru Nikolay İvanoviç Piroqov (1810-1881) hərbi-səhra cərrahiyyəsinin əsasını qoymuş, ilk dəfə əməliyyat zamanı ağrısızlaşdırcıdan, hərəkətsiz gips sarğısından istifadə etmişdir. Onun dörd cildlik «Topoqrafik anatomiya» əsəri dünyada məşhurdur.

Rus dənizçiləri və coğrafiyaçıları uzaq dünya səyahətlərinə çıxaraq bir çox coğrafi kəşflərə imza atmışdır. 1803-1806-cı illərdə dənizçi səyyah və alim İvan Fyodoroviç Kruzenştern (1770-1846) və Yuri Fyodoroviç Lisyanskinin (1773-1837) komandanlığı altında «Nadejda» və «Neva» yelkənli gəmiləri ilə rusların Kronştatdan Kamçatkaya və Şimali Amerikada olan rus torpaqlarına kimi ilk dəniz ekspedisiyası keçirilmişdir. Ekspedisiya zamanı Markiz və Sandviç (Havay) adaları, Çin, Yapon adaları, Saxalin və Kamçatka tətqiq edilmişdir. İ.Kruzenşternin tərtib etdiyi «Cənub dənizinin atlası» və çoxlu xəritə

coğrafiya elmini zənginləşdirməklə bərabər dənizçiliyin inkişafına kömək etmişdir. Şlyuplardan birinə başçılıq edən Y.F.Lisyanski müstəqil olaraq səfərin bir hissəsini, Havay adalarından Alyaska qədəri keçərək bir sıra kəşflər etmişdir. 1806-cı ildə Hind və Atlantik okeanlarını keçərək Kronştada qayıtmışdır.

XIX əsrin birinci yarısında 28 rus dünya səyahəti ekspesdisiyası qeydə alınmışdır. Onlara istedadlı dəniz zabit və tətqiqatçıları O.Y.Kotsebu, V.M.Qolovin, F.P.Litke başçılıq etmişdir. Bu səyahətlərin arasında Faddey Faddeyeviç Bellinshauzen (1778-1852) və Mixail Petroviç Lazarevin (1788-1851) dünya səyahətləri xüsusi yer tutur. 1819-1821-ci illərdə təşkil olunan Antarktida dünya səyahəti nəticəsində rus gəmiləri «Vostok» və «Mirnı» ilk dəfə Antarktida sahillərinə yanaşmış, rus tədqiqatçıları məlum olmayan sonuncu qitə Antarktidanı kəşf etmişdir. Antarktida hövzəsində olan dənizə və Sakit okeandakı adaya Bellinshauzenin adı verilmişdir.

Gennadi İvanoviç Nevelskoy (1813-1876) Uzaq Şərq dənizlərinin öyrənilməsində xüsusi xidmət göstərmişdir. O, Amur çayının mənsəbini, qitə ilə Saxalin arasındakı boğazı kəşf etmiş, Saxalinin yarımada deyil, ada olduğunu sübut etmişdir. Kəşf etdiyi boğaz onun şərəfinə Nevelskoy boğazı adlandırılmışdır. Rus dənizçilərinin və alimlərinin kəşfləri dünya dənizçilik elminin inkişafına kömək emişdir. 1845-ci ildə təşkil olunmuş İmperator Rus Coğrafi Cəmiyyəti coğrafi tədqiqatların mərkəzi olaraq bir çox elmi ekspedisiyaların, etnoqrafik tədqiqatların meydana çıxmasında mühüm rol oynamışdır.

XIX əsrin birinci yarısında rus mədəniyyətinin milli xüsusiyyətləri vətən ədəbiyyatında daha qabarıq təcəssüm edilmişdir. Bu zaman rus ədəbiyyatında dörd bədii üslub – klassik, sentemental, romantik və realizm mövcud olub bir-birini əvəz etmişdir.

Klassik formanın əsasını qədim poetikanın qaydaları, maarifçilik ideologiyasının prinsipləri olan vətəndaş borcu, ictimai qulluq, cəmiyyət və hakimiyyətin tamlığı təşkil edir. XVIII-XIX əsrin qovuşuğunda klassik cərəyanın ən böyük nümayəndəsi şair Qavril Romanoviç Derjavin (1743-1816) olmuşdur. O canlı danışıq dilinin elementlərini ədəbi dilə çevirərək öz romanlarını «Danışan rəsm» («Говоряшшей живопись») adlandırmışdır. Mütəfəkkir-şairi həyat və ölüm, insan taleyi kimi mürəkkəb məsələlər maraqlandırmışdır.

XVIII əsrin sonlarında klassik cərəyanı sentemental forma əvəz etmişdir. Ədəbi əsərlərin qəhrəmanları öz daxili aləmi, sevmək və əzab çəkmək hissləri olan sadə adamlar, onların insan ləyaqətindən bəhs edən fərdlər olmuşdur. Sentemental cərəyanın tanınmış başçısı Nikolay Mixailoviç Karamzin idi. Onun «Yoxsul Liza» («Бедная Лиза») və «Rus səyyahının məktubları» («Письма русского путешественника») povestləri çox məşhurdur.

XX əsrin əvvəllərində rus ədəbiyyaında insan şəxsiyyətinin dəyərindən, qəhrəmanın dünyanı dəyişdirmək, yaxşılaşdırmaq bacarığından, onun qeyri-məhdud imkanlarından bəhs edən yeni bir üslub – romantizm meydana çıxmışdır. Romantizmin başçısı Vasili Andreyeviç Jukovski (1783-1852) qəbul edilmişdir. Şeirlərində dostluq, Vətən borcu və məhəbbətindən bəhs edən müəllif Homer, Şiller, Bayronun əsərlərini rus dilinə tərcümə etmişdir. İvan Andreyeviç Krılov (1769-1844) təmsilləri ilə şöhrət qazanmış, şair və tərcüməçi Nikolay İvanoviç Qnediç (1784-1833) şeirləri və gözəl tərcümələri ilə, o cümlədən Homerin «İliada» poemasını rus dilinə çevirməklə şöhrət qazanmışdır. Dekabristlər K.F.Rıleyev, V.K.Kyuxelbeker, A.A.Bestujev-Marlinski də romantizmin nümayəndələri olmuşdur. Onlar əsərlərində Novqorod veçe quruluşunun ənənəsini, kazakları, vətənpərvərlərin və xalq qisasçılarının qəhrəmanlığını tərənnüm etmişdir.

XIX əsrin birinci yarısında yeni rus ədəbiyyatının və ədəbi dilinin əsl yaradıcısı Aleksandr Sergeyeviç Puşkin (1799-1837) olmuşdur. Gənclik illərində onun «Azadlıq» («Вольность»), «Qafqaz əsiri» («Кавказский пленник»), «Qaraçılar» («Цыганы») əsərləri romantizmin ən üst səviyyəsinə çatmışdır. Eyni zamanda sürgündə olduğu üçün qəsddə iştirak etmək imkanı olmayın dekabristlərlə dostluq edən A.S.Puşkinin yaradıcılığı üçün bu zaman azadlıq ideyaları xarakerikdir. 1820-1830-cu illərdə Aleksandr Sergeyeviç Puşkin öz romantik mövqeyindən əl çəkərək realizm üslubuna keçmişdir. Məhz Puşkin Rusiyada bədii üslub kimi realizmin yaradıcısı hesab olunur. Vətənin tarixini diqqətlə öyrənən şair bir neçə tarixi əsər qələmə almışdır. «Poltava» poeması, «Boris Qodınov» faciəsi, «Kapitan qızı» («Капитанская дочка») povesti bunlara misaldır. Onun yaratdığı əsərlər başdan-başa xalqa məhəbbət və hörmət ruhunda olmaqla bərabər, dünya ədəbiyyatının şah əsərləridir. Puşkin birincilər sırasında xalq yaradıcılığına müraciət edərək öz əsərlərində xalq bədii surət və dilindən istifadə etməyə başlamışdır. Təsadüfi deyil ki, zamanla Puşkinin «Çar Saltane haqqında nağıl» («Сказка о царе Салтане»), «Balıqçı və balıq haqqında nağıl» («Сказка о рыбаке и рыбке») və b. əsərləri xalq folklorunun bir hissəsinə çevrilmişdir.

Aleksandr Sergeyeviç Puşkinin sosial-siyasi görüşləri dəyişərək azadlıqsevər baxışlarını Rusiyanın tarixi böyüklüyü, onun xüsusi tarixi taleyi fikirləri əvəz etmişdir. Şair imperator I Nikolayın milli dövlətçilik siyasətini müdafiə etmişdir. 1831-ci ildəki Polşa üsyanını yatıran zaman imperatorla çiyin-çiyinə bir sırada olan Puşkin «Rusiyanın böhtançılarına» («Клеветникам России») şeirini yazmışdır.

A.Puşkinin yaradıcılığında rus milli xarakterinin ən yaxşı xüsusiyyətləri təcəssüm olunmuşdur. Rus milli mədəniyyətinin inkişafında onun yaradıcı-

lığının rolu misilsizdir. Şairin dili rus ədəbi dilinin əsasını qoymuşdur. Puşkinin əsərlərində onun dövrü tərənnüm edilmişdir. Şeirlərindən ibarət romanı «Yevgeni Onegin»i müasirləri «Rusiya həyatının ensiklopediyası» («Энциклопедией русской жизни») adlandırmışdır.

A.S.Puşkinin yaradıcılığı XIX əsrin birinci yarısında rus ədəbiyyatının zirvəsini təşkil edir. Eyni zamanda onunla bərabər, A.A.Delviq, Y.A.Baratinski, N.M.Yazıkov, A.K.Koltsov, A.S.Xomyakov kimi istedadlı rus şair və yazıçıları yetişmişdir. Aleksandr Sergeyeviç Qriboyedovun (1795-1829) «Ağıldan bəla» («Горе от ума») ölməz komediyası Rusiya həyatının düzgün təsvir edilməsi, dilinin obrazlılığı, yeniliyin köhnəliklə toqquşması, ətalət və nadanlıqla mübarizə əsərin cəmiyyətdə böyük uğur qazanmasına səbəb olmuşdur.

Dahi rus şairi Mixail Yuryeviç Lermantov (1814-1841) cəmi 27 il yaşamasına baxmayaraq «İblis» («Демон»), «Borodino», «Rahib» («Мцыри») poemalarını, «Maskarad» dramını və «Zəmanəmizin qəhrəmanı» («Герой нашего времени») prozaik romanını yaratmışdır. Müəllif «Zəmanəmizin qəhrəmanı» romanında müasirinin tipik surətini – «gərəksiz» adam bədii surətini yaratmışdır. 1840-cı illərdə rus ədəbiyyatına A.Fet, N.Maykov, Y.Polonski, A.Tolstoy, A.Qriqoryev kimi şair romantiklərin yeni nəsli gəlmişdir.

Ədəbi realizmin Rusiyada və bütün dünyada şöhrət qazanmış nümayəndələrindən biri Nikolay Vasilyeviç Qoqol (1809-1852) olmuşdur. O sözün əsl mənasında xalq və pravoslav yazıçı idi. Onun ilk əsərləri folklor ənənəsi əsasında romantik üslubda qələmə alınmışdır. Dahi əsərlərində müəllif belə bir bir nəticəyə gəlir ki, incəsənət xeyirxahlıq və pravoslav həqiqətə xidmət etməlidir. N.V.Qoqol «Ölü canlar» («Мертвые души»), «Müfəttiş» («Ревизор»), «Taras Bulba» əsərləri rus ədəbəiyyatı və mədəniyyətinin inkişafına əhəmiyyətli təsir göstərmişdir.

XIX əsrin birinci yarısında Rusiyada savadlı kütlə arasında ədəbi və ictimai-siyasi görüşlərin yazılması məqsədilə çoxlu ədəbi jurnallar nəşr edilməyə başlanmışdır. Bu işdə ədəbi tənqidçi Vissarion Qriqoryeviç Belinskinin (1811-1848) rəhbər rolu mühüm əhəmiyyət kəsb etmişdir. Sosialist ideyalara aludə olan V.Belinski yazıçıları realizm yoluna dəvət edərək rus ədəbiyyatında realist istiqamətin prinsiplərini işləyib hazırlamışdır.

Peterburq və Moskva paytaxt şəhərləri teatr incəsənətinin mərkəzinə çevrilmişdir. Peterburqun teatr həyatı Aleksandr və Mariin imperator teatrları ilə əlaqədar idi. Faciə, dram, opera və balet tamaşaları ilə bərabər məsxərə – yüngül musiqili komediya pyesləri geniş yayılmışdı. 1840-cı ildə D.T.Lenskinin «Lev Qurıç Siniçkin» vodevili (məsxərəsi) çox məşhur olmuşdur. Aleksandr imperator teatırının repertuarı vətənpərvərlik mövzusundan bəhs edən əsərlərlə

seçilirdi. N.Kukolnik, N.Polevoy, P.Obodovskinin qəhrəmanlıq pyesləri belə tamaşalardandır. İmperator teatrının səhnəsində V.A.Karatigin və U.S.Semyonova kimi faciə aktyorları, A.Dyur kimi komik parlamışdır.

Moskvada teatr həyatının mərkəzi Böyük və Kiçik teatrlar olmuşdur. 1822-1825-ci illər memar O.İ.Bove o zaman üçün Rusiyada ən böyük olan Böyük Teatr binasını tikmişdir. 1850-ci ildə isə memar A.Kavos Böyük Teatrın binasını genişləndirərək yenidən qurmuşdur.

Moskvada qədim rus dram teratrı, Kiçik Teatr Rusiya milli mədəniyyətinin inkişafında misilsiz rol oynamışdır. Kiçik Teatrın səhnəsində A.S.Puşkin, A.S.Qriboyedov, N.V.Qoqol, U.Şekspir və F.Şillerin pyesləri tamaşaya qoyulmuşdur. Teatrın səhnəsində mahir faciə rolu ifaçısı P.S.Moçalov, rus teatrında realizm məktəbinin banisi Mixail Semyonoviç Şepkin kimi aktyorlar yetişmişdir. M.S.Şepkin (1788-1863) təhkimli ailəsindən çıxaraq 8 yaşında səhnədə yer almışdır. O «sadəlik» və «təbiiliyi» yaradıcılığın əsas prinsiplərinə çevirməyə çalışmışdır. 40 illik peşəkar sənəti yolunda M.Şepkin N.Qoqolun «Müfəttiş» əsərində Qalabəyi, A.Qriboyedovun «Ağıldan bəla» əsərində Famusov və başqa rolları dərindən və ilhamla ifa edərək rus teatr incəsənətinin inkişafına böyük xidmət göstərmişdir.

XIX əsrin birinci yarısında rus musiqisində milli çalarlar diqqəti cəlb edir. Rus klassik musiqisinin banisi bəstəkar Mixail İvanoviç Qlinka (1804-1857) olmuşdur. Onun xalq yaradıcılığından qaynaqlanan romansları, simfonik əsərləri və operalarında əsas mövzu Vətənə məhəbbət, sadə xalqın rəşadəti, onun gözəllik və əzəməti tərənnüm olunmuşdur. M.Qlinkanın «Çar uğrunda həyat» («Жизнь за царя») – «İvan Susanin», «Ruslan və Lyudmila» dünya şöhrətli operaları musiqi incəsənətində əsl yenilik olub xalq yaradıcılığından bəhrələnmişdir. M.İ.Qlinkanın qoyduğu ənənəni onun şagirdi A.S.Darqomijski «Su pərisi» («Русалка»), «Daş qonaq» («Каменный гость») operalarında, bəstəkarlar A.A.Alyabev «Bülbül» («Соловей»), A.K.Varlamov «Qırmızı sarafan» («Красный сарафан») romanslarında davam etdirmişdir.

XIX əsrin birinci yarısında təsviri incəsənətin – heykəltəraşlıq, memarlıq, boyakarlığın inkişafında mühüm nailiyyətlər qazanılmışdır. Memarlıqda imperiya (ampir – fr.empir) üslubunu təcəssüm etdirən klassik əsərlər əsas yer tutmuşdur. Ampir Roma imperiyasının bədii irsinə əsaslanırdı. Məhz Peterburqdakı Admirallıq, Senat, Saray meydanları, Moskvada Teatr meydanı, Yaroslavl, Tver, Kaluqa, Smolensk, Nijni Novqorod və b. quberniya şəhərlərinin mərkəzi hissəsi bu üslubda tikilmişdir. Peterburqda ampir stilinin görkəmli nümayəndələri Kazan kilsəsinin memarlıq abidəsini yaradan memar Andrey Nikiforoviç Voronixin (1759-1814), Baş admirallığın binasını yaradan memar

Andreyan Dmitriyeviç Zaxarov (1761-1811), Senat, Sinod, Baş qərargah, Aleksandr teatrının binalarını təsis edən memar Karl İvanoviç Rossi (1775-1849) olmuşdur. Moskvada ampir üslubunda memarlar – Böyük və Kiçik teatr binalarını, Zəfər tağını inşa edən Osip İvanoviç Bove (1784-1834), Usaçevlər-Naydyonovların malikanəsini tikən Dominiko Jilyardi (1785-1845), Manej binasının layihəsini hazırlayan A.A.Betankura yaradıcılıq fəaliyyəti göstərmişdir.

Vətən memarlığında klassik formanın ardınca memarların öz yaradıcılığında müxtəlif fomaları əlaqələndirdiyi eklektik (yun.eklektikos – seçilmiş – «выбирающий») üslub meydana çıxmışdır.

Memar A.A.Monterranın Peterburqdakı İsaakiyev kilsəsi, memar A.P.Bryullovun Pulkov rəsədxanasının binası, memar A.İ.Ştakenşneyderin Mariinski sarayı bu stilə misaldır.

Eyni zamanda, rus milli memarlıq incəsənəti sahəsində yaradıcılıq fəaliyyəti rus-bizans üslubunda əsərlərin yaranmasına gətirib çıxarmışdır. Bizans və qədim rus memarlıq ideyasından istifadə edərək Xilaskar İsa məbədini, Böyük Kreml sarayını, Kremldəki Silah palatasını və Rusiyada çoxlu pravoslav kilsələrini yaradan Konstantin Andreyeviç Ton (1794-1881) bəhs olunan stilin ən görkəmli nümayəndəsi idi.

XIX əsrin birinci yarısında Rusiyada təsviri incəsənət yaradıcılığı geniş miqyas almışdı. Təsviri incəsənət sahəsində romantizmin ən böyük nümayəndələrindən biri A.S.Puşkinin ən gözəl portretini hazırlamış rəssam Orest Adamoviç Kiprenski (1782-1836) olmuşdur. Özünəməxsus yaradıcılıq çalarları ilə yaratdığı tablolara həyat bəxş edən rəssam Vasili Andreyeviç Tropinin (1776-1857) A.S.Puşkinin portreti, «Krujevaçı», «Gitara çalan» tabloları çox məşhurdur. Dahi rəssam Karl Pavloviç Bryullov (1799-1852) öz yaradıcılığına klassik və romantik üslubun elementlərini birləşdirərək «Pompeyin son günü» («Последний день Помпеи»), «Atlı qadın» («Всадница») böyük incəsənət əsərlərini yaratmışdır. Rəssam «Pompeyin son günü» tablosunda püskürən Vezuvinin lavası və külü altında məhv olan qədim şəhərin faciəsini təsvir etmək üçün gözəl rənglər seçmişdir. Şəkil dəhşətli fəlakət zamanı adamların göstərdiyi fədakarlığı əks etdirir. Böyük rəssam Aleksey Qavriloviç Venetsianov (1780-1847) məişət janrının yaradıcısı, kəndli həyatının real təsvirinin ifaçısıdır. Onun «Əkin yerində» («На пашне»), «Biçində» («На жатве») tabloları sadə rus adamlarının həyatını olduğu kimi təsvir edərək insan ləyaqətinin bərqərar olmasına xidmət edir. Realist istiqamətin davamçılarından biri də rəssam Pavel Andreyeviç-Fedotov (1815-1852) idi. Onun «Təzə kavaler» («Свежий кавалер»), «Oyunçular» («Игроки») tabloları rus təsviri incəsənət əsərləri arasında xüsusi yer tutar. Rəssam Aleksandr Andreyeviç İvanov

(1806-1858) öz yaradıcılığında xalqın mənəvi oyanışı ideyasını tərənnüm edərək xristian əxlaqi idealını ifadə etmişdir. Onun şah əsəri üzərində iyirmi il çalışdığı «İsanın xalqa zühuru» («Явление Христа народу») tablosudur.

Rus mədəniyyətinin qızıl əsri onun əsl yüksəlişi olmuşdur. Rus şairlərinin, yazıçılarının, rəssamlarının, bəstəkarlarının, memarlarının yaradıcılığı, alimlərin kəşfləri bütün dünyada tanınmışdır. Eyni zamanda milli, özünəməxsus xüsusiyyəti ilə seçilən rus mədəniyyətinin naliyyətləri Rusiya həyatının özü ilə sıx bağlı olmuşdur. Qızıl əsr dünyaya F.M.Dostoyevski və L.N.Tolstoy, P.İ.Çaykovski və «Qüdrətli dəstə» («Могучая кучка») bəstəkarları, D.İ.Mendeleyev və İ.M.Seçenov kimi dahilər bəxş etmiş mədəniyyətin yüksəlişilə davam etmişdir.

### §2. Slavyanofillər və qərbçilər. Rus utopik sosializmi

XIX əsrin birinci yarısında Rusiyada mövcud ictimai quruluşun ideoloji nöqteyi-nəzərdən dərk edilməsi prosesi formalaşmışdır. Qraf Sergey Uvarov və onun «Rəsmi xalqçılıq nəzəriyyəsi» («Теория официальной народности») rəsmi mütləqiyyət nöqteyi-nəzərini ifadə edirdi. Bununla birlikdə fərqli ideoloji istiqamətlər də meydana çıxmışdır. XIX əsrin I yarısında daha çox özlərini «slavyanpərəstlər» («славянофилы») və «qərbçilər («западники») adlandıran iki cərəyan fərqlənmişdir.

XIX əsrin 30-40-cı illərində formalaşan slavyanpərəstlik istiqamətinin tanınmış nümayəndələri qədim zadəgan soykökündən olan A.S.Xomyakov (1804-1860), İ.V. (1806-1856) və P.V. (1808-1856) Kireyev qardaşları, İ.S. (1823-1886) və K.S. (1817-1860) Aksakov qardaşları, Y.F.Samarin (1819-1876) olmuşdur. Slavyanpərəstlərin mərkəzi Moskva şəhəri idi. Burada onlar Rusiyanın tarixi yolu, dünyadakı yerinə dair qızğın müzakirələr təşkil edirdilər. Slavyanpərəstlərin «Moskvalı» («Москвитянин»), «Rus», «Xəbər» («Мольва»), «Gün» («День») qəzetləri, «Rus müsahibəsi» («Русская беседа») jurnalı nəşr edilmişdir. XIX əsrin 40-50-ci illəri slavyanpərəstlərin ideyasının zirvəsi qəbul edilmişdir.

1836-cı ilin oktyabrında «Teleskop» jurnalında qadına ünvanlanmış məktub forması geydirilmiş fəlsəfə traktatı çap edilmişdir. 1829-cu il tarixi qoyulmuş məktub-traktatın müəllifinin adı yox idi. Lakin heç kim üçün sirr deyildi ki, yazı tanınmış moskvalı filosof Pyotr Yakovleviç Çaadayevin (1784-1856) qələminə məxsusdur. Traktat o dövrdə böyük sensasiyaya səbəb olmuşdur.

«Fəlsəfi məktubda» Rusiyanın tarixi, onun bu günü və gələcəyi sərt alçaldılmış

bir şəkildə təsvir edilmişdir. Hakimiyyət tez bir vaxtda jurnalı bağladı, senzor həbs olundu, müəllif ev dustağı edilərək ona həkim-psixiatr müayinəsi təyin olundu.

Müasirlərinin çoxu, o cümlədən onun tarixi filosofluğunu qəbul etməyərək tənqid edən köhnə tanışı A.S.Puşkin 1836-cı ilin oktyabrında müəllifə göndərdiyi məktubda qeyd etmişdir ki, Qərbi Avropa ölkələrindən fərqli olaraq Rusiya tarixinin öz xüsusi alın yazısı olmuşdur. Puşkin və Çaadayev arasındakı dostcasına fikir mübadiləsi tədricən fəlsəfi fikrin iki istiqamətinin, yəni slavyanpərəstlik və qərbçilik qruplarının yaranmasına səbəb olmuşdur. Birincilərin sələfi A.S.Puşkini, ikincilərin sələfi isə P.Y.Çaadayaevi hesab etmək olar.

Rusiyanın və Qərbi Avropa dövlətlərinin tarixinə dərindən bələd olan yüksək təhsil sahibi slavyanpərəstlər ökələrin tarixini tutuşdurub müqayisə edərək belə bir nəticəyə gəlmişdi ki, Rusiya özünəməxsus xüsusiyyətə malik ölkə olduğu üçün başqa ölkələrdən fərqli olaraq öz yolu ilə davam etməlidir. Onlar Rusiyanın nadir tarixi yolunu ölkədə sinfi mübarizənin, möhkəm silki qaydaların olmamasında, eyni zamanda mövcud kənd icmaları və pravoslavlıqda görürdü. Bu əlamətləri başqa slavyan ölkələrinin tarixində də müəyyən edən slavyanpərəstlər Rusiyanın bütün slavyan dövlətlərini himayə edərək onları pravoslav xristian dini və pravoslav monarxiyası altında birləşdirməyə çağırırdılar.

Onlar Avropa nümunəsində hər hansı bir nümayəndəlik, yəni parlament təsisatını rədd edərək özlərinin məşhur şüarını, xalqa fikir, çara qərar verməyi ifadə edirdilər. Slavyanpərəstlər hesab edirdi ki, Rusiyada hakimiyyət heç bir yazılı qanuna, yəni konsititusiyaya əsaslanmayan mütləqiyyət formasında olmalıdır, yalnız monarxla xalq arasında sıx əlaqə mövcud olmalıdır. Odur ki, Rusiya torpaqlarının öz səsini çara çatdırması məqsədilə Zemstvo məclislərini dirçəltmək tələb olunurdu.

Mövcud Rusiya quruluşunun nöqsanlarını onlar bununla bağlayırdılar ki, ölkə özünəməxsus inkişaf yolundan çıxmışdır. Onlar bunun təqsirini I Pyotrda görür və belə hesab edirdilər ki, o, zorla Rusiyanı Qərbin yoluna döndərmiş və ruslara yabançı olan Qərb qaydaları tətbiq etmişdir. Slavyanpərəstlər Böyük Pyotrdan əvvəlki Rusiyanın patriarxal adət və qaydalarını bərpa etməyə çağırırdılar.

Slavyanpərəstlər xalqla yaxınlaşmağa, onun məişət və mədəniyyətini öyrənməyə çağırırdılar. Bu sahədə onlar çalışaraq mədəniyyət və dilə aid abidələri toplayıb kitab və sənədlər toplusu kimi çap edirdilər. P.V.Kiryevskinin birinci rus xalq mahnıları külliyyatı, V.İ.Dalın «Canlı böyük rus dili lüğəti» («Толковый словарь живого великорусского языка») buna parlaq misaldır. Slavyanpərəstlər Rusiya kəndlilərinin məişətinin, sənət və yarmarkaların tarixinin öyrənilməsinin başlanğıcını qoymuşdur.

Slavyanpərəstliklə bərabər Rusiyada ikinci bir ictimai axın, yəni qərbçilər meydana gəlmişdir. Onların tanınmış nümayəndələri yazıçılar V.P.Botkin (1811-1869) və İ.S.Turgenev (1818-1883), Moskva Universitetinin tarixçi professorları T.N.Qranovski (1813-1855), B.N.Çiçerin (1828-1904), K.D.Kavelin (1818-1885) idi. Bu axının tərəfdarları həm rəsmi xalqçılıq nəzəriyyəsinə, həm də slavyanpərəstlik istiqamətinə qarşı mübarizə aparmışdır. Qərbçilər belə hesab edirdi ki, Rusiya Qərbi Avropa ölkələrinin yolu ilə gedərək tez bir zamanda Avropa kimi olmalıdır. Xüsusilə onlar İngiltərə və Fransadakı qaydaları ideallaşdıraraq Rusiya üçün örnək hesab edirdilər. Qərbçilər Rusiyadakı qaydaları, xüsusilə təhkimçiliyi, məmurların özbaşınalığını, iqtisadi quruluşun geriliyini sərt tənqid edirdilər. Onlar kapitalist qaydalarının, burjua dövlət quruluşunun, söz, mətbuat azadlığının lehinə çıxırdılar.

Slavyanpərəstlər Rusiyanın keçmişini ideallaşdıraraq ölkənin gələcəyi üçün onu əsas örnək aldığı halda, qərbçilər və ya «rusiyalı avropalılar» ölkənin keçmiş tarixində heç bir öyrənməli məqam görmürdülər. Onlar keçmiş Rusiya tarixində hər şeyi «qaranlıq» və «ibtidai» şəkildə təsəvvür edirdi. Onların nöqteyi-nəzərinə əsasən, «tərəqqinin işığı» Rusiyaya Qərbdən gəlir, odur ki, Böyük Pyotrun işlərini qərbçilər ruhyüksəkliyi ilə qəbul edirdi. Pyotr dövründəki amansızlıq, qan tökülməsi deyil, yalnız islahatlar onları maraqlandırmışdı.

Fransa inqilabının azadlıq, bərabərlik, qardaşlıq şüarı qərbçilərə görə ictimai təşkilatar üçün əsas oriyentir idi. Onlar Rusiyanın inqilabi yolla dəyişdirilməsinin əleyhinə olaraq kor-koranə Qərb ölkələrinin siyasi və iqtisadi təcrübəsini tətbiq etməyə çağırırdı. «Rusiyalı avropalılar» öz ağıl və gücünü İngiltərə və Fransadakı burjua-parlament quruluşunun təbliğinə, Rusiya qaydalarının amansız tənqidinə yönəltmişdir.

XIX əsrin 40-cı illərində Rusiyada ölkənin həyatını əsaslı yenidən qurulmağı nəzərdə tutan nəzəriyyə meydana çıxmışdır. Onun yaradıcı və təbliğatçılarını bəziləri inqilabçı-demokratlar, digərləri xalq sosialistləri, üçüncülər isə utopik-sosialistlər adlandırmışdır. Onların ideyaları mövcud ictimai quruluşa qarşı dərin düşmənçilik bəsləyirdi. Onlar bütün dövlət quruluşunu dəyişdirmək məqsədilə inqilab tərəfdarı idi, ölkənin keçmişini ideallaşdıran slavyanpərəstlərə qarşı amansız mübarizə aparırdılar. Qərbçiləri də burjua Avropası qarşısında əyilməkdə təqsirləndirən utopiklər onları əsas rəqib hesab etmirdilər. Onlar belə hesab edirdi ki, Rusiyadakı ideal dövlət quruluşunu rus kəndlərindəki kənd icmaları prinsipi əsasında qurmaq mümkündür. Burada bölgü əmək senzinə əsaslanmır, əsas mülkiyyət hesab edilən torpaq bütün icmaya məxsusdur, üzvlər arasındakı münasibətlər isə dövlət qanunu ilə deyil, köhnə ənənə və adətlərlə tənzimlənir. Bu ictimai fikir istiqamətinin əsasını qoymuş

tanınmış ictimai xadim və rəhbərlər V.Q.Belinski (1811-1848), A.İ.Gertsen (1812-1870), N.Q.Çernışevski (1828-1889) inqilabçı və utopik sosialist idi.

Ədalətli dövlət quruluşu nəzəriyyəsi bəşər tarixinin müxtəlif mərhələlərində meydana çıxmışdır. XVI-XVIII əsrlərdə Qərbi Avropada utopiya adı almış bir neçə belə nəzəriyyə yaranmışdır. 1516-cı ildə ingilis filosofu Tomas Morun «Utopiya» əsəri nəşr edilmişdir. Bu əsərdə uydurulmuş Utopiya adasında sülh və firavanlığın hökm sürdüyü, xüsusi mülkiyyətin olmadığı, əmək fəaliyyətilə yaşamaq məqsədilə tələb edilən vəsaiti əldə etmək üçün deyil, vətəndaşların yüksək şüur səviyyəsinə ödənilməsi məqsədilə məşğul olan fantastik ölkə təsvir edilmişdi.

Belə rəvayətə əsaslanmış nəzəriyyələr insanların diqqətini cəlb edərək sonralar da daim meydana çıxmışdır. Bəziləri düşünürdü ki, insanların həyatını təşkil etməyin ədalətli formasını müəyyən etməklə ədalətsizlik, istismar və yoxsulluğa son qoymaq mümkündür. Məhz belə nəzəriyyələr XIX əsrin 40-cı illəri və ikinci yarısında Rusiyada yayılaraq çox məşhurlaşmışdır. Vissarion Qiqoryeviç Belinskinin (1811-1848) yaradıcılığı rus ictimai fikri və ictimai hərəkatı tarixində böyük əhəmiyyətə malik olmuşdur. 1834-cü ildən mətbuatda bir ədəbiyyat tənqidçisi və publisist kimi çıxış etməyə başlamış V.Belinski öz kəskin qələmi sayəsində ədəbiyyatda realizm və xəlqilik uğrunda mübarizə apararaq rus ədəbiyatının inkişafını dərindən və hərtərəfli təhlil etmiş, dahi söz ustaları A.S.Puşkin, M.Y.Lermontov, N.V.Qoqolun yaradıcılığını dərindən başa düşməkdə oxucuya kömək etmişdi. V.Belinskinin idealı azad və bərabərhüquqlu vətəndaşların yaşayıb çalışa biləcəyi sosializm cəmiyyəti idi. O Qərbi Avropa utopik sosialistlərindən fərqli olaraq başa düşürdü ki, sosializmə dinc yolla çatmaq mümkün deyil. Odur ki, inqilab tərəfdarı idi. V.Belinski «Qoqola məktub»unu yazaraq onu «Dostlarla yazışmadan seçilmiş yerlər» kitabındakı səhvləri üstündə tənqid edərək belə bir nəticəyə gəlmişdir ki, birinci dərəcəli vəzifələr mütləqiyyətə və təhkimçiliyə qarşı mübarizə aparmaqdan, xalq içərisində maarifi yaymaqdan ibarətdir. İstedadlı və görkəmli tənqidçi olan V.Belinski bəhs etdiyi ədəbi və bədii əsərlərə onların ideya istiqaməti nöqteyi-nəzərindən qiymət vermişdir. Əsərlərin bədii dəyərindən daha çox onu başlıca olaraq sosial ideya, ictimai istiqamət maraqlandırmışdır. Hətta ömrünün sonlarında əvvəllər yaradıcılığını bütün müəlliflərdən üstün qəbul etdiyi A.S.Puşkinin yaradıcılığını «dünənki gün» («вчерашним днем») hesab etmişdir.

İctimai fikrin, inqilabi istiqamətin başqa bir məşhur nümayəndəsi varlı mülkədar ailəsindən olan Aleksandr İvanoviç Gertsen (1812-1870) olmuşdur. Uşaqlıq və gənclik illərində çox mütaliə edən A.Gertsen gözəl təhsil alaraq 1833-cü ildə Moskva Universitetinin Fizika-riyaziyyat fakültəsini bitirmişdir. Universitetdə təhsil aldığı illərdə A.Sen-Simon, Ş.Furye, P.Ouenin sosialist

təlimi ilə maraqlanan A.Gertsen tədricən həmfikir olduğu gənclərlə dərnək təşkil edərək siyasi məsələləri, həyatın dəyişdirilməsi planını müzakirə edirdilər. 1834-cü ildə bu gizli qrupun fəaliyyətini aşkar edən hakimiyyət Gertseni əvvəl Permə, sonra Vyatkaya göndərdi ki, o quberniya dəftərxanasında məmur kimi xidmət etmişdir. 1840-cı ildə sürgün ləğv edildikdən sonra 1847-ci ildə A.Gertsen xaricə getdi, Fransadakı 1848-ci il inqilabının şahidi oldu. Monarxiyanın devrilməsini ruh yüksəkliyi ilə qəbul edən A.Gertseni burjua respublika hökumətinin üsyan etmiş fəhlələrə divan tutulması sarsıtdı, burjua quruluşunun xalqa zidd mahiyyətini başa düşdü və nəzərini Rusiyaya çevirərək ümid etdi ki, məhz onun ölkəsi bütün dünyaya inqilabi yeniləşmə yolunu göstərəcəkdir. O hesab edirdi ki, Rusiyada kəndli icması vasitəsilə sosializm qurmaq olar. Bu məqsədə çatmaq üçün kəndliləri torpaqla birlikdə təhkimçilikdən azad edərək kənd icmaları vasitəsilə bütün Rusiyada ümumi özünüidarə formasını təsbit etmək lazımdır. Bütün bu dəyşiklik A.Gertsenə görə inqilabi yolla həyata keçirilməli idi. O ümid edirdi ki, Rusiya kapitalizm quruluşunu keçirmədən kəndli icması vasitəsilə sosializmə qovuşa bilər. Gertsenin bu utopik nəzəriyyəsi «Rusiya sosializmi» adını alaraq sonrakı rus sosialistləri və inqilabçıları nəslinin nümayəndələrinə çox əhəmiyyətli təsir göstərmişdir. 1852-ci ildə A.İ.Gertsen Londonda «Azad rus mətbəəsi»ni yaratmış, əvvəlcə «Polyarnaya zvezda» almanaxını, sonra «Kolokol» qəzetini nəşr etdirmişdir ki, bu 1857-1867-ci illəri əhatə etmişdir.

Rus sosializminin görkəmli nümayəndələrindən biri Nikolay Qavriloviç Çernışevski (1828-1889) olmuşdur. Saratov keşişinin oğlu olan N.Çernışevski Saratov dini seminariyasında, sonra Peterburq Universitetinin Tarix-filologiya fakültəsində təhsil almışdır. 1853-cü ildə Peterburqdakı qabaqcıl jurnallar olan «Oteçestvennıye zapiski» və «Sovremennik»də əməkdaşlıq etməyə başlamışdır. Çox böyük mütəfəkkir və publisist istedadı sayəsində Belinskinin işini davam etdirən N.Çernışevski bədii yaradıcılıq fəaliyyətini siyasi mübarizə vasitəsinə tabe etmişdir. Xüsusilə 1861-ci il islahatının hazırlanması və keçirilməsi ilə əlaqədar onun publisist fəaliyyəti daha fəal olmuşdur. Çarizm və mülkədarlarla heç bir sazişə getməyən N.Çernışevskinin fikrincə, yalnız xalqın öz mübarizəsi sosializm quruluşu yaranmasına gətirib çıxara bilər. Gertsen kimi Çernışevski də belə hesab edirdi ki, rus kəndində icmanın mövcud olması kapitalizmdən yan keçərək feodalizmdən bilavasitə sosializmə keçmək şəraiti yaradar. N.Çernışevski islahatın soyğunçu xarakterini ifşa edərək izah edirdi ki, kəndlilərin torpaqla azad edilməsi problemi həll edilməmişdir və Rusiyanı ancaq xalq inqilabi azadlığa çıxarıb onu dəyişdirə bilər. Hakimiyyət N.Q.Çernışevskini həbs edərək Sibirə sürgün etmiş, ömrünün son illərini Saratovda keçirən N.Q.Çernışevski orada da vəfat etmişdir.

Bütün rus inqilabçı-demokratları, yaxud utopik sosialistləri Rusiyanın ictimai və siyasi quruluşunun qızğın və istedadlı tənqidçiləri olduğu halda, onların cəmiyyəti dəyişdirmək təklifləri idillik xarakter daşıyırdı. Onlar kəndlilərin həyat tərzinin həqiqi mahiyyətini başa düşməyərək onlar arasında görmək istədikləri əmlak bərabərliyini, qarşılıqlı yardımı, qrup halında xudbinliyin olmamasını görürdülər. Əslində isə belə bir icma mövcud deyildi. Düzdür, bütün əlamətlər mövcud olmaqla yanaşı, onlarla birlikdə elə cəhətlər meydana çıxmışdı ki, onlar da icmanı ictimai etalon hesab etməyə imkan vermirdi.

İcma daha əməksevər və təşəbbüskarlara fərqlənmək imkanı verməyərək hamını minimum təminat səviyyəsində yaşamağa məcbur edirdi. Burada doğrudan da torpaq üzərində xüsusi mülkiyyət yox idi, torpaqlar ailə üzvlərinin artması ilə bağlı təkrar bölüşdürülürdü ki, bu da məhsuldar əməyə olan marağı azaldırdı. Zamanla başqasına keçmək ehtimalı torpaq əkinçilik işlərinin təkmilləşdirilməsinin qarşısını alırdı. Məhz icma yoxsulluğun və kəndlilərin həyat səviyyəsinin aşağı olmasının əsl səbəkarı idi. Çoxlu məhsul tədarük etmək başqaları ilə bölüşmək ehtimalına görə kəndliləri cəlb etmirdi.

XIX əsrin ortalarında Rusiya kəndlərində iki yüz ildən çox mövcud olmuş əmlak, təsərrüfatları idarə etməyin eyni qaydaları qalmaqda idi ki, bu da yeni, məhsuldar forma və qaydaların tətbiqinə mane olurdu. İcma kəndliləri acından ölməkdən xilas etdiyi halda, böyük və möhkəm fərdi kəndli təsərrüfatlarının yaranmasına mane olurdu. O zəifləri müdafiə edərək güclü və bacarıqlı üzvlərinin qarşısına sədd çəkirdi. İnqilabçı demokratlar isə icmanı yeni ictimai quruluşun rüşeymi hesab edirdilər.

## §3. XIX əsrin II yarısında Rusiya mədəniyyəti

XIX əsrin ikinci yarısında Rusiya mədəniyyəti iki istiqamətdə inkişaf etmişdir. Qərb həyat tərzin qəbul edərək materializm və ateizm tərəfdarına çevrilən adamlar birinci istiqaməti təmsil edirlər. İkinci bir istiqamət rus milli mədəniyyətinin çiçəklənməsidir. Milli mədəniyyətin təmsilçiləri olan yazıçılar, şairlər, rəssamlar, bəstəkarlar, alimlər Qərbi Avropanın mədəniyyət təcrübəsindən istifadə edərək rus milli mədəniyyətinin ənənələrinə əsaslanan əsərlər yaratmağa çalışırdı. Onların yaradıcılığında dini məsələlər əhəmiyyətli yer tutmuşdur. Pravoslav dini ənənəsinə əsaslanaraq onlar insan həyatı və əxlaqının mahiyyətinə dair fikirlərini ifadə edirdi.

Rusiya hökumətinin məqsədyönlü fəaliyyəti nəticəsində XIX əsrin ikinci yarısında Rusiyada savadlı adamların sayı artmışdır. Ölkənin ibtidai məktəblərində

4 mln. uşaq oxuyurdu, kilsə-məhəllə məktəblərinin şəbəkəsi genişlənmişdir. Ümumən, ölkə əhalisinin təhsil vəziyyəti 1860-cı illə müqayisədə əsrin sonunda dörd dəfə artaraq 6 faizdən 21 faizə yüksəlmişdir. Əlbəttə, bu kifayət olmasa da, tərəqqi nəzərə çarpırdı. Orta təhsil şəbəkəsinin miqyası genişlənmişdir. Kişi və qadın gimnaziyaları, realnı məktəblər kimi orta təhsil sistemində təhsil alan şagirdlər 1860-1890-cı illər arasında altı dəfə artmışdır. Ali təhsil sahəsində mövcud olan yeddi – Moskva, Peterburq, Kiyev, Kazan, Yuryev, Varşava, Xarkovdakı universititetlərə 1865-ci ildə Odessa və 1888-ci ildə Tomskda açılan universitetlər qoşulmuşdur. Texniki təhsil sürətlə inkişaf edirdi. Moskvada Ali texniki məktəb, Riqa, Kiyev,Varşavada Politexnik institutları, Xarkov və Tomskda Texnologiya institutları, Peterburqda Elektrotexnika İnstitutu açılmışdır. Moskvada Ali qadın kursları fəaliyyətə başlamışdır. Rusiya ali məktəblərindəki tələbələrin sayı təqribən 10 dəfə artmışdır.

Rus alimləri elmin bütün sahələrində yaratdıqları əsərlərlə dünya elminə mühüm töhfə vermişdir. 1851-ci ildə böyük tarixçi alim Sergey Mixayloviç Solovyovun (1820-1879) «Ən qədim zamanlardan bəri Rusiya tarixi» («Истории России с древнейших времен») əsərinin birinci cildi nəşr olundu. Bu böyük əsər 29 cilddən ibarət olub dəfələrlə təkrar çap edilmişdir.

Akademik Vasili Osipoviç Klyuçevski (1841-1911) çoxcildlik «Rusiya tarixinin kursu» («Курс русской истории») fundamental əsərini hazırlamışdır. Bundan başqa, dahi alim təhkimçilik hüququ, Boyar duması, silklərin, maliyyənin tarixinə dair tədqiqatların müəllifidir. Rusiya tarixçiləri arasında V.O.Klyuçuvski birinci olaraq övliyaların həyatına diqqət yetirmişdir. O buna Rusiya tarixinin öyrənilməsi üçün vacib mənbə kimi baxırdı. Rusiya tarixinə dair N.İ.Kostomarov, K.N.Bestujev-Ryumin, S.F.Platonov maraqlı əsərlər yaratmışdır.

Nikolay İvanoviç Kareyev (1850-1931) ümumdünya tarixini tədqiq etmişdir. Fransa tarixinin araşdırılması, Qərbi Avropanın yeni tarixi üzrə kurs ona xüsusi şöhrət gətirmişdir. Rus tarix elmi ümumdünya tarixi üzrə M.V.Nikolsk, V.İ.Geryı, P.Q.Vinoqradov, V.Q.Vasilyevsk kimi böyük tədqiqatçı alimlər yetişdirmişdir.

Milli mədəniyyətə maraq bu dövrdə filologiya elminin fəal inkişafina səbəb olmuşdur. A.A.Şaxmatov, A.A.Potebnya kimi alimlər rus dili üzrə qiymətli tədqiqatlar aparmışdır. Böyük tədqiqatçı Vladimir İvanoviç Dal (1801-1872) demək olar ki, 50 il ərzində «Canlı velikorus dilinin izahlı lüğəti»n («Толкового словаря живого великорусского языка») yaratmışdır. 1863-1866-cı illərdə işıq üzü görən lüğət 200 min sözü əhatə edən dörd cilddən ibarətdir. Qədim rus ədəbiyyatı və xalq folkloruna diqqət xeyli artmışdır. F.İ.Buslayev, İ.İ.Sreznevski, N.S.Tixonravov qədim rus ədəbiyyatının ictimai

şüurda öz yerini alması üçün böyük işlərə imza atmışdı. Folklorçu Aleksandr Nikolayeviç Afanasyev (1826-1871) «Rus xalq nağılları»nı («Народные русские сказки») toplayaraq çap etdirmişdir.

XIX əsrin ikinci yarısı Rusiya elmində təbiətşünaslıq elminin parlaması ilə diqqəti cəlb edir. Çoxlu rus alimi dünya elminin qabaqcıl nümayəndələri sırasına daxil olmuşdur. Görkəmli riyaziyyatçı Pafnuti Lvoviç Çebışev (1821-1894) riyaziyyat məsələlərini təbiət elmlərinin və texnikanın inkişafı ilə əlaqələndirmək səyi diqqəti cəlb edir. Onun həm də bir mexanik kimi maşınlar və mexanizmlər nəzəriyyəsi sahəsindəki kəşflərinin çox böyük əməli əhəmiyyəti var idi. P.Çebışev istedadlı alimlərin bütöv bir nəslini yetişdirmiş Peterburq riyaziyyatçılar məktəbinin banisi idi. Onlar arasında A.A.Markov, A.M.Lyapunov, V.A.Steklov kimi alimlər var idi. Məhz P.Çebışevin təşəbbüsü ilə ilk riyaziyyatçı qadın Sofya Vasilyevna Kovalevskaya (1850-1891) Peterburq akademiyasının müxbir üzvü olmuş, onun elmi və müəllimlik fəaliyyəti Rusiyanı şöhrətləndirmişdir. İsveçin Stokholm Universitetinin professoru olan S.Kovalevskayanın əsərləri dünya miqyasında şöhrət qazanmışdır.

XIX əsrin ikinci yarısında rus alimləri fizika və texnika sahəsində mühüm tədqiqatlara imza atmışdır. Görkəmli fizik Aleksandr Qriqoryeviç Stoletov (1839-1896) maqnitizm və fotoelektrik hadisələrini öyrənmək sahəsində araşdırmalar aparmışdır. Moskva fiziklər məktəbinin banisi olan A.Stoletov bacarıqlı pedaqoq kimi çoxlu istedadlı şagird tərbiyə etmişdir.

Hərbi mühəndis Pavel Nikolayeviç Yabloçkov (1847-1894) və eletrotexnik Aleksandr Nikolayeviç Lodıgin (1847-1923) elektrik lampasını kəşf etdilər, bu da işıqlandırma texnikasında çevrilişə, elektrik enerjisinin ötürülməsinə, onun saxlanmasına və bölüşdürülməsinə səbəb oldu. Bir çox xarici ölkədə tətbiq edilən elektrik işığı sistemi «rus işığı» («русский свет») adını almışdır. Elektrotexnik Mixail Osipoviç Dolivo-Dobrovolski (1862-1919) üçfazalı cərəyan sistemin kəşf edərək elektrik enerjisin xətlərlə uzaq məsafələrə verilməsi problemin həll etmişdir.

Aleksandr Stepanoviç Popov (1854-1905) elektrik hadisələrini, elektromaqnitizmi öyrənməklə məşğul olmuş, 1895-ci ildə radioteleqrafı ixtira etmişdir. Professor A.Popov öz aparatını xeyli yaxşılaşdıraraq onu dənizdə üzən gəmilər arasında əlaqə üçün tətbiq etməyə başladı. Rus hərbi donanmasının zabiti Aleksandr Fyodoroviç Mojayski (1825-1890) 1881-ci ildə dünyada birinci təyyarəni yarada bilmişdir. O sonralar təyyarəqayırma işinin əsasını təşkil edən ideyalar irəli sürmüşdür.

XIX əsrin II yarısında böyük rus kimyaçı alimi Dmitri İvanoviç Mendeleyevin (1834-1907) yaradıcı fəaliyyəti çiçəklənmişdir. D.Mendeleyev 1869-cu

ildə kimyəvi elementlərin dövrü qanununu kəşf etmişdir. Qanun kimya tarixində ilk dəfə olaraq yeni elementlərin mövcud olduğunu irəlicədən söyləmək və onların atom çəkisini müəyyən etmək imkanı verdi. D.İ.Mendeleyevin «Kimyanın əsasları» («Основы химии») kitabı bütün Avropa dillərinə tərcümə edilmiş və dəfələrlə nəşr olunmuşdur.

Bəhs edilən dövrdə biologiya elmi və təbabət böyük uğur qazanmışdır. Rus fiziologiya məktəbinin banisi İvan Mixayloviç Seçenov (1829-1905) beyin və mərkəzi əsəb sistemi fəaliyyətini yeni şəkildə öyrənərək psixi hadisələrin, hissi ifadələrin fizioloji izahını irəli sürmüşdür. Onun «Beyin refleksləri» əsəri elmdə əsl çevriliş olmuşdur. İ.Seçenov Nobel mükafatına layiq görülmüş birinci rus alimi idi. Nobel mükafatına layiq görülmüş başqa bir rus alimi İlya İliç Meçnikov (1845-1916) olmuşdur. Onun işləyib hazırladığı immunitet nəzəriyyəsi müxtəlif yoluxucu xəstəliklərin qarşısının alinması probleminin öyrənilməsi üçün çox böyük dünya əhəmiyyətinə malik olmuşdur.

Bitkilərin fiziologiyası sahəsindəki tədqiqatlar məktəbinin banisi Kliment Arkadyeviç Timiryazev (1843-1920) idi. Onun işığın təsiri ilə yaşıl bitkilərin havadan karbon qazını udması prosesini kəşf etməsi təbiət elmini çox zənginləşdirmişdir. İstedadlı vətənpərvər alimin «Bitkilərin həyatı» («Жизнь растений») kitabı müxtəlif dillərdə təkrar-təkrar çap edilmişdir.

Dahi rus alimi Vasili Vasilyeviç Dokuçayev (1846-1903) yeni torpaqşünaslıq elmi yaratmışdır. Şagirdlərlə birlikdə Mərkəzi Rusiyanın torpaqlarını dərindən öyrənən alim yeni torpaqşünaslıq elminin inkişafına kömək etmişdir. Onun «Rusiya qaratorpağı» («Русский чернозем») əsəri dünyada torpağı öyrənən klassik elmi əsərlər sırasına daxildir.

Coğrafiya elminin inkişafı ilk növbədə akademik Pyotr Petroviç Semyonav-Tyan-Şanskinin (1827-1914) adı ilə bağlıdır. Coğrafiyaçı, nəbatatçı və entomoloq alim Tyan-Şan dağlarına, Xəzər ətrafı əraziyə, Türküstana bir sıra səyahətlər etmişdir. Onun kəşfləri Orta və Mərkəzi Asiyanın böyük bir ərazisinin elmi surətdə tədqiq etməyin başlanğıcı olmuşdur. Böyük alimin təşəbbüsü ilə «Rusiya. Vətənimizin mükəmməl coğrafi təsviri» («Россия. Полное географическое описание нашего Отечества») adlı çoxcildli mükəmməl bir əsər meydana çıxmışdır. Rusiya imperator coğrafi cəmiyyətinin rəhbəri kimi Pyotr Petroviç Semyonov-Tyan-Şanski dünyanın müxtəlif guşələrinə böyük ekspedisiyalar təşkil etmişdir. Görkəmli alim və səyyah Nikolay Mixailoviç Prjevalski (1839-1888) Mərkəzi Asiyaya beş dəfə səyahət etmiş, Monqolustanı, Şimalı Çini keşmiş, Qobi səhrasını, Tyan-Şan dağlarını, Qərbi Çini, Mərkəzi Asiyanın başqa ərazilərini tədqiq etmişdir. Prjevalskinin tədqiqatları sayəsində avropalılar əvvəllər məlum olmayan Mərkəzi Asiya və Tibetlə tanış oldular.

Onun fəaliyyəti sahəsində yeni bitki və heyvan növləri, o cümlədən vəhşi Prjevalski atları və Tibet ayısı aşkar edilmişdir.

Görkəmli səyyah və tədqiqatçı alim Nikolay Nikolayeviç Mikluxo-Maklay (1846-1888) 1870-1883-cü illərdə Sakit okean adalarında yaşayan xalqları öyrənmək məqsədilə bu adalara səyahət etmişdir. O, on beş ay ərzində Yeni Qvineyanın şimal-şərq sahilində papuaslar arasında yaşamışdır. Rus alimi yerli xalqın adət və məişətin öyrənərkən onlarla mehriban davranaraq yerli əhalinin hörmət və məhəbbətini qazanışdır. Sonra tədqıqatçı alim Mikroneziya və Melaneziya xalqlarının adət və ənənələrini öyrənməklə məşğul olmuşdur. N.Mikluxo-Maklayın apardığı tədqiqatlar bu gün də öz elmi əhəmiyyətini itirməmişdir. Onun tədqiq etdiyi Sakit okean sahili Maklay sahili adlandırılmışdır.

XIX əsrin II yarısında Rusiyada bədii mədəniyyət yüksəliş dövrünə daxil olmuşdur. Mədəni yaradıcılıqda əsas yeri xalq və xristian həqiqəti axtarışı tuturdu. Rus ədəbiyyatı realizm prinsipinə əsaslanaraq insan və cəmiyyət həyatının çox mühüm məsələlərinə cavab verməyə çalışırdı. Hər bir yazıçı, xüsusilə rus və dünya ədəbiyyatının nəhəng klassikləri F.M.Dostoyevski, İ.S.Turgenev, L.N.Tolstoy, A.P.Çexov yaratdıqları əsərlərdə insan həyatı və həyacanlarını, sevincini, ən mühüm ictimai problemləri özlərinə məxsus təsvir etməyə cəhd göstərmişdir. Rus yazıçılarının XIX əsrin II yarısında yaratdığı əsərlər insan varlığının gizli tərəflərinə nüfuz etməklə bu gün də milyonlar üçün xüsusi əhəmiyyət kəsb etməkdədir. Rus yazıçılarının dünya ədəbiyyatının şah əsərləri olan bədii əsərləri obrazların parlaqlığı, dilin bütün sərvətində istifadə etmək bacarığı nöqteyi-nəzərindən rus və dünya ədəbiyyatının ən dəyərli nümunələridir. Dahi rus yazıçısı və mütəfəkkiri F.M.Dostoyevski (1821-1881) yaradıcılğında insan psixikasının mürəkkəb qanunları, insanın incə ruhi həyacanları, alçaldılan və təhqir edilənlərin daxili aləmi geniş təsvir edilmişdir. Onun «Cinayət və cəza» («Преступление и наказание»), «İdiot», «Şeytanlar» («Бесы»), «Karamazov qardaşları» («Братья Карамазовы») kimi əsərlərində müəllif yaşayışın əsas sirrini – «insanın sirrini» dərk etməyə səy göstərmişdir. İnsanın daxili aləminə nüfuz edən F.Dostoyevski həyatın mənası problemlərin, azadlıq və mədəniyyət, inam və inamsızlıq, xeyir və şər, ağıl və əxlaq üzərində fikirlərini bədii sözlə ifadə etmişdir. Onun bütün yaradıcılığı dini-fəlsəfi axtarışla müşayiət olunmuşdur. F.Dostoyevskinin dünyagörüşü pravoslav etiqadına əsaslanmaqla inanırdı ki, rus xalqın yalnız Tanrı adına birləşmək xilas edə bilər.

Lev Nikolayeviç Tolstoy (1828-1910) hələ sağlığında dünya şöhrətli yaziçı və mütəfəkkirə çevrilərək Rusiya, Qərbi Avropa, Hindistan, Yaponiya və başqa ölkələrdə çoxsaylı oxucu kütləsinə malik olmuşdur. Onun «Hərb və sülh» («Война и мир»), «Dirilmə» («Воскресение»), «Anna Karenina»

əsərləri dünya ədəbiyyatı tarixində dərin bir ustalıqla Rusiya həyatını bütün mürəkkəbliyi və ziddiyyətlərlə əks etdirə bilmiş, insanın daxili aləminin bütün zənginliyini, onun həqiqət və ədalət tapmaq yolundakı əzablı axtarışlarını açıb göstərə bilmişdir.

İvan Sergeyeviç Turgenev (1818-1883) doğma orta Rusiya təbiətinin tərənnümcüsü, Rusiya kəndinin və gündəlik həyatının həssas və dərin müşahidəçisi olmuşdur. Rus dilini gözəl bilən dahi yazıçı vətən ədəbiyyatında yeni janrın – mənsur şeirin əsasını qoymuşdur. Onun «Atalar və oğullar» («Отцы и дети»), «Ərəfə» («Накануне»), «Tüstü» («Дым») romanlarında müəllif nəsillərin arasındakı ziddiyyətlərin mahiyyətinə müdaxilə edərək, nihilistlər və xalqçıların obrazlarını təsvir etmişdir.

Anton Pavloviç Çexovun (1860-1904) yaradıcılığında müəllif ziyalıların ideya vurnuxmasını bədii sözə tökmüşdür. Müəllif ilk vaxtlarda qisa yumorist nağıllarla məşhurlaşmışdır. Hətta bu nağıllar üçün o Antoşa Çexonte təxəllüsünü belə seçmişdir. Düzdür, bu nağıllarda yazıçı müasirlərinin dəqiq obrazını, qəhrəmanının ürəkdən ciddi axtarışını bədii yaradıcılıq vasitəsilə oxucuya təqdim etmişdir. A.P.Çexovun «Vanya əmi» («Дядя Ваня»), «Albalı bağı» («Вишневый сад»), «Qağayı» («Чайка»), «Üç bacı» («Три сестры») pyesləri yüz ildən çoxdur ki, dünya teatr səhnəsindən düşmür.

Rus poeziyası istedadlı şairlərin yaradıcılığı sayəsində yüksəlişini davam etdirmişdir. Onların ən görkəmli nümayəndələrindən biri Nikolay Aleksandroviç Nekrasov (1821-1878) idi. Onun «Rus qadınları» («Русские женшины»), «Şaxta» («Мороз»), «Qırmızı burun» («Красный нос») və b. şeir və poemalarında vətəndaşlıq poetik yaradıcılığın əsas prinsip tərənnüm edilmişdir. N.A.Nekrasovun başçılıq etdiyi «Sovremennik» jurnalında bu mövqeyi müdafiə edirdi. Onun yaradıcılığı, xüsusilə, demokratik ziyalılar içərisində geniş yayımışdır. Sadə xalq da N.Nekrasovun şerlərini çox sevmişdir ki, onların çoxu xalq mahnıları olmuşdur.

Başqa bir istiqamət lirikanın təmsilçisi Fyodor İvanoviç Tyutçevə (1803-1873) məxsusdur. F.İ.Tyutçevin lirik şeirləri insan təəssüratının aşkarlanmasında psixoloji gerçəkliyi təşvir etdiyi üçün oxucuları mütəəssir edirdi. F.İ.Tyutçev mütəfəkkir şair, filosof şair olaraq Rusiyanın taleyi, özünəməxsusluğu haqqında düşüncələrini poeziyada əks etdirmişdir.

XIX əsrin ikinci yarısında rus təsviri incəsənəti çiçəklənmişdir. Rus incəsənətində əsas istiqamət realizm olmuşdur. Rəssam-marinist İvan İvanoviç Ayvazovskinin (1817-1900) əsas yaradıcılıq mövzusu dənizlə bağlıdır. «Qara dəniz», «Doqquzuncu zal» tabloları müəllifin dəniz tutqusunun bədii təsviridir. Rəssam-batalist Vasili Vasiliyeviç Vereşşagin (1842-1904) yaradıcılığında ta-

rixi-müharibə janrı əsas yer tutaraq müharibələrin qəhrəmanlıq və faciəsini, amansızlıq və vəhşiliyin əks etdirmişdir. Onun «Apofeoz voynı» tablosu tarixi müharibə janrının ən parlaq nümunəsidir.

1870-ci ildə Peterburqda bir qrup rəssam «Səyyar bədii sərgi şirkəti» («Товарищество передвижных художественных выставок») təşkil edərək Rusiyanın incəsənət həyatının mərkəzinə çevrildilər. Şirkət iştirakçıları öz sərgilərini Rusiyanın müxtəlif şəhərlərində təşkil etdiyi üçün onlara səyyar rəssamlar deyilirdi. Realist istiqaməti təmsil edən səyyar rəssamlatr bədii yaradıcılıqda həyata, ətraf mühitə, insana xalqın mədəniyyətindən qaynaqlanan münasibəti bədii şəkildə təsvir etməyə çalışırdılar. Onlar belə hesab edirdilər ki, hər bir yaradıcılıq tablosu tamaşaçıda yüksək əxlaqi keyfiyyət olan xoşniyyət, məhəbbət, həqiqətə və Vətənə xidmət hissi tərbiyə etməlidir. Səyyar rəssamlar rus və dünya incəsənətinə misilsiz parlaq tablolar bəxş etmişdir. Aleksey Kondrateviç Savrasov (1830-1879) 1871-ci ildə təşkil etdiyi sərgidə «Zağcalar uçub gəldi» («Грачи прилетели») tablosunda rus realist peyzajının əsasını qoymuşdur. Bu istiqamətdə yaradıcılıqla məşğul olan rəssamlar İvan İvanoviç Şişkin «Şam ağacı meşəsində səhər» («Утро в сосновом лесу»), «Çovdar» («Рожь»), İsaak İliç Levitan «Mart», «Göl. Rus» («Озеро. Русь»), Vasili Dmitriyeviç Polenov «Moskvalı dalandar» («Московский дворник») tab-lolarında realist təbiət səhnələrinə geniş yer vermişdir.

Görkəmli rəssam Vasili Qriqoryeviç Perovun (1833-1882) «A.N.Ostrovski» və «F.M.Dostoyevski» portretləri psixololi məziyyət, «Üçlük» («Тройка») əsəri insan əzabına şərik olmaq hisslərinin təsviri ilə fərqlənir. V.Perovun yaradıcılığı xalqa məhəbbət, həyat hadisələrini dərk etmək səyi, incəsənət vasitəsilə bunlar barəsində həqiqəti söyləmək ruhundadır.

Səyyar sərgilər şirkətinin ideya rəhbəri İvan Nikolayeviç Kramskoy (1837-1887) «L.N.Tolstoy», «Nekrasov» portretlərini yaratmaqla bərabər, «İsa səhrada» («Христос в пустыне») tablosunda insan qəlbində xristian həqiqətlərini axtarmağa səy göstərmişdir. İncilin sirrinin dərinliklərinə nüfuz etmiş rəssam Nikolay Nikolayeviç Ge (1831-1894) «Həqiqət nədir?» («Что есть истина?») tablosunda məsələyə cavab axtarır.

Ən böyük rus realist rəssamlarından biri olan İlya Yefimoviç Repin (1844-1930) «Burlaklar Volqada» («Бурлаки на Волге»), «Təbliğatçının həbsi» («Арест пропагандиста»), «Zaporojyelilər» və b. tablolarında xalqın həyatı, tarixi mövzular, xalqın azadlığı uğrunda mübarizə, silsilə portretlər təsvir edilişdir.

Tarixi incəsənət sahəsində ilk cərgədə yer almış Vasili İvanoviç Surikovun (1848-1916) yaradıcılığında Rusiya xalqının tarixi, onun böyük və faciəli

keçmişi mərkəzi yer tutmuşdur. Onun «Suvorovun Alp dağlarını aşması» («Переход Суворова через Альпы»), «Strelets edamının səhəri» («Утро стрелецкой казни»), «Boyar qadın Morozova» («Боярыня Морозова») və b. əsərləri rus və dünya tarixi boyakarlığının zirvəsidir.

Viktor Mixayloviç Vasnetsovun (1848-1926) yaradıcılığı rus xalq nağılları, dastanları ilə bağlıdır. Onun «Bahadırlar» («Богатыри») tablosu rus xalqının güc və qüdrətinin simvoludur.

XIX əsrin II yarısında teatr sənətində «Ostrovski mərhələsi» diqqəti cəlb edir. Aleksandr Nikolayeviç Ostrovskinin (1823-1886) pyesləri Moskvanın Kiçik teatrının milli repertuarının əsası olmuşdur. 1873-cü ildən 1882-ci ilə kimi doqquz sezon müəllifin Kiçik Teatrın səhnəsində 29 pyesi tamaşaya qoyulmuşdur. A.Ostrovskinin «Tufan» («Гроза») tamaşasının Kiçik teatrın («Малый театр») səhnəsində göstərilməsi rus mədəniyyətində əsl hadisə olmuşdur. Təsadüfi deyil ki, Kiçik teatrı Ostrovski teatrı adlandırırdılar. Bu gün də onun dramaturgiyası teatrın repertuarının əsasını təşkil edir.

Kiçik teatrın səhnəsində öz oyunu ilə tamaşaçıları heyran qoyan, vətənə məhəbbət, zorakılığa qarşı etiraz oyadan böyük aktrisa Mariya Nikolayevna Yermolova (1853-1928) parlamışdır. Ona ən çox Ostrovski, Şiller və Şeksprin yaradıcılığı yaxın idi. Şekspir və Ostrovskinin hər birinin əsərlərindən M.Yermolova 19 rol oynamışdır.

M.İ.Qlinkanın əsasını qoyduğu rus milli musiqi məktəbi sürətlə inkişaf etmişdir. Rus bəstəkarları xalq mahnılarına əsaslanan rus musiqi yaradıcılığını daha da genişləndirmişdir. Rus musiqisi geniş miqyas alaraq bütün dünyada yayılmışdır. 1860-cı illərin əvvəllərində rus bəstəkarlarının «Qüdrətli dəstə» («Могучая кучка») adını almış yaradıcı birliyi əmələ gəlmişdir. Bu dəstəyə bəstəkarlar M.P.Musorqski, A.P.Borodin, N.A.Rimski-Korsakov, S.A.Küi daxil idi. Bu sənətkarlar üçün xalq mövzusu, xalqın taleyi və əzəmətli mübarizəsi yaradıcılıqlarının mərkəzi mövzuları olmuşdur. A.P.Borodinin «Knyaz İqor», N.A.Rimski-Korsakovun «May gecəsi», M.P.Musorqskinin «Boris Qodunov», «Xovanşina» operaları buna misaldır.

Böyük bəstəkar Pyotr İliç Çaykovskinin (1840-1893) «Yevgeni Onegin» operası, «Sonalar gölü» («Лебединое озеро»), «Yatmış gözəl» («Спящая красавица»), «Şelkunçik» baletləri rus musiqi incəsənətinin zirvəsidir. P.Çaykovski insanların sevinc və iztirablarını, xalqın həyat və məişətini musiqi incəsənəti vasitəsilə tərənnüm etmişdir. P.Çaykovskinin əsərləri dünyanın bütün ölkələrində şöhrət qazanmışdır.

XIX əsrin ikinci yarısı memarlığın inkişafı ilə diqqəti cəlb edir. Əvvəllər memarlar əyanların, çar ailəsindən olanların sifarişlərini yerinə yetirərək

dəbdəbəli saraylar, dövlət idarələri üçün monumental binalar, məbədlər inşa edirdilər. Zamanla tələbata uyğun dəmiryol vağzalları, mağazalar, işgüzar ofislər inşa edilməyə başlanmışdır. Yalnız Transsibir dəmiryolu qısa zamanda onlarla dəmiryol vağzalı, yüzlərlə körpü tikməyi nəzərdə tuturdu.

Kapitalizmin tələbatına uyğun olaraq binalar rahat, funksional və yaraşıqlı olmalı idi. Eyni zamanda qısa bir vaxtda və iqtisadi qənaətli tikmək vacib idi. İctimai əhəmiyyət kəsb edən binaların tikintisi sürətlə artmağa başladı.

1893-cü ildə arxitektor A.N.Pomerantsevin Moskvada iri ticarət mərkəzinin – Yuxarı ticarət sırasının (hazırda ГУМ) tikintisini başa çatdırmışdır. O zaman bu bənzəri olmayan nəhəng ticarət binası idi. Binanın dam örtüyü mühəndis V.Q.Şuxov tərəfindən layihələşdirilən nəhəng şüşədən ibarət idi ki, bu da müasirlərini heyran qoymuşdur. Bina Qızıl meydanın ümumi ansamblına uyğun olaraq onun bir hissəsinə çevrilmişdi. Belə ticarət mərkəzləri XIX əsrin ikinci yarısında Rusiyanın bir çox şəhərlərində meydana gəlsə də, həcminə görə Moskvadakından geri qalırdı.

Qızıl meydandakı Yuxarı ticarət sırasının inşasından xeyli əvvəl 1881-ci ildə arxitektor V.O.Şervudun iştirakı ilə geniş Tarix muzeyi binası tikilmişdir. 1883-cü ildə əhali üçün açılan muzey dünyadakı ən iri binalardan biri olmuşdur. V.Şervud, eyni zamanda 1887-ci ildə Plevnının alınması qəhrəmanlarına həsr edilmiş Moskvanın İlinskilər darvazaları önündəki gözətçi abidəsinin müəllifidir. Bu vətən yolunda həlak olmuş qəhərmanların şərəfinə ucaldılmış ən böyük abidə idi. Səkkizqülləli çuqun gözətçi abidəsini pravoslav xaçı tamamlayır.

Heykəltəraş Mixail Osipoviç Mikeşin (1835-1896) 1862-ci ildə Novqorodda «Rusiyanın minilliyi» («Тысячелетие России») abidəsinin müəllifidir. Müəllif 1888-ci ildə isə Kiyevdə Boqdan Xmelnitskinin abidəsini ucaltmışdır.

Rus heykəltəraşı Aleksandr Mixayloviç Opekuşin (1838-1923) tarixiliyi və poetikliyi ilə fərqlənən Moskvada 1880-ci ildə A.S.Puşkinin, 1889-cu ilə Pyatiqorskda M.Y.Lermontovun abidələrini yaratmışdır.

XIX əsrin ikinci yarısında heykəltəraşlıq incəsənətinin inkişafında Mark Matveyeviç Antokolski (1842-1902) xüsusi yerə sahibdir. O Vilno (Vilnüs) şəhərində yoxsul yəhudi ailəsində anadan olmuşdur. 1862-ci ildə Peterburq Bədii Akademiyasına daxil olan M.Antokolski İ.Y.Repinlə yaxınlaşmışdır ki, bu onun yaradıcılığında dərin iz qoymuşdur. 1871-ci ildə heykəltəraşın akademiyada «İoanna Qroznova» əsəri nümayiş etdirildikdən sonra o çox məşhurlaşmışdır. Bir çox ölkələrdə sərgilər təşkil edən müəllif 1878-ci ildə Parisdəki ümumdünya sərgisində qızıl medala layiq görülmüşdür. Dahi sənətkarlıq heykəltəraşlıq kompozisiyaları içərisində «İsa xalq qarşısında» («Исус перед народом»), «Yaroslav Mudrı», «Salnaməçi Nestor» («Нестор лето-

писец»), «Ölməkdə olan Sokrat» («Умирающий Сократ»), «Spinoza» və b. xüsusi yer tutur.

XIX əsrin sonlarında rus memarlığında modern üslub önə çıxmışdır. Modernist arxitektorlar öz layihələrində ayrı-ayrı xalqların mədəniyyətindən əxz edilmiş müxtəlif memarlıq formalarını bir-biri ilə əvəz edirdilər. Odur ki, Peterburq və Moskvada bir çox qəribə binalar meydana gəlmişdi. Şimal modern üslubunda çalışan arxitektor F.İ.Lidval Peterburqda bir çox gözəl tikintilərə imza atmışdır. Onun xüsusilə Peterburqun Kamennoostrov prospektində inşa etdiyi Lidvaley mədaxil evi insanları heyran etmişdir.

1894-1899-cu illərdə Moskvanın Vozdvijensk küçəsində memar V.M.Mazırin «mavritan» üslubunda təmtəraqlı interyeri olan Arsen Morozovun evini tikmişdir.

Tətbiqi sənət sahəsində rus milli üsubunun inkişafında çox iş görmüş rəssam S.V.Malyutin 1890-cı ildə yapon adası Xonsyudakı yapon oyuncağına bənzər yeni ağac kuklası hazırlamaq ideyasını irəli sürmüşdür. S.Malyutin iç-içə qablaşdırılan oyuncağın eskizini hazırladı və beləliklə, bütün dünyada məşhur olan matruyoşka – kəndli qadın paltarında oyuncaq meydana çıxmışdır. S.V.Malyutinin eskizi əsasında birinci rus səkkizyerli matryoşkanı Sergiyev Posaddan olan mahir oyuncaq ustası V.Zvezdoçkin hazırlamışdır.

Rus mədəniyyətinin «qızıl əsri»ni yaradan böyük dahilərlə yanaşı, bu işdə xidməti olan yüzlərlə istedadlı adamı, təşkilatçını, işçini və yaradıcını yaddan çıxarmaq mümkün deyil. Məhz onların əməyi sayəsində rus mədəniyyətinin əsası elmi müəssisələr, ali məktəblər, laboratoriyalar, xəstəxanalar, kitab evləri, teatr, qəzet, jurnallar şəklində müəyyən edilmişdir.

Mədəniyyətin yüksəlişi rus ziyalılarının xalqına xidmət etmək məqsədi sayəsində rus millətinin mənəvi dirçəlişi ilə müşayiət olunurdu. Düzdür, Rusiya əhalisinin böyük əksəriyyəti ölkənin mədəni sərvətlərindən tam istifadə edə bilmirdi. XIX əsrin sonunda Rusiya əhalisinin ¾ hissəsi savadsız olaraq qalırdı.

Sənayenin yüksək sürətinə, iqtisadi inkişafa baxmayaraq, Rusiya «qovub çatan» («догоняющей») ölkə olaraq dünyanın müasirləşmiş prosesinə cəlb olunan dövlətlər içərisində «ikinci eşalona» («второму эшелону») aid edilirdi. Birincisi, ABŞ, Almaniya, İngiltərə, Fransa, İtaliya və Yaponiya kimi ölkələr də sürətlə inkişaf edirdi. İkincisi, Rusiya geri qalmış kənd təsərrüfatı ilə aqrar ölkə olaraq inkişafı ləngidirdi. Üçüncüsü, siyasi sistemin geri qalması, dövlətin zor tətbiq etməsi və bürokratiya əhalinin tam gücü ilə enerji və təşəbbüskarlığını reallaşdırmağa imkan vermirdi.

# XV FƏSİL
# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ RUSİYA İMPERİYASININ BÖHRANI

## §1. Yeni əsrin astanasında

1894-cü ili Rusiya tarixində dönüş ili adlandırmaq olar. Məhz bu ildə baş vermiş mühüm hadisə – imperator III Aleksandrın ölümü və sonuncu Rusiya hökmdarının hakimiyyətə başlaması ilə əlaqədardır. 1894-cü il oktyabrın 20-si saat $14^{07}$-də imperator III Aleksandr böyrək xəstəliyindən vəfat etdi.

Qanun və adət-ənənəyə uyğun olaraq 1894-cü il oktyabrın 20-də vəfat etmiş imperatorun 26 yaşlı böyük oğlu Nikolay Aleksandroviç II Nikolay adı ilə Rusiya taxtına çıxdı. II Nikolay atası kimi belə düşünürdü ki, Rusiya dövlətinin əsası olan mütləqiyyət müstəqil və tamhüquqlu idarəçilik mərkəzidir və bu prinsip dəyişdirilə bilməz. II Nikolayın hakimiyyətinin birinci günlərindən başlayaraq onun ünvanına əhalinin təbəəlik hisslərini ifadə edən məktub və teleqram axını gəlmişdir ki, onun da bəzilərində ictimai dairələrin nümayəndələrinin siyasi qərarların alınması işinə cəlb edilməsi arzusu ifadə olunmuşdur. Bu xüsusilə yerli özünüidarəçilk orqanları içərisində liberal baxışları ilə seçilən Tver zemstvosunun müraciətində açıq ifadə edilmişdi.

Hakimiyyətə başladıqdan üç ay sonra yeni imperator belə təşəbbüslərə son qoymağa qərar vermişdi. 1895-ci il yanvarın 17-də Qış sarayındakı zemstvo və şəhər nümayəndələri qarşısındakı çıxışında qeyd etmişdir ki, bəzi zemstvo yığıncağı iştirakçıları nümayəndələrinin daxili idarəçilikdə iştirakını arzu edir, lakin onlar bilməlidir ki, mən bütün gücümü xalqın səadətinə həsr edərək mütləqiyyətin əsasını unudulmaz valideynimin qoruduğu kimi möhkəm və ardıcıl hifz edəcəm. Bu nitq Rusiyada güclü əks-səda doğurmuşdu. Bir qrup insan bunu hökmdarın möhkəm iradəsi olaraq qəbul etdiyi halda, digərləri narazılıqlarını, hətta həyəcanlarını belə ifadə etmişdir. Əlbəttə, ali hakimiyyəti açıq tənqid etmək məqsədilə heç bir yol olmadığı üçün yalnız kiçik qrup içərisində, şəxsi söhbətlərdə insanlar öz narazılıqlarını dilə gətirə bilərdilər və gətirirdilər də. Varlı evlərin qonaq otaqları, əsilzadə salonları, bahalı restoran və meyxanaların xüsusi zalları qızğın müzakirələrin mərkəzinə çevrilmişdi. Burada belə bir fikir formalaşmışdı ki, qədim zamanlardan Rusiyada ictimai fikirlə razılaşırdılar. Belə bir mövqe yeni imperatorun xeyrinə

olmayıb XX əsrin əvvəllərində monarxa qarşı liberal ideyaların meydana çıxmasına şərait yaratmışdı. Onlar Rusiyada Qərbi Avropa dövlətlərində mövcud olan konstitusiya qaydasının təsbit edilməsini istəyirdilər ki, əhali parlament seçkilərində iştirak etmək imkanı əldə etsin. Orada qanunvericilik əsasında söz, yığıncaq, mətbuat və ittifaq azadlığı bəyan edilmişdi ki, XIX əsrin sonunda bunların heç biri Rusiyada mövcud deyildi.

Lakin rus mühafizəkarları, o cümlədən sonuncu çar bunların olmamasını Rusiya üçün faciə hesab etmirdi. Onlar əmin idi ki, geniş demokratik azadlıqlar mərkəzi hakimiyyətin zəifləməsinə, bu isə öz növbəsində dövlətin əsasının dağılmasına gətirib çıxarar. Rus həyatına azadlıq, özünüidarə və demokratiyanın başlanğıcını daxil etmiş II Nikolayın islahatçı babası II Aleksandr haqqında xatirələr hələ çox təzə idi. Bütün bunlar ölkədə həyəcana və nəticədə monarxın öldürülməsinə səbəb olmuşdu. III Aleksandr hakimiyyətə gəldikdən sonra ölkədə sərt qayda-qanun tətbiq edərək qarışıqlığa son vermişdir. Bunun şəxsən şahidi olmuş yeni imperator da hesab edirdi ki, məhz belə ənənəvi yolla Rusiya davam etməlidir.

Dəfələrlə xarici ölkələrdə səfərdə olmuş yeni hökmdar İngiltərədə, Fransada baş verən yeniliklər və qayda-qanundan xəbərdar idi. O əmin idi ki, İngiltərə üçün yaxşı olanı kor-koranə Rusiyaya tətbiq etmək olmaz. Çünki Rusiyanın öz adət-ənənəsi və həyat tərzi, qanunları mövcuddur. Rus cəmiyyətinin qaranlıq cəhətləri, nöqsanlarına da bələd olan çar düşünürdü ki, bunları Qərbdən nümunə əsasında deyil, rus təcrübəsini nəzərə alaraq tədricən, tələsmədən aradan qaldırmaq məqsədəuyğundur.

Taxta çıxan II Nikolay liberal təsəvvürlərin əleyhinə olaraq belə düşünürdü ki, Qərbi Avropadan fərqli olaraq Rusiyada əsl ictimai rəy mövcud deyildir. Onun əvəzinə yalnız salon boşboğazlığı və liberal manilovçuluq vardır. Faciəvi hadisələrin təsiri altında 1905-ci ilin oktyabrında çar dövlət quruluşu sistemində böyük dəyişikliyə addım atdıqdan sonra belə daxilində adət-ənənəyə sadiq olaraq qalmışdı.

Sonuncu çarın hakimiyyət illərinin ilk bir neçə ili 1896-cı ildəki tacqoyma münasibətilə təşkil edilmiş Xodın təntənəsində basa-bas nəticəsində yüzlərlə adamın həlak olması fəlakəti istisna olmaqla, demək olar ki, sakit keçmişdir. Onun hakimiyyətinin böyük hissəsi isə sarsıntı, qarışıqlıq və müharibələrlə müşayiət olunmuşdur. Müxtəlif səbəblərdən cəmiyyətin yeni və yeni dairələrin narazılıq əhatə etməkdə davam edərək imperiyanın sonunda demək olar ki, ölkənin bütün siyasi şüurlu əhalisini əhatə etmişdir. Rusiyanı lazım olan qaydada idarə etmirlər inamı get-gedə bütün əhalini əhatə etməkdə idi. Çoxları siyasi dəyişiklik tərəfdarı idi, lakin onun xarakteri fərqli mahiyyət daşımışdır.

II Nikolay taxta çıxdığı ilk gündən həyatının son saatlarına kimi hələ uşaqlıq yaşlarından Rusiyaya bəslədiyi səadət və firavanlığı davam etdirmişdir. Rusiyanın keçmişinə və dövlət quruluşu prinsipinə danışıqsız hörmət və pərəstiş ruhunda tərbiyə edilən çar əmin idi ki, imperator hakimiyyəti ölkə üçün səadətdir və monarxın tarixi vəzifəsi öz iradə və hisslərinə söykənərək Tanrının xeyir-duası ilə təbəələrinin firavanlığı üçün çalışmaqdan ibarətdir.

Çar nümunəvi ər və ata olaraq öz nigahını böyük xoşbəxtlik sayırdı. Atasının dəfn mərasimindən sonra 1897-ci il noyabrın 14-də Nikolay Aleksandroviç həyatını Gessen şəhzadəsi, pravoslavlığı qəbul edərək Aleksandra Fodorovna adını almış Alisa ilə birləşdirmişdir. Alisa-Aleksandra ingilis kraliçası Viktoriyanın nəvəsi – Gessen hersoqu IV Lüdviq və onun arvadı ingilis şahzadəsi Alisanın qızı idi. O, 1872-ci ildə hersoqluğun paytaxtı Darmştatda anadan olmuşdu. Rus və ingilis-alman şahzadələri bir-birini sevib evləndikdən sonra onların dörd qızı, 1904-cü il iyulun 30-da taxtın varisi oğlu Aleksey dünyaya gəlmişdir.

Çox səliqəli, hətta pedant bir şəxs olan sonuncu imperator öz vəzifələrini diqqət və çox dəqiqliklə yerinə yetirirdi. Ən ağır anlarda belə özünü taqətdən salmayaraq hökmdar üçün nəzərdə tutulmuş gündəlik iş rejiminə əməl edirdi. Yalnız şəxsi nasazlıq, ailə üzvlərinin ciddi xəstəliyi və başqa xoşagəlməz hadisələr II Nikolayı nazirləri qəbul etməyi, növbəti sənədlərlə tanış olmağı və yaxud təyin edilmiş görüşü təxirə salmağa məcbur edə bilərdi.

Geyimində və yeməkdə tələbkar olmayan imperator dəbdəbə və rahatlıqdan uzaq idi. Gündəlik nəzərdə tutulan rejimə əməl edən çar eyni saatda yatıb, eyni vaxtda duraraq piyada xeyli gəzdikdən sonra üzmək, tennis və bilyard oynamağı, ov etməyi xoşlayırdı. Siqarət çəkməyinə, içki qəbul etməsinə baxmayaraq, ömrünün sonuna kimi fiziki cəhətdən möhkəm olan çar yalnız 1900-cü ilin sonunda bir dəfə ciddi qarın yatalağından xəstələnmişdi.

Uşaqlıq illərində yeddi yaşından başlayaraq ciddi və səylə müxtəlif fənləri öyrənən gələcək imperator müəllimlərinin qeyd etdiyi kimi, müxtəlif sahələrdə yaxşı biliyə malik olub alman, fransız, ingilis dillərini sərbəst bilirdi. Gəncliyində şəkil çəkir, fortepiano və skripkada ifa edə bilirdi.

Dövlət başçısı kimi böyük səlahiyyətləri olan II Nikolay imperiyada qayda-qanun keşiyini çəkməyə borclu idi. Siyasi görüşlərindəki mühafizəkarlıq o demək deyildi ki, monarx hər şeydə yenilik və islahatın əleyhinə olmuşdur. Əgər o əmin olsa idi ki, bu və yaxud başqa yenilik dövlətin möhkəmlənməsinə, onun nüfuzunun artmasına xidmət edir çar onu müdafiə etməyə hazır idi. İmperator Rusiya cəmiyyətinin müxtəlif sahələrinin dəyişdirilməsinə tələbat olduğunu gördüyü halda belə hesab edirdi ki, Rusiya dövlətinin mövcud

olmasının əsas və ayrılmaz prinsipi mütləqiyyətdir. Mütləqiyyət və Rusiya ona görə ayrılmazdır. Əhalinin ümumrusiya siyahıyaalınması sorğu vərəqəsinin məşğuliyyət növü bəndinin cavabında II Nikolay yazmışdır: «Rusiya torpağının sahibi» («Хозяин земли Русской»). Bu dünyagörüşü prinsipinə sitayiş edən sonuncu çarı heç bir siyasi qasırğa tərəddüdə salmamışdır.

XIX-XX əsrin hüdudunda 1892-ci ildən Yollar Rabitə Nazirliyinin başçısı, 1892-1903-cü illərdə maliyyə naziri, 1903-1906-cı illərdə Nazirlər Komitəsinin sədri, 1905-1906-cı illərdə Nazirlər Şurasının birinci başçısı Sergey Yulyeviç Vittenin (1849-1915) fəaliyyəti ölkənin daxili və xarici siyasətində çoxtərəfli olmuşdur. O, 1849-cu il iyunun 17-də Tiflisdə çox da varlı olmayan zadəgan ailəsində doğulmuşdur. Atası Yuli Fyodoroviç Qafqaz canişininin dəftərxanasında çalışırdı. Anası Y.A.Fadeyeva məşhur knyaz Dolqorukilərin qohumu idi. S.Y.Vitte ekstern yolu ilə imtahan verərək Novorossiya Universitetinin (Odessa) fizika-riyaziyyat fakültəsinə daxil olmuş, 1869-cu ildən Odessa general-qubernatorluğunun dəftərxanasında dəmiryol hərəkətinin qeydiyyatı işinə başlamışdır. Tezliklə gənc universitet məzunu Cənub-Qərb Dəmiryol Cəmiyyətində istismar rəisi təyin edilmişdir. 1888-ci ildə çar ailəsi və yaxınlarının narazılığına baxmayaraq, ağır çar qatarlarının sürətli hərəkətinin təhlükəli olduğunu bildirərək III Aleksandrın diqqətini cəlb etmişdir. 1888-ci il oktyabrın 17-də Xarkov yaxınlığındakı Borkidə onlarla adamın ölümünə səbəb olmuş imperator qatarının qəzasından sonra III Aleksandrın göstərişindən sonra S.Y.Vitte Maliyyə Nazirliyinin Dəmiryol Departamentinin direktoru təyin olunmuşdur. 1892-ci ilin fevralından yollar naziri, avqust ayından isə maliyyə naziri təyin olunmuşdur. XIX əsrin sonunda on bir bölməsi olan Maliyyə Nazirliyinə Dövlət Bankı, Zadəgan Torpaq Bankı, Kəndli Topraq İşi Bankı, Sikkə evi daxil idi. Təkcə mərkəzi aparatda min nəfərdən çox məmuru olan Maliyyə Nazirliyinin böyük ölkələrdə çoxlu rəsmi nümayəndələri var idi. 1903-cü il avqust ayına kimi 11 il ərzində bu mühüm vəzifəyə sahib olmuş S.Y.Vitte bir çox mühüm iqtisadi islahata imza atmışdır. 1894-cü ildə Dövlət Şərab İnhisarı təşkil olunmuş, böyük Sibir dəmiryol tikintisinə başlanılmış, 1894 və 1904-cü illərdə Almaniya ilə gömrük müqavilələri imzalanmış, texniki və sənət məktəblərinin şəbəkəsi genişləndirilmişdir. S.Vittenin iqtisadi proqramında 90-cı illərin ortalarından qızıl rublun dövriyyəyə buraxılması əsas yer tutmuşdur.

XIX əsrin ortalarından əsas pul vahidi qəbul edilmiş kağız rubl dövriyyədə olan qızıl, gümüş, mis pullarla müqayisədə dəyərini itirərək iqtisadi inkişafı ləngidirdi. XIX əsrin 80-ci illərinin sonunda kağız rublun dəyəri qızılla 64,3 qəpik idi. S.Vitte vəziyyəti düzəltmək məqsədilə kağız pulları möhkəm kursla qızılla əvəz etmək üçün fəaliyyətə başladı.

1886-cı ildə dövlət xəzinəsi qızıl sikkələrin yeni nümunələrinin «15 rubl» imperial və «7 rubl 50 qəpik» yarım imperial qızıl pullarını hazırlamışdır. 1897-ci il yanvarın 3-də rəsmi dövlət fərmanı ilə 15 rubl dəyərində imperial və 7 rubl 50 qəpik dəyərində yarımimperial qızıl pulların dövriyyəyə buraxılması elan edilmişdir. Avqustun 29-da kredit biletlərinin emissiyası, noyabrın 14-də isə imperialın 1/3 dəyərində olan 5 rublluq qızıl sikkələrin zərb edilməsinə dair qərarlar elan olunmuşdur. Eyni gündə dövlətin Dövlət Bankı simasında kredit biletlərinin üzərində qızılla dəyişməsi öhdəliyi yazılmaq şərtilə biletlərin hazırlanmasına dair fərman çıxmışdır. Rubl Rusiyanın dövlət pul vahidi oldu. Qızıl sikkələri xəzinəyə məxsus və yaxud xüsusi şəxslərə aid qızıl külçəsindən hazırlamaq olardı. Qızıl sikkələrlə bütün ödəmələrdə qeyri-məhdud qiymətdə istifadə etmək olardı. Gümüş və mis sikkələr isə köməkçi vasitə olub 25 rubl kimi ödəmələrdə istifadə edilə bilərdi.

XX əsrin əvvəllərində ölkədə əsas pul vahidi olan 900 əyarlı 15 rubl (imperial), 10 rubl, 7 rubl 50 qəpik və 5 rubl dəyərində sikkələr mövcud olmuşdur. Köməkçi ödəmə vasitələri olan gümüş və mis sikkələr işləyirdi. Dövlət Bankının kağız banknotları yalnız dəyəri qızılla təmin edilmək şərti ilə çap edilə bilərdi. Dövlət Bankı kredit biletlərini qeyri-məhdud qiymətdə qızıl pula dəyişirdi. Kredit biletləri 500, 100, 25, 10 rublluq, o cümlədən 5, 3 və 1 rubl dəyərində dövriyyəyə buraxılmışdır.

Qızıl valyutanın dövriyyəyə buraxılması dövlətin maliyyə vəziyyətini sabitləşdirmiş, iqtisadi inkişafın stimuluna çevrilmişdir. Məsələn, 1903-cü ildə Rusiyada fəaliyyət göstərmiş 1292 aksioner kompaniyasının 794-ü 1892-1902-ci illər arasında yaradılmış, 241 xarici kompaniyanın 205-i məhz bu dövrdə meydana gəlmişdir. 90-cı illərdə hər il Rusiyada orta hesabla 2,5 min verst yeni dəmiryolu çəkilmişdir. XIX əsrin sonlarında Rusiya sənaye inkişafının sürətinə görə qabaqcıl Avropa dövlətlərinin hamısını ötüb keçmişdir.

Lakin əsrin hüdudunda dünyada vəziyyət kəskin dəyişilmişdir. 1900-cü ilin əvvəllərində dünya iqtisadiyyatını bürümüş iqtisadi böhran metallurgiya, ağır maşınqayırma, mineral xammal emalı sahələrinin böhranını kəskinləşdirmişdir. Xarici firmalar bir-birinin ardınca müflisləşmişdir. Rusiyanın işgüzar dairələrini ağır və çıxılmaz vəziyyət əhatə etmiş, aparıcı sənaye və maliyyə qrupları iflas olmuşdur. P.P.fon Derviz, S.İ.Mamontov, A.K.Alçyevsk buna misaldır. Bu maliyyə nazirinin siyasətinə qarşı əleyhdarları daha da fəallaşdırmışdır. Onlar maliyyə nazirinin siyasətini «avantüra» adlandırsa da, bu heç nəyi dəyişmədi. Qızıl valyuta fakt olaraq rus-yapon müharibəsi zamanı və onun ardınca olan sosial həyəcanlar vaxtı Rusiyanı maliyyə iflasından yan keçməyə kömək etmişdir.

1897-ci ildə Rusiyada əhalinin birinci dəfə ümumi siyahıyaalınma kampaniyası təşkil edilmişdir. Bunu ölkənin iqtisadi inkişafı tələb edirdi. İşin bilavasitə təşkilatçıları isə Peterburq Universitetinin statistika kafedrasında çalışan iqtisadçı-statistiklər, Peterburq və Moskva şəhər idarələrinin statistika komissiyalarının üzvləri olmuşdur.

II Nikolay 1895-ci il iyunun 5-də əhalinin ümumi siyahıyaalınmasına dair Əsasnaməni təsdiq etmişdir. Qanunda siyahıyaalınmanın birgünlük, ümumxalq və dövri olaraq keçirilməsi qaydası təsbit edilmişdir. Siyahıyaalınma 1897-ci il yanvarın 28-də keçirilmiş, sorğu vərəqinə 10-dan çox sual daxil edilmişdir. Rusiya əhalisinin ümumsiyahıyaalınmasının yekununa əsasən, ölkədə Finlandiya nəzərə alınmadan 125 680 682 nəfər adam yaşayırdı. Şəhərlərdə 16 785 212 nəfər yəni, əhalinin 13%-i yerləşmişdi. Ölkədə yüz min nəfərdən çox əhalisi olan 19 mərkəz mövcud idi. Peterburqda 1 267 023 nəfər, Moskvada 1 035 664 nəfər əhali məskunlaşmışdı.

Əhalinin silki əlamət üzrə bölgüsü aşağıdakı kimi olmuşdur: 1 220 669 nəfər nəsli zadəganlar, 588 947 nəfər xristian dinindən olan ruhani rütbəli şəxslər ailələri ilə birlikdə, 342 927 nəfər nəsli və şəxsi fəxri vətəndaşlar, 281 179 nəfər tacirlər və ailələri, 13 386 392 meşşanlar, 99 825 486 nəfər kəndlilər idi. Yerdə qalanlar xaricilər və silki mənsubiyyəti qeyd edilməmiş şəxslər idi. Peterburq və Moskva fəhlələri arasında demək olar ki, bütün silklərin nümayəndələri təmsil edilmişdir. 1894-cü ildə imperiyada 1,5 mln. nəfər fəhlə mövcud olmuşdur ki, bu da əhalinin 1,2%-ni təşkil edirdi. 20 ildən sonra ölkənin fabrik və zavodlarındakı fəhlələrin sayı 4 mln. nəfəri ötüb keçmişdi. Bunlar muzdlu əməklə məşğul olan peşəkar fəhlələr idi. Bu qrupu təyin etmək məqsədilə, eyni zamanda «proletariat» (lat. «беднейший» – «kasıb») adlandırırlar.

Əhalinin daha böyük bir hissəsini «mövsümi işçilər» təşkil etmişdir. Onlar kəndlərdə şəxsi təsərrüfatları olan, payız aylarında əlavə qazanc üçün şəhərlərə üz tutan kəndlilərdən ibarət idi. «Mövsümçü» adlandırılan bu qrup qısa vaxt ərzində aşağı əməkhaqqı müqabilində əlavə işlərdə çalışırdı.

Rusiyadakı fabrik və zavodların texniki cəhətdən aşağı səviyyədə təchizatı, mərkəzi rayonlardakı əhali artıqlığı sayəsində ucuz fəhlə qüvvəsinin olması sahibkarlarda iş gününü azaldıb əməkhaqqını artırmağa maraq yaratmışdı. Baxmayaraq ki, XIX əsrin sonunda ölkənin ayrı-ayrı müəssisələrində tibbi və sosial təminat sistemi mövcud idi, ümumən isə fəhlələrin həyat səviyyəsi Qərbi Avropa ölkərindəkindən geri qalırdı.

Düzdür, hələ 1741-ci ildə Rusiyada sənaye müəssisələrində iş qaydalarının nizama salınmasına dair ilk qanun qəbul edilmişdi. 1882-ci ildə 12 yaşına

çatmamış uşaqlara istehsalatda çalışmaq qadağan edilir, 12-15 yaş arasındakılar üçün isə 8 saatlıq iş rejimi təsbit olunmuşdu. 1885-ci ildə isə 17 yaşına çatmamış yeniyetmələrə və qadınlara gecə işlərində çalışmaq qadağan olunmuşdu. 1903-cü ildə qəbul edilən qanuna əsasən müəssisə başçısı hər bir bədbəxt hadisəyə görə fəhlələrə pul vəsaiti ayırmalı, istehsalatda həyatını itirmiş fəhlələrin ailələrinə təqaüd təyin etməli idi. 1906-cı ildə dövlət fəhlə və qulluqçuların azad həmkarlar ittifaqı təşkilatının fəaliyyətinə icazə verdi. 1912-ci ildə fəhlələrin pulsuz tibbi yardım almasına dair sığorta haqqında qanun qəbul olunmuşdur.

XIX əsrin 80-ci illərinin əvvəllərində Rusiya imperiyasının müxtəlif sənaye müəssisələrində iş günü 11-12 saat, 90-cı illərin ortalarında 10-11 saat, 1913-cü ilə doğru isə 9-10 saat təşkil etmişdir. XX əsrin əvvəllərində dünyanın inkişaf etmiş sənaye ölkələrində iş günü demək olar ki, Rusiya ilə müqayisədə 1 saat az olmuşdur. XX əsrin əvvəllərində Rusiya imperiyasının müxtəlif rayonlarında çalışan qara fəhlələrin əməkhaqqı ayda 17 rubldan başlayaraq ixtisaslı fəhlələrin aldığı 70 rubla kimi dəyişirdi. Birinci Dünya müharibəsi ərəfəsində, 1914-cü ildə Rusiyadakı orta əməkhaqqı minimum 22, maksimum 80 rubl olmuşdur.

Təhkimçilik hüququ ləğv edildikdən sonra bir sıra toxuculuq müəssisələrində həyəcanlar başladı. Fəhlələr sahibkarlardan hazır məhsulun qiymətini artırmağı, cərimələri ləğv etməyi, istehsalatda xəsarət alanlara yardım etməyi tələb etməyə başladılar. Bunların arasında təqribən 8 min nəfəri əhatə edən Morozov tətili miqyasına görə xüsusi yer tutur. Vladimir quberniyasının Orexova kəndi yaxınlığındakı Nikolsk adlı yerdə (Orexovo-Zuyevo şəhəri) Savva Morozovun Nikolsk Yoldaşlıq Manufakturasında 1885-ci il yanvarın 7-də fəhlələr açıq çıxışa başlayaraq cərimələrin ləğv edilməsini, tariflərin artırılmasını tələb etdilər. Bir ildən sonra Morozov tətilinin fəal iştirakçıları məhkəmə qarşısına çıxarıldı. Onlara qarşı 101 maddədən ittiham irəli sürüldü. Məhkəmə iştirakçılarının çıxışları, qəzetlərdəki izahatlar manufaktura sahibinin özbaşınalığını, fəhlələrin hüquqsuzluğunu təsbit etdi. Andlılar məhkəməsinin kollegiyası ittihamçılara bütün maddələr üzrə bəraət verdi. Fəhlə məsələsi ciddi sosial problemlər sırasında önə yerləşməyə başladı.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Rusiyada ən böyük iqtisadi layihələrdən biri olan, bütün Sibirdən keçən dəmiryol tikintisinə başlanmışdır. Rusiyanın iqtisadi inkişafı Uralın o biri tərəfində yerləşən ucsuz-bucaqsız Şərq rayonlarını daxili Rusiya təsərrüfat sisteminə qatmağı tələb edirdi. Təbii ehtiyatlarla zəngin olan Sibirin cənub rayonları kənd təsərrüfatının inkişafı üçün əlverişli iqlim şəraitinə malik idi. Lakin Sibirin əhalisi azsaylı olduğu üçün

kənd təsərrüfatı istehsalı yalnız yerli tələbatı təmin edirdi. Yeraltı sərvətlərin emalı son dərəcə zəif inkişaf etmişdi. Etibarlı nəqliyyat əlaqəsinin olmaması, su yolu və araba, xizəklə daşınan mallar gec və baha başa gəlirdi. Sibirdə hərəkət etməyin ən tez və iqtisadi cəhətdən əlverişli vasitəsi məhz dəmiryolu idi. Odur ki, İrkutsk general qubernatorunun dəmiyol tikintisindən bəhs edən müraciətinə imperator III Aleksandr müsbət dərkənar qoymuşdur. 1887-ci ildən başlayan axtarış işlərindən sonra 1891-ci ildə qərar qəbul olundu ki, tam dəmiryol magistralı inşa edilsin. Dəmiryolunun Çelyabinskdən başlayıb Uraldan keçməklə Uzaq Şərq limanı Vladivostoka kimi uzanmağı planlaşdırılmışdı. Dəmiryolunun uzunluğu təqribən 9 min kilometr nəzərdə tutulmuşdur ki, bu da dünyada ən uzun dəmiryol magistralı demək idi. İşlərə şahzadə Nikolayın başçılıq etdiyi Sibir Dəmiryol Komitəsi nəzarət edirdi. 1891-ci ilin mayında taxtın varisi Vladivostokda Transsibir magistralının əsasının daşını qoydu.

Əvvəldən nəzərdə tutulmuşdu ki, dəmiryolu dövlət xəzinəsi vəsaiti hesabına əsasən rus fəhlə və texniklərinin iştirakı ilə inşa edilməlidir. Ümumən dəmiryolunun çəkilməsinə Rusiya milyard qızıl rubldan çox vəsait sərf etmişdir ki, bu da nəzərdə tutulduğundan üç dəfə çox idi. İki tərəfdən – Ural və Vladivostokdan çəkilən dəmiryolu bir neçə mərhələdən ibarət olub dünya təcrübəsində bənzəri olmayan mürəkkəb texniki işləri həll etmişdir. 1894-cü ildə yol Omska, 1898-ci ildə isə İrkutska çatmışdır. Qatarların müntəzəm birbaşa hərəkəti 1903-cü ildə başlamışdır. Dəmiryolunun çəkilişinə rus mühəndisləri, o cümlədən Qərbi Sibir sahəsinə K.Y.Mixaylovski, Orta Sibir sahəsinə N.P.Mejininov, Cənubi Baykal sahəsinə A.N.Puşeçnikov, Ussuriysk sahəsinə O.P.Vyazemsk başçılıq etmişdir.

1900-cü ildə Parisdə təşkil edilmiş Ümumdünya sərgisində Sibir Dəmiryol Komitəsi «Qran pri» mükafatını almışdır. Transsibir dəmiryolu ilə 1897-ci ildə 350 min, 1902-ci ildə 1,3 mln., 1908-ci ildə 4,8 mln., 1910-cu ildə isə 9,5 mln. sərnişin daşınmışdır.

Rusiya hökuməti Transsibir dəmiryoluna yalnız Sibirin təsərrüfat baxımından mənimsənilməsi vasitəsi kimi deyil, həm də Şimali Çində strateji mövqeyini möhkəmləndirmək xətti kimi baxırdı.

## §2. XIX-XX əsrlərin hüdudunda Rusiya dünya meydanında. Rus-yapon müharibəsi

II Nikolayın 1899-cu ilin əvvəlində İngiltərənin kraliçası Viktoriyaya yazdığı məktubdan məlum olur ki, Rusiyanın xarici siyasətində Uzaq Şərq regionu və uzunmüddətli sülhün bərqərar olması məsələləri birinci sıraya yerləşmişdi. 1898-ci ilin avqustun 12-də Peterburqdakı xarici dövlətlərin nümayəndələrinə xarici işlər naziri adından Rusiyanın təkliflərindən ibarət yazılı müraciət təqdim edilmişdi. Müraciətdə beynəlxalq miqyasda silahlanma yarışının ayrı-ayrı ölkələrin maliyyə sabitliyi üçün nöqsan olduğu, dünyadakı sabitliyi pozduğu qeyd olunur və məsələni müzakirə etmək məqsədilə beynəlxalq konfrans çağrılması təklif edilirdi.

Böyük dünya dövlətləri geniş hərbi proqramlar həyata keçirməyə başladığı üçün Rusiyanın dəvətinə soyuq yanaşaraq hətta onu tənqid etməyə səy göstərdilər. Almaniya admiral Tirpitsin proqramı əsasında güclü hərbi-dəniz donanması yaratmağa başladı. Avstriya-Macarıstan quru qoşunlarının müasir silahlarla təminatını sürətləndirdi. ABŞ imperiya iddialarına söykənərək 1898-ci ilin aprelində İspaniyaya müharibə elan etdi. Onun donanmasını məğlub edib İspaniya ilə sülh müqaviləsi bağladı. Müqaviləyə əsasən, Karib dənizindəki Kuba və Puerto-Riko, Sakit okeandakı Quam və Filippin ABŞ-ın himayəsinə keçdi. Böyük Britaniya susqunluğunu qoruyur, Yaponiya isə onun donanması böyük dəniz dövlətlərinin donanması səviyyəsinə çatdıqdan sonra məsələyə münasibət bildirmək imkanından bəhs edirdi.

1899-cu il yayın əvvəlində Hollandiya şəhəri Haaqada Londondakı rus səfiri baron Y.Y.Staalın başçılığı ilə 27 ölkənin təmsil edildiyi nümayəndələrin birinci beynəlxalq konfransı toplandı. Konfransda müharibə və sülhü, hərbi mübahisələrin sülh yolu ilə həllinə dair bəyannaməni, quru və dəniz döyüşləri haqqında qayda və qanunları nəzərdə tutan hüquqi aktlar qəbul edilmişdi. Konfransın qərarına əsasən, dövlətlər arasında mübahisəli şəraiti həll etmək məqsədilə beynəlxalq arbitraj instansiyası kimi Haaqada Beynəlxalq Məhkəmə təsis olunmuşdu.

Rusiyanın silahlanmasının məhdudlaşdırılması təklifi dünya ölkələrinin bu məsələdəki mövqeyinə təsir göstərmişdi. Hətta Rusiyanın müttəfiqi Fransa belə bu ideyanı müdafiə etmədi. 1899-cu ilin oktyabrında Haaqa konfransı başa çatdıqdan az bir vaxt sonra Böyük Britaniya Afrika qitəsinin cənubunda tam nəzarəti ələ almaq məqsədilə orada Hollandiyadan çıxan adamlar tərəfindən təsis olunmuş Transvaal Respublikası və Oranjevo azad dövlət qurumuna qarşı hərbi əməliyyata başlayaraq 1902-ci ildə özlərinin strateji imperiya məqsədlərini təmin etmiş oldular.

Rusiyanın ümumi silahlanmasının məhdudlaşdırılması ideyasına təkcə böyük dövlətlər deyil, daxili liberalbaxışlı qüvvələr də tənqidi yanaşırdı. XX əsrin əvvəllərində Rusiya ordusu 900 min nəfərlik quru qoşunu ilə dünyada birinci, donanmasının sayına görə isə İngiltərə və Fransadan sonra üçüncü sırada yerləşmişdi. Düzdür, ölkənin silahlı qüvvələri qabaqcıl dövlətlərini silahlı qüvvələrindən müasir hərbi-texniki təchizatına görə geri qalırdı, amma bu fərqi aradan qaldırmağa çalışırdılar. Hərbi gücü sayəsində dünyada Rusiyadan ehtiyat edir və onunla hesablaşırdılar.

XIX əsrin II yarısında Çin imperiyası dərin böhran keçirirdi. Pekindəki imperator hökuməti ölkəni daxildən parçalayan feodal güruhlarının mübarizəsi şəraitində idarə edirdi. Nəhəng Asiya imperiyası üçün əsas təhlükəni xarici dövlətlərin ekspansiyası təşkil edirdi. İngiltərə, Fransa, Almaniya, daha sonra isə ABŞ və Yaponiya bu ölkədə möhkəmlənərək onu tam ələ keçirə bilmədikdə nüfuz dairələrinə bölmək məqsədi daşıyırdılar. 1840-cı ildə İngiltərə Çinə qarşı Birinci tiryək müharibəsini başlayaraq 1842-ci ildə onu Nankin müqaviləsini bağlamağa məcbur etdi. Çin imperiyası ingilis malları üçün öz limanlarını açmağa, Syanqan (Honkonq) adasını təcavüzkara verməyə və küllü miqdarda təzminat ödəməyə məcbur oldu.

1894-cü ildə Yaponiya imperialist işğalçılıq siyasətinə Çinə hücum etməklə başladı. 1895-ci ilin aprelində son dərəcə ağır şərtli Simonoseki müqaviləsi imzalandı. Şərtlərə əsasən, nominal olaraq Çindən asılı olan Koreya müstəqil elan edildi. Formoza (Tayvan) adası Yaponiyaya verildi. Eyni zamanda, Lyaodun yarımadasını və külli miqdarda təzminatı yapon tərəfinə verən Çin limanlarını da yapon mallarına açıq elan etdi. Mahiyyət etibarilə Çin Yaponiyadan yarımmüstəmləkə asılılığı vəziyyətinə düşmüşdü. Lakin Rusiya sərhədləri yaxınlığında zəif Çinin yerinə güclü Yaponiyanı görməkdən uzaq idi. Bu məsələdə Paris də Peterburq ilə həmrəy idi.

ABŞ Yaponiya əleyhinə kollektiv aksiyada iştirak etmək fikrində deyildi. İngiltərə isə açıq Yaponiyanın tərəfini saxladı. Gözlənilmədiyi halda Almaniya Rusiyanı müdafiə etdi və üç dövlət Yaponiyadan Lyaodun yarımadasından imtina edərək əvəzində Çindən böyük təzminat almağı tələb etdi. Yaponiya üç böyük dövlətin tələbini qəbul etməyə məcbur oldu. Çin Fransadan aldığı istiqraz hesabına təzminatı ödədi.

1858-ci ildə Rusiya ilə Çin arasında sərhədin Amur çayı üzərindən keçməsi şərti ilə Ayqun müqaviləsi imzaladı. İki il sonra, 1860-cı ildə Pekində Rusiya-Çin traktatı imzalandı ki, buna görə hər iki dövlət arasındakı sərhəd demarkasiya xətti ümumi cizgilərlə müəyyən olundu, ticarət və diplomatik münasibətlər xarakteri təsbit edildi. 1867-ci ildə Oxot və Yapon dənizləri rayonunda Rusiya ilə Yaponiya arasında sərhəd dairəsində ayırma baş verdi.

Rusiya yurisdiksiyasında olan Kuril adalarını Yapon tərəfinə vermək şərtilə Yaponiyaya məxsus Cənubi Saxalinə sahib oldu.

1897-ci ildə Almaniya Çinə desant çıxararaq Sindao limanını işğal edib hökumətdən onu 99 il müddətinə icarəyə götürmək icazəsi aldı. Eyni ildə Rusiya 25 il müddətinə Port-Arturu və Dalni limanı adını verdiyi Taliyenvanı Pekindən icarəyə götürdü. Port-Artura dair müqavilə imzalandıqdan 20 gün sonra İngiltərə Şandun yarımadasındakı Vey-Xay limanını işğal etdi. İki həftə sonra Fransa Çinin cənub qurtaracağındakı Kuanq-Çou limanını ələ keçirdi.

Xarici qəsbkarların işğallarına cavab olaraq 1899-cu ildə Mərkəzi və Şimali Çində xaricilərə qarşı ixetyanlar xalq hərəkatı başladı. İngiltərə, Almaniya, Rusiya, Fransa, Yaponiya, ABŞ, İtaliya və Avstriya-Macarıstan Çinə qarşı birgə hərbi əməliyyat təşkil etdilər. Alman generalı Valderzenin başçılığı altında 40 minlik ekspediya korpusu 1900-cu ilin yayında Pekinə daxil oldu. Rusiya ordusu Mancuriya ərazisinə daxil olaraq bütün Mancuriya dəmiryolu boyunca mövqe tutdu. Peterburqda elan olundu ki, qayda-qanun bərpa edildikdən sonra ordu Çini tərk etməlidir. Lakin Rusiyanın öz vədini yerinə yetirməyə tələsməməsi vəziyyəti kəskinləşdirdi.

1895-ci il oktyabrın 8-də Koreyanın paytaxtı Seulda yapon casusları Yaponiyanın əleyhinə olan kraliça Mini öldürdülər. Koreyada yaponların bu vəhşiliyinə qarşı xalqın silahlı mübarizəsi başladı. Xarici dövlətlərin susqun qaldığı bir şəraitdə yalnız Rusiya Koreyaya kömək əlini uzatdı. 1896-cı ilin mayında hər iki dövlət arasında müqavilə imzalandı ki, Rusiya Koreyada monarxı müdafiə etməyə, ehtiyac olarsa, hərbi kömək göstərməyə söz verdi. Lakin Yaponiya Rusiyanın mövqeyinin güclənməsi ilə razı ola bilməzdi. Xüsusilə 1902-ci ildə imzalanmış ingilis-yapon ittifaq müqaviləsidən sonra Yaponiya İngiltərənin köməyi ilə Koreya və Çində özünün ərazi ekspansiyasını davam etdirmək imkanı qazanmış, İngiltərə isə Rusiyanı dayandırmaq siyasəti yürüdərək Yaponiyanın təcavüzkar işğalçılıq siyasətini milliləşdirərək dəstəkləyirdi.

Rusiya Yaponiya ilə müharibə etmək məqsədi daşımırdı. II Nikolay və rus diplomatiyası Rusiyanın Mancuriyadan çəkilməsini və Koreyanın yapon maraq dairəsi kimi qəbul etməyini tələb edən Yaponiya ilə müharibə aparmaqdan qaçmağa çalışırdı. Rusiyanın qismən güzəştə getmək niyyəti yapon tərəfini qane etmirdi. Onlar tam olaraq Mancuriya və Koreyanı özünə tabe etmək istəyirdi.

Yaponiyanın barışmaz mövqeyini Böyük Britaniya və ABŞ müdafiə etdiyi üçün 1902 və 1903-cü illərdəki Peterburq, Tokio, London, Berlin və Paris arasında danışıqlardan heç biri konkret nəticə əldə olunmadı. Böyük dövlətlərin açıq və gizli köməyini təmin edən Yaponiya Koreyada öz ağalığının tanınmasını və Rusiyadan Mancuriyanı tərk etməsini tələb edirdi.

1904-cü il yanvarın 27-nə keçən gecə (fevralın 8-i) 10 yapon esminesi qəfil hücuma keçərək Port-Arturun xarici reydində olan 2 zirehli gəmi və 1 kreyseri sıradan çıxardı. Ertəsi gün 6 yapon kreyseri və 8 mina gəmisi Koreyanın Çemulpo limanındakı «Varyaq» kreyseri və «Koreyets» kanonerkasına hücum etdilər. Yalnız yanvarın 28-də Yaponiya Rusiyaya müharibə elan etdi. Bir il yarımlıq danışıqlardan sonra Rusiya müharibəyə cəlb edilmiş oldu.

Hərbi və iqtisadi cəhətdən Rusiyadan zəif olan Yaponiya hərbi-coğrafi üstünlüyə malik idi. Rusiya hərbi münaqişəni qızışdırmamaq məqsədi ilə Uzaq Şərq və Mancuriyada hərbi gücünü artırmırdı. 1904-cü ilin əvvəlində regionda bir-birindən uzaq məsafədə yerləşmiş yüz min nəfər hərbi qoşunu var idi. Ordunun sərəncamında ancaq 148 artilleriya topu var idi. Port-Arturda rus hərbi eskadrası 55 gəmidən ibarət idi ki, onların da çoxu köhnə və kiçik gəmilərdən ibarət idi.

Uzun müddət müharibəyə hazırlaşan Yaponiyanın təqribən 1500 min canlı qüvvəsi, 1140 topu mövcud idi. Yaponiya yeni dəniz texnikası ilə təmin edilmiş, 200 gəmiyə malik idi.

1904-cü il avqust ayında Mancuriyadakı quru əməliyyatında Lyaoyan döyüşündə rus ordusu 17 min, yaponlar 24 min adam itirmişdi. Bir aydan sonrakı Şaxe çayı döyüşündə rus ordusu 42 min, yapon ordusu təqribən 30 min döyüşçü itirdi. 1905-ci ilin fevral-mart aylarındakı quruda baş verən ən qanlı Mukden döyüşündə ruslar 80 min, yaponlar 70 min adam itirmişdi. Ölən və yaralananlarla birlikdə Rusiya 400 min, Yaponiya isə 300 min nəfər zabit və əsgər itirmişdi.

1905-ci ilin mayında Koreya bərzəxindəki Tsusima adası yaxınlığındakı yapon donanması vitse-admiral Z.P.Rojestvenskinin komandanlığı altında olan rus hərbi eskadrasını məğlub etdi. Müharibə vaxtı İngiltərə və ABŞ-dan 400 mln. dollar həcmində kredit almış Yaponiya bir sıra qələbələr qazansa da, müharibəni davam etdirməyə ehtiyatları qalmamışdı.

Avropada Almaniyanın mövqeyinin güclənməsi və alman təhlükəsi müqabilində 1904-cü ilin aprelində İngiltərə və Fransa təcili olaraq mübahisəli məsələləri həll edərək «qəlb razılaşması» («сердечное соглашение») bağladılar. London və Parisdə rus-yapon müharibəsini başa çatdırmaq məqsədilə hazırlanmış təklifləri Peterburq ingilis-fransız ittifaqının Rusiya əleyhinə güc nümayişi kimi qəbul edərək eşitmək belə istəmirdi.

1905-ci ilin mayında ABŞ prezidenti T.Ruzveltin vasitəçilik təklifinə II Nikolay müsbət cavab verdi, sabiq maliyyə naziri S.Y.Vittenin başçılığı ilə rus nümayəndə heyəti ABŞ-ın Portsmut şəhərinə yola düşdü. Danışıqlarda sərt mövqe tutan Yaponiya Rusiyanın tamamilə Koreya və Mancuriyadan getməsini, rus Uzaq Şərq donanmasının təhvil verilməsini, təzminat ödənilməsi və Cənubi Saxalinin ilhaq edilməsini tələb edirdi. ABŞ prezidenti II Nikolaya

şəxsi müraciətində məsləhət görürdü ki, Rusiya Cənubi Saxalini Yaponiyaya qaytarsın və adanın şimalı üçün haqq ödəsin. Lakin bu «dostluq» çağırışı rus çarının mövqeyini dəyişdirmədi.

1905-ci il avqustun 23-də imzalanmış razılaşmaya əsasən Rusiya Cənubi Mancuriyanın Yaponiyaya icarəyə verilməsini, Saxalinin yarısının və Koreya üzərində maraq dairəsinin Yaponiyaya aid olmasını qəbul etdi. Tərəflər qoşunlarını Mancuriyadan çıxarmağa, dəmiryol xəttini ticarət məqsədilə istifadə etməyə, azad dənizçilik və ticarətə mane olmamağı öz üzərinə götürdü.

Portsmut müqaviləsi rus diplomatiyasının xüsusilə Sergey Yulyeviç Vittenin şübhəsiz qələbəsi hesab edilməlidir. Uğursuz müharibədən sonra bir çox məsələlərdə bərabərhüquqlu tərəfdaşlar arasında bağlanmış sülh Yaponiyada milli dairələrin böyük narazılığı ilə qarşılanmışdır.

Lakin Rusiya tərəfi və şəxsən S.Y.Vitte də bilmirdi ki, hərbi uğurlarına baxmayaraq, o dövrdə Yaponiyanın iqtisadi və maliyyə vəziyyəti ağır olduğu üçün Yaponiya müharibəni davam etdirmək gücündə deyildi.

Portsmut sülhündən sonra Rusiya ilə Yaponiyanın münasibətləri yaxşılaşmağa başladı. 1907-ci ilin yanvarında bağlanmış rus-yapon razılaşmasına əsasən, tərəflər bir-birinin ərazi bütövlüyünü qəbul etdi. Rusiya Koreyanın Yaponiyanın maraq dairəsində olmasını, Yaponiya Rusiya imperiyasının Monqolustanda üstünlüyünü tanıdı. 1910-cu ilin yayında Peterburqda imzalanmış yeni razılaşmaya əsasən, tərəflər Çinin status-kvosunun pozulması, hər hansı birinə təhlükə yaranması şəraitində birgə hərəkət etmək qərarına gəldilər. Beləliklə, XX əsrin ikinci onilliyində Rusiya və Yaponiya geosiyasi tərəfdaşa çevrilmişdi.

## §3. XIX əsrin sonu–XX əsrin əvvəllərində ictimai hərəkat. Rusiyada marksizmin yaranması

Öz vəziyyətlərini yaxşılaşdırmaq uğrunda fəhlələrin mübarizəsi tədricən özlərini «sosialist» adlandıran dərnək və təşkilatların diqqətini cəlb etmişdir. «Sosializm» termini fransızca olub tərcüməsi «ictimai» («общественный») deməkdir. XIX əsrin sonlarında Rusiyada ictimai fikri əhatə edən iki əsas sosialist axın mövcud olmuşdur. Birinci cərəyanı təmsil edən xalqçılar kapitalizmi qəbul etməyərək kəndlilərin sosialist instinktinə əsaslanaraq bütün proqram və çağırışlarını kəndlilərə yönəltmişdi.

İkinci cərəyan marksistləri təmsil edirdi ki, onlar da diqqətini tamamilə fəhlələrə yönəltmişdi. Rusiyada kapitalist dəyişikliyinin qaçılmaz olduğunu

qəbul edən marksistlər bunun fəhlə sinfinin (proletariatın) artmasına və əsas ictimai qüvvəyə çevrilməsinə şərait yaradacağına inanırdılar. Öz hüquqlarını müdafiə etmək məqsədilə «muzdlu qullar» («наемные рабы») kapitalist istismarının mexanizmini başa düşməlidir. Onlar birləşərək nifrət etdikləri kapitalist zülmünü devirib ədalətli sosialist cəmiyyəti qurmalıdır.

Fəhlələri ictimai mübarizə ilə məşğul olmağı həyatlarının əsas işi hesab edən peşəkar siyasətçilər maarifləndirməli idi. Sosialist partiyaları və dərnəklərinin liderlərinin böyük əksəriyyəti mənşəyinə görə fəhlə sinfinə mənsub olmamışdır. Onların çoxu yaxşı təminatlı firavan ailələrdən çıxmışdı. Marksistlərin əsas nəzəriyyəçisi Almaniyadan olan iqtisadçı Karl Marks (1818-1883) idi. XIX əsrin ortalarında Karl Marks dünyanın inqilabi dəyişdirilməsi nəzəriyyəsini hazırlamışdı. İnsanların iqtisadi və ictimai həyat şəraitinin öyrənilməsi ilə məşğul olan Marks belə bir nəticəyə gəlmişdi ki, ictimai həyat forması iqtisadi şəraitinin yekunudur. O, Tanrı iradəsi ilə deyil, insanların marağı, dövlət siyasəti, təbii şəraitlə müəyyən edilən qanunauyğun və təbii-tarixi prosesdə istehsal vasitələrinin istifadəsi xarakteri, onun termini ilə «istehsal münasibətləri» («производственные отношения») nəzəriyyəsini irəli sürmüşdür. Əlavə dəyərin mənimsənilməsi müasir kapitalist dövlət quruluşunun mahiyyətini müəyyən edir – yekunu K.Marksın gəldiyi son nəticə idi.

Marks təsdiq etmişdir ki, mülkiyyət formasını dəyişərək istehsal vasitələrinin xüsusi sahibkarlığını ləğv edərək onu kollektivə (zəhmətkeşlərə) verməklə onların həyat şəraitini dəyişmək mümkündür. Marks konkret adamlar deyil, böyük ölçüdə «bəşəriyyətin taleyi» («судьба человечества») maraqlandırırdı. 1867-ci ildə Marks özünün «Kapital» əsərinin birinci cildini çap etdirmişdir ki, burada kapitalizmin inkişafını hərtərəfli təhlil edərək onun inqilabi yollarla sosializmlə əvəz edilməsi zərurətini göstərmişdir.

Marks, eyni zamanda «ictimai-iqtisadi formasiya»nın elmi nəzəriyyəsini hazırlamışdır. Ona görə tarixin hər bir mərhələsində cəmiyyətin həyatı bir çox parametrlərlə, əsasən də, istehsal vasitələri ilə səciyyələnir. İstehsal münasibətləri hər bir formasiyanın mahiyyətini təşkil edir. Formasiyaların ardıcıllığı yeni istehsal qüvvələri ilə köhnəlmiş istehsal münasibətləri arasındakı ziddiyyət meydana çıxması ilə müşayiət olunur. Bir ictimai-iqtisadi formasiyadan başqasına keçilməsi «tarixi ziddiyyəti» («историческое противоречие») kənarlaşdıran sosial inqilab – «inqilabi sıçrayış» («революционный скачок») vasitəsilə baş verir. Bəşəriyyət tarixində K.Marks beş ictimai-iqtisadi formasiya müəyyən etmişdir: icma-tayfa quruluşu, quldarlıq, feodalizm, kapitalizm və kommunizm.

Marksa görə, sonuncu antaqonist formasiya olan kapitalizmi ictimai əməyin kollektiv forması ilə xüsusi mülkiyyətin arasında olan ziddiyyətdən azad

olmuş kommunizm əvəz etməlidir. Marks ictimai şəraiti zor gücünə, yəni, inqilabi yolla dəyişdirmək tərəfdarı kimi inqilabçı olmuşdur. Belə ki, kapitalistlər könüllü olaraq öz hakimiyyətindən əl çəkmədikləri üçün onları devirmək lazımdır. Bu məqsədlə ictimai dəyişikliyin lokomativi olan, icitmai mübarizənin önündə yer alan partiya yaratmaq, proletariatın qabaqcıl dəstələrini təşkil etmək vacibdir.

İngiltərədəki Mançestr böyük ticarət-sənaye mərkəzinin varisi, fabrik sahibinin oğlu Fridrix Engels (1820-1895) K.Marksın çoxillik dostu və həmfikiri olmuşdur. İnqilabi məqalə və kitablar yazmasına baxmayaraq, onun proletariat qarşısında əsas «xidməti» uzun illər kapitalist – sahibkar kimi qazandığı pullarla Marksın böyük ailəsinə baxmaq olmuşdur. Dünya proletariatının rəhbərini bu heç də pərt etməmişdir. Əlavə gəliri, yəni fəhlələrin əməyinin ödənilmədiyi hissəsini «həyasızlıqla mənimsəyən» kapitalistlərdən fərqli olaraq Engels «mənimsəməyərək» onu qanuni yolla alıb dünya proletariatının azad olunmasına sərf etmişdir.

1848-ci ildə Marks və Engels Londonda «Kommunist Partiyasının Manifesti» kitabçasını çap etdirmişdir. Kitabçada «kapitalizmin qəbirqazanı» («могильщик капитализма») proletariatın təntənəsinin labüdlüyündən qabaqcadan xəbər verilirdi: «Avropada kabus dolaşmaqdadır, bu kommunizm kabusudur» («Призрак бродит по Европе призрак коммунизма»).

Artıq XIX əsrin ortalarında Avropanın müxtəlif ölkələrində özlərini «marksist-sosialistlər» elan edən qrup və dərnəklər meydana gəlmişdir. Rusiya kapitalizmin qalib gəldiyi ölkələr sırasına daxil olmadığı üçün inqilabçı demokratların nəzəriyyələrində gələcək inqilabın aparıcı qüvvəsi kəndlilər hesab edilirdi. XIX əsrin 70-ci illərinin əvvəllərində rus sosialistləri arasında marksizmin təsirinə ən çox öz ideya və baxışlarını xarici ölkələrin mühacir qəzet, jurnal, kitab və kitabçalarda inkişaf etdirən M.A.Bakunin, P.L.Lavrov və P.N.Tkaçov kimi ilk rus marksistləri məruz qalmışdır. Birinci rus marksistlərinin «inqilabi aydınlatma» («революционные озарение») məzmunlu çap məhsulları Rusiyada yayıldıqdan sonra ziyalılar və təhsil alan gənclər içərisində Marks və onun nəzəriyyəsinə maraq yaranmışdır.

Rusiyada birinci marksist dərnəkləri 1875-ci ildə yaranmış Odessadakı «Cənubi Rusiya Fəhlə İttifaqı» («Южнорусский Союз Рабочих») və 1878-ci ildə yaranmış Peterburqdakı «Şimali Rus Fəhlə İttifaqı» («Северный Союз Рабочих») olmuşdur. Lakin bu təşkilatlar nə fəhlələrə, nə də ölkədəki siyasi şəraitə əsaslı təsir göstərə bilmişdir. Rus marksistlərin görkəmli nümayəndəsi, 1883-cü ildə İsveçrənin Cenevrə şəhərində «Əmək Azadılığı» qrupunun təşkilatçısı və rəhbəri inqilabçı, marksizmin istedadlı təbliğatçısı və nəzəriyyəçi

Georgi Valentinoviç Plexanov (1856-1918) olmuşdur. Zadəgan ailəsində doğulmuş G.Plexanov gimnaziyanı bitirdikdən sonra Peterburq Mədən İnstitutunun tələbəsi olarkən xalqçılıq hərəkatına qoşulmuş, 1876-cı ildə «Torpaq və Azadlıq» təşkilatına daxil olmuşdur. Tezliklə İnstitutu ataraq peşəkar inqilabçıya çevrilmişdir. 1879-cu ildə «Çornı Peredel» xalqçılıq təşkilatının rəhbəri olmuş, 1880-ci ildə xaricə gedərək yalnız 1917-ci il Fevral inqilabından sonra Rusiyaya qayıtmışdır. Marksın və Engelsin əsərlərini dərindən öyrənməsi, Qərbi Avropa proletariatının mübarizəsi ilə tanış olması sayəsində G.Plexanov möhkəm əqidəli marksist oldu, xalqçılıqla əlaqəni kəsdi və onların əsl tənqidçisi oldu.

«Əmək Azadlığı» qrupu və ona daxil olan 10 nəfərə yaxın keçmiş xalqçı özlərinin əsas vəzifəsini Marks və Engelsin əsərlərini Rusiyada yaymaqda, marksizmin ideyalarını təbliğ etməkdə görürdülər. Marksın və Engelsin əsərlərini rus dilinə tərcümə etməklə bərabər, G.Pexanov «Bizim ixtilaflarımız» adlı əsərində rəqəmlər və faktlar əsasında sübut edirdi ki, Rusiyada kapitalizm artıq qalib gəlmişdir və inqilabçıların vəzifəsi kapitalizmin meydana gətirdiyi ziddiyyətlərdən xalqın azadlığı uğrunda mübarizədə istifadə etməkdir. Xalqçıların kəndli icmasına bəslədikləri ümidlər həyata keçə bilməz. Mütləqiyyətə və kapitalizmə qarşı azadlıq mübarizəsində proletariatın rəhbər rolu haqqındakı müddəanın sübut edilməsinin çox böyük əhəmiyyəti olmuşdur. Plexanov proletariatı təşkil etməyi, onun mübarizəsinə başçılıq etməyi və qarşısındakı inqilabda qələbəni təmin etməli olan fəhlə partiyasını yaratmağı irəli sürdü. Öz ideya baxışlarında «sinfi əxlaqı» təcəssüm etdirməsinə baxmayaraq G.V.Plexanov Birinci Dünya Müharibəsi illərində milli hisslərinə söykənərək «Vətənin müdafiəsi» çağırışı ilə çıxış etmişdir.

Vladimir İliç Ulyanov (1870-1924) Simbirsk (Ulyanov) quberniya şəhərində zadəgan ailəsində doğulmuşdur. Atası riyaziyyat müəllimi olan İ.N.Ulyanov quberniya xalq məktəbində təlimatçı, sonra direktor işləmiş, ordudakı general-mayor rütbəsinə bərabər olan yüksək həqiqi ştats müşavir xidməti rütbəsinə sahib olmuşdur. Anası M.A.Blank İsveçdən Rusiyaya yerləşmiş sahibkar ailəsindən idi.

1879-cu ildə Simbirsk Gimnaziyasına daxil olan Vladimir Ulyanov 1887-ci ildə gimnaziyanı bitirmişdir. Atası vəfat etdikdən bir il sonra, 1887-ci ilin yazında böyük qardaşı Aleksandrı çar III Aleksandrın həyatına sui-qəsdin təşkilatçısı kimi həbs edərək edam etdilər. Vladimir dövlət cinayətkarının qardaşı olmasına baxmayaraq, təqibə məruz qalmamış, gimnaziyanı bitirdikdən sonra Kazan Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. İstedad sahibi olan gənc adam iti ağlı və yaddaşı sayəsində tez bir zamanda alman və fransız dillərini öyrənmişdir. Uşaqlıq illərindən Rusiyanı sevməyən Vladimir onun

tarixinə maraq göstərmir, Tanrıya inanmırdı. Onu daha çox böyük və mühüm hadisələrin baş verdiyi Qərbi Avropa ölkələrinin tarixi maraqlandırırdı. Rusiyada isə onu yalnız hakimiyyətə qarşı çıxışlar cəlb edirdi. Rus mədəniyyətinin tarixinə kifayət qədər bələd olmayan V.Ulyanov görkəmli rus yazıçı və şairləri – Puşkin, Lermontov, Qoqol, Turgenev, Dostayevski kimi mütəfəkkirlərin yaradıcılığı ilə az tanış idi. Onun ağlı və qəlbində əsas yeri Belinski, Gertsen, Dobrolyubov, Pisarev, xüsusilə Çernışevski kimi dahilər tutmuşdur. Onların əsərlərində Rusiyanın əleyhinə, ölkənin ictimai və siyasi quruluşuna çoxlu tənqid və qəzəbin şahidi olmuşdur.

Universitetdə təhsilə başladığı ilk vaxtdan etibarən V.Ulyanov Rusiyanın, onun bütün ictimai və siyasi quruluşunun əqidəli düşməninə çevrilmişdir. O, inqilab tərəfdarı olaraq ətraf dünyanı güc vasitəsilə dağıtmağı nəzərdə tuturdu. Universitetdə Vladimir Ulyanov Marksın inqilabi ideyalarını təbliğ edən ən fəal tələbələrdən biri olmuşdur. «Kapital» əsərinin birinci cildi ilə də tanış olan Vladimir marksizm nəzəriyyəsində inqilabın əsaslandırılması zərurətini görərək inanırdı ki, ictimai quruluşu zor gücünə məhv etmək mümkündür.

Universitetə daxil olduqdan sonra inqilab ideyası ilə silahlanmış bir neçə həmfikrin öz ətrafına toplayan V.Ulyanov oxumaq yerinə universitet və ölkədəki qaydaları müzakirə və mühakimə etməklə məşğul olmuşdur. 1887-ci ilin dekabrnda onlar universitetdə tələbə yığıncağı (сходка) təşkil etdilər. Daxili qaydaları pozduqları və dövlətin əleyhinə fəaliyyət göstərdikləri üçün yığıncağın rəhbərlərini universitetdən xaric etdilər. V.Ulyanova Kazan quberniyasının yaxınlığındakı Kokuşkino ana mülkində yaşamağa icazə verdilər. Bir neçə aydan sonra ona Kazana qayıtmağa icazə verdilər, lakin Kazan Universitetinə qəbul etmədilər. Tezliklə Ulyanovlar ailəsi Samaraya köçdü. 1891-ci ildə Ulyanov ekstern yolu ilə, təhsil almadan Peterburq Universitetinin hüquq fakültəsinə imtahan verərək diplom aldı və Samarada andlı müvəkkilin köməkçisi (vəkili) vəzifəsində işə başladı. Məhkəmədə xırda cinayət işlərinə baxan Vladimir Ulyanov demək olar ki, onların hamısını uduzurdu. Lakin bu onu az narahat edirdi. Çünki inqilabdan başqa onu heç bir şey maraqlandırmırdı.

Özünü tamamilə gizli fəaliyyətə həsr edən V.Ulyanov gənclər yığıncağının daimi iştirakçısı olaraq gələcək ictimai inkişafın müzakirəsində fəal rol oynamışdır. Gənc Ulyanov qəti olaraq əmin idi ki, bütün Rusiya və bəşəriyyətin gələcəyi sosialist (kommunist) yoluna işıq açan fəhlə sinfinə mənsub olur. Bunun üçün fəhlə sinfi marksizm nəzəriyyəsi ilə silahlandırılmalıdır. Növbəti bir vəzifə kəndlilərin inqilabçılığına dair illüziyalardan azad olmaq məqsədilə xalqçıların baxışlarının «ifşa» edilməsindən ibarət olmuşdur ki, o, ilk məqalələrini buna həsr etmişdir.

1893-cü ildə Peterburqa gələn Vladimir Ulyanov paytaxtın marksist dərnəkəri ilə yaxınlaşır, 1895-ci ilin əvvəllərində xaricə gedən Vladimir Avropa sosialistləri və G.V.Plexanovla tanış olur, marksist ədəbiyyatın çapı və Rusiyaya göndərilməsinə dair razılıq əldə olunur. Tezliklə Peterburqa qayıdan V.Ulyanov gizli şəraitdə «Fəhlə sinfinin azadlığı uğrunda mübarizə ittifaqı» («Союз борьбы за освобождение рабочего класса») yaradır. Yüz nəfərə kimi adamı birləşdirən ittifaq Peterburqun zavod və fabriklərində təbliğat aparmaq məqsədilə marksist partiyanın rüşeymi kimi meydana gəlmişdir. «İttifaq»ın tətillərlə əlaqədar olaraq fəhlələrin vəziyyətindən bəhs edən bir neçə vərəqələri yayılmışdı ki, burada da təkcə iqtisadi tələblər deyil, xüsusilə V.Ulyanovun tərəfdarı olduğu siyasi tələblərin də irəli sürülməsindən bəhs olunurdu.1895-ci ilin dekabrında hakimiyyət «İttifaq»ın üzvlərini həbs etdi, Ulyanovu məhkəmə üç il müddətinə Krasnoyarsk şəhərinin yetmiş kilometrliyindəki Sibirin Şuşenskoye kəndinə sürgün etdi. Sürgündə olanlar aylıq yaşamaq üçün dövlət hesabına vəsaitlə təmin olunduğuna görə Vladimir Ulyanov heç bir maddi sıxıntı çəkmədən vaxtını mütaliə, qəzet və kitabların yazılması, gəzinti və başqa sürgündə olan insanlarla müzakirələrdə keçirirdi. 1900-cü ilin başlanğıcında sürgün müddəti başa çatdıqdan sonra V.Ulyanov xaricə səfər edərək fasilələrlə 1917-ci ilin yazına kimi orada yaşamışdır.

1901-ci ildə o birinci dəfə «Lenin» təxəllüsünə imza ataraq tarixə bu adla daxil olmuşdur. Ulyanov Lenin Krasnoyarsk diyarında olduğu bir vaxtda, 1898-ci ilin martında Minskdə toplanmış sosialistlərin qurultayı Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının (RSDFP) («Российской Социал Демократической Рабочей Партии») yarandığını elan etdi. Qurultayda imperiyanı təmsil edən cəmi 9 nümayəndə iştirak edirdi ki, onlar da ayrı-ayrı marksist dərnəkləri təmsil edirdilər. Qurultay iştirakçılarının heç biri fəhlə sinfinə mənsub olmasa da, onun adından çıxış edirdi. Qurultay iştirakçıları elan etdikləri «Manifest»də birinci növbədə duran vəzifə xalqa azadlıq əldə etmək məqsədilə mütləqiyyətin devrilməsi oldu. Burjuaziya üzərində qələbə çalınması, hakimiyyətin proletariata keçməsi və sinifsiz cəmiyyət yaradılması qarşıda duran növbəti vəzifələr idi. «Manifest» yaxınlaşan inqilabda həlledici rolun fəhlə sinfinə mənsub olduğunu təsdiq etdi. Qəbul edilmiş təşkilati nizamnaməyə görə, partiyanın ali orqanı qurultay, cari fəaliyyətə isə Mərkəzi Komitənin (MK) rəhbərlik etdiyi ifadə edilmişdi. Qurultayın işində beş yerli sosial-demokrat təşkilatının nümayəndəsi iştirak etmişdir ki, tezliklə onlar həbs olunmuş, yenicə bəyan edilmiş partiya fəaliyyətə belə başlamağa imkan tapmamışdır.

XIX əsrin sonunda səpələnmiş sosial-demokrat dərnəklərini birləşdirmək məqsədilə 1900-cü ilin payızında «İskra» qəzetini çap etməyə başladılar. Bir

neçə min nüxsədən ibarət nəşr edilən qəzetin redaksiya heyətinə V.İ.Lenin, G.V.Plexanov, Y.O.Martov, A.N.Potresov, V.İ.Zasuliç və P.B.Akselrod daxil olmuşdur. Tezliklə redaksiya heyəti üzvləri arasında ideya parçlanması baş verdi. Lenindən başqa bütün üzvlər nəzəriyyə və praktikada Qərbi Avropa («reformizm») sosialist ənənəsinə əsaslanan rus sosial-demokratiyasının menşevik cərəyanının liderlərinə çevrildilər. Menşeviklərin içərisində Rusiyanın qocaman marksisti G.V.Plexanov xüsusi nüfuz sahibi idi.

Lenin radikal sol ideyalarla silahlanmış Rusiya sosial-demokratlarının bolşevik qanadının rəhbəri kimi inqilabın zəruri və labüd olduğunu, yalnız proletariata istinad edilməsini, hökmən proletariat diktaturasının bərqərar olmasını, bütün istismarçıların amasızcasına məhv edilməsini nəzərdə tuturdu. Simbirskdən nəslən zadəgan ailəsindən olan V.İ.Ulyanovun üzərinə Rusiya tarixində mühüm rol oynamaq vəzifəsi düşmüşdür. Sözsüz, istedadlı, zəka sahibi olan bu insan Rusiya siyasi səhnəsinin fiqurları arasında öz dünyagörüşü və əqli potensialına görə çoxlarına uduzurdu. Lakin onlardan fərqli olaraq məhz Lenin milyonlarla adamın taleyini həll edərək böyük ölkənin sahibi kimi XX əsr dünya tarixinin gedişinə əsaslı istiqamət vermişdir. Onun gücü bundan ibarət idi ki, o «öz vaxtında öz yerində olmuşdur» («в свое время и на своем месте»).

Filosof N.A.Berdyayev qeyd etmişdir ki, «Hər şeydə totalitarizm – həyata inqilabi münasibətin əsas əlamətidir» («Тоталитарность во всем – основной признак революционного отношения и жизни»). Bu «inqilabçı formulu» tam olaraq Leninə aid etmək olar. Bütün ətraf mühit, mədəniyyətin zəngin nailiyyətləri, bəşəriyyətin bütün çoxtərəfli mənəvi sərvətlərindən öncə onu yalnız «proletar inqilabının» labüdlüyünün əsaslandırılması maraqlandırırdı. Bu ideyası yolundakı arzusuna fanatik bağlılığı Lenini darıxdırıcı və uğursuz adam edirdi. Əhəmiyyətsiz hüquqşünas, köməksiz natiq, xoşbəxt olmayan ailə başçısı, «ardıcıllarından» başqa dostlarının olmaması, ikinci Dövlət Duması seçkilərindəki fərasətsiz iştirakı, sonsuz maddi çətinliklər kimi məsələlər onu psixoloji cəhətdən məhv olmaq dərəcəsinə çatdıra bilərdi. Lakin Lenini yox. Çünki onunla axıra kimi həyatının böyük hissəsini sərf etdiyi yeganə ehtirası olan inqilab qalmışdır. O inqilab və inqilablar naminə yaşamışdır.

Lenin adamlar və dünyaya dair Vətən və xarici radikal sələflərinin baxışlarını nəzəri cəhətdən proletar əxlaqı və mədəniyyəti baxımından inkişaf etdirməklə kifayətlənməyərək bənzəri olmayan insanlıq əleyhinə eksprementin təşəbbüskarı kimi totalitar zor gücünə «gələcək cəmiyyəti», «sosializm şəxsiyyətini» yaratmışdır. Lakin bu eksperimentin qiyməti, etnomədəni aləmin əxlaqi və psixoloji pozuntusu, insan və maddi itkisi o qədər böyükdür ki,

«Leninin hesabına ödəmələr» («плата по Ленинским счетам») Rusiyanın həyatına hələ hüdudsuz uzun müddət təsir göstəcək.

Bir çoxu Lenini «dahi», «böyük nəzəriyyəçi», «əyilməz inqilabçı», «Marksın işinin parlaq davamçısı» adlandırmışdır. Başqa biriləri üçün o «yırtıcı», «qırmızı şeytan», «fanatik», «idealist», «cani», «böyük xəyalpərəst» idi. Bu əlamətlərin hər birini az və ya çox dərəcədə ona aid etmək mümkündür.

Əgər Leninin tarixi obrazına metaforik nöqteyi-nəzərdən qiymət verməyə cəhd edilsə, onu qara dahi kimi səciyyələndirmək olar. XX əsrin əvvəllərində sol qanadın əsas liderinə çevrilmişdir.

1903-cü ilin yayında Brüssel və Londonda RSDFP-nin ikinci qurultayında partiyanın proqramı qəbul edilmişdir. Mütləqiyyətin devrilməsi, xalq hakimiyyətinin bərqərar olması, vicdan, söz, mətbuat, yığıncaq, tətil, mitinq azadlıqları, bütün xalqların öz müqəddəratını təyin etməsi hüququ, daimi ordunun xalqın ümumi silahlanması ilə əvəz olunması, kilsənin dövlətdən, məktəbin kilsədən ayrılması proqramın əsas maddələrini təşkil etmişdir.

Fəhlə məsələsində 8 saatlıq iş günü, normadan əlavə işlərin, gecə növbəsinin və 16 yaşına çatmamış yeniyetmələrin əməyindən istifadə edilməsi qadağan olunur, bütün müəssisələrdə sanitariya nəzarəti qoyulur, pul cərimələri ləğv edilirdi.

Aqrar sahədə proletariat partiyasının liderləri ödənc haqqının ləğv olunmasını, onlardan alınmış ödənc və töycü haqqının qaytarılmasını nəzərdə tuturdu.

Proqramda birbaşa qeyd edilmişdi ki, nəzərdə tutulmuş siyasi və sosial dəyişikliyi yalnız mütləqiyyəti devirərək bütün xalq tərəfindən Müəssisələr Məclisini çağırmaq yolu ilə əldə etmək mümkündür.

İkinci qurultayda sosial-demokratların bolşeviklərə və menşeviklərə parçalanması partiyanın üzvlüyü haqqında məsələnin müzakirəsi nəticəsində meydana çıxmışdır. Lenin başda olmaqla çoxluq partiyanın təşkilatlarının birində çalışanların partiya üzvü ola bilməsinə qarşı, azlıq Y.O.Martov başda olmaqla partiyaya daim kömək edən hər bir kəsin üzv olmaq formulunu irəli sürmüşdür. Partiyanı gizli saxlama və ciddi intizama tabe etmək məqsədi daşıyan Leninin formulu daha çox səs toplamışdır. Faktiki olaraq, RSDFP adından çıxış etmələrinə baxmayaraq «bolşeviklər» və «menşeviklər» iki partiyaya parçalanmışdır. Hər iki fraksiya 1903-cü ildəki partiya proqramının «siyasi platformasını» qəbul etmələrinə baxmayaraq, onları birləşdirmək yolunda atılan addımlar heç bir nəticə vermədi. Hətta 1906-cı ildə Birləşdirici Qurultayda bolşeviklər menşeviklərin «torpaqların sosialistləşdirilməsi» tələbini qəbul etmələrinə baxmayaraq, strategiya və taktika sahəsindəki fərqlər onların bir-birindən uzaqlaşmasına səbəb oldu.

Onlar arasında olan əsas prinsipial fərqə görə bolşeviklər mübarizənin inqilabi formasına üstünlük verərək inanırdılar ki, Rusiyada reformator kursundan fərqli olaraq tez bir zamanda proletar inqilabı sayəsində sosializmə keçmək mümkündür. Burjuaziyaya qəti mənfi münasibət bəsləyən bolşeviklər onlarla kompromissin əleyhinə idi. Təqribi hesablamalara görə, 1907-ci ilin yazında bolşeviklərin 60 minə yaxın, 1917-ci ilin əvvəlində isə təqribən 20 min nəfər üzvü var idi.

Öz partiya yoldaşlarından fərqli olaraq menşeviklər belə hesab edirdi ki, burjuaziya azadlıq hərəkatının əsas hərəkətverici qüvvəsidir. Odur ki obyektiv şərait yetişmədiyi üçün proletariat hakimiyyətə can atmamalıdır. 1905-1907-ci illər inqilabından sonra menşeviklər tədricən Qərbi Avropa tipli reformator məzmunlu partiyaya çevrilmişdi. Onlar ümumxalq inqilabını təbliğ edərək proletariatın aparıcı rolunu qəbul edir, ancaq qələbə çalınması şəraitində hakimiyyətin burjuaziyaya güzəştə gedilməsi tələb olunurdu. Fəhlələrə, liberal və kəndli hərəkatına əsaslanan menşeviklər RSDFP-ni ziyalılıq tipindən geniş fəhlə partiyasına çevirərək «peşəkar inqilabçıların» rolunu minimum səviyyəyə endirib, inqilabi hərəkatı idarə etmək işindən əl çəkib partiya fəaliyyətinin mərkəzini kütləvi təşkilatlar olan həmkarlar, koorperativlər, digər ictimai assosiassiyalara keçirmək məqsədi daşıyırdılar. Bundan əlavə, menşeviklər duma («легальный») və dumadankənar («нелегальный») fəaliyyətin eyni əhəmiyyətə malik olmasını qəbul edirdilər. 1907-ci ilin yazında menşeviklərin təqribən 500 min, 1917-ci ilin yazında isə xeyli az – 15 min nəfər üzvü var idi.

RSDFP-nin menşevik qanadının siyasi prinsipləri bolşevik liderləri, birinci növbədə V.İ.Lenin tərəfindən düşməncəsinə qarşılanaraq menşevikləri və menşevizmi amansız tənqid və çox halda şəxsi təhqir dərəcəsinə çatdırmışdı.

## §4. Rusiyada 1905-1907-ci illər inqilabı. Parlamentarizmin yaranması

Sənayenin inkişafı böyük şəhərlərin kənarlarında, fabrik və zavodların nəzdindəki fəhlə qəsəbələrində cəmləşmiş fəhlələrin sayca artmasına səbəb olmuşdu. Məhz bu yerlərə üz tutan sosialist təbliğatçılar marksistlərin planına uyğun hərəkət etmələri üçün fəhlə kütləsini öz nüfuz dairəsinə cəlb etmək məqsədi daşıyırdılar. Fəhlələrin böyük əksəriyyətinin iqtisadi şəraiti ağır olduğu üçün onları təbliğatçıların «həqiqət» və «ədalət» haqqındakı danışıqlarına cəlb edirdi. Gizli vərəqə və kitabçalarda bu məsələlər haqqında çox yazırdılar.

Rusiya fəhlələrinin əsas hissəsi kənddən çıxmış dünənki kəndlilər idi ki, ata-babaları əsrlərdən bəri məhsulun, verginin, töycünün bərabər bölgüsünün mövcud olduğu, bir yerdə əkib-biçib, bir-birinə kömək etdiyi kənd icması şəraitində yaşamışdı. Burada hər şey demək olar ki, bərabər olmuşdur. Az olan varlılar isə hörmət sahibi deyildi. Şəhərə köçərək fabrik və zavodlarda işə başlayan dünənki kənddən çıxanlar üçün yeni şərait tanış və uyğun deyildi. Burada hər bir kəs özü-özünə cavabdeh başqasının hesabına artıq qəpik «qopartmaq» («урывать») istəyirdi. Çox adam belə həyatı başa düşmür və qəbul etmirdi. Onlar hər şeyin bərabər və ədalətli olmasını istəyirdilər. Kəndlilərin ədalətə dair görüşləri kapitalizmin həqiqətilə toqquşmaya tab gətirməmişdir.

Sosialistlərin bütün çağırış və «izahat işlərinə» baxmayaraq, fəhlələr ölkənin siyasi quruluşunun dəyişdirilməsinə dair siyasi tələblər irəli sürmürdü. Çarın hakimiyyətinə qarşı çıxış etmək Tanrıya qarşı çıxış etmək demək idi. Belə addımı isə ancaq çox qoçaq adamlar ata bilərdi. Çar hakimiyyətinə hörmət hələ güclü olaraq qalırdı.

Fəhlələrin gələcəkdə güclü siyasi silah olmasını qəbul edən mövcud qaydaların və dövlət quruluşunun əleyhinə olan sosialistlər tək deyildi. Vəziyyətin gərgin olduğunu başa düşən monarxistlər də belə hesab edirdi ki, hakimiyyət fəhlə sinfindən kənarda qala bilməz və fəhlələrin gedikcə daha çox həyasızlaşan sosialistlərin təbliğatının təsiri altına düşməyinə yol vermək olmaz.

Belə xadimlərdən biri adı «polis sosializminin» («полицейского социализма») tarixi ilə sıx bağlı olan polkovnik S.V.Zubatov idi. Məhz o, Polis Departamentinin (İdarəsinin) himayədarlığı və köməyi ilə «Fəhlə İttifaqları»nın yaradılması təşəbbüskarı olmuşdur. Monarxistlər, o cümlədən jandarma polkovniki hələ 1905-ci ilə kimi gündən-günə artaraq yeni-yeni rayonları əhatə edən fəhlə hərəkatının təhlükəsini hiss etmişdir. Fəhlə hərəkatını sosialist qrupların tabeçiliyindən xilas etmək məqsədilə S.V.Zubatov fəhlələrin maraqlarını ifadə edən hakimiyyətin nəzarəti altında leqal ittifaqların yaradılması ideyasını irəli sürmüşdür. Bu ideyanın tərəfdarları belə hesab edirdi ki, rus çarı partiyaların xaricində olaraq bütün Rusiya xalqının başçısıdır. Odur ki, hakimiyyət monarxın fəhlələrin münasibətinə aid onların qarşısına qoyduğu məsələyə biganə yanaşa bilməz. Hakimiyyət fəhlələrlə sahibkarlar arasındakı ziddiyyətdən kənarda qalmaq hüququna malik deyildir, mübahisə edən tərəflər arasında bitərəf arbitr olmağa, fəhlələrə ümid verəcək, onları «kapitalizm balinalarına» («акулы капитализма») qarşı qorumağa borcludur. «Polis sosialist»lərin fikrinə əsasən, fəhlə ittifaqları siyasətdən kənar çalışan işçilərin peşə mənafeyini qorumalı idi. Birinci Zubatov təşkilatı çarın əmisi böyük knyaz, Moskvanın general-qubernatoru Sergey Aleksandroviçin himayədarlıq

etdiyi Moskvada 1901-ci ildə meydana gəlmişdir. «Mexaniki istehsalatda fəhlələrin qarşılıqlı kömək cəmiyyəti» («Общество взаимного вспомоществования рабочих в механическом производстве») adlanan təşkilatın oxşar assosiasiyaları Minsk, Odessa, Kiyevdə də yaranmışdır. Bunların ən böyük olanı 1904-cü ilin əvvəlində yaranmış «Sankt-Peterburq Fabrik-Zavod Fəhlələrinin Rus Cəmiyyəti» («Собрание русских фабрично-заводских рабочих Санкт-Петербурга») idi. İlin axırında paytaxtın bütün fəhlə rayonlarında cəmiyyətin 17 şöbəsi fəaliyyət göstərirdi. Onların vəzifəsi ayıq və ağıllı vaxt keçirərək rus şüuru və hüquqi maarifçiliyini möhkəmləndirməkdən ibarət idi. Təşkilatın üzvləri az üzvlük haqqı ödəməklə pulsuz hüquqi məsləhət almaq, kitabxana, konsert, mühazirlərdə iştirak etmək imkanı əldə edirdi.

Fəhlələrlə görüş və söhbətlər xüsusi zallarda, klub və çay evlərində təşkil edilirdi. Onların qarşısında daim çıxış edən Poltava quberniyasının sakini, Peterburq Dini Akademiyasının məzunu, keşiş Qriqori Qapon yırtıcı ağaları amansızca tənqid edib ictimai ədalətsizliyin məlum şəklini təsvir etməsi dinləyicilərin canlı rəğbətinə səbəb olurdu. 1904-cü ilin sonundakı yığıncaqların birində belə bir ideya meydana çıxdı ki, çarın yanına gedib «həqiqət» və «müdafiə» xahiş edilsin. Sonradan məlum olmuşdur ki, artıq bu zaman Qapon müxtəlif «inqilabi mübarizlərin», xüsusilə eserlərin terrorçu partiyasının məşhur xadimi P.M.Putenberqin təsiri altına düşmüşdür. Fəhlələrdən gizli olaraq «baba» («батюшка») və onun sosialist «mürəbbiləri» ictimai ixtişaş təşkil etmək məqsədi güdürdülər. 1905-ci ilin yanvarın əvvəlində Peterburqun nəhəng Putilov zavodunda bir neçə fəhlənin işdən çıxarılmasına qarşı etiraz əlaməti olaraq tətil başladı. Başqa müəssisə və rayonların fəhlələrinin qoşulması ilə tətil sürətlə yayılırdı. Bu hadisə işi sürətləndirdi. Fəhlələr bir nəfər kimi qərar verdi ki, ərizə ilə çara müraciət etsinlər. Tələblərin mətnini fəhlələrdən fərqli olaraq Qaponun sədrliyi ilə bir «qrup müvəkkil» tərəfindən tərtib olunmuşdur. Fəhlələr yalnız onu bilirdi ki, çardan kasıb adamlara kömək xahiş etmək məqsədi ilə gedirlər. Eyni zamanda iqtisadi tələblərlə yanaşı, ərizəyə fəhlələrdən gizli dövlət quruluşuna toxunan açıq təxribat xarakterli siyasi tələblər də daxil edilmişdi. Xalq nümayəndəliyinin çağrılması, tam siyasi azadlıq, torpağın xalqa verilməsi belə tələblərdəndir.

Hərbi və polis hakimiyyəti onlarla təşkilatçını bitərəfləşdirmək yerinə, Qaponun yürüş baş tutmayacaq vədinə inandılar. II Nikolay özü Peterburqda olmadığı üçün Qış sarayında ona ərizə təqdim edilməsi fikri mənasız idi. Qaponun ikili oyun oynadığını dərk edən hakimiyyət yanvarın 8-də qərar qəbul etdi ki, paytaxta ordu yeridib mərkəzi təcrid etsin. Sonda yüz min nəfərdən çox adam mühasirəni keçərək Qış sarayına doğru irəliləməyə başladı. Şəhərin

müxtəlif yerlərində yürüş iştirakçılarına atəş açıldı, 96 nəfər öldürüldü, 333 nəfər isə yaralandı. Rusiyada taxtın və sülalənin düşmənləri rəqəmləri şişirdərək 1000-dən çox ölü olduğundan bəhs etmişdir. Hadisədən Tsarskoe Seloda xəbər tutan çar acı çəksə də, heç nəyi dəyişmək mümkün deyildi. Hakimiyyətin etibarı çoxlarının nəzərində ciddi sarsılmışdı.

1905-ci il yanvarın 9-da baş verən hadisədən sonra qazet və jurnalların səhifələrində, zemstvo və şəhər xadimlərinin yığıncaqlarında açıq şəkildə narazılıq ifadə edilməyə başlamışdır. Təhsil müəssisələri, birinci növbədə universitetlər qaynayırdı. Ölkədə yeni tətil və çıxışlar dalğası yayıldı. Böyük əksəriyyət siyasi dəyişiklik tələb edirdi. Uğursuz müharibə mövcud problemləri dərinləşdirərək yenilərini doğurmuşdu. Sistemin islahatı ictimai həyatın birinci sırasına yerləşmişdi. Hakimiyyətin ali mövqe sahibləri arasında sosial gərginliyin artması təhlükəsini dərk etməyə başlamışdılar.

Hələ 1904-cü ilin avqustunda daxili işlər nazirinin müavini bir sıra quberniyalarda general-qubernator işləmiş P.D.Svyatopolk-Mirsk daxili işlər naziri təyin olundu ki, o da ictimai dairələrə etimad siyasətini elan etmişdir. 1904-cü il avqustun 21-də II Nikolayın qəbulundan sonra liberal dairələrin nümayəndələri ilə görüşdə qəzet səhifələrindəki müsahibələrində nazir siyasi proqramının əsas maddələrini açıqlamışdır: din azadlığını qəbul etmək, yerli özünüidarəçiliyi genişləndirmək, mətbuata böyük hüquqlar vermək, əyalətlərlə münasibət siyasətini dəyişmək, iqtisadi məsələlərin müzakirəsi üçün fəhlə yığıncaqlarına icazə verilməsi. Müraciət sensasiya doğurmuşdu.

Liberal istiqamətli siyasi xadimlər məsələyə skeptik yanaşmışdır. Onlar belə hesab edirdi ki, mütləqiyyətin sonu yaxınlaşdığı üçün onunla heç bir məsələdə razılaşmağa ehtiyac yoxdur. 1904-cü il sentyabrın sonu-oktyabrın əvvəlində 1902-ci ildən P.B.Struvenin redaktorluğu altında çıxan «Osvobojdenie» jurnalı ətrafında qruplaşan rus liberalları əvvəl Ştutqartda, sonra isə Parisdə müxalifət partiyaların qurultayını keçirməyə təşəbbüs göstərdilər. Burada müxtəlif liberal və radikal birlik təmsil edilmişdi. Bu yığıncaqda mütləqiyyətin ləğv olunması, onun ümumi səsvermə əsasında seçilən azad demokratik cəmiyyətlə əvəz edilməsi və Rusiya xalqlarının öz milli müqəddəratını təyin etməsi hüququna dair yekdil qərar qəbul olundu. Qurultayda rus liberal ziyalılarının öndə gələn nüfuzlu nümayəndələri iştirak edirdi ki, onlar sonradan Kadet Partiyasının əsasını təşkil etmişdir. Bu azadlıq və demokratiya uğrundakı azadlıq mübarizləri, eyni zamanda son dərəcə radikal mövqe tutan axın və cərəyanların, xüsusilə hakimiyyətə qarşı terror taktikasını seçmiş sosial-inqilabçılar (эсеров) partiyasının təmsilçiləri ilə birgə hərəkət etməyi planlaşdırmışdı.

Mirskinin elan etdiyi etimad mərhələsinin tez bir zamanda perspektivsiz olduğu aydın oldu. Məlum oldu ki, söz vermək asandır, onu yerinə yetirmək isə çox çətindir. Mühakimə və müzakirələrin mərkəzində köhnə və həssas məsələ olan ümumrusiya nümayəndələri orqanının, onun vəzifə və təşkili yollarının yaranması məsələsi dayanırdı. O isə birbaşa monarxın müstəsna hüququ problemi ilə bağlı idi. Knyaz P.D.Svyatopolk-Mirski əmin idi ki, mütləqiyyət və nümayəndəlik bir yerdə fəaliyyət göstərə bilər. Hakimiyyət dairələrinin böyük əksəriyyəti bu mövqeyi qəbul etmirdi. Onlar ehtiyat edirdi ki, seçkili orqanın təşkil olunması idarəçilikdə qarışıqlığa, nəticədə iflicə səbəb olaraq taxtın və sülalənin düşmənlərinin fəallaşmasına yardım edir. 1904-cü ilin sonlarında belə təhlükə daha çox hiss edilməkdə idi.

1905-ci ilin yanvarında Peterburqdakı qanlı hadisələrdən sonra P.D.Syatopolk-Mirski istefaya göndərilmişdir. Hakimiyyət partiyası onu müxalifətlə yumşaq və qətiyyətsiz davranaraq paytaxtın mərkəzində inanılmaz qanlı toqquşmanın baş verməsində təqsirləndirmişdir. Moskvanın keçmiş qubernatoru, böyük knyaz Sergey Aleksandroviçin yaxın dostu A.Q.Bulıgin yeni daxili işlər naziri təyin olundu.

Ölkədə etirazlar qızışırdı. 1905-ci ilin qış və yaz aylarında kəndlərdə zadəgan malikanələrinin zəbt edilib soyulub yandırılması ilə müşayiət olunan çıxışlar başlamışdır. Həyəcan ordunu da bürümüşdü. Yayda Rusiyada və xarici ölkələrdə xüsusi təsir oyadan ağlagəlməz hadisə baş verdi. 1905-ci il iyunun 14-də Qara dəniz donanmasının zirehli eskadron «Knyaz Potyomkin Tavriçeski» gəmisinin heyəti qiyam qaldırdı. 12 gün, iyunun 25-nə kimi davam edən üsyanı donanma və hərbi komandanlıq, Peterburqun ali hakimiyyət dairələri, imperiyanın müxtəlif yerlərindəki adamlar diqqətlə izləyərək narahatlıqla müzakirə edirdilər. Nəhayət, potyomkinçilər Rumıniya limanı Konstansada gəmini rumın hakimiyyətinə təslim etdilər.

1905-ci il qışın sonunda, yaz və yayda sosial gərginliyin həlli yollarının müxtəlif variantları üzərində axtarış davam etmişdir. 1905-ci il fevralın 18-də qanun tərtib edən Dövlət Dumasının yaradılması məramı haqqında çar manifesti dərc olundu. Avqustun 6-da qanun tərtib edən Dövlət Dumasının seçki əsasında yaradılmasına dair yeni manifest bəyan olundu. Bu layihə Daxili İşlər nazirinin adı ilə «Bulıgin Duması» olaraq tarixə düşdü və 1906-cı il yanvarın ortalarından gec olmayaraq çağrılması nəzərdə tutulurdu. Birbaşa və bərabər olmayan seçkilərdə qadınlar, hərbçilər, tələbələr, fəhlələr seçkidə iştirak etmək hüququndan məhrum idilər. Kəndlilər üçün dörddərəcəli, əmlak senzi olan torpaq sahibləri və şəhərlilər üçün ikidərəcəli seçki nəzərdə tutulmuşdu. Seçicilərin 42%-i kəndliləri, 34%-i torpaq sahiblərinin, 24%-i isə

1500 rubldan az, paytaxtlarda 3000 rubldan az əmlak senzi olmayan şəhərlilərin payına düşürdü.

1905-ci il sentyabr-oktyabr aylarında Rusiyanı ümumi tətil bürüdü. Sentyabrın 19-da Moskvada çapçılar iqtisadi tələblərlə tətil elan etdilər. Tezliklə digər peşə sahibləri də onlara qoşuldu. Başqa şəhərlərdə də əsasən siyasi xarakterli tətillər başladı. Mərkəzi hakimiyyət qarışıqlıq və anarxiyanın qarşısında aciz qalmışdı. Hakimiyyət dairələrində diktaturadan bəhs etməyə başladılar.

Bu şəraitdə siyasi hərəkat meydanına Portsmut sülhünü imzalayaraq Amerikadan qalib kimi dönən S.Y.Vitte çıxdı. Qorxu və qeyri-müəyyənlik şəraitində çoxlarına belə gəlirdi ki, bu şəxs hər şeyə qadirdir. Əvvəllər o seçkili orqanın əleyhinə olaraq belə iddia edirdi ki, nümayəndələr və mütləqiyyət bir yerdə ola bilməz.

1905-ci ilin payızında məsələyə münasibəti kəskin dəyişən S.Vitte təkcə məşvərətçi hüquqlarla deyil, daha geniş qanunvericilik səlahiyyətləri ilə seçkili nümayəndələr orqanının yaradılmasından bəhs etmişdir. Təbiəti etibarilə praqmatik olan S.Vitte hesab edirdi ki, monarxı və sülaləni xilas etmək naminə güzəştə gedərək inqilabın dağıdıcı basqısından azad olmaq mümkündür. O, imperatoru inandırmağa çalışırdı ki, xalq nümayəndəyili şəraitində də çarın tam hakimiyyəti qalacaqdır. Ona görə məhz hazırkı anda rəqib üzərində taktiki və siyasi qələbəni təmin etmək vacibdir. Sonra isə hər şeyi qaydaya salmaq olar. S.Y.Vittenin dəlil və fikirlərinə ciddi yanaşan imperator oktyabrın 19-da onu Nazirlər Şurasının sədri təyin edərək hər yerdə qayda-qanunu bərpa etməyi tapşırdı.

1905-ci il oktyabrın 17-də hökmdar «Dövlət qaydalarının təkmilləşdirilməsi haqqında» («Об усовершенствовании государственного порядка») manifesti imzaladı. Sənəddə şəxsiyyətin toxunulmazlığı, vicdan, söz, yığıncaq, ittifaq azadlığı elan edilir, əhalinin bütün təbəqələrinin Dövlət Duması seçkilərinə cəlb olunması, Dumanın razılığı olmadan heç bir qanunun qüvvəyə minməməsi şərtilə Dumanın qanunverici orqan olması qəbul edilirdi. 1905-ci il oktyabrın 17-də bəyan edilmiş manifest Rusiya tarixində konstitusiyanın təkamülü yolunda mühüm addım olaraq hüquqi dövlətin yaradılmasında dönüş anı idi. Ölkənin sakitliyi və firavanlığı məqsədilə mütləqiyyət hakimiyyəti əsrlərdən bəri Tanrının da xeyir-duası ilə mövcud olmuş səlahiyyətlərinin bir hissəsindən imtina etməsi demək idi.

Böyük hakimiyyət səlahiyyətləri olmuş kabinetin başçısı qarşıda duran çox çətin və mürəkkəb vəzifələri, o cümlədən güclü icra aparatını yaratmalı, anarxiya və qanlı qarşıdurmalara son qoymalı, 17 oktyabr manifestinin

vəzifələrini həyata keçirmək məqsədilə qanunverici tədbirlər hazırlayıb tətbiq etməli idi.

Qayda-qanunun bərpa edilməsi, ictimai həyatın sakit məcraya istiqamətləndirilməsi ən vacib məsələ idi. Oktyabr manifesti S.Vittenin nəzərdə tutduğu kimi müxalifətin sırasında dəyişikliyə səbəb oldu. Mötədil-liberalların nümayəndələri belə nəticəyə gəldi ki, hakimiyyətlə mübarizə qalibiyyətlə başa çatmışdır. Düzdür, onlar hakimiyyətin tərəfdarı olmasalar da, bir müddət dağıntıya can atan radikal qruplardan uzaq durdular. Bolşeviklərin lideri V.İ.Lenin isə «Proletari» qəzetinin səhifələrində düşmənin özünə gəlməməsi üçün daha amansız mübarizə tələb edirdi.

17 oktyabr manifesti liberal dairələrin sevincinə səbəb olsa da, 1905-ci ilin noyabr-dekabr aylarında özünün ən yüksək nöqtəsinə çatan inqilabi yanğını söndürə bilmədi. Tətillər, mitinqlər, çıxışlar, malikanələrin dağıdılması, vəzifəli şəxslərə terrorçu hücumlar, ordu və donanmadakı üsyanlara alovlanmaqda davam edirdi. 1905-ci il dekabrın ortalarında Moskvada silahlı üsyan baş verdi.

1905-ci il 17 oktyabr manifesti meydana çıxdıqdan sonra aydın oldu ki, yeni siyasi reallıq Rusiya imperiyasının əsas qanunlarına yenidən baxılmasını tələb edir. S.Vitte belə hesab edirdi ki, bu işi təxirə salmaq olmaz. Onu Dövlət Duması fəaliyyətə başlayana kimi bitirmək lazımdır ki, Duma öz üzərinə Müəssislər Məclisi funksiyasını götürmək imkanını itirsin. 1906-cı il fevralın 20-də elan edilmiş çar fərmanı 17 oktyabr manifestinin əsasnaməsini daha da genişləndirdi. Qeyd edildi ki, monarx Dövlət Duması ilə bölüşdürdüyü səlahiyyətlərdən başqa bütün hüquqlarını saxlayır. Eyni zamanda Dövlət Şurasının quruluşu və funksiyası dəyişdirildi. O, parlamentin yuxarı palatası oldu. Onun üzvlərinin yarısı çar tərəfindən təyin edilir, digər yarısı isə pravoslav ruhanilərinin, zadəganların, zemstvoların, elm, sənaye və ticarət təşkilatlarının nümayəndələrindən təşkil olunurdu. 1906-cı il aprelin 23-də imperator «Rusiya imperiyasının əsas qanunları» («Основных законов Российской империи») adlı yeni redaksiyanı təsdiq etdi. O, mütləqiyyətin sarsılmazlığını təsdiq etdi. Sənədin dördüncü maddəsi ümumrusiya imperatoruna ali mütləq hakimiyyətin mənsub olduğunu bəyan edirdi. Sonrakı maddələr çarın müqəddəs və toxunulmaz olduğunu, onun qanun vermək hüququnu, xarici siyasətə, orduya, donanmaya rəhbərlik etmək, ali məmurları təyin etmək səlahiyyəti olduğunu təyin edirdi. 86-cı maddədə göstərilmişdi ki, Dövlət Şurasının və Dövlət Dumasının razılığı və əlahəzrət imperatorun təsdiqi olmadan heç bir yeni qanun fəaliyyət göstərə bilməz. 87-ci maddə monarxa səlahiyyət verirdi ki, qanunvericilik palatalarının sessiyaları müddətində «Fövqəladə fərmanlar» fomasında qanun imzalasın.

Duma müxtəlif vəzifəli şəxslər haqqında sorğu hüququ vermək hüququna malik olub, qanunvericilik təşəbbüsü ilə məşğul ola bilərdi. Büdcənin, müxtəlif idarələrin, ştat və smetasının, Dövlər Nəzarəti hesabatının təsdiqi, dəmiryol tikintisi ilə bağlı məsələlər, Dumanın kompetensiyasına daxildir. 8-ci maddədə vətəndaşların hüquq və vəzifələrinin siyahısı əks edilmişdi. Ümumi hərbi mükəlləfiyyət və vergi ödənilməsi vətəndaşların iki əsas vəzifəsi təsbit olunmuşdur. Xüsusi mülkiyyətin, mənzilin toxunulmazlığı, həbs və məhkəmə təqibi ilə bağlı, hüququ müdafiənin təminatı vətəndaş hüquqları maddələrinə daxil idi. Əsas qanunun 77-ci maddəsində qeyd edilmişdi ki, xüsusi mülkiyyət yalnız dövlət mənafeyi nəzərə alınmaqla ədalətli təzminat müqabilində müsadirə edilə bilər. Qanun vətəndaşlara Rusiyada azad yaşayış yeri seçmək və maneəsiz xaricə getmək hüququ tanıyırdı. Rusiya vətəndaşları tarixdə ilk dəfə azad din seçmək, ittifaq və birliklər yaratmaq imkanı əldə etmişdir.

1906-cı il Əsas Qanunda vətəndaşların azadlığı prinsipindən bəhs edərkən burada təsbit olunmuş maddəyə əsasən partiya yaratmaq hüququ olan vətəndaşların təşkil etdiyi partiya dövlətə qarşı düşmən mövqeyinə görə rəsmi qeydiyyatdan keçmədikdə onun üzvləri belə «müstəqil xadim» kimi Dumaya seçə və seçilə bilərdi. Beləliklə, 1906-cı il Əsas Qanunu konstitusiyalı quruluşun üç əsas elementini təsdiq etmişdir: qanunvericilik hüquqlu seçkili nümayəndəlik, icraedici və qanunverici hakimiyyətin bölgüsü, məhkəmə hakimiyyətinin müstəqilliyi.

1905-1906-cı illərdə buna kimi formasız şəkildə siyasi axınlar çərçivəsində fəaliyyət göstərən ictimai qüvvələrin quruluşunda dəyişiklik baş vermişdir. Bu zaman ümumrusiya siyasi partiyası məzmunlu açıq və gizli fəaliyyət göstərən bir sıra siyasi birlik meydana gəlmişdir. 1917-ci ilə qədər Rusiyada özünü partiya adlandıran təqribən 150 siyasi birlik fəaliyyət göstərirdi. Bunların böyük əksəriyyəti uzunmüddətli struktur olmayıb, azsaylı və təsadüfi sosial elementləri birləşdirən məhdud milli-regional cəmiyyətlərdən ibarət olmuşdur. Məsələn, polyak, yəhudi, latış, erməni və b. birliklər. Bütün imperiyanın ərazisini əhatə edən, dövlətin siyasi həyatına rəng qatan ümumrusiya partiyaları isə çox az sayda idi. 1905-ci il qanlı yanvar hadisələrinə kimi iki, Rusiya sosial-demokrat fəhlə partiyası («эсдек») və Sosialist-inqilabçılar partiyası («эсеры») mühüm mövqeyə malik idi.

Yuxarıda bəhs edildiyi kimi, 1898-ci ilin martında Minskdə toplaşan marksistlərin qurultayı Rusiya sosial-demokrat fəhlə partiyasının (РСДРП) yarandığını elan etdi. XIX əsrin sonlarında dağınıq sosial-demokratik dərnəklərin fəaliyyətini birləşdirmək məqsədilə 1900-cü ilin payızında sosialistlər «İskra» qəzetini nəşr etməyə başladılar. Bir az sonra redaksiya heyəti arasında ideya cəhətdən parçalanma baş verdi. Faktiki olaraq marksist partiya təşkilatı,

«menşeviklər» və «bolşeviklər» meydana gəlmişdir. Menşeviklər Qərbi Avropa («reformist») sosialist ənənəsinə əsaslanırdılar.

Bolşeviklərin lideri son dərəcə sol ideya tərəfdarı qəbul edilən V.İ.Ulyanov Lenin idi. O inqilabın labüd və zəruri olmasını, yalnız proletariata arxalanmasını, proletariatın diktaturasının bərqərar edilməsini və bütün istismarçıların amansızlıqla məhv edilməsini nəzərdə tuturdu. 1903-cü ilin yayında Londonda keçirilmiş RSDFP-nin ikinci qurultayında partiyanın proqramı qəbul edilmişdir. Proqramda aşağıdakı vəzifələr təsbit edilmişdir: mütləqiyyətin devrilməsi, xalqın hakimiyyətinin bərqərar edilməsi, məhdudiyətsiz vicdan, söz, mətbuat, yığıncaq, tətil və ittifaq azadlığı, şəxsiyyət və mənzil toxunulmazlığı, geniş yerli özünüidarəçiliyin qurulması, təbəqələrin ləğv olunması, tam bərabərlik, bütün xalqların öz müqəddəratını təyin etməsi hüququ, daimi ordunun ümumi xalqın silahlandırılması ilə əvəz edilməsi, məhkəmələrin ümumxalq seçkisi, kilsənin dövlətdən, məktəbin kilsədən ayrılması.

Fəhlə məsələsi sahəsində esdeklər 8 saatlıq iş günü, növbədən artıq iş normasının ləğvini, gecə növbəsi və 16 yaşına çatmamış yeniyetmələrin əməyindən istifadənin qadağan olunmasını, dövlət sığortasının təsbit edilməsini, pul cərimələrinin ləğvini nəzərdə tutmuşdur.

Aqrar sahədə proletariat partiyasının liderləri ödənc haqqının ləğv edilməsini, kəndlilərdən alınmış ödənc və töycü haqqının onlara qaytarılmasını, kilsə, monastr, udel, kabinet torpaqlarının müsadirə edilərək onalara xüsusi vergi edilməsini irəli sürmüşdür.

Sosialist istiqamətli sosialist-inqilabçılar («эсеры») partiya kimi 1901-1902-ci illərdə hələ XIX əsrdə fəaliyyət göstərmiş xalqçıların işinin davamçısı olan müxtəlif xalqçı dərnək və qrupların birləşdirilməsi nəticəsində meydana gəlmişdir. E.K.Breşko-Breşkovskaya, Q.A.Qerşuni, M.R.Qots, V.M.Çernov, M.A.Natanson, A.A.Arqunov, N.İ.Rakitnikov, E.F.Azef, B.V.Savinkov partiyanın əsas xadimləri idi. 1905-1907-ci illərdə Rusiyada aşağı-yuxarı 2,5 min adamı əhatə edən onlarca eser partiya təşkilatı fəaliyyət göstərirdi. Eserlərin proqramındakı əsas tələblər belə olmuşdur: mütləqiyyətin devrilməsi, federativ əsasda demokratik respublikanın qurulması, tam siyasi azadlığın həyata keçirilməsi, «zəhmət adamlarının» qanunvericiliklə müdafiəsi, ayrı-ayrı millətlərin özünü təyinetmə hüququnun sözsüz tanınması, bütün vəzifəli şəxslərin seçkili olaraq dəyişdirilməsi, kilsənin dövlətdən ayrılması, daimi ordunun ləğv edilərək onun xalq qoşunu ilə əvəz olunması.

Aqrar sahədə eserlər torpaqların tam olaraq sosialistləşdirilməsini, onu mal dövriyyəsindən çıxararaq ayrı-ayrı şəxslərin və ya qrupların şəxsi mülkiyyətindən ümumxalq malına çevirməyi nəzərdə tuturdu.

1905-ci ilin oktyabrında Moskvada Konstitusiyaçı – Demokratlar Partiyasının qurultayı oldu. Partiyanın proqram və nizamnaməsi qəbul edildi. Rus liberalizminin ən böyük birliyi olan partiya geniş miqyasda istifadə məqsədilə Xalq Azadlığı Partiyası adını qəbul etdi. Adi gündəlikdə onu «kadet», üzvlərini isə «kadetlər» adlandırırdılar. Partiyanın sosial əsasını sol əsaslı zemstvo-liberal elementlər, böyük universitetlərin professorları, hüquqşünas, həkim, jurnalist, yazıçı kimi azad peşə sahibləri təşkil edirdi. Artıq 1906-cı ilin yazında partiyanın tərkibi artaraq 70 min nəfərə çatmışdı. İnqilabi yüksəliş aşağı düşdükdən sonra 1908-ci ilin yazında partiya sırasında 30 min nəfərdən çox olmayan nümayəndə var idi.

Konstitusiyaçı – Demokratlar Partiyasının proqramı qabaqcıl Avropa liberal baxışları ilə zəngin idi. Burada hamının qanun qarşısında bərabərliyi, silki məhdudiyyətlərin ləğv edilməsi, birbaşa və ümumi seçkilər, vicdan və din azadlığı, mətbuat və ictimai assosiasiyaların azadlığı, şəxsiyyət və mənzil toxunulmazlığı, hərəkət azadlığı, pasport sisteminin ləğvi, mədəni özünütəyinetmə azadlığı ifadə edilmişdir.

Aqrar sahədə kadetlər əhalinin torpaqdan istifadəsinin artırılmasını, xüsusi torpaqların özgəninkiləşdirilərək torpaqsız və aztorpaqlı kəndlilərə verilməsi ehtimalını nəzərdə tuturdular. Onlar icarə şərtlərini yüngülləşdirmək məqsədilə torpaq qanunvericiliyinə yenidən baxılmasını, yeni yerlərdə torpaq quruculuğu işinə dövlətin köməyinin təmin edilməsini, fəhlələrə dair qanunvericiliyin aqrar sahəyə də tətbiq edilməsini tələb edirdi. Fəhlə məsələsində kadetlər fəhlə ittifaq və yığıncaqlarına azadlıq verilməsini, islahatda fəhlə müfəttişliyinin rolunun möhkəmləndirilməsini, səkkiz saatlıq iş günü müəyyən olunmasını, qadın və uşaq əməyinin müdafiəsini, fəhlələlərin sığortasını təkmilləşdirməyi irəli sürürdü.

Liberal istiqamətli ən böyük ikinci partiya 1906-cı ildə təşkil edilmiş «17 Oktyabr İttifaqı» («октябристы») idi. Kadetlərdən əhəmiyyətli dərəcədə sağda yerləşən oktyabristlər konstitusiyalı mütləqiyyət tərəfdarı olub oktyabr Manifestini konstitusiyalı mütləqiyyət quruluşunun əsasını qoymuş vətənin tarixində böyük dönüş nöqtəsi qəbul edirdilər. Onlar bütün xalqların bərabərliyi və mədəni inkişafı hüququnun mövcud olması şərtilə Rusiya dövlətinin vahid və bölünməz olduğunu müdafiə edirdi. Onlara görə monarx yalnız xalq nümayəndəliyilə ittifaqda özünün güclü hakimiyyət səlahiyyətlərini saxlamalı idi. Oktyabristlər söz, yığıncaq, ittifaq, hərəkət, əmək, sahibkarlıq azadlığı tələbi ilə çıxış edərək xüsusi mülkiyyətin toxunulmazlığının tərəfdarı idi.

Aqrar siyasət sahəsində onlar əsaslı islahat keçirərək kəndlilərin qəti olaraq vətəndaş hüquqlarından başqaları kimi istifadə etmək imkanının təmin

edilməsi tərəfdarı idi. Onlar kəndli təbəqəsi üçün bütün hüquqi məhdudiyyətlərin aradan qaldırılmasını, dövlətin əkinçilik məhsuldarlığını yüksəltmək yardımından əl çəkməsini ifadə edirdilər. Fəhlə məsələsinin sosial gərginliyini qəbul edən oktyabristlər fəhlə qanunvericiliyinə yenidən baxaraq təkmilləşdirməyi, sığorta köməyini artırmağı, həmkarlar ittifaqına azadlıq verməyi, eyni zamanda iqtisadi mübarizə şəraitini qanunvericiliklə nizamlamağı tələb edirdi.

1905-ci ilin sonunda Peterburqda ən əhəmiyyətli sağ istiqamətli «Rus Xalq İttifaqı» («Союз Русского Народа») meydana gəlmişdir. 1906-cı ilin avqustun 7-də nizamnaməsi təsdiq edilmiş ittifaqa A.İ.Dubrovin və V.M.Purişkeviç rəhbərlik edirdi. A.Dubrovin peşəsi etibarı ilə həkim,V.Purişkeviç isə Bessarabiya quberniyasının zadəganlarından olub Daxili İşlər Nazirliyində məmur kimi xidmət etmiş, Peterburq mühafizəkar salonlarının daimi iştirakçısı olmuşdur. Polis departamentinin məlumatına əsasən, 1908-ci ilin əvvəlində «Rus Xalq İttifaqı»nın Rusiyanın 78 quberniyasında 358 758 nəfər üzvü, başqa monarxist təşkilatların isə 47 794 nəfər üzvü olmuşdur.

1905-ci ilin sonlarında bu qüvvələr xeyli fəallaşmışdır ki, onların rol və nüfuzunu inkar etmək mümkün deyildir. Çar uğrunda, Vətən uğrunda, din uğrunda onların sadə, emosional çağırışları adamları küçələrə çıxarırdı. Baxmayaraq ki, sağ hərəkata savadlı şəxslər rəhbərlik edirdi onun əsas hərəkətverici qüvvəsi sadə, qara camaat idi ki, onlar da konstitusiyalı quruluş və hüquqi dövlət çağırışına fəal hərəkat fəaliyyəti ilə cavab verirdi. Sağlar yeni yaranan parlamentə imperatorun nəzdində məşvərətçi orqan kimi baxırdı.

Ölkədə ictimai qorxunun gərgin olduğu, imperiyanın müxtəlif yerlərindən gündəlik talan, yanğın, soyğun və siyasi məqsədlə ölüm xəbəri gəldiyi bir zamanda 1906-cı ilin fevral-martında Dövlət Dumasına seçkilər keçirilmişdir. Ümumən Birinci Dumaya 478 deputat seçilmişdir. Siyasi mənsubiyyətinə görə Dumaya 176 kadet, 16 oktyabrist, 105 bitərəf, 97 kəndli-əməkçi, 18 sosialist-demokrat (menşevik) seçilmişdir. Qalan deputat yerlərini liberal qanada meyil edən milli-əyalət partiya və birliklərinin nümayəndələri paylaşmışdır. Kadetlərin ilk sıraya yerləşdiyi Birinci Dumaya böyük səs çoxluğu ilə seçilmiş Moskva Universitetinin professoru S.A.Muromtsev rəhbərlik etmişdir.

Köhnə Tavriçeski sarayında aprelin 27-si günün ikinci yarısı fəaliyyətə başlayan Dumanın iclasında ilk gündən kəskin əhvali-ruhiyyə üzə çıxdı. Artıq bu zaman S.Y.Vittenin kabineti düşmüş, məşhur saray xadimi İ.L.Qoremıkin hökumətin başçısı təyin olunmuşdu. Məhz onun təklifi ilə keçmiş Qrodnı, sonra Saratov qubernatoru P.A.Stolıpin daxili işlər naziri təyin olunmuşdur.

Altı ay ərzində hakimiyyətdə qalan S.Y.Vitte hökuməti Dumanın müzakirəsinə heç bir qanun layihəsi təqdim etməyərək belə hesab edirdi ki, Duma özü

qanun yaradıcılığı ilə məşğul olmalıdır. Odur ki, Duma fəaliyyətə başlayan kimi radikal xarakterli çağırış və bəyanatlar səslənməyə başladı: ümumi əfv elan edilsin, məsuliyyət nazirliyi yaradılsın, ümumi seçki hüququ tətbiq olunsun, torpaq kəndliyə verilsin və s. Qanunverici orqanın işinə dair gündəlik ətraflı material çap edən liberal qəzetlər Tavriçeski sarayındakı məclisi tez-tez «xalqın qəzəbi Duması» («Дума народного гнева») adlandırmışdır.

Bütün bunlar ardı-arası kəsilməyən inqilabçıların terroru davam etdirdiyi bir şəraitdə baş verirdi. Tam olmayan məlumata əsasən 1906-cı ilin yanvarında 80, fevralda 64, martda 50, apreldə 56, mayda 122, iyunda isə 127 ölüm hadisəsi törədilmişdir. Yüzlərlə adam «azadlıq uğrunda mübarizlərin» aktlarının qurbanı olduğu halda bunların heç biri nə sollar, nə də kadetlər tərəfindən mühakimə edilməmişdir.

İki aydan bir az çox fəaliyyət göstərmiş Birinci Duma vaxtının əsas hissəsini sosial həyatın ən kəskin məsələsi olan aqrar layihələrin müzakirəsinə həsr etmişdir. Kadetlərin müzakirəyə təqdim etdiyi aqrar layihə xəzinə, monastr, udel, o cümlədən özgəninkiləşdirilmiş xüsusi mülkiyyət torpaqlarını ədalətli qiymətə alaraq (bazar qiymətinə deyil), əlavə olaraq kəndlilərə verməyi nəzərdə tuturdu. Kəndli deputatlarla xalqçılıq meyilli ziyalıların birləşməsi nəticəsində meydana gəlmiş əməkçilər fraksiyası radikal xarakterli ikinci layihəni müzakirəyə təqim edərək əmək normasından artıq olan mülkədar torpaqlarının özgəninkiləşdirilməsini, xalq torpaq fondu yaradaraq bərabərlik əsasında torpaqlardan istifadə olunmasını tələb edirdi.

Statistik rəqəmlər sübut edir ki, Avropa Rusiyasındakı bütün mülkədar torpaqlarını müsadirə edib kəndlilər arasında bərabər bölsə belə, kəndli ailələri ancaq bir-iki desyatin artıq torpaq ala bilərdi. Bu isə prinsip etibarilə hər şeyi həll etmirdi. Birindən alıb başqalarına vermək məsələni həll etmirdi. Torpaqların ölçüsünü deyil, əkinçiliyin keyfiyyətini artıraraq kəndlilərin həyatını minimum şərtlərlə təmin edən məhsuldarlığın son dərəcə aşağı olması idi. Əsaslı dəyişiklik üçün torpaqları müsadirə etmək əvəzinə müasir aqrar əkinçiliyi təşkil etmək bacarığı olan, sabit bazara üz tutan fərdi torpaq sahibliyini inkişaf etdirmək tələb edilirdi.

1906-cı ilin sonlarından yayılmağa başlamış Stolıpinin aqrar islahatı bu vəzifələri həll etməyi qarşısına qoymuşdur. Birinci Dövlət Dumasında kadetlər və trudoviklərin təqdim etdiyi, sosial-demokratların (menşeviklər) qızışdırdığı təkliflər siyasi demoqogiya olub hakimiyyəti nüfuzdan salmağa və kəndlilər arasında nüfuz qazanmağa yönəlmişdi.

Dövlət Dumasının fəaliyyətinə narahatlıq və qayğı ilə yanaşan hakimiyyət iyunun 20-də torpaq üzərində xüsusi mülkiyyətin toxunulmaz olduğuna dair

bəyanatla çıxış etdi. Lakin bu Dumadakı çoxluğu sakitləşdirmədi. Onlar xalqa müraciət edərək torpaqların yenidən ədalətli bölüşdürlməsini vəd etmək haqqında düşünürdülər. Cavab olaraq 1906-cı il iyulun 9-da Birinci Dövlət Duması buraxıldı və yeni seçkilər elan olundu. Ertəsi gün kadetlər və trudoviklər qrupu Vıborq şəhərində toplaşaraq «Vıborq müraciətnaməsi»ni («Выборгское воззвание») buraxdılar. Müraciətnamədə xalq nümayəndəliyinin buraxılmasına qarşı əhali passiv müqavimətə çağrılır, vergi ödənilməməsi, rekrut ödənişindən yayınmaq, xarici hökumətlərə Rusiyaya istiqraz verməmək təklif edilir. Lakin bu aksiya müvəffəqiyyət qazanmadı.

İkinci Dövlət Dumasına seçkilər 1907-ci ilin əvvələrində keçirilirdi. 1907-ci il fevralın 20-də birinci sessiya açıldı. Dumaya 518 deputat, o cümlədən,98 kadet, 104 trudovik, 68 sosial-demokrat, 37 eser, 50 bitərəf, 44 oktyabrist deputat seçilmişdi. Qalan deputat yerlərini sağlar (millətçilər), milli-regional partiyaların nümayəndələri, kazaklar və bir sıra kiçik siyasi birliklər paylaşmışdı. İkinci Dumanın tərkibi cəmiyyətdəki qüvvələrin qütbləşməsini əks etdirirdi. Deputat heyəti arasında sağların xeyli qrupu olmasına baxmayaraq, kadetlərlə həmrəy olan sollar çoxluq təşkil edirdi. Aqrar məsələ yenidən diqqət mərkəzində dayanmışdı. Eyni zamanda əkinçilik və torpaqdan istifadənin yenidən qurul- masının hökumət proqramının mövcud olması tərəflərin qarşılıqlı hücumla- rını kəskinləşdirmişdir.

Tezliklə hökumətə aydın oldu ki, yeni Dumadan konstruktiv fəaliyyət gözləməyə dəyməz. Eyni zamanda belə məlumatlar daxil olmağa başladı ki, sollar öz deputat toxunulmazlığından istifadə edərək Tavriçeski sarayından kənarda da açıq hökumət əleyhinə fəaliyyətlə məşğul olur. Duma sosial-demokrat fraksiyasının deputat səlahiyyətlərindən azad edilməsindən imtina etdi. 1907-ci il iyunun 3-nə keçən gecə polis bir qrup Duma sosialistini həbs edərək məhkəməyə sövq etdi. Bir neçə saatdan sonra nümayəndəliyin buraxılması və yeni seçki qanununun dərc edilməsi haqqında məlumat daxil oldu.

Yeni seçki qaydası əhalinin ayrı-ayrı qrup nümayəndələri arasında bərabərliyi təmin etməli idi. Varlı və məsuliyyətli ictimai elementlərə üstünlük verilirdi. Əgər köhnə seçki qanununa əsasən kəndlilər 42%, torpaq sahibləri 31%, şəhərlilər və fəhlələr 27% seçkiçi seçirdisə, yeni seçki qanununa görə kəndlilər 22,5%, torpaq sahibləri 50,5%, şəhərlilər və fəhlələr 27% seçkiçi seçə bilərdi. Həm də şəhərlilər ayrı olaraq iki kuriya üzrə səs verirdi. Rusiyanın əyalətlərindəki deputat yerləri azaldılaraq Polşada 29-dan 12-yə, Qafqazda isə 29-dan 10 nəfərə düşdü.

1905-1907-ci illərdəki hadisələr Rusiya tarixində yeni səhifə açmışdır. Onun sosial və siyasi quruluşu əsaslı surətdə dəyişilmişdir. Senzura əsaslı su-

rətdə zəifləmiş, ümumi nümayəndəlik və ictimai azadlıqlar meydana gəlmişdir. Açıq siyasi partiyalar, həmkarlar təşkilatı və ictimai birliklər fəaliyyətə başlamışdır. 1906-cı ildən kənddə icmanın ləğv edilməsi sahəsində əsaslı islahatlar həyata keçirilmişdir.

1905-ci ildən sonra xalq kütlələrinin vəziyyəti yaxşılaşmağa başlamışdır. Kəndlilərin ödənc haqqı ləğv olunmuş, sənayedə əməkhaqqı artmış, fəhlələrin əmək şəraiti yaxşılaşmışdır. İş günü azalaraq 9-10 saat müəyyən edilmişdir.

Bütün bunlarla yanaşı, inqilabi sarsıntı, hökumət və inqilabi terrorun geniş tətbiqi sosial ziddiyyətləri daha da dərinləşdirərək yeni münaqişələrə yol açırdı. Bu şəraitdə ölkədə sosial və siyasi sabitliyi təmin etmək məqsədilə islahatlar həyata keçirmək hakimiyyətin qarşısında dayanan başlıca vəzifə idi.

## §5. Üçüncü Dövlət Duması. P.A.Stolıpinin islahatları

Üçüncü Dövlət Duması nəzərdə tutulduğu kimi beş il fəaliyyət göstərmiş ilk duma kimi tarixə düşmüşdür. 1907-ci il noyabrın 1-də çağrılmış və əvvəlki duma ilə müqayisədə tərkibinə görə daha mühafizəkar olan üçüncü Dumaya seçilmiş 442 deputat yerindən 146 yer sağlara, 155 yer oktyabristlər və onlara yaxın olan qruplara, 108 yer kadetlər və onların tərəfdaşlarına, 13 yer trudoviklərə və 20 yer sosial-demokatlara məxsus idi. Dumanın mərkəzi 17 Oktyabr İttifaqı, sədri isə oktyabrist N.A.Xomyakov seçilmişdir. 1910-cu ilin martında onu partiyanın lideri A.İ.Quçkov əvəz etdi, bir il sonra isə parlamentin sədri oktyabrist M.V.Rodzyanko seçildi ki, sonra o, Dördüncü Dumanın da (1912-1917) sədri oldu. Üçüncü Dumanın fəaliyyət dövrü siyasi həyatın yeni reallığı olan hökumətlə deputat korpusu arasında kompromis əldə edərək çalışmağa doğru yönəlmişdi. Seçilmiş deputatların çoxu hökumətə «cinayətkarlar dəstəsi» kimi baxmayaraq, mövcud dövlət quruluşunu «qaranlıq çarlıq» hesab etmirdilər.

Hökumət Dumanın müzakirəsinə bir sıra qanun layihəsi təqdim etmişdi. Onlar ölkə həyatını əhatə edən və əsasən iqtisadi, sosial xarakterli məsələlərdən ibarət olan müxtəlif səpkili problemlərdən bəhs edirdi. Bunlar içərisində mərkəzi yeri aqrar məsələ tuturdu. İnqilabi qarışıqlıq dövründə rəsmi ideologiyaya görə hakimiyyətin ənənəvi dayağı olan kəndlilər çox halda mülkiyyətin bölünməsi məqsədilə hökumət əleyhinə çıxan qüvvələri müdafiə etdilər. Belə fövqəladə vəziyyətdə Rusiya tarixinin ön səhnəsinə güclü fiqur Pyotr Arkadyeviç Stolıpin (1862-1911) çıxdı. Rusiya mühafizəkarlarının yeni nəslinin

nümayəndəsi olan P.Stolıpinin fikrincə, dövlət quruluşunun ənənəvi əsasını müdafiə etmək məqsədilə cəmiyyətin sosial təbiətini dəyişdirərək sosial barışın təbii bazasını təşkil edən çox kültləvi möhkəm mülkiyyət sahibləri hazırlamaq vacib idi. Bunun üçün təkcə təsərrüfat fəaliyyətini yenidən qurmaq deyil, rus icması şəraitində məhsulun bərabərlik əsasında bölüşdürülməsindən fərqli olaraq bazar iqtisadiyyatı elementlərini nəzərdə tutan, Avropa istiqamətli yeni sosial-mədəni tip kəndlilər yetişdirmək tələb olunurdu. Bu nəhəng vəzifə uzun perspektiv üçün nəzərdə tutulmuşdu. Stolıpinin günahı deyildi ki, Rusiya tarixi bu zamanı təqdim edə bilməmişdi.

1862-ci ildə əsil-nəcabətli zadəgan ailəsində doğulmuş P.A.Stolıpin uşaqlığını Moskva yaxınlığındakı Srednikov, sonra Kovno (Kaunas) altındakı Kolnoberj mülklərində keçirmişdi. Vilno (Vilnüs) şəhərində gimnaziyanı bitirərək Peterburq Universitetinin fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. Universiteti fərqlənmə diplomu ilə bitirən P.Stolıpin 1884-cü ildə Əkinçilik və Dövlət Əmlakı Nazirliyinin Əkinçilik Departamentində əmək fəaliyyətinə başlamışdır. 1889-cu ildə Daxili İşlər Nazirliyində xidmətə başlayan P.Stolıpini Koven qəzası zadəganlarının rəhbəri, 1902-ci ildə Qrodnı qubernatoru, 1903-cü ildə isə Saratov qubernatoru təyin etmişlər. Bu vəzifədə onu 1905-ci il inqilabi dalğası qarşılamışdır ki, Balaşovsk qəzasında o təkbaşına həyəcan qaldırmış kütlənin qarşısına çıxaraq onları sakitləşdirməyə müvəffəq olmuşdur. 1906-cı il aprelin 26-da P.A.Stolıpini daxili işlər naziri, iyulun 8-də isə həm də Nazirlər Şurasının sədri vəzifələrinə təyin etdilər.

1907-ci ildə ölkədəki inqilab dalğası aşağı düşsə də, sona çatmamışdı. Yalnız 1908-ci ilin yanvarından 1910-cu ilin mayına kimi ölkədə 19 957 terror aktı qeydə alınmış, 7634 nəfər ziyan çəkmişdi. 1905-1907-ci illər arasında isə inqilabçı terrorçuların fəaliyyəti nəticəsində 10 min nəfərə yaxın adam öldürülmüş və ya yaralanmışdı.

Qarşıda duran başlıca vəzifə kəndlilərin torpaqdan istifadə və torpaq sahibliyi qaydasını dəyişdirmək idi. P.A.Stolıpin xeyli zaman idi ki, icmanın zərərli olduğunu başa düşmüşdü. İki məsələni – təşkilati-hüququ və iqtsadi vəzifəni həll etmək tələb olunurdu. Əvvəla, kəndlilərin əsassız və arxaik hüquqi məhdudiyyətlərini aradan qaldırmaq, ikincisi, xüsusi kiçik aqrar təsərrüfatların inkişafına şərait yaratmaq lazım idi. İcmanın saxlanılması kəndlilərin kənd təsərrüfatı istehsalının aşağı olmasına, əhalinin çoxsaylı qrupunun yoxsulluğuna səbəb olurdu. Stolıpinin islahatı çar fərmanları ilə elan olunurdu ki, bu da onun əməli olaraq həyata keçirilməsini təmin edirdi. İslahat torpaq üzərində xüsusi mülkiyyətin toxunulmazlığı prinsipinə əsaslanırdı ki, onu da zorla özgəninkiləşdirmək olmazdı.

1906-cı il avqustun 12-də imperator ailəsinin mülkiyyəti olan udel kənd təsərrüfatı torpaqlarının Kəndli Bankına verilməsinə dair fərman işıq üzü gördü. Avqustun 27-də xəzinə torpaqlarının satılması qaydası haqqında, sentyabrın 19-da Altaydakı imperatorun xüsusi mülkiyyəti olan dövlət torpaqlarının kəndlilərə satılması qaydası haqqında fərmanlar meydana gəldi. Oktyabrın 19-da Kəndli Bankına icazə verilirdi ki, pay torpağı girov qoyulmaq şərtilə kəndlilərə borc versin, bu isə kəndlilərin torpaq üzərində şəxsi mülkiyyətinin tanınması demək idi. Bu qərarlarla əkinçilərin sıx olduğu aqrar rayonlardan köçürülməsini təmin edən proqramı həyata keçirmək məqsədilə milli torpaq fondunun yaradılması nəzərdə tutulmuşdu. Əsasən Avropa Rusiyasının mərkəzi quberniyalarından kəndlilərin ucqarlara köçürülməsi nəzərdə tutulmuşdu. 1906-cı ilin oktyabrın 5-də kəndli təbəqəsi üçün mövcud olan bütün məhdudiyyətlərin ləğv edilməsinə dair fərman çıxdı ki, bu da kəndlilərin hüququ statusunu dəyişdirdi. Bu vaxtdan etibarən kəndlilər dövlət və hərbi qulluq, təhsil müəssisələrində bütün vətəndaşlarla bərabər hüquqa malik olurdu.

1906-cı il noyabrın 9-da ən başlıca qərar – icmanın köləliyindən azad edilmək haqqında fərman meydan çıxmışdır. Hər bir kəndli ona hələ bu fərmana kimi təhkim olunmuş müvəqqəti torpaq payı ilə, indi şəxsi mülkiyyətə çevrilmiş torpaq payı ilə icmadan azad çıxmaq hüququ alırdı. Kəndlilər əvvəl də icmadan üzvlərin razılığı və ödənc haqqını ödədikdən sonra ayrıla bilərdi. Artıq vəziyyət dəyişilmişdi. 1906-cı il noyabrın 9-da qəbul edilmiş fərman göstərir ki, hakimiyyət icmanın saxlanılmasına dair köhnə siyasətdən əl çəkərək xırda xüsusi mülkiyyətin müdafiəsinə keçmişdi.

Üçüncü Dövlət Dumasında hökumət oktyabristlər və millətçilərin şəxsində ciddi tərəfdarlara malik idi. Kadetlər partiyasının sağa istiqamətlənməsi nəticəsində ziyalıların görkəmli nümayəndələrinin bir hissəsinin soldan rus liberalizminin strateji və taktiki mövqeyinə meyil etməsi baş vermişdi. Dumanın fəaliyyətində mərkəzi yeri yenə aqrar məsələ tuturdu. Qanunvericiliyə uyğun olaraq 1907-ci il yanvarın 1-dən qüvvəyə minən 1906-cı il noyabrın 9-da elan edilmiş fərmanı təsdiq etmək tələb olunurdu. Dumanın torpaq komissiyasında əlavə olunaraq təsdiq edilmiş qərar 1908-ci il oktyabrın 23-də ümumi sessiyada müzakirə edilməyə başlandı. Deputatların təqribən yarısı, yəni 213 nəfər çıxış üçün yazılmışdı. Qanunun həyata keçirilməsi faktı real olmasa idi, onu Dumadan keçirmək mümkün olmazdı. Beş il ərzində fəaliyyət göstərmiş Üçüncü Dövlət Duması xalq maarifi, ordunun möhkəmləndirilməsi, yerli özünüidarəçilik sahəsində bir sıra vacib qanun layihələri qəbul etmişdi.

1911-ci il avqustun sonunda Kiyevdə 1861-ci il kəndli islahatının 50 illiyi münasibətilə II Aleksandra qoyulmuş abidənin açılışı münasibətilə təntənəli tədbir keçirilirdi. Şənlikdə çar ailəsi, imperiyanın vəzifəli şəxsləri iştirak edirdi. Sentyabrın 1-də təntənəli tədbirin son günü Kiyev şəhər teatrında N.A.Rimski-Korsakovun «Çar Saltane haqqında əfsanə» («Сказка о царе Салтане») operası gedirdi. Çar böyük qızları, nazirlər, generallar, Kiyev cəmiyyətinin üst təbəqəsinin nümayəndələri ilə tamaşada iştirak edirdi. İkinci fasilə vaxtı təqribən saat 23:30 dəqiqədə birinci sıradakı oturacağın yanında dayanmış hökumətin başçısına yaxınlaşan frak geyinmiş gənc adam ona iki dəfə atəş açdı. Kiyev klinikalarından birinə yerləşdirilən Stolıpin bir neçə gün həyatla ölüm arasında mübarizə etdikdən sonra sentyabrın 5-i axşam saat 10:00-da vəfat etdi. Dörd gündən sonra Pyotr Arkadiyeviç Kiyev-Peçersk böyük monastrında dəfn edildi.

Hökumətin başçısını qətlə yetirən 24 yaşlı D.Q.Boqrov Kiyevin varlı yəhudi mənzil sahibkarının oğlu olub, bir neçə il gizli polislə əməkdaşlıq etmişdir. O gimnaziyanı bitirdikdən sonra Kiyev Universitetinin hüquq fakültəsinə daxil olaraq 1910-cu ildə oranı bitirmişdir. Gimnaziya illərində gizli eser-anarxist ədəbiyyatla tanış olan gənc yeniyetmə 1905-ci ildə gimnaziyanı bitirərkən sərt radikal əhvali-ruhiyyədə olmuşdu. Universitetdə tələbə olarkən Kiyevin anarxist kommunistləri ilə yaxınlaşan D.Boqrov gizli yığıncaqlarda iştirak edərək terror aktları planlaşdırmaqla məşğul olmuşdur. 1907-ci ildə könüllü surətdə Kiyevin mühafizə şöbəsinin casusu olaraq polisə gizli yığıncağın iştirakçılarının adını, planını təqdim etmişdir. Bu fəaliyyətlə bir neçə il məşğul olaraq əvəzində pul yardımı almışdı. Polislə əlaqəsi ona imperiyanın ali şəxslərinin iştirak etdiyi teatra daxil olmağa kömək etmişdir.

Kompleks şəklində hüququ, inzibati və maliyyə tədbirlərindən ibarət olan Stolıpinin islahatı faktiki olaraq 1907-ci ildən həyata keçirilməyə başlamışdır. Onun məqsədi iki başlıca torpaq quruculuğu vəzifəsini həll etmək idi: köhnə kənd təsərrüfatı regionu olan Avropa Rusiyasında kəndli pay torpaqlarını onların şəxsi mülkiyyəti kimi təsbit etmək. Belə ki, burada çox halda torpaq sahəsi və mülkü bir-birini əvəz edir, hökumət isə kəsik və xutorların ayrılmasını müdafiə edirdi. Bu yolla kəndli özünə tam torpaq sahəsini ya kəsiklərini mövcud olduğu kənd rayonunda, ya da xutorların olduğu onun kənarında ala bilərdi. Bu məsələ başa çatdıqdan sonra kəndli öz torpağı haqqında istədiyi qərarı verə bilərdi: satmaq, icarəyə vermək və ya banka qoymaq. İslahat illərində təqribən 200 min kəsik və 1,5 mln. xutor təsərrüfatı meydana gəlmişdi ki, onlar da 10%-dən çox kəndliləri əhatə etmişdir.

1906-cı ildən başlayaraq hökumət torpaq bazarında fəal ekspansionist siyasət həyata keçirməyə başlamışdı. Kəndli bankı 1906-cı ilin yanvarından 1907-ci ilin martına kimi təqribən 9 mln. desyatin torpağı əhatə edən 7617 mülk almışdı. Avropa Rusiyasının ümumi kənd təsərrüfatı torpaq fondu isə təqribən 280 mln. desyatin təşkil edirdi. Kəndli bankının əldə etdiyi torpaqlar güzəştli qiymətlərlə ya kəndlilərə satılır və yaxud icarəyə verilirdi.

İkinci mühüm vəzifə Sibir, Altay kimi yeni aqrar rayonlarda kəndliləri torpaqla təmin etməkdən ibarət idi. Lakin burada torpaqlar paylanmırdı, əlverişli şərtlərlə yəni, bir desyatini 4 rubl olmaq üzrə 49 il müddətində ödəmək şərtilə kəndlilərə formal olaraq satılırdı. Həm də hökumət kəndlilərin Sibirə köçməsinin yol xərcini ödəyirdi ki, bu da şərq rayonlarında əməkçi əhalinin artmasına şərait yaratmışdı. Məsələn, 1897-ci ildən 1914-cü ilə kimi Avropa Rusiyasının əhalisi 26% artaraq 94 mln. nəfərdən 128 mln. nəfərə çatmışdısa, eyni dövrdə Sibir əhalisi 43% artaraq 5,7 mln. nəfərdən 10 mln. nəfərə çatmışdı. Bunların böyük əksəriyyəti Stolıpinin islahat proqamı ilə gəlmiş kəndlilər olmuşdu. Yalnız yeddi ildə yəni, 1906-cı ildən 1912-ci ilə kimi Sibirə 2,2 milyondan çox adam yerləşmişdi. Köçənlərin ümumi sayı bu dövrdə təqribən üç milyon nəfər olmuşdur ki, onların da bir hissəsi geri dönmüşdü.

Bir çox iddiaya baxmayaraq, Stolıpin icmanın zor gücünə dağıdılması siyasətini yeritməmişdir. İslahatın əsasını könüllülük prinsipi təşkil etmişdir. Torpaqların yeni istifadə qaydasına keçmək istəməyən kəndliləri dövlət bu işə məcbur etməmişdir. Stolıpin əmin idi ki, vaxt və canlı nümunə kəndlilər arasında fərdi təsərrüfatlara marağın əsas şərtləridir. Dövlət isə maliyyə və icra tədbirlərilə yalnız bu meyli həvəsləndirir.

# XVI FƏSİL
# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ RUSİYANIN MƏDƏNİYYƏTİ

## §1. Rusiya mədəniyyətinin «Gümüş əsri»

XIX əsrin sonu-XX əsrin əvvəllərində rus mədəniyyəti çoşqun yüksəlişdə olmuşdur. Ədəbiyyat, musiqi, incəsənət, teatr sahəsində yeni ideyalar, mövzular, yanaşma tərzi meydana çıxmışdır. Rəssamlar, yazıçılar, şairlər, musiqiçilər öz ideyalarını ifadə etmək məqsədilə yeni forma və metodlar axtarıb tapırdılar. Rusiya mədəniyyət tarixinin nisbətən bu qısa dövrü A.S.Puşkinin zamanındakı «Qızıl əsr»dən fərqli olaraq «Gümüş əsr» adını almışdır.

«Gümüş əsr» bir növ XIX əsrdəki rus mədəniyyətinin çox böyük naliyyətlərinə özünəməxsus yekun vurmuşdur. Bununla bərabər onda Qərbi Avropa istiqaməti, ənənəsi, incəsənət məktəbləri əks edilmişdir ki, Rusiyada əsrlərin qovuşuğunda bunu diqqətlə müşahidə edirdilər.

XIX əsr alman fəlsəfəsinin, XVII əsr Qərbi Avropa mistik nəzəriyyələrinin, pravoslav dini ənənəsinin sintezindən rus fəlsəfi fikri yaranmışdır. Onun ən parlaq nümayəndələrindən biri Vladimir Sergeyeviç Solovyov (1853-1900) olmuşdur. Onun nəzəri irsinin mərkəzində Sofizmə, Tanrı və insanı birləşdirən kainatın ruhuna dair təlim dayanırdı. V.S.Solovyov filosof və dinşünas A.S.Xomyakovun, alman filosofları Şellinq və Hegelin ideyalarından bəhrələnmişdir. Pavel Aleksandroviç Florenski (1882-1937), Sergey Nikolayeviç Bulqakov (1871-1944), Lev Platonoviç Karsavin (1882-1952) Vladimir Sergeyeviçin ardıcılları olmuşdur.

Rus fikir adamları yalnız dünya quruculuğu məsələlərilə deyil, sosial-siyasi problemlərlə də maraqlanırdılar. 1909-cu ildə görkəmli rus filosof, publisist, hüquqşünaslarının əsərlərinin çap edildiyi «Vexi» külliyyatı dərc edilməyə başladı. Toplu Rusiya ziyalılarının problemlərinə həsr olunmuşdur. Bu nöqteyi-nəzərdən toplunun müəlliflərindən biri Nikolay Aleksandroviç Berdyayev (1874-1948) qeyd edirdi ki, ziyalıların başlıca problemi ciddiyyətsizlik və cahillikdir. Məhz buna görə onlar həqiqi fəlsəfi yaradıcılıq yerinə primitiv şüarlara üstünlük verirlər. Müəllif belə bir nəticəyə gəlir ki, ziyalılar öz «kökündən» ayrıldığı üçün Rusiya tarixi ilə əlaqəsini hiss etməyərək dövlətçilik yaradıcılığına – həqiqi yeni Rusiyanın qurulmasına qabil deyillər.

Fəlsəfi fikirlər əsasən rus mədəniyyətinin inkişaf istiqamətini müəyyən etmişdir. Məsələn, V.S.Solovyovun ideyaları poetik dairələrin arasında geniş yayılmışdır. Əsl adı Boris Nikolayeviç Buqayev olan Andrey Belıy (1880-1934), Aleksandr Aleksandroviç Blok (1880-1921), Vyaçeslav İvanoviç İvanov (1866-1949) onun nəzəriyyəsinin ardıcılları idi. Onların poeziyasına xas fəlsəfi, mistik sətiraltı fikir birinci rus şair-simvolisti qəbul edilmiş V.Solovyovun əsərlərinə aparıb çıxarır. Poeziyada simvolizm fərdiyyətçilik və mistizmi ifadə edən bədii yaradıcılıq metodudur. Fövqəltəbii hadisələri simvollar vasitəsilə bədii şəkildə əks etdirməyə çalışmış simvolistlərə V.Y.Bryusov, K.D.Balmont, D.S.Merejkovski kimi şair, tənqidçi və fikir adamları da məxsus idi. Rus simvolizminin nəzəriyyəçilərindən biri şair, tənqidçi və fikir adamı Dmitri Sergeyeviç Mejerkovski (1865-1941) olmuşdur. 1892-ci ildə o «Tənəzzülün səbəbləri və rus ədəbiyyatında yeni cərəyana dair» («О причинах упадка и о новых течениях современной русской литературы») proqram məqaləsində incəsənətdə yeni hadisənin təzahürünə olan tələbi əsaslandırmışdır. D.S.Merejkovski yazdığı «Xristos və Antixrist» romanlar triologiyasında bəşəriyyət tarixini xristianlıq və bütpərəstliyin qarşılıqlı başlanğıc prizmasından izah etməyə çalışmışdır.

«Yeni dini şüur» («нового религиозного сознания»), «yeni xristianlığın» («новое христианство») tərənnümçüsü olan D.S.Merejkovski V.S.Solovyovun din və ümumdünya teokratiyasının təntənəsinin sintezinə əsaslanır. Müəllif bu mövqeyi «antixristin» dayağı elan olunmuş mütləqiyyətə qarşı «milli inqilab»la («национальная революция») əlaqələndirir. D.Merejkovski rus dekadentliyini «inqilabi slavyanpərəstlik» («революционная славянофильство») adlandıraraq onları inqilab və dinlə eyniləşdirir. O «dini inqilab» («религиозная революция») mənbəyini «böyük rus sektant parçalanmasında» («великом русском расколе сектантства») yəni, «xalq inqilabçılarında» («народные революционеры») görür ki, o da «sosial-siyasi inqilabla («социальная-политическая революция») birləşir. Lakin inqlabi «apokalipsis» yazıçı üçün bir anda inqilabi reallıq dekadent nəzəriyyəçilərin arzusu həddini aşdıqda dağılaraq yalnız «estetik» ideal olaraq qalmışdır. Belə ki, D.S.Merejkovski və onun həyat yoldaşı, yazıçı Z.N.Merejkovskaya (Gippius) inqilabda yeni «puqaçovçuluq» görərək inqilabdan imtina edib xaricə mühacirətə getmişdir.

İnqilabda «Tanrıquruculuq» («Богостроительство») və sektant motivlərinə sosial-demokratlar A.V.Lunaçarski və V.A.Bazarov, yazıçı M.Qorki də meyil göstərmişdir. Bu baxımdan A.A.Blokun 1918-ci ildə qələmə aldığı «On iki» («Двенадцать») poeması fərqlənir. Poema qeyri-real olaraq İsa peyğəmbərin «qanlı bayraqla» («с кровавым флагом») yerişi ilə bitir. P.A.Florenski, M.M.Prişvin, F.A.Stepun bu bədii obrazın sektant təbiətini qeyd etmişdir.

«Yeni xristianlığ»ın təbliği çoxəsrlik pravoslav dünya qavrayışının və rus şüurunun nüfuzunu sarsıdırdı. Cəmiyyətə qarışıqlığın labüdlüyü gələcək «dirçəliş»in təminatı kimi təlqin olunurdu.

Şairlər arasında formanın sadəliyinə, sözün dəqiqliyinə, fikrin tam aydınlığına, o cümlədən poetik tərzin maksimum mənalı olmasına üstünlük verənlər də fərqlənmişdir. Onlar 1910-cu ildə akmeistlər (yun. «akme» – zirvə, pik) qrupunda birləşmişdir. Anna Andreyevna Axmatova (1889-1966), Nikolay Stepanoviç Qumilyov (1886-1921), Osip Emileviç Mandelştam (1891-1938) bu cərəyana məxsusdur.

Bədii ədəbiyyatın inkişafında yeni forma axtarışları 1910-1912-ci illərdə futurist cərəyanın meydana gəlməsinə səbəb olmuşdur. Futuristlər incəsənəti texniki tərəqqinin addımları ilə inkişaf etdirərək, klassik ənənə, mədəni keçmişdən imtina edib yeni poetik dil yaratmağa çalışırdılar. Onların ən parlaq nümayəndəsi Vladimir Vladimiroviç Mayakovski (1893-1930) idi. Eyni zamanda B.L.Pasternak, D.D.Burlyuk, V.Xlebnikov və b. futuristlərə daxil olmuşdur.

«Yeni kəndli» şairləri Sergey Aleksandroviç Yesenin (1895-1925), Nikolay Alekseyeviç Klyuyev (1884-1937), Sergey Antonoviç Klıçkov (1889-1937) kəndli mənşəli olub, folklor ənənəsinə müraciət edərək, şəhərlə kənd həyatı arasındakı ziddiyyəti, insanın təbiətdə öz yerini tapması məsələsini bədii şəkildə təsvir etmişdir.

Rus poeziyasında xüsusi yerə sahib olan Marina İvanovna Svetayevanın (1892-1941) yaradıcılığı özünəməxsus dramatikliyi, faciəliliyi, qeyri-adi metaforası ilə fərqlənir. İvan Alekseyeviç Buninin (1870-1953) yaradıcılığı üçün lirizm, baş verənlərin dərin daxili faciəsinin nəzərə alınması xarakterikdir. XX əsrin əvvəllərində Aleksey Maksimoviç Peşkovun (1868-1936) – Maksim Qorkinin yaradıcılığının əsas qəhrəmanları «lütlər» – Rusiya cəmiyyətinin «dibi» («дно») olmuşdur. Aktual siyasi mövzulara müraciət edən müəllifin «Ana» («Мать») romanının fəhlə qəhrəmanı «1 may» nümayişini təşkil etdiyinə görə hakimiyyət tərəfindən həbs edilmişdir. Aleksandr İvanoviç Kuprin (1870-1938) öz qəhrəmanlarının psixoloji vəziyyətini dəqiq təhlil edərək onların öz sosial mühitində ətraf aləmlə dramatik münasibətdə olduğunu bədii şəkildə oxucuya çatdırmışdır. Onun xüsusilə «Duel» («Поединок») povesti məşhurdur.

XX əsrin əvvələrində bədii yaradıcılıq sahəsində səyyar sərgilər cəmiyyəti ilə birlikdə rus incəsənətində yaradıcılıq birliklərinin yeni istiqamətləri meydana çıxmışdır. S.V.Gerasimov, M.S.Rodionovun təmsil etdiyi «Makovets» birliyi klassik ənənənin ardıcıllığını, incəsənətdə yüksək mənəviyyat təbliğ edirdi. Mixail Vasilyeviç Nesterovun yaradıcılığında tarixi-dini mövzu əsas yer tuturdu. Onun «Müqəddəs Rus» («Святая Русь»), «Rusda» («На Руси») rəsm əsərləri, pravoslav məbədlərində çəkdiyi şəkillər buna misaldır.

Rus bədii incəsənətində parlaq rənglərin hakim olduğu modernizm axını geniş yayılmışdır. Özlərinəməxsus yaradıcılıq tərzi olan M.A.Vrubel, V.A.Serov, K.D.Korovin, İ.E.Repin bu istiqamətin tərəfdarlarıdır. K.S.Petrov-Vodkinin «Qırmızı atın çimməsi» («Купание красного коня»), «Məryəm» («Богоматерь») rəsmləri qədim rus ikonaçəkmə sənətinə güclü bədii tərzdə təsir göstərmişdir.

Bəhs edilən dövrdə ən nüfuzlu yaradıcılıq birliklərindən biri «İncəsənət dünyası» («Мир искусства») olmuşdur. Onun yaradıcıları Sergey Pavloviç Dyagilev və rəssam, incəsənət tarixçisi Aleksandr Nikolayeviç Benua idi. Öz ətrafında istedadlı rəssamlar K.A.Somov, L.S.Baket, E.E.Lanser, M.V.Dobujinski, A.P.Ostroumov-Lebedevi birləşdirən qrup eyniadlı jurnal buraxmaqla yanaşı, sərgilər təşkil edir, opera və balet tamaşalarının tərtibatını hazırlayırdı.

Birliyin nümayəndələri görüşlərinə görə modernist və qərbçi olaraq, I Pyotru tərifləyərək Peterburqu rus mədəniyyətinin avropalaşmasının simvolu hesab edirdilər. «İncəsənət dünyası» jurnalı knyaginya M.K.Tenişevanın, sonra rəssam V.A.Serovun vəsaiti hesabına nəşr edilmişdir.

Səyyar sərgiçiləri özünəxas rus mədəniyyətinə sədaqətdə ittiham edən dərnək üzvləri məzmun və formasına görə özlərini daha çox avropalı olan XVIII əsr rus mədəniyyətinin davamçıları hesab edirdilər. Dərnəyin liderlərindən biri S.P.Dyagilevin fəaliyyəti sayəsində rus incəsənətinin şedevr əsərləri dünya şöhrəti qazanmışdır. Rəsm sərgiləri, rus musiqi konsertləri təşkil etməklə yanaşı, S.Dyagilev 1908-1914-cü illərdə Paris və Londonda rus balet və opera truppasının, o cümlədən böyük sənət ustaları müğənni F.İ.Şalyapinin və balerina A.P.Pavlovanın iştirakı ilə «Rus mövsümləri» («Русские сезоны») təşkil etmişdir.

1910-1911-ci illərdə rəssamlar A.V.Lentulov, P.P.Konçalovski, R.R.Falk «Kərpic xaçlı valet» («Бубновый валет») qrupunu təşkil etdilər. Qrupun nümayəndələri incəsənətdə akademizmi qəbul etməyərək səyyar rəssamların yaradıcılığına tənqidi yanaşırdı. «Kərpic xaçlı valet» qrupunun rəssamları kubizm tərəfdarı olaraq rəsm sahəsini həndəsi fiqurlara – kvadrat, dairə, üçbucaq şəklində bölürdülər. 1907-ci ildə «Mavi qızılgül» («Голубая роза») cəmiyyətində birləşmiş rəssamlar P.V.Kuznetsov, K.S.Petrov-Vodkin, M.S.Saryan və b. özlərinin birinci sərgisini təşkil etdilər. Dekorativlik, parlaq rəng onların rəsm əsərlərinin əsas xüsusiyyətini təşkil edirdi.

Bu dövrdə avanqard incəsənətin görkəmli ustaları öz yaradıcılığında ikonaçəkmə və bayağı şəkil ənənəsindən istifadə edən Mark Zaxaroviç Şaqalın (1887-1985), abstraksionizmin əsasını qoymuş Vasili Vasiliyeviç Kandinskinin (1866-1944), kubizmin nümayəndəsi, məşhur «Qara kvadrat» («Чёрный квадрат») rəsm əsərinin müəllifi Kazimir Severinoviç Maleviçin (1879-1935), rəsm şəkilləri təmtəraqlı kristal çiçək oyuqlarından ibarət olan Pavel Nikolayeviç

Filonovun (1883-1941) yaradıcılıq fəaliyyəti rəgarəng olmuşdur. Avanqard (fr.qabaqcıl) rəssamlar belə hesab edirdi ki, incəsənətin məqsədi olan kainatın dərk edilməsi naminə ənənəvi incəsənət formasından imtina edilməlidir.

Bəhs edilən dövrdə memarlıqda düz xətt və gunc üslubundan imtina edərək yeni təsirli forma axtarışında olan modern stili hakim idi. Bu istiqamətin ən böyük memarı Moskva Bədaye Böyük Teatrının, Yaroslavl vağzalının, Moskvadakı S.P.Ryabuşinski mülkünün yaradıcısı Fyodor Osipoviç Sextel (1859-1926) idi. Memarlıqda modern üslubunda yaradıcılıqla məşğul olmuş ustalardan biri də Sankt-Peterburqdakı Azov-Don Bankının layihəsini tərtib edən memar Fyodor İvanoviç Lidval (1870-1945) hesab edilir. Qədim rus memarlığı üslubunda fəaliyyət göstərmiş böyük usta Aleksey Viktoroviç Şusev (1873-1949) Moskvadakı Kazan vağzalının, böyük knyaginya Yelizaveta Fyodorovnanın təsis etdiyi Marfo-Mariinsk monastrının memarı olmuşdur.

Yeni üslub axtarışında olan rus heykəltəraşları, o cümlədən Sergey Timofeyeviç Konyonkov (1874-1971) rus xalq incəsənəti ənənəsinə əsaslanmışdır. Onun «Daş əsgər» («Камнебоец»), «Simurq» («Жар-птица») heykəlləri qədim əfsanə qəhrəmanlarıdır. Fransız heykəltəraşı O.Rodenin tələbəsi olmuş Anna Semyonovna Qolubkinanın (1864-1927) yaradıcılığında impressionizm istiqaməti başlıca yer tutmuşdur. Onun «Qocalıq» («Старость»), «Kariatida» heykəlləri çox məşhurdur.

Musiqi sahəsində də təcrübə davam etmişdir. Yeni musiqi harmoniyası və yeni musiqi təsir vasitəsi axtarışında olan Aleksandr Nikolayeviç Skryabin (1871-1915) birinci dəfə işıq musiqisindən istifadə etmişdir. Onun «Prometey» simfoniyası işığın müşayiətilə ifa edilmişdir. Musiqi incəsənətində novator sənətkar olan İqor Fyodoroviç Stravinski (1882-1971) «Simurq» («Жар-птица»), «Petruşka», «Müqəddəs yaz» («Весна священная») baletlərində folklor musiqi sənətindən istifadə etmişdir. Görkəmli bəstəkar və istedadlı pianoçu Sergey Vasilyeviç Raxmaninovun yaradıcılığı geniş miqyas alaraq daha da məhsuldar olmuşdur.

Rus opera səhnəsində vokal partiyaların ifaçısı bas Fyodor İvanoviç Şalyapin (1873-1938) və tenor Leonid Vitalyeviç Sobinov (1872-1934) parlamışdır.

XX əsrin əvvəllərində bütün dünyada yayılmış rus baleti köhnə ənənələri dağıdaraq yeni forma kəsb etməyə başlamışdır. Baletmeystr Mixail Mixailoviç Fokin (1880-1942) əsərlərində simvolizmin xoreoqrafik elementlərindən istifadə edərək balet sənətinin bir neçə incəsənət növünü, o cümlədən rəqs, musiqi, rəssamlığı əhatə etdiyini nümayiş etdirmişdir. Məhz M.Fokinin baletləri sayəsində balerinalar A.P.Pavlova, T.P.Karsavina, rəqqas V.F.Nijinski dünya şöhrəti qazanmışdır.

1898-ci ildə Konstantin Sergeyeviç Stanislavskinin (1863-1938) və Vladimir İvanoviç Nemiroviç-Dançenkonun (1858-1943) təşəbbüsü ilə Moskva Bədaye Teatrı (MXT) təşkil olunmuşdur. Bu aktyordan səhnədə öz qəhrəmanlarının hisslərini yaşamasını tələb edən Stanislavski sisteminin rus psixoloji teatrında meydana gəlməsinə təkan vermişdir.

1904-cü ildə Peterburqda aktrisa Vera Fyodorovna Komissarjevskayanın (1864-1910) rəhbərlik etdiyi Dramaturgiya Teatrı yaranmışdır. Teatrın rejissoru Vsevolod Emileviç Meyerxold (1874-1940) dəvət edilmişdir. Onun teatrın səhnəsindəki tamaşaları Stanislavskinin sistemindən prinsipial surətdə fərqlənirdi. Meyerxolda görə aktyor səhnədə yaradıcı olmayıb, rejissorun yaradıcı fikirlərini olduğu kimi yerinə yetirən icraçı olaraq səhnədə oyunçu «maska»sı taxmalıdır.

Məhz əsrlərin hüdudunda yeni incəsənət – kinematoqrafiya meydana çıxmışdır. 1908-ci ildə birinci rus filmi «Stenka Razin və knyaginya» çəkilmişdir. Üç ildən sonra Aleksandr Alekseyeviç Xanjonkov (1877-1945) və V.M.Qonçarov birinci tammetrajlı film olan «Sevastopolun müdafiəsi»ni («Оборона Севастополя») çəkmişlər. 1912-ci ildə kinematoqrafiya ilə məşğul olan «Xanjonkov və K°» aksioner cəmiyyəti meydana gəlmişdir. 1914-cü ildə Rusiyada 30 belə kompaniya fəaliyyət göstərirdi. Ölkədə kino geniş yayılmışdı. 1913-cü ildə 1400-dən çox kinoteatr mövcud olmuşdur. Bu illərdə Rusiya kino sənətinin tanınmış ulduzu aktrisa Vera Xolodnaya olmuşdur.

XX əsrin əvvəllərində Rusiyada cəmiyyətin savadlı hissəsi ilə əhalinin böyük əksəriyyəti arasındakı təhsil fərqi çox böyük olmuşdur. Bu fərqi aradan qaldırmaq məqsədilə P.A.Stolıpinin hökumət başçısı olduğu vaxtda təhsilə ayrılmış dövlət vəsaiti əhəmiyyətli dərəcədə artmışdır. Məktəblərin tikilməsi və təmin edilməsi zemstvoların başlıca vəzifəsi idi. Bütün bu tədbirlər nəticəsində 1896-cı ildən 1910-cu ilə kimi Rusiyada 57 min ibtidai məktəb, 600 şəhər məktəbi, kişilər üçün 20 ali tədris müəssisəsi, qadınlar üçün isə 28 ali təhsil müəssisəsi açılmışdır. 1919-cu ildə Rusiya əhalisinin 80 faizi (54 faiz kişilər, 26 faiz qadınlar) savadlı idi.

1914-cü ildə Rusiyada təqribən 120 min nəfər tələbəni əhatə edən yüzdən çox ali məktəb fəaliyyət göstərirdi. 29 qadın ali təhsil müəssisəsində isə 25000 nəfər təhsil alırdı. Moskvada İmperator Moskva Texniki Məktəbi təşkil olunmuşdu (N.E.Bauman adına Moskva Dövlət Texniki Universiteti). Eyni zamanda Moskvada Nəqliyyat Mühəndisləri İnstitutu, V.M.Bexterev adına xüsusi Psixonevrologiya İnstitutu yaranmışdır. 1908-ci ildə Moskvada Ali Qadın Kənd Təsərrüfatı Kursu təşkil olunmuşdu. Qadın kursları, o cümlədən Saratov, Odessa, Xarkov və b. şəhərlərdə də fəaliyyət göstərməyə başlamışdır. Ölkənin bir çox şəhərlərində ictimai vəsait hesabına arzu edən hər kəsin təhsil almaq imkanı

olduğu Xalq Universitetləri təsis edilmişdi. 1908-ci ildə Moskvada A.L.Şanyavskinin Xalq Universiteti yaradılmışdı. Arzu edən 16 yaşı tamam olan hər bir gənc Universitetə daxil ola bilərdi. 1914-cü ildə Universitetin 5300-ə yaxın dinləyicisi var idi. Universitetdə görkəmli professorlar, o cümlədən hüquqşünas S.A.Muromtsev, tarixçi A.A.Kizevetter, şair V.Y.Bryusov, fizik P.N.Lebedev, fizioloq İ.P.Pavlov, filosoflar S.N.Bulqakov, E.N.Trubetskoy, Q.Q.Şpet və b. mühazirələr oxuyurdu. S.A.Yesenin, N.A.Klyuyev, M.İ.Svetayeva, psixoloq L.S.Vıqotski Universitet kursunun dinləyiciləri olmuşdur.

Rusiyada nəşr edilmiş əsərlərin miqdarı artmışdı. Ölkənin 49 xalqının dilində kitab çap edilirdi. 1890-cı ildə 50-70 min nüxsə qəzet çap edildiyi halda, 1900-cü ildə «Rus sözü» («Русское слово») qəzetinin nəşri 250 min nüsxəyə çatmışdır. 1916-cı ildə qəzet 600 min, 1917-ci ilin fevralında isə bir milyon iki yüz min nüsxə ilə çap edilmişdir. 1880-ci ildə Rusiyada 390 jurnal, 1914-cü ildə 1470 jurnal çap edilmişdir.

1900-1910-cu illərdə Rusiya kitab çapına görə dünyada Almaniya və Yaponiyadan sonra üçüncü yeri tuturdu. Kitab çapının 2/3 hissəsi Peterburq və Moskvanın payına düşürdü. Rusiyanın ən böyük naşirləri A.S.Suvorin və İ.D.Setin idi. Keçmiş əyalət müəllimi olan A.Suvorin «Yeni zaman» («Новое время») iri qəzetini buraxırdı. O Peterburq, Moskva və b. şəhərlərdə kitab mağazaları şəbəkələri açmışdır. Burada həm bahalı, həm də nisbətən ucuz qiymətə kitablar satılırdı. 1880-ci ildən A.Suvorin «ucuz kitabxana» («дешевая библиотека») seriyası altında XVIII-XIX əsr rus yazıçılarının əsərlərini və qədim rus ədəbiyyatını nəşr etməyə başlamışdır. Kostroma kəndlisi olan İ.Setin Moskva kitab dükanında işə başladıqdan sonra öz litoqrafiyasını açaraq primitiv şəkillər satmağa başlamışdır. XX əsrin əvvəllərində böyük kitab inhisarçısına çevrilən Setin xalq üçün maarifləndirici ədəbiyyat buraxmağa başlamışdır. O, «şəxsi təhsil üçün kitabxana» («библиотека для самообразования») seriyası altında tarix, fəlsəfə, iqtisadiyyat, coğrafiyaya aid kitablar buraxmışdır. İ.D.Setinin buraxdığı milyonlarla əlifba, dərslik və uşaq kitabları bütün Rusiyada yayılmışdı. «Bilik» («Знание») nəşriyyatı cəmiyyəti realist yazıçılar İ.A.Bunin, A.İ.Kuprin, L.N.Tolstoy, A.P.Çexov və b. əsərlərini çap etmişdir. 1910-cu ildən nəşriyyata M.Qorki rəhbərlik etməyə başlamışdır ki, məşhur müəlliflərlə yanaşı, yeni fəaliyyətə başlayan ədiblərin də əsərləri nəşr edilmişdir. Bu dövrün ən yaxşı ensiklopedik nəşri 1890-1907-ci illərdə Peterburqda nəşr edilmiş Broqauz və Efronun ensiklopediyası olmuşdur.

Təhsil və xalq maarifinin inkişafında XX əsrin əvvəllərində 76 minə çatan kitabxanalar əhəmiyyətli rol oynamışdır. Onların çoxu təhsil müəssisələrinin nəzdində fəaliyyət göstərirdi.

Elmi biliklərin inkişafı ilə bağlı olaraq Rusiya cəmiyyəti dəyişiklik axtarışında idi. Qəzet və jurnalların səhifələrində dərc edilmiş yazılarda insanların həyatını dəyişəcək texniki tərəqqinin əhəmiyyətindən bəhs olunurdu. Elm həyatı asanlaşdırmaqla bərabər, insanlığın inkişafı üçün yeni perspektivlər nəzərdə tuturdu. Odur ki, elmə daha çox gənc adamlar meyil etməyə başlamışdır. 1899-cu ildə Rusiyada 2,5 min, 1913-cü ildə isə demək olar ki 5 min alim olmuşdur. Dahi alim və ixtiraçı Konstantin Eduardoviç Tsiolkovski (1857-1935) reaktiv mühərriklər nəzəriyyəsini işləyib hazırlamış, riyazi hesablamalar əsasında dünyada ilk dəfə raketə oxşayan aparatın köməyi ilə kosmosa uçuşun mümkünlüyünü sübut etmişdir.

Bir neçə bilik sahəsini birləşdirərək yeni elm – biogeokimyanı yaratmış mütəfəkkir, böyük alim Vladimir İvanoviç Vernadski (1863-1945) minerologiya, biologiya, torpaqşünaslıq, poleontologiya kimi müxtəlif elm sahələri ilə məşğul olmuşdur. İdrak sahəsi nəzəriyyəsini hazırlayan V.Vernadskiyə görə, müasir mərhələdə insan fəaliyyəti planetdə geoloji dəyişikliklərin əsas faktoruna çevrilmişdir.

Fiziologiya sahəsində Vladimir Mixayloviç Bexterev (1857-1927) baş beyin, əsəb və psixi xəstəliklərin öyrənilməsində mühüm nəticə əldə etmişdir. Fizioloq İvan Petroviç Pavlov (1849-1936) şərti reflekslər haqqında təlim yaratdı ki, bu da insan beynində gedən bir çox prosesləri aydınlaşdırmağa şərait yaratmışdır. 1904-cü ildə alim Nobel mükafatına layiq görülmüşdür. Kliment Arkadyeviç Timiryazev (1843-1920) işığın təsiri altında yaşıl bitkilərin havadan karbon qazını alması prosesini kəşf etməsi, bitkilərin fiziologiyası sahəsindəki tədqiqatları zənginləşdirmişdir. Nikolay Dmitriyeviç Zelinski (1861-1953) üzvi kimya məsələlərinin tədqiqi ilə məşğul olaraq xüsusi elmi fənn kimi neft kimyasını yaratmışdır. Birinci Dünya müharibəsində geniş istifadə edilmiş əleyhqazın meydana çıxması onun fəaliyyətinin nəticəsi olub, alimə dünya şöhrəti gətirmişdir. Böyük alim bu kəşfi üçün patent almaqdan, başqalarının bədbəxtliyi hesabına zənginləşmək olmaz deyərək imtina etmişdir.

Fizika sahəsində Pyotr Nikolayeviç Lebedev (1866-1912) dalğa prosesini, işıq təzyiqinin mövcudluğunu araşdırmış, Abram Fyodoroviç İoffe isə 1913-cü ildə elektron yükünü müəyyən etmişdir. Riyaziyyat sahəsində Sankt-Peteburq Universitetində çalışan Andrey Andreyeviç Markov (1856-1922) nisbilik nəzəriyyəsinə böyük töhfə bəxş etmişdir. Riyazi fizikanın problemləri ilə Vladimir Andreyeviç Steklov (1863-1926) məşğul olmuşdur. Aleksandr Mixayloviç Lyanunov (1857-1918) differensial tənlikləri bərabərliyin sabitliyi nəzəriyyəsini yaratmışdır. Mexanika sahəsində məhsuldar işləyən Nikolay Yeqoroviç Jukovski (1847-1921) hava uçuşu və təyyarəqayırmanın nəzəri əsaslarını yaratdı. Onun tələbəsi İqor İvanoviç Sikorski (1889-1972) 1908-ci ildə sadə vertolyot dü-

zəltdi. 1912-1914-cü illərdə İ.Sikorski «Russkiy vityaz» və «İlya Muromets» təyyarələrini yaratdı. 1911-ci ildə mexanik-alim Q.Y.Kotelnikov arxaya bağlanan birinci paraşutu kəşf etdi. 1896-cı ildə P.A.Frezenin Peterburqdakı baraban emalatxanasında birinci rus avomobili yığılmışdır. 1909-cu ildə isə Riqanın «Russo-Balt» zavodunda onun seriyalı istehsalı başlamışdır.

XX əsrin əvvəllərində geofizika və geologiya tədqiqatları ilə bağlı böyük elmi ekspedisiyalar təşkil olunmuşdur. 1912-ci ildə Q.Y.Sedovun Şimal qütbünə ekspedisiyası təşkil edilmişdir. V.A.Obruçev Cənubi Baykal, Sibir, Mərkəzi və Orta Asiyada genişmiqyaslı geoloji tədqiqatlar aparmışdır. 1900-1902-ci illərdəki Qütb ekspedisiyası zamanı etdiyi kəşflərə görə A.V.Kolçak Rus Coğrafiya Cəmiyyətinin həqiqi üzvü seçilmişdir. Rus Hidroqrafik ekspedisiyası «Vayqaç» buzqıranı ilə 1913-cü ildə Şimal Buzlu okeanda arxipelaq kəşf edərək onu Şimal torpağı adlandırmışdır. 1914-1915-ci illərdə «Vayqaç» buzqıranı birinci dəfə şimal dəniz yolu ilə Vladivostokdan Arxangelə səfər etmişdir.

XX əsrin əvvəllərində humanitar elmlər, o cümlədən tarix elmi sahəsində mühüm tədqiqatlar aparılmışdır. Aleksandr Sergeyeviç Lappo-Danilevski (1863-1919) Stanislavskinin teatr sisteminə bənzəyən özünün tarixi dərk etmək nəzəriyyəsini hazırlamışdır. Müəllifə görə keçmişdəki insanı dərk etmək üçün çalışıb özünü onun yerinə qayaraq çox əsr bundan qabaq onu əhatə edən şəraiti təsəvvür etmək lazımdır. Aleksey Aleksandroviç Şaxmatov (1864-1920) «Ötən illərin dastanı» salnaməsini tədqiq edərək sənədin tarixinin müəyyən edilməsi sayəsində mühüm işlər görmüşdür. Pavel Nikolayeviç Milyukov (1859-1943) «Rus mədəniyyəti tarixi üzrə oçerklər» («Очерки по истории русской культуры») əsərində rus mədəniyyətinin özünəməxsus xüsusiyyətə malik olmasından, ümumi yolun isə əsasən Qərbi Avropa qaynaqlanmasından bəhs edir.

Hüquq elmləri sahəsində hüquqşünas, sosioloq, tarixçi, iqtisadçı, Maksim Maksimoviç Kovalevski (1851-1916) dünya miqyasında tanınmışdır. O cəmiyyətin təkamülünü, bir inkişaf mərhələsindən digərinə keçməsini tədqiq etmişdir. Öz qurduğu təlimdə dövlətə böyük yer ayıran alim belə hesab edir ki, dövlət inqilabi sarsıntıdan qaçmaq məqsədilə genişmiqyaslı islahatlara yer verməlidir. Pavel İvanoviç Novqorodtsev (1866-1924) belə hesab edirdi ki, bütün qanunların əsasında insanın ədalətə can atması dayanır. Onun haqqında təsəvvürlər isə daim dəyişir, cəmiyyətin meyil etdiyi yeni ideallar meydana çıxır. Bu hüquq normalarının yenilənməsinə səbəb olur. Əgər qanunlar ədalət haqqında cəmiyyətin təsəvvürləri ilə düz gəlmirsə, onda inqilab qaçılmaz olur.

XIX əsrin əvvəllərində Rusiyada təhsil geniş yayılaraq biliklərə tələbat artmış, elmə inam möhkəmlənmişdir. Bütün bunların sayəsində dünyaya baxış və həyat tərzi dəyişilməyə başlamışdır.

# XVII FƏSİL
# RUSİYA I DÜNYA MÜHARİBƏSİNDƏ

## §1. Birinci Dünya müharibəsi ərəfəsində Rusiyanın xarici siyasəti

XX əsrin əvvəllərində aparıcı dünya dövlətləri arasında hərbi-strateji ittifaqların cizgiləri aydınlaşmağa başladı. Dünya siyasətində imperiya maraqları və baş məqsəd ikincidərəcəli ziddiyyətləri arxa plana sıxışdırdı. Belə ki, əsas dünya hadisələri Paris, London, Berlin və Peterburqda şəkilləndiyi üçün bu dörd dövlətin münasibətləri ümumi geosiyasi şəraiti müəyyən edirdi.

London və Berlin arasındakı qarşılıqlı iddia getdikcə daha keçilməz sədd yaradırdı. Hərbi-strateji «Üçlər ittifaqı»nın və Rusiya-Fransa ittifaqının mövcud olması şəraitində Böyük Britaniyanın təklikdə qalması getdikcə çətinləşirdi. Avropada hərbi toqquşma ada vəziyyətində olan ölkənin təhlükəsizliyinə təminat vermirdi. Digər bir tərəfdən, Almaniya güclü hərbi dəniz donanması yaradaraq onun köhnə coğrafi üstünlüyünü şübhə altına almışdır. Əsrin əvvəllərində Böyük Britaniya və Fransa aralarında olan fikir ayrılığını dəf edərək ittifaq müqaviləsi bağladı. Bu çətin olsa da, Londonla Peterburqun mövqelərinin yaxınlaşmasına imkan verdi. Belə bir şəraitdə hər iki tərəfin maraqları köhnə qarşılıqlı iddiaların aradan qaldırılmasını tələb edirdi.

1906-cı ildə Rusiya ilə Böyük Britaniya arasında hər iki imperiyanın Asiyadakı ixtilafı həll etmək məqsədilə diplomatik danışıqları başladı. 1907-ci ilin yazına kimi davam etmiş danışıqlar nəticəsində elan edildi ki, tərəflər məqsədlərinə çatmağa yaxındır.

1907-ci ilin avqustun 18 (31)-də Rusiya ilə Böyük Britanya arasında ittifaq müqaviləsi imzalandı. İngiltərə formal olaraq Çinə, faktiki özünə tabe olan Tibetdən əl çəkdi, hər iki tərəf bu rayonda Çinin suverenliyini qəbul etdi. Rusiya Əfqanıstana olan iddiasından əl çəkdi, hər iki tərəf bu dövlətin toxunulmazlığı və müstəqilliyinə hörmət etməyi vəd verdi. Persiya (İran) Rusiya ilə Böyük Britaniya arasında üç nüfuz dairəsinə ayrıldı. Şimal hissə Rusiyanın ticarət və strateji maraq dairəsinə, şərq hissə Böyük Britaniyanın nüfuz dairəsinə daxil olur, mərkəzi hissə isə bitərəf qalırdı. Eyni zamanda London və Peterburq Persiyanın (İran) ərazi bütövlüyünə və toxunulmazlığına zəmanət verirdi. 1907-ci ilin sonlarında Fransa, Rusiya və İngiltərə geosiyasi ittifaq yaratmaq işini başa çatdırdı. «Üçlər sazişi» («Antanta») adını almış ittifaqın yaranmasına baxmayaraq, Peterburqla London arasında hərbi konvensiya imzalanmamışdı. Avropada Almaniyanın hegemonluq təhlükəsinin artması tərəflərin maraq və mövqeyinin yaxınlaşmasına şərait yaradırdı.

1908-ci ildə London ilə Peterburqun münasibətərində növbəti bir mühüm hadisə baş verdi. Mərhum kraliça Viktoriyanın oğlu İngiltərə kralı VII Eduard ilk dəfə olaraq Rusiyaya səfərə gəldi. Səfər uzun müddət Böyük Britaniyada müzakirə obyekti olmuşdur. Ölkədəki liberal baxışlı ictimai rəy Rusiyadakı «despotik hakimiyyət»i nəzərdə tutaraq əlahəzrət kralın belə bir ölkəyə səfərini məqsədəuyğun hesab etmirdi. Lakin hakim sülalələrin qohumluq əlaqələrini heç kim şübhə altına almırdı. Dul qalmış rus çariçası Mariya Fyodorovna ingilis kraliçası, VII Eduardın həyat yoldaşı Aleksandranın doğma bacısı idi. II Nikolayın arvadı kraliça Viktoriyanın nəvəsi idi. II Nikolay isə 1910-cu ildən İngiltərənin kralı olan V Georgun xalası oğlu idi.

Nəticədə Rusiya üçün əlverişli hesab edilməyən, İngiltərəni isə qane edən kral ilə çar arasındakı görüşü Reveldə (Tallin) keçirmək qərara alındı. Dəqiq olaraq şəhərdə deyil, Revel limanındakı Rusiyanın ərazi sularında kral və çar yaxtalarında görüşüb danışıqlar aparan monarxlar ilk dəfə Almaniya ilə müharibə məsələsini müzakirə etmişdir. İngilislər çarı hərbi mövqeləri gücləndirərək qarşıdakı toqquşmaya hazırlaşmağa çağırırdı. Rusiya isə belə hesab edirdi ki, qarşıya çıxan ziddiyətləri diplomatik yolla həll edərək müharibədən qaçmaq mümkündür. Bir çox məsələdə tam fikir birliyi olmasa da, yekun sənədində elan edilmişdi ki, bütün beynəlxalq məsələlər üzrə tam rəy birliyi ifadə edilmişdir.

Fransa ilə ittifaq müqaviləsi, İngiltərə ilə müqavilə imzalamış Rusiya başqa dövlətlərə, xüsusilə Almaniyaya qarşı düşmən münasibət nümayiş etdirməmişdir. Berlinlə Peterburq arasındakı münasibətlər rus diplomatiyasının, xüsusilə çarın daim diqqət mərkəzində olmuşdur. Hətta Birinci Dünya müharibəsi başladıqdan sonra belə həm Rusiya, həm Almaniya tərəfində düşünürdülər ki, tarixi taleyi, qohumluq-sülalə əlaqələri, sıx ticarət münasibətləri olan iki monarxiya necə olmuşdur ki, cəbhənin fərqli tərəflərində mövqe tutmuşdur. Birbaşa ziddiyyətin, bir-birinə qarşı ərazi iddialarının olmaması şəraitində belə bir mövqe, gec də olsa, hər iki tərəfi ağır nəticələr doğura biləcək qarşıdurmanın nəticəsinə görə narahat edirdi.

Rusiyadakı liberallar «parlamentarizm» və «demorkratiya»nı nəzərdə tutaraq İngiltərə və Fransa yaxınlaşmaq tərəfdarı idi. Almaniya ilə yaxınlaşmağa onlar «irticaçı kursun» meydana çıxması kimi baxırdı. Berlinlə yaxınlaşmaq tərəfdarı mühafizəkarlar düşünürdü ki, yalnız bu yolla Avropa və Rusiyada mütləqiyyət ideyasını, mühafizəkarlıq ənənəsini müdafiə etmək olar.

Rusiya ilə Almaniya arasındakı XIX əsrdə, xüsusilə XX əsrin əvvəllərindəki mürəkkəb münasibətlər bir sıra faktorla bağlıdır. İlk dövrdə yadlaşma, sonra pis gizlədilməyə çalışılan düşmənçilik, nəhayət, hərbi qarşıdurmada bir çox səbəblər, xüsusilə ən başlıcası sonuncu çarla kayzerin şəxsi münasibətləri rol oynamışdır.

II Vilhelm hələ Prussiyanın kralı və Almaniyanın imperatoru olana kimi qohumlar arasında pis nüfuz sahibi olmuşdur. Nənəsi, ingilis kraliçası Viktoriya ona gizlədilməsi mümkün olmayan antipatiya bəsləyirdi. Anası alman imperatriçəsi, imperator III Fridrixin arvadı, Viktoriyanın qızı ingilis şahzadəsi Viktoriya Frederika sadəcə olaraq oğluna nifrət edir və tez-tez bunu əyani olaraq nümayiş etdirirdi. Onu qəlbsiz, qaba, dəlisov və alçaq bir adam hesab edirdilər.

Yaxşı təhsil görməsinə baxmayaraq, qayğı və sevgidən uzaq uşaqlıq yaşamış şahzadə qapalı, çox halda insanlardan uzaq həyat sürərək şərəf və heysiyyatını qeyri-normal formada qorumaqla məşğul idi. 1918-ci ildəki Almaniya inqilabından sonra Hollandiyaya qaçan kayzer haqqında vətənində təsdiq etdilər ki, o, «psixoloji xəstə insan» («был психологически больным человеком») olmuşdur. Lakin belə bir izahat əsl həqiqəti ifadə edə bilməz.

Vilhelm 1859-cu ildə, Nikolay isə 1868-ci ildə anadan olmuşdu. Onlar hələ Rusiyada III Aleksandr və Almaniyada kayzerin babası I Vilhelm taxtda olduqda tanış olmuşdu. Bir şəxsiyyət kimi fərqli insanlar olan rus və alman taxtının gələcək sahibləri dost ola bilməsələr də, uzun illər bir-biri ilə əlaqə saxlayaraq məktublaşmışdılar. II Nikolay taxta çıxdıqdan sonra alman imperatoru «böyük qardaş» rolu ifa etməyə çalışaraq ona məsləhət verməyə, fikir aşılamağa cəhd etmişdir. Çar və çariçanı kayzerin davranış tərzi, müraciət və nitqinin vadaretmə üslubu əsəbləşdirirdi. Aleksandra Fyodorovna hələ gənc yaşlarından yaxın qohumu kayzeri xoşlamır və onunla hər bir görüş və əlaqədən qaçırdı. Qəribə təsadüfdür ki, Birinci Dünya müharibəsi vaxtı kayzerə nifrət etmiş rus çariçasını «Vilhelmin casusu» kimi damğalamışlar. Nəticə etibarilə bu şəxsi antipatiya Rusiya-Almaniya dövlətlərarası münasibətlərində ixtilafa səbəb olmuşdur.

Kayzer davamlı olaraq Rusiya çarına Almaniya ilə Rusiya arasında dostluq münasibətlərini yaratmaq təklifi ilə çıxış edirdi. Bu mənada II Nikolayı inandırmağa ehtiyac yox idi. «İstəkli Villi»nin təklifləri çox halda Rusiyanın geosiyasi üstünlük verdiyi maraqları ilə uyğun gəlmirdi. Kayzerə görə əsl yaxınlaşma məqsədilə Rusiya Fransa ilə olan ittifaqını etibarsız hesab etməli, İngiltərə ilə bütün yaxınlaşmadan imtina etməli, özünün əsas diqqətini Avropanı hədələyən «sarı təhlükə»yə («желтая опасность») qarşı Şərqə, Asiyaya yönəltməlidir. Bu, II Vilhelmin daim təkrarladığı sevimli dəlili olmuşdur.

Qədim zamandan Rusiyanın maraq dairəsinə daxil olan Balkan məsələsi ilə bağlı olaraq XIX əsrin sonlarından Türkiyə ilə yanaşı, Almaniyanın yaxın tərəfdaşı və müttəfiqi Avstriya-Macarıstan da Rusiyanın mövqeyinin möhkəmlənməsini istəmirdi. Vyana ilə sıx alyans təşkil edən alman imperatoru çarla olan danışıq və yazışmalarında bu məsələdən yan keçməyə çalışırdı. Lakin bu mühüm məsələni unutmaq mümkün deyildi. Məhz Birinci Dünya müharibəsinin qığılcımı Balkanlarda od almışdı.

Alman imperatorunun himayəsi Rusiyanın xarici siyasət xəttinə əsaslı təsir göstərə bilməmişdir. Berlində belə hesab edirdilər ki, Fransa ilə Rusiya arasındakı müqaviləyə görə Rusiya Almaniya ilə dostluğa bel bağlaya bilməz. Fransa-Prussiya müharibəsi zamanı Fransadan zorla qoparılmış Elzas və Lotaringiya ərazisi hər iki dövlət arasında mübahisənin keçilməz səddi idi. Berlin bu ərazilərin qaytarılmasını müzakirə etməkdən belə imtina edir, Fransa isə «hərbi zor» gücünə ələ keçirilmiş əraziləri geri tələb edirdi.

1905-ci il iyun ayında kiçik fin adasında görüşən çar və kayzer Byörk müqaviləsini imzalamışdır. Bu zaman ümumi vəziyyət Rusiya üçün əlverişli deyildi. 1905-ci ilin mayında Tsusima döyüşündə rus donanması məğlub olmuşdur, ölkə daxilində həyəcanlar artaraq davam edirdi. Dünyanın diplomatiya səhnəsində də vəziyyət gərgin olaraq qalırdı. 1904-cü ildə Fransa İngiltərə ilə müqavilə imzalayaraq praktik olaraq Uzaq Şərq böhranı zamanı Rusiyaya heç bir yardım göstərməmişdir. Bu şəraitdə çar öz «Qoqensallern» yaxtasında Vıborq yaxınlığındakı Byörkə gələn alman imperatoru ilə görüşməyə razı olmuşdur. Rusiyanın ağır siyasi vəziyyətindən istifadə edən kayzer gözlənilmədən çara müttəfiqlik müqaviləsi bağlamağı təklif etdi və əlavə olaraq bildirdi ki, gələcəkdə Fransa da müqaviləyə qoşula bilər. Diplomatik təcrid şəraitindən çıxmaq və Avropada sülhü diplomatik danışıqlar yolu ilə həll etmək imkanını nəzərdə tutan II Nikolay tərtib olunmuş mətnin vərəqində imzasını çəkdi ki, bu da «təsadüfən» kayzerin cibinə düşdü.

İki monarxın əcdadlarını belə yad edərək imzaladığı müqavilənin birinci maddəsində göstərilmişdi ki, hər iki tərəf vəd edir ki, onların hər hansı birinə hücum olarsa, digər tərəf bütün quru və dəniz gücü ilə müttəfiqinin köməyinə gəlməlidir. Sonra qeyd edilirdi ki, tərəflər düşmənlə seperat razılıq bağlamamaq vəzifəsini öz üzərinə götürür. Rusiya vəd edirdi ki, müqavilə qüvvəyə minənə kimi Fransanı məsələdən xəbərdar etməyəcək. Byörk razılaşmasında Rusiyanın azad diplomatik hərəkət etməsi şərti ondan ibarət idi ki, müqavilə yalnız Yaponiya ilə sülh müqaviləsi imzaladıqdan sonra qüvvəyə minə bilərdi.

Müqavilə ilə tanış olan Rusiyanın xarici işlər naziri qraf V.N.Lamzdorf və sonra 1905-ci ilin payızında hökumətin sədri S.Y.Vitte imperatoru inandırırdılar ki, Fransanın mənafeyinə zidd olduğu üçün müqavilədən imtina etsin. Fransa ilə ittifaqa sadiq qalan çar 1905-ci il noyabrın 13-də Vilhelmə məktub yazaraq təklif etdi ki, müqavilənin birinci maddəsinə əlavə olunsun ki, Almaniyanın Fransa ilə müharibə edəcəyi təqdirdə Rusiya Rusiya-Almaniya-Fransa ittifaqı təşkil edilənə kimi Fransa ilə müqaviləsinə əməl edəcəkdir. İncə düşünülmüş təklifdən sonra Rusiya-Almaniya müqaviləsi yenidən imzalanmadan tarixə çevrildi. Baxmayaraq ki, Birinci Dünya müharibəsinə kimi məsələyə dair danışıqlar həm Almaniyada, həm də Rusiyada davam etmişdir.

XX əsrin əvvəllərindəki ittifaq sisteminin mövcud olması dünyadakı ümumi sabitliyi və mövcud status-kvonu təmin edə bilməmişdir. İmperiya mənafeyi, dünyanın aparıcı dövlətlərinin maraqları istər-istəməz Avropadakı incə bərabərliyi pozaraq daim gərginlik yaradırdı. Bunun əsl mərkəzi Balkanlar idi. XX əsrin əvvəllərində burada baş verən üç böyük hadisə dünya dövlətlərini qarşı-qarşıya gətirmişdir. 1914-cü ildəki dördüncü münaqişə isə dünya müharibəsi ilə yekunlaşmışdır.

1908-ci ildə Avstriya-Macarıstanın əsasən serblərdən ibarət olan Bosniya və Hersoqovinanı ilhaq etməsi «Rusiya böhranına» səbəb oldu. Bu rayon formal olaraq daxili qarışıqlıq və inqilabla mübarizə edən Osmanlı imperiyasının tərkibinə daxil idi. Ərazinin Serbiyaya birləşdirilməsini ehtimalını nəzərə alan Vyana belə bir addım atmışdır. Heç bir yerdən kömək ala bilməyən Türkiyə pul təzminatı müqabilində ilhaqa razı olmuşdur. Balkan yarımadasının digər iki dövləti Serbiya və Çernoqoriya Osmanlı imperiyasının asılılığından azad olduqdan sonra yenidən növbəti güclü müdaxilənin ön xəttində olmaq istəməyərək bu ilhaqa qarşı çıxdı. Onların ənənəvi «böyük qardaş»ı Rusiya isə «kiçik qardaş»a kömək etmək iqtidarında deyildi. Odur ki, iş diplomatik etiraz notası ilə bitmiş oldu.

Dörd ildən sonra 1912-ci ilin payızında Balkanlarda ümumavropa müharibəsinə çevrilmək təhlükəsi yaradan növbəti, yeni böhran meydana gəldi. Bu zaman Türkiyə hələ Avropa qitəsində öz tabeliyində olan yerlərə sahib idi. Albaniya, Bolqarıstanın cənub hissəsi, yəni Frakiya, Yunanıstanın şimal rayonları, yəni Epir və Makedoniya Türkiyəyə məxsus idi. Osmanlı imperiyasının daxilən zəifləməsi qonşu dövlətlərin onun ərazilərinə göz dikməsinə şərait yaratdı.

1912-ci ilin oktyabrında Bolqarıstan, Yunanıstan, Çernoqoriya və Serbiya Osmanlı dövlətinə qarşı 600 minlik ordu çıxardı. Türk ordusu bir neçə məğlubiyyətdən sonra 1912-ci il noyabrın əvvəlində müttəfiqlər İstanbulun 40 kilometrliyində möhkəmləndi. Türklər sülh istədi, böyük Avropa dövlətləri narahat olmağa başladı. Rusiya istəmirdi ki, Bolqarıstan İstanbulu tutub Qara dəniz boğazlarına nəzarət etsin. Odur ki, Peterburq sərt formada Sofiyadan hücumu dayandırmağı tələb etdi. Avstriya və onun arxasında dayanan Almaniya Serbiyanın güclənməsini istəmirdi, odur ki, sərhədə qoşun yığmağa başladı. 1912-ci ilin dekabrında müharibə edən tərəflər sülh bağladı. Londonda Avropa dövlətlərinin səfirləri Balkanlardakı siyasi vəziyyəti təsbit etmək məqsədilə bir araya gəldilər.

1913-cü ilin iyununda regionda yeni münaqişə yarandı. Birinci Balkan müharibəsindəki müttəfiqlər Osmanlı mülklərini bölüşdürməkdə ümumi bir rəyə gələ bilmədikləri üçün Serbiya, Yunanıstan, Çernoqoriya və dünənki

«tarixi düşmən» Osmanlı imperiyasının iştirakı ilə Bolqarıstana qarşı çıxdılar ki, müttəfiqləri Rumıniya da müdafiə etdi. Müttəfiqlərin hər biri böyük ərazilər ələ keçirən Bolqarıstandan öz xeyrinə torpaq tələb edirdi. Berlin və Vyananın köməyinə bel bağlayan Bolqarıstan tələbləri rədd edərək 1913-cü il iyunun 30-da serb və yunan mövqeyinə hücum etdi. Yazda müharibəyə qoşulan digər müttəfiqlərlə birlikdə bolqar ordusunun müqaviməti qırıldı. İyulun 29-da Bolqarıstan təslim oldu. Buxarestdə imzalanmış sülh müqaviləsinə görə, Bolqarıstan cənub, qərb və şimalda xeyli ərazi itirdi. Balkanlarda əldə edilmiş müvəqqəti bərabər sakitlik nə iki Balkan müharibələri iştirakçılarını, nə də onların Vyana, Berlin, London və Peterburqdakı havadarlarını qane edirdi. «Balkan düyünü» («Балканский узел») çözülməmişdi.

Balkan böhranı ilə bağlı olaraq Rusiya diplomatik fəaliyyəti və çarın mövqeyi nəticəsində birbaşa qarşıdurmadan qaça bilmişdir. Çar belə hesab edirdi ki, Avropada sülhü təhlükəyə atmaq yerinə, güzəştə getmək daha məqsədəuyğundur. Eyni zamanda Bosniya böhranı ilə əlaqədar olaraq Rusiya cəmiyyətinin həm liberal, həm də mühafizəkar hissəsi «slavyan qardaşlara» real kömək tərəfdarı idi. Dördüncü Dövlət Dumasının sədri M.V.Rodzyanko və iri Duma fraksiyasının liderləri II Nikolayı müharibəyə müdaxilə etməyə çağırsalar da, bu baş tutmamışdır.

«Osmanlı irsi»ni bölmək uğrunda müharibə ümumavropa münaqişəsinə çevrilməsə də, beynəlxalq miqyasdakı gərginlik davam etmişdir. Almaniya və Fransa geniş miqyasda silahlanma proqramı həyata keçirir, Rusiya da onlardan geri qalmırdı. Milliyətçilik meyilləri artmaqda davam edirdi. 1913-cü ilin yazında Almaniyanın kansleri Betman-Qalveq reyxstaqda orduya yeni kredit ayrılmasının səbəbini Almaniyanı «slavyan dalğasının» («славянская волна») təhükəsi ilə qarşılaşmaqla əlaqələndirmişdir.

1913-cü ilin mayında II Nikolay kayzerin qızı Braunşveyqsk hersoquna ərə gedən şahzadə Viktoriya Luizanın toy məclisində iştirak etmək üçün Berlinə gəlmişdi. Bu, Rusiya monarxının Almaniyaya sonuncu səfəri olmuşdur. II Vilhelmlə danışıqlar aparan II Nikolay bildirdi ki, Rusiya Avstriyanın Balkanlardakı işğallardan əl çəkməsi müqabilində türklərin Qara dəniz boğazlarına olan iddiasından imtina etmək məqsədindədir. Məsələyə heç bir münasibət bildirməyən Almaniya tərəfi ümumi danışıqla kifayətlənmişdir.

1914-cü ilin əvvəlində iki hərbi-siyasi ittifaqın sərhədi dəqiq müəyyən olunmuşdu. Avropa dövlətləri arasında iki ittifaq oxu ətrafında qruplaşma baş vermişdir: Berlin-Vyana və Paris-London-Peterburq. Dünyanın taleyini yalnız möcüzə xilas edə bilərdi ki, o da baş vermədi.

## §2. Birinci Dünya müharibəsinin başlanması. Hərbi əməliyyatların gedişi

1914-cü ilin birinci yarısında Avropanın siyasi vəziyyəti Rusiyanın daxili şəraitinə əhəmiyyətli təsir göstərməmişdir. İctimai və iqtisadi həyat sakit və sabit olaraq qalmışdı. Rus ordusu yenidənqurma şəraitində inkişaf edərək nəticə verməyə başlamışdı.

1914-cü il iyulun əvvəlində Fransa Respublikasının prezidenti R.Puankare rəsmi səfər çərçivəsində Rusiyaya gəlmişdir. Dörd gün ərzində ona müttəfiqlik münasibətlərini dünyaya nümayiş etdirən dəbdəbəli qəbullar, parad, baxış və təntənəli qonaqlıqlar təşkil edilmişdi.

1914-cü il iyulun 15-də dünya münaqişəsi qızışdı, Avstriya-Macarıstan imperiyası kiçik Serbiyaya müharibə elan etdi. Slavyan xalqlarının tarixi havadarı Rusiya iyulun 17-də səfərbərlik işinə başladı. Buna cavab olaraq Avstriya-Macarıstanın müttəfiqi Almaniya iyulun 19-da (avqustun 1-də) Rusiyaya müharibə elan etdi. Beləliklə, bu zamandan etibarən müharibə dünya müharibəsinə çevrildi.

1914-cü ilin iyununda Sarayevoda Avstriya taxtının vəliəhdi ersthersoq Frans-Ferdinand sui-qəsd nəticəsində öldürüldükdən sonra hadisələr qarşılıqlı toqquşmaya doğru gedirdi. Avstriya ultimativ formada Serbiyadan tələb etdi ki, onun ərazisində fəaliyyət göstərən terrorçu-partizanları təhvil versin və Avstriya ordusunu öz ərazisinə buraxsın. Belə bir təklif qəbul edilə bilməzdi, odur ki, böyük dövlətlərin münasibətləri aydınlaşdırılması ilk sıraya yerləşdi.

Frans-Ferdinanda alçaq sui-qəsd çarı ürəkdən həyəcanlandırmışdı. O bu aktın təşkili ilə bağlı Vyana və Berlinin sərt mövqeyini qəbul edirdi, lakin Serbiya hökumətinin bu işdə iştirakını qəbul etməyərək Avstriyanın ona repressiya tətbiq etməsinə qarşı çıxırdı. Rusiya xüsusilə Serbiyanın darmadağın edilərək slavyan dövləti olaraq başqa ölkə tərəfindən ilhaq edilməsinə yol verə bilməzdi. Sui-qəsddən keçən üç həftə ərzində Rusiya Xarici İşlər Nazirliyinin gərgin diplomatik fəaliyyəti, alman imperatoru II Vilhelmlə rəsmi yazışmalar tərəflər üçün münasib olan kompromisə gətirib çıxarmadı.

Rusiyanın sonuncu imperatoru müharibə istəmirdi. Rus-yapon müharibəsinin dərsləri sübut etmişdi ki, müharibədəki hər bir uğursuzluq inqilabi partlayış üçün zəmin hazırlayır. Rus ordusunda yenidən silahlanma kampaniyası hələ başa çatmamışdı. Onun texniki və atəş gücü Almaniya ordusundan geri qalırdı. Bütün bunları başa düşən II Nikolay digər bir tərəfdən əxlaqsız hərəkət edərək dost ölkəni düşmənin parçalamasına razı olub Rusiyanın dünyadakı etibarını itirməməsi üçün çıxılmaz vəziyyətdə müharibəni seçməyə məcbur olmuşdur. Ordunun başına I Nikolayın nəvəsi, çarın əmisi oğlu Nikolay Ni-

kolayeviç (kiçik) təyin olundu. O 1895-1905-ci illərdə süvari ordunun general inspektoru, 1905-1908-ci illərdə Müdafiə Şurasının sədri, sonra qvardiya ordusunun və Peterburq hərbi dairəsinin komandiri olmuşdur. Müharibə başladıqdan bir ay sonra Peterburq şəhərinin adı dəyişdirilərək Petroqrad olmuşdur. Vəzifəyə təyin edilmiş Romanovun ordu və zabit heyəti arasında xüsusi nüfuza sahib olması onun Rusiyanın bütün silahlı qüvvələrinin Baş komandanı təyin edilməsində əsas rol oynamışdır.

1914-cü il iyulun 19-da (avqustun1-də) Rusiyaya müharibə elan edən Almaniya ertəsi gün Lüksemburqu işğal etdi və iyulun 21-də Fransaya müharibə elan etdi. İyulun 22-də alman ordusu bitərəf ölkə olan Belçikada irimiqyaslı hərbi əməliyyata başladı. Həmin gün Böyük Britaniya Almaniyaya müharibə elan etdi. Bunun ardınca onun dominionları olan Avstraliya, Yeni Zellandiya, Kanada, Cənubi Afrika İttifaqı reyxə müharibə elan etdilər. 1914-cü ildə Yaponiya və Misir Antanta tərəfindən, Bolqarıstan və Osmanlı dövləti mərkəzi dövlətlərin tərəfindən müharibəyə qoşuldu. Beləliklə, dünya müharibəsində 33 dövlət iştirak etmişdir.

1914-cü ilin avqustunda Rusiyada təqribən 2,5 mln., Fransada 2,689 mln., Almaniyada 2,147 mln., Avstriya-Macarıstanda 1,412 mln., İngiltərədə 567 min hərbi qoşun mövcud olmuşdur. Müharibənin başlanğıcında Antanta ölkələrinin təqribən 14 min artilleriya topu, 412 təyyarəsi, mərkəzi dövlətlərin isə 14 min topu və 232 təyyarəsi var idi.

Müharibənin birinci günü, 1914-cü il iyulun 20-də Qış sarayında imperiyanın ali rütbəli şəxslərini qəbul edən II Nikolay onlara bu sözlərlə müraciət etmişdir: «Mən burada təntənəli elan edirəm ki, sonuncu düşmən döyüşçüsü bizim torpağı tərk edənə kimi sülh bağlamayacam» («Я здесь торжественно заявляю, что не заключу мира до тех пор, пока последний неприятельский воин не уйдёт с земли нашей»). Bu anda axıra kimi sadiq qalmış imperator dedi-qodulara baxmayaraq, düşmənlə seperat danışıqların qəti əleyhinə olmuşdur. İmperatriçə Aleksandra Fyodorovna yarım alman olmasına, Almaniyada yaxın qohumlarının qalmasına baxmayaraq, almanpərəst əhvali-ruhiyyə göstərməmişdir. Lakin çariçanın satqınlığına dair şayiələr ölkədə və orduda monarxiya əleyhinə əhvalın yayılmasına səbəb olmuşdur.

Müharibənin ilk aylarında hakimiyyəti ləkələyən şaiyələr meydana gəlməmişdir. Ölkədə minlərlə əhali əllərində milli bayraqlar, imperatorun, şahzadə Alekseyin, böyük knyaz Nikolay Nikolayeviçin portretləri, ikonalar kilsə zənglərinin sədaları altında, rus milli himni olan «Tanrı, Çarı qoru!» («Боже, Царя храни!») oxuyaraq manifestasiya təşkil edirdilər. Demək olar ki, bütün mətbuat alman təhlükəsi qarşısında milli birlikdən bəhs edirdi.

1914-cü il yanvarın sonunda V.N.Kokovtsovun istefasından sonra köhnə saray əyanı, ictimai fraksiya və partiyaların böyük əksəriyyətinin sevmədiyi İ.L.Qoremıkin kabinetin başçısı təyin edildikdən sonra da müharibənin başlanması ilə əlaqədar olaraq bir müddət tənqid oxuna hədəf olmaqdan azad olmuşdur. İyulun 26-da hər iki palatanın fövqəladə sessiyasında nümayəndələr və qanunverici orqanların birliyi nümayiş etdirilmişdir. Hətta sol dairələrin nümayəndələri, o cümlədən nüfuzlu sosial demokrat olan G.V.Plexanov vətənpərvərlik çağırışı ilə xalqı «alman militarizminə» qarşı mübarizəyə səsləmişdir. Yalnız bolşeviklər fərqli mövqedən çıxış etmişdir. Onların başçısı V.İ.Lenin Rusiyanın fəhlə sinfi və bütün zəhmətkeş xalqlarının mənafeyi nöqteyi-nəzərindən çar monarxiyasının məğlubiyyətini və imperialist müharibəsinin vətəndaş müharibəsinə çevrilməsi şüarını irəli sürmüşdür.

Nəhəng imperiyanın iqtisadi, ictimai, inzibati həyatının müxtəlif tərəfləri zamanın və şəraitin tələblərinə uyğun olaraq yenidən qurulmağa başladı. Hərbi məsələlərə xüsusi maraq göstərən çar iyulun 19-dan (avqustun 1-dən) sonra müharibənin əsas iki cəbhəsi olan Almaniyaya qarşı Şimal-Qərb (baş komandan Y.Q.Jilinski), Avstriya-Macarıstana qarşı Cənub-Qərb (baş komandan N.İ.İvanov) və ilin sonunda Osmanlıya qarşı Qafqaz cəbhələrinə daim diqqət göstərirdi.

1914-cü il avqustun 4 (17)-də P.K.Rennenkampfın komandanlığı altında 1-ci ordu və A.V.Samsonovun komandanlığı altında 2-ci ordu Şimal-Qərb cəbhəsində Şərqi Prussiya ərazisində alman qoşunlarına qarşı hücuma keçdi. Avqustun 7 (20)-də Qumbinnen döyüşündə 1-ci rus ordusu almanlara ağır zərbə vurdu, onlar cənuba doğru çəkildilər. 8-ci alman ordusunun komandanı general Pritvits Şərqi Prussiyanı tərk edib Vislaya çəkilmək əmri verdi. Bu zaman Şərqi Prussiyadakı yeni alman komandanlığı P.Gindenburq və E.Lyudendorf M.Pritvitsin geri çəkilmək əmrini ləğv edərək rus ordularına qarşı əks-hücuma keçdi. Şimal-Qərb cəbhəsinin komandanı Jilinskinin, 1-ci və 2-ci ordu komandanlarının hərbi əməliyyatları pis əlaqələndirməsi nəticəsində almanlar rus ordularını tək-tək məğlub edərək Şərqi Prussiyadakı rusların hərbi qələbəsini heçə endirdi. Əsas gücünü 2-ci orduya qarşı yönəldən Gindenburq avqustun 13-18 (26-31)-də Soldan yaxınlığında 2-ci ordunu darmadağın etdi, Samsonov özünü güllələdi. Almanlar Rennenkampfı Şərqi Prussiyanı tərk etməyə məcbur etdi. Döyüşlərdə 200 min rus əsgəri və zabiti öldürüldü, 60 min nəfər əsir düşdü. General Y.Q.Jilinski Şimal-Qərb cəbhəsinin komandanı vəzifəsindən uzaqlaşdırıldı, onun yerinə general N.V.Ruzski təyin olundu. Bir az sonra Rennenkampf da istefaya göndərildi.

Cənub-Qərb cəbhəsində rus qoşunları Avstriya-Macarıstana qarşı uğurlu hərbi əməliyyatlar aparırdı. Avqustun 10 (23)-də Krasnik şəhərciyi uğrunda başlayan toqquşma nəhəng Qalitsiya döyüşü ilə başa çatdı. Avqustun 20-də

(sentyabrın 3-də) rus qoşunları Lvovu aldı. İki gündən sonra general A.A.Brussilovun 8-ci ordusu Qaliçə daxil oldu. Qaliç döyüşü gedişində ilk dəfə rus təyyarəçisi, ştabs-kapitan P.N.Nesterov hava taranı tətbiq edərək düşmən təyyarəsini vurub özü də qəhrəmancasına həlak oldu. Hücumu davam etdirən rus ordusu sentyabrın 13 (26)-də 33 günlük döyüşlərdən sonra 280-300 kilometr irəliləyərək Visloka çayına çıxaraq qalibiyyətli Qalitsiya əməliyyatını başa çatdırdı. Avstriyalılar Qalitsiya döyüşündə demək olar ki, ordunun yarısını itirdi, 100 min nəfər əsir düşdü. 400-dən çox artilleriya topu itirildi. Avstriya-Macarıstanın hərbi nüfuzuna ciddi zərbə dəydi.

Vəziyyətdən narahat olan alman Baş Qərargahı P.fon Gindenburqu Şərqdəki quru qoşunlarının komandanı təyin etdi. Şimaldan rus ordusuna hücum etməyə hazırlaşan düşmənin planını qabaqlayan rus qoşunları Qalitsiyadan Polşaya daxil olaraq almanları Varşava altında dayandırdılar. 1914-cü ilin oktyabr-noyabr aylarındakı Polşadakı Lodz döyüşünün gedişində almanların planı pozulsa da, ruslar Almaniyanın içərilərinə doğru irəliləyə bilmədilər.

1914-cü ilin sonunda cəbhədə mövqelərdə nisbi sabitlik yaranmışdı. Məlum oldu ki, tez bir zamanda müharibənin başa çatması və «yeni ili Berlində» qeyd etmək arzudan başqa bir şey deyildir. Uzun və yorucu qarşıdurmaya hazırlaşmaqdan başqa bir yol qalmamışdır.

Müharibənin ilk aylarında sakitləşən hökumət əleyhinə qüvvələr arxa cəbhədə yenidən fəallaşdılar. Müharibənin tezliklə qalibiyyətlə başa çatmasına olan ümidin itməsi köhnə ziddiyyətləri və qarşıdurmanı yenidən alovlandırdı. 1915-ci ilin yazı və yayındakı hadisələr bunu sürətləndirdi.

1915-ci ildə hərbi əməliyyatlar meydanında mühüm hadisələr baş verdi. Yazda Cənub-Qərb cəbhəsində hücuma keçən rus qoşunları Avstriya qoşunlarını əzərək yenidən bütün Qalitsiyaya hakim oldu. Avstriya-Macarıstanın müharibədən çıxmasına yol verməmək məqsədilə almanlar Qərb cəbhəsindəki sakitlikdən istifadə edərək böyük hərbi qüvvə ilə hücuma keçdi. 1915-ci ilin yazı və yayında bir neçə qanlı döyüşdə hərbi sursatı, müasir silahları, xüsusilə artilleriyası kifayət qədər olmayan rus ordusu məğlub oldu. Aprelin sonunda rus ordusunun qvardiya birliklərinin döyüşə cəlb edilməsinə baxmayaraq, vəziyyət ağır olaraq qalırdı. «Lənətə gəlmiş teftonların» hücumu nəticəsində rus ordusu Qalitsiya, Polşa və bir sıra başqa rayonları tərk edərək şərqə doğru çəkilmişdir. Bir sıra qərb quberniyalarından ordunun çəkilməsi qaçqın axını yaratmışdır. 1916-cı ilin ortalarında qaçqınların sayı təqribən 6 mln. nəfərə çatırdı. 1915-ci ilin yayında Ali Baş Komandanlığın qərargahı Baranoviçdən köçürülərək avqustda Mogilyov şəhərinə yerləşdirildi. 1915-ci il yayında rus ordusunun fəlakəti komandanlığın və əsgərlərin döyüş ruhunu pozmuşdu.

Məğlubiyyətin ilk zərbəsindən özünə gəlməyə çalışan bütün siyasi istiqamətli ictimai xadimləri, ali hakimiyyət təmsilçilərini bu suallar düşündürürdü: «Nə üçün ordunun kifayət qədər hərbi sursat və artilleriyası yoxdur?», «Niyə 1914-cü il kampaniyasının dərslərindən nəticə çıxarılmamışdır?». Bütün bu uğursuzluqlar 1909-cu ildən hərbi nazir vəzifəsini tutan və dəfələrlə rus ordusunun bütün sınaqlara hazır olduğunu bəyan edən V.A.Suxomlinovun üzərinə yıxıldı. 1915-ci il iyunun 13-də hərbi nazir vəzifəsindən kənarlaşdırıldı və onun işi üzrə istintaq başlandı. Lakin çox da böyük nüfuz sahibi olmayan hərbi nazirin dəyişdirilməsi vəziyyəti düzəltmədi. 1915-ci il yazın sonu–yayın əvvəlindəki ordunun məğlubiyyəti kadet istiqamətli liberalların formalaşmasına səbəb oldu. Artıq may ayında mətbuatda milli müdafiə kabinetinin yaradılmasına dair məqalələr çap edilməyə başladı. Hərbi nazir vəzifəsinə təyin edilməyə layiq mümkün namizədlərin, o cümlədən iki böyük siyasi partiya liderləri olan P.N.Milyukov və A.İ.Quçkovun adları hallanmağa başladı. Təcili olaraq Dövlət Dumasının çağırılması tələb olundu.

Rus ordusunun məğlubiyyətilə bağlı təkcə liberallar etiraz və narazılığını ifadə etmirdi. 1915-il iyunun ortalarında çar Qərargahda generallar və nazirlərin iştirakı ilə bir sıra müşavirələr keçirdi. Bir neçə nüfuzlu nazir, o cümlədən ədliyyə naziri İ.Q.Şeqlovitov, daxili işlər naziri N.A.Maklakov və Müqəddəs Sinodun ober-prokuroru V.K.Sabler istefaya göndərildi. Siyasi partiya və fraksiyaları təmsil edən ictimai xadimlərin böyük əksəriyyəti bu tədbirləri yetərli hesab etmirdi. Odur ki, avqustda bir sıra Duma və Dumaya yaxın ictimai qrup «Proqressiv blok» təşkil etdi ki, onun da mərkəzində Kadet Partiyası yerləşmişdi. Onlar «ictimai etimad kabineti» («кабинет общественного доверия») yaradılmasını tələb edirdilər.

1915-ci ilin yayında Rusiyanı ictimai narazılıq dalğası bürümüşdü. Yalnız siyasi Duma cəbhəsindəki qüvvələr deyil, sadə adamlar da tənqidlərə qoşulmuşdu. Təkcə hərbi məğlubiyyətlər deyil, hakimiyyətin yuxarı pillələrindəki «satqınlar», çar ailəsinə daxil olmuş «qara qüvvələr» şayiələri daha da qızışdırırdı. İqtisadi çətinliklərin dərinləşməsi, xammal və enerji çatışmazlığı, inflyasiya, bahalaşmanın artması, nəqliyyatın işinin pozulması sosial gərginliyi kəskinləşdirdi. II Nikolay başa düşürdü ki, müharibə köhnə problemləri kəskinləşdirərək yenilərini meydana gətirmişdir. Sonu isə görünmürdü. Hadisələri kökündən dəyişdirmək və qalibiyyətli sülhə nail olmaq məqsədilə çar orduya rəhbərlik etməyi qərara aldı. Bu davranışın əsasında xalqın çara olan ənənəvi sevgisi dayanırdı. O belə düşünürdü ki, əgər ordunun başında Tanrı padşahı dayanarsa, siravi əsgərlər bundan ruhlanaraq düşməni məhv edərlər.

Mürəkkəb bir vaxtda ordu rəhbərliyini qəbul etməsi II Nikolayın şəxsi cəsarətindən xəbər verirdi. Sonuncu imperator hər zaman belə düşünürdü

ki, müharibədə o, ordu ilə birlikdə olmalıdır. 1915-ci il avqustun 23-də imperator imzaladığı əmrlə quru və dəniz hərbi silahlı qüvvələrinin rəhbəri oldu. Böyük knyaz Nikolay Nikolayeviç Qafqaz canişini və Qafqaz ordusu komandanı yaşlı qraf İ.İ.Vorontsov-Daşkovu əvəz etdi. Hakimiyyəti idarə etməyə bir il yarım vaxtı qalmış II Nikolay rus ordusunun rəhbəri kimi vaxtının çox hissəsini Mogilyov şəhərində yerləşən hərbi qərargahda keçirirdi. Qərargahdakı cari operativ işləri böyük hərbi nüfuz sahibi general M.V.Alekseyev həyata keçirirdi.

1915-ci ilin sentyabrından mütləqiyyət quruluşu yıxılana kimi rus ordusu düşmənə bir qarış torpaq belə vermədən geri çəkilməmiş, hətta Volın və Qalitsiya ərazilərinin çox hissəsini geri almışdır. Ordunun silah təhcizatı əsaslı olaraq dəyişmişdi. 1916-cı ildə 1914-cü ildəki 55 min tüfəngə qarşı 110 min tüfəng istehsal edilmiş, pulemyot buraxılması altı dəfə artaraq 900-dən 160 minə çatmış, mərmi istehsalı on altı dəfə artaraq 1600-dən 100 minə yüksəlmişdir. Təyyarələrin («aeroplan») sayı təqribən üç dəfə, 263-dən 716 ədədə çatmışdır. 1915-ci ilin ikinci yarısından başlayaraq Rusiya xarici ölkələrdən müxtəlif silah növləri almağa başlamışdı. Artıq 1916-cı ildə rus ordusu kifayət qədər maddi-texniki təhcizatla təmin edilmişdi.

1916-cı ilin əvvəlində Antantanın daxilində münasibətlər mürəkkəbləşmişdi. Rusiya ordusu məğlub olarkən müttəfiqlərin mövqe müharibəsinə keçməsindən narazı idi. 1916-cı ilin qışında fransız şəhərciyi Santiyidə müttəfiqlərin müşavirəsində qərara alındı ki, Almaniya və Avstriya-Macarıstana qarşı bütün cəbhə boyu hücuma keçilsin. 1916-cı il mayın 22-də (iyunun 4-də) Cənub-Qərb hissəsinin əsgərləri general Brusilovun komandanlığı altında top artilleriyası atəşi altında Pinsk bataqlıqlarından rumın sərhədinə kimi cəbhə boyu hücuma keçdi. Cəbhəni yaran 8-ci və 9-cu rus orduları iyunun 7 (20)-də Lutsku, 17 (30)-da Çernovtsı tutdular. Mayın sonunda 11-ci ordu Buqun mənsəbinə, 7-ci ordu Qaliçə, 9-cu ordu Karpata çıxdı. Cənub-Qərb cəbhəsindəki döyüşlərdə düşmən 1,5 mln. əsgər və zabit, 581 top, 448 minomyot itirdi. Avstriya-Macarıstan tam məğlubiyyətə uğradı. Brusilov «yarıb keçməsi» rus silahının böyük qələbəsi demək idi. Rus ordusunun Cənub-Qərb cəbhəsində hücumu nəticəsində almanlar onlarla ehtiyat diviziyasını Şərqə ataraq Verden üzərinə basqını zəiflətməyə məcbur oldu. Avstriyalılar İtaliyadakı hücumu dayandırdı. Rusiya növbəti dəfə müttəfiqləri Fransa və İngiltərə qoşunlarını məğlubiyyətdən xilas etdi. Lakin bütün cəbhə boyu hücuma keçmək mümkün olmadı və müharibə yenidən mövqe xarakteri aldı. Tarixçilərin əksəriyyəti Brusilov həmləsini Birinci Dünya müharibəsi gedişinin Antanta dövlətlərinin xeyrinə dəyişilməsi ilə əlaqələndirmişdir.

Müharibə zamanı ölkədəki ağır gərginliyə baxmayaraq, təsərrüfat və maliyyə həyatının iflic olmasından, dağılmasından söhbət belə gedə bilməzdi. Düzdür, çar hökumətinin əleyhdarları, siyasi opponentlər daxili «dağıntıdan» bəhs etməyi xoşlayırdılar. Ölkənin siyasi rəhbərliyi mürəkkəb təsərrüfat vəzifələrini həll etməyə müvəffəq olaraq sənaye, nəqliyyat, maliyyə, cəbhə və arxanın ərzaqla təmin edilməsi sahəsində irəliləyişə nail olmuşdur.

1914-cü ilin ortalarından başlayaraq iki il yarım müharibə dövründə Rusiyada 12 min kilometrlik dəmiryol xətləri çəkilib istifadəyə verilmişdir. Xarici ölkələrdən yük daşınması iki böyük liman – Arxangelsk və Vladivostok vasitəsilə həyata keçirilirdi. Yüklərin daşınmasında fasilə yaratmamaq üçün Voloqda-Arxangel dəmiryol xətti genişləndirilmişdi. Eyni zamanda 1916-cı ildə Amur dəmiryolunun tikintisi tam başa çatmış və bununla da Transsibir magistralı bütün Rusiya ərazisini əhatə etmişdir. 1915-ci ilin martında min kilometr uzunluğunda olan Murmansk dəmiryolunun tikintisinə başlanmışdır. Bu, Avropa Rusiyasının qısa vaxtda donmayan limana sahib olması məqsədi daşıyırdı. Qışda donaraq fəaliyyət göstərməyən Arxangelsk limanından fərqli olaraq 1916-cı il oktyabrın 4-də əsası qoyulmuş Murmansk şəhərində iyirmi aydan sonra hərəkət başlamışdır.

Müharibəyə səfərbərliklə əlaqədar olaraq işçi qüvvəsinin çatışmazlığına baxmayaraq, xalq təsərrüfatının mühüm sahələrində artım diqqəti cəlb edir. Məsələn, kömür çıxarılması 1914-cü ildəki 1914 mln. puda qarşı 1916-cı ildə 2092 mln. pud, neft isə 550 mln. puda qarşı 602 mln. pud olmuşdur.

Müharibədən ümumi yorğunluq cəbhədə və ölkə daxilində tənqidi əhvali-ruhiyyəni artırmışdı. 1916-cı ildəki vətənpərvərlik pafosunu gündəlik satqın və casuslara dair şayiələr əvəz etmişdi. Əlbəttə, yalnız dövlət vəzifələrindəki alman casusları Rusiyanı məhv etməyə çalışırdı. Cəmiyyətin müxtəlif dairələrindəki söhbətlərdə dəhşətli casus və qara qüvvələrdən bəhs edilərkən bir çox universitet professoru, nazirlər, generallar, hətta çar ailəsi üzvləri – birinci növbədə imperatriçə Aleksandra Fyodorovna və casus dəstəsinin başçısı Qriqori Rasputin şübhəlilər siyahısına düşənlər idi.

1916-cı ilin əvvəlində Baş nazir İ.Q.Qoremıkini əvvəllər Novqorod və Yaroslavl qubernatoru, Daxili İşlər Nazirliyi Ümumi İşlər Departamentinin direktoru işləmiş B.V.Ştyurmer əvəz etdi. Bunun ardınca 1916-cı il fevralın 9-da Dövlət Dumasının sessiyası açıldı. Tavriya sarayında deputatlar qarşısında qısa müraciətlə birinci və axırıncı dəfə imperator çıxış etdi. O dumaçıları Vətənin səadəti naminə birlikdə işləməyə çağırdı və alqış sədaları ilə qarşılandı. Alqış sədaları səslənsə də, ölkədə hər şey olduğu kimi qalırdı. II Nikolay Qərargahda hərbi-siyasi problemlərin əhatəsində, Aleksandra Fyodorovna özünün qorxu, şübhə içərisində «əziz Qriqori»si («дорогой Григорий») ilə Tsarskoye

Seloda, ictimai xadimlər öz qonaq evləri, salonları və kabinetlərdə «qara qüvvələr» («тёмные силы»), yaxınlaşan fəlakət və vəziyyəti yalnız xilas edə biləcək «İctimai Etimad Nazirliyi» («Министерство Общественного Доверия») yaradılmasından bəhs edən söhbətlərində idi.

Lakin bu günə kimi susan hamının tanıdığı və adından çıxış etdiyi qorxulu və qüdrətli bir aləm var idi. Bu çoxmilyonluq əhalisi, şəhər, kənd, zavod və fabrikləri olan ölkə idi. Əsasən dünənki kəndlilərdən ibarət olan milyonlarla əsgər cəbhədə Baltik dənizindən tutmuş Cənubi Qafqaza doğru ərazilərə səpələnmişdi. 1916-cı ildə səfərbər edilmiş əsgərlərin sayı təqribən 13 mln. nəfərə çatırdı. Adət etdikləri mühitdən qoparılmış bu adamlar nəm və soyuq torpaq səngərlərdə əziyyət çəkərək onlardan uzaq məqsəd uğrunda ölürdülər. Tədricən bu milyonlar nəhəng kütləyə çevrilərək dəhşətli qəzəb hissi ilə 1917-ci ildəki dağıdıcı hadisələrə təkan vermişdir.

Ali vəzifəli şəxslərin satqınlığına dair şayiələr ordu içərisində də yayılaraq mərkəzdəkilərə qarşı kin və nifrət toxumu cücərtmişdi. Müxtəlif qruplar, xüsusilə radikal-sosialist istiqamətli birliklər mövcud quruluşun zor gücünə dəyişdirilməsini təbliğ edirdi. Liberallar bu taktikanı seçməsələr də, hakimiyyətə qarşı öz hücumları ilə mövcud ənənəvi qaydaların dağılmasında rol oynamışdılar.

1916-cı il dekabrın 16-dan 17-nə keçən gecə Yusupovların Petroqraddakı sarayında Qriqori Rasputin öldürüldü. Bu xəbər bir çox dairələrin sevincinə səbəb oldu. Bəziləri belə hesab etməyə başladı ki, qara günlər arxada qalıb, axır ki, hər şey qaydasına düşəcək. Lakin bu qısamüddətli bir xəyal idi.

## §3. 1917-ci il Fevral inqilabı. II Nikolayın hakimiyyətdən əl çəkməsi

XX əsrin əvvəllərində 178 mln. əhalisi olan Rusiyada elə bir iqtisadi və siyasi şərait əmələ gəlmişdi ki, bu, ölkədə inqilabi partlayışın yaxınlaşmaqda olduğunu göstərirdi. Birinci Dünya müharibəsi dünya dövlətləri arasında ən zəif yer tutan Rusiyaya xüsusilə ağır təsir edirdi. Müharibə və təsərrüfat dağıntısı ölkədə kəskin narazılığa səbəb olmuşdu.

Rusiyanın ingilis-fransız kapitalından iqtisadi asılılığı müharibə illərində daha da artmışdı. Hərbi xərclər, ölkənin maliyyə sisteminin pozulması bu asılılığı gündən-günə artırırdı. Çar hökuməti geyim, dərman, cihaz, sənaye avadanlığı, parovoz, vaqon, avtomobil və s. üçün xarici ölkələrə sifariş vermişdi. Bu sifarişlərin qiyməti çox böyük məbləğə başa gəlirdi. Təkcə hərbi idarə xarici ölkələrə 3,2 milyard rublluq sifariş vermişdi. Çar Rusiyasının İngiltərəyə

borcu 1917-ci ilin fevralında 7,5 milyard rubla çatmışdı, bu isə Rusiyanın müharibənin əvvəlindəki büdcəsindən iki dəfədən də çox idi. Rusiyanın Fransaya borcu 5,5 milyard rubl idi.

Arxada təsərrüfat dağıntısı hökm sürürdü. Kömür və neft hasilatı aşağı düşmüşdü. Yanacaq çatışmadığına görə zavodlar öz fəaliyyətini dayandırırdı. Təkcə Petroqradda 50-dən çox müəssisə dayanmışdı. Təsərrüfatın dağılmasının ən mühüm səbəblərindən biri nəqliyyatdakı böhran idi. Dəmiryol şəbəkələri və nəqliyyat vasitələrinin üçdə bir hissəsi cəbhənin ixtiyarına keçmişdi. 1916-17-ci ilin qışında arxa cəbhə üçün nəzərdə tutulan 60 mindən çox yüklə dolu vaqon qar altında qalmışdı. Bu, ərzaq böhranının kəskinləşməsinə səbəb oldu. Ordu öz normasının ancaq yarısı miqdarında ərzaq alırdı. Çörək mağazalarının qabağında ac adamların uzun növbələri düzülürdü. Müharibə illərində kənd təsərrüfatının məhsuldarlığı son dərəcə aşağı düşmüşdü. 14 milyonadək adam və ya kişi əhalisinin 47%-i orduya səfərbər edilmişdi. Atların və mal-qaranın fasiləsiz olaraq müsadirə olunması, xüsusilə iş qabiliyyətli əhalinin orduya getməsi kənd təsərrüfatının məhsuldar qüvvələrini sarsıtmışdı. Əkin sahələri müharibədən əvvəlki illərə nisbətən xeyli azalmışdı. Taxıl yığımı 1916-1917-ci illərdə 2,1 milyard puddan 1,1 milyard puda enmişdi.

Müharibə illərində fəhlə sinfinin tərkibində əmələ gələn dəyişiklik iqtisadiyyatda ümumi böhran vəziyyətinin əsas səbəblərindən biri idi. İş qabiliyyəti yüksək olan fəhlələrin təqribən 40%-i orduya çağırılmışdı. Müharibə illərində orduya ümumən 15,8 mln. adam səfərbər edilmişdi, 1917-ci ilə qədər ölən, yaralanan, əsir düşən əsgərlərin sayı isə 9 mln. nəfərə çatırdı.

Zavod və fabriklərdə orduya səfərbər edilən işçilərin yerini qadınlar və yeniyetmələr tutmuşdu. Onlar fəhlələrin 40%-ni təşkil edirdilər, bu isə məhsul istehsalının kəskin surətdə aşağı düşməsinə səbəb olurdu. Müharibə dövrünün tələbinə uyğun olaraq iş günü 14-16 saata çatırdı. Ölkənin iqtisadiyyatı gündən-günə pisləşirdi. Bu, rublun alıcılıq qabiliyyətinin kəskin şəkildə aşağı düşməsində özünü göstərirdi. 1914-cü illə müqayisədə 1917-ci ilin əvvəllərində bu göstərici 27 qəpik təşkil edirdi. Bu, zaman kəsiyində ərzaq mallarının qiyməti 300% artmışdı. Sənaye və kənd təsərrüfatı mallarının istehsalı sürətlə aşağı düşürdü. Əhalinin yoxsul təbəqəsinin onsuz da ağır olan vəziyyəti dözülməz həddə çatmışdı.

Cəmiyyət mövcud çətinlikləri «yuxarılar»ın ölkəni idarə etmək qabiliyyətinin olmaması ilə bağlayırdı. Hökumət başçılarının, nazirlərin, qubernatorların tez-tez dəyişdirilməsi, Rasputinin fəallığı, Dumaya məhəl qoyulmaması hakimiyyətin üst təbəqələrində həyəcan və parçalanmaya səbəb olurdu. Artıq 1915-ci ilin sonundan etibarən Rusiyanın siyasi dairələrində tez-tez «inqilab» sözü səslənməyə başlamışdı. Qeyd olunan bu səbəblər və müharibə ölkədə bü-

tün ziddiyyətləri kəskinləşdirmiş, aşkara çıxarmışdı. Tətil edənlərin sayı artaraq 1915-ci ildəki 550 min nəfərdən 1916-cı ildə 1 milyon 86 min nəfərə çatmışdı.

1917-ci ilin əvvəlində inqilabi böhran daha da kəskinləşdi. 1917-ci il yanvar ayının 9-da (köhnə stillə) Qanlı bazar gününün 12-ci ildönümü münasibətilə tətil «Rədd olsun müharibə!», «Çörək verin!» şüarı altında keçirildi. Təkcə Petroqradda tətilçilərin sayı 145 min nəfərə çatırdı ki, onlar da 114 zavod və fabriki təmsil edirdi. Bundan başqa, Moskvada, Kiyevdə və başqa şəhərlərdə də tətil dalğası durmadan artırdı. 1917-ci il fevralın 14-də «Rədd olsun müharibə!», «Yaşasın respublika!» şüarları altında növbəti kütləvi tətil oldu. Fevralın 17-də 36 min nəfər fəhlənin çalışdığı nəhəng Putilov artilleriya zavodunda yenidən tətil baş qaldırdı. Fevralın 22-də zavod rəhbərliyi lokaut elan etdi ki, bu da Petroqrad fəhlələri arasında həmrəylik hərəkatının meydana gəlməsinə səbəb oldu.

Fevralın 23-də (martın 8-də) Beynəlxalq Qadınlar Günü münasibətilə müharibə əleyhinə başlayan mitinq tezliklə paytaxtda kütləvi tətil və nümayişə çevrildi. 128 min nəfərin iştirak etdiyi hərəkatda «Rədd olsun müharibə!», «Rədd olsun mütləqiyyət!», «Çörək verin!» şüarları səsləndirilirdi. Tətil iştirakçıları qonşu zavodların fəhlələrini onlara qoşulmağa sövq edirdi. Fevralın 24-də paytaxtın 224 müəssisəsində işləyən 214 min nəfərdən çox fəhlənin iştirakı ilə ümumi siyasi tətil başladı.

Fevralın 25-də Petroqradın 421 müəssisəsinin 305 min fəhləsinin, fevralın 26-da isə 438 müəssisəsinin 306,5 min fəhləsinin iştirakı ilə keçirilən tətil hərəkatı polis, əsgər və kazaklarla toqquşmalara səbəb oldu. Znamensk meydanında Volınsk polkunun leyb-qvardiya rotasının əsgərlərinin açdığı atəşlə 40 nəfər nümayişçi öldürüldü, 40 nəfər isə yaralandı. Küçələrdə ilk barrikadalar quruldu. Paytaxtda nümayişçilərin güllələbaran edilməsindən sonra fevralın 26-da axşam Nazirlər Sovetinin sədri Dövlət Dumasını və Dövlət Şurasını aprel ayına kimi tətilə göndərdi. Petroqraddakı kütləvi çaxnaşma şəraitində imperiyanın taleyi şəhərdə olan 160 min əsgər, 3,5 min polis və bir neçə yüz nəfər kazakın mövqeyindən asılı idi.

1917-ci il fevralın 27-də (martın 12-də) Petroqradda silahlı üsyan baş verdi. Volınsk polkunun ehtiyat batalyonunun 600 nəfərlik təlim komandası feldfebel (rota komandiri köməkçisi) T.İ.Kirpiçnikovun başçılığı ilə komandir ştabs-kapitan İ.S.Laşkeviçi öldürüb üsyançılara qoşuldular. Litovsk və Preobrajensk ehtiyat batalyonlarının əsgərləri ilə birlikdə onların sayı tezliklə 20 min nəfəri keçdi. Axşama doğru üsyançılara qoşulan əsgərlərin sayı 67 min nəfər oldu. 869 müəssisədən 385 min nəfər fəhlənin iştirak etdiyi üsyan ümumxalq xarakteri aldı. İnqilabçı fəhlə və əsgərlər «Krest» həbsxanasının dustaqlarını azadlığa buraxdı. Onların arasında 1917-ci ilin yanvarında Dövlət

Dumasını müdafiə etmək məqsədilə keçirilən nümayişin təşkilatçıları – K.A.Qvozdev, B.O.Boqdanov, M.İ.Broydo kimi menşevik-müdafiəçilər də var idi. Məhz onların təşəbbüsü ilə üsyançılar Dövlət Dumasının iqamətgahı Tavriya sarayına yönələrək oranı zəbt etdilər. Fevralın 27-də gündüz Dumanın Ağsaqqallar Şurasının iclasında M.V.Rodzyankonun rəhbərliyi ilə hakimiyyət orqanı olan Dövlət Dumasının Müvəqqəti Komitəsi yaradıldı.

Kütlə ilə birlikdə Tavriya sarayına gələn Mərkəzi Hərbi Sənaye Komitəsi nəzdindəki fəhlə qrupunun üzvləri – menşevik K.A.Qvozdev, B.O.Boqdanov, Dövlət Dumasının menşevik fraksiyasının deputatları – N.S.Çxeidze, M.İ.Skobelev və b. Petroqrad Sovetinin Müvəqqəti İcraiyyə Komitəsini təşkil etdilər. İcraiyyə Komitəsi zavod və əsgər hissələrində çağırış vərəqələri yayaraq onlara öz nümayəndələrini seçib Tavriya sarayına göndərməyi tapşırdı. Axşam saat $21^{00}$-da Tavriya sarayında təqribən 250 nəfər deputat Petroqrad Fəhlə Deputatlar Sovetinin birinci iclasında 15 nəfərdən ibarət Sovetin İcraiyyə Komitəsini seçdi. Dövlət Dumasının deputatları – menşevik N.S.Çxeidze sədr, trudovik A.F.Kerenski, menşevik M.İ.Skobelev sədrin müavinləri təyin edildilər. Martın 1-dən bu, Fəhlə və Əsgər Deputatları Soveti adlandırıldı.

Fevralın 27-də günün ikinci yarısında inqilabçı fəhlə və əsgərlər mərkəzi poçt, teleqraf, vağzal, körpü və başqa xüsusi yerləri ələ keçirdilər. Fevralın 28-də Petropavlovsk qalası, Admirallıq binası, Qış sarayı tutuldu. 2-ci Baltik donanmasının dənizçiləri və «Avrora» kreyserinin heyəti inqilabçı qüvvələrə qoşuldu. Artıq fevralın 28-də paytaxtda hər kəs başa düşürdü ki, ölkədə inqilab baş verir. Köhnə çar atributlarının ləğv edilməsi və hər yerdə qırmızı bayraqların dalğalanması, paltarlara taxılan qırmızı lentlər inqilabın xarici göstərəciləri idi.

Fevralın 28-nə keçən gecə Dövlət Dumasının Müvəqqəti Komitəsi elan etdi ki, N.D.Qolitsin hökuməti fəaliyyətini dayandırdığı üçün hakimiyyəti öz əlinə alır. Fevralın 28-də səhər Komitənin sədri M.V.Rodzyanko deputat A.A.Bublikovu Dövlət Dumasının Müvəqqəti Komitəsinin komissarı kimi Nəqliyyat Yolları Nazirliyinə cavabdeh şəxs təyin etdi.

Martın 1-də Kronştadt hərbi-dəniz bazasında üsyan başladı və Kronştadt qubernatoru, vitse-admiral R.N.Viren qətlə yetirildi. İnqilabçı dənizçilər Baltik donanmasının 100 nəfərdən çox zabitini öldürdülər, Kronştadtın 500 nəfər zabitini isə həbs etdilər.

Petroqradın ardınca fevralın 27-də Moskvada inqilabi hərəkat başladı. Martın 1-də fəhlələrlə polis işçiləri arasında toqquşma oldu, ilk qurbanlar verildi. Hiddətlənmiş kütlə Butırsk həbsxanasından 350 nəfər siyasi məhbusu və 700 nəfər cinayətkarı azad etdi. Martın 2-də inqilabçılar poçt, teleqraf, telefon stansiyasını, vağzalı, cəbbəxananı və Kremli tutdular. Martın 1-də Nijni Nov-

qorodda, martın 2-də Saratovda, İvanovo-Voznesenskdə, Voloqdada, martın 3-də Samarada, Yekaterinburqda inqilabi orqanlar fəaliyyətə başladı. Martın 3-də Kiyevdə, martın 4-də isə Minskdə yeni inqilabi hakimiyyət orqanları formalaşdı. Yalnız 1917-ci ilin martında quberniya, qəza və sənaye mərkəzlərində 600-ə yaxın birləşmiş fəhlə və əsgər deputatları sovetləri təşkil edildi. Kütlələrin müdafiə etdiyi sovetlər, əslində, xalq hakimiyyəti orqanları kimi fəaliyyət göstərirdi. Fevral inqilabı günlərində təkcə Petroqradda 300 nəfər üsyançı həyatını itirdi, 1200 nəfər isə yaralandı. Rusiyanın bir çox yerində qan töküldü.

1917-ci il martın 1-də Petroqrad Sovetinin İcraiyyə Komitəsi qərar qəbul etdi ki, Dövlət Dumasının Müvəqqəti Komitəsinə öz mülahizəsinə görə hökuməti təşkil etmək hüququ verilsin, Sovetin nümayəndələri Müvəqqəti hökumətin tərkibinə daxil olmasınlar, Müvəqqəti hökumət bütün siyasi məhbuslara amnistiya versin, ittifaq, yığıncaq, tətil və söz azadlığı elan etsin, milli və dini məhdudiyyətlər ləğv olunsun, polis milislə əvəz edilsin, yerli özünüidarə orqanlarına seçkilər keçirilsin, əsgərlərə və matroslara vətəndaşlıq hüquqları verilsin, Rusiyanın dövlət quruluşunun gələcək forması məsələsini həll etməli olan Məclis çağırılsın. Petroqrad Sovetinin martın 1-də verdiyi 1 №-li əmrlə əsgər komitələri yaradıldı, hərbi hissələr sovetlərə tabe edildi. Bununla da ordu siyasi mübarizənin əsas qüvvələrindən biri oldu. Tez bir zamanda cəbhədə 300 min nəfər əsgər və zabiti birləşdirən 50 minlik əsgər komitələri formalaşdı.

Eserlər və menşeviklər Rusiyanın yeni hökumətini – Burjua Müvəqqəti Hökumətini yaratmaq haqqında dumaçılarla razılığa gəldilər. Dövlət Dumasının Müvəqqəti Komitəsi ilə Petroqrad Soveti İcraiyyə Komitəsinin nümayəndələrinin danışıqlarından sonra 1917-ci il martın 2-də knyaz Q.Y.Lvovun sədrliyi ilə burjua Müvəqqəti hökuməti yaradıldı. Q.Y.Lvov, eyni zamanda, daxili işlər naziri vəzifəsini də tutdu. P.N.Milyukov xarici işlər naziri (Kadetlər Partiyasının başçısı), A.İ.Quçkov hərbi və dəniz naziri (Oktyabristlər Partiyasının başçısı) M.İ.Tereşşenko maliyyə naziri, A.İ.Konovalov ticarət və sənaye naziri, A.F.Kerenski (eser) ədliyyə naziri, A.İ.Şinqaryov torpaq naziri, N.V.Nekrasov yollar naziri, A.A.Manuylov maarif naziri, V.N.Lvov Sinodun baş prokuroru, İ.V.Qodnev dövlət nəzarətçisi təyin olundular. 11 nəfərdən yalnız biri – A.F.Kerenski sosialist xadimi idi. Petroqrad Sovetinin eser-menşevik rəhbərliyi belə hesab edirdi ki, bu, burjua inqilabıdır. Odur ki, onlar dövlət hakimiyyətini tam ələ keçirməyə cəhd etməyərək Müvəqqəti hökuməti müdafiə etmək mövqeyi tutdular.

1917-ci il fevralın 27-də Mogilyovda olan II Nikolay hələ ayın 23-də Petroqradda başlanmış ciddi qarışıqlıq haqqında dəqiq məlumat almışdı. Mərkəzdə yerləşdirilmiş ehtiyat batalyonunun əsgərləri və onlara qoşulmuş vətəndaş qrupları qırmızı bayraqlarla mərkəzi küçələrdən keçərək polis məntəqələrini

dağıdır, mağazaları soyur, hökumətə sadiq olan qoşunlarla toqquşurdular. Paytaxtda vəziyyət gərgin idi, hakimiyyət iflic olmuşdu.

İmperator göstəriş verdi ki, general N.İ.İvanov Georgiyev süvari batalyonu ilə Tsarskoye Seloya, sonra qayda-qanunu bərpa etmək üçün Petroqrada hərəkət etsin. Tezliklə məlum oldu ki, imperator M.V.Rodzyankoya teleqram göndərərək məsul nazirliyin yaradılmasına razılıq vermşdir. Fevralın 28-i səhər saat 5-də II Nikolay qatarla Mogilyovdan Petroqrada yola düşdü. Martın 1-də təqribən gecə saat 2-də qatar Malaya Vişera stansiyasına çatdı. Aydın oldu ki, bütün yolları inqilabi qoşun tutduğu üçün hərəkət etmək mümkün deyil. Yalnız burada qəti olaraq məlum oldu ki, hökumət əleyhinə çıxışlar elə böyük bir miqyas almışdır ki, monarx öz ölkəsində maneəsiz hərəkət edə bilmir. Qərara alındı ki, Şimal cəbhəsinin komandanı general N.V.Ruzskinin qərargahının yerləşdiyi Pskova doğru hərəkət edilsin.

Martın 1-də axşam saat 8-ə yaxın çarın qatarı Pskov stansiyasına daxil oldu. Çar vaqonda general N.V.Ruzskini qəbul edərək bir neçə saat ərzində Şimal cəbhəsinin komandanı ilə söhbət etdikdən sonra Rozdyanko, Mogilyovdakı Baş komandanlığın rəisi ilə telefon və teleqraf əlaqəsi saxlamışdı. Generallar bildirmişdi ki, çar əvvəldən ictimai xadimlərdən ibarət hökumətin yaradılmasına razılıq verməli idi. Nikolay Aleksandroviç etiraz edərək bildirdi ki, onun tərbiyəsi insanlar, xüsusilə Tanrı qarşısında məsuliyyətdən azad olmağa imkan vermir. Uzun müzakirələrdən sonra N.Ruzski çarı dilə tuta bildi ki, Rusiyanın və oğlunun mənafeyi naminə vicdanı ilə kompromisə getsin. General təsdiq etdi ki, əgər II Nikolay «tarixi qərar» qəbul etməsə, ölkədə qanlı qarşıdurmanın baş verməsi təhlükəsi yarana bilər.

Martın 2-də saat $12^{20}$-də II Nikolay qoşunu ilə Tsarskoye Seloda olan general İvanova teleqram göndərdi ki, çar gələnə kimi heç bir tədbir görməsin. Gecə saat 3-də general N.Ruzski Rodzyanko ilə telefon əlaqəsi yaradaraq iki saatdan çox danışıq apardı. Dumanın sədri vəziyyətin çıxılmaz və gərgin olduğunu dilə gətirib imperatorun hakimiyyətdən əl çəkməsinə işarə etmişdir. Ruzskinin Rodzyanko ilə söhbəti Qərargahda olan general M.V.Alekseyevə bildirildikdə o, fikrini belə ifadə etdi ki, çıxış yolu olmadığı üçün taxtdan əl çəkilməsi baş tutmalıdır.

Qərargahdan cəbhə komandanlarına təcili teleqramlar göndərilmişdi ki, Rusiyanı anarxiyadan xilas etmək üçün imperator oğlunun xeyrinə taxtdan əl çəkməlidir və onlara fikirlərini bildirmək təklif olundu. Martın 2-si günün ikinci yarısı Cənub-Qərb cəbhəsinin komandanı general A.A.Brusilov, Qərb cəbhəsinin komandanı general A.Y.Evert, Qafqaz cəbhəsinin komandanı, sabiq Ali Baş komandan Nikolay Nikolayeviç çarı Vətən uğrunda özünü qurban verərək hakimiyyətdən əl çəkməyə dəvət etdilər.

Hərbi sərkərdələrin fikri ilə tanış olan imperator prinsiplərinə qarşı çıxaraq taxtdan imtina etməsi haqqında qərar qəbul etdi. Bu zaman məlum oldu ki, çarla danışıqlar məqsədilə Petroqraddan A.İ.Quçkov və V.V.Şulqin yola çıxmışdır. Çar qatarının vaqon salonunda onların imperatorla danışığı oldu. Danışığa başlayan A.İ.Quçkov qeyd etdi ki, vəziyyət təhlükəlidir, hərəkata əsgərlər və fəhlələr qoşulmuşdur. Qayda yaratmağa gələn qoşun hissələri üsyançıların tərəfinə keçir, Vətəni və qarışıqlığı xilas etmək məqsədilə hakimiyyəti ələ alan Dövlət Dumasının Müvəqqəti Komitəsi təşkil olunmuşdur. Fəhlə partiyalarının sovetləri təşkil edilmişdir ki, onlar da respublika tələb edirdilər. Bu tələbi aşağılar və əsgərlər müdafiə edir ki, onlara da torpaq vəd edilmişdir. Kütlə silahlanıb və hamını təhlükə gözləyir.

A.Quçkovun monoloqunu kəsmədən və sual vermədən dinləyən II Nikolay cavabında qeyd etdi ki, Siz gələnə kimi qərara almışdım ki, Rusiyanın xilası və sakitlik üçün oğlumun xeyrinə tacdan əl çəkim, lakin bir daha vəziyyəti nəzərə alaraq qərara gəldim ki, oğlumun xəstəliyi ilə bağlı mən, eyni zamanda özümün və onun adından hakimiyyətdən əl çəkim.

Qanuna əsasən taxtın varisi yalnız monarxın oğlu ola bilərdi. Odur ki, taxtın imperatorun qardaşına keçməsi qanunun tələblərinə cavab verməsə də, orada padşahın öz xoşu ilə hakimiyyətdən əl çəkməsi imkanı haqqında heç bir normadan bəhs edilmirdi. Qısa fikir mübadiləsindən sonra A.İ.Quçkov elan etdi ki, onlar bu təkifi qəbul edə bilərlər. II Nikolay kabineti tərk edərək tez bir zamanda hakimiyyətdən əl çəkməsinə dair manifestin layihəsi ilə qayıtdı. Mətni müzakirə edərək qısa əlavələrdən sonra martın 2-si saat 23:40-da (sənəddə başqa saat qeyd olunmuşdur: 3:05) Romanovlar sülaləsinin on yeddinci çarı Nikolay Aleksandroviç imza ataraq hakimiyyətdən əl çəkmişdir. Son 35 il ərzində gündəlik qeyd edən II Nikolay hökmdarlığının axırıncı gününə belə yekun vurmuşdur: «Hər tərəfdə xəyanət və qorxaqlıq və yalan!» («Кругом измена и трусость и обман!»)

Taxt-taca sahib olmaq hüququndan əl çəkən II Nikolay əsgərlərlə vidalaşmaq məqsədilə Mogilyova döndükdə orada ona məlum oldu ki, qardaşı Mixail Aleksandroviç də Müəssislər Məclisinin qərarına kimi hakimiyyətdən imtina etmişdir. Rusiyanın minillik padşahlıq və taxt-tac tarixi başa çatmışdır. Hakimiyyətdən imtina etdikdən sonra II Nikolay 1917-ci il martın 3-dən 8-nə, yəni həbs olunana kimi Mogilyovda qalmışdır. Mart ayının 9-da sabiq imperator ev dustağı edildi. Əvvəlcə II Nikolayın Petropavlovsk qalasında saxlanılması qərara alınmışdı, lakin onu Çarskoe Seloda saxlayaraq avqust ayında Tobolska göndərdilər. Hökumətin razılığı və Ural Vilayət Sovetinin qərarına əsasən, II Nikolay ailəsi ilə birlikdə – arvadı, beş uşağı və yaxın xidmətçiləri daxil olmaqla 11 nəfər 1918-ci il iyulun 17-də Yekaterinburqda İpatevlərin evində vəhşicəsinə güllələndilər.

# XVIII FƏSİL
# FEVRAL İNQİLABINDAN OKTYABRA DOĞRU

## §1. İkihakimiyyətlilik dövründə ictimai-siyasi şərait

Müvəqqəti hökumət və Petroqrad Fəhlə və Əsgər Deputatları Soveti kimi ikihakimiyyətliliyin bərqərar olması ölkədə mütləqiyyətin devrilməsindən sonra yaranmış özünəməxsus siyasi şəraitin nəticəsi idi. Müvəqqəti hökumətin proqramı 1917-ci il martın 3-də dərc olunmuş bəyannamədə və martın 6-da Rusiya vətəndaşlarına müraciətdə ifadə edilmişdir. Hökumət xarici siyasət sahəsində müttəfiq dövlətlərlə bağladığı müqavilə və sazişlərə ciddi əməl edərək müharibəni qalibiyyətli sona kimi davam etdirməyə, ədalətli ilhaqsız və təzminatsız sülh uğrunda mübarizə aparmağa vəd verirdi.

Daxili siyasət sahəsində Müvəqqəti hökumət siyasi azadlıqlar elan etməyi, Müəssislər Məclisinin çağrılmasına hazırlıq görməyi, polisi xalq milisi ilə əvəz etməyi nəzərdə tutmuşdu. Martın 12-də Rusiyada ölüm hökmü ləğv olundu, aprelin 12-də yığıncaqlar və ittifaqlar azadlığına dair qanun qəbul olundu. Müvəqqəti hökumət milis aparatının, nəzarət və axtarışın ləğv olunmasını, Çar, Nazirlər Şurasının və digər icra nümayəndələrinin həbsini qanu-niləşdirdi, katorqa və sürgünü aradan qaldırdı, siyasi əfv elan etdi.

Yerli hakimiyyət orqanları sistemi islah edildi. Martın 4-də general-qubernator, qubernator və şəhər rəislərinin yerli icra vəzifələri müvəqqəti olaraq quberniya, qəza, zemstvo idarələri və şəhər başçılarına həvalə edildi. Sentyabrın 25-də Müvəqqəti hökumətin quberniya və qəza komissarları haqqında müvəqqəti Əsasnaməsi təsdiq edilmişdir.

Hökumət martın 8-də maliyyə sahəsində çarizmin daxili və xarici borclarını öz üzərinə götürdüyünü bəyan edərək tam gücü ilə «çap dəzgahını» işə saldı. Mövcud olduğu 8 ay müddətində heç nə ilə təmin olunmayan 9,5 mlrd. rubl kağız pul buraxdı.

Qeyd olunanlarla yanaşı, Müvəqqəti hökumət aşağıdakı tədbirləri həyata keçirdi: dinlər sahəsində olan məhdudiyyətləri ləğv etdi; taxıl satışını öz inhisarı altına aldı; Tədris müəssisələrinə daxil olarkən millətlər üçün faiz normasını ləğv etdi; əslində bütün köhnə dövlət aparatını toxunulmaz saxladı; 8 saatlıq iş günü haqqında fəhlələrin tələbini yerinə yetirmədi; Finlandiya, Ukrayna və digər milli vilayətlərə dövlət müstəqilliyi hüququ verilməsinin qəti surətdə əleyhinə çıxıldı.

Müvəqqəti hökumətin yeritdiyi daxili və xarici siyasət Antanta ölkələri və ABŞ tərəfindən bəyənildi və nəticədə, martın 9-da ABŞ, martın 11-də İngiltərə, Fransa və İtaliya Müvəqqəti hökuməti rəsmən tanıdılar.

İnqilab nəticəsində hakimiyyətə gəlmiş Müvəqqəti hökumətdən kütlələr müharibənin dayandırılmasını, aclıq və dağıntı ilə mübarizə aparmasını, 8 saatlıq iş günü qoyulmasını gözləyirdilər. Fabrik və zavodlar milliləşdirilməli, torpaqlar kəndlilərə verilməli, köhnə idarə aparatı ləğv edilməli, Rusiya müharibədən çıxmalı idi. Bütün bu tədbirləri, təbii ki, Müvəqqəti hökumət qısa müddətdə həll etməyə qadir deyildi. Bütün sosial-siyasi və iqtisadi problemlərə əlavə olunmuş hakimiyyət və dövlət quruluşu məsələləri ölkənin böhran vəziyyətini daha da dərinləşdirdi. Ölkədə xarici dövlətlərin qəbul etdiyi, daxildə isə möhkəm dayağı olmayan Müvəqqəti hökumət, kütlələrin müdafiə etdiyi, ancaq formal cəhətdən hakimiyyəti olmayan Petroqrad Soveti mövcud idi ki, bu da sovet tarix ədəbiyyatında ikihakimiyyətlilik kimi xarakterizə edilmişdir. Lakin müasir tarix ədəbiyyatında bu dövr tədricən «hakimiyyətsizlik» və ya «çoxhakimiyyətlilik» dövrü kimi xarakterizə olunur. L.D.Trotski isə bu dövrü dəqiq olaraq «İkihakimiyyətsizlik» kimi səciyyələndirmişdir.

Doğrudan da, 1917-ci ilin yazında ölkədə vəziyyət gündən-günə pisləşirdi. Kəndlilər hakimiyyətin qərarını gözləmədən mülkədar torpaqlarını tutur və əkirdilər. Hər yerdə «nə istəsən, etmək olar» ab-havası hökm sürürdü. Kütlə polis sahələrini dağıdaraq siyasi məhkumlarla bərabər cinayətkarları da həsbxanalardan açıb buraxırdı.

Müvəqqəti hökumətdən müstəqillik və muxtariyyət tələb edən Rusiyanın milli ucqarlarında vəziyyət gərgin olaraq qalırdı. 1917-ci ilin yazında ölkə ərazisində 150-dən çox özü-özünü elan edən hökumətlər meydana gəlmişdi. Finlandiya və Ukrayna isə öz muxtariyyətini elan etmişdi.

İnqilabın qarşıya qoyduğu bütün məsələləri Müəssislər Məclisi həll etməli idi. 1917-ci il martın 13-də (26) Müəssislər Məclisinə seçkilər keçirmək məqsədilə Xüsusi müşavirə təşkil edildi. Nəticədə seçkilər noyabrın 12-nə (25), Məclisin iclası isə noyabrın 28-nə (11 dekabr) təyin edildi. Lakin Müvəqqəti hökumət onun çağırılmasını ləngidirdi. Nəticədə hökumət və onu müdafiə edən eser-menşeviklər ölkədə dərinləşən ziddiyyətlərin səbəbkarı kimi kütlələrin gözündə günahkara çevrildilər. 1917-ci ilin yayına doğru sayları 800 min nəfərə çatan Eserlər Partiyası tez bir zamanda hakimiyyəti ələ almağa çalışmayaraq Müəssislər Məclisində çoxluq əldə edib, dinc, demokratik yolla öz proqramlarını həyata keçirməyi planlaşdırdılar. Torpaq üzərində xüsusi mülkiyyətin ləğv edilməsini, inqilabi müdafiəçilik ideyasını müdafiə edir, istehsal və istehlak, xarici və daxili ticarət, maliyyə üzərində dövlət nəzarəti qoyulmasını tələb edirdi. Partiyanın içərisində birlik və mütəşəkkilliyin olmaması onların siyasi hakimiyyət uğrunda mübarizəsini zəiflədirdi.

Eserlərin «torpağın sosialistləşdirilməsi» proqramı rus kəndində çox məşhur olmuşdur. Özlərini təcrübəli təşviqatçı və təbliğatçı kimi də göstərmiş eserlər kəndlilərlə yanaşı, yüzlərlə əsgər və fəhləni də öz tərəflərinə cəlb

etmişdir. Sosialist İnqilabçılar Partiyasının tanınmış rəhbəri və ideoloqu mərkəzçi V.M.Çernov olmuşdur. Sağ çoxluğa N.D.Avksentyev və A.R.Qot rəhbərlik edirdi. Eserlərin güclü sol beynəlmiləlçilər qanadına isə M.A.Spiridonova, B.D.Kamkov, A.L.Koleqayev və P.P.Proşyan daxil idi.

Bütün beynəlxalq sosialist və fəhlə hərəkatında olduğu kimi, müharibəyə münasibət məsələsi menşeviklərin parçlanmasına səbəb olmuşdur. Rus sosial-demokratlarının sağ cinahında G.V.Plexanov və onun keçmiş davamçıları V.İ.Zasuliç, L.Q.Deyç yer almışdır. A.N.Potresov, V.O.Levitski (Tsederbaum) kimi publisistlər «menşevik-müdafiəçilərə» daxil idi. Menşeviklərin sol qanadını Y.O.Martov (Tsederbaum) və onun O.A.Ermanski, Yuri Larin (M.A.Lurye), A.P.Martınov və b. kimi menşevik-beynəlmiləlçi tərəfdarları təşkil edirdi. Onlar ardıcıl olaraq müharibəyə qarşı çıxış edərək onun fevraldan sonra imperialist xarakter kəsb etdiyini ifadə edirdilər. Martovun qrupuna Maksim Qorkinin ətrafında birləşmiş sosial-demokratların fraksiyadan kənar birliyinin kiçik bir qrupu da daxil idi. Qorki ilə birlikdə V.A.Bazarov və N.N.Suxanovun redaktə etdikləri «Yeni həyat» («Новая жизнь») qəzeti onların mərkəzi və mətbuat orqanı olmuşdur. 1917-ci ilin yazında menşeviklərin arasında daha çox mərkəzçilər, o cümlədən İ.G.Sereteli, F.İ.Dan, M.İ.Liber, M.İ.Skobelev və N.S.Çxeidze fərqlənmişdir. Onlar «inqilabi müdafiəçilər» («революционного оборончества»), yəni, «inqilabi Vətənin müdafiəçiləri» olaraq kütlələrə ciddi təsir edirdilər.

Menşeviklər belə hesab edirdilər ki, Rusiyada burjua inqilabı baş verdiyi üçün ölkənin qarşısında duran əsas vəzifə burjua-demokratik quruluşunu möhkəmləndirməkdir. Onlar Müvəqqəti hökumətə islahatların başlıca hərəkətverici qüvvəsi, sovetlərə isə «yüksək təzyiq» və nəzarət orqanı kimi baxırdılar. İnqilabi-müdafiəçilik ideyasını, istehsalın üzərinə fəhlə nəzarəti qoyulmasını, torpaq islahatı keçirilməsini, burjuaziyanın hərbi gəlirlərinə əlavə vergi qoyulmasını tələb edən menşeviklər ancaq bu tədbirlərin həyata keçirilməsinə görə Müvəqqəti hökumətə təsir edə bilmirdilər. Rus sosial-demokratlarının mötədil hissəsi olan Menşevik partiyasının qrup və təşkilatlarında zəif əiaqə və vahid birliyin olmaması diqqəti cəlb edir.

Yaranmış çox mürəkkəb bir şəraitdən Bolşeviklər partiyası məharətlə istifadə etməyə başladı. Məhz 1917-ci il aprel ayının əvvəli gələcək Oktyabr silahlı üsyanının başlanğıcı oldu. Rəhbərləri mühariсət və ya sürgündə olan azsaylı Bolşeviklər Partiyası 1917-ci il Fevral inqilabında əhəmiyyətli rol oynaya bilmədilər. Fevral inqilabının qələbəsi sürgündə və mühacirətdə olan inqilabçıların Petroqrada qayıtmasına şərait yaratdı. V.İ.Lenin, Q.Y.Zinovyev, N.İ.Buxarin, o cümlədən L.D.Trotskinin Petroqrada qayıtması ilə Bolşeviklər partiyasının rolu və sayı kəskin artmağa başladı.

Vladimir İliç Lenin (Ulyanov) (1870-1924) Bolşeviklər Partiyasının yaradıcısı, lideri və nəzəriyyəçisi idi. 1903-cü ildən RSDFP-də bolşeviklərin sol radikal fraksiyasına rəhbərlik etmişdir ki, bunun da əsasında sonradan RSDF(b)P meydana gələrək, 1918-ci ildən Rusiya Kommunist (bolşeviklər) Partiyasına (RK(b)P) çevrilmişdir. İstedadlı publisist olan bolşeviklərin rəhbəri öz əsərlərində inqilabi hərəkatın nəzəri və təcrübi məsələlərinə geniş yer ayırmışdır. O, belə hesab edirdi ki, inqilabi mübarizənin siyasi avanqardı, rəhbəri və təşkilatçısı olan marksist partiyası olmadan mütləqiyyətlə, kapitalizmlə uğurla mübarizə aparıb, onlara qalib gəlmək mümkün deyildir. Bu qələbəni partiya «kütlələrin kortəbii dağıdıcı qüvvəsini inqilabçıların şüurlu dağıdıcı qüvvəsi ilə birləşdirmək işi ilə təmin edə bilər».

Rusiyada kapitalizmin inkişafını nəzərə almaqla marksizm nəzəriyyəsinin tətbiq olunması, yeni tipli partiya haqqında nəzəriyyə, Rusiyada Burjua-Demokratik inqilabının inkişaf edərək sosialist inqilabına keçməsinin mümkünlüyünə inam Leninin nəzəri baxışlar sisteminin əsas hissələrini təşkil edir. Tarixi şəraitə uyğun olaraq öz görüşlərini inkişaf etdirib dəyişən Lenin heç vaxt inqilab haqqında olan əsas əqidəsini şübhə altına almadan düzəlişə məruz qoymamışdır. Müzakirələrdə Leninin xarakterik xüsusiyyəti ondan ibarət idi ki, o hətta kobud hücumlardan belə istifadə edərək, özünün siyasi opponetlərini gözdən salmağa çalışırdı, çünki onların simasında inqilab işinə, marksizm nəzəriyyəsinə və şəxsən onun özünə düşmən görürdü. Parlaq siyasi hissetmə qabiliyyəti olan V.İ.Lenin əlverişli vəziyyəti dərk etmək, partiya ehtiyatlarından maksimum istifadə etmək, kütlələri səfərbər edən şüarlar irəli sürmək, həlledici zərbəni vurmaq üçün qüvvələri qiymətləndirmək bacarığına malik idi.

1917-ci il aprelin 3-də Lenin sərhədi keçərək Petroqrada gəldi. «İnqilabçı demokratlar» adından onları Finlandiya vağzalında qarşılamaq üçün başda N.S.Çxeidze olmaqla nümayəndə heyəti də gəlmişdi. V.İ.Lenin avtomobil üzərinə qalxaraq təbrik nitqi söylədi və çıxışını «Yaşasın sosialist inqilabı!» şüarı ilə qurtardı. Aprelin 4-də bolşeviklərin yığıncağında Lenin özünün «Hazırkı inqilabda proletariatın vəzifələri haqqında» tezislərini izah etdi. Bolşeviklərin hakimiyyəti ələ keçirmək uğrunda mübarizəsinin ilk addımı atılmış oldu. «Aprel tezisləri» 11 maddədən, siyasi, iqtisadi və təşkilati məsələləri əhatə edən 3 hissədən ibarət idi. Tezislərdə deyilirdi: «Rusiyada hazırkı dövrün xüsusiyyəti, inqilabi proletariat lazımi qədər şüurlu və mütəşəkkil olmadığından hakimiyyəti burjuaziyaya vermiş olan birinci mərhələsindən onun ikinci mərhələsinə, hakimiyyəti proletariata və kəndlilərin ən yoxsul təbəqələrinə verməli olan mərhələsinə keçməkdən ibarətdir».

Aprel tezislərində aşağıdakı vəzifələr irəli sürülürdü: proletariat diktaturasının Rusiya üçün ən yaxşı dövlət forması sovetlər respublikasıdır; Müvəqqəti hökumətə heç bir yardım göstərilməməlidir; «Bütün hakimiyyət sovetlərə»;

«İnqilabi müdafiəçilik» taktikasına qarşı mübarizə aparmalı; mülkədar torpaqlarının müsadirə edilməsi və milliləşdirilməsi, milli bank yaradılması və onun üzərinə proletariat tərəfindən nəzarət qoyulması, istehsal və məhsulların bölgüsü üzərində fəhlə nəzarəti qoyulması; III İnternasionalın yaradılması.

İlk zamanlar Leninin tərəfdarları azlıq təşkil edirdi. Ona görə də bolşeviklər həmin günlərdə çox qətiyyətlə çıxış edirdilər. Menşevik və bolşeviklərin birgə yığıncağında Leninin nitqi əks-səda doğurdu. 1917-ci ilin yazında Rusiyanın 64 quberniya şəhərinin 54-də bolşeviklər və menşeviklər vahid təşkilatda birləşirdilər. Müzakirələrdə menşevik liderlərindən İ.G.Sereteli, N.S.Çxeidze, F.İ.Dan və başqaları Leninin tezislərinin əleyhinə kəskin çıxış edirdilər. Bu tezislər indiyə kimi Petroqradda səslənən şüar və nitqlərdən o dərəcədə fərqlənirdi ki, hətta V.İ.Leninlə, demək olar ki, eyni zamanda Rusiyaya qayıtmış G.V.Plexanova Leninin tezislərini «ağılsız və rus torpağına son dərəcə zərərli qarışıqlıq toxumu əkmək cəhdi kimi» qiymətləndirməyə əsas vermişdi. Bu sənəd bolşevik liderləri L.Kamenev, M.Kalinin, S.Baqdatev və b. tərəfindən narazılıqla qarşılandı. L.B.Kamenev və A.İ.Rıkov sosialist inqilabı xətti əleyhinə çıxdılar. Onlar bildirdilər ki, Rusiya sosialist inqilabına hazır deyildir. Martın ortalarınadək Stalin də onlara tərəfdar idi. 1917-ci il aprelin 24-29-da RSDF(b)P-nin VII konfransında bolşeviklər Lenini müdafiə edərək sovetləri hakimiyyəti ələ almağa və sosialist inqilabına keçməyə çağırdılar. Kamenev qrupu VII Aprel Ümumrusiya konfransında azlıqda qaldı, yəni məğlub oldu.

Ölkə daxilindəki mürəkkəb vəziyyətə baxmayaraq, Rusiya müharibəni davam etdirirdi. Müvəqqəti hökumət müharibəni davam etdirməklə bir sıra ərazilərin Rusiyaya birləşdirilməsinə çalışırdı. Petroqrad Soveti təşkil edilən gündən P.Milyukova təzyiq göstərirdi ki, Müvəqqəti hökumət müttəfiq dövlətlərə «təzminatsız və ilhaqsız» sülh bağlanması ilə müraciət etsin. 1917-ci ilin martında Müvəqqəti hökumət manifest dərc etməyə məcbur oldu. Manifestdə elan edilirdi ki, Rusiya hər cür ilhaqdan imtina edir.

1917-ci il aprelin 18-də (mayın 1-də) xalq birinci dəfə olaraq açıq şəkildə 1 May nümayişinə çıxdı. Həmin gün xarici işlər naziri P. Milyukov müttəfiqlərə nota ilə müraciət edərək Müvəqqəti hökumət adından bildirdi ki, Rusiya müharibədə iştirak edəcəkdir. Aprelin 19-da Milyukovun notası fəhlə və əsgərlərə məlum oldu. Aprelin 20-də hiddətlənmiş əsgər kütlələri əllərində «Rədd olsun Milyukov!», «Yaşasın ilhaqsız və təzminatsız sülh!» şüarları ilə küçəyə çıxaraq Milyukovun maşınının qabağını kəsdilər. Kadetlərin lideri əsgərlərə belə cavab verdi: «Rədd olsun Milyukov» şüarını görərkən mən Milyukova görə deyil, Rusiyaya görə qorxuram». Milyukovun olduqca soyuqqanlı olduğunu görən əsgərlər onun maşınını buraxdılar.

100 mindən çox fəhlə «Rədd olsun müharibə!», «Bütün hakimiyyət Sovetlərə!» şüarları altında nümayişə çıxdı. Petroqrad hərbi dairəsi qoşunlarının bir hissəsi baş komandan L.Q.Kornilova tabe olmaqdan imtina edərək xalqa atəş açmadılar. Buna görə Baş komandan istefa verdi. Petroqrad Sovetinin qərarı ilə Kornilov vəzifəsindən dəyişdirilərək Cənub-Qərb cəbhəsinin 8-ci ordusuna komandan göndərildi.

Aprelin 21-də bir tərəfdə əllərində «Bütün hakimiyyət Sovetlərə!», «Rədd olsun müharibə!» şüarları tutmuş fəhlə və əsgərlər, digər tərəfdə əllərində Leninin Almaniya ərazisindən keçərək Rusiyaya gəlməsinə işarə edən «Lenini Vilhelmə qaytarın!», «Yaşasın Müvəqqəti hökumət!» şüarları tutmuş zabitlər və tələbələr arasında toqquşma baş verdi. Toqquşma nəticəsində hər iki tərəfdən ölən və yaralananlar oldu.

Milyukovun notası və baş vermiş hadisə Müvəqqəti hökumətin dərin böhran keçirdiyini nümayiş etdirdi. Əslində Aprel nümayişi Müvəqqəti hökumətin 1-ci böhranı idi. Aprel nümayişi Müvəqqəti hökumətə göstərdi ki, o öz varlığını möhkəm və sabit hesab edə bilməz. Buna görə də burjuaziya öz hakimiyyətinin ictimai əsasını genişləndirməyi və menşeviklərin iştirakı ilə koalision hökumət yaratmağı zəruri bildi.

Müharibəni davam etdirməyin qəti tərəfdarları olan hərbi nazir A.Quçkov və xarici işlər naziri P.Milyukov hökumətdən istefa etdi. Aleksandr İvanoviç Quçkov (1862-1936) Oktyabristlər partiyasının lideri idi. Konstitusiyalı mütləqiyyət tərəfdarı olaraq mövcud quruluşun tədricən dəyişikliklərə məruz qalmasını müdafiə edən rus liberalizminin sağ qanadının nümayəndəsi idi.

Pavel Nikolayeviç Milyukov (1859-1943) konstitusiyalı demokratlar partiyasının lideri olaraq rus liberalizminin əsas hissəsini təmsil edirdi. O, həm də görkəmli tarixçi olaraq mühacirətdə yazdığı «Rus mədəniyyətinin tarixi oçerkləri», «İkinci rus inqilabının tarixi» və b. əsərlərin müəllifi idi.

Mayın 5-də (18-də) birinci koalision hökumət təşkil olundu ki, bunun da tərkibinə on altı nazir, o cümlədən menşevik və eserlərin 6 nümayəndəsi də daxil edildi. İ.Sereteli poçt və teleqraf naziri, V.Çernov torpaq naziri, N.Pereverzev ədliyyə naziri, A.Kerenski hərbi və dəniz naziri, A.Peşexonov ərzaq naziri, M.Skobelev əmək naziri təyin edildilər. Koalision hökumətin siyasəti vətəndaş həmrəyliyi ideyasına, burjuaziya və inqilabi demokratiyanın siyasi əməkdaşlağına əsaslanırdı. A.Quçkovu əvəz etmiş olan hərbi nazir A.Kerenski Antantanın tələbi ilə cəbhədə hücum hazırlığına başladı. Torpaq naziri V.Çernov mülkədar torpaqlarının kəndlilər tərəfindən zəbt edilməsinə qarşı mübarizəni şiddətləndirdi. Hökumətin fəhlə məsələsi üzrə siyasəti dəyişmədi, 8 saatlıq iş günü qanuniləşdirilmədi. Əməkhaqqının artırılması haqqında

fəhlələrin tələblərinə məhəl qoymadı. Hökumət istehsal və məhsul bölgüsü üzərində fəhlə nəzarətinin qoyulmasına qarşı qəti müqavimət göstərirdi. Əslində Müvəqqəti hökumət bu istiqamətdə düzgün mövqe tuturdu. Çünki bu məsələ dövlətin nəzarətində olmalı idi.

Müvəqqəti hökumət Rusiya xalqlarının azadlıq və istiqlaliyyətinə qarşı qəti çıxış edirdi. Ukraynadakı sosialist partiyaları 4 mart 1917-ci ildə Ukraynanın muxtariyyəti tələbi ilə çıxış edən «Mərkəzi Rada» adlı yerli hakimiyyət strukturu yaratdılar. Görkəmli tarixçi, Ukrayna eserlər partiyasının nümayəndəsi olan M.S.Qruşevski «Mərkəzi Rada»nın sədri seçildi. İcraiyyə orqanının başına sosial-demokrat V.K.Vinniçenko gətirildi. «Mərkəzi Rada» Ukraynanın muxtariyyəti ilə yanaşı, Ukrayna milli hərbi hissələrinin təşkil edilməsini tələb edirdi. Ukrayna milli hərbi hissələrinin təşkilinə Simon Petlyura başçılıq edirdi. Radanın təşkili və möhkəmləndirilməsi məsələləri onun qəbul etdiyi Birinci Universalda əks edilmişdi. Bu sənəddə Ukraynaya Rusiyanın tərkibində siyasi muxtariyyət verilməsi, yığılan vergilərin bir hissəsinin yerli milli hakimiyyətin sərəncamında saxlanılması tələb edilirdi. Bütün bunlar Petroqrad hakimiyyətini narahat etdi. Müvəqqəti hökumətin üzvləri A.Kerenski, İ.Tereşşenko, İ.Sereteli təcili olaraq Kiyevə gəldilər. «Mərkəzi Radanın» rəhbərliyi ilə danışıqlarda onlar Radanın səlahiyyətlərini tanımağa bir şərtlə razılıq verdilər ki, onun Baş katiblik kimi fəaliyyət göstərəcəyi icraiyyə orqanı Müvəqqəti hökumətlə razılaşdırılsın. Ukrayna milli hərbi hissələrinin formalaşdırılması dayandırılır, muxtariyyət məsələsi isə Müəssislər Məclisinin çağırılmasına kimi təxirə salınırdı. M.S.Qruşevski məşhur tarixçi idi və Ukraynanın ilk prezidenti seçilmişdir. Ukrayna müstəqillik qazandıqdan sonra ona Kiyevdə böyük abidə ucaldılmışdır.

1917-ci ilin martında Müvəqqəti hökumət Polşaya müstəqillik verilməsi tələbilə razılaşdı. İyul ayında Finlandiya Seymi ölkə ərazisində qanunverici və icraedici hakimiyyətin Seymə keçməsinə dair qanun qəbul etdi. İyulda təşkil edilən Belorusiya Radası Rusiya Respublikası daxilində Belorusiyaya muxtariyyət verilməsi uğrunda çalışırdı. Cənubi Qafqazda milli hərəkat tərəfdarları Rusiya daxilində muxtariyyət tələbindən tutmiş müstəqil böyük Azərbaycan, böyük Gürcüstan və böyük Ermənistan tələbilə çıxış edirdilər.

1917-ci ilin mayında Rusiyanın 20 milyonluq müsəlman əhalisini təmsil edən Ümumrusiya müsəlmanlarının qurultayı Rusiyanın tərkibində federativ əsasda milli ərazi prinsipinə söykənən demokratik respublika quruluşunu elan etdi. Ümumrusiya Müsəlmanları Şurası yaradıldı.

Müvəqqəti hökumətin siyasəti xalq içərisində geniş narazılığa səbəb olurdu. O zaman Rusiyanın daxilində yaranmış vəziyyəti nəzərə alsaq, görərik ki,

doğrudan da, ölkədə hakimiyyəti ələ ala biləcək bir partiya yox idi. 1917-ci il iyunun 3-24-də (16 iyun-7iyul) Petroqradda keçirilən Ümumrusiya I Sovetlər qurultayında Sovetin sədri menşevik İ.G.Sereteli bildirmişdir ki, hazırda Rusiyada elə bir partiya yoxdur ki, hakimiyyəti bütünlüklə ələ ala bilsin.

Qurultayda iştirak edən 777 nəfər nümayəndənin partiya mənsubiyyətini bildirmiş iştirakçılardan 285-i eser, 248-i menşevik, 32-si beynəlmiləlçi-menşevik, yalnız 105 nəfəri (10%-i) bolşevik idi. Buna baxmayaraq, Lenin elan etdi ki, Bolşeviklər Partiyası bunu hər bir dəqiqə etməyə hazırdır. Bu o demək idi ki, bolşeviklər hakimiyyətə gəlmək üçün nə Müəssislər Məclisini, nə də sovetlərdə üstünlük əldə etmək üçün vaxt qazanmağı gözləmək fikrindədir.

Müttəfiqlərin tələbi ilə Müvəqqəti hökumət cəbhədə hücum hazırlayırdı. Müvəqqəti hökumət başa düşürdü ki, cəbhədə hücumu davam etdirmək siyasi və strateji əhəmiyyət kəsb edir. Xarici ölkə mətbuatı, onun diplomatları Rusiyadan hücum əməliyyatı tələb edirdilər. Xarici ölkə nümayəndələri rus ordusunda hücuma keçmək təbliğatı aparırdılar.

İyunun 18-də Müvəqqəti hökumət cəbhədə hücuma başlamağı qərara aldı. Yenə həmin gün qurultayın rəhbərliyi Petroqrad fəhlə və əsgərlərinin nümayişini təyin edərək belə ümid edirdi ki, həmin nümayiş hücumun başlanması münasibətilə vətənpərvərlik nümayişinə çevriləcəkdir. Bolşeviklər Petroqrad fəhlə və əsgərləri nümayişi «Bütün hakimiyyət sovetlərə!», «Çörək, sülh və azadlıq!», «Rədd olsun on kapitalist nazir!» şüarları altında keçirməyə çağırdılar. 500 min fəhlə və əsgərin iştirak etdiyi 18 iyun nümayişi Müvəqqəti hökumətə etimadsızlıq nümayişinə çevrildi. Heç bir zavodda və ya fabrikdə Müvəqqəti hökumətə etimad şüarları irəli sürülmədi. Əsgərlər vuruşmaq istəmirdilər, onlar sülh tələb edirdilər. Rus ordusunun 18 iyunda başlanmış hücumu boşa çıxdı. 10 gün ərzində təkcə Cənub-Qərb cəbhəsinin Qalitsiyadakı hücumunda 60 min adam həlak oldu. Cəbhədəki məğlubiyyətlə əlaqədar ölkənin iqtisadi vəziyyəti getdikcə pisləşirdi. Metal və kömür olmaması üzündən müəssisələr dayanırdı. May-iyul aylarında 439 zavod bağlanmışdı. Amansız aclıq yaxınlaşırdı. Hökumət belə bir iqtisadi fəlakətin qarşısını almaq üçün tədbir görmürdü. Müvəqqəti hökumətin ölkəni böhrandan çıxarmaq iqtidarında olmaması nəticəsində xalq kütlələrinin narazılığı gündən-günə artırdı. Ölkədə aqrar inqilabı yüksəlməkdə idi. Kəndlilər mülkədar torpaqlarını tutur və ağa malikanələrini yandırırdılar. Fəhlə və kəndli hərəkatı müharibədən yorulmuş ordu içərisində qızğın rəğbətlə qarşılanırdı.

İyulun 3-də Petroqradda ayrı-ayrı polkların əsgərlərinin və zavod fəhlələrinin nümayişləri başlandı. İyulun 4-də Kronştadt silahlı matrosları bolşevik F.F.Raskolnikov olmaqla onlara qoşuldu. Yüz minlərlə adam Petroqrad küçələrinə çıxa-

raq bütün hakimiyyətin sovetlərə verilməsini tələb etməyə başladılar. Paytaxtda hökumətə sadiq olan sadiq qvardiyaçılardan ibarət daxili qoşunlarla silahlı nümayişçi dəstələr arasında toqquşma baş verdi. Onlarla adam öldü, yüzlərlə adam yaralandı. İyulun 5-də hökumət qoşunlarının köməyinə cəbhədən dəstək gəldi. Paytaxtdakı qiyamçı hissələr tərk-silah edildi, çıxışların rəhbərləri təqib edilməyə başlandı. Bolşevikləri və eserləri hakimiyyəti ələ keçirtmək məqsədilə çaxnaşmanın təşkilatçısı elan etdilər. V.İ.Lenini alman casusu elan edərək həbs etmək üçün axtarmağa başladılar. V.İ.Lenin silahdaşı Q.Y.Zinovyevlə birlikdə əvvəlcə Petroqrad ətrafında şəhərdən 32 km məsafədə olan Razliv stansiyası yaxınlığında, sonra isə Finlandiyada gizlənməyə məcbur oldu. Bolşeviklərin bir çox rəhbəri, o cümlədən L.B.Kamenev, A.V.Lunaçarski, L.D.Trotski, F.F.Raskolnikov və b. həbs edildi. Qırmızı qvardiya müvəqqəti olaraq gizli şəraitə keçdi.

3-5 iyul hadisələri ölkədə növbəti siyasi böhran idi. İyul hadisələrindən sonra ölkədə siyasi vəziyyət dəyişdi. Paytaxtda və bunun ardınca bütün ölkədə hakimiyyət bütünlüklə Müvəqqəti hökumətin əlinə keçdi. İkihakimiyyətliliyi Müvəqqəti hökumətin təkhakimiyyətliliyi əvəz etdi. «Bütün hakimiyyət sovetlərə!» şüarı müvəqqəti aradan götürüldü, bolşeviklər taktikalarını dəyişdirdilər. İndi burjuaziyanın hakimiyyətini devirmək və proletariat diktaturası qurmaq məqsədilə silahlı üsyana hazırlaşmaq başlıca xətt oldu.

İyul hadisələrindən sonra Müvəqqəti hökumət də bəzi addımlar atdı: iyulun 7-də Baş nazir Lvov istefaya getdi. İyulun 8-də Müvəqqəti hökumətin başçısı vəzifəsinə A.F.Kerenski təyin edildi. İyulun 12-də cəbhədə ölüm cəzası tətbiq edildi. İyulun 13-də yeni koalision hökumətin təşkili ilə əlaqədar kadetlərlə danışıqlara başlandı. Kadetlər tələb edirdi ki, Müvəqqəti hökumət müharibəni qələbəyədək davam etdirsin. Bu fikri eserlər, menşeviklər, xalq sosialistləri və digər partiya nümayəndələri də dəstəklədi. İyulun 24-də yeni hökumətin təşkili başa çatdı.

A.F.Kerenski Baş nazir, N.V.Nekrasov maliyyə naziri, M.İ.Tereşşenko xarici işlər naziri, V.M.Çernov torpaq naziri, S.K.Prokopoviç ticarət və sənaye naziri, M.S.Skobelev əmək naziri vəzifələrini tutdular. İkinci koalision hökumətə 7 eser və menşevik, 4 kadet, 2 bitərəf, 2 radikal demokratik partiyaların nümayəndələri daxil edildilər. Hökumətin 17 nəfər üzvündən 10-u sosialist partiyalarına mənsub idi.

Kerenski Aleksandr Fyodoroviç (1881-1970) təhsilinə görə hüquqşünas olub, bir neçə siyasi prosesdə uğurlu çıxışı ilə şöhrət qazanmışdı. Əmək partiyasının deputatı kimi IV Dövlət Dumasına daxil olmuşdu. 1917-ci ildə A.Kerenski Petroqrad Soveti sədrinin müavini, Müvəqqəti hökumətin ədliyyə, hərbi və dəniz naziri vəzifələrini tutmuşdur. 1917-ci ilin iyul-oktyabr aylarında Müvəqqəti hökumətin Baş naziri, avqust ayından isə Ali Baş komandan

olmuşdur. Müstəsna natiqlik bacarığı ilə seçilən Kerenski hakimiyyətin zirvəsini fəth etməsinə baxmayaraq, ölkədə vəziyyəti normal məcraya yönəldə bilməmişdir. Bolşeviklər hakimiyyəti qəsb etdikdən sonra onlara müqavimət göstərə bilməyib, 1918-ci ildə Fransaya, sonra isə ABŞ-a mühacirətə getmişdir.

Yuxarıda qeyd olunduğu kimi, Bolşeviklər partiyası silahlı üsyana hazırlaşırdı. Petroqradda yarımgizli şəraitdə 1917-ci il iyulun 26-dan avqustun 3-nə kimi davam etmiş RSDF(b)P-nin VI qurultayında ölkənin siyasi, iqtisadi və beynəlxalq vəziyyəti müzakirə olundu. «Bütün hakimiyyət sovetlərə!» şüarı müvəqqəti olaraq ortadan götürüldü. Qurultay V.İ.Leninin hakimiyyətin məhkəməsinə gəlməsinin qəti əleyhinə çıxdı. Qurultay başlıca vəzifə kimi silahlı mübarizə yolu ilə hakimiyyətin ələ alınması proqramını qəbul etdi.

## §2. General L.G.Kornilovun çıxışı

İyul hadisələrində bolşeviklərin uğursuz çıxışından sonra qüvvələrini səfərbər edən hərbi diktatura rejimi qurmağın tərəfdarları məhdud real namizədlər arasından rus generarlı L.G.Kornilovun namizədliyi üzərində dayandılar.

Lavr Georgiyeviç Kornilov (1870-1918) Sibirin kazak ailəsində doğulmuşdu. Atası bacarığı və zəhməti sayəsində zabit rütbəsi əldə etmişdir ki, özünün şəxsi keyfiyyətlərini böyük oğluna da aşılamışdır. 1883-cü ildə Lavr Kornilov Omsk kadet korpusuna daxil olaraq 1889-cu ildə onu əla qiymətlərlə başa vurmuşdur. 1889-1898-ci illərdə hərbi təhsilini Mixaylov artilleriya məktəbində, sonra Baş Qərərgah Akademiyasında davam etdirmişdir. 1898-1904-cü illərdə Orta Asiya, Əfqanıstan, İran, Hindistanda hərbi missiyasını davam etdirmiş, 1904-1905-ci illərdəki rus-yapon müharibəsində iştirak edərək Georgiyev xaçına layiq görülmüşdür. 1907-1911-ci illərdə Çində hərbi attaşe olmuşdur. Birinci Dünya müharibəsində 48-ci piyada diviziyasının rəisi kimi iştirak edərək 1915-ci ilin yazında mühasirəyə düşmüş, yalnız komandirin şəxsi cəsarəti sayəsində mühasirdən çıxmağa nail olmuşdur. Döyüşdə ağır yaralanmış Kornilov əsir düşmüş, bir ildən sonra əsirlikdən qaçmağı bacarmışdır. Fevral inqilabından sonra Petroqrad hərbi dairəsinin komandanı təyin edilmiş, yeni hakimiyyətin siyasəti ilə razılaşmayaraq aprel böhranından sonra istefa verərək 8-ci orduya komandan təsdiq olunmuşdur. 1917-ci il iyulun 7-də almanların Tarnopolsk cəbhəsini yarmasını dəf etdikdən sonra cənub-qərb cəbhəsinə komandan, iyulun 19-dan (1 avqust) isə A.A.Brusilovun yerinə Ali Baş Komandan təyin olunmuşdur.

Lavr Kornilov orduda nizam-intizam yaratmaq məqsədilə komissarlar və əsgər komitələrini saxlamaq şərtilə bütün səviyyələrdə hərbi rəislərin hakimiyyətini möhkəmlətməyi, Müvəqqəti hökumətin iyulun 12-də qəbul etdiyi ölüm hökmünün orduda bərpa edilməsi qərarını arxa cəbhəyə də tətbiq etməyi, fəaliyyətdə olan orduda mitinq, yığıncaq, hər cür, xüsusilə bolşevik təbliğatının qadağan olunmasını irəli sürmüşdür.

1917-ci il avqustun 12-15-də Moskvada dövlət müşavirəsi işə başlamışdır. Böyük Teatrda açılmış müşavirədə Dövlət Dumasının keçmiş deputatlarından tutmuş Sovetlərin İcraiyyə Komitəsinin üzvlərinə kimi müxtəlif ictimai qrupların təqribən 2500 nəfər nümayəndəsi iştirak edirdi. Kerenski ümid edirdi ki, Dövlət Duması hökuməti müdafiə edərək ona ifrat sağ və sol qanad nümayəndələri olmadan koalisiya yaratmağa köməklik edəcək. Lakin nümayəndərin çoxu müşavirədə çıxış edən Kornilovun proqramına açıq rəğbət hissi ilə yanaşmışdır.

Müşavirənin açılışı günü Moskvada keçirilən etiraz tətilində 400 min fəhlə iştirak edirdi. Dövlət Müşavirəsi açıq əks-inqilabi diktatura elan olunmasına cürət etmədi. Moskvada və bütün ölkədə şərait bunun üçün əlverişli deyildi. L.Kornilov əks-inqilabi çevriliş hazırlanmasını davam etdirmək üçün qərargaha qayıtdı. Kornilov çalışırdı ki, ölkədə hakimiyyəti təkbaşına ələ alsın, ona görə də Kerenskini hakimiyyətdən uzaqlaşdırmaq lazım idi. Avqustun 25-də Kornilov M.V.Rodzyanko, V.N.Lvov və başqa şəxsləri Ali Baş komandanlıq qərargahına dəvət etdi. Orada gələcək hökumətin yeni tərkibi müzakirə edildi. Səhəri gün L.Kornilov Kerenskiyə ultimatum verərək təcili olaraq istefa verməsini, bütün hərbi və mülki hakimiyyətin ona verilməsini tələb etdi.

Bu əslində Kerenski hökumətinə qarşı qəsd idi. İş açıq qiyam şəkli aldığı zaman Kerenski qorxurdu ki, xalq kütlələri kornilovçuluğa qarşı çıxmaqla, Müvəqqəti hökuməti də süpürüb-atar. Ona görə də Kerenski Kornilovun Ali Baş Komandan vəzifəsindən götürülməsi haqqında əmr verdi. Kornilov əmrə tabe olmadı və 1917-ci il avqustun 25-də general A.İ.Krımovun komandanlığı altında üçüncü süvari korpusu və başqa qoşun hissələrini Petroqrad üzərinə yeritdi. A.F.Kerenski kömək üçün Sovetlərin yaratdığı «Xalq Əksinqilabla Mübarizə Komitəsi»nə müraciət etdi. Komitə təcili olaraq Kornilovun dəf edilməsi üçün fəaliyyətə keçdi. İlk növbədə fəhlə, əsgər və matroslar Petroqradın müdafiəsinə səfərbər edildi. Əhali yekdilliklə Petroqradın müdafiəsinə qalxdı. Üç gün ərzində Qızıl qvardiya dəstələrinə 25 min fəhlə yazıldı. Petroqrad qarnizonu və Baltik donanması matroslarının ümumi sayı 60 min nəfər döyüşçüdən ibarət idi. Qırmızı qvardiyaçılar, zavod komitələri, rayon sovetləri, hərbi hissələrin əsgər komitələri müdafiənin önündə gedirdilər. Dəmiryolçular Kornilovun qoşunları ilə dolu yük qatarlarını bağlı yollarla keçi-

rirdilər, yolları sökür, dəmiryol körpülərini dağıdır, parovozları xarab edirdilər. Narva, Yamburq, Luqa, Qatçina stansiyalarında əsgərlərlə dolu 45 eşelon saxlanılmışdı.

Rabitə işçiləri xətləri sıradan çıxarmışdılar. Yüzlərlə təşviqatçı Kornilov qoşunları içərisində iş apararaq əsgərlərə qiyamın məqsədini izah edirdilər. Əsgərlər və kazaklar fəhlələrin tərəfinə keçməyə başladılar. General A.Krımov onun həbs olunmasını tələb edən əsgərlərdən yaxasını qurtarıb, Petroqrada qaçmağa məcbur oldu. Kornilovun fitnəsinin baş tutmadığını yəqin edən general özünü güllələdi. «Rusiyanın xilaskarı» Kornilov isə sentyabrın 1-də həbs edildi. Hərbi diktatura yaratmaq cəhdi uğursuzluğa düçar oldu. Aleksandr Kerenski Ali Baş Komandan oldu.

Avqustun 26-dan 31-dək davam edən kornilovçuluğun bir güllə atılmadan belə ləğv edilməsindən sonra avqustun 31-də Petroqrad Fəhlə və Əsgər Deputatları Soveti səs çoxluğu ilə bolşeviklərin tərəfinə keçdi. Belə ki, həmin tarixdə Petroqrad soveti «Hakimiyyət haqqında» bolşevik qətnaməsi qəbul edərək Sovetə tabe olan burjuaziyanın təmsil olunmadığı hökumət təşkil etməyi irəli sürdü. Pertoqrad Sovetinin menşevik-eserlerin çoxluq təşkil etdiyi İcraiyyə Komitəsi məsələyə münasibət bildirməsini müzakirəyə çıxardı və deputatların çox hissəsi onların əleyhinə səs verdi. Bunun ardınca İcraiyyə Komitəsinə təkrar seçkilər keçirildi və bolşevik deputatlar ilk dəfə olaraq sayca üstünlük qazandılar. Bu proses sovetlərin bolşevikləşməsi adını aldı. Tezliklə bu hərəkat paytaxtdan Moskva, Kiyev, Saratova yayıldı. Artıq sentyabr ayında 50-dən çox sovet hakimiyyətin onlara verilməsi haqqında qətnamə qəbul etmişdi.

Arxa cəbhənin əsgərləri də bolşeviklərin şüarını qəbul etdilər, çünki onlar başa düşürdülər ki, «sülh siyasəti» onları cəbhəyə göndərməkdən xilas edə bilər. Hücum əməliyyatının və Kornilov qiyamının uğursuzluğu döyüşən ordunun bolşevikləşməsini sürətləndirdi. Sovetlərin bolşevikləşməsi nəticəsində 3-5 iyul hadisələrindən sonra aradan götürülmüş «Bütün hakimiyyət Sovetlərə!» şüarı yenidən irəli sürüldü. Bu şüar indi Müvəqqəti hökumətə qarşı silahlı üsyana çağırış demək idi. Kornilovçuluğun ləğv edilməsi ölkədəki siyasi şəraiti və qüvvələr nisbətini əsaslı surətdə dəyişdi. Sağ qüvvələr məğlub oldu, A.F.Kerenskinin və kadetlərin nüfuzu sarsıldı. Bolşeviklərin nüfuzu yüksəldi, sayları artaraq 350 min nəfərə çatdı. Vəziyyəti nəzərə alan hökumət Bolşevik Partiyasının bir sıra rəhbərlərini, o cümlədən L.Trotski və L.Kamenevi həbsdən azad etdi. Sağ partiya və qruplarda əməkdaşlıq etdikləri üçün menşevik və eserlərin mövqeyi sarsıldığı halda, sağlarla ittifaq təşkil etməyən bolşeviklərin ölkədəki şəraitə müdaxilə etmək rolu önə çıxdı. Mahiyyət etibarilə kornilovçuluğun məğlubiyyəti Lenin başda olmaqla Bolşeviklər Partiyasının hakimiyyəti ələ keçirməsinə yol açmışdır.

# XIX FƏSİL
# OKTYABR HADİSƏSİ VƏ SOVET HAKİMİYYƏTİNİN QURULMASI

## §1. Oktyabr ərəfəsində ölkənin daxili vəziyyəti

Ölkədə böhran getdikcə dərinləşirdi. İmperialist müharibəsi və iqtisadi dağıntı şəraitində 1917-ci ilin payızında ümummilli böhranın yetişməsi sürətləndi. Ölkəyə amansız təsərrüfat fəlakəti və aclıq yaxınlaşırdı. Sənayenin ümumi məhsulunun həcmi 1917-ci ildə 1916-cı ilə nisbətən 36,5% azalmışdı. 1917-ci ilin Fevral inqilabından sonra 800-dən çox müəssisə bağlanmış, 170 min fəhlə işdən çıxarılmışdı. Yanacaq və metal hasilatı kəskin azalmışdı. Dəmir yolları ilə yük daşınması 1916-cı ilə nisbətən 34% aşağı düşmüşdü.

Ölkə ağır maliyyə böhranı keçirirdi. Hərbi xərclər son dərəcə artmışdı. Əgər 1917-ci ilin birinci yarısı müharibənin hər günü Rusiyaya 58 mln. rubla başa gəlirdisə, 1917-ci ilin ikinci yarısında müharibənin hər günü Rusiyaya 82,3 mln. rubla başa gəlirdi. Martın 1-dən oktyabrın 25-dək birbaşa dövlət borcları sürətlə artaraq 49 milyard rubla, o cümlədən xarici borclar 11,2 milyard rubla çatmışdı. 1917-ci ilin dövlət büdcəsində kəsir 82%-ə bərabər idi. Bu kəsri ödəmək üçün təkcə 1917-ci ilin son səkkiz ayında 9,5 milyard rubl «kerenka» (Kerenskinin hakimiyyəti dövründə buraxılan kağız pullara xalq arasında belə deyilirdi) buraxılmışdı. Petroqrad, Moskva və başqa şəhərlərin çörəklə və ərzaqla təchiz edilməsi gündən-günə azalırdı. Avqust ayında isə gündəlik çörək norması 200 qrama düşmüşdü.

Ümummilli böhranın dərinləşməsi ölkədə sinfi ziddiyyətlərin son dərəcə kəskinləşməsinə səbəb oldu. Ölkədə artmaqda olan inqilabi hərəkatın önündə fəhlə sinfi gedirdi. Avqust ayında Moskvada 100 min fəhlə, sentyabrda Uralda 110 min metallurq və şaxtaçı siyasi tətil etmişdi. Onlar Ümumrusiya Sovetlər qurultayının çağırılmasını tələb edirdilər. Kütləvi tətillərdə 2,4 mln. nəfərdən çox fəhlə iştirak etmişdi. Sentyabrda ölkənin bütün dəmiryollarında tətil başlandı. Müvəqqəti hökumət bəzi güzəştlərə getməyə məcbur oldu, belə ki, dəmiryolçuların əməkhaqqı az olsa da, artırıldı. Sentyabrın 27-də neftçilərin ümumi tətilində 30 min nəfər iştirak edirdi. Bakı fəhlələrinin ümumi tətili uğurla keçdi, onlar sahibkarları kollektiv müqavilə bağlamağa məcbur etdilər. Oktyabr ayında İvanovo-Voznesenskdə, Şuya, Kovrov və mərkəzi sənaye

rayonunun digər şəhərlərində 300 min toxucu tətil etdi. Həmin ayda Donbas, Krivoy-Roq, Xarkov, Kiyev fəhlələrinin tətili başlandı.

Kəndli hərəkatı yeni, daha yüksək mərhələyə daxil oldu. 1917-ci ilin payızında kəndli hərəkatı Rusiyanın Avropaya düşən ərazisinin onda doqquz hissəsini bürümüşdü. Əgər mayda mülkədar malikanələri 152 dəfə dağıdılmış və yandırılmışdırsa, sentyabrda belə malikanələrin sayı 958-ə çatmışdı. 1917-ci ilin payızında 3,5 mindən çox kəndli çıxışı qeydə alınmışdı.

Rusiyanın azlıqda qalan xalqlarının da milli-azadlıq və hüquq bərabərliyi uğrunda Müvəqqəti hökumətə qarşı mübarizəsi artmışdı. Bu hərəkat Minsk və Kiyev quberniyalarında xüsusilə güclü idi. Bir çox milli ucqarlarda sinfi toqquşmalar böyüyərək silahlı mübarizəyə çevrildi. Ukrayna, Belorusiya, Baltikyanı, Orta Asiya, Cənubi Qafqaz buna misal ola bilər.

Ordu və donanmada bolşevik təşkilatlarının şəbəkəsi gündən-günə möhkəmlənirdi. Fəhlələrlə hərbi hissələr arasında sıx əlaqə yaranmışdı, bu isə əsgərlərin inqilabiləşməsində əsas rol oynayırdı. Petroqrad və Moskvaya yaxın olan Şimal, Qərb cəbhələrində, eləcə də Baltik donanmasında bolşeviklərin nüfuzu güclü idi. Cəbhədə əsgərlərin rəqibləri ilə qardaşlaşması baş verir, fərarilik kütləvi hal alır, intizam durmadan azalırdı. Milis Baş İdarəsinin məlumatına əsasən, arxa cəbhədəki əsgər qarnizonlarında 1917-ci ilin mart ayından maya kimi 29, iyundan avqusta kimi 238 və sentyabrdan oktyabra kimi 446 əsgər çıxışı qeydə alınmışdır. İyulun 24-də yaradılmış ikinci koalision hökumət avqustun 27-də dağıldı, bununla da uzun sürən hökumət böhranı başlandı. Kerenski kadetlərlə koalisiyanı bərpa etməyə çalışırdı, çünki avqustun 25-də Kornilov Ali Baş Komandan vəzifəsindən uzaqlaşdırılarkən kadetlər hökumətin tərkibindən çıxmışdılar.

Siyasi mövqeyini möhkəmlətmək məqsədilə A.F.Kerenski 1917-ci il sentyabrın 1-də 5 nəfərdən ibarət Direktoriya (beşlik) təşkil etdi. A.F.Kerenskinin «cib hökuməti» adlandırılan Direktoriyanın üzərinə «kabinet təşkil olunanadək dövlətin işlərini idarə etmək» vəzifəsi qoyulmuşdu. Direktoruyanın tərkibi A.F.Kerenski, A.Y.Nikitin, M.İ.Tereşşenko, admiral D.N.Verderevski və general A.İ.Verxovskidən ibarət idi.

Direktoriya yarandığı ilk gündən inqilabi qüvvələrə qarşı mübarizə yoluna qədəm qoydu. Demokratik ictimaiyyəti sakitləşdirmək və vəziyyətdən çıxmaq məqsədilə hökumət Rusiyanı sentyabrın 1-də Respublika elan etdi. Kütlələrin inqilabi mübarizəsini zəiflətmək üçün Demokratik müşavirə çağırılması qərara alındı. Fəhlə, əsgər və kəndli deputatlar sovetlərin həmkarlar ittifaqlarını, fabrik-zavod komitələrini, əsgər komitələrini, ruhaniləri, zemstvoları təmsil edən 1582 nümayəndə müşavirədə iştirak edirdi. Sentyabrın 14-22-si arasında

keçirilən Demokratik müşavirədə partiya, fraksiya və qrupların nümayəndələri uzun müzakirələrdən sonra Demokratik müşavirənin tərkibindən daimi nümayəndəlik – eser N.D.Avksentyev sədr olmaqla, Rusiya Respublika Şurası və ya Parlamentqabağı seçdilər. Onun tərkibinə 555 nəfər, o cümlədən 58 bolşevik və 75 kadet daxil olmuşdur. Bu Şuranın heç bir səlahiyyəti yox idi, belə ki, həm də onun tərkibi Müvəqqəti hökumət tərəfindən təsdiq edilməli idi. Kamenev və onun tərəfdarları bolşeviklərin Parlamentqabağıda iştirakını zəruri hesab edir, Lenin isə onun boykot edilməsini təkid edirdi.

Demokratik müşavirənin kadetlərlə koalisiya əleyhinə çıxmasına baxmayaraq, Kerenski kadetlərin iştirakı ilə sentyabrın 25-də üçüncü və sonuncu Müvəqqəti koalision hökuməti yaratdı. Hökumətin tərkibinə 6 kadet, 1 eser, 3 menşevik, 2 trudovik, 1 müstəqil, 2 hərbçi daxil edildi. Müvəqqəti hökumət ölkədəki çıxışların qarşısını almaq üçün bir sıra tədbirlər həyata keçirməyə hazırlaşırdı. İlk növbədə bütün əks-inqilabi qüvvələr səfərbər edilərək hökumətin sərəncamına verildi. İnqilabi əhvali-ruhiyyəli əksər birliklər cəbhəyə göndərildi.

### §2. Petroqradda silahlı üsyan və bolşeviklərin hakimiyyətə gəlməsi

Yaranmış olan vəziyyətdən Bolşeviklər Partiyası məharətlə istifadə etdi. Ölkədə Oktyabr silahlı üsyanı təşkil edildi ki, bunun da ilhamçısı və təşkilatçısı başda Rusiyanın mənafeyinə xəyanət etməkdə təqsirləndirilən və «alman casusu» elan edilən Vladimir İliç Lenin olmaqla Bolşeviklər Partiyası idi. Həmişə açıq mübarizədən gizlənən V.İ.Lenin sentyabrdan Finlandiyada yaşayır və orada silahlı üsyanın planını hazırlayırdı.

1917-ci ildə Rusiyada mövcud olan sosial-siyasi vəziyyətdən silahlı yolla hakimiyyəti ələ keçirməyi planlaşdıran bolşeviklər partiyasının başqa partiyalardan fərqli olaraq iki güclü rəhbəri – möhkəm iradəli V.İ.Lenin və tükənməz enerjisi, mükəmməl natiqliyi ilə hər kəsdən seçilən L.D.Trotski hadisələrə istiqamət verirdilər. Xüsusi tembr səsilə auditoriyanı ələ almağı bacaran L.D.Trotski kütlələri sinfi mübarizəyə səsləyərək «soyanları soy» və s. şüarlarla onları müxtəlif vədlərlə daha da qızışdırır və bolşeviklərin tərəfinə çəkirdi. Sentyabrın 12-14-də Lenin Partiyanın MK-sına iki məktub göndərdi: «Bolşeviklər hakimiyyəti ələ almalıdırlar», «Marksizm və üsyan». Birinci məktubda Lenin yazırdı ki, «hər iki paytaxt Sovetlərində (Petroqrad və Moskva Sovetlərində) bolşeviklər çoxluq qazandıqdan sonra dövlət hakimiyyətini öz əllərinə ala bilərlər və almalıdırlar». Belə ki Kornilov qiyamı ləğv edildik-

dən sonra Petroqrad və Moskva sovetlərinin eser-menşevik rəhbərliyi bolşeviklərlə əvəz olundu. L.D.Trotski Petroqrad Soveti İcraiyyə Komitəsinin sədri seçildi. Bir çox yerlərdə sovetlərin rəhbərliyinə bolşeviklər keçdi. Həm də ölkənin əsas mərkəzlərində bolşeviklər üstünlük təşkil edirdilər. Belə ki, sentyabrın ortalarında Rusiyanın böyük şəhərlərinin 80 yerli soveti bolşevikləri müdafiə edirdi.

Leninin məktubları sentyabrın 15-də bolşeviklər partiyasının Mərkəzi Komitəsində müzakirə olundu. Mərkəzi Komitə Leninin göstərişlərini qəbul etdi və onun məktublarını Partiyanın təşkilatlarına göndərməyi qərara aldı. Sentyabrın ikinci yarısında Bolşeviklər Partiyası hakimiyyəti ələ keçirmək üçün silahlı üsyanın hazırlanması işini tam genişləndirdi. Üsyana rəhbərlik etmək üçün Lenin oktyabrın 7-də gizli surətdə Finlandiyadan Petroqrada gəldi. Ertəsi gün Lenin «Kənar adamın məsləhətləri» adlı məqaləsini yazdı və bu məqalədə silahlı üsyanın konkret planını irəli sürdü.

Oktyabrın 10-da bolşevik qadın Q.K.Flaksermanın əri menşevik N.N.Suxanovun (Qimmer) mənzilində RSDF(b)P MK-nın iclası oldu. Lenin hazırkı dövr haqqında məruzə etdi. Lenin daxili və beynəlxalq vəziyyəti təhlil edərək qeyd etdi ki, silahlı üsyanın uğurlu olması üçün siyasi şərait tamamilə yetişmişdir. İclasda üsyan haqqında qətnamə qəbul edildi. Qətnamə əleyhinə L.B.Kamenev və Q.Y.Zinovyev səs verdilər, çünki belə hesab edirdilər ki, bolşeviklərin kəndlilər içərisində lazım olan köməyi olmadığı üçün ölkə uğurlu üsyana hazır deyil. Həm də partiyanın gələcəyini təhlükə altına atmaq olmazdı. Leninin təklif etdiyi silahlı üsyan yerinə, Kamenev və Zinovyev gözləmə mövqeyi ilə kifayətlənərək kütlələrin müdafiəsini təmin edib Müəssislər Məclisində və Sovetlərdə üstünlük qazanaraq partiya proqramını zor tətbiq etmədən yerinə yetirilməlidir.

MK-nın silahlı üsyan haqqında qətnaməsi bütün partiya təşkilatlarına göndərildi. Petroqrad Soveti yanında bolşeviklərin və sol eserlərin daxil olduğu Hərbi-İnqilab Komitəsi yaradıldı. HİK-in sədri sol eser P.Y.Lazimir oldu, sonra onu bolşevik N.İ.Podvoyski əvəz etdi, katib bolşevik V.A.Antonov-Ovseyenko idi. HİK-ə həmçinin K.A.Mexonoşin, H.V.Krılenko, V.İ.Nevski, M.Y.Latsis, H.A.Skrıpnik, K.S.Yeremeyev, P.Y.Dıbenko daxil idi.

Oktyabrın 16-da bolşeviklər partiyası MK-sının geniş iclası oldu. 10 oktyabr tarixli iclasın qətnaməsi əsaslandırıldı. Silahlı üsyan haqqında qərar təsdiq olundu. Silahlı üsyanı təxirə salmağı tələb edən Kamenev və Zinovyev V.İ.Leninin əleyhinə çıxış etdilər. Leninin qətnaməsi lehinə 19, əleyhinə 2 nəfər səs verdi, 4 nəfər isə bitərəf qaldı. Silahlı üsyana rəhbərlik etmək üçün MK-nın qapalı iclasında A.S.Bubnov, F.E.Dzerjinski, Y.M.Sverdlov, İ.V.Stalin,

M.S.Uritskidən ibarət olan Hərbi-İnqilab Mərkəzi yaradıldı. Moskvada, Uralda, Sibirdə, Volqaboyunda, Donbasda və s. yerlərdə silahlı üsyanın hazırlanması və keçirilməsi üçün hərbi mərkəzlər yaradılırdı. Qırmızı qvardiya dəstələri təşkil olunurdu.

MK-da azlıqda qalan Kamenev və Zinovyev yenə də üsyanın əleyhinə idilər. Oktyabrın 18-də Kamenev M.Qorkinin yarımmenşevik «Novaya jizn» qəzetində məktub dərc etdirdi. Bu məktubda o özünün və Zinovyevin adından MK-nın üsyan haqqındakı qərarına qarşı çıxış etdi. Oktyabrın 20-də MK Kamenevin və Zinovyevin hərəkətlərini müzakirə etdi və onlara partiya adından çıxış etməyi qadağan etdi. Beləliklə, silahlı üsyanın nə vaxt olacağından xəbər tutan Müvəqqəti hökumət onun qarşısını almaq üçün bir sıra tədbirlər gördü. Eyni zamanda Trotskinin rəhbərlik etdiyi Petroqrad Sovetinə tabe olan HİK-də əsgərləri üsyana hazırlamaq üçün bütün hərbi hissələrə öz komissarlarını göndərdi. Hərbi-dəniz donanması gəmilərinə, «Avrora» kreyserinə və «Zarya svobodı» gəmisinə döyüş tapşırığı verilmişdi. Baltik donanması (60 mindən artıq matros və yüzlərlə gəmi), Petroqrad qarnizonunun 150 minədək əsgəri bolşeviklərin tərəfinə keçdi. Təlim keçmiş silahlı fəhlə drujinalarının sayı 30 min nəfər təşkil edirdi. Müvəqqəti hökumət belə hesab edirdi ki, fəhlələrin çıxışı II Sovetlər qurultayının açılışı günü – 1917-ci il oktyabrın 25-də olacaqdır. Müvəqqəti hökumət həmin gün üsyanı darmadağın etməyi planlaşdırırdı. Paytaxta hərbi qüvvələr gətirilmişdi. Yunker məktəblərini döyüşə hazırlamışdılar. Fəhlə rayonlarını mərkəzlə birləşdirən körpülərin açılması üçün əmr verilmişdi.

Oktyabrın 24-də axşam Lenin dərhal çıxış etməyi tələb etdi. Lenin MK-ya yazmışdı ki, «Hər necə olursa, olsun, bu gün axşam, bu gecə hökuməti həbsə almaq, yunkerləri tərk-silah etmək lazımdır, və i.a… ayın 25-dək hakimiyyət heç bir halda Kerenskinin və kampaniyasının əlində qalmamalıdır, məsələ hökmən bu gün axşam və ya gecə həll edilməlidir».

Kerenskiyə Sovetlər qurultayının açılışı günü, oktyabrın 25-də çıxış etmək imkanı verməmək üçün partiyanın MK-sı HİK-ə dərhal üsyana başlamağı əmr etdi. Həmin gün inqilabçı qoşunlar bütün körpüləri öz nəzarəti altına aldılar. Petroqrada gələn bütün yolları tutdular və beləliklə, Müvəqqəti hökumətin cəbhədən çağırdığı qoşunların yolu kəsilmiş oldu. Hazırlanmış plan üzrə fəhlə dəstələri dövlət idarələrini tutmağa başladılar. Gecə yarısından sonra Petroqradın ən mühüm yerləri – telefon stansiyası, dövlət bankı, poçtampt, vağzallar və əsas idarələr tutulmuşdu. Hakimiyyəti silahlı üsyan yolu ilə ələ keçirməyi nəzərdə tutan silahlı üsyanın hazırlıq mərkəzi Bolşeviklər Partiyası qərargahının yerləşdiyi Smolnı idi. 1917-ci il oktyabrın 24-26-da başlanan üsyana və hakimiyyətin ələ keçirilməsinə bilavasitə Petroqrad Sovetinin sədri L.D.Trotski rəhbərlik edirdi.

Oktyabrın 25-də Keksholm polkunun əsgərləri Müvəqqəti hökumətin sığındığı Qış sarayına gedən bütün yolları tutdu. Vəziyyətin ümidsiz olduğunu görən Kerenski Amerika bayrağı taxılmış olan bir avtomobildə üsyan etmiş paytaxtı müavini A.İ.Konovalovun məsləhəti ilə cəbhədən münasib ordu səfərbər etmək məqsədilə tərk etdi.

Oktyabrın 25-də (noyabrın 7-də) səhər saat 10-da HİK Müvəqqəti hökumətin devrildiyini elan etdi. HİK-in Müraciətində deyilirdi: «Müvəqqəti hökumət devrilmişdir. Dövlət hakimiyyəti Petroqrad fəhlə və əsgər deputatları Soveti orqanının – Petroqrad proletariatı və qarnizonuna başçılıq edən Hərbi İnqilab Komitəsinin əlinə keçmişdir». Günün axırına yaxın Müvəqqəti hökumətin olduğu Qış sarayından başqa bütün şəhər artıq üsyançıların əlində idi. Müvəqqəti hökumətə, təslim olması haqqında ultimatum verildi, lakin hökumət onu rədd etdi. Axşam saat 10-da «Avrora» gəmisindən atılan top atəşindən sonra üsyançılar Qış sarayı üzərinə hücuma keçdilər. Gecə saat 2-də Qış sarayı alındı. Müvəqqəti hökumət üzvləri həbs edilib Petropavlovsk qalasına salındı. Ertəsi gün qəzetlər Qış sarayının alınmasında 6 nəfərin ölməsi, onlarla adamın yaralanmasına dair məlumat dərc etmişdi. Paytaxtda olan çoxlu sayda kazak, yunker və zabitlər Müvəqqəti hökumətə kömək etmədilər.

Oktyabrın 25-də saat $22^{40}$-da Smolnıda bolşeviklərin və sol eserlərin iştirakı ilə II Sovetlər qurultayı açıldı. 650 nəfərdən ibarət deputatın 388 nəfəri bolşevik, 100 nəfəri sol eser idi. Oktyabrın 26-da səhər saat 5-də Sovetlər qurultayı bütün hakimiyyətin Sovetlərə keçdiyi haqqında qərar qəbul etdi. Qurultayın ikinci iclası oktyabrın 26-da saat $20^{40}$-da oldu. Qurultayda Lenin «Sülh haqqında» dekreti elan etdi. Dekretə görə müharibə aparan tərəflərə təcili olaraq üç ay müddətində barışıq sazişi imzalamaq, sonra isə ilhaqsız və təzminatsız demokratik sülh bağlamaq təklif olunurdu. Bununla bərabər gizli diplomatiya ləğv edilir, siyasətdə böyük və kiçik xalqların hüquqlarına hörmət prinsipi ön plana keçirdi. Daha sonra Lenin «Torpaq haqqında» dekret elan etdi. Dekretə əsasən bütün mülkədar, xanədan, monastr və kilsə torpaqları, canlı-cansız avadanlığı ilə birlikdə tamamilə pulsuz olaraq kəndli deputatları Sovetlərinin sərəncamına verilirdi. Kəndlilərə əvəzi alınmadan 150 mln. desyatindən çox torpaq verilməsi nəzərdə tutulurdu. Torpaq üzərində xüsusi mülkiyyət həmişəlik olaraq ləğv edilir, onun alqı-satqısı qadağan olunur, torpaq ümumxalq malı elan edilirdi. Qurultayın gündəliyində axırıncı məsələ hakimiyyəti təşkil etmək məsələsi idi.

Qurultayda ilk Sovet hökuməti – Xalq Komissarları Soveti təşkil olundu. V.İ.Lenin XKS-nin sədri seçildi. A.İ.Rıkov Xalq Daxili İşlər komissarı, V.P.Milyutin Torpaq İşləri komissarı, A.Q.Şlyapnikov Əmək İşləri komissarı,

V.A.Ovseyenko (Antonov), N.V.Krılenko və P.E.Dıbenko Hərbi və Dəniz işləri Komitəsi üzrə komissarlar, V.P.Nogin Ticarət və sənaye üzrə komissar, A.V.Lunaçarski Xalq maarifi komissarı, İ.İ.Skvortsov (Stepanov) Xalq maliyyə komissarı, L.D.Bronşteyn (Trotski) Xalq Xarici İşlər komissarı, Q.İ.Oppokov (Lomov) Ədliyyə komissarı, İ.A.Teodoroviç Ərzaq İşləri üzrə komissar, N.P.Avilov (Qlebov) Poçt və Teleqraf üzrə komissar, İ.V.Çuqaşvili (Stalin) Milli İşlər üzrə komissar oldular. Hakimiyyətin ali dövlət orqanı hər il çağırılması nəzərdə tutulan Sovetlər qurultayı elan olundu. Qurultaylar arasındakı dövrdə isə bu vəzifəni Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsi yerinə yetirirdi. 101 nəfərdən 62 nəfəri bolşevik, 29 nəfəri sol eser, 6 nəfəri menşevik-beynəlmiləlçi və 4 nəfəri başqa sol qrup nümayəndələrindən ibarət təşkil edilən ÜRMİK-in sədri vəzifəsinə L.B.Kamenev seçildi, sonra onu M.Y.Sverdlov əvəz etdi. Qurultayın təşkil etdiyi Müvəqqəti fəhlə-kəndli hökuməti (Müəssislər məclisi çağrılanadək) URMİK qarşısında cavabdeh idi. Keçmişlə əlaqənin kəsildiyini nümayiş etdirmək məqsədilə hökumətin üzvləri nazirlər deyil, xalq komissarları elan olundu.

Sovet hakimiyyəti bütün ölkədə sürətlə yayılmaqda idi. 1917-ci il oktyabrın 25-dən 1918-ci ilin martınadək davam edən dövrü Lenin «Sovet hakimiyyətinin zəfər yürüşü» dövrü adlandırmışdır. Yəni hakimiyyət bolşeviklər tərəfindən dinc və silahlı üsyan yolu ilə ələ keçirilmişdir. Ölkənin əyalət və mərkəzi quberniyalarında 1917-ci ilin oktyabr-noyabr aylarında hakimiyyət uğrunda çətin və uzun müddət davam etmiş mübarizə getmişdir. Əyalətlərdə Sovetlərin nümayəndələri ilə yanaşı, yerli özünüidarə zemstvo və şəhər dumalarının, mötədil-sosialist istiqamətli təşkilatların, həmkarlar ittifaqlarının nümayəndələrinin də təmsil olunduğu koalisiyalı hakimiyyət orqanları meydana gəlmişdir. Bu siyasi konsensusun sayəsində bir çox yerlərdə silahlı qarşıdurmadan qaçmaq mümkün olmuşdur. Belə praktikadan Avropa Rusiyasının Kaluqa, Kostroma, Kursk, Tula, Perm, Voloqda və b. quberniyalarında istifadə edilmişdir.

Koalisiyalı hakimiyyət orqanlarının yaradılması ölkənin aqrar əyalətlərində daha geniş miqyas almışdır. Koalisiyalı hakimiyyət orqanlarının əsasını təşkil etmiş razılaşmanın forma və şərtləri müxtəlif səpkili olmuşdur. Donda fəaliyyət göstərən Hərbi-İnqilabi Komitənin tərkibinə menşevik və eserlərlə yanaşı, Rostov-Don və Taqanroq bolşevikləri də daxil idi. Həştərxandakı Xalq

Hakimiyyəti Komitəsində sovet-sosialist elementləri çoxluq təşkil edirdi. Tomsk quberniyasında isə koalisiya sovet və qeyri-sovet təşkilatlarına məxsus nümayəndələrdən bərabərlik əsasında təşkil olunmuşdu. Zabaykal vilayətində Xalq Soveti kənd əhalisinin üç qrupundan, yəni, kəndli, kazak, buryatlardan bərabərlik əsasında, o cümlədən fəhlə və əsgər, şəhər özünüidarəsinin deputat-

larından ibarət təşkil edilmişdir. Uzaq Şərqdə III Sovetlər ölkə qurultayı və Primorsk vilayət zemstvo yığıncağında menşeviklərin, xüsusilə sol eserlərin müvəqqəti üstünlük təşkil etdiklərinə baxmayaraq koalisiya əsasında fəhlə, əsgər, kəndli deputatları və yerli özünüidarə nümayəndələrindən ibarət Ölkə Sovetlər Komitəsi yaratdılar. Yenisey quberniyasının Krasnoyarsk qəzasında Kəndli Deputatlar Soveti ilə Qəza Zemstvo İdarəsi birləşmişdir ki, bu da yerli zemstvo sol-eser rəhbərliyinin Sovet hakimiyyətini tanıması demək idi. 1918-ci ilin əvvəlində Terek bolşevikləri milli qarşıdurmanı aradan qaldırıb bütün inqilabi demokratik qüvvələri birləşdirmək məqsədilə eser, menşevik və Osetiyanın inqilabi-demokratik təşkilati nümayəndələri kermenistlərin daxil olduğu sosialist bloka qoşulmuşdular.

Rusiyanın bəhs olunan quberniya, nahiyə və qəza mərkəzlərində sovet hakimiyyətinin, yeni qaydaların bərqərar olması ilə bərabər, bir çox yerdə yeni hakimiyyət qanlı silahlı mübarizə nəticəsində qurulmuşdur. Smolensk, İrkutsk, Moskva və b. qanlı silahlı mübarizənin mərkəzləri olmuşdur.

Moskvada bolşeviklər hakimiyyətə tez bir zamanda tam sahib ola bilməmişdir. Şəhərin bolşevik rəhbərliyi Leninin deyil, Kamenev və Zinovyevin mövqeyini paylaşdıqları üçün hakimiyyəti ələ keçirməyə hazırlaşmamışdır. Oktyabrın 20-də M.S.Uritski RSDF(b)P MK-nın iclasında məlumat vermişdir ki, «Moskvadakı nümayəndələrin əksəriyyəti silahlı üsyanın əleyhinə rəy bildirmişdir». Söhbət II Sovetlər qurultayının moskvalı nümayəndələrindən gedirdi. Eyni zamanda Moskvada bolşeviklərə qarşı dayanmış qüvvələr daha yaxşı təşkil olunaraq ciddi müqavimət göstərmişdir. Çıxış ərəfəsində və onun gedişində Moskvadakı bolşeviklərin Petroqradda olduğu kimi açıq üstünlüyü yox idi. Moskva qarnizonunun əsgərlərinin cəbhəyə göndərilmək perspektivi olmadığı üçün onlar arasında hökumət əleyhinə fikir formalaşmamışdı. Əlavə olaraq, Moskva Əsgər Deputatları Soveti bolşevikləşmiş Fəhlə Deputatları Soveti ilə birləşməmişdir ki, onların tərkibi də mötədil-sosialist partiya və axınların nümayəndələrindən ibarət idi. Bu hakimiyyət uğrunda mübarizədə bolşeviklərin əleyhinə olan rəhbərliyin hərbi qarnizon hissələrinin böyük bir hissəsinin ən azı bitərəf mövqe tutmasını təmin etməsinə imkan yaratmışdı.

Petroqraddakı hadisələr haqqında xəbər oktyabrın 25-də günorta Moskvaya çatdı. Həmin gün Moskvada Fəhlə və Əsgər Deputatları Sovetinin birgə iclası oldu. Hərbi İnqilab Komitəsi yaradıldı. HİK-in 13 üzvündən 5-i üsyanın əleyhinə idi. Petroqraddan Moskvaya qayıdan Moskva Sovetinin sədri V.P.Nogin də üsyanın əleyhinə idi. Moskvada hakimiyyətə həm də şəhər Dumasının başçısı eser V.V.Rudnevin rəhbərlik etdiyi «İctimai təhlükəsizlik komitəsi» can atırdı. Menşeviklər HİK-in «İctimai təhlükəsizlik komitəsi»nə tabe etdiril-

məsini tələb edirdilər. Bolşeviklər bu tələbi rədd etdikdən sonra onlar HİK-in tərkibindən çıxdılar. 1917-ci il oktyabr ayının 27-də Moskva Hərbi Dairəsinin komandanı K.İ.Ryabtsev HİK-in buraxılması və şəhərdə hərbi vəziyyət elan olunması haqqında ultimatum verdi. HİK-in çağırışı ilə fəhlələr ümumi tətilə başladılar, oktyabrın 28-də tətil böyüyərək silahlı üsyana çevrildi. Oktyabrın 30-da Petroqraddan göndərilən 500 nəfərlik Kronştadt dənizçisi, ümumilikdə isə bolşeviklərin 5 min nəfərə yaxın silahlı tərəfdarı fəhlələrin köməyinə gəldi. Müvəqqəti hökumətin tərəfdarları ilə bolşeviklər arasındakı qanlı döyüşlərdən sonra noyabrın 3-də Moskvada Sovet hakimiyyəti qələbə çaldı. Moskva hadisələrində 300 nəfərə kimi adam həlak oldu.

Petroqrad və Moskvada silahlı üsyanın qələbəsindən sonra Sovet hakimiyyətinin və bolşeviklərin siyasi gələcəyi əhəmiyyətli dərəcədə əsgərlərin mövqeyindən asılı idi. Şimal və Qərb cəbhələrində, Baltik donanmasında bolşeviklər böyük nüfuz sahibi idilər. 1917-ci il oktyabrın sonu – noyabrın əvvəllərində Şimal cəbhəsinin bütün ordularında təşkil edilən HİK ordudakı hakimiyyəti öz əlinə aldı. XKS bolşevik B.T.Pozernanı cəbhə komissarı təyin etdi. Qərb cəbhəsində oktyabrın 25-də Minsk Soveti hakimiyyəti ələ aldı. Noyabrın 20-də qurultayda Qərb cəbhəsinin nümayəndələri Minskdə bolşevik A.F.Myasnikovu yeni cəbhə komandanı seçdilər. Cəbhə əsgər komitəsinə seçilən 100 nəfər nümayəndənin 80 nəfəri RSDF(b)P-nin üzvü idi.

Şimal və Qərb cəbhələrində inqilabın qələbə çalması Ali Baş Komandanlıq Qərargahının ləğv edilməsi ilə nəticələndi. Noyabrın əvvəllərində bolşevik hökumətinə alternativ hökumət yaratmağa cəhd edən kadet və menşevikləri müdafiə etdiyi üçün Baş komandan N.N.Duxonin V.İ.Lenin tərəfindən vəzifəsindən azad edildi. Qiyam qaldıran əsgərlər onu öldürdü. Yeni Baş komandan təyin edilən praporşik N.V.Krılenko noyabrın 20-də bir dəstə inqilabçı fəhlə və matroslarla Qərargaha gələrək orduya rəhbərliyi əlinə aldı. Cənub-Qərb, Rumın və Qafqaz cəbhələrində əsgərlərin inqilab tərəfinə keçməsi mürəkkəb şəraitdə davam edərək xeyli vaxt apardı.

Milli rayonlarda da sovet hakimiyyəti uğrunda şiddətli mübarizə başlandı. XKS-nin 1917-ci il noyabrın 2-də qəbul etdiyi «Rusiya xalqlarının hüquq bəyannaməsi»nə əsasən, Finlandiya Seymi XKS ilə danışıqlar yolu ilə 1917-ci ilin dekabrında Finlandiyanın müstəqilliyinin tanınmasına nail oldu.Ukraynada fəhlə və kəndlilər sovet hakimiyyəti uğrunda mübarizəyə başladılar. Oktyabrın 29-da Kiyevdə fəhlə və əsgərlər Müvəqqəti hökumətə qarşı silahlı üsyana qalxdılar. Ertəsi gün şəhərdə ümumtətil başlandı və üç gün davam etdi. Üsyançılar tərəfinə keçən 2-ci Qvardiya korpusunun əsgərləri əsas dəmiryol qovuşuqlarını tutaraq Moskvaya əks-inqilabın köməyinə göndərilməsi nəzərdə

tutulan əsgərlərlə dolu qatarları saxladılar. Lakin Oktyabr hadisələri bütün Ukraynada sovet hakimiyyətinin qələbəsi ilə bitmədi. Çünki Kiyevin mərkəzi küçələrində qızğın döyüşlərin getdiyi bir vaxtda Mərkəzi Rada milli hərbi hissələri şəhərə yeridərək poçt, teleqraf və başqa dövlət idarələrini tutaraq hakimiyyətin öz əlinə keçdiyini elan etdi. Ukrayna Mərkəzi Radası başda Vladimir Lenin olmaqla Rusiya bolşeviklərinin Müvəqqəti hökuməti devirib hakimiyyəti qəsb etmələrini qəbul etməyərək bu aktı pislədilər.

1917-ci il noyabrın 20-də Mərkəzi Rada özünün Üçüncü Universalı ilə Ukrayna Xalq Respublikasının yarandığını elan etdi. Bu sənəddə söz, mətbuat, din, yığıncaq azadlığı elan olunur, ölüm hökmü, torpaq üzərində xüsusi mülkiyyət ləğv edilirdi. Səkkiz saatlıq iş günü müəyyən edilir, milli azlıqlar milli muxtariyyət hüququ alırdı.

Dekabrın 10-12-də Ukraynada Müəssislər məclisinə seçkilər keçirildi. Ukrayna sosialistləri seçkilərdə qalib gəldi, bolşeviklər 10% səs topladı. Onlar hakimiyyəti ələ keçirə bilmədikdən sonra Xarkova keçərək Ukraynada sovet hökumətinin yaradıldığını elan etdilər. Ukraynada bolşevik hökumətini müdafiə etmək pərdəsi altında Lenin Ukraynanı ələ keçirmək və Rusiyaya ərzaq göndərmək üçün V.Antonov-Ovseyenkonun başçılığı ilə ordu hissələrini ölkəyə yeritmək haqqında göstəriş verdi. Ukrayna-bolşevik Rusiyası müharibəsi belə başladı. Lakin Radanın qoşunları sovet Rusiyası qırmızı ordu əsgərlərinin hücumunun qarşısını ala bilmədi və Rada Kiyevi tərk edərək Jitomirə köçməyə məcbur oldu.

1918-ci il fevralın 9-da UXR Almaniya ilə Brest sülhünü imzaladı. Apreldə bütün Ukrayna alman və Ukrayna ordusu tərəfindən qırmızı ordu işğalından azad edildi. Aprelin 29-da almanların köməyi ilə general Pavel Skoropadski hakimiyyəti ələ keçirdi, Mərkəzi Radanın hakimiyyətinə son qoyuldu. Ukrayna getmanı elan olunan P.Skoropadskiyə qanunverici, icraedici hakimiyyət məxsus idi, eyni zamanda o həm də Baş komandan idi. Dövlətin adı dəyişdirilərək Ukrayna Xalq Respublikası yerinə Ukrayna dövləti oldu.

1918-ci il mayın ortalarında Ukrayna sosialistlərinin gizli qurultayında iri sənayeçilər, torpaq sahibləri, Rusiyadakı burjua partiyaları alman işğalçıları ilə iş birliyi quran getman general P.Skoropadskinin siyasəti kəskin tənqid edilir və ona qarşı birgə fəaliyyət göstərmək nəzərdə tutulurdu. İyunun 12-də Kiyevdə bolşevik nümayəndələr Xristian Rakovski və Dmitri Manuilskinin rəhbərliyi ilə Ukraynanın müstəqil dövlət elan edilməsini nəzərdə tutan müvəqqəti sülh imzaladılar. Xalq içərisində öz nüfuzunu itirən getmana qarşı Ukrayna müxalifət partiyaları üsyan qaldırmaq məqsədilə rəhbərlik üçün Direktoriya təşkil etdilər. Vladimir Vinniçenko sədr, Simon Petlyura, Fyodr

Şvets, Andrey Makarenko üzvlər idi. Dekabrın 19-da Direktoriyanın qoşunları Kiyevə girdi, yenidən Ukrayna Xalq Respublikası elan olundu. Həmin gün Direktoriya Vladimir Çexovskoyun başçılığı ilə Ukrayna sosialist partiyalarının nümayəndələrindən ibarət ilk hökuməti təsdiq etdi. Lakin UXR-in vəziyyəti ağır idi. Çünki şərq və şimaldan Qırmızı Ordu, Don istiqamətində Denikinin ordusu, Dnestrin əks tərəfindən rumınlar, qərbdən polyaklar, cənubdan isə Antanta Ukrayna torpaqlarını ələ keçirməyə çalışırdılar. Belə bir şəraitdə Direktoriya 1919-cu il sentyabrın15-də hakimiyyəti Simon Petlyuraya verməyə məcbur oldu. Lakin hər tərəfdən düşmən əhatəsində qalan UXR-in ordusu məğlub oldu və Ukrayna torpaqları Sovet Rusiyası ilə Polşa arasında bölüşdürüldü.

1919-cu ilin martında Kiyevdə Ümumukrayna Sovetlər qurultayı «Müstəqil Ukrayna Sovet Sosialist Respublikası»nın Konstitusiyasını qəbul etdi. Lakin mahiyyət etibarilə Ukrayna Sovet Rusiyasından asılı tərkib hissə idi.

Petroqradda Oktyabr silahlı üsyanının qələbə çalması məlum olduqdan sonra oktyabrın 27-də Minsk Sovetində belarus bolşevik A.F.Myasnikovun rəhbərliyi ilə İnqilabi komitə yaradıldı. Noyabrın əvvəllərində komitə Qərb cəbhəsinin Hərbi-İnqilabi Komitəsinə çevrildi. Bu orqan ölkənin şimali-qərb vilayətlərində və Qərb cəbhəsində hakimiyyəti ələ keçirdi. Beləliklə, sovet hakimiyyəti Belorusiyanın almanlar tərəfindən işğal olunmuş qərb rayonlarından başqa, qalan bütün ərazilərdə yayıldı. Belorusiyanın gənc sovet hakimiyyəti əks-inqilabi qüvvələrlə ölüm-dirim savaşına başladı. Rusiya, Ukrayna, Litva və Polşa iri burjuaziyası ilə sıx ittifaqda olan Belarus millətçiləri əks-inqilabçı Belarus Radası və general Dovbor-Muskitskinin korpusu ətrafında birləşərək 1918-ci il yanvarın 12-də sovet hakimiyyətinə qarşı qiyam qaldırdılar. Belorusiyanın və mərkəzi Rusiyanın fəhlə və kəndlilərindən təşkil olunmuş Qızıl Ordu dəstələri hücuma keçərək qiyamçılara ağır zərbə vurdular. Əks-inqilabçılara və alman işğalçılarına qarşı genişmiqyaslı hücuma keçən Qırmızı Ordu Belorusiyanı azad edərək 1919-cu il yanvarın 1-də Belarus Sovet Sosialist Respubliksının yaradıldığını elan etdi.

Oktyabrdan sonra Cənubi Qafqazda Cənubi Qafqaz Komissarlığının hakimiyyəti elan olundu ki, o da faktiki Müvəqqəti hökumətin siyasətini davam etdirirdi. Regionda bolşeviklərin əsas nüfuz sahibi olduğu yer Bakı şəhəri idi ki, 1918-ci ilin martında Bakı Kommunası elan edilmişdi. Nəticədə, Cənubi Qafqazda hakimiyyət sosialistlərin rəhbərlik etdiyi yerli milli hökumətlərin əlinə keçdi ki, onlar da Azərbaycan, Gürcüstan və Ermənistanın Rusiyadan ayrılaraq müstəqil olması uğrunda mübarizə aparırdılar.

Qazaxıstan və Orta Asiyada Sovetlər bir qrup əhali və əsgəri təmsil edirdi. Başlanğıc halında olan müsəlmanların yerli təşkilatları «Kokand muxtariyyəti»

uğrunda mübarizə aparırdı. Əhalinin böyük əksəriyyəti isə siyasi həyatda fəal iştirak etmirdi. 1918-ci ilin aprelində Türküstan Sovet Respublikasının elan edilməsilə mübarizə başa çatmışdır. Buxara əmiri və Xivə xanının hakimiyyəti qalmışdır.

1917-ci ilin oktyabrında Petroqradda və Rusiyada baş verən hadisələri müasirləri «Oktyabr çevrilişi», «bolşeviklərin hakimiyyəti ələ keçirməsi», sonra «Oktyabr inqilabı» kimi səciyyələndirmişdir. 1930-cu ilin sonlarından «Oktyabr sosialist inqilabı», Böyük Vətən müharibəsindən sonra «Böyük Oktyabr sosialist inqilabı»ndan bəhs edilməyə başlanmışdır. Əsl həqiqət ondan ibarətdir ki, Oktyabr hadisələri XX əsr Rusiyasının tarixini dəyişdirməklə ölkənin sərhədlərindən də kənarda vulkan püskürməsi təsiri yaradaraq amerikan jurnalisti C.Ridin yazdığı kimi «dünyanı sarsıtmışdı».

### §3. Sovet dövlət aparatının yaradılması

Bolşeviklər hakimiyyətə gəldikdən sonra yeni siyasi sistem yaratdılar. Onlar köhnə Dövlət Şurasını, nazirlikləri, yerli özünüidarə orqanları olan şəhər dumalarını və zemstvoları ləğv etdilər. Məhkəmə və ordunun köhnə formalaşma və mövcudolma şərtləri ləğv olundu. Bolşeviklərin elan etdiyi fəhlə sinfinin siyasi hakimiyyətinə əsaslanan proletar diktaturasının bərqərar edilməsi üçün yeni dövlət maşınının yaradılması tələb olunurdu.

Siyasi hakimiyyət real olaraq Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinə, icraedici, həm də qanunverici hakimiyyəti öz əlində cəmləşdirən Xalq Komissarları Sovetinə məxsus idi. Yerli idarələr isə quberniya və vilayət sovetlərindən ibarət idi. Onların fəaliyyətinə nəzarət etmək məqsədilə bolşeviklərin tərəfdarlarından ibarət olan inqilabi komitələr yaradılmışdı. Bolşeviklərin hakimiyyətini müdafiə edən yeni aparatın formalaşdırılmasına xüsusi diqqət yetirilirdi. Oktyabr ayının axırlarında (yeni stillə noyabrın 11-i) ictimai asayişi qorumaq üçün fəhlə-kəndli milisi təşkil edilməyə başlandı. Noyabrın 22-də isə XKS-nin dekreti ilə yeni məhkəmə idarələri sistemi təsis edilmişdi. Siyasi işlərə Xalq Ədliyyə Komissarlığına tabe olan İnqilabi Tribunalda baxılırdı.

Bolşevik hakimiyyəti özlərinin siyasi rəqiblərinə qarşı xəbərdarlıq repressiyaları tətbiq etməyə başladı. Xalq Komissarları Sovetinin 1917-ci il noyabr ayının 28-də qəbul etdiyi «İnqilaba qarşı vətəndaş müharibəsi başçılarının həbs edilməsi haqqında» dekreti ilə Kadetlər Partiyası qanundankənar elan olundu. Sovet hakimiyyətinə qarşı mübarizəyə səsləyən qəzetlər qadağan olunur, bolşeviklərin əleyhinə olan nümayiş və mitinqlər dağıdılırdı.

Məmurların böyük əksəriyyəti yeni hakimiyyətlə əməkdaşlıq etməkdən, onun göstərişlərini yerinə yetirmiəkdən, işə çıxmaqdan imtina edirdilər. Təkcə Petroqradda 50 min nəfərə yaxın dövlət və kommersiya qulluqçusu işdən imtina etdi. Hərbi-İnqilab Komitəsi sabotajçıları xalq düşməni elan etdi və 1917-ci il dekabrın 7-də əks-inqilabçı və təxribatçılarla mübarizə aparmaq məqsədilə Xalq Komissarları Soveti nəzdində Ümumrusiya Fövqəladə Komissiyası (ÜFK) yaradıldı. F.E.Dzerjinski onun sədri təyin edildi. Komissiya həbs, cəza və onun yerinə yetirilməsinə kimi qeyri-məhdud hakimiyyətə sahib olan bir orqan oldu. 1917-ci ilin noyabr-dekabrında XKS ordunun rəhbərliyini özünə tabe edərək, Sovet hakimiyyətini qəbul etməyən mindən çox general və zabiti ordu sıralarından azad etdi. Köhnə ordu tərxis edildi. 1918-ci il yanvar ayının 15-də fəhlə-kəndli Qızıl Ordusunun, yanvarın 29-da sovet Qızıl Donanmasının yaradılması haqqında dekretlər qəbul olundu.

XKS-in 1918-ci il 20 yanvar tarixli «Vicdan azadlığı, kilsə və dini cəmiyyətlər haqqında» dekreti ilə kilsə dövlətdən, məktəb kilsədən ayrıldı. Kilsənin bütün imtiyazları ləğv olunur, sərvəti xalq mülkiyyətinə verilirdi. Din sovet vətəndaşlarının şəxsi işi elan edildi. Dekretdən irəli gələn vəzifələrin həyata keçirilməsi dövlətlə 1917-ci ilin noyabrından patriarx Tixonun başçılıq etdiyi pravoslav kilsəni qarşı-qarşıya gətirdi. 1917-ci ilin dekabr ayının 21-də Sovet Rusiyasında yeni yazı qaydaları, 1918-ci il fevral ayının 1-dən (yeni stillə 14-dən) Ümumavropa təqvimi tətbiq edilməyə başlandı.

Demokratik meyilli ictimai təşkilatlar bolşeviklərin hakimiyyəti zəbt etməsinə qarşı çıxırdılar. Kerenski-Krasnov qoşunlarının Petroqrad üzərinə hücumu zamanı eser və menşeviklərin üstünlük təşkil etdiyi dəmiryolçuların Ümumrusiya İcraiyyə Komitəsi (ВИКЖЕЛЬ) sosialist təmayüllü bütün partiyaların nümayəndələrindən ibarət yekcins sosialist hökuməti yaradılmasını tələb etdilər. Danışıqlarda 700 min nəfəri təmsil edən «ВИКЖЕЛЬ»in nümayəndələri, bolşeviklər, menşeviklər, sol və sağ eserlər, başqa ictimai təşkilatlar iştirak edirdilər. Danışıqlar vaxtı menşevik və sağ eserlər «Oktyabr çevrilişinin şəxsi günahkarı» hesab etikləri V.İ.Lenini hökumətdən kənar etmək tələbini irəli sürdülər. Lakin qoşunların paytaxt üzərinə antibolşevik hücumu boşa çıxdıqdan sonra Leninin təkidi ilə danışıqlar kəsildi. Xarakterik haldır ki, hətta görkəmli bolşevik nümayəndələri L.B.Kamenev, Q.Y.Zinovyev, A.İ.Rıkov, V.P.Milyutin, İ.A.Teodoroviç, V.P.Nogin yekcins sosialist hökumətin yaradılmasını təkid edərək MK-nın tərkibindən və xalq komissarları vəzifələrindən istefa verdilər. Leninin tövsiyəsi ilə Y.M.Sverdlov L.B.Kamenevin əvəzinə ÜRMİK-in sədri seçildi. Q.İ.Petrovski xalq daxili işlər komissarı, A.Q.Şlixter xalq torpaq komissarı, P.İ.Stuçka xalq ədliyyə komissarı təyin edildi.

1917-ci il noyabrın 9-da sol eserlərin hökumətin tərkibinə daxil olmasına dair danışıqlar başladı. Hakim bolşeviklərlə sol eserlərin ittifaqı 1917-ci ilin noyabr – dekabr aylarında Petroqradda olan II Ümumrusiya kəndli deputatlar sovetinin qurultayından sonra baş tutdu. Qurultayın 790 nümayəndəsinin 91 nəfəri bolşevik, 350-si sol eser, 305-i sağ eser idi. Qurultayın əvvəllərində bütün deputatlar birgə fəaliyyət göstərdiyi halda, tezliklə onlar ikiyə parçalanaraq ayrı-ayrı iclas keçirməyə başladılar. Sağ eserlər Müəssislər Məclisi mövqeyində dayanaraq, Xalq Komissarları Sovetin hakimiyyəti qəsb etməkdə ittiham edirdilər. Qurultayın ikinci yarısı II Fəhlə və Əsgər Deputatları qurultayı platformasında dayanan sol eserlər idi ki, onların da 108 nəfəri yenidən seçilən ÜRMİK-də təmsil olunmuşdur. Noyabrın 17-si və dekabrın 13-də sol eserlərin nümayəndələri XKS-in tərkibinə daxil edildilər. A.L.Koleqayev torpaq işləri üzrə xalq komissarı, V.A.Karelin Rusiya Respublikasının əmlak işləri üzrə xalq komissarı, P.P.Proşyan poçt və teleqraf üzrə xalq komissarı, V.E.Trutovski yerli özünüidarə işləri üzrə xalq komissarı, İ.Z.Şteynberq ədliyyə işləri üzrə xalq komissarı, V.A.Alqasov və M.A.İ.Brilliantov «Portfelsiz xalq komissarı» təyin olundular. Demək olar ki, hər gün toplanan XKŞ-in iclaslarında sol eserlərdən olan xalq komissarları səmərələi fəaliyyət göstərirdi.

Kerenski hökumətinin noyabrın 12-nə təyin etdiyi Müəssislər Məclisinə seçkilər ölkənin 68 dairəsində 44,4 mln. seçicinin iştirakı ilə baş tutdu. Bolşeviklərə 24, menşevik və onlara yaxın milli partiyalara 59, kadetlər və onlardan sağda yer alan təşkilatlara 17% səs verildi. Məclisə seçilən 703 deputatın 229-u eser, 168-i bolşevik, 39-u sol eser, 7-si kadet, 16-sı menşevik idi. Seçkinin nəticələri göstərdi ki, vətəndaşların böyük əksəriyyəti çoxpartiyalı prinsip əsasında sosial ədaləti saxlayan demokratik Rusiya tərəfdarıdır. Eyni zamanda menşevik, sağ eser və kadetlərin çoxluğu növbəti ikihakimiyyətlilik üçün şərait yaradırdı ki, bu da bolşevik-sol eser təbiətli sovet hakimiyyəti üçün təhlükə yaradırdı.

Məclisin açılması 1918-ci il yanvarın 5-nə təyin edən bolşeviklər ona ciddi hazırlaşmağa başladılar. Məclisin işləməli olduğu Tavriya Sarayı «Avrora» kreyseri və «Respublika» zirehli gəmisindən dəvət edilən «etibarlı dənizçi dəstəsi» tərəfindən qoruma altına alındı. Petroqrad qarnizonunun əsgərləri döyüşə hazır vəziyyətə gətirildi. Yanvarın 5-də səhər Müəssislər Məclisini müdafiə edən kütlənin dinc çıxışı gülləbaran edildi, 100 nəfərə kimi adam öldürüldü və yaralandı. Belə bir şəraitdə saat $16^{00}$-da Məclisin birinci və axırıncı iclası açıldı.

Y.M.Sverdlov «Zəhmətkeş və istismar edilən xalqın hüquq bəyannaməsi»ni oxudu. Müəssislər Məclisinin sədri seçilən V.M.Çernov bu sənədi birinci ola-

raq müzakirə etməkdən imtina etdi. Odur ki bolşeviklər və sol eserlər iclas zalını tərk etdilər. İclasın davam etdiyi bir vaxtda, səhər saat 4-də gözətçilərin rəisi matros A.Q.Jeleznyakov iclasa gələrək elan etdi: «Mən göstəriş almışam, sizin nəzərinizə çatdırım ki, burada iştirak edənlərin hamısı iclas zalını tərk etsin, çünki gözətçilər yorulub». Yanvarın 6-dan 7-nə keçən gecə ÜRMİK-in dekreti ilə Müəssislər Məclisi buraxıldı.

Yeni tipli dövlətin təşəkkül tapmasında 1918-ci il yanvarın 10-18-də toplanan III Ümumrusiya Sovetlər qurultayı əhəmiyyətli rol oynadı. Qurultay sovet dövlətçiliyinin vahid sistemini yaratmaq məqsədilə Fəhlə və Əsgər Deputatları Soveti ilə Kəndli Deputatları Sovetinin birləşməsi haqqında qərar qəbul etdi. 306 nəfərdən ibarət, o cümlədən 160 bolşevik, 125 sol eser, 7 sağ eser, 7 maksimalist, 3 anarxist-kommunist, 2 menşevik-müdafiəçi, 2 menşevik-beynəlmiləlçi olmaqla yeni ÜRMİK seçildi. Qurultay konstitusiya aktı kimi Rusiyanı Fəhlə, əsgər və kəndli deputatları Respublikası elan edən «Zəhmətkeş və istismar edilən xalqın hüquq bəyannaməsi»ni qəbul etdi. Eyni zamanda, yeni dövlətin xalqlarının könüllülük əsasında ittifaqı nəzərə alınaraq, «Rusiya Respublikasının Federal təsisatı haqqında» qətnamə qəbul edildi ki, bu da xalqların Sovet Respublikası Federasiyasında birləşməsi demək idi. Tezliklə bütün sənədlərdən Xalq Komissarları Sovetinin müvəqqəti olması şərti yoxa çıxdı. Qurultay ÜRMİK-ə tapşırdı ki, növbəti qurultaya «Rusiya Federativ Respublikası konstitutiyasının əsas müddəalarının» layihəsini hazırlasın.

İqtisadi və təsərrüfat sahəsindəki böhran mütləqiyyət və Müvəqqəti hökümətin devrilməsinin əsas səbəblərindən biri idi. Bu vəzifənin həll edilməsi sovet hökümətinin üzərinə düşdü. 1917-ci il noyabrın 14-də ÜRMİK fəhlə nəzarətinə dair dekret verdi. Sənəddə istehsal prosesini qaydaya salmaq nəzərdə tutulurdu. Xalq təsərrüfatında işlərə rəhbərlik etmək məqsədilə Ali Xalq Təsərüfatı Şurası (AXTŞ) yaradıldı. Sənayenin genişmiqyaslı milliləşdirilməsi başlandı. 1917-ci ilin noyabrından 1918-ci ilin martına kimi ölkənin 31 quberniyasında 836 sənaye obyekti öz əvvəlki sahibkarlarından alınmışdı.

Maliyyə-pul sahəsində nəzarəti ələ almaq məqsədilə 1917-ci il noyabrın 14-də Dövlət bankı ələ keçirildi. Fəhlə, matros və əsgər dəstələri xüsusi kommersiya banklarını, kredit idarələrini tutdular. Bank işi dövlətin ixtiyarına verildi. Dekabrın 7-də XKS ÜFK-ə varlı vətəndaşların qeydiyyata alınmasına dair göstəriş verdi.

1918-ci yanvarın 1-də XKS dövlət istiqrazlarının ləğv edilməsinə dair dekret elan etdi. ÜRMİK-in yanvarın 21-də təsdiq etdiyi dekretlə ölkənin 50 mlrd. rubla çatan daxili və 12 mlrd. rubla çatan xarici dövlət borcları ləğv olundu. Bu addım həm xüsusi mülkiyyətçilərin mövqeyinə ağır zərbə vurdu,

həm də beynəlxalq aləmdə güclü mənfi əks-səda yaratdı. Hətta hal-hazırda belə, xarici borc məsələləri Rusiya Federasiyası ilə müzakirə obyekti olaraq qalmaqdadır.

Mürəkkəb iqtisadi və siyasi məsələlərin həlli ilə yanaşı, 1917-ci il oktyabr ayından sonra baş verən dəyişikliyi konstitusiya yolu ilə təsbit etmək üçün konkret addım atıldı. 1918-ci il aprelin 1-də ÜRMİK Y.M.Sverdlovun sədrliyi ilə Konstitusiya layihəsini hazırlamaq məqsədilə komissiya təşkil etdi. V.İ.Leninin rəhəbrliyi ilə RK(b)P MK-nın xüsusi komissiyasının düzəliş və əlavələrindən sonra 1918-ci il iyulun 10-da V Ümumrusiya sovetlər qururltayı Konstitusiya mətnini təsdiq etdi.

RSFSR-in I Konstitusiyası açıq sinfi xarakter daşıyırdı. Sənəddə dövlətin ümdə vəzifəsi olaraq insanın insan tərəfindən istismarına son qoymaq, cəmiyyətin siniflərə bölünməsini tamamilə aradan qaldırmaqdan ibarət idi. İnqilabı əlində silahla müdafiə etmək hüququ yalnız zəhmətkeşlərə məxsus idi. Konstitusiya proletariat diktaturası formasında dövlət quruluşunu təsbit edir, ictimai mülkiyyəti yeni quruluşun iqtisadi əsası olmasını, Rusiyanın federativ quruluşunu müəyyən edirdi. Sənəddə hakimiyyətin bölünməsi burjua xarakteri daşıdığı üçün rədd edilir, qanunverici və icraedici hakimiyyət Sovetlərə məxsus olduğu təsbit olunurdu. Dövlət hakimiyyətinin ali orqanı Ümumrusiya sovetlər qurultayı, qurultaylar arasında ÜRMİK-in təşkil etdiyi respublika hökuməti – XKS elan olundu. Yerlərdə sovet hakimiyyəti vilayət, quberniya, qəza, nahiyə sovetlər qurultayına, şəhər və kənd sovetləri və onların icraiyyə orqanlarına məxsus idi.

RSFSR-in əsas qanunu proletariat diktaturası dövlətində fəhlə sinfinin rəhbər rolunu təsdiq edərək elan etdi ki, Sovetlər qurultayında fəhlələr 25 min seçicidən, kəndlilər isə 125 min seçicidən bir deputat seçə bilərlər. Açıq səsvermə nəticəsində keçirilən seçkilərdə keçmiş mülkədarlar, burjuaziya, keçmiş dövlət məmurları, jandarm, ilahiyyatçılar və qolçomaqları seçki hüququndan məhrum edildilər. Konstitusiyanın rəsmi olaraq qeyd edilməsi də faktiki RK(b)P-nin dövlət hakimiyyətini bərqərar edərək qanuniləşdirdi.

## §4. Brest sülhü

Hakimiyyəti ələ alan bolşeviklərin beynəlxalq fəaliyyəti dünya inqilabının təmin edilməsinə yönəlmişdi. Gizli diplomatiyanın ləğv edilməsi, burjuaziyanın hakimiyyətdən uzaqlaşdırılması və sülh məsələsinin zəhməkeş kütlələrlə həlli, zəhmətkeşlərin beynəlmiləl qarşılıqlı köməyi sahəsində inqilabın qələbəsi bu məqsədə xidmət etməli idi. Odur ki müharibədən demokratik yolla çıxmaq cəmiyyətin inqilabı dəyişikliyinin ayrılmaz tərkib hissəsi kimi başa düşülürdü.

Antanta dövlətləri sovet hökümətinin sülh haqqındakı təklifini rədd etdikdən sonra sovet tərəfi Dördlər İttifaqı ilə separat danışıqlara başladı. Bolşevik A.A.İoffenin sədrliyi altında Rusiya nümayəndəliyi, o cümlədən bolşeviklər L.B.Kamenev, Q.Y.Sokolnikov, sol eserlər A.A.Bitsenko, S.D.Maslovski 1917-ci il noyabrın 20-dən dekabrın 1-nə kimi Brest-Litovskda danışıqların birinci mərhələsinə başladı və 1918-ci il yanvarın 1-nə kimi barışıq imzalandı. Danışıqların ikinci mərhləsi dekabrın 12-də davam etdi. Sovet nümayəndəliyi işğal edilmiş ərazilərdən qoşunların çıxarılmasın, burada yaşayan xalqlara siyasi müstəqillik verilməsini, təzminatdan imtina edilməsini, inqilabi ədəbiyyatı azad yaymağa hüquqi verilməsini təklif etdi. Almanya tərəfi açıq olmasa da, dolayı yolla bu təklifi yerinə yetirməkdən imtina etdi.

1917-ci il dekabrın 27-də danışıqların üçüncü mərhələsi başladı. Sovet nümayəndə heyətinə xalq xarici işlər komissarı – «bolşevik №2» L.D.Trotski başçılıq edirdi. Almaniya tərəfi elan etdi ki, Antanta dövlətləri danışıqlarda iştirak etmədiyi üçün sovet tərəfinin ilhaqsız sülh təklifindən söhbət belə gedə bilməz. Ölkənin bir sıra ərazisinin düşmənə verilməsi məsuliyyətini öz üzərinə götürməyə hazır olmayan L.Trotski yaranmış vəziyyəti müzakirə etmək məqsədilə RSDF(b)P MK-nın çağırışı ilə Petroqrada qayıtdı. Beləliklə, oktyabrdan cəmi iki ay sonra Avropanın mühafizəkar rejimi ilə qarşılaşan sovet hakimiyyəti onun tələbləri qarşısında həm inqilabi, həm də vətənpərvərlik nöqteyi-nəzərindən aciz qalmışdı. Odur ki Almaniya ilə sülh məsələsi gərgin müzakirələrə səbəb olaraq Bolşevik Partiyası və sovetlərdə parçalanmaya səbəb oldu.

V.İ.Lenin rus ordusunun döyüş qabiliyyətini nəzərə alaraq, təcili sülh müqaviləsini imzalamağı tələb etdi. Əsas vəzifə istənilən güzəşt müqabilində sovet hakimiyyətini qoruyub saxlamaq idi. Amma N.İ.Buxarinin başçılıq etdiyi «sol kommunistlər» səmimi olaraq belə hesab edirdilər ki, köhnə rus ordusunun vəziyyətinə baxmayaraq, Almaniya ilə «inqilabı mübarizə»ni davam etdirərək Avropa inqilabını alovlandırmaq lazımdır. Beynəlxalq proletar həmrəyliyini Rusiyada proletar həmrəyliyindən üstün tutan buxarinçilər hətta

mərkəzdə sovet hakimiyyətinin yıxılaraq ucqarlara çəkilməsi ilə razı idilər. Almaniya ilə sülh bağlamağın tərəfdarı olmayan L.D.Trotski özünü «sol kommunist» saymasa da, belə hesab edirdi ki, bir az «silkələməklə» alman proletiariatı rus inqilabını müdafiə edər. 1918-ci il yanvarın 8-də olan partiya rəhbərlərinin müşavirəsində Lenin təklifi lehinə 15, Trotskinin 16, Buxarinin 32 nəfər səs verdi. Yanvarın 11-də MK-nın iclasında kompromis qərar qəbul edildi: Leninin təklifi ilə «sülh bağlanmasını hər vasitə ilə ləngidərək» vaxt qazanmaq, Trotskinin təklifi ilə alman tərəfi ultimatum elan etdikdə sülh bağlamadan müharibəni dayandırmaq» nəzərdə tutulurdu. Bununla bərabər Trotski Lenindən şifahi xəbərdarlıq aldı ki, Almaniya hərbi əməliyyatlara başlamaq niyyətində olsa, müqaviləni imzalasın.

Yanvarın 17-də Trotski Brest-Litovska qayıtdı, ayın 18-də alman nümayəndəliyi tələblərini daha da sərtləşdirdi. Rusiyadan Avropa hissəsinin təqribən üçdə birini əhatə edən 150 min kv. km ərazisi tələb olunurdu. Almaniya Avstriya-Macarıstan, Bolqarıstan və Türkiyənin daxil olduğu Dördlər İttifaqı Ukrayna mərkəzi Radası ilə Brest-Litovskdə separat sülhü bağladı. Yanvarın 28-də L.D.Trotski Almaniya tərəfinə bildirdi ki, Sovet Rusiyası sülh müqaviləsini imzalamır, müharibəni dayandırıb ordunu tərxis edir. Ali Baş Komandan N.V.Krılenko yanvarın 29-da cəbhə komandanlarına müharibənin dayandırılması, ordunun tərxis edilməsi və ön cəbhədən qoşunların çəkilməsi haqqında əmr verdi.

1918-ci il fevralın 18-də (1918-ci il yanvarın 26-da yeni təqvimə keçilməsi ilə əlaqədar olaraq Rusiyada fevral 1-dən deyil, 14-dən başlayır) alman qoşunları cəbhədə yenidən hücuma keçdilər. Həmin gün axşam RSDF(b)P MK-nın təcili iclasında V.İ.Lenin 7 səs lehinə, 5 səs əleyhinə, 1 səs bitərəf olmaqla sülh bağlamaq xəttini keçirə bildi. Sovet Rusiyası fevralın 19-da sülh bağalamağa hazır olduğunu bildirsə də, almanlar yalnız fevralın 22-də daha ağır şərtlərlə sülh bağlamağa hazır olduqlarını bildirdilər. Sülhə qarşı çıxış edən «sol kommunistlər» fəallaşdılar, N.İ.Buxarin MK-nın tərkibindən və «Pravda» qəzetinin redaktoru vəzifəsindən istefa verdi. Yalnız hökumətdən çıxmaq hədəsi ilə V.İ.Lenin fevralın 23-də MK-nın iclasında Almaniyanın təklifini 7 səs leyhinə, 4 səs əleyhinə olmaqla keçirə bildi. Q.Y.Sokolnikovun sədrliyi altında G.V.Çiçerin, Q.İ.Petrovski, L.M.Karaxan Brest-Litovska gələrək martın 3-də sovet hökuməti adından almanların diktə etdiyi sənədi imzaladılar. 14 maddə və müxtəlif əlavələrdən ibarət sülh müqavilsəinə əsasən Baltikyani ölkələr, Belorusiyanın bir hissəsi Rusiyadan alınırdı. Qafqazda Qars, Ərdahan, Batum Türkiyəyə verildi. Rusiya Finlandiya və Ukraynanın müstəqilliyini tanıyır, Avropada inqilabı təbliğatı dayandırmağı öz öhdəsinə götürürdü. Rusiya

ərazisinin təqribən 1 mln. $km^2$-ni itirdi. Bundan başqa, Sovet hökuməti ordunu tərxis etməli, hərbi dəniz donanmasından istifadə etməməli, 630 min nəfər hərbi əsgəri geri qaytarmalı idi. 1918-ci ilin avqustun 27-də Almaniya Sovet Rusiyasına təzminat məsələsinə dair müqavilə qəbul etdirdi ki, buna görə qarşı tərəfə 6 milyard marka (450 ton qızıl) təzminat ödənilməli idi. Almaniyadakı noyabr inqilabına kimi Sovet Rusiyası 2 eşalon (93 535 kq) qızıl göndərmişdir.

1918-ci il martın 14-də Moskvada toplanan IV Fövqəladə Sovetlər qurultayı 784 nəfər lehinə, 261 əleyhinə, 115 bitərəf qalmaqla Brest sülhünü təsdiq etdi. Sülhün bağlanmasına qarşı etiraz əlaməti olaraq sol eserlər martın 15-də hökumətin tərkibindən çıxdılar. L.D.Trotski xalq xarici işlər komissarı vəzifəsindən istefa verdi, onun yerini G.V.Çiçerin tutdu.

Çiçerin Georgi Vasilyeviç (1872-1936) 1905-ci ildən RSDFP inqilabi hərəkatının iştirakçısı, 1918-ci ildən bolşeviklər partiyasının üzvü olub. Peterburq Universitetinin məzunu olan G.Çiçerin 1918-1930-cu illərdə RSFSR, SSRİ Xarici işlər üzrə xalq komissarı olmuşdu. Xarici dövlətlərlə konstruktiv əlaqələrin inkişaf etdirilməsi tərəfdarı olan G.Çiçerin belə hesab edirdi ki, Kominternin rəhbərliyi diplomatiyanın səmərərli fəaliyyətinə mane olur. O, faktiki olaraq 1927-ci ildən XİK-in işindən kənarlaşdırılmışdı. Yüksək professionallığı və erudisiyası ilə seçilən G.Çiçerin Motsart yaradıcılığının dərin bilicisi olaraq, həm də mahir piano ifaçısı idi.

Beləliklə, sol eserlərlə bolşeviklərin hökumət koalisiyası dağıldı, Sovet Rusiyasının icraedici orqanlarında təkpartiyalı sistem bərqərar oldu.

Brest sülh müqavilsəi 1918-ci il martın 22-də Reyxstaq tərəfindən bəyənildi, martın 26-da Almaniyanın imperatoru II Vilhelm onu təsdiq etdi. Lakin Brest sülhü uzun çəkmədi, Almaniyada 9 noyabr inqilabı nəticəsində Qoqensoller monarxiyasının sonuncu monarxı II Vilhelmin hakimiyyəti devrildi. Bundan istifadə edən sovet hökuməti 1918-ci il noyabrın 13-də Brest-Litovsk sülh müqaviləsin ləğv etdi, itirdiyi ərazilərin çox hissəsi özünə qaytarıldı. Dördlər ittifaqı ilə çətinliklə bağlanmış hə qarətli Brest sülhü, eyni zamanda Rusiyanı dünya müharibəsindən çıxardı, bolşeviklər isə siyasi müxalifət qüvvələrini basıb əzərək hakimiyyətlərini mühafizə etdilər.

# XX FƏSİL
# VƏTƏNDAŞ MÜHARİBƏSİ VƏ XARİCİ HƏRBİ MÜDAXİLƏ

## §1. Vətəndaş müharibəsinin səbəbləri

Cəmiyyətin dərindən və əsaslı olaraq siyasi parçalanmağa məruz qalması vətəndaş müharibəsinə səbəb oldu. Bu onunla izah edilirdi ki, əks tərəflərdə duran siyasi qüvvələr aralarında yaranan kəskin ziddiyyətləri həll etmək üçün sülh və ya qarşılıqlı güzəşt yolunu seçmək arzusundan və imkanından çox uzaq idilər. Odur ki xüsusi amansızlığı ilə fərqlənən vətəndaş müharibəsi Rusiya tarixinin dəhşətli faciəsi olaraq milyonlarla insanın ölümünə səbəb olmuşdur. Qardaşın qardaşı öldürdüyü, atanın oğulla müharibəsi, ailələri və qohumluq əlaqələrini parçalayan, şəhərlə kəndi, ölkənin ayrı-ayrı hissələrini qarşı-qarşıya qoyan vətəndaş müharibəsi qeyri-insani hadisələrlə dolu olan tarixə vurulan bir damğa kimi yaddaşlara həkk edilib.

Rusiyada vətəndaş müharibəsi keyfiyyətcə yeni mərhələ təşkil etməklə bərabər, inqilabi qarşıdurmanın birbaşa nəticəsi olmuşdur. Vətəndaş müharibəsindən bəhs etdikdə tərəflərin əlində silahla öz aralarındakı ziddiyyətləri həll etməsi nəzərdə tutulur. Vətəndaş müharibəsi üçün döyüşən orduların qarşılıqlı mübarizəsi, cəbhələrin hərəkəti, iqtisadiyyatın səfərbər edilməsi, böyük itkilər xarakterikdir.

Vətəndaş müharibəsi hadisələrində bir-birinə qarşı müxtəlif şüar, bəyannamə, proqramla duran siyasi qüvvələrin bir neçəsi ön plana çıxır. Onların toqquşması monarxiyanın, sonra isə Müvəqqəti hökumətin devrilməsi prosesinin birbaşa nəticəsi idi. Bolşeviklər birinci böyük təşkilatlanmış qüvvə idi. Onlar Lenin və silahdaşları başda olmaqla Oktyabr silahlı üsyanından sonra Sosialist inqilabının siyasi və sosial-iqtisadi proqramını qətiyyət və ardıcıllıqla həyata keçirməyə başladılar. Bolşevik liderləri açıq bildirirdilər ki, bütün bunlar çox qurban tələb edir, hətta onlar inqilabı vətəndaş müharibəsi kimi nəzərdə tuturdular.

İkinci siyasi qrup Oktyabr xəttini qəbul edən və nümayəndələri sovet hökumətinin tərkibində təmsil olunan, kommunist rejiminin ilk aktlarını, o cümlədən Müəssislər Məclisinin qovulmasını müdafiə edən sol eserlər idi. Lakin Brest sülhünün imzalanması və ərzaq diktaturası siyasəti gedişində kəndlilərə tətbiq edilən zorakılıq onları məcbur etdi ki, bolşeviklərlə ittifaqı

pozsunlar. Sol eserlər bolşeviklərlə özləri başa düşdüyü kimi Oktyabr uğrunda mübarizə aparırdılar. Bu partiyanın nüfuzlu rəhbəri M.A.Spiridonova çılğıncasına bolşevikləri onda günahlandırırdı ki, onlar fəhlə-kəndli inqilabının «qatili» kimi çıxış edərək «Oktyabrı öldürmək» üçün hər şey edirlər.

1917-ci il mart ayından oktyabra kimi ölkənin taleyini müəyyən edən iki mühüm siyasi hərəkat nümayəndələri – sağ sosialistlər və liberallar təmsil edirdilər. Öz aralarında fikir ayrılığına baxmayaraq, həm liberallar, həm də sağ sosialistlər ölkəni fevraldan sonrakı demokratiyaya qaytarmaq üçün bolşeviklərlə mübarizədə axıra kimi birlikdə idilər. Rusiyada monarxiyanın xeyli tərəfdarı qalmaqda idi: onların da çox hissəsini ağ cəbhənin əsas zərbə qüvvəsini təşkil edən zabitlər idi. «Qara camaat»ı sevməyən Rusiyanın sabiq hakim təbəqəsi yığdığı sərvətini və imtiyazını itirməmək üçün «din, çar və Vətən uğrunda» («за веру, царя и Родину») axıra kimi döyüşməyə hazır idi.

Bolşeviklərin əleyhinə olan bu qüvvələri, həm də xariciləri mülkiyyətdən məhrum edən və Rusiyanın borclarını ödəməkdən imtina edən bolşeviklərdən narazı qalmış xarici dövlətlər də müdafiə edirdi. Eyni zamanda bolşeviklər Almaniya ilə sülh bağlayaraq Rusiyanı müharibədən çıxarmışdılar. Bu, Antantanı Almaniyanın əleyhinə olan qüvvələri Rusiyada hakimiyyəti qaytarmağa kömək etməyə sövq edirdi. Nəhayət, Qərb hökumətləri öz ölkələrində inqilabın yayılmasından ehtiyat etdikləri üçün «Rusiyada qarışıqlığın qarşısını almaq və qayda-qanunu bərpa etmək» niyyətində idi.

Rusiyada vətəndaş müharibəsinin dövrləşməsi mübahisəlidir. Bir qayda olaraq sovet tarixçiləri belə hesab edir ki, 1918-ci il may-iyun aylarında Çexoslovak korpusunda baş verən qiyam vətəndaş müharibəsinin başlamasının tarixidir. Çünki mütləq qaydada bu vaxtdan etibarən müharibə problemi sovet hökumətinin fəaliyyətində ön plana çıxır. Başqa bir nöqteyi-nəzərə görə, Rusiya ərazisinə xarici müdaxilənin başladığı 1918-ci ilin mart ayı Vətəndaş müharibəsinin əvvəli hesab olunmalıdır.

Xaricdə və 90-cı illərdə Rusiyada çap edilən tədqiqatlarda prinsipcə yeni – başqa bir fikir deyilir. Vətəndaş müharibəsinin başlanma tarixi bolşeviklərin silahlı üsyan vasitəsilə hakimiyyəti qəsb etməsi və ya Müəssislər Məclisinin qovulması, yəni 1917-ci ilin oktyabr və 1918-ci ilin yanvar hadisələri hesab edilir. Son dərəcə ifrat bir fikrə əsasən isə Rusiyada Vətəndaş müharibəsi 1917-ci ilin fevralında çarizmin devrilməsindən başlayır. Rusiyada Fevral inqilabından sonra bir müddət hadisələrin dinc şəraitdə cərəyan etdiyinə görə bu fikri əsaslı hesab etmək qeyri-mümkündür.

Müasir tədqiqatçılar 1921-ci ili Vətəndaş müharibəsinin sonu hesab edirlər. Belə ki, onlar yalnız ağ ordunun darmadağın edilməsinin deyil, kəndli üsyan-

larının yatırılmasına, Kronştadt qiyamının ləğv edilməsinə və s. Vətəndaş müharibəsinin hadisələri kimi qiymət verirlər.

Faktiki olaraq Vətəndaş müharibəsi Rusiyanın ucqarlarında bolşeviklər hakimiyyəti ələ keçirdikdən sonra başladığına görə müasir alimlərin çoxu 1917-ci ilin oktyabrından 1918-ci ilin yazına kimi olan vaxtı Vətəndaş müharibəsinin birinci mərhələsi hesab edir. 1918-ci ilin may ayında başa çatan bu mərhələ üçün milli rayonlarda və kazakların yaşadığı ərazilərdə çox da böyük olmayan hərbi əməliyyatlar xarakterikdir.

1918-ci ilin may ayından noyabra kimi davam edən ikinci mərhələ üçün xarakterik cəhət sağ sosialist partiyaların ağ hərəkata siyasi rəhbərlik etməsidir. Vətəndaş müharibəsinin əsas cəbhəsi isə Şərq cəbhəsi idi. 1918-ci il mayın 27-də 30 minlik Çexoslovak korpusu sovet hakimiyyətinə qarşı qiyam qaldırdı ki, bu da bəhs edilən mərhələnin əsas hadisəsi oldu.

1918-ci ilin noyabr ayından I Dünya müharibəsinin başa çatması ilə 1919-cu ilin yazına kimi olan zaman Vətəndaş müharibəsinin üçüncü mərhələsi hesab edilir. Alman cəbhəsi ilə hərbi əməliyyatlar aparmaqdan azad olan Antanta ölkələri Rusiyadakı hadisələrə fəal qoşulmağa başladılar. Ağ hərəkatda siyasi rəhbərlik generalların əlinə keçdi. Vətəndaş müharibəsinin əsas cəbhəsi isə Cənub cəbhəsi oldu.

1919-cu ilin mart ayından 1920-ci ilin martına kimi olan müddət Vətəndaş müharibəsinin dördüncü mərhələsini təşkil edir. Xarici müdaxiləçilərin Uzaq Şərq istisna olmaqla Rusiyanın bütün ərazisindən çıxarılması bu mərhələnin xarakterik xüsusiyyətidir. Vətəndaş müharibəsinin əsas cəbhəsi əvvəlcə A.V.Kolçaka qarşı Şərq, sonra A.İ.Denikinə qarşı Cənub cəbhəsi idi.

Kolçak Aleksandr Vasilyeviç (1873-1920) 1917-ci il Fevral inqilabından sonra Sovetlərlə və Müvəqqəti hökumətlə əməkdaşlıqdan imtina edərək İngiltərəyə mühacirətə getmiş, Vətəndaş müharibəsi illərində Antanta dövlətləri tərəfindən Rusiyanın Baş hakimi kimi tanınmışdır. Şərq cəbhəsindəki döyüşlərdə məğlub olduqdan sonra Sibirin qızıl mədənlərindən toplanan bir neçə ton qızıl ehtiyatı ilə ağ çexlər tərəfindən tutularaq bir kisə qızıl müqabilində bolşeviklərə təhvil verilmişdir. Onun ələ keçirdiyi qızıl ehtiyatı bu gün də tapılmamışdır.

1920-ci ilin yazında ağ hərəkatın əsasən məğlub edilməsi ilə Vətəndaş müharibəsinin beşinci mərhələsi başlayır. Sovet-Polşa müharibəsi, Krımda ağların son qalasının alınması, kəndli üsyanları və Kronştadt qiyamının yatırılması, sovet hakimiyyətinin Cənubi Qafqaz, Orta Asiya və Uzaq Şərqdə qurulması bu mərhələnin mühüm hadisələridir. 1921-1922-ci illər mərhələnin sonu kimi qəbul edilir. Bəzi tarixçilər Orta Asiya və Uzaq Şərqdə Sovet haki-

miyyətinin bərqərar olmasını Vətəndaş müharibəsinin xronoloji ardıcıllığından kənarda təsəvvür edir.

Don, Kuban, Terekdən Amura və Sakit okeana kimi olan 11 kazak vilayətində 10 mln. nəfərdən çox əhali məskunlaşmışdır. Keçmişdə müstəqil idarəçiliyə və sosial-iqtisadi azadlığa malik olmaq uğrunda mübarizə aparan kazaklar Rusiya imperiyası tərkibində xüsusi statusa malik idilər. Onların çox hissəsi varlı kazaklardan ibarət idi ki, sovet hakimiyyəti kazaklara verilmiş güzəştləri ləğv etdi. Kazaklıqdan salmaq, torpaqların onlar arasında bərabər bölüşdürülməsi bolşeviklərin ciddi yanlışı idi. Nəticədə, ilk zamanlar bolşevik hakimiyyətinə qarşı bitərəf movqe tutan kazaklar onun fəal düşməninə çevrildilər.

Donda başlayan antibolşevik hərəkatın başında A.M.Kaledin dururdu. 1917-ci il oktyabrın 25-də Donbasda hakimiyyəti ələ alan general A.Kaledin 15 minlik ordu ilə hücum edib Rostov-Don və Taqanroqu ələ keçirsə də, 1918-ci ilin yanvarında məğlub oldu və özünü güllələdi. 1917-ci ilin noyabr ayında Könüllülər ordusunun əsası qoyuldu ki, bu da inqilabla, qırmızı ilə kontrast təşkil edən ağ hərəkatın başlanması idi. Bu ordunun əsasını sovet hakimiyyətini qəbul etməyən sabiq çar zabitləri, yunkerlər, tələbələr, gimnazistlər və b. təşkil edirdi. Könüllülər ordusuna əvvəlcə L.G.Kornilov komandanlıq edirdi. 1918-ci il apreldə onun ölümündən sonra A.İ.Denikin orduya komandan oldu. 1918-ci ilin fevralında alman qoşunları Ukrayna və Don kazaklarının yaşadığı əraziləri işğal etdi. Burada almanların köməyi ilə general P.N.Krasnovun ağ rejimi bərqərar oldu. Almanlarla əməkdaşlıqdan imtina edən Könüllülər ordusu cənuba çəkildi.

Bu zaman kəsiyində formalaşan antibolşevik hərəkat mərkəzləri özünün sosial-siyasi tərkibinə görə bir-birindən fərqlənirdi. Belə ki 1918-ci ilin fevralında Moskva və Petroqradda kadet, menşevik və eserləri birləşdirən «Rusiyanı Dirçəltmək İttifaqı» yaradıldı. Mart ayında isə məşhur eser terrorçu B.V.Savinkovun rəhbərliyi ilə «Vətəni və Azadlığı Müdafiə İttifaqı» meydana gəldi. Bütün bu ictimai-siyasi və hərbi qüvvələrin əsas məqsədi bolşeviklərə qarşı mübarizə apararaq onların hakimiyyətini devirmək idi.

Antanta dövlətləri ilk vaxtlar bolşeviklərin hakimiyyətinə qarşı gözləmə mövqeyi tuturdu. Lakin sovet hökuməti Antanta ölkələri qarşısında bütün öhdəlikləri, o cümlədən çar və Müvəqqəti hökumətlərin borclarını ödəməkdən imtina etdikdən və Brest-Litovsk sülhünü imzaladıqdan sonra Rusiyanın keçmiş müttəfiqləri ona qarşı açıq hərbi müdaxiləyə başladılar. 1918-ci ilin mart ayında Murmansk və Arxangelskə ingilis ekspedisiya korpusu çıxarıldı. Tezliklə fransız və amerikan əsgərləri onlara qoşuldu və sayları 17 min nəfərə

çatdı. Aprel ayında Vladivostoku yapon desantçıları tutdu. Bunun ardınca Uzaq şərqdə amerikan, fransız və ingilis kontingenti yerləşdi. İşğal edilən ərazilərdə sovet hakimiyyəti devrildi. Antantanın köməyi ilə ağ ordular təşkil edilməyə başlandı.

Antanta dövlətləri özlərinin hərəkətlərinə haqq qazandırmaq məqsədilə iddia edirdilər ki, biz Primoryenin şəhər anbarlarında yığılıb qalmış külli miqdarda silah sursatın alman ordusuna verilməsinin qarşısını almaq üçün belə bir addım atmışıq. Əslində Antanta ölkələri Rusiyanı nüfuz dairələrinə bölməyi planlaşdıraraq, onun ərazisində öz vətəndaşlarının itirdiyi mülkiyyəti və borcları qaytarmağı qarşısına məqsəd qoymuşdur.

Bolşeviklərə qarşı ilk qiyamı 1917-ci il oktyabrın 29-da Petroqradda yerləşən hərbi məktəbin, yəni yunker məktəbinin kursantları başlamış, bunun ardınca sabiq baş nazir Kerenski şimaldakı hərbi hissələrin birini Petroqrad üzərinə yeritmişdir. Lakin hər iki hücum bolşeviklər tərəfindən ləğv edilmişdi. Bu hadisələrdən başlayaraq, yəni 1917-ci iln oktyabrından 1918-ci ilin yazına kimi baş verən hadisələri vətəndaş müharibəsi tarixinin birinci mərhələsinə aid etmək olar. Yeri gəlmişkən, qeyd edək ki, müəllif də bu fikri müdafiə edir.

Fevral inqilabından sonra Rusiyada I Dünya müharibəsində Avstriya-Macarıstana qarşı mübarizə apararaq müstəqil Çexoslovakiya dövlətini yaratmaq məqsədilə əsir düşən çex və slovaklardan ibarət korpus yaradılmışdır. Korpusdan cəbhədə Avstriya ordusuna qarşı istifadə etmək nəzərdə tutulsa da, bolşeviklər hakimiyyətə gəldikdən və sülh bağlandıqdan sonra bu mümkün deyildi. Ona görə qərara alındı ki, korpus dəmiryol vasitəsilə Vladivostoka, oradan isə dəniz yolu ilə Fransaya göndərilsin. 1918-ci ilin yazında çexoslovak əsgərləri ilə dolu vaqonlar Penzadan Baykala doğru Transsibir dəmiryolu boyu səpələnmişdir. Sovet hökuməti tələb etdi ki, korpusun əsgərləri silahlarını təhvil verməklə ölkəni tərk etsinlər. Bu isə çexoslovak əsgərləri arasında antisovet əhvali-ruhiyyəsinin artmasına səbəb oldu. 1918-ci il mayın 27-də 30 minlik çexoslovak korpusu əsgərlərinin qiyamı başladı. Çexoslovak əsgər birliklərinin qiyamı nəticəsində Orta Volqa, Ural, Sibir və Uzaq Şərqdə sovet hakimiyyəti yıxıldı. Samara, Ufa və Omsk şəhərlərində kadet, eser və menşeviklərdən ibarət hökumətlər təşkil edildi. Bu hökumətlər Müəssislər Məclisini bərpa etmək məqsədilə bolşeviklərə və sərt sağ qaragüruhçulara qarşı mübarizədə birləşdilər.

Samarada eser V.K.Volskinin başçılığı altında Müəssislər Məclisinin əsasən eserlərdən ibarət olan deputatlarının daxil olduğu Müəssislər Məclisi Üzvləri Komitəsi (KOMUÇ) yaradıldı. Komitə özünün 30 minlik «Xalq ordusu»nu formalaşdırdı. 1918-ci ilin payızında Ümumrusiya hökuməti rolunu

oynayan Ufa Direktoriyası meydana çıxdı. Onun təşkilatçıları əsasən sağ eserlərdən ibarət idi, rəhbəri isə N.V.Avksentyev olmuşdur.

Sol eserlər belə hesab edirdilər ki, ölkədə yaranan mürəkkəb şərait bolşevik hökumətinin diktaturasını devirmək üçün əlverişlidir. ÜFK-nin əməkdaşları sol eserlər Y.Q.Beyumkin və N.A.Andreyev 1918-ci il iyulun 6-da Moskvada siyasi terror təşkil edərək Almaniyanın səfiri V.fon Mirbaxı öldürdülər. Eserlərin Bolşevik partiyasının diktaturasına qarşı çıxışı Rusiyanın bir çox şəhərlərini, o cümlədən Vitebsk, Vladimir, Orş və başqa yerləri bürüdü. Onların əsas şüarı Almaniya ilə yenidən müharibəyə başlamaq idi. Demək olar ki, eyni vaxtda Rusiyanın şimalında, o cümlədən Yaroslavl, Rıbinsk və Muromda üsyanlar alovlandı. Qiyamçılar əsasən fəal hərbi əməliyyatlar aparmayıb, ÜFK-nın sədri F.E.Dzerjinskini, onun əməkdaşı M.İ.Latsisi və Moskva Sovetinin sədri P.Q.Smidoviçi həbsə alaraq bütün ölkəyə alman imperializminə qarşı üsyana çağıran teleqramlar göndərməklə kifayətlənmişdir. Bundan istifadə edən boşleviklər İ.İ.Vatsetisin komandanlığı altında latış atıcı diviziyasının qətiyyətli əməliyyatı sayəsində qiyamı yatırdılar. F.E.Dzerjinskinin müavini V.A.Aleksandroviç başda olmaqla üsyançıların 12 nəfər fəal təşkilatçısı güllələnmişdir.

Üç gündən sonra, iyulun 10-11-də Şərq cəbhəsinin komandanı sol epr M.A.Muravyev qiyam təşkil edərək Volqaboyu Sovet Respublikası elan etməyə təşəbbüs göstərmişdir. O, Almaniyaya müharibə elan edilməsinə dair teleqram göndərərək əhalini ümumi üsyana çağırmışdır. XKS-nin dekretilə M.Muravyev qanundan kənar elan edilərək cəbhə komandanlığından uzaqlaşdırıldı. Simbirsk Quberniya İcraiyyə Komitəsinin binasında danışıqlara dəvət edilmiş qiyamçı komandana pusqu təşkil edildi və atışma zamanı o öldürüldü, dəstəsi latış atıcıları tərəfindən tərk-silah edildi. Moskvada iyulun 6-7-də və Simbirskdə iyulun 10-11-də baş vermiş hadisələr bolşeviklərə bəhanə verdi ki, sol yerlərlə koalisiyanı pozsun və təkpartiyalı bolşevik diktaturasının əsasını qoysun. Bolşeviklərin liderləri əvvəllər də siyasi opponentlərinə qarşı dözümsüz münasibət nümayiş etdirmiş, bu hadisələrdən sonra isə sosialist partiyalarına repressiyanı daha da artırmışdır. Hakimiyyət strukturlarında bolşeviklərin inhisarçı vəziyyəti cəmiyyətin sonrakı siyasi təkamülünə mənfi təsir göstərərək bir partiyanın diktaturasının bərqərar olmasına, partiyanın özünün dövlətləşərək dövlət aparatı orqanına çevrilməsinə gətirib çıxarmışdır.

1918-ci ilin iyun ayında qiyam qaldıran Çexoslovak korpusuna, Ural və Sibirdəki antisovet qüvvələrə qarşı mübarizə aparmaq məqsədilə İ.İ.Vatsetisin komandanlığı (1919-cu ilin iyulundan S.S.Kamenevin) altında Şərq cəbhəsi

yaradıldı. Bolşeviklər hərbi sahədə kompleks fövqəladə tədbirlər həyata keçirdi. 1918-ci il sentyabrın 2-də ÜRMİK Sovet Respublikasını «hərbi düşərgə» («военный лагерь») elan etmişdir. Ali Hərbi Şuranın yerinə L.Trotskinin başçılığı ilə Respublika İnqilab Şurası (RİŞ), keçmiş çar ordusunun polkovniki, Şərq cəbhəsinin komandanı İ.İ.Vatsetisin başçılığı ilə respublikanın bütün silahlı qüvvələrinin Ali Baş Komandanı vəzifəsi təsis edilmişdir. Şərq cəbhəsinin ardınca Şimal və Cənub cəbhələri, Qərb rayonlarının müdafiəsi təşkil olundu.

Hərbi tədbirlər öz nəticəsini verdi. Qanlı döyüşlər nəticəsində Qızıl Ordu bir sıra strateji istiqamətlərdə vəziyyəti sabitləşdirdi. Cənubda sovet ordusu hücum edən Krasnovun dəstəsini Çaritsindən geri oturtdu. Şimalda ağ orduların və müdaxiləçilərin hücumu dayandırıldı. Şərq cəbhəsində hücuma keçən sovet qoşunları sentyabrın 10-da Kazanı, sentyabrın 12-də Simbirski, oktyabrın 7-də Samaranı, oktyabrın ildönümü günü İjevski aldılar.

Qızıl Ordunun ali, baş və orta komanda heyətinin çox hissəsi əsasən keçmiş çar ordusunun general və zabitlərindən ibarət hərbi mütəxəssislərdən təşkil olunurdu. Bu adamların bolşeviklərə xidmət etməsinin müxtəlif səbəbləri var idi. Onların bir çoxu yaranmış vəziyyətdən çıxış yolu tapa bilmədikləri üçün, bəziləri Rusiyanı vahid dövlət kimi yalnız bolşeviklərin müdafiə edəcəklərinə inandıqları üçün, axırıncılar isə sovet hakimiyyəti ideyasını səmimi olaraq qəbul etdikləri üçün bu işə qoşulmuşdular. Məsələn, imperator ordusunun A.A.Brusilov, A.A.Sveçin, A.E.Snesarev, A.M.Zayonçkovski kimi generalları Qızıl Orduda xidmət etməyə başlamışdır. Buna baxmayaraq, hərbi mütəxəssislərə hakim partiya, demək olar ki, inanmırdı. Hər bir Qızıl Ordu komandirinə bolşevik partiyasının üzvü olan hərbi komissar (voyenkom) təhkim olunurdu ki, onların da satqınlıq faktı aşkar edildikdə komandiri güllələmək hüququ da daxil olmaqla fövqəladə səlahiyyətləri var idi. Ümumiyyətlə, vətəndaş müharibəsi illərində sovet hakimiyyəti tərəfində 75 min keçmiş general və zabit hərbi əməliyyatlarda iştirak etmişdir. Keçmiş hərbi mütəxəssislər ali komandan heyətinin 48%-ni təşkil edirdi. V Ümumrusiya Sovetlər qurultayının ümumi icbari hərbi mükəlləfiyyət haqqında qanun qəbul etməsindən sonra 1920-ci ilin sonunda Qızıl Ordunun sıraları artaraq 5,5 mln. nəfərə çatmışdır.

### §2. «Hərbi kommunizm» siyasəti

Cəbhədəki ağır vəziyyət Sovet dövlətini məcbur etdi ki, 1918-ci ilin mayından başlayaraq fövqəladə tədbirlər həyata keçirsin. Mayda verilən dekretlə kənd yerlərində ərzağı müsadirə etmək hüququna malik olan xüsusi fəhlə dəstələri təşkil olundu. Hərbi kommunizm tədbirləri çərçivəsində əllərində silah kəndlərdə ərzaq diktaturasını təmin edən fəhlə ərzaq dəstələrinin sayı 1918-ci ilin payızında təqribən 80 min nəfərə çatırdı. Eyni zamanda kəndlilərin narazılığından ehtiyat edən hökumət öz sosial bazasın möhkəmlətmək məqsədilə yoxsul komitələri («kombed»lər) yaratdılar. Onların əsas vəzifəsi kənd təsərrüfatı məhsullarının toplanmasına kömək etmək idi. Toplanan məhsulun bir hissəsi komitə üzvlərinə çatırdı. Yeni ərzaq siyasəti kəndin təbəqələşməsinə və siyasi cəhətdən bölünməsinə səbəb oldu. Bundan sonra öz hüquqlarının tapdalandığını hesab edən kəndlilərin bir hissəsi «ağ» hərəkata qoşuldu, digər bir hissəsi isə nə «ağları», nə də «qırmızıları» qəbul edərək partizan hərəkatında birləşdilər.

Faktiki olaraq «kombed»lər kəndlərdə hakimiyyəti ələ aldılar. Onlar kənd sovetlərini buraxır və ya yenidən seçir, Qızıl Orduya əsgər toplayır, özbaşına olaraq torpaq paylarını yenidən bölüşdürür, kəndliləri kollektiv təsərrüfatlara daxil olmağa məcbur edirdilər. Bütün bunlar isə kəndlilərin yeni hakimiyyətə qarşı narazılığına səbəb olurdu.

1918-ci ilin sonunda «kombed»lər və onların yaratdığı kollektiv təsərrüfatlar buraxıldı. XKS-nin 1919-cu il yanvarın 11-də qəbul etdiyi Dekretə əsasən, ərzağın zorla müsadirə edilməsini ərzaq sapalağı əvəz etdi. Buna görə də kəndlilər taxılın yemək və səpin üçün lazım olan az hissəsini saxlayır, qalan hissələrini sabit qiymətlərlə məcburi olaraq dövlətə təhvil verirdilər. 1919-cu il 11 yanvar tarixli Dekretə müqavimət göstərənlərə və öz taxıl ehtiyatlarını gizlədənlərə qarşı sərt tədbirlər görülür, onların əmlakı müsadirə edilərək azadlıqdan belə məhrum edilirdilər. Çox vaxt ortabab kəndlilər də ərzaq dəstələrinin özbaşınalığının qurbanı olurdu. Bununla bağlı kənddə narazılıq artırdı. Ümumən ərzaq sapalağının tətbiqi uğurlu olmadı. Lakin buna baxmayaraq, hakimiyyət orqanları ərzaq sapalağı siyasətini 1921-ci ilin yazına kimi davam etdirdi.

Xalq Komissarları Soveti 1918-ci il noyabrın 21-də ölkə əhalisinin təchizatını təşkil etmək haqqında dekret verdi. Bu sənədə görə, bütün ərzağın tədarükü və bölgüsü dövlətin əlinə keçirdi, yəni xüsusi ticarət dövlət bölgüsü ilə əvəz edilirdi. 1920-ci ilin dekabrında isə ərzaq payı, mənzil-kommunal xidmətləri, yanacaq, nəqliyyat, poçt, teleqraf, telefon, hamam haqqı ləğv edilirdi. Bütün bunlar, zahirən də olsa, kommunizm üçün səciyyəvi olduğuna

görə tarixə «hərbi kommunizm» siyasəti adı ilə daxil olmuşdur. «Hərbi kommunizm»in tarixi iki mərhələyə bölünür: 1918-ci ilin yayı – 1920-ci ilin əvvəlini əhatə edən vətəndaş müharibəsinin cəbhələrində həlledici döyüşlərin getdiyi dövrdəki sistemin «təşəkkül tapması» və 1920-ci ilin yazı – 1921-ci ilin martın əhatə edən düşmənin məğlub edilməsinə baxmayaraq, fövqəladə tədbirlərin özünü doğrultmadığı halında, daha da dərinləşdirilməsindən ibarət olan «hərbi kommunizm»in «çiçəklənməsi» iqtisadi siyasətin mahiyyəti və onun tətbiqi yolları bolşeviklərin sosialist cəmiyyəti quruculuğu haqqındakı nəzəri təsəvvürləri ilə üst-üstə düşürdü. Bu ona şərait yaradırdı ki, hərbi, yuxarıdan verilən inzibati əmrləri məcburi addım kimi deyil, sosializm quruculuğunun əsas vasitəsi kimi başa düşülsün. Bütün bunları V.İ.Lenin sonradan «hərbi kommunist ideologiyası» adlandırmışdır.

1920-ci ilin martında L.D.Trotskinin sədrliyilə dinc şəraitdə sosializm quruculuğu planının hazırlanması üçün komissiya yaradıldı. Komissiyanın təklifləri açıq hərbi kommunizm xarakteri daşıyırdı. Ərzaq sapalağının genişləndirilməsi, iqtisadiyyatın dövlətləşdirilməsi, ümumi dövlət planının hazırlanması, ümimi əmək mükəlləfiyyətinin genişləndirilməsi, əmək ordularının yaradılması və idarəetmənin bütün sisteminin milliləşdirilməsi. «Hərbi kommunizm» kursunun ardıcıl olaraq həyata keçirilməsinə baxmayaraq, 1920-1921-ci illərin kəsiyində bu tədbirlər artıq özünü doğrultmurdu. Təhcizatın pisləşməsi şəhərlərdə sosial vəziyyətin gərginləşməsinə, fəhlə çıxışlarına səbəb oldu. Bolşeviklərin əsas dayağı olan fəhlələr arasında və orduda «hərbi kommunizm» siyasətindən narazılıq gündən-günə artırdı. Ölkə rəhbərliyi qarşısında ya «hərbi kommunizm» siyasətini davam etdirərək hakimiyyəti təhlükəyə atmaq, ya da hücum üçün daha əlverişli vaxt gözləyərək iqtisadi siyasəti dəyişdirmək dilemması dururdu və Lenin də praqmatik olaraq ikinci yolu seçdi.

«Hərbi kommunizm» siyasəti dövründə siyasi sahədə RK(b)P-nin bölünməz diktaturası bərqərar oldu. Bolşeviklər partiyası tədricən siyasi təşkilat olmaqdan çıxaraq dövlət aparatı strukturuna çevrildi. Partiya ölkədə, hətta vətəndaşların şəxsi həyatında belə siyasi, ideoloji, iqtisadi və mədəni şəraiti müəyyən etməyə başladı. Bolşeviklərin diktaturasına, iqtisadi və sosial siyasətinə qarşı mübarizə aparan kadet, menşevik, eserlər (əvvəlcə sağ, sonra sollar) partiyası qadağan olundu. Görkəmli ictimai xadimlərin bir hissəsi xaricə mühacirətə getdi, digər bir hissəsi cəza tədbirlərinə məruz qaldı. Siyasi müxalifəti dirçəltmək cəhdlərinin qarşısı zor gücünə alınırdı. Bütün səviyyədə olan sovetlərdə bolşeviklər yenidən seçkilər və qovmaq yolu ilə tam təkhakimiyyətliliyə nail oldular.

Sovetlərin fəaliyyəti Bolşevik Partiyası orqanlarının göstərişlərini yerinə yetirdiyinə görə formal xarakter daşıyırdı. Partiya və dövlət nəzarəti altına

alınan həmkarlar təşkilatları müstəqilliyini itirmişdi. Onlar fəhlələrin maraqlarını qorumaqdan məhrum oldu. «Proletariat öz dövlətinə qarşı çıxış etməməlidir!» saxta şüarı altında tətil hərəkatı qadağan edildi. Elan edilmiş söz və mətbuat azadlığına riayət edilmirdi. Demək olar ki, bolşeviklərə məxsus olmayan bütün orqanlar bağlanmışdı. Nəşriyyat fəaliyyəti əsasən ciddi qaydalara tabe olaraq son dərəcə məhdudlaşdırılmışdı.

Vətəndaş müharibəsi illərində bolşeviklərin yeritdiyi siyasətdə dövlət terrorizmi mühüm yer tutur. Bunun səciyyəvi cəhəti ondan ibarət idi ki, terror heç bir qanuna söykənmirdi və məqsədi günahkarın islah olunması üçün profilaktik tədbir görmək deyil, əhali arasında qorxu xofu yaymaq idi. Kütləvi xarakter daşıyan və on minlərlə insanı istintaqsız və məhkəməsiz ölümə məhkum edən terroru həyata keçirmək Ümumrusiya Fövqəladə Komissiyasına həvalə edilmişdi. 1917-ci il dekabrın 7-də F.Dzerjinskinin sədrliyi ilə fəaliyyətə başlayan ÜFK ilk vaxtlar tədqiqat aparmaq və cəza olaraq əmlakdan və ərzaq vərəqəsindən məhrum etmək hüququ olan orqan kimi yaradılmışdı. Lakin tezliklə yerli «çekist»lər həbs edilənləri qısa mühakimədən sonra güllələməyə başladılar. Bolşevik rəhbərliyi və o cümlədən V.İ.Lenin bu «xalq terrorunu» bəyəndi. Odur ki «çekist»lərin sayı durmadan artırdı. 1918-ci ilin aprelində onların sıralarında min nəfər, 1919-cu ilin yanvarında 37 min nəfər, 1921-ci ilin yazında isə 233 min nəfər var idi. 1918-ci il iyunun 6-da ölüm hökmü bərpa edildi. 1918-ci il avqustun 30-da V.İ.Lenin və M.S.Uritskiyə qəsdin təşkilindən sonra edam kütləvi xarakter aldı. 1918-ci il sentyabrın 5-i tarixli hökumət qərarına əsasən, rəsmi olaraq qırmızı terror siyasəti başladı. Sentyabr ayında Petroqradda 800, Moskvada 500 nəfər girov və şübhəli şəxs güllələndi. Yalniz 1918-ci ilin sentyabr – oktyabr aylarında Sovet Rusiyasının ərazisində 15 minə kimi adam güllələnmişdir. Əsas qurbanlar zabitlər, zadəganlar, burjuaziya nümayəndələri, ziyalılar və onların ailə üzvləri olmuşdur. 1918-ci ilin sentyabrında 400 yerli Fövqəladə Komissiya Dzerjinskidən belə bir göstəriş almışdı ki, «çekist»lər axtarış, həbs və edam fəaliyyətlərində tam müstəqildirlər, yalnız əməliyyatın nəticələri haqqında hesabatı XKS-ə təqdim etməlidirlər. Əlbəttə, yalnız «çekist»lər özbaşınalaq etmirdilər, ağ qvardiyaçılar da «qırmızı rayonlarda» «qılınc və odla» qorxu yaradırdılar. Ataman B.V.Annenkov 1918-ci il sentyabrın 10-da Slavqorod qəzasında kəndlilərin səfərbər edilməsinə qarşı çıxan 1500 nəfərdən çox adamı güllələmişdir. General V.A.Pokrovski 1918-ci il sentyabrın 18-də Maykopu aldıqdan sonra 2500 nəfər əsiri məhv etmişdir.

ÜFK inqilaba kimi Rusiyada olmayan iki cəza növünü işə saldı: girov götürmək və islah-əmək düşərgələri. Hərb düşərgəsi 1918-ci il iyunun 4-də L.D.Trotskinin əmri ilə yaradıldı ki, buraya silahlarını verməkdən imtina

edən ağ çexlər salındı. Avqust ayında Murom və Arzamasda «təxribatçı, əks-inqilabçı zabitlər, sabotajçılar, tüfeylilər və alverçilər» üçün iki düşərgə salındı. 1918-ci il sentyabrın 5-də «qırmızı terror» tüğyan etdiyi bir vaxtda XKS düşərgələrin yaradılmasını bəyənərək elan etdi ki, «sinfi düşmənlərdən Sovet Respublikasının təhlükəsizliyini qorumaq məqsədi ilə onları həbs düşərgələri vasitəsilə təcrid etmək zəruridir». 1919-cu il aprelin 15-də hökumət vermiş olduğu dekretlə düşərgələrin strukturunu təsdiq edərək Daxili İşlər Xalq Komissarlığına tabe olan düşərgələrdə məcburi işlərin şərtləri xırdalığına kimi müəyyən edildi. İki növ düşərgə müəyyən edildi: birincisi, tribunalın cəzalandırdığı adamların cəmləşdiyi XDİK, ikincisi, inzibati qaydada həbs olunan «mümkün sinfi düşmənlər», «yad elementlər», «tüfeylilər»in yığıldığı ÜFK-in tabeliyində olan müəssisələr. Bu rəsmi orqanların məlumatına görə, 1921-ci il yanvarın 1-də XDİK-in həbs düşərgələrində 51 min, ÜFK-in düşərgələrində isə 25 min məhbus var idi. Qeyd etmək yerinə düşər ki, rəsmi orqanların bu rəqəmləri əslində çox az göstərilmişdir.

### §3. Vətəndaş müharibəsi və xarici hərbi müdaxilənin şiddətlənməsi

Dördlər İttifaqı ölkələrində monarxiya rejiminin yıxılması, bir tərəfdən Avropada inqilabi əhvali-ruhiyyənin canlanmasına, kommunist və demokratik partiyaların möhkəmlənməsinə və bunun nəticəsində 1919-cu il martın 4-də III (Kommunist) İnternasionalının yaranmasına səbəb olmuşdur. Digər bir tərəfdən Antanta dövlətlərində bütün inqilabi yanğın mərkəzlərinin, xüsusilə Rusiyadakı hadisələrin tezliklə aradan qaldırılmasını tələb edən dairələr daha da fəallaşmışdır. 1918-ci il noyabrın 11-də Almaniyanın təslim olması ilə I Dünya müharibəsi başa çatdı. Alman cəbhəsindəki döyüşlərdən azad olan Antanta ölkələri öz qoşunlarını Qara dəniz sahillərinə çıxararaq Rusiyadakı hadisələrə daha fəal müdaxilə etməyə başladılar. Ağ hərəkatda siyasi rəhbərlik sosialistlərdən generalların əlinə keçdi. Bu, vətəndaş müharibəsinin gedişində üçüncü mərhələnin başlanması demək idi və 1919-cu ilin yazına kimi davam etdi. Antanta dövlətləri Sovet Rusiyasına qarşı müdaxilə təşkil edərək öz qoşunlarını Arxangelsk, Murmansk, Odessa, Vladivostok və b. yerlərə çıxardı.

1918-ci ilin noyabrında Sibirdə bolşeviklərə qarşı admiral A.V.Kolçakın komandanlığı altında ağqvardiyaçı ordu vuruşurdu. Beləliklə, şərqdən Sovet Rusiyasına Kolçakın orduları, cənubdan genral A.İ.Denikinin komandanlığı altında olan ordu, Petroqrad istiqamətində general N.N.Yudeniçin, şimaldan

general E.K.Millerin ağ orduları hücum edirdi. Sovet Rusiyası ağ orduların əhatəsinə alınmışdı.

1918-ci ilin noyabrında Antantanın köməyi ilə Direktoriyanı devirib hərbi diktatura quran admiral Kolçak özünü Rusiyanın Baş hakimi elan etdi. Ural, Sibir, Şimali Qazaxıstan, Uzaq Şərqin kazak rayonları, Ural və Qərbi Sibirin kəndliləri, Ural fəhlələrinin bir hissəsi Kolçak hakimiyyətinin sosial bazasını təşkil edirdi. 400 min nəfərə çatan Kolçak ordusu 1918-ci ilin qışına doğru hücuma keçib, sovet qoşunlarını məğlub edərək Permi tutdular, dekabrın 31-də Qızıl Ordu onların hücumunu dayandırdı.

1918-ci ilin noyabrı – 1919-cu ilin martında A.İ.Denikinin Könüllülər ordusu Donbası tutaraq, Moskva üzərinə hücuma hazırlaşmağa başladı. Anton İvanoviç Denikin (1872-1947) ağ hərəkatın rəhbərlərindən biri olaraq 1918-ci ilin aprelindən Könüllülər ordusunun komandanı kimi bolşevik hakimiyyətinə qarşı barışmaz mübarizə aparmışdır. Vətəndaş müharibəsi gedişində cənub cəbhəsində bir sıra döyüşlərdən sonra məğlub olaraq, 1920-ci ilin aprelində ordu rəhbərliyini general P.N.Vrangelə verib İstanbula, sonra isə İngiltərəyə getmişdir. Mühacirətdə A.Denikin beşcildlik «Rus qarışıqlığının oçerkləri» əsərini yazmışdır ki, bu da Vətəndaş müharibəsi tarixinin öyrənilməsində dəyərli mənbə hesab edilir.

Antanta dövlətləri ağ qoşunları silah-sursat, geyim, tank, təyyarələrlə təmin edirdilər. Xarici işğalçıların müdaxiləsi artırdı. İngilislər Bakını, Batum və Novorossiyskini, fransızlar Odessa və Sevastopolu tutdular. Ümumiyyətlə, 1919-cu ilin fevralında Rusiyanın cənubunda 130 minə yaxın müdaxiləçi var idi. Bununla bərabər Şimalda 20 min, Uzaq Şərq və Sibirdə 150 min, Cənubi Qafqazda 30 min çoxmillətli hərbi kontingent yerləşmişdi. Lakin onlar fəal hərbi əməliyyatlar aparmırdılar. Qərbdə «Sovet Rusiyasından əlinizi çəkin!» hərəkatının geniş miqyas alması, Antanta əsgərlərinin döyüşmək arzusunun olmaması müdaxilənin kəsərini xeyli azaltdı. Artıq 1919-cu ilin fevralında 58-ci Fransa polkunun əsgərləri döyüşlərdə iştirak etməkdən imtina etdilər, mart ayında fransız gəmilərinin dənizçiləri üsyan qaldırdılar. Aprelin əvvəllərində müdaxiləçilər Odessanı tərk etdilər. Aprelin axırlarında Krımda sovet hakimiyyəti bərpa edildi.

Avropa və ABŞ-da «Sovet Rusiyasından əlinizi çəkin!» şüarı altında keçən ictimai hərəkat daha geniş miqyas almağa başladı. Bolşevik təbliğatının təsiri altında işğal edilmiş ərazilərdəki müttəfiq qoşunların əsgərləri arasında narazılıq və inqilabi əhvali-ruhiyyə durmadan artırdı. Odur ki müdaxiləçilər işğal etdikləri ərazilərdən öz ordularını çıxarmağa məcbur oldular. Uzaq Şərq istisna olmaqla, Rusiyanın bütün ərazilərindən xarici müdaxiləçilər öz qoşunlarını çıxardılar.

1919-cu ilin mart ayından 1920-ci ilin martına kimi davam edən vətəndaş müharibəsinin dördüncü mərhələsi başladı. Bu mərhələdə əsas hadisələr əvvəlcə Qızıl Ordunun A.V.Kolçak ağ ordularına qarşı vuruşduğu Şərq cəbhəsində, sonra isə A.İ.Denikinin ordusuna qarşı Cənub cəbhəsində cərəyan edirdi. Bu mərhələdə ağların hərəkatında siyasi hakimiyyət yenə generallara məxsus idi, lakin onlar artıq bolşeviklərlə mübarizədə xalqı açıq siyasi seçim etməyə təhrik etmirdilər. Bu dövrdə kəndlilər artıq sovet hakimiyyətinə tərəf dönüş etməyə başladılar.

Həlledici döyüşlər ərəfəsində 1919-cu ilin martında Kolçakın ordusu hücuma keçdi. General E.K.Millerin orduları, o cümlədən Yudeniçin silahlı qüvvələri və Denikin ordusu ilə qarşılıqlı əlaqə quraraq ağqvardiyaçılar Moskvaya doğru hərəkətə başladılar. Lakin 1919-cu ilin mayında S.S.Kamenevin komandanlığı altında Şərq cəbhəsində Qızıl Ordu Ufa yaxınlığında düşməni dayandıraraq özü əks-hücuma keçdi. Bu istiqamətdə Vətəndaş müharibəsinin qəhrəmanı, əfsanəvi V.İ.Çapayev döyüşlərdə iştirak etmişdir. Bu əməliyyatlar zamanı cəbhənin cənub qrupuna komandanlıq edən M.V.Frunzenin sərkərdəlik istedadı üzə çıxdı. Təqribən 100-120 min nəfər olan ağ ordu əsgərlərinin Şərq cəbhəsindəki hücumunun qarşısında həm də şimal qrupuna komandanlıq edən V.İ.Şorinin Qırmızı Ordu qoşunları dayanmışdı. Aprel-iyunda ardıcıl olaraq üç – Belebey, Buquruslan, Ufa əməliyyatlarını keçirən Qızıl Ordu düşməni darmadağın edərək, Ural dağlarının ətəklərinə çıxdılar. Ural və Sibir uğrunda həlledici döyüşlər 1919-cu ilin yayında oldu. İyul-avqust aylarında Zlatoust və Çelyabinsk əməliyyatlarında M.N.Tuxaçevskinin komandanlığı altında Qızıl Ordu qoşunları ağları əzərək, Uralı ələ keçirdilər, Sibirə yol açıldı. İki yerə parçalanmış Kolçak ordusu Sibir və Türküstana çəkildi. Payızda Kolçak Qərbi Sibiri itirdi. Noyabr ayında qırmızılar Omsk, dekabrda Novonikolayevski (Novosibirsk) və Tomsk şəhərlərini tutdular. 1920-ci ilin yanvarında arxa cəbhədə eserlərin siyasi mərkəzlərinin rəhbərliyi ilə üsyan qalxdığına görə Kolçak Rusiyanın Baş hakimi titulundan əl çəkdi. Şərqə getməyə cəhd edərkən ağ çexlər tərəfindən həbs edildi və İrkutsk hərbi-inqiabi komitəsinin qərarı ilə 1920-ci ilin fevralın 7-də səhər saat $4^{00}$-da məhkəməsiz güllələndi. Vətəni azad görmək arzusunda olan admiralın nəşini buzu sındırıb Uşakovka çayına atdılar. Ölkənin şərqindən Baykala qədər Sovet hakimiyyəti quruldu. Uzaq Şərqdə isə yapon müdaxiləçiləri və onların müdafiə etdikləri Zabaykal kazaklarının atamanı Q.M.Semyonovun hakimiyyəti qalmaqda idi.

Kubandan hücuma keçən general A.İ.Denikin 1918-ci ilin sonu – 1919-cu ilin yayında bir sıra əməliyyatlardan sonra Ukrayna ərazisinin böyük əksəriyyətində nəzarəti ələ aldı. O, almanlar getdikdən sonra hakimiyyəti ələ ke-

çirmiş Ukrayna Direktoriyasının başçısı Petlyuranın müqavimətini qıraraq, anarxist Maxnonun müdafiə etdiyi bolşevikləri darmadağın etdi. 1919-cu ilin iyununda 150 minlik Denikin ordusu Kiyevdən Çaritsinə kimi olan 700 kilometrlik cəbhəboyunca Moskva üzərinə hücuma keçdi. Sentyabrda onun qoşunları Voronej, Kursk və Oryola çatdı. Paytaxt Moskvaya 400 km məsafə qalırdı. Vətəndaş müharibəsi gedişində ağlar Moskvaya, bir dəfə də olsa belə, yaxın gələ bilməmişdilər. Bu dəfə isə bolşevik hökuməti gizli vəziyyətə keçməyə hazırlaşırdı. Lakin Oryol uğrunda döyüşlər həlledici oldu. Bir həftəlik döyüşlərdən sonra Qızıl Ordu şəhəri geri aldı. Bunun ardınca S.M.Budyonnının süvariləri qırmızıların arxasına keçən general A.Q.Şkuronun Kuban kazak dəstəsini darmadağın etdi. Qızıl Ordu əks-hücüma keçdi. 1919-cu ilin dekabrında onlar Kiyev, Xarkov, Donbası tutaraq kazakların yaşadığı Don Ordusu ərazisinə daxil oldular. Yanvarda qırmızılar Rostov və Novoçerkaskı tutaraq Krıma və Şimali Qafqaza geri çəkilən Denikin ordusunu iki yerə böldülər. Pərən-pərən düşən ağ ordu hissələri müqavimət göstərmək qabiliyyətini itirmiş oldu. 1920-ci ilin martında Könüllülər və Don ordularının böyük hissəsi dəniz yolu ilə Novorossiyskidən Krıma keçdi. Gəmilərə minə bilməyən əsgərlər aprelin axırlarında Soçi yaxınlığında təslim oldu. Qızıl Ordu Cənubi Qafqaz dövlətlərinin sərhədlərinə çatdı. Denikin 40 min nəfərdən də az qalan ordusunu Krımda baron P.N.Vrangelin komandanlığı altına verdi.

1919-cu ilin mayında ağlar şimaldan Petroqrad üzərinə hücuma keçərək, Qatçinaya, Fin körfəzi sahillərinə çatdılar. Rusiyanın mərkəzinin iri sənaye şəhəri olan Petroqradı düşmən əlinə verməmək üçün fəhlələr səfərbər edilərək düşmənlə döyüşə göndərildi. Üstün qüvvə yığan sovet komandanlığı ağların hücumunun qarşısını aldı. Ağlar isə yalnız Narva rayonunda möhkəmləndilər. 1919-cu ilin sentyabr-oktyabr aylarında onlar ikinci dəfə Petroqrada hücuma keçib onun kənar hüdudlarına yaxınlaşdılar. Bolşevik rəhbərliyi şəhəri tərk etməyə hazırlaşırdı. Yalnız bu zaman Petroqrada gələn L.D.Trotskinin enerjidolu tükənməz fəaliyyəti sayəsində ruh düşkünlüyünə uğramış qırmızı əsgər dəstələrinin döyüş qabiliyyətini bərpa etmək mümkün oldu. Oktyabr-noyabr aylarının sonlarında düşmən üzərində ikiqat say üstünlüyü yaradan qırmızı qoşun hissələri əks-hücuma keçib ağları məğlubiyyətə uğratdı. Estoniya ərazisinə keçən Yudeniç orduları tərk-silah edildi.

1920-ci ilin yazına doğru E.K.Millerin ağ ordularının müqaviməti qırıldı. Artıq bolşeviklərin qələbəsi heç kimdə şübhə doğurmurdu. Sıralarında fərarilik edən çox əsgər olmasına baxmayaraq, Qızıl Ordu real qüvvəyə çevrilmişdi. Ona görkəmli hərbi komandirlər – Tuxaçevski, Frunze, Blyuxer, Yeqorov, Budyonnı və b. rəhbərlik edirdi. Ölkə, ilk növbədə, ordunu yedizdirib, geyin-

dirdiyi üçün əsgərlər bütün iqtisadi üstünlüklərə malik olub, strateji cəhətdən əlverişli mərkəzlərdə yerləşdiklərinə görə bir yerdən başqa bir yerə sıx dəmiryol şəbəkəsi və başqa yollar vasitəsilə yer dəyişmələri asan və tez baş verirdi ki, bu da düşmən üzərində qələbədə az rol oynamadı.

Ağların siyasi hesabları onlar üçün uğursuz oldu. Torpaq haqqında oktyabr dekretini ləğv edən Kolçak və Denikin bolşevik rejimi və ərzaq sapalağından narazı olan kəndliləri belə bir vaxtda özlərinə qarşı qaldırdılar. İki zülmdən birini seçməyə məcbur olan kəndlilər keçmişə qayıtmaqdansa müvəqqəti olanı seçdilər. Kolçak və Denikin ordularının arxasında kəndlilərin partizan hərəkatını başladı.

Bundan başqa, həmkarlar ittifaqı və sosialist təmayüllü partiyaların qadağan edilməsi onların dayaqlarını zəiflətdi. Ağlar tərəfindən özbaşına təşkil edilən soyğun və basqın aksiyaları şəhər əhalisi arasında onları köməkdən məhrum etdi. Denikinin «Rusiya böyük, vahid və bölünməz olacaq!» şüarı sayəsində 1919-cu ilin payızında həlledici döyüşlər gedişində ağlar Estoniya, Finlandiya və Polşanın köməyindən yararlana bilmədilər. Ağlar federasiya statusunu qəbul etməyə belə hazır olan Qafqaz xalqları arasında da etimad qazanmadılar.

Ağları müdafiə edən xarici müdaxiləçilərə qarşı duran bolşeviklər özlərini ana vətəni müdafiə edən yeganə güc kimi qələmə verir, xaricilərlə iş birliyi quranları isə «xalq düşməni» elan edirdilər. Əlavə olaraq bolşeviklər siyasi savad kursları təşkil edir, milyon nüsxələrlə inqilabi plakatlar, vərəqələr, qəzet, kitabça buraxır, təşviqat qatarlarından istifadə edərək Lenin ideyalarını bütün ölkədə yayırdılar.

### §4. Polşa ilə müharibə. Vətəndaş müharibəsinin qırmızıların qələbəsi ilə başa çatması

Bütün bunlar 1920-ci ilin yazına doğru bolşevik hakimiyyətinin ağlar üzərində qələbəsini təmin etdi. 1920-ci ilin yazından Vətəndaş müharibəsinin əsas hadisələrindən olan Sovet-Polşa müharibəsi və Vrangelə qarşı mübarizə dövrü başlayır. Bu Vətəndaş müharibəsi gedişində beşinci, sonuncu mərhələnin başlanğıcı hesab olunur. Bu mərhələdə həm də kəndli üsyanlarının yatırılması, sovet hakimiyyətinin Cənubi Qafqazda, Uzaq Şərq və Orta Asiyada bərqərar olması diqqəti cəlb edir.

I Dünya müharibəsində Almaniyanın məğlubiyyəti və Rusiyadakı inqilabi hadisələr Polşa dövlətinin yaranmasına səbəb oldu. Müstəqil dövlətçiliyin

bərpa edilməsi Polşada sərhədlərin 1772-ci ildə olduğu kimi (Polşanın parçalanmasına qədər) müəyyən etmək, Varşava başda olmaqla Litva, Belorusiya və Qərbi Ukrayna torpaqlarının daxil olduğu federasiya yaratmaq xəyalları ilə milli əhvali-ruhiyyəni qızışdırdı. 1919-cu ildə Polşa Litvadan Vilensk vilayətini qoparıb aldı, Şərqi Qalitsiya uğrunda isə Ukrayna Direktoriyası ilə mübarizəyə başladı. İlk vaxtlar Polşa dövlətinin başçısı marşal Y.Pilsudski bolşeviklərə dözürdü, çünki ağlardan «vahid və bölünməz Rusiya» şüarına görə daha çox ehtiyat edirdi. Lakin qırmızılar Denikini məğlub edib, Ukraynaya daxil olduqdan sonra Polşa hakimiyyəti Sovet Rusiyasını özünün müstəqilliyi üçün təhlükəli hesab etməyə başladı. 1920-ci il aprelin 25-də polyak qoşunları S.V.Petlyura ilə İttifaq bağlayaraq planlaşdırdıqları federasiyanı yaratmaq məqsədilə Ukraynaya daxil oldular. Mayın 6-da polyak qoşunları Kiyevi tutaraq orada Petlyura rejimini bərpa etdilər.

Sovet dövləti Polşa cəbhəsin gücləndirmək məqsədi ilə bir sıra fövqəladə tədbirlər gördü. Birinci növbədə kommunist və komsomolçulardan ibarət olan səfərbərlik sayəsində Qərb və Cənub-Qərb cəbhələrinə xeyli kömək göndərildi. S.M.Budyonnının birinci süvari dəstəsi Cənub-Qərb cəbhəsinə daxil edildi. İyun ayında A.İ.Yeqorovun komandanlığı altında Cənub-Qərb cəbhəsinin qoşunları hücuma keçib Kiyevi azad etdilər. Bundan sonra M.N.Tuxaçevskinin komandanlığı altında Qərb cəbhəsinin qoşunları hücuma keçdi. İyulda sovet ordusu Polşa sərhədlərinə çıxdı.

Tuxaçevski Mixail Nikolayeviç (1893-1937) zadəgan nəslindən olub, I Dünya müharibəsində iştirak etmişdir. 1918-ci ildən Qızıl Ordu sıralarında olub. 1920-ci ildə Varşavaya hücum edən Qızıl Ordu qoşunlarının komandanı kimi döyüş əməliyyatlarına başçılıq edib. 1921-ci ildə Kronştadt və Tambov quberniyasındakı matros və kəndli qiyamlarının yatırılmasında yaxından iştirak edib. 1931-ci ildən SSRİ Müdafiə Komissarının müavini, 1936-cı ildən birinci müavini kimi Qızıl Ordunun modernləşdirilməsində əvəzsiz rol oynamışdır. 1937-ci ildə hökumət əleyhinə qəsddə günahlandırılaraq güllələnmişdir. Ölümündən sonra bəraət almışdır.

Sovet hökuməti hücumu Versal müqaviləsinin müəyyən etdiyi Polşa sərhədi xətti boyunca dayandırmağı tələb edən İngiltərənin xarici işlər naziri lord J.N.Kerzonun təklifini rədd etdi («Kerzon xətti»). Sovet tərəfi təkcə polyak qoşunlarını məğlub edib öz sərhədlərinin təhlükəsizliyini təmin etmək məqsədi güdmürdü. Planlar daha geniş idi. Qırmızı Ordu belə bir şüarla yola çıxmışdı: «Varşavanı ver, Berlini ver!». Bu isə o demək idi ki, sosialist inqilabı Qızıl Ordu süngüləri ilə Almaniyaya, bütün Avropaya yayılacaq. Lakin bu plan baş tutmadı. Çünki polyaklar Qırmızı Ordu hissələrinə dünyada pro-

letar inqilabı yayan qüvvələr kimi deyil, Polşanı yenidən əsarət altına alan güc kimi baxırdı. Marşal Pilsudski bundan istifadə edərək bütün polyak vətənpərvərlərini bir cəbhədə birləşdirdi. Eyni zamanda Qərb cəbhəsinin əsgərləri sürətli hücum nəticəsində arxa cəbhədən xeyli uzaqlaşaraq öz ehtiyat mənbələrindən xeyli aralı düşmüşdü. Cənub-Qərb cəbhəsinin komandanlığı Lvov üzərinə hücumu dayandırmayaraq İnqilab Şurasının Birinci Süvari ordusunun Qərb cəbhəsinə verilməsi haqqında əmrin olmasına baxmayaraq, onu yerinə yetirməmişdilər. Nəticədə, 1920-ci ilin avqust ayında Varşava altında Qərb cəbhəsinin qoşunları darmadağın edildi və Şərqi Brestə çəkilməyə məcbur oldu. 165 min nəfər Qızıl əsgər polyaklara əsir düşdü və yaxud Almaniyada tərk-silah edilərək nəzarət altına alındı. Onlardan üç nəfərdən biri evinə dönməyərək həbs düşərgələrində rəhmsiz münasibət nəticəsində həlak olmuşdur. Oktyabrda polyak əsgərləri yenidən Minskə daxil oldular. Lakin hər iki tərəfin əməliyyatları davam etdirmək imkanı olmadığı üçün oktyabrın 12-də Riqada barışıq imzalandı. 1921-ci il martın 18-də Riqada Sovet Rusiyası ilə Polşa arasında kompromis xarakter daşıyan sülh müqaviləsi imzalandı. Sülh şərtlərinə görə, Polşa 1772-ci il Reç Pospolita sərhədlərin bərpa etmək iddiasından əl çəkdi. Bunun müqabilində Rusiya Polşaya xeyli miqdarda təzminat ödəməyə, Qərbi Ukrayna və Qərbi Belorusiyanın Polşaya birləşdirilməsinə razı oldu. Şərqi Belorusiyada Sovet Sosialist Respublikasının hakimiyyəti qalırdı.

Sovet-Polşa müharibəsinin başa çatması Sovet dövlətinə imkan verdi ki, Krımda Denikin ordularının qalıqlarından general P.N.Vrangelin komandanlığı altında formalaşan ağ orduları aradan qaldırsın. Sovet-Polşa müharibəsinin gedişində ağlar Lvov üzərinə hücum edən sovet qoşunlarının Cənub-Qərb cəbhəsinin arxasına keçməyə cəhd edərək, Şimali Tavriya və Donbasın bir hissəsini tutdular. Polşa ilə müharibə başa çatdıqdan sonra Vrangel öz ordularını Krıma geri çəkərək, möhkəmləndirilən Perekop və Çonqar istehkamları arxasında gizlənmək əmri verdi. M.V.Frunzenin komandanlığı altında Cənub cəbhəsinin qoşunları 1920-ci ilin oktyabr-noyabr aylarında Kaxovka əməliyyatı ilə Vrangel ağ ordusunun əsas qüvvələrini əzərək son zərbəni Sivaş körfəzindən vurdular. Sivaşın dayaz yerlərindən su ilə irəliləyən sovet qoşunları noyabrın 11-də İşun, 12-də isə Çonqar istehkamlarını aldılar. Krım çöllərinə daxil olan Qırmızı Ordu dəstələri noyabrın 15-də Sevastopolu aldılar, noyabrın 17-də isə Krımı tam azad etdilər. Ağ ordu dəstələrinin tör-töküntüləri 130 gəmidə Rusiyanı tərk edərək Türkiyəyə keçdilər. Vrangel onları Fransaya apardı. Bununla da, Rusiyanın Avropa hissəsində Vətəndaş müharibəsinin əsas döyüşləri başa çatmış oldu.

Vətəndaş müharibəsində nə qırmızıları, nə də ağları müdafiə edən üçüncü qüvvə yaşıllar idi. Soyğunçuluq, dəmiryollarına və kəndlərə basqın edən bu dəstələr qırmızı və ağlardan fərarilik edən əsgərlərdən və hər iki tərəfin siyasətindən narazı olan kənd adamlarından təşkil olunmuşdu. Bu adamlar arasında mərkəzləşmiş hakimiyyətdən imtina edən anarxizm ideyası hakim idi və onlar özünüidarə əsasında kommunal cəmiyyət qurmaq arzusunda idilər. Bolşeviklərsiz, kommunistlərsiz sovet hakimiyyəti qurmaq şüarı onlar arasında çox populyar idi. Qırmızılar, ağlar, yaşıllar və Ukraynadakı millətçi qüvvələr arasında münasibətlər mürəkkəb və ziddiyyətli idi. Alman və Avstriya orduları Ukraynanı tərk etdikdən sonra bu yerlərdə sovet hakimiyyətinin bərpası çoxsaylı terror və fövqəladə tədbirlərlə, proletar diktaturasının ərzaq siyasəti ilə müşayiət olunurdu ki, bu da kəndlilərin kəskin narazılığına səbəb olurdu. Nəticədə, Ukraynanın ərazisində «yaşıllar» hərəkatı və kütləvi silahlı birləşmələr xeyli fəallaşdı. N.A.Qriqoryev və N.İ.Maxnonun hərəkatı daha geniş miqyas aldı.

Rus ordusunun sabiq ştabs kapitanı N.Qriqoryev 1917-1918-ci illərdə Mərkəzi Radanın ordusunda, getman Skoropadski və Petlyuranın tərəfində əməliyyatlarda iştirak edib, onlar məğlub olduqdan sonra 1919-cu ilin fevralında Qızıl Ordu tərəfinə keçmişdir. Briqada, sonra diviziya komandiri kimi müdaxiləçilərə qarşı döyüşmüşdür. 1919-cu ilin mayın 7-də ordusunu Macarıstan Sovet Respublikasına kömək etmək üçün göndərməkdən imtina edərək Denikinə qarşı döyüş əməliyyatları aparan Qızıl Ordunun arxasında qiyam qaldırmışdır. Əsas şüarı «Hakimiyyət kommunistlərsiz Ukrayna Sovetlərinə!», «Ukrayna ukraynalılar üçün!», «Çörəyə azad ticarət!» olan N.A.Qriqoryevin 20 min nəfər canlı qüvvəsi, 50-dən çox topu, 700 pulemyotu, 6 hərbi qatarı var idi. 1919-cu ilin may-iyun aylarında Qara dəniz boyu geniş ərazilərə nəzarət edən N.Qriqoryevin qüvvələri iyun ayında məğlub edildi, yerdə qalanlar Maxnonun dəstəsinə qoşuldular. A.Y.Parxomenko və K.E.Voroşilovun komandanlığı altında qızıl əsgərlər tərəfindən məğlub edilmiş ataman N.Qriqoryev 1919-cu il iyulun 27-də Maxnonun əmri ilə öldürüldü.

Əqidəli anarxist N.İ.Maxno 1918-ci ilin aprelində öz ordusunu yaradaraq almanlara, Skoropadski və Petlyuranın hissələrinə qarşı partizan əməliyyatları aparmışdır. 1919-cu ilin əvvəllərində onun 20 min nəfəri əhatə edən diviziya, polku, qərargahı və inqilabi hərbi şurası mövcud idi. 1919-cu ilin fevralında Denikinin qoşunları Ukraynanın ərazisinə daxil olduqda Maxnonun qoşunları Qızıl Ordu tərkibinə daxil olmuşdu. Lakin maxnoçular siyasi cəhətdən bolşeviklərdən çox uzaq idilər. «Hakimiyyətsiz dövlət», «azad sovetlər» uğrunda mübarizə aparan N.Maxno «Ukraynanı Denikindən müdafiə edək!»

«Ukraynada qalmağa çalışan ağlara, qırmızılara, qarşı, hamıya qarşı!» şüarı ilə çıxış edirdi. Onun ordusu Denikin və Vrangelin məğlub edilməsində əhəmiyyətli rol oynamışdı. Amma sonra Maxno Sovet hakimiyyətinə tabe olmaqdan imtina etdiyi üçün qanundan kənar elan edilmişdi. «Ata» («батько») ləqəbli N.İ.Maxnonun manevr qabiliyyətli dəstəsi ilə mübarizə məqsədilə A.Y.Parxomenkonun, sonra Q.İ.Kotovskinin diviziyaları səfərbər edildi. 1921-ci ilin sonunda Maxnonun dəstəsi məğlub oldu, özü isə 50 nəfər atlı ilə Rumıniyaya sığındı.

1919-cu ilin sonu – 1920-ci ilin əvvəllərində Rusiyanın Avropa hissəsində kəndli müharibəsinin daha geniş miqyasda alovlanması nəticəsində bir çox tarixçilərin qeyd etdiyi kimi, ölkə vətəndaş müharibəsinin ən qanlı hadisəsinə şahid olmuşdur. Belə ki 1920-1921-ci ilin birinci yarısı ən çox qanlı hesablaşma, kəndlərin yandırılması, əhalinin kütləvi şəkildə zorla köçürülməsi ilə müşayiət edilən «Yaşıl axın» dövrü kimi tarixdə öz yerini almışdır. Kəndlilərin narazılığının əsasını «hərbi kommunizm» siyasəti tuturdu. Müharibə başa çatmışdır, ancaq iqtisadi siyasətdə fövqalədə tədbirlər ləğv edilməkdənsə, daha da güclənmişdi. Odur ki hakimiyyətin siyasətindən narazı olanlar «yaşıllar» dəstələrinə qoşulurdular ki, bunlar da rəsmi sovet sənədlərində «bandalar» kimi səciyyələndirilmişdir.

1920-ci il avqustun 15-də Tambov quberniyasında A.S.Antonovun başçılığı ilə başlanan geniş və mütəşəkkil kəndli üsyanı «antonovçuluq» kimi tarixə düşmüşdür. Zəhmətkeş kəndlilərin quberniya qurultayı eserlərin təsirilə bolşeviklərin hakimiyyətinin devrilməsi, Müəssislər Məclisinin çağrılması, müxalifət partiyalarından müvəqqəti hökumətin təşkil edilməsi, ərzaq vergisinin ləğv olunması və azad ticarətin tətbiq edilməsinə dair proqram sənədi qəbul etmişdir. 1921-ci ilin yanvarında Antonovun qoşunlarında 50 min nəfər adam, iki ordu, bir briqada əməliyyatlarda iştirak edirdi. Üsyançılar cənub-şərq dəmiryol qovşağını ələ keçirib, mərkəzi rayonlara taxıl daşınmasının qarşısını alaraq, 60 sovxozu tutmuş, iki mindən çox partiya və sovet işçisini qətlə yetirmişdir. Üsyançılara qarşı M.N.Tuxaçevskinin komandanlığı altında artilleriya, aviasiya və zirehli texnika olmaqla ordu göndərildi. Yalnız 1921-ci ilin iyulunda kimyəvi silahdan və girovgötürmə taktikasından istifadə etməklə üsyançıları məğlub etmək mümkün olmuşdur.

1920-ci ilin əvvəllərində böyük bir hissəsinin ağlardan azad edilməsinə baxmayaraq, Uzaq Şərqdə vəziyyət gərgin olaraq qalırdı. Çitadan tutmuş Xabarovsk və Vladivostoka kimi olan ərazilərə yapon ordusu nəzarət etdiyi üçün ağlar bu yerlərə toplaşmağa başladılar. Aprel ayında Çitada Qızıl Ordu yaponlar tərəfindən məğlubiyyətə uğradıldı. Onlar Primoryedə bolşevik haki-

miyyət orqanlarına hücum edərək, 5 min nəfəri qətlə yetirdilər, bolşeviklərin rəhbəri S.G.Lazonu isə diri-diri paravozun yanacaq deposunda yandırdılar.

Sovet Rusiyası hərbi cəhətdən güclü olan Yaponiya ilə müharibə etməmək məqsədilə 1920-ci il aprel ayının 6-da hər iki dövlət arasında bufer rolunu oynayan Uzaq Şərq Respublikasının (UŞR) yarandığını elan etdi. Uzaq Şərq Respublikasının Müəssislər Məclisinə keçirilən seçkilərdə müstəqil kəndli nümayəndələri 183 yer, bolşeviklər 92 yer, eserlər 18 yer, menşeviklər 14 yer qazandılar. UŞR-in Konstitusiyası qəbul edildi. Bolşeviklərin üstünlük təşkil etdiyi koalisyon hökumət quruldu. Yeni hökumət uzun danışıqlardan sonra Yaponiyanın Uzaq Şərqdə güclənməsini istəməyən ABŞ-ın dəstəyi ilə yapon qoşunlarını öz ərazisindən çıxardı. V.K.Blyuxerin və İ.P.Uboryeviçin komandanlığı altında Uzaq Şərq Respublikası ordusu Kolçak ordusu əsgərlərinin qalıqlarına qarşı hücuma keçdi. 1921-ci ildə Qızıl Ordu R.F.Ungerin komandanlığı altında olan ağları məğlub edərək, Monqolustana çəkilməyə məcbur etdi. Monqolustanda hakimiyyətə sosialist dəyişiklikləri tərəfdarları gətirildi və Monqolustan Sovet Rusiyasının ilk müttəfiqi oldu. 1922-ci ilin oktyabrında Uzaq Şərq Respublikasının ordusu Xabarovsk, Spassk və Vladivostoku tutdu. Noyabr ayında Uzaq Şərq Respublikasında sovet hakimiyyəti elan olundu. 1922-ci ilin noyabrın 15-də ÜRMİK UŞR-in Rusiyanın tərkibinə birləşdirilməsi haqqında dekret qəbul etdi. Uzaq Şərqdə vətəndaş müharibəsi başa çatdı.

1920-ci ilin aprelində S.Orconikidzenin rəhbərliyi altında sovet qoşunları müstəqil Azərbaycanın sərhədlərinə daxil olaraq, mili Müsavat hökumətini devirdilər. Qızıl Ordu süngülərinin gücü ilə Azərbaycanda sovet hakimiyyəti bərqərar oldu. 1920-ci ilin noyabrında sovet qoşunları Ermənistana daxil olaraq Daşnak hökumətini devirdi və sovet hakimiyyətini elan etdi. 1921-ci ilin fevralında Gürcüstanda N.Jordaniyanın menşevik hökumətinə qarşı silahlı üsyançılara kömək bəhanəsi ilə sovet qoşunları respublika ərazisinə daxil olaraq ölkədə sovet hakimiyyəti qurdular.

Orta Asiyada sovet hakimiyyəti uğrunda mübarizə çətin və mürəkkəb şəraitdə davam edirdi. Vətəndaş müharibəsi illərində bolşeviklər yalnız şəhərlərə nəzarət edirdilər, kəndlərdə isə müsəlman partizanları olan basmaçılar ağalıq edirdi. Xivə və Buxarada isə mütləqiyyət quruluşu qalırdı. 1920-ci ildə Qızıl Ordu Buxara əmirini və Xivə xanını devirdi. Bunların yerində Buxara və Xarəzm Xalq Sovet Respublikası yaradıldı. 1921-ci ildə RSFSR-in tərkibində Türküstan MSSR təşkil olundu. Orta Asiyada sovet hakimiyyətinin qurulmasında M.V.Frunzenin Qızıl Ordu dəstələri əsas rol oynadı. Buna baxmayaraq, dini liderlər tərəfindən qızışdırılan kəndlilərin (dehqanlar) böyük his-

səsi antisovet basmaçı hərəkatında birləşərək İran və Əfqanıstanın köməyi ilə müqavimət hərəkatını 30-cu illərin ortalarına kimi davam etdirdilər.

Frunze Mixail Vasilyeviç (1885-1925) 1903-cü ildən bolşevik kimi fəaliyyət göstərərək Kolçak, Vrangel ağ ordularının məğlub edilməsində böyük rol oynamışdır. Orta Asiyada hərbi əməliyyatlara rəhbərlik edən M.V.Frunze 1920-1924-cü illərdə Ukrayna və Krım silahlı qüvvələrinə başçılıq etmişdir. Hərbi İnqilab Şurasının sədri, Hərbi və Dəniz işləri üzrə xalq komissarı kimi hərbi islahatlar həyata keçirmişdir.

Beləliklə, bolşeviklər Vətəndaş müharibəsində qələbə çaldı və xarici müdaxiləçiləri dəf etdi. Onlar keçmiş Rusiya imperiyasının əsas ərazisini qoruyub saxlamağa müyəssər oldular. Bununla bərabər, Polşa, Finlandiya, Baltikyanı dövlətləri müstəqillik qazanaraq Rusiyadan ayrıldılar. Eyni zamanda Qərbi Ukrayna, Qərbi Belorusiya da itirildi.

Bir-birilə sıx bağlı olan inqilab və vətəndaş müharibəsi XX əsrin əvvəllərində Rusiyadakı I Dünya müharibəsinin daha da kəskinləşdirdiyi ziddiyyətlərin birbaşa nəticəsi idi. 1917-ci ilin fevralı Rusiyanın siyasi sistemini kökündən dəyişdirdi. Ölkə qarşısında iqtisadi, sosial, siyasi və mənəvi sahədə dərin dəyişikliklər üçün şərait yarandı. Ancaq inqilabi dalğaların sükanı arxasına keçən partiya və liderlər həll edilməsi tələb olunan vəzifələri hər vasitə ilə təxirə salırdılar. «Burjua» və «xırdaburjua» partiyaların qeyri-fəallığı şəraitində bolşeviklər önə çıxdılar. 1917-ci ilin yazında onun liderləri ictimai əhvali-ruhiyyəni düzgün qiymətləndirərək kütlələri cəlb edən aydın suallar səsləndirərək, sülh və sosial ədaləti təbliğ edirdilər. Bu möhkəm partiya intizamı leninçilərin oktyabrda hakimiyyəti ələ keçirməsi ilə nəticələndi. Bolşeviklər dərin böhran vəziyyətində olan hakimiyyətə sahib olmağa başladılar. Vahid dövləti saxlamaq, qayda-qanunu bərpa etmək vəzifəsi bolşeviklərin Rusiya üçün sosial ideallarını həyata keçirmək arzusu ilə tamamlanırdı. Bütün bunlar, o cümlədən xarici müdaxilə vətəndaş müharibəsinin uzun və amansız olmasını şərtləndirmişdir.

Vətəndaş müharibəsi və xarici hərbi müdaxilə Rusiya üçün əsl faciə olmuşdur. Ölkə iqtisadiyyatına dəyən ümumi ziyan 50 milyard qızıl rubldan çox idi. 1914-cü ildən 1920-ci ilə qədər sənaye istehsalı 7 dəfə, kənd təsərrüfatı 38% azalmışdır. İnsan tələfatı böyük idi. 1917-ci ildən 1920-ci ilə kimi aclıq, xəstəlik, qırmızı və ağ terrordan 8 mln. nəfər həyatını itirmişdi. Cəmiyyətin tərkibi dərindən dəyişmişdi: mülkədarlar, iri və orta burjuaziya sinfi ləğv edilmiş, ilahiyyatçılər, kazaklar və varlı kəndlilər ağır zərbə almışdı. Çoxu ziyalılar, zadəganlar və sahibkarlardan ibarət olan 2,5 mln. nəfər rusiyalı ölkədən mühacirətə getmişdi. Maddi və mənəvi-etik cəhətdən yeri doldurulması mümkün olmayan itirilən dəyərlər uzum müddət Sovetlər ölkəsinin tarixində dərin neqativ iz buraxmışdır.

# XXI FƏSİL
# SOVET DÖVLƏTİ 20-ci İLLƏRİN BİRİNCİ YARISINDA

## §1. 1920-ci illərin əvvəllərində daxili vəziyyət. Kronştadt qiyamı

20-ci illərin birinci yarısında daxili siyasət sahəsində qarşıda duran əsas vəzifə bolşeviklərin xalqa vəd etdiyi sosializm qurmaq üçün onun maddi-texniki və sosial-mədəni bazasını yaratmaq, dağılmış ölkə təsərrüfatını bərpa etmək idi. Vətəndaş müharibəsi və xarici hərbi müdaxilə ölkəyə böyük ziyan vurmuşdu. Ölkənin iri sənayesində istehsal 1920-ci ildə 1913-cü il səviyyəsinin 14,6, metal emalı 7, çuqun istehsalı 2%-ə düşmüşdür. Hərbi döyüşlərin gedişində, xüsusilə Donbas, Bakının neft rayonları, Ural, Sibirin hövzə və mədənləri daha çox dağıntıya məruz qalmışdır. Yanacaq və xammal olmadığına görə zavodlar işləmirdi. Fəhlələr şəhəri tərk edib kəndə getməyə məcbur olurdular. Putilov, Obuxov, Sestroretsk, «Treuqolnik» və başqa müəssisələr dayandığına görə Petroqrad fəhlələrin 60%-ni, Moskva isə 50%-ni itirmişdi. 1921-ci ilin fevralında Petroqradın 64 iri müəssisəsi dayanmışdır. 1921-ci ildə Rusiyada sənaye proletariatının sayı cəmi bir milyonu təşkil edirdi.

1921-ci ildə məhsulsuzluq üzündən şəhər və kəndi aclıq bürüdü. 1922-ci ilin noyabrında 22-27 mln. nəfər əhali aclıq çəkirdi. Təkcə Orta Volqaboyu rayonlarında aclıqdan ölənlərin sayı 5 mln. nəfər idi. Ölkədə yatalaq, taun, səpmə və s. yoluxucu xəstəliklər tüğyan edirdi. Yatalaqdan ölənlərin sayı 2 milyona çatmışdı.

Rusiyanın əhalisi I Dünya müharibəsi və vətəndaş müharibəsi nəticəsində 10 milyon 887 min nəfər azalaraq 1921-ci ildə 134,3 mln. nəfər olmuşdur. 1913-cü ildə əhalinin 18%-ni təşkil edən şəhər əhalisinin sayı kəskin surətdə aşağı düşmüşdü. Ölkəni tərk edən 2,5 mln. mühacirin böyük əksəriyyəti şəhərlərdə yaşayan siyasi, maliyyə, elit təbəqənin nümayəndələri idi. Şəhərlərdə ərzaq, yanacaq çatışmırdı: kanalizasiya, su, istilik, işıq sistemi işləmir, tramvaylar hərəkət etmirdi. Qışda adamlar əldəqayırma «burjuyka» adlanan və mebel parçaları ilə qalanan sobalarla qızınırdılar. Cinayətkarlıq geniş miqyas alaraq güngən-günə artırdı. Ölkədə 7 milyona yaxın sahibsiz uşaq dolaşır və çoxlu evsiz-eşiksiz adam var idi ki, bunlar da xüsusilə şəhərlərdə cinayətkarlığın və oğurluğun əsas mənbəyini təşkil edirdilər. Aclıq, epidemiya, kommunal

təsərrüfatın dağılması Moskvada şəhər əhalisinin 40%-nin, Petroqradda 50%-nin azalmasına səbəb oldu.

Əhalinin çalışan hissəsinin sayının aşağı düşməsi sovet hakimiyyətini məcbur etdi ki, vətəndaşlar üçün icbari əmək mükəlləfiyyəti tətbiq etsin. Beləliklə, milliləşdirilmiş əmək sayəsində əmək orduları yaranırdı. Fəhlələr zavodlara təhkim edilərək repressiyaya məruz qalmaq qorxusu altında nəzərdə tutulan planı yerinə yetirməyə borclu idi. Hər bir işçi məcburi surətdə hakimiyyətin lazım bildiyi yerə göndərilə bilərdi.

«Hərbi kommunizm» siyasətinin sərt və ağır nəticələri və onlara qarşı kəndlilərin müqavimətinin gündən-günə artması bir çox uzaqgörən bolşevik rəhbərlərin dövlətin iqtisadi siyasətinin dəyişilməsinin zəruriliyini dərk etməsinə gətirib çıxardı. Artıq 1920-ci ilin yazında RK(b)P-nin bəzi rəhbərləri, o cümlədən AXTŞ sədrinin müavini Y.Larin, M.İ.Kalinin və L.D.Trotski ərzaq sapalağının ərzaq vergisi ilə əvəz edilməsini təklif edirdilər. Buna görə isə kəndlilərdən məhsulun bir hissəsi məcburi surətdə alınırdı, yerdə qalan hissəni isə kəndli bazarda ərzaq şəklində sata bilərdi. Lakin bu təkliflər bazarı canlandırdıqları, kommunist bölgüsü prinsipini pozduğu üçün qəbul edilmədi.

1920-ci ildə XKS bazarsız kommunist bölgü prinsiplərinə dayanan tədbirləri daha da genişləndirdi. Kiçik sənaye müəssisələri də milliləşdirilməyə başlandı. 1920-ci ilin dekabrında VIII Ümumrusiya Sovetlər qurultayı xalq təsərrüfatını bərpa etmək və onu elektrikləşdirmək planını qəbul etdi (QOELRO planı). Görkəmli alim Q.M.Krijijanovskinin rəhbərlik etdiyi bu plana görə, ölkənin energetika sistemi daha geniş miqyas alaraq, yeni elektrik stansiyaları, iri sənaye müəssisələri tikilməsi hesabına sənayeləşdirmə həyata keçirilməli idi. V.İ.Lenin bu planı «partiyanın ikinci proqramı» adlandırmışdır. 1921-ci ilin fevralında Xalq Komissarları Soveti bu planı həyata keçirmək və ölkənin xalq təsərrüfatının cari və perspektiv inkişaf planını işləyib hazırlamaq üçün QOELRO-nun Dövlət Plan Komissiyasına (Госплан) çevrilməsini təsdiq etdi. Ərzaq sapalağına tabe olan kənd təsərrüfatı məhsullarının çeşidləri artırıldı. Pul tədavülünün ləğvi haqqında dekret hazırlandı. Lakin bu tədbirlər fəhlə və kəndlilərin maraqlarına cavab vermirdi. Odur ki, iqtisadiyyatla bərabər sosial böhran da yetişməkdə idi.

Ərzaq qıtlığı və işsizlik fəhlələri qıcıqlandırırdı. İcbari əməyin tətbiqi və əməkhaqqının bərabərlik prinsipi əsasında ödənilməsi, həmkarlar ittifaqının hüquqlarının məhdudlaşdırılması onların narazılığını gündən-günə artırırdı. Odur ki 1920-ci ilin sonu, 1921-ci ilin əvvəllərində fəhlələr şəhərlərdə ölkənin siyasi sisteminin demokratikləşdirilməsi, Müəssislər Məclisinin çağırılması, xüsusi bölgü və payların ləğv edilməsi uğrunda tətilə başladılar.

Ərzaq dəstələrinin özbaşınalığından qəzəblənən kəndlilər nəinki ərzaq sapalağını ödəməkdən imtina etdilər, hətta sovet hakimiyyətinə qarşı silahlı mübarizəyə qalxdılar. Tambov, Ukrayna, Don, Kuban, Orta Volqa və Sibiri kəndli hərəkatı bürüdü. Yalnız Qərbi Sibirdə üsyançı kəndlilərin sayı 200 min nəfərdən çox idi. Kəndlilər ərzaq siyasətinin dəyişdirilməsini, RK(b)P diktəsinin ləğv edilməsini, ümumi bərabər seçki əsasında Müəssislər Məclisinin çağrılmasını tələb edirdilər. Bu çıxışların yatırılmasına Qızıl Ordu və Ümumrusiya Fövqəladə Komissiyasının dəstələri göndərildi.

Ölkəni bürüyən hərəkat tezliklə Kronştadta çatdı. 1921-ci il fevralın 28-də «Petropavlovsk» və «Sevastopol» hərbi gəmilərinin 26 min nəfər şəxsi heyəti sonradan üsyanın xartiyasına çevrilən qətnamə qəbul etdilər. Azad seçki yolu ilə gizli səsvermə nəticəsində sovetlərin yenidən seçilməsi, fəhlə, kəndli, o cümlədən anarxist və sol eserlər üçün söz, mətbuat azadlığı, bütün siyasi məhbusların azad edilməsi, muzdlu əməkdən istifadə etməyən sənətkarların əmlakının müsadirə edilməsinə son qoyulması, muzdlu əməyin tətbiqindən başqa kəndliyə öz torpağında istədiyi kimi hərəkət etməsinə icazə verilməsi və başqa tələblər irəli sürüldü. «Petropavlovsk» dənizçilərinin qəbul etdiyi qətnamədən xəbər tutan ÜRMİK sədri M.İ.Kalinin onların görüşünə gəldi. Onu gəmidən 2 min kommunistin ən azı yarısının qoşulduğu, 12 min dənizçinin fit səsləri ilə yola saldılar. Bolşeviklər partiyasının MK-sı üsyanı çar generallarının rəhbərlik etdiyi kadet, menşevik və eserlərin müdafiə etdiyi Qərbdəki ağqvardiyaçıların qızışdırdığı əks-inqilabi qiyam kimi damğaladı. Martın 2-də qiyamçılar mənşəcə fəhlə və kəndlilərdən ibarət olan Müvəqqəti İnqilabi Komitə təşkil etdilər. Komitəyə «Petropavlovsk» gəmisinin mirzəsi S.M.Petriçenko başçılıq edirdi. Komitə öz işlərinin haqq işi olduğuna sadəlövhcəsinə inandıqlarına görə silah tətbiq etməklə hücuma keçməkdən imtina etdilər, yalnız müdafiə olunacaqlarını bildirdilər. L.D.Trotski Polşa müharibəsinin qəhrəmanı general M.N.Tuxaçevskiyə tapşırdı ki, üsyanı yatırsın. O, üsyançıları gülləbaran etmək məqsədilə hərbi məktəblərin «inqilabi təcrübəsi» olmayan gənc kursantların və ÜFK xüsusi dəstələrindəki əsgərləri martın 7-də Kronştadt üzərinə hücuma apardı. 10 gün ərzində Kronştadt təslim oldu. Hərbi dəniz bazası tutulduqdan sonra Kronştadt qarnizonu üzərində ağır mühakimə və cəza tədbirləri başladı. 1921-ci ilin yazında 2100 nəfər güllələndi, 6,5 min adam müxtəlif müddətə həbs cəzası aldı. HİK sədri S.M.Petriçenko və Kronştadt artilleriya rəisi çar ordusunun sabiq general-mayoru A.N.Kozlovski 8 min dənizçi ilə birlikdə buz üzərindən Finlyandiyaya keçdilər. «Kommunistlərsiz sovetlərə» şüarı səsləndirən Kronştadt matroslarının üsyanı göstərdi ki, bolşevik hakimiyyəti əsasən kəndlilərdən ibarət olan ordu içərisində öz dayaqlarını itirir.

Aclıq və dağıntı, fəhlə tətilləri, kəndli və matrosların üsyanları göstərdi ki, ölkədə dərin iqtisadi və sosial böhran yetişməkdədir. Bundan başqa, 1921-ci ilin yazına doğru dünya inqilabına və Avropa proletariatının maddi-texniki köməyinə olan ümidlər puça çıxdı. Odur ki V.İ.Lenin daxili siyasi kursa yenidən baxaraq etiraf etdi ki, yalnız kəndlilərin tələblərini yerinə yetirməklə bolşeviklərin hakimiyyətini xilas etmək olar.

### §2. Yeni iqtisadi siyasətə keçilməsi. Partiyadaxili mübarizənin başlanması

1921-ci il martın 8-də Moskvada RK(b)P-nin X qurultayı işə başladı. Qurultayın gündəliyinə iki mühüm məsələ – birincisi, SSRİ-də siyasi həyatı hələ uzun müddət müəyyən edən partiyadaxili fraksiyaların qadağan olunması, ikincisi, üç il müddətində kəndlilər üzərində ağır yük olan ərzaq sapalağının ərzaq vergisi ilə əvəz edilməsi haqqında məsələlər daxil edilmişdi. Qurultay hər iki əsas məsələ haqqında tez-tələsik qərar qəbul etdi.

RK(b)P-nin X qurultayının «Partiyanın birliyi haqqında» qətnaməsi A.Q.Şlyapnikov, S.P.Medvedev, A.M.Kollontayın başçılıq etdiyi «fəhlə müxalifəti»nin 1920-1921-ci ilin əvvəllərində həmkarlar ittifaqlarına dair müzakirələri ilə əlaqədardır. Bu qrupun ideya-siyasi proqramı A.Kollontayın «Fəhlə müxalifəti» kitabçasında əks olunmuşdur. Xalq təsərrüfatının idarəçiliyinin həmkarlar ittifaqlarında birləşən «istehsalçıların Ümumrusiya qurultayına» verilməsi tələb edilirdi. Sənayenin ayrı-ayrı sahələrinin idarə edilməsi müvafiq həmkarlar ittifaqına verilməli idi. X qurultayda «fəhlə müxalifəti»nin 45 nəfər üzvü öz görüşlərini müdafiə etməsinə baxmayaraq məğlub oldular. Fəaliyyətini dayandırmayan müxalifət üzvləri RK(b)P XI qurultayında partiya sıralarından azad edildilər.

1921-ci il yanvarın 18-də V.İ.Lenin, Q.Y.Zinovyev, L.B.Kamenev, İ.V.Stalin və b. tərəfindən çap edilən «RK(b)P-nın X qurultayının Həmkarlar İttifaqının rolu və vəzifələrinə dair qətnaməsi layihəsi»ndə qeyd olunurdu ki, həmkarlar ittifaqının proletariat diktaturası mərhələsində başlıca rolu «kommunizm məktəbi rolu olaraq» əsas iş metodu məcbur etmək deyil, inandırmaq vasitəsilə zəhmətkeşləri sənayenin bərpası və inkişafına səfərbər edərək şəhər proletariatını kəndin əkinçi kütləsinə təşkilat və ideya təsiri göstərməkdir.

X qurultayın qruplaşmanın və fraksiyaçılıq fəaliyyətinin yolverilməz olduğuna dair «Partiyanın birliyi haqqında» qətnaməsi, eyni zamanda vətəndaş

müharibəsi illərində Sovet Rusiyasında ikinci nüfuz sahibi olmağa namizəd hesab edilən L.D.Trotskiyə qarşı yönəlmişdi. 1920-ci ilin sonundan V.İ.Leninin səhhətinin zəifləməsi yaxın keçmişdə bolşeviklərin barışmaz rəqibi olan bir şəxsin ali partiya və dövlət vəzifəsinə qorxulu iddiaçı olması ilə bağlı idi.

Trotskiçilərlə gizli mübarizəni gücləndirmək məqsədilə 1921-ci ilin mart plenumunda V.Leninin tərəfdarları hesabına Mərkəzi Komitənin üzvləri 19 nəfərdən 25 nəfərə qədər qaldırıldı. N.Krestinskinin yerinə Q.Zinovyev Siyasi Büronun üzvü, V.Molotov üzvlüyə namizəd seçildi. 1921-ci ilin ortalarından Siyasi Büronun iclaslarında V.Leninlə L.Trotskinin iştirakı getdikcə daha ziddiyyətli xarakter almağa başladı. Trotskinin Lenini «xuliqan» adlandırması onların birlikdə işini daha da çətinləşdirdi. Bunlarla bağlı olaraq 1921-ci ilin yayında L.Trotskinin ardıcıl opponenti İ.Stalinin MK katibi kimi rolu artdı. Hakimiyyət tədricən «triumvirat» – L.Kamenev, Q.Zinovyev və İ.Stalinin əlinə keçdi.

X qurultay «Ərzaq sapalağının natural vergi ilə əvəz edilməsi haqqında» qərar qəbul etdi. Ərzaq sapalağının natural vergi ilə əvəz edilməsi yeni iqtisadi siyasətə keçilməsi demək idi ki, bu da 1921-ci ildə ÜRMİK-in 21 mart dekreti və 1921-ci ilin dekabrında IX Ümumrusiya Sovetlər qurultayının qərarı ilə təsdiq olundu. Yeni iqtisadi siyasət bütöv bir iqtisadi və sosial-siyasi tədbirlər sistemi idi. Bu, dövlətin hərbi kommunizm siyasəti prinsipindən geri addım ataraq xüsusi sahibkarlığı dirçəltməsi, azad daxili bazarın yaradılması və kəndlilərin bir çox tələblərinin yerinə yetirilməsi demək idi. Kənd təsərrüfatında yeni iqtisadi siyasətin həyata keçirilməsi ərzaq sapalağının ərzaq vergisi ilə əvəz edilməsilə başladı. Ərzaq vergisi əkin kampaniyasının əvvəlində müəyyən edilərək il ərzində dəyişdirilə bilməzdi və sapalağa nisbətən iki dəfə az nəzərdə tutulurdu. Onun əsas ağırlığı varlı təsərrüfatların üzərinə düşürdü. Kəndlilər ərzaq vergisin ödədikdən sonra artıq qalan məhsulu bazarda sata bilərdilər. Beləliklə, dövlət bu andan etibarən özünü bütün taxıl məhsulu istehsalının deyil, onun vergi şəklində alınan müəyyən bir hissəsinin mülkiyyətçisi elan etdi. Torpaqların icarəyə verilməsinə və burada muzdlu əməyin tətbiqinə müəyyən şərtlərlə icazə verilirdi. Zorla kommuna yaradılmasına son qoyuldu ki, bu da kənddə xüsusi, xırda təsərrüfatların möhkəmlənməsinə səbəb oldu. Təktəsərrüfatlı kəndlilər kənd təsərrüfatı məhsulunun 98,5%-ni verirdilər.

Kənddə özünün təsir dairəsini qoruyub-saxlamağa çalışan dövlət kooperasiyasının təchizat, istehlak, kredit və s. formalarından istifadə edirdi. Şəhər yarmarkaları və ticarət birjaları təşkil edilirdi ki, burada da kəndlilər məhsullarını özlərinə lazım olan sənaye malları ilə dəyişdirə bilərdilər. Bu, şəhərlə kənd arasında normal mal mübadiləsinin yaranmasına şərait yaratdı.

Aqrar siyasətin həyata keçirilməsində RSFSR-in Torpaq kodeksinin hazırlanması və 1922-ci ilin oktyabrın 30-da ÜRMİK IV sessiyasında qəbul edilməsi mühüm rol oynadı. Burada «fəhlə-kəndli dövləti»nin mülkiyyəti elan olunan torpaq üzərində xüsusi mülkiyyətin həmişəlik olaraq ləğv olunması təsdiq olunur, torpaqdan istifadənin həyət, xutor, icma, artel formalarının azad seçilməsində ayrı-ayrı kənd və qəsəbələrin qərarları əsas hesab olunurdu. Kodeksə görə torpaq cəmiyyətlərinin faktiki istifadəsində olan torpaq payı onlara təhkim olunurdu. Torpaqların yenidən bölünməsinə yalnız üçqat əkin dövründən sonra, yəni 9 ildən bir icazə verilirdi. Kodeksə görə torpaqların icarəyə verilməsinə o şərtlərlə icazə verilirdi ki, bu əmək icarəsi olsun, yəni icarədar yalnız öz təsərrüfatının gücü daxilində torpaq sahəsi icarəyə götürə bilərdi. Beləliklə, məqsəd torpağın alqı-satqısının qarşısını almaq və icarəyə verilən torpaqlardan gələn bütün gəlirlərə nəzarət etmək idi. Torpaq kodeksində kəndli təsərrüfatlarında əmək norması və əmək müdafiəsi qanunlarına riayət etməklə köməkçi muzdlu əməyin tətbiqinə icazə verilirdi. Kənddə əvvəllər mövcud olan ərzaq, ümumvətəndaş, həyətbaşına pul və at-araba vergiləri ləğv olunur, yeganə kənd təsərrüfatı vergisi tətbiq olunurdu. Bu vergi ilə az əmlak sahibi olan kəndlilərə və qırmızı qvardiyaçı ailələrə güzəştlər nəzərdə tutulurdu. Atı olmayan və az əmlak sahibi olan kəndlilərin 20%-i tamamilə vergidən azad olunurdu.

Torpağın milliləşdirilməsi və kənd təsərrüfatı məhsullarının satışından əldə edilən gəlir hesabına yoxsul kəndlilərin sayı azalmağa, ortabablar isə artmağa başladı. Beləliklə, hərbi kommunizm dövründə sayları artan yoxsul kəndlilər yeni iqtisadi siyasət dövründə azalmağa başladılar. 1924-cü ilin əvvəllərində aclıq və onun ağır nəticələrinə baxmayaraq yoxsul kəndlilərin ümumi çəkisi muzdurlarla birlikdə kənd əhalisinin üçdə bir hissəsinə qədər aşağı düşmüşdür. 1920-ci ilin ortalarına doğru ortabab kəndlilər kəndin mərkəzi simasına çevrildilər. Ortabablar kəndli təsərrüfatlarının 60%-dən çoxunu təşkil edirdi ki, bu da inqilabdan əvvəlki dövrlə müqayisədə üç dəfə çox idi. Kənddəki vergi siyasəti sinfi xarakter daşıyırdı. Kəskin surətdə artan kənd təsərrüfatı vergisinin əsas ağırlığı ortababların və varlı kəndlilərin üzərinə düşürdü. 1923-cü ildə iri təsərrüfatlardan alınan vergi onların gəlirinin 35-40%-ni təşkil edirdi. Yeni iqtisadi siyasət kənddə məhsul istehsalının atrmasına səbəb oldu. 1925-ci ildə bərpa edilmiş əkin sahələrindən müharibədən əvvəlki Rusiyadakı orta göstəricidən 20,7% çox taxıl toplandı. Sənayenin kənd təsərrüfatı xammalı ilə təchiz olunması yaxşılaşdı.

Yeni iqtisadi siyasət əvvəl kənd təsərrüfatında həyata keçirildi, sonra isə sənaye və ticarətə tətbiq edildi. Ərzaq sapalağını ərzaq vergisi ilə

əvəz edilməsi bazarın sənaye malları ilə təmin edilməsini tələb edirdi. Qərbdən böyük həcmdə kredit ala bilməyən Sovet dövlətinin xaricdən mal idxal etmək ümidi boşa çıxdı. Dövlətin isə mal ehtiyatı yox idi. Bu, hakimiyyəti adi ticarət qaydası ilə mal mübadiləsi təşkil etməyə məcbur etdi. Xırda müəssisələrin milliləşdirilməsi dayandırıldı, xüsusi mülkiyyət və icarə əsasında belə müəssisələrin yaradılmasına icazə verildi. 1921-1922-ci illərdə 10 mindən çox xüsusi müəssisə meydana gəldi. Çox halda belə müəssisələr istehsal edilən məhsulun 10-15%-i müqabilində 2-5 il müddətinə keçmiş sahiblərinə icarəyə verilirdi. 20-ci illərin ortalarında belə müəssisələr sənaye məhsulunun 27%-ni istehsal edirdi.

Sovet hakimiyyəti xarici iş adamlarına müəssisələri icarəyə götürmək və konsessiya təşkil etmək hüququ verdi. Xüsusi kapitalla yanaşı, dövlətin iştirak edə biləcəyi qarışıq cəmiyyətlərin təsis edilməsi də nəzərdə tutulurdu. Lakin Rusiyanın əvvəlki borclarını ödəməkdən imtina edən bolşevik hakimiyyətinə xarici kapital güvənmədiyinə görə konsessiyalar geniş miqyas almadı. 20-ci illərin ortalarında sənaye məhsulunun yalnız 1,5%-i konsessiyalara məxsus idi. Bir çox sovet xadimi, o cümlədən L.D.Trotski, Q.Y.Zinovyev, G.V.Çiçerin, F.E.Dzerjinski, E.M.Sklyanski konsessiyaçı olmuşdur.

Böyük kapital qoyuluşu tələb etməyən ticarətdə xüsusi bölmə daha sürətlə inkişaf etdi. Qısa müddət ərzində çoxlu mağaza, restoran, kafe açıldı, rəflər müxtəlif çeşidli mallarla doldu. Qısa zamanda varlanan aşağı mədəni səviyyəli yeni mülkiyyətçilər olan «nepmanlar» 1923-cü ildə pərakəndə ticarətin 75, topdansatış ticarətin isə 18%-nə nəzarət edirdilər.

Dövlət müəssisələri də yeni şəraitlə üzləşdilər. Son dərəcə ağır iqtisadi vəziyyət dövlətə imkan vermirdi ki, milliləşdirilən müəssisələri xammal və yanacaqla təmin etsin. Odur ki onların təsərrüfat hesabına keçirilməsi haqqında qərar qəbul olundu. Özünütəmin, özünümaliyyələşdirmə və özünüidarə onun əsas prinsipi oldu. 1921-ci ilin yayında təsərrüfat hesablı trestlər meydana gəldi. Bir neçə müəssisəni birləşdirən trestlər banklarda hesabı olan hüquqi şəxs kimi qeydə alınırdı. Dövlətin maliyyə vəsaitindən istifadə etməyən trestlər qanunla müəyyən olunmuş vergi və ödənişi ödədikdən sonra öz gəlirlərinin qalan hissəsinin bir qismini işçilərin əməkhaqqı kimi sərf edir, yerdə qalan hissə isə istehsalın inkişafına və başqa işlərə sərf edilə bilərdi. Trestlər könüllü surətdə alış və satışla məşğul olan sindikatlarda birləşə bilərdilər. Artıq 1922-ci ilin sonuna doğru bütün sənaye müəssisələrinin 90%-i 421 trestdə birləşmişdi ki, bunların da 80%-i sindikatları əhatə edirdi. Praktik olaraq dövlət AXTŞ timsalında müəssisələrin idarə edilməsi və trestlərin təsərrüfat müstəqilliyinin məhdudlaşdırılmasında mühüm rol oynayırdı.

Yeni İqtisadi Siyasətə (YİS) keçilməsi ilə əlaqədar olaraq müəssisələrin işçi qüvvəsi ilə komplektləşdirilməsi sistemi dəyişdirildi. Əmək səfərbərliyi yerinə azad işçi qüvvələrin olduğu əmək birjaları yaradıldı. Əməkhaqqının bərabər səviyyədə ödənilməsi qaydası ləğv edildi. İşçilər öz ixtisasına və istehsal etdiyi məhsulun keyfiyyətinə görə əməkhaqqı almağa başladılar. 1922-ci ildə kart sistemi ləğv edildi. Yeni iqtisadi siyasətin bütün çətinlik və ziddiyyətlərinə baxmayaraq, sənayedə tezliklə müsbət nəticələr əldə edildi. Metal sənayesi istisna olmaqla, bütün sənaye sahələri 1923-1924-cü təsərrüfat ilini gəlirlə başa vurdu. İşçilərin öz əməyinə münasibəti müsbətə doğru dəyişdi, əmək məhsuldarlığı artdı. Müharibə və böhran illərində bağlanan müəssisələr işə salınır, onların maddi bazası bərpa edilirdi.

«Hərbi kommunizm»dən yeni iqtisadi siyasətə keçilməsi ilə müxtəlif iqtisadi ukladların, o cümlədən patriarxal, xırda mülkiyyət, xüsusi kapitalizm, dövlət kapitalizmi və sosialist formalarının tətbiq olunduğu cəmiyyətin dəyişdirilməsinin inqilabi metodunun təkamül yolu seçilmiş oldu. «Dövlət kapitalizmi» hökumətin nəzarəti altında xüsusi kapitalın kooperasiya, icarə, konsessiya, ticarət formalarının tətbiq edilməsi demək idi. Nəzərdə tutulurdu ki, dövlətin köməyi nəticəsində tədricən yüksək sosialist ukladını müdafiə edərək digərlərini sıxışdırmaq zəruridir.

Yeni iqtisadi siyasətin strateji məqsədi şəhərlə kənd arasında təsərrüfat əlaqələrini bərpa edib, fəhlə sinfi ilə kəndlilərin ittifaqını möhkəmləndirərək, sosializm qurmaq idi. YİS-in mahiyyəti partiya və sovet rəhbərliyinin əlində mühüm vasitələri saxlamaqla müəyyən səviyyədə bazar iqtisadiyyatını canlandırmaqdır. Yeni iqtisadi siyasətin 1921-1925-ci illəri əhatə edən başlanğıc mərhələsi xalq təsərrüfatının bərpası və iqtisadiyyatın yenidənqurma mərhələsinə keçilməsi ilə bağlıdır.

Yeni iqtisadi siyasətin tətbiq olunmasında Xalq Maliyyə Komissarı Q.Y.Sokolnikovun başçılığı altında bir qrup köhnə mütəxəssisin, o cümlədən inqilaba kimi Peterburqdakı Sibir ticarət bankının direktoru V.V.Tarnovski, 1905-1906-cı illərdə torpaq işi və torpaqşünaslıq naziri olmuş N.N.Kutler, görkəmli iqtisadçı alimlər N.D.Kondratyev və L.N.Yurovskinin həyata keçirdiyi pul islahatı mühüm rol oynadı. Hərbi kommunizmdən YİS-ə çoxlu miqdarda qiymətdən düşmüş və pis vəziyyətdə olan kağız pullar miras qalmışdı. Hiperinfilyasiya və aclıq 1921-ci ilin oktyabrından 1922-ci ilin mayına kimi pərakəndə qiymətlərin 50 dəfə artmasına səbəb oldu. Bu paralel olaraq yeni pul nümunələrinin dövriyyəyə buraxılmasında həlledici rol oynadı. 1922-ci ilin sonunda Dövlət Bankı 1, 2, 3, 5, 10, 25 və 50 çervonluqları (çervon 10 rubla bərabər idi) və 1 çervonluq qızıl sikkələri dövriyyəyə buraxdı. 1924-cü ildə

qiymətdən düşən pullar möhkəm valyuta olan qızıl çervona dəyişdirilməyə başlandı. Qızıl çervon sikkə inqilabdan əvvəlki qızıl 10 rublluq sikkələrin dəyərində idi və dünya bazarında 1927-ci ilə kimi 6 ABŞ dolların dəyərindən çox qiymətləndirilirdi. Çervon çox böyük pul nişanı olduğu üçün daha kiçik xəzinə nişanlarına ehtiyacı var idi. Odur ki, 1, 3 və 5 rublluq dövlət xəzinə nişanları buraxıldı. Bir qızıl rubl 1923-cü ilin pul nümunəsinin 50 mln. rubluna, 1921-ci ilin nümunəsinin isə 50 mln. rubluna dəyişdirildi. 1924-cü il fevralın 14-dən sovet nişanəli pulların çap edilməsi, martın 2-dən isə dövriyyəyə buraxılması dayandırıldı. Pul islahatının başa çatması ilə ölkənin ərazisinin böyük hissəsində dövriyyəyə SSRİ-nin gerbi olan yeni «çervon» (onluq) nümunələri buraxılmışdır. Pul islahatı milli valyutanın dəyər qazanmasına və onun qiymətdən düşməsinin qarşısını almağa şərait yaratdı.

Ərzaq sapalağından imtina edilməsi kəndlilərin vəziyyətini yaxşılaşdırdı, amma onların tələblərini tam qane etmədi. Onlar icarə və muzdlu əməyə tətbiq olunan məhdudiyyətlərin ləğv olunmasını istəyirdilər. Çünki bunsuz kənd təsərrüfatının inkişaf etdirilməsi mümkün deyildi. 1923-1924-cü illərdəki məhsul qıtlığı və böhran ölkədə kəndli həyəcanlarının yayılmasına səbəb oldu. Belə bir şəraitdə kənd təsərrüfatı vergisini azaldan, muzdlu əməyi qanuniləşdirən, torpaq üzərində icarə müddətini uzadan, ticarətə əngəl olan çoxlu sədlərin aradan qaldırılmasını nəzərdə tutan N.İ.Buxarinin ideoloqu olduğu «kəndlinin yeni iqtisadi siyasəti» kursu elan olundu. Bu kənddə ortabab və varlı kəndlilərin müdafiə edilməsi demək idi. N.İ.Buxarin yazırdı: «Bizdə şəhərdə yeni iqtisadi siyasət var, bizdə şəhərlə kənd arasındakı münasibətdə yeni iqtisadi siyasət var, ancaq bizdə, demək olar ki, kəndin özündə yeni iqtisadi siyasət yoxdur». O belə bir şüar irəli sürdü: «Yığın, varlanın, öz təsərrüfatlarınızı inkişaf etdirin!»

Gimnaziya müəlliminin oğlu olan, Moskva Universitetinin hüquq fakültəsində təhsil almış Nikolay İvanoviç Buxarin (1888-1938) Leninin Rusiyada sosializm nəzəriyyəsinə əsaslanaraq fəhlə və kəndlilərin ittifaqını qoruyub-saxlamaqla «kəndlilərin tədricən sosializmə qovuşması» ideyasını irəli sürdü. Əslində, bu, Leninin bir ölkədə sosializmin qələbəsinin mümkünlüyü haqqında ideyasının inkişaf etdirilməsi idi. Ona görə də yeni iqtisadi siyasət sosializmə aparan magistral yol idi. Bu yol kəndli təsərrüfatının inkişaf etdirilməsi və onun sayəsində ümumi iqtisadiyyatın canlandırılması demək idi. Kəndin texniki geriliyini aradan qaldırmaq məqsədilə dövlətin müdafiə etdiyi kəndlilər istehsalat və bölgü kooperativlərində birləşərək sosialist iqtisadiyyatına doğru yavaş-yavaş hərəkət etməli idilər. Bu prosesin bir neçə onillik ərzində başa çatması nəzərdə tutulurdu. XKS sədri A.İ.Rıkov, Həmkarlar İttifaqının sədri

M.P.Tomski, AXTŞ sədri F.E.Dzerjinski Buxarinin tərəfdarları idi. N.İ.Buxarinin və onun tərəfdarlarının görüşləri tarixçilər tərəfindən sağ kommunizm təmayülü adlandırılmışdır.

Torpaq sahibi ailəsindən olan, sosial-demokratik hərəkatın öncülü, 1917-ci ildən bolşeviklər partiyasının üzvü, Oktyabr silahlı üsyanın və Qızıl Ordunun təşkilatçısı və rəhbərlərindən biri olan Trotski (Bronşteyn) Lev Davıdoviç (1879-1940) sol istiqamətin rəhbəri idi. Hələ 1923-cü ildə toplanan XII partiya qurultayında Trotski «sənaye diktaturasını» qurmağı tələb etdi. Sənaye mallarının yüksək qiyməti ilə kənd təsərrüfatı məhsullarının aşağı satış qiyməti «qayçı» siyasəti kimi xarakterizə edilir. Sənaye mallarının azlığı Trotskiyə görə iqtisadi balansın pozulmasının əsas səbəbi idi. L.D.Trotski və onun tərəfdarları olan Y.A.Preobrajenski və Q.L.Pyatakov belə hesab edirdilər ki, iqtisadi cəhətdən geri qalan və düşmən əhatəsində olan ölkədə sənayeni inkişaf etdirmək üçün vacib olan vəsaiti xüsusi bölmədən, əsasən də kənd təsərrüfatından dövlət, yəni sosialist bölməsinə yönəltməklə əldə etmək olar. Bu məqsədə varlı kəndlilərin üzərinə qoyulan vergilərin artırılması və bərabər olmayan mal mübadiləsi vasitəsilə nail olmaq mümkündür.

1923-cü ildə bir çox sıravi partiya üzvünün mövqeyini ifadə edən L.D.Trotski və onun tərəfdarları partiya liderlərini inqilabi ideallara xəyanət etməkdə təqsirləndirərək onların ölkənin sosial-iqtisadi çətinliklərində əsas günahkarlar olduğunu iddia edirdilər. Trotskiyə görə partiyada fraksiya fəaliyyətini bərpa etmək və geniş partiyadaxili diskussiyalara başlamaq vacib idi. O bu fikir mübadiləsindən qalib çıxmaq ümidində idi. Əslində onlar yeni iqtisadi siyasətdən əl çəkərək «hərbi kommunizm» siyasəti metodlarına keçməyi təklif edirdilər.

İ.V.Stalin, L.B.Kamenev və Q.Y.Zinovyev kimi partiya rəhbərlərinin isə ölkənin iqtisadi inkişafı ilə bağlı dəqiq mövqeləri yox idi. Onların məqsədi hakimiyyət uğrunda mübarizə olduğu üçün öz qərarlarında siyasi strategiyaya uyğun olaraq təcili addımlar atmağı nəzərdə tuturdular. Belə ki, 1924-cü ilə kimi L.B.Kamenev və Q.Y.Zinovyev L.D.Trotskiyə qarşı İ.V.Stalini müdafiə etdikləri halda, 1925-ci ildən onlar «sol» mövqeyə keçərək L.D.Trotski ilə birlikdə İ.V.Stalin və N.İ.Buxarinə qarşı durdular. İ.V.Stalin isə ustalıqla vəziyyət altında nəzarət saxlayaraq, hər iki tərəf arasında bitərəf hakim rolunda çıxış edib özü üçün hakimiyyətə yol açmaq fikrində idi. Ümumiyyətlə, sosializmin ayrıca götürülmüş bir ölkədə qələbə çalmasının mümkünlüyü haqqında V.İ.Leninin fikrini müdafiə edən İ.V.Stalin ilə permanent inqilab tərəfdarı, yəni dünya miqyasında inqilabın qələbəsinin mümkün olmasını irəli sürən L.D.Trotski arasındakı nəzəri fikir ayrılığı partiya və dövlətdə rəhbər vəzifə tutmaq uğrunda mübarizə cəhdinə görə daha da şiddətli xarakter aldı.

1898-ci ildən sosial-demokratik hərəkatın iştirakçısı olan kustar pinəçi və paltaryuyan qadının oğlu Stalin (Cuqaşvili) İosif Vissarionoviç 1912-ci ildən RSDF(b)P-nin rəhbər heyətinin üzvü, 1922-ci ilin aprelindən isə RK(b)P MK-nın Baş katibi idi. Bolşeviklərin rəhbər vəzifə tutan üst təbəqəsinin hamısı demokratik əqidədən uzaq adamlar idi. L.D.Trotski açıq etiraf edirdi ki, o, demokrat deyil, İ.V.Stalin partiyadaxili demokratiyanı özünün tək başına hakimiyyətinin bərqərar olması yolunda əsas maneə hesab edirdi.

1922-ci il mayın 25-də V.İ.Leninin sağ tərəfinin iflic olması ilə xəstəliyinin birinci tutması oldu. O, yalnız tam olmasa da, sentyabrda işə başlaya bildi. Dekabrın 16-da xəstəliyinin ikinci, 1923-cü il martın 10-da üçüncü tutması ilə Lenin tamamilə siyasi fəaliyyətdən uzaqlaşdı. 1924-cü il yanvarın 21-də V.İ.Lenin vəfat etdi. XKS vəzifəsində onu A.İ.Rıkov əvəz etdi. 1898-ci ildən kommunist, mahir təşkilatçı və praqmatik A.Rıkov həm də xüsusi iddiası olmayan bir şəxs idi. Görünür, bu onun vəzifəyə təyin edilməsində əsas rol oynamışdır. 1922-ci ilin dekabrından başlayaraq Komintern və SSRİ-də real hakimiyyət üçlüyünün, yəni L.Kamenev, Q.Zinovyev və İ.Stalinin əlində cəmləşmişdi. Xəstəlik illərində V.İ.Lenin bir sıra qeyd və məqalələr diktə edərək, öz yerini tuta biləcək namizəd, partiya aparatının yenidən qurulması, yeni iqtisadi siyasətin perspektivləri fikirlərini irəli sürdü. 1922-ci il dekabrın 23-31-də, 1923-cü il yanvarın 4-də diktə etdiyi məqaləsində özünün ən yaxın altı nəfər silahdaşları haqqında fikrini bildirdi. O, haqlı olaraq partiyada sabitlik üçün əsas təhlükəni İ.V.Stalinlə L.D.Trotski arasında rəhbərlik üstündə gedən rəqabətdə görürdü. Birinci, «öz əlində hədsiz hakimiyyət toplamışdır» və Lenin inanmır ki, Stalin «bu hakimiyyətdən daim ehtiyatla istifadə edə bilsin». İkinci, yəni Trotski «doğrudan da hazırkı MK-da ən istedadlı adamdır… lakin özünə son dərəcə güvənən və işin inzibati tərəfinə hədsiz uyan birisidir». On gündən sonra V.İ.Lenin diktə etdiklərinə İ.V.Stalin haqqında bir neçə tənqidi fikir əlavə edir. «Stalin son dərəcə kobuddur, buna öz aramızdakı münasibətlərdə dözmək olar, baş katib vəzifəsində isə kommunistlər üçün bu dözülməzdir. Odur ki mən təklif edirəm ki, yoldaşlar Stalinin bu yerdən dəyişdirilməsi barədə düşünsünlər».

Vladimir İliç Leninin xəstəliyinin üçüncü tutmasından bir neçə həftə sonra RK(b)P XII qurultayı oldu. Qurultayda MK-nın say tərkibinin artırılması, Fəhlə-Kəndli Təftiş komissiyası ilə Mərkəzi Nəzarət komissiyasının birləşdirilməsi haqqında Leninin təklifi qəbul edildi. Yeni yaranan qurumun rəhbərliyinə Stalinə şəxsən sadiq olan V.V.Kuybışev gətirildi. V.İ.Leninin ölümü RK(b)P-nin liderliyi uğrunda rəqabəti, Sovet dövlətinin daxili və xarici siyasətinin əsas prinsiplərinin müəyyənləşdirilməsində mübarizəni daha da qızışdırdı.

1924-cü ilin 23-31 mayında toplanan partiyanın XIII qurultayında Leninin «vəsiyyəti», xüsusilə İ.Stalinin baş katib vəzifəsindən dəyişdirilməsi təklifi müzakirə edildi. Lakin bu qəbul olunmadı. İ.Stalinin istefa ərizəsi də təsdiq edilmədi.

1923-cü il oktyabrın 8-də MK-ya göndərdiyi məktubunda və dekabrın 11-də dərc etdirdiyi «Yeni istiqamət» məqaləsində Lev Davıdoviç Trotski ölkədəki iqtisadi çətinliyin günahkarı kimi «aparatın diktaturasını» səbəb göstərərək partiyadaxili demokratiyanın olmamasını, rəhbərliyin tənqidə dözməməsini və s. məsələləri izah edirdi. 1924-cü il yanvarın 16-18-də partiyanın XIII konfransında L.D.Trotski xəstəliyinə görə iştirak etməməsinə baxmayaraq, bu mövqeyinə görə ciddi tənqid olundu. Trotski və müxalifət bolşevizmə və leninizmə qarşı təftişçilik meyli ilə damğalandı. Konfrans müxalifətin «sənaye» istiqamətli siyasətini rədd etdi və L.D.Trotskinin ən yaxın silahdaşları A.A.İoffe Çinə, N.N.Krestinski Almaniyaya, X.Q.Rakovski İngiltərəyə diplomatik işə göndərildi.

1923-1924-cü ildə İ.V.Stalin Q.Y.Zinovyev və L.B.Kamenevlə birlikdə L.D.Trotskiyə qarşı mübarizə aparırdı. Partiya müzakirələrində L.D.Trotski məğlub olduqdan sonra onun liderliyə iddiaları da heç oldu. İndi hakimiyyətin zirvəsinə iki nəfər Q.Y.Zinovyev və İ.V.Stalin namizəd idi. Xerson quberniyasının xırda sahibkar ailəsindən olan Zinovyev (Radomıslski) Qriqori Yevseyeviç (1883-1936) 1903-cü ildən RSDF(b)P-nin üzvü olaraq bolşeviklər partiyasının rəhbər heyətinə daxil olmuş, 1917-ci ildə silahlı üsyan xəttinə qarşı çıxış etsə də, sonra öz mövqeyini dəyişmişdir. 1917-ci ilin dekabrında Petroqrad sovetinə rəhbərlik etmiş və qırmızı terrorun təşkilatçılarından biri olmuşdur. 1925-ci ilin əvvəlində partiya və dövlətdə liderlik «triumviratdan» (L.Kamenev, Q.Zinovyev, İ.Stalin) «duumvirata», yəni İ.Stalin və N.Buxarinə keçdi. Onların müttəfiqləri isə A.Rıkov və M.Tomski oldu. Yanvarın 5-də «duumvirat» Siyasi Büroda L.Trotskinin həm İnqilabi Hərbi Şuranın (İHŞ) sədri vəzifəsindən, həm də Siyasi Büro üzvlüyündən azad edilməsinə dair L.Kamenev və Q.Zinovyevin təklifinə qarşı onun yalnız İHŞ-nin sədri vəzifəsindən azad edilməsi layihəsini irəli sürdü. 1925-ci ilin yanvarın 17-də RK(b)P MK-nın Plenumu və yanvarın 25-də SSRİ MK-nin Rəyasət Heyəti L.D.Trotskini İHŞ-nin sədri və xalq komissarı vəzifələrindən azad etdi. Onu bu vəzifələrdə L.Kamenev və Q.Zinovyevin namizədi M.V.Frunze əvəz etdi. Onun müavini isə İ.Stalinin tərəfdarı K.Y.Voroşilov təyin olundu. L.Trotski Siyasi Büronun üzvü qalsa da, artıq o, Leninin davamçısı ola bilməzdi.

L.Kamenev və Q.Zinovyev 1925-ci ilin yanvarında ciddi siyasi məğlubiyyətə uğradıqdan sonra «yeni müxalifəti» təşkil edərək itirdikləri rəhbər mövqeyi qazanmaq məqsədilə «duumvirat»la mübarizəyə başladılar. L.Kamenev əvvəlki

kimi Siyasi Büronun müşavirələrinə sədrlik etməsinə baxmayaraq, İ.Stalinlə duetdən tez-tez məğlub olaraq ayrılırdı. L.Trotski isə çəkişmələrdən uzaq durmağa çalışırdı. Aprel ayında «Kommunist İnternasionalının İcraiyyə Komitəsinin genişləndirilmiş Plenumunda Kominternin və RK(b)P-nin vəzifələri haqqında» tezislərinin müzakirəsində «duumvirat»ın bir ölkədə sosializmin qələbəsinin mümkünlüyü haqqında tezisi müxalifət dünya inqilabına xəyanət kimi qiymətləndirdi. Q.Zinovyev təklif etdi ki, qərarda göstərilsin ki, sosializmin qələbəsi yalnız beynəlxalq miqyasda mümkündür. Plenum onun layihəsini rədd edərək elan etdi ki, «sovet cəmiyyətini quraraq inanırıq ki, bu quruculuq baş tutacaq və çox güman ki, qalibiyyətlə başa çatacaq». Buna baxmayaraq müxalifət təkid edirdi ki, geri qalmış Rusiyada sosializm quruculuğu «milli sosializmdir», proletar beynəlmiləlçiliyinə xəyanət isə bu ideya tərəfdarlarının milli məhdudluğudur.

Hakimiyyət uğrunda mübarizəni kəskinləşdirən İ.V.Stalin Q.Y.Zinovyevi «partiya diktaturası»nı «proletariat diktaturası» ilə qarışdırdığına görə, L.B.Kamenevi Rusiyada sosializmin mümkün olmaması iddiasına görə tənqid etdi. Leninqrad partiya təşkilatına rəhbərlik edən Q.Y.Zinovyev «Leninizm» əsərini yazaraq göstərdi ki, Lenin daim yeni iqtisadi siyasətə strateji cəhətdən geri addım kimi baxaraq kəndlilərin «varlanmasını» sosializmə gedən yol kimi təsəvvür etmirdi. Sentyabrın 5-də Q.Y.Zinovyev, L.B.Kamenev, Q.Y.Sokolnikov və N.K.Krupskaya «dördlər platforması»nı imzalayaraq «yeni müxalifəti» yaratdılar. «Yeni müxalifət»in lideri Q.Y.Zinovyev iddia edirdi ki, onun rəhbərlik etdiyi partiya təşkilatı Lenin irsinə Moskva partiya təşkilatından daha yaxındır, bu isə Leninqrad proletariatının keçmişi və mütəşəkkilliyi ilə bağlıdır. Belə ifadə, təbii ki, MK-nın Katibliyini və şəxsən İ.V.Stalini qıcıqlandırmaya bilməzdi.

1925-ci il dekabrın 18-31-də partiyanın XIV qurultayında İ.V.Stalin hesabat məruzəsində «sağlar», yəni buxarinçilər və «sollar» yəni zinovyevçilər arasında bitərəf hakim kimi çıxış etdi. N.Krupskaya və L.Kamenevin çıxışları vəziyyəti mürəkkəbləşdirdi. Xüsusilə L.Kamenev İ.Stalini «diktə» etməkdə təqsirləndirərək elan etdi ki, o, bolşevik rəhbərliyində birliyi saxlamağa qadir deyil və «rəhbərin ideyalarının əleyhinədir». Odur ki, «təklif edirəm, o, vəzifəsinə təkrar seçilsin». Stalinin yenidən seçilməsinə dair təklif qəbul edilmədi. Qurultaydan sonra Siyasi Büronun üzvlüyünə qəbul edilən V.M.Molotovun sədrliyi ilə Leninqrad partiya təşkilatının işini qaydaya salmaq məqsədilə komissiya yaradıldı. Bir ay ərzində yerli partiya təşkilatları «istiqamətləndirildikdən» sonra kommunistlərin 96%-nin səsi ilə Q.Zinovyev vəzifədən azad edildi. Bakıdan çağırılan S.M.Kirov Leninqrad partiya təşkilatının

katibi seçildi. Beləliklə, ÜİK(b)P-nin XIV qurultayında «yeni müxalifət» məğlub edildi.

1926-cı il yanvarın 15-də Moskva Soveti İcraiyyə Komitəsi Rəyasət Heyətinin sədri L.Kamenevi vəzifəsindən azad etdilər. Martın 26-da Q.Zinovyevi 1917-ci ilin dekabrından tutduğu Leninqrad İcra hakimiyyətinin ali orqanı olan Lensovetin rəhbərliyindən uzaqlaşdırdılar. 1920-ci illərin birinci yarısında sosializm quruculuğunun Lenin yolunun düzgün müəyyən edilməsi və vahid ideya birliyinin bərqərar edilməsi pərdəsi altında gedən partiyadaxili müzakirələrdə İosif Vissarionoviç Stalinin şəxsiyyətinə pərəstişin başlanmasının ilk kərpicləri qoyuldu.

### §3. SSRİ-nin yaranması

Vladimir İliç Lenin və bolşeviklər partiyasının digər rəhbərləri milli məsələni heç vaxt birincidərəcəli məsələ hesab etmirdilər. Rusiyadakı millətlərarası ziddiyyətləri onlar mütləqiyyətin siyasətinin nəticəsi olduğuna inanırdılar. Belə hesab edirdilər ki, süni surətdə pravoslavların, xüsusilə rusların güzəştli vəziyyətinin təmin olunması başqa xalqların arasında narazılığa səbəb olub. Bolşeviklər öz təbliğatlarında elan edirdilər ki, mülkədar və burjuaziya sinfinə qarşı mübarizədə rus proletariatının və ölkənin ucqarlarının əhalisinin maraqları üst-üstə düşür və hakim siniflərin devrilməsi, sosialist inqilabının qələbəsi milli məsələdəki gərginliyi aradan qaldıracaq.

1917-ci il Oktyabr silahlı üsyanından sonra V.İ.Lenin Rusiyada federativ dövlət yaratmaq ideyasını irəli sürdü. Bu ideya 1918-ci ilin yanvarında elan edilən «Zəhmətkeş və istismar olunan xalqın hüquq Bəyannaməsi»ndə və 1918-ci ilin iyulunda qəbul edilən RSFSR-in Konstitusiyasında öz əksini tapdı. Rusiyanın tərkibində muxtar respublika və vilayətlər yaradıldı. Artıq Vətəndaş müharibəsi illərində və ondan sonrakı ilk vaxtlarda ölkədə 13 muxtar respublika və 16 muxtar vilayət yaradıldı.

Polşa, Finlandiya və Baltikyanı ölkələr milli dövlət kimi müstəqil oldular. Bessarabiyanı Rumıniya işğal etdi. 1919-cu ilin fevralında əsasən ruslardan ibarət olan yerli bolşeviklərin təşəbbüsü ilə sovetlər qurultayı Belorusiya və Litvanın vahid ittifaqda birləşməsi haqqında qərar qəbul etdi.

Brest-Litovsk sülhünə əsasən, Batum, Qars və Ərdahanın Osmanlı dövlətinə verilməsi Cənubi Qafqazın ayrılmasına səbəb oldu. 1918-ci il aprelin 25-də Zaqafqaziya Respublikası elan edildi. Bir aydan sonra Gürcüstanda

menşeviklərin, Ermənistanda daşnakların, Azərbaycanda müsavatçıların rəhbərlik etdiyi mili dövlətlər yarandı. 1920-ci ilə kimi mürəkkəb daxili və xarici vəziyyət bolşevikləri Cənubi Qafqaza ehtiyatla yanaşmağı məcbur edirdi. Vətəndaş müharibəsinin sonunda ingilislərin iqtisadi və strateji cəhətdən mühüm mövqe tutan bu regiondan getməsi bolşeviklərin yenidən buranı tutmasına gətirib çıxardı. 1920-ci ilin aprelində Qızıl Ordunun köməyi ilə yerli bolşeviklər Müsavat hökumətini devirib sovet hakimiyyətini qurdular. 1920-ci ilin noyabrında Ermənistanda sovet hakimiyyəti qələbə çaldı. 1921-ci il fevralın 12-də Qızıl Ordu Gürcüstan sərhədini keçdi, fevralın 25-də Tiflisdə Sovet Respublikası elan olundu. Sözdə xalqların öz müqəddəratını təyin etmək hüququnu elan edən Sovet dövləti Ukrayna taxılını, Bakı neftini və Qafqazın filiz mədənlərini özünə tabe etmək məqsədilə bu regionları zəbt etdi.

1918-ci ildən 1922-ci ilə kimi ittifaqın inkişafı iki istiqamətdə, birincisi, muxtar respublika və vilayətlərin Rusiya Federativ Respublikasının tərkibinə daxil olması, ikincisi, nəzəri cəhətdən müstəqil olan respublikaların Rusiya Federativ Respublikası ilə ikitərəfli müqavilələr bağlanması yolu ilə davam edirdi.

1918-ci il martın 23-də İ.V.Stalinin başçılıq etdiyi Milli İşlər üzrə Xalq Komissarlığı M.X.Sultan-Qəliyev (1894-1938) və Əhməd-Zəki Vəlidovun (1890-1970) başçılığı ilə Cənubi Ural və Orta Volqaboyunda Tatar-Başqırd Muxtar Sovet Respublikasının yaradılması haqqında dekret verdi. Rusiya müsəlmanlarının bir hissəsini birləşdirən bu muxtar qurum RSFSR-in tərkibinə daxil edilməklə bərabər, S.Qəliyevin təşəbbüsü ilə RK(b)P-nin müsəlman təşkilatı və əsasən tatarlardan ibarət olan müsəlman Qızıl Ordu dəstələrinin yaradılmasına başlandı. Əslində Sultan-Qəliyev və Əhməd-Zəki Vəlidov müsəlman Tatar-Başqırd Respublikasının Şərqin mərkəzində inqilab məşəli yandıran bir yerə çevirmək niyyətində idilər. Pantürkçülük ideyalarından qorxuya düşən mərkəzi hakimiyyət 1920-ci il mayın 22-də yeni dekretlə Tatar-Başqırd Respublikasının hüquqlarını məhdudlaşdırdı, böyük müsəlman dövləti yerinə iki kiçik muxtar respublika yaradıldı. Milli kommunist təşkilatları və milli Qızıl Ordu dəstələri ləğv edildi. Şərqin ilk böyük mili kommunist rəhbərlərindən biri S.Qəliyev 1923-cü ilin mayında «millətçilik təmayülü» ilə damğalanaraq həbs edildi.

Müsəlman məktəblərində müəllimlik edən Əhməd-Zəki Vəlidov Başqırdıstan İnqilab Komitəsinin sədri olduğu üçün Şərq cəmiyyətinin reallığını nəzərə alaraq, RSFSR tərkibində müsəlman Başqırdıstanına xüsusi status verilməsini müdafiə etdiyi üçün millətçilikdə təqsirləndirildi və Türkiyəyə mühacirətə getməyə məcbur oldu. Nəticədə, ölkə İstanbulda İslam Tədqiqatlar İnstitutunu yaradan görkəmli türkoloqdan məhrum oldu.

Ümumiyyətlə, 1918-1922-ci illərdə RSFSR-in tərkibində çoxlu muxtar qrum meydana gəlmişdir. 1918-ci ilin aprelində Türküstan MSSR, 1918-ci ilin oktyabrında Volqaboyu almanlarının Əmək Kommunası, 1919-cu ilin martında Başqırdıstan MSSR yaranmışdır. 1920-ci ildə Tatarıstan MSSR, Kareliya Əmək Kommunası, Çuvaş MV, Qırğızıstan (1925-ci ildən Qazaxıstan) MSSR, Votsk (1932-ci ildən Udmurt) MV, Mari və Kalmık MV, Dağıstan və Dağlı MSSR; 1921-ci ildə Komi (Zıryan) MV, Kabardin MV, Krım MSSR; 1922-ci ildə Qaraçay-Çərkəz MV, Monqol-Buryat MV, Kabardin-Balkar MV, Yakutiya MSSR, Oyrot (1948-ci ildən Dağlıq-Altay) MV, Çərkəz (Adıgey) MV, Çeçen MV meydana gəlmişdir. Cənubi Qafqazda Azərbaycanın ərazisində 1920-ci ildə Naxçıvan Sovet Respublikası, 1921-ci ildə Gürcüstan ərazisində Acar MSSR, 1922-ci ildə Cənubi-Osetiya MV təşkil olunmuşdur. 1921-ci ildə Abxaziya SSR yaradılmışdır.

1926-cı il siyahıyaalma məlumatına əsasən SSRİ-də olan 185 millət və xalqın 1922-ci ilin sonunda yalnız 30-nun bu və ya başqa formada dövlət strukturu mövcud idi. Kiçik xalqların böyük əksəriyyəti federasiya quruluşuna laqeyd yanaşaraq, əvvəlki statuslarında dinc yaşayırdılar. SSRİ-nin yaranması ərəfəsində milli qurumlar ölkənin bütün ərazisin əhatə etməsə də, onlara bərabər olan inzibati ərazi vahidləri inqilabaqədərki quberniya, vilayət, qəza və nahiyə bölgüsünün ardıcıllığını təmin etmişdir.

İttifaqın yaradılmasına gedən ikinci yol RSFSR ilə müstəqil respublikalar arasında bağlanan ikitərəfli müqavilələr idi. İkitərəfli müqavilələrin mürəkkəb sistemi tədricən müstəqil respublikaların hüquqlarını məhdudlaşdıraraq onları RSFSR-ə bağlayırdı. 1920-ci ilin sentyabrın 30-da RSFSR-lə Azərbaycan arasında bağlanan müqavilədə ən qısa müddətdə hər iki respublikanın altı sahəsinin, o cümlədən müdafiə, iqtisadiyyat və xarici ticarət, ərzaq, dəmiryol və su nəqliyyatı, poçt və teleqraf, maliyyənin birləşdirilməsi nəzərdə tutulurdu. 1920-ci il dekabrın 28-də RSFSR ilə Ukrayna arasında bağlanan müqavilədə kağız üzərində olsa da, Ukrayna müstəqilliyini qoruyaraq özünün Xarici İşlər Komissarlığını toxunulmaz saxlamışdır. 1921-ci il yanvarda oxşar müqavilə RSFSR ilə Belorusiya arasında bağlandı. Gürcüstanla münasibətlər gərgin olaraq qalırdı. 1921-ci il martın 2-də V.İ.Lenin xüsusi olaraq S.Orconikidzeni Gürcüstana göndərdi ki, orada sovet hakimiyyətinin qurulmasına müəyyən şərtlərlə razı olan yerli menşeviklərlə kompromis qərara gəlsinlər. Lakin buna baxmayaraq, mərkəzi hakimiyyət hər üç respublikanın tezliklə birləşərək RSFSR ilə müqavilə bağlamağa sövq etdi. Gürcü kommunist rəhbərləri F.İ.Maxaradze, M.D.Oraxelaşvili, P.Q.Mdivani Moskva və Qafbüronun bu təklifinə qarşı qətiyyətlə çıxdılar. Buna baxmayaraq, RK(b)P-nin MK ayrı-

ayrı milli respublikalardansa birləşmiş Zaqafqaziyada vəziyyətə nəzarət etməyin daha asan olduğunu nəzərə alaraq, bu ideyanı müdafiə etdi. S.Orconikidze və Qafbüronun təzyiqi ilə 1922-ci il 11-12 martda Tiflisdəki konfransda hər üç respublikanın xarici münasibətlər, müdafiə, maliyyə, xarici ticarət, bütün nəqliyyat və iqtisadiyyatını birləşdirən Zaqafqaziya Respublikalarının Federativ İttifaqı yaradıldı. Azərbaycan, Gürcüstan və Ermənistan bir İttifaqda birləşərək Moskvaya tabe edilməklə bərabər, əslində həm faktiki, həm də formal olan müstəqilliklərini itirdilər.

Göründüyü kimi, vətəndaş müharibəsi illərində müstəqil sovet respublikaları öz aralarında hərbi-siyasi ittifaq, dinc quruculuq dövründə isə hərbi-təsərrüfat müqavilələri bağlayaraq əməkdaşlığı xeyli dərinləşdirdilər. Genuya və Haaqa konfransları ərəfəsində səkkiz müstəqil respublika Azərbaycan, Belorusiya, Ukrayna, Gürcüstan, Ermənistan Sovet Respublikaları, Buxara və Xarəzm Xalq Sovet respublikaları, Uzaq Şərq Respublikası (UŞR) 1922-ci il fevralın 22-də RSFSR-lə saziş bağlayaraq, Genuya konfransında onların mənafeyini təmsil etməyi ona həvalə etdilər. Beləliklə, diplomatik İttifaq sovet respublikasının birləşdirilməsi hərəkatında mühüm mərhələ oldu.

1922-ci ilin yayında V.V.Kuybışevin sədrliyi ilə MK-nın Təşkilat komissiyası oktyabrın 6-na təyin olunan RK(b)P MK-nın Plenumuna «RSFSR-in müstəqil respublikalarla münasibətlərinə dair» qətnaməsində «müxtariyyətləşmədən» bəhs edilirdi. Müvafiq qətnamə layihəsinin hazırlanmasına rəhbərlik edən İ.V.Stalin, güman ki, bu məsələ üzərində çox da düşünməmişdi. Sonradan Stalin muxtariyyətləşmə planı kimi tarixi ədəbiyyatda yer alan qətnamə layihəsinə görə müstəqil Sovet Respublikaları Ukrayna, Belorusiya, Azərbaycan, Gürcüstan və Ermənistan formal olaraq RSFSR-in tərkibinə daxil olur, Buxara, Xarəzm və UŞR-in məsələsi açıq qalaraq onlarla gömrük, xarici ticarət, xarici və hərbi iş və s. sahələrdə müqavilə münasibətləri saxlanılırdı. Komissiyanın qəbul etdiyi sənəd Ukrayna, Belorusiya və Zaqafqaziya respublikalarının rəhbərlərinə göndərilsə də, yekdil müdafiə olunmadı. «Xalqların öz müqəddəratını təyin etmək hüququnu» «proletariat diktaturası»nın, yəni başqa sözlə, Kommunist partiyasının dövlətdə hakimiyyət hüququna tabe olmasına şübhə etməyən yerli partiya və dövlət rəhbərləri federasiya formasının «möhkəm» və «yumşaq» tərəfdarlarına ayrıldılar. F.E.Dzerjinski, S.M.Kirov, V.V.Kuybışev, V.M.Molotov İ.Stalinin təklifini qəbul edərək mərkəz və respublikalar arasında tam və möhkəm qayda-qanun bərqərar olması tərəfdarı idilər. XKS və ƏMŞ-də V.Leninin birinci müavini, Mossovetin sədri L.B.Kamenev, Kommunist İnternasionalı İcraiyyə Komitəsinin sədri, Petroqrad Soveti İcraiyyə Komitəsinin sədri Q.Y.Zinovyev hər iki variant arasında

barışdırıcı mövqe tuturdular. Ukraynada X.Q.Rakovski, N.A.Skrıpnik, Gürcüstanda F.İ.Maxaradze, P.Q.Mdivani, M.S.Okucava, Mərkəzdə L.D.Trotski və N.İ.Buxarin ikinci variantın tərəfdarları kimi müstəqil respublikaların milli müstəqillik atributlarının saxlanılmasını ifadə edirdilər.

1922-ci il sentyabrın 22-də İ.Stalin V.Leninə məktub göndərərk Azərbaycan və Ermənistan partiya rəhbərliyinin «muxtariyyətləşmə arzusunu», Gürcüstan KP MK-nın rəhbərliyinin «formal müstəqilliyi saxlamaq arzusunu» xüsusi vurğulamışdır. Məktubla və digər materiallarla tanış olan V.İ.Lenin sentyabrın 25-də Xivə və Buxaranın da RSFSR-in tərkibinə daxil edilməsi tərəfdarı olan xalq komissarı Q.Y.Sokolnikovla məsələni müzakirə etmişdir. Sentyabrın 26-da İ.V.Stalinlə hərtərəfli söhbət etdikdən sonra V.İ.Lenin surəti bütün Siyasi Büro üzvlərinə göndərilməklə L.B.Kamenevə məktub göndərərək qeyd etdi ki, Stalin çox mühüm məsələnin həllində bir qədər tələsmişdir. Müstəqil respublikaların RSFSR-in tərkibinə daxil edilməsi yerinə söhbət bütün respublikaların formal birləşərək Ukrayna SSR və b. bərabərhüquqlu yeni ittifaq, yeni federasiya, «Avropa və Asiyanın Sovet Respublikalar İttifaqın»dan getməlidir. Məktuba cavab verən L.Kamenev qeyd etmişdir ki, İttifaqı elə təşkil etmək lazımdır ki, formal müstəqillik son dərəcə saxlanılsın, bu məqsədlə müqavilədə hər bir respublikanın birtərəfli qaydada ittifaqdan çıxmaq hüququ belə təsbit olunsun.

Sentyabrın 27-də Gürcüstan XKS-nin sədri P.Q.Midivani, MK-nın üzvləri M.S.Okucava, L.Y.Dumbadze, K.M.Sintsadze, sentyabrın 28-də G.K.Orconikidze, sentyabrın 29-da Ermənistan XKS-nin sədri A.F.Myasnikov ilə görüşən V.İ.Lenin birləşmə məsələsini müzakirə etmişdir. Nəticədə yeni layihədə qeyd olunurdu: «Ukrayna, Belorusiya, Zaqafqaziya Respublikaları Federasiyası və RSFSR arasında «Sovet Sosialist Respublikalar İttifaqı»nıda birləşmək məqsədilə müqavilənin bağlanması zəruri hesab olunsun və onların hər birinin ittifaqın tərkibindən azad çıxmaq hüququ saxlanılsın». Yeni qətnamə layihəsində V.İ.Leninin gözlənilmədən Ukrayna və Gürcüstan «müstəqillərinin» tərəfini tutması ilə «muxtariyyətləşmə planını» tarixə dəfn etdi. SSRİ-nin təşkilinin Lenin-Kamenev layihəsini «milli liberalizm» hesab etməsinə baxmayaraq, İ.V.Stalin onu qane etməyən planı qəbul etməyə məcbur olmuşdur.

SSRİ-nin təşkili ilə əlaqədar olaraq müzakirə, fikir ayrılığı davam etmişdir. Mərkəz «müxtariyyətləşmə» planından geri addım atdıqdan sonra X.Q.Rakoviski Ukraynanın müstəqilliyinin saxlanmasını irəli sürmüşdür. 1922-ci ilin oktyabrın 19-da Gürcüstan KP MK-nın plenumu həmin ilin martında təşkil olunan Zaqafqaziya Federasiyasını real həyata cavab vermədiyi üçün ləğv etməyi təklif etmişdir. Oktyabrın 20-də Zaqafqaziya Diyar Komitəsinin qərarı ilə

Gürcüstan XKS-nın sədri M.S.Okucava vəzifəsindən azad eilmişdir. Buna cavab olaraq oktyabrın 21-də MK-nın bütün üzvləri istefa vermişdir. Noyabrın 20-də Tibilisidə G.Orcenikidzenin mənzilində A.İ.Rikovun Sibirdə sürgün yoldaşı olan A.A.Kabaxidze görüşmək üçün gəlmişdir. Söhbət əsnasında P.Mdivaninin tərəfdarı olan A.Kabaxidze yuxarda işləyən yoldaşların maddi cəhətdən daha yaxşı təmin olunduğunu, Zaqafqaziya bolşeviklərinin rəhbərinin rüşvət kimi ağ at alaraq onu dövlətin hesabna saxladığını dilə gətirərək Orcronikidzeni Stalinin eşşəyi adlandırması Orconikidzenin Kabaxidzeyə əl qaldırması ilə qurtardı. Məsələni araşdırmaq məqsədilə RK(b)P MK-nın katibliyi F.E.Dzerjinskinin sədrliyi ilə komissiya təşkil edərək Gürcüstana göndərmişdir. 1922-ci ilin dekabrında 4 günlük dinləmələrdən sonra komissiya Zaqafqaziya diyar komitəsi və Orconikidzenin siyasi xəttinin doğru olduğunu təsdiq edərək qarşı tərəfi xırda burjua millətçiliyinin təsiri altına düşməsini qeyd etmişdir.

1922-ci ilin dekabrın 10-16-da VII Ümumukrayna, I Zaqafqaziya, IV Ümumbelorusiya sovetlər qurultayı SSRİ-nin təşkil edilməsi layihəsini müzakirə edərək qəbul etdilər. Dekabrın 26-da oxşar qərarı X Ümumrusiya Sovetlər qurultayı qəbul etdi. Dekabrın 29-da Moskvada hər dörd respublikanın səlahiyyətli nümayəndələri konfransda bir araya gələrək İttifaq dövlətinin yaradılması haqqında Bəyannamə və Müqavilənin layihəsini təsdiq etdilər.

1922-ci il dekabrın 30-da toplanan I Ümumittifaq Sovetlər qurultayı SSRİ-nin təşkil edilməsinə dair Bəyannamə və Müqaviləni qəbul edərək respublikalar üzrə proporsional olmaqla, 371 nəfərdən ibarət SSRİ İttifaqının Mərkəzi İcraiyyə Komitəsini seçdi. MİK Sovetlər qurultayı arasında ali səlahiyyətli orqan oldu. M.İ.Kalinin (RSFSR), Q.İ.Petrovski (USSR), N.N.Nərimanov (ZSFSR), A.Q.Çervyakov (BSSR) MİK-in 4 sədri, A.S.Yenyukidze katibi seçildi.

SSRİ-nin Konstitusiya vasitəsilə təsbit olunması 1923-1924-cü ilin yanvarın əhatə edir. Bitinci Ümumittifaq Konstitusiya (Əsas Qanun) layihəsi Rusiya, ZSFSR, Ukrayna və Belorusiya MİK-in sessiyalarında müzakirə edilib bəyənildikdən sonra 1923-cü ilin iyulun 6-da SSRİ MİK-in II sessiyası tərəfindən təsdiq olunaraq fəaliyyətə başlamışdır. İyulun 13-də SSRİ MİK dünyanın bütün xalqlarına müraciət edərək SSRİ-nin yaranması və SSRİ birinci Xalq Komissarları Sovetinin fəaliyyətə başladığını bildirmişdir. Sağalmasına heç bir ümid olmayan V.İ.Lenin hökumətin sədri seçilmişdir. Onun müavinləri L.V.Kamenev (eyni zamanda ƏMŞ-nin sədri), M.D.Oraxelaşvili (ZSFSR XKS-nin sədri), A.İ.Rıkov (AXTŞ-nin sədri), A.D.Tsyurupa (FKİ xalq komissarı), V.Y.Çubar (Ukrayna XKS-nin sədri) təyin olunmuşdur. II Sovetlər qurultayı İttifaq dövlətini müttəfiq suveren respublikaların federasiyası kimi

təşkil edilməsini hüquqi cəhətdən başa çatdırdı. 1924-cü ilin yanvarın 31-də SSRİ Konstitusiyası təsdiq edildi. Bu RSFSR-in 1918-ci il birinci Konstitusiyası kimi sinfi xarakter daşıyırdı. Dövlət hakimiyyətinin ali orqanı elan olunan Sovetlər qurultayı 25 min seçicidən 1 deputat seçən şəhər sovetləri və 125 min seçicidən 1 deputat seçən quberniya sovetlər qurultayının nümayəndəliyindən ibarət idi. Bununla fəhlə sinfinin rəhbər rolu təmin edilmiş olurdu. Çoxdərəcəli olan seçkilərdə seçmək hüququ yalnız zəhmətkeşlərə məxsus idi. Muzdlu əməkdən istifadə edən və yaxud zəhmətsiz gəlir hesabına yaşayan, xüsusi ticarətçilər, rahiblər, bütün dinlərin peşəkar qulluqçuları, sabiq polis və jandarm işçiləri, məhkəmə vasitəsilə seçki hüququndan məhrum edilənlər, ruhi xəstələr seçib-seçilə bilməzdilər. SSRİ-nin yeni Konstitusiyası əsasında müttəfiq və muxtar respublikaların konstitusiyaları hazırlanıb qəbul edilmişdir.

1924-cü il Konstitusiyasının qəbul edilməsilə SSRİ-də təşəkkül tapan iyerarxiya federalizmi xalqların faktiki qeyri-bərabərliyilə izah edilirdi. Belə nəzərdə tutulurdu ki, proletariat milli məsələni uzun zaman, ardıcıl geri qalan xalqlara təsərrüfat, mədəni kömək etməklə onların sosializmə qovuşmasın təmin edərək həll etməlidir. Muxtar vilayət və diyarlar xalqların özünüidarə forması kimi mərkəzi hakimiyyətin müdafiəsinə daha çox ehtiyac duyur. Odur ki, SSRİ xalqları arasında resusların bölgüsü kim zəifdirsə, ona daha çox prinsipi üzrə aparılırdı. Bu isə əhalinin bir hissəsi arasında himayəçilik əhvali-ruhiyyəsi yaradaraq yerli elitanın daha çox etnosiyasi status əldə etməsi istəyi ilə müşayiət olunurdu. Eyni zamanda qanuna əsaslanan seperatizm qorxusu real vəziyyət alırdı.

## §4. Milli dövlət siyasəti

SSRİ-nin Konstitusiyası qəbul edildikdən sonra xalqlar arasında tarixən əmələ gələn iqtisadi, sosial və mədəni sahədəki qeyri-bərabərliyi aradan qaldırmaq milli siyasətin əsas istiqamətini təşkil edirdi. Respublikaların idarəçilik aparatına milli kadrlar yerləşdirildi. Ümumittifaq idarəçilik orqanlarının səlahiyyətlərinin artırılması şəraitində ölkədə bürokratik mərkəzləşmə prosesi gücləndi.

1920-ci illərin ortaları və ikinci yarsında SSRİ-də milli-dövlət siyasəti ölçülü-biçili və dəqiq aparılırdı. Orta Asiya respublikalarında müsəlman din xadimlərinə məxsus vəqf torpaq sahibliyi qalır, köhnə qazı müsəlman məhkəmələri, mədrəsələr fəaliyyət göstərirdi. Dövlət aparatına cəmiyyətin varlı

təbəqəsindən nüfuzlu adamlar cəlb edilirdi. İslama qarşı geniş din əleyhinə kampaniya aparılmırdı. Şimali Qafqazda mübahisəli məsələləri yerli adət və dini hüquq çərçivəsində həll edən şəriət məhkəmələri fəaliyyət göstərirdi. Bununla bərabər, milli yerdəyişmələr və torpaq islahatı sahəsindəki dəyişikliklərin çətinliyi Mərkəzi tez-tez milli təmayülçülərin fəaliyyəti ilə qarşı-qarşıya gətirirdi. Məsələn, 1925-ci ildə Özbəkistan Xalq Komissarları Sovetinin sədri F.Y.Xocayev Orta Asiya respublikalarında nəzərdə tutulan torpaq-su islahatına mane olmaqda və torpaq sahibkarları – bayları müdafiə etməklə ittiham olunmuşdur.

1920-ci illərin ikinci yarısında kapitalist elementlərinin məhdudlaşdırılması və sıxışdırılması, xüsusilə kollektivləşdirməyə keçilməsi milli respublika və muxtar qurumların hüquqlarının sıxışdırılması ilə müşayiət olunmuşdur. Mərkəzi aparat xalqların müstəqilliyini, azadlığı və çiçəklənməsini daha çox onların mədəni-milli inkişafı ilə məhdudlaşdırmağa səy göstərirdi. Lakin bu da müxtəlif təmayül və millətçiliyin meydana çıxmasına sipər çəkməyə qadir deyildir. Məsələn, Ukraynanın Xalq Maarif Komissarı A.Şumski partiya və dövlət aparatının, mədəniyyət idarələrinin ukraynalaşdırılmasını tələb edərək Partiya rəhbərliyin böyük dövlətçilik şovinizmlə zəif mübarizə aparmaqda ittiham etmişdir. A.Y.Şumskinin yazıçı N.Q.Xvılıvin Qərb istiqamətli «Moskvadan uzaq» («Прочь от Москвы») çağırışlarla zəngin əsərlərinə rəğbət göstərməsi onun mövqeyindən xəbər verir.

Bütün bunlara baxmayaraq Oktyabr inqilabından sonrakı sovet milli siyasətinin ana xəttini bir sıra xalqların təsərrüfat, siyasi və mədəni cəhətdən keçmişdən miras qalan faktiki geriliyini ləğv edərək onlara dövlətçilik, mədəniyyət və təsərrüfat cəhətdən Mərkəzi Rusiyaya çatmaq imkanı yaratmaq təşkil etmişdir.

SSRİ-nin təşkil edilməsilə vahid ittifaq dövlətinin meydana gəlib möhkəmlənməsinin birinci mərhələsi başa çatmışdır. Sonradan SSRİ yeni üzvlər hesabına genişlənmişdir. 1923-cü ilin oktyabrında Xarəzm, 1924-cü ilin sentyabrında Buxara Xalq Respublikaları özlərini Sosialist Respublikası elan etdi. 1924-cü ilin payızında bu respublikaların və Türküstan MSSR-in ərazisində milli-ərazi quruculuğu sayəsində yeni Özbəkistan və Türkmənistan İttifaq Respublikaları, Özbəkistanın tərkibində isə Muxtar Tacikistan MSSR meydana gəlmişdir. Eyni zamanda təşkil edilmiş Qara-Qırğız Rusiya Muxtar Vilayəti, 1925-ci ildə Qırğızıstan MV-yə, 1926-cı ildə isə Qırğızıstan MSSR-ə çevrilmişdir. Qaraqalpaq Rusiya Muxtar Vilayəti Qazaxıstan MSSR-in tərkibinə daxil olmuşdur. 1925-ci ilin yanvarında Pamir (Dağlıq Bədəxşan MV) ərazisi Tacikistanın tərkibinə daxil oldu, mayda SSRİ III Sovetlər Qurultayı

Özbəkistan və Türkmənistanı İttifaq Respublikaları hüququnda SSRİ-in tərkibinə qəbul etmişdir. 1929-cu ildə Tacikistan MSSR İttifaq Respublikası statusu almışdır.

Azərbaycanın tərkibində 1923-cü ildə Dağlıq Qarabağ MV, Ukraynanın tərkibində 1924-cü ildə Moldaviya MSSR təşkil olundu. Azərbaycanın tərkibində 1923-cü ildə yaranmış Naxçıvan Muxtar Vilayəti 1924-cü ildə Naxçıvan MSSR-ə çevrildi. 1931-ci ildə Abxaziya SSR Muxtar Sovet Sosialist Respublikası hüququnda Gürcüstanın tərkibinə qəbul edilmişdir.

1924-cü və 1926-cı illərdə RSFSR-in belarusların çoxluq təşkil etdiyi Vitebsk, Qomel və Smolensk quberniyalarının bir hissəsi Belorusiyaya birləşdirilmişdir. RSFSR-in tərkibindəki Buryat-Monqol və Monqol-Buryat Muxtar Vilayəti 1923-cü ildə vahid Buryat-Monqol MSSR-ə çevrildi. Karelya Əmək Kommunası 1923-cü ildə, Volqaboyu Almanlarının Əmək Kommunası 1924-cü ildə, Çuvaş Muxtar Vilayəti 1925-ci ildə Muxtar Respublikalar kimi yenidən təşkil edilmişdir.

1924-cü ilin iyulunda ləğv edilmiş Dağlıq MSSR-in yerində əvvəlcə yeddi milli, o cümlədən Balkar, Vladiqafqaz, Kabardin, Qaraçay, Nazran (İnquş), Çeçen və Sunjen kazak dairələri təşkil olundu. Milli bölünmə nəticəsində 1924-cü ildə İnquş və Şimali Osetiya Muxtar Vilayəti, 1926-cı ildə Qaraçay, 1928-ci ildə Çərkəz MV təşkil olundu. 1922-ci ilə kimi Krasnodar diyarında mövcud olmuş Adıgey (Çərkəz) MV 1928-ci ildə Adıgey MV-yə çevrilmişdir.

Regionların iqtisadi və milli xüsusiyyətlərini nəzərə almadığı üçün 1929-cu ilin sonunda köhnə inzibati quberniya, qəza, nahiyə bölgüsü RSFSR-də rayon, dairə, vilayət, digər ittifaq respublikalarında rayon, dairə ilə əvəz edilmişdir. Köhnə 766 qəza yerinə SSRİ-də 176 dairə təşkil edilmişdir. 1925-ci ildə Komi-Perm milli dairəsi Perm, 1928-ci ildə isə Saransk, 1930-cu ilin yanvarında Mordova Muxtar Vilayəti kimi yenidən təşkil edilmişdir. Rusiyada 33 milli rayon, 110 milli nahiyə, 2930 milli kənd soveti, yaranmışdı. Belə kiçik muxtariyyətlər başqa İttifaq Respublikalarında da təşkil edilmişdi. Bu hər bir millətin iqtisadi, siyasi, mədəni inkişaf imkanlarını tam üzə çıxarmağı təmin etmişdir.

1920-ci illərin sonunda respublikların hüquqlarının məhdudlaşdırılması hesabna İttifaq orqanlarının fəaliyyəti artırılmışdır. İttifaq və ittifaqtabeli respublika müəssisələrinin sayı çoxalmışdır. Kreditlərin verilməsi 1930-cu ildən yalnız İttifaq orqanlarının səlahiyyətlərinə daxil edilmişdir. 1929-cu ildən etibarən respublikaların birbaşa SSRİ MİK-ə müraciət etmək səlahiyyəti ləğv olunmuşdur. Onlar ilkin olaraq yalnız SSRİ XKS-yə müraciət edə bilərdilər.

Bu zaman kəsiyində SSRİ Ali hakimiyyət orqanlarının səlahiyyətləri əsaslı dəyişikliyə məruz qalmışdır. Sovetlər qurultayı getdikcə öz əhəmiyyətini

itirərək, 1927-ci ildən əvvəllər toplanan hər il yerinə 2 ildən bir çağırılmaqa başlandı. Dövlətin mühüm qərarları SSRİ Sovetlər qurultayının və yaxud MİK-in sessiyalarında deyil, rəhbər partiya orqanları tərəfindən qəbul edilirdi. Beləliklə, 1929-cu ildən başlayaraq Sovetlər qururltayı və MİK-in sessiyaları gündən-günə formal və simvolik xarakter daşıyaraq, partiya aparatının tapşırıqlarını yerinə yetirən bürokratik bir quruma çevrilməkdə idilər.

Çox zaman bürokratik metodlarla həyata keçirilən milli-dövlət quruculuğu ideoloji və siyasi məqsəd daşıyırdı. Hər hansı bir qərarın həyata keçirilməsinin məqsədyönlü real mexanizmi yox idi, çox vaxt ərazidə yaşayan əhalinin etnik tərkibi lazım olan səviyyədə nəzərə alınmırdı. Bununla yanaşı, əvvəllər öz dövlətləri olmayan xalqlar onu əldə etməklə həyata keçirilən milli-dövlət quruculuğu prosesini sovet hakimiyyətinin xidməti kimi qiymətləndirərək özlərinin iqtisadi və mədəni inkişafını onunla bağlayırdılar.

Beləliklə, vahid İttifaq dövlətinin yaradılması ölkənin iqtisadi və hərbi gücünü artırdı, keçmiş Rusiya İmperiyasının milli ucqarlarında yaşayan xalqların sənaye və mədəni inkişafı üçün geniş üfüqlər açdı. Eyni zamanda bu proses milli dövlətçiliyin yaranmasına mane oldu, belə ki federativ əsasda Sovet İttifaqının yaradılması deklarativ xarakter daşıyırdı, respublikaların İttifaqdan azad surətdə çıxmaq hüququ isə yalnız kağız üzərində idi. Ölkənin İttifaq və muxtar respublikalara bölünməsi həddən ziyadə mərkəzləşdirilmiş dövlətin yaradılmasına mane ola bilmədi. Belə bir şəraitdə milli mədəniyyətlərin deformasiyaya uğraması qaçılmaz oldu. SSRİ çərçivəsində mili məsələləri problemsiz həll etmək mümkün olmadı ki, bu da 90-cı illərin əvvəllərində SSRİ adlanan nəhəng qurumun dağılmasının başlıca səbəblərindən biri oldu.

# XXII FƏSİL
# SSRİ 20-ci İLLƏRİN İKİNCİ YARISI – 30-cu İLLƏRDƏ

## §1. Sənayeləşdirmə siyasəti

20-ci illərin ikinci yarısında aqrar ölkəni sənaye dövlətinə çevirmək, onun iqtisadi müstəqilliyini təmin etmək və müdafiə qabiliyyətini möhkəmləndirmək iqtisadi sahədə qarşıda duran əsas vəzifə idi. ÜİK(b)P-nın XIV qurultayı 1925-ci ilin dekabrın 18-31-də ümumi cizgilərlə olsa da, öz qərarlarında sənayenin inkişaf etdirilməsinin zəruri olmasından bəhs edərək, tarixə sənayeləşdimə qurultayı kimi daxil olmuşdur. Xalq təsərrüfatının inkişaf etdirilməsi vəzifəsini irəli sürən qurultayın qərarında qeyd edilirdi ki, «SSRİ-nin iqtisadi müstəqilliyini təmin etmək, SSRİ-ni dünya kapitalist təsərrüfatının əlavəsinə çevrilməkdən qorumaq üçün ölkəni sənayeləşdirmə istiqamətinə yönəltmək, istehsal vasitələri istehsalının inkişafını və iqtisadiyyatda hərəkət etmək məqsədilə ehtiyatların yaradılmasını təşkil etmək vacibdir». Qurultaydakı müzakirələr göstərdi ki, SSRİ maşın və avadanlıq idxal edən ölkədən onu istehsal edən ölkəyə çevrilməlidir. Texniki cəhətdən yenidən qurulan sosialist sənayesinin yaradılmasına xüsusi diqqət ayrılmışdır.

1926-cı ilin aprelində olan ÜİK (b)P MK-nın plenumunda əsasən sənayeləşdirmənin həyata keçirilməsi üçün lazım olan yığım mənbələrindən bəhs edən təsərrüfat siyasəti məsələləri mükazirə edildi. MK-dan əsas məruzəçi olan A.İ.Rıkov qeyd edirdi ki, sənaye siyasətinin uğuru onun öz daxili mənbələrindən asılıdır. A.Rıkova görə fəhlələrə kömək edən kəndlilər sayəsində kənd sənayenin sürətlə inkişaf etməsi üçün əsas yığım mənbəyinə çeviriləcək, amma ondan inqilaba kimi əldə ediləndən az almaq lazımdır. 1926-cı ildə yaranan trotski-zinovyevçi müxalifətin adından plenumda L.D.Trotski çıxış edərək A.Rıkovu onda təqsirləndirdi ki, o, sənayeləşdirmənin sürətlə həyata keçirilməsinin zəruruiliyini və kəndin sənayeləşdirmə üçün əsas yığım mənbəyi olması imkanını lazımınca qiymətləndirməmişdir. Q.Y.Zinovyev, L.B.Kamenev, Q.L.Pyatakov və b. bu ruhda çıxış etdilər. Lakin İ.V.Stalin başda olmaqla, plenum üzvlərinin böyük əksəriyyəti A.Rıkovu müdafiə etdi. L.V.Stalin «sosializm quruculuğu üçün zəruri olan sənaye inkişafının minimum həddi» tezisini əsaslandıraraq elan etdi ki, «sənaye tədricən kəndin güzəranının yüksəlməsinə əsaslanmalıdır». 1926-cı il oktyabrın 27-dən noyabrın 3-dək davam edən XV Partiya konfransı maşınqayırmanı sənayeləşdirmənin əsas hissəsi

elan edərək, onun sürətli inkişafını həyata keçirməyi irəli sürdü. Eyni zamanda konfransda sənayeləşdirmə məqsədilə nəzərdə tutulan yığım mənbələri də müəyyən olundu. Sənayenin daxilində yeni əlavə məhsul kütləsinin dövriyyəsi, xalq təsərrüfatının başqa sahələrində (əsasən kənd təsərrüfatı məhsullarından əldə edilən) gəlirlərin dövlət büdcəsi vasitəsilə istifadəsi, əhalinin gəlirlərinin kooperativlər, əmanət kassaları, kredit, dövlət istiqrazları və s. səfərbər edilərək sənayeləşdirmə işində istifadə edilməsi bura daxildir. Əmək məhsuldarlığının artırılması, qənaət rejimi və məhsulun maya dəyərinin aşağı salınması yığım mənbəyinin əsasını təşkil edirdi. Kənd təsərrüfatı məhsullarının, xüsusilə taxılın, xammalın, əsasən də meşə materilları və neftin ixracatından, alkoqol satışından əldə olunan gəlirlər sənayeləşdirmənin yığım mənbəyinin əhəmiyyətli bir hissəsi kimi nəzərdə tutulmuşdur. Sənayeləşdirmə siyasətinin başlanması 1927-ci il aprel ayında toplanan SSRİ IV Sovetlər qurultayının onu qanunvericilik yolu ilə təsdiq etməsilə qüvvəyə mindi. İlk vaxtlar əsas diqqət köhnə sənaye müəssisələrinin yenidən qurulmasına verilirdi. Eyni zamanda Saratov və Rostov kənd təsərrüfatı, maşınqayırma, Karsaknay misəritmə və s. müəssisələr kimi 500 yeni zavod tikilirdi. Türküstan-Sibir dəmir yolunun (Alma-Atadan keçməklə Semipalatinskdən Luqovaya dayanacağına kimi 1452 km olmaqla) və Dnepr Hidroelektrik Stansiyasının (Dneprohes) tikintisinə başlandı. Sənaye müəssisələrinin inkişafı və genişləndirilməsi, demək olar ki, müəssisələrin 40%-nin ehtiyatları hesabına həyata keçirilirdi. Sənayedaxili yığım mənbəylərindən başqa milli gəlirin sənayenin xeyrinə uyğun yenidən bölünməsi də onun maliyyələşdirilməsinə sərf edilirdi.

Sənayeləşdirmə siyasətinə keçilməsi sənayenin idarə edilməsi sisteminin dəyişdirilməsini tələb edirdi. İdarəetmənin sahə sisteminə keçilməsi, xammalın, fəhlə qüvvəsinin, istehsal edilən məhsulun bölgüsünün mərkəzləşdirilməsini və bir yerdə olmasını nəzərdə tuturdu. Bütün bunları nəzərə alaraq, SSRİ AXTŞ əsasında Ağır, Yüngül və Meşə Sənayesi Xalq komissarlıqları yaradıldı. G.K.Orconikidze, İ.Y.Lyubimov və S.S.Lobov yeni yaranan komissarlıqlara rəhbər təyin olundular. 1920-30-cu illərdə meydana gələn sənayenin idarə olunmasının forma və metodları təsərrüfatçılıq mexanizminin bir hissəsinə çevrilərək uzun müddət mövcud olmuşdur. Son həddə çatan mərkəzləşmə, direktivlərlə müşayiət edilən rəhbərlik və yerlərdə təşəbbüsün boğulması bu vəziyyət üçün xarakterik idi. Sənaye müəssisələrinin fəaliyyətinin bütün sahələrinə qarışan təsərrüfat və partiya orqanlarının bu işdə rolu aydın müəyyən edilməmişdir.

1927-ci ilin dekabrın 2-19-da ÜİK(b)P-nın XV qurultayı birinci beşillik planın tərtib edilməsi haqqında direktivləri qəbul etdi. Dövlət Plan Komitəsi və AXTŞ bu sənəd əsasında birinci beşillik planın tapşırıqlarını hazırlamağa

başladı. SSRİ Dövlət Plan Komitəsinin sədri görkəmli alim Q.M.Krijijanovskinin təklifi ilə beşillik planın bir-birindən 20% fərqi olan minimal və optimal variantları hazırlandı. 1926-cı il iyulun 20-də AXTŞ-nın sədri F.Dzerjinskinin ölümündən sonra həmin vəzifəyə İ.Stalinə sədaqətilə fərqlənən V.V.Kuybışev təyin olundu. O isə tez bir zamanda F.Dzerjinskinin sənayenin artım sürətini kənd təsərüfatının artım və ehtiyacı ilə əlaqələndirməyi müdafiə edən ideyası Stalinin sürətli sənayeləşdirmə nöqteyi-nəzəri ilə əvəz etdi. İrəli sürülən optimal variantda maşınqayırma, energetika və kimya sənayesi, metallurgiya başlıca yer tuturdu. AXTŞ sənaye məhsulu istehsalını hər il 19-20% artırmağı nəzərdə tuturdu.

Köhnə burjua mütəxəsisləri V.A.Bazarov, V.Q.Qroman, İ.A.Kalinnikov, «sağ müxalifət»çilər N.Buxarin, A.Rikov, M.Tomski sənayeləşdirmənin yüksəksürətli inkişaf xəttinə qarşı etiraz etsələr də, uğur qazana bilmədilər. Q.M.Krijijanvoskinin etirazına baxmayaraq, hökumət 1929-cu ilin aprelində optimal variantı təsdiq etdi.

1929-cu ilin mayında V Ümumittifaq Sovetlər qurultayı optimal variantı qanun kimi qəbul etdi. Birinci beşillik plana qiymət verən tarixçilər bir məsələdə həmrəy idilər ki, onun tapşırıqları şişirdilmişdir, lakin miqyasına baxmayaraq, onun yerinə yetirilməsi real idi. Plan beşillik ərzində sənaye məhsulu buraxılışını 180%, istehsal vasitələri istehsalını 230%, kənd təsərrüfatı məhsullarını 55%, milli gəliri 103% artırmağı nəzərdə tuturdu. Çuqun əridilməsi 10 mln. ton, elektrik enerjisi hasilatı 22 mlrd. kvt. nəzərdə tutulurdu. Sənayedə əmək məhsuldarlığı 110%, real əməkhaqqı 71%, kəndlilərin gəliri 67% artmalı idi. Beşillik plan tapşırıqlarını yerinə yetirmək məqsədilə o zaman üçün külli miqdarda kapital qoyuluşu – 64,6 mlrd. rubl ayrılmışdır. Bu vəsaitin təqribən 75%-i sənayeyə, xüsusilə ağır sənaye sahəsinə yönəlmişdir. 1928/29-1932/33-cü illəri əhatə edən birinci beşillik plan tapşırıqlarının müəyyən edilməsində görkəmli biokimyaçı alim A.V.Bax, enerji sahəsində adını tarixə yazdırmış İ.Q.Aleksandrov və A.V.Vinter, aqrokimya elmi məktəbinin əsasını qoyan D.H.Pryanişnikov və b. mühüm rol oynadı. SSRİ-də maliyyə və kənd təsərrüfatı ilə oktyabrın 1-dən sentyabrın 30-na kimi davam edirdi. 1931-ci ildən plan-maliyyə hesabatı astronomik il üzrə yanvarın 1-dən dekabrın 31-nə kimi olan müddətdə hesablanmağa başlanmışdır. 1929-cu ilin dekabrında zərbəçilərin qurultayında İ.Stalin «Beşilliyi dörd ildə!» şüarını irəli sürdü. Bu vəzifəni yerinə yetirmək məqsədilə plan tapşırıqlarına yenidən baxılaraq artırıldı. Ölkə əvvəlcə planlaşdırılandan iki dəfə artıq əlvan və qara metal, avtomobil, kənd təsərrüfatı maşını, çuqun və s. hasil etməyə borclu idi. Məsələn, beşilliyin sonunda əvvəlcə planlaşdırılan 10 mln. yerinə 17 mln. ton

çuqun əridilməli, 55 min yerinə 170 min traktor, 100 min yerinə 200 min avtomobil buraxılmalı idi. Yeni müəyyən edilən tapşırıq rəqəmləri sağlam düşüncənin məhsulu olmayıb, heç bir real əsasa söykənmirdi. Sənayenin inkifaşında «böyük sıçrayış» istiqaməti seçən partiyanın rəhbərliyi səhv olaraq belə hesab edirdi ki, siyasətdə olduğu kimi, iqtisadiyyatda da kütlələri yüksək ideyalar uğrunda təşkil edib, ruhlandıraraq onları aydın ideyaların həyata keçirilməsi uğrunda qəti mübarizəyə atmaq olar. Plan tapşırıqlarının süni surətdə şişirdilməsi və qüvvələrin son dərəcə gərginliyi beşilliyin vəzifələrinin bir çox hissəsinin yerinə yetirilməməsinə səbəb oldu. 1929-cu ildə birinci beşilliyin həm minimum, həm də optimal variantının planı yerinə yetirildiyi halda, 1931-ci ildə hətta minimal plan yerinə yetirilmədi.

Məsələn, 1928-ci ildə SSRİ-də 3,3 mln. ton çuqun istehal edildiyi halda, 1932-ci ildə plana görə 10 mln. ton, Stalinin düzəlişi ilə isə 15-17 mln. ton çuqun nəzərdə tutulduğuna baxmayaraq cəmi 6,1 mln. ton çuqun istehsal edilmişdir. Analoji rəqəmlər 1000 ədəd hesabı ilə traktorlarda 1,8; 53; 170 və 50,8, avtomobillərdə 08; 100; 200 və 23,9 olmuşdur. 22 mlrd kvt saat elektrik enerjisi yerinə cəmi 13,5 mlrd kvt saat enerji hasil edilmişdir.

Lakin bütün bunlara baxmayaraq, ölkə nəhəng sənaye müəssisələri tikintisi meydançasını xatırladırdı. Qısa bir zamanda yeni zavodlar tikilib istifadəyə verilirdi. 1930-cu ilin iyununda cəmi 11 aya Stalinqrad traktor zavodu tikilib istifadəyə verilmişdir. 1932-ci ilin yanvarında 17 ayda Nijeqorodsk (Qorki) avtomobil zavodunun tikilişi işə salınmışdır. Çelyabinsk və Xarkov traktor zavodları, Sverdlovsk və Kramatorsk ağır maşınqayırma, Moskva avtomobil zavodları yeni nəhəng tikintilərə misaldır. Uralda tikintisinə başlanan Maqnitoqorski və Qərbi Sibirdəki Kuznetski kombinatları birinci beşilliyin yeni müəssisələrindən idi. Rostov-Don və Zaporojyedə kənd təsərrüfatı maşınqayırma zavodları, Mariopol, Stalinqrad, Moskva, Nikopolda misəritmə və boru prokatı zavodları, Bereznikovsk, Bobrikdə kimya kombinatları işə salındı.

Ümumiyyətlə, birinci beşillik planda 1235 müəssisə, yerli elektrostansiya, mədən və neft yataqları nəzərə alınmaqla 1500-dən çox müəssisə tikilib istifadəyə verilməli idi. Məhz sovet adamlarının tükənməz əməyi sayəsində beşillik ərzində 1500 yeni sənaye müəssisəsi tikilib istifadəyə verildi. Başqa sözlə, SSRİ sənaye avadanlığı ixrac edən ölkəyə çevrildi. Məsələn, 1932-ci ildə SSRİ xaricdən traktorlar idxal etməkdən imtina etdi. Tezliklə ölkə özü traktor idxal etməyə başladı. Sənaye quruculuğunun geniş miqyası işə kütləvi fəhlə qüvvəsini cəlb etməyi tələb edirdi. Birinci beşillik illərində sənaye, tikinti və nəqliyyat sahələrinə 12,5 mln. yeni fəhlə gəlmişdir ki, bunların da 8 mln. nəfəri kənd yerlərindən gələnlərdən ibarət idi. Adamlar yeni

ucalan zavod və müəssisələrdə gecə-gündüz yemədən, özlərinə acımadan çalışırdılar. 1929-cu ildə sosializm yarışı təşkil edildi, zərbəçi əmək briqadaları meydana gəldi. İlin sonunda iri müəssisələrin fəhlələrinin 26%-i zərbəçi briqada üzvü oldu. Yarışlarda fəhlələrin 65%-i iştirak edirdi. 1928-1932-ci illəri əhatə edən birinci beşilliyin sonlarında Donbas mədənçisi N.A.İzotovun adı ilə qabaqcılların İzotov hərəkatı geniş yayılmışdı. İzotovçular yeni fəhlələrə istehsalat təlimi keçməyi bir vəzifə olaraq öz üzərlərinə götürmüşdülər. Sənaye quruculuğundan əsl əmək xarüqələri yaradan fəhlələr çox vaxt ən ibtidai məişət şəraitindən belə məhrum idilər. İstehsalatda «hücum» ab-havasının yaradılması bəzən işin ritminin pozulmasına və keyfiyyətin aşağı düşməsinə səbəb olurdu.

Birinci beşilliyin plan tapşırıqları ilk iki ildə yeni iqtisadi siyasətin ehtiyatları hesabına sənayenin inkişafında artıqlaması ilə yerinə yetirildi. Plan tapşırıqlarının mərkəzdən süni olaraq dəyişdirilib artırılması və ehtiyatların azalması 30-cu illərin əvvəllərində sənayenin inkişaf sürətinin xeyli dərəcədə aşağı düşməsinə səbəb oldu. Belə ki, bu, 1928-1929-cu illərdəki 23,7% əvəzinə, 1933-cü ildə 5%-ə düşdü. Beşilliyin yekun ilinin planları, demək olar ki, yerinə yetirilmədi. Buna baxmayaraq, İ.Stalin elan etdi ki, birinci beşillik plan tapşırıqları dörd il üç ayda yerinə yetirilib. Bunu təsdiq etmək məqsədilə yalnız məhsulun rublla dəyəri hesablanırdı, təbii cəhəti isə nəzərə alınmırdı. Xammal, avadanlıq, maşınların qiymətlərinin artması meydana gələn fərqin səbəbi kimi göstərilirdi. Natural göstəricilərə görə isə plan tapşırıqları yerinə yetirilməmişdi. Xüsusilə yüngül və yeyinti sənayesi ağır vəziyyətdə idi, ona görə ki, bu sahədəki göstəricilər hətta 20-ci illərin sonlarındakından aşağı idi. Belə bir vəziyyət ondan irəli gəlirdi ki, yüngül və yeyinti sənayesinə kifayət qədər diqqət ayrılmamış, başqa bir tərəfdənsə, 20-30-cu illərin qovuşuğunda kollektivləşməyə keçməyə görə kənd ağır sarsıntıya məruz qalmışdı. Dəmiryol, dəniz və su nəqliyyatı sahəsində beşillik planda nəzərdə tutulan işlərin yalnız üçdə birini yerinə yetirmək mümkün oldu. Məhz «böyük sıçrayış» illərində xalq təsərrüfatının sahələri arasında dərin uyğunsuzluq yarandı ki, bu da onilliklər boyu SSRİ-nin iqtisadiyyatı və cəmiyyətinin xarakterik xüsusiyyətinə çevrildi. Tarixçilər belə hesab edirlər ki, 1928-1932-ci illərdə birinci beşillik plan tapşırıqlarının pozulması, İ.Stalin başda olmaqla, bolşevik rəhbərliyini məcbur etdi ki, planlaşdırmanı düzəltmək üçün beşilliyin təcili yerinə yetirildiyini elan etsinlər. Əslində isə birinci beşillik plan tapşırıqları 93,7% yerinə yetirilmişdir. İri sənayenin orta məhsul hasilatı həcmi 1932-ci ildə müharibədən əvvəlki səviyyəni üç dəfə, 1928-ci il səviyyəsini iki dəfə ötüb keçmişdir.

1934-cü ilin yanvar-fevralında ÜİK(b)P-nin «qaliblərin qurultayı» («съезд победителей») adlandırılmış XVII qurultayı 1933-1937-ci illəri əhatə edən ikinci beşillik planı təsdiq etdi. «Sıçrayışın» mənfi təcrübəsi planın tərtib edilməsinə onun göstəricilərini aşağı salmaq şərtilə son dərəcədə ehtiyatla yanaşmağı tələb edirdi. Sənayenin orta illik artım sürəti birinci beşillikdəki 30% əvəzinə 16,5%-ə düşmüşdü. Yüngül sənaye sahəsindəki geriliyi aradan qaldırmaq məqsədilə onun orta illik artım sürəti 18,5%, ağır sənayeninki isə xeyli az, yəni 14,5% müəyyən edildi. Sənayedə əmək məhsuldarlığını 63% artırmaq, məhsulun maya dəyərini isə 26% aşağı salmaq nəzərdə tutulurdu. Uralda, Qərbi və Şərqi Sibirdə, Başqırdıstanda, Qazaxıstanda və Orta Asiyada sənayenin yeni dayaq mərkəzlərinin yaradılması planlaşdırılırdı. Yüngül və yeyinti sənayesini xammal mənbələrinə yaxınlaşdırmaq üçün Orta Asiya, Sibir, Cənubi Qafqazda yeni toxuculuq müəssisələrinin salınması irəli sürüldü.

Birinci beşillikdə zay məhsulların çoxluğu fəhlələrin istehsalat təliminə xüsusi diqqət yetirməsini tələb etdi. Birinci beşilllikdəki «Texnika hər şeyi həll edir!» şüarı «Kadrlar hər şeyi həll edir!» şüarı ilə əvəz edildi. 1932-ci ildən Xalq Ağır Sənaye Komissarlığına başçılıq edən Georgi Konstantinoviç Orconikidze (1886-1937) yeni ixtisaslı kadrların hazırlanmasına, əmək məhsuldarlığının artırılmasına, sənayenin yeni sahələrinin yaradılmasına xüsusi fikir verirdi. 1934-cü ilin dekabrında Makeyev adına metal zavodunun fəhlələri dövlət dotasiyası olmadan iş rejiminə keçmək təşəbbüsü ilə çıxış edərkən onları Serqo Orconikidze müdafiə etdi. Üç aydan sonra makeyevçilər öz öhdəliklərini yerinə yetirdilər. Georgi (Serqo) Orconikidze Makeyev zavodunun təcrübəsini bütün ağır sənayeyə yaydı ki, bunun da sayəsində 1936-cı ilin sonuna doğru dövlət dotasiyasına tələbat xeyli azaldı, zavodların öz ehtiyyatları hesabına maliyyələşdirilməsi iki dəfədən çox artdı.

1933-1937-ci illərdə sosializm yarışı yeni inkişaf mərhələsinə qədəm qoydu. 1935-ci ilin sentyabrında Donbasın mərkəzi İrmino mədəninin fəhləsi A.Q.Staxanov (1905-1977) növbəsi vaxtı 7 ton norma yerinə 104 ton kömür çıxararaq Staxanov hərəkatının əsasını qoydu. Bu yarışma, rekord qazanmaq məqsədi ilə hazırlanmışdı: əmək bölgüsündən istifadə nəticəsində əsas mədənçini iki əlavə fəhlə müşayiət edərək, mədənin möhkəmləndirilməsi işi ilə məşğul olurdular. A.Staxanov əsas diqqəti kömür çıxarmağa yönəltdi. Bir neçə gündən sonra həmən mədəndə M.D.Dyukanov rekordu 114 tona çıxardı. 1935-ci ilin sentyabrın 19-da A.Staxonov öz rekordunu yeniləyərək növbə ərzində 227 ton kömür çıxarmışdı. 1936-cı ilin fevralın 1-də N.A.İzotov növbə ərzində 607 ton kömür çıxararaq normanı təqribən 100 dəfə yerinə yetirmişdi. 1936-cı ilin yayında SSRİ-də olan fransız yazıçısı A.Jid Staxonov

hərəkatın «xalqı yuxudan oyadan görkəmli tapıntı» adlandırmışdır. Staxanov hərəkatı başqa sahələrə də yayıldı. Toxucular Y.V. və M.İ.Vinoqradovalar, dəmirçi A.X.Busıqin, paravoz sürücüsü P.F.Krivonos və b. bütün ölkədə şöhrət qazandılar. Staxanov hərəkatı geniş təbliğ olunurdu ki, bu da fəhlələrin daha yüksək əmək nəticələri əldə etməsinə səbəb oldu. Bəzən elə hallar olurdu ki, staxanovçular üçün xüsusi şərait yaradılır və ya sadəcə olaraq başqalarının birlikdə gördüyü işlər onların adına yazılırdı. Getdikcə staxanovçular fəhlə sinfinin elit təbəqəsinə çevrildilər, onlar məşhurlaşaraq həyatda irəli getmək imkanı qazandılar. 1938-ci il yanvarın 1-də Sovet fəhlələrinin təxminən hər dördüncü nəfəri staxanovçu olmuşdu.

Sənayeləşmə gündən-günə daha çox ixtisaslı kadrlara ehtiyac duyurdu. 1933-cü ilin payızında çoxyönlü ixtisaslar üzrə fəhlə kadrları hazırlamaq məqsədilə fabrik-zavod peşə məktəbləri (FZU) yenidən təşkil olunaraq peşə təhsil məktəblərinə çevrildilər. Çətin və mürəkkəb ixtisaslar üzrə təhsil müddəti uzadılaraq iki, sonra isə üç ilə çatdırıldı. İkinci beşillik ərzində birinci beşillik dövründəkindən üç dəfə çox, yəni 1,4 mln. fəhlə bu məktəbləri bitirmişdir.

1933-1937-ci illəri əhatə edən ikinci beşillik plan tapşırıqları yüngül sənaye, ağır sənayenin bir sıra sahələri, sosial sahədə yerinə yetirilməməsinə baxmayaraq, ümumi nəticələr birinci beşillik göstəricilərindən xeyli yaxşı idi. Əmək məhsuldarlığı birinci beşillikdəki 41% yerinə iki dəfə artdı. Yeni müəssisələr bütün məhsulun 80%-ni verirdi. Kömür çıxarılması iki dəfə, neft 1,4 dəfə, boru istehsalı üç dəfədən çox idi. İkinci beşillik illərində 4500 yeni zavod, fabrik, elektrik stansiyası tikilib istifadəyə verilmişdir. Birinci beşillik illərində hər gün bir yeni müəssisə yerinə ikinci beşillikdə üç müəssisə işə salınmışdı. İkinci beşilliyin mühüm yekunlarından biri ölkədəki onlarla müasir zavodu əhatə edən hərbi-sənaye kompleksinin yaranması idi. 1930-cu ildə tikilən Moskva, Nijni Novqorod (Qorki) Avtomobil, Rostov, Stalinqrad traktor zavodları, Türk-Sibir Dəmiryol Magistralı, Xarkov (1931), Çelyabinsk (1933) Traktor zavodları; Dneprohes (1932), Kuznetsk (1932) və Maqnitoqorck (1934) Metallurgiya kombinatları, Moskva dəzgahquraşdırma (1932), Ural Ağır Maşınqayırma (1933) zavodları, Bereznikovski (1932) və Solikamski (1934) Kimya Kombinatları, Yaroslavl və Voronej Sintetik Kauçuk zavodları (1932), Donbasda Novokramatorsk Maşınquraşdırma Zavodu (1934), Çimkənt Qurğuşun Zavodu (1934), Ağ dəniz-Baltik (1933) və Moskva adına (1937) kanallar, Moskva metropoliteninin Birinci növbəsi (1935) sovet adamlarının əməyi və zəhməti nəticəsində tikilib, fəaliyyətə başlayan nəhənglər sırasında idi. Ufa Motor zavodu, Daşkənd, Buxara, Bakıda toxuculuq-parça kombinatları milli rayonlarda fəaliyyətə başlayan sənaye nəhəgləri sırasında yer almışdı.

Qazaxıstan əlvan metallurgiya, neftçıxarma və kimya sənayesi mərkəzinə çevrilmişdi. Başqırdıstan və Tatarıstanda Volqa ilə Ural arasında nəhəng yeni neft çıxarma rayonu – «İkinci Bakı» kəşf edilib istifadəyə verilmişdi. Korelya və Komi meşə materialları, Yakutiya qızıl emalı üzrə önə çıxmışdı. İkinci beşillik plan tapşırıqlarının vaxtından əvvəl, yəni dörd il üç ayda yerinə yetirilməsi elan edildi. Buna baxmayaraq, 46 göstərici üzrə plan tapşırıqlarının yalnız 10-u üzrə planlar yerinə yetirilmişdir. Qalanları üzrə isə plan yalnız 70-77% yerinə yetirildi.

1939-cu ilin martında ÜİK(b)P-nin XVIII qurultayı SSRİ xalq təsərrüfatının inkişafına dair üçüncü beşillik planı qəbul etmişdir (1938-1942). Plana əsasən, sənaye məhsulunun həcmini 2 dəfəyə kimi artıraraq xüsusilə yanacaq və müdafiə məhsulu sahəsində iri dövlət ehtiyatlarının yaradılması, istehlak mallar istehsalını 1,5 dəfə, kənd təsərrüfatı məhsulu istehsalını artırmaq nəzərdə tutulmuşdur. Üçüncü beşilliyin plan tapşırıqları ağır sənayenin mütləq artımını təsdiq etdi.

1937-1938-ci illərdəki repressiyalarla əlaqədar olaraq ölkə plan tapşırıqlarını yerinə yetirməkdə böyük çətinliklərlə üzləşmişdir. Təsərrüfat kadrlarına tətbiq olunmuş repressiyalar vəziyyəti daha da kəskinləşdirərək plan tapşırıqlarının yerinə yetirilməməsinə şərait yaratmışdır. 1938-1940-cı illərdə sənaye məhsulu buraxılışı beşillikdə nəzərdə tutulmuş 92% yerinə, 45% artmışdır. Beşilliyinin ilk iki ilinin tapşırıqları qara metallurgiya, yanacaq sənayesi, maşınqayırma, dəmiyol nəqliyyatı və s. sahələrdə yerinə yetirilməmişdir. Neft sənayesi beşilliyin nəzərdə tutduğu plan tapşırıqlarının öhdəsindən gəlməmişdir.

1939-cu ilin sentyabrında başlanmış İkinci Dünya müharibəsi beşilliyin gedişinə əhəmiyyətli təsir göstərmişdir. Ölkə müharibə təhlükəsi ilə bağlı hazırlıq işlərini sürətləndirmişdir. Dövlət büdcəsində müdafiə üçün nəzərdə tutulmuş vəsait ikinci beşillikdəki 12,7% yerinə, üçüncü beşillikdə 25,4%-ə yüksəlmişdir. Silah istehsalının sürəti və miqyası artmışdır. Üçüncü beşillik illərində xüsusilə ölkənin şərqindəki müdafiə sənayesinin inkişafı geniş miqyas almışdır. Orta Volqa, Ural və Sibirdə müdafiə zavodlarının əvəzediciləri tikilməyə başlamışdır.

Üçüncü beşillikdə əməyin milliləşdirilməsi elementləri tətbiq olunmağa başlandı. Həbs edilmək qorxusu altında fəhlə və qulluqçular direktorluğun icazəsi olmadan bir müəssisədən başqasına keçə bilməzdi. Xalq Kommissarlıqları mühəndis və fəhlələrin bir müəssisədən başqasına, o cümlədən ölkənin digər rayonlarına dəyişdirmək hüququ almışdır. 1940-cı ilin iyunundan iş günü 7 saatdan 8 saata, iş həftəsi isə yenidən 7 günə çıxarıldı. Ay ərzində 3 dəfə işə

gecikənlər cinayət məsuliyyətinə cəlb olunurdu. Əmək ehtiyatları sistemi təsis olunmuşdur. Hər il bir milyona yaxın gənc sənət məktəblərində oxumaq məqsədilə səfərbər olunurdu ki, onlar da təhsilini bitirdikdən sonra dörd il bölgü üzrə təyin olunduğu iş yerində işləməyə borclu idilər.

Sənayeləşdirmə sovet cəmiyyətinin mənzərəsini dəyişdi. SSRİ-nin iqtisadi coğrafiyası dəyişdi – Orta Volqa, Qazaxıstan, Sibirdə yeni sənaye rayonları meydana gəlmişdir. Şəhər əhalisi sürətlə artmışdır. 1926-cı ildə ölkədə 50 min nəfərdən çox əhalisi olan 86 şəhər olduğu halda, 1937-ci ildə onların sayı 159-a çatmışdır. İlk beşilliklər dövründə fəhlə sinfinin sayı təxminən 20 mln. nəfərə çatmışdır. Ölkənin şərqində yeni sənaye rayonları meydana gəlmişdir. Çar Rusiyası zamanı ölkədə olmayan yeni sənaye sahələri, o cümlədən aviasiya, traktor, elektrik enerjisi, kimya və s. yaranmışdır.

Sənayeləşdirmənin uğuru nəticəsində Sovet İttifaqı sənaye məhsulunun həcminə görə Avropada birinci, dünyada isə ikinci yerə çıxmışdır.

Eyni zamanda bu nəticələrlə yanaşı, sənayeləşdirmə yeni iqtisadi siyasətin sıxışdırılıb aradan çıxarılmasına, bütün maliyyə və maddi vəsaitin, fəhlə qüvvəsinin dövlətin əlində cəmləşməsi xüsusi bölmənin məhvinə səbəb oldu. Dövlət müəssisələrinin idarə olunması dəyişdi. Təsərrüfat hesabı faktiki olaraq yox edildi. Böyükmiqyaslı tikintilər, iri xərclər, aşağı məhsuldarlıq sənayenin gəlirlərinin azalmasına səbəb oldu. Müəssisələrin daxili yığımı sənayeləşdirməni təmin etmirdi. Odur ki, dövlət vəsait və onun bölgüsünü öz əlində cəmləşdirdi. Bütün gəlirlər büdcəyə keçirildi. Müəssisələr arasındakı topdansatış ticarət dayandırıldı. Artıq xammal və avadanlıq satılmır, ayrılmış fond və limit əsasında mərkəzləşmiş qaydada bölünürdü. Maliyyə müstəqilliyini itirən müəssisələr özünüidarə imkanlarını da itirirdi. Beləliklə, sovet iqtisadiyyatında idarəçiliyin inzibati-rəhbər modeli qələbə çaldı. Bu isə qısa müddətdə sənayenin sıçrayışı üçün əlverişli olduğu halda, texniki tərəqqi və məhsulun keyfiyyəti nöqteyi-nəzərindən əhəmiyyətli deyildi.

### §2. Kənd təsərrüfatının kollektivləşdirilməsi

20-ci illərin birinci yarısının sonlarında SSRİ-nin kənd təsərrüfatı müharibədən əvvəlki səviyyəyə çatdı. Ancaq mülkədar və qolçomaq təsərrüfatları ləğv edildiyi üçün onun məhsulu aşağı idi. Xırda kəndli təsərrüfatı birinci növbədə öz tələbatını ödəyərək bazarla mütəmadi əlaqə saxlamırdı. Yalnız iri təsərrüfatlar məhsul istehsalının artımını təmin edə bilərdi.

Sənaye sıçrayışı kəndli təsərrüfatlarının vəziyyətinə ağır təsir göstərdi. Sənayeləşdirməni vəsaitlə təmin etməyə məcbur olan kəndlilər sənaye fəhlələrini aşağı qiymətdə ərzaqla, fabrik və zavodları xammalla təmin etməli, valyuta əldə etmək üçün xaricə taxıl ixrac etməli idi. 1926-27-ci təsərrüfat ilində varlı kəndlilər üzərinə qoyulan kənd təsərrüfatı vergisi 50%-ə qədər artdı. Ertəsi il bu vergi daha da çoxaldı. Vergilərin sürətlə artması kəndlilərin narazılığına və çaxnaşmaya səbəb oldu. Eyni zamanda sənaye məhsullarının qiyməti artır, taxılın dövlət satınalma qiyməti isə süni surətdə aşağı salınırdı. Bununla bərabər, dövlət kəndlə ticarəti tamamilə öz nəzarəti altına almaq məqsədilə xüsusi sahibkarlığın bütün növləri üzərinə hücuma keçdi. Bu siyasət kəndlilərin yoxsullaşmasına və iflasına gətirib-çıxarırdı. Kənd təsərrüfatı məhsullarının qiymətinin süni surətdə aşağı salınması və bunun sayəsində qeyri-bərabər mübadilə kəndliləri məcbur etdi ki, öz əməyinin bəhrəsini dövlətə satmasın. Taxıl ixtişaşları başladı ki, bu da başqa formada hərbi kommunizm metodlarının dirçəldilməsinə gətirib çıxardı. Sabit qiymətlərlə dövlətə taxıl satmaqdan imtina edən kəndlilər cinayət məsuliyyətinə cəlb olunur, yerli sovetlər onların əmlakını müsadirə edə bilirdi. Xüsusi «əməliyyat müvəkkilləri» və «fəhlə dəstələri» nəinki artıq qalan məhsulu, hətta kəndlilərin ehtiyacı üçün nəzərdə tutulan taxılı da onların əlindən alırdılar. «Hərbi kommunizm» dövründə olduğu kimi, yoxsulları maraqlandırmaq məqsədilə müsadirə edilmiş taxılın 25%-i aşağı dövlət qiyməti ilə və ya uzunmüddətli kredit vasitəsilə onlar arasında paylanırdı. Belə özbaşınalıqlar Sibir, Aşağı və Orta Volqaboyunda, Ukrayna, Uzaq Şərq və Orta Asiya respublikalarında geniş yayılmışdı.

1927-28-ci illərdəki taxıl tədarükü böhranı və ÜİK(b)P MK-nın rəhbər kadrlarının mərkəzləşdirilmiş inzibati-amirlik metodları ilə rəhbərlik vərdişləri vasitəsi ilə iqtisadiyyatın bütün sahələrini idarə etmək meyilləri ümumi kollektivləşdirməyə keçidi sürətləndirdi. 1927-ci ilin dekabrın 2-19-da ÜİK(b)P XV qurultayı kənddə iş haqqında xüsusi qətnamə qəbul etdi. Bu sənəddə kəndli təsərrüfatlarının üçdə birini əhatə edən kooperasiyanın bütün formalarının inkişafından bəhs edilirdi. Gələcəkdə tədricən torpaqların kollektiv surətdə becərilməsi nəzərdə tutulurdu. Eyni zamanda qurultay «qolçomaqlar üzərinə

hücumu inkişaf etdirmək» vəzifəsini, «kənddə kapitalizmin inkişafını məhdudlaşdıran və kəndli təsərrüfatını sosializm istiqamətinə yönəldən bir sıra yeni tədbirlər» irəli sürdü. Qolçomaqların üzərinə hücum partiya və dövlətin «kənddə yeni iqtisadi siyasət» istiqamətindən imtina etməsi demək idi. Qurultayın qəbul etdiyi «qolçomaqların məhdudlaşdırılması» siyasəti bir sıra inzibati-iqtisadi tədbirlərlə, o cümlədən verginin artırılması, icarə və muzdlu əməyin sıxışdırılması ilə müşayiət olundu. Kolxoz quruculuğuna bilavasitə 1925-ci il 18-31 dekabrında olan XIV partiya qurultayında İ.Stalinin adamı kimi Siyasi Büronun tərkibinə daxil edilən ÜİK (b)P MK-nın kəndlə iş üzrə katibi V.M.Molotov başçılıq edirdi. Yeni yaradılan SSRİ Kolxoz-Mərkəzə isə Q.Q.Kaminski rəhbərlik edirdi. Yuxarıdan gələn direktiv göstərişlərə müvafiq olaraq ölkədə kollektiv təsərrüfat olan kolxozlar yaradılmağa başlandı. Yeni yaradılan kolxozların forması kimi artellər müəyyən olundu. Kollektiv təsərrüfatın başqa formalarından fərqli olaraq artellərdə əsas istehsal vasitələri, torpaq, avadanlıq, mal-qara ictimailəşdirilirdi. Könüllülük prinsipi elan edilməsinə baxmayaraq, kolxozlara daxil olmaq istəməyənlər seçki hüquqlarından və azadlıqdan məhrum edilir, əmlakı müsadirə olunaraq «sovet hökumətinə müqavimət göstərən düşmən» elan olunurdu. Basqı və təzyiq öz nəticəsini verirdi. 1928-ci ildə kolxozlarda birləşən kəndli həyətlərinin payı 0,8%-dən artaraq 3,2%-ə çatdı. Kolxozların 60%-i artellərdə deyil, torpaqları birgə becərən yoldaşlıq kooperativlərində (TOZ) birləşdilər. Bütün istehsal vasitələrinin ictimailəşdirilməsini nəzərdə tutan artellərdən fərqli olaraq, yoldaşlıq kooperativlərində mal-qara və avadanlıq kəndlinin fərdi mülkiyyətində qalır, yalnız torpaqlar birgə becərilirdi.

1928-ci ilin yazında RSFSR-in Torpaq Xalq Komissarlığı və Kolxoz Mərkəzi kəndli təsərrüfat kollektivləşdirilməsinin beşillik planının layihəsini tərtib etdi ki, buna görə beşilliyin sonunda, yəni 1933-cü ildə kolxozlara 1,1 mln. təsərrüfat (4%) cəlb edilməli idi. Yayda isə Kooperativlərin Kənd Təsərrüfatı İttifaqı bu rəqəmi 3 mln. təsərrüfata (12%) çıxardı. 1929-cu ilin yazında artıq təsdiq edilmiş beşillik planda 4,5 mln., yəni 16-18% təsərrüfatın kollektivləşdirilməsi nəzərdə tutulurdu. Plan tapşırıqlarının tez-tez dəyişdirilməsi, bir tərəfdən kolxoz quruculuğunun süni sürəti ilə, başqa bir tərəfdən partiya və dövlət rəhbərliyinin taxıl problemini təcili həll etmək təşəbbüsü ilə bağlı idi. 1929-cu ilin ikinci yarısından başlayaraq, kolxoz quruculuğunun miqyas və sürəti kəskin şəkildə artdı. Əgər 1929-cu ilin yayında kolxozlarda 1 mln. kəndli təsərrüfatı var idisə, həmin ilin oktyabrında bu göstərici 1,9 mln. idi. Bu isə o demək idi ki, kollektivləşdirmənin səviyyəsi 3,9%-dən 7,6%-ə yüksəlmişdi. Xüsusilə əsas taxılçılıq rayonları hesab edilən Şimali Qafqaz, Aşağı

və Orta Volqaboyu vilayətlərində kolxoz və kəndli təsərrüfatları daha sürətlə artmışdı.

1928-ci ildə torpağı texnika tətbiq edərək becərmək məqsədilə kəndlilərə pullu xidmət edən Maşın-Traktor Stansiyaları (MTS) meydana gəldi. Traktorlardan istifadə edilməsi kəndli torpaqları arasında olan sərhədlərin ləğv edilərək ümumi əkin sahəsinin işlənməsini tələb edirdi. İlk vaxtlar traktorlar çox az idi. 1929-cu ildə ümumi əkin sahələrinin yalnız 1%-i traktorlarla becərilmişdi. 1932-ci ildə kolxozçulara istehsal-texniki xidmət göstərən MTS-lərin sayı 2,5 minə çatdı. Birinci beşilliyin sonunda əkin sahələrinin 22%-i, ikinci beşilliyin sonunda isə 60%-i traktorlarla becərilirdi. 1934-cü ilin sonunda ölkənin kənd təsərrüfatında 281 min traktor, 31 min kombayn, 34 min yük maşını var idi. İkinci beşillikdə kənd təsərrüfatı 405 min yerli traktor almışdı. MTS-lər iki dəfə artaraq, 1937-ci ildə 5,8 minə çatmışdır ki, onlar da 75% kolxozlara xidmət göstərirdi.

Ölkənin iqtisadi və sosial-siyasi inkişafının bütün mühüm məsələlərində olduğu kimi, kənd təsərrüfatının kollektivləşdirilməsinin həyata keçirilməsinin forma və metodları da ciddi müzakirələrə və fikir ayrılığına səbəb olurdu. «Sağ təmayülə» başçılıq edən Nikolay İvanoviç Buxarin (1888-1938) kooperasiya haqqında V.İ.Leninin görüşlərini təcəssüm etdirərək belə hesab edirdi ki, koopersiya vasitəsi ilə xırda, o cümlədən varlı xüsusi təsərrüfatlar «sosializmə qovuşacaqlar». Təbii ki, Lenin və Buxarin yalnız proletariat diktaturası şəraitində kənddə sosialist kooperativlərinin yaradılmasından bəhs edirdilər.

Görkəmli aqronom-alim, pedaqoq, ədəbiyyatçı-fantast, ictimai və dövlət xadimi Aleksandr Vasilyeviç Çayanov (1888-1937) isə kəndlilərin kooperativlərdə birləşməsinin uğurunu diktator, bolşevik qayda-qanunun yerinə gələn demokratik rejimdə görürdü. Bir çox sanballı elmi əsərlərin müəllifi olan professor A.V.Çayanov Vətən İqtisad Fikrinin Təşkilat-İstehsalat Məktəbinin yaradıcılarından biri idi. İnqilaba qədər və sovet təsərrüfat orqanlarında müxtəlif vəzifələrdə çalışan bitərəf A.V.Çayanov 1930-cu ildə Əmək Kəndli Partiyasının işi ilə bağlı həbs edilərək Alma-Ataya sürgün edilmiş, sonra isə təkrar həbs edilərək güllələnmişdir. Ölümündən sonra bəraət almışdır. Professor A.Çayanov və onun vətən aqrar elminin təşkilat-istehsalat istiqaməti üzrə məsləkdaşları A.Çelintsev, N.Makarov, A.Rıbnikov «kooperativ kollektivləşməsini» həyata keçirməyi müstəsna dərəcədə özfəaliyyət, könüllülük və sırf təsərrüfat əsasında təsəvvür edirdilər. Bir neçə yüz min qolçomaqlıqdan salınmış ailənin faciəsi, 1932-1933-cü illərdə çoxsaylı əhalinin ölümünə, o cümlədən kənddə məhsuldarlığın aşağı düşməsinə səbəb olan müstəqil kəndli təsərrüfatlarının zorla dağıdılmasının Stalin planı ilə müqayisədə kəndin modernləşdirilməsinin

Çayanov variantı ölkənin aqrar bölməsinin yenidən qurulmasının ağrısız və tədrici yolu idi.

«Sağ təmayülün» liderləri, A.Çayanov kimi böyük iqtisadçı alim, makroiqtisadiyyat modelinin və iqtisadi dinamika nəzəriyyəsinin yaradıcısı Nikolay Dmitriyeviç Kondratyev (1892-1938) də kooperasiyanın bütün formalarından istifadə etməklə kəndli təsərrüfatlarının tədrici inkişaf yolunun tərəfdarı idi. 13 yaşında Eserlər Partiyasına qoşulan N.D.Kondratyev Petroqrad Universitetini bitirərək A.Kerenskinin kənd təsərrüfatı üzrə katibi olmuşdur. Oktyabr silahlı üsyanından sonra bolşeviklərə qarşı mübarizə aparmış, Vətəndaş müharibəsi illərində «Dirçəliş İttifaqının» üzvü kimi çekistlər tərəfindən təqib edilmişdir. 1920-ci ildən A.Çayanov, A.Rıbnikov, L.Litoşenko ilə birlikdə Torpaq və Maliyyə Xalq Komissarlıqlarında çalışmışdır. Bir çox sanballı elmi əsərlərin, o cümlədən Butırsk həbsxanasında yazdığı və 1991-ci ildə çap olunan «İqtisadi statistika və dinamikanın əsas problemləri» fundamental əsərinin müəllifidir. 1930-cu ildə Əmək Kəndli Partiyasının üzvü olduğu üçün həbs edilərək həbsxanaya salınmış, 1938-ci ildə təkrar repressiyaya məruz qalaraq güllələnmişdir. 1987-ci ildə ölümündən sonra bəraət almışdır. Əslində onlarla üzvü olan, gizli siyasi dərnək kimi fəaliyyət göstərən Əmək Kəndli Partiyası heç də şişirdildiyi kimi 200 min nəfəri birləşdirən, partiya və dövlətə qarşı mübarizə aparan bir partiya deyildi. Sadəcə olaraq nəhəng partiya-dövlət aparatını nəzarətdə saxlayan İ.Stalin «sağ təmayülü» və köhnə mütəxəssisləri onun kənddəki «sıçrayışlı inkişaf» xəttinə qarşı çıxanlar kimi damğalayaraq öz rəqiblərini aradan götürmək siyasətini yeridirdi. Başqa bir tərəfdən, fəhlə və kəndlilərdən formalaşan sovet ziyalıları öz karyeraları üçün təhlükəli hesab etdikləri köhnə mütəxəssisləri aradan götürmək məqsədilə dəridən-qabıqdan çıxırdılar. Əslində son dərəcə vətənpərvər olan və hətta bolşevik Rusiyasının böyük dünya dövlətinə çevrilməsi üçün çalışan köhnə mütəxəssislərin günahı onların vətən sevgisində idi.

1929-cu il noyabrın 7-də «Правда» qəzetində İ.Stalinin «Böyük dönüş ili» məqaləsi dərc edildi. Məqalədə arzu edilən həqiqət kimi qələmə alınaraq qeyd olunmuşdu ki, kəndlilərin əsas kütləsini yeni, sosialist inkişaf yoluna yönəltmək mümkün olmuşdur. Bu məqalədə irəli sürülən müddəalar bir daha ÜİK (b)P MK-nın 1929-cu il noyabr plenumunda təkrar edildi. Plenumda elan edildi ki, kolxoz hərəkatı elə miqyas alıb ki, qalan kütlənin kollektiv təsərrüfatlara keçməsi illərin deyil, ayların məsələsidir. Əslində isə bu zaman kəndli təsərrüfatlarının yalnız 6-7%-i kolxozlarda birləşmişdi ki, onların da üçdə bir hissəsi yoxsullar idi. Beləliklə, yerli hakimiyyət orqanlarının qısa müddətdə kollektiv təsərrüfatlar yaratmaq yarışı başladı. Noyabr plenumunun

qərarına müvafiq olaraq, kəndlərə təşkilati-siyasi iş təcrübəsi olan 25 min sənaye fəhləsi göndərildi. Onlardan biri M.Şoloxovun «Oyanmış torpaq» («Поднятая целина») romanındakı Semyon Davidoviç obrazında təsvir edilmişdir. «İyirmibeşminçilər» adlanan şəhər kommunistləri yerli partiya təşkilatları və Dövlət Siyasi İdarəsinin işçiləri ilə kəndliləri dilə tutmaq və ya hədə-qorxu yolu ilə kolxozlara daxil olmağa məcbur etməli idilər. Ancaq kolxozlara könüllü olaraq yoxsul kəndlilər daxil olurdu. «Ağılasığmaz yüksək sürət» şüarı altında həyata keçən kütləvi kollektivləşdirmə siyasəti yuxarıların da güclü təzyiqi altında qolçomaqları istehsal vasitələrindən məhrum edərək qolçomaqlıqdan salma siyasətinə keçməyin əsasını qoydu. İ.Stalin və onun ətrafı yaxşı başa düşürdü ki, başqa cür ortabab kəndlilərin kolxozlara daxil olmama arzusunu aradan qaldırmaq mümkün deyil. Həm də bu, kəndlilərin «xüsusiyyətçilik» psixologiyasının kənd təsərrüfatlarının ictimailəşdirilməsi fikrinə yönəlməsinə kömək etməli idi. 1929-cu ilin dekabrında aqrarçı-marksistlərin konfransında çıxış edən İ.Stalin elan etdi ki, partiya və dövlət qolçomaqların istismarçı cəhətlərini məhdudlaşdırmaq siyasətindən qolçomaqları bir sinif kimi ləğv etmək siyasətinə keçir.

1930-cu il yanvarın 5-də ÜİK(b)P MK-nın «Kollektivləşmənin sürəti və kolxoz quruculuğuna dövlətin köməyi tədbirləri haqqında» qərarı dərc olundu. Sənədə əsasən, Şimali Qafqaz, Aşağı və Orta Volqada kolektivləşdirmə 1930-cu ilin payızı və ya hər halda 1931-ci ilin yazında, Ukrayna, Mərkəzi Qaratorpaq vilayəti, Sibir, Ural və Qazaxıstan kimi taxılçılıq rayonlarında isə 1931-ci ilin payızında və ya hər ehtimala qarşı 1932-ci ilin yazında başa çatmalı idi. Qalan diyar, vilayət və milli respublikalarda isə kollektivləşdirmə 1933-cü ildə başa çatmalı idi. Kolxoz quruculuğunun əsas forması kənd təsərrüfatı arteli müəyyən olundu. Qərar qəbul edildikdən sonra mərkəzi partiya və dövlət orqanları kollektivləşdirmənin sürətini artırmaq tələbi ilə yerli orqanlara və kütləvi mətbuata təzyiqi artırdı. Bu işdə yarışanlar şirnikləşdirilməyə başlandı. Məsələn, 1930-cu il fevralın 3-də «Pravda» qəzeti yazırdı ki, «1930-1931-ci ildə yoxsul-ortabab təsərrüfatların 75%-nin kollektivləşdirilməsinin nəzərdə tutulması maksimum hədd deyil». Yuxarıların təzyiqi, daim «sağ təmayülə» mənsub edilmək qorxusu yerli işçiləri inzibati tədbirlərə əl ataraq kəndliləri kolxozlara zor gücünə daxil olmağa məcbur edirdi. İ.Stalinin təkidilə SSRİ XKS öz qətnaməsində adam başına bir il ərzində 300 rubldan çox gəliri olan (ailə üzrə isə 1500 rubldan az olmayan), ticarətlə məşğul olan, maşın, yer icarəyə verən, muzdlu əmək tətbiq edən, dəyirman, yağ, yarma, meyvə və tərəvəzqurutma qurğuları olan kəndlilər qolçomaqlara aid edilirdi. Qolçomaqlar 3 qrupa bölünürdü ki, birincilər, «əks-inqilabi fəallar» hesab

ediləərək ən yüksək cəzaya, güllələnməyə məhkum edilirdi. İkinci qrupa, «qolçomaq fəallarının ayrı-ayrı elementləri» aid edilirdi və onları ölkənin uzaq rayonlarına sürgünə göndərmək nəzərdə tutulurdu. Üçüncü «yerdəqalan qrup qolçomaqlar» yaşadıqları rayonların ərazisində kolxoz təsərrüfatlarından kənarda yeni məskənlərdə yerləşdirilməli idi.» Qətnaməyə görə ölkənin 9 regionundan 60 min nəfər cəza düşərgələrinə, 150 min qolçomaq isə sürgünə göndərilməli idi. Qolçomaqların müsadirə edilən istehsal vasitələri və əmlakı yoxsul və muzdurların daxil olma haqqı kimi kolxozların bölünməz fonduna keçirdi. Bununla dövlət kəndin daxildən parçalanmasını və yoxsulları kollektivləşdirmənin tərəfdarı kimi səfərbər etməyi nəzərdə tuturdu. Dövlət Siyasi İdarəsinin məlumatına görə, 1930-1931-ci illərdən 1 803 392 nəfərdən ibarət olan 381 026 qolçomaq ailəsi Sibir, Qazaxıstan və Şimala sürgün edilmişdir. 200-250 min qolçomaq ailəsi «özü-özünü qolçomaqlıqdan» salaraq, əmlakını ataraq şəhər və sənaye tikintilərinə qaçmışdır. 1932-1936-cı illərdə qolçomaqlıqdan salmaq aşağı düşərək 100 min təsərrüfatdan çox olmamışdır. 1930-1933-cü illərdə qolçomaqlıqdan salınanların üçdə biri və ya 2 mln. 140 min adam sürgünə göndərilmişdir. Beləliklə, qolçomaqlıqdansalma kampaniyası nəticəsində 4-6 mln. adamı əhatə edən bir mln. kəndli təsərrüfatı ləğv edilmişdi. Qolçomaqlara göstərilən bu vəhşi münasibətə cavab olaraq onlar əllərinə silah alaraq hakimiyyətə müqavimət göstərməyə cəhd etdilər. 1930-cu ilin yanvar-aprel aylarında 1 755 min nəfəri əhatə edən 6117 qolçomaq çıxışı qeydə alınıb. Eyni zamanda kəndli çıxışları Mərkəzi qara torpaq vilayətlərinin 1000-dən çox, Orta və Aşağı Volqada 801, Moskva vilayətində 459, Sibirdə 200-dən çox yaşayış məntəqəsini əhatə etdi.

Kəndlilərin narazılığının qarşısını almaq və kəndin «xırda mülkiyyətçilik» psixologiyalı əhalisinin üzərinə hücum üçün vaxt qazanmaq məqsədilə partiya və dövlət növbəti manevrə əl atdı. 1930-cu il martın 2-də Stalin «Müvəffəqiyyətlərdən baş gicəllənməsi» məqaləsini dərc etdirərək kollektivləşdirmədəki yol verilən səhvləri yerli partiya-dövlət işçilərinin üzərinə yıxdı. Bu isə tapşırıqları bilavasitə yerinə yetirən vilayət və rayon partiya təşkilatları rəhbərlərinin etirazına səbəb oldu. Siyasi Büro martın 14-də «Kolxoz hərəkatında partiya xəttinin əyilməsi ilə mübarizə haqqında» qərar qəbul etdi ki, bu da Stalinin məqaləsindəki fikirlərin təsdiq olunması demək idi. Bilavasitə yuxarı partiya mərkəzinin kolxoz hərəkatındakı əyintilərindən bəhsetmə və onunla mübarizə elan olunma, kolxozlara zorla girməyə məcbur edilən kəndlilərin kolxozlardan kütləvi getməsinə səbəb oldu. Bunun nəticəsində 1930-cu il martın 1-də SSRİ üzrə kollektivləşdirilmiş təsərrüfatlar 56%-dən 1930-cu il iyunun 1-də 23,6%-ə düşdü.

1932-1933-cü illərdə kollektivləşdirməyə və qolçomaqlıqdan salmağa məruz qalan taxılçılıq rayonlarında dəhşətli aclıq başladı. 1931-ci ilin məhsulu orta göstəricidən aşağı olmasına baxmayaraq, taxıl tədarükünün həcmi nəinki azalmadı, hətta artırılırdı. Bu isə onunla izah edilir ki, sənaye avadanlığı almaq məqsədilə xaricə daha çox taxıl satmaq və valyuta əldə etmək tələb olunurdu. Məsələn, birinci beşillikdə xarici ölkələrə satmaq məqsədilə 12, 1930-cu ildə 4,8, 1931-ci ildə 5,1, 1932-ci ildə isə 1,8 mln. ton taxıl ixrac edilmişdi. Taxılı kəndliliərdən zorla alaraq onlara hətta zəruri olan minimumu saxlamırdılar. Belə vəziyyət 1932-ci ildə də təkrar edildi. Kəndlilər başa düşdülər ki, taxılı onların əlindən alacaqlar, odur ki onu gizlətməyə başladılar. Eyni zamanda taxılın xeyli hissəsi tədarük edilməyərək əkin sahələrində qaldı. Əsas taxılçılıq rayonlarında taxıl tədarükü pozuldu. Buna cavab olaraq, dövlət sərt soyğunçuluq tədbirlərini tətbiq etməyə başladı. Taxıl tədarükü planını yerinə yetirməyən rayonların kəndlilərinin bütün ərzaq ehtiyatı əllərindən alındı və onlar aclıqdan ölməyə məhkum edildilər. Aclıq daha çox məhsuldar olan taxılçılıq rayonları Şimali Qafqaz, Aşağı və Orta Volqaboyunu, Donu, Ukraynanın düzənliyini, Cənubi Ural və Qazaxıstanı bürüdü. Bu, süni şəkildə partiya və dövlət tərəfindən təşkil edilmiş aclıq idi. Fərqli məlumatlara əsasən, aclıqdan ölənlərin sayı 4 il ərzində 8 mln. nəfərə qədər idi. Aclığın şiddətli vaxtı olan 1932-ci il avqustun 7-də «Dövlət müəssisələrinin, sovxoz və kooperativ əmlakının qorunması və ictimai (sosialist) mülkiyyətinin möhkəmləndirilməsi haqqında» qanun qəbul edildi. Qanuna əsasən, ən az miqdarda olsa da, dövlət və kolxoz əmlakının oğurlanması güllələnmə və ya 10 il azadlıqdan məhrum etməklə cəzalandırılırdı. Aclıqdan ölmək istəməyən qadın və yeniyetmələr gecələr sünbülün başlarını qayçı ilə kəsdikləri və yaxud əkilmiş buğdanı sahələrdən çıxarıb istifadə etdikləri üçün daha çox qanun qurbanlarına çevrildilər. Yalnız 1932-ci ildə 7 avqust qanununa əsasən, 50 min nəfər adam repressiyaya məruz qalmış, onlardan 2 min nəfəri güllələnməyə məhkum edilmişdir və onların da təqribən mini yerinə yetirilmişdir. Aclıq illərində kollektivləşdirmə prosesi dayandırılmışdır. Müasir Ukraynada «Qolodomor» adlandırılan Sovet Rusiyasındakı 1932-1933-cü illər aclığına Moskvadakı mərkəzi hakimiyyətin etnik ukraynılıların bolşevik rejiminə müqavimətinə cavab olaraq qəsdən genosid siyasəti tətbiq kimi qiymət verirlər. 1932-1933-cü ilin faciəsində Qazaxıstan müsibəti ayrıca yer tutur. 1934-cü ildə Stalin rəhbərliyi taxıl tədarükünün inzibati metodunu Qazaxıstanın heyvandarlıq rayonlarına tətbiq edərək yaşamaq vasitəsindən məhrum olan əhalini aclıqla üz-üzə qoymuşdur. Aclıqdan 1,5 mln. nəfər adam ölmüş, bir o qədər də adam aclıqdan və kollektivləşmədən qaçaraq SSRi-nin sərhədlərindən kənarda köçəri həyat sürməyə başlamışdır.

Yalnız 1934-cü ildə aclıq dayandıqdan sonra kənd təsərrüfatı istehsalı və kəndlilərin üzərinə qoyulan verginin daim artması onları ya kolxoza daxil olmaq, ya da kəndi tərk etmək dilemması qarşısında qoydu. 1937-ci ildə kəndlilərin 93%-i kolxozçulara çevrildi. İkinci beşilliyin sonunda kollektivləşdirmə əsasən başa çatdı. Kolxozların sayı 242,5 min oldu. 1,4 mln. (7%) fərdi kəndli təsərrüfatı qalmışdı, kənd əhalisi qolçomaqlıqdan salınma, şəhərlərə köçmək və aclıq sayəsində 15-20 mln. nəfər azalmışdır. Kolxozlar Sovet və Partiya orqanlarının sərt nəzarəti altında idi. Kənd təsərrüfatı məhsullarının satış qiyməti son dərəcə aşağı səviyyədə müəyyən edilirdi. Bununla bərabər, kolxozlar həm öz məhsullarından MTS xidmətinin əvəzini ödəməli, həm də dövlətə natural vergi verməli idi. Nəticədə kolxozçular faktiki olaraq pulsuz çalışırdılar. Onların hər biri cinayət məsuliyyətinə cəlb edilmək qorxusu ilə kolxoz tarlasında minumum əmək günü qazanmağa məcbur idi. Kənd əhalisinin 1932-ci ilə kimi pasportu olmadığı üçün onlar kolxoz idarə heyətinin razılığı olmadan kəndi tərk edə bilməzdilər. Kəndlilərin şəhərlərə qaçmasının qarşısını almaq məqsədilə tətbiq olunan pasport sisteminə əsasən, kəndlilər yalnız kolxoz idarə heyətinin razılığı ilə pasport ala bilərdi. Kəndli ailələrinin yaşamasının əsas mənbəyi onların həyətyanı təsərrüfatlarından götürdüyü gəlir idi. Kollektivləşdirilmənin nəticəsində taxılçılığın məhsuldarlığı aşağı düşdü. Əhalinin sayına düşən taxıl istehsalı 1928-ci ildəki 47-dən 1940-cı ildəki 40-44 s/ha düşdü. Heyvandarlıq məhsulları 40% azaldı. Beləliklə, kollektivləşdirmə kəndliləri aclıq və repressiyaya məruz qoyaraq kənd təsərrüfatına ağır zərbə vurdu.

Kənd təsərrüfatını kollektivləşdirmək siyasəti nəticəsində kənddən sənayeyə böyük həcmdə vəsait nəql edildi. Dünya bazarına ölkədə çatışmayan taxıl, yağ, qənd satılırdı. Əldə edilən valyutaya sənaye nəhəngləri üçün dəzgah və avadanlıq alınırdı. Kolxoz quruluşunun bərqərar olması ilə SSRİ-də iki mülkiyyət – dövlət və kolxoz-kooperativ mülkiyyət forması yarandı. Tədricən kənddə vəziyyət normallaşmağa başladı. Sənayenin inkişafı traktor və kombaynların artmasına, bu isə torpağın texniki emalının və məhsuldarlığın yüksəlməsinə səbəb oldu. 1935-ci ildən başlayaraq kənd təsərrüfatı məhsullarının satış planı əsasən yerinə yetirilirdi. 1936-cı ildə ərzaq bölgüsünün kart sistemi ləğv edildi. Dövlət əmək məhsuldarlığını artırmaq məqsədilə kəndlilərdə maddi maraq oyatmaq siyasəti yeritməyə başladı. Xüsusilə dövlətə verilən taxılın dəqiq miqdarı müəyyən olundu. Normadan artıq məhsul könüllük əsasında və yüksək qiymətlə alına bilərdi. 1935-ci ilin fevralında zərbəçi kolxozçuların II Ümumittifaq qurultayında qəbul edilən Yeni Kolxoz Nizamnaməsi torpaqların daimi və əvəzsiz olaraq kolxozlara təhkim edərək torpaqların alı-

nıb-satılma və icarəyə verilməsinin qadağan olunmasını bir daha təsdiq etdi. Nizamnamə kolxozçulara 0,25-0,5 ha, bəzi rayonlarda isə 1 ha kimi şəxsi təsərrüfat sahəsinə, 2-3 inək və qeyri-məhdud miqdarda quşa sahib olmağa icazə verirdi. Beləliklə, həyətyanı sahələrə və burada inək, xırdabuynuzlu heyvan, donuz, quş və s. saxlanılmasına və əldə edilən məhsulun bazarda satılmasına icazə verildi. Artıq 1937-ci ildə həyətyanı sahələr tərəvəz və kartofun ümumi məhsulunun 50, ət, süd və gönün 70%-ni verirdi.

### §3. Hakimiyyət uğrunda partiyadaxili mübarizə

«Üçlər» məğlub olduqdan sonra 1926-cı ilin aprelində Q.Y.Zinovyev, L.B.Kamenev, L.D.Trotski və onların tərəfdarları K.B.Radek, Y.A.Preobrajenski, Q.L.Pyatakov, Q.Y.Sokolnikov, V.A.Antonov-Ovseyenko, N.İ.Muralov, A.Q.Şlyapnikovun «fəhlə müxalifətinin» fəalları, T.V.Sapronovun «demokratik mərkəzçilər» qrupunun daxil olduğu yeni, müxtəlif baxışlı adamları birləşdirən müxalifət meydana gəldi. Daxilən çox da möhkəm olmayan bu müxalifət bir-birilə şəxsi və nəzəri görüşlərinə görə çəkişən adamlardan təşkil olunmasına baxmayaraq, onların hamısı İ.Stalinə qarşı birləşmişdilər. Müxalifət partiyanın yeritdiyi siyasi kursun dəyişdirilməsini tələb edirdi. Bunun üçün ağır sənaye sürətlə inkişaf etdirilməli, fəhlələrin həyat şəraiti və partiyanın demokratikləşməsi yaxşılaşdırılmalı, qolçomaqların varlanmasına qarşı mübarizə aparılmalı idi. Bir neçə min nəfərdən ibarət olan müxalifətçilər gizli təşkilatlar yaradaraq, bir sıra müəssisələrin ilk partiya özəklərində çıxış edərək onları partiyanın rəhbərliyinə qarşı qaldırmağa cəhd edirdilər. 1926-cı ilin iyul pleniumunda müxalifətin müraciəti kəskin müzakirələrə səbəb oldu ki, bu zaman AXTŞ-ın sədri, Dövlət Siyasi İdarəsinin başçısı F.E.Dzerjinski ürək tutmasından vəfat etdi. Siyasi Büroda Q.Y.Zinovyevi Y.E.Rudzutak əvəz etdi. İ.Stalinin adamları A.A.Andreyev, L.M.Kaqanoviç, G.K.Orconikidze, A.İ.Mikoyan və S.M.Kirov Siyasi Büro üzvlüyünə namizədlər sırasına daxil edildilər.

Trotski-Zinovyevçi müxalifət bloku partiya daxilində fraksiya və qruplaşma azadlığı tələb edir, partiya aparatını tənqid edərək, rəhbərliyə qarşı mübarizə aparırdılar ki, bu da 20-ci illərin axırlarına kimi davam etdi. 1926-cı il oktyabrın 23-26-da olan MK-nın plenumunda L.D.Trotskini və L.B.Kamanevi Siyasi Büronun tərkibindən çıxardılar. Q.Y.Zinovyevin yerinə Kominternin İcraiyyə Komitəsinin sədri vəzifəsinə N.İ.Buxarini təyin etdilər. İ.Stalinin «ayrıca götürülmüş bir ölkədə sosializmin qurulması» haqqında tezisi XV

partiya konfransında (27 oktyabr-3 noyabr 1926-cı il) yekdilliklə qəbul edilərək, müxalifət liderləri ciddi tənqid atəşinə tutuldu. Bu partiyalarda bəhs olunan məsələnin müzakirənin başa çatması idi. Partiyanın rəhbərliyi daha dünya inqilabını gözləməyə hazırlaşmırdı. Dövlət Siyasi İdarəsinin ciddi nəzarəti altında olan müxalifət liderləri sentyabr ayında islahat proqramı ilə çıxış edərək tələb etdilər ki, növbəti XV partiya qurultayında seçiləcək MK-nın tərkibi aparatdan asılı olmayaraq kütlə ilə sıx əlaqədə olsun. Bu sənədi gizli çap etdirdikləri üçün 1927-ci il oktyabrın 21-23-də MK plenumunda L.Trotski və Q.Zinovyev MK-nın üzvlüyündən çıxarıldı. 1927-ci il noyabrın 7-də Oktyabrın 10-cu il dönümü bayramında Q.Zinovyev və K.Radek Leninqradda, X.Rakovski Xarkovda, Y.A.Preobrajenski və L.Trotski Moskvada öz şüarları ilə çağırışlarını təkrar etdilər. Buna cavab olaraq noyabrın 14-də L.Trotski və Q.Zinovyevi partiyadan xaric etdilər. L.Kamenev və X. Rakovskini MK-nın tərkibindən azad etdilər. Partiyanın XV qurultayında isə müxalifətin 93 nəfər fəal üzvü, o cümlədən L.Kamenev, Q.Pyatakov, K.Radek, X.Rakovski, İ.Şmilqa partiyadan çıxarıldı. Qurultay başa çatdıqdan dərhal sonra minlərlə trotskiçi partiyadan uzaqlaşdırıldı. Beləliklə, sol müxalifət partiya da özünün bütün rəsmi mövqeyini itirdi. 1928-ci ilin yanvarında L.Trotski və 30 nəfər müxalifət üzvü Alma-Ataya sürgün edildi.

Q.Zinovyev və L.Kamenev ÜİK(b)P-nin qurultayının Rəyasət Heyətinə peşmançılıq ərizəsilə müraciət etdikləri üçün 1928-ci ilin iyununda partiya sıralarına bərpa olundular. Çox güman ki, İ.Stalin gələcəkdə sağ müxalifətlə mübarizədə onların köməyindən istifadə etməyi nəzərdə tutaraq belə bir addım atmışdır.

1928-ci il Donbasın «Donuqol» trestində burjua mütəxəssislərinin Qərbin maliyyə qüvvələri ilə birgə əlaqəsindən meydana gələn sənaye təxribatı əməlləri aşkar edildi. Bir neçə həftədən sonra 1922-ci ildə keçirilmiş eserlər üzərindəki açıq məhkəmə prosesindən sonra ilk dəfə 53 nəfərə qarşı açıq məhkəmə prosesi təşkil olundu. 1928-ci il mayın 18-dən iyulun 5-nə kimi davam edən «Şaxta işi» üzrə 53 nəfərin açıq məhkəmə prosesinin iştirakçıları əsasən köhnə texniki ziyalılar idi. «Şaxtaçılar» yalnız ziyankarlıq əməllərində deyil, xarici antisovet mərkəzləri və «Moskva ziyankarları» ilə əlaqə saxladıqları gizli təşkilat yaratmaqda da ittiham edilirdilər. Onlara qarşı irəli sürülən ittihamlar həqiqətdən çox uzaq olmasına baxmayaraq SSRİ-nin Ali Məhkəməsi A.Y.Vışinskinin sədrliyilə 11 nəfərə ölüm hökmü, qalanlara isə müxtəlif müddətə həbs cəzası kəsmişdir. Yalnız bir neçə alman vətəndaşı əfv edilmişdir. Ölüm hökmü olan 6 nəfərin cəzası SSRİ MİK Rəyasət Heyətinin qərarı ilə 10 il ciddi rejimli həbs cəzası və əmlaklarının müsadirə edilməsilə əvəz

edilmişdir. Beş nəfər, o cümlədən mühəndislər N.N.Qorletski, N.K.Krjijanovski, A.Y.Yuseviç, N.A.Boyarinov və qulluqçu S.Z.Budnıy 1928-ci il iyulun 9-da güllələnmişlər.

«Saxta işi» üzrə məhkəmə başa çatmamış 1928-ci ilin iyulunda ÜİK(b)P MK-nın plenumunda İ.Stalin özünün məlum acınacaqlı «biz imkan daxilində irəliyə hərəkət etdikcə kapitalist elementlərinin müqaviməti artaraq, sinfi mübarizə şiddətlənəcəkdir» tezisini elan etmişdir. Təbliğat xarakterli proses əslində kommunistləri müxalifətə qarşı təmayülçü və o cümlədən «qolçomaq təhlükəsinə» və «sağdan təhlükəyə» qarşı səfərbər etməyə xidmət edirdi. Yeni iqtisadi siyasətin tərəfdarları ilə əleyhdarları arasında MK-da, Siyasi Büroda amansız mübarizə gedirdi. İ.Stalini müdafiə edən V.M.Molotov, Y.E.Rudzutak, K.E.Voroşilov az da olsa, üstünlük təşkil edirdilər. M.İ.Kalinin tərəddüd edir, A.İ.Rıkov, M.P.Tomski, N.İ.Buxarin isə «sağ müxalifəti» təmsil edirdilər. 1928-ci il iyulun 4-dən 12-nə kimi davam edən ÜİK(b)P MK-nın plenumunda çıxış edən İ.Stalin qeyd etdi ki, yeni iqtisadi siyasət dalana daxil olub, gərgin sinfi mübarizə şəraitində kapitalist elementlərinin kəskin müqaviməti məcbur edir ki, kəndliləri sənayeləşdirmənin ehtiyaclarına tabe edək. Bu çıxışdan dəhşətə gələn N.Buxarin belə hesab edirdi ki, Baş katibin mülahizələri ölkəni terror, vətəndaş müharibəsi və aclığa məhkum edəcək. Sentyabrın 30-da N.Buxarin «Правда» qəzetində «İqtisadçının qeydləri» məqaləsini dərc etdirərək müxalifətin proqramını şərh etdi. Müəllifə görə, planlaşdırmanın ziyanlı olması, qiymətləndirmədəki səhvlər, sənaye mallarının çatışmazlığı kənd təsərrüfatı kooperativlərinə köməyin effektsiz olması ölkədəki böhranın səbəbləri idi. Kəndlilərə güzəştə gedərək bazarların açılması, taxılın satınalma qiymətinin yüksəldilməsi və xaricdən çörək alınması hesabına vəziyyəti düzəltmək olar. 1928-ci il oktyabrın 21-də L.D.Trotski İ.Stalinin «sol ideyaya» yaxın olan sənayeləşdirmənin sürətli inkişafı və kənd təsərrüfatının sosialist bölməsinin genişləndirilməsi planına qarşı bütün kommunistləri mübarizə aparmağa çağırıdı. Bundan istifadə edən Siyasi Büro L.D.Trotskini gizli «antisovet partiyası» yaratmaqda ittiham edərək 1929-cu il yanvarın 21-də SSRİ-dən Türkiyəyə sürgün etdi. Həmin gün V.İ.Leninin ölümünün 5-ci ildönümü münasibəti ilə N.Buxarin «Правда» qəzetində Leninin siyasi vəsiyyətinə həsr etdiyi məqalə dərc etdirdi. O öz məqaləsində Leninin «sülh, tədrici və könüllülük» prinsipinə əsaslanan kooperasiya planı ilə İ.Stalinin məcburi kollektivləşmə layihəsinin fərqini açıb göstərdi.

1929-cu il yanvarın 30-dan fevralın 9-na kimi davam etmiş MK-nın Siyasi Bürosunun və MNK-nın birgə iclasında İ.Stalin ilk dəfə sağ müxalifətin liderləri Buxarin, Rıkov, Tomskinin adlarını çəkərək onları «sağ opportunist

təslimçilik» platformasına, trotskiçilərlə partiya əleyhinə blok yaratmaq cəhdinə görə tənqid etdi. 1929-cu il aprelin 16-23-də toplanmış partiyanın MK-sı və MNK-nin birləşmiş plenumu «sağlar» yəni, Buxarin qrupu haqqında Siyasi Büronun təklif etdiyi qərarı qəbul etmişdir. İ.Stalinin sözlərinə görə, N.Buxarinin xarici və daxili siyasət sahəsində yeritdiyi xətt fəhlə sinfi və inqilaba xəyanətdir ki, bunun da səbəbi onun əsl marksist olmaması ilə bağlıdır. 1929-cu il iyunun 25-də N.İ.Buxarin Kominternin rəhbərliyindən azad edildi, onun yerini ÜİK(b)P-nin nümayəndəliyinin rəhbəri kimi V.M.Molotov tutdu. Noyabrın 12-də «sağların» liderləri partiyanın MK-sı və MNK-nın plenum üzvlərinə müraciət ünvanlayaraq bildirdilər ki, yeni iqtisadi siyasətdən imtina edərək hərbi kommunizmin dirçəldilməsi kənd təsərrüfatında böhrana, böyük şəhərlərin ərzaqla təmin edilməsində çətinliyə səbəb olacaq. Stalin hakimiyyətinin cavab qətnaməsi sərt oldu. N.Buxarin Siyasi Büronun heyətindən çıxarıldı. Stalinin tərəfdarları «sağ trotskiçi» müxalifətlə ideya mübarizəsindən qalib ayrıldı. 1930-cu ilin iyulunda M.Tomski, dekabrında A.Rıkov Siyasi Büronun tərkibindən uzaqlaşdırıldı. A.İ.Rıkov SSRİ XKS-nin sədri vəzifəsindən azad oldu. Onu bu vəzifədə V.Molotov əvəz etdi. M.P.Tomski SSRİ Həmkarlar İttifaqının sədri vəzifəsindən çıxarıldı. Onun yerinə N.M.Şvernik seçildi. Bir neçə ay ərzində 170 min nəfər (11%) «Partiya xəttinə siyasi müxalifətdə olması» maddəsilə partiya üzvlüyündən xaric edildi.

# XXIII FƏSİL
# 1920-1930-cu İLLƏRDƏ BEYNƏLXALQ VƏZİYYƏT VƏ SSRİ-nin XARİCİ SİYASƏTİ

## §1. 1920-ci illərdə SSRİ-nin xarici siyasəti

Vətəndaş müharibəsi başa çatandan sonra Sovet dövləti dinc təsərrüfat quruculuğu dövrünə qədəm qoydu. Dinc quruculuğa keçmək mürəkkəb beynəlxalq şəraitdə baş verdi. Sovet hökuməti öz siyasətində iki müxtəlif ictimai quruluşun dinc yanaşı yaşama prinsipini əldə rəhbər tutsa da, digər tərəfdən, dünya proletar inqilabına doğru irəliləmək ideyası ilə silahlanmış komintern təşkilatlarına hərtərəfli kömək göstərirdi.

Artıq 1920-1921-ci illərdə Sovet Rusiyası bir sıra dövlətlər ilə ticarət və diplomatik münasibətlər yaratdı. 1920-ci ildə Estoniya (2 fevral), Litva (12 iyul), Latviya (11 avqust), Finlandiya (14 oktyabr) ilə RSFSR arasında diplomatik əlaqələr quruldu.

1921-ci il martın 16-da İngiltərə ilə ticarət sazişinin bağlanması əslində İngiltərənin Sovet dövlətini tanıması demək idi, belə ki, bu həm də siyasi xarakter daşıyırdı. Hər iki tərəf düşmənçilik hərəkətlərindən və öz ölkələri sərhədlərindən kənarda bir-birinin əleyhinə təbliğat aparmaqdan əl çəkməyi bəyan etdilər. Həmin saziş imzalandıqdan sonra 1921-ci il 6 may tarixli müvəqqəti Sovet-Almaniya ticarət sazişi bağlandı. Bu sazişdə Almaniya Böyük Britaniyadan irəli gedərək RSFSR-in nümayəndələrini Rusiya dövlətinin Almaniyada yeganə qanuni nümayəndələri kimi tanıdı, ona diplomatik hüquqlar və üstünlüklər verdi. 1921-1922-ci illərdə Norveç, Avstriya, İtaliya, İsveç və Çexoslovakiya ilə eyni ticarət-iqtisadi sazişlər imzalandı. Həmin ölkələrin hakim dairələri Sovet Rusiyası ilə iqtisadi əlaqələr yaratmağa məcbur olsalar da, Sovet dövlətlərini hüquqi cəhətdən tanımaqdan boyun qaçırdılar. ABŞ Sovet dövlətinə qarşı xüsusilə barışmaz mövqe tuturdu.

ABŞ-ın hakim dairələri Uzaq Şərq məsələsinə dair 9 dövlətin Vaşinqton Konqresinə (noyabr 1921-ci il-fevral 1922-ci il) Sovet Rusiyasını dəvət etmədilər. RSFSR ilə bağlı olan bir sıra məsələlər, o cümlədən Şərq Çin Dəmiryolu (КВЖД), Sovet Uzaq Şərqində yapon müdaxiləsi və s. bu konfransda müzakirə edilirdi. Rusiya hökuməti 1921-ci il iyulun 19-da özünün qəti etirazını bildirdi və bəyan etdi ki, Vaşinqton konqresinin qəbul etdiyi heç bir qərarı tanımayacaq.

Sovet dövləti Şərq ölkələri ilə dostluq münasibətlərini möhkəmləndirməyə böyük əhəmiyyət verirdi. Rusiya dövləti 1921-ci ildə İran, Əfqanıstan və Türkiyə ilə müqavilələr bağladı. Beş ay davam edən danışıqlardan sonra 1921-ci il 26 fevral tarixli Sovet-İran müqaviləsi imzalandı. Dostluq və əməkdaşlıq haqqında olan müqaviləyə görə, Rusiya İranın zərərinə olaraq Çar hökumətinin üçüncü dövlətlərlə bağladığı qeyri-bərabər hüquqlu müqavilələrdən, sazişlərdən imtina etdi. RSFSR hökuməti İran ərazisindəki bütün Çar konsessiyalarından, pul iddialarından imtina etdi, Xəzər dənizində İranın öz donanmasına malik olmaq hüququna razılıq verdi. Müqavilənin 6-cı maddəsi xüsusi əhəmiyyətə malikdir. Bu maddə İran ərazisini işğal etmək və ya İranı Sovet Rusiyası əleyhinə hərbi əməliyyat bazasına çevirmək məqsədilə hər hansı bir dövlət tərəfindən İran ərazisinə silahlı basqın ediləcəyi təqdirdə Sovet dövlətinin özünü müdafiə naminə lazımi tədbirlər görmək üçün öz qoşunlarını İrana yeritmək və təhlükə ləğv edilən kimi oradan qoşunlarını çıxarmağı nəzərdə tuturdu. Məhz bu 1941-ci ildə SSRİ qoşunlarının İran ərazisinə daxil olmağa imkan vermişdir. Müqavilədə hüquq bərabərliyi, suverenliyə hörmət, daxili işlərə qarışmamaq, çoxcəhətli əməkdaşlıq, iqtisadi və mədəni inkişaf sahəsində kömək və s. prinsiplər nəzərdə tutulmuşdur.

1921-ci il fevralın 28-də Sovet Rusiyası ilə Əfqanıstan arasında dostluq və əməkdaşlıq haqqında müqavilə də bu cür prinsiplər üzərində qurulmuşdu. Əfqanıstanın elan etdiyi siyasi müstəqilliyini tanıyan ilk ölkə Sovet dövləti idi. Müqavilənin şərtlərinə görə, tərəflər bir-birinə qarşı yönəldilmiş hərbi-siyasi ittifaqa qoşulmamalı idi. Sovet hökuməti Əfqanıstana təmənnasız iqtisadi və hərbi yardım göstərirdi.

Kapitalist dövlətlərinin Osmanlı dövlətini bölmək, onu yarımmüstəmləkə rejimli bir ölkəyə çevirmək planları Mustafa Kamal Atatürkün rəhbərliyi ilə milli hərəkatın başlanmasına gətirib çıxartdı. Yunanıstan ordusu məğlub edildikdən sonra Sovet Rusiyası Osmanlı ilə Antanta dövlətləri arasında müharibədə türklərə yardım göstərirdi. 1921-ci il martın 16-da Sovet Rusiyası ilə Türkiyə arasında dostluq və əməkdaşlıq müqaviləsi imzalandı. Sovet Rusiyası və Türkiyə Naxçıvanı Azərbaycanın tərkibində muxtar ərazi kimi tanıdı. 1921-ci il oktyabrın 13-də Qarsda Türkiyə ilə Zaqafqaziya Sovet Respublikaları, 1922-ci il yanvarın 2-də isə Ukrayna ilə Türkiyə arasında dostluq və əməkdaşlıq haqqında müqavilə bağlandı.

Sovet hökuməti yarandığı ilk vaxtlardan özünün böyük qonşu dövləti olan Çinlə dostluq münasibətləri qurmağa çalışırmışdır. O, Rusiyanın Çindəki bütün xüsusi hüquq və imtiyazlarından imtina edərək, qarşılıqlı hüquq bərabərliyi əsasında Şərqi Çin dəmiryolu, konsessiyalar və s. haqqında müqavilələrə

yenidən baxılmasını irəli sürdü. 1918-ci ilin may ayında Sovet tərəfi Çin hökumətindən onun ərazisindən Sovet dövlətinə qarşı Semyonov dəstəsininin təxribatlar törətməsinin qarşısını almağı xahiş etdi. Pekin hökuməti bu xahişə cavab verməyərək 1917-ci il dekabrın 27-də Sovet Rusiyasına ərzaq, o cümlədən çay göndərilməsini qadağan etdi, 1918-ci il yanvarın 11-də Çin sərhədi bağlandı və yük göndərilməsi dayandırıldı. Martın axırlarında Petroqraddakı Pekin hökumətinin nümayəndəsi geri çağrıldı. 1918-ci il avqustun 24-də Pekin hökuməti öz qoşunlarını Sibirdə fəhlə-kəndli hakimiyyəti ilə mübarizədə müttəfiqlərə kömək etmək məqsədilə Sibirə göndərməyi elan etdi. 1920-ci il aprelin 6-da yaradılan Uzaq Şərq Respublikası (UŞR) may ayında Pekin hökumətinə müraciət edərək bütün mübahisəli məsələləri həll etmək üçün RSFSR, UŞR və Çinlə birgə konfrans keçirməyi irəli sürdü. Hər iki tərəf arasında baş tutan danışıqlar rəsmi münasibətlərin yaranmasına səbəb olmasa da, Pekin hökumətinin Çar Rusiyasının missiya və konsulluq xidmətindən imtina etmək haqqında qərarı müsbət addım idi.

Sovet dövləti Koreya və Monqolustanla da əlaqə qurmağa çalışırdı. 1919-cu ilin mart ayında Koreyadakı xalq üsyanından sonra RSFSR hökuməti Koreya inqilabı təşkilatlarına və xalqa müraciət edərək yapon işğalçılarına qarşı birgə mübarizə aparmağı təklif etdi. Uzaq Şərqdəki gərgin hərbi-siyasi vəziyyət və vətəndaş müharibəsi Koreya ilə Sovet Rusiyası arasında münasibətlərin yaranmasına mane oldu.

Sovet-monqol münasibətləri uğurla inkişaf edirdi. 1918-ci ilin fevralında Sovet hökuməti Muxtar Monqol hökumətinə çarizmin Monqolustanda keçmişdə yeritdiyi siyasətdən imtina etdiyini bildirdi. 1919-cu il avqustun 3-də Sovet Rusiyası bir daha monqol xalqı və hökumətinə müraciət edərək Çar Rusiyasının Monqolustandakı bütün güzəşt və imtiyazlarından əl çəkdi. Bunun ardınca Rusiyadakı vətəndaş müharibəsindən istifadə edən Çin millitaristləri 1918-ci ilin oktyabrında Monqolustana hücum edərək orada müstəmləkə ağalığını bərpa etməyə çalışdı. Monqolustanda meydana gələn inqilabi təşkilat kömək üçün Sovet Rusiyasına müraciət etdi və bu məqsədlə 1920-ci ilin payızında Moskvaya nümayəndə göndərdi. Monqolustan ərazisinə daxil olan ağqvardiyaçılarla və 1920-ci ilin oktyabrında hücuma keçən baron Ungerinin dəstələri ilə mübarizə aparmaq üçün Qızıl Ordu qoşunları köməyə gəldi. 1921-ci il iyulun 7-də Monqolustan xalq ordusu, Qızıl Ordu və UŞR-in Hərbi-İnqilabı Ordu hissələrinin birgə əməliyyatı ilə paytaxt Urqa şəhəri azad olundu. İyulun 12-də Monqolustan Xalq hökuməti yaradıldı. 1921-ci ilin oktyabrında monqol inqilabının rəhbəri, hərbi nazir Suxe-Batorun başçılığı ilə nümayəndə heyəti danışıqlar üçün Moskvaya gəldi. Noyabrın 5-də RSFSR hökuməti və

Monqolustan nümayəndələri arasında hər iki ölkə arasında dostluq münasibətləri haqqında müqavilə imzalandı. Müqavilə bu ölkələr arasında iqtisadi və siyasi əməkdaşlığın möhkəm əsasını qoydu.

Sovet Rusiyasını hərbi yolla məğlub edə bilməyən kapitalist ölkələri onu ticarət, diplomatik və iqtisadi vasitələrlə özlərinə tabe etmək planlarını tərtib etməyə başladılar.

Antanta ölkələri Avropanın iqtisadiyyatının bərpası ilə bağlı Genuyada Sovet Rusiyasının və məğlub Almaniyanın iştirakı ilə bütün Avropa dövlətlərinin iqtisadi və maliyyə məsələləri üzrə konfransını çağırmaq qərarına gəldi. Sovet dövlətini iqtisadi cəhətdən özlərindən asılı etməyə çalışan İngiltərə, Fransa, İtaliya, Yaponiya, Belçika və Almaniya bu konfransa ciddi hazırlaşmağa başladılar. Uzun danışıqlardan sonra Avropanın böyük dövlətləri, nəhayət Genuya konfransında həlledici məsələlərin layihəsini birgə müzakirə etmək üçün Kanda (Fransa) müşavirə çağırdılar. Kann müşavirəsi 1922-ci il yanvarın 6-da başlandı. Antanta dövlətlərinin Kann müşavirəsi Genuya konfransına hazırlıqda mühüm mərhələ oldu. Avropa ölkələri arasında iqtisadi əlaqələri bərpa etmək, zəif ölkələrə kredit verilməsi kimi məsələləri həll etmək üçün Genuyada Sovet Rusiyasının iştirakı ilə konfrans keçirilməsi haqqında qərar qəbul edildi.

1922-ci il martın 20-dən 28-dək Londonda Antanta dövlətlərinin iqtisadi və maliyyə ekspertləri komissiyasının müşavirəsi oldu. London müşavirəsində Avropanın iqtisadiyyatını bərpa etmək və RSFSR ilə danışıqların layihəsini hazırlamaq haqqında məsələ müzakirə edildi. Ekspertlərin müşavirəsində Sovet Rusiyasından Çar və Müvəqqəti hökumətin bütün borclarının tələb edilməsi, Çar Rusiyasının hakim dairələrinin maliyyə öhdəçiliyinin Sovet hökumətinə aid edilməsi, Sovetlər ölkəsində milliləşdirilmiş bütün müəssisələrin öz xarici sahibkarlarına qaytarılması tələbi nəzərdə tutulmuşdu.

1922-ci il fevralın 7-də RSFSR hökuməti İtaliya hökumətindən Genuya konfransında iştirak etmək üçün dəvət aldı. Eyni zamanda konfransın işində V.İ.Leninin iştirakı arzu olunurdu.

ABŞ isə konfransda həm iştirak etmək, həm də iştirak etməmək dilemması qarşısında idi. Amerikanın Hardinq hökuməti belə hesab edirdi ki, Genuya konfransında iştirak etməklə ABŞ qazandığından çox itirə bilər. Belə ki, Rusiya hökuməti kapitalist dövlətlərinin borclar haqqındakı tələblərindən imtina edə bilər və Qərb dövlətləri isə Rusiyanın nümunəsindən istifadə edərək öz növbəsində ABŞ-ın borclarını geri qaytarmaqdan boyun qaçırarlar. 1922-ci il 8 mart tarixli notasında ABŞ dövlət katibi Çarl Yuz bildirdi ki, ABŞ Avropa dövləti olmadığına görə konfransda iştirak etməyəcək, həm də ABŞ-ın konfransda iştirak etməkdən imtina etməsinin digər səbəbi Sovet hökumətini

tanımaq istəməməsi idi. V.İ.Lenin Partiya MK-sının xüsusi qətnaməsinə əsasən, Genuya konfransına göndərilmədi. Onun əvəzinə xalq xarici işlər komissarı G.V.Çiçerin sovet nümayəndə heyətinin başçısı təyin edildi.

Genuya konfransında Sovet respublikalarının birliyini təmin etmək üçün 1922-ci il yanvarın 20-də RSFSR, Ukrayna, Belorusiya, Azərbaycan, Gürcüstan, Ermənistan, Buxara, Xarəzm və Uzaq Şərq respublikalarına xüsusi konfrans çağırmaq təklif olundu. Genuyada vahid platformada çıxış etmək məqsədilə fevralın 22-də Moskvada 8 respublikanın adından protokol imzalandı və konfransda onları təmsil etməyi RSFSR nümayəndə heyətinə tapşırıldı.

1922-ci il yanvarın 27-də ÜRMİK-in fövqəladə sessiyası V.İ.Leninin sədrliyi ilə Genuyada Sovet Rusiyasını təmsil edən nümayəndə heyətinin tərkibini təsdiq etdi. Xalq xarici işlər komissarı G.V.Çiçerin sədrin müavini təyin edildi və V.Leninin konfransda iştirak etmək imkanı olmadığından sədrin bütün səlahiyyətləri ona həvalə olundu. Xalq xarici ticarət işlər komissarı L.B.Krasin, xarici işlər komissarının müavini M.M.Litvinov, RSFSR-in İtaliyadakı nümayəndəsi V.V.Vorovski, Ukraynadan X.Q.Rakovski, Azərbaycandan N.N.Nərimanov, Gürcüstandan P.Q.Mdivani, Ermənistandan A.A.Bekzadyan, Buxara Xalq Sovet Respublikasından F.Xocayev, Uzaq Şərq Respublikasından Y.D.Yanson, Həmkarlar təşkilatından Y.E.Rudzutak, A.Q.Şlyapnikov və başqaları nümayəndə heyətinin sıravi üzvləri təsdiq edildi.

1922-ci il aprelin 1-də sovet nümayəndə heyəti Berlinə gəldi. Aprelin 2-3-də G.V.Çiçerinin və sovet nümayəndələrinin İozef Virt və Valter Ratenau ilə görüşləri oldu. Berlin danışıqlarından aydın oldu ki, Almaniya Sovet Rusiyası ilə müqavilə bağlamağa tələsmir. Lakin sovet nümayəndələri ilə sonuncu görüş zamanı Virt və Ratenau öz mövqelərini bildirdilər. Almaniya və Rusiya hökumətləri borclar haqqında qarşılıqlı iddialardan imtina etməyə zəmin yaratdılar. Həmin görüş zamanı hər iki tərəf Genuya konfransında yaxın əlaqə saxlamağı qərara aldı.

Genuya konfransı 1922-ci il aprelin 10-da öz işinə başladı. Burada 29 dövlət, Britaniya müstəmləkələri ilə birlikdə isə 34 dövlət iştirak edirdi. Böyük dövlətlərdən yalnız ABŞ Genuya konfransında, rəsmən olmasa da, İtaliyadakı səfir Çayld konfransda «müşahidəçi» kimi iştirak edirdi. Konfransı İtaliyanın Baş naziri L.Fakta açdı. Sonra Lloyd Corc, Luyi Bartu, İozef Virt və başqaları çıxış edərək Sovet Rusiyasına əsarətli saziş şərtləri qəbul etdirmək üçün onun təsərrüfat çətinliklərindən istifadə etməyə çalışdılar. Onlar bütün Çar hökumətinin borclarını, o cümlədən müharibədən əvvəlki borcların, həmçinin milliləşdirilmiş müəssisələrin xarici sahiblərinə qaytarılmasını tələb edirdilər.

Sovet nümayəndə heyətinin başçısı G.V.Çiçerin aprelin 10-da konfransın birinci iclasında Sovet Rusiyasının qarşılıqlı fayda, hüquq bərabərliyi əsasında bütün dövlətlərin hökumətləri və ticarət-sənaye dairələri ilə iqtisadi əməkdaşlıq qurmaq və Sovet hökumətini qeyri-şərtsiz tanımaq səylərindən bəhs edən bəyannaməsini elan etdi. Konfransda G.Çiçerin öz çıxışında Qərb dövlətlərilə dinc yanaşı yaşamaq əsasında əməkdaşlıq etməyi, ümumi tərk-silah haqqında danışıqlara başlamağı təklif etdi.

Genuya konfransında Qərb dövlətlərinin sovet nümayəndə heyətinə təqdim etdiyi memorandumda Çar, Müvəqqəti və ağqvardiyaçı hökumətlərin borclarının qaytarılması, milliləşdirilmiş əmlaka görə kompensasiya verilməsi, xarici ticarət üzərində dövlət inhisarının ləğv edilməsi, xarici vətəndaşlara geniş imtiyazlar verilməsi tələb edilirdi. Qərb dövlətləri Sovet Rusiyasını kapitalist dünyası qarşısında əvvəlcə siyasi, sonra isə iqtisadi cəhətdən təslim olmağa məcbur etmək niyyətində idilər. Sovet nümayəndələri bu kimi qəbul edilməz tələbləri qəti surətdə rədd etdi və həmin tələblərin soyğunçuluq xarakterini açıb göstərdi. RSFSR hökuməti müharibədən əvvəlki borcların bir hissəsini ödəməyə bu şərtlə razılıq verərdi ki, bunların ödənilməsi üçün 30 il möhlət və ölkəyə borc verilsin. Kapitalist dövlətlərinin tələblərinə cavab olaraq sovet nümayəndə heyəti tələb etdi ki, xarici müdaxilə dövründə kapitalist dövlətləri Sovet ölkəsinə vurduqları 39 milyard qızıl rubl miqdarında zərəri ödəməlidirlər. Sovet nümayəndə heyəti həm də tələb edirdi ki, danışıqlar yalnız qarşılıqlı bərabərlik prinsipi əsasında aparılsın.

Konfransın gedişində sovet diplomatları I Dünya müharibəsinin qalib dövlətləri və məğlub edilmiş Almaniya arasında kəskin ziddiyyətləri aşkar edərək onlarla ayrı-ayrılıqda müqavilə bağlamaq, kapitalist dövlətlərinin vahid cəhbə planını pozmaq niyyətində idi. Konfransın lap birinci günündən məlum oldu ki, Almaniya Antanta dövlətlərinin mövqeyində durmaq istəmir. Məhz ona görə ki onlar Versal müqaviləsinin məlum maddələrini müzakirə etməkdən imtina etmişdi. Bu vəziyyət Almaniyanı təbii olaraq Rusiya ilə ittifaqa sövq edirdi. Almaniya güzəştli müqavilə bağlamaq siyasətini həyata keçirə bilmədiyindən Sovet Rusiyası ilə danışıqlara başladı. Aprelin 16-da alman nümayəndə heyəti ilə müqavilə şərtləri razılaşdırıldı. Həmin gün Sovet nümayəndəliyinin iqamətgahı Rapalloda nümayəndə heyətinin başçısı, Xalq Xarici İşlər Komissarı G.V.Çiçerin və Almaniyanın xarici işlər naziri V.Ratenau Sovet Rusiyası ilə Almaniya arasında müqavilə imzaladı. Bu müqaviləyə əsasən, tərəflər iddialardan qarşılıqlı surətdə imtina edir, iki ölkə arasında diplomatik münasibətlər bərpa olunur.

Müqavilənin imzalanması Qərb dövlətlərinin antisovet planlarına qəti zərbə vurdu. Rapallo müqaviləsinin imzalanması nəticəsində antisovet plan-

larının pozulması, Sovet Rusiyası və Almaniyanın beynəlxalq aləmdə vəziyyətinin yaxşılaşması Fransa, İngiltərə və ABŞ hakim dairələrinin ciddi narazılığına səbəb oldu. Bununla kapitalist dövlətlərinin Genuya konfransından çox əvvəl hazırlamış olduqları, Rusiyanı və başqa Sovet respublikalarını iqtisadi və siyasi cəhətdən tabe etməyi nəzərdə tutan planları Rapallo müqaviləsi bağlanandan sonra məğlubiyyətə düçar oldu. Konfrans öz işini 1922-ci il mayın 19-da başa çatdırdı. Antanta dövlətlərinin təqsiri üzündən Genuya konfransı nəticəsiz oldu. Genuyada Antanta dövlətləri ilə sazişə gəlmək mümkün olmadı. Lakin Rusiya hökuməti Almaniya ilə Rapallo müqaviləsini bağlamaqla kapitalizm cəbhəsini yardı, dövlətlər arasındakı ziddiyyətlərdən öz xeyrinə istifadə etdi. Onların bütün planları boşa çıxdı və Genuya konfransını varlanmaq mənbələrinə çevirə bilmədilər.

Genuya konfransı 39 gün davam etdikdən sonra Qərb dövlətlərinin Sovet Rusiyasına qarşı düşmənçilik mövqeyi tutması nəticəsində pozuldu. Lakin bu konfrans açıq surətdə göstərdi ki, Sovet Rusiyasının iştirakı olmadan beynəlxalq əlaqələri normal hala salmaq mümkün deyil. 1922-ci il iyunun 26-dan iyulun 20-dək Haaqada Genuya konfransında iştirak etmiş dövlətlərin ekspertlərinin iştirakı ilə konfrans keçirildi. Sovet nümayəndəliyi bəyan etdi ki, Sovet Rusiyası xarici borcları qəbul edə bilər, o şərtlə ki, Qərb dövlətləri Sovet ölkəsi ilə diplomatik münasibətlər yaratsın və ona kredit versin. Sovet dövlətinin xarici ölkələrə borcu 18,5 milyard qızıl rubl hesablanırdı. M.M.Litvinov elan etdi ki, Qərb ölkələri vətəndaş müharibəsi və xarici hərbi müdaxilə sayəsində Sovetlər ölkəsinə vurulmuş 39 milyard qızıl rubl məbləğində zərəri ödəməyə borcludur. Qarşılıqlı iddialar sayəsində Haaqa konfransında heç bir qərar qəbul edilmədi.

1922-ci ilin noyabrından 1923-cü ilin iyul ayına kimi davam edən Qara dəniz boğazları haqqında Lozanna konfransında qəbul edilmiş müşahidə Sovet dövlətini qane etmirdi. D.Kerzonun təqdim etdiyi ingilis layihəsinə əsaslanan Fransa və İtaliyanın müdafiə etdiyi müşahidə dinc dövründə və müharibə zamanı bütün ölkələrin ticarət və hərbi gəmilərinin Qara dəniz boğazlarından sərbəst keçməsini nəzərdə tuturdu. Sovet tərəfinin fikrincə bu o deməkdir ki, böyük kapitalist dövlətləri öz hərbi gəmiləri üçün Sovet sahillərinə yol açır. 8 ölkənin təmsil olunduğu Lozanna konfransında sovet nümayəndə heyətilə birlikdə 9 ölkə təmsilçisi yalnız ayrı-ayrı məsələlərin müzakirəsində iştirak edə bilərdi. 1922-ci il dekabrın 18-də konfransda sovet nümayəndə heyəti belə bir təklif irəli sürdü ki, dinc və müharibə dövründə boğazlar, Türkiyə istisna olmaqla, bütün ölkələrin hərbi gəmiləri üçün bağlansın. Sovet təklifi qəbul edilmədiyindən SSRİ Lozanna konfransının müahidəsini təsdiq

etmədi. 1936-cı ildə Montredə (İsveçrə) məsələyə yenidən baxılaraq Qara dəniz boğazları ilə bağlı hazırki hüquqi status qəbul edildi.

1923-cü ilin yazında SSRİ-nin beynəlxalq vəziyyəti yenidən mürəkkəbləşdi. 1923-cü il mayın 8-də İngiltərənin xarici işlər naziri Lord Kerzon sovet hökumətinə nota təqdim etdi. Tarixə «Kerzonun ultimatumu» adı ilə daxil olmuş notada SSRİ hökumətindən tələb edilirdi ki, yaxın Şərqdə Britaniya əleyhinə Sovet hökumətinin apardığı təbliğat dayandırılsın, sovet müvəkkilləri Əfqanıstandan və İrandan geri çağrılsınlar, Sovet ərazisinə qeyri-qanuni balıq ovuna görə tutulmuş ingilis balıqçı gəmiləri dərhal buraxılsın və onlara dəyən zərər ödənilsin. Sovet hökuməti notanın tələblərini 10 gün müddətində qəbul etməyəcəyi təqdirdə Kerzon ticarət münasibətlərini kəsəcəyi ilə hədələyirdi. Kerzonun notası xaricdə antisovet qüvvələrin fəallaşmasına səbəb oldu ki, bunun da nəticəsində 1923-cü il mayın 10-da Romadakı sovet nümayəndəsi V.V.Vorovski Lozannada öldürüldü. Mayın 11-də Sovet hökuməti Kerzonun notasını qətiyyətlə rədd etdi. Hər iki tərəf kompromis nəticəsində 1923-cü ilin iyununda münaqişənin aradan qalxdığını bəyan etdi.

1923-cü ildə SSRİ-nin Almaniya ilə münasibətləri kəskinləşdi. Q. Ştrezeman hökumətinin Fransa ilə yaxınlaşma siyasətinə cavab olaraq SSRİ rəhbərliyi və Komintern Almaniyada inqilabi çevriliş hazırlığını fəallaşdırdılar. İnqilabi çıxışlarda iştirak edən alman fəhlələrinə lakaut tətbiq olunduğu üçün onlara kömək məqsədilə 1 mln. qızıl marka miqdarında vəsait toplanmışdı. Almaniyaya zəngin inqilab təcrübəsi olan bir «qrup yoldaşlar», o cümlədən M.N.Tuxaçevski, İ.İ.Vatsetis, İ.S.Unşlixt, V.R.Menjinski və b. göndərilmişdi. Bundan əlavə, 1923-cü ilin oktyabrında üsyana rəhbərlik etmək məqsədilə K.B.Radekin sədrliyilə gizli komissiya yaradılmışdı. SSRİ-də aclığın tüğyan etdiyi bir vaxtda üsyanı maliyyələşdirmək üçün külli həcmdə, yəni 300 mln. qızıl rubl miqdarında vəsait ayrılmışdı. Eyni zamanda L.D.Trotskinin əmrilə alman proletariatına kömək məqsədilə Qızıl Ordu hissələri SSRİ-nin Qərb sərhədlərində yerləşdirilmişdir. 1923-cü il oktyabrın 22-də Hamburq fəhlələri silahlı üsyana başlasa da, ölkənin digər şəhərləri onları müdafiə etmədilər, iki gündən sonra ordu və polis üsyanı yatırdı. Noyabrın 23-də Almaniya Kommunist Partiyası rəsmi olaraq qadağan olundu.

Sovet dövləti ilə kapitalist ölkələri arasında diplomatik münasibətlərin olmaması onların qarşılıqlı surətdə faydalı əməkdaşlığına mane olurdu. 1924-1925-ci illərdə bu vəzifə uğurla yerinə yetirildi və bu illər tarixə SSRİ-nin tanınması dövrü kimi daxil oldu. 1924-cü il fevralın 2-də İngiltərə SSRİ-ni hüquqi cəhətdən tanıdı və Sovet İttifaqı ilə Böyük Britaniya arasında diplomatik münasibətlər yarandı. İngiltərənin ardınca İtaliya 1924-cü il fevralın 7-də,

Norveç fevralın 15-də SSRİ ilə diplomatik münasibətlər yaratdılar. SSRİ-nin İngiltərə və İtaliya ilə normal münasibətlərinin bərpa olunmasının ardınca Avstriya, Yunanıstan, İsveç, Danimarka, Meksika 1924-cü ildə Sovet İttifaqını de-yure tanıdıqlarını bəyan etdilər.

SSRİ ilə yaxınlaşmaq tərəfdarı olan Fransanın «sol blok» hökumətinin Baş naziri Eduard Errio 1924-cü il oktyabrın 28-də bəyan etdi ki, Fransa Sovet dövlətini tanımışdır. Noyabr ayının 14-də SSRİ MİK-in Rəyasət heyəti L.B.Krasini xalq xarici ticarət komissarı vəzifəsində saxlamaqla Fransada səlahiyyətli nümayəndə təsdiq etdi. J.Erbett Fransanın SSRİ-də səfiri təyin olundu.

1924-cü ilin mayında SSRİ ilə Çin arasında diplomatik münasibətlər yaradılması haqqında saziş imzalandı. Sovet dövləti Çar hökumətinin Çinlə bağladığı bütün qeyri-bərabər müqavilələri ləğv etdi və Rusiyaya məxsus olan ŞÇD-nin Sovet – Çin müdiriyyətinin birgə idarəsinə verməyə razı oldu, ŞÇD hər iki dövlətin mülkiyyətinə çevrildi və birgə istismar edilməyə başlandı.

Kapitalist dövlətlərindən yalnız ABŞ əvvəlki kimi SSRİ-ni tanımaqdan və onunla diplomatik münasibətlər qurmaqdan imtina edirdi. ABŞ-ın təşəbbüsü ilə bankir Ç.Daues Almaniyadan təzminat alınması, onun iqtisadiyyatının, valyuta və bank sisteminin sabitləşməsi məqsədilə plan hazırladı. 1924-cü ilin yayında Londonda keçirilən konfransda qəbul edilən «Daues planı» Almaniyanın hərbi və iqtisadi potensialını bərpa etməyə, daha fəal xarici siyasət yeritməyə və SSRİ-yə qarşı durmağa sövq edirdi. Bu planın qüvvədə olduğu altı il müddətində Almaniya xarici ölkələrdən 21 milyard marka kredit almış, özü isə cəmi 7,5 milyard təzminat ödəmişdir.

1925-ci ilin oktyabrında 5-dən 16-na kimi İngiltərə, Fransa, İtaliya, Almaniya, Belçika, Polşa və Çexoslovakiyanın iştirakı ilə Lokarno (İsveçrə) konfransı keçirildi. Konfransda Reyn Təminat Paktı, Almaniyanın Millətlər Cəmiyyətinə daxil olması və SSRİ-yə qarşı sanksiyalarda iştirakı və s. məsələlər müzakirə edildi. Fransa, Polşa və Çexoslovakiya tələb etdi ki, Almaniya Polşa və Çexoslovakiyanın sərhədlərinin təhlükəsizliyinə təminat versin, lakin alman tərəfi bu tələbləri qəbul etmədi. 1925-ci ilin dekabrında imzalanmış Reyn təminat paktı Fransa-Almaniya və Almaniya-Belçika sərhədlərinin toxunulmazlığına təminat verdi. 1925-ci il oktyabrın 25-də Fransa, Polşa və Çexoslovakiya ilə təminat müqavilələri imzalandı. Beləliklə, Almaniyaya qərb sərhədləri üçün təminat verildi. Şərqdə isə SSRİ-yə qarşı hərəkət azadlığı imkanı saxlandı. Almaniya həm də Millətlər Cəmiyyətinə daxil olmaq imkanı qazandı. «Daues planı» və Lokarno sazişləri Qərb ölkələrinin SSRİ-yə qarşı siyasətindən qaynaqlanırdı. Buna baxmayaraq, 1924-1925-ci illərdəki

«diplomatik tanınma» dövründə SSRİ Avropa, Asiya və Afrikanın 13 dövləti ilə diplomatik münasibətlər yaratmışdı, 1925-ci ilin əvvəllərində isə 22 dövlətlə diplomatik əlaqə saxlayırdı.

SSRİ-nin inkişaf etmiş dünya ölkələrilə diplomatik münasibətlərinin yaratması ölkə rəhbərliyinin dünya inqilabı ideyasından və xarici ölkələrdə kommunist ideologiyasının təbliğindən əlçəkmə anlamına gəlmirdi. Belə ki, 1926-cı ildə SSRİ açıq şəkildə ingilis mədənçilərinin tətilini müdafiə edərək həmkarlar ittifaqı xəttilə Sovet fəhlələrinin bir aylıq əməkhaqqını, yəni 16 mln. rubl pul vəsaitini kömək məqsədilə ingilis fəhlələrinə göndərmişdir. Buna cavab olaraq, İngiltərənin hakim dairələri 1927-ci il fevralın 23-də İngiltərənin xarici işlər naziri O.Çemberlen vasitəsilə Sovet hökumətinə nota verdilər. Notada deyilirdi ki, Sovet hökuməti Britaniya əleyhinə təbliğat aparıb, onun daxili işlərinə qarışır. Bu, İngiltərə və Sovet İttifaqı arasında ticarət və diplomatik münasibətlərin kəsilməsi ilə nəticələndi. 1927-ci il mayın27-də İngiltərənin mühafizəkar hökuməti Baş nazir S.Bolduin Sovet dövlətini İngiltərəyə qarşı düşmənçilikdə günahlandırması sayəsində Sovet İttifaqı ilə diplomatik və ticarət münasibətlərini kəsdi. Bunun ardınca Fransada, Polşada, Baltikyanı ökələrdə antisovet təbliğatı gücləndirildi, 1927-ci il iyunun 7-də Polşadakı sovet səfiri P.L.Voykov Varşava vağzalında öldürüldü.

SSRİ-nin Çinin daxili işlərinə qarışması diplomatik münasibətlərin kəskinləşməsinə səbəb olmuşdu. Rusiyada baş verən inqilabi hadisələrin təsiri altında Çində antiimperialist və antifeodal hərəkatı artaraq müxtəlif əyalətlərin arasında vətəndaş müharibəsinə çevrilmişdi. Ölkənin cənubunda Sun Yatsenin rəhbərliyilə Millətçi partiyanın (Homindan) təmsil etdiyi İnqilabi Demokratik hökumət təşkil olunmuşdu. Məhz partiya və yeni hökumət qurucusunun xahişilə Çinin cənubuna hərbi – siyasi məsləhətçilər V.K.Blyuxer və M.M.Borodin, 130 nəfərdən artıq hərbi mütəxəssis göndərilmişdi. Bundan əlavə, 2 mln. dollar pul vəsaiti, silah, sursat, tibbi ləvazimat və s. yeni hökumətin ixtiyarına verilmişdi. Komintern belə hesab edirdi ki, Çin sosialist inqilabına hazırdır. Sovet məsləhətçilərinə göstəriş verilmişdir ki, əvvəl Homindandan istifadə etsin, sonrasa 1921-ci ildən fəaliyyət göstərən Kommunist Partiyasını müdafiə etsinlər. 1925-ci ilin martın 12-də Sun Yatsenin ölümündən sonra hökumətdə orduya rəhbərlik edən Çan Kayşi kommunistlərdən şübhələnərək, 1926-cı ilin martında hərbi hissələrdəki kommunist zabitləri tərk-silah edərək həbs etmişdir. 1927-ci ilin fevralında Şanxay üsyanı yatırıldı, dekabrda Kantondakı üsyan məğlub oldu, kommunistlərə qarşı terror başladı. İnqilabi ordunun qalıqları uzaq kənd rayonlarına çəkilərək orada dayaq məntəqələri yaratdılar.

Çinin Homindan hökuməti Sovet İttifaqı ilə diplomatik əlaqələri kəsərək Mancuriya və Şərqi Türküstandakı (Sintszyan) nümayəndəlikləri istisna olmaqla, bütün ölkədəki sovet diplomatik nümayəndəlikləri bağladılar.

Mancuriyanın mürtəce dairələrinin köməyi ilə 1927-ci ilin aprelində ŞÇDY üzərinə hücum təşkil edildi. İngilis səfiri Settonun göstərişi ilə Çin əks-inqilabının liderlərindən biri Çjan Tszolinin əsgərləri və polisləri 1927-ci il aprelin 9-da Pekindəki sovet səfirliyinə basqın etdi. 1927-ci ilin noyabrında Şanxaydakı Sovet konsulluğuna hücum edildi, dekabrda Kantonda sovet nümayəndəliyi dağıdıldı, Nankin hökumətinə tabe olan ərazilərdə sovet idarələri bağlandı.

SSRİ ilə onun qonşuları arasında bağlanmış müqavilələr sülh uğrunda mübarizədə mühüm addım oldu. 1925-ci ilin dekabrında Türkiyə, 1926-cı ilin avqustunda Əfqanıstan, 1927-ci ilin oktyabrında İranla bitərəflik və hücum etməmək haqqında müqavilələr imzalandı. 1926-cı ilin aprelin 24-də SSRİ ilə Almaniya arasında hücum etməmək və bitərəflik haqqında 5 il müddətinə müqavilə bağlandı və bu Lokarno sazişlərinin antisovet ruhunu xeyli zəiflətdi. 1926-cı ilin sentyabrında SSRİ ilə Litva arasında dostluq və bitərəflik müqavilə bağlanması Qərbi Avropa dövlətlərinin SSRİ-yə qarşı Baltikyanı ölkələri blokunu yaratmaq planlarını pozdu.

1927-ci il aprelin 6-da Fransanın xarıcı işlər naziri A.Brian ABŞ-ın dövlət katibi F.Kelloqa müraciət edərək milli siyasət vasitəsi kimi müharibədən imtina etmək haqqında bəyannamə ilə çıxış etməyi təklif etdi. 1927-ci il dekabrın 28-də ABŞ-ın dövlət katibi F.Kelloq Fransanın xarici işlər naziri A.Briana cavab məktubunda bildirdi ki, «ABŞ Fransanın təklifini razılıqla qəbul edir və belə hesab edir ki, «əbədi sülh» haqqında müqavilə bağlamaq o zaman mümkün olar ki, müharibəni milli siyasət kimi inkar etməyə razı olan digər böyük dövlətlər də ona qoşulsunlar.»

1928-ci il iyunun 23-də ABŞ müharibədən imtina etmək haqqında müqavilənin layihəsini 14 ölkənin hökumətinə göndərdi. 1928-ci il avqustun 27-də Parisdə Brian-Kelloq paktını ABŞ, İngiltərə, Fransa, Almaniya, İtaliya, Yaponiya və başqaları daxil olmaqla cəmi 15 dövlət imzaladı. Fransanın SSRİ-dəki səfiri J.Erbett pakta qoşulmağı sovet dövlətinə təklif etdi. Sovet hökuməti 1928-ci il sentyabrın 6-da paktı imzalayaraq ona qoşuldu. Sovet dövləti pakta qoşulmaqla kifayətlənmədi, həm də onun təşəbbüsü ilə Brian-Kelloq paktını vaxtından əvvəl qüvvəyə mindirmək barəsində öz qonşularına təkliflə müraciət etdi. 1929-cu il fevralın 9-da Moskvada Brian-Kelloq paktını vaxtından əvvəl qüvvəyə mindirmək barəsində protokolu SSRİ, Estoniya, Latviya, Polşa və Rumıniya imzaladılar. 1929-cu ilin aprelində Türkiyə, İran

və Litva da ona qoşuldu. Həmin protokolun imzalanması SSRİ ilə qonşu ölkələr arasında dinc münasibətlərin möhkəmlənməsinə müsbət təsir göstərdi. Brian-Kelloq paktı 1929-cu ilin iyul ayında qüvvəyə mindi.

Tərk-silah və kollektiv təhlükəsizlik uğrunda mübarizə SSRİ-nin xarici siyasət fəaliyyətinin mühüm istiqamətlərindən biri idi. Tərk-silah məsələsi Millətlər Cəmiyyətində, onun komissiyalarında müzakirə edilirdi. 1919-cu il yanvarın 25-də Paris konfransı Millətlər Cəmiyyətinin yaradılmasının zəruriliyi haqqında qətnamə qəbul etdi. 1919-cu ilin aprelində Millətlər Cəmiyyətinin 26 maddədən ibarət Nizamnaməsi qəbul edildi. Nizamnaməyə görə, Millətlər Cəmiyyətinin fəaliyyətinə Məclis və Şura rəhbərlik edirdi. Şuranın 8 üzvündən dördü daimi (İngiltərə, Fransa, İtaliya, Yaponiya), dördü isə müvəqqəti idi. Millətlər Cəmiyyəti sülhü, təhlükəsizliyi, Versal sistemini qoruyub saxlamalı, mübahisəli məsələlərin dinc yolla həllinə səy göstərməli idi. Tərk-silah uğrunda fəaliyyət göstərmək məqsədilə 1920-ci ilin may ayında Millətlər Cəmiyyətinin şurası hərbi ekspertlərdən ibarət daimi məsləhət komissiyası, 1921-ci ilin fevralında tərk-silah məsələləri üzrə müvəqqəti komissiya yaratmışdı.

1925-ci ilin dekabr ayında Millətlər Cəmiyyətinin şurası tərk-silaha dair beynəlxalq konfrans çağırmaq məqsədilə hazırlıq komissiyası yaratdı və SSRİ də komissiyanın Cenevrədə keçirilən iclaslarına dəvət olundu. 1923-cü il mayın 10-da İsveçrədə sovet diplomatı V.V.Vorovskinin öldürülməsi ilə bağlı SSRİ nümayəndə heyəti komissiyanın ilk üç sessiyasında iştirak edə bilməmişdir. 1927-ci ilin noyabr-dekabr aylarında hazırlıq komissiyasının dördüncü sessiyasında M.M.Litvinovun başçılığı altında sovet nümayəndə heyəti iştirak etmişdir. 1928-ci ilin mart ayında komissiyanın V sessiyasında sovet tərəfi tam və ümumi tərk-silah təklifi ilə çıxış etdi. Bu təklifə görə dörd il müddətində bütün ölkələrdə silahlı qüvvələrin şəxsi heyətinin buraxılması, hərbi texnikanın, silahların və bazaların ləğv edilməsi, hərbi zavodların bağlanması, müharibə təbliğatının qadağan edilməsi və s. nəzərdə tutulmuşdu. SSRİ-nin bu təklifi Qərb ölkələrinin nümayəndələri tərəfindən «əvvəlcə təhlükəsizlik, sonra silahların ləğv edilməsi» cavabı ilə qarşılandı. Belə olduqda sovet nümayəndəsi qismən tərk-silah keçirilməsini təklif etdi. Bu layihə 1929-cu ilin aprel-may aylarında komissiyanın VI sessiyasında müzakirə edildi, ancaq qəbul edilmədi.

1932-ci ilin fevralından 1934-cü ilin iyun ayınadək Cenevrədə 63 dövlətin iştirakı ilə tərk-silah konfransının çoxsaylı komitə və komissiyalarının iclasları oldu. Tam və ümumi tərk-silah prinsipi əsasında konfrans işinin qurulmasını təklif edən sovet nümayəndə heyəti həm də qismən tərk-silah keçirilməsinə,

kütləvi qırğın silahlarının ləğv edilməsinə hazır olduğunu elan etdi. 1933-cü ilin oktyabrından Almaniyanın konfransın işində iştirak etməkdən imtina etməsi və müharibə təhlükəsinin artması ilə əlaqədar olaraq sovet dövləti sülhü qorumaq üçün Cenevrə konfransının daimi fəaliyyət göstərməsini təklif etdi, lakin bu qəbul edilmədi.

1929-cu il iyulun 10-da Çin millitaristləri SSRİ və Çinin birlikdə idarə etdikləri Şərq-Çin dəmiryoluna hücum etdilər, Sovet təsərrüfat binaları dağıdıldı, əsasən dəmiryolunda işləyən 200 nəfərdən çox sovet qulluqçuları həbs edildilər. Çjan Tszo-Linin oğlu general Çjan Syue-Lyanın başçılığı ilə 1929-cu il avqustun 18-də Çin təcavüzkarları SSRİ ərazisinə hücum etdilər. Avqustun 20-də SSRİ ilə Çin arasında münasibətlər kəsildi. V.K.Blyuxerin komandanlığı ilə xüsusi Uzaq Şərq ordusu noyabrın 17-də təcavüzkarları sovet ərazisindən qovdu. Dekabrın 3-də ABŞ, İngiltərə və Fransa «məsləhət» və «göstərişlərdən» ibarət bəyannaməni sovet hökumətinə verdilər. Sovet dövləti bildirdi ki, münaqişə iki dövlətə aid olduğu üçün danışıqlara heç bir digər dövlət qarışa bilməz. 1929-cu il dekabrın 22-də Xabarovskda bağlanan sazişlə ŞÇD-də münaqişə ləğv edildi və burada vəziyyət bərpa edildi.

Antisovet müdaxilə planlarının boşa çıxdığını görən İngiltərənin leyborist hökuməti SSRİ ilə münasibətləri dəyişdi. 1929-cu il iyulun 17-də İngiltərənin leyborist D.P.Makdonald hökuməti sovet hökumətinə münasibətləri bərpa etməyi təklif etdi. Oktyabrın 3-də Londonda saziş bağlandı və SSRİ ilə diplomatik və ticarət münasibətləri bərpa edildi.

1929-cu ildə kapitalist dünyasında ağır iqtisadi böhran baş verdi, 1922-1929-cu illərdəki kapitalizmin nisbətən sabitləşməsi dövrü sona çatdı. Əsas kapitalist dövlətlərinin iqtisadiyyatını böhran bürüdü və istehsal aşağı düşdü. Çoxlu taxıl, ət, süd, heyvanlar məhv edildi. Kütləvi aclıq başlandı. İstehsalın ümumi həcmi ABŞ-da 1923-cü ildə olduğundan 2 dəfə az idi. Yaponiya və Almaniyada isə bu rəqəm 40% təşkil edirdi. Böhran kütləvi işsizliyə səbəb oldu. 1929-cu ilin sonunda ABŞ-da işsizlərin sayı 12 mln., Almaniyada 5,5 mln., İngiltərədə 2,8 mln. idi. Ümumiyyətlə, bütün kapitalist ölkələrində işsizlərin sayı 30 milyona çatmışdı.

## §2. 1930-cu illərdə beynəlxalq vəziyyət və SSRİ-nin xarici siyasəti

Dünya iqtisadi böhranı şəraitində beynəlxalq münasibətlər gərginləşdi. Bazarlar, nüfuz dairələri, kapital ixracı, müstəmləkələrin yenidən bölüşdürülməsi uğrunda mübarizə qızışdı. Nəinki I Dünya müharibəsində qalib gəlmiş ölkələrlə məğlub edilmiş ölkələr arasında, həmçinin kapitalist ölkələri ilə SSRİ arasındakı ziddiyyətlər də kəskinləşdi.

Roma papası XI Piy 1930-cu il fevralın 2-də SSRİ-yə qarşı «səlib yüyüşü»nə çağırdı. Bu çağırışın mənası «dini müdafiə üçün xaçlı yürüş» pərdəsi altında sosialist dövləti ətrafında düşmənçilik mühiti yaratmaqdan ibarət idi. 1929-cu ildən başlayaraq Vatikan Sovet dövləti əleyhinə təbliğat və pozuculuq işləri aparmaq üçün kadrlar hazırlayırdı. Vatikana böyük dövlətlər, xüsusilə də ABŞ yardım edirdi. Təkcə 1929-cu ildə ABŞ Vatikana 1,5 mln. dollar ayırmışdır. Vatikanda ağqvardiyaçı knyaz Volkonski başda olmaqla xüsusi komitə yaradılmışdı, burada kommunizmə qarşı mübarizə metodları öyrədilirdi.

Kapitalist dövlətləri SSRİ-yə qarşı kampaniyanı «Sovet dempinqi» şayəsi ilə əsaslandırmağa cəhd edərək göstərirdilər ki, böhranın səbəbi Sovet dövlətidir. SSRİ dünya bazarlarına dəyərindən ucuz qiymətə mallar çıxarır, bu isə ölkədə mövcud olan «məcburi» və ya «qul» əməyi ilə bağlıdır. Böhran dövründə dünya ixracatında SSRİ-nin payı cəmi 1,9% təşkil etdiyi halda ABŞ, Fransa, Belçika, Rumıniya, Kanada, Yuqoslaviya, Polşa ölkələrinin hökumətləri sovet ixracatına qarşı ayrı-seçkilik tədbirləri görürdülər və bu da SSRİ-yə qarşı iqtisadi blokada təşkil etmək cəhdi idi. SSRİ iqtisadi blokadanın təşkilatçılarına qarşı bir sıra əks-tədbirlər həyata keçirdi, belə ki, SSRİ-yə qarşı məhdudlaşdırıcı şərait yaradan ölkələrə mal sifariş edilməsi, həmin ölkələrdən mal satın alınması dayandırıldı və ya maksimum azaldıldı, onların gəmilərinin kirayə edilməsi, limanlardan, tranzit yollarından, bazarlardan istifadə edilməsi dayandırıldı. Bu tədbirlər kapitalist dövlətlərinin iqtisadi mənafeyinə zərbə endirdi, buna görə də onlar SSRİ-yə qarşı tətbiq etdikləri qadağaları ləğv etməyə məcbur oldular.

1931-ci il sentyabrın 18-də, Yaponiya Mancuriyaya hücum etdi. Azad hərəkət etmək məqsədilə Yaponiya 1933-cü il martın 27-də Millətlər Cəmiyyətindən çıxdı və səylə silahlanmağa başladı. Yapon təcavüzkarları Mancuriyanı Sovet İttifaqına hücum etmək üçün əməliyyat meydanına çevirdilər, həmin yerlərdə strateji dəmiryolları, təyyarə meydanları, möhkəm istehkamlar tikdilər. Kvantun ordusunun əsgərlərini burada yerləşdirdilər. 1932-ci ilin martında Mancuriyada Yaponiyanın təşəbbüsü ilə Mancyou-

Qo dövləti yaradıldı. 1932-ci ilin iyununda Yaponiya hökuməti həmin dövləti de-fakto tanıdı, əslində isə Mancuriyanı yaponlar idarə edirdi. Uzaq Şərqdə ilk müharibə ocağı belə yaranmış oldu.

Sovet hökuməti qonşu dövlətlərlə münasibətləri yaxşılaşdırmağa çalışırdı. 1932-ci il fevralın 5-də Sovet dövləti Latviya ilə, mayın 4-də Estoniya ilə, iyulun 25-də isə Polşa ilə hücum etməmək haqqında müqavilə bağladı. 1932-ci il yanvarın 25-də SSRİ ilə Fransa arasında hücum etməmək haqqında müqavilə imzalandı və noyabrın 29-da bu müqavilə təsdiq edildi. Fransanın Şərqi Avropadakı müttəfiqləri Rumıniya və Polşa bu müqaviləni müdafiə etdilər. Finlandiya ilə də hücum etməmək haqqında 1932-ci il yanvarın 21-də müqavilə imzalandı. 1929-cu il dekabrın 17-də Sovet İttifaqı ilə Türkiyə arasında 1925-ci il müqaviləsini uzatmaq haqqında, 1931-ci il martın 7-də buna əlavələr haqqında protokol imzalandı. 1931-ci ildə Sovet-Türkiyə ticarət sazişi imzalandı. Sovet hökuməti Türkiyəyə 8 mln. ABŞ dolları həcmində kredit verdi. 1931-ci il iyunun 24-də bitərəflik və hücum etməmə haqqında Sovet-Əfqan müqaviləsi bağlandı. Sovet dövləti Çin ilə münasibətləri yaxşılaşdırmağa çalışırdı. 1932-ci il dekabrın 12-də Sovet İttifaqı ilə Çin arasında 1929-cu ildə kəsilmiş diplomatik münasibətlər bərpa edildi.

Dünyada tüğyan edən iqtisadi böhran Almaniyada daxili vəziyyətin mürəkkəbləşməsinə, faşistlərin hakimiyyətə gəlməsinə, onların Yaponiya və İtaliya ilə birlikdə dünya ərazisini yenidən bölüşdürmək uğrunda mübarizəyə başlamasına şərait yaratı. 1933-cü il yanvarın 30-da faşistlərin rəhbəri Adolf Hitler Almaniyanın kansleri təyin olundu. Almaniya hərəkət azadlığı məqsədilə 1933-cü il oktyabrın 19-da Millətlər Cəmiyyətindən çıxdı.

«Daues planı»na görə 6 il ərzində 21 milyard marka kredit almış Almaniya bunun sayəsində hərbi iqtisadi potensialını bərpa edib gücləndi. Hakimiyyət başına gələn alman nasional sosialistləri faşizmin ən irticaçı və təcavüzkar forması olaraq ABŞ və İngiltərənin köməyi ilə SSRİ-yə qarşı ardıcıl mübarizəyə başladı. 1919-cu ildə yaradılmış Alman Nasional Sosialist Fəhlə Partiyasının rəhbəri Adolf Hitler 1923-cu ildə həbsxanada yazdığı «Mənim mübarizəm» («Mein kampf») kitabında yazırdı: «Biz nasional-sosialistlər müharibədən əvvəlki xarici siyasətin istiqamətini şüurlu surətdə rədd edirik. Bu hərəkatı altı yüz il əvvəl dayandırılmış istiqamətdə təzələyirik. Biz Avropanın cənubuna, qərbinə almanların məlum hücumunu dayandırır və nəzərimizi Şərqdəki torpaqlara yönəldirik. Biz, nəhayət, müharibədən əvvəlki müstəmləkəçilik və ticarət siyasətini dayandıraraq gələcəyin ərazi siyasətinə keçirik. Lakin bu gün biz Avropada yeni torpaqlar barəsində da-

nışırıqsa, birinci növbədə yalnız Rusiya və ona tabe olan sərhədlərdəki dövlətlər haqqında fikirləşə bilərik». Bunun ardınca Almaniyada açıq faşist (italyanca dəstə, birlik deməkdir) diktaturası yaradan A.Hitler ABŞ, İngiltərə və Fransanın yardımı ilə sözdən əməli fəaliyyətə keçdi. Almaniya bir tərəfdən silahlanır, digər tərəfdən ümumi hərbi mükəlləfiyyət tətbiq etməyə hazırlaşırdı.

Sovet diplomatiyasının rəhbərliyində dəyişiklik baş verdi. 1928-ci ildən Sovet Xarici Siyasət İdarəsinin rəhbəri vəzifəsindən faktiki uzaqlaşdırılmış G.V.Çiçerini 1930-cu ildə M.M.Litvinov əvəz etdi. Yeni xarici işlər kommisarı Atlantik istiqamətin tərəfdarı olaraq Fransa, ABŞ və xüsusilə Böyük Britaniya ilə yaxınlaşmaq tərəfdarı idi. Almaniyanı «sakitləşdirmək» tərəfdarları Qərb ölkələrinin xarici siyasətində əsas rol oynasa da, 30-cu illərdə ABŞ, İngiltərə və Fransanın siyasətində dəyişiklik baş verdi və onlar SSRİ-yə Almaniya, İtaliya və Yaponiyanın dünya ağalığına qarşı dura bilən güc kimi baxmağa başladılar. Artıq 30-cu illərin birinci yarısında Sovet dövlətinin beynəlxalq nüfuzu xeyli artmışdı. Sovet xarici siyasətinin əsas məsələlərindən biri Sovet-Amerika münasibətlərinin normal hala salınması idi. 16 il ərzində ABŞ hakim dairələri SSRİ-ni tanımamaq siyasəti yeritdilər. 1933-cu ilin əvvəllərində ABŞ-ın prezidenti seçilmiş F.Ruzvelt SSRİ ilə diplomatik münasibətləri yaratmaq yoluna qədəm qoydu. 1933-cü il oktyabrın 10-da F.Ruzvelt SSRİ MİK-in sədri M.İ.Kalininə məktubla müraciət etdi. Oktyabrın 19-da M.İ.Kalininin cavab məktubundan sonra iki ölkə nümyəndələri arasında danışıqlar başlandı. 1933-cü il noyabrın 16-da SSRİ ilə ABŞ arasında diplomatik münasibətlər yaradıldı. Ruzvelt və Litvinov noyabrın 16-da bir-birinə göndərdikləri notalarda SSRİ-nin və ABŞ-ın hüququna hörmət etməyi və «bir-birinin daxili işlərinə hər hansı şəkildə qarışmamağı» qarşılıqlı surətdə vəd etdilər.

1934-cü il sentyabın 15-də Millətlər Cəmiyyətinin üzvü olan 30 dövlət Sovet İttifaqına Millətlər Cəmiyyətinə daxil olması təklifi ilə müraciət etdilər. Sovet dövləti bu dəvəti qəbul etməyi qərara aldı, çünki belə hesab edirdi ki, Millətlər Cəmiyyəti bütün nöqsanlarına baxmayaraq, sülh aləti kimi müəyyən rol oynaya bilər, xüsusən ona görə ki, ən təcavüzkar dövlətlər olan Yaponiya və Almaniya 1933-cü ildə Millətlər Cəmiyyətindən çıxmışdılar. Sentyabrın 18-də bu məsələyə Millətlər Cəmiyyətinin iclasında baxıldı. 39 dövlət SSRİ-nin Millətlər Cəmiyyətinə daxil olması, 3 dövlət yəni Niderland, Portuqaliya və İsveçrə əleyhinə səs verdi, 7 dövlət isə səsvermədə bitərəf qaldı. SSRİ-nin Millətlər Cəmiyyətinə daxil olması beynəlxalq həyatda faşist təcavüzkarlarını narahat edən çox böyük hadisəyə çevrildi.

Faşist Almaniyasının təcavüzkarlığının getdikcə artdığını nəzərə alaraq Sovet dövləti Avropada kollektiv təhlükəsizlik sistemi yaradılması uğrunda mübarizəni gücləndirdi. 1933-cü ilin axırlarında Sovet hökuməti təklif etdi ki, Mərkəzi və Şərqi Avropa ölkələri Almaniya tərəfindən edilə biləcək hücumdan birgə müdafiə haqqında məhəlli Şərq paktı imzalasınlar. Şərqi Avropa Fransanın nüfuz dairəsinə daxil olduğu üçün Fransa bu təklifə tərəfdar çıxdı, həm də Hitler Almaniyasının törətdiyi təhlükənin artdığını bu ölkə getdikcə daha çox başa düşürdü. SSRİ-nin təklifini Fransa xarici işlər naziri L.Bartu xüsusilə fəal müdafiə etdi. 1934-cü ilin yayında Sovet-Fransa danışıqlarının nəticəsi olaraq SSRİ, Polşa, Çexoslovakiya, Almaniya, Estoniya, Latviya, Litva və Finlandiya arasında Şərq Paktı bağlamaq haqqında birgə təklif hazırlandı. Bu pakt sərhədlərin qarşılıqlı təminatını və hücuma məruz qalan ölkəyə kömək göstərilməsini nəzərdə tuturdu. Eyni zamanda Fransa və SSRİ təcavüz əleyhinə qarşılıqlı yardım haqqında da pakt imzalamalı idilər ki, bununla da Fransa Şərq Paktının, SSRİ isə Lokarno sazişlərinin zamini olurdu.

1934-cü il sentyabrın 8-də Almaniya rəsmi surətdə bildirdi ki, o qarşılıqlı yardım haqqında paktın bağlanmasında iştirak etməyəcək. 1934-cü il sentyabrın 27-də Polşa hökuməti rəsmi surətdə bildirdi ki, əgər Almaniya Şərq Paktında iştirak etməsə, Polşa da iştirak etməyəcək. Şərq Paktının bağlanmasının fəal tərəfdarı olan Fransanın xarici işlər naziri L.Bartu 1934-cü ildə oktyabrın 9-da Marseldə Yuqoslaviya kralı Aleksandrla birlikdə Xorvat faşistləri tərəfindən qətlə yetirildi. Şərq Paktı bağlamaq mümkün olmadığına görə SSRİ ilə Fransa öz aralarında qarşılıqlı yardım haqqında müqavilə bağlamaq qərarına gəldilər və həmin müqavilə 1935-ci il mayın 2-də Parisdə beş il müddətinə imzalandı.

Almaniya tərəfindən təhlükənin gücləndiyi bir şəraitdə Çexoslovakiya hökuməti də SSRİ ilə belə bir müqavilənin bağlanmasına hazır olduğunu bildirdi və bu müqavilə 1935-ci il mayın 16-da bağlandı. Çexoslovakiya hökumətinin təklifi ilə müqaviləyə belə bir şərtli maddə daxil edilmişdir ki, əgər SSRİ və ya Çexoslovakiya təcavüzə məruz qalarsa, ancaq Fransanın köməyi ilə bu iki ölkə bir-birinə kömək edə bilər. SSRİ-Fransa müqaviləsi 1936-cı ilin fevralında təsdiq edildi.

Versal sülh müqaviləsinin şərtlərinə məhəl qoymayan Almaniya müharibəyə hazırlaşmaq məqsədilə silahlanmağa davam edirdi. 1935-ci ilin martın 9-da Almaniya hökuməti hərbi hava qüvvələri yaratmaq haqqında qərar qəbul etdi. Mayın 16-da sıralarında 600 min əsgər və zabit olan 36 diviziya həcmində

ümumi hərbi mükəlləfiyyət əsasında silahlı qüvvələrin bərpası haqqında qərar qəbul edildi. Almaniya quru qoşunları və hərbi aviasiya ilə yanaşı, həm də hərbi donanma yaratmaq məqsədilə 1935-ci il iyunun 18-də İngiltərə ilə hərbi dəniz sazişi imzaladı. Buna görə Almaniya İngiltərənin hərbi donanmasının 35% həcmində hərbi donanma, sualtı donanmasının 45% həcmində sualtı donanma yaratmaq imkanı əldə etdi.

Avropada ikinci müharibə ocağı olan İtaliya Afrikada, Balkanda və Dünay hövzəsində ərazilər işğal etməyə səy göstərirdi. 1935-ci il oktyabrın 3-də İtaliya Həbəşistana qarşı müharibəyə başladı və 1936-cı ilin may ayında Həbəşistanın işğal edilməsini başa çatdırdı. 1936-cı il mart ayının 7-də Avropanın birinci müharibə ocağı Almaniya Versal müqaviləsinin Reyn silahsız zonası ilə əlaqədar maddələrindən imtina edərək bura 30 min nəfərlik qoşun göndərdi. Almaniyanın Versal müqaviləsini və Lokarno sazişlərini pozması 1936-cı il martın 14-də Londonda Millətlər Cəmiyyəti Şurasının iclasında müzakirə edildi, lakin ona qarşı heç bir sanksiya tətbiq edilmədi.

1936-cı ilin fevral ayında İspaniyada keçirilən parlament seçkilərində Xalq Cəbhəsi qalib gəldi və hökumət sülhsevər xarici siyasət və demokratik islahatlar həyata keçirtməyə başladı. Qərb dövlətlərinin köməyi ilə 1936-cı il iyulun 18-də Xalq Cəbhəsi hökumətinə qarşı silahlı qiyam təşkil olundu, avqust ayında isə Almaniya və İtaliya birbaşa İspaniya respublikasına qarşı hərbi əməliyyatlara başladı. İtaliya İspaniyaya 200 min, Almaniya isə 50 min nəfər qoşun göndərərək strateji dəniz yollarına nəzarəti ələ keçirtmək və Fransanı mühasirəyə almaq niyyətində idilər.

SSRİ İspaniya Respublikasını müdafiə edərək Almaniya və İtaliyanın İspaniyaya qarşı hərbi müdaxiləsinin dayandırılmasını tələb etdi. Sovet dövləti İspaniya Respulikasına 85 mln. dollar kredit verdi, orduya kömək üçün 3000 nəfər mütəxəssis göndərildi. 64 ölkədən 50 min nəfər adam könüllü olaraq İspaniya Respublikası tərəfində müharibədə iştirak etdi. Qüvvələr nisbətən qeyri-bərabər olduğu üçün 1939-cu il martın 6-da respublika hökuməti öz fəaliyyətini dayandırdı, martın 28-də qiyamçılar Madridə daxil oldu, İspaniya F.Franko diktaturası tərəfindən idarə edilməyə başlandı.

1936-cı il oktyabr ayının 25-də Berlində Almaniya ilə İtaliya arasında «Berlin-Roma oxu» adlanan saziş imzalandı. 1936-cı il noyabr ayının 25-də Berlin şəhərində Almaniya ilə Uzaq Şərqdəki müharibə ocağı olan Yaponiya arasında 5 il müddətinə Antikomintern paktı imzalandı.

SSRİ, eyni zamanda Uzaq Şərqdə təhlükəsizliyini təmin etmək məqsədilə bəzi tədbirlər gördü. 1935-ci il mart ayında Şərqi Çin Dəmiryolu 140 mln.

iyenə oyuncaq Mançjou-Qo dövlətinə satıldı. 1934-cü ilin noyabrında SSRİ ilə Monqolustan arasında qarşılıqlı yardım haqqında saziş, 1936-cı il martın 12-də 10 il müddətinə qarşılıqlı yardım haqqında protokol imzalandı.

Uzaq Şərqdəki Yaponiya qoşunları 1937-ci ilin iyulunda Çində hərbi əməliyyatlara başlayaraq 1938-ci ilin payızında onun ərazisinin çox hissəsini işğal etdi. İşğalçılara qarşı mübarizədə Çin əhalisinə kömək edən SSRİ 1937-ci il avqustun 21-də onunla hücum etməmək haqqında müqavilə bağladı. Sovet dövləti Çinə 250 mln. dollar kredit verdi. 1938-ci ilin iyulunda Yaponiya bəzi strateji yerləri işğal etmək məqsədilə Xasan gölü rayonunda SSRİ ərazisinə hücum etdi. Avqust ayında Sovet qoşunları onları məğlub edərək ölkə ərazisindən qovdu. 1939-cu ilin mayında yaponlar Xalxin-Qol rayonunda Monqolustan ərazisinə hücum etdilər. SSRİ-nin və Monqolustanın qoşunları avqust ayının 20-dən 30-dək onları Monqolustan ərazisindən qovdular. 1939-cu il sentyabrın 15-də SSRİ ilə Yaponiya arasında Monqolustanda vəziyyətin dinc yolla nizama salınması barədə saziş imzalandı.

1937-ci ilin noyabr ayında İtaliya Millətlər Cəmiyyətindən çıxdı və «Antikomintern paktı»na qoşuldu. Bu pakta qoşulan dövlətlər kommunist beynəlmiləlçilərinin fəaliyyətinə qarşı birgə mübarizə aparmalı, SSRİ ilə bu pakta zidd olan saziş bağlamamalı idilər.

1939-cu ilin fevralında Almaniya, Yaponiya və İtaliyanın birləşdiyi «Antikomintern paktı»na Macarıstan və Mançjou-Qo daxil olmuşdur. Bir ay sonra İspaniya da eyni addım atmışdır. 1940-cı il sentyabrın 27-də bu dövlətlər açıq hərbi ittifaq olan «Berlin paktı»nı təşkil edərək, 1941-ci ilin noyabrında onun fəaliyyətin 5 il uzatdılar. Həmin vaxt Bolqarıstan, Finlandiya, Rumıniya, Danimarka, Slovakiya, Xorvatiya, dövlətləri 1937-1945-ci illərdə Yaponiyanın işğalı altında olan Çinin Nankin hökuməti də bu pakta qoşulmuşdur.

Beynəlxalq vəziyyətin kəskinləşdiyi bir vaxtda Sovet İttifaqında siyasi inqilab və hakimiyyət dəyişikliyi məqsədilə L.D.Trotski SSRİ-ni dünya müharibəsinə cəlb etmək üçün fəaliyyətini fəallaşdırmışdı. «Sovet fəhlələrinə məktub», «İmperialist müharibəsi və proletar inqilabı haqqında manifest» kimi trotskiçilər tərəfindən tərtib edilməsi ehtimal olunan sənədlər SSRİ hökumətinə müharibə elanı kimi qəbul edilmişdi. Odur ki, Stalin hakimiyyətinin tapşırığı ilə dövlət təhlükəsizlik orqanların 1940-cı ilin avqustunda Meksikada L.D.Trotskiyə sui-qəsd təşkil edərək onu öldürdülər. 1937-ci ilin yanvarından Meksikada yaşayan L.Trotskini Xalq Daxili İşlər Komissarlığının casusu, İspaniya inqilab ordusunun sabiq leytenantı P.Merkader alpinist baltası ilə zərbə vuraraq öldürmüşdü.

İşğalçılıq siyasətini genişləndirən faşist Almaniyası 1938-ci il martın 12-də Avstriya ərazisinə qoşun yeritdi, martın 13-də Avstriyanın Almaniyaya birləşdirilməsi rəsmən elan edildi. Faşist Almaniyasının təcavüzünün növbəti qurbanı Çexoslovakiya oldu. 1938-ci ilin 29-30 sentyabrında Münhendə Almaniya, İtaliya, Fransa və İngiltərənin hökumət başçılarının iştirakı ilə konfrans keçirildi və onun qərarı ilə Çexoslovakiya əhalisinin əksəriyyətinin almanlardan ibarət olan Sudet vilayəti Almaniyaya verildi. Bunun ardınca sentyabrın 30-da Almaniya ilə İngiltərə arasında hücum etməmək haqqında bəyannamə, dekabrda Parisdə Fransa ilə Almaniya arasında hücum etməmək haqqında müqavilə imzalandı. Bütün bu sövdələşmələr həm də SSRİ-yə qarşı yönəlmişdi, belə ki ABŞ, İngiltərə və Fransa hesab edirdi ki, Almaniya Çexoslovakiyadan sonra Ukraniyaya hücum edəcək.

Lakin Qərb dövlətləri tərəfindən şirnikləndirilən Almaniya 1939-cu il martın 15-də Çexoslovakiya ərazisinə qoşun yeritdi. Martın 16-da Bohemiya və Moraviya protektoratı hüququnda Çexoslovakiya Almaniyanın tərkibinə daxil edildi. 1939-cu il martın 22-də Almaniya ilə Litva arasında imzalanan sazişə əsasən, Litvanın Klaypeda limanı Almaniyaya verildi. 1939-cu ilin aprelində İtaliya qoşunları Albaniyanı işğal etdi. Aprelin 14-də Albaniya İtaliya Krallığının tərkibinə daxil edildi. 1939-cu il aprelin 28-də Almaniya İngiltərə ilə 1935-ci ildə bağladığı hərbi dəniz sazişini və hücum etməmək haqqında Polşa ilə 1934-cü ildə imzaladığı bəyannaməni ləğv etdi. 1939-cu il mayın 22-də Almaniya İtaliya ilə Polad Paktı adlanan hərbi-siyasi İttifaq müqaviləsi bağladı ki, buna görə hər iki dövlətin hərtərəfli əməkdaşlığı, xarici təhlükə vaxtı hərbi yardım və s. nəzərdə tutulurdu.

Avropada hərbi-siyasi böhranın dərinləşməsi, Almaniya və İtaliyanın təcavüzkarlığının genişləməsi İngiltərə və Fransanı SSRİ ilə danışıqlar aparmağa məcbur etdi. 1939-cu il avqustun 11-də onların nümayəndələri Moskvaya gəldi, lakin nümayəndə heyətinə ikincidərəcəli hərbçilərin daxil edilməsi, onların hərbi saziş imzalamaq səlahiyyətinin olmaması göstərdi ki, İngiltərə və Fransa SSRİ ilə Hərbi İttifaq bağlamaq fikrində deyil. 1939-cu il avqustun 15-də SSRİ qarşı tərəfə Avropada birgə əməliyyatların üç variantını təklif etdi. İngiltərə və Fransa SSRİ-nin təklif etdiyi plana münasibət bildirmədi və məlum oldu ki, müharibə təhlükəsinə qarşı mübarizədə onlar SSRİ ilə əməkdaşlıq etmək istəmirlər.

30-cu illərin sonunda beynəlxalq vəziyyətin gərginləşməsi nəticəsində 1939-cu il avqustun əvvəlində Almaniya SSRİ-yə hücum etməmək haqqında müqavilə bağlamağı təklif etdi və sovet hökuməti avqust ayının 20-də danı-

şıqlar aparmaq məqsədilə Almaniyanın xarici işlər naziri İ.Ribbentropun Moskvaya səfər etməsinə razı oldu. 1939-cu il avqustun 23-də SSRİ ilə Almaniya arasında 10 il müddətinə hücum etməmək haqqında müqavilə və bundan əlavə, gizli protokol imzalandı. Protokola görə Finlandiya, Latviya, Estoniya və Bessarabiyaya SSRİ-nin mənafe zonasına daxil edildi, Litva ərazisinin şimal hissəsi Almaniya ilə SSRİ arasında sərhəd müəyyən edilmişdir. Polşa ərazisi Visla, San və Narev çayları boyu SSRİ ilə Almaniya arasında bölünməli idi. 1939-cu il sentyabrın 28-də Moskvada SSRİ ilə Almaniya arasında «Dostluq və sərhədlər haqqında» müqavilə imzalandı və Polşanın bölünməsi bir daha təsdiq edildi, Polşanın bir sıra rayonları əvəzində Litva SSRİ-nin nüfuz dairəsinə daxil edildi. Lyublin və Varşava voyevodalığının bir hissəsi müqabilində Litvanı öz nüfuz dairəsinə daxil edən SSRİ-nin qərb sərhədləri Qərbi Buq və Narev çayları boyu müəyyən edilmişdi.

«Dostluq və sərhədlər haqqında» 28 sentyabr tarixli sovet-alman müqaviləsilə Almaniya və SSRİ rəsmi müttəfiq oldu. SSRİ Almaniyanın faktiki müttəfiqi kimi hələ 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya hücumundan sonra sentyabrın 17-də azadlıq yürüşü adı altında Polşanın şərq rayonları olan Qərbi Ukrayna və Qərbi Belorusiyaya qoşun yeridərək bu torpaqları öz ərazisinə qatmışdır.

1939-cu il 23 avqust müqaviləsinin gizli protokoluna əsasən, Finlandiya SSRİ-nin nüfuz dairəsinə daxil olduğu üçün sovet tərəfi öz sərhədlərinin təhlükəsizliyi adı altında qarşı tərəflə ərazi iddiası ilə danışıqlar aparsa da, nəticə əldə edə bilmədi. Odur ki, SSRİ Finlandiyanın onun ərazisini top atəşinə tutması bəhanəsi ilə 1932-ci il hücum etməmək haqqında Sovet-Fin paktını ləğv edərək, 1939-cu il noyabrın 30-da müharibəyə başladı. Fin ordusunu darmadağın edərək xalqı mülkədar və kapitalistlərin istismarçı zülmündən azad etmək əmri alan sovet ordusunun Leninqrad cəbhəsinin qoşunları sərhədi keçdi, təyyarələr Helsinkini bombaladı. Sovet İttifaqı siyasi manevr edərək 1921-ci ildən Moskvada Kominternin aparatında işləyən fin kommunist partiyasının rəhbərlərindən biri Otto Vilhelmoviç Kuusinenin (1881-1964) başçılığı ilə Finlandiya «Xalq hökumətinin» yarandığını bəyan etdi, hökumət isə öz növbəsində fin xalqını Qızıl Ordunu azadlıq ordusu kimi qəbul etməyə çağırdı. Almaniya bu müharibədə Stalini açıq müdafiə etdi, Fransa və İngiltərə isə öz qəti etirazını bildirdi. Dekabrın 14-də Fransanın təklifi ilə SSRİ «təcavüzkar» ölkə kimi Millətlər Cəmiyyətindən qovuldu, Avropa Hitlerlə Stalin arasında bərabərlik işarəsi qoydu.

Canlı və hərbi texnika cəhətdən qat-qat düşməndən üstün olan Sovet qoşunları fin ordusunun ciddi müqavimətilə üzləşdi, ağır qanlı döyüşlər başladı. Finlərin ciddi müqaviməti Stalinin qısa bir vaxtda müharibəni başa çatdırmaq planını pozdu, bütün dünya şahid oldu ki, Qızıl Ordu müasir müharibə aparmaq bacarığına malik deyil. Müharibənin 1939-cu il noyabrın 10-dan 1940-cı il fevralın 10-na kimi olan birinci mərhələsində Qızıl Ordu 1927-1939-cu illərdə tikilən cəbhə boyu 135 km, dərinliyi 95 km. olan Mannerheym müdafiə xəttini keçə bilməyərək çox sayda itki verdi. Odur ki 1939-cu il dekabrın axırında Baş Qərargah komandanlığı müharibəyə daha yaxşı hazırlaşmaq məqsədilə hərbi əməliyyatları dayandırdı. Fin cəbhəsində 21 diviziya ilə hərbi əməliyyatlara başlayan sovet tərəfi onların sayını 58-ə çatdıraraq üçqat üstünlük əldə etdi. Cəbhəyə əlavə ağır texnika və təyyarələr cəlb edildi. Fevralın 11-də sovet qoşunları güclü top atəşindən sonra hücuma keçərək fin qoşunlarının müqavimətini qırdı. 1940-cı il martın 12-dən 13-nə keçən gecə Moskvada SSRİ ilə Finlandiya arasında sülh müqaviləsi imzalandı. Müqaviləyə əsasən, Kareliya bərzəxi, Ladoqa dənizinin qərb və şimal sahilləri, Fin körfəzindəki bəzi adalar SSRİ-nin tərkibinə daxil edildi, sərhəd 150 km Finlandiyanın içərilərinə çəkildi. Xanko adası hərbi-dəniz bazası olaraq SSRİ-yə icarəyə verildi. Finlandiyadan alınan ərazinin hesabına martın 31-də Karel-Fin Sovet Sosialist Respublikası təşkil olundu. Fin əsgəri öz vətənini müdafiə edirdi. Qızıl Ordu əsgərləri isə nə uğrunda vuruşduqlarını axıra qədər başa düşmürdülər. 1940-cı ildə rəsmi elan olundu ki, Finlandiya ilə müharibədə Qızıl Ordu 48 min nəfər əsgər və zabit itirmişdir. Bugünkü yeni məlumatlar isə 130 min nəfərin öldüyünü təsdiq edir. Fin ordusu 6 dəfə az, cəmi 23 min nəfər itirmişdir. Finlandiya Sovet İttifaqına 5572 nəfər hərbi əsir qaytarmışdır ki, onların da 350 nəfəri hərbi tribunal tərəfindən güllələnməyə, 4354 nəfəri isə dörd ildən səkkiz ilə kimi həbs cəzasına məhkum edilmişdir. 180 nəfər sovet əsgər və zabiti SSRİ-yə qayıtmaqdan imtina etmişdir. Sovet əsirliyində cəmi min nəfər fin əsgər və zabiti olmuşdur.

Fin kampaniyası göstərdi ki, sovet silahlı qüvvələri ciddi hərbi münaqişəyə hazır deyildir. Lakin buna baxmayaraq, İ.V.Stalin fin müharibəsini qələbə kimi xarakterizə etdi. Əgər sovet partiya və dövlət rəhbərliyi və şəxsən İ.Stalin bu müharibədən lazımi nəticə çıxara bilsə idi, Böyük Vətən müharibəsinin başlanğıcında bir çox uğursuzluqlardan qaçmaq mümkün olardı. O.Kuusinen «hökuməti» buraxıldı, K.Y.Voroşilovun yerinə S.K.Timoşenko yeni müdafiə naziri təyin olundu. 1939-1940-cı il hərbi münaqi-

şəsi iki ölkə arasında münasibətləri pozdu, 1941-ci ilin iyununda Finlandiya Almaniya tərəfində yer aldı.

1939-cu il sentyabrın sonu oktyabrın əvvəlində SSRİ-nin təkidi ilə Baltikyanı respublikalar onunla 10 il müddətinə qarşılıqlı yardım haqqında pakt imzaladı. Baltikyanı respublikalar ərazisində sovet hərbi baza və aerodromları salındı, bura «məhdud sayda» sovet qoşunları yerləşdirildi. Belə bir şəraitdə Baltikyanı ölkələrdə «sol» qüvvələr, xüsusilə kommunistlər fəallaşdılar. 1940-cı il iyunun 17-də bura yeni sovet qoşun hissələri yeridildi. Baltikyanı ölkələrin hökumətləri istefaya getməyə məcbur oldu. İyulun 14-25-də Estoniya, Latviya və Litvada qanunvericilik orqanlarına seçki «tamaşası» təşkil olundu, SSRİ-nin diktəsilə 1940-cı il 21-22 iyulda yeni «seçilən» qanunverici orqanlar Latviya, Litva və Estoniya SSR-in yarandığını bəyan edərək onları SSRİ-nin tərkibinə daxil etməyi təklif etdilər. 1940-cı il avqust ayının 3-5-də SSRİ Ali Sovetinin VII sessiyası bu təklifi yerinə yetirdi. SSRİ tərəfindən Baltikyanı ölkələrdə sovet hakimiyyətinin bərqərar olması mülkədar, burjuaziya və varlı kəndlilərin əmlakının müsadirə edilməsi, müəssisələrin milliləşdirilməsi və kütləvi repressiyalarla müşayiət olunurdu. Hər üç Baltikyanı respublikadan 50 min nəfərdən artıq əhali Sibirə sürgün edilmiş və onların çoxu amansız münasibət və sərt iqlim şəraitində məhv olmuşdu.

1940-cı ilin iyununda sovet silahlı qüvvələri 1918-ci ildə Rumıniya tərəfindən Rusiyadan alınan Bessarabiya ərazisinə daxil oldular. Bessarabiya Ukrayna SSR-dən ayrılan Sovet Moldovası ilə birlikdə Moldova SSR-ni təşkil etdi. Eyni zamanda Şimali Bukovina (Çernovets əyaləti) sovet-alman gizli protokolunda sovet nüfuz dairəsinə daxil edilməməsinə baxmayaraq, Ukraynanın tərkibinə ilhaq edildi, bu da Almaniyanın ciddi narazılığına səbəb oldu. Beləliklə, 1939-1940-cı illərdə SSRİ inqilabaqədərki Rusiya imperiyasının ərazisinə daxil olan torpaqları zor gücünə öz dövlətinə qatdı. Bu faktı nəzərə alan bir çox xarici və yerli tarixçilər belə hesab edir ki, SSRİ 1941-ci ildə deyil, məhz 1939-cu ildə Hitler Almaniyası tərəfində II Dünya müharibəsinə daxil olmuşdur.

# XXIV FƏSİL
# 1917-1940-cı İLLƏRDƏ SOVET MƏDƏNİYYƏTİ

## §1. Savadsızlığın ləğv edilməsi. Məktəb

Oktyabrdan sonrakı illərdə həyata keçirilən dəyişikliyin əsas tərkib hissələrindən birini mədəniyyət sahəsindəki «mədəni inqilab» təşkil edir. Bunlar təhsil, elm, texnika, ədəbiyyat, incəsənəti əhatə etməklə cəmiyyətin bütün mənəvi həyatına nüfuz etmişdir. Mədəniyyət sahəsindəki dəyişikliklərin istiqamət və xarakteri yeni, sosialist bədii mədəniyyətinin formalaşdırılması ilə müəyyən olunmuşdu. Ölkənin partiya və dövlət rəhbərliyi bu vəzifənin həyata keçirilməsini sosialist cəmiyyətinin qurulması ilə bağlayırdı. Sovet dövlətinin qarşısında duran birincidərəcəli vəzifə əhalinin geri qalan mədəni səviyyəsini aradan qaldırmaq idi. Belə ki, 1897-ci ildəki əhalinin siyahıyaalınmasının məlumatına görə, Rusiya əhalisinin yalnız 22,3%-i oxuyub yaza bilirdi. Bu göstərici 1917-ci ildə bir qədər artsa da, əhalinin əsas hissəsi savadsız olaraq qalırdı. Sovet hakimiyyəti isə mətbuat vasitəsilə öz ideya və görüşlərini yaymaqda maraqlı idi. Mənəvi həyata rəhbərlik RK(b)P-nin görkəmli xadimi, ədəbiyyat tənqidçisi və publisist A.V.Lunaçarskinin sədrliyi ilə 1918-ci il iyunun 18-də təşkil edilən Xalq Maarif Komissarlığına tapşırıldı. Tarixçi M.N.Pokrovski müavin təyin olundu. Yerli sovetlərin nəzdində Xalq Təhsili şöbələri yaradıldı. Tezliklə RK(b)P MK-nın Təbliğat-Təşviqat şöbəsi yaradıldı və bunun sayəsində mədəniyyətin inkişafı partiya rəhbərliyinin nəzarətinə keçmiş oldu.

1919-cu il dekabrın 26-da sovet hökuməti «RSFSR əhalisi arasında savadsızlığın ləğv edilməsi haqqında» dekret imzaladı. Bütün savadsız yaşlı əhali üçün icbari təhsil elan edildi. İnqilabi ideyalarla bəzənmiş yeni əlifba və vəsaitlər nəşr edildi, xüsusi savadsızlığın ləğv edilməsi məktəbləri (Ликбез) təsis edildi. Savadlı vətəndaşlar məcburi əmək mükəlləfiyyəti çərçivəsində savadsızlarla təhsil işinə cəlb olundu. Kənd yerlərində çox halda böyüklər uşaqlarla birgə oxuyurdular. Vətəndaş müharibəsi dövründə ölkədə 7 mln. nəfər əhaliyə savad öyrədildi. 1920-ci ildə Rusiyada hər min nəfər əhaliyə 319 nəfər savadlı adam düşürdü. Belə ki, V.İ.Leninin imzaladığı hökumət dekretində oxuyub-yaza bilməyən 8 yaşından 50 yaşınadək bütün əhali doğma və ya rus dilində təhsil almağa borclu idi. Bundan yayınanlar cinayət məsuliyyətinə cəlb oluna bilərdilər.

Savadsızlığın ləğv edilməsində 1920-ci il iyulda yaradılan savadsızlığın ləğvi üzrə Ümumrusiya fövqəladə komissiyası mühüm rol oynadı. Xalq Maarif Komissarlığı ilə birlikdə onlar ölkə əhalisinə savad öyrətmək fəaliyyətini daha da genişləndirdilər. Lakin maliyyə vəsaitinin qıtlığı, maddı bazanın zəifliyi və pedaqoji kadrların çatışmazlığı bu işi mürəkkəbləşdirdi. Belə şəraitdə savadsızlıqla mübarizədə ictimai təşkilatlar mühüm rol oynamağa başladılar. 1923-cü ilin payızında M.İ.Kalininin sədrliyi ilə Ümumrusiya Könüllülər Cəmiyyəti olan «Rədd olsun savadsızlıq» birliyi yarandı. Sovet mədəniyyətinin görkəmli nümayəndələri A.V.Lunaçarski, M.N.Pokrovski və b. cəmiyyətin işində yaxından iştirak edərək minlərlə savadsızlığın ləğvi məntəqələri və məktəblərinin açılmasına kömək etdilər. Kəndin mədəni səviyyəsini yüksəltmək məqsədi ilə 1,2 mln. nəfərdən çox adam şəhər hamilik təşkilatlarında birləşmişdi. 1917-1920-ci illərdə məktəb əsaslı dəyişikliyə uğradı. XKS 1918-ci il iyunun 18-də «Rusiya Sovet Sosialist Respublikasında xalq maarifinin təşkili haqqında» Əsasnamə, ÜRMİK 1918-ci il oktyabrın 16-da «Vahid əmək məktəbləri haqqında Əsasnamə» təsdiq edərək əvvəlki məktəb sistemini ləğv etdi.

Məktəblərin təşkil olunması prinsip etibarı ilə dəyişdi və xalq maarifi sistemi yenidən quruldu. Gimnaziyalar, realnı məktəbləri, məhəllə-kilsə və zemstvo məktəbləri ləğv edildi. Onların yerinə hər biri beş və dörd il olmaqla, bütün ölkə üçün ikincidərəcəli əmək məktəbləri yaradıldı və təhsil haqqı ləğv edildi. Oğlan və qızların birlikdə oxuduğu məktəbin işinə komsomola tabe olan şagird komitələri (учком) rəhbərlik edirdi. Məktəbin vəzifəsi son məqsəd olaraq kommunizm quran nəsillər tərbiyə etmək idi. Təhsilin ideologiyalaşdırılmasının artmasının bərqərar olması isə bilavasitə bu siyasətin nəticəsi idi. Ağır şəraitə baxmayaraq hər il minlərlə yeni şəhər və kənd məktəbləri açılırdı. 1920-ci ilə qədər 13 min yeni məktəb açılmış, burada oxuyan şagirdlərin sayı isə 1914-cü illə müqayisədə 1 mln. nəfər artaraq 9 mln. nəfərə çatmışdı. 1923-24-cü tədris ili məktəbin həyatında dönüş ili oldu. Bu vaxtdan etibarən ümumtəhsil məktəblərinin şəbəkəsi və şagird kontingenti artdı. Belə ki 1914-cü ildə ölkənin ibtidai və orta məktəblərində oxuyan 7,8 mln. şagirdə qarşı 1925-26-cı tədris ilində 10 mln. uşaq ibtidai və orta məktəblərdə təhsil alırdı. 1926-cı ildəki əhalinin Ümumittifaq siyahıyaalınması məlumatına əsasən, ölkədə 9 yaşından yuxarı əhalinin 51,1%-i savadlı idi. 1897-ci ildə isə bu göstərici yalnız 24% təşkil edirdi. Şəhərlə kənd əhalisi arasında olan savad fərqi xeyli azaldı. 1927-ci ildə isə uşaqların 70%-i ibtidai məktəblərə cəlb edilmişdir. 1926-cı il siyahıyaalma məlumatına əsasən, 9 yaşından yuxarı olan əhali arasında savadlılar RSFSR-də 55, Ukrayna SSR-də 57,5, Belorusiya SSR-də isə 53,1% idi. Artıq 1932-ci ildə SSRİ-nin yaşlı əhalisinin böyük əksəriyyəti oxuyub-yazmaq öyrənmişdi.

Savadsızlığın kütləvi surətdə ləğv edilməsi icbari ümumtəhsillə sıx bağlı idi. Bu məqsədlə 1930-31-ci dərs ilindən başlayaraq bütün ölkədə icbari dördillik ibtidai təhsil tətbiq olundu. 1929-cu uldə Xalq Maarif Komissarı A.V.Lunaçarskini publisist, hərbi-nəzəri, partiya tarixi və maarif məsələləri üzrə əsərlərin müəllifi A.S.Bubnov əvəz etdi (1929-1937). 1931-ci ilin əvvəllərində dördillik məktəblərdə 14 mln. nəfər şagird və 60 min nəfər yeni müəllim fəaliyyət göstərirdi. 1932-ci ilin sonunda SSRİ-də icbari ibtidai təhsilin tətbiqi məsələsi əsasən həll edildi, belə ki, 8 yaşından 11 yaşına kimi olan uşaqların 98%-i ibtidai məktəblərə cəlb edildi. Təkcə şagird və müəllimlərin sayı deyil, tədrisin məzmunu da dəyişdi. 1931-ci il avqustun 25-də «İbtidai və orta məktəblərdə iş rejimi haqqında» qətnamə elan olundu. Məktəblərdə dərslərin keçirilməsinin daimi cədvəli, məktəblilərin tədris və ictimai işinin bərabər bölgüsü, daxili qayda-qanunun bərqərar olmasının müəyyən edilməsi qətnamədə öz əksini tapdı. Tədrisin təşkilinin əsas forması əvvəlki «briqada-laborator» metodundan fərqli olaraq dərs elan olundu. Xalq Maarif Komissarlığı kütləvi nəşrlərlə sabit dərslik və dərs vəsaitləri çap etdirərək məktəblərə göndərirdi. Məktəblər üçün çap edilən proqramlar yenidən işlənərək şagirdlərə elmin əsaslarını daha dərindən öyrətmək məqsədilə təhsilin istehsalata yaxınlaşdırılması nəzərdə tutulurdu. Bir çox fənlərin tədris proqramlarının məzmunu dəyişdi. 1934-cü il may ayında ÜİK(b)P MK və XKS «SSRİ məktəblərində vətən tarixinin tədris edilməsi haqqında» qərar qəbul etdi. Məktəblərdə əvvəllər «marksizm əsasları» və sosioloji sxem üzrə öyrədilən dərsləri tarixi faktlar əsasında keçmək irəli sürüldü. Bu, hər şeydən əvvəl ideoloji dəyişikliklə əlaqədar olub Rusiyanın keçmişinin nihilizm əsasında öyrənməkdən imtina edilməsi və onu «böyük dövlət» kursu əsasında tədris edilməsinə başlamaq məqsədi daşıyırdı.

20-30-cu illərin əvvəllərində SSRİ ərazisində yaşayan türkdilli və bəzi başqa xalqların latın əlifbasına keçməsi bu xalqlar arasında savadsızlığın ləğv edilməsində mühüm rol oynadı. Lakin tədricən bu milli respublikaların əhalisinin bir tərəfdən dil və mədəni cəhətdən rus mədəniyyətindən ayrı düşməsinə, başqa bir tərəfdən isə tədrisin mürəkkəbləşməsinə səbəb olurdu. Odur ki, rus yazı qrafikasına keçmək tələb olunurdu. 1935-ci ildə birinci olaraq kabardinlər rus əlifbasını qəbul etdilər. 1937-ci ildə isə Şimalın kiçik xalqları və Dağıstan əhalisi, 1937-1940-cı illərdə isə Orta Asiya, Orta Volqa və Azərbaycan əhalisi yeni rus əlifbasına keçdilər.

1936-cı il yanvarın 16-da sovet dövləti «Savadsız və azsavadlıların təhsil alması işi haqqında» qətnamə qəbul etdi. Bu sənədə əsasən, savadlanma uğrunda mübarizə dövlətin iştirakı ilə 1936-1937-ci illərdə başa çatmalı idi.

Ölkəni başdan-başa savadlılar diyarına çevirmək arzusu yerinə yetirildi. Təkcə birinci və ikinci beşillik illərində 40 mln. yaşlı əhaliyə savad öyrədildi. 1939-cu il yanvarın 17-də əhalinin Ümumittifaq siyahıyaalınması məlumatına əsasən, 9 yaşından yuxarı ölkə əhalisinin 81,2%-i, o cümlədən kişilərin 90,8%-i, qadınların 72,6%-i savadlı idi. Bu o deməkdir ki, 30-cu illərin sonunda SSRİ-də savadsızlıq əsasən ləğv olunmuşdur.

1930-cu illərin ikinci yarısında SSRİ-də ümumi icbari ibtidai təhsilin həyata keçirilməsi əsasən başa çatdı. 8-9 yaşlı uşaqların əsasən hamısı məktəblərdə təhsil alırdı. Milyonlarla uşağın oxuması üçün yeni məktəb binaları tələb olunurdu. Bu məqsədlə ikinci beşillik illərində 19 min məktəb binası tikildi ki, burada da 5,3 mln. şagird oxuyurdu. 1937-ci ildə ibtidai və orta məktəblər üçün 277 mln. nüsxə dərslik və dərs vəsaiti nəşr edilmişdi. Məktəblərin dərslik və dərs vəsaiti ilə təmin edilməsində Q.M.Krijijanovski, E.V.Britske, A.D.Arxangelski və b. mühüm rol oynadılar.

Ümumtəhsilin həyata keçirilməsi çoxlu sayda müəllim kadrlarının hazırlanmasını tələb edirdi. 1934-cü ildə RSFSR məktəblərində 100 min nəfər müəllim çatışmırdı. İbtidai məktəblər üçün isə 40 min nəfər müəllimə ehtiyac var idi. Bu ehtiyacı ödəmək üçün 1934-cü ildə yeddillik məktəblər üçün pedaqoji kadrlar hazırlamaq məqsədilə ikiillik müəllimlər institutları yaradıldı. 1933-1937-ci illərdə pedaqoji tədris müəssisələrinin şəbəkəsi ikiqat artırıldı. Bunun sayəsində pedaqoqların sayı dörd dəfədən də çox artdı.

1933-1937-ci illərdə əhalinin kütləvi savadlılığa keçməsi üçün maddi baza əsasən hazırlanmışdı. 20 min yeni məktəb fəaliyyətə başlamışdı ki, bu da təqribən Çar Rusiyasında olan məktəblər qədər idi. Hökumətin 1934-cü il mayın 15-də qəbul etdiyi «Orta və ibtidai məktəbin quruluşuna dair» qərarı ilə üç tip ümumtəhsil məktəbləri, o cümlədən 1-4-cü sinifləri əhatə edən ibtidai, 1-7-ci sinifləri əhatə edən tam olmayan orta, 1-10-cu sinifləri əhatə edən orta məktəblər müəyən edilmişdir. 1933-1937-ci illərdə ibtidai və orta məktəblərdə oxuyan şagirdlərin sayı 21,3 mln. nəfərdən 29,4 mln. nəfərə çatmışdı. 1934-1938-ci illərdə məktəb dərslikləri iki dəfə artmışdı. 1930-cu ilin sonunda ölkədə 152 min məktəb fəaliyyət göstərirdi ki, burada da 34 mln. şagird təhsil alırdı. 1920-ci ildən 1940-cı ilə kimi 60 mln. yaşlı əhaliyə savad öyrədilmişdir.

## §2. Ali təhsil

Ali təhsil sahəsində vəziyyət mürəkkəb idi. Köhnə ziyalılara şübhə ilə yanaşan sovet hakimiyyəti ictimai mənşəyi fəhlə və kəndlilərə istinad edən öz zəhmətkeş ziyalılarını formalaşdırmağa çalışırdı. Bu məqsədlə XKS-in 1918-ci il avqustun 2-də təsdiq etdiyi dekretlə ali məktəblərə yeni qəbul qaydaları tətbiq edildi. Tələbə sıralarına qəbul imtahansız və orta məktəbi bitirmək haqqında sənəd olmadan aparılırdı. Fəhlə və kəndlilərin içərisindən çıxan gənclərə ali məktəblərə qəbul edilərkən üstünlük verilirdi. Burjuaziya, ziyalılar və qulluqçuları təmsil edən gənclər bir neçə il iş stajı olduqdan sonra ali məktəbə qəbul ola bilərdilər. Əslində bu sovet hakimiyyətinin ali məktəblərə sinfi nöqteyi-nəzərdən yanaşması idi.

1919-cu ildə ali məktəblərə daxil olanların ümumtəhsil səviyyəsini yüksəltmək məqsədilə fəhlə fakültələri (Рабфак) yaradıldı. Məhz bu fakültələr tələblərin sosial tərkibinin fəhlə və kəndlilərin hesabına dəyişilməsinə səbəb oldu. İlk fəhlə fakültəsi 1919-cu ilin fevralında Moskva Kommersiya institutunun (hazırda G.V.Plexanov adına Rusiya İqtisad Akademiyası) nəzdində yaradıldı, sonra isə başqa ali məktəblərə yayıldı. 1921-ci ilin iyununda Moskvada ali məktəblərin nəzdində fəaliyyət göstərən fəhlə fakültələrinin I Ümumrusiya qurultayı keçirildi. Qurultayın işi göstərdi ki, fəhlə fakültələri bütün ölkə üzrə yayılmışdır. Artıq 1921-ci ilin yazında fəhlə fakültələrinin 25 min nəfər dinləyicisi var idi. 1925-26-cı dərs ilində isə fəhlə fakültələrində 57 min nəfər gənc təhsil alırdı. Bu isə o deməkdir ki, fəhlə və kəndliləri təmsil edən sovet ziyalılarının birinci nəslini məhz fəhlə fakültələri hazırlamışdır.

Ali məktəblərin işinə sinfi nöqteyi-nəzərdən yanaşan sovet hakimiyyəti bu məktəblərdə burjua təbliğatının qarşısını almaq məqsədilə bir sıra tədbirlər gördü. 1918-ci il oktyabrın 1-dən bütün elmi dərəcə və vəzifələr ləğv edildi. Ali məktəb müəllimləri vəzifədən kənarlaşdırıldı, onlar yalnız rəsmi Ümumrusiya müsabiqəsi yolu ilə işə başlaya bilərdilər. Moskva Dövlət Universitetinin (MDU) rəhbərliyi 1920-ci ilin sonunda yarısı Xalq Maarif Komissarlığı, yarısı isə seçki ilə olan Müvəqqəti Rəyasət Heyəti elan olundu. Kommunist-professor D.P.Blaqolepov qurumun sədri təyin edildi. Professor vəzifələrinə seçkilər XMK-nin Dövlət elmi şurasına (DEŞ) keçdi. 1921-ci ildə sovet dövləti özünün marksist kadrların hazırlamaq üçün Qırmızı Professorlar İnstitutu yaratdı. 1924-cü ildə institutun birinci buraxılışının məzunları içərisində görkəmli tarixçilər A.V.Şestkov, İ.M.Pankratova, M.V.Neçkina və b. olmuşdur. Ali məktəblərin işini yenidən qurmaq üçün 1918-ci ildə birinci Sovet Ali Məktəb Nizamnaməsi qəbul olundu ki, bunu da XKS 1921-ci il sentyabrın 2-də təsdiq

etdi. Mütəxəssis kadrların hazırlanması, elmi-tədqiqat işlərinin aparılması, elmi biliklərin zəhmətkeşlərin arasında yayılması kimi üç əsas vəzifə müəyyən edildi. Nizamnamədə ali məktəblərin demokratikləşdirilməsindən söhbət getsə də, əslində əvvəllər mövcud olan rektorların və ali məktəbin idarə heyətinin seçkili olması yerinə onların təyin edilməsinə keçilməsi bunun əksini nümayiş etdirirdi. Buna qarşı hətta 1921-ci ilin yazında MATU-da, 1922-ci ilin yazında isə Moskva Universitetində professor-müəllimlər tətil etdilər. Professor-müəllim heyətinin bir sıra qanuni tələbləri yerinə yetirildi. Professional-texniki təhsilin baş idarəsinin sədri Y.Preobrajenski tutduğu vəzifədən azad edildi. 1914-cü ildə Rusiyanın 91 ali məktəbində 112 min tələbə təhsil aldığı halda, 1925-ci ilin sonunda Sovet İttifaqında 145 ali məktəb var idi ki, burda da 167 min nəfər tələbə təhsil alırdı. Buna baxmayaraq, ölkənin mütəxəssis kadrlara ehtiyacı çox idi. Tələbatı ödəmək məqsədilə istehsalatdan ayrılmadan təhsil almaq üçün ali və orta ixtisas məktəblərinin axşam və qiyabi şöbələri açıldı və inkişaf etməyə başladı. Sənayeyə rəhbər kadrlar hazırlamaq məqsədilə 1927-28-ci ildə prinsipcə yeni məzmun kəsb edən Sənaye Akademiyası təşkil olundu.

1932-ci il sentyabrın 19-da SSRİ MİK-i «Ali məktəb və texnikumlarda tədris proqramları və iş rejimi haqqında» qətnamə qəbul etdi. Qətnaməyə əsasən tələbələrin fərdi məsuliyyətini kəskin surətdə aşağı salan briqada-laborator metodu ləğv edildi. Tədris prossesində tələbələrin müstəqil işi mühazirə kurslarının təşkili ilə əlaqələndirildi, ali məktəblərə qəbul zamanı əsas fənlərdən sınaqların keçirilməsi bərpa edildi. Ölkə üzrə ali məktəbin coğrafiyası dəyişdi. Çar Rusiyasında əsasən mərkəzi rus şəhərləri olan yerlərdə 20 ali məktəb müəssisəsi olduğu halda, 30-cu illərin ikinci yarısında SSRİ-nin 100 şəhərində universitet və institutlar fəaliyyət göstərirdi. Ali məktəblərin kontingenti və şəbəkəsi artdığı, iş yükü mürəkkəbləşdiyi üçün 1936-cı ildə SSRİ XKS-nin nəzdində İ.İ.Mejlaukun sədrliyi ilə Ali Məktəblərin İşi üzrə Ümumittifaq Komitə yaradıldı. Humanitar sahələr üzrə mütəxəssislər hazırlanmasını genişləndirmək üçün 1934-cü il sentyabrın 1-dən Moskva və Leninqrad universitetlərinin tarix fakültələri bərpa edildi. Bunların ardınca Tomsk, Kazan, Rostov və Saratovda tarix fakültələri fəaliyyətə başladı. Sovet ali məktəbinin inkişafında Moskva Dövlət Universiteti mühüm rol oynadı. 1920-ci illərdəki bir sıra solçu təcrübələrdən sonra 1930-cu illərin ortalarında sabit təhsil sistemini formalaşdırmaq mümkün olmuşdur. 1936-cı ilin iyununda SSRİ XKS «Ali tədris məktəblərinin işinə və ali məktəblərə rəhbərlik haqqında» qətnaməsində mühazirə, seminar, istehsalat təcrübəsi qanuniləşdirildi. Yeni sovet ziyalıları inqilabaqədərki məktəblərin mütəxəssislərindən, fəhlə

və kəndlilər arasından irəli çəkilənlərdən, orta və ali ixtisas təhsil müəssisələri yolu ilə hazırlanan kadrlardan formalaşırdı.

1917-ci ildə SSRİ-də 100-dən bir az çox ali məktəb olduğu halda, 1941-ci ildə onların sayı 817-yə çatmışdır. Təkcə 1930-cu illərdə ali məktəblər xalq təsərrüfatı üçün 900 min mütəxəssis hazırlamışdır. 1940-cı ilin sonunda ölkənin xalq təsərrüfatında 2,4 mln. nəfər ali və orta ixtisas təhsilli mütəxəssis çalışırdı. 1938-ci ildə ölkənin 23 universitetində və 126 fakültəsində 47 705 tələbə təhsil alırdı. Sovet ali məktəbləri təkcə ikinci beşillik illərində 370 min mütəxəssis hazırlamışdır. 1928-1937-ci illərdə ölkənin ali məktəb və texnikumları 2 mln. yaxın mütəxəssis hazırlamışdır. Ali məktəblər üçün müəllim və elmi kadrlar XKS-nin 1934-cü il yanvarın 13-də elan etdiyi qərara əsasən həm ali məktəblərin özündə, həm də elmi-tədqiqat institutlarında hazırlanırdı. Elmi idarələrin və ali məktəblərin işçiləri üçün elmi adlar və vəzifələr müəyyən edildi. Artıq 1934-cü ilin sonunda ali məktəblərdə, qırmızı professorlar və marksizm-leninizm institutlarında 9400 aspirant hazırlanırdı. Bütün bunlar sovet ziyalılarının formalaşmasının əsas mənbəyləri idi. 1936-cı il yanvar ayının 1-də SSRİ-də 2500 professor, 3800 dosent, 1800 elmlər doktoru və 3000 elmlər namizədi var idi.

### §3. Sovet elmi 1920-1930-cu illərdə

Sovet elmi müharibə və onun doğurduğu çətin şəraitdə inkişaf edirdi. Elmin idarə edilməsinə iki dövlət qurumu, AXTŞ və XMK nəzarət edirdi. 1918-ci ilin avqustunda AXTŞ-nin nəzdində Elmi-Texniki Şöbə (ETŞ) təşkil olundu ki, bu da müxtəlif laboratoriya, elmi və texniki cəmiyyətlər, təcrübə məntəqələrinin əməkdaşlarını sosializm quruculuğu işinə cəlb etməli idi. 1921-ci ilin fevralında XMK-nin nəzdində Dövlət elmi şurasını da özündə birləşdirən Akademik mərkəz təşkil olundu ki, bunun vasitəsilə komissarlıq həm elmi mərkəzlərə, həm də ali məktəblərə rəhbərlik edirdi.

1918-ci ilin yazında hökumət A.P.Karpinskinin prezidenti olduğu Elmlər Akademiyası ilə işgüzar əlaqə yaratdı. Akademiklər V.İ.Vernadski, N.S.Kurnakov, A.N.Krılov, A.E.Fersman və d. iştirak etdiyi Rusiyanın təbii məhsuldar qüvvələrini öyrənən akademik komissiyanın fəaliyyəti xeyli artdı. Komissiyanın tərkibində 20 ixtisaslaşdırılmış şöbə fəaliyyət göstəririd. Təkcə 1918-1920-ci illərdə 50-yə kimi elmi-tədqiqat institutu təşkil olunmuşdur. Bolşevik hakimiyyəti ilə elmin əlaqəsini göstərən faktlardan biri ondan ibarətdir ki, Rusiyanın elektrikləşdirilməsi planının (QOELRO) hazırlanmasında 200 nəfər görkəmli mütəxəssis iştirak etmişdir.

İctimai elmlər sahəsində vəziyyət mürəkkəb olaraq qalırdı. İnqilabaqədərki filosof, sosioloq, iqtisadçı, hüquqşünas və tarixçilər «burjua ideologiyasına yoluxanlar» hesab edilərək, qalib gəlmiş proletariatın işinə yaramadıqları irəli sürülmüşdü. 1922-ci ilin mayında V.İ.Leninin təşəbbüsü ilə «İrticaçı» fikirlərinə görə 160 görkəmli humanitar sahə alimi zorla xarici ölkələrə mühacirətə göndərilmişdir. Baxmayaraq ki, elmi və pedaqoji vəzifələri həll etməyə qadir olan marksist kadrlar yox dərəcəsində idi. Yeni reallığı qəbul etməyən S.N.Bulqakov, N.A.Berdyaev, İ.A.İlin, P.A..Sorokin, S.L.Frank, N.O.Losskiy və b. filosof, görkəmli ziyalılar «fəlsəfə paroxodu» ilə xaricə sürgün edilmiş, elm və mədəniyyət nümayəndələrinin arasında olmuşdur. Köhnə burjua mütəxəssislərinin bir hissəsi sosializm quruculuğu işinə qoşuldu. Akademiklər P.P.Lazarev və A.E.Fersman, görkəmli elektrotexniklər İ.Q.Aleksandrov və Q.O.Qraftio, tanınmış geoloq və kimyaçılar İ.M.Qubkin və V.N.İpatyev, kənd təsərrüfatı elmləri üzrə mütəxəssislər V.P.Vilyams və D.N.Pryanişnikov və b. Dövlət Plan Komitəsinin işində fəal iştirak edirdilər. Aviasiya elminin inkişafında Mərkəzi Aerohidrodinamik İnstitutu (MAHİ) mühüm rol oynayırdı. 1921-ci ilin martında bu institutun təməlini qoyan, «rus aviasiyasının atası» N.E.Jukovskinin ölümündən sonra ona istedadlı alim S.A.Çaplıgin rəhbərlik etməyə başladı. 1922-ci ilin mayında A.N.Tupolevin konstruksiyası əsasında ilk sovet monoplan təyyarəsi sınaqdan keçdi, iki ildən sonra isə ANT-2 təyyarəsi hazırlandı.

1922-ci ildən görkəmli alim D.N.Pryanişnikovun rəhbərlik etdiyi K.A.Timiryazev adına Kənd Təsərrüfatı Akademiyası bitkiçilik və aqrokimya sahəsində mühüm nəticələr əldə etdi. Yeni bitki və meyvə növlərinin yetişdirilməsində İ.V.Miçurinin təcrübələri geniş şöhrət qazandı. 1921-ci ildə Elmlər Akademiyasının tərkibində Fizika-Riyaziyyat və Fizika-Texniki institutları meydana gəldi. Akademik A.F.İoffenin rəhbərlik etdiyi Fizika-Texniki İnstitutunda İ.V.Kurçatov, N.N.Semyonov, D.V.Skobeltsın kimi gələcəyin alimləri elmi-tədqiqat işlərinə başladılar. 1921-1925-ci illərdə aparılan geoloji tədqiqatlar ölkədə küllü miqdarda kömür, neft, dəmir, əlvan metal, marqanis və fosfat ehtiyatları aşkar etdi.

Artıq 1925-ci ildə Elmlər Akademiyasının 200 illik yubileyi ərəfəsində onun tərkibində 40 elmi müəssisə var idi. Burada min nəfərdən çox əməkdaş çalışırdı ki, onların da 42 nəfəri akademiyanın həqiqi üzvü idi. Yubiley ərəfəsində SSRİ MİK və XKS «Rusiya Akademiyasının SSRİ ali elmi-tədqiqat müəssisəsi hesab edilməsi haqqında» verdiyi 1925-ci il 27 iyul tarixli qərarla SSRİ Elmlər Akademiyası Ümumittifaq elm mərkəzinə çevrildi. SSRİ EA-nin ilk prezidentləri görkəmli alim və təşkilatçılar A.P.Karpinski (1917-1936) və V.L.Komarov (1936-1945) olmuşdur. 1924-1925-ci illərdə RSFSR Xalq Maarif Komissarlığının ida-

rəsində 103 elmi müəssisə və 232 elmi cəmiyyət fəaliyyət göstərirdi. SSRİ MİK 1933-cü il dekabrın 14-də qəbul etdiyi qərarla Elmlər Akademiyasını SSRİ XKS-nin sərəncamına vermişdir. 1934-cü ilin aprelində Akademiya Leninqraddan Moskvaya köçmüşdür. 1929-cu ilin yazına qədər SSRİ-də 1227 elmi müəssisə fəaliyyət göstərdi. Burada 25 min elmi işçi çalışırdı ki, onların da üçdə biri sovet ali məktəblərinin məzunları idi.

1919-cu ildə yaradılmış Ukrayna Elmlər Akademiyasında mikrobiologiya sahəsində adı ölkənin sərhədlərindən uzaqlarda məşhur olan D.K.Zabolotno kimi alimlər işləyirdi. Akademiyanın prezidenti akademik V.İ.Lipski ölkəsinin florasının öyrənilməsi sahəsində, kimyaçı alim S.N.Reformatski kimya elmi sahəsində mühüm nəticələr əldə etmişlər. Belorusiyada bataqlıqların qurudulması aktual olduğu üçün Universitet kafedralarında aqrokimya, torf kimyası, meliorasiya problemləri, respublikanın bitki örtüyü və s. məsələlər tədqiq olunurdu. Humanitar elmlər sahəsində əsas məqsəd marksizmə dair tədqiqatları genişləndirmək idi. Bu istiqamətdə əsas işi M.N.Pokrovski, A.D.Udaltsov, V.P.Milyutin kimi alimlərin öncüllük etdiyi Kommunist Akademiyası həyata keçirirdi (1924-cü ilə kimi Sosialist Akademiyası adlanırdı). Marksist təbliğata geniş yer verən Sovet dövləti 1920-ci ildə K.Marks və F.Engels İnstitutu yaratdı. 1931-ci ildə hər iki institut birləşib vahid Marks-Engels-Lenin İnstitutu oldu.

1928-ci ildə görkəmli alim S.V.Lebedev etil spirtindən orijinal yolla sintetik kauçuk aldı. S.V.Lebedevin kəşfi, A.E.Favorski, B.V.Bızovun əsərləri sənayedə yeni sahə olan sintetik kauçukun elmi əsasını qoydu. Gənc alim D.V.Skobeltsın kosmik şüanın müəyyən edilməsi metodunu, fizik D.D.İvanenko atom nüvəsinin proton və neytronlardan ibarət olması nəzəriyyəsini, professor N.N.Semyonov zəncirvari reaksiyalar nəzəriyyəsini işləyib hazırladılar. K.E.Siolkovskinin 1927-ci ildə yazdığı «Kosmik raket», 1930-cu ildə yazdığı «Reaktiv aeroplan» və s. əsərləri kosmosu fəth edilmədə nəzəri problemlərin öyrənilməsinə həsr olunmuşdur.

1929-cu ildə 12 institutu birləşdirən V.İ.Lenin adına Ümumittifaq Kənd Təsərrüfatı Elmlər Akademiyası (ÜKTEA) yarandı. Onun prezidenti görkəmli genetik, bitkişünas alim N.İ.Vavilov (1899-1943) təyin edildi. Genetika sahəsində S.S.Çetverikov, N.K.Koltsov, M.M.Zavadovski kimi böyük alimlər çalışırdı. 30-cu illərdə biologiya sahəsində T.D.Lısenkonun yüksəlişi başlayır ki, o da genlərin mövcudluğunu inkar edərək irsiyyətdə qazanılmış əlamətlərə üstünlük verirdi. Hətta öz təcrübələrinin nəticələrini belə saxtalaşdıran T.D.Lısenko heç bir əsasa söykənməyən vədlərlə hakimiyyətin köməyini qazanaraq, 1938-ci ildə ÜKTEA-nın prezidenti oldu. Genetik alimlər üzərinə hücum edən T.Lısenko

onları siyasi səbatsızlıqda günahlandırırdı. Bütün bu böhtan və yalan ifadələr sayəsində bioloq alimlərin bir çoxu repressiyaya məruz qaldı, akademik N.İ.Vavilov sovet inzibati orqanları tərəfindən 1940-cı ildə həbs olundu və böyük vətənpərvər alim 1943-cü ildə həbsxanada dünyasını dəyişdi.

İctimai elmlər sovet ideologiyasının ciddi məngənəsində sıxılmaqda davam edirdi. Marksizm ağalıq edən yeganə metodologiya idi. Marksist olmayan alimlər ya Rusiyanı tərk etmiş, ya da mətbuatda və ya universitet kafedralarında öz görüşlərini izah etməkdən məhrum olmuşdular. Tarix elmi sahəsində Oktyabra kimi iş stajı olan professional tarixçilər içərisində yeganə marksist olan M.N.Pokrovskinin ağalığı davam edirdi. Əsərlərində o zamankı ideoloji tələbata uyğun olaraq oktyabraqədərki Rusiyanın geriliyini həddən ziyadə şişirdərək onun keçmişini nihilistcəsinə əks etdirirdi. Lakin 30-cu illərdən başlayaraq rəsmi ideologiya ölkənin geriliyi haqqında susmağa başladı. Təbliğat maşını imperiya motivlərini ön plana çəkdi. Bu, dünya inqilabı kursunun uğursuzluğu, ölkənin birliyini möhkəmlətmək məqsədilə əhalinin çox hissəsinin milli hisslərini oyatmaqdan irəli gəlirdi.

30-cu illərin ikinci yarısından 1932-ci ildə vəfat etmiş «M.N.Pokrovskinin məktəbi» tənqid olunmağa başlandı. Onun görüşləri tarixə zidd olan antimarksist baxışlar kimi qeyd olundu. Belə ki, M.Pokrovskinin marksisizm tarix elmi Rus dövlətinin müstəmləkəçilik siyasətini ifşa edərək rus imperiyasını «xalqlar həbsxanası» kimi qələmə verdiyi halda 30-cu illərin əvvəllərindən başlayaraq rəsmi təbliğatın bu məsələyə münasibəti əsaslı surətdə dəyişdi. Rusiyanın milli ucqarlarda yaşayan xalqları əsarət altına alması «ən az yamanlıq» kimi izah edilməyə başlandı.

1929-cu ildə İ.V.Stalinin anadan olmasının əlli illyi tədbirləri onun şəxsiyyətinə pərəstişi yeni mərhələyə yüksəltdi. Stalin leninizmin ən görkəmli nəzəriyyəçisi elan olunaraq, ətrafı tərəfindən dahi, «bizim günlərin Lenini» kimi qələmə verilməyə başladı. Bu isə, öz növbəsində, tarixi həqiqətlərin təhrif edilməsinə gətirib çıxartdı. 1931-ci ilin oktyabrında İ.V.Stalin «Proletar inqilabı» jurnalında «Bolşevizm tarixinin bəzi məsələləri haqqında» məktubunu dərc etdirərək partiya tarixi elminin tarixi həqiqətlə uzlaşmayan, onun rolunu şişirtməklə müşayiət olunan yeni istiqamətdə tədqiq edilməsini irəli sürərək, bir çox sovet tarixçilərini,o cümlədən Y.M.Yaroslavskini tənqid etmişdir. Bu, bir çox tarixçi alimin əsassız mühakimə obyektinə çevrilməsinə bəhanə oldu.

1938-ci ildə çox hissəsi Y.M.Yaroslavski və P.N.Pospelov tərəfindən yazılan «ÜİK(b)P tarixinin qısa kursu» çap edildi ki, bu da Bolşevik Partiyası tarixini öyrədən yeganə dərslik oldu. İ.V.Stalinin şəxsi nəzarəti və rəhbərliyi ilə hazırlanan həmin dərslik əslində RSDFP–ÜİK(b)P tarixinin saxtalaşdırılması

demək idi. Xalq düşməni elan edilən görkəmli köhnə bolşeviklərin inqilabi fəaliyyəti təhrif edilərək heçə endirilir, bunun müqabilində isə Stalinin rolu şişirdilirdi. Bolşevizmlə menşevizmin münasibətləri yalan əsasında oxucuya təqdim olunurdu. Əslində «Qısa kurs...» partiyanın tarixi sahəsindəki tədqiqatlara son qoydu və mahiyyət etibarı ilə bundan sonra partiya tarixi elmi mərkəzinin hazırladığı və təqdim etdiyi ideyaları təbliğ etməklə məşğul ola bilərdi. İctimai elmlərin başqa sahələri də oxşar vəziyyətdə idi. Filosoflar yalnız «ÜİK(b)P tarixinin qısa kursu»nun dördüncü fəslindəki Stalin tərəfindən yazılan «Dialektik və tarixi materializm haqdakı» məsələləri izah və təsvir edə bilərdilər. Sosiologiya və sosial psixologiya isə ümumiyyətlə, qadağan edilmişdi.

Lakin bütün bunlara baxmayaraq, bəhs edilən illərdə ictimai elm sahəsində çalışan alimlər elmin irəli getməsində mühüm addımlar atmışdı. Sovet dilçi alimləri N.Y.Marr, İ.İ.Meşşaninov öz tədqiqatları ilə dilçilik elmini zənginləşdirərək Oktyabra kimi öz əlifbası olmayan onlarla xalqlar üçün lüğət və qrammatika kitabı hazırladılar. Rusiyada feodalizmin tarixinin öyrənilməsində B.D.Qrekov və S.V.Baxruşin, XIX əsr ictimai hərəkatı tarixinin tədqiqində M.V.Neçkina və N.M.Drujinin, sovet mənbəşünaslıq elminin yaranmasında M.N.Tixomirov və S.N.Valk, slavyanşünaslıqda V.İ.Piçeta, ümumi tarix məsələlərinin araşdırılmasında Y.A.Kosminski, C.D.Skazkin, V.P.Volqin, E.V.Tarle və b. mühüm rol oynadılar. Zəngin və sanballı tədqiqatlarına baxmayaraq, sovet tarixçiləri arasında da «sinfi düşmən» axtarışı davam etmişdir. Tarix cəbhəsindəki düşmən axtarışı E.V.Tarle və S.F.Platonov kimi tarixçilərin «əks-inqilabi ziyankarlıqla» damğalanmalarına səbəb oldu. Sinfi mübarizənin forma və metodlarının tarix elminə də tətbiq edilməsi təbii olaraq tarixçilərin yaradıcılığına neqativ təsir göstərmişdir. İkinci beşilliyin sonunda SSRİ-də 867 elmi-tədqiqat institutu, onların da 283 filialı fəaliyyət göstərirdi ki, burada 38 min elmi əməkdaş çalışırdı. XKS-nin 1934-cü il yanvarın 13-də qəbul etdiyi qətnamə əsasında 1918-ci ildən ölkədə qüvvədə olan vahid elmi mütəxəssis dərəcəsi yerinə elmlər namizədi və doktoru elmi dərəcəsi, assistent, kiçik elmi işçi, dosent, professor, elmi müəssisənin həqiqi üzvü elmi adları təsbit edilmişdir.

1920-ci illərin sonu – 1930-cu illərdə sovet alimləri bir çox kəşflərə imza atmışdır. Məsələn, 1928-ci ildə L.İ.Mandelştam və Q.S.Landsberqin işığın kristallarda kombinasiyalı səpələnməsi hadisəsi, İ.E.Tammın bu hadisənin kvant nəzəriyyəsi, 1929-cu ildə D.V.Skobeltsin kosmik şüaları müəyyən etmək metodu, 1934-cü ildə N.N.Semyonovun «Kimyəvi kinetika və zəncirvari reaksiya» monoqrafiyası, 1936-cı ildə A.S.Bakayevin «katyuşa» mərmisinin hazırlanmasında istifadə edilən barıtın hazırlanma üsulunun tapılması elmə verilən əvəzsiz töhfə hesab edilə bilər.

1930-cu illərin əvvəllərində SSRİ-də atom nüvəsi fizikası sahəsində tədqiqatlar geniş miqyas almışdır. D.D.İvanenko nüvənin proton neytron modelinin nəzəri əsasını, 1932-ci ildə L.D.Landau neytronun kəşfindən sonra maddənin neytron vəziyyətinin mövcud olmasını təsbit edərək elmi daha da zənginləşdirmişdir. İ.V.Kurçatov 1934-cü ildə nüvə reaksiyasının şaxələnməsini kəşf etmişdir.

Mühəndislər N.İ.Tixomirov və V.A.Artyomov 1928-ci il martın 3-də dumansız barıtla hərəkət edən raket hazırladılar. N.İ.Tixomirovun ölümündən sonra bu işə B.S.Petropavlovski, 1933-cü ildən isə İ.T.Kleymenov və Q.E.Lanqemak başçılıq etmişdir. 1937-ci ilin dekabrında Kleymenov və Lanqemak S.P.Korolyov və V.P.Qluşko ilə birlikdə «antisovet trotskiçi» təşkilatında iştirakları haqqında ifadə verdiklərinə görə həbs edildikləri üçün raketlərin təkmilləşdirilməsi işində iştirak edə bilmədilər. 1933-cü il avqustun 17-də S.P.Korolyovun rəhbərliyi altında Moskva ətrafındakı Naxabino qəsəbəsindəki mühəndis poliqonundan ilk maye ilə işləyən raket havaya qalxmışdır. Raket cəmi 18 dəqiqə 400 m. yüksəkliyə qalxsa da, sonrakı kosmosu fəth edən sovet raketlərinin ilk nümunəsi kimi tarixə düşmüşdür.

1934-cü il avqustun 21-də P.K.Oşepkov və b. Moskva altında birinci radiolokatoru təcrübədən keçirmişlər. 1937-ci ildə isə gəmilər və sualtı qayıqlar üçün ilk vətən radiopelenqator cihazı (radiomaqnit dalğaları vasitəsilə istiqaməti təyin edən cihaz) hazırlanmışdır. 1930-1934-cü illərdə O.Y.Şmidt və İ.D.Papaninin Artktika ekspedisiyası şimal dəniz yolunun tədqiq edilməsində əhəmiyyətli rol oynadı.

1930-cu ildə A.M.Çeremuxinin yaratdığı birinci sovet vertolyotu havaya qalxmışdır. 1934-cü ildə tupolevçilər dünyada nəhəng səkkizmotorlu yük təyyarəsi olan ANT-20 «Maksim Qorki»ni uçuşa buraxdılar. 1937-ci ildə A.N.Tupolevin ANT-25 təyyarəsində V.P.Çkalov, Q.F.Baydukov və A.V.Belyakov Şimal qütbü üzərindən dayanmadan 10 min km məsafə qət edərək Moskva-Portlend (ABŞ) uçuşunu həyata keçirdilər.

1930-cu illərin sonunda SSRİ-də kənd təsərrüfatı profilli 90, sosial-iqtisadi və pedaqoji yönlü 127 elmi-tədqiqat institutu, xalq səhiyyəsi sistemində 268 elmi müəssisə fəaliyyət göstərirdi. 1940-cı ildə ölkədə 1821 elmi müəssisə tədqiqat işi aparırdı. SSRİ EA-nın sistemində 200 elmi müəssisə, o cümlədən 78 institut işləyirdi. Akademiyanın əməkdaşları 1927-ci ildəki 1018 nəfərdən artaraq 1940-cı ildə 16335 nəfərə çatmışdı. Akademiyanın elmi əməkdaşları arasında 126 həqiqi və fəxri üzv, 191 müxbir üzv, 402 elmlər doktoru və 1271 elmlər namizədi var idi. SSRİ-nin ali məktəblərində müharibədən əvvəlki tədris ilində 61,4 min elmi işçi və müəllim, səhiyyənin elmi müəssisələrində isə 9166 elmi əməkdaş çalışırdı.

## §4. Ədəbiyyat

Vətəndaş müharibəsi saysız-hesabsız qiymətli incəsənət və heykəltəraşlıq abidələrini, çoxlu kitabxana, xüsusi arxiv və mədəniyyət ocaqlarını dağıdaraq, Rusiyanın mədəniyyətinə ağır zərbə vurdu. Bədii sahədə çalışan ziyalıların çox hissəsi sovet hakimiyyətini qəbul etməyərək, xarici ölkələrə mühacirətə getdilər. Bu illərdə bədii yaradıcılıqla məşğul olan ziyalıların yolu birmənalı olmadığı kimi, həm də ziddiyyətli olmuşdur. Sol (avanqard) istiqaməti təşkil edən yazıçı və şairlər, rejissor və aktyorlar, rəssam və heykəltəraşlar inqilabın təntənəsindən bəhrələnərək, özlərini ifadə etməyin yeni yaradıcılq formalarını azad surətdə axtarıb-tapmaq məqsədilə köhnə incəsənət ənənə və üsul, qayda-qanunlarını sındırıb-dağıtmaq yolunda əllərinə fürsət düşdüyünü ümid edirdilər. Odur ki, bu məqsədlə onların çoxu bolşeviklərlə əməkdaşlıq etməyə başladılar.

20-ci illərin əvvəllərində incəsənət və ədəbiyyatda realizmi inkar edən və köhnə incəsənət ənənəvə üsullarını dağıtmalı olan yeni bir üslub yaratmağa çalışan formalist cərəyan olan futurizmin tərəfdarları hətta dövlət statusuna iddia edirdilər. Futurizm (lat. gələcək – «будущее») mədəni-fəlsəfi axını kimi gələcəyə yönələrək keçmişlə əlaqənin tam kəsilməsini ifadə edirdilər. Başqa sözlə, onlar özlərini inqilabi incəsənətin yeganə təmsilçiləri kimi qələmə verdilər. Futuristlər və imajinistlər «Kommuna incəsənəti» qəzetinin səhifələrində köhnə ədəbi irsin dağıdılmasını və «sol incəsənət» diktaturasının bərqərar olmasını təbliğ edirdilər.

Mədəni nihilizm ictimai şüurun dini mühitində əksini taparaq çoxlu sayda mistik axınların meydana gəlməsinə səbəb olmuşdur. Ədəbi-fəlsəfi «skiflər» qrupunun üzvləri tanınmış şairlər N.A.Klyuev, A.N.Belıy, A.A.Blok, S.A.Yesenin inqilaba vətəndaş müharibəsi alovlarının təmizlədiyi qırmızı bütpərəstliyin təntənəsi işığında baxırdılar.

Bəhs edilən dövrdə inqilabi şüarlara fanatikcəsinə aludə olan bir sıra ədəbiyyatçı və tənqidçi belə hesab edirdi ki, əvvəlki mədəni irsdən tamamilə imtina edərək yeni proletar mədəniyyəti yaratmaq lazımdır. 1917-ci ilin payızında meydana gələn mədəni-maarif və ədəbi-bədii Proletar Mədəniyyəti (Пролеткульт) təşkilatına A.A.Boqdanov, V.F.Pletnyov və başqaları rəhbərlik edirdi. İxtisasca həkim olan keçmiş bolşevik A.A.Boqdanov Oktyabr silahlı üsyanında iştirak etməməsinə baxmayaraq, yeni proletar mədəniyyəti yaradılmasında yaxından iştirak edirdi. A.Boqdanov Xalq Maarif Komissarı A.V.Lunaçarski ilə birlikdə belə hesab edirdilər ki, proletar mədəniyyəti partiya aparatından asılı olmamalıdır. Proletkultun dərnək və studiyaları ədəbiyyat, teatr və təsviri sənətə geniş zəhmətkeş kütlələri cəlb etməklə, onların

arasından gələcək şair, yazıçı, rəssam, aktyor və s. aşkar edirdilər. Proletkultçular özlərinin «Fit» («Гудок»), «Proletar mədəniyyəti» («Пролетарская культура») jurnallarını nəşr edir və burada proletar şairlərin şeirlər toplusu çap olunurdu. Məsələn, A.K.Qastevin «Fəhlə zərbəsinin poeziyası» («Поэзия рабочего удара»), V.T.Kirillovun «Gələcək şəfəqlər» («Будущее лучи») kitabları buna misal ola bilər. Ümumilikdə 1920-ci ildə proletkultçular hərəkatında 400 min nəfərə yaxın adam iştirak edirdi. Eyni zamanda proletkultçuluq ideyası geniş yayılaraq, öz sıralarında istedadlı gəncləri birləşdirən bir çox yaradıcılıq birliklərinin proqramlarında əks olunmuşdur. Yalnız 1920-ci ildən 1926-cı ilə kimi mətbuatda 150 nəfərdən çox Vətəndaş müharibəsi iştirakçısı olan yazıçı və şairlər öz əsərlərini çap etdirmişdilər. Onlar arasında A.Jarov, N.Asev, L.Leonov, L.Seyfullina, M.Şoloxov, N.Tixonov və b. var idi.

Proletar mədəniyyətçilərin partiya və dövlətə münasibətdə müstəqil siyasət yeritmələrini son dərəcə ziyanlı hesab edən V.İ.Lenin əvvəl müdafiə etdiyi proletkult ideyalarına kəskin mənfi münasibət bildirmişdir. 1920-ci ilin oktyabr-noyabr aylarında «proletkultçulara» təzyiqi artıran hökumət Xalq Maarif Komissarlığının Proletar Mədəniyyəti şöbəsini yaradaraq, onların müstəqil fəaliyyətinə son qoydu. Buna baxmayaraq, proletkultçuların ideologiyası mövcud olmaqda davam edirdi və Proletar Yazıçılarının Rusiya Assosiasiyası (РАПП) və Proletar Yazıçıların Birləşmiş Ümumittifaq Assosiasiyası (ВОАПП) onların xələfi oldu. 1928-ci il aprelin 30-dan mayın 8-nə kimi davam edən Proletar Yazıçılarının I qurultayında L.Averbax, P.Kerjentsyev, A.Fadeyev və b. rəhbərliyi ilə ölkənin bütün milli proletar yazıçıları dəstələrini birləşdirən assosiasiya təşkil edilmişdi ki, bu da 1932-ci ilə kimi fəaliyyət göstərdi. Həmin assosiasiyada birləşən ədib və şairlər xırda burjua ədəbiyyatçıları hesab etdikləri çığırdaşlarla, o cümlədən A.N.Tolstoy, A.P.Platonov, M.A.Bulqakov, S.A.Yesenin və hətta V.V.Mayakovskiyə qarşı mübarizə aparırdılar. Proletar Yazıçılarının Rusiya Assosiasiyası özlərinin ideoloji sələflərindən fərqli olaraq «proletar mədəniyyəti» şüarını «klassiklərdən öyrənmə» prinsipi ilə əvəz etmişdir. Ədəbi proseslərin iştirakçıları ilə daim mübarizə Assosiasiyanın böhranına səbəb oldu. 1932-ci ilin aprelində ÜİK(b)P MK-nın Siyasi Bürosu qəbul etdiyi ədəbi bədii birliklərin yenidən qurulması haqqında qərarı ilə РАПП və b. yaradıcı ittifaqları buraxdı.

1917-ci ilə kimi burjua publikasını öz manifestləri ilə heyrətləndirən V.Mayakovski proletar inqilabının carçısına çevrilərək onun təntənəsini tərənnüm etməyə başladı. Lakin V.Mayakovskinin sovet həqiqəti ilə inqilabi ideallar arasındakı uyğunsuzluq görməsi «proletariat incəsənəti»nin qısqanc tərəfdarlarının narazılığına səbəb olurdu ki, bu da şairin faciəli həyat sonluğu

ilə üzləşməsinə gətirib-çıxardı. Baş verən hadisələri V. Mayakovski özünün «Misteriya-buf» poemasında qələmə almışdır.

Yeni İqtisadi Siyasətə (НЕП) keçilməsi sovet hakimiyyətinin demokratiya istiqamətində təkamülü olaraq «smenovexçilik» hərəkatını yaratmışdır. Hərəkatın adı 1921-ci ildə Praqada çap edilən «Smena vex» jurnalından götürülmüşdür. YİS şəraitində sovet hakimiyyəti qeyri-proletariat kütləsi arasında dayaqlarını möhkəmlətmək məqsədilə ölkədə müxtəlif istiqamətli bir sıra jurnalların, o cümlədən «Smena vex»in nəşrinə icazə verdi. Smenovexçiləri xaricdə təmsil edən Y.V.Klyüçnikov və N.V.Ustryalov hərəkatın rəhbərləri kimi 1922-ci ildə SSRİ-yə dönərək 1935-ci ildə repressiya nəticəsində həlak olmuşdur. SSRİ-də 1922-1926-cı illərdə smenovexçi «Yeni Rusiya» («Новая Россия») jurnalının redaktoru ədəbiyyatçı İ.Q.Lejnyov olmuşdur. Bu hərəkatın mahiyyəti Rusiya dövlətçiliyini xilas edərək inqilabi «qarışıqlıqdan» yeni iqtisadi siyasət vasitəsilə çıxmağı nəzərdə tutan sovet hakimiyyətini tanımaq idi. YİS-ə keçid 1921-ci ildə 121 843, 1921-1931-ci illərdə isə 181 432 nəfər mühacirin Rusiyaya dönməsinə səbəb olmuşdur.

Lakin sovet hakimiyyəti ziyalılara qarşı sinfi yanaşma prinsipindən əl çəkməmişdi. 1921-ci ildə coğrafiya sahəsində professoru V.N.Taqantsevin rəhbərlik etdiyi Petroqrad mübarizə təşkilatının işi üzrə 200 nəfər həbs edilmişdir. Avqustun 24-də Petroqrad FK-nin qərarı ilə həbs olunanlardan 61 nəfəri, o cümlədən görkəmli rus şairi N.S.Qumilyov güllələnmişdir.

1923-cü ilin noyabrında Baş Daxili Siyasi İdarə (BDSİ) S.Yesenin və onun dostları A.Qanin, S.Kılçkov, P.Oreşin haqqında antisemitizm damğası ilə qurma iş təşkil etməyə cəhd göstərdiyi üçün şair böhtana tab gətirməyərək 1925-ci ildə özünü öldürdü (başqa bir fərziyyəyə əsasən onu öldürdülər). 1924-cü ilin noyabrında yazıçı A.Qaninin qrupunu milli Rusiyanı xilas etmək məqsədilə beynəlmiləl-kommunist rejimi ideyasını müdafiə etdikləri üçün həbsə aldılar. 1925-ci ilin martında A.Qaninlə birlikdə 6 nəfər güllələndi, 7 nəfəri isə Solovki həbs düşərgəsinə göndərildi.

Böyük rus liriki, doğma təbiətin dahi tərənnümçüsü S.Yeseninin də taleyi fəlakətli dövrün ziddiyyətləri ilə müşayiət olunurdu. Onun yaradıcılığı «qolçomaq şair» kimi «ideya cəhətdən yad» elan olunmasına baxmayaraq, Yesenin şeirlərinin sətirləri sovet adamlarının qəlbini döyündürür və isidirdi. XX əsr Rusiyanın tarixi dramını yaşayanlardan biri hakimiyyətin təqib etdiyi və repressiyaya məruz qalan həqiqəti dərindən estetik şəkildə dərk edib tərənnüm edən şair O.Mandelştam idi. Bu dövrdə poeziyanın istedadlı nümayəndələrindən biri B.Pasternakın «Leytenant Şmidt» epik əsəri çap edildi. A.P.Platonov «Çevenqur», «Kotlovan», «Yuvenilnoye more» əsərlərindəki qəhrəmanlarının timsalında göstərdi ki,

həyatdan uzaq düşən sosial eksperimentlər insan təbiətini eybəcərləşdirərək nəyə gətirib çıxara bilər. M.A.Bulqakovun vətən ədəbiyyatının klassikləri sırasına daxil olan romanlarında insanın məişət problemləri geniş tarixi və sosial-psixoloji kontekstdə işıqlandırılır. Onun senzura sayəsində yalnız bir hissəsi çap edilən «Ağ qvardiya» («Белая гвардия») əsəri Vətəndaş müharibəsi tarixinə başqa mövqedən işıq salır. Sosial fantastika janrında da əsərlər yazan M.Bulqakov 20-ci illərdə «İblislik» («Дьяволиада»), «Pis yumurtalar» («Роковые яйца»), çap edilməyən «İt ürəyi» («Собачье сердце») əsərlərini yazır. Eyni ruhda sosial fantastika janrında E.İ.Zamyatin «Biz» («Мы») əsərində yüksək totalitar cəmiyyətin satirik təsvirini vermişdir. Bəhs etdiyimiz yazıçı və şairlərin əsərlərinin çox hissəsi hakimiyyətin tələb etdiyi sosialist realizminə cavab vermədiyi üçün qadağan edilərək çap edilmirdi. Bu səbəbdən A.Platonov, E.Zamyatin, A.Axmatova, M.Bulqakov, O.Mandelştam, S.Klıçkov və b. əsərləri çap edilmir və yaxud çox az nüsxə ilə nəşr edilirdi.

30-cu illərin əvvəllərində Sovet dövləti yazıçıların böyük əksəriyyətini öz tərəfinə çəkərək çoxlu ədəbi təşkilatların mövcud olması zəruriliyini aradan qaldırmaq, bütün yazıçıları Sovet Yazıçıları İttifaqında birləşdirmək məqsədilə 1932-ci il aprelin 23-də «Ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında» qərar qəbul etdi. Qərara uyğun olaraq 1934-cü ilin avqustunda 557 nümayəndənin iştirakı ilə I Ümumittifaq Yazıçılar qurultayında A.M.Qorkinin sədrliyi ilə Sovet Yazıçılar İttifaqı yaradıldı. A.M.Qorkinin ölümündən sonra ittifaqa A.A.Fadeyev sədrlik etməyə başladı. 2,5 min nəfəri əhatə edən SSRİ Yazıçılar İttifaqının yaranması ilə nisbi bədii yaradıcılıq azadlığına son qoyuldu. Ədəbiyyat və incəsənətdə yaradıcılığın başlıca prinsipi partiyalılığa əsaslanan sosialist realizmi elan olundu. Yazıçılar ittifaqının Nizamnaməsində deyildiyi kimi, sosialist realizmi yaradıcıdan «vəziyyəti həqiqi, konkret-tarixi və inqilabi inkişaf mahiyyətində təsvir etməyi» tələb edir. Bu isə yaradıcılıqda avanqard bədii qayda və formalardan imtina edilməsi demək idi. Başlıcası, o idi ki, bundan sonra hansı hadisənin təsvirinin həqiqət olmasını partiya instansiyası müəyən etməli idi.

Rəsmi ideoloji çərçivəyə baxmayaraq, bir çox istedadlı sovet yazıçıları cızılmış sərhədləri pozaraq möhtəşəm bədii əsərlər yaratdılar. A.M.Qorkinin yaradıcılıq fəaliyyətiniin çiçəklənməsi məhz bu illərə təsadüf edir. Onun bir-birinin ardınca «Mənim universitetlərim», («Мои университеты»), «Artamonovların işi», («Дело Артамоновых»), «Klim Samginin həyatı», («Жизнь Клима Самгина»), «Yeqor Bulıçov və başqaları», («Егор Булычов и другие»), «Dostiqayev və başqaları» («Достигаев и другие») roman, dram və kitabları nəşr edildi. A.Qorkinin yaradıcılığı sovet ədəbiyyatının və ölkə ədəbi mühitinin mühüm bir mərhələsini təşkil edir.

Xarici hərbi müdaxilə və vətəndaş müharibəsi dövründə kazakların taleyinin geniş tarixi epopeyasını tərənnüm edən M.A.Şoloxovun «Sakit Don» («Тихий Дон»), A.N.Tolstoyun «Əzablı yollarla», («Хождение по мукам»), N.A.Ostrovskinin «Polad necə bərkidi» («Как закалялась сталь») və b. bədii yaradıcılıq nümunələri adamların yaşam və həyat mübarizəsinə həsr edilmişdir.

30-cu illərin ədəbiyyatında əsas yerlərdən birini sənayeləşdirməni əks etdirən istehsalat romanları tuturdu. Bu əsərlərdə əsas qəhrəman konkret adamlar deyil, ümumiləşdirilmiş texniki tərəqqi və şanlı əmək obrazıdır. F.Qladkovun «Sement» («Цемент»), V.Katayevin «Zaman, irəli», («Время, вперёд»), F.Panferovun «Tir» («Бруски»), İ.Erenburqun «İkinci gün» («Второй день») və s. əsərləri buna misal ola bilər. Sovet kəndində cərəyan edən faciəli hadisələr M.Soloxovun «Oyanmış torpaq» («Поднятая целина») adlı sanballı əsərində özünün bədii həllini tapmışdır. 1927-1941-ci illərdə sovet satirasının gözəl nümunələri olan İ.İlf və Y.Petrovun «On iki stullar» («Двенадцать стульев»), «Qızıl buzov» («Золотой теленок») əsərləri meydana gəldi.

30-cu illərin ikinci yarısından başlayaraq repressiya şəraitində sovet bədii yaradıcılığının səviyyəsi kəskin şəkildə aşağı düşmüşdü. A.Platonov, M.Bulqakov kimi bir çox ədəbiyyatçılar ya repressiyaya məruz qalmış, ya da ədəbiyyatdan uzaqlaşdırılmışdılar.

### §5. 1920-1930-cu illərdə incəsənət

Sovet hakimiyyətinin ilk illəri teatr sayının sürətlə artması ilə müşayiət olunurdu. Bir qayda olaraq yeni teatrlar köhnə teatr incəsənətindən imtina edən kəskin sol mövqedən çıxış edirdilər. Vətəndaş müharibəsi epoxasının tələb etdiyi təşviqatçı və plakat xarakterli ilk sovet pyesləri, o cümlədən V.Mayakovskinin «Misteriya-buf» tamaşası səhnələrdə öz yerini tutdu. Yeni iqtisadi siyasətə keçidlə bağlı olaraq teatrlar ağır günlər keçirməyə başladı. Maliyyə çətinliyinə görə əyləncə incəsənəti olan bir çox teatrlar bağlandı. Dramaturgiya və opera teatrları isə yalnız 20-ci illərin ikinci yarısından sonra öz vəziyyətlərini normal məcraya yönəldə bildilər. Artıq bu vaxt vətəndaş müharibəsi dövrünün təbliğatçı incəsənəti tamaşaçını qane etmirdi.

1920-ci illərdə teatr aləmindən iki istiqamət, nəticə etibarilə incəsəntdə iki məktəb arasında şiddətli və maraqlı mübarizə gedirdi. Bunlardan birinə dahi rejissor Vs.E.Meyerxold rəhbərlik edirdi ki, onun «Teatral oktyabr» proqramı incəsənətdəki «sol cəbhə» ideyasına tam cavab veriridi. Onun

yenilikçi ideyaları rəhbərlik etdiyi teatrlarda, 1926-cı ildən isə Vs. Meyerxold adına Dövlət Teatrında tətbiq edilmişdir. Şərti səhnə tərəfdarı olan rejissor tamaşalarında səhnə ilə tamaşaçı arasında sədd qoymadığı üçün tamaşaçı hadisələrin iştirakçısına çevrilirdi. Vs.Meyerxold özünün aktyor məktəbini yaratmışdır ki, burada da aktyorlar səhnədə özünün fiziki və psixiki hərəkətlərini daim təkmilləşdirərək səmərəli obraz yaratmalı idi. Məhz M.İ.Babanova, M.İ.Jarov, İ.V.İlinski, E.P.Qarin və b. kimi qüdrətli aktyorlar Meyexold məktəbində yetişərək sovet, sonra rus tamaşaçısının rəğbətini qazanmışdır.

Kamera teatrının yaradıcısı və bədii rəhbəri A.Y.Tairov Vs.E.Meyerxoldun «Şərti teatr» prinsipinə qarşı özünün səhnə elementlərinin hamısını, o cümlədən pantomima və rəqsi birləşdirən «sintetik teatr»ı qoymuşdur. Meyerxoldun kəskin siyasi tamaşalarından fərqli olaraq Tairov klassik tamaşalara üstünlük vermişdir. 1922-ci ildə A.Tairov J.Rasinin «Fedru» və Ş.Lekokun «Jirofle-Jiroflya», 1929-cu ildə B.Brextin «Üç qəpiklik opera» («Трёхгрошовая опера») pyeslərini səhnələşdirmişdir.

Romantik ənənəni isə 1919-cu ildə Petroqradda A.A.Blok və M.Qorkinin iştirakı ilə açılmış Böyük Dram Teatrı davam etdirmişdir. K.S.Stanislavskinin «təsərrüfat məktəbi» Moskva Bədaye Teatrında (MXT, 1919-cu ildən MXAT) ənənəni davam etdirmişdir. SSRİ incəsənətində əsas metod kimi sosial realizmin bərqərar olması sovet dramaturgiyasının inkişafında əhəmiyyətli rol oynayaraq yeni parlaq tamaşaların səhnələşdirilməsinə təkan vermişdir. Moskva Bədaye Teatrında quruluşçu rejissorlar V.İ.Nemiroviç-Dançenko və V.Q.Saxnovski «Anna Karenina», İnqilab teatırında quruluşçu rejissor A.D.Popov «Romeo və Cülyetta» əsərlərini səhnələşdirmişdir.

Tədricən akademik teatrların səhnəsində, o cümlədən K.S.Stanislavski və V.İ.Nemiroviç-Dançenkonun rəhbərliyi ilə Moskva Böyük Akademik Teatrında (MBAT) teatr ənənələri bərqərar olmağa başladı. 20-ci illərin ikinci yarısı – 30-cu illərin əvvəllərində ölkə teatrlarının repertuarında böyük şöhrət qazanmış bir çox tamaşalar meydana gəldi. M.A.Bulqakovun «Turbinlərin günü» («Дни Турбиных»), K.A.Trenyevin «Lyubov Yarovaya», B.A.Lavrenyevin «Sındırma» («Разлом»), V.V.İvanovun «Zirehli qatar 14-69», («Бронепоезд 14-69»), N.P.Erdmanın «Mandat», V.V.Vişnevskinin «Nikbin faciə» («Оптимистическая трагедия») və s. pyeslərin tamaşaları buna misaldır. Düzdür, demək olar ki, bu tamaşaların hamısı dəfələrlə senzura tərəfindən qadağan olunmuşdu. Sovet realist teatrının cızdığı sərhədlərdən kənara çıxanlar burjua formalizmində və yaxud da hər cür «solçuluq» təhriflərində günahlandırılırdı. Teatr incəsənəti sahəsində məcburi bərqərar edilən bir istiqamət – Stanislavski sistemi ağalıq edirdi. Teatrlarda bədii eksperimentlər uzun müddət yaddaşlardan silinmiş

oldu. K.Stanislavski və V.Nemiroviç-Dançenko ilə bərabər teatrlarda E.Vaxtanqov, V.Meyerxold, A.Tairov kimi sənətkarlar parlamağa başladı. Teatrın səhnələrində artistlər V.Kaçalov, N.Xmelyov, V.Paşennaya, B.Şukin, gənc aktyorlar N.Batalov, A.Tarasova, E.Qoqoleva, M.Yaşin, B.Livanov və digərləri parlaq sənət nümunəsi nümayiş etdirirdilər. Milli teatrlar sürətlə artırdı. 1920-ci ildə Ukraynada İvan Franko adına Teatr, Belorusiyada Minskdə birinci Dram Teatr fəaliyyətə başladı. Bu respublikalarda özfəaliyyət teatr hərəkatı geniş vüsət aldı. 30-cu illərin ikinci yarısından başlayaraq teatr və incəsənət sahəsində «formalizmlə» mübarizə pərdəsi altında repressiya dalğası geniş miqyas aldı. Formalizmlə mübarizə şüarı altında böyük rejissor V.E.Meyerxoldun teatrı bağlandı, özü isə 1939-cu ildə həbs edilərək güllələndi.

Sovet hakimiyyəti misilsiz təbliğat imkanı olan kinematoqrafiyaya xüsusi diqqət yetirirdi. İlk sovet filmi hələ vətəndaş müharibəsi illərində ekrana çıxmışdı. S.M.Eyzenşteynin 1925-ci ildə yaratdığı ««Potyomkin» zirehli gəmisi» («Броненосец «Потемкин») səssiz kinofilmi dünyada şöhrət qazanmışdı. 1926-cı ildə rejissor Vsevolod Pudovkin A.M.Qorkinin «Ana» əsəri əsasında ölməz kinofilmini yaratdı. Rejissorlar V.Pudovkin və S.Eyzenşteyn yaratdıqları kinofilmlərlə nəinki Vətən, hətta dünya kino incəsənəti sahəsində yeni söz sahibi kimi məşhurlaşdılar. Tarixi mövzuya müraciət edən Sergey Eyzenşteyn slavyan rus xalqının milli qəhrəmanı Aleksandr Nevskinin bədii ekran obrazını «Aleksandr Nevski» kinofilmində yaratdı. V.İ.Pudovkinin tarixi mövzuda çəkdiyi «Suvorov», V.M.Petrovun «Birinci Pyotr» («Петр первый») kinofilmləri böyük şöhrət qazandı. 1920-ci illərdə mühacirətdən qayıtdıqdan sonra istedadlı rejissor Y.A.Protazanovun (1881-1945) yaradıcılığı yüksəlmişdir. Onun 1928-ci ildə çəkdiyi «Don Dieqo və Pelaqiya», 1930-cu ildəki «Müqəddəs İorgenin bayramı» komediyaları kapitalist və din xadimlərini satirik bir dildə ifşa edirdi. 1929-1930-cu illərdə dünyaşöhrətli Ukrayna rejissoru Aleksandr Dovjenko «Arsenal» və «Torpaq» («Земля») filmlərini yaratdı. Ölkə üzrə milyonlarla tamaşaçı dəfələrlə S.D. və Q.N.Vasilyevlərin ekranlaşdırdığı «Çapayev» filminə tamaşa edir, bu onlara unudulmaz təsir bağışlayırdı. D.A.Furmanovun romanı əsasında çəkilmiş «Çapayev» filminin baş rolunu ifa etmiş B.A.Baboçkin əsl xalq qəhrəmanı, əfsanəvi inqilabi sərkərdənin bədii obrazını ustalıqla yaratmışdır. Kinematoqrafçılar bütov bir yeni nəslin, dinc dövrün qurucularının bədii obrazınıkino səhnəsinə daşıdılar. Rejissorlardan N.V.Ekkin «Həyata vəsiqə» («Путёвка в жизнь»), S.A.Gerasimovun «Yeddi cəsur» («Семеро смелых»), İ.A.Pıryevin «Traktoristlər» («Трактористы»), G.V.Aleksandrovun «İşıqlı yol» («Светлый путь») kinofilmləri buna misaldır. Sovet kinosunda rejissor M.İ.Rommun «Lenin Oktyabrda» («Ленин в октябре»), «Lenin 1918-ci

ildə» («Ленин в 1918 году») filmləri sosialist realizminin şedevrləri hesab edilirlər. Sovet kino incəsənəti sahəsində mühüm yerlərdən birini musiqili komedya janrı tutur ki, bu da əslində İ.Stalinin irəli sürdüyü «yaşamaq yaxşı olmuşdur, yaşamaq şən olmuşdur» tezisinin təsdiqinə xidmət edirdi. Belə kinofilmlərdən rejissor G.V.Aleksandrovun «Şən uşaqlar» («Веселые ребята»), «Sirk» və «Volqa-Volqa»nı misal göstərə bilərik. Bu filmlərin musiqisini görkəmli bəstəkar İ.O.Dunayevski yazmışdır ki, onun da əsasını xalq musiqisi təşkil edir. Kinematoqrafçılar 30-cu illərdə kütləvi tamaşaçıya sirayət edə bilən sadə yaradıcılıq metod və vasitələri ilə sosializmin qələbəsinin təmin olunmasının ideya əsasını təşkil edən kinofilmlər yaradırdılar. Sosializm realizmi çərçivəsinə sığmayan filmlərin müəllifləri ya unudulur, ya da repressiyalara məruz qalırdılar. Məhz 30-cu illərin sonlarındakı repressiya dalğası yaradıcı ziyalılardan rejissor V.E.Meyerxold, şairlərdən O.E.Mandelştam və T.Y.Tabidze, yazıçılardan İ.E.Babel və A.Veselının həyatına son qoymuşdu. Yaradıcı ziyalıların bir hissəsi uzun müddətə sürgün və həbsxanaya göndərilmiş, başqaları isə özlərinin bədii və estetik təsəvvürləri baxımından əsərlər yaratmaq imkanından məhrum qalmışdılar.

1936-cı ildə «Pravda» qəzetində müasir sovet musiqisində, o cümlədən balet, teatr incəsənəti və kinematoqrafiyada formalizm və ideyasızlığı mühakimə edən məqalə dərc olundu. Bir çox sənətkar «ziyankar burjua axını» nümayəndələri elan edildilər. Partiya və dövlətin göstərişinə müvafiq olaraq 30-cu illərin ikinci yarısından başlayaraq teatr, musiqi və təsviri incəsənət sahəsində «formalizmlə» mübarizə geniş miqyas aldı. 1936-cı ildə D.D.Şostakoviçin dahi operası «Mtsensk qəzasının ledi Maqbeti» («Леди Макбет Мценского уезда») qərəzli tənqid atəşinə tutuldu. Ona görə ki, ənənəvi sənət sevən Stalinin opera xoşuna gəlməmişdi. Mərkəzi partiya aparatının sifarişi ilə «Pravda» qəzetində dərc edilən məqalədə D.Şostakoviçin operası yerdən-yerə vurularaq «musiqi yerinə qarma-qarşıqlıq» adlandırılırdı. Bədii yaradıcılığın çərçivəyə salınması mənfi təsirini göstərsə də, musiqi və təsviri sənətin irəliləməsinin qarşısını ala bilmədi. D.D.Şostakoviçin «Burun» («Нос»), «Katerina İzmaylova», S.S.Prokofyevin «Semyon Kotko», R.M.Qliyerin «Şahsənəm», İ.İ.Dzerjinskinin «Sakit Don» («Тихий Дон») operaları meydana gəldi. Mahnı yaradıcılığının inkişafında V.İ.Lebedev-Kumaç, M.V.İsakovski, A.A.Prokofyev kimi şairlərin sözlərinə görkəmli bəstəkarlar İ.O.Dunayevski, Dmitri və Danil Pokrass qardaşları, A.V.Aleksandrov, D.B.Kovalevski, V.Y.Şabalin və başqaları uzun illər yaddaşlara həkk edilən mahnılar bəstədilər.

Rusiyanın tarixinə müraciət edən böyük sənətkar M.İ.Qlinka «Çarın həyatı» («Жизнь царя») operasını bəstələmişdir. 1939-cu ildə opera «İvan Susanin» adı altında Böyük Teatrda tamaşaya qoyulmuşdur. 1930-cu illərdə so-

vet simfoniya ustalarının yaradıcılığı rəngarəng olmuşdur. Realizm ənənəsinin davam etməsilə müasirliklə zəngin rus tarixini birləşdirmiş mövzular önə çıxmışdır. S.S.Prokofyev «Aleksandr Nevski» vətənpərvərlik kontatasını, D.D.Şostakoviç dərin məzmunlu 5-ci və 6-cı simfoniyalarını, Y.A.Şaporin «Kulikova çölündə» («На поле Куликовом») simfonik kontantasını bəstələmişdir.

1920-1930-cu illərdə teatr səhnələrində V.P.Petrov, L.V.Sobinov, A.V.Nejdanova, N.A.Obuxova və b. kimi böyük müğənnilər çıxış edirdi. 1930-cu illərdə əfsanəvi estrada artisti L.O.Utesovun ulduzu parlamışdır. 1937-ci ildə Utesovun caz orkestri «Vətənimin mahnısı» («Песни моей родины») proqramını təqdim etdi ki, bu da 1941-ci ilə kimi davam etmişdir.

Oktyabrdan dərhal sonra V.İ.Leninin heykəltəraşlıq təbliğatı planı həyata keçirilməyə başlandı. İnqilabçı liderlərə, sadə adamlara ziyalılara heykəllər ucaldılırdı. Çox vaxt gips və ağacdan hazırlanan bu abidələrin ömrü uzun olmasa da, bu yeni hakimiyyətin xalqla incəsənət vasitəsilə təması idi. Üç il ərzində Moskvada 25, Petroqradda isə 15-dən çox abidə ucaldılmışdır. Sovet monumental heykəltəraşlığında qəhrəmanlıq, eyni zamanda sadəlik və insanlıq üslubu hakim idi. «Monumental təbliğat» planının həyata keçirilməsində istedadlı heykəltəraşlar iştirak edirdi. Onların bir çoxu hələ inqilaba kimi yaratdığı əsərlərlə məşhur idi. Tanınmış sənətkar N.A.Andreyev Vorobyov dağlarında Gertsen və Oqaryova, Kiçik teatrın simvolu olan A.N.Ostrovskiyə, L.V.Şervud Radişşev və Gertsenə, S.D.Merkurov F.M.Dostoyevskiyə, S.T.Konenkov Stepan Razinə abidələr ucaltmışdır. Görkəmli usta sənətkar V.İ.Muxina Parisdəki Beynəlxalq sərgidə nümayiş etdirilmiş «Fəhlə və kolxozçu qadın» («Рабочий и колхозница»), A.D.Şadrla birlikdə Belorusiya vağzalındakı M.Qorkinin, Moskva konservatoriyası binası önündə P.İ.Çaykovskinin abidərəini hazırlamışdır. Xalq mövzusu istedadlı heykəltəraş İ.D.Şadrın yaradıcılığında əsas yer tutmuşdur. Onun «Fəhlə», «Qızıl əsgər», «Kəndli» büstləri öz əzəməti ilə seçilir.

Sovet monumental heykəltəraşlığında «Leniniana» mövzusu simvolik-epoxal yer tutur. Qüdrətli heykəltəraşlar, o cümlədən N.A.Andreyev, İ.D.Şadr, S.D.Merkurov, V.V.Kozlov Leninin obrazına müraciət etmişdir.

Vətəndaş müharibəsi illərində aydın və sadə olması ilə bağlı plakat incəsənəti təbliğat və məlumat vasitəsi kimi əhəmiyyətli rol oynamışdır. Sovet hakimiyyətinin ilk illərində əhalinin böyük əksəriyyəti oxuyub yaza bilmədikləri üçün partiya və dövlətin tapşırıqları, düşmənə nifrət hissi, sovet adamlarının borcu və s. məsələlər plakatlar yolu ilə xalqa daha tez çatırdı. İstedadlı rəssamlar V.N.Deni, D.S.Moora, M.M.Çeremnıx və b. cəbhədə təbliğat məqsədilə plakatlar hazırlayırdılar. D.S.Mooranın «Kömət et» («Помоги»), V.N.Deninin «Müəssislər Məclisi» («Учредительное Собрание»), «Fəhlə və kolxozçu

qadın» («Рабочий и колхозница»), A.P.Apsitanın «Bütün ölkələrin proletariatı, birləşin!» («Пролетарии всех стран, соединяйтесь!») plakatları sovet incəsənətinin tarixi simvol kimi qızıl əsərləri hesab edilir.

Yeni sənət axtarışları bir çox rəssamların avanqard mövqeyə keçərək fərqli əsərlər yaratmasına təkan verdi. Avanqardçı rəssamlar «natura əsarəti»ndən azad olaraq rəngin köməyi ilə yeni forma müəyyən etmişdir. Konkretlikdən azad olan mücərrəd incəsənətdə tətbiq olunan rəng və cizgilərin içərisində qırmızı – inqilab rəngi hakimdi.

Dünyada məşhur olan böyük rəssam K.S.Maleviç hələ Oktyabr inqilabından 2 il əvvəl «Qırmızı kvadrat» («Красный квадрат») əsərini yaradaraq rəssamlıqda formalist cərəyan olan supermatizm cərəyanının əsasını qoymuşdur. «Təmiz yaradıcılıq» («Чистое творчество») tərəfdarı olan rəssam Nitşenin mədəni-fəlsəfi görüşlərini ifadə edərək köhnə dünyanın reallıqları olan forma, qəlib, şablonları məhv edib yeni dünya yaradan gənc, canlı qüvvəni üzə çıxarmaq məqsədi daşıyırdı. Onun «Qara kvadrat» («Чёрный квадрат»), «Qara xaç» («Чёрный крест»), «Superematizm» tabloları təmiz mücərrəd sənətin inciləridir.

Yeni həyatın hadisələrini real təsvir etmək məqsədilə klassik incəsənətin tərbiyəvi və maarifçilik istiqamətini əsas olaraq qəbul etmiş bir qrup rəssam 1922-ci ildə İnqilabçı Rusiyanın Rəssamlar Assosiasiyasını (AXPP) təşkil etdi. N.Kasatkin, A.V.Moravov, P.A.Radimov, gənc istedadlar N.B.Terpsixorov, B.V.İoqanson kimi sənət adamları bura daxil olmuşdur. Oktyabr hadisəsi, Vətəndaş müharibəsi mövzusu M.B.Qrekovun, M.İ.Avilovun, A.A.Deynekinin yaradıcılığında əsas yer tutmuşdur.

Rəssam İ.İ.Brodski sovet tarixi-inqilabi tablo yaradıcılığında xüsusi yerə malikdir. Onun «26 Bakı komissarının güllələnməsi» («Расстрел 26 бакинских комиссаров»), «Leninin Putilov zavodunda çıxışı» («Выступление Ленина на Путиловском заводе») tabloları tamaşaçı rəğbəti qazanmışdır.

Rus səyyar rəssamları ənənəsini davam etdirmiş bir qrup sənətkarın yaradıcılığında məişət mövzusu fərqlənmişdir. Məsələn, N.A.Kasatkin «Dərs uğrunda. Pioner qız kitablarla» («За учебу. Пионерка с книгами»), A.E.Arxipov «Qız su qabı ilə» («Девушка с кувшином»), E.M.Çeptsov «Məktəb işçiləri» («Школьные работники »), B.V.İoqanson «Sovet məhkəməsi» («Советский суд») tablolarını yaratmışdır.

Karikaturaçı və plakatçı rəssamlar M.V.Kupriyanov, P.N.Krılov və N.A.Sokolov, yəni Kukrıniksovun yaradıcılığı 1933-cü ildəki «Düşmənin üzü» («Лицо врага»), 1933-1934-cü illərdəki «Nəqliyyat» («Транспорт») tablolar seriyaları, 1941-ci ildəki «Düşməni amansızlıqla əzərək məhv edək!» («Беспощадно разгромим и уничтожим врага!») tablosu ilə diqqəti cəlb edir.

1930-cu illərdə yenilikçi rəssam, mozaika sənətkarı, heykəltəraş A.A.Deynekinin monumental incəsənət sahəsindəki əsərləri böyük rəğbət qazanmışdır. Sənətkarın Moskva metropoliteninin «Mayakovski» və «Paveletsk» dayanacaqlarındakı mozaika işi mövzunun səmaya ucalan, yeni zirvələr fəth edən məqsəddən qaynaqlanması xüsusi əhəmiyyət kəsb edir. Müəllifin «Gələcək təyyarəçilər» («Будущие летчики»), «Ana» («Мать») və s. tabloları gözəl insani keyfiyyətləri, təsvir edilmiş personajın zəngin daxili aləmini açıb göstərmişdir.

Sovet memarlığı 1920-ci illərdə iki avanqard üslubda, yəni konstruktivizm və rasionalizm istiqamətində inkişaf etmişdir. Birinci istiqamətin əsasını binanın funksionallığı təşkil edir ki, burada da heç bir dekorativ elementə yer verilmir. Konstruktivizm 1926-cı ildə üç qardaş A.A.Vesnin, V.A.Vesnin, L.A.Vesnin və M.Y.Ginzburq tərəfindən əsası qoyulmuş Sovet Memarları Birliyi (OCA) üzvləri arasında geniş yayılmışdır. Moskva Avtomobil Zavodunun Mədəniyyət Sarayı, Moskvanın Teleqraf binası, Vesnin qardaşlarının layihələşdirdiyi Moskvadakı Əmək Sarayı konstruktivizmin parlaq nümunələridir.

İncəsənətdə avanqard memarlığın yaxın olan üslublarından biri rasionalizmdir ki, onlar da insanın məkanı qavramasına üstünlük verir. 1923-cü ildə bu cərəyanın tərəfdarları N.A.Ladovski, N.V.Dokuçayev, V.F.Krinski və b. Yeni Memarlar Assosiasiyasında (АСНОВА) birləşmişdir. N.N.Travinin başçılığı altında bir qrup memarın layihələşdirdiyi Şabolovkadakı yaşayış binası kompleksi rasionalizm üslubuna ən yaxşı nümunədir.

Memar A.V.Şusevin əvvəl ağacdan, 1930-cu ilə doğru isə mərmərdən layihələşdirdiyi V.İ.Leninin Movzeleyi sovet memarlığının incilərindən biridir. 1930-cu illərdə tədricən konstruktivizmin yerini postkonstruktivizm və ya ar-deko üslubu tutmuşdur ki, burada da binanın elementləri daha zəngindir. Parlaq boya və naxış işləri binaların tikintisində önə çıxmışdır.

1930-cu illərdə memarlıqda yeni klassik üslubun əsası memarlar İ.V.Joltovski və İ.A.Fomin tərəfindən qoyulmuşdur. Yeni klassizm prinsipi 1935-ci ildə tərtib olunmuş Moskvanın yenidənqurulması baş planında öz əksini tapmışdır. Memar İ.V.Joltovskinin Moxovadakı yaşayış binası, memarlar S.E.Çernışev və A.M.Alxazovun Moskva Avtomobil-Nəqliyyat İnstitutunun binası yeni klassik üslubun ən parlaq əsərləridir.

1933-cü ildə SSRİ Memarlıq Akademiyası yarandı ki, bu da yerli və dünya memarlığının tarixi və nəzəri əsaslarının öyrənilməsində mühüm rol oynamışdır. 1937-ci ildə toplanmış sovet memarlarının I Ümumittifaq qurultayı sosializm realizmi prinsipini əsas kimi qəbul etmişdir. SSRİ-də, xüsusilə paytaxt Moskvada şəhər quruculuğu işinə xüsusi əhəmiyyət verilirdi. 1935-ci ildə Moskva metropoliteninin «Sokolnikov»dan «Park Kultura»ya kimi olan birinci xətti

işə başlamışdır. Metrolayihənin baş memarı S.M.Kravetsin sözlərinə əsasən, bir-birindən fərqli dayanacaqlar, genişlik və dərinlik metro tikintisi zamanı qarşıda qoyulmuş əsas vəzifələr olmuşdur. Memar A.V.Vlasovun layihəsi əsasında Qorki adına Mərkəzi Mədəniyyət və İstirahət Parkı (ЦПКиО) salınmışdır.

Rəsmi ideologiyanın təbliğində, mədəni inqilab kimi səciyyələndirilən 20-30-cu illərin mədəni tədbirlərinin həyata keçirilməsində kitabxanalar, qiraət evləri, klublar və mədəniyyət sarayları əsas rol oynayırdı. Partiya və dövlətin nəzarəti altında qəzet və jurnalların səhifələrində marksizm-leninizm-stalinizm ideyaları təbliğ olunur, əhali arasında genişmiqyaslı mədəni-maarif işi aparılırdı. Mətbuatda çap edilən məqalələr, təşkil olunan mühazirə, müsahibə, disput və sərgilər əsasən siyasi xarakter daşıyırdı. Kommunal mənzillərdə və ya zavod yataqxanalarında yaşayan sovet adamları üçün işdənkənar kitabxana, klub və mədəniyyət evlərində vaxt keçirmələri həm də ehtiyacdan meydana gəlirdi. 1936-cı ilin yanvar ayına olan məlumata görə, SSRİ-də 5123 klub və 65 min qırmızı guşə fəaliyyət göstərirdi. Yarım milyondan çox adam özfəaliyyət dərnəklərində məşğul olurdu. Texniki tərəqqini təcəssüm etdirən radionun şərəfinə radiosevərlər dərnəkləri daha geniş yayılmışdı. Gənc nəsil daha çox idmanın hərbiləşdirilmiş növləri ilə, o cümlədən paraşüt idmanı ilə məşğul olurdular. Rəsmi mətbuat klub və istirahət parklarını xoşbəxt həyat arzusunun həyata keçdiyi «ümumi sevinc yerləri» kimi təbliğ edirdi. Hər il ölkənin və milli respublikaların paytaxtlarında Partiya və hökumət rəhbərlərinin iştirakı ilə 1 May və 7 Noyabr dövlət bayramları günü münasibətilə qələbə marşı sədaları altında təntənəli parad təşkil olunurdu. Bütün dünyaya sosializmin «qüdrətini» nümayiş etdirməli olan bu paradlar, eyni zamanda sovet adamlarını yeni əmək xariqələri yaratmağa səsləyirdi.

XX əsrdəki rus xarici miqyası və mədəni səviyyəsi etibarilə Rusiyanın, o cümlədən bütün dünyanın Qızıl mədəni fondunda əhəmiyyətli yer tutur. Bu tarixi fenomenin təşəkkül tapması ölkə tarixinin faciəli səhifələri ilə bağlı olaraq ziddiyyətli olub, birmənalı mahiyyət daşımamışdır. 1917-ci ildəki mədəni parçalanma və sonrakı Vətəndaş müharibəsi formasındakı sosial fəlakət inqilabaqədərki Rusiyada olan sinif və təbəqələrin nümayəndələri qarşısında seçim etmək problemi qoymuşdu: ölkənin geosiyasi və tarixi taleyinin həll olunduğu bir vaxtda vətəndə qalmaq və yaxud inqilab ideyasını qəbul etməyərək xarici ölkələrə üz tutmaq. Məhz inqilabı qəbul etməyən bir çox insan ölkəni tərk edərək mühacir həyatı yaşamağa qədəm qoymuşdur.

Mühacirətin ilk illərində xaricdə məskunlaşan ruslar üçün qarşıda duran başlıca vəzifələr başqa dövlətin ərazisində özünün eksterritorial məkanını yaradaraq təhsil sistemini, mətbuat işini, yurddaşların qarşılıqlı yardım məsələsini həll etmək olmuşdur. 1920-ci illərin əvvəllərindən milli ənənələrin dayağı kimi

rus məktəbləri və başqa tədris müəssisələri yarandı. Çexoslovakiyada prezident T.Masarikin təşəbbüsü ilə mühacirlərə kömək məqsədilə «rus aksiyası» adı altında proqram qəbul edilmişdir. Hökumət Rusiyadan olan tələbə, müəllim və alimlərə maddi kömək göstərirdi. 1922-ci ildə Praqada Rus Nəqliyyat və Rabitə İnstitutu, Y.A.Komenski adına Rus Pedaqoji İnstitutu açılmışdır. Karlova Universitetinin nəzdində Rus Hüquq fakültəsi təsis olundu. 1920-ci ildə Parisdə Rus Gimnaziyasının əsası qoyulmuşdur. 1920-ci idlə Parisdə Sorbonna Universitetinin nəzdində rus şöbəsi, eyni zamanda Ticarət, Rus Politexnik, Ali Texniki, Pravoslav İlahiyyat institutları açılmışdır. 1925-ci ildə diplomları bütün Fransa idarələrində keçərli olan Fransa-Rus İnstitutu fəaliyyətə başlamışdır. 1923-cü ildə S.V.Raxmaninov adına Paris Rus Konservatoriyası fəaliyyətə başladı ki, onun rektoru görkəmli drijor N.N.Çerepin təyin edildi. Konservatoriyanın fəxri sədri seçilmiş dahi rus bəstəkarı S.V.Raxmaninov dostu, tanınmış opera bası F.İ.Şalyapini konservatoriyada pedaqoji fəaliyyətə cəlb etmişdir.

Uzaq Şərqdə rus mühacirlərinin ali təhsil mərkəzi Xarbin şəhəri olmuşdur. 1920-ci illərdə burada Xarbin Politexnik, Ticarət və Texnologiya, Xarbin Hüquq fakültəsi yaranmışdır. Smenovexçilərin və rasional-bolşevizmin tanınmış ideoloqu N.V.Ustryalov hüquq fakültəsində dərs keçirdi.

Bir qayda olaraq, hər bir rus mühacir koloniyasının həyat mərkəzi özünün kitabxanası, oxu zalı, radio aparaturası olan Rus evi idi. Rus evləri məktəblər təşkil edir, xeyriyyə bal və konsertləri keçirir, kilsə tikintisi üçün vəsait toplayırdı.

Mühacir ziyalılar arasında «əks-inqilabçı», «Antantanın əlaltıları» damğası ilə ölkədən sürgün edilmiş təxminən 160 nəfər filosof, alim və başqa elm təmsilçiləri var idi. Bu insanların çoxu öz peşə fəaliyyətini davam etməyə səy göstərirdi. Görkəmli iqtisadçı, statistik S.N.Prokopoviç Praqada Sovet İttifaqının iqtisadi və sosial inkişafını öyrənən iqtisadi kabinet təşkil etmişdir. Onun tədqiqatları 1920-1930-cu illərdə SSRİ-nin sosial-iqtisadi tarixinin öyrənilməsində xüsusi əhəmiyyət kəsb edir. Burada böyük tarixçilər nəsli, o cümlədən mediyevist N.P.Kondakov, A.A.Kizevetter, E.F.Şmurlo, V.A.Frantsev, Q.V.Florovski, S.Q.Puşkarev fəaliyyət göstərmişdir.

Mütəfəkkir filosof N.A.Berdyaevin əsərlərində Rusiyanın taleyinin özünəməxsus fəlsəfi baxımdan dərk edilməsi böyük oxucu kütləsi cəlb etməklə yanaşı, geniş müzakirələrə səbəb olmuşdur. N.S.Trubetskoy linqivistikanın quruluşu, P.O.Yakobson formal ədəbi tənqidin nəzəriyyəsi sahəsində mühüm nəticə əldə etmişdir.

Bədii yaradıcılıqla məşğul olmuş rus mühacir ziyalıları rus milli ənənəsini qorumağa çalışmışdır. İnqilabaqədərki Rusiyanın bir çox görkəmli yazıçısı, o cümlədən A.İ.Kuprin, İ.A.Bunin, B.K.Zaytsev, E.N.Çirikov, İ.S.Şmelev mühacir həyatı yaşamışdır. Rus nəsrinin realist məktəbinin nümayəndələri yaratdıqları

əsərlərlə dünyaya səs salmışdır. Məsələn, 1933-cü ildə yazıçı İ.A.Buninin «Arsenevin həyatı» («Жизнь Арсеньева») romanı Nobel mükafatı almışdır. Qeyd etmək yerinə düşər ki, mükafata namizədlər arasında faşizmin pərəstişkarı, əsərlərində alternativ seksual formanı mədh edən, Sovet Rusiyasında M.Qorkinin yaradıcılığını qəbul etməyən mühacir yazıçı D.S.Merejkovski də olmuşdur. Mühacir yazıçılar arasında V.V.Nabokovun (Sirin) yaradıcılığı xüsusi yer tutur. Onun «Maşenka», «Edama dəvət» («Приглашение на казнь»), «Sovqat» («Дар») əsərləri personajlarının dərin emosional hisslərinin əyləncəli süjetlə əlaqələndirməsilə diqqəti cəlb edir.

A.N.Tolstoy, A.Belıy, V.V.Nabokov, İ.A.Bunin, M.A.Aldanov, İ.S.Şmelev, A.M.Remizov, Z.N.Qippius, D.S.Merejkovski, V.A.Maklakov, M.İ.Svetayeva, V.F.Xodaseviç, Q.V.İvanov kimi mühacir publisist, yazıçı və şairlərin yaratdığı əsərlər dünya ədəbiyyatının qızıl fonduna daxil olmuşdur.

1917-ci il hadisəsindən sonra bir çox rus balet artistləri, o cümlədən A.P.Pavlov, T.P.Krasavin, M.F.Kşesinskaya, V.A.Koralli, O.İ.Preobrajenskaya, A.D.Danilov xaricdə qalmışdır.

Rəssamlar K.A.Korovin, Z.E.Serebryakov Qərbdə xüsusi nüfuz sahibi olmuşdur. Eyni zamanda, illüstrator rəssamlar İ.Y.Bilibin,M.V.Dobujinski və L.V.Zak kitab şəkili sahəsində fərqlənmişdir. Mücərrəd rəssamlığın əsasını qoymuş V.V.Kandinski və sürnaturalist M.Z.Şaqal avanqard rəssamlığın inkişafında önəmli rol oynamışdır.

Bəstəkarlar İ.F.Stravinski, S.A.Kusevitski, S.S.Prokofyev mühacirətdə ən sanballı əsərlərin yaratmışdır.

Rus müğənniləri bas F.İ.Şalyapin, mühacir estradanın bütləri M.İ.Vaviç və V.A.Kozin ifa etdikləri əsərlərlə böyük tamaşaçı rəğbəti qazanmışdır.

1920-1930-cu illərdəki rus mühacirləri inqilabaqədərki Rusiyanın mədəni irsini qoruyaraq daha da inkişaf etdirmişdir. Rus mühacirlərinin fəaliyyəti nəticəsində rus və dünya mədəniyyəti yeni incəsənət inciləri, elmi kəşflər, mükəmməl ideyalarla zənginləşmişdir ki, müasir Rusiyada bu dərk edilməyə başlanmışdır.

Ümumiyyətlə, 1920-1930-cu illərdə mədəniyyət sahəsindəki dəyişikliklərə birmənalı qiymət vermək mümkün deyil. Cəsarətlə qeyd etmək olar ki, bütün rəsmi qadağa və təqiblərə baxmayaraq, bəhs edilən dövrdə mənəvi və maddi mədəniyyət dəyər qazanaraq əhalinin mədəni səviyyəsinin yüksəlməsində, mütəxəssis sayının artmasında, dünya miqyasında bədii incəsənət əsərlərinin ərsəyə gəlməsində böyük rol oynamışdır. Bununla belə, ideoloji basqı, bədii yaradıcılığın çərçivəyə salınması mədəniyyətin bütün sahələrinin inkişafına neqativ təsir göstərməklə yanaşı, təbliğat xarakterli, aşağısəviyyəli bir sıra incəsənət nümunələrinin yaranmasına səbəb oldu.

# XXV FƏSİL
# TOTALİTAR DÖVLƏT MODELİNİN BƏRQƏRAR OLMASI

## §1. 1920-1930-cu illərdə sovet cəmiyyəti. 1936-cı il Konstitusiyası

1917-1937-ci illər dünya tarixi təcrübəsində ilk və bənzərsiz nümunə olan «ayrıca götürülmüş bir ölkədə» sosializmin qurulması əslində ölkənin modernləşdirilməsi anlamına gəlirdi. Bu illərdə ölkənin təsərrüfat həyatında dövlətlə yanaşı, kapitalist müəssisələri və kooperativlərin iştirakı bir çox iqtisadi göstəricilərin inqilabdan əvvəlki 1913-cü il səviyyəsini xeyli ötüb-keçməyə səbəb olmuşdur. 1930-cu illərin ikinci yarısında SSRİ-də dərin iqtisadi, sosial və siyasi dəyişiklik baş vermişdi. İqtisadiyyatda çoxukladlılıq ləğv edilmiş, istismarçı sinfin qalıqları aradan qaldırılmışdır. Xalq təsərrüfatının bütün sahələrində, sosialist sisteminin qələbəsi nəticəsində sovet cəmiyyətinin sinfi strukturu dəyişdi və cəmiyyət təbəqələşdi. Sovet cəmiyyətinin sosial-sinfi strukturunun dəyişilməsi 1917-1937-ci illəri əhatə etməklə üç mərhələyə bölünür:

1. İstehsal vasitələrinin milliləşdirilməsi və torpağın xalq mülkiyyətinə çevrilməsi nəticəsində mülkədarlar və iri burjuaziyanın ləğv edilməsi;
2. Şəhər burjuaziyasının yeni iqtisadi siyasət illərində artan təbəqələrinin və kənd təsərrüfatının kolletivləşdirilməsi gedişində qolçomaqların ləğv edilməsi;
3. İstismarçı siniflərin və onları doğuran səbəblərin aradan qaldırılması.

Bu əslində kapitalizmin qalıqlarının ləğv edilməsi demək idi, kapitalizmin qalıqlarının ləğv edilməsi isə tərəqqinin və inkişafın ləngiməsinə şərait yaradırdı. 1917-1937-ci illərdə cəmiyyətin sosial-sinfi strukturunun dəyişilməsi nəticəsində fəhlə sinfi, kolxozçu kəndlilər, qulluqçu və ziyalılardan ibarət olan sosial təbəqə formalaşdı. Sinfi strukturun dəyişməsi əslində cəmiyyətin bütünlüklə irəliyə doğru inkişafını təmin edən siniflərin heç də yaranması demək deyildi. Bu əslində ictimai qruplarda birləşmiş insanların birliyi idi.

Həmin dövrdə cəmiyyətin aparıcı qüvvəsi fəhlə sinfi hesab edilirdi. Ona görə ki Leninin söylədiyi «müasir cəmiyyətdə axıradək inqilabçı olan və buna görə də hər bir inqilabda qabaqcıl, yeganə sinif proletariatdır» kimi müddəası əldə bayraq olaraq iddia edilirdi ki, fəhlə sinfi cəmiyyətin başlıca məhsuldar qüvvəsi, əsas maddi sərvətlərin yaradıcısı, elmi-texniki və sosial tərəqqinin göstəricisi, qabaqcıl ideologiyanın ifadəçisidir. Əslində cəmiyyətdə fəhlə sinfinin yeri və rolu təhrif edilmişdi. O dövrdə fəhlə sinfi olduqca az məhsuldar əməyə, geri qalmış təhsil səviyyəsinə malik idi. «Əsas maddi sər-

vətlərin yaradıcısı təkcə fəhlə sinfidirmi?» – fikri əslində əhalinin digər qrup və təbəqələrinin əməyinin heçə endirilməsi demək idi. Belə ki, elmin bilavasitə məhsuldar qüvvəyə çevrilməsi məhz fəhlə sinfinin deyil, ziyalıların, ilk növbədə, texniki ziyalıların xidmətidir.

Sosializm quruculuğu illərində kəndlilərin siması da köklü şəkildə dəyişdi. Kəndlilər yekcins sinfə çevrildilər. Təbəqələşmə aradan qaldırıldığı üçün muzdur, yoxsul, ortabab və qolçomaq kimi kəndli kateqoriyaları da silinib getdi. Kənddə rəqabət, inkişaf aradan qalxdı. Bu da kənd təsərrüfatının geri qalması üçün obyektiv şərait yaranmasına gətirib çıxartdı.

Ziyalılara gəldikdə onların tərkibində də dəyişiklik baş vermişdir. Fəhlə sinfi və kəndlilər içərisindən yeni ziyalılar, yəni sovet ziyalıları formalaşıb çıxdı. Köhnə ziyalıların bir hissəsi Oktyabr silahlı üsyanından sonra sovet hökumətinə xidmətdən imtina edərək xaricə mühacirətə getdilər, bir hissəsi isə sovet hakimiyyəti tərəfinə keçərək ona xidmət etməyə başladı. Sovet ziyalısının əsl ziyalı kimi formalaşma mərhələsi çox qısa olmuşdur. Bunun da obyektiv səbəbləri var idi. Hər yerdə savadlı adamlara ehtiyac olduğundan bu proses çox sürətlə gedirdi və nəticədə onların hazırlıq səviyyəsinin aşağı olmasına gətirib çıxarırdı. Alim, filosof D.A.Volkoqonovun qeyd etdiyi kimi, əslində «mütəxəssis ziyalını əvəz etdi».

1913-cü illə müqayisədə 1939-cu ildə əhalinin siyahıyaalınma nəticələri cəmiyyətin sosial tərkibinin əsaslı surətdə dəyişdiyini nümayiş etdirir. 1913-cü ildə fəhlə və qulluqçular bütün əhalinin 17%-ni təşkil edirdisə, 1939-cu ildə bu, 50,2%-ə (33%-i fəhlələr idi) yüksəlmişdi. Təktəsərrüfatçı kəndlilər və kooperativləşməmiş kustarlar ölkənin bütün əhalisinin 2,6%-ni, kolxozçular isə 47,2%-ni təşkil edirdi. 1913-cü ildə isə təktəsərrüfatçı kəndlilər ölkə əhalisinin 66,7%-ni təşkil edirdi.

Beləliklə, təkcə 1929-1937-ci illər arasında əsasən kənddən çıxanlar hesabına fəhlə sinfi təqribən üç dəfə artaraq, ailə üzvləri ilə birlikdə 33,7%-ə çatmışdı. Ziyalı və qulluqçuları birləşdirən sosial qrup isə cəmiyyətin 16,5%-ni təşkil edirdi. Müasir tarixçilərin bir çoxu belə hesab edir ki, qulluqçu və ziyalılar arasında müxtəlif səviyyədə partiya-dövlət aparatını və kütləvi ictimai təşkilatları təmsil edən nomenklatura kimi bir təbəqə də yaranmışdı.

1939-cu il yanvarın 17-də Ümumittifaq miqyasında əhalinin siyahıyaalınması ölkənin ümumi mənzərəsini izah etmək baxımından da mühüm əhəmiyyətə malikdir. Siyahıyaalma nəticəsində məlum oldu ki, 1926-cı ildə SSRİ-də 147 mln. nəfər əhali yaşayırdısa, 1939-cu ildə ölkənin əhalisi 170,6 mln. nəfərə çatmış və ya 12 il ərzində əhalinin orta illik artımı 1,23% olmuşdu ki, bu da aşağı göstərici demək idi: hər ilə orta hesabla 2,6 mln. nəfər adam həyatını

itirmişdi. 1933-cü aclıq ilində isə rəsmi məlumata əsasən, ölənlərin sayı 5,7 mln. nəfər olmuşdu. Bu göstərici ABŞ, Fransa, Almaniya və İngiltərədə olduğundan yüksək idi. SSRİ-nin aqrar ölkədən sənaye-aqrar ölkəsinə çevrilməsi şəhər əhalisinin xeyli artmasına gətirib çıxardı. 1926-cı ildə şəhərlərdə 26,3 mln. nəfər, yəni bütün əhalinin 17,9%-i yaşayırdısa, 1939-cu ildə 56,1 mln. nəfər, yəni bütün əhalinin 32,9%-i yaşayırdı. 12 il ərzində şəhər əhalisi 2 dəfədən çox artmışdı.

Fəhlələrin milli tərkibinə gəldikdə görürük ki, Oktyabrdan əvvəl Rusiyanın fəhlə sinfinin milli tərkibində üstünlüyü ruslar təşkil edirdi, beşilliklər ərzində respublikalarda milli kadrlar da yetişmişdi. 1934-cü ildə yerli millətlərə mənsub fəhlələrin sayı Ukraynanın iri sənayesində 60%-ə yaxın, Belorusiyada 66%-dən çox idi. Şəhər əhalisinin sürətlə artması kənd əhalisinin mütəşəkkil surətdə şəhərlərə cəlb edilməsinin nəticəsi idi. Bu ən çox 1932-1933-cü illərdə baş vermiş aclıqla əlaqədar idi. Bu illərdə kənd əhalisinin şəhərlərə və tikintilərə çıxıb getməsi kütləvi xarakter almışdı. 12 il ərzində kənddən şəhərə 18,5 mln. nəfər gəlmişdi. Ölkənin xəritəsində olmayan yeni şəhərlər və şəhər qəsəbələri meydana gəlmişdi. 1926-cı ildə SSRİ-də 709 şəhər və 125 şəhərtipli qəsəbə var idisə, 1939-cu ildə 922 şəhər və 1148 şəhər qəsəbəsi var idi. Bu illərdə Maqnitoqorsk, Komsomolsk-Amur, Krasnouralsk, Elekrtostal, Balxaş, Mednoqorsk, Maqadan və başqa şəhərlər meydana gəldi. Bu şəhərlər əslində yeni sənaye mərkəzləri idi.

Səhiyyə sisteminin inkişaf etdirilməsi, mənzil tikintisi, əhalinin həyat səviyyəsinin qismən yüksəldilməsi sahəsində də müəyyən irəliləyişlər əldə edilmişdir. İki beşillik ərzində milli gəlir 46 milyard rubldan 96 milyard rubla çatmışdı ki, bu da əməkhaqqının artırılmasına imkan verdi. Ümumi əməkhaqqı fondu 33 milyard rubldan 82 milyard rubla çatmışdı. 1935-ci ildə ölkədə kartoçka sistemi ləğv edilmişdi. İctimai istehlak fondlarının bir hissəsi səhiyyə işinə və mənzil tikintisinə sərf edilirdi.

Eyni zamanda sənayenin sürətli inkişafı əhalinin həyat səviyyəsinin aşağı düşməsinə səbəb olmuşdu. Kənd təsərrüfatı məhsullarının yüksək qiyməti aşağı əməkhaqqı olan şəhər əhalisinin bu məhsulları əldə etməsini çətinləşdirir, əhalinin maddi-məişət şəraitinin pisləşməsi, ərzaq məhsullarının qıtlığı cəmiyyətdə sosial gərginliyin artmasına səbəb olurdu. Tikinti planı yerinə yetirilmir, əmək məhsuldarlığı və istehsal edilən məhsulların keyfiyyəti aşağı düşürdü. Bütün bunlar insanların həyata keçirilən siyasətin düzgünlüyünə şübhə ilə baxmağa kökləyirdi. İ.V.Stalin və onun ətrafı ictimai ziddiyyətlərin, iqtisadiyyatdakı böhran hallarının səbəbi kimi «sinfi düşmən»ləri hədəf seçərək onların axtarışına başladılar. Ölkə rəhbərliyinin fövqəladə və ifrat tədbirlər

sisteminin yeni sosializm cəmiyyəti quruculuğunun metoduna çevirməsi avtoritar rejimin bərqərar olmasına gətirib çıxardı. Xalq təsərrüfatında və cəmiyyətin bütün həyatında rəhbərliyin volyuntarist metodu önə çıxdı. İdarəetmənin inzibati sistemi yarandı. Sovet cəmiyyəti ifrat dərəcədə ideologiyalaşdı və siyasətləşdi. Beləliklə, iqtisadi və sosial siyasət ölkədəki demoqrafik proseslərə ciddi təsir edərək, 1917-1937-ci illərdə Sovet İttifaqında iqtisadi, siyasi və sosial həyatın, əhalinin təhsil səviyyəsinin, milli münasibətlərin, sosial-sinfi strukturun dəyişikliklərinə yol açdı ki, bu da SSRİ-də sosializmin sovet modelinin qırılmasının əsas əlamətləri demək idi.

SSRİ-də sosializmin iqtisadi təməlinin qurulması, iqtisadiyyatda çoxukladlılığın aradan qaldırılması, kapitaliast siniflərinin və qolçomaqların ləğv edilməsi ölkədə sosializmin əsaslarının qurulmasının qanunvericilik yolu ilə təsbit edilməsini, başqa sözlə, 1924-cü il konstitusiyasının dəyişdirilməsini tələb edirdi. «Konstitusiya» latın sözü olub, «bərqərar olmaq», «quruluş» deməkdir. Konstitusiya – Əsas Qanun ölkənin bütün qanunverici aktlarının əsası olub, ictimai və dövlət quruluşunu, nümayəndəli hakimiyyət orqanları təşkilinin qayda və prinsiplərini, seçki sistemini, vətəndaşların hüquq və vəzifələrini, cəmiyyət həyatının önəmli məqamlarını müəyyən edir. Konstitusiya adətən humanist, hüquqi və siyasi funksiya daşıyır. Əgər bunlar həyata keçmirsə, o, saxta xarakterə malikdir.

1930-cu illərin birinci yarısında ölkə daxilində siyasi vəziyyətin, beynəlxalq münasibətlərin kəskinləşməsi, cəmiyyətin həyatında baş verən əsaslı dəyişikliklər, sənaye və kənd təsərrüfatında radikal tədbirlərə tələbat, dövlətin etibar və nüfuzunun möhkəmləndirilməsi, xalqın gələcək firavan həyat xəyallarının gerçəkləşməsinə inam ifadə etmək məqsədilə yeni konstitusiyaya ehtiyac duyulurdu. Başqa bir tərəfdən yeni konstitusiyanın qəbul edilməsi sovet demokratiyasını bütün dünyaya nümayiş etdirərək sovet cəmiyyətinin kapitalizm cəmiyyətindən üstün olduğunu göstərmək məqsədi daşıyırdı.

Belə bir şəraitdə, 1935-ci il fevralın 6-da SSRİ VII Sovetlər qurultayı SSRİ MİK-ə yeni konstitusiya layihəsi hazırlamağı tapşırdı. Fevralın 7-də SSRİ MİK-i İ.V.Stalinin sədrliyi ilə 31 nəfərdən ibarət konstitusiya komissiyası yaratdı. Konstitusiya layihəsinin hazırlanmasına partiya, dövlət, həmkarlar ittifaqları, respublikaların nümayəndələri, elmi işçilər və b. səfərbər edilmişdi.

1936-cı il iyun ayında konstitusiya layihəsinin hazırlanması işi başa çatdı və MK plenumunda İ.V.Stalin konstitusiya layihəsi haqqında məruzə etdi. Plenum konstitusiya layihəsini əsasən bəyəndi. Konstitusiya layihəsi 1936-cı il iyunun 11-də SSRİ MİK Rəyasət Heyətində müzakirə edilərək bəyənildi və onun ümumxalq müzakirəsi üçün mətbuatda dərc edilməsi qərara alındı.

1936-cı il iyunun 12-də konstitusiya layihəsi qəzetlərdə dərc edildi. Eyni zamanda layihə SSRİ xalqlarının 100 dilində kitabça halında çap olundu. 1936-cı ilin yayında və payızında yeni konstitusiya layihəsi müzakirə olundu. Müzakirə zamanı layihəyə çoxlu əlavələr, düzəlişlər, təkliflər irəli sürüldü. Təklif və əlavələr iki formada – açıq və gizli şəkildə irəli sürülürdü.

Fəaliyyəti dayandırılmış bir sıra burjua və xırda burjua partiyalarının nümayəndələri ölkədə çoxpartiyalı sistemin yaradılması təklifi ilə çıxış edirdilər. Donda, Ryazanda və başqa yerlərdə fəaliyyət göstərən gizli qruplar «Partiyalar azadlığı» şüarını irəli sürürdülər.

1936-cı il noyabrın 25-dən dekabrın 5-dək SSRİ Fövqəladə VIII Sovetlər qurultayı keçirildi. Qurultay dekabrın 5-də Konstitusiyanın tam mətnini təsdiq etdi. Yeni Konstitusiya SSRİ-də sosializmin qələbəsi faktını qanunvericilik yolu ilə təsbit etdi. Konstitusiya 11 fəsil və 146 maddədən ibarət idi. I maddədə deyilirdi ki, «SSRİ fəhlə və kəndlilərin sosialist dövlətidir». I fəsildə ölkənin siyasi əsasından danışılır və qeyd edilirdi ki, SSRİ-nin siyasi əsasını zəhmətkeş deputatları soveti təşkil edir. Konstitusiyaya görə, ölkənin iqtisadi əsasını istehsal alət və vasitələri üzərində sosialist mülkiyyəti təşkil edir və bu iki formada – dövlət və kolxoz-kooperativ mülkiyyəti formasında olur. Xüsusi mülkiyyət forması ləğv edildi, yalnız kustar və xüsusi həyatyanı təsərrüfatların saxlanılmasına yol verirdi ki, burada da muzdlu əməyin tətbiqinə icazə verilmirdi.

Konstitusiyanın ikinci fəslində SSRİ-nin dövlət quruluşundan bəhs edilirdi. 1936-cı ildə SSRİ İttifaqının tərkibinə 11 müttəfiq respublika – RSFSR, Ukrayna, Belorusiya, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Qırğızıstan, Azərbaycan, Gürcüstan və Ermənistan daxil idi. ZSFSR 1936-cı il dekabrın 5-də ləğv edildi.

Xarici siyasət, müdafiənin təşkili, xarici ticarət, dövlət təhlükəsizliyinin qorunması məsələləri, xalq təsərrüfatı planlarının qəbul edilməsi və başqa məsələlər SSRİ-nin səlahiyyətinə daxil edilmişdi. Bu məsələlər istisna olmaqla, yerdə qalan bütün dövlət məsələlərini müttəfiq respublikalar müstəqil surətdə həll edə bilərdilər. Formal da olsa, hər bir sovet respublikasının SSR İttifaqından sərbəst çıxmaq hüququ saxlanılırdı və onun coğrafi ərazisi özünün razılığı olmadan dəyişdirilə bilməzdi. Konstitusiyanın 21-ci maddəsinə uyğun olaraq bütün SSRİ ərazisində vahid vətəndaşlıq müəyyən edilmişdir.

İttifaq respublikasının qanunları Ümumittifaq qanunlarına uyğun gəlmədikdə 20-ci maddəyə müvafiq olaraq Ümumittifaq qanunları əsas götürülürdü. Bu isə Ümumittifaq orqanlarının nüfuz və siyasi üstünlüyünü göstərirdi. Bu bir tərəfdən mərkəzləşmiş plan təsərrüfatı rolunun artmasına, başqa bir tərəfdən

mərkəzin özbaşınalığına və demokratik prinsiplərdən totalitarizmə keçməsinə şərait yaratmışdı.

Konstitusiyanın X fəsli «Vətəndaşların əsas hüquq və vəzifələri»nə həsr edilmişdir. Sovet vətəndaşlarına əmək, istirahət, təhsil, qocalıqda və əmək qabiliyyətini itirdikdə maddi təminat almaq hüququ və başqa hüquqlar verilirdi.

Konstitusiyada xalqa vicdan, söz, mətbuat, yığıncaq və mitinqlər azaldığı, ictimai təşkilatlarda – həmkarlar ittifaqlarında, kooperativ birliklərində, gənclər təşkilatlarında, yaradıcılıq təşkilatlarında və s. birləşmək hüququ üçün təminat verilirdi. Konstitusiyanın bu fəslini N.İ.Buxarin yazmışdı və bu ən yaxşı fəsil hesab olunurdu. V.İ.Lenin «Yeni fabrik qanunu» əsərində yazırdı ki, «Rusiyanın imperator hökuməti qanunlarda yaxşı sözlər yazmağı, sonra isə onları təlimatlarla əvəz etməyi çox sevir». Leninin bu sözlərini 1936-cı il Konstitusiyasına aid etmək olar. Vətəndaşların konsitutsiya ilə təmin olunmuş hüquqları nəinki müdafiə olunmur, onların hüquq və vəzifələri çox kobud şəkildə pozulurdu.

Konstitusiyanın XI fəsli seçki sistemini müəyyənləşdirdi. 1924-cü il konstitusiya ilə müqayisədə seçki sistemi prinsiplərinə yeni cəhətlər daxil edildi. Seçki hüququndakı məhdudlaşdırmalar (istismarçıların seçki hüququndan məhrum edilməsi) mənasını itirib köhnəldiyi üçün ləğv olundu. 1936-cı il Konstitusiyası hakimiyyət orqanlarının orta və ali pillələrinə çoxdərəcəli seçki sistemini və açıq səsverməni rədd etdi. Ümumi, bərabər, birbaşa və gizli seçki hüququna keçildi. Gizli səsverməyə keçilmə dövlət aparatına xalq kütlələri nəzarətinin gücləndirilməsinə kömək etməli idi.

Dövlət müəssisələrinin idarəçiliyi sistemi əhəmiyyətli dəyişikliyə məruz qalmışdı. Konstitusiyaya əsasən vilayət, respublika Sovetlər qurultayı ləğv edilərək onların yerinə rayon, şəhər, vilayət, respublika sovetləri təsbit olunmuşdur. Sovetlərin MİK-i iki palatadan, İttifaq Soveti və Millətlər Sovetindən ibarət olan SSRİ Ali Soveti əvəz etdi. Ali Sovetin sessiyaları arasında rəhbərlik funksiyası Ali Sovetin Rəyasət Heyətinə həvalə olunmuşdur. 1937-ci il yeni hakimiyyət orqanlarına seçkilərdən sonra M.İ.Kalinin (1938-1946) Rəyasət Heyətinin sədri seçilmişdir. 1936-cı il Konstitusiyasında ilk dəfə olaraq SSRİ-nin dövlət müəssisələri sistemində Kommunist Partiyasının xüsusi vəziyyəti elan olundu. 126-cı maddəyə əsasən, fəhlə sinfi və zəhmətkeşlərin başqa təbəqələrindən olan ən fəal vətəndaşlar zəhmətkeşlərin bütün ictimai və dövlət müəssisələrinin rəhbər nüvəsi olan ÜİK(b)P-nın sıralarında birləşirdilər. Bunun ardınca 1939-cu ildəki ÜİK(b)P-nın XVIII qurultayında qəbul edilən partiyanın Nizamnaməsi müəssisə, MTS, kolxoz və dövlət idarələrinin partiya təşkilatı

katiblərinə müdiriyyətin fəaliyyətinə nəzarət etmək hüququ verdi. Ölkədə real hakimiyyət faktiki olaraq Siyasi Büronun tərkibinə daxil olan kiçik bir qrupun əlində cəmləşdi. Dövlət və ictimai təşkilatların idarəetmə sisteminə tamamilə ÜİK(b)P MK nəzarət edirdi.

Yeni Konstitusiya dövlətin kilsəyə qarşı siyasətini daha da sərtləşdirdi. 124-cü maddə dindarlarla qeyri-dindarlar arasında bərabərsizliyi təsbit etdi. Belə ki, dindarlar dini təbliğat aparmaq hüququndan məhrum edilir, yalnız dini ayinlərin yerinə yetirilməsi azadlığı alırdılar. Dini inanca sahib olmayan qeyri-dindarlar isə din əleyhinə təbliğat aparmaq hüququna malik idilər.

SSRİ-nin yeni Konstitusiyası əsasında İttifaq respublikalarının, o cümlədən 1937-ci il yanvarın 21-də RSFSR-in konstitusiyaları hazırlanıb qəbul edilmişdir. Bu hakimiyyət orqanlarının seçilməsi və idarə olunmasının yeni sistemində ifrat dərəcədə artan mərkəzləşməni, köklü inzibati-ərazi dəyişikliyini təsbit etmişdir. 1936-cı il SSRİ Konstitusiyanın əsas xüsusiyyəti qabaqcıl kapitalist ölkələri ilə müqayisədə daha yüksək səviyyəyə çatmaqla sosializmin qələbəsinin elan etməsi olmuşdur.

Konstitusiya ilə elan edilmiş geniş ümumxalq demokratiyası prinsiplərinin ardıcıl surətdə həyata keçirilməsinə Stalinin şəxsiyyətə pərəstişlə bağlı özbaşınalıq, təqib və repressiyaları mane oldu. Tarix göstərdi ki, 1936-cı il Stalin Konstitusiyası əsl demokratiya aləti ola bilməmişdir. Onun qabaqcıl prinsipləri cəmiyyət tərəfindən tam qəbul edilmədi, burada da sadə vətəndaşları ittiham etmək mümkün deyildi. Belə ki, Əsas Qanun qəbul edilən vaxt ölkə hələ də inqilabi şəraiti unutmamışdı. Sovet cəmiyyətini idarə edənlər sıravi vətəndaşlara qorxu və etimadsızlıq prizmasından baxırdılar. «Bürokratikləşməyə» davam edən Sovetlər məmur özbaşınalığını dayandırmaq yerinə onu daha da sərtləşdirmişdir. Beləliklə, Stalin Konstitusiyası cəmiyyətin sosial dəyişikliklər mexanizmi əvəzinə qeyri-müəyyənlik şəraiti yaratmışdı.

İ.V.Stalin və onun ətrafındakılar tərəfindən sosializmin mahiyyətinin vulqarlaşdırılması, 1936-cı il SSRİ Konstitusiyası ilə sosializm quruculuğu faktının vaxtından əvvəl təsbit edilməsi ölkədə bərqərar olan «real sosializm» quruluşunun sonrakı deformasiyasında əsas rol oynamışdır.

## §2. Siyasi rejim və kütləvi repressiyalar

Partiya daxilində gedən mübarizə ölkənin ictimai-siyasi həyatına olduqca mənfi təsir göstərirdi. Ölkənin idarə edilməsinin inzibati-amirlik metodlarla inkişaf edərək inzibati-amirlik sisteminə çevrilməsi ilə nəticələnirdi. 20-ci illərdə möhkəmlənmiş inzibati-amirlik sisteminin kökləri «hərbi kommunizm» dövrünə gedib çıxır ki, həmin dövrdə də bütün məsələlərin həll edilməsinin əsas vasitəsi əmr və sərəncamlar idi. Yeni iqtisadi siyasət illərində bir qədər yumşaldılmış bu sistem sənayeləşdirmə dövründə və ən çox isə kollektivləşdirmə dövründə daha da inkişaf etdirildi. 30-cu illərin sonlarında isə bu özünün zirvə nöqtəsinə çatdı. Həmin sistem iqtisadiyyatda bərqərar olduqdan sonra üstquruma da ya-yılaraq sosialist demokratiyasını daha da məhdudlaşdırdı. İnzibati-amirlik sisteminə keçilməsi əslində aşkarlıq və plüralizmin inkar edilməsi demək idi.

Hələ XVIII əsrdə görkəmli fransız maarifçisi və filosofu Monteskyö göstərmişdi ki, «düzgün qaydalarla təşkil edilmiş dövlətdə tək hakimiyyət ola bilməz: bir-birindən asılı olmayan üç hakimiyyət – qanunverici, icraedici və məhkəmə hakimiyyəti mövcud olmalıdır. Hansı formada olursa-olsun, onların bir orqanın və şəxsin əlində cəmləşməsi ümumi mənafeyin itirilməsinə, sui-istifadə hallarına və şəxsiyyətin siyasi azadlığının boğulmasına gətirib çıxarır».

Hakimiyyət səlahiyyətlərinin dəyişdirilməsi və yenidən bölüşdürülməsilə bağlı olaraq ali dövlət rəhbərləri 1920-30-cu illərdə cəza – repressiya aparatı və güc komissarlıqlarının işini daha da möhkəmləndirdi. 1934-cü ildə Hərbi İnqilabi Şura ləğv edildi, Hərbi Dəniz İşləri üzrə Xalq Komissarlığı SSRİ Xalq Müdafiə Komissarlığına çevrildi. 1924-cü ilin martın 28-də SSRİ MİK «BDSİ-nin inzibati sürgün və həbs düşərgələrinə salınma hüququna dair Əsasnamə» təsdiq etdi. Sənədə görə, müvafiq qərarı BDSİ-nin nəzdində fəaliyyət göstərən 3 nəfər kollegiya üzvündən ibarət Xüsusi müşavirə və SSRİ Ali Məhkəməsinin Prokuroru qəbul etmək səlahiyyətinə malik idi. 1927-ci ildə BDSİ-yə bir sıra işlərə məhkəmədənkənar qaydada baxmaq səlahiyyəti verilmişdi. BDSİ-nin 1928-ci il oktyabrın 29-da və 1931-ci il aprelin 8-də verdiyi sərəncamlarla «üçlük» bütün məhkəmə səlahiyyətlərinə sahib olmuşdu. «Üçlük» tərkibinə həm də bundan sonra vilayət partiya və icraiyyə komitəsinin nümayəndələri də daxil olmalı idilər. 1930-cu ilin aprelin 24-də SSRİ XKS-nin nəzdində BDSİ-nin Düşərgə İdarəsi təşkil edilmişdi ki, 1931-ci ilin fevralında da bu BDSİ-nin Baş Düşərgə İdarəsinə (QULAQ) çevrildi. Ölkə yeni salınan düşərgə və koloniyaların geniş şəbəkəsilə qarşılaşdı.

Stalin rəhbərliyinin hüquq-mühafizə orqanları işinin mərkəzləşdirilməsi tələbi 1934-cü ildə SSRİ Xalq Daxili İşlər Komissarlığının yaradılmasına səbəb oldu. XDİK-nın tərkibinə Baş Dövlət Təhlükəsizlik İdarəsinə çevrilən BDSİ, Baş Fəhlə-kəndli Milis İdarəsi, Baş Sərhəd və Daxili Qoruma İdarəsi, QULAQ, Baş Yanğından Müdafiə İdarəsi və b. daxil oldular. BDSİ-nin məhkəmə kollegiyası yerinə XDİK-nin nəzdində Xüsusi Müşavirə yaradılmışdı. 1933-cü il iyulun 20-də SSRİ MİK və XKS-nin qərarı ilə SSRİ Prokurorluğu təsis edilmişdir.

Nəhəng repressiv cəza aparatının yaradılması əslində SSRİ-də totalitar quruluşun əsaslarının möhkəmləndirilməsinə yönəldilmişdi. Başlıcası 1920-30-cu illərdə İ.V.Stalin «kadrlar hər şeyi həll edir» prinsipini irəli sürərək, ardıcıl olaraq özünün şəxsi hakimiyyət aparatını formalaşdırdı.

20-ci illərdə partiyadaxili mübarizədə qalib gələn Stalin çox böyük, sözün əsl mənasında, qeyri-məhdud hakimiyyətə sahib oldu. Onun partiya rəhbəri kimi, qanun çərçivəsi ilə məhdudlaşdırılmayan səlahiyyətləri nəinki xarici, həm də partiyadaxili müxalifətin olmadığı şəraitdə şəxsi hakimiyyət rejiminin möhkəmləndirilməsi imkanlarını genişləndirirdi. Stalin yaranmaqda olan totalitar sistemi öz şəxsi hakimiyyət rejiminin daha da möhkəmləndirilməsinə tabe etdi.

Bu yolda Stalin kütləvi represiyaların genişləndirilməsinə mühüm əhəmiyyət verirdi. Hələ 1928-ci ildə o, belə bir tezis irəli sürmüşdü ki, sosializmə doğru irəlilədikcə sovet hakimiyyətinin gizli düşmənlərinin qızğın müqavimət göstərməsi ilə əlaqədar sinfi mübarizə kəskinləşir. Bu mülahizə daxili və xarici «düşmən obrazı» yaratmaq, kütləvi repressiyalar təşkil etmək üçün əsas oldu. Bir qayda olaraq, kütləvi repressiyalar ideoloji kampaniyalarla müşayiət olunurdu. Bu isə geniş kütlələrin gözündə toplu həbs və edamlara haqq qazandırmaq məqsədi daşıyırdı. «Düşmən obrazı» ilə öz mövqeyini və fəaliyyətini möhkəmləndirməyə ehtiyac duyan sistem 1928-1941-ci illərdə amansız repressiya kampaniyaları keçirmişdir. Onların təşkilinin öz daxili məntiqi və məqsədi olmuşdur. Belə ki, 1920-ci illərin sonu – 30-cu illərin əvvəllərində köhnə ziyalılara, 30-cu illərin əvvəllərində «qolçomaqlara», 30-cu illərin birinci yarısında sabiq müxalifətçilərə, 30-cu illərin ikinci yarısında partiya, təsərrüfat və hərbi kadrlara qarşı kütləvi repressiyalar təşkil edilmişdir. Artıq 20-ci illərin sonu – 30-cu ilərin əvvəllərində «Şaxta işi», «Sənaye partiyasının işi», «RSDFP İttifaq bürosunun işi» deyilən açıq məhkəmə prosesləri keçirilmiş, sənayenin ayrı-ayrı sahələrinin mütəxəssisləri guya mühacir, antisovet təşkilatlarının tapşırığı ilə pozuculuq fəaliyyətində ittiham edilmişdi. Müttəhimlərin günahını sübut edən heç bir əsaslı dəlil yox idi. Başlıca dəlillər istintaqın təzyiqi nəticəsində müttəhimlərin özlərinin verməyə məcbur olduğu

«etiraflar» idi. Artıq o zaman açıq məhkəmə prosesləri məhkəməsiz kütləvi cəzaları ört-basdır etməyə və onlara bəraət qazandırmağa xidmət edirdi.

1928-1930-cu illərdə çox sayda görkəmli alim, mühəndis və idarəçilər repressiyanın qurbanı oldular. Onlar arasında vətən elminin təmsilçiləri H.D.Kondratyev, A.V.Çayanov, S.F.Platonov, E.V.Tarle, L.K.Ramzin, avia-konsistruktorlar D.P.Qriqoreviç, N.N.Polikarpov və b. var idi. 1930-1931-ci illərdə 3 min nəfərdən çox sabiq çar ordusu zabiti repressiyaya uğramışdır.

Stalin partiyanın ona danışıqsız tabe olması məsələsinə böyük diqqət yetirirdi. 1929-cu ildə Trotski ölkədən sürgün edilmişdi. 30-cu illərin əvvəllərində Stalinin siyasəti ilə razı olmadıqlarını bu və ya digər şəkildə bildirən bir sıra görkəmli partiya xadimləri təqiblərə məruz qalmışdı. Onlardan bəziləri partiya sıralarından xaric edilmiş və həbs olunmuşdu.

1932-ci ildə yaradılan və Moskva rayon partiya təşkilatlarından birinin keçmiş rəhbəri M.N.Ryutinin başçılıq etdiyi qeyri-leqal «Marksist-leninçilər İttifaqı»nın üzvləri ən ağır cəzaya məruz qalmışdılar. Bu təşkilat «Stalin və proletar diktaturasının böhranı» adlı xüsusi bir sənəd tərtib edərək, həmin sənəddə Stalin rejimini məsləkindən dönüb inqilab işinə xəyanət etməkdə ittiham etmişdi. Terror və hədə-qorxu metodları Bolşevik Partiyasında partiyadaxili demokratiyanın qalıqlarına son qoydu. Lakin Stalin hesab edirdi ki, onun şəxsi hakimiyyət rejiminə müxalif olan qüvvələrin potensialı hələ sona çatmamışdır. Cəmiyyətdə və partiyada müxalifətin kökünün kəsilməsini o xüsusi genişmiqyaslı kampaniyanın keçirilməsi ilə əlaqələndirirdi.

Bəşəriyyət tarixində görülməmiş kütləvi repressiyalar 1934-cü il dekabrın 1-də Leninqradda Kommunist Partiyasının rəhbərlərindən biri olan Sergey Kirovun Nikolayev soyadlı bir şəxs tərəfindən öldürülməsi ilə başladı. Sergey Mironoviç Kirov (Kostrikov) (1886-1934) 1904-cu ildən Bolşeviklər Partiyasının üzvü kimi Qərbi və Şərqi Sibirdə fəaliyyət göstərərək Oktyabr silahlı üsyanının və Vətəndaş müharibəsinin fəal iştirakçısı olub. 1921-1926-cı illərdə Azərbaycan KP MK-nın, 1926-1934-cü illərdə Leninqrad Partiya Təşkilatının Birinci katibi vəzifəsini tutub. 1930-1934-cü illərdə Siyasi Büronun üzvü, 1934-cü ildən, eyni zamanda MK-nın katibi olmuşdur.

Belə bir rəsmən təsdiq olunmamış tarixi iddia mövcuddur ki, guya S.M.Kirovun öldürülməsi tapşırığını şəxsən İ.V.Stalin XDİK-nın rəhbəri G.Yaqodaya vermişdir. Başqa bir iddiaya görə isə bu qətl hadisəsinin səbəbkarı şəxsi qısqanclıq zəminində hərəkət edən L.Nikolayev adlı şəxsdir. Sui-qəsdin həqiqi səbəbi tez bir zamanda aydın oldu. Belə ki, DİN-nin rəhbərlərindən biri olan P.A.Sudaplatovun sonradan yazdığı kimi, müstəntiqlər bəyan edə bilməzdilər ki, Siyasi Büronun üzvü milliyyətcə latış ərli gözəl qadın Milda Draule ilə

intim əlaqədə olduğu üçün öldürülmüşdür. Lakin bu bir həqiqətdir ki, özünün siyasi rəqiblərini məhv etmək və terror kampaniyasını gücləndirmək məqsədilə İ.V.Stalin bu hadisədən maksimum dərəcədə istifadə etdi. Bu qətl böyük bir kampaniyanın başlanması üçün bəhanə oldu. Fransa inqilabı dövründə geniş yayılmış «xalq düşməni» termini gündəmə gətirildi. Bu termin ilk dəfə rəsmi olaraq 1932-ci il avqustun 7-də «Dövlət müəssisələri və kolxozların əmlakının qorunmasına dair» Qanunda yer almışdır. Artıq Kirovun öldürüldüyü gün SSRİ MİK-nın terrorçular haqqında qəbul etdiyi qanun hətta terror haqqında düşünməyi terror aktını həyata keçirməyə bərabər tuturdu. Terrorçular haqqında istintaq işləri ittiham və müdafiə tərəfləri nümayəndələrinin iştirakı olmadan, hökmən ölüm hökmü çıxarmaq şərti ilə iki həftə ərzində başa çatdırılırdı.

Qətl hadisəsindən xəbər tutan kimi İ.Stalin heç bir tədqiqat aparılmadan yaxın ətrafına bildirdi ki, bu açıq mübarizədə uduzan zinovyevçilərin partiyaya qarşı terror aktıdır. Dekabrda müstəntiqlər belə bir tapşırıq aldılar ki, «qatili zinovyevçilər arasında axtarsınlar». Dekabrın 6-da istintaq qrupu iki qrupu 1925-ci ilə kimi Leninqrad komsomolçularının lideri olan N.İ.Kotolinovun rəhbərliyi ilə Leninqrad, Q.Zinovyev və L.Kamenevin başçılığı altında Moskva terror mərkəzlərinin bu qətlin təşkilatçıları olduğunu bildirdilər. Artıq dekabrın 29-da birinci terror mərkəzi elan edilən Leninqraddan 14 nəfər adam qətlin bilavasitə təşkilatçısı kimi güllələndi.

1934-cü il dekabrın 16-da Q.Zinovyev və L.Kamenev həbs olundu. Tezliklə 19 nəfərdən ibarət rəhbər «Moskva mərkəzi»nin aşkar edildiyi bildirildi. 1935-ci il yanvarın 18-də MK yerli partiya təşkilatlarına «Yoldaş Kirovun vəhşicəsinə öldürülməsi ilə bağlı dərslər» gizli məktub göndərildi. Məktubda trotskiçi və zinovyevçilərin qəsddə iştirakı qeyd olunaraq partiyada Trotski, Zinovyev və Kamenevə rəğbət bəsləyənlərin aşkar edilib qovulması tələb olunurdu. Bütün bunlar böyük terrorun başlanmasına səbəb olmaqla bərabər, yeni müxalifətin yaranması imkanlarına son qoyulması demək idi.

1936-cı ilin avqustun 19-da Stalinə sui-qəsd təşkil edərək hakimiyyəti ələ keçirməyə cəhd edən terrorçu Trotskiçi-Zinovyevçi mərkəzinin işi üzrə məhkəmə prosesi başladı. Əsas ittihamçı SSRİ-nin Baş prokuroru A.Y.Vışınski 16 nəfər, o cümlədən Q.Zinovyev və L.Kamenev, Q.Y.Yevdokimov, İ.N.Smirnov üçün əsas təşkilatçılar kimi ölüm hökmü tələb etdi. «Günahkarlar» üçün avqustun 24-də ölüm hökmü çıxarıldı və dərhal yerinə yetirildi. «Sağların» rəhbərlərindən hesab edilən M.P.Tomski bu prosesdən sonra avqustun 26-da intihar etdi.

1937-ci ilin yanvarında sabiq müxalifıətçilər Y.L.Pyatakov, K.B.Padek, Q.Y.Sokolnikov, N.İ.Muralov, L.P.Srebryakov başda olmaqla, 17 nəfər üzərində

məhkəmə işi başlandı. Mühakimə olunanlara qarşı standart günah əməlləri, o cümlədən terrorizm, ziyankarlıq, SSRİ-nin müdafiə qabiliyyətini zəiflədən casusluq fəaliyyəti və s. irəli sürüldü. Yanvarın 23-də başlayan bu ikinci Moskva prosesi «Trotskiçi-Zinovyevçi mərkəz» işinin davamçıları kimi kütləvi təxribatlar törətməkdə ittiham edilirdilər. Əvvəlkilər kimi bu məhkəmə tamaşası da cəmi bir həftə çəkdi, ittiham olunanlar öz günahlarını «tam etiraf» etdilər. 13 nəfər ölüm hökmünə, 4 nəfər isə uzunmüddətli həbs cəzasına məhkum edildilər. İkinci məhkəmə prosesi xalq təsərrüfatı və partiya kadrları üzərində qondarma məhkəmə işlərinə yol açdı. 1937-ci ilin əvvəllərində Stalinin ÜİK(b)PMK-nın fevral-mart plenumunda «Trotskiçilər və digər ikiüzlülər» adlı məruzə ilə çıxış etməsindən sonra ölkəni yeni repressiyalar dalğası bürüdü. Həmin məruzədə Stalin partiyada və cəmiyyətdə kütləvi təmizləmələr aparmağa çağırdı. Milyonlarla insan partiya, sovet, təsərrüfat rəhbərləri, hərbi rəhbərlər, elm və mədəniyyət xadimləri, fəhlələr və kəndlilər, hətta dövlət təhlükəsizlik orqanlarının işçiləri belə təmizləmələrin qurbanı oldu. Günahın yeganə sübutu vəhşicəsinə işgəncələr, şantaj və yalan yolu ilə müttəhimlərdən qoparılan şəxsi etiraflar idi. Repressiyaya məruz qalanların böyük əksəriyyəti edam edilmiş və məhkəməsiz məhkum edilmişdi. Düz iki il repressiyaların şiddəti zəifləmədi. 1936-cı il sentybarın 26-da N.İ.Ejov İ.V.Stalin tərəfindən daxili işlər xalq komissarı təyin olunduqdan sonra repressiyalara əsasən fəaliyyətdə olan siyasi fiqurlar, o cümlədən MK-nın üzvləri, sahə və region rəhbərləri, hərbi sərkərdələr məruz qalmışdır. 1937-1938-ci ildəki kütləvi repressiyalar tarixdə «ejovçuluq» kimi öz yerini almışdır.

1938-ci ilin martında Sağ Trotskiçi antisovet bloku haqqında 21 nəfəri əhatə edən Moskva prosesi başladı. N.İ.Buxarini, A.İ.Pıkovu sağ təmayülün rəhbərləri kimi, sabiq Daxili İşlər Komissarı Q.Q.Yaqodanı, Kremlin həkimlərini, V.V.Kuybışevin, A.M.Qorkinin ölümündə, həmçinin Stalinə qarşı sui-qəsddə təqsirli hesab edərək edam etdilər. Hətta N.İ.Buxarini 1918-ci ildə F.Kaplanın V.İ.Leninə qarşı törətdiyi sui-qəsdin iştirakçısı kimi damğaladılar. Şəxsi ağır fiziki işgəncələrə məruz qalan mühakimə edilənlər öz həyatlarını və yaxınlarını qorumaq üçün özləri haqqında yalan ifadələr verərək törətdikləri əməllər üçün xaricdə olan L.D.Trotskidən və alman faşistlərindən tapşırıq aldıqlarını etiraf edirdilər. Mart ayının 2-dən 13-nə kimi davam edən bu üçüncü Moskva prosessində V.İ.Leninin vaxtında Siyasi Büronun üzvü olmuş N.İ.Buxarin, A.İ.Rıkov, trotckiçi N.N.Krestinski, Avropa inqilabı hərəkatının görkəmli xadimi X.Q.Rakovski və b. mühakimə olunanlar sırasında idi. Rəsmi «tamaşanın» hakimi 21 nəfərdən 18 nəfəri ölüm hökmünə, 3 nəfəri isə uzunmüddətli həbs cəzasına məhkum etdi. «Bütün partiyanın sevimlisi», Leninin ifadəsilə «bizim

Buxarçik» Nikolay Buxarinin 1918-ci ilin avqustunda sol eserlərlə əlbir olaraq V.İ.Leninə sui-qəsddə iştirakı fərziyyəsi onun «ata qatili» kimi damğalanmasına, İ.V.Stalinə tarixdə Lenin işinin yeganə davamçısı kimi yer tutmasına xidmət edirdi.

Ordunun özündə də narazılıq artırdı. M.N.Tuxaçevski, İ.E.Yakir, İ.P.Uboreviç və başqaları ordu quruculuğunun köhnə metodlarına qarşı çıxış edirdilər. Marşal M.N.Tuxaçevski və onun tərəfdarları bildirdilər ki, yeni şəraitdə ordu mexanikləşdirilməlidir və süvari orduya çəkilən xərclər azaldılmalıdır ki, bununla da onlar ordunun veteranları hesab olunan Vətəndaş müharibəsi qəhrəmanları K.Y.Voroşilov və S.M.Budyonnının köhnə psixologiyasına qarşı çıxırdılar. Bu şəraitdə XDİK gestapo ilə birlikdə 1937-ci ildə hərbi sovet xadimlərinin İ.Stalinə qarşı sui-qəsd təşkil edilməsinə dair uydurma «iş» qurdular.

1937-ci il iyunun 12-də «Qızıl Orduda antisovet trotskiçi hərbi təşkilat»ının ifşa edilməsi və Ali komanda heyətininn 8 nəfər mühakimə olunan üzvünün güllələnməsi bəyan edildi. Bir günlük araşdırmadan sonra casusluqda, faşist qətli hazırlamaqda və İ.V.Stalinə qarşı sui-qəsddə günahkar hesab edilən Müdafiə xalq komissarlığının birinci müavini marşal M.N.Tuxaçevski, 1-ci dərəcəli komandarm, Kiyev hərbi dairəsinin komandanı İ.E.Yakir, 1-ci dərəcəli komandarm, Belorusiya hərbi dairəsinin komandanı İ.P.Uboryeviç, 2-ci dərəcəli komandarm Frunze adına Hərbi Akademiyanın rəisi A.İ.Kork, korpus komandirləri R.P.Eydeman, B.M.Feldman, V.M.Primakov, V.K.Putna edam edildilər. Qızıl Ordunun siyasi idarəsinin rəisi 1-ci dərəcəli ordu komissarı Y.B.Qamarnik həbs edilməsini hiss edərək özünü güllələmişdir. Məhv edilənlərin hamısı görkəmli hərbi sərkərdələr, Vətəndaş müharibəsinin qəhrəmanları idi. Edam cəzası çıxaran tribunalın üzvləri marşallar Uzaq Şərq ordusunun komandanı V.K.Blyuxer, Baş Qərargah rəisi A.İ.Yeqorov sonradan eyni aqibəti paylaşdılar. Repressiyalar bütün zabit heyətini bürüdü. 1937-1938-ci illərdə «Tuxaçevskinin işi» üzrə repressiyaya həm də hərbi sahədə qabaqcıl alim və mühəndislər A.N.Tupolev, S.P.Korolyov və başqaları da məruz qaldılar. Demək olar ki, xarici kəşfiyyat kadrları tamamilə məhv edildi. Hərbi əməliyyat təcrübəsi olan, hazırlıqlı hərbi birləşmələrin komandirlərindən tutmuş polk komandirlərinə kimi Qızıl Ordunun komanda heyətinin 90%-i həbs düşərgələrinə salındı. Bir çox zabit tutduğu vəzifədən azad edilərək partiya sıralarından xaric edildi. 8 nəfərin güllələndiyi, 980 nəfər komandir və siyasi işçinin məhkum edildiyi hərbçilər əsasən 1923-1925-ci illərdə Hərbi Akademiyada təhsil alarkən partiya yığıncağında Trotskinin təfərdarlarının qətnaməsinə səs verənlər idi. Repressiyalar bütün regionları və respublikaları əhatə etdi.

Azərbaycanda 200 minə yaxın və ya yaşlı əhalinin 15%-i repressiyaya məruz qalmışdı. Qanlı repressiya dalğası Ukraynanı, Belorusiyanı, Orta Asiyanı, Rusiyanın vilayətlərini bürüdü. Nəhayət, 1938-ci ilin sonu 1939-cu ilin əvvəllərində repressiyaların miqyası azaldı. Buna baxmayaraq, onlar insanların şüurunda sistem qarşısında qorxu və onun önündə gücsüzlük hissinin dərindən kök salmasında böyük rol oynayırdılar.

Ümumiyyətlə, bu dövrdə on minlərlə günahsız adam «donosçular» (adamsatanlar) sayəsində «əks-inqilabçı» damğası ilə həbs olunaraq cəza çəkmək üçün Baş Düşərgə İdarəsi (QULAQ) sistemindəki həbsxanalara göndərildilər. Belə məhbusların əməyindən meşə ağac emalında, yeni zavod və dəmiryollarının tikintisində istifadə olunurdu. 1930-cu illərin sonlarında Baş Düşərgə İdarəsi sistemində 50-dən çox həbsxana, 420-dən çox islahetmə məntəqəsi, yetkinlik yaşı çatmayanlar üçün 50 məntəqə fəaliyyət göstərirdi. Rəsmi məlumatlara əsasən, 1930-cu ildə burada 179 min, 1935-ci ildə 839,4 min, 1937-ci ilin sonunda isə 996,4 min nəfər məhbus var idi. 1938-ci il iyulun 1-nə olan məlumata əsasən, SSRİ XDİK Baş Düşərgə İdarəsi əmək məskun məntəqəsi növbəsinin qeydiyyatında 997 329 nəfər əmək köçkünü var idi ki, onlar da 1741 əmək məskun məntəqəsində yaşayırdılar. Lakin həqiqətdə məhbusların sayı daha çox idi. Bunu bilavasitə olaraq SSRİ-də əhali sayının artım dinamikası təsdiq edir. Belə ki, 1929-cu il yanvarın 1-dən 1933-cü il yanvarın 1-nə kimi ölkə əhalisi 11 mln. nəfər artdığı halda, 1933-cü il yanvarın 1-dən 1937-ci ilin dekabrına kimi təqribən 2 mln. nəfər azalmışdır.

Düşərgə və koloniyalar SSRİ-də çıxarılan qızıl və xrom-nikel filizinin təqribən yarısını, platin və ağacın üçdə birinə qədərini verirdi. Məhbuslar əsaslı işlərin ümumi həcminin təqribən beşdə birini istehsal edirdilər. Repressiyanın dəqiq miqyası bu günə kimi müəyyən edilməmişdir. Təqribi hesablamalara görə, 1930-cu ildən 1953-cü ilə qədər 800 min nəfərə yaxın adam ölüm hökmünə məruz qalmışdır. 18 mln. nəfər adam həbs düşərgələrindən keçmişdir ki, onların da beşdə bir hissəsi siyasi maddə ilə məhkum edilənlər idi.

İctimai şüur üzərində nəzarətin təmin edilməsində qorxu mühüm, lakin yeganə vasitə deyildi. Belə təminatın digər mühüm vasitəsi əhali içərisində total ideoloji təbliğat idi. Bu məqsədlə dövlət Kommunist Partiyasının nəzəri prinsiplərini ideologiyanın əsasına çevirmək xətti götürdü. Bu prinsiplər əsasən Marksın, Leninin əsərlərindən götürülmüşdü. Odur ki, partiyanın ideologiyası marksizm-leninizm adlandırılmışdı. Bununla bərabər, Marksın və Engelsin fikirləri Stalin tərəfindən müəyyən edilən rəsmi siyasətə uyğun olaraq şərh edilir, bu isə çox zaman onların fikirlərinin ilkin məzmununun sadələşdirilməsinə və təhrif olunmasına gətirib çıxarırdı.

Buna baxmayaraq, sovet adamlarının ən azı bir neçə nəsli mükəmməl, məntiqi cəhətdən düzgün, yeganə, doğru olan marksizm-leninizm nəzəriyyəsi kimi təqdim olunan bütün bu təlimlərin tamamilə qəbul edilməsi ruhunda tərbiyə edilmişdi. RSDF(b)P- PK(b)P- UİK(b)P-Sov.İKP-nin müxtəlif inkişaf mərhələlərindəki siyasəti isə «fəaliyyətdə olan marksizm-leninizm» kimi təqdim olunurdu. Stalinin şəxsiyyəti isə marksizm-leninizmi düzgün şərh edən və təcrübədə həyata keçirən yeganə tarixi şəxsiyyət kimi ön plana çəkilirdi. İnsanları Stalinin yazdığı və dediyi hər bir sözün ədalətli olmasına dərin inam ruhunda tərbiyə etməyə çalışırdılar. Stalin tərəfindən marksizm-leninizmin izahı, nəticə etibarilə onun yaratdığı siyasi və iqtisadi sistemin modelini, onun yeritdiyi siyasəti əsaslandırmağa yönəlmişdi. Partiyada və cəmiyyətdə fərqli düşünənlər ciddi təqib olunur və xaric edilirdilər. İnsanlar «xalq düşməni» kateqoriyasına aid edilmək və bundan irəli gələn bütün nəticələrin qorxusu altında tam biganəlik göstərməyə, ümumi qəbul olunmuş mülahizələrlə razılaşmağa və öz növbəsində ictimai həyatın müxtəlif sahələrində onları təkrar-lamağa məcbur idilər. Partiya, sovet, komsomol və həmkarlar təşkilatlarının işçiləri, ziyalıların peşəkar dəstələrinin nümayəndələri, əhalinin bütün yaş təbəqələrinin şüuruna dünyada birinci sosialist dövlətinin yeganə düzgün inkişaf yolunda olması, partiya və dövlətin tarixində Stalinin xüsusi rol oynaması ideyasını fəal surətdə yeritmək işinə istiqamətləndirilmişdi. Təhsil və elmi müəssisələrin, ədəbiyyatın və incəsənətin, kütləvi informasiya vasitələrinin, partiya, sovet, komsomol və digər ictimai təşkilatların fəaliyyətinin əsasında kütlələrin şüuruna eyni cür təsir göstərmək dururdu.

Şəxsiyyətə pərəstişin təbliği, repressiyalara haqq qazandıraraq qanun daxilində elan edilməsi, cəmiyyətdə casus və xalq düşməni axtarışına mübtəla olmaq vərdişi rəsmi sovet təbliğatının başlıca istiqamətlərini təşkil edirdi. Məsələn, 1937-ci ilin avqustunda hökumət komissiyası ibtidai məktəblər üçün A.V.Şestakovun «SSRİ tarixi» dərsliyini təsdiq etmişdir. Dərslikdə müəllif yazırdı ki, «xalq düşmənlərinin SSRİ-də kapitalist və mülkədarların əsarətini bərpa etmək proqramı mövcuddur... Casuslar zavod və fabriklərə, böyük şəhərlərə və kəndlərə gizlicə girirlər. Ona görə faşist casuslarını tutmaq məqsədilə bütün şübhəli adamları diqqətlə izləmək lazımdır». Qeyd edilməlidir ki, adətən, Stalin özü ideoloji işə istiqamət verirdi. O marksizm nəzəriyyəsinə və tarixinə dair «Leninizmin əsasları», «Leninizm məsələləri», «Oktyabr inqilabı və rus kommunistlərinin taktikası», «Dialektik və tarixi materializm haqqında» adlı bir sıra böyük tarixi əsərlərin, çoxsaylı məqalələrin müəllifi idi. O, bütün humanitar sahənin inkişafının xarakterini və məzmununu tənzimləyən partiya sənədlərinin tərtibində fəal iştirak edirdi. Başqa sözlə,

dövrün ideoloji həyatı tədricən onun tərəfindən formalşdırılan totalitar və avtoritar sistem haqqında öz təsəvvürlərinə və maraqlarına tamamilə uyğunlaşdırılırdı.

Stalinin ideoloji konsepsiyasının təsdiqinin ən yüksək həddi 1938-ci ildə «UİK(b)P tarixinin qısa kursu»nun nəşri oldu. Əsər stalinizmin əsl ensiklopediyası, onun nəzəri-ideoloji ifadəsi idi. Bu əsərin əhəmiyyəti onda idi ki, onun ictimai həyat məsələlərinin geniş dairəsini əhatə edən əsas müddəaları uzun illər üçün rəsmi ideoloji konsepsiyanı müəyyənləşdirdi. Stalin kitabın təşəbbüsçüsü, baş redaktoru və ayrı-ayrı bölmələrinin müəllifi idi. Stalinin ölümündən sonra «Qısa kurs» bəzi çatışmazlıqlarına görə tənqid edilirsə də, onun başlıca müddəaları 80-cı illərin ortalarına qədər rəsmi sovet ideologiyasının əsasını təşkil edirdi.

Partiyada və xalqda vahid düşüncə yaratmaq 20-30-cu illərdə Kommunist partiyasının bütün ideoloji siyasətinin məqsədi idi. Zahirən bu məqsəd əldə edilmişdi. 30-cu illərin sonu üçün əhalinin əsas hissəsi rəsmi Stalin ideologiyasının göstərişlərinə uyğun olaraq öz fikirlərini açıq ifadə etməyi öyrənmişdi. İnsanların çoxu yazılanların, yüksək tribunalardan deyilənlərin, kitablarda və qəzetlərdə qeyd edilənlərin doğruluğuna, həqiqətən inanırdı. Lakin bütün amansız diktatura və repressiyalar, güclü ideoloji təzyiqlər dövrlərində olduğu kimi fərqli düşünən, rəsmi təbliğatın bir çox ehkamlarına və stereotiplərinə şübhə ilə yanaşan insanlar da az deyildi. Gizli müxalifətçilik potensialı qalmaqda idi. 30-cu illərin sonundakı Stalin repressiyaları buna həmişəlik son qoymaq məqsədi güdürdü. Lakin həyat göstərdi ki, müxalifətçiliyin tamamilə kökünü kəsmək mümkün deyil.

Cəmiyyətin mənəvi həyatında bir ideologiyanın inhisarını yaratmaq cəhdi yaradıcılığın, azad inkişafın, insan şüurunda olan ideyalar potensialından istifadənin mümkünlüyü üçün böyük təhlükə törədir, insanın təşəbbüskarlığının qarşısını alır. Bu isə Sovet dövlətinin və cəmiyyətinin inkişafına öz mənfi təsirini göstərmişdi.

### §3. Sovet dövləti və din

1917-ci ilin fevral və oktyabr hadisələri ərəfəsində Rus Pravoslav Kilsəsi (РПЦ) böyük təşkilata və nüfuza malik idi. Belə ki, 1914-cü ilə doğru Rusiyada 117 mln. pravoslav xristian var idi. Onlar da 67 yeparxiyada yaşayırdılar. 48 min məhəllə məbədində 130 yepiskop, 50 mindən çox keşiş və dyakon

dini ayinlər yerinə yetirirdilər. RPK-nin idarəsində 35 min ibtidai məktəb, 58 seminariya, mindən çox monastır, 95 min rahib var idi. 1700-cü ildə I Pyotr patriarxlığı ləğv etdiyi üçün Rusiyada patriarx yox idi. 1917-ci ilin noyabrın 5-də xilaskar İsanın məbədində 12 min nəfərin püşkatması ilə Moskva və bütün rusun XI patriarxı Moskva mitropoliti Tixon seçildi (dünyəvi Vasiliy İvanoviç Bellavin).

1917-ci il Oktyabr silahlı üsyanından sonra Sovet hakimiyyəti «ateist dövləti» uğrunda mübarizəyə başladı. 1917-ci il oktyabrın 26-dan 27-nə keçən gecə torpaq haqqında elan edilən dekretlə monastr və kilsələr öz torpaqlarından məhkum edildi ki, bu da RPK-nin iqtisadi gücünə əsl zərbə oldu. 1917-ci il dekabrın 11-də qəbul etdiyi qərarda XKS dini idarə məktəblərini Xalq Maarif Komissarlığının sərəncamına verdi. Dini məktəblərin bütün daşınan və daşınmaz əmlakı dövlətin ixtiyarına keçdi. Sovet hakimiyyətinin kilsəyə qarşı hücumları patriarx Tixonun 1918-ci ilin yanvarında bu hücumu təşkil edənləri ifşa etməsilə nəticələndi. O, bütün dindarları təhqir edilən və əzilən müqəddəs anamızı qoruyub müdafiə etməyə çağırdı. Patriarx özünün sərt müraciətində belə bir səhv fikir irəli sürmüşdü ki, yeni hakimiyyət tez bir zamanda yıxılmağa məhkumdur. Dindarların və ruhanilərin sovet hakimiyyətinə müqaviməti çox halda həbs, məhkəmə və sürgünlə başa çatırdı. Yalnız vətəndaş müharibəsi illərində 12 min nəfər dünyəvi adam, bir neçə min nəfər məhəllə ruhanisi və rahibi, 28 nəfər arxierey (ali dərəcəli ruhani) «kilsə uğrunda» həyatını itirmişdir. Dinin dünyagörüşü olduğunu qəbul etməyən ateizm 1920-30-cu illərdə sovet partiya və dövlət orqanları tərəfindən fəal müdafiə olunurdu. V.İ.Leninin söylədiyi «Biz dinlə mübarizə aparmalıyıq» fikrinə əsasən ateizmin, yəni elmi-materialist dünyagörüşünün təbliği ilə bərabər, hakimiyyət orqanları din xadimlərini və dini yayanları kütləvi həbs cəzasına və təqibə məruz qoymuşdu.

Bolşevik hakimiyyəti 1918-ci il yanvarın 20-də «Kilsənin dövlətdən, məktəbin kilsədən ayrılması haqqında» dekret qəbul etmişdir. Bu sənədə əsasən, din vətəndaşların şəxsi işi elan olundu. Eyni zamanda kilsənin dövlət müəssisəsi kimi fəaliyyətinə son qoyuldu.

1922-ci ilin yazından başlayaraq Sovet hakimiyyəti xarici təhlükəni dəf etdikdən sonra daxili «əks-inqilab» yuvası hesab etdiyi dini mərkəzlər, xüsusilə pravoslav kilsəsi ilə fəal mübarizəyə başladı. 1922-ci il fevralın 23-də ÜRMİK dindarların sərəncamında olan qiymətli kilsə əmlakının müsadirə edilməsinə dair dekret verdi. Siyasi Büronun üzvlərinə ünvanlandığı 1922-ci il 19 mart tarixli məktubunda V.İ.Lenin kilsə və monastrların qiymətli əşyalarını müsadirə edərək bir neçə mln. qızıl rubl həcmində fond yaradılmasını,

irticaçı din xadimlərinin və burjuaziyanın güllənməsini tələb edirdi ki, onlar bir neçə onillik ərzində müqavimət göstərmək haqqında belə düşünməyə cəhd etməsinlər. 1922-ci ilin aprel-mayında kilsənin qiymətli əşyalarını verməkdən imtina edən 54 nəfər keşiş və dünyəvi adam üzərində məhkəmə quruldu. 11 nəfərə ən yüksək cəza verilsə də, sonradan 6 nəfərin cəzası dəyişdirildi. Hakimiyyət tərəfindən süni parçalanma və başqa cəza tədbirləri ilə küncə sıxışdırılan kilsə patriarxlığının strukturlarına Dövlət Siyasi İdarəsinin din əleyhinə gizli 6-cı şöbəsi tam nəzarət edirdi. Yevgeni Tuçkovun rəhbərlik etdiyi 6-cı şöbə vasitəsi ilə sovet hakimiyyəti ölkədə «kilsə siyasətini» həyata keçirirdi.

Dinə qarşı mübarizədə Sovet dövləti ateizm təbliğatından geniş istifadə edirdi. 1925-ci ildə Yemelyan Yaroslavskinin başçılığı altında kütləvi ictimai təşkilat olan, 1929-cu ilin iyununa kimi «Allahsızlar ittiqafı» və ya bundan sonrakı adı ilə «Mübariz allahsızlar ittifaqı» yarandı. 1947-ci ilə qədər fəaliyyət göstərən təşkilat ateist təbliğatının mərkəzi olmaqla yanaşı, özünün «Allahsız» nəşriyyatında çoxsaylı qəzet və jurnallar çap etdirirdi. Din əleyhinə çap edilən nəşrlərin sayı durmadan artırdı. 1931-ci ilin noyabrında «Mübariz allahsızlar ittifaqı»nın üzvlərinin sayı 5 mln. nəfərdən çox idi. Ateist işini sinfi mübarizənin mühüm tərkib hissəsi elan edən təşkilat hətta dini SSRİ-də 1937-ci ilə kimi tamamilə ləğv etməyi belə planlaşdırırdı. Kilsəyə qarşı təqib və repressiyaların davam etməsinə baxmayaraq, yaxınlarının təkidinə baxmayaraq, patriarx Tixon Rusiyanı tərk etməkdən imtina etmişdir. 1918-ci ilin dekabrında o, ev dustağı edilmiş, 1923-cü ilin iyunun 16-da həbsdən azad olunmuşdur. Mətbuatda onun «antisovet hərəkətlərindən» peşman olduğuna dair müraciət dərc edilmişdir. 1925-ci ilin aprelin 7-də patriarx Tixon vəfat etmiş, 1989-cu ildə rus müqəddəsləri cərgəsinə daxil edilmişdir.

1920-ci illərin sonları – 30-cu illərin əvvəllərində sovet hakimiyyəti ölkədəki dini birliklərin fəaliyyətini tənzimləyən bir sıra qərarlar qəbul etdi. 1929-cu il aprelin 8-də RSFSR MİK və XKS «Dini birliklər haqqında» qətnamə qəbul etdi. Sənədə əsasən, dini birliklərə xeyriyyə işləri ilə məşğul olmaq qadağan olundu, dindarların müqəddəs yerlərdə toplu şəkildə dini ayinlərin icrası, dini dərslərin tədrisi ləğv edildi. 1930-cu il fevralın 15-də XKS «Dini birliklərin rəhbər orqanlarında əks-inqilabçı elementlərlə mübarizə haqqında» qərar qəbul etdi. Qərarda yerli hakimiyyət orqanlarına dini icmaların rəhbərləri üzərində nəzarəti gücləndirməsi tapşırıldı. Sənədə əsasən sovet quruluşuna «düşmən» münasibət bəsləyən adamlar dini birliklərdəki fəaliyyətdən azad edilir, din xadimlərinə qarşı repressiyalar nəzərdə tutulurdu. 1930-1931-ci illərdə sovet hökumətinin verdiyi bir sıra gizli göstərişlərdə

kilsədə xidmət edən din adamlarının üzərinə qoyulan vergilər artırıldı, vergini ödəməyənlərin əmlakı müsadirə olunur, özləri isə digər rayonlara sürgün edilirdi. 1928-ci ildə 534, 1929-cu ildə isə 1119 kilsə bağlanmışdı. 1930-cu ilin yanvarında Moskvada olan 500 məbəddən 224-ü, iki il sonra isə yalnız 87 kilsə qalmışdı. 1930-cu ildə Oryolda fəaliyyət göstərən bir dənə də olsa, pravoslav kilsəsi qalmamışdı.

Din adamlarına qarşı dövlətin tətbiq etdiyi repressiyaların kuliminasiya nöqtəsini 1937-1938-ci illərdəki Böyük terror dövrü təşkil etdi. Belə ki, 1937-ci ildə XDİK-nin 00447 saylı gizli əmri ilə «kilsə və təriqət» fəalları «antisovet elementləri» elan edilərək onlara qarşı repressiya tətbiq olunması irəli sürülürdü. Dindarların repressiyası və təqib edilməsi İ.V.Stalinin şəxsi nəzarəti altında həyata keçirilirdi. Yalnız 1937-ci ilin avqustundan noyabrına kimi 31 359 «kilsə və təriqətçi» fəalı həbs edilərək mühakimə olunmuş, onlardan 13 671 nəfəri güllələnmə cəzası almışdır. SSRİ Xalq Daxili İşlər Komissarı N.İ.Yejovun İ.V.Stalinə təqdim etdiyi arayışda bu faktlar qeyd olunmuşdur. Tarixçi Dmitri Pospelovskinin təqribi hesablamalarına görə, 1931-1941-ci illərdə keşişlərin 80-85%-i məhv və yaxud həbs edilmişdir ki, bu da 45 min nəfərdən çoxdur. Ölkədəki ibadət məbədlərinin sayı inqilaba kimi mövcud olanlardan 58% az idi. İbadət yerlərinin azalmasından istifadə edən hakimiyyət 1938-ci ilin aprelində ÜRMİK Rəyasət Heyətinin nəzdində fəaliyyət göstərən İbadət İşləri üzrə Mərkəzi Komissiyanı ləğv etdi, bütün dini məsələlər Xalq Daxili İşlər Komissarlığının sərəncamına verildi.

1930-cu illərdə SSRİ-də inzibati-amirlik sisteminin formalaşması başa çatdı. İqtisadiyyatın idarə edilməsinin mərkəzləşmiş sistemi, siyasi və iqtisadi idarəçiliyin bir mərkəzdə birləşməsi, ictimai-siyasi həyatda avtoritar rəhbərliyin bərqərar olması bunun səciyyəvi xüsusiyyətləridir. Vətəndaşların və ictimai institutların hüquq və azadlıqlarının məhdudlaşdırılması totalitar siyasi rejimin simvolu olan İ.V.Stalinin şəxsiyyətinə pərəstişin artması və möhkəmlənməsi ilə müşayiət olunurdu. Tarixçilərin böyük əksəriyyəti belə hesab edir ki, 1920-30-cu illərdə SSRİ-də totalitar cəmiyyət meydana gəlib formalaşmışdır.

«Totalitarizm» latınca «totalis» sözündən olub «tam», «bütün» deməkdir, dövlətin cəmiyyətin, siyasi həyatın bütün sahələrinə (total) nəzarət etdiyi siyasi rejimlərə deyilir ki, burada da insan tamamilə siyasi hakimiyyətə və hakim ideologiyaya tabedir. Totalitarizmin mahiyyətini aşağıdakı səciyyəvi xüsusiyyətlər əks etdirir. Təkpartiyalılıq, cəmiyyətin bütün həyatının ideologiyalaşdırılması, iqtisadiyyat, mədəniyyət, kütləvi informasiya vasitələri üzərində inhisarçı nəzarət, terrorçu polis özbaşınalığı. Bütün bunlar SSRİ-də

mövcud olduğu üçün Sovet dövləti totalitar siyasi rejim kimi səciyyələndirilir. RSFSR və SSRİ-də totalitar rejimin əsası 1918-1922-ci illərdə qoyulmuşdur. Belə ki, proletariatın diktaturası, vətəndaş müharibəsi gedişində bolşeviklərə qarşı olan bütün siyasi müxalifətin ləğv edilməsi, siyasi, iqtisadi, hərbi cəhətdən cəmiyyətin dövlətə tabe olmasını səciyyələndirən «hərbi kommunizm» siyasəti bunu təsdiq edir.

1920-ci illərin birinci yarısı ölkədə meydana gələn totalitarizmin əsas xüsusiyyəti ondan ibarətdir ki, bolşeviklərin dövlət və cəmiyyət üzərində tam hakimiyyəti bərqərar olsa da, hakim partiyanın daxilində nisbi demokratiyanı göstərən mübahisə, müzakirə, münasibətlərdə bərabərlik və s. qalırdı. 1920-ci illərin ikinci yarısı – 30-cu illər SSRİ-də totalitar siyasi rejimin ikinci mərhələsini təşkil edir. Həmin dövrdə qalib Bolşevik Partiyası içərisində demokratiyanın bütün əlamətləri ləğv edilərək partiya bir şəxsə – İ.V.Stalinə tabe oldu və ölkədə Stalinin diktaturası, stalinizm yarandı. Müəyyən bir zaman kəsiyində İ.V.Stalin köhnə Lenin qvardiyasını rəhbər partiya, sovet, təsərrüfat aparatından kənarlaşdıraraq, onları aşağı sosial təbəqədən olan adamlarla əvəz etdi. Yeni rəhbər vəzifələrə təyin edilən şəxslər SSRİ-də totalitar siyasi rejimin simvoluna çevrilən İ.V.Stalinə və stalinizmə sədaqətlə xidmət göstərməyə başladılar. Beləliklə, tədricən müstəqil düşünmə qabiliyyəti olmayan, rəhbərə sədaqəti ilə fərqlənən yeni sovet nomenklaturası formalaşdı və onlar da dəridən-qabıqdan çıxaraq ölkədə totalitar Stalin siyasi rejiminin meydana gəlib möhkəmlənməsinə, tarixin bir mərhələsini təşkil edən stalinizmin tüğyan etməsinə şərait yaratdılar. 1934-cü ilin yanvarından 1939-cu ilin martına kimi 500 min nəfərdən çox yeni işçi rəhbər partiya və dövlət vəzifəsinə irəli çəkilmişdir. 1939-cu ildə 333 nəfər vilayət, ölkə və milli kommunist partiyaları MK katibinin 293 nəfəri ÜİK(b)P XVIII qurultayının irəli çəkdikləri idi. Faktlar təsdiq edir ki, məqsədyönlü siyasət nəticəsində partiya hakimiyyəti «köhnə bolşevik qvardiyasından» Stalinin irəli çəkdiyi kadrlara keçmişdir.

# XXVI FƏSİL
# BÖYÜK VƏTƏN MÜHARİBƏSİ

## §1. Müharibənin başlanması

Böyük Vətən müharibəsinin birinci dövrü 1941-ci il iyunun 22-dən 1942-ci il noyabrın 18-nə kimi, yəni Almaniyanın SSRİ-yə hücumundan müdafiə döyüşlərinin bitməsinə – Stalinqrad (Volqoqrad) altında döyüşə kimi olan hadisələri əhatə edir.

Müharibənin ikinci dövrü 1942-ci il noyabrın 19-dan 1943-cü ilin axırına kimi olan dövrü əhatə edir və Stalinqrad altındakı hücumu, Kursk döyüşünü, Dneprin döyüşlərlə keçilməsini əhatə edir. Bu dövr müharibənin gedişində əsaslı dönüş adlanır.

Müharibənin üçüncü dövrü 1944-cü ilin əvvəllərindən 1945-ci il mayın 9-na kimi olan hadisələri, yəni SSRİ ərazisinin və Şərqi Avropanın işğalçılardan azad edilməsi, Hitler Almaniyası üzərində tam qələbə çalınmasını əhatə edir.

Yaponiyanın darmadağın edilməsi Böyük Vətən Müharibəsinə aid edilmir və II Dünya müharibəsinin beşinci dövrü hesab olunur. 1939-cu il sentyabrın 1-dən 1941-ci il iyunun 21-nə kimi, yəni Almaniyanın SSRİ-yə hücumuna kimi olan dövr II Dünya müharibəsinin birinci mərhələsi hesab edilir.

Fransa üzərində qələbədən sonra Hitler komandanlığı İngiltərə ilə müharibəni davam etdirərək hazırladığı «Dəniz şiri» planına əsasən Britaniya adasına daxil olmağı nəzərdə tuturdu. Lakin İngiltərəyə qarşı təşkil olunan desant əməliyyatının çətinliyini və Britaniyanın məğlub olacağı təqdirdə onun müstəmləkələrinin Almaniyaya deyil, ABŞ və Rusiyaya çatacağını düşünən Hitler bu plandan imtina etdi. O belə hesab edirdi ki, əgər Rusiya üzərində qələbə çalsa, onda ABŞ bütün gücünü Yaponiya ilə müharibəyə yönəltməyə məcbur olacaq, İngiltərə isə Almaniya ilə təkbaşına qaldığı üçün təslim olacaq. Odur ki, Hitler qərara aldı ki, Qərbdə müharibəni başa çatdırmadan SSRİ-yə hücum etsin.

SSRİ-yə qarşı «Barbarossa» adlanan müharibə planına əsasən üç ay müddətində ildırım sürətli müharibə, yəni blistkriq nəticəsində Sovet İttifaqı darmadağın edilməli idi. Bu vaxt ərzində alman qoşunları Arxangelsk-Volqa-Həştərxan xəttinə çıxmalı və bu əməliyyat gedişində sovet ordu hissələri sərhəd yaxınlığında mühasirəyə alınıb məhv edilməli idi. «Barbarossa» planının həyata keçirilməsi üç ordu qrupuna həvalə edilmişdi. Əsas zərbəni general-

feldmarşal fon Bokun komandanlıq etdiyi «Mərkəz» qrupu vurmalı idi. Onlar sovet birliklərini Belorusiyada məhv edərək, mexanikləşdirilmiş qüvvələrin köməyi ilə Moskvanı almağı nəzərdə tuturdular. General-feldmarşal V.Leebin komandanlıq etdiyi «Şimal» qrupu Finlandiya ordusu ilə birlikdə Baltikyanı respublikaları və Leninqrad istiqamətində sovet diviziyalarını məğlub etməli idi. General-feldmarşal Q.Rundştedtin komandanlığı ilə «Cənub» qrupu rumın ordusunun köməyi ilə Ukraynada sovet hissələrini əzərək Kiyevi tutmalı idilər.

1940-cı il dekabrın 18-də Hitlerin təsdiq etdiyi «Barbarossa» planına görə, SSRİ-yə 1941-ci ilin may ayında hücum etmək nəzərdə tutulurdu. Ancaq Almaniya və onun müttəfiqlərinin Yuqoslaviya və Yunanıstana qarşı 1941-ci ilin martında hərbi əməliyyatlara başlaması SSRİ-yə qarşı müharibənin vaxtını dəyişdirərək iyunun 22-nə təyin olunmasına səbəb oldu.

Almaniyanın Sovet İttifaqına qarşı planlaşdırdığı müharibənin siyasi məqsədləri sovet sosialist dövlət quruluşunu dağıtmaq, slavyan və ölkədə yaşayan başqa xalqları «ali irq nəzəriyyəsinə» əsasən, fiziki cəhətdən məhv etmək və ya qul halına salmaqdan ibarət idi. 1940-cı ilin mayında alman hökumətinin qəbul etdiyi «Ost» («Şərq») planına görə işğal edilərək əyalətlərə bölünən SSRİ-nin 30 mln. əhalisi, yəhudi və qaraçıların isə hamısı məhv edilməli idi. Məhv edilməkdən kənarda qalanlar qul kimi ali irq hesab edilən almanlara işləməli idi. İşğal altındakı əhali faşistlər tərəfindən təhsil, tibbi xidmət imkanlarından məhrum edilərək tədricən acından ölməyə məhkum olunurdu. 1941-ci il iyunun ortalarında alman hökuməti Gerinq tərəfindən tərtib edilən «Yeni işğal olunmuş Şərq əyalətlərində iqtisadiyyata rəhbərlik üzrə direktivlər» («Gerinqin yaşıl qovluğu») sənədində kampaniyanın əsas iqtisadi məqsədi Almaniyanın daha çox ərzaq və neft ələ keçirməyi göstərilirdi. İşğal edilən sovet ərazilərində inzibati hakimiyyət gestaponun başçısı Gimlerə tapşırılırdı.

Uzun müddət SSRİ ilə müharibəyə hazırlaşan faşist Almaniyası 1941-ci il iyunun ortalarında sərhəd də çoxlu canlı və texniki qüvvə yığmışdı. Alman ordusunda 5,5 mln. adam, 4,3 min tank və hücum topu, 5 minə yaxın təyyarə, 47,2 min top və minaatan var idi. Almanların hərbi dəniz donanmasında 193 hərbi gəmi və kateri var idi. Sovet ordusunun Qərb hərbi dairələrində 2,9 mln. adam, 13,6 min tank (o cümlədən 1,5 min KV və T-34), 7,2 min təyyarə (o cümlədən 1,5 min yeni konstruksiyalı maşın), 53 minə yaxın top və minaatan var idi. Keyfiyyət baxımından köhnə sovet təyyarələri almanlarınkından geri qaldığı halda, yeniləri onlardan üstün idi. Köhnə sovet tankı almanlarınkı ilə təqribən bərabər olduğu halda, yeni maşınlar düşmən texnikasından çox irəlidə idi. Almanların şəxsi heyətinin say cəhətdən üstün olması onunla izah edilir ki, Almaniyada tam səfərbər edilmiş ordu olduğu halda,

SSRİ-də yalnız müharibə başladıqdan sonra səfərbərlik elan edilərək 1941-ci il iyulun 1-də orduya 5,8 mln. adam çağırılmışdı.

1941-ci il iyunun 22-də saat $3^{15}$ dəqiqədə alman ordusu ölkənin Qara dənizindən Baltik dənizinə kimi olan sərhəd boyu hücuma keçdi. Səhər saat 4-də Berlindəki sovet səfiri V.Q.Dekanozova müharibənin başlanması haqqında alman hökumətinin memorandumu təqdim olundu. Düşmən aviasiyası sərhəd ərazilərinə 400 km dərinliyə qədər bomba yağdırdı, elə müharibənin birinci günü sovet aviasiyası 1800 təyyarəsini itirdi ki, onların da 1489-u havaya qalxmadan yerdə məhv edilmişdi. Müharibənin birinci gününün sonunda alman ordusu Baltikyanı respublikalar istiqamətində 80 km, Belorusiya istiqamətində 60 km, Ukrayna istiqamətində 20 km ölkənin içərisinə daxil olmuşdu.

Cəbhədəki vəziyyətə dair tam təsəvvürü olmayan sovet hökuməti silahlı qüvvələrə rəhbərlik işlərin tələsik şəkildə yenidən qurdu. İyunun 22-24-də Baltikyanı, Qərb və Kiyev hərbi dairələri general-polkovnik F.İ.Kuznetsovun komandanlığı altında Şimal-Qərb, ordu generalı D.Q.Pavlovun komandanlığı altında Qərb, general-polkovnik M.P.Kirponosun komandanlığı altında Cənub-Qərb cəbhələri kimi yenidən təşkil olundu, eyni zamanda Leninqrad hərbi dairəsi general-leytenant M.M.Popovun komandanlığı altında Şimal, 9-cu və 18-ci ordular ordu generalı İ.V.Tyulenyevin komandanlığı altında Cənub cəbhələrinə çevrildilər. Müharibənin ikinci günü Partiyanın MK və XKS S.K.Timoşenkonun başçılığı altında silahlı qüvvəllər komandanlığının Baş Qərargahın yaratdı ki, bu da avqustun 8-də İ.V.Stalinin rəhbərliyi ilə Ali Baş Komandanlıq Qərargahına çevrildi. İyunun 22-də saat $7^{15}$ dəqiqədə Baş Hərbi Şura sovet qoşunlarına fəal hərbi əməliyyatlarına başlamaq haqqında direktiv verdi. Cəbhə qərargahları bu direktivi aldıqda artıq Sovet qoşunlarının ön hissələri müdafiə döyüşləri aparıdı, tank və mexanikləşdirilmiş birliklər cəbhə xəttindən uzaq mövqe tutduqları üçün düşmənə təcili zərbə vurmaq imkanlarından məhrum idilər. İşğalçıların ilk zərbəsini yüngül silahlar və pulemyotlarla silahlanmış sərhədçilər üzərinə götürmüşdü. Cəbhədə vəziyyət ağır olaraq qalırdı, sovet ordusu geri çəkilirdi. İyunun 24-də Vilnüs, 28-də Minsk, 30-da Lvov təslim oldu. İyulun 1-də düşmən Riqanı tutdu.

Müasir yerli və xarici tarixçilərin böyük əksəriyyəti belə hesab edir ki, Almaniyanın 1941-ci il iyunun 22-də SSRİ-yə hücumu faşist Almaniyasının avantürist və işğalçılıq siyasəti nəticəsində baş vermişdir. Bununla yanaşı, bir çox publisistlər əsassız olaraq təsdiq edirlər ki, SSRİ 1941-ci ilin yayında Almaniyaya inqilabi müharibə planlaşdırdığına görə A.Hitler qabaqlayıcı zərbə vurmağa məcbur olmuşdur. Bunu xüsusilə İngiltərəyə qaçan sabiq sovet rezidenti Vladimir Boqdanoviç Rezun (ləqəbi Viktor Suvorovdur) 1968-1981-ci illərdə çap etdirdiyi «Buzqıran» («Ledokol») və «Gün – M» («День – М»)

silsilə əsərində iddia edir. Müəllif belə iddia edir ki, Sovet İttifaqı 1939-cu ilin birinci günündən II Dünya müharibəsinin iştirakçısı, səbəbkarı və günahkarıdır. Tarixi fakt olan «Böyük Vətən müharibəsi»haqqında əfsanəni isə sovet kommunistləri uydurmuşlar. Əslində müəllifin bu iddiası yalan üzərində qurulmuşdur, çünki 1941-ci ilin yazından başlayaraq Qızıl Ordunun güclü düşmənlə hərbi münaqişəyə girmək üçün hazır olmadığına görə sovet rəhbərliyi özünü son dərəcə ehtiyatla aparırdı. Hitler Almaniyasının siyasi və hərbi rəhbərliyi isə Şərq cəbhəsində qələbə çalacaqlarına tam əmin olaraq belə hesab edirdilər ki, SSRİ-ni darmadağın etməklə Britaniya imperiyasına öldürücü zərbə vurmağa və bununla dünya ağalığına yol açmağa müvəffəq ola bilərlər.

Bütün çətinliklərə baxmayaraq, sovet qoşunları düşmənə ciddi müqavimət göstərirdilər. Sovet ordusu əsgərlərinin müqavimətinə baxmayaraq, almanların «Şimal» ordu qrupu iyulun 10-da Baltikyanı dövlətlərin böyük bir hissəsini işğal edərək, Leninqradın uzaq girişinə yaxınlaşdılar. «Mərkəz» qrupu iyulun 10-da iki ay dava edən Smolensk döyüşünə başladı. «Cənub» ordu qrupu iyulun 11-nə doğru Kiyevin 15-20 km-də olan İrpen çayına çıxdılar, sentyabrın axırlarına kimi davam edən Kiyevin müdafiə döyüşləri başladı.

Düşmənin saysız-hesabsız hücumları nəticəsində Belostok-Minsk rayonunda sovet ordusunun Qərb cəbhəsi və Minsk Hərbi Donanması 418 min nəfər əsgərini itirdi, 323 min nəfər isə almanlara əsir düşdü. Belorusiya strateji müdafiə əməliyyatının məğlubiyyətinin səbəbkarları cəbhə komandanı D.Pavlov, qərargah rəisi V.Klimovski, rabitə rəisi A.Qriqoryev və 4-cü ordunun komandanı A.Korobkov hesab edildi. Onların hamısı 1941-ci il iyulun 22-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının hökmü ilə güllələndi. 1942-ci ilin aprelinə kimi eyni ittihamlarla 30 general güllələnmişdir.

Müharibənin üç həftəsi ərzində Latviya, Litva, Belorusiya, Ukrayna və Moldaviyanın böyük hissəsi düşmənin əlinə keçdi. Alman qoşunları bu vaxt müddətində ölkənin içərilərinə doğru şimal-qərb istiqamətində 450-500, qərb istiqamətində 450-600, cənub-qərb istiqamətində 300-350 km irəliləyə bilmişdi. Düşmənin hücumu yalnız Smolensk rayonunda dayandırıldı, burada sovet qoşunları iyulun 16-dan avqustun 15-nə qədər müdafiə döyüşləri təşkil etdilər ki, onun sayəsində komandanlıq Moskva istiqamətində müdafiəni gücləndirmək məqsədilə ölkənin içərilərindən qoşunları çəkib gətirməyə müvəffəq oldu. Mərkəz istiqamətində vəziyyətin bu şəkildə dəyişməsinin bir səbəbi də Hitlerin bütün qüvvələri sovet paytaxtı üzərinə yeritməmək qərarı idi. Avqustun 23-də fürer öz ordusundan tələb etdi ki, təkcə Moskvanı almaq deyil, Ukrayna və Qafqazın iqtisadi ehtiyatlarına da sahib olmaq lazımdır.

Bu gün nəşr edilən əsərlərin böyük əksəriyyətində 60-cı illərdə A.Nekriçin yazdığı «Güllələnən Qızıl Ordu» əsərində səslənən belə bir fikirlə razıdırlar

ki, 1941-ci ildə SSRİ-nin müharibədə hərbi məğlubiyyətinin əsas məsuliyyəti partiya rəhbərliyinin, birinci növbədə isə İ.Stalinin üzərinə düşür. İ.Stalin belə hesab edirdi ki, Sovet İttifaqı heç vaxt öz ərazisində döyüş əməliyyatları aparmayacağına görə hücum müharibəsinə hazırlaşmaq vacibdir. Belə ki, həm də SSRİ-yə qarşı hər hansı bir təcavüz Qərb ölkələri proletariatının ümumi üsyanı ilə dayandırılacaq. Odur ki hücum müharibəsi taktikasına uyğun olaraq 1939-cu ildəki köhnə «Stalin xətti» adlanan sərhəd ləğv edilərək ölkənin içərilərinə doğru ordunun çəkilməsinə səbəb oldu. Bu isə alman qoşunlarını çox sürətlə ölkənin içərilərinə irəliləməsinə şərait yaratdı. İ.Stalinin müharibənin başlaması ilə bağlı yanlış hesablamalarından biri də ondan ibarət idi ki, 1941-ci ilin əvvəllərindən faşist Almaniyasının SSRİ-yə hücum edəcəyi haqqında çoxsaylı məlumatları ciddi qəbul etməmişdi. Misal üçün, iyunun 6-da Baş Qərargah 120 alman diviziyasının Qərb sərhədlərində yerləşdirilməsi barədə, yanvardan iyuna qədər SSRİ hava məkanının alman təyyarələri tərəfindən 150 dəfədən çox pozulmasına dair məlumatlar Stalinə çatdırılmışdır. Gizli kəşfiyyatçı R.Zorge mayın 15-də Tokiodan müharibənin iyunun 22-də başlamasına dair sovet rəhbərliyinə məlumat ötürmüşdür. Aprelin 13-də Çörçill diplomatik kanal vasitəsilə Almaniyanın hücumu haqqında Stalinə xəbərdarlıq etmişdi. Bütün bunlara baxmayaraq, Stalin belə məlumatları ingilislərin «təxribatı» hesab edərək düşünürdü ki, onlar bununla ikinci cəbhənin açılmasını təmin edərək müharibədə İngiltərənin vəziyyətini yüngülləşdirməyə səy göstərirlər. Hətta Ali Hərbi rəhbərliyin təkid etməsinə baxmayaraq, son ana kimi Stalin qoşunların hərbi döyüş vəziyyətinə gətirilməsi və səfərbərlik elan edilməsi haqqında əmr verməkdən imtina etmişdi. Həmçinin cəbhəyanı körpülər belə minalanmamış olaraq qalırdı. Almanlar hücuma başladıqdan bir neçə saat ərzində cəbhəyanı hərbi hissələr öz müraciətlərinə cavab ala bilmirdilər. Yalnız təcavüzün başlanmasından 4 saat sonra Xalq Müdafiə Komissarlığı tələb olunan əmri verdi.

Alman faşist qoşunlarının qəflətən hücum etməsi, sovet dövlət və partiya rəhbərliyinin başda İ.Stalin olmaqla, ordunu döyüş hazırlığı vəziyyətinə gətirməməsi düşmənin sürətlə ölkənin içərilərinə doğru irəliləməsinin başlıca səbəblərindən biridir. Üç cəbhə – Qərb, Şimali-Qərb və Cənub-Qərb ordularının əsas qüvvələrinin faciəvi məğlubiyyəti göstərdi ki, sovet ordusu qərargahdan tutmuş sıravi əsgərinə kimi müharibəyə hazır deyildir. Say tərkibinin artmasına baxmayaraq, sovet ordusu keyfiyyət hazırlığına görə düşməndən geri qalırdı, piyadaların hərbi hazırlığına əsas diqqət verildiyi üçün zirehli tank qoşunlarının və aviasiyanın hazırlığına lazımi diqqət ayrılmamışdır və bu ordunun zərbə gücünü azaldırdı. Hərbi sənaye 1941-ci ilin sonuna qədər köhnəlmiş silahların kütləvi istehsalı ilə məşğul olurdu. Bütün «dünənki günün» silah növləri isə

müharibənin ilk vaxtlarından alman silahlarına uduzduqları üçün sovet ordusu uğursuzluğa düçar olurdu. Düzdür, gec də olsa, sovet ordu hissələri konstruktorlar S.V.İlyuşinin İl-2 zirehli hücumçu, V.M.Petlyakov və A.N.Tupolevin Pe-2, Tu-2 bombardumançı, A.S.Yakovlev və S.A.Lavoçkinin Yak-3 və La-7 qırıcı təyyarələri, orta T-34 və ağır KV tankları ilə təmin edilməyə başlandı. Sovet ordu hissələrinin yalnız 15%-i müasir təyyarələrlə, 25%-i isə müasir tanklarla təmin edilsə də, düşmən qüvvələri ilə müqayisədə çox az idi.

1941-ci ildə sovet qoşunlarının hərbi uğursuzluqlarının səbəblərindən biri də 1937-1938-ci illərdə ordunun komanda heyəti içərisində aparılan təmizləmə və repressiyalar idi. Repressiyalar nəticəsində fiziki cəhətdən məhv edilən hərbi komandirlərin yerinə təcrübəsi olmayan və ya həbs düşərgələrindən azad edilmiş mənəvi sarsıntı keçirən komandirlər təyin edilmişdi və onlar da ilk döyüşlərdə məğlubiyyətə düçar olurdular. Müharibənin əvvəllərində yalnız 10% komandirin ali təhsili var idi, onlardan 75%-i bir ildən də az bir müddətə öz vəzifələrinə təyin edilmişdilər.

Bütün bunların müqabilində alman qoşunlarının Avropada ikiillik müharibə təcrübəsi, zabitlərin isə müasir müharibə aparmaq səviyyəsi yüksək olduğu üçün onların qələbəsini təmin edən amillər hesab edilə bilər. Eyni zamanda Almaniya SSRİ ilə müqayisədə mühüm iqtisadi və hərbi-strateji üstünlük əldə etmişdi. Sovet İttifaqına zərbə vurmaq məqsədilə alman dövləti təkcə özünün deyil, müttəfiqlərinin, Avropanın asılı və işğal edilmiş ölkələrinin də ehtiyatlarını səfərbər etmişdir.

Müharibənin ilk vaxtlarındakı hərbi uğursuzluqlara baxmayaraq, ölkə əhalisinin faşist təcavüzünü dəf etmək məqsədilə səfərbər olunması başlandı. 1941-ci il iyunun 30-da qərar və göstərişləri qanun gücündə olan fövqəladə hakimiyyət orqanı olan Dövlət Müdafiə Komitəsi (DMK) yaradıldı. DMK-nın tərkibinə İ.V.Stalin, V.M.Molotov, K.Y.Voroşilov, G.M.Malenkov, L.P.Beriya daxil oldular. 1942-ci ilin fevralında DMK-nın tərkibinə A.İ.Mikoyan, N.A.Voznesenski, L.M.Kaqanoviç, 1944-cü ilin noyabrından Voroşilovu əvəz edən N.A.Bulqanin daxil edildi. Müharibə illərində DMK 10 mindən çox qərar qəbul edərək bütün dövlət idarə və müəssisələrinə rəhbərlik edirdi. Komitənin rəhbərliyi ilə qərargah 9 kampaniya, 51 strateji və 250 cəbhə əməliyyatını planlaşdırdı. DMK-nın sədri İ.V.Stalin 1941-ci il iyulun 3-də radio ilə xalqa müraciət edərək başlanmış müharibəni ümumxalq, Vətən müharibəsi kimi qiymətləndirdi. DMK bütün sosial-iqtisadi və hərbi ehtiyatları səfərbər etməklə ölkənin müdafiəsini təşkil etmək məqsədilə bir sıra tədbirlər gördü. Hərbi əməliyyatların davam etdiyi rayonlarda və cəbhəyanı ərazilərdə hərbi vəziyyət tətbiq olundu. Düşmən işğalı təhlükəsi olan ərazilərdəki adamlar və sənaye avadanlığı ölkənin Şərq rayonlarına köçürülməyə başlandı. İyunun

24-də yaradılan Köçürmə Şurasına əvvəlcə L.Kaqanoviç, sonra isə N.Şvernik başçılıq etməyə başladı. L.P.Beriyanın başçılıq etdiyi Daxili İşlər Xalq Komissarlığına kömək məqsədilə ölkənin strateji obyektlərini qorumaq və diversantlarla mübarizə üçün xüsusi qırıcı batalyonlar yaradıldı. 1941-ci ilin iyulunda Hərbi Komissarlar İnstitutu bərpa edildi.

Ölkəni vətənpərvərlik hərəkatının yüksəlişi bürüdü. Hücum edən düşmənə xalqın qəhrəmancasına müqaviməti kütləvi xarakter aldı. 1941-ci il iyunun 26-da kapitan N.F.Qastellonun heyəti alov bürümüş bombardmançı təyyarəni düşmənin maşın karvanı üzərinə yönəldərək taranla onları məhv etdi. Təqribən 73 gün döyüşkən Odessa düşmən hücumunu dəf etdi. 1941-ci ilin dekabr ayının əvvəlinə kimi Finlandiyada Xanko burnundakı Sovet Hərbi-Dəniz bazası müdafiəni qoruyub saxladı. Brest qalasının mərd müdafiəçiləri bir aydan çox düşmən qüvvələrinə müqavimət göstərərək bütün ölkədə qəhrəmanlıq simvoluna çevrildilər. SSRİ xalqlarının 30-da çox nümayəndəsini təmsil edən 3,5 min nəfər Brest qalasının müdafiəçiləri kapitan İ.N.Zubaçev və polk komissarı E.M.Fominin komandanlığı ilə düşmənin tank, artilleriya və aviasiya dəstəsi olan quru qoşunlarının hücumunun qarşısını alaraq, onların çoxlu itki verməsinə səbəb olmuşdur.

Adamlar könüllü olaraq cəbhəyə yollanmaq məqsədilə hərbi komissarlıqlara tələsirdilər. 1941-ci il iyulun 4-də DMK Xalq Yığma Qoşununun yaradılması haqqında qərar qəbul etdi. Tez bir zamanda yaşına və ya səhhətinə görə orduya çağrılmayan bir milyon nəfərə kimi insan Xalq Yığma Qoşunu sıralarına yazıldı. 40-a yaxın Xalq Yığma Qoşunu diviziyaları hərbi əməliyyatlarda iştirak etdi.

Bütün bu tədbirlərə baxmayaraq, alman ordusu Leninqrad, Smolensk-Moskva və Kiyev də daxil olmaqla üç istiqamətdə dayanmadan irəliləyirdi. Lakin sovet əsgərlərinin misilsiz gücü və itkisi hesabına üçüncü həftənin sonunda düşməni ləngitmək mümkün oldu. İyul ayında marşal S.Timoşenkonun komandanlığı altında Qərargahın ehtiyat qüvvələrindən yaradılan Qərb cəbhəsi Smolensk istiqamətində düşmənin qarşısını kəsdi və 1941-ci il iyulun 10-dan sentyabrın 10-na kimi Smolensk döyüşü başladı. Bu döyüşlərin gedişində Qızıl ordu hissələri iki dəfə iyulda Roqaçov, avqust-sentyabrda Yeln altında əks-hücuma keçib düşmən əsgərlərinə zərbə vurdu. Smolensk döyüşündə Orş altında ilk dəfə yeni reaktiv minaatan («katyuşa») tətbiq edildi. 1941-ci il iyulun 14-də birinci əlahiddə sınaq artilleriya döyüş bateriyasının kapitanı İ.A.Flerov ilk dəfə yeddi BM-13 «Katyuşa» qurğusundan düşmən üzərinə raket yağdırmışdır.

1941-ci il sentyabrın əvvəllərində G.K.Jukovun komandanlıq etdiyi ordu Yeln şəhəri çıxıntısında düşməni ağır məğlubiyyətə uğratdı. Bu qələbənin çox böyük mənəvi-psixoloji təsiri var idi. Böyük Vətən müharibəsi gedişində ilk dəfə olaraq Qızıl Ordu Vermaxtı ağır məğlubiyyətə düçar etmiş oldu.

Sovet İttifaqı marşalı Jukov Georgi Konstantinoviç (1896-1974) Kaluqa quberniyasında anadan olmuş, I Dünya müharibəsində kiçik zabit kimi iki dəfə Georgiyev xaçı ilə təltif edilmişdir. Vətəndaş müharibəsində eskadron komandiri olub. Böyük Vətən müharibəsinin ən parlaq və istedadlı sərkərdələrindən biri olan G.K.Jukov haqqında əsgərlər belə deyirdilər: «Jukov olan yerdə qələbə var». Strateji düşüncə qabiliyyəti, görkəmli təşkilatçılıq bacarığı, polad kimi möhkəm iradəsi və iti zəkası onun səciyyəvi xüsusiyyətləri idi. Böyük Vətən müharibəsində ali hərbi vəzifələr tutan sovet marşalı 1945-1946-cı illərdə Almaniyadakı sovet ordu qrupuna başçılıq etmiş, ölkənin quru qoşunlarının, hərbi dairələrin baş komandanı olmuşdur. 1955-1957-ci illərdə SSRİ-nin Müdafiə Naziri kimi vətənə xidmət göstərmişdir. G.K.Jukovun komandanlığı ilə Yeln çıxıntısında ilk böyük məğlubiyyətini alan düşmənin Smolensk döyüşü sayəsində strateji blistkriq hücum planı pozuldu.

Moskva istiqamətində hücumu dayandırmağa məcbur olan almanlar avqustun 25-30-da Dneprə çıxaraq, sağsahil Ukraynanı işğal etdi. Kiyevi müdaifə edən sovet ordu hissələrinin mühasiriyə düşmək təhlükəsi yarandı. G.K.Jukovun başçılıq etdiyi Baş Qərargah təklif etdi ki, sovet qoşunları Kiyevi tərk edib Dneprin arxa tərəfinə çəkilsinlər. Lakin siyasi məqsədlərlə İ.V.Stalin bu təkliflə razılaşmadı və G.Jukov vəzifədən uzaqlaşdırıldı və o ehtiyat cəbhənin komandanı təyin edildi. Marşal B.M.Şapoşnikov onun yerinə Baş Qərargah rəisi oldu. Ancaq sentyabrın 17-də İ.Stalin vəziyyətin çıxılmaz olduğunu görərək Cənub-Qərb cəbhəsinə Kiyevi tərk etməyə icazə verdi. Bu gecikmiş qərar idi. Sentyabrın 15-də general-polkovniki Q.Quderianın və E.Kleystin tank qrupları Kiyevin 200 km şərqindəki Loxvitsedə qarşı-qarşıya hərəkət edərək mühasirəni başa çatdırdılar. Mühasirəyə düşən Kiyev sentyabrın 19-da təslim oldu. 655 min sovet əsgər və zabiti əsir düşdü. Mühasirədən çıxmağa çalışan Cənub-Qərb cəbhəsinin komandanı M.P.Kirponos, cəbhə Hərbi Şurasının üzvü, Ukrayna KP MK-nın katibi M.A.Burmistenko, qərargah rəisi V.İ.Tupikov həlak oldular. Hücumu davam etdirən almanlar oktyabrın 24-də Belqorodu, noyabrın 2-də Kursku tutdular. Oktyabrın 25-də Xarkovu ələ keçirən işğalçılar Donbasın bir hissəsinə sahib oldular. Oktyabrın 16-da 73 gün şiddətli müqavimət göstərən Odessa düşmən arxasında qaldığı üçün təslim oldu. Şəhərin 100 mindən çox müdafəçisi və küllü miqdarda döyüş silah və sursatı Qara dəniz donanmasınıın gəmiləri ilə Krıma daşındı. Noyabrın 16-da Sovet qoşunları Kerçi tərk etməyə məcbur oldu. Oktyabrın 30-da 250 gün davam edən Sevastopolun qəhrəman müdafiəsi başladı.

Başqa cəbhələrdə də almanların hücumu davam edirdi. 1941-ci il sentyabrın axırlarında almanlar bütün Baltikyanı respublikaları və Belorusiyanı, Ukraynanın böyük hissəsini, RSFSR-in Pskov və Leninqrad vilayətlərini, Novqorod, Ka-

linin, Smolensk, Bryansk vilayətlərinin bir hissəsini işğal etmişdi. Avqust ayında faşist işğalçıları Leninqradın girəcəyinə çıxdılar. Avqustun 30-da şəhərin ölkə ilə dəmiryol əlaqəsi kəsildi. Sentyabrın 6-da Leninqrad şəhəri bombalanmağa başlandı. Sentyabrın 8-də almanlar Şlisselburqu tutaraq şəhəri qurudan mühasirəyə aldılar. 1941-ci il sentyabrın 12-də G.K.Jukov K.E.Voroşilovun yerinə Leninqrad cəbhəsinin komandanı təyin olundu. Dərinləşdirilmiş müdafiə yaradan yeni komandan intizamı sərtləşdirərək vəziyyəti sabitləşdirə bildi. Leninqradın ətrafındakı Pulkovo və Kolpino altında ciddi müqavimətlə üzləşən düşmən mühasirəyə keçdi. Bu zaman şəhərdə 2,5 mln. əhali var idi. Düşmən hücumu nəticəsində Leninqrad Svir, Volxov, Rauxial elektrik stansiyalarından, bombardman və yanğın sahəsində bir neçə min ton un və qənd saxlanan qədim Badayev anbarlarından məhrum oldu. Fəhlələr sutkada 250, qulluqçu, uşaq və himayədarlar 125, Leninqrad cəbhəsinin əsgərləri 500 qr çörək norması alırdılar. Yanacaq çatışmazlığı üzündən şəhər nəqliyyatı, su, kanalizasiya, istilik sistemi işləmir, evlərə elektrik enerjisi verilmirdi. Bütün bu ağır məhrumiyyətlərə baxmayaraq, şəhər döyüşməkdə davam edir, hərbi məhsul istehsal edərək Leninqrad cəbhəsini təmin edirdi. Düşmən mühasirəsində olan Leninqrada ərzaq Ladoqa gölü vasitəsilə, qışda isə buz üzərində salınmış «həyat yolu» ilə çatdırılırdı. Buz yolu 1942-ci ilin aprelinə qədər mövcud olmuşdur və bu yolla 262 419 ton ərzaq daşınmışdır. 1942-ci ilin yanvar-aprel aylarında həmin yolla 554186 nəfər adam təxliyə edilmişdir. Leninqradın qəhrəman müdafiəsi sovet adamlarının mərdlik simvoluna çevrildi. 1943-cü il yanvarın 18-də sovet qoşunlarının hücumu sayəsində Şlisselburq düşmən işğalından azad olundu, Ladoqa gölünün sağ sahili işğalçılardan təmizləndi, 900 gün davam edən mühasirədən sonra ölkə arasında 8-11 km enində cığır açıldı. Leninqradın mühasirəsinə 1944-cü il yanvarın 27-də son qoyuldu. Tarixçilərin son hesablamalarına görə, aclıq, xəstəlik, bombardman və başqa mühasirə üzündən Leninqradın bir milyona yaxın əhalisi qırılmışdı.

1941-ci ilin avqustunda Qərargah 225 №-li əmr imzaladı. Tələb olundu ki, «döyüş vaxtı fərqlənmə nişanlarını çıxaran və əsir düşənlər ən qatı fərarilər hesab olunsun, onların ailələri andı pozub və vətəni satanlar kimi həbsə məhkum edilsin». Fərarilər yerindəcə güllələnməli idi. Onların bilavasitə cəbhəyanı ərazilərdə ləğv edilməsi 1941-ci ilin iyulunda yaradılmış Daxili İşlər Xalq Komissarlığının xüsusi şöbəsinə həvalə edilmişdi. 1943-cü ilin aprelində DİK-in Xüsusi Şöbə İdarəsi ləğv olunaraq onun yerində V.S.Abakumovun başçılığı ilə «СМЕРШ» («Casuslara ölüm») Baş Əks-Kəşfiyyat İdarəsi yaradıldı.

## §2. Moskva döyüşü

1941-ci il sentyabrın 6-da A.Hitler əsasən tank birləşmələri və aviasiyanın gücü ilə Moskva üzərinə hücum haqqında yeni direktiv verdi. Hücum ərəfəsində almanların «Mərkəz» ordu qrupunda bir milyon nəfər adamı birləşdirən 77 diviziya, 14 mindən çox top və minaatan, 1700 tank, 950 təyyarə cəmləşmişdi. Qərb istiqamətindəki sovet qoşunlarının sərəncamında 770 tank, 364 təyyarə, 9150 top və minatan var idi. Almanların «Mərkəz» ordu qrupuna qarşı İ.S.Konev, S.M.Budyonnı və A.İ.Yeremenkonun komandanlığı altında Qərb, Ehtiyat və Bryansk cəbhələri dayanmışdı.

1941-ci il sentyabrın 30-da almanlar «Tayfun» adı altında Moskvanı tutmaq əməliyyatına başlayaraq müdafiəni yardılar, Vyazma və Bryansk rayonunda Qərb və Bryansk cəbhəsinin əsgərlərini mühasirəyə alıb məhv etdilər. Yüz minlərlə adam düşmənə əsir düşdü. Qərb və Ehtiyat cəbhələrinin sırada qalan hissələrindən, o cümlədən Qərargahın ehtiyat qüvvələrindən G.K.Jukovun komandanlığı ilə yeni Qərb, İ.S.Konevin komandanlığı ilə isə Kalinin cəbhələri təşkil olundu. Oktyabrın ortalarında cəbhə xətti Kalinin-Volokolam-Naro-Fomin-Serpuxov istiqamətindən keçirdi. Bu mövqeynin möhkəmləndirilməsi məqsədilə çoxu qadınlardan ibarət olan 450 min nəfər moskvalı səfərbər edildi. Oktyabrın 15-də DMK «SSRİ-nin mərkəzi Moskva şəhərinin köçürülməsi haqqında» qərar qəbul etdi ki, buna görə partiya və dövlət idarələrinin bir hissəsi, diplomatik korpusun hamısı Kuybışev (Samara) şəhərinə köçürülməli idi. İ.V.Stalin müşavirədə Moskva Hərbi Dairəsinin komandanı general-leytenant P.A.Artyomova əmr etdi ki, Sibirdən kömək gələnə kimi Moskvanın müdafiəsini gücləndirsin. 200 qatar, 80 min yük maşını şəhərdəki diplomatik və dövlət əmlakı Kuybışevə daşındı. Paytaxtın təhvil veriləcəyinə dair qorxulu şayiələr yayıldığı üçün minlərlə şəhər əhalisi onu tərk etməyə başladı. Oktyabrın 19-da DMK Moskva və onun ətraf rayonlarında mühasirə vəziyyəti haqqında qərar qəbul etdi. Gecə saat $24^{00}$-dan səhər saat 5-ə kimi şəhərdə adamların və nəqliyyatın hərəkəti qadağan olundu. İki ay davam edən bu vəziyyətdə qaydanı pozan 16 adam yerində, 357 nəfər hərbi tribunalın qərarı ilə güllələnmiş, 4741 nəfər müxtəlif müddətə həbs cəzası almışdır. Moskvanın və qərb istiqamətində 100-120 km hüdudlarının müdafiəsi G.K.Jukova tapşırıldı. V.Stalinin göstərişi ilə noyabr ayının 7-si, səhər saat 8-də Moskvada Qızıl Meydanda ənənəvi hərbi parad keçirildi, burada iştirak edən ordu hissələri birbaşa cəbhəyə yola düşdü. Noyabrın 15-16-da alman qoşunları Moskva üzərinə yenidən hücuma keçdi. Düşmən şimaldan Klin və Solneçnoqorsk, cənubdan Tula, Kaşira tərəfdən Moskvanın yanından keçmək istəyirdi. Qanlı döyüşlər gedirdi. Leninqrad şosesinin Dubosekovo adlanan hissəsində İ.V.Panfilovun 316-cı atıcı diviziyasının

28 döyüşçü-panfilovçusu kiçik siyasi rəhbər V.Q.Kloçkov başda olmaqla, öz həyatları bahasına düşmənin tank hücumunun qarşısını kəsdilər. M.Y.Katukovun birinci qvardiya tank briqadası kimi yenidən təşkil edilmiş dəstəsi düşmənin Tula istiqamətində hücumunun qarşısını aldı. Beləliklə, şərq tərəfdən alman qoşunları Moskvanı keçməyə müvəffəq olmadılar və «Tayfun» planı pozulmuş oldu. Buna baxmayaraq, dekabrın 2-3-də düşmən qüvvələri şimal-qərb istiqamətindən Kryukovo və Krasnaya Polyananı tutaraq, Moskvanın 25 km yaxınına qədər irəliləyə bildilər. Noyabrın 30-da alman kəşfiyyat batalyonunun motosikletçiləri paytaxtın şimali-qərbindən keçərək Kremlin 15 km-dəki Moskva-Volqa kanalı körpüsünə çıxdılar. Dekabrın 1-də düşmənin aviasiya desantçıları Kremlin 4 km-dəki Vorobyov dağına düşdülər. Dekabrın əvvəllərində düşmən Moskvanın girəcəyində tamamilə dayandırıldı. Alman əsgərləri yorulub əldən düşmüş, onların təchizatı pisləşmişdi. Qızıl Ordu Sibir və Uzaq Şərqdən texniki cəhətdən yaxşı təchiz edilmiş 750 min nəfərlik diviziyalarla möhkəmləndirildi. Bu qərar sovet kəşfiyyatının Yaponların hələlik SSRİ-yə qarşı deyil, Sakit Okeanda əməliyyatlarda iştirak etmək niyyətini Baş Qərargaha bildirdikdən sonra qəbul edilmişdi. Moskva altında əks-hücuma keçməyə hazırlaşan sovet ordusu, eyni zamanda Leninqradın cənub-şərqində və Krımda fəal döyüş əməliyyatları aparırdı ki, bu da Moskva altına əlavə qoşun göndərməyə imkan vermədi. Bununla bərabər, Vermaxtın qüvvələri 1941-ci ilin dekbarında Xarkov sənaye rayonunu və Donbasın bir hissəsini, demək olar ki, bütün Krımı tutaraq, Sevastopolu mühasirəyə aldılar.

Son illərdə nəşr edilən bir sıra əsərlərin müəllifləri belə hesab edir ki, Moskva altında əks-hücum əməliyyatı ərəfəsində Qızıl Ordu artıq canlı qüvvə və aviasiya cəhətdən düşməndən üstün idi, sovet tanklarının düşməninkindən az olması onların keyfiyyətcə düşməninkindən üstün olması hesabına önə çıxırdı. Dekabrın 5-də, gecə saat 3-də 30 dərəcə şaxtada Kalinin cəbhəsinin qoşunları İ.S.Konevin komandanlığı ilə düşmən üzərinə əks-hücuma keçərək Kalinin (Tver) şəhərini azad edib, Rjevə can atdılar. Dekabrın 6-da hücuma başlayan G.K.Jukovun komandanlıq etdiyi Qərb cəbhəsinin əsgərləri düşmən qüvvələrini ağır məğlubiyyətə uğradaraq, Ruze və Volokolamska doğru yönəldilər. S.Timoşenkonun komandanlıq etdiyi Cənub-Qərb cəbhəsinin ordu hissələri Kaluqaya doğru irəliləyirdi. Dekabr ayının ortalarına doğru hər üç cəbhənin əsgərlərinin birgə döyüş əməliyyatları nəticəsində düşmən qüvvələri Moskvanın şimalından 60 km, cənubdan isə 120 km uzağa qovuldu. Dekabrın 15-də Klin, 16-da Kalinin, 20-də Volokolamsk, 30 da Kaluqa alındı. Sovet əsgərlərinin qəhrəmanlığı bu döyüş əməliyyatlarında mühüm rol oynadı. Dəfələrlə onlar öz bədənləri ilə düşmənin atəş nöqtələrinə sipər çəkdilər. Qırmızı dənizçilər A.İ.Vaqanov və S.Sanin, serjant V.V.Vasilkovski, sıravilər

Y.N.Paderin və A.S.Şeşkov, kiçik leytenantlar A.E.Xalin və N.S.Şevlyakov belə qəhrəmanlıq nümunəsi göstərən əsgər və zabitlər idi. Hitlerin hücumu dayandırmaq haqqında qəti əmri olmasa da, Vermaxtın ordu hissələri işğal etdikləri hüdudlarda möhkəmlənə bilmədilər. Dekabrın sonuna doğru sovet qoşunları cəbhədə 100-250 km irəliləyə bilmişdi. 1942-ci ilin əvəllərində Leninqraddan başlayaraq Krıma qədər on sovet cəbhəsi hücuma qoşuldu. Aprelin axırlarına kimi əks-hücum əməliyyatlarının gedişində Qızıl Ordu hissələri 150-400 km məsafə qət edərək 60-dan çox şəhəri və 11 min başqa yaşayış məntəqəsini azad etdi.

Moskva altında qələbə alman ordusunun II Dünya müharibəsində birinci böyük məğlubiyyəti idi. Alman ordusunun məğlubedilməzliyi haqqındakı əfsanə puç oldu, Vermaxtın mənəvi gücü sarsıldı. Moskva məğlubiyyətindən sonra generallara bərk qəzəblənən Adolf Hitler dekabr-yanvar aylarında onlardan 35 nəfərini, o cümlədən Vermaxtın quru qoşunlarının Baş komandanı general-feldmarşal V.Brauxiçi, Bok, Leeb, Rundşted və Quderianı vəzifəsindən azad etdi. Moskva altındakı məğlubiyyətdən sonra Almaniya öz ordusunun döyüş qabiliyyətini bir daha tam olaraq bərpa edə bilmədi. Eyni zamanda sovet adamları inandı ki, Qızıl Ordu hitlerçiləri darmadağın etmək gücünə malikdir və bu, müharibənin qələbə ilə başa çatmasına onlarda inam hissini qəti olaraq gücləndirdi. Moskva altında almanların məğlubiyyətinin çox böyük beynəlxalq əhəmiyyəti var idi. Sovet ordusu 1939-1940-cı illərdə bir çox Avropa dövlətləri koalisiya qüvvələrinin, o cümlədən Fransa və İngiltərənin alman ordusuna qarşı edə bilmədiklərini etdi və onlara qarşı sipər oldu. Bundan sonra bütün dünya Sovet İttifaqına II Dünya müharibəsində almanlara qarşı həlledici qüvvə kimi baxmağa başladı. Moskva döyüşü Almaniya və onun müttəfiqlərinin işğal etdiyi ölkələrdə azadlıq və antifaşist hərəkatının artmasına səbəb oldu. «Barbarossa» planı tam uğursuzluğa düçar oldu. Yaponiya SSRİ-yə qarşı hazırladığı müharibə planı olan «Kantokuen»i 1942-ci ilin yazına qədər təxirə salmağa məcbur oldu.

## §3. Antihitler koalisiyasının yaranması. Cəbhədəki yeni uğursuzluqlar

Alman qoşunları SSRİ ərazisinə daxil olan kimi Böyük Britaniya və ABŞ-ın rəhbərləri işğalçılara qarşı mübarizədə Sovet İttifaqını müdafiə edəcəklərini elan etdilər. 1941-ci il iyulun 12-də Moskvada SSRİ və Böyük Britaniya Almaniyaya qarşı birgə hərəkət etmək haqqında saziş imzaladı. Tərəflər bir-birinə kömək etməyi və qarşı tərəflə separat saziş bağlamamağı öz üzər-

lərinə götürdülər. Avqustun 31-də Böyük Britaniyadan göndərilən ilk ittifaq hərbi yük karvanı Murmanska çatdı. Analoji saziş Çexoslovakiya və Polşanın mühacirətdə olan hökumətləri ilə iyulun 18 və 30-da imzalandı. Buna uyğun olaraq SSRİ ərazisində çexoslovak və polyak hərbi birlikləri yaradıldı.

Hitlerçilərin Sovet İttifaqına hücum etməsinin üçüncü günü ABŞ prezidenti F.Ruzvelt SSRİ-yə kömək etmək niyyətində olduğunu elan etdi. Müharibənin ilk həftələrində ABŞ-da belə hesab edirdilər ki, Qızıl Ordu almanlar qarşısında uzun müddət davam gətirə bilməz, odur ki SSRİ-yə kömək etməyin heç bir mənası yoxdur. Lakin 1941-ci ilin iyulunda ABŞ prezidentinin şəxsi nümayəndəsi Q.Qopkins Moskvaya səfər etdikdən sonra Qızıl Ordunun və sovet xalqının yüksək mənəvi əhvali-ruhiyyədə olduğunu təsbit edərək prezidentə bildirdi. 1941-ci ilin sentyabrında SSRİ Böyük Britaniya və ABŞ-ın avqust ayında qəbul etdikləri Atlantika xartiyasını müdafiə etdiyini bildirdi. Xartiya zorla ərazi dəyişikliyindən imtina edilməsini, xalqların müstəqillik və idarəetmə formasının seçilməsi hüququna hörmət göstərilməsini elan edirdi. 1941-ci il sentyabrın 29-dan oktyabrın 1-nə kimi Moskvada SSRİ, ABŞ və Böyük Britaniya nümayəndələrinin konfransı oldu. ABŞ və İngiltərə 1941-ci il oktyabrın 1-dən 1942-ci il iyunun 30-na kimi hər ay SSRİ-yə 400 təyyarə, 500 tank, 200 tank əleyhinə silah, hərbi material göndərməyi öz öhdələrinə götürdülər. Sovet tərəfi hərbi məhsul istehsalı üçün xammal verməyi vəd etdi. İlk dəfə olaraq sovet dövlətinə bir milyard həcmində faizsiz kredit təqdim olundu. 1941-ci il noyabrın 7-də ABŞ SSRİ-ni lend-liz üzrə kömək alan ölkələr sırasına daxil etdi. İngilis-amerikan yükü Murmans və Arxangelsk, o cümlədən Vladivostok və İran ərazisi vasitəsi ilə daşınırdı.

1941-ci il dekabrın 7-də Yaponiya müharibə elan etmədən Havay adalarında yerləşən amerikanın Perl-Xarbor hərbi-dəniz bazasına hücum etdi. Dekabrın 8-də ABŞ Yaponiyaya müharibə elan etdi. İngiltərə də Yaponiyaya müharibə elan etdi. Dekabrın 11-də Almaniya və İtaliya ABŞ-a müharibə elan etdi. Beləliklə, II Dünya müharibəsinin miqyası kəskin şəkildə genişləndi. 1942-ci il yanvarın 1-də Vaşinqtonda 26 dövlətin antifaşist koalisiyası, o cümlədən SSRİ, ABŞ, İngiltərə və Çin bəyannamə imzalayaraq hərbi və iqtisadi ehtiyatlarını faşist blokuna qarşı mübarizədə istifadə etməyi öz üzərlərinə götürdülər. Bu dövlətlər və sonradan onlara qoşulan 20-dən çox ölkə «Birləşmiş Millətlər» adlandırılmağa başlandı. 1942-ci il mayın 26-da müharibədə müttəfiqlik, müharibədən sonra əməkdaşlıq haqqında ingilis-sovet müqaviləsi, 1942-ci ilin iyununda SSRİ-yə lend-liz üzrəköməyi təsdiq edən sovet-amerikan sazişi imzalandı. SSRİ ilə onun Qərb müttəfiqləri olan İngiltərə və ABŞ-ın 1942-ci ildə Avropada ikinci cəbhəni açmaq istəməməsi müttəfiqlər arasında əsas problem olaraq qalırdı. U.Çörçill və F.Ruzveltin mövqeyi bun-

dan ibarət idi ki, iki nəhəng güc – SSRİ və Almaniya bir-biri ilə müharibədə öz güclərini tükətsinlər. İngiltərə və ABŞ isə dünya miqyasında aparıcı yer tutaraq onlara öz iradələrini qəbul etdirmək imkanı qazansınlar.

1942-ci il mayın 1-də qızıl əsgər və donanmaçıları bayram münasibətilə təbrik edən Stalin Qızıl Orduya əmr etdi ki, «ona nail olmaq lazımdır ki, 1942-ci il alman-faşist ordularının qəti şəkildə darmadağın edilməsi və sovet torpaqlarının azad olunması ili olsun». B.Şapoşnikov və G.Jukov təklif etdilər ki, hərbi sənaye yeni silah növlərinin mənimsənilməsində alman sənayesini ötüb keçənə qədərki dövrdə strateji müdafiəyə keçmək daha məqsədə uyğundur. Lakin hərbi sərkərdələrin bu təklifi qəbul edilmədi. Beləliklə, 1942-ci ilin yazında İ.Stalin cəbhədə yaranmış vəziyyətə düzgün qiymətləndirməyərək aprelin 8-də bir sıra cəbhə komandirlərinə hücuma keçmək haqqında göstəriş verib belə hesab edirdi ki, bununla Vermaxtı öz ehtiyatlarından istifadə edərək onu tükətməyə məcbur edib, 1942-ci ildə Almaniya üzərində qələbəni təmin edə bilər. Lakin alman ordularının gücünün tükənməsi hesabı əsassız idi və Baş Qərargahın, eyni zamanda müdafiə və hücum taktikası ağır nəticələrə səbəb oldu. 1942-ci ilin aprelindən oktyabrına qədər Qızıl Ordu bir sıra acı məğlubiyyətlərə düçar oldu. 1942-ci il mayın 8-də düşmən Krım cəbhəsindəki ordu hissələrinə ilk zərbəni vurdu. Nəticədə D.Kozlovun komandanlıq etdiyi, Hərbi Şuranın üzvü F.Samanin, Qərargah nümayəndəsi L.Mexlis olduğu Krım cəbhəsi darmadağın edildi. Mayın 15-də Kerç təslim oldu, çox sayda əsir və hərbi texnika düşmənin əlinə keçdi. 175 min nəfər əsgər və zabiti əsir düşən sovet ordusunun qalıqları Taman yarımadasına çəkildi. Bundan istifadə edən alman-rumın qoşunları fon Manşteynin komandanlığı altında Sevastopol üzərinə hücuma keçdi və iyulun 4-də 250 gün qəhrəmanlıqla müdafiə olunan şəhəri tutaraq Krıma tam hakim oldular. Səkkiz ay ərzində düşmənə mərdliklə müqavimət göstərən Sevastopol işğalçıların Qafqaza irəliləməsini ləngitdi.

1942-ci ilin mayında Şimal-Qərb və Volxov cəbhələrinin ordu hissələrinin hücum cəhdi uğursuz oldu. Volxov cəbhəsinin ikinci zərbə ordusu mühasirəyə düşdü, ordu komandiri A.A.Vlasov əsir alınaraq almanların tərəfinə keçdi. General-leytenant A.A.Vlasov Vinnitsk hərbi düşərgəsində olarkən rus «Anti-Stalin hərəkatı»na başçılıq etməyə razılıq verdi. 1945-ci ilin mayın 12-də sovet tərəfinə əsir düşərək sonradan edam edilmişdir. Cənub-Qərb istiqamətində sovet ordusunun baş komandan S.Timoşenko, Hərbi Şuranın üzvü N.Xruşşov, qərargah rəisi İ.Baqramyanın başçılığı ilə İ.Stalinin razılığına əsasən, Xarkov rayonunda qismən hücum əməliyyatına başladı. Ancaq onlar düşmənin cənub cinahdan əks-hücuma keçə biləcəyi imkanını nəzərə almamışdılar. Eyni zamanda Baş Qərargah rəisi B.Şapoşnikov da bu hücumun əleyhinə idi. Mayın 12-də hücuma keçən Cənub-Qərb cəbhəsinin qoşunları bir neçə gün ərzində

25-40 km irəliləyə bildilər. Lakin 1942-ci il mayın 17-də Kleystin qrupu gözlənilmədən hücuma keçərək müdafiəni yardı və gün ərzində 20 km irəliləyə bildi. Mayın 18-də Qərargahın ehtiyat qüvvələri ilə düşmənə əks-zərbə vurmaq cəhdi uğursuz oldu. Mayın 23-də hücum edən 6-cı alman ordusu bir neçə sovet ordusunu mühasirəyə aldı. Qızıl Ordu mayın 12-dən 29-na kimi Xarkov döyüşündə 267 min, o cümlədən 200 min əsgər və zabit əsir düşməklə canlı qüvvə, 143 min tüfəng, 9 min avtomat, 652 tank, 1,5 min top, 3,2 min minaatan, 58 min at itirdi. İyulun axırlarına doğru almanlar Donbas və Rostovu tutdular. Beləliklə, bir neçə həftə içində alman ordusu 400 km yaxın irəliləməyə nail oldu ki, bu da Sovet əsgərləri içərisində nizam-intizamın pozulmasına və çaxnaşmaya səbəb oldu. 1942-ci il iyulun 28-də İ.Stalin Müdafiə Komissarı kimi məşhur olan 227 saylı əmri imzaladı. Əmrdə ordudan «Bir addım da geri çəkilməmək!» tələb olunurdu. Bu əmrə əsasən, orta və böyük zabit və siyasi işçilər qorxaqlıq və s. səbəblərlə intizamı pozduqda cərimə batalyonlarına, sıravi döyüşçülər və kiçik zabitlər cərimə rotalarına göndərilirdi. Hər bir orduda mübarizə dəstələri təşkil edilərək səbatsız ordu hissələrinin arxalarında yerləşdirildi ki, təşvişə düşüb geri çəkilən qorxaq və hay-küyçüləri yerindəcə güllələsinlər. Bu əmr bir tərəfdən orduda dəmir intizamı təmin etdisə də, bəraəti olmayan itkilərə səbəb oldu, belə ki, hər cür geriçəkilmə qadağan edildiyi üçün hətta daha əlverişli mövqe tutmaq üçün də geri çəkilmək mümkün olmadığına görə bir çox ordu hissələri bu üzdən mühasirəyə düşüb məhv oldu.

Eyni zamanda qələbələrdən məst olan A.Hitler Moskva üzərinə hücum zamanı yol verdiyi səhvləri 12 iyul 45 saylı direktivi ilə təkrarlayaraq öz ordusunun iki hücum istiqamətini, bir tərəfdən Xəzər və Qafqaza, başqa bir tərəfdən isə Stalinqrada doğru hücumu müəyyən etdi. Alman komandanlığı belə hesab edirdi ki, Stalinqradı asanlıqla ələ keçirib, Volqa ilə Həştərxana kimi irəliləyə biləcəklər. Avqust ayında Kuban vasitəsilə Qafqaz istiqamətində hücuma keçən almanlar heç bir müqavimətə rast gəlmədən avqustun 5-də Stavropolu, 11-də Krasnodarı, 14-də Novorossiyski tutdular. Hücumu davam etdirən hitlerçilər Böyük Qafqaz sıra dağlarına çataraq öz svastikalı bayraqlarını Elbrusun zirvəsinə sancdılar. Onları yalnız Tuapsedən Qara dənizlə ələ keçirə bilmədikləri Orconikidze və Qroznıya kimi olan xətdə dayandırmaq mümkün oldu. Ordu arxasında yerləşdirilən və hər biri 200 nəfərdən ibarət olan dəstələr 1944-cü il oktyabrın 29-da ləğv edildi. Müharibə vaxtı hərbçilərin 1,24%-i cərimə batalyonlarından keçmişdi.

Hitler Almaniyasının «Cənub» ordu birləşməsinin «A» qrupuna Qara dəniz sahiliboyu Qafqaz istiqamətində hücum edib Bakının neft rayonlarını ələ keçirilməsi tapşırılmışdı. «B» ordu qrupu isə Stalinqradı tutaraq, Don hüdud-

larında müdafiə yaradaraq, sovet qoşunlarının əks-hücumunun qarşısını almaq vəzifəsini yerinə yetirməli idi. 1942-ci il avqustun 25-də F.Paulyusun komandanlığı altında 6-cı alman ordusu Stalinqradın qərb sərhədinə çıxaraq şəhəri şimaldan da mühasirəyə aldılar. Eyni zamanda 4-cü tank ordusu rumın ordu hissələri ilə birlikdə Stalinqrada cənub-qərbdən yaxınlaşdılar. 1942-ci il iyulun 12-də Cənub-Qərb cəbhəsinin əsasında Stalinqrad (komandanı A.Yeremenko), sentyabrın 28-də Don (komandanı K.Rokossovski) cəbhələri yaradıldı. Stalinqrad əhalisi Volqadan o biri tərəfə köçürülməyə başlandı. Şəhərdə əlavə müdafiə xətləri quruldu. İyulun 17-də Stalinqrad döyüşü başladı və noyabrın 18-nə kimi davam etdi ki, bu da müdafiə mərhələsini təşkil etdi. Sentyabrın 3-də düşmən Stalinqraddan şimalda Volqaya çıxdı. Sentyabrın 13-də döyüşlər artıq şəhərdə gedirdi. Oktyabrın əvvəllərində düşmən qüvvələri şəhərin böyük hissəsini ələ keçirmişdi. Düşmənin Mamayev kurqanı tutub şimalda traktor zavodunun ərazisinə daxil olmasına baxmayaraq, şəhərdə hər ev, hər mərtəbə uğrunda qanlı döyüşlər, o cümlədən əlbəyaxa döyüşlər gedirdi. Sentyabr-noyabr aylarındakı amansız küçə döyüşləri faşist işğalçılarının hücum gücünü, demək olar ki, tükətdi. Odur ki, alman komandanlığı öz qoşunlarını yeni kömək gələnə qədər müdafiəyə keçməyi əmr etdi. Stalinqrad (Volqoqrad) şəhərini V.İ.Çuykov, M.S.Şumilov, A.İ.Lopatinin orduları, A.İ.Rodimtsev, İ.İ.Lyudnikovun diviziyaları müdafiə edirdi. Müdafiə döyüşlərində 324 min nəfər sovet əsgər və zabiti həyatını itirdi.

Vasili Zaytsev və Pavlov Stalinqrad müdafiəsinin əfsanəvi qəhrəmanları olmuşdur. Snayperçi Zaytsev Stalinqrad döyüşündə 222 alman əsgər və zabitini, o cümlədən 11 nəfər alman nişançısını məhv etmişdir. Pavlov və onun dəstəsi şəhərin mərkəzində dördmərtəbəli binanı 58 gün düşmən məğlub edilənə kimi qorumuşdur ki, bu bina «Pavlovun evi» kimi məşhur olmuşdur.

1942-ci il avqust-sentyabr aylarında sovet qoşunları Şimali Qafqaz istiqamətində də fəal müdafiə döyüşləri aparırdılar. Avqustun 8-də Maykopu, 25-də isə Mozdoku tutan hitlerçilər bundan o tərəfə irəliləyə bilmədilər. «A» ordu qrupunun dağlı atıcı düşmən əsgərləri Tuapsenin yoxuşlarında dayandırıldı. Şimali Qafqazda ümumi döyüş mənzərəsi Stalinqrad döyüşünün başa çatmasına qədər dəyişmədi.

## §4. Müharibədə əsaslı dönüş. Stalinqrad altında qələbə

Sovet ordusunun dayanıqlığı və möhkəmliyi imkan yaratdı ki, növbəti dəfə vaxt qazanaraq ehtiyat qüvvələri səfərbər edib Stalinqradda hücum əməliyyatını hazırlayıb həyata keçirsinlər. 1942-ci ilin ikinci yarısından sovet

rəhbərliyi düşmən ordusu ilə müqayisədə daha üstün qüvvə yaratmağa müvəffəq oldu. Sənayenin hərbi rels üzərinə keçirilməsi hərbi silah buraxılışını artırdı. Bütün itkilərə baxmayaraq, Qızıl Ordunun sayı artaraq Vermaxt və müttəfiqlərinin 6,2 mln. əsgər və zabitinə qarşı 6,6 mln. oldu. Düşmənin 52 min topuna qarşı sovet ordusunun 78 min topu, 5 min tankına qarşı 7,3 min tank, 3,5 min təyyarəsinə qarşı 4,5 təyyarəsi var idi. Beləliklə, 1942-ci ilin noyabrına doğru vermaxtın qüvvələri yorulub əldən düşdükdə Qızıl Ordu əlavə yeni qüvvələrlə möhkəmləndirildi. Tank, təyyarə və artilleriya ilə müqayisədə sovet ordusu 1,3-1,5 dəfə üstün duruma gəldi. Sovet qoşunlarının tank parkı KV və T-34 tanklarından ibarət idi və bunlar keyfiyyətinə görə düşmən tanklarından üstün idi. Döyüşlərin gedişində Ali Baş Komandanlıq Qərargahı bilavasitə G.K.Jukov və A.M.Vasilevskinin rəhbərliyi ilə alman-faşist ordularını Stalinqrad altında mühasirəyə alıb məhv etmək planını hazırladı. Şərti adı «Uran» olan bu plana əsasən Cənub-Qərb (komandanı N.F.Vatutin, Don (komandani K.K.Rokossovski) və Stalinqrad (komandanı A.İ.Yeremenko) cəbhələrinin ordu hissələri əks-hücuma keçərək düşmənin əsas qüvvələrini mühasirəyə alıb məhv etməli idilər.

«Kiçik Saturun» («Малый Сатурн») adlanan Kotelnikov və Orta Don əməliyyatları ilə isə Stalinqrad altında mühasirəyə alınmış düşməni xilas etməyə cəhd göstərən ordu hissələrinin qabağı kəsilməli idi. Cənub-Qərb və Don cəbhəsinin sağ qanadının qoşunları 1942-ci il noyabrın 19-u saat $7^{30}$-da düşmən üzərinə əks-hücuma keçdilər. Noyabrın 20-də Stalinqrad cəbhəsinin qoşunları hücuma atıldılar. Noyabrın 23-də Cənub-Qərb və Stalinqrad cəbhəsinin qoşunları Kalaç və Sovetski rayonlarında mühasirəni qapatdılar. Düşmənin 330 min nəfərlik 6-cı döyüş və 4-cü tank orduları mühasirəyə alındı. Dekabrın 12-dən 19-na qədər alman ordu birləşmələri Kotelnikov rayonunda mühasirəni yarıb F.Pauliusun əsgərlərini və zabitlərin xilas etməyə çalışsa da, buna müvəffəq ola bilmədi. Sovet qoşunları hücuma keçərək dekabrın sonunda cəbhədə 200 km dərinliyə məsafədə yeni hüdudlarda möhkəmləndilər. Mühasirəyə düşənlərə havadan yardım etmək bir nəticə vermədiyi üçün onların vəziyyəti ümidsiz idi. Stalinqrad döyüşünün yekun mərhələsi «Mühasirə» («Кольцо») əməliyyatı oldu. Mühasirədə olan 22 diviziyanın əsgər və zabitləri aclıq, soyuq və sursat çatışmazlığı üzündə nəziyyət çəkirdilər. Lakin buna baxmayaraq, A.Hitler onlara təslim olmaq icazəsi vermədi. Təslim olmaq haqqında sovet təklifini qəbul etmədikdən sonra 1943-cü il yanvarın 10-da Don cəbhəsinin qoşunları hücuma keçərək ayın 26-da Volqa sahili boyu mühasirəni saxlayan V.Çuykovun 62-ci ordusu ilə Mamayev kurqanı rayonunda birləşdilər. General-feldmarşal F.Paulyusun ordusu iki qrupa bölündü, yanvarın 31-də cənub, fevralın 2-də şimal qrupu

təslim oldu. 1943-cü il yanvarın 10-dan fevralın 2-nə kimi hitlerçilər 147 min nəfər itirdilər, 91 min adam, o cümlədən 2,5 min zabit, başda feldmarşal Paulyus olmaqla 24 general əsir düşdü.

Stalinqrad ətrafında gedən döyüşlərdə azərbaycanlı gənc komandir Həzi Aslanovun 55-ci tank briqadası da düşmənə ağır zərbələr endirdi. Aslanovun tankçıları 40 km-dən artıq yol qət edib, Stalinqrad–Salsk dəmiryolunu tutaraq almanları Stalinqrad qruplaşmasının əsas magistralından məhrum etdilər. Kotelnikova yaxınlığında düşmənin bir batalyon piyada qoşunu, 30 tankı, 50 avtomobili sıradan çıxarıldı. Bu şücaətə görə podpolkovnik H.Aslanov Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü (22 dekabr 1942). 1944-cü ildə tank qoşunları general-mayoru adını alan 35 yaşlı sərkərdə müharibənin ilk günündən 1945-ci il yanvarın 24-nə qədər şərəfli döyüş yolu keçmiş, onun başçılıq etdiyi polk qvardiya adını qazanmış, alman feldmarşalı Manşteynin tank ordusunu darmadağın etmiş, döyüşlərin getdiyi yerdən çox uzaqda, xaincəsinə qətlə yetirilmişdi. 1944-cü ildə Belorusiya cəbhəsindəki şücaətinə görə H.Aslanov ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim edilsə də, SSRİ hərbi rəhbərliyində təmsil olunan general İ.Baqramyan təltifə maneçilik törətdiyi üçün bu adın yalnız 1991-ci ildə təqdimatı keçirildi.

Ümumən 1942-ci il noyabrın 19-dan 1943-cü il fevralın 2-dək düşmən 800 min nəfər canlı qüvvə, iki min tank və döyüş topu, 10 mindən çox top və minaatan, üç minə yaxın döyüş və nəqliyyat təyyarəsi itirdi. İki alman, iki rumın və bir italyan ordusu məhv edildi. 1942-ci il iyulun 17-dən 1943-cü il fevralın 2-nə kimi Qızıl Ordu 478 min nəfər canlı qüvvə, 0,5 mln. atıcı silah, dörd mindən çox tank, 15 min top və minaatan, üç min döyüş təyyarəsi itirdi.

Stalinqrad altında qələbənin çox böyük tarixi əhəmiyyəti var idi. Qızıl Ordunun Volqadan qərbə doğru hücumu alman komandanlığını məcbur etdi ki, öz qoşunlarını Şimali Qafqazdan çəkib-aparsın. Almanların Stalinqrad ətrafında məğlub edilməsi faşist koalisiyası arasında ciddi hərbi-siyasi böhrana səbəb oldu. İtalya, Rumıniya, Macarıstan cəbhədəki uğursuzluq və xalq kütlələrinin narazılığı ilə bağlı böyük çətinliklərlə üzləşdilər. Rumıniya və Macarıstan müharibədən çıxmaq haqqında Qərb dövlətləri ilə separat danışıqlara başladılar. Bu qələbə sahəsində Avropanın hitlerçilər tərəfindən işğal edilmiş ölkələrində müqavimət hərəkatı daha geniş vüsət aldı. SSRİ-nin işğal olunmuş ərazilərində isə partizan hərəkatı yeni yüksəlişə keçdi. Stalinqrad altında qələbə Böyük Vətən müharibəsində əsaslı dönüşün başlanğıcı oldu. Qızıl Ordu düşmənin əlindən strateji təşəbbüsü alaraq onu müharibənin sonuna kimi davam etdirdi.

Stalinqrad döyüşündəki xidmətlərinə görə 1943-cü ilin yanvarın 18-də G.K.Jukov, fevralın 16-da A.M.Vasilevski marşal rütbəsi aldılar. Martın 6-da İ.V.Stalin marşal rütbəsi aldı. Bu müharibə başlanandan verilən ilk ali hərbi rütbələr idi.

### §5. Partizan hərəkatı

İşğal altında olan ərazilərdə əhalinin böyük əksəriyyəti azad olmaq ümidini itirməyərək, düşmənə müxtəlif vasitələrlə müqavimət göstərirdilər. Əhalinin bir hissəsi işğalçıların tədbirlərini pozur, digərləri gizli təşkilatlara və partizan dəstələrinə qoşulurdular. Onların əsasını qabaqcadan hazırlanmış partiya və sovet işçiləri, mühasirədən çıxa bilməyən hərbi qulluqçular, cəbhə xətti arxasına atılmış kəşfiyyat-təxribatçı qruplar təşkil edirdi. Artıq 1941-ci ildə işğal edilmiş ərazilərdə 65,5 min nəfər partizan və gizli fəaliyyət göstərən kommunisti birləşdirən 18 gizli vilayət partiya komitəsi fəaliyyət göstərirdi. 1943-cü ilin payızında onların sayı 24-ə çatmışdır. Müharibə illərində partizanların sayı 2,8 mln. nəfər təşkil edirdi. Onlar Qızıl Ordunun köməkçi qüvvəsi kimi düşmənin 10%-ə kimi gücünü özünə cəlb etmişdi. Artıq Moskva altında döyüşlər vaxtı SSRİ-də iki min partizan və gizli qruplar fəaliyyət göstərirdi. Faşistlər tərəfindən işğal onunan ərazilərdə partizanlar kommunikasiya xətlərini xarab edir, alman ordusunun və hərbi idarəsinin arxa obyektlərinə hücum edir, satqınları cəzalandırır, adamların Almaniyaya göndərilməsinə mane olur, təxribatlar hazırlayırdılar. 1942-ci il mayın 30-da Ali Baş Komandanlıq Qərargahı nəzdində Belorusiya KP MK-nın katibi P.K.Ponomarenko başda olmaqla, partizan hərəkatının Mərkəzi Qərargahı təşkil edildi və 1944-cü ilin yanvarına kimi fəaliyyət göstərdi. Cəbhə hərbi şuralarının nəzdində də partizan qərargahları yaradıldı. 1942-ci ilin yayı və payızında partizan hərəkatına 13 min, müharibə müddətində isə 60 min mütəxəssis qoşulmuşdu. Bunlar kəşfiyyatçılar, rabitəçilər, partizan müharibəsi təşkilatçıları və s. ibarət idi. 1942-ci ildə partizan hərəkatı xüsusilə Bryanskin meşə rayonlarını, Smolensk, Oryol, Belorusiya, Ukraynanın meşə hissəsini və Krımı bürümüşdü. 1943-cü ilin payızında 200 min kilometrdən çox ərazi partizanların tam nəzarəti altında idi. Belorusiyada sayı 50 min nəfərdən ibarət olan 400 partizan dəstəsi fəaliyyət göstərirdi. Orş ətrafında K.S.Zaslonovun komandası altında partizan briqadası döyüşürdü.

1942-ci ilin payızında S.A.Kovpakın və A.N.Saburovun komandası altında üç min nəfər süvari partizan dəstəsinin reydləri şöhrət qazanmışdı. D.N.Medvedevin komandanlığı altında Oryol, Smolensk, Mogilyov, Rovensk, Lvov vilayətlərində, P.M.Maşerovun komandanlığı ilə Belorusiyada partizan dəstələri düşmənə ağır zərbə vuraraq, öz adlarını tarixin səhifələrinə həkk etdilər. Kursk döyüşü dövründə partizanlar «Rels müharibəsi» əməliyyatı təşkil edərək düşmənin 800-dən çox eşalonunu məhv etdilər. Yalnız 1943-cü ildə partizanlar 11 min qatarı qəzaya uğratmış, 900 dəmiryol, 5,5 min başqa körpülər partlatmışdır. «Rels müharibəsi»nin ardınca partizanlar 1943-cü il sentyabrın 19-dan oktyabrın axırına kimi kod adı «Konsert» olan əməliyyat həyata

keçirdilər. Bu əməliyyatda Belorusiya, Baltikyanı, Leninqrad və Kalinin vilayətlərinin 193 partizan dəstəsi iştirak edirdi. Cəbhəboyu uzunluğu 900 km, dərinliyi 400 km olan əməliyyat sovet ordusunun Smolensk və Qomel istiqamətində, Dnepr uğrunda hücumu ilə birbaşa əlaqədar idi. 1943-cü ildəki partizan əməliyyatları nəticəsində dəmiryolları ilə yük daşınması 35-40% azalmışdı və işğalçıların planına ağır zərbə vurmuşdu.

1941-ci ilin noyabr ayında işğalçılar əleyhinə gizli fəaliyyət göstərən Liza Çaykina, partizan qız Zoya Kosmodemyanskaya, gənc partizan Marat Kazeyin və d. cəsurluğu partizan hərəkatının parlaq səhifələridir. Bu hərəkatın xüsusi formalarından biri şəhərlərdəki gizli təşkilatlar idi. Onlar kəşfiyyat məlumatları toplayır, vərəqə və qəzetlər buraxır, təxribatlar törədirdilər. Belə qruplar Odessa, Sevastopol və digər işğal olunmuş şəhərlərdə fəaliyyət göstərirdi. Krasnodonda 1943-cü ilin fevralında Oleq Koşevoyun «Gənc qvardiya» («Молодая гвардия») gizli komsomol təşkilatının şöhrəti bütün ölkədə yayılmışdı. Vermaxt getdikcə daha çox hərbi qüvvələrini partizanlarla mübarizəyə ayırmağa məcbur olurdu. Bu isə onların partizanlarla daha amansız rəftar etməsinə gətirib çıxardı. Təkcə 1942-ci ilin mayında «Mərkəz» ordu qrupunun arxasında partizan hərəkatı ilə əlaqə şübhəsi sayəsində 80 min adam almanlar tərəfindən güllələnmişdir. Partizanlarla əlaqə saxlamaq üstündə alman faşistləri bütöv kənd əhalisini belə qurşuna düzmüşlər. 1943-cü ildə partizan hərəkatı özünün yüksək nöqtəsinə çatdı. 1944-cü ildə partizanlar Belorusiyanın və sağsahil Ukraynasının azad edilməsinə önəmli töhfə verdilər. Sovet İttifaqının işğal olunmuş əraziləri düşməndən azad edildikcə partizan dəstələri döyüşən ordu ilə birləşirdi. Sovet adamlarının düşmən arxasındakı mərd mübarizəsi Sovet İttifaqının Böyük Vətən müharibəsində qələbəsinin mühüm faktorlarından biridir.

### §6. Kursk döyüşü

1943-cü ilin fevralında Sovet ordusunun hücumu dayandırıldı. Təşəbbüsü ələ alan almanlar Donbas, Xarkov və Belqorodu tutdular. 1943-cü ilin aprelinə yaxın sovet-alman cəbhəsinin mərkəzində Kursk çıxıntısı əmələ gəldi, düşmənin Oryol və Belqorod qruplaşması sovet ordusu birliklərinin müdafiə cəbhəsini yarmaq təhlükəsi yaradırdılar. Əks-hücum müvəffəqiyyətlərindən ruhlanan alman Baş Qərargahı Orlov-Kursk çıxıntısına güclü zərbə endirməyi nəzərdə tutan «Sitadel» əməliyyat planını işləyib hazırladı. Alman ordusuna çoxlu yeni «tiqr» və «pantera» tankları, özüyeriyən «ferdinand» topları, «Fokke-Vulf-190A» qırıcı təyyarələri göndərildi. 1943-cü il iyulun əvvəlində Oryol-Kursk istiqamətində Hitler Almaniyasının 900 min nəfər canlı qoşunu, 2733 tank və özüyeriyən qur-

ğusu, 10 min top və minaatanı, 2050 təyyarəsi cəmləşmişdi. Qızıl Ordu sıralarında 1 mln. 336 min əsgər və zabit, 3444 tank və özüyeriyən qurğu, 19 100 top və minaatan, 2172 təyyarə var idi. Kursk döyüşü II Dünya müharibəsinin ən böyük döyüşlərindən biridir. 1942-ci ildən fərqli olaraq sovet komandanlığı düşmənin niyyətini başa düşərək, vaxtında dərin eşelonlaşdırılmış müdafiə yarada bilmişdi. Kursk əməliyyatına görkəmli sovet sərkərdələri-marşallar G.K.Jukov və A.M.Vasilevski, generallar N.F.Vatutin və K.K.Rokossovski komandanlıq edirdi. Müdafiədən hücuma keçməyi nəzərdə tutan sovet komandanlığı general İ.S.Konevin başçılığı ilə strateji ehtiyat qüvvələri yaratmışdı. Kursk çıxıntısının şimal tərəfini general K.Rokossovskinin komandanlıq etdiyi Mərkəzi cəbhə müdafiə edirdi.

Konstantin Konstantinoviç Rokossovski (1896-1968) Varşavada dünyaya gəlmiş, I Dünya müharibəsinin və Vətəndaş müharibəsinin iştirakçısı olmuşdur. Şərq cəbhəsində ağçerxlərə, Kolçaka və baron Ungernin dəstəsinə qarşı vuruşaraq iki dəfə yaralanmış və üç dəfə Qırmızı Bayraq ordeni ilə təltif edilmişdir. 1937-ci ilin avqustundan 1940-cı ilin martına kimi DİXK-nin istintaqı altında olmuş, işin dayandırılması ilə azad edilmişdir. Böyük Vətən müharibəsində onun komandanlığı altında ordu hissələri Smolensk, Stalinqrad, Kursk döyüşlərində, Belorusiya, Şərqi Prussiya, Şərqi-Pomeran və Berlin əməliyyatlarında uğurla iştirak etmişdir. Məhz K.Rokossovskinin təklifi ilə «Baqration» əməliyyatının gedişində eyni zamanda iki əsas qüvvə zərbəsi ilə çıxış edən sovet ordu hissələri düşməni əzmiş, sovet-alman cəbhəsində qüvvələr nisbətinin əsaslı surətdə dəyişilməsinə səbəb olmuşdur. O, 1944-cü ildə Sovet İttifaqı marşalı, 1944 və 1945-ci illərdə iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. 1949-cu ildən 1956-cı ilə kimi Polşanın milli müdafiə naziri olub. 1956-cı ildən SSRİ Müdafiə Nazirliyində rəhbər vəzifələrdə çalışıb. 1968-ci ildə «Əsgər vəzifəsi» xatirələr kitabını çap etdirib, 1997-ci ildə o, təkrar nəşr olunub.

1943-cü il iyulun 5-i səhər saat $5^{30}$-da 9-cu alman ordusunun zərbə qrupu, 4-cü və 6-cı tank orduları, «Kempf» əməliyyat qrupu hücuma keçdi. Nəzərdə tutulmuş hücuma bir saat qalmış sovet artilleriyası və təyyarələri düşməni yaylım atəşinə tutdu. Mərkəz cəbhəsi istiqamətində 6 gün müddətində hitlerçilər yalnız 6-12 km irəliləyə bildilər, iyulun 11-də çoxlu itki verən almanlar hücumu dayandırmağa məcbur oldular. N.Vatutinin komandanlıq etdiyi Voronej cəbhəsinin Belqorod-Kursk istiqamətində iyulun 5-də almanlar E.Manşteynin komandanlığı ilə 700 tankla hücuma keçdi. Oboyan və Koroç istiqamətindəki hücumda almanlar böyük çətinliklə 10-18 km irəlilədilər. İyulun 12-də Proxorovko rayonunda hər iki tərəfdən 1200 tank və özüyeriyən qurğunun iştirak etdiyi ən böyük tank vuruşması oldu. Tərəflər ağır itki verdi. İyulun 17-də sovet ordusunun cinahlardan əks-zərbə vura biləcəyini və iyulun 9-da Siciliyada ingilis-amerikan ordusunun hərbi əməliyyatlara başlamasını

nəzərə alaraq A.Hitler «Sitadel» əməliyyatının dayandırılmasına dair əmr imzaladı. 1943-cü il iyulun 12-dən avqustun 23-nə qədər Kursk döyüşünün ikinci mərhələsinin əks-hücum əməliyyatı keçirildi. «Kutuzov» hücum əməliyyatını M.Popovun komandanlığı altında Bryansk, K.Rokossovskinin komandanlığı altında Mərkəz və V.Sokolovskinin komandanlığı ilə Qərb cəbhəsi qüvvələrinin bir hissəsi iyulun 12-dən qərb istiqamətində düşməni darmadağın edərək 150 km irəlilədilər və avqustun 5-də Oryolu azad etdilər. Avqustun 3-də «Rumyantsev» Belqorod-Xarkov hücum əməliyyat başladı. Avqustun 5-də Belqorod azad edildi. Oryol və Belqorodun azad edilməsi şərəfinə Moskvada ilk dəfə toplardan 122 yaylım atəş açıldı. Avqustun 20-də hücuma keçən Sovet ordu hissələri ayın 23-də Xarkovu azad etdilər və bununla da Kursk döyüşü başa çatdı. 50 gün davam edən Kursk döyüşündə hər iki tərəfdən çox böyük canlı və texniki qüvvə iştirak edirdi. Belə ki, 4 mln. nəfər adamı birləşdirən 300 diviziyanın iştirak etdiyi bu əməliyyatda düşmən 30 seçmə diviziyasını, o cümlədən 7 tank diviziyasını itirdi. Almanlar 1300 tankından və 1000 təyyarəsindən məhrum oldu. Qızıl Ordu 254,4 min nəfər əsgər və zabit, 6 min tank, 1600 təyyarə itirdi. Faktlardan aydın olur ki, Kursk döyüşündə Qızıl Ordunun itkiləri düşməndən qat-qat çox idi. Hitlerçilərin Kursk çıxıntısına hücumunun boşa çıxması o demək idi ki, müharibədə strateji təşəbbüs tamamilə Qızıl Ordunun əlinə keçmişdir. Böyük Vətən müharibəsində Stalinqrad döyüşü ilə başlayan əsaslı dönüş Kursk döyüşündəki qələbə ilə başa çatmış oldu. Kursk döyüşü ilə əlaqədar olaraq Hitler komandanlığı Aralıq dənizi müharibə teatrından, Fransa və Niderlanddan çoxlu canl qüvvə və hərbi texnika çıxarmağa məcbur oldu ki, bunun nəticəsində müttəfiqlər İtaliyada əməliyyatları genişləndirə bildilər. Kursk altında məğlubiyyət faşist bloku ölkələrinə müharibədə qüvvələr nisbətinin Sovet İttifaqının xeyrinə əsaslı dönüş olduğunu göstərdi. Macarıstanın Qərblə separat sülh bağlamaq səyləri gücləndi. Almaniya ilə Finlandiya arasındakı münasibətlərdə böhran yarandı. Bütün dünya başa düşdü ki, SSRİ-nin müharibədə qələbəsi yalnız zaman məsələsidir.

1943-cü ilin avqust-sentyabr aylarında Qızıl Ordu solsahil Ukraynasına hücumu genişləndirərək Dnepr çayına çıxdı. Donbas və Krivoy Roqun kömür-metal mənbələrini, Ukraynanın məhsuldar torpaqlarını öz əlində saxlamağa çalışan alman komandanlığı bütün Şərq cəbhəsi boyu müdafiyə keçərək avqustun 11-də «Şərq səddi» strateji müdafiə hüdudunun qurulmasına dair əmr verdi. Narva-Pskov-Vitebsk-Orş-Soj çayı-Dneprin orta axını-Moloçnı çayını əhatə edən bu müdafiə xəttində əsas diqqət keçilməz təbii sərhədlərə malik olan Dnepr çayına yönəlmişdi. Almanlar Qızıl Ordunu «Şərq səddi»ndə dayandırmağı nəzərdə tutaraq belə hesab edirdilər ki, sovet ordusu nəhəng çay

səddi olan Dnepri keçə bilməz. Ali Baş Komandanlıq Qərargahı Donbası, solsahil Ukraynasını, Krımı azad edib, Dneprin keçilməsini planlaşdırdı. Sentyabrda hücuma keçən sovet qoşunları «Cənub» cəbhəsinin hissələrinə ağır zərbə vuraraq, düşmən müdafiəsini yardılar, Dneprin sağ sahilində qoşunlar Kiyev və Kremençuq-Dneprovsk döyüş meydanlarında möhkəmləndilər. Artıq sentyabrın axırlarında sovet ordu birlikləri Dneprin sağ sahilində 23 əməliyyat meydanı tutaraq onları genişləndirməyə başladılar. Dnepri birbaşa əldəqayırma vasitələrlə keçən sovet qoşunları böyük itki verdi. Bu isə almanlara möhkəmlənmək imkanı verməmək və İ.Stalinin Kiyevi noyabrın 7-də tutmaq tələbi ilə bağlı idi. Hitlerçilərin Moloçnı çayında və Dneprin aşağı axarlarında darmadağın edilməsi Tamanın azad edilməsinə, Kerçdə desant əməliyyatının keçirilməsinə şərait yaratdı. 1943-cü il avqust ayından dekabra qədər sovet ordusu «Cənub» ordu qrupu qüvvələrini məğlub edərək, qərbə doğru 200-400 km irəlilədilər. N.F.Vatutinin komandanlığı altında Birinci Ukrayna cəbhəsinin döyüşçüləri noyabrın 6-da Kiyevi azad etdilər ki, A.Hitler bunu bütün Ukraynanın itirilməsi kimi qiymətləndirdi. Yaz-yay kampaniyası zamanı 40 mindən çox yaşayış məntəqəsi, o cümlədən 162 şəhər düşmən işğalından təmizləndi. Kiyev, Xarkov, Bryansk, Smolensk, Novorossiysk, Donbas, Çerniqov, Poltava, Qomel, Dnepropetrovsk, Dneprodzerjinsk, Zaporojye, Taqanroq və s. yerlər buna misaldır. Düşmən tərəfindən işğal edilmiş ərazilərin yarıdan çoxu təmizlənmiş oldu.

1942-ci lin payızında qərb müttəfiqləri Şimali Afrikada fəallaşdılar. İngilislər feldmarşal B.Montqomerinin komandanlığı altında Əl-Ələmeyn altında döyüşdə qələbə çalaraq E.Rommelin komandanlığı altındakı alman-italyan qoşunlarının Misirdən qovulmasına səbəb oldu. Amerikan qoşunları D.Eyzanhauerin komandanlığı altında Əlcəzairə çıxaraq şərqə doğru hücum edib 1943-cü ilin mayında alman və italyan ordu hissələrini Tunisdə müasirəyə alıb təslim olmağa məcbur etdilər. 1943-cü ilin iyul-avqust aylarında ingilis-amerikan birlikləri Siciliya adasını tutdular. Bu B.Mussolininin devrilməsi və İtaliyanın müharibədən çıxması demək idi. Sentyabrn 3-də marşal P.Badolo başda olmaqla yeni italiyan hökuməti danışıqsız təslim olmaq aktını imzalayaraq müharibədən çıxdı və oktyabrın 13-də Almaniyaya müharibə elan etdi. İtaliyanın şimal və mərkəzi yerlərini tutan almanlar burada oyuncaq hakimiyyət quraraq onun başına A.Hitlerin əmri ilə desantçılar tərəfindən oğurlanaraq azad olunan Mussolinini gətirdilər. Sakit okeanda 1942-ci ildə ABŞ Midueydəki və Quadalkanal adasındakı dəniz döyüşlərini udaraq Sakit okeanın cənub və mərkəz hissəsində qəti əks-hücuma keçdi. F.Ruzvelt və U.Çörçill 1943-cü ildə Kvebekdəki konfransda belə qərara gəldilər ki, ikinci cəbhəni adı «Overlord» olan əməliyyat planını La-Manşı keçməklə 1944-cü il mayın 1-də həyata

keçirsinlər. 1943-cü il noyabrın 28-dən dekabrın 1-nə kimi Tehran konfransında İ.Stalin, F.Ruzvelt və U.Çörçill ilk dəfə görüşdülər. Konfransın əsas məsələsi ikinci cəbhənin açılması problemi idi ki, yekun sənədində «Overlord» əməliyyatının 1944-cü ilin may ayında baş tutacağı nəzərdə tutulurdu. Müttəfiqlər həmçinin Polşa məsələsini müzakirə edərək belə qərara gəldilər ki, Polşanın qərb sərhədləri Oder çayı boyunca müəyyən edilsin. Şərq sərhədləri isə Qərbi Ukrayna və Qərbi Belorusiyanın SSRİ-nin tərkibində qalması şərti daxilində həll edilsin. Konfransda Almaniyanın müharibədən sonrakı quruluşu məsələsi də müzakirə edildi. Müttəfiqlər Almaniyanın danışıqsız təslim olması haqqında yekdil qərar qəbul etdilər. Üç dövlətin elan etdiyi müharibədə faşist Almaniyasına qarşı birgə fəaliyyət və müharibədən sonrakı əməkdaşlıq haqqında Bəyannamə mühüm siyasi əhəmiyyət kəsb edirdi. Müttəfiqlər, eyni zamanda Baltik dənizində donmayan Köniqsberq (Kalininqrad) və Memel (Klaypeda) limanlarının SSRİ-yə verilməsi haqqında razılığa gəldilər.

Müharibənin gedişində əsaslı dönüşü təmin edən başlıca səbəblərdən biri 1942-ci ilə doğru ölkənin iqtisadiyyatını tamamilə hərbi relslər üzərinə keçirərək dinc dövr üçün nəzərdə tutulan məhsul istehsalının hesabına daha çox hərbi texnika və silahlar hazırlamaq oldu. Ölkənin sənaye ehtiyatının 1942-ci ilin yayında şərq rayonlarına köçürülməsinin ikinci mərhələsinin başa çatması ilə iqtisadi göstəricilər yüksəldi. Qızıl Ordu sıralarında 11 mln. nəfər adamın olması şəraitində sovet hökuməti 1942-ci ilin fevral ayında şəhər, noyabrda isə kənd əhalisin səfərbərliyə alaraq məcburi surətdə sənaye və tikintiyə göndərirdi. Bunun nəticəsində yalnız 1942-ci ildə üç milyon nəfər adam, o cümlədən 830 min nəfər məktəbləri yenicə bitirmiş oğlan və qız əmək cəbhələrinə göndərildi. Eyni zamanda, cəbhəyə gedən ixtisaslı fəhlələri əvəz etmək məqsədilə 1 milyon 800 min nəfər adam fabrik-zavod məktəblərinin (ФЗУ) tezləşdirilmiş kurslarında təhsilə cəlb olundu. Məhz fabrik-zavod məktəbləri və başqa peşə-texniki tədris müəssisələrinin fəaliyyəti sahəsində orduya səfərbər edilən ixtisaslı işçilərin yerini doldurmaq mümkün oldu. Müharibənin dörd ili ərzində işçi qüvvələrinin əməyi nəticəsində sənayedə əmək məhsuldarlığı 40% artdı. 1942-ci ilin sonundan başlayaraq SSRİ həm hərbi texnika buraxılışının miqdarına görə, həm də keyfiyyətinə nisbətən Almaniyanı xeyli üstələyirdi. Sovet hərbi sənaye müəssisələri ayda 2100 təyyarə, 2000 tank istehsal edir, hazırladıqları T-34 tankları, İL-2 qırıcı təyyarələri keyfiyyətinə görə alman maşınlarını xeyli qabaqlayırdılar. Təkcə 1943-cü ildə aviasiya sənayesi cəbhəyə 35 min təyyarə verdi ki, bu da 1942-ci ildəkindən üç dəfə artıq idi. Ölkənin şərqindəki üç iri zavod, yəni Uralmaş, Çelyabinskdə Kirov və 183 saylı zavod istehsal olunan tankların 2/3 hissəsini verirdi. 1943-cü ilin əvvəllərində cəbhəyə özüyeriyən yeni artilleriya qurğusu SAU-122-nin ilk partiyası göndərildi.

Qızıl Ordu silahlarının modernləşdirilməsi ilə yanaşı, onun strukturu da təkmilləşdi. Hücum döyüşlərində fəal iştirak etmək üçün atıcı qoşunlarda korpusların sayı artdı. Ali Baş Komandanlığın ehtiyatının tank əleyhinə məhvedici silahlarının miqdarı artdı, onun yarıb keçmə və zent artdiviziyaları yaradıldı. Hər bir cəbhənin tərkibində hava ordusu var idi. Mühəndis qoşunlarında, avtomobil, yol və hərbi-tibbi qulluq sahəsində keyfiyyət dəyişikliyi baş verdi. Komanda kadrları və döyüşçülərin şəxsi heyətinə tələbkarlıq artırıldı. 1942-ci ilin oktyabrında hərbi komissarlar qaydası ləğv edildi və Qızıl Orduda vahid rəislik bərqərar oldu.

Müttəfiqlərin lend-liz üzrə SSRİ-yə hərbi və iqtisadi köməyi də müharibədə əsaslı dönüşün təmin edilməsində əhəmiyyətli rol oynamışdır. Rəsmi sovet məlumatlarına əsasən müttəfiqlərin köməyi sovet hərbi istehsalının 4%-ni təşkil edirdi. Lakin Amerikan rəsmi məlumatları bu köməyin 11-12 milyard dollar miqdarında olduğunu iddia edirdi. Əsl həqiqət ondan ibarətdir ki, müttəfiqlər Sovet İttifaqına çoxlu miqdarda barıt, sursat, yanacaq, əlvan metal və polad lövhələr, dəzgah, ərzaq və s. göndərmişdir ki, bu yardım əsaslı dönüşün təmin edilməsinə və faşizm üzərində qələbədə əhəmiyyətli töhfə olmuşdur.

Hitlerçilər işğal etdikləri ərazilərdə «Şərq» («Ost») planına uyğun olaraq «yeni qaydalar» müəyyən etdilər. Hakimiyyət alman hərbi komendaturalarına keçdi. Eyni zamanda yerli satqınlardan ibarət «özünüidarələr» təşkil olundu. Şəhərlərdə burqomistr və starostalar təyin edildi. 18-45 arasındakı yaşlı əhali əmək mükəlləfiyyətli hesab edilirdi. İş vaxtı 14-16 saata çatırdı. Şəhərlərdə aclıq hökm sürürdü. Hətta fəhlələrə belə həftədə 800 qram çörək norması, yerdə qalan sakinlərə isə 200 qram çörək verilirdi. Bu isə Leninqrad mühasirəsində olan normadan da az idi.

1941-ci il iyulun 17-də A.Rozenberq Şərq işləri üzrə nazirliyə başçı təyin edildi ki, o da işğal zonalarını təcrübə meydanına çevirdi. Onun «Şərq siyasəti» nəzəriyyəsinə görə, sovet hakimiyyətin xalqdan ayırıb, siyasi və sosial cəhətdən narazı vətəndaşları, ilk növbədə, kəndliləri rejimə qarşı qaldırmaq lazımdır. «Şərq siyasəti»ndə xüsusilə yəhudi və kommunistlərin kütləvi surətdə məhv edilməsi nəzərdə tutulurdu. Xüsusilə Belorusiyanın və Ukraynanın bəzi rayonlarının çoxsaylı yəhudi əhalisi mütəmadi olaraq məhv edilirdi. Kiyev altında Babi-Yarda 50 min meyitin qalıqlarının aşkar edilməsi və ümumən 1 mln. 50 min sovet yəhudisinin məhvi bu siyasətin birbaşa nəticəsidir. Qızıl Ordunun əsir düşən siyasi komissarları və kommunistlər yerindəcə güllələnirdi. Ümumən müharibədə əsir düşən 5,7 mln. nəfər sovet əsgər və zabitinin 3,7 mln. nəfəri ya öldürülmüş, ya da dözülməz həyat və əmək şəraitinin qurbanı olmuşdur.

1941-ci ilin payızında almanlar ucuz işçi qüvvəsindən istifadə etmək məqsədi ilə işğal edilmiş ərazilərin əhalisin məcburi surətdə Almaniyaya

göndərməyə başladılar. Ümumən SSRİ-dən 4,9 mln. nəfər adam işləmək üçün zorla Almaniyaya göndərilmişdir. «Ostarbayterlər» adlanan bu adamlar gündə 10 saat olmaqla ən ağır işlərdə yarımac vəziyyətdə çalışırdılar. Onların heç bir hüququ yox idi, döyülür və ələ salınırdılar. Almaniyaya getməmək üçün yerli əhalinin çoxu partizanlara qoşulurdu.

A.Rozenberqin «Şərq siyasətində» əsas yerlərdən birini də SSRİ əhalisinin etnik cəhətdən parçalanması tuturdu. Belə ki, Baltikyanı xalqlar alman mədəniyyətinə yaxın olduğu üçün alman yaşam tərzinə qovuşmalı idilər. Onlar müharibə vaxtı imtiyazlı vəziyyətdə olaraq hətta alman yönümlü milli hökumətləri belə yaratmışdılar. Qafqazda isə almanları müstəmləkəçilik məsələləri deyil, yalnız neft ehtiyatları maraqlandırırdı. Onlar Qafqaza İraq və İranın neft rayonlarını ələ keçirmək üçün məsafələrarası dayanacaq meydanı kimi baxırdılar. Qızıl Ordu çəkildikdən sonra üç dağlı müsəlman xalqı qaraçaylılar, kabardin və balkarlar antisovet üsyanına qalxdıqları üçün alman komandanlığı onlara dini, siyasi və iqtisadi muxtariyyəti əhatə edən yerli komitələr yaratmağa icazə verdi. Krım tatarları 1942-ci ildə Simferopolda Mərkəzi Müsəlman Komitəsini yaratdılar. Ancaq almanlar pantürkizm hərəkatının dirçəlişindən ehtiyat edərək Krım tatarlarına muxtariyyət vermədilər.

A.Hitlerə görə SSRİ-yə hücum etmək yalnız hərbi əməliyyat demək deyildir. Məqsəd həm də şərqdə almanlar üçün vacib olan müstəmləkələr ələ keçirmək idi. Məhz buna görə A.Hitler bolşevizmin yəhudi təbiətinə və ümumən bütün slavyan xalqlarına dərin nifrət bəsləyirdi. Hitlerə görə tarixən Almaniya ilə Rusiya arasında olan münaqişələr Rusiyanı almanlar üçün daimi təhlükə mənbəyinə çevirir. Başqa bir tərəfdən fürer belə hesab edirdi ki, slavyan irqinin mükəmməl olmaması Rusiyanın hər hansı bir siyasi xarakterli quruluşunu məhv etməyi zəruri edir, çünki qulların dövləti olmur. Ukraynanı isə Almaniyanın iqtisadi maraqlarına cavab verən əsas yerlərdən biri hesab edən A.Hitler burada milli oyunlara aludə olmaq fikrindən uzaq idi. Gələcəkdə bu əraziləri almanlaşdırmağı planlaşdıran Vermaxt yerli slavyanlara qarşı, xüsusilə milliyyətçilik təbliğatı aparan ziyalılara qarşı sərt tədbirlər görürdü. Bütün bunlar isə işğal altında olan ərazilərdə artıq 1942-ci ilə doğru almanların öz etibarlarını itirməsinə səbəb oldu. Təbii olaraq faşistlərin SSRİ xalqlarını, xüsusilə slavyanları parçalayıb qula çevirmək siyasəti işğalçılara qarşı müqaviməti artıraraq əsaslı dönüşün təmin edilməsinə yardım etdi və hitlerçilərin «Şərq siyasəti» iflasa uğradı.

## §7. 1944-cü ilin əvvəlində sovet-alman cəbhəsində vəziyyət

Böyük Vətən müharibəsinin üçüncü dövrü SSRİ və Şərqi Avropanın almanlar tərəfindən işğal edilmiş ərazilərinin azad edilməsi, Hitler Almaniyası üzərində qəti qələbəni əhatə etməklə 1944-cü ilin əvvəlindən 1945-ci il mayın 9-na kimi davam etmişdir. Şərq cəbhəsini möhkəmlətmək məqsədi ilə alman komandanlığı Qərb cəbhəsindən 1943-cü ilin sonlarında 75 diviziyanı, çoxlu sayda hərbi texnika və maddi-texniki vasitələri Şərq cəbhəsinə göndərdi. Beləliklə, sovet-alman cəbhəsində düşmənin 4 mln. 906 min canlı qüvvəsi, 54 570 top və minaatanı, 5400 tank və hücum topu, 3073 təyyarəsi cəmləşmiş oldu. 1944-cü ilin əvvəllində Qızıl Ordunun 6 mln. 736 min canlı qüvvəsi, 97 690 top və minaatanı, 5628 tank və özüyeriyən artilleriya qurğusu, 8818 döyüş təyyarəsi var idi. Faktlar təsdiq edir ki, Qızıl Ordu canlı qüvvə və texnika cəhətdən düşməndən çox üstün vəziyyətdə olmaqla bərabər, strateji təşəbbüs də ona məxsus idi. 1944-cü ildə işğalçı alman ordularına qarşı hücuma keçən Qızıl Ordunun hərbi əməliyyatları iki, qış-yaz və yay-payız mərhələlərindən ibarətdir. L.Qovorovun komandanlığı altında Leninqrad, K.Meretskovun komandanlığı altında Volxov və M.Popovun komandanlığı altında 2-ci Pribaltika cəbhələri 1944-cü ilin yanvar-fevral aylarında hücum edərək Leninqrad, Novqorod, Kalinin vilayətlərini tamamilə, Pskovun isə bir hissəsini işğalçılardan təmizlədilər. Yanvarın 27-də 900 gün davam edən Leninqradın mühasirəsi tam başa çatmış oldu. Yalnız 550 min nəfər əhalisi qalan Leninqradın bir milyon əhalisi mühasirə zamanı tələf olmuşdur ki, bunların da 2/3-si aclıqdan və s. səbəblərdən tükənərək ölənlər idi. N.Vatutinin komandanlığı ilə 1-ci Ukrayna cəbhələrinin qoşunları hücuma keçərək Korsun-Şevçenko altında 6 alman diviziyasını mühasirəyə alıb məhv etdilər. Bu, Stalinqraddan sonra alman işğalçılarının mühasirəyə alınıb məhv edildiyi ikinci böyük əməliyyat idi ki, bununda sayəsində fevral ayında Kiyevdən cənuba sağsahil Ukraynası düşməndən azad edildi. Dnestr və cənubi Buq çayına gedən yol açılmış oldu.

1944-cü ilin aprel-mayında general F.İ.Tolbuxinin komandanlığı altında 4-cü Ukrayna cəbhəsinin qoşunları hücum edib Odessa, Sevastopol və bütün Krımı azad etdilər. İyun-avqust aylarında sovet ordu hissələri Kareliyanı azad edərək Finlandiyanın sərhədlərinə çıxdılar. Finlandiya hərbi əməliyyatı dayandıraraq sentyabrın 4-də müharibədən çıxdı, sentyabrın 19-da isə Almaniyaya müharibə elan etdi. 1944-cü il iyun-avqust aylarında Belorusiyada kod adı «Baqration» olan döyüş əməliyyatların komandanları K.Rokossovski, G.Zaxarov, İ.Çernyaxovski olan 1-ci, 2-ci və 3-cü Belorusiya cəbhələrinin, 1-ci Pribaltika, Dnepr hərbi donanması, 1-ci Polşa Ordusu qüvvələri almanların «Mər-

kəz» və «Cənub» ordularına qarşı keçirdilər. Məhz Ali Baş Qərargah, G.Jukov və İ.Stalinin etirazına baxmayaraq, K.K.Rokossovskinin təklifi ilə, eyni zamanda iki baş zərbə ilə düşməni əsas zərbədən yayındıran sovet qoşunları «Mərkəz» cəbhəsinin əsas qüvvələrini əzərək Minskinin şərqində 100 mindən çox alman əsgər və zabitin mühasirəyə aldı ki, ondan da yalnız bir neçə yüz nəfər xilas ola bildi. İyunun 23-dən avqustun 29-na kimi davam edən «Baqration» əməliyyatı nəticəsində Vitebsk, Bobruysk və Minsk altında düşmənin 17 diviziyası, 3 briqadası tamamilə məhv edildi, 50 diviziya isə heyətinin yarısını itirdi (təqribən 500 min nəfərə yaxın), iyulun 3-də Minsk azad edildi. «Baqration» əməliyyatı nəticəsində Qızıl Ordu Belorusiyanı, Litvanın bir hissəsini, Polşanın şərq rayonlarını azad etdi və Vislaya çatdı. Sovet qoşunlarının düşmənə qarşı keçirdiyi hücum əməliyyatları sayəsində almanlara vurduğu güclü zərbələrin sayı artırdı. 1944-cü ilin iyul-avqustunda İ.Konevin komandanlığı altında 1-ci Ukrayna cəbhəsinin əsgərləri, S.A.Kovpakın, P.P.Verşiqorun partizan dəstələri Lvov-Sandomir əməliyyatında düşməni darmadağın edərək Qərbi Ukrayna və Polşanın cənub-şərq rayonların almanlardan azad etdilər. Avqustda R.Y.Malinovski və F.İ.Tolbuxinin komadanlığı ilə 2-ci və 3-cü Ukrayna cəbhələrinin orduları Moldaviyadakı düşmən müdafiəsini yararaq Kişinyov və Yassı rayonunda 22 alman-rumın diviziyasını məhv edərək Rumıniyanın mərkəzi rayonlarına çıxdılar. Bu əməliyyat nəticəsində Moldovanın cənub rayonları, Ukraynanın İzmailov (hazırda Odessanın tərkibində) vilayəti, Rumıniyanın böyük hissəsi azad olundu. Rumıniya və Bolqarıstan təslim oldu. 2-ci Ukrayna cəbhəsinin qoşunları Rumıniya torpaqlarının azad edilməsində əsas rol oynamışlar. Azərbaycan oğulları hərbi əməliyyatların uğurla başa çatmasında yaxından iştirak etmişdir. Belə ki, Rumıniyanın Markit şəhəri uğrunda gedən döyüşlərdə 27-ci ordunun qvardiya serjantı Gəray Lətif oğlu Əsədov öz bədəni ilə düşmənin atəş nöqtəsini susduraraq döyüşün qələbə ilə başa çatmasına səbəb olmuşdur. Öz həyatı bahasına uzaq Şərqi Avropa torpaqlarının faşist işğalçılarından təmizlənməsində misilsiz qəhrəmanlıq göstərən Gəray Əsədova 1945-ci il martın 24-də Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

1944-cü il iyul-sentyabr aylarında İ.X.Baqramyan, A.İ.Yeremenko və İ.İ.Maslennikovun komandanlığı ilə 1-ci, 2-ci və 3-cü Pribaltika cəbhələrinin, marşal L.A.Qovorovun komandanlığı altında Leninqrad cəbhəsinin orduları hücum edərək Pskov vilayətini, Estoniyanı, Litvanı tamamilə, Latviyanın böyük bir hissəsini işğalçılardan azad etdilər və Şərqi Prussiyanın sərhədlərinə daxil oldular. Hərbi döyüşlərin gedişində düşmənin «Şimal» ordusunun 26 birləşməsi darmadağın edildi, 38 diviziya Kurlyandiyada Tukumla Libava arasında sıxışdırıldı. Baltik donanması Baltik dənizində azad hərəkət etmək imkanı qazandı. Ordu generalı İ.Y.Petrovun komandanlığı ilə 4-cü Ukrayna

cəbhəsinin orduları oktyabrda Tissa ilə Dunay arasında hücuma keçərək, Debretsen əməliyyatı ilə Macarıstanın şərq rayonlarını hitlerçilərdən azad etdilər, Almaniya özünün son müttəfiqi Macarıstanın köməyindən məhrum oldu. 1944-cü ilin oktyabrında K.Meretskovun komandanlığı altında Kareliya cəbhəsi və Şimal donanması (vitse admiral A.Q.Qolovko) Petsamo-Kirkeness əməliyyatı nəticəsində hitlerçiləri qütb arxasındakı sovet ərazisindən və Norveçin şimal rayonlarından qovub çıxardı. Petsamo və Norveçin Kirkenes limanları azad oldu. Bu sayədə Almaniya Barents dənizinin limanlarından və metal mədənlərindən məhrum oldu. Beləliklə, 1944-cü ildəki hərbi əməliyyatlar nəticəsində SSRİ-nin Hitler Almaniyası tərəfindən 1941-ci ilin iyununda pozulan dövlət sərhədi Barentsdən tutmuş Qara dənizə kimi bərpa edildi və faşist işğalçıları ölkə ərazisidən qovuldu.

Bütün cəbhələrdə məğlubiyyətlə üzləşən alman rəhbərliyi A.A.Vlasovun başçılığı ilə kollaborasion «Rus Azadlıq Ordusu»nun (POA) yaradılmasına icazə verdi. Hərbi əsirlərdən ibarət 1 saylı diviziya (Vermaxtın 600-cü diviziyası), 2 saylı diviziya (Vermaxtın 610-cu diviziyası) təşkil edildi, 3 saylı diviziya isə təşkil edilmək ərəfəsində idi. RAO-nun ümumi sayı 50 min nəfərə çatırdı ki, onların da 5 min nəfəri hava qüvvələrindən ibarət idi. 1945-ci ilin martın 26-dan aprelin 13-nə kimi «Rus Azadlıq Ordusu»nun qüvvələri Sovet Ordusuna qarşı döyüşlərdə iştirak edərək məğlub oldular. Uğursuzluğa düçar olan diviziya Praqaya yürüş edərək oradakı almanlara qarşı xalqın başladığı üsyanda iştirak etməyə cəhd göstərdilər. 1945-ci ilin mayında Vena ilə Praqa arasında RAO-nun əsgərləri tərk-silah edildi, rəhbərliyi isə Moskvaya göndərildi. 1946-cı ildə A.A.Vlasov başda olmaqla 12 nəfər asıldı.

## §8. İşğaldan azad edlimiş ərazilərdə dövlət siyasəti. Arxa cəbhə

SSRİ-nin bir çox xalqları dövlət siyasətinin qurbanı olaraq deportasiyaya, yəni zorla öz yaşayış yerlərindən köçürülməyə məruz qaldılar. 40-cı illərdə «dövlət planına» əsasən məcburən köçürülənlərin sayı 3 011 108 nəfər təşkil edirdi. Bunların arasında bütövlükdə inquş, çeçen, alman, kalmık, balkar kimi xalqlar var idi. Əlavə olaraq, 215 242 nəfər müxtəlif xalqların nümayəndələri müstəqil olaraq köçürülmə yerlərinə xüsusi eşalonlar olmadan gəlmişdilər. Beləliklə, köçürülənlərin sayı 3 226 340 nəfər idi. Məcburi köçürmədə əsas bəhanə işğal vaxtı bu xalqlara məxsus ayrı-ayrı adamların və ya qrupların satqınlığını cəzalandırmaq, mümkün olan satqınlığın qarşısını almaq üçün önləyici tədbir kimi müharibə aparan və aparması mümkün olan xaricdə yaşayan soydaşları ilə iş birliyinin qarşısını almaqdan ibarət idi. İ.Stalinin subyektiv

fikirlərinin məhsulu olan bütöv xalqları cəzalandırmaq təcrübəsi repressiyalarla müşayiət olunurdu. Hələ müharibə ərəfəsində koreyalılar və polyaklar deportatsiyaya məruz qaldılar. 1941-ci ilin avqustunda Volqaboyunda yaşayan almanlar guya Almaniyanın bir işarəsi ilə Volqaboyu rayonlarda təxribat və partlayış törətməyə hazırdılar damğası ilə yeni yaşayış yerlərinə köçürüldülər ki, onların da sayı 446 480 nəfərə çatırdı. Beləliklə, 1941-ci ilin payızında almanların Volqaboyu Muxtar Respublikası ləğv edildi. Leninqrad, Moskva, Qafqaz, Krım ərazisində yaşayan sovet almanları da köçürülməyə məruz qaldılar. Ümumən 1941-ci ilin sonu – 1942-ci ilin əvvəllərində 1 084 828 alman deportasiyaya uğramışdır. Almanlar və ailə üzvlərinə tətbiq edilən məhdudiyyətlər 1955-ci il dekabrn 13-də üzərlərindən götürülsə də, onlara yalnız 1974-cü ildə doğma yerlərə qayıtmaq icazəsi verildi. Almanlardan başqa, Volqaboyundan polyaklar da köçürüldü: 1942-ci ilin noyabrında Saratov vilayətindən Qazaxıstana 2014 nəfər, o cümlədən 318 uşaq köçürülmüşdür. 1944-cü il mayın 11-də Krım azad edildikdən sonra Dövlət Müdafiə Komitəsi hitlerçilərlə işbirliyi görən hərbi caniləri cəzalandırmaq yerinə bütün Krım tatarlarının Krımdan köçürülməsi haqqında qərar qəbul etdi. Krım Respublikasından 191 088 tatar zorla köçürüldü və bunun sayəsində Krımın əhalisi 379 min nəfərə qədər azalmış oldu. 1944-cü ildə Krımın boşaldılmış rayonlarına Ukrayna, RSFSR-in Voronej, Bryansk, Tambov, Kursk və Rostov vilayətlərindən əhali yerləşdirildi. 1945-ci il iyunun 30-da Krım MSSR RSFSR-in tərkibində Krım vilayətinə çevrildi, 1954-cü il fevralın 19-da Ukrayna SSR-in tərkibinə daxil oldu. 2014-cü ilin martın 18-də Krım Republikası Rusiya Federasiyasının tərkibinə keçdi.

1943-cü il dekabrın 27-də Kalmık MSSR ləğv edildi və 91 919 kalmık Qazaxıstana deportasiya edildi. 1957-ci il yanvarın 9-da kalmık xalqının dövlətçiliyi bərpa olundu. 1958-ci ilin iyulun 29-dək Kalmık Muxtar Vilayəti, sonra Kalmık MSSR yarandı. Elbrusu müdafiə edə bilməyərək hitlerçilərə verməkdə təqsirli bilinən balkarlar 1944-cü il martın 8-də iki saat ərzində deportasiya edildilər: 32 887 nəfər, o cümlədən 16 695 uşaq və qoca Qazaxıstana və Qırğızıstana sürgün edildi. Bundan əlavə, Böyük Vətən müharibəsi cəbhələrində bu xalqın döyüşən 15 min nümayəndəsi cəbhədən geri çağırılaraq sürgün yerlərinə göndərildi. 1944-cü il mayın 29-da Kabardin-Balkar MSSR Kabardin MSSR-ə çevrildi, balkarların yaşadığı torpaqlar isə Kabardin və Gürcüstan respublikalarının istifadəsinə verildi. 1943-cü il noyabrın 6-da balkarların qonşuları olan qaraçaylar ayrı-ayrı adam və qrupların faşistlərlə əməkdaşlıq etdiyinə, cinayət və satqınlıq təqsiri üzündən bütöv xalq, yəni 62 842 nəfər Qırğızıstan, Qazaxıstan, Tacikistan, İrkutsk vilayəti və uzaq Şimala sürgün edildilər. 1957-ci ilin yazı və yayında qaraçayların 90%-i müvafiq qərardan sonra öz yurdlarına – Qaraçay-Çərkəzə döndülər.

1944-cü ildə Çeçen-İnquş MSSR ləğv edildi, fevralın 23-də 500 min nəfər əhalinin yaşadığı muxtar respublikadan 310 630 çeçen və 81 100 inquş deportasiya edildi. Əməliyyata bilavasitə Şimali Qafqazda olan Xalq Komissarı L.P.Beriya başçılıq edirdi. Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Tacikistana köçürülənlərin sıralarına 1944-cü ilin fevralında Qızıl Ordu hissələrindən azad edilən bir neçə min nəfər çeçen və inquş əsgər və zabiti daxil oldu. Dağıstan MSSR-in şimal-qərb hissəsinin Auxov rayonunda yaşayan 30 min çeçen də sürgündən yaxa qurtara bilmədi. Çeçen və inquş xalqının dövlətçiliyi yalnız 1957-ci ildə bərpa edildi. 1944-cü il iyunun 2-də DMK-nın qərarı ilə Krımda yaşayan 15 040 yunan, 12 422 bolqar, 9621 erməni, həmçinin 1119 xarici vətəndaş, o ümlədən alman, italyan, rumın, yunan, türk və iranlı iki gün içərisində deportasiyaya məruz qaldı. 1944-cü il avqustun 31-də DMK 6279 saylı qərarı ilə Gürcüstandan Qazaxıstan, Qırğızıstan və Özbəkistana ahıska türkü, kürd və həmşidlərin zorla köçürülməsini təmin etdi. Bununla da 46 516 ahıska türkü, 8694 kürd, 1385 həmşid və 29 505 nəfər başqa millətin nümayəndəsi deportasiya olundu. Ermənistanın Türkiyə ilə sərhədində yaşayan kürdlərin bir hissəsi də Orta Asiyaya köçürüldü.

Cənubi Qafqazdan 100 min nəfərə yaxın türk və başqa xalqların nümayəndəsi öz ata-baba torpaqlarından didərgin salınmış 220 Məshəti kəndində yaşayanlar idi. Onlar cənubi Qazaxıstana, Orta Asiyanın Şimal rayonlarına, Kabardin MSSR-ə və Azərbaycana sürgün olundular.

1945-ci ilin sonuna olan məlumata əsasən, xüsusi köçürülmə yerlərində (спецпоселения) 2 342 500 nəfərdən ibarət 967 085 ailə var idi. Onların arasında «cəzalandırılan xalqların» ordudan geri çağırılan nümayəndələri 157 min nəfər (6,7%) təşkil edirdi. Bilavasitə İ.Stalinin və onun ətrafının təşəbbüsü ilə həyata keçirilən deportasiya siyasəti SSRİ-də yaşayan xalqların dostluğuna böyük ziyan vurmaqla yanaşı, bu rayonların təsərrüfatlarının tənəzzülünə də səbəb oldu. Böyük insani, mənəvi və siyasi itkilərə səbəb olan məcburi köçürmə və yaxud həqiqi adı sürgün olan Sovet dövlətinin bu siyasəti uzun illər SSRİ-də yaşayan xalqların taleyində acı izlər qoymuşdur. Bu ağrı-acıya məruz qalan xalqların böyük çoxluğu isə SSRİ-nin turk xalqları olmuşdur.

Müharibənin ilk 4 ayı ərzində Azərbaycan xalqının da sürgün edilməsinə iki dəfə cəhd edilmişdi. Hitler Bakını zəbt etməyi özünün əsas məqsədlərindən biri hesab edirdi. 1942-ci ilin avqustunda almanların Şimali Qafqaza çatması və Qroznı neft rayonunu işğal etməsi Bakı neftinin müharibənin gedişində əhəmiyyətini artırdı. İkinci Dünya müharibəsində Baltik dənizindən Qara dənizə qədər uzanan cəbhənin tələb etdiyi bütün benzinin 80 faizini, sürtkü yağlarının 90 faizini Azərbaycan təmin edirdi. Almanların planına görə, 1942-ci il sentyabrın 25-də Bakı zəbt edilməli idi. Qafqaza hücum zamanı

Hitler feldmarşal Manşteynə demişdi: «Biz mütləq Bakını tutmalıyıq. Əgər biz Bakı neftini ələ keçirməsək, müharibəni uduzacağıq». Bakı nefti həm xalqımızı mənfur deportasiya caynağından qurtardı, həm də SSRİ-nin faşizm üzərində qələbəsini təmin edən əsas amillərdən biri oldu.

1941-ci ildə SSRİ müharibəyə qədərki ərazisində yaşayan əhalisinin 46, istehsal etdiyi kömür və metalın yarısını, taxılın 40, şəkərin 80%-ni itirmişdi. «Hər şey cəbhə üçün, hər şey qələbə üçün!» şuarı altında çalışan ölkənin iqtisadiyyatı hərbi istehsalın yenidən qurulmasına cəlb olunmuşdur. Bu prosesdə adamların möhkəm iradəsi əsas rol oynayırdı. 1941-ci il iyunun 24-də yaradılan Köçürmə Şurası təkcə 1941-ci ildə ölkənin şərqinə 2,5 min müəssisə, çoxlu sayda mal-qara və başqa kolxoz əmlakı, elmi idarə və təhsil müəssisələri köçürdü. Cəbhəyanı rayonlardan 10 mln. nəfər əhali çıxarıldı, 1,5 mln. vaqondan bu məqsədlə istifadə edilmişdir. Köçürülən müəssisələr Volqaboyu, Qərbi Sibir, Qazaxıstan, Orta Asiya və əsasən Urala göndərildi. Yeni yerlərdə üç ayda quraşdırılan müəssisələr məhsul verməyə başladı, artıq 1942-ci ilin yazında hərbi məhsul istehsalı artmağa başladı. Çelyabinsk Traktor Zavodunda yeni köçürülmüş müəssisə əsasında tank sənayesinin mərkəzi yaradıldı. 1941-ci ilin iyulunda yenidən qurulan Köcürmə Şurasının işində N.M.Şvernik, A.N.Kosıgin, M.Q.Pervuxin, A.İ.Mikoyan, M.Z.Saburov və d. fəal iştirak etmişdir.

Müharibəyə getmiş kişiləri istehsalatda qadınlar, yeniyetmələr və təqaüdçülər əvəz etdi. Arxa cəbhədə fəhlələr 10-12 saat çalışır, hərbi dövrün qaydalarına uyğun olaraq yaşayırdılar. «Yalnız özün üçün deyil, cəbhəyə gedən yoldaşının yerinə də işlə!» şüarı bütün təsərrüfat sahələrini əhatə etdi. Arxa cəbhədə mərdliklə çalışan işçilər son dərəcə ağır şərtlər altında yaşayır və qidalanırdılar. Rəsmi məlumatlara görə kartofdan başqa bütün ərzaq növlərinin istehlakı 1,3-2,5 dəfə azalmışdır. Şəhərlərdə ərzaq vərəqə sistemi ilə paylanır və əhali yalnız çörəklə mütəmadi təmin olunur, yağ, qənd, yarma böyük fasilələrlə verilirdi. 1943-cü ildə fəhlələr gün ərzində 500-700 qram, qulluqçular 400 qram, uşaq və himayədarlar 300 qram çörək norması alırdılar. Kommersiya mağazalarında və bazarlarda normadan kənar ərzaq mallarının qiyməti 10-30 dəfə artıq idi. Özlərinin ağır məişət vəziyyətinə baxmayaraq, arxa cəbhənin əmək adamları cəbhəyə kömək etməyə çalışırdılar. Cəbhəyə ərzaq və isti paltar sovqatları göndərilirdi. Müdafiə Fonduna milyard rubllarla pul vəsaiti daxil olurdu. Kiçik Teatrın artistlərinin vəsaiti ilə döyüş təyyarələri eskadriliyası, Tambov və Çelyabinsk kolxozçularının vəsaiti ilə tank kolonnaları təşkil olunmuşdu. Saratovlu kolxozçu F.Qolovati təyyarə quraşdırmaya 100 min rubl pul keçirmişdi. Donorluq kütləvi hal almışdı.

Müharibə kənd təsərrüfatına ağır zərbə vurdu. Əkin sahələrinin və mal-qaranın yarısı işğalçıların əlinə keçdi. Demək olar ki, kəndin bütün əmək qabiliyyətli kişiləri, o cümlədən mexanizatorların çoxu müharibəyə səfərbər ol-

du. Traktorlar, avtomobillər, atlar cəbhənin ehtiyacları məqsədilə müsadirə edilmişdi. 1942-ci ildə taxıl yığımı müharibədən əvvəlki illə müqayisədə yalnız 31% təşkil edirdi. Kartof, ət, süd, pambıq istehsalı azalmışdı. Kənd təsərrüfatı işlərinin bütün ağırlığı qadınların, yeniyetmələrin və qocaların çiyinlərinə düşmüşdür. Müharibə illərində minimum əmək günü norması artırıldı. Kolxoz və sovxozların məhsulu praktik olaraq əvəzi ödənilmədən dövlətə təhvil verilirdi. Məcburi ödəmə həyətyanı sahələrə də tətbiq olunurdu. Kolxozçular kartoçka almırdılar. Kəndlilərin gərgin əməyi sayəsində ordunu ərzaq, hərbi sənayeni xammalla təmin etmək mümkün oldu. Ölkə ərazisinin faşistlərdən təmizlənməsi ilə bura məhdud texnika və toxum göndərilməyə başlandı. 1945-ci ildə işğaldan azad olmuş ərazilərin əkin sahəsi müharibədən əvvəlkinin 72%-nə, istehsal edilmiş məhsul isə yarısına çatdı.

1943-1945-ci illərdə iqtisadiyyatın inkişafı, xüsusilə hərbi məhsul buraxılışına görə SSRİ Almaniyanı ötüb keçdi. Sənaye istehsalının inkişafını təmin edən 7500 iri müəssisə işə salındı. 1943-cü ildə 30 min təyyarə, 24 min tank, 130 min artilleriya topu buraxıldı. Döyüş texnikası, atıcı tapança-pulemyotlar, yeni qırıcı «La-5», «Yak-9» təyyarələri, «ANT-42» cəbhə adı TB-7 olan ağır bombardmançı döyüş təyyarələri durmadan təkmilləşdirildi. Bu strateji bombardmançı təyyarələr dayanmadan Berlinə zərbə endirib geri qayıtmaq üstünlüyünə malik idi.

SSRİ-nin işğalçılardan azad edilən ərazilərində xalq təsərrüfatının bərpasına başlandı. 1943-cü il avqustun 21-də ÜİK(b)P MK və XKS «Alman işğalçılarından azad edilmiş rayonlarda təsərrüfatın təxirə salmadan bərpa edilməsi haqqında» qərar təsdiq etdi. Bu vəzifəni həyata keçirmək məqsədilə N.A.Voznesenski, A.İ.Mikoyan, A.A.Andreyev və başqa məsul işçilərdən ibarət XKŞ-nin nəzdində xüsusi Komitə təşkil edildi. İşğalçılardan azad olunmuş rayonlarda xalq təsərrüfatını bərpa etmək üçün dövlət 1942-1945-ci illərdə 39,5 mlrd. rubl məbləğində vəsait ayırmışdır. 1945-ci il mayın 26-da DMK «Silah istehsalının azaldılması ilə bağlı olaraq sənayenin yenidən qurulması tədbirlərinə dair» qərar qəbul etmişdir. Beləliklə, xalq təsərrüfatının dinc relsə keçməsi üçün növbəti addım atılmış oldu. 1944-cü illə müqayisədə 1945-ci ildə hərbi məhsul buraxılışı 31% aşağı düşdü.

Müharibə illərində ideologiya sahəsində vətənpərvərliyi və SSRİ-də yaşayan xalqlar arasında birliyi təbliğ etmək ön plana çıxdı. Slavyan və başqa xalqların qəhrəman keçmişinin təcəssümü başlandı. Sinfi, sosializm dəyərləri «vətən» və «vətənpərvərlik» anlayışları ilə əvəz olundu. Müharibə sovet hakimiyyəti ilə Rusiya Pravoslov Kilsəsini barışdırdı, 1941-ci il iyunun 22-də kilsə «vətənin müqəddəs hüdudlarını qorumaqda» xalqa xeyir-dua verdi. Mitropolit Sergey fiziki çatışmazlığına baxmayaraq, öz əli ilə yazıb yazı ma-

kinasında çap etdiyi müraciətində bütün pravoslav rus xalqını Vətənin müdafiəsinə çağıraraq vurğuladı ki, «Allah bizə qələbə bağışlayır». Sergeyin ardınca 1941-ci ilin iyulun 26-da Leninqrad yeparxiyasından mitropolit Aleksiy «Kilsə vətəni müdafiə etməyə çağırır» müraciəti ilə dindarlara səsləndi. SSRİ üzərindəki təhlükə, düşmən üzərində qələbə çalmaq məqsədilə xalqı birləşdirmək zərurəti və Rusiya Pravoslav Kilsəsinin vətənpərvər mövqeyi sovet hökumətini dini siyasəti dəyişməyə məcbur etdi. Ölkədə 30-cu illərdə bağlanmış məhəllə dini ibadət yerləri açılmağa başladı. Sağ qalan din xadimləri düşərgələrdən azad edilərək məbədlərdə ayinlərin icrasına başladılar. Mətbuatda din əleyhinə kampaniya dayandırıldı. «Mübariz Allahsızlar İttifaqı» qeyri-rəsmi olaraq fəaliyyətini dayandırdı.

Kilsə vətənpərvərlik fəaliyyətin davam etdirərək müharibə dövründə dövlət və orduya maddi yardım göstərilməsin təşkil etməyə başladı. Müharibə dövründə RPK müdafiə fonduna 300 mln. rubl pul vəsait keçirmişdi. Kilsənin topladığı vəsait hesabına hərbi birliklər yaradılmışdı. 1943-cü il sentyabrın 4-də Stalin mitropolitlər Sergey, Aleksini və Nikolayı Kremldə qəbul edərək patriarx seçmək üçün RPK yerarxiya məclisinin açılmasına icazə verdi. Sentyabrın 8-də faktiki olaraq bu vəzifəni 17 il yerinə yetirən mitropolit Sergey patriarx seçildi. 1944-cü ilin mayın 15-də onun ölümündən sonra 1945-ci il yanvarın 31-dən fevralın 2-nə kimi davam edən RPK yerli Məclisinin iclasında Aleksey (Sergey Vladimiroviç Simanski) Moskva və bütün Rusun on üçüncü patriarxı seçildi. Məclisin qəbul etdiyi RPK-nin idarə edilməsi haqqındakı Əsasnamə isə 1988-ci ilə kimi qüvvədə qalmışdır.

Müharibənin sonundan başlayaraq pravoslav dininə qarşı böyük ölçüdəki dözümlülüklə səciyyələnən sovet hakimiyyətinin yeni dini siyasəti bərqərar olmuşdur. 1944-cü ilin yanvarından noyabrına kimi ölkədə 200-dən çox kilsə açılmışdır. 1945-ci ilin avqustunda SSRİ ərazisində 10 547 kilsə və ibadət evi, 75 pravoslav monastırı fəaliyyət göstərirdi. Hökumət 1945-ci il avqustun 23-də şəhər və kəndlərdə kilsə zənglərinin çalınmasına icazə verdi. Bütün bunlar əhalinin dini əhvali-ruhiyyəsinə müsbət təsir etməklə bərabər, həm də dövlətin müharibə illərində kilsənin xidmətini qiymətləndirməsi anlamına gəlirdi.

Vətənə məhəbbət, düşmənə ölüm, qələbəyə inam, xalqın vətənpərvərliyi və qəhrəmanlığı ədəbiyyat və incəsənət əsərlərinin ana xəttini təşkil edirdi. Sovet xalqının faşizmlə ölüm-dirim mübarizəsi aparıcı mədəniyyət xadimlərinin yaradıcılığında dərin iz buraxdı. Rəssam İ.M.Toidzenin «Ana Vətən çağırır!» plakatı çox böyük emosional işıq şüası təsiri bağışladı. Adamlar nəfəslərini tutaraq Ümumittifaq radiosu vasitəsilə Y.B.Levitanın xüsusi bir ahənglə oxuduğu cəbhə məlumatlarını dinləyirdilər. Müharibə dövründə İ.Q.Erenburq «Qızıl ulduz» («Красная звезда») və cəbhə qəzetlərində iki minə yaxın

məqalə çap etdirmişdir. Bir çox ədəbiyyatçı hərbi müxbir kimi fəaliyyət göstərirdi. A.T.Tvardovskinin «Döyüşçü haqqında kitab» («Книга про бойца») əsərindəki cəsur Vasili Tyorkin surəti Böyük Vətən müharibəsi sıravi əsgərinin cəbhədəki qəhrəmanlığının bədii təcəssümünün ən yaxşı nümunəsi idi. Yazıçı V.S.Qrossmanın «Qırmızı Ulduz» («Красная Звезда») qəzetinin müxbiri kimi yazdığı «Stalinqrad oçerkləri» şəhərin qəhrəman müdafiəçilərinin həyatını tarix səhifələrinə həkk etdirdi. K.M.Simonovun lirikası görünməmiş şöhrət qazanmışdı. Onun «Gözlə məni» («Жди меня») şeiri bir and kimi xalq içərisində çox məşhurlaşmışdı. A.A.Surkov, A.A.Axmatova, O.F.Berqolts, M.V.İsakovski və başqaları xalqa öz poetik sözləri ilə müraciət etdilər. V. İ. Lebedev-Kumaçın sözləri əsasında A.V.Aleksandrovun musiqisini bəslədiyi «Müqəddəs müharibə» («Священная война») mahnısı bütün ölkədə şöhrət qazandı. D.Şostakoviç müharibə illərində yazdığı «Leninqrad simfoniyası» və mühasirədə olan Leninqradda ifa edilməsi əsl vətənpərvərlik nümunəsidir. Yüksək vətənpərvərlik pafosu ilə süslənən rejissor F.M.Ermlerin «O Vətəni müdafiə edir» («Она защищает Родину»), rejissor İ.A.Pıryevin «Raykom katibi» («Секретарь райкома») və digər kino filmləri çox məşhur idi.

Hərbi dövrün çətinliklərinə və bir çox elmi müəssisələrin ölkə içərilərinə köçürülməsinə baxmayaraq, sovet alimləri düşmən üzərində qələbədə öz töhfələrini əsirgəmədilər. Onlar tank sənayesi üçün vacib olan yeni metal növləri hazırlayır, radiodalğaları sahəsində tədqiqatlar apararaq vətən radiolokatorlarını daha da təkmilləşdirdilər. L.D.Landau sonradan Nobel mükafatına layiq görülən kvant mayesinin hərəkəti nəzəriyyəsini işləyib hazırladı. Aerodinamika sahəsində S.Çaplıgin, B.Yuryev, S.Xristianoviç, M.Keldışın tədqiqatları yeni qırıcı, hücumçu və bombardmançı təyyarə nümunələrinin yaranmasına səbəb oldu. İ.Bardinin rəhbərliyi ilə yeni növ metalın alınması və tank sənayesində tətbiqi ilə bağlı tədqiqatlar geniş miqyas almışdı. A.Aleksandrovun laboratoriyasında gəmilərin maqnit minalarından qorunması işi son dərəcə əhəmiyyətli idi. Bir qrup alim S.Vavilovun başçılığı ilə hərbi texnika üçün zəruri optik cihazları yaratdı. N.Semyonov, N.Javoronkov, Y.Zeldoviç, Y.Xariton partlayış nəzəriyyəsi, barıtın kimya və texnologiyası sahəsində mühüm nəticələr əldə etdilər. Professorlar P.Gertsen, A.Savitski odlu silah yarasının müalicəsi metodikasını işləyib hazırlayırdılar. N.Burdenkonun rəhbərliyi ilə bir qrup alim kəllənin sulfamid preparatları ilə müalicə olunması metodunu, A.Boqomolets sınmış sümüyün müalicəsi üçün dərmanların hazırlanması, V.Filatov öz kollektivi ilə kontuziya olmuş əsgərlərin görmə qabiliyyətinin bərpa edilməsi problemini həll etmişdir.

Ordunu dünyada ən qabaqcıl silah növləri və hərbi texnika ilə təmin etməkdə görkəmli alimlər İ.P.Bardin, A.İ.Berq, A.N.Kolmoqorov, M.A.Lavrentyev, E.O.Paton və b. böyük rol oynamışdır. M.T.Kalaşnikov 1942-ci ildə

birinci tapança-pulemyotun hazırlamışdır. O sonradan dünyada səs salmış AK-47 avtomat silahı ordunun xidmətinə vermişdir. İ.P.Yastrebov xüsusi poladdan elə əsgər kaskası (papaq) hazırlamışdı ki, onu 25 metr məsafədən güllə deşib keçə bilmirdi. Müharibə illərində bu dəmir papaqlar 100 minlərlə əsgərin həyatını xilas etmişdir.

### §9. Avropada hərbi əməliyyatlar. Almaniyanın təslim olması

1944-cü ilin yayında beynəlxalq və hərbi vəziyyətə uyğun olaraq ABŞ və Böyük Britaniya İkinci Cəbhəni açmaq haqqında Tehran konfransının qərarını yerinə yetirdilər. 1944-cü il iyunun 6-da Amerikan general D.Eyzenhauerin komandası altında İngiltərə və ABŞ öz ordusun Britaniya adalarından La-Manş vasitəsilə «Overlord» əməliyyatı əsasında Şimali Fransaya çıxardı. Müttəfiq qoşunlar onlara qarşı duran düşməndən canlı qüvvə cəhətdən üstün olmaqla bərabər (1 mln. nəfər), tank və özüyeriyən qurğularla müqayisədə 3, top və minaatanlardan 2,2, hərbi təyyarələrlə müqayisədə 6,1 dəfə üstün idilər. Fransa, Belçika və Hollandiyada isə 58 alman diviziyası var idi. Onlardan da yalnız 38-i sahili müdafiə edirdi. Müttəfiq qoşunların daxil olduğu Sena körfəzi rayonunu cəmi 3-4 alman diviziyası qoruyurdu. Avqustun 19-da fransız vətənpərvərləri Parisdə antifaşist silahlı üsyanına başladılar.

Avqustun 25-də amerikan-ingilis orduları Parisi azad edərək, sentyabrda Almaniyanın qərb sərhədlərinə çıxdılar. Şərq və Qərb cəbhələri arasında sıxışıb qalan alman komandanlığı Almaniyanın qərbində «Ziqfrid xətti» boyu müdafiəyə keçməyə məcbur oldu. Dekabrın ortalarında Ardenn dağlarında əks-hücuma keçən hitlerçilər ingilis-amerikan ordularına ağır zərbə vuraraq, onları separat sülh bağlamağa məcbur edib, əsas qüvvələri Şərq cəbhəsinə yönəltmək niyyətində idilər. Müttəfiqlər tanklar üçün əlverişsiz olan belə bir yerdə almanların əkshücumunu gözləmirdilər. Odur ki ilk vaxtlar alman qoşunları xeyli uğur qazana bildilər. Lakin canlı qüvvə və texnika cəhətdən düşməndən xeyli üstün olan müttəfiqlər düşmənin hücumunun qarşısını aldılar və 1945-ci ilin əvvəllərində hücuma keçdilər. U.Çörçill İ.Stalinə müraciət edərək Şərq cəbhəsində sovet qoşunlarının hücumunu tezləşdirməyi xahiş etdi. Qızıl Ordu 1945-ci il yanvarın 20-də nəzərdə tutduğu hücum əməliyyatını 8 gün əvvəl, yəni yanvarın 12-də Visla-Oder əməliyyatı ilə başladı (12 yanvar-3 fevral). Yanvarın 12-də marşal İ.S.Konevin komandanlığı altında 1-ci Ukrayna cəbhəsinin qoşunları güclü top atəşindən sonra ağır şəraitdə Sandomir döyüş əməliyyat meydanına hücuma keçdi. Nəzərdə tutulan hücum əməliyyatı İ.Stalinin şəxsi göstərişi ilə 8 gün əvvəl başladığı üçün sovet qoşunları döyü-

şə tam hazır vəziyyətdə deyildi və havadan təyyarələrlə pis təchiz olundu. Nəticədə hücum əməliyyatı çoxsaylı itki və yaralının olmasına gətirib çıxardı. 1945-ci ilin yanvarın ortalarında G.K.Jukovun komandanlığı ilə 1-ci Belorusiya cəbhəsinin və 1-ci Ukrayna cəbhəsinin döyüşçüləri Vislanun qərb sahilindəki döyüş əməliyyat meydanından hücuma keçdilər.

Şərqi Prussiyadan Karpat dağlarına qədər 1200 kilometrlik cəbhəboyu Qızıl Ordunun irimiqyaslı qış hücumu başlanmış oldu. Hücumun əsas məqsədi Polşa ərazisindəki düşmən qruplaşmalarını əzərək, Oderə çıxmaq və burada döyüş əməliyyat meydanı yaradaraq Berlinə həlledici zərbə vurmağa hazırlaşmaq idi. 1945-ci il yanvarın 17-də Sovet qoşunları 1-ci Polşa ordusunun fədakarlıqla döyüşən əsgərləri ilə birlikdə Varşavanı azad etdilər. Fevralın 3-də 1-ci Belorusiya və 1-ci Ukrayna cəbhələrinin ordu hissələri Oderə çataraq, çayın sağ sahilini düşmən qoşunlarından təmizləyərək sol sahilində döyüş əməliyyat meydanı yaratdılar.

Qızıl Ordu dəstələri 1-ci Polşa ordusu və partizanlarla birlikdə Polşa ərazisinin böyük bir hissəsin işğalçılardan təmizləyərək, Almaniyanın ərazisinə daxil oldular. Qızıl Ordunun Berlin istiqamətində hücumunun qarşısını almaq məqsədiə Vermaxt Şərqi Pomeraniya və Sileziyada cinah zərbələri ilə Sovet ordusunu məğlub etmək niyyətində idi. Bu şəraitdə Ali Baş Komandanlıq Qərargahı Berlin və Drezden istiqamətində hücuma hazırlığı zəiflətmədən 2-ci və 1-ci Belorusiya cəbhələrinin iştirakı ilə düşmənin şərqi Pomeraniya qruplaşmasını əzərək Oder çayının aşağı axarına çıxmaq göstərişi verdi. 1-ci Polşa ordusunun da iştirak etdiyi əməliyyat sayəsində hitlerçilərin Dantsiq-Qdınsk möhkəmləndirilmiş müdafiə xətti yarıldı, onlarla mühüm yaşayış məntəqəsi azad edildi.

1945-ci ilin fevral-martında 1-ci Ukrayna cəbhəsinin döyüşçüləri Aşağı Sileziya və Yuxarı Sileziya hücum əməliyyatını uğurla başa çatdıraraq düşmənin «Mərkəz» ordusuna ağır zərbə vurdular. Fevral-mart hücumu nəticəsində faşist Almaniyası mühüm hərbi sənaye və kənd təsərrüfatı rayonlarını itirməklə yanaşı, silahlı qüvvələri də ağır zərbə aldı. Qərb Cəbhəsində ingilis-amerikan orduları Reyn hüdudlarında qruplaşaraq, Rur sənaye rayonunu ələ keçirməyə hazırlaşdılar.

Həm Şərq, həm də Qərb cəbhəsində həlledici hücum ərəfəsində bir sıra siyasi məsələləri həll etmək məqsədilə SSRİ Xalq Komissarları Sovetinin sədri İ.V.Stalin, ABŞ-ın prezidenti F.Ruzvelt və Böyük Britaniyanın Baş Naziri U.Çörçill 1945-ciil fevralın 4-dən 11-dək Krımdakı konfransda bir araya gəldilər. Müttəfiqlər Almaniyanın qəti olaraq darmadağın edilməsinin hərbi planını razılaşdırdılar. Almaniya müharibədən sonra sülhsevər, demokratik dövlət olmalı, faşist partiyası, Vermaxt, baş qərargah, hərbi sənaye ləğv olunmalı idi. Konfrans qərara aldı ki, müharibənin səbəbkarı kimi Almaniya 20 milyard dollar təzminat ödəməlidir ki, bunun da 10 milyard dolları SSRİ-yə

çatmalı idi. Müttəfiqlər Birləşmiş Millətlər Təşkilatının yaradılamsı haqqında razılığa gəldilər və Azad edilmiş Avropa haqqında Bəyannamə qəbul etdilər. SSRİ Tehran konfransında verdiyi sözü təsdiq edərək bildirdi ki, müharibə başa çatdıqdan iki-üç ay sonra Yaponiyaya qarşı müharibəyə başlayacaq. Beləliklə, Krım konfransı ümumi düşmənə qarşı mübarizədə antihitler koalisiyasının möhkəmləndirilməsində yeni mərhələ oldu.

1945-ci ilin fevral-martında Qızıl Ordu hissələri Şərqi Prussiyadakı düşmənlərin məhv edilməsini əsasən başa çatdıraraq, bütün Polşanı, Macarıstanın böyük hissəsini azad etdi və Almaniyanın içərilərinə daxil oldu. Aprelin 6-da 3-cü Belorusiya cəbhəsinin qoşunları Köniqsberqə hücum edib, 9-da onu ələ keçirdilər. Aprelin 4-də sovet qoşunları partizanlarla birlikdə Slovakiyanın paytaxtı Bratislavanı azad etdi. Həmin gün hitlerçilər bütün Macarıstan ərazisindən qovuldular. Aprelin 6-da 2-ci və 3-cü Ukrayna cəbhələrinin döyüşçüləri şimal və cənubdan Venanın ətrafına yaxınlaşdılar. Yeddi gün ərzində Avstriyanın paytaxtı işğalçılardan tamamilə təmizləndi, Çexoslovakiyanın mərkəzi rayonlarına və onun paytaxtı Praqaya yol açılmış oldu. Sovet ordu birlikləri Berlinin 60 km-nə gəlib çıxdı. Faşist reyxi mühüm neft yataqlarından və hərbi məhsul verən müəssisələrdən məhrum oldu.

1945-ci ilin aprelində sovet silahlı qüvvələrinin qarşısında duran əsas vəzifə alman işğalçılarına həlledici zərbə vuraraq Qələbə bayrağını Berlin üzərinə sancmaq idi. Bu vəzifəni yerinə yetirmək marşal K.K.Rokossovskinin komandanlığı altında 2-ci Belorusiya, marşal G.K.Jukovun komandanlığı ilə 1-ci Belorusiya, marşal İ.S.Konevin komandanlığı altında 1-ci Ukrayna cəbhələrinə, Uzaq hərəkət aviasiyasına, Baltik donanmasına, Dnepr Hərbi Donanmasına və iki Polşa Ordusuna həvalə olunmuşdu. Sovet komandanlığı Berlin istiqamətinə 2,5 mln. əsgər və zabit, 41600 top və minaatan, 6250 tank və özüyeriyən qurğu, 7500 döyüş təyyarəsi toplamışdı. Berlini müdafiə edən faşist ordularının sırasında bir milyon əsgər və zabit, 10400 top və minaatan, 1500 tank və özüyeriyən qurğu, 3300 döyüş təyyarəsi var idi. Faktlar göstərir ki, Qızıl Ordu artilleriya cəhətdən düşməndən 4 dəfə, tank və özüyeriyən qurğularda 4,1, hərbi təyyarələrdə 2,3 dəfə üstün idi.

Berlin üzərinə hücum əməliyyatı 1945-ci il aprelin 16-da başladı və mayın 8-nə kimi davam etdi. Düşmən xüsusilə 1-ci Belorusiya cəbhəsi əsgərlərinin hücum etdiyi Zellov hündürlüyü rayonunda ciddi müqavimət göstərərək hücumun qarşısını almağa səy göstərdi. Hitlerçilərin müqavimətini qırmaq məqsədilə G.Jukov general V.İ.Çuykovun 8-ci qvardiya ordusu ilə birlikdə generallar M.E.Katukov və S.İ.Boqdanovun qvardiyaçı tank ordularını hücuma göndərdi. Aprelin 17-də günün sonunda düşmən sovet qoşunlarının təzyiqinə tab gətirməyərək Zellov müdafiə xəttinin yarılmasına mane ola bilmədi. Hücumu davam

etdirən Qızıl Ordu aprelin 25-də Berlin qruplaşmasının mühasirəsini başa çatdırdı. 300 min hitlerçi əsgər və zabit, 3 min top və minaatan, 250 tank və hücum topu mühasirədə qaldı. Həmin gün 1-ci Ukrayna cəbhəsinin 58-ci atıcı diviziyası rotasının əsgərləri leytenant Q.S.Qoloborodkonun komandanlığı ilə Almaniyanın mərkəzindəki Elba çayı sahilindəki Torqau şəhərində leytenant A.L.Kotsebun başçılığı ilə ABŞ-ın 9-cu diviziyasının kəşfiyyat qrupunun döyüşçüləri ilə görüşdü. Faşist Almaniyası iki hissəyə bölündü. Təslim olmaqdan imtina edən komandanlıq əsgərləri Berlinin küçələrində və evlərdə gedən qanlı döyüşlərə göndərirdilər. Artilleriya general-polkovniki Q.Veydlinq Berlin qarnizonunun komandanı təyin edildi. Berlin qarnizonu təslim olmaqdan imtina etdikdən sonra 10 gün ərzində şəhərin yanan və dağılmış binaları yerləşən küçələrində, toz-duman, atəş altında qanlı döyüşlər gedirdi. Aprelin 29-da reyxstaq uğrunda döyüşlər başlamış, rəsmi məlumata görə, aprelin 30-u saat $21^{50}$-də kəşfiyyatçılar M.A.Yeqorov və M.V.Kantariya Qələbə bayrağını reyxstaqın binasının şərqində kayzer Vilhelmin heykəlinə asaraq dalğalandırmışlar. 1946-cı il mayın 8-də hər iki kəşfiyyatçı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. 1945-ci il aprelin 30-da bunkerndə A.Hitler və həyat yoldaşı Yeva Braun özlərini öldürdülər. Bir gün sonra Y.Gebbels və ailəsi də eyni aqibəti yaşadı. Mayın 2-si saat 15-ə doğru Berlin qarnizonu təslim oldu. Gün ərzində 135 mini düşmən əsgər və zabiti əsir düşdü. Berlin uğrunda döyüşlərdə 360 min sovet döyüşçüsü həlak oldu. A.Hitlerin ölümündən sonra təşkil edilən qrossadmiral K.Dyonitsin hökuməti ABŞ və İngiltərə ilə təslim olmaq aktını imzalasa da, sovet tərəfi bunu qəbul etmədi. Alman silahlı qüvvələrinin danışıqsız təslim olması aktı Berlinin ətrafı olan Karlsxorstda mayın 8-də imzalandı. Təslimolma aktını Alman Baş Komandanlığı tərəfindən general-feldmarşal V.Keytel, admiral X.Frideburq və aviasiya general-polkovniki Q.Ştumpf, qalib müttəfiq dövlətlər adından Sovet İttifaqı marşalı G.K.Jukov, Böyük Britaniyanın Baş Aviasiya marşalı A.Tedder və şahidlər ABŞ nümayəndəsi general K.Spaats, fransız nümayəndəsi general J.M.de Latr de Tassini imzaladılar. Buna baxmayaraq cənubda, Çexoslovakiyada feldmarşal Şernerin komandanlığı ilə alman-faşist ordu hissələri müqavimət göstərməkdə davam edirdilər. Çexoslovakiyanın paytaxtı Praqa əhalisi hitlerçilərə qarşı üsyan qaldırdılar, lakin qüvvələr qeyri-bərabər idi. Sovet ordusu 1-ci çexoslovak ordusu, 1-ci və 4-cü rumın orduları ilə birlikdə Praqa əməliyyatına başlayaraq mayın 9-da Praqanın divarlarına çatdılar. Mayın 11-də düşmən silahı yerə qoydu. 860 min nəfər düşmən əsgəri və zabiti əsir düşdü, 1,8 min tank və hücum topu, mindən çox təyyarə döyüş qəniməti kimi ələ keçirildi. Beləliklə, Qızıl Ordu Amerika Birləşmiş Ştatları, İngiltərə, Fransa orduları, Yuqoslaviya, Polşa, Çexoslovakiya, Bolqarıstan, Rumıniya, Macarıstan, Albaniya və b. ölkələrin vətənpərvər qüvvələri ilə birlikdə faşist Almaniyasını darmadağın etdi.

## §10. Podstam konfransı. İkinci Dünya müharibəsinin başa çatması

Avropada müharibə başa çatdıqdan sonra 1945-ci il iyulun 17-dən avqustun 2-nə kimi Berlin ətrafında yerləşən Potsdamda SSRİ, ABŞ və İngiltərə dövlət başçıları İ.Stalin, H.Trümen, U.Çörçill sonra K.Ettlinin iştirakı ilə konfrans keçirildi. Əsas məsələ müharibədən sonra Avropanın, xüsusi ilə Almaniyanın gələcəyi ilə bağlı idi. Fikir ayrılığına baxmayaraq, konfrans iştirakçıları əsas məsələlərdə razılığa gələ bildilər. Almaniyaya ümumi prinsip əsasında siyasət tətbiq edilirdi ki, buna görə onun silahlı qüvvələri ləğv edilməli, silah istehsal edən sənaye birlikləri buraxılmalı, nasizmin qalıqları ləğv edilməli, siyasi həyat demokratikləşdirilməli idi. Avropadakı sərhədlər məsələsi qəti olaraq razılaşdırıldı. Sileziya və Pomeraniya, Şərqi Prussiyanın bir hissəsi Polşaya verildi və qərara alındı ki, bu yerlərin alman əhalisinə Almaniyaya köçmək hüququ verilsin. Qərb rəsmi surətdə Latviya, Litva və Estoniyanın SSRİ-yə birləşdirilməsini tanımasa da, Baltikyanı respublikalar, Qərbi Ukrayna və Qərbi Belorusiya, Moldaviya SSRİ-nin tərkibində qaldı. Sovet İttifaqı Şərqi Prussiyanın bir hissəsini (hazırki Kalininqrad vilayəti) və Zakarpat Ukraynasını da aldı. 1938-ci ildəki Münhen sövdələşməsi ləğv olundu, Südet vilayəti Çexoslovakiyaya qaytarıldı, ölkənin müstəqilliyi təmin olundu. Macarıstan, Rumıniya, Bolqarıstan, Yunanıstan və Albaniyanın əvvəlki sərhədləri bərpa olundu. Avstriya yenidən müstəqil dövlət oldu. İtaliya özünün bütün müstəmləkələrindən məhrum edildi.

İşğal dövründə Almaniyanı idarə etmək məqsədilə SSRİ, ABŞ, Böyük Britaniya və Fransa birgə orqan – Nəzarət Şurası yaratdılar. Bu orqana işğal zonasında olan hər bir ölkənin silahlı qüvvələrinin baş komandanı daxil idi. 1945-ci il mayın 31-də Nəzarət Şurasında sovet Ali Baş Komandanlığının nümayəndəsi Almaniyadan silahlı qüvvələrin komandanı G.K.Jukov təyin olunmuşdu. Bu təyinatdan bir həftə əvvəl müttəfiq dövlətlərin rəhbərlərinin qərarı ilə K.Dyonitsin hökuməti buraxılmış, hökumət üzvləri və hökumət idarələrinin məmurları həbs edilmişdir. Üçüncü reyx nasist hökümətinin ləğv edilməsi ilə rəsmi olaraq bir dövlət kimi fəaliyyətini dayandırdı. 1945-ci ilin axırları, 1946-cı ilin əvvəllərində keçmiş müttəfiqlər arasında kəskin fikir ayrılığı yarandığına görə Potsdam konfransının qərarlarını tam həyata keçirmək mümkün olmadı. 1946-cı ildən başlayaraq iki müxtəlif ictimai-siyasi sistemin qarşıdurması nəticəsində soyuq müharibə dövrü başladı.

Tehran və Krım konfranslarının qərarlarına uyğun olaraq SSRİ antihitler koalisiyası qarşısında müttəfiqlik öhdəçiliyini yerinə yetirərək, 1945-ci il avqustun 8-də Yaponiyaya müharibə elan etdi. Amerika avqustun 6-sı və 9-da Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə atom bombası ataraq 100 min nəfərdən çox adamı öldürdü, yarım milyona yaxın dinc əhali zərər çəkdi.

Buna baxmayaraq Yaponiya hələ Mancuriya, Şimali-Şərqi Çin, Saxalin və Kuril adalarında xeyli hərbi qüvvəyə malik idi. R.Malinovskinin komandanlıq etdiyi Zabaykal ordusu, K.Meretskov və M.Purkayevin 1-ci və 2-ci Uzaq Şərq cəbhələri, İ.Yumaşevin Sakit okean donanması, N.Antonovun Amur Hərbi Donanması, marşal X.Çoybalsanın Monqolustan xalq-inqilabi ordusu hissələri ilə birlikdə hücum əməliyyatına başladılar.

Sovet ordu birliklərində 1 669 500 nəfər canlı qüvvə, 29 min top və minaatan, 5,5 min tank və özüyeriyən artilleriya qurğusu, 3,8 mindən çox döyüş təyyarəsi var idi. A.Vasilevskinin başçılıq etdiyi Uzaq Şərq komandanlığı sovet ordu birliklərinə ümumi rəhbərlik edirdi. Bir milyon əsgər və zabiti olan yapon kvantun ordusu Qızıl orduya qarşı dayanmışdır. Avqustun 9-da hücuma keçən Zabaykal cəbhəsinin əsgərləri Xinqan-Şenyan istiqamətində tanklarla gün ərzində 120-150 km irəlilədilər. Çaylarda suyun səviyyəsinin 2-4 m. yüksəlməsinə baxmayaraq A.Kravçenkonun 6-cı tank ordusu üçüncü gün Böyük Xinqan dağlarını aşıb, Mancuriya düzənliyinə çıxaraq Lubey şəhərini tutdular. 2-ci Uzaq Şərq cəbhəsi qoşunları şimaldan və şərqdən hücumu davam etdirərək avqustun 14-də Mancuriyanın içərilərinə doğru 50-200 km irəlilədilər. Yaponların Sunqariysk istiqamətində sovet qoşunlarını dayandırmaq cəhdləri boşa çıxdı. Bu vaxt müddətində 1-ci Uzaq Şərq cəbhəsi orduları Linkona, Xarbinə və Girinə zərbələr vurdular. Xüsusilə Mudantszyan şəhəri uğrunda amansız döyüşlər nəticəsində şəhər təslim oldu. Avqustun19-dan başlayaraq yapon ordu hissələri təslim olmağa başladı.

Avqustun 19-da marşal A.M.Vasilyevski və Kvantun ordusunun baş komandanı ordu generalı O.Yamada Kvantun ordusunun təslim olması Aktını imzaladılar. Avqustun 24-də 1-ci Uzaq Şərq cəbhəsinin hissələri Pxenyanı azad edərək Sovet və Amerika ordularını ayıran 38-ci paraleldə dayandılar. Yaponiya 25 günlük müharibə müddətində 83,7 min nəfər əsgər və zabitini itirdi, 640 min nəfərdən çox hərbçi əsir düşdü. Sovet ordusu 12 min, monqol ordusu 72 min əsgər və zabitin itirdi. Müvəffəqiyyətli hücum əməliyyatı nəticəsində qısa bir vaxtda 40 mln.-dan çox əhalinin yaşadığı Mancuriya, Şimali-Şərqi Çin, Koreyanın şimalı, o cümlədən Cənubi Saxalin və Kuril adaları azad olundu.

1945-ci il sentyabrın 2-si saat $9^{04}$-də Tokio körfəzindəki amerikan «Missuri» linkorunda Yaponiyanın şərtsiz təslim olması Aktı imzalandı. Aktı yapon imperatoru və hökuməti adından xarici işlər naziri M.Siqemitsu, imperator Ali Qərargahı adından general Y.Umedzu imzaladı. Yaponiya ilə müharibə vəziyyətində olan İttifaq millətləri adından İttifaq qoşunlarının Ali komandanı general D.Makartur, SSRİ adından general-leytenant K.N.Derevyanko Akta imza atdılar. Altı il davam edən II Dünya müharibəsi başa çatdı.

II Dünya müharibəsinin və onun tərkib hissəsi olan Böyük Vətən müharibəsinin əsas hərəkətverici qüvvəsi, qəhrəmanı və qalibi SSRİ və Avropanın çoxmillətli xalqları idi. Müharibənin alovları içərisində 27 mln. sovet vətəndaşı həyatını itirdi. Ən dağıdıcı və qanlı müharibə olan II Dünya müharibəsində Avropada ölənlərin sayı 50 mln. nəfərdən çox idi. «Xolokost», yəni 7 mln. yəhudinin məhv edilməsi faşizmin dünya miqyasında məlum cinayətlərindən biri idi. Faşist cəza düşərgələrinə düşən 18 mln. nəfər adamın 11 milyonu məhv edilmişdi. Bu amansız müharibədə Çin 35 mln., SSRİ 27 milyona yaxın, Polşa 6 milyona yaxın, Yuqoslaviya 1,8 mln. nəfər, ABŞ 405 min, Böyük Britaniya 350 min, Fransa 635 min adam itirmişdir. Yeni hesablamalara görə, müharibə illərində Qızıl Ordunun itkiləri 12 milyona yaxın idi. İşğal olunmuş ərazilərdə bombardımandan, repressiyalardan, aclıq və xəstəliklərdən 13 mln. sovet adamı məhv olmuşdur. 5,3 mln. nəfər adam işləmək üçün zorla Almaniyaya aparılmışdır ki, onların da 2,2 mln. nəfəri pis qidalanma və amansız rəftar nəticəsində ölmüşdür. 1941-1945-ci illərdə SSRİ-yə dəyən zərər müharibədən əvvəlki qiymətlərlə 2,6 trilyon rubl təşkil edirdi.

II Dünya müharibəsində faşist Almaniyası 13,4 mln. nəfər adam, o cümlədən Şərq cəbhəsində 7,2 mln. adam itirmişdir. Müttəfiqlər İtaliya, Macarıstan, Rumıniya, Finlyandiya, Bolqarıstan sovet-alman cəbhəsində 1,5 mln. adam itirmişdir. Müharibə illərində təqribi hesablamalara görə, SSRİ-də 6 milyona kimi hərbi əsir olmuşdur ki, onların da çoxu soyuq, aclıq, xəstəlikdən məhv olmuşdur. Sovet-alman cəbhəsində Vermaxt 73%-dən çox canlı qüvvə, 75%-ə yaxın tank, top və minaatan, 75%-dən çox aviasiyasını itirmişdir. Faktlardan göründüyü kimi, SSRİ II Dünya müharibəsində qələbəyə əvəzsiz töhfə vermişdir. Qızıl Ordunun çox böyük itkiləri, xalqın kütləvi qəhrəmanlığı, sıravi müharibə və arxa cəbhə iştirakçılarının şücaəti siyasətçi və hərbi rəislərin yanlış hesablarının qarşısını alaraq Böyük Qələbəni təmin etdi. Qələbənin təmin olunmasının mühüm amillərindən biri iqtisadiyyatın sürətlə səfərbər edilərək müharibənin tələblərinə uyğun qurulması idi. Qələbənin mühüm şərtlərindən biri də SSRİ, Böyük Britaniya, ABŞ-ın alman-faşist təcavüzünə qarşı birgə mübarizə aparması idi. Lend-liz xətti ilə SSRİ-yə göndərilən hərbi texnika, avtomobil, avadanlıq və ərzaq qələbədə əhəmiyyətli rol oynamışdır. Bunlar sovet ordusundakı təyyarələrin 10, tankların 12, avtomobillərin 70%-ni təşkil edirdi. Düşmən üzərində qələbədə görkəmli hərbi xadimlər və sərkərdələr olan G.K.Jukov, K.K.Rokossovski, N.F.Vatutin, İ.S.Konev, A.M.Vasilevski, F.İ.Tolbuxin, R.Y.Malinovski, K.A.Meretskov, S.K.Timoşenko, L.A.Qovorov və başqaları misilsiz dərəcədə mühüm rol oynadılar.

II Dünya müharibəsi nəticəsində Baltikyanı respublikalar, Qərbi Ukrayna, Qərbi Belorusiya, Bessarabiya, Şimali Bukovina, Köniqsberq, Klaypeda,

Petsamo, Podkarpat Rusu, Vladimir-Volın, Cənubi Saxalin, Kuril adaları, Tuva SSRİ-nin tərkibinə daxil edilmişdir.

Böyük Vətən müharibəsinin əsas yekunlarından biri ondan ibarətdir ki, SSRİ xalqlarının qul kimi istismar edilməsi və genosid siyasətinin qurbanı olması təhlükəsi ləğv edilmişdir. Belə ki, düşmən 4 ayda Moskvaya qədər gəlib çıxmış, Kursk döyüşünə kimi hücum imkanı saxlamışdır. Düşməni, hətta müttəfiqləri təəccübləndirən müharibədəki əsaslı dönüş və qələbə xalqın kütləvi qəhrəmanlığı, misilsiz yorulmaz gücü və səyi nəticəsində mümkün olmuşdur. Sovet hakimiyyəti qələbəni birbaşa olaraq sosialist quruluşunun üstünlüyü, «sovet xalqının mənəvi-siyasi birliyi» ilə bağlayırdı. Lakin etiraf etmək lazımdır ki, qələbəni tanklar və kommunist doktrinası deyil, SSRİ, o cümlədən rus xalqının vətənpərvərliyi təmin etmişdir. 1945-ci ilin mayın 24-də məşhur qələbə sağlığı deyərkən İ.V.Stalinin «Rus xalqının sağlığına» söylədiyi sözlər fikrimizi təsdiq edir. SSRİ-dəki insan itkisi son dərəcə yüksək olmuşdur. 1941-ci ilin iyununda ölkə əhalisi 196,7 mln. nəfərdən 1946-cı ilin əvvəlində 170,5 mln. nəfərə düşmüşdür. Başqa sözlə, müharibə nəticəsində SSRİ-nin əhalisi 26,6 mln. nəfər, yəni 13,5% azalmışdır. Əhalinin müharibədənəvvəlki sayı yalnız 1955-ci ildə bərpa olunmuşdur.

SSRİ-nin demoqrafik itkisi 26,6 mln. nəfər təşkil edirdi və bu Almaniyanın itkisindən təqribən iki dəfə çox idi. Almaniya və onun müttəfiqlərinin itkisi 11,8 mln. nəfər təşkil edirdi, onun da 1,7 mln. nəfəri müttəfiqlərin payına düşürdü. Reyxin dinc vətəndaşlarının itkisi 3,3 mln. nəfər olduğu halda, hitlerçilərin genosidi nəticəsində işğal edilmiş sovet ərazilərində həyatını itirən dinc vətəndaşların sayı 17,9 mln. nəfərə çatırdı.

Sovet ordusu öz ölkəsi ilə yanaşı, Avropa və Asiyanın 13 ölkəsini tam və ya qismən azad etmişdir. Avropa ölkələrinin azad edilməsində 7 mln., Şimali-Şərqi Çinin (Mancuriya) və Şimali Koreyanın yapon işğalçılarından təmizlənməsində 1,5 mln. sovet əsgər və zabiti iştirak etmişdir. Onlardan bir milyon nəfərdən çoxu həyatını itirmişdir. 600 min Polşanın, 140 min Macarıstanın, 140 min Çexoslovakiyanın, 102 min Almaniyanın, 69 min Rumıniyanın, 26 min Avstriyanın, 9,3 min Çinin, 8 min Yuqoslaviyanın, 3,4 min Norveçin, 977 nəfər Bolqarıstanın, 30 nəfər Danimarkanın torpaqlarında əbədi olaraq yatmaqdadır.

Müharibə vaxtı yaralanma və xəstəliyə görə ordudan tərxis olunan 3,8 mln. nəfər hərbçinin 2,6 mln. nəfəri ömürlük şikəst olmuşdur. Sovet ərazilərində olan 11 mln. alman hərbçisindən 3 mln. uşaq doğulmuşdur. Sovet işğal zonasındakı Qızıl Ordu hərbçilərindən isə alman qadınları 292 min uşaq doğmuşdur.

1945-ci ilin mayına doğru SSRİ-nin qərbindəki böyük əraziləri dağıntılar içində idi. Müharibənin ölkəyə vurduğu maddi zərər onun milli dəyərinin, demək olar ki, 30%-ni təşkil edirdi. Müqayisə üçün qeyd edək ki, bu göstərici

Böyük Britaniyada 0,9%, ABŞ-da 0,4% idi. Düşmən 1710 şəhər və qəsəbəni, 70 mindən çox kəndi, 6 mln. binanı tam və ya qismən dağıtmışdı, 25 mln. nəfər əhali evsiz-eşiksiz qalmışdır. İşğal ərazisindəki bütün zavod, fabrik, mədənlər dağıdılmış, muzey, kitabxanalar qarət edilmişdi.

Vətəni müdafiə edərkən göstərdikləri mərdlik və qəhrəmanlığa görə 38 mln. adam orden və medallarla, 11,6 min nəfər Sovet İttifaqı Qəhrəmanı adı ilə təltif olunmuşdur. Onların içərisində 8160 rus, 2069 ukraynalı, 303 belorus, 161 tatar, 108 yəhudi, 96 qazax və b. var idi. A.İ.Pokrişkin, G.K.Jukov və İ.N.Kojedub üç dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. «Qələbə» («Победа») ali sərkərdəlik ordeni ilə 11 nəfər görkəmli Sovet hərbi xadimi, o cümlədən marşallar L.A.Qovrov, İ.S.Konev, R.Y.Malinovski, K.A.Merestkov, K.K.Rokossovski, S.K.Timoşenko, F.İ.Tolbuxin və ordu generalı A.İ.Antonov, həmçinin generalissimus İ.V.Stalin, marşallar G.K.Jukov və A.M.Vasilyevski iki dəfə təltif edilmişdir. «Qələbə» ordeni ilə, eyni zamanda, Avropada müttəfiq qoşunların Ali Baş komandanı ordu generalı D.Eyzenhauer, müttəfiq qoşunların qrup komandanı ingilis feldmarşalı B.Montqomeri, Rumıniyanın kralı I Mixay, Yuqoslaviya Xalq azadlıq Ordusunun komandanı İosip Brov Tito, Polşa marşalı M.Rol-Jimerski də təltif edilmişdir.

Müharibənin gedişində müttəfiqlər belə qərara gəldilər ki, II Dünya müharibəsinin başlanmasının səbəbkarları olan faşist Almaniyasının rəhbərləri cəzalandırılmalıdır. Bu məqsədlə 1945-ci il dekabrından 1946-cı ilin oktyabrına kimi Nyurnberqdə Üçüncü reyxin rəhbərlərinə qarşı beynəlxalq hərbi məhkəmə prosesi təşkil olundu. Faşist Almaniyasının siyasi və hərbi rəhbərləri Gerinq, Gess, Ribbentrop, Kaltenbrunner, Keytel, əsas sənayeçilər Şaxt, Şpeyer, Q.Krupp qalib dövlətlərin hərbi tribunalı qarşısında cavab verməli oldular. Onların hamısı dünya və insanlığa qarşı ağır hərbi cinayətlər törətməkdə təqsirkar bilinirdilər. 1946-cı il oktyabrın 16-da Beynəlxalq tribunal faşist imperiyasının on iki nəfər siyasi və hərbi rəhbərinə, o cümlədən G.Gerinq, V.Keytel, İ.Ribbentrop və digərlərinə ölüm hökmü, qalanlarına ömürlük həbs cəzası kəsdi. Onlar milyonlarla insanın ölümünə səbəb olan əmrlərin yerinə yetirilməsində, bir çox xalqların məhv edilməsi planının hazırlanması və həyat keçirilməsində təqsirkar bilindilər. İşğalçı hakimiyyətlə əməkdaşlıq edənlər də məsuliyyətə cəlb edildi. II Dünya müharibəsi Almaniya və onun müttəfiqlərinin məğlubiyyəti ilə başa çatdıqdan sonra qalib dövlətlər, SSRİ və onun dünənki müttəfiqlərinin koalisiyası dağıldı və onlar arasındakı dərin ziddiyyətlər SSRİ-də sosializm sistemi çökənə kimi davam etdi.

# XXVII FƏSİL
# SSRİ 1940-cı İLLƏRİN İKİNCİ YARISI – 1950-ci İLLƏRİN ƏVVƏLLƏRİNDƏ. «GECİKMİŞ STALİNİZM»

## §1. Daxili iqtisadi vəziyyət

Müharibə başa çatdıqdan sonra qarşıda duran əsas vəzifə dinc quruculuğa keçərək yüzlərlə dağıdılmış şəhər, qəsəbə və kəndi, dəmiryollarını və sənaye müəssisələrini bərpa edərək adamların maddi vəziyyətini yaxşılaşdırmaq idi. SSRİ-nin 27 mln. nəfərə yaxın əhalisi döyüşlərdə, faşist düşərgələrində, aclıqdan və xəstəlikdən öldüyü, ölkə xalq təsərrüfatı milli sərvətinin təqribən 30%-ni itirdiyi üçün bu vəzifəni həyata keçirmək mürəkkəb və çətin şəraitdə baş verirdi. Mərkəzi Statistika İdarəsinin (ЦСУ) məlumatına görə, SSRİ-nin əhalisi, demək olar ki, 18% azalaraq 1941-ci il yanvarın 1-də 196,8-dən, 1946-cı il yanvarın 1-də 162,4 mln. nəfərə düşmüşdü. Əhalinin azalması, əmək qabiliyyəti olan fəhlələrin yaşlı və yeniyetmələrlə, kişilərin qadınlarla, ixtisaslı işçilərin iş təcrübəsi olmayanlarla əvəz olunması, mal-qaranın azalması sayəsində əmək qabiliyyəti olan insanların pis qidalanması, mənzil şəraitinin yetərsizliyi, texniki avadanlığın sıradan çıxması və ya köhnəlməsi, kapital qoyuluşunun aşağı düşməsi və s. əmək məhsuldarlığının müharibədən əvvəlki səviyyə ilə müqayisədə kəskin aşağı düşməsinə səbəb olmuşdu.

1945-ci il mayın sonunda DMK bir sıra müdafiə müəssisələrini əhali üçün məhsul hazırlamağa yönəltdi. Ordunun şəxsi heyətinin tərxis olunmasına dair qanun qəbul edildi. Xalq təsərrüfatının dövlət tərəfindən idarə olunmasında struktur dəyişikliklər həyata keçirildi. 1945-ci il sentyabrın 4-də Dövlət Müdafiə Komitəsi ləğv olundu. Ölkənin idarə edilməsində bütün işlər Xalq Komissarları Sovetinin, 1946-cı ilin martın 15-dən isə yeni adı ilə SSRİ Nazirlər Sovetinin əlində cəmləşdi. Növbədənkənar məcburi iş norması ləğv olundu, 8 saatlıq iş günü və əməkhaqqı ödənilməklə illik məzuniyyətlər bərpa edildi.

1946-cı ilin martında SSRİ Ali Soveti 1946-1950-ci illəri əhatə edən xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair dördüncü beşillik plan tapşırıqlarına aid qanun qəbul etdi. Ağır sənayenin və dəmiryol nəqliyyatının bərpası və inkişafı, bütün sahələrin texniki tərəqqisinin təmin edilməsi, ölkənin müdafiə qabiliyyətinin artırılması, silahlı qüvvələrin ən yeni hərbi texnika ilə

təchiz edilməsi beşilliyin başlıca vəzifələri elan edildi. Planda sənaye və kənd təsərrüfatının müharibədən əvvəlki səviyyəsini bərpa edərək sənayeni 48, kənd təsərrüfatın isə 27% artırmaq nəzərdə tutulmuşdu. Dördüncü beşillik planın xalq təsərrüfatını bərpa etmək və onu daha da inkişaf etdirmək vəzifəsini həyata keçirmək üçün 250,3 mlrd. rubl məbləğində əsaslı vəsait qoyuluşu ayrılmışdı. Bu vəsaitin yarıdan çoxu ağır sənayeyə, ilk növbədə işğala məruz qalmış ərazilərin sənaye potensialının bərpa edilməsinə yönəldilmişdir. Planda xalqın sosial-məişət vəziyyətini yaxşılaşdırmaq, təhsil, elm və mədəniyyət, səhiyyənin inkişaf etdirilməsi nəzərdə tutulurdu.

ÜİK(b)P MK-nın katibi A.Jdanov, SSRİ Dövlət Plan Komitəsinin sədri N.A.Voznesenski, RSFSR Nazirlər Sovetinin sədri N.Rodionov iqtisadi inkişafa volüntarist, yəni subyektiv münasibəti yumşaldaraq, onun tarazlaşdırılmış inkişaf xəttini müdafiə edirdilər. Onlar belə hesab edirdilər ki, dinc dövrə keçilməsilə kapitalist ölkələrində iqtisadi böhran, imperialist dövlətləri arasında ziddiyyət və münaqişə daha da dərinləşəcək. Kapitalist dövlətlərinin SSRİ-yə qarşı müharibə təhlükəsinin zəifləməsi ilə əlaqədar olaraq ənənəvi ağır sənayeni inkişaf etdirmək siyasətindən imtina edib xalq təsərrüfatının planlarını daha liberal, yəni qiymət, dəyər, kredit, gəlir kimi iqtisadi vasitələrdən istifadə edərək tərtib etmək lazımdır. Bu istiqamətin əksinə olaraq G.M.Malenkov və L.P.Beriya iqtisadçı E.S.Varqanın tədqiqatlarını əsas götürüb 30-cu illərin iqtisadi modelinə qayıdaraq, ölkənin hərbi-sənaye bazasının sürətli inkişafını ön plana çəkməyi tələb edirdilər. Onlar qeyd edirdilər ki, kapitalizm daxili ziddiyyətlərini həll etmək iqtidarındadır, müharibədən sonrakı beynəlxalq vəziyyət isə son dərəcə gərgin olaraq qalmaqdadır. Odur ki, sənaye və müdafiənin sürətli inkişafından, iqtisadiyyatın idarə olunmasının inzibati metodundan əl çəkmək mümkün deyildir. 1946-1947-ci illərdə artan beynəlxalq gərginliyin manipulyasiyası, sənaye rəhbərlərinin mühafizəkar cəbhəsinin təşkil olunması, 1946-cı il qıtlığı sayəsində kəndlilər üzərində nəzarətin sərtləşdirilməsi, iqtisadi həyata volüntarist metodların tədbiqinin yumşaldılması və məcburi tədbirlərin azaldılması tərəfdarı olan xalq təsərrüfatının tarazlaşdırılmış inkişafını müdafiə edənlərin məğlubiyyəti ilə başa çatdı. 1946-cı ildə dinc quruculuğa keçilməsinin çətinliklərindən irəli gələn sənaye istehsalının əvvəlki illə müqaisədə 17% aşağı düşməsi sənayenin idarə edilməsinin icbari və iradi metodlarına qayıtmağa gətirib çıxardı. 1948-cı ildə A.Jdanovun ölümü, N.Voznesevskinin vəzifədən azad edilərək 1950-ci ildə güllələnməsi, dördüncü beşillik plan tapşırıqlarına yenidən baxılaraq subyektiv şəkildə iqtisadi artımın yüksək göstəricilərinin müəyyən edilməsi ilə nəticələndi. Əhalinin aşağı həyat səviyyəsi nəzərə alınmadan, xüsusilə ağır sənaye sahəsində «nəhəng layihələrə»

üstünlük verilirdi. Başqa sözlə, 1947/48-1952/53-cü illərdə 30-cu illərdəki iqtisadi quruculuq təcrübəsi təkrar olunurdu. Birinci beşillikdə olduğu kimi, başlı-başına tikintisi başlayan çoxlu müəssisəni tikib-başa çatdırmaq mümkün olmadı. İxtisası olmayan işçilərin çoxsaylı tikintilərə cəlb edilməsi ilk beşilliklərdə olduğu kimi əməyin təşkilinin böhranına və məhsuldarlığın aşağı düşərək dördüncü beşillik illərində orta hesabla 6% olmasına gətirib çıxardı. Bu həm də işdən yayınanların, kadr axıcılığının, zay məhsul istehsalının artması, əmək intizamının aşağı düşməsi ilə müşayiət edilirdi.

Bütün bu qeyd edilənlərə baxmayaraq, şübhəsiz, xalq təsərrüfatının bərpa edilməsində tezliklə normal dinc həyatı qaydaya salmağa çalışan sovet adamlarının əmək şövqü mühüm rol oynadı. Eyni zamanda Almaniyadan 4,3 mlrd. dollar həcmində alınan təzminat və texnologiya beşillik planın yerinə yetirilməsinə böyük kömək oldu. Məhz bunun hesabına müharibədən sonra bərpa olunan müəssisələrin yarısının dəzgah və avadanlığını yeniləmək mümkün oldu. Dördüncü beşillik dövründə 3 mindən çox iri müəssisə, o cümlədən Dnepro HES, Azov və Zaporojye Metallurgiya kombinatları, Stalinqrad və Xarkov Traktor zavodları bərpa edilmişdir. Ümumən 1946-1950-ci illərdə 6,2 mindən çox sənaye müəssisəsi bərpa edilmiş və yenisi tikilmişdi. Ukrayna, Belorusiya, Moldaviyada bərpa işləri görülür, Ural, Sibir, Cənubi Qafqaz və Orta Asiya respublikalarında yeni sənaye nəhəngləri, Ust-Kamenoqor Qurğuşun-Sink kombinatı, Kutaisi Avtomobil zavodu, Sumqayıt və Nikopolda Boru Prokat zavodları, Cambul və Kokand superfosfat zavodları, Sverdlovskdə (Yekaterinburq) Turbin-Motor zavodu, Minskdə, Vladimirdə traktor zavodları və s. işə düşdü. Saratov-Moskva, Daşava-Kiyev kimi iri və uzun qaz kəmərləri çəkildi və istifadəyə verildi. Özbəkistanda Fərhad, Volqada Rıbinsk, Uralda Nijni Turbinsk, Moskva ətrafında Şekino kimi yeni elektrik stansiyaları tikildi. 1949-cu ilin noyabrında Xəzərdə açıq dənizdə ilk neft quyusu qazıldı və Azərbaycan neft istehsalının həcminə görə SSRİ-də birinci yerə çıxdı. Rəsmi məlumata əsasən, 1948-ci ildə sənaye məhsulu istehsalına görə ölkə müharibədən əvvəlki səviyyəni 18, 1950-ci ildə isə 73% ötüb-keçdi. Bununla yanaşı, planın böyük hissəsinin yerinə yetirilməsi 30-cu illərdə olduğu kimi məhsulun dəyərinin nəzərə alınması hesabına başa gəlirdi, kömürün, metal, neft, maşının real istehsalı isə o qədər də çox artmırdı. Həm də ağır sənayenin bərpası ekstensiv, yəni keyfiyyətcə deyil, kəmiyyətcə artırdı. Sənayeyə yeni xammal ehtiyyatları və əlavə işçi qüvvəsi cəlb olunurdu. Belə ki, 1946-1950-ci illərdə sənaye və tikintiyə ixtisası olmayan 8,5 mln. nəfər yeni fəhlə gəlmişdir. 1950-ci ildə ölkədə fəhlə və qulluqçuların sayı 40,4 mln. nəfərə çatırdı. Onların 15,3 mln. nəfəri sənayedə, 2,6 mln. tikintidə, 4 mln. nəqliyyatda çalışırdı.

Sovet adamlarının əmək xarüqələri, çox saylı əmək yarışları beşilliyin plan tapşırıqlarının yerinə yetirilməsində əhəmiyyətli rol oynamışdır.

SSRİ-nin xalq təsərrüfatının inkişafında məhbusların, xüsusi köçkünlərin və hərbi əsirlərin əməyindən geniş istifadə olunurdu. 1945-ci ildə SSRİ-də 1,5 mln., 1950-ci ildə 2,6 mln., 1953-cü ildə 2,5 mln., həbs düşərgəsində saxlanılan, 1940-cı ilin sonunda 2,3 mln., xüsusi köçkün, 1,5 mln. alman və 0,5 mln. yapon olmaqla hərbi əsir var idi. Onların gücü ilə hərbi obyektlər, mədənlər, filiz yataqları tikilirdi. Baykal-Amur Dəmiryol Magistralı, Vorkuta-Salexard-Norilsk dəmiryolu, Başqırdıstan və İrkutskda nəhəng neftkimya kombunatları, Moskvanın «Berkut» Hava hücumundan müdafiə sistemi məhbusların əməyi ilə yaranmışdır.

Müharibədən sonrakı dövrdə müfdafiə sənayesinə, birinci növbədə atom probleminə xüsusi diqqət verilirdi. 1945-ci ilin avqustunda DMK-nin nəzdində amerikan «Uran layihəsi»nin sovet analoqun yaratmaq məqsədilə xüsusi komitə təşkil olunmuşdur. Komitənin tərkibinə dövlət xadimləri L.P.Beriya (sədr), G.M.Malenkov, N.A.Voznesenski, fiziklər İ.V.Kurçatov, P.L.Kapitsa, görkəmli istehsalat təşkilatçıları B.L.Vannikov, A.P.Zavenyaqin, V.A.Maxnev, M.Q.Pervuxin daxil idi. Xüsusi komitənin müzakirəsinə təqdim edilən elmi və texniki məsələlərə baxmaq məqsədilə V.Vannikovun sədrliyi ilə Texniki Şura yaradıldı ki, onun da tərkibinə akademiklər A.İ.Alixanov (elmi katib), A.F.İoffe, P.L.Kapitsa, İ.V.Kurçatov, V.Q.Xlopin, SSRİ EA-nın müxbir üzvü İ.K.Kikoin, professor Y.B.Xariton və b. daxil idi. Atom problemilə məşğul olan təşkilat və müəssisələrə bilavasitə xüsusi komitəyə tabe olan XKS-in nəzdindəki Birinci Baş İdarə rəhbərlik edirdi. 1946-cı ilin aprelində atom bombasının hazırlanması, P.M.Zernov və Y.V.Xariton başda olmaqla BBİ-nin sistemində təşkil edilən KB-11-ə («poçt qutusu» Arzamas-16) tapşırılmışdı.

Paralel olaraq raketqayırma işi də aparılmışdır. 1947-ci ilin oktyabrın 18-də Kapustin Yar poliqonunda S.P.Korolyovun rəhbərliyi ilə alman Fau-2 raketinin surəti olan ortamənzilli sovet raketi sınaqdan çıxarıldı. Artıq 1950-ci ildə uçuş uzaqlığı 270 km olan P-1, 1951-ci ildə 600 km olan P-2, 1955-ci ildə 1200 km olan P-3 raket kompleksləri hazırlanmışdır. Atom, raketqayırma və başqa müdafiə problemlərini həll etmək məqsədilə müasir müəssisə, laboratoriya və konstruktor büroları ilə təchiz edilmiş onlarla yeni bağlı şəhərlərdə iş aparılırdı. Sarov (Arzamas-16), Oversk (Çelyabinsk-40), Novouralsk (Sverdlovsk-44), Zareçnıy (Penza-19), Priozersk (Balxaş), Kapustin Yar (Həştərxan) və d. bunlara misaldır.

22 kiloton gücündə olan RDS-1 ilk sovet atom bombası 1942-ci ilin avqustun 29-da Semipalatinskdən 170 km qərbdəki poliqonda sınaqdan keçirildi.

Bu amerikan sxemi üzrə hazırlanan bomba idi. Orijinal sovet quruluşlu 38,3 kiloton gücündəki RDS-2 birinci atom bombası 1951-ci ilin sentyabrında, 41,2 kiloton gücündə RDS-3 ikinci bomba 1951-ci ilin oktyabrında sınaqdan keçirilmiçdir. Onlar amerikan nümunəsindən iki dəfə yüngül, iki dəfə daha güclü idi. SSRİ-də «Stalin epoxası»nın sonunda 120 nüvə bombası var idi. ABŞ-ın nüvə potensialı 1436 ədəd təşkil edirdi. ABŞ və SSRİ-nin ardınca 1952-ci ildə Böyük Britaniya, 1960-cı ildə Fransa, 1964-cü ildə Çin, 1998-ci ildə Hindistan və Pakistan, o cümlədən rəsmi olmasa da, bir çox dövlət atom silahına sahib olmuşdur.

1953-cü il avqustun 12-də SSRİ-də gücü 400 kiloton olan hidrogen bombası sınaqdan keçirilmişdir. Sovet İttifaqındakı hidrogen bombasının atası akademik A.D.Saxarov hesab edilir. Atom və hidrogen bombasının yaradılmasında ilk sırada nüvə proqramının elmi rəhbəri İ.V.Kurçatov, İ.E.Tamm, Y.B.Xariton, Y.B.Zeldoviç, K.İ.Şelkin, E.İ.Zababaxin yer almışdır.

Rəsmi məlumatlara əsasən, 1941-1950-ci illərdə müharibənin ağırlığına baxmayaraq milli gəlir SSRİ-də orta illik hesabla 4,7% artmışdır. Daxili ümumi məhsulun həcmi 1952-ci ildə 406 mlrd. rubl olmuşdur ki, bu da 1940-cı ildəkindən 1,9, 1945-ci ildəkindən isə 1,5 dəfə çox idi. Ümumən, Stalin epoxasında, yəni 1922-1953-cü illərdə SSRİ-də milli gəlir ildə 4% artmış, 25 mindən çox yeni böyük və nəhəng sənaye müəssisəsi, 353,3 min kolxoz və 4 min sovxoz, 201 mln.kv.m mənzil sahəsi istifadəyə verilmişdir.

### §2. Müharibədən sonrakı kənd

Müharibədə 15% əhalisini, o cümlədən 61% əmək qabiliyyəti olan kişiləri, çoxlu miqdarda traktor və atları itirən kəndin vəziyyəti ağır olaraq qalırdı. Bir çox kənddə torpağı öküzlə və ya 4-5 nəfər qadının çəkdiyi qoşqu aləti ilə şumlayırdılar. Ümumiyyətlə, müharibə illərində ölkədə 98 min kolxoz, 1876 sovxoz və 2890 MTS məhv edilmişdir. 1946-cı ilin payızındakı quraqlıqdan irəli gələn qıtlıq, kolxozların idarə edilməsinin, eyni zamanda, kolxozlar üzrə Şura, 3 nazirliyə həvalə edilməsi və çoxnövlü məhsul yetiştirilməsinə keçilməsi yerli imkanlarla uyğun gəlmədiyi üçün kəndin vəziyyəti pisləşməkdə davam edirdi. Belə olduqda Sovet dövləti müharibə illərində kolxozlarda zəifləyən nəzarəti gücləndirmək qərarına gəldi. 30-cu illərdə Qafqazda kollektivləşdirməni həyata keçirən, 1943-cü ildən 1946-cı ilə kimi torpaq xalq komissarı olan A.Andreyevin rəhbərliyi ilə 1946-cı ilin sentyabrın 19-da kolxoz nizamnaməsinin

pozulmasının aradan qaldırılması üçün tədbirlər görmək tapşırığı ilə kolxozların işləri üzrə komissiya yaradıldı. Təkcə 1946-cı ildə kolxozçular tərəfindən qanunsuz zəbt edilmiş 4,7 mln. ha torpaq kolxoz fondlarına qaytarıldı. 1947-ci ildən 1949-cu ilə qədər 5,9 mln. ha torpaq kolxozlara geri qaytarıldı.

1947-ci il iyunun 4-də 1932-ci il avqustun 7-də qəbul edilmiş eyni mahiyyətli qərardan daha sərt olan «Dövlət və ictimai əmlakın oğurlanmasının cinayət məsuliyyəti haqqında» qərarı elan olundu. Dövlət və kolxoz əmlakına qəsd edənləri 5 ildən 20 ilə qədər həbs cəzası gözləyirdi. Kənddəki ağır vəziyyət kolxoz rəhbərlərinin üzərinə yıxıldı. Təkcə 1946-cı ildə 9511 kolxoz sədri, briqadir və ferma müdiri cinayət məsuliyyətinə cəlb olundu. Kənddə inzibati amirlik metodları ilə idarə etməni gücləndirən partiya və dövlət rəhbərliyi 1948-ci ildə kolxoz nizamnaməsində kolxozçulara icazə verilən xırda baş heyvanların dövlətə satılmasını qəti olaraq tövsiyə etdi. Bunun nəticəsində yarım il ərzində kolxozçular 2 mln. başdan çox xırda heyvanı kəsdilər. Eyni zamanda bazarlarda satılan kənd təsərrüfatı məhsullarından gələn gəlir üzərinə qoyulan vergi artırıldı. Həm də bazarlarda alver etmək üçün kolxozçular dövlət qarşısında öhdəçiliklərini tamamilə yerinə yetirdikləri haqqında icazə almalı idilər. Dövlətə verilən məhsulun həcmi ildən-ilə artırıldığı halda, dövlətin kolxozlara kənd təsərrüfatı məhsulları üçün ödədiyi qiymət 1952-ci ilə kimi 1940-cı il səviyyəsindən də aşağı düşmüşdü. Təkcə taxıl məhsulları öz dəyərinin yeddidə bir hissəsini təşkil etmişdir. Birinci beşillikdə olduğu kimi, kolxozlar yalnız dövlət tapşırığını yerinə yetirdikdən sonra kolxozçularla hesablaşa bilərdi. 1950-ci ildə təsərrüfatların 20%-də əmək gününə 0,5 kq taxıl düşürdü, kolxozların çoxunda isə əməkgününə, ümumiyyətlə, pul verilmirdi. Kolxozçular öz həyatlarını kənar işlərdən və yüksək vergi tutulan həyatyanı sahələrdən qazanırdılar. Kolxozçu, fəhlə və qulluqçular kənd təsərrüfatı məhsullarının 51, heyvandarlıq məhsullarının isə 62%-ni yardımçı təsərrüfatlarda istehsal edirdilər. Kənd sakinləri kolxoz sahələrində 1948-ci ildən qüvvəyə minən minimum əməkgününün yerinə yetirilməməsi cinayət məsuliyyəti qorxusu altında çalışırdılar. 1942-ci il aprelin 15-də qəbul edilən minimum əməkhaqqını yerinə yetirməyən kolxozçuların məhkəmə məsuliyyətinə cəlb olunmasına dair hökumət fərmanı müharibədən sonra da qüvvədə qalırdı. Təkcə 1946-1948-ci illərdə bu fərmana əsasən 80% qadın olmaqla 445 224 nəfər islah-əmək işləri hökmü ilə cəzalandırılmışdı.

Ukrayna KP MK-nın birinci katibi N.S.Xruşşovun təşəbbüsü ilə 1948-ci il iyunun 2-də SSRİ Ali Sovetinin Rəyasət Heyəti «Qəsdən əmək fəaliyyətindən yayınan, ictimai qaydalara zidd, tüfeyli həyat tərzi keçirən şəxslərin uzaq rayonlara sürgün edilməsi haqqında» fərman qəbul edilmişdir. Ukraynada sı-

naqdan keçən fərman tezliklə qərb vilayətləri və Baltikyanı respublikalar istisna olmaqla bütün ölkəyə şamil edildi. Kolxozçuların ümumi iclasının ictimai məhkumluq haqqında qərarı rayon icraiyyə sovetinin təsdiqi ilə qüvvəyə minir və cəza alan şəxslər 8 il müddətinə xüsusi məskun yerlərinə sürgün olunurdu. Göründüyü kimi, müharibədən sonra da kənd təsərrüfatı sahəsində işlər repressiya və əhalinin sürgün edilməsi ilə müşayiət edilən inzibati-amirlik metodları ilə həyata keçirilirdi. Təkcə bu fərman üzrə ölkədə 50 min adam repressiyaya məruz qalmışdır. 1947-ci ilin dekabrındakı pul islahatı da kolxozçulara ağır zərbə vurdu. Belə ki, öz məhsulunu bazarda sataraq nağd pul qazanan kolxozçular vəsaitlərini evdə saxladıqları üçün dövlətin əmanət kassalarındakı vətəndaşların vəsaitlərinin 3 min rubla qədər birin-birə, 3 min rubldan 10 min rubla qədəri üçün ikiyə, 10 min rubldan yuxarı olanları ikininbirə kursu ilə dəyişdirdiyi halda, onlar bir rubl təzə pulu on rubl köhnə pula dəyişdirməyə məcbur idilər. Bu isə kolxozçuların şəxsi vəsaitlərinin üçdə bir hissəsini itirməsinə səbəb oldu. Bütün bu tədbirlər nəticəsində kəndlərdə yaşayan əhali şəhərlərə və nəhəng tikintilərə üz tuturdu. 1946-1953-cü illərdə 8 mln. kənd əhalisi öz yaşayış yerini tərk etmişdir.

1949-cu ilin sonlarına doğru kəndin iqtisadi və maliyyə vəziyyəti ağır olaraq qaldığı üçün partiya və dövlət bir sıra təşkilati tədbirlər gördü. Aqrar siyasətə cavabdeh olan olan A.Andreyev 1949-cu ildə 1938-1949-cu illərdə Ukrayna KP MK-nın birinci katibi işləmiş N.S.Xruşşovla əvəz edildi. Onun təşəbbüsü ilə kolxozlara siyasi və iqtisadi nəzarəti gücləndirmək məqsədilə 1950-ci il 30 may qərarı ilə xırda təsərrüfatlar əsasında böyük kolxozlar yaradılmağa başlandı. Bir ilin ərzində kolxozların sayı 252 mindən 121 minə, 1952-ci ilin sonunda isə 94 minə düşdü. Kiçik kolxozların iri kolxozlara çevrilməsi tədbirləri onların xüsusilə siyasi kadrlarla təmin edilməsi vəzifəsini həll etsə də, iqtisadi cəhətdən gözlənilən nəticəni vermədi. Taxıl tədarükü 1940-cı ildəki 36,4 mln. ton əvəzinə 1950-ci ildə 32,3 mln. ton oldu. Kolxoz və sovxozların istehsal fəaliyyəti partiya və dövlət hakimiyyət orqanlarının ciddi nəzarəti altında idi. 1950-1952-ci illərdə ÜİK(b)P MK-nın kənd təsərrüfatı üzrə katibi olan N.S.Xruşşov fərdi kəndli təsərrüfatlarına şübhə ilə yanaşaraq, hətta əhalinin ictimai kənd təsərrüfatında çalışdığı aqroşəhər yaratmağı belə təklif etmişdir. Şəhər məişəti rahatlığından yararlana bilən aqroşəhərlərdə şəxsi təsərrüfatlar nəzərdə tutulmurdu. Beləliklə, N.Xruşşovun aqroşəhər ideyası bir tərəfdən kənd əhalisinin düşüncə və həyat tərzinin dəyişilməsinə, o biri tərəfdən şəhərlə kənd əməyi arasında, kolxozçu kəndlilərlə fəhlələr arasında sinfi fərqlərin silinib getməsinə xidmət etməli idi. Doğrudur, İ.Stalin aqroşəhər ideyasını vaxtı çatmamış hesab edərək müdafiə etmədi və bir müd-

dət sonra N.Xruşşovu kənd təsərrüfatı sahəsi üzrə işlərdən uzaqlaşdırdı. İ.V.Stalinin ölümündən sonra hakimiyyətə gələn N.S.Xruşşov ölkənin kənd təsərrüfatı sahəsindəki radikal tədbirlərini davam etdirdi. 1952-ci ildə partiyanın XIX qurultayında G.M.Malenkov «SSRİ-də taxıl probleminin həll edildiyini» elan etdi. Amma ölkənin kənd təsərrüfatı ağır böhran içərisində olduğu üçün hətta müharibədən əvvəlki səviyyəyə çatması bir yana, heç kollektivləşmənin başladığı 1928-ci ilə də çatmaq mümkün olmadı.

## §3. Əhalinin həyat səviyyəsi

1940-cı illərin ikinci yarısı – 1950-ci illərin əvvəllərində ölkə əhalisinin həyat səviyyəsi çox aşağı olaraq qalırdı, gündəlik tələbat malları kimi ayaqqabı, paltar, ərzaq çatışmırdı. 1946-cı ildə orta əməkhaqqı 475, minimum əməkhaqqı isə 300 rubl təşkil edirdi. Qara çörəyin bir kiloqramı bir rubl, ət 14, yağ 28, bir litr süd 2 rubl 50 qəpik dəyərində idi. Belə qiymətlərlə yalnız kartoçka ilə normada nəzərdə tutulan ərzaq almaq mümkün idi. Kommersiya ticarətində qiymətlər bir neçə dəfə yüksək idi. 1947-ci ildə kart sistemi ləğv olundu və kommersiya qiymətlərindən aşağı olan vahid qiymət tarifi tətbiq edildi. İndi bir kq qara çörək 3,4, ət 30, yağ 66, süd 4 rubl oldu. Kişi kostyumunu orta hesabla 450, bir cüt kişi ayaqqabısını 300, qol saatını 900, patefonu 900, bir ədəd təsərrüfat sabununu 5,20, bir litr nefti 2-2,50, duzu 1,60-1,80, rezin qaloşu 45 rubla almaq olardı. Kartoçka sistemi ləğv edildikdən sonra ərzaq və sənaye malları dövlətin müəyyən etdiyi vahid tarif qiyməti ilə mağazalarda açıq satılırdı. Maliyyə çətinliyini aradan qaldırmaq məqsədilə 1947-ci ilin dekabrında Sovet İttifaqında pul islahatı keçirildi. Bunun sayəsində müharibə vaxtı işğal edilmiş ərazilərdə yayılan saxta pulları dövriyyədən çıxarmaq nəzərdə tutulurdu. Pul islahatı, eyni zamanda əhalinin müxtəlif vasitələrlə əldə etdiyi pul kütləsini dövriyyədən çıxarmaq və ölkənin maliyyə vəziyyətini stabilləşdirmək məqsədi güdürdü. Xüsusilə gizli şəraitdə hazırlanan pul islahatı gedişində SSRİ Dövlət Bankı köhnə pulları təzə banknotlara 10:1-ə hesabı ilə dəyişirdi. Əhalinin əmanət kassalarında olan 3 min rubla kimi vəsaiti 1:1-ə, 3 mindən 10 min rubla kimi 3:2-yə, 10 min rubldan yuxarı pul əmanətləri isə 2:1-ə hesabı ilə dəyişdirilirdi. Bütün SSRİ ərazisində pul islahatı 1947-ci il dekabrın 16-dan 29-na kimi keçirildi. Dövlət Bankının məlumatına əsasən 37,2 mlrd. rubl köhnə pul dəyişdirildi və əhalinin pul vəsaiti 16 mlrd. rubla düşdü. İslahatın nəticəsində pul vəsaitini əmanət kassalarında deyil,

evdə yastıq altında saxlayan əhali xeyli zərər çəkdi və bunların üçdə bir hissəsi dəyişdirilməmiş qaldı. Kartoçka sisteminin ləğv edilməsi və pul islahatı ölkədəki istehlak bazasındakı vəziyyəti düzəldə bilmədi. 1950-ci ildə orta əməkhaqqı 650 rubla çatsa da, bir çox mallar, hətta çörək belə çatmırdı. Odur ki, yerlərdə kortəbii olaraq kartoçka yerinə talon, kuponlardan ibarət norma sistemi tətbiq edilməyə başlandı.

Maliyyə islahatı və kartoçka siteminin ləğv edilməsi 1946-1947-ci illərdən başlayaraq qiymətlərin artmasına səbəb oldu. Odur ki, dövlət ildən-ilə çox işlənən gündəlik tələbat mallarının və bahalı məhsulların qiymətlərini aşağı salmağa başladı. Dövlət kənd təsərrüfatı məhsullarını aşağı qiymətə alıb-baha satdığı üçün onun əlində artıq vəsait cəmləşirdi və ona sərbəst hərəkət etmək imkan verirdi. Beləliklə, ölkədə hökumətin istehlak mallarının qiymətini dəfələrlə aşağı salması əsasən kəndin və onun maddi vəziyyətinin pisləşməsi hesabına başa gəlirdi. 1949-cu ildən başlayaraq gündəlik tələbat mallarının dövlət qiyməti orta hesabla ildə 20% aşağı salınmışdır. 1947-1952-ci illərdə isə qiymət təqribən yarıya kimi aşağı düşmüşdür. Eyni zamanda ərzaq və sənaye mallarının qiymətinin mütəmadi olaraq aşağı salınması geniş əhali kütlələri arasında «sosializmin naliyyətinin» qüvvətli təbliği olmaqla ölkədə rəhbərin şəxsi hakimiyyət rejiminin yaranması və möhkəmlənməsinə xidmət edirdi.

Müharibədən sonra hökumətin yeritdiyi sosial siyasət cəmiyyətin demoqrafik vəziyyətinə də təsir göstərmişdir. SSRİ-nin əhalisi 1946-cı ildəki 170 550 min nəfərə qarşı 1950-ci ildə 178 547 min nəfər olmuşdur. 1946-1953-cü illərdə Sovet İttifaqının şəhər əhalisi 15,1, kənd əhalisi isə 9,9 mln. nəfər artmışdır. Böyüməkdə olan gənc nəsil kənddən şəhərlərə üz tutduğu üçün kəndlilərin sayı azalırdı. Əhalinin sayının azalmasının qarşısını almaq məqsədilə 1955-ci ilə kimi tibbi tələbat olmadan abortlar dövlət fərmanı ilə qadağan olunmuşdur. Gizli abort üçün cinayət məsuliyyətinə cəlb edilən cəza nəzərdə tutulurdu ki, ildə 40-60 min qadın belə cəzalara məruz qalırdı. 1944-cü ilin iyulunda boşanma prosedurunu çətinləşdirən fərman qəbul edildi. Bunun nəticəsində yalnız bir ildə qeyd olunan boşananların sayı 34 mindən 5,8 minə düşdü. Müharibədə milyonlarla kişi həlak olduğu üçün qadınların böyük əksəriyyəti ailə qurmaq ümidini itirərək, nikahdankənar uşaq dünyaya gətirməyə başladılar. 1946-1952-ci illərdə hər il aşağı-yuxarı 700-900 min arasında nikahdankənar uşaq doğulurdu.

Sovet adamlarının mənzil-məişət şəraiti ağır olaraq qalırdı. 1955-ci ildə hər bir şəhər əhalisinə 5,1 kv.m yaşayış sahəsi düşürdü. Bu müharibədən əvvəlki 4,5 kv.m göstəricisindən yüksək, 1928-ci ildəki 5,8 kv.m göstəricisindən isə aşağı idi. Ümumən dördüncü beşillik dövründə ölkə əhalisinin mədəni-

məişət işlərinə xeyli vəsait xərcləndi. 1946-1950-ci illərdə ümumi sahəsi 100 mln.kv.m.-dən artıq mənzil tikilmiş və bərpa edilmişdir. Kənd yerlərində isə 2,7 mln. yaşayış evi tikildi və bərpa edildi. Bunlara baxmayaraq, adamların yaşayış mənzillərinə böyük ehtiyacı var idi.

### §4. Siyasi rejim

Müharibədən sonra cəmiyyətdə siyasi rejimin müəyyən səviyyədə liberallaşması gözlənilsə də, bu baş vermədi. Əksinə dövlət rəhbərliyi daxili siyasi kursun sərtləşdirilməsi məqsədilə bir çox tədbirlər gördü. Üç il yarımda ordudan 8,5 mln. keçmiş döyüşçü tərxis olunaraq dinc həyata qayıtdı. Dörd milyon nəfərdən çox repatriat, hərbi əsir, işğal edilmiş ərazilərdən zorla aparılmış əhali, mühacirlərin bir hissəsi vətənə döndü. Vətənə qaytarılan 227 min hərbi əsirin yalnız 20%-i evlərinə dönə bildi, yerdə qalan böyük əksəriyyəti isə ya həbs düşərgələrinə göndərildi, ya da ən azı 5 il müddətinə müharibədə dağıdılmış rayonların bərpasında çalışmaq şərti ilə icbari sürgünə məruz qaldı. Ancaq 1956-cı ildə keçmiş əsirlər əfv edildi.

1939-1940-cı illərdə SSRİ-yə birləşdirilən ərazilər müharibə dövründə işğala məruz qalmaqla yanaşı, burada sovetləşməyə qarşı milli hərəkat, silahlı müqavimət, təqib və repressiyalar geniş yayılmışdı. Birləşdirmə və kollektivləşdirməyə qarşı xüsusilə Qərbi Ukrayna, Moldaviya və Baltikyanı ölkələrdə müqavimət hərəkatı güclü idi. 1939-cu ilin sentyabrında Qərbi Ukrayna SSRİ-yə ilhaq edildikdən sonra gizli silahlı təşkilat olan Ukrayna Millətçilər Təşkilatı (ОУН) meydana gəldi ki, müharibə zamanı onlar könüllü olaraq «Qalitçina» diviziyasında olduğu kimi SS birləşmələrinin tərkibinə daxil olaraq, kommunist və yəhudilərə qarşı mübarizə aparırdılar. 1944-cü ilin iyulunda sovet qoşunları Qərbi Ukrayna ərazisinə daxil olduqdan sonra UMT-nın lideri R.Şuxoviç sayı 20 min nəfərə çatan Ukrayna Üsyançılar Ordusunun (УПА) komandiri oldu. 1945-1946-cı illərdə Qərbi Ukraynanın kənd rayonları əsasən üsyançıların nəzarəti altında idi və onlar kollektivləşdirmə ideyasını qətiyyətlə rədd edərək Polşa və Çexoslovakiyanın sərhəd rayonlarında Qızıl Ordunun əməliyyatlarına müqavimət göstərirdilər. 1946-1948-ci illərdə SSRİ-dəki aclıq on minlərlə kəndlini Ukraynanın şərqindən qərbə qaçmağa məcbur etdi. Bunun sayəsində də üsyançılar öz sıralarını bir müddət möhkəmləndirə bildilər. Qərbi Ukrayna yalnız 1950-ci ildə kollektivləşdirmə həyata keçirildikdən sonra fəth edilə bildi və bu, 300 min nəfərə yaxın adamın 1945-1950-ci illərdə sürgün və həbs edilməsi sayəsində mümkün oldu. Ukraynanın qərbində

benderovçular kimi Baltikyanı respublikalarda «Meşə Qardaşları» gizli milli təşkilat yaradaraq sovet hakimiyyətinə qarşı silahlı müqavimət göstərirdilər. Belə birləşmələrin üzvlərinin böyük əksəriyyəti müharibə vaxtı işğalçılarla əməkdaşlıq edirdilər. Bununla bərabər, Ukrayna və Baltikyanı əhalinin Ukrayna Millətçilər Təşkilatını və «Meşə Qardaşları»nı müdafiə etməsinin səbəblərindən biri kimi sovet təhlükəsizlik orqanlarının yerli əhaliyə qarşı tətbiq etdiyi repressiya və təzyiqlər hesab edilməlidir. 1947-1953-cü illərdə Litva, Latviya, Estoniya, Moldaviya və Ukraynadan işğalçılarla işbirliyinə, anti-sovet fəaliyyətində iştirakına görə 280 min nəfərə yaxın adam sürgün və həbsə məruz qalmışdır. Sonradan bu insanların 65 min nəfərə yaxını əfv edilərək geri qayıtarılmışdır.

Müharibənin sonlarında sovet silahlı qüvvələrinin tərkibində 12 Sovet İttifaqı marşalı, 3 baş marşal, 12 sıravi xüsusi ordu marşalı, 2 donanma admiralı var idi. 1944-cü ilin avqustunda təkcə Qızıl Ordunun 2952 generalı var idi ki, onlardan da 1753 nəfəri general rütbəsini müharibə vaxtı almışdı. Müharibədən zəfərlə çıxmış, xalqın hörmət və məhəbbətini qazanmış hərbi sərkərdələr ilk gündən Stalin hakimiyyətinin ciddi nəzarəti altına düşmüşdü. 1945-ci ilin iyunun 27-də G.K.Jukov Moskva yaxınlığındakı bağ evində tanınmış qonaqların iştirakı ilə bir məclisdə olarkən onun haqqında Almaniyaya qalib gələn şəxs kimi tərifli sözlər, sağlıqlar deyilmişdi. Ertəsi gün məclisdəki danışıqların lent yazısı ilə İ.V.Stalin tanış olmuşdur. Bu İ.Stalinin marşaldan müharibədən sonra ilk narazılığına səbəb olmuşdur. Qərbin təbliğat maşını vəziyyəti daha da qızışdıraraq hərbçilərin Ali Sovetə seçkilər zamanı özlərinin deputatlığa alternativ namizədliyini irəli sürmələrindən, dövlətin ali vəzifələrinə G.K.Jukovun namizədliyindən bəhs edirdilər. Bu isə sovet hakimiyyətinin yüksək rəhbərliyinin şübhə və qısqanclığına gətirib çıxardı. Eyni zamanda öz fəaliyyətində müstəqil və azad xətti ilə seçilən sərkərdənin İ.Stalinin favoritlərindən biri olan dövlət təhlükəsizlik naziri V.S.Abakumovla münasibətlərinin gərginliyi vəziyyəti daha da kəskinləşdirmişdi.

Sərkərdəni ləkələmək məqsədilə «təyyarəçilərin işi»ndən istifadə olunmuşdur. 1946-cı ilin əvvəlində həbs edilən aviasiya marşalı S.A.Xudyakovun ifadəsi əsasında sovet ordusunun Hərbi Hava Qüvvələrinin komandanı A.A.Novikov və aviasiya sənayesi xalq komissarı A.İ.Şaxurinin istehsalat defekti olan təyyarələri qəbul etdikləri üçün çoxlu qəzaya səbəb olmaları iddia edilmişdi. V.S.Abakumovun uydurma materialları əsasında Novikov və Saxurin və beş nəfər onların əməkdaşı müxtəlif müddətə həbs cəzası almışdı. İstintaqın gedişində G.Jukovun əleyhinə «müharibədə ali baş komandanın rolunu azaltmaq» ifadəsi alınmışdır.

1946-cı ilin yazında Almaniyadakı sovet ordusu qrupunun 74 nəfər general və zabiti Almaniya və Avstriyadan müxtəlif əmlak, mebel, tablo, qiymətli əşya mənimsəməklə təqsirləndirilərək həbs olunmuşdur. Tezliklə G.Jukov başda olmaqla, hökumət əleyhinə hərbçilərin qəsdindən bəhs edilməyə başlandı. G.K.Jukov Almaniyadakı vəzifəsindən geri çagrılaraq 1946-cı ilin martında Sovet ordusu Quru Qoşunlarının Baş komandanı və SSRİ müdafiə nazirinin müavini təyin olundu. 1946-cı ilin iyunun 1-də Sovet İttifaqı və sıravi ordu marşallarının iştirakı ilə Ali Hərbi Şuranın iclasında «Jukovun işi» müzakirə edildi. Ona qarşı irəli sürülən ittihamları Siyasi Büronun üzvləri G.M.Malenkov və V.M.Molotov müdafiə etdi. Marşallar İ.S.Konev, A.M.Vasilevski, K.K.Rokossovski, P.S.Rıbalko qeyd etdilər ki, Jukovun xasiyyətində və işində nöqsanlar olsa da, o, «qəsdçi» ola bilməz. Marşal P.Ribalko xüsusi olaraq vurğuladı: «O vətənin vətənpərvəridir və bunu Böyük Vətən Müharibəsindəki döyüşlərdə qəti sübut etmişdir». Bütün bunlardan sonra İ.Stalin müzakirəyə belə yekun vurdu: «Yenə də siz – yoldaş Jukov, bir müddət Moskvanı tərk etməlisiniz». 1946-cı il iyunun 3-də G.Jukov Odessa Hərbi Dairəsinin komandanı təyin olundu. Ona qarşı yeni ittiham irəli sürüldü: G.Jukov Almaniyadan özünün şəxsi istifadəsi məqsədilə müxtəlif qiymətli əşyalar gətirərək mənimsəmişdir. 1947-ci ilin fevralında onu MK-nın üzvlüyünə namizədlikdən azad edib, 1948-ci ilin yanvarında Ural Hərbi Dairəsinin komandiri təyin etdilər.

Müharibədən sonra başqa generallar da çəkişmə və böhtanın qurbanı olmuşdur. Dövlət Təhlükəsizlik Nazirliyinin əməkdaşları, generallar V.N.Qordov və Q.İ.Kulikin İ.Stalin və ölkədəki siyasi sistem haqqında tənqidi fikirlərini dinləyərək onları «SSRİ-də kapitalizmin bərpasının tərafdarları» kimi ifşa etmişdir. Dəniz komandanları N.İ.Kuznetsov, L.M.Qaller, V.A.Alafuzov, Q.A.Stepanov müharibə vaxti müttəfiqlərə paraşüt torpedası haqqında hərbi-texniki məlumatı verməkdə ittiham edilərək cəzalandırılmışdır. Sonrakı illərdə də, hərbçilərə qarşı saxta cinayət işləri açılsa da, İ.V.Stalin 1937-1939-cu illərdə olduğu kimi onların məhvinə icazə verməmişdir.

Müharibənin sonlarından başlayaraq partiya və dövlətin ali vəzifə kürsüsündə ciddi kadr dəyişikliyi baş verdi. İ.V.Stalinin siyasi iş stajı çox olan silahdaşlarından L.M.Kaqanoviç 1942-ci ilin martında Xalq Nəqliyyat Yolları komissarı vəzifəsindən azad olundu, 1944-cü ildə K.E.Voroşilov DMK-nin tərkibindən çıxarıldı. V.M.Molotov sovet mətbuatında U.Çörçilin nitqinin çap edilməsinə icazə verdiyi və 1946-cı ildə SSRİ EA-nın fəxri üzvü seçilməsinə razı olduğu üçün İ.V.Stalin tərəfinfən sərt tənqid edildi. «Təyyarəçilərin işi»nə görə G.M.Malenkov tənqid olundu və 1946-cı il mayın 6-da ÜİK(b)P MK-nın Katibliyi tərkibindən azad olundu. L.Beriya 1945-ci ili avqustun

20-də DMK-nin nəzdində Xüsusi Komitənin sədri təyin olunduğu üçün 1945-ci ilin dekabrında daxili işlər naziri vəzifəsini S.N.Kruqlova təhvil verdi. Mövqeləri zəifləyən, lakin Siyasi Büronun üzvü qalan Beriya və Malenkov ÜİK(b)P MK-nın katibi A.A.Jdanova, onun irəli çəkdiyi SSRİ Dövlət Plan Komitəsinin sədri N.A.Voznesenski, MK-nın katibi A.A.Kuznetsov və RSFSR Nazirlər Sovetinin sədri M.İ.Rodionova qarşı imkan düşdükcə qaralama, ləkələmə işlərini davam etdirirdilər. 1948-ci ilin iyulun 1-də G.Malenkovun MK-nın katibi təyin edilməsi və avqustun 31-də A.Jdanovun qəfil ölümü «leninqradlı» partiya rəhbərlərinin məğlub olması ilə nəticələndi. 1949-cu ilin əvvəlində MK-nın katibi A.Kuznetsov vəzifəsindən azad olundu, N.Voznesenskini Siyasi Büronun tərkibindən çıxardılar. 1949-cu ilin martında V.Molotovu xarici işlər naziri vəzifəsində A.Y.Vışinski əvəz etdi. A.Kuznetsovla qohumluq əlaqəsinə görə A.Mikoyan xarici ticarət naziri vəzifəsindən azad edildi. 1949-cü ilin dekabrında N.S.Xruşşov Moskva şəhər Partiya Komitəsinin I katibi, MK-nın katibi seçildi.

1949-cü ildə G.Malenkovun fəal iştirakı sayəsidnə «Leninqrad işi» uyduruldu. Avqustda A.A.Kuznetsov, M.İ.Rodionov, P.S.Popkov hökümətin icazəsi olmadan Leninqradda topdansatış yarmarkası təşkil etdikləri üçün, N.A.Voznesenski qəsdən dövlət planın aşağı çəkdiyi, statistik hesabatları saxtalaşdırdığı, gizli sənədləri yox etdiyi ittihamları ilə həbs olundular. Görünür, yüksək vəzifələr tutan «cinayətkarlar» həbs olunduğu üçün 1947-ci ilin mayın 26-dan ləğv olunan ölüm hökmü 1952-ci ilin yanvarında bərpa olundu. Mühakimə olunanlara qarşı Leninqrad mərkəz olmaqla, müstəqil ittifaq respublikalarında olduğu kimi Rusiya Kommunist Partiyasının yaradılması, ölkənin qafqazəsilli rəhbərliyinin dəyişdirilib ruslarla əvəz edilməsi planları kimi ittihamlar irəli sürülmüşdür. 1950-ci ilin sentyabrında mühakimə edilənlər məhkəmə qarşısına çıxarıldılar. 1950-ci il oktyabrın 1-də 26 nəfər əsas mühakiməçi güllələndi, 69 nəfər rəhbər işçi, 145 yaxın və uzaq qohum işdən azad olunaraq müxtəlif həbs cəzası aldı. «Leninqradlıların» uduzması həm də ölkənin xalq təsərüfatında siyasi mənəvi və sosial-mədəni inkişafın önə çəkilməsinin tərəfdarlarının məğlubiyyəti, «soyuq müharibə» şəraitində hərbi sənaye kompleksini birinci növbədə inkişaf etdirmək tərəfdarlarının qələbəsi hesab edilməlidir.

1951-ci ilin iyulunda «təyyarəçilər», Jukov, «Leninqrad işi»nin təşkilatçısı, dövlət təhlükəsizlik naziri V.S.Abakumovun yəhudi antifaşist komitəsinin «cinayətini» araşdırması İ.Stalini qane etmədiyi üçün o, həbs edildi. Komitənin rəhbəri S.M.Mixoels İ.Stalinin qızı Svetlana və onun əri Q.İ.Morozovu yəhudilərin mənafeyi naminə qərəzli məqsədlə istifadə etmək iddiası ilə Dövlət Təhlükəsizlik Nazirliyi əməkdaşlarının təşkil etdiyi fərz edilən maşın qəzasında

1948-ci ilin yanvarında həlak olmuşdur. İ.Stalinin yəhudi antifaşist kanalı vasitəsilə ABŞ-da yayılan arvadı Nadejda Sergeyevnanın 1932-ci ildə ölümündə təqsirləndirilməsi şayiəsi, yaxın qohumlarının «hökümət üzvlərinin ünvanına uydurma böhtan» danışdıqları üçün həbs edilməsinin yayılması Mixoelsin «yəhudi millətçisi» və bu böhtanları yayan kimi damğalanmasına səbəb olmuşdur.

BMT-nin Təhlükəsizlik Şurasının 1947-ci il noyabrın 29-da qəbul etdiyi qətnaməyə əsasən 1948-ci il mayın 14-də İsrail dövləti meydana gəldi. 1948-ci ilin sentyabrında İsrailin elçisi Qolde Meyerson (1956-ci ildən Meir) Moskvaya gələrək bir sıra görüşlər keçirdi. Bir çox sovet yəhudisi tarixi vətənlərinə köçmək arzusunu, İsrail-Ərəb müharibəsində könüllü olaraq iştirak etmək istəyini dilə gətirdi. Bu isə Sovet vətəninə xəyanət kimi qiymətləndirildi. Bundan başqa, V.Molotovun həyat yoldaşı P.S.Jemçujunanın Meyersonla dostluq münasibətləri də İ.Stalinin xoşuna gəlməmişdi.

ABŞ-la sıx münasibətləri olan İsraili öz təsir dairəsində saxlamağa səy göstərən SSRİ ərəblərə silah yardımı ilə bərabər, Fələstin qaçqınlarına Orta Asiyada Ərəb ittifaq respublikası və ya muxtar vilayəti yaratmağı da təklif etmişdir. Bu gözlənilən nəticəni vermədiyi üçün «yəhudi millətçiliyi» ilə birdəfəlik qurtarmaq məqsədilə 1948-ci il noyabrın 28-də MK-nın Siyasi Bürosu Yəhudi Antifaşist Komitəsini (EAK) «dərhal buraxmaq» haqqında qərar qəbul etdi. Komitənin Rəyasət heyətinin 14 üzvü və fəalı, o cümlədən şairlər D.P.Bergelson, L.M.Kvitko, P.D.Markiş, RSFSR dövlət nəzarət nazirinin müvaini S.L.Breqman, yəhudi teatrında Mixoelsun vəzifəsini tutan V.L.Zuskin, YAK-nin katibi İ.S.Fefer, S.P.Botkin adına Mərkəzi Klinik Xəstəxananın baş həkimi B.A.Şimelioviç, komitəyə himayəçilik edən P.S.Jemçujina və b. həbs olundular. 1951-ci ilin iyulun 2-də dövlət təhlükəsizlik nazirinin xüsusi işlər üzrə müstəntiqi M.D.Ryumin çox güman ki, G.Malenkovunköməyi sahəsində İ.V.Stalinə məktubla müraciət edərək bildirdi ki, V.Abakumov qəsdən «YAK-nin işi»ni dayandırır. Faktları araşdırarkən Siyasi Büronun üzvləri olmuş A.S.Şerbakov, A.A.Jdanovu məhv edən və ölkənin başqa yüksək rəhbərlərin sıradan çıxararaq, Abakumovu hakimiyyətə gətirməyə çalışan «zəhərləyən həkimlərin işi» meydana gəldi. İş dərinləşdikcə Kremlin müalicə sanitar idarəsinin şöbə rəisi L.F.Timaşukun A.Jdanovun ölümcül diaqnozunun gizlədilməsi haqqında məktubu İ.Stalinin dörddə bir əsr mühafizəsinə rəhbərlik edən N.S.Vlasikin,

MK-nın üzvü, 1935-ci ilin avqustundan partiya dəftərxanasının müdiri A.N.Poskrebışevin etimadı itirərək vəzifələrindən azad edilmələrinə səbəb oldu.

DTN-də iddia olunan qəsd İ.Stalin üçün böyük tapıntı oldu. Milliyətçilik və sionizm tapıntısından istifadə edərək, yəhudilərlə qohumluq əlaqəsi olan Molotov, Voroşilov, Mikoyan, Kaqanoviç, Andreyev və digər partiya, dövlət

rəhbərlərini hakimiyytədən uzaqlaşdırıb, qalib gəlmiş xalqın maddi və mənəvi həyatındakı çətinlikləri də onların üzərinə yıxmaq olardı.

1952-ci ilin oktyabrında 16 ildən sonra çağrılan partiyanın 19-cu qurultayında ÜİK(b)P-nin adı dəyişdirilərək Sov.İKP oldu. Oktyabrın 16-da MK-nın plenumunda əvvəlki 9 nəfər üzvü, 2 nəfər üzvlüyə namizəddən ibarət Siyasi Büronun yerinə 25 nəfər üzv və 11 nəfər namizəd seçilən Rəyasət Heyəti təşkil olundu. Əvvəl 4 nəfərdən ibarət olan Katiblik 10 nəfərdən təşkil edildi. Bu gələcəkdə yeni kadrların irəli çəkilməsi məqsədilə ehtiyat qüvvəsi hazırlanması anlamına gəlirdi. Plenumda İ.Stalin, V.Molotov və A.Mikoyanı ləyaqətsizlikdə, qorxaqlıqda və amerikan kapitalizmi qarşısında təslimçilikdə ittiham etdi. Y.Voroşilova siyasi etimadsızlıq elan olundu. Partiyanın Nizamnaməsində olmamasına baxmayaraq Stalin, Beriya, Bulqanin, Kaqanoviç, Malenkov, Saburov və Xruşşovdan ibarət Rəyasət Heyətinin bürosu seçildi. İ.V.Stalin ətrafında olan «köhnə partiya qvardiyası» məhdud saya düşdü.

1951-ci ilin noyabrında «Gürcüstanda rüşvətxorluq və Baramiyanın antipartiya qrupu haqqında» qətnamə qəbul edilərək respublikada Gürcüstan KP MK-nın katibi M.İ.Baramiyanın rəhbərliyi ilə minqrel millətçi təşkilatının aşkarlandığı elan olundu. MK 1952-ci il martın 27-də yeni qətnamə qəbul edərək göstərdi ki, Gürcüstan Kommunist Partiyasındakı gizli millətçi qrupun məqsədi Gürcüstanı SSRİ-dən ayırmaq olmuşdur. «Minqrel işi» üzrə «burjua millətçisi» adı ilə Gürcüstan KP MK bürosunun 11 üzvündən 7 nəfəri, 427 nəfər vilayət, şəhər, rayon, partiya təşkilatı katibi həbs olunmuşdur. Minqreliyadan olan bütün partiya fəalları həbs edilmişdir.

1952-ci ilin noyabrında Kremlin müalicə-sanitar idarəsinin rəisi P.İ.Yeqerov, tanınmış tibb professorları V.N.Vinoqradov, V.X.Vasilenko, M.S.Vovsi, B.B.Koqan həbs olunaraq Lubyanka həbsxanasına salındılar. Dekabrın 4-də MK-nın qərarı əsasında «zəhərləyən həkimlər»in günahı V.Abakumov və N.Vlasikin üzərinə qoyuldu. Səhiyyə naziri E.İ.Smirnov vəzifəsindən azad edildi. Yanvarın 13-də SİTA (TACC) belə bir məlumat yaydı ki, təhlükəsizlik orqanları Sovet İttifaqının fəal rəhbərlərinin həyatını müalicə vasitəsilə qısaldan həkimlərin terrorçu qrupunu aşkar etmişdir. Adı sadalanan 9 nəfər həkimin 6-sı yəhudi, 3-ü rus idi. Lakin İ.Stalinin dövründə «zəhərləyən həkimlər»in işi məhkəməyə çıxmadı. 1952-ci ilin fevralın 25-dən sonra ABŞ prezidenti Eyzenhauerin Stalinlə görüşməyə razılıq verməsi SSRİ-də antisionist və antiamerikan təbliğatın dayandırılmasına səbəb olmuşdur.

1953-cü il fevralın 28-dən martın 1-nə keçən gecə İ.V.Stalinin beyninə qan sızdı, o komaya düşdü. Martın 2-də xəstəni müayinə edən SSRİ Səhiyyə Nazirliyinin terapevti, professor P.Y.Lukomski, TEA-nın akademikləri

A.L.Myasnikov, Y.M.Tareyev və b. xəstəyə beyninə qansızma – insult diaqnozu qoydular. Martın 6-da SİTA xəbər yaydı ki, martın 5-i saat $21^{50}$-də Leninin işinin dahi davamçısı, Kommunist Partiyasının və bütün Sovet xalqının rəhbəri İosif Vissarionoviç Stalinin qəlbi dayanmışdır. İ.Stalinin cənazəsi Kuntsevodan İttifaqlar Evinə gətirildi və on minlərlə adam cənazənin önündən keçərək onunla vidalaşdı. G.Malenkov, L.Beriya və V.Molotovun vida nitqindən sonra cənazə Leninin sarkofaqı ilə yanaşı Mavzoleyə qoyuldu.

İosif Vissarionoviç Stalin (Cuqaşvili) (1879-1953) – peşəkar inqilabçı, sovet dövlət xadimi, 1930-cu illərin ikinci yarısından 1953-cü ildə ölümünə kimi SSRİ-nin təkbaşına rəhbəri Tiflis quberniyasının Qori şəhərində kustar çəkməçi ailəsində doğulmuş, 1899-cu ildə inqilabi fəaliyyətinə görə təhsil aldığı Tiflis Dini Pravoslav Seminariyasından xaric edilmişdir. 1898-ci ildən RSDFP-nin üzvü olaraq Cənubi Qafqazda, Peterburqda gizli inqilabi fəaliyyətlə məşğul olaraq partiyanın maliyyə köməyinə cavabdeh olmuşdur. 1902-1913-cü illərdə altı dəfə həbs və sürgünə məruz qalmış, dörd dəfə qaçmağı bacarmışdır. 1912-ci ildəki Paris konfransında Leninin təklifi ilə MK-ya kooptasiya edilmişdir. Fevral inqilabından sonra MK Rus bürosunun və «Pravda» qəzeti redaksiya heyətinin üzvü olmuşdur. II Ümumrusiya Sovetlər Qurultayında Milli İşlər üzrə Xalq kommisarı seçilmişdir. Vətəndaş müharibəsi dövründə 1918-ci ildən İnqilabi Hərbi Şuranın üzvü olaraq bir sıra cəbhələrdə fəaliyyət göstərmişdir. 1917-ci ilin oktyabrında MK Siyasi Bürosunun üzvü, 1922-1934-cü illərdə MK-nın Baş katibi, 1934-1953-cü illərdə MK-nın katibi, 1941-ci ilin mayından Xalq Kommisarları Sovetinin sədri olmuşdur. Böyük Vətən müharibəsi illərində Stalin, eyni zamanda hökumətin başçısı, Müdafiə Xalq kommisarı, Dövlət Müdafiə Komitəsinin sədri, Ali Baş Komandan olaraq siyasi və hərbi hakimiyyəti öz əlində toplamışdır. 1943-cü ildə marşal, 1945-ci ildə Sovet İttifaqının generalissimus rütbələrini almışdır. 1939-cu ildə SSRİ Elmlər Akademiyasının fəxri üzvü seçilmişdir. 1939-cu ildə Sosialist Əməyi Qəhrəmanı, 1945-ci ildə Sovet İttifaqı qəhrəmanı adına layiq görülmüşdür. Ölümündən sonra L.P.Beriya, G.M.Malenkov və N.S.Xruşov onu «şəxsiyyətə pərəstiş» ittihamı ilə ifşa edərək keçmiş illərin bütün səhv və cinayətlərini Stalinin üzərinə yıxmışlar. Tarixi ədəbiyyatda Stalinin şəxsiyyəti və fəaliyyəti ilə bağlı olaraq bir-birinə diametral zidd olan müxtəlif fikir və qiymət mövcuddur.

## §5. Mədəni həyat. İdeoloji kampaniya və diskussiyalar

Hakimiyyət müharibə dövründə bir qədər zəifləmiş intellektual həyata nəzarəti gücləndirməyə başladı. 1946-cı ilin yayından başlayaraq mədəni yaradıcılıq sahəsində aşkar edilən «xarici təsir», «metafizik ənənə», «xırda burjua fərdiyyətçiliyi» və «sənət sənət üçündür» prinsiplərinə söykənən azadlıqlar üzərinə genişmiqyaslı hücum təşkil olundu. Partiya və hökumətin sərtləşdirdiyi bu ideoloji kursa ÜİK(b)P MK-nın katibi A.A.Jdanov başçılıq edirdi və kampaniya onun qurbanlarının dili ilə «jdanovçuluq» kimi tarixə düşmüşdür. 1946-cı ilin yayında ölkədə aclığa səbəb olan iqtisadi böhran şəraitində hakimiyyət ziyalıları susdurmaq və onlar tərəfindən hökumətin iqtisadi siyasətinin tənqidinin qarşısını almaq məqsədilə yaradıcı ziyalıların üzərinə hücuma keçdi. 1946-cı il avqustun 14-də A.A.Jdanovun məruzəsi əsasında ÜİK(b)P MK-nın, «Zvezda» və «Leninqrad» jurnalları haqqında» qərarı qəbul olundu. Partiyaya yad olan ideologiyanı təbliğ etdikləri üçün, xüsusilə şairə A.A.Axmatova və satirik M.M.Zoşşenkonun sovet cəmiyyətinin tələblərinə cavab verməyən «prinsipsiz» və «vicdansız» əsərlərin çap etdiyi üçün «Zvezda» jurnalına töhmət verildi, «Leninqrad» jurnalı isə bağlandı. Bir neçə gündən sonra A.Axmatova və M.Zoşşenko Yazıçılar İttifaqı sıralarından xaric edildilər və uzun müddət onlara çap olunmaq imkanı verilmədi. Yazıçılar İttifaqının yığıncağında çıxış edən A.Jdanov M.Zoşşenkonun «Meymunların sərgüzəştləri» («Приключения обезьян») əsərinə qiymət verərək göstərdi ki, müəllif antisovet təbliğatı yayaraq, demək istəyir ki, heyvanxanada barmaqlıqlar arasında yaşayıb nəfəs almaq azadlıqda sovet adamları arasında yaşayıb nəfəs almaqdan daha yaxşıdır. A.Fadeyev Yazıçılar İttifaqı idarə heyətinin birinci katibi seçildi və ona bu təşkilatda qayda-qanun yaratmaq tapşırıldı.

ÜİK(b)P MK-nın 1946-cı il sentyabrın 4-də «Böyük həyat» («Большая жизнь») kinofilmi haqqında qərarında rejissorlar L.D.Lukov, S.İ.Yutkeviç, A.P.Dovjenko, S.A.Gerasimovun yaradıcılığına alçaldıcı qiymət verilmişdir. İdeyasızlıq, sovet həqiqətinin təhrif edilməsi, Qərb qarşısında səcdə, qeyri-vətənpərvərlik onların yaradıcılığının əsas nöqsanlı cəhətləri kimi qeyd olunmuşdur. S.M.Eyzenşteyn tarixi faktları təhrif etməkdə, İvan Qroznının proqressiv opriçnik qoşununu degenerat dəstə şəklində təsvir etməkdə təqsirləndirilmişdir.

1948-ci il fevralın 10-da ÜİK(b)P MK «Böyük dostluq» operası haqqında qərar qəbul edərək V.İ.Muradelinin «Böyük dostluq» («Великая дружба») operasını ideyasızlıq və burjua ideyasının qalıqlarına xas cəhətlərinə görə kəskin tənqid etdi. Konkret olaraq V.Muradeli 1918-1920-ci illərdə Şimali

Qafqazda sovet hakimiyyəti uğrunda mübarizədə rus xalqı ilə gürcü və osetin xalqları arasında düşmən münasibətlərə dair tarixi faktları saxtalaşdırmaqda günahlandırıldı. Bu qərarda bir çox istedadlı bəstəkarlar, o cümlədən S.Prokofyev, D.Şostakoviç, N.Mayaskovski, V.İ.Muradeli, V.Y.Şebalin «formalizmə əsaslanan xalqdan uzaq» musiqi əsərləri yazdıqları üçün ciddi tənqid olundular. Qərara müvafiq olaraq «Antiformalist» kampaniyası çərçivəsində Bəstəkarlar İttifaqında təmizləmə aparıldı, demək olar ki, bütün məşhur musiqi xadimləri cəzalandırıldılar, lakin 30-cu illərin təcrübəsindən fərqli olaraq onlar həbs düşərgələrinə göndərilmədilər.

Müharibədən sonra ideoloji işin əsas istiqamətlərindən biri Qərb qarşısında yaltaqlananlara və rus mədəniyyətinin dünya əhəmiyyətini inkar edənlərə qarşı mübarizə apararaq, sovet vətənpərvərliyini möhkəmləndirməkdən ibarət olmuşdur. 1947-ci ilin ortalarından kosmopolitizmlə mübarizə başlamışdır. Rəsmi sovet təbliğatının elan etdiyi kimi, uzun illər mətbuatda səhv olaraq rus və SSRİ-nin başqa xalqlarının mədəniyyətinin əhəmiyyətinin kiçildilməsi burjua kosmopolitizm ideologiyasının yayılmasına şərait yaratmışdır. Bu özünü ədəbiyyat və incəsənətdə, ictimai fikir tarixində, elm, texnika, ictimai və sosial-siyasi sahələrdə göstərirdi. Bir çox əsərdə rus mədəniyyətinin Qərbdən qaynaqlanması ideyasının yanlış olduğunu qeyd edən sovet təbliğat maşını kosmopolitizmi milli ənənələrdən, milli ləyaqət və şərəf hissindən imtina edən irticaçı ideologiya kimi səciyyələndirmişdir. Qeyd edilirdi ki, kosmopolitizm insanın öz millətinə, onun keçmişinə, bu gününə və gələcəyinə nihilist münasibət təlqin edir. «Dünya mədəniyyəti» ideyasını təbliğ edən kosmopolitlər milli mədəniyyətlərin qarşılıqlı zənginləşməsindən bəhs etməklə, əslində başqa millətlərə qarşı imperialist, böyük dövlətçilik şovinizmi baxımından yanaşır, yaxud öz millətinə qarşı onun milli maraqlarını sataraq nihilist münasibət bəsləyirlər. Müharibədən sonra irticaçı amerikan imperializminin kosmopolitizm siyasətini özünün ideoloji bayrağına çevirməsi SSRİ-də ona qarşı mübarizənin daha aktual və kəskin olmasını tələb edir.

Qərb mədəniyyəti qarşısında səcdə edənlərə və kosmopolitizmə dair vəzifələr D.T.Şepilovun 1947-ci ilin avqustun 13-də «Pravda» qəsetində çap edilmiş «Sovet vətənpərvərliyi» («Советский патриотизм») məqaləsində verilmişdir. Müəllif iddia edir ki, sovet quruluşu yüz dəfə burjuaziya quruluşundan yüksək və yaxşıdır, Sovet İttifaqı geniş inkişaf etmiş sosialist demokratiyası ölkəsidir, hazırda rus dili, Sovetlər ölkəsi xalqlarının elm və mədəniyyəti olmadan heç bir sivilizasiyadan söhbət gedə bilməz. Kosmopolitizmə qarşı mübarizə kampaniyasını MK-nın təbliğat və təşviqat idarəsi (1948-ci ilin iyulundan şöbəsi) istiqamətləndirirdi.

II Dünya müharibəsinin sonlarından «ümumdünya hökuməti» yaratmaq uğrunda amerikan hərəkatı başlamışdır. 1945-ci ilin sentyabrından hərəkata qoşulan görkəmli fizik A.Eynşteyn qeyd edirdi ki, sivilizasiya və bəşəriyyəti xilas etməyin yeganə yolu dünya hökuməti yaratmaqdır. Sovet tərəfi bu təklifi qəbul etməyərək bildirdi ki, yeni müharibənin qarşısının alınmasının yeganə yolu bütün antiimperialist və demokratik qüvvələrin yeni müharibə planlarına qarşı birləşməsidir. Ümumdünya hökuməti yaratmaqla, kosmopolitizmi təbliğ edənlər əslində sovet vətənpərvərliyini aradan qaldırıb onu ümumbəşəri dəyərlərlə əvəz etməyi planlaşdırırdılar. Artıq 1949-cu ilin əvvəlində Qərb dünyasının müxtəlif səpkili, Roma papasından tutmuş sağ sosialistlərə kimi olan qüvvələr kosmopolitizm ideyasını yaymaqda birləşdilər. SSRİ buna ona qarşı vahid cəbhə təşkil edilməsi kimi baxırdı.

Müharibədən sonra Qərb qarşısında səcdə etməyi aradan qaldıraraq sovet vətənpərvərliyinin möhkəmləndirilməsi kampaniyası 1948-ci ilin sonundan antisemit xarakteri daşımağa başladı. İsrail və ABŞ-la yaxşı münasibətləri olan, özlərinin iqtisadi və mədəni əlaqələrində Qərbin burjua ölkələrini önə çəkən şərait yəhudiləri şübhəli vətəndaş və potensial xain kimi şübhə doğurmağa başladı. Ziyalılar içərisində yəhudilərin çoxluğu, Yəhudi Antifaşist Komitəsi üzvlərinin həbsi kosmopolitizmlə mübarizə şəraitində sovet hakimiyyətinin yəhudilərə qarşı siyasətini sərtləşdirmişdi. 1949-cu il fevralın 8-də Siyasi Büronun qərarı ilə yəhudi yazıçıların Moskva, Kiyev, Minsk birlikləri buraxıldı, almanaxları bağlandı. Ədəbi-bədii dairələrdə, qəzet, radio, elmi-tədqiqat institutları və ali məktəblərdə kosmopolitləri aşkar edərək təqib etməyə başladılar. İ.Q.Erenburqun məlumatına əsasən, 1953-cü ilə kimi 217 yazıçı, 108 aktyor, 87 rəssam, 19 musiqiçi həbs edilmişdir. 1949-cu il martın 23-dən kampaniya kəsərini azaltmışdır. Lakin buna baxmayaraq həbs edilən kosmopolit yəhudilər azad edilmədi. İşdən çıxarılanlar əvvəlki yerlərinə bərpa olunmadılar.

Qərb qarşısında səcdə edənlərlə mübarizədə Tibb Elmlər Akademiyasının müxbir üzvü N.Q.Klyuyeva və professor Q.İ.Roskinin «işi» ayrı yer tutur. Onları 1946-cı ildə çap etdirdiyi «Bədxassəli şişlərin biomüalicəsi» («Биотерапия злокачественных опухолей») kitabı tezliklə xərçəngin dərmanının tapılması ümidini yaradırdı. Moskvadakı amerikan səfiri U.Smitin təklifi ilə SSRİ səhiyyə naziri Q.A.Miterevin razılığı ilə ABŞ-a ezam edilən akademik-katib V.V.Parin amerikan mütəxəssisləri ilə birgə çalışmaq məqsədilə kitabın əl yazısını və dərman preparatının ampulasını noyabrın 27-də onlara təqdim etdi. Bundan xəbər tutan İ.V.Stalin sovet alimlərinin mühüm kəşfinin qarşı tərəfə verilməsinin qəti əleyhinə çıxmışdır. 1947-ci ilin fevralında Miterev vəzifəsindən

azad edildi, Parin 1948-ci ilin aprelində həbs edilərək Vətənə xəyanət etdiyi maddəsi ilə 25 il həbs cəzası aldı.

Antikosmopolitzm kampaniyası çərçivəsində 1947-ci ilin iyununda Klyuyeva və Roskin üzərində «vicdan məhkəməsi» təşkil olundu və onlara ictimai töhmət elan edildi. Ümumən ölkədə 82 belə məhkəmə elmi, tədris, dövlət idarələrində, nazirlik və yaradıcılıq ittifaqlarında yaradılmışdır. İki il ərzində belə məhkəmələrdə 50 proses təşkil edilmişdi.

Kapitalist dünyasının Sovet vətəndaşlarına təsir imkanını azaltmaq məqsədilə təcridetmə siyasətinin nəticəsi olaraq 1947-ci ilin fevralın 15-də «SSRİ vətəndaşlarının xaricilərlə nikah bağlamasının qeydiyyatının qadağan olunması haqqında» fərman elan olunmuşdur (1953-cü ilin sentyabrında ləğv edilmişdir).

Müharibədən sonra «elmi diskussiya»lar ideoloji siyasətin tərkib hissəsinə çevrilmişdir. 1947-ci ilin yanvar və iyun aylarında Q.F.Aleksandrovun «Qərbi Avropa fəlsəfəsinin tarixi» («История Западно Европейской философии», 1946) əsəri üzrə iki diskussiya təşkil edilmişdir. Kitab obyektivliyinə, idealizmə diqqətinə, rəqiblərin fəlsəfəsini tənqid etmədiyinə, rus fəlsəfəsinin rolunun kiçildilməsinə görə tənqid olunmuşdur.

1947-ci ilin mayında E.S.Varqanın «II Dünya müharibəsi nəticəsində kapitalizmin iqtisadiyyatındakı dəyişiklik» («Изменения в экономике капитализма в итоге II Мировой войны», 1946) əsəri üzrə diskussiya keçirilmişdir. Müəllifin ABŞ və İngiltərə dövlətlərində burjuaziya ilə bərabər zəhmətkeşlər də siyasətdə iştirak etdiyi üçün sinfi ziddiyyətlərin kəsərinin azalması fikri ciddi tənqid olunmuşdur. Xüsusilə kapitalizmdə istehsal qüvvələrinin tərəqqisi mülahizəsi müəllifin «casus» damğası almasına və kitabda vətənpərvərliklə bağlı heç bir şey olmadığının elan edilməsinə səbəb olmuşdur. Nəticədə, 1947-ci ilin payızında E.S.Varqanın rəhbərlik etdiyi Dünya Təsərrüfatı və Dünya Siyasəti İnstitutu bağlanmışdır.

Müharibədən sonra ideoloji nəzarət elmin başqa sahələrini də əhatə etməklə, xarici elmi əlaqələrin tamamilə məhv edilməsinə səbəb olmuşdur. Aqrobiologiya sahəsində akademik T.D.Lısenko qrupunun inhisarçı mövqeyi bir sıra elm sahəsinin məhv edilməsinə zəmin yaratmışdır. 1948-ci ilin avqustunda Lenin adına Ümumittifaq Kənd Təsərrüfatı Elmlər Akademiyasının sessiyasından sonra genetika sahəsindəki tədqiqatlar dayandırılmış, N.İ.Vavilov, N.K.Katsov, S.S.Çetverikov, A.A.Serebrovski kimi görkəmli alimlərin elmi naliyyətləri unudulmuşdur. Lısenkonun opponentləri genetiklərlə bərabər fizioloqlar, torpaqşünaslar, tibb sahəsində çalışanlar arasında da təqib edilərək işdən azad olunurdular. Lısenko müasir fizikada idealizmə qarşı mübarizə

pərdəsi altında A.Eynşteynin sovet davamçıları L.D.Landau, İ.E.Tamm, Y.B.Xariton, Y.B.Zeldoviç, V.L.Ginzburq, A.F.İoffenin üzərinə hücuma keçdi. Nisbilik nəzəriyyəsini və kvant mexanikasını idealizm kimi qələmə verilərək ondan əl çəkilməsi, əslində atom bombasından imtina edilməsi demək olardı. Odur ki, bomba fizika elmini və görkəmli fizikləri təqibdən xilas etmişdir.

1950-ci ildə İ.Stalin şəxsən dilçilik elmi diskussiyasnda iştirak etmişdir. Dilçilikdə akademik N.Y.Marrın 1920-ci illərin sonunda irəli sürdüyü nəzəriyyə hakim idi. 1920-ci illərdə dünya inqilabına və bütün ölkələrin proletariatının vahid dünya dilində danışa bilməsinə inam çox böyük olduğu üçün akademik yazırdı ki, bəşəriyyət dağınıq təsərrüfatları ictimai təsərrüfatda birləşdirib vahid dünya təsərrüfatına doğru irəlilədiyi üçün dil də ibtidai formasından nəhəng addımlarla vahid dünya dilinə doğru addım atır. Marra görə SSRİ-də milli dillərin qarşılıqlı zənginləşməsi nəticəsində vahid dil və düşüncə yaranır.

1950-ci illərin əvvəlində vahid dünya dilinə dair əsərlər əhəmiyyətini itirməyə başladı. Zaman rus dilinin xüsusi rolunu ön plana çəkmişdir, rus dili sosializmin dünya dili kimi təbliğ edilərək qeyd olunurdu ki, onun yayılması müstəqilliyə xələl gətirmədən milli ədəbiyyatın zənginləşməsinə səbəb olur.

Akademik N.Marra görə, dil öz inkişafında dörd mərhələdən keçmişdir. Aşağı mərhələdə Çin və bəzi Afrika dilləri dayanır. İkinci mərhələdə uqrofin, türk, monqol dilləri, üçüncü mərhələdə qafqaz və xamit dilləri, ən yüksəkdə semit və hind-avropa, yəni ərəb, yəhudi, hind, yunan, latın dilləri gəlir. Belə çıxır ki, Çin dili başlanğıc mərhələ ilə bağlıdır, gürcü dili isə öz inkişaf mərhələsində hətta yəhudi dilindən də sonra gəlir. İ.V.Stalin «Marksizm və dilçilik məsələləri» («Марксизм и вопросы языкознания») kitabçasın yazaraq göstərdi ki, N.Y.Marrın nəzəriyyəsin marksist hesab etmək olmaz, olsa-olsa, o, proletkultçular kimi marksizmi vulqarlaşdırandır. İ.Stalinə görə, rus dili hazırda ən zəngin və qabaqcıl dil kimi, millətlərarası ünsiyyətin əsas vasitəsi kimi gələcək vahid dünya dilinin yaranmasında əhəmiyyətli rol oynayacaq.

1951-ci il noyabrda siyasi iqtisad dərsliyinin hazırlanması ilə bağlı diskussiya oldu. 1950-ci ilin mayında MK-nın Siyasi Bürosu iqtisadçı alimlər K.V.Ostrovityanov, L.A.Leontyev, D.T.Şepilov və başqalarına dərsliyi hazırlamağı tapşırdı. Bir ildən sonra dərsliyin maketi hazırlandı və müzakirəyə təqdim olundu. Müzakirələrdə 240 nəfərə yaxın alim iştirak etmişdir. Müzakirələrin gedişində İ.V.Stalinin axırıncı nəzəri işi olan «SSRİ-də sosializmin iqtisadi problemləri» («Экономические проблемы социализма в СССР») kitabı çap olundu. Kitabda bazar iqtisadiyyatı rədd edilərək, ölkənin iqtisadi həyatının daha da dövlətləşdirilməsindən, ağır sənayenin inkişafının prio-

ritetindən, kooperativ-kolxoz mülkiyyətinin dövlət mülkiyyətinə keçməsindən bəhs olunurdu. Kitabda mühüm siyasi yekun ondan ibarət idi ki, kapitalist ölkələri arasında müharibənin mümkünlüyü qalır, müharibə təhlükəsin aradan qaldırmaq üçün imperializmi məhv etmək lazımdır. «Siyasi iqtisad» («Политическая экономия») dərsliyi, Stalinin fikirləri əlavə edilməklə, sosializmin inzibati-amirlik iqtisadi sisteminin ilk nəzəri işi olaraq dəyişmədən 1985-ci ilə kimi qüvvədə qalmışdır.

Beləliklə, 1945-1953-cü illərdə iki bir-birinə zidd xətt dövlətin repressiv rolunun qalması və siyasi sistemin formal demokratikləşməsi davam etdirilmişdir.

## §6. Xarici siyasət

II Dünya müharibəsində antifaşist koalisiyasının iştirakçısı olan dövlətlər Almaniya və onun müttəfiqlərini məğlubiyyətə uğratdıqdan sonra beynəlxalq vəziyyət və qüvvələr nisbəti əsaslı sürətdə dəyişdi. Müharibənin başa çatması ilə dünənə qədər əməkdaşlıq edən antihitler koalisiyasının iştirakçı dövlətləri bir-biri ilə rəqabət aparmağa başladılar. Bu qanunauyğun bir vəziyyət idi, çünki dünənki müttəfiqlər bir-birinin sosial-siyasi sisteminə düşmən münasibət bəsləyirdilər. SSRİ müharibədən hərbi-iqtisadi gücünü və nüfuzunu artıraraq çıxsa da, bu ona böyük itkilər hesabına başa gəldi. Ölkə demək olar ki, viran edilmişdi. SSRİ-nin iqtisadiyyatına dəyən ziyan ölkənin 1940-cı ildəki milli gəlirindən 20 dəfə artıq idi. Təkcə Baltik və Şimal dənizlərini birləşdirən Skaqerrak boğazında almanlar 270 min ton zəhərli maddə batırmışdılar. Onların zəhər ehtiyatları Qara, Ağ, Oxot, Barents və Yapon dənizlərinin sularında gizlədilmişdi. Bunlar tədricən dünya okeanına yayılaraq bütün canlı həyatı təhlükədə qoydu. Rusiya, Ukrayna, Belorusiya ərazilərindəki partlamayan mina, mərmi, bombalar təhlükə saçırdı.

SSRİ-dən fərqli olaraq müharibədən sonra ABŞ nəhəng iqtisadi, hava, dəniz və atom gücü olan dünyada ağalıq edən fövqəlgücə çevrildi. Düzgün strateji siyasət yeridən ABŞ ümummilli məhsulunu 1,7 dəfə artıra bildi. Bu illərdə ABŞ-ın sənaye məhsulunun istehsalı 2,5 dəfə artmışdı və bu da SSRİ-dən 5 dəfə çox idi. Kənd təsərrüfatı məhsulu 36% artmışdı. 1945-ci ilin sonunda ABŞ-ın 196 atom bombası var idi, SSRİ-də isə atom bombası yox idi. Müharibədə onlar yalnız 405 min nəfər adam itirmişdir. Dollar sabit valyutaya, Nyu York isə dünyanın ən böyük maliyyə bazarına çevrilmişdi. Ölkənin iqtisadiyyatı tezliklə sülh dövrünün tələblərinə uyğun olaraq yenidən quruldu,

işçilərin əməkhaqqısı artırıldı, istehsalın texnologiyası və əmək məhsuldarlığı dünyada ən yüksək səviyyəyə çatdı. 1945-ci ildə prezident H.Trumen konqresə göndərdiyi müraciətdə qeyd edirdi ki, II Dünya müharibəsindəki qələbə Amerika xalqını dünyanı idarə etmək zərurəti qarşısında qoyur. Odur ki, Ağ ev gələcəkdə SSRİ ilə müttəfiqlik münasibətlərini kəsməyi nəzərdən keçirirdi. Müharibənin yekunlarından biri kimi bir sıra kapitalist dövlətləri böyük ölkə statusunu itirdiyi üçün dünya ağalığı iddiasında olan ABŞ-ın hədəfində məhz SSRİ və Şərqi Avropanın kommunist blokuna daxil olan ölkələr dururdu.

II Dünya müharibəsinin əsas yekunlarından biri sosializmin bir ölkə çərçivəsindən çıxıb dünya sisteminə çevrilməsi oldu. Belə ki, II Dünya müharibəsinə kimi sosializm ancaq SSRİ və Monqolustanda meydana gəlmişdir. Müharibə başa çatdıqdan sonra isə 11 ölkə kapitalist sistemindən ayrıldı və sosializm dünya ərazisinin 26%-i, əhalisinin 35%-ni əhatə edən dünya sisteminə çevrildi. Mərkəzi və Şərqi Avropanın yeddi ölkəsində hakimiyyətə sol, demokratik qüvvələr gəldi. Onların təşkil etdiyi yeni hökumətlərə kommunist və fəhlə partiyalarının nümayəndələri başçılıq etməyə başladı. Albaniya, Bolqarıstan, Macarıstan, Rumıniya, Polşa, Yuqoslaviya və Çexoslovakiyanın yeni hökumətləri öz ölkələrində aqrar islahatlar keçirdilər, iri sənayeni, bank və nəqliyyatı milliləşdirdilər.

Şərqi Avropada kommunistlərin hakimiyyətə gəlməsi iki mərhələdə həyata keçmişdir: Birinci, 1947-ci ilin ortalarına kimi davam edən dövlət qurluşunun «xalq demokratiyası» modeli idi. Burada sosializmin milli yolu konsepsiyası əsas götürülməklə yeni quruluşa tədricən təkamül yolu ilə irəliləmək nəzərdə tutulurdu. Proses vətəndaş sülhünə, siniflərarası ittifaqa əsaslanmaqla vətəndaş müharibəsi və proletariat diktaturasın inkar edirdi. İqtisadiyyatda xüsusi mülkiyyətin milliləşdirilməsinin sovet metodundan imtina olunurdu. «Soyuq müharibə» bu planı kökündən dəyişdirdi. Fransa, İtaliya, Finlandiyada kommunistlərin mövqeyinin zəifləməsi, Yunanıstanda kommunist müqavimət hərəkatının məğlub olması ilə SSRİ Şərqi Avropada nüfuzunu itirmək təhlükəsi altında bu ölkələrdə sosial-iqtisadi və siyasi dəyişiklikləri tezləşdirmək xətti seçdi. Sovet modeli üzrə dəyişikliklər «xalq demokratiyası» koalision hökumətlərinin istefası, kommunistlərin hakimiyyətə gəlməsi demək idi. 1946-cı ilin noyabrında belə hökumət Georgi Dmitrovun rəhbərliyi ilə Bolqarıstanda təşkil olundu. 1947-ci ilin yanvarında Polşanın prezidenti və Dövlət şurasının sədri Polşa Birləşmiş Fəhlə Partiyasının MK-nın sədri Boleslav Berut oldu. 1947-ci ilin avqustunda kommunist rejimi Macarıstanda, dekabrda Rumıniyada, fevralda Çexoslovakiyada quruldu. Yuqoslaviya və Albaniyada da işlağçılar qovulduqdan sonra kommunist hökumətləri yarandı. Beləliklə, bütün bu

ölkələr SSRİ, Monqolustan, Şimali Koreya, Şimali Vyetnam və Çinlə birlikdə vahid sosialist cəbhəsi, sonradan deyildiyi kimi, dünya sosializm sistemini təşkil etdilər.

1947-ci ildə Şərqi Avropanın doqquz kommunist partiya nümayəndəsinin müşavirəsində Kommunist məlumat bürosu (Kominformbüro) yaradıldı. Büro özlərini sosialist adlandıran xalq demokratiyası dövlətlərinin kommunist partiyalarının fəaliyyətini koordinasiya etməli idi. Müşavirənin sənədlərində belə bir tezis öz əksini tapmışdır ki, dünya iki əks-cəbhəyə – imperialist və demokratik, antiimperialist cəbhəyə bölünmüşdür. İki cəbhənin mövcud olması və dünya miqyasında müxtəlif sosial-siyasi iki sistemə məxsus dövlətlərin qarşıdurması SSRİ partiya-dövlət rəhbərliyinin xarici siyasət xəttinin əsasını təşkil edir. Bu görüşlər əsasən İ.Stalinin «SSRİ-də sosializmin iqtisadi problemləri» məqaləsində öz əksini tapmışdır. Bu işdən imperializm qaldıqca müharibənin qaçılmaz olduğu nəticəsi çıxır. Qərb dövlətləri isə dünya sosialist sisteminin yaranması və onların dünya siyasətinə təsir göstərməsi reallığı ilə barışmaq istəmirdilər. Beləliklə, bir tərəfdən ABŞ-ın dünya ağalığı planını həyata keçirmək iddiası və başqa bir tərəfdən dünyanın iki əks sosial-siyasi sistemə bölünməsi sayəsində onlar arasındakı rəqabət dünənki müttəfiqlər arasında soyuq müharibəyə gətirib çıxardı.

1946-cı il martın 5-də İngiltərənin sabiq baş naziri U.Çörçill prezident H.Trumenin iştirakı ilə ABŞ-ın Fulton şəhərindəki kolecdə çıxış edərək bildirdi ki, faşizmi əvəz edən kommunizm Qərb dövlətlərini ələ keçirməyə çalışır və bunu dəf etmək məqsədilə ingilis dilli xalqların assosiasiyasını təşkil etmək vacibdir. O, Avropanı dəmir pərdə çəkməklə iki hissəyə ayıraraq SSRİ-yə qarşı müharibə hazırlığına başlamağın qaçılmaz olduğunu elan etdi. Sovet tarixçilərinin böyük əksəriyyəti belə hesab edirdi ki, məhz bu nitqlə «soyuq müharibə», yəni iki əks-qütblü sistemin ciddi qarşıdurması başlamışdı. Bunun ardınca H.Trumen sosialist dövlətlərinə münasibətdə «kommunizmi dayandırmaq» 1947-ci il 12 mart tarixli doktrinasını bəyan etdi. Bunun əsasını isə ABŞ-ın Moskvadakı səfirliyinin müşaviri C.F.Kennanın dövlət departamentinə göndərdiyi teleqramda irəli sürdüyü «SSRİ ilə ABŞ-ın dinc yanaşı yaşaması, beynəlxalq problemlərin həll edilməsində onların əməkdaşlığı mümkün deyildir, SSRİ Qərb dövlətlərinə qarşı təxribatla məşğuldur» kimi fikirləri təşkil edir. «Trumen doktrinası»na əsasən, ABŞ sürətlə silahlanma, xarici hərbi bazalar yaratma, iqtisadi təcridetmə vasitəsilə SSRİ və sosialsit sistemınə daxil olan ölkələri zəiflətməyə səy göstərirdi.

1947-ci il iyunun 5-də ABŞ-ın dövlət katibi C.K.Marşallın Avropa ölkələrinin müharibə sayəsində dağılmış təsərrüfatlarını bərpa etmək ideyası əslin-

də ABŞ-ın bu iqtisadi kömək müqabilində soyuq müharibədə müttəfiqlərinin sayını artıraraq onların iştirakı ilə hərbi-siyasi blok yaratmaq məqsədi daşıyırdı. 1947-ci ilin iyulunda Fransanın paytaxtı Parisdə 16 Qərbi Avropa dövlətinin iştirak etdiyi konfransda Avropa İqtisadi Əməkdaşlıq Komitəsi yaradıldı. 1948-ci ildə «Marşall plan»ını həyata keçirmək məqsədilə Avropa İqtisadi Əməkdaşlıq Təşkilatı meydana gəldi. 1948-ci il aprelin 1-dən 1952-ci il iyunun 30-dək ABŞ «Marşall planı»na görə, Qərbi Avropa ölkələrinə 13,3 milyard dollar yardım etdi ki, bunun da çox hissəsi həmin ölkələrin hərbi potensialının artmasına, ərzaq və yanacağa sərf olunurdu. SSRİ başda olmaqla Şərqi Avropanın sosialist ölkələri «Marşall plan»ında iştirak etməkdən imtina etdilər. «Marşall plan»ı Qərbi Avropa dövlətlərinin ABŞ-ın rəhbərliyi altında hərbi-siyasi bloklarda birləşməsinə səbəb oldu. 1949-cu il aprelin 4-də Vaşinqtonda 12 dövlətin nümayəndəsinin iştirakı ilə NATO-nun yaradılması haqqında Atlantika paktı imzalandı və avqustda qüvvəyə mindi. 1951-ci ildə konqres birliyin üzvlərinə silah verilməsi üçün üç il ərzində 9,5 milyard dollar kredit verdi. NATO ölkələrinin ərazisində ABŞ qoşunları yerləşdirildi.

«Soyuq müharibə»ni psixoloji-məlumat baxımından 1946-cı ilin aprelindən SSRİ-yə verilişlər yayan Britaniyanın Bi-Bi-Si (BBC), 1947-ci ilin fevralından «Amerikanın səsi», 1950-ci ildən onlara qoşulan «Azad Avropa», 1953-cü ildəki Münxendə yerləşən «Azadlıq» radioları daha da qızışdırırdı.

Müharibədən sonra Almaniyada hakimiyyət işğal dövlətlərinə məxsus idi və 1948-ci il iyul ayında Qərb işğal zonaları Trizoniyada birləşdirildi. Xristian Demokratik İttifaqın lideri K.Adenauerin sədrliyi ilə 1948-ci il sentyabrın 1-də Parlament Şurası fəaliyyətə başladı və ABŞ, İngiltərə, Fransa işğal qoşunlarının baş komandanlarının razılığı ilə konstitusiya layihəsi hazırlandı. 1949-cu il mayın 23-də qüvvəyə minən Qərbi Almaniyanın Konstitusiyası əsasında avqustun 19-da Bundestaqda seçkilər keçirildi və sentyabrın 20-də AFR-in yaradılması təsbit edildi. Buna cavab olaraq Şərqi Almaniyada, yəni SSRİ-nin işğal zonasında yaradılmış Alman Xalq Konqresinin Şurası konstitusiya layihəsini hazırladı və 1949-cu ilin mayın 30-da Berlində üçüncü Xalq Konqresi konstitusiyasını təsdiq etdi. 1949-cu ilin oktyabrın 7-də prezident V.Pikin rəhbərliyi ilə Almaniya Demokratik Respublikasının yaradılması elan edildi. SSRİ ADR-i tanıyaraq 1949-cu il oktyabrın 15-də onunla diplomatik münasibətlər qurdu.

SSRİ sosialist ölkələrinə həm siyasi, həm də iqtisadi cəhətdən köməklik göstərirdi. 1949-cu ilin yanvarında Moskvada SSRİ, Bolqarıstan, Polşa, Macarıstan, Rumıniya və Çexoslovakiyanın iştirakı ilə keçirilən müşavirədə Qarşılıqlı İqtisadi Yardım Şurasının (СЭВ) yaradılması haqqında qərar qəbul

olundu. Sosialist ölkələrinin iqtisadi əməkdaşlığını təşkil etmək və tənzimləmək məqsədilə yaradılan QİYŞ-ə 1949-cu ilin fevralında Albaniya, 1950-ci ildə isə ADR daxil oldu.

1945-1946-cı illərdə SSRİ-nin ən yaxın müttəfiqi Yuqoslaviya idi. Partizan hərəkatının əsasını təşkil edən və ölkənin azad olunmasında əsas pay sahibi olan Yuqoslaviya kommunistləri İosip Broz Titonun rəhbərliyi ilə 1944-cü ildə hakimiyyətə gəldi. Odur ki Yuqoslaviya Şərqi Avropanın başqa dövlətlərindən daha tez sosialist dəyişiklikləri yoluna keçdi. Lakin İ.Titonun Balkanlarda müstəqil siyasət yeritməsi İ.Stalinin narazılığına səbəb oldu. 1947-ci ildə SSRİ-Yuqoslaviya münasibətləri pozulmağa başladı. 1948-ci ilin yazında Yuqoslaviya Kommunist Partiyasını təftişçilik və antisovetizmdə ittiham edən sovet rəhbərliyi Belqraddakı mütəxəssislərini geri çağırdı. 1948-ci ilin yayında YKP Kommunist Məlumat Bürosunun üzvlüyündən çıxarıldı. 1949-cu ilin oktyabrında SSRİ Yuqoslaviya ilə diplomatik əlaqələri kəsdi. Sovet mətbuatı İ.Titonu ABŞ-ın casusu və qatil kimi damğaladı. Buna baxmayaraq, İ.Stalin Qərbin və ABŞ-ın köməyi ilə partizan müharibəsi aparmağa qadir olan Yuqoslaviyaya müdaxiləyə cəhd etmədi. Yalnız İ.V.Stalinin ölümündən sonra Yuqoslaviya-Sovet münaqişəsini qaydaya salmaq mümkün oldu. Ancaq Yuqoslaviya SSRİ-nin yaratdığı iqtisadi və hərbi təşkilatlar olan QİYŞ və Varşava Müqaviləsi Təşkilatına daxil olmadı.

1948-ci il fevralın 20-də Çexoslovakiya hökumətinə daxil olan burjua partiyasını təmsil edən 12 nəfər nazirin hökumətin kommunist çoxluğu siyasətinə etiraz əlaməti olaraq istefa verməsilə siyasi böhran yaratdı. Müxalifət istəyirdi ki, K.Qotvaldın başçılıq etdiyi hökumət istefa versin və prezident E.Beneş kommunistlərsiz yeni hökumət təşkil etsin. Lakin SSRİ-nin köməyinə arxalanan Çexoslovakiya Kommunist Partiyasının təzyiqi ilə E.Beneş 12 nazirin istefasını qəbul etdi və boşalan vəzifələrə kommunistlər təyin edildi, beləliklə, hökumət yalnız kommunistlərdən ibarət oldu.

II Dünya müharibəsinin əsas yekunlarından biri də müstəmləkə sisteminin dağılması oldu. Müharibədən sonra Afrika qitəsində müstəmləkəçiliyə qarşı mübarizə şiddətləndi və müstəqilliyini bərpa edən ilk ölkə Sudan oldu. Bunun ardınca Mərakeş, Tunis, Əlcəzair müstəqillik əldə etdilər. 50-ci illərin əvvəllərində Misirdə milli-azadlıq hərəkatı artdı, kral ölkədən qovuldu, 1953-cü il iyunun 18-də monarxiya üsul-idarəsi ləğv edildi və 1956-cı ilin iyununda İngiltərə öz qoşunlarını Misirdən çıxardı. SSRİ Misiri müdafiə edirdi.

II Dünya müharibəsindən sonra ABŞ və Qərbi Avropa ölkələri hər vəhclə İran və Türkiyəni Şərqi Avropanın sosialist ölkələrinə qarşı soyuq müharibəyə cəlb etməyə cəhd göstərirdilər. 1946-cı ilin may ayında Qərb ölkələrinin təz-

yiqi altında SSRİ öz qoşunlarını İrandan çıxarmağa məcbur oldu. Getdikcə İranın ABŞ-dan hərbi və siyasi asılılığı artmağa başladı. Müsəddiq hökumət devrildikdən sonra İran-SSRİ əlaqələri daha da zəiflədi, 1955-ci ildə İran Bağdad paktına qoşuldu və 1959-cu ildə isə ABŞ-la hərbi saziş imzaladı. ABŞ İran kimi Türkiyəni də SSRİ əleyhinə soyuq müharibəyə qoşmuşdu. Türkiyə hökuməti ölkənin müstəqilliyi üçün «Sovet təhlükəsi»nin olmasını əldə əsas tutaraq ABŞ-ın təhriki ilə «Trumen doktrinası»ı qəbul etmişdir. 1952-ci ildə Türkiyə NATO-ya, 1955-ci ildə isə Bağdad paktına daxil olmuşdur. ABŞ soyuq müharibə şəraitində SSRİ ilə Türkiyə arasında münasibətləri gərginləşdirdiyi üçün bu münasibətlər pis olaraq qalırdı.

II Dünya müharibəsindən sonra Koreyanın şimalı sovet qoşunları, cənubu isə amerikan qoşunları tərəfindən azad edildiyi üçün Şimali Koreyada hakimiyyət orqanları SSRİ-nin, Cənubi Koreyada isə ABŞ hərbçilərinin köməyi ilə formalaşmışdır. 1948-ci il mayın 10-da Koreyanın cənubunda Milli Məclisə seçkilər keçirildi və Li Sin Man Koreya respublikasının ilk prezidenti seçildi. Şimali Koreyada 1948-ci ilin iyununda Ali Xalq Məclisinə seçkilər oldu, Kim İr Senin rəhbərliyi ilə KXDR-nin Nazirlər kabineti təşkil olundu. Sentyabrın 9-da KXDR-in yaradılması bəyan edildi. SSRİ 1948-ci il oktyabrın 12-də birinci olaraq KXDR-i tanıyıb onunla diplomatik münasibətlər qurdu. 1948-ci ilin dekabrında SSRİ öz qoşunlarını Şimali Koreyadan, 1949-cu ilin iyulunda isə isə ABŞ öz qoşunlarını Cənubi Koreyadan çıxardı. 1950-ci il yanvarın 26-da ABŞ-la Cənubi Koreya arasında qarşılıqlı yardım haqqında saziş imzalandı. 1949-cu il oktyabrın 1-də Pekində Xalq Siyasi Məsləhət Şurasının sessiyasında Çin Xalq Respublikasının yaradılması elan edildi. 1950-ci il fevralın 14-də SSRİ ilə ÇXR arasında dostluq, ittifaq və qarşılıqlı yardım haqqında müqavilə imzalandı. Bundan sonra Koreyanın ABŞ üçün əhəmiyyəti xeyli artdı. 1950-ci il iyunun 25-də sovet müşavirləri tərəfindən təlim keçən Şimali Koreya qoşunları ilə Cənubi Koreya döyüşçüləri arasında ilk toqquşma baş verdi. İyunun 28-də Şimali Koreya ordusu Cənubi Koreyanın paytaxtı Seula daxil oldu, sentyabradək ölkə ərazisinin xeyli hissəsi işğal edildi. BMT Təhlükəsizlik Şurası 1950-ci il iyunun 25-də Şimali Koreyanı sülhü pozmaqda ittiham edən qətnamə qəbul etdi. 1950-ci ilin iyulun 4-də BMT Təhlükəsizlik Şurasının qətnaməsinə əsasən, ABŞ və BMT-nin üzvü olan 14 dövlət öz ordularını KXDR ordusuna qarşı hərbi əməliyyat keçirmək məqsədilə Koreya müharibəsinə göndərdi. 1950-ci il oktyabrın 1-də ABŞ və müttəfiq qoşunları Şimali Koreya ərazisinə daxil oldu, oktyabrın 23-də Pxenyan ələ keçirildi. 1950-ci il oktyabrın 25-də Çin Şimali Koreyaya qoşun göndərdi, dekabrın 7-də Pxenyanı, 1951-ci il yanvarın 4-də isə Seulu azad etdilər. 1951-ci il iyulun

26-da Keson şəhərində Çin və KXDR ABŞ və müttəfiqləri ilə danışıqlar masasına oturdular. 1951-ci il noyabrın 27-də əldə olunmuş razılığa əsasən 38-ci paraleldən cənubda 3,6 min kv. km ərazi KXDR-ə, 38-ci paraleldən 4,6 min kv. km ərazi Cənubi Koreyaya verilməli idi. 1953-cü ilin aprelin 26-da Panminçyonda danışıqlar bərpa edildi, iyulun 27-də münaqişə iştirakçıları arasında imzalanmış barışığa əsasən hərbi əməliyyatlar dayandırılmalı və hər iki tərəfi ayıran xətt ətrafında iki kilometrlik tərk-silah edilmiş ərazi yaradılmalı, barışığın qüvvəyə minməsindən üç ay sonra xarici qoşunlar Koreyanı tərk etməli idi. Koreya müharibəsi lokal xarakterli, ən qanlı münaqişələrdən biri olaraq tarixə keçmişdir, belə ki, bu müharibədə Cənubi Koreya 1,3 mln., Simali Koreya 520 min, Cin 900 min, ABŞ 57 min hərbiçi itirmişdir. Koreyanın 3 mln. nəfərə yaxın dinc əhalisi həlak olmuşdur. SSRİ-nin 315 nəfər hərbiçisi ölmüşdür. Koreya münaqişəsi «soyuq müharibə»nin getdikcə daha qlobal xarakter almasına səbəb oldu.

Koreya kimi bölünən ölkələrdən biri də Vyetnam olmuşdur. Yapon işğalından azad edildikdən sonra Vyetnamın şimalında 1945-ci ilin avqust inqilabı nəticəsində Vətən Cəbhəsi Partiyasının lideri Xo Şi Minin başçılığı altında Vyetnam Demokratik Respublikası hökuməti elan olundu. Vyetnam xalqı 10 il cənub rayonlarından hücuma keçən fransız qoşunları ilə mübarizədə öz müstəqilliyini qorudu. 1954-cü il Cenevrə sazişi ilə müharibə başa çatdı. 1956-cı ildə Vyetnamın cənubunda ABŞ-ın müdafiə etdiyi Vyetnam Respublikası elan olunması ilə ölkə iki hissəyə parçalandı.

II Dünya müharibəsindən sonra Çin iki düşərgəyə ayrılmışdır, ölkə ərazisinin 3/4 hissəsinə Çan Kay Şi hökuməti, ərazinin 25%-nə isə kommunistlərin yaratdığı orqanlar nəzarət edirdi. 1947-1949-cu illərdə Çində SSRİ-nin müdafiə etdiyi kommunistlərlə ABŞ-ın müdafiə etdiyi homindançılar arasında vətəndaş müharibəsi oldu. Müharibənin birinci mərhələsində Homindan hökumət qoşunları üstün vəziyyətdə idi. 1947-ci ilin yayında əks-hücuma keçən Xalq azadlıq ordusu 1948-ci ilin aprelinədək ölkə ərazisinin böyük bir hissəsini azad edərək 1949-cu il aprelin 23-də Nankin şəhərini, mayda Şanxayı azad etdi. 1949-cu il oktyabrın 1-də Pekində Çin Xalq Respublikasının yaradılması elan edildi. 1955-ci ilədək SSRİ Çin ərazisindən öz qoşunlarını çıxartdı, Çin-Çunçun dəmiryolunu, Port-Arturu və Dalnı limanını bütün əmlakı ilə birlikdə ÇXR-ə qaytardı. «Soyuq müharibə» çərçivəsində SSRİ-nin Çinlə əməkdaşlığının əleyhinə olan ABŞ Tayvana sığınmış Çan Kay Şi və onun tərəfdarlarına kömək göstərməkdə davam edirdi.

1951-ci ilin 4-8 sentyabrında ABŞ-ın San-Fransisko şəhərində 52 dövlətin iştirkaı ilə Yaponiya ilə sülh müqaviləsi bağlamaq məqsədilə kofrans keçirildi.

1951-ci il sentyabrın 8-də 27 maddədən ibarət San-Fransisko sülh müqaviləsini 49 dövlət imzaladı və bununla da, müharibə vəziyyətində qalmağa son qoyuldu. SSRİ-nin nümayəndəliyinin rəhbəri A.A.Qromıkonun Cənubi Saxalin və Kuril adaları üzərində Sovet İttifaqının suverenliyi ilə bağlı müqaviləyə düzəliş və əlavələri qəbul edilmədiyi üçün SSRİ, Polşa və Çexoslovakiya onu imzalamaqdan imtina etdilər. 1952-ci ilin aprel ayında Yaponiyada işğal rejiminə son qoyuldu və xarici ölkələrlə diplomatik münasibətlər bərpa edilməyə başlandı.

ABŞ və Qərb ölkələrinin silahlanması soyuq müharibənin tərkib hissəsi idi və buna cavab olaraq SSRİ və sosialist ölkələri də öz hərbi gücünü möhkəmlətmək məqsədilə silahlanırdılar ki, bu da müharibədən sonra tərk-silah məsələsinin mühüm problemlərindən birinə çevrildi. 1949-cu ilin avqust ayında SSRİ nüvə silahının ilk sınağını keçirdi və ABŞ-ın atom silahı üzərindəki inhisarı başa çatmış oldu. Bundan sonra SSRİ-nin tərk-silah uğrunda mübarizəsinin istiqamətlərindən biri də adi silahların və silahlı qüvvələrin hamılıqla azaldılması məsələsi idi. BMT Baş Məclisinin birinci sessiyasında SSRİ silahların tam ixtisarını təklif etmişdisə də, müzakirələr göstərirdi ki, Qərb ölkələri sılahlanmadan imtina etmək fikrində deyil. Müharibə təbliğatının qadağan edilməsi tərk-silah probleminə yardımçı olduğu üçün 1947-ci ildə BMT Baş Məclisinin ikinci sessiyası dünya müharibəsi təbliğatını qadağan edən qətnamə qəbul etdi. 1950-ci ilin sentyabrında BMT Baş Məclisinin beşinci sessiyası kütləvi qırğın silahını birinci tətbiq edən dövlətin hərəkətini bəşəriyyətə qarşı cinayət, həmin dövlətin isə «hərbi cani» hesab olunması haqqında bəyannamə qəbul etdi. SSRİ və sosialist dövlətləri tərk-silah uğrunda mübarizədə sülh tərəfdarları hərəkatından istifadə edirdi. Bunların da 72 ölkəni təmsil edən nümayəndələri 1949-cu ilin aprelində Parisdə birinci ümumdünya konqresi keçirdilər. F.Küri Sülh Tərəfdarları Konqresinin Daimi Komitəsinin sədri seçildi. 1950-ci ilin noyabrında Varşavada 81 ölkənin nümayəndəsinin iştirakı ilə Sülh Tərəfdarları Hərəkatının İkinci Ümumdünya konqresi oldu, dünya xalqlarına və BMT-yə müraciət qəbul olundu. Sülh Tərəfdarları Hərəkatı «soyu müharibə» şəraitində bütün dünyada müharibələrin qarşısını almaq və sülhü qoruyub-saxlamaq işinə xidmət edirdi.

# XXVIII FƏSİL
# «MÜLAYİMLƏŞMƏ». 1953-1964

## §1. İctimai-siyasi vəziyyət

İ.V.Stalinin ölümündən sonra 1953-cü il martın 6-da onun yaxın ətrafı rəhbər vəzifələri öz aralarında böldülər. G.M.Malenkov Nazirlər Sovetinin sədri və Sov.İKP MK-nin Birinci katibi oldu. Malenkov Georgiy Maksimilianoviç (1902-1988) Orenburqda qulluqçu ailəsində anadan olub, 1918-ci ildə Qızıl Ordu sıralarına daxil olaraq briqada komissarı kimi Orta Asiyada hərbi əməliyyatlarda iştirak edib. Moskva Ali Texniki Məktəbini bitirdikdən sonra UİK (b)P MK-nın aparatında işə qəbul edilib. 1937-ci il repressiyalarında bilavasitə iştirak edərək 150 mindən çox adamın «xalq düşməni» kimi ifşa edilməsinə rəhbərlik etmişdir. 1939-1946-cı və 1948-1953-cü illərdə UİK(b)P və Sov.İKP MK-nın katibi olub. 1941-1945-ci illərdə DMK-nın üzvü kimi təyyarələrin istehsalına, sonra işğaldan azad olmuş rayonların bərpasına başçılıq etmişdir. 1952-ci ildə Sov.İKP-nin XIX qurultayında G.M.Malenkov MK-nın hesabat məruzəsi ilə çıxış etdi. Bu isə o demək idi ki, İ.Stalin ona özünün gələcək xələfi kimi baxırdı.

L.P.Beriya DİN-in, V.M.Molotov isə XİN-in rəhbərləri kimi Nazirlər Soveti sədrinin birinci müavinləri təyin olundular. N.A.Bulqanin və L.N.Kaqanoviç isə Nazirlər Soveti Sədrinin müavinləri təyin edildilər. K.Y.Voroşilov formal olaraq dövlət başçısı hesab edilən Ali Sovetin Rəyasət Heyətinin Sədri seçildi. N.S.Xruşşov heç bir dövlət vəzifəsi tutmasa da, o, Sov.İKP MK-nin katibi kimi partiyada ikinci adam idi. İ.Stalinin ölümünün ertəsi günü tez-tələsik bölüşdürülən bu rəhbər vəzifə bölgüsü MK-nin Rəyasət Heyətinin başqa üzvləri tərəfindən narazılıqla qarşılandı və G.Malenkov iki vəzifədən birini seçmək qarşısında hökumət başçılığını seçdi və beləliklə, MK-nın katibliyini 1922-ci ildə İ.Stalin seçilən zaman olduğu kimi, hamıdan az seçilən N.S.Xruşşova təhvil verilmiş oldu.

Yeni hakimiyyət birinci gündən keçmiş illərdəki sui-istifadə hallarını aradan qaldırmaq istiqamətində addımlar atdı. 1953-cü ilin martında G.M.Malenkov elan etdi ki, «şəxsiyyətə pərəstiş siyasətindən» əl çəkib kollektiv rəhbərliyi təmin etmək zəruridir. Bu isə İ.V.Stalinin ehtiyatla tənqidi demək idi. Tədricən mətbuatda İ.Stalini tərifləyib göylərə qaldıran söz çələngi yığışdırıldı.

Martın 27-də SSRİ Ali Soveti 5 ildən artıq cəzası olmayan məhbusların əfv edilməsinə dair fərman verdi. «Voroşilov» əfvinə əsasən, 1 mln. nəfərdən çox məhbus azad edildi. Aprelin 4-də «Pravda» qəzeti elan etdi ki, «adam zəhərləyən» həkimlər təxribatın qurbanı olduqları üçün bəraət almışdır. Bu məlumatı L.Beriya tərəfindən rəhbərlik edilən və vaxtı ilə belə işləri təşkil edən DİN-in yayması diqqəti cəlb edir. Beləliklə, özünü «sosialist qanunçuluğunun» bərpa edilməsinin tərəfdarı kimi qələmə verən L.Beriya hələ İ.Stalinin cənazəsi başındakı vida nitqində birdən-birə «liberal»a çevrilmişdi. Məhz onun təşəbbüsü ilə «həkimlərin işi»nin günahı S.D.İqnatyev və M.D.Ryuminin üzərinə atılmış, onlar həbs edilmişlər. Gələcəkdə özünə dayaq hazırlamaq məqsədilə L.Beriya 1953-cü il martın 19-da bütün İttifaq Respublikalarının, 12 muxtar vilayətin, 6 diyarın və Rusiyanın 49 vilayətinin DİN-nin rəhbərliyi dəyişdirildi. Partiya, dövlət, təsərrüfat kadrlarının irəli çəkilməsində və ya dəyişdirilməsində dövlət təhlükəsizlik orqanlarının rəyi əsas oldu. Hətta o, müəyyən mənada kollektivləşdirməni yumşaltmağı və xarici siyasət sahəsində beynəlxalq gərginliyi azaltmağı da təklif etmişdi.

Beriya Lavrenti Pavloviç (1899-1953) Abxaziyada anadan olub, I Dünya müharibəsində rumın cəhbəsində qulluq edib. 1917-ci ildə Bolşeviklər Partiyasına daxil olaraq Gürcüstan və Azərbaycanın Fövqəladə Komissiyası orqanlarında işləmiş, 1938-ci ildə xalq daxili işlər komissarı olmuşdur. Müharibə illərində DMK-nın üzvü, sonra isə müavini kimi silah istehsalına rəhbərlik etmişdir. SSRİ Nazilər Soveti nəzdində nüvə silahının yaradılması ilə məşğul olan Xüsusi Komitəyə başçılıq etmişdir. 1953-cü ildə İ.V.Stalinin ölümündən sonra SSRİ Nazirlər Sovetinin birinci müavini və Daxili İşlər naziri təyin edilmişdir. Ancaq L.Beriyanın hədsiz canfəşanlığı və siyasi polisi qüdrətli partiya aparatından üstün tutması başqa rəhbərlərin ordu köməyi ilə ona qarşı birləşmələrinə səbəb oldu. 1953-cü ilin iyunun 26-da L.P.Beriya həbs edildi. N.S.Xruşşov, müdafiə nazirinin müavini G.K.Jukov, Moskva Hərbi Dairəsinin komandanı K.S.Moskalenko və onun müavini P.F.Batitski həbsin təşkilində əsas rol oynamışdır. 1953-cü il iyulun 2-7-də toplanan Sov.İKP MK-nin Plenumunda qiyabi olaraq o, partiya və dövlətin əleyhinə fəaliyyət göstərməkdə təqsirkar bilindi. Plenumda çıxış edən onun dünənki həmkarları L.Beriyanı xarici kəşfiyyatla əlaqədar, DİN orqanlarını hakim partiyadan üstün tutmaqda və əks-inqilabi qəsd hazırlamaqda günahlandırdılar. Eyni zamanda L.Beriya ölkədə əsassız repressiyaların təşkilində ittiham edildi. 1953-cü ilin dekabrında SSRİ Ali Məhkəməsinin qapalı iclasında L.Beriya və onun əlaltıları V.N.Merkulov, V.Q.Dekanozov, B.Z.Kobulov, S.A.Qoqlidze, P.Y.Meşik və L.Y.Vlodzimirsk Vətənə xəyanət maddəsi ilə ittiham edilərək ölüm hökmü

aldılar. Lakin bəzi mənbələrin, xüsusilə N.S.Xruşşovun məlumatına əsasən, L.P.Beriya həbs ediləndən dərhal sonra güllələnmişdir. Əsl həqiqət isə ondan ibarətdir ki, 1953-cü ildə L.P.Beriyanın vəzifədən uzaqlaşdırılması repressiya siyasətindən imtina edilməsi idi.

L.Beriya hakimiyyət uğrunda mübarizədən məhz ordunun yaxından iştirakı və köməyi ilə uzaqlaşdırıldıqdan sonra onun rolu artdı və təhlükəsizlik orqanlarının ordu üzərindəki alçaldıcı nəzarətinə son qoyuldu. Dövlət Təhlükəsizlik orqanlarının strukturu dəyişdirildi. DİN-nin rəhbəri S.N.Kruqlov təyin edildi. Siyasi polisə məxsus «üçlük», yəni xüsusi tribunal ləğv olundu. Eyni zamanda DİN-in Düşərgə İdarəsi (QULAQ) Ədliyyə Nazirliyinin sərəncamına verildi. 1954-cü ilin martında siyasi polis yenidən təşkil edilərək müstəqil Dövlət Təhlükəsizlik Komitəsinə (КГБ) çevrildi, N.Xruşşovun adamı hesab edilən general İ.A.Serov onun rəhbəri təyin olundu. 1954-cü ilin yazından başlayaraq bəraət alanların ilk dəstələri düşərgələrdən qayıtmağa başladı. 1954-55-ci illərdə «Leninqrad işinin» qurbanları, çoxlu hərbi komandirlər, kosmopolitizm maddəsi ilə hökm alanlar azad oldular. 1930-cu illərdəki işlərə baxılmağa başlandı.

İslahat işlərinin davam etdirilməsi İ.V.Stalindən sonra SSRİ Nazirlər Sovetinə başçılıq edən G.M.Malenkova keçdi. 1953-cü ildə Sov.İKP MK-nın iyul Plenumunda İ.Stalinin şəxsiyyətinə pərəstişi tənqid edən G.Malenkov qeyd etdi ki, hakimiyyətin yuxarı dairələrində kollektiv rəhbərliyin olmaması, təkbaşına qəbul edilən qərarlar ölkə və partiyaya rəhbərlikdə səhvlərə səbəb olmuşdur. 1953-cü ilin avqustunda SSRİ Ali Sovetinin sessiyasında G.Malenkov yüngül və yeyinti sənayesinə, kənd təsərrüfatına əhalinin həyat səviyyəsinin yüksəldilməsinə yönəldilmiş tədbirləri artırmaq məqsədi ilə beşillik plan tapşırıqlarının əsas istiqamətlərinə yenidən baxılmasını irəli sürdü. Onun çıxışında partiya və sovet hakimiyyəti aparatı bürokratizmdə ittiham olunurdu. Mahiyyət etibarı ilə söhbət sovet cəmiyyətinin inkişafının yeni proqramından gedirdi.

Yeni rəhbərliyin fəaliyyətində mərkəzi yerlərdən birini cəmiyyətinin inzibati-amirlik sisteminin eybəcər formasının, xüsusilə İ.V.Stalinin şəxsiyyətinə pərəstişinin aradan qaldırılması tuturdu. Bu işdə əsas rolu 1953-cü ilin sentyabrın 7-də Sov.İKP MK-nin Birinci katibi seçilən N.S.Xruşşov oynadı. Xruşşov Nikita Serqeyeviç (1894-1971) Kursk vilayətinin Kalinovka kəndində anadan olub, çoban, Donbasın zavod və hövzələrində çilingər işləyib. 1918-ci ildə Bolşevik Partiyası sıralarına daxil olaraq Vətəndaş müharibəsində iştirak edib. Donetsk Sənaye İnstitutunun fəhlə fakültəsini bitirdikdən sonra partiya xətti ilə irəliləyərək ilk partiya təşkilatı katibindən Ukrayna KP(b)MK-nin Birinci katibi vəzifəsinə qədər yüksəlmişdir. İ.V.Stalinin ölümündən sonra

Sov.İKP MK-nın Birinci katibi seçilən N.S.Xruşşov «Stalin qvardiyası» ilə islahatçılar arasında ağılla hərəkət edərək əvvəlcə L.Beriyanı hakimiyyətdən uzaqlaşdırmış sonra isə əsas rəqibi olan G.Malenkovu ikinci plana sıxışdırmışdır. Sov.İKP-nın XX qurultayında İ.Stalinin «şəxsiyyətinə pərəstişi»ni tənqid edərək dünyaya səs salmışdır. 1957-ci ildə «Stalin qvardiyası»nın onu hakimiyyətdən uzaqlaşdırmaq cəhdi uğursuz olmuşdur. 1958-ci ildə N.S.Xruşşov partiya və hökumət rəhbərliyini öz əlində birləşdirmişdir. Bütün hakimiyyəti öz əlinə alan N.Xruşşov əslində İ.Stalinə məxsus diktatorluq stilinin ona da məxsus olduğunu nümayiş etdirmişdir. Onun impulsiv xarakteri, çox məsələlərdə qeyri-peşəkarlığı, nə vaxtsa qazandığı ideoloji ehkama fanatik bağlılığı ölkənin daxili və xarici siyasətinin formalaşmasına hər zaman yaxşı təsir göstərməmişdir. 1964-cü ildə partiya-dövlətin ali rəhbərliyi «qocaman liderin» istirahətdə olmasından istifadə edərək onu hakimiyyətdən kənarlaşdırmışlar. Təqaüdə çıxan və faktiki olaraq ev dustağı olan N.S.Xruşşov öz xatirələrini diktə edərək onun xaricdə çap edilməsinə nail olmuşdur. 1943-cü ildə general-leytenant, 1964-cü ildə Sovet İttifaqlı Qəhrəmanı, 1954-cü, 1957-ci, 1961-ci illərdə üç dəfə Sosialist Əməyi Qəhrəmanı rütbə və adlarını almışdır.

İ.V.Stalinin ölümündən sonrakı 11 il tarixə SSRİ-nin daxili və xarici siyasətinin nisbətən liberallaşdıran «mülayimləşmə» kimi daxil olmuşdur, ancaq siyasi və iqtisadi sahədə yuxarıdan aparılan islahatlar qeyri-ardıcıl olmuşdur. Rusiyanın siyasi həyatı, xüsusi ilə «Stalinin epoxası» üçün xarakterik olan avtoritar ənənə Stalin hakimiyyətinin davamçılarını, xüsusi ilə partiya-dövlət aparatını öz əsirinə çevirmişdir.

L.Beriyanı hakimiyyətdən kənarlaşdırıb fiziki cəhətdən məhv etdikdən sonra N.S.Xruşşovla G.M.Malenkov arasında hakimiyyətdə birinci olmaq üstündə mübarizə qızışdı. Bu özünü ölkənin iqtisadi və ictimai inkişafına fərqli yanaşma fikrində büruzə verdi. Belə ki, G.Malenkov yüngül sənayenin inkişafı strategiyasını müdafiə etdiyi halda N.Xruşşov kənd təsərrüfatındakı vəziyyəti nəzərdə tutaraq, ilk növbədə, bu sahəyə diqqət verilməsini planlaşdırırdı. Həmin məqsədlə kolxozların istehsal etdiyi məhsulların dövlət satınalma qiymətlərinin artırılması, əkin sahələrinin sürətlə genişləndirilməsi nəzərdə tutulurdu ki, bunun da sayəsində kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq labüd idi. N.Xruşşovun xam torpaqların fəth edilməsi proqramı, bir tərəfdən istehsalın tez və ucuz artımı demək idi, başqa bir tərəfdən, bu siyasət kənd təsərrüfatı maşın və traktor parkının artırılması, yəni ağır sənayenin inkişafı demək idi. Bu isə müharibənin sonlarından G.Malenkovun nəzarəti altında olan ağır sənayenin bir bölməsinin N.Xruşşov tərəfindən inkişafının irəli sürülməsi onun əhalinin böyük əksəriyyətinin maraqlarının müdafiəçisi

kimi tanınmasına və özünün başlıca siyasi rəqibinin mövqeyinin zəifləməsinə şərait yaradırdı. 1953-cü ilin sentyabrında MK-nın Plenumunda N.S.Xruşşov kənd təsərrüfatındakı ağır vəziyyəti kəskin surətdə tənqid edərək, G.Malenkovun Sov.İKP-nin XIX qurultayında «çörək problemi həll edilmişdir» sözlərinin yalan olduğunu göstərdi. N.Xruşşovun təkidi ilə dövlət tərəfindən kolxozlardan ətin satınalma qiyməti 5,5, süd və yağınkı 2 dəfə, taxılınkı isə 50% artırıldı. Eyni zamanda dövlətə icbari ödənilən məhsulun miqdarı azaldıldı, həyətyanı sahələrdən və bazarlarda satılan məhsuldan alınan vergilər azaldıldı. Bütün bunların nəticəsində uzun müddət tənəzzüldə olan kolxozların gəliri artmağa başladı və 1957-1958-ci illərdə artmaqda davam etdi.

Şimali Qazaxıstan, Sibir, Altay və Cənubi Uralda xam torpaqların mənimsənilərək əkilməsi ideyası 1954-cü ilin fevral ayında olan Sov.İKP MK-nın Plenumunda N.S.Xruşşov tərəfindən irəli sürüldü və təsdiq olundu. Üç il ərzində 1954-cü il fevral Plenumunda təsdiq edildiyindən üç dəfə çox, yəni 37 mln. hektar torpaq əkildi ki, bu da SSRİ-də işlənən torpaqların 30%-i demək idi. Xam torpaqları fəth etmək üçün 100 minlərlə adam, çoxlu sayda komsomolçu və məhbus səfərbər edildi. 1956-cı ildə SSRİ-də rekord səviyyədə, yəni 125 mln. ton taxıl tədarük edildi ki, bunun da 50%-i xam torpaqların payına düşürdü. Məhz belə nəticədən ruhlanan N.Xruşşov 1955-ci ilin yanvar Plenumunda kənd təsərrüfatındakı yeni problemi həll etmək məqsədilə qarğıdalı əkinçiliyinin artırlmasını irəli sürdü. İki ildə onun təşəbbüsü ilə 18 mln. hektar sahəyə qarğıdalı əkildi. Bəzən bitki üçün yararsız olan rayonlar da həmin kampaniyadan kənarda qala bilmədi. Kənd təsərrüfatı sahəsində N.Xruşşovun islahatları sayəsində üç ildə kənd təsərrüfatı məhsulları 25% artdı.

Eyni zamanda G.Malenkov və N.Xruşşov sosial əlaqələrin təkmilləşdirilməsi tərəfdarı idi. Lakin G.Malenkov mövcud siyasi mexanizmləri daha da təkmilləşdirilb, ehtiyatla hakimiyyəti aşağısəviyyəli inzibati aparata verməyi, müəssisə rəhbərləri və təsərrüfat kadrlarının texniki və peşə qabiliyyətlərini nəzərə almaqla onların rolunu artırmağı nəzərdə tuturdu. Belə sistemdə isə xalq kütlələri iştirak etmirdi. Həmin siyasətin əksinə olaraq N.Xruşşov xalq kütlələrinin təşəbbüskarlığını daha da artıraraq, populist şüarlarla onları öz tərəfinə çəkməyə çalışırdı. 1955-ci il yanvarın 25-də Sov.İKP MK-nın Plenumunda G.Malenkov 50-ci illərin əvvəllərindəki kənd təsərrüfatı sahəsindəki səhvlərinə və «sağtəmayülçülüyə» görə kəskin tənqid olundu. MK-nın katibi və «Pravda» qəzetinin baş redaktoru D.T.Şepilov yüngül sənayenin inkişafını və istehlak malları istehsalını artırmağı nəzərdə tutanları «sağtəmayülçülükdə» ittiham edərək, onları təftişçi və marksizmi vulqarlaşdıranlar adlandırdı. MK-nın Plenumu 1955-ci il yanvarın 31-də G.Malenkovu Nazirlər Sovetinin sədri

vəzifəsindən azad etmək haqqında qərar qəbul etdi. 1955-ci il fevralın 8-də G.Malenkov ciddi təzyiq altında SSRİ Ali Sovetində çıxış edərək öz səhvləri və səriştəsizliyini etiraf edərək, bu vəzifəni dövlət işində daha təcrübəli bir yoldaşa tapşırmağı xahiş etdi. Beləliklə, SSRİ müdafiə naziri N.A.Bulqanin G.Malenkovun yerinə Nazirlər Sovetinin sədri oldu, marşal G.K.Jukov isə müdafiə naziri təyin olundu. Bu vəzifə dəyişikliyi, təbii olaraq, N.S.Xruşşovun mövqeyini və hakimiyyətini möhkəmlətdi.

### §2. Sov.İKP-nin XX qurultayı

1956-cı il fevralın 14-də 1436 nümayəndənin iştirakı ilə Kremldə Sov.İKP-nin XX qurultayı toplandı. Qurultay 1956-1960-cı illərə dair altıncı beşillik plan direktivlərini qəbul etdi ki, bu direktivlərə əsasən geniş sosial tədbirlər, o cümlədən iş gününün 8 saatdan 7 saata endirilməsi, azmaaşlı fəhlə və qulluqçuların əməkhaqqı və təqaüdləri, mənzil tikintisinin artırılması nəzərdə tuturdu. MK-nın hesabat məruzəsi ilə çıxış edən N.S.Xruşşov partiyanın siyasi xəttinin həm daxili, sosial-iqtisadi, həm də xarici istiqamətinin dəyişdiyini nümayiş etdirdi. Partiyanın əvvəlki «imperializm qaldıqca müharibələr qaçılmazdır» ehkamı yerinə «hazırkı şəraitdə yeni dünya müharibəsi təhlükəsi mümkün deyildir» ideyası irəli sürüldü. SSRİ rəsmi olaraq müxtəlif ictimai-siyasi quruluşa malik olan dövlətlərin dinc yanaşı yaşaması prinsipini elan etdi. SSRİ-nin yeni xarici siyasət xəttinin müəyyən edilməsinin mühüm səbəblərindən biri dünya müharibəsində nüvə silahını tətbiq etməklə qələbə çalmağın mümkün olmamasının dərk edilməsi oldu. Hesabat məruzəsində həmçinin demokratik ölkələrdə sülh, o cümlədən parlament yolu ilə sosializmə keçməyin mümkünlüyü qeyd edildi. Sovet rəhbərliyinin sosialist inqilabının sovetlərin təcrübəsində silahlı üsyan xəttindən imtina etməsi real olaraq bunun Avropa ölkələrində inandırıcı olmaması ilə bağlıdır. N.S.Xruşşovun hesabat məruzəsinin ideya-siyasi istiqaməti çox məhdud olub əsasən L.Beriyanın cinayət əməllərinin, kollektiv rəhbərliyin Lenin prinsiplərinin, sosialist qanunçuluğunun pozulmasının tənqidinə yönəlmişdir.

Qurultayın axırıncı günü fevralın 24-dən 25-nə keçən gecə qapalı iclasda N.S.Xruşşov dörd saat boyunca iştirakçılara «gizli məruzəsini» oxudu və son iyirmi ildə İ.V.Stalinin şəxsiyyətə pərəstişinin yaranması və möhkəmlənməsinin səbəblərini izah etdi. Sov.İKP-nin birinci katibi seçilmiş N.S.Xruşşov xarici nümayəndələrin buraxılmadığı qapalı iclasdakı çıxışında İ.Stalin tərəfindən

Leninin kollektiv rəhbərlik prinsipinin kobud şəkildə pozulduğunu, qanunsuz təmizləmə və repressiyaların onun birbaşa göstərişi ilə həyata keçirildiyini qeyd etdi. Məruzədə həm də Qafqaz xalqlarının deportasiyası,1949-cu ildəki «Leninqrad işi», 1951-ci ildəki «Minqrel işi», 1953-cü ildəki «həkimlərin işi» və s. sahədəki qanunsuzluqların birbaşa cavabdehi İ.Stalin olduğu qeyd olundu. Beləliklə, N.Xruşşov öz çıxışında heç kimi eşitmək istəməyən, xalqdan ayrı düşən, gündən-günə öz şəxsiyyətini şişirtməklə məşğul olan, səriştəsiz və zalım müstəbid obrazını, yəni İ.V.Stalinin obrazını təsvir etmişdir. N.Xruşşov müharibə ərəfəsində hərbi kadrların məhv edilməsini, 1941-1942-ci illərdə Qızıl Ordunun uğursuzluqlarını İ.Stalinin səriştəsiz hərbi rəhbərliyi ilə bağlı olduğunu qeyd edərək əslində onun marşal və generalissimus rütbələrinə layiq olmadığını göstərmək istəməsi ibrətamizdir. N.Xruşşovun «gizli məruzəsi»ndə repressiyalar özünün tam əksini tapmadı, kollektivləşdirmənin qurbanlarından, sadə vətəndaşlara qarşı tətbiq edilən repressiyalardan söhbət açılmadı. İ.V.Stalinin şəxsiyyətinə pərəştişinin təhlili dərin deyildi. İ.Stalinin ünvanına deyilən tənqid onun partiyaya qarşı cinayətləri ilə əlaqələndirilirdi. Partiyanın özünün repressiyalarla bağlı məsuliyyətindən söz açılmırdı. Lakin buna baxmayaraq məruzənin öz dövrü üçün çox böyük və misilsiz əhəmiyyəti ondan ibarət idi ki, N.Xruşşovun «gizli məruzəsi» adamları İ.V.Stalinə olan, demək olar ki, dini inancının əsasını dağıtdı. Qurultaydan sonra qapalı iclasdakı məruzənin mətni kitabça şəklində çap edildi, onunla tanış olmaq məqsədilə yerlərdə yığıncaqlar təşkil olundu və sovet vətəndaşları bəhs edilən qanunsuzluqlardan xəbər tutdu. Lakin hakimiyyət açıq mətbuatda məruzəni tam çap etməyərək onun məzmunu ilə xalqı tanış etmədi. Bu isə xalqın bütün həqiqəti ondan gizlədilməsi şübhəsi doğururdu. Vəziyyəti çətinləşdirən o idi ki, Qərbin aparıcı kütləvi informasiya vasitələri 1956-cı ilin martın 16-dan məruzənin mətni ilə oxucuları tanış edirdi. Məruzənin mətni iyunun 4-də ABŞ-ın dövlət departamenti tərəfindən çap edildi. SSRİ-də yalnız «yenidənqurma» dövründə açıq mətbuatda məruzə çap edilmişdir (Sov.İKP-nin Xəbərləri. 1989. №3).

1956-cı il iyunun 30-da Sov.İKP MK-nın «Şəxsiyyətə pərəstiş və onun nəticələrinin aradan qaldırılmasına dair» qərarı dərc olundu. Bu sənəddə N.Xruşşovun məruzəsində qeyd edilən məsələlərə daha mühafizəkar yanaşılırdı. Qanun pozuntuları və repressiyalar bir tərəfdən İ.Stalinin adı ilə əlaqələndirilir, başqa bir tərəfdən kapitalist əhatəsilə və daxili sinfi düşmənlə şiddətli mübarizə onların səbəblərindən biri kimi qeyd olunurdu. İ.Stalin qərarda həm də görkəmli dövlət xadimi, nəzəriyyəçi, sənayeləşdirmə, kollektivləşdirmənin və müxalifət üzərində qələbənin təşkilatçısı kimi səciyyələndirilirdi. Staliniz-

min tənqidinin boğulmasına cəhd edilməsi, onun ifşası ilə şəxsiyyətinin şişirdilməsi arasındakı tərəddüdlər 1956-cı ilin ikinci yarısı ilə 1957-ci illərin əvvəlləri üçün xarakterikdir. Bu onunla izah edilir ki, partiya rəhbərliyi və N.S.Xruşşov özü də cəmiyyət üzərində ideoloji nəzarəti itirməkdən qorxurdular.

Mühafizəkar əhvali-ruhiyyəli dairələr və əsasən keçmiş «Stalin qvardiyası» N.S.Xruşşovun siyasətindən narazı idilər. Odur ki, N.Xruşşovun Finlandiyaya səfərindən istifadə edərək 1957-ci il iyunun 18-də Sov.İKP MK-nın Rəyasət Heyətinin 7 üzvü, o cümlədən N.A.Bulqanin, K.Y.Voroşilov, L.M.Kaqanoviç, G.M.Malenkov, V.M.Molotov, M.Q.Pervuxin, M.Z.Saburov, üzvlüyə namizəd D.T.Şepilov onun istefasını tələb etdilər. Onlar N.Xruşşovu öz şəxsiyyətinə pərəstiş formalaşdırmağına, yalan vədlərinə, səhv xarici siyasətinə görə ittiham etdilər. N.Xruşşovu yalnız Rəyasət Heyətinin üç üzvü, A.İ.Mikoyan, A.İ.Kirillenko, M.A.Suslov və Rəyasət Heyətinin, Katibliyin üzvlüyə namizədlərinin böyük əksəriyyəti müdafiə etdi. Onların köməyi nəticəsində demokratik partiya mərkəziyyət prinsipini əldə rəhbər tutan N.Xruşşov məsələyə Mərkəzi Komitənin Plenumunda baxılmasına nail oldu. Müdafiə naziri marşal G.K.Jukovun hərbi təyyarələrinin köməyi ilə tez bir zamanda 130 nəfər Plenum üzvündən 107 nəfəri Moskvaya toplayan N.Xruşşov iyunun 22-də Plenumun iclasını keçirdi. Arbitr rolunda çıxış edən plenum üzvləri birinci katibi müdafiə edərək Rəyasət Həyətinin qərarını ləğv etdilər. Sov.İKP MK-nın Plenumu «antipartiya qrupunu fraksiyaçılıq fəaliyyətində» ittiham edərək V.Molotov, L.Kaqanoviç, G.Malenkov, M.Saburovu Rəyasət Heyəti üzvlüyündən, D.Şepilovu üzvlüyə namizədlikdən azad etdi. M.Pervuxin üzvlükdən namizədliyə keçirildi. 1961-ci ildə L.Kaqanoviç, G.Malenkov, V.Molotov partiya sıralarından xaric edildilər. N.A.Bulqanin 1958-ci ildə Rəyasət Heyətinin tərkibindən xaric edildi və Nazirlər Sovetinin sədri vəzifəsindən azad olundu, onu bu vəzifədə N.S.Xruşşov özü əvəz etdi. 1960-cı ilin mayın 7-də SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsində K.Y.Voroşilovu L.İ.Brejnev əvəz etdi. Beləliklə, N.S.Xruşşov partiya və hökumətin vahid liderinə çevrildi. 1957-ci il partiya və dövlət rəhbərliyindəki böhranın mühüm nəticəsi stalinsizləşdirmə yolundakı əsas addım olaraq keçmişin siyasi təcrübəsi ilə əlaqənin kəsilməsi oldu. İyun böhranının qaydaya salınmasında böyük rol oynayan marşal G.K.Jukov vətəndaş hakimiyyətinin və şəxsən N.S.Xruşşovun mənfi münasibətinə və ondan ehtiyat etməsinə səbəb oldu. 1953-cü ildə L.Beriya hakimiyyətdən uzaqlaşdırılarkən G.K.Jukovun köməyindən istifadə edən N.S.Xruşşov onun nüfuzundan ehtiyat edərək, o, Albaniya və Yuqoslaviyada səfərdə olarkən Rəyasət Heyətində «G.K.Jukovun şəxsiyyətinə pərəstiş, onun bonapartizmə yol açan avantürizmə meyilliliyi» maddəsi ilə məsələ qaldırdı.

Mərkəzi Komitənin 19 oktyabr Plenumunda G.K.Jukov Rəyasət Heyətinin və MK-nın tərkibindən çıxarıldı. Müdafiə Naziri vəzifəsinə R.Malinovski təyin olundu, G.Jukov isə təqaüdə göndərildi.

Sov.İKP-nın XX qurultayında təntənəli surətdə partiyada kollektiv rəhbərliyin Lenin prinsiplərinə əməl ediləcəyi elan olunsa da, N.S.Xruşşov 1940-1953-cü illərdə İ.V.Stalinin partiya və hökumət rəhbərliyini birləşdirmək təcrübəsini tətbiq etməklə, əslində elan etdiyi siyasi xətdən imtina etmiş oldu.

## §3. İqtisadi və sosial dəyişikliklər

Sənayeləşdirmə dövründə yaranan sovet iqtisadiyyatı yüksək dərəcədə mərkəzləşmişdi. Xalq təsərrüfatının idarə olunması Dövlət plan, nazirlik və onların baş idarələri, müəssisələr sxemi üzrə olmaqla möhkəm üfüqi xətt isitqamətində qurulmuşdu. Büdcədən maliyyələşdirilən müəssisələr öz vəsaitlərinə müstəqil surətdə sahib ola bilmədiklərindən təsərrüfat təşəbbüskarlığından məhrum olurdular. Odur ki, onlar vəsait və materialın qənaət edilməsində maraqlı deyildir. Ağır sənayeyə, istehsal vasitələri istehsal edən «A» qrupu sahəsinə prioritet verildiyindən xalq istehlak malları istehsalı, yəni «B» qrupu sahəsi «qalıq prinsipi» ilə maliyyələşdirildi ki, bu mütəmadi olaraq paltar, ayaqqabı başqa kütləvi ehtiyac mallarının çatışmazlığına səbəb olurdu. Kənd təsərrüfatında vəziyyət son dərəcə ağır idi. Ölkədə yaşayış mənzilləri çatışmırdı, nəqliyyat şəbəkəsi bərbad vəziyyətdə idi.

İ.V.Stalinin ölümündən sonra SSRİ-də iqtisadi islahatların həyata keçirilməsi həyatın tələbatına çevrildi. Ölkədə xalq təsərrüfatı mexanizminin təkmilləşdirilməsinə aqrar bölmədən başlandı. Sov.İKP MK-nın 1953-cü ilin sentyabrındakı Plenumunda N.S.Xruşşov məruzəsində kolxozçuların maddi marağının olmamasının, şəxsi və ictimai maraq arasındakı ziddiyyətin, əməyin mexanikləşdirilməsinin aşağı səviyyəsini, kolxoz, sovxoz və MTS-lərdə ciddi rəhbərliyin çatışmazlığının kənd təsərrüfatının geri qalmasının əsas səbəbləri olduğunu qeyd etdi. Aqrar bölmənin iqtisadiyyatını sağlamlaşdırmaq məqsədilə kənd təsərrüfatı məhsullarına daha inandırıcı qiymətlərin müəyyənləşdirilməsin, aşağıdan planlaşdırmaya keçilməsini, vergi siyasətinin yenidən qurulmasını, kolxozçuların maddi marağının artırılmasını nəzərdə tutan bir sıra tədbirlər həyata keçirildi. Kolxozların pul gəlirinin artırılması kursu elan olundu. 1954-cü ildə 1952-ci illə müqayisədə kolxozçulardan tutulan vergi iki dəfə azaldıldı. Növbəti beş ildə kənd təsərrüfatı məhsullarının satınalma qiyməti üç dəfə art-

dı, aqrar bölmənin orta illik artım sürəti isə yüksələrək 7%-ə çatdı. 1954-cü ilin fevral-mart ayındakı Mərkəzi Komitənin Plenumunda xam və istifadəsiz torpaqların əkilməsi irəli sürüldü. Altay və Krasnoyarsk əyalətləri, RSFSR-in Novosibirsk, Omsk, Çelyabinsk vilayətləri, Qazaxıstanın Akmalinsk, Pavlodar, Şimali Qazaxıstan, Kustanay, Semipalatinsk, Şərqi-Qazaxıstan vilayətləri xam və istifadəsiz torpaqların yeni ünvanları oldu. Üç il ərzində 32 mln. hektar torpaq sahəsi əkildi ki, bu da ölkənin 20-30-cu illərdəki torpaq fonduna bərabər idi. Nəticədə, taxıl tədarükü 54 mln. tona çatdı. Ölkədə tədarük edilən taxılın hər ikinci, sonralar isə hər dördüncü tonu xam torpaqların payına düşürdü. Tezliklə yeni torpaqlar 1-1,5 milyard pud taxıl verməyə başladı. Xam torpaqların kütləvi və mövcud aqrotexniki qaydalara əməl edilmədən əkilməsi torpaqların eroziyasına səbəb oldu. Təkcə Qazaxıstanda əkinə yararlı sahələrin 35%-i eroziyaya uğrayaraq, yararsız vəziyyətə düşdü, ekoloji vəziyyət pişləşdi.

SSRİ-ni qısa zaman kəsiyində taxılla təmin etməyi nəzərdə tutan N.S.Xruşşov ABŞ-ın təcrübəsinə əsaslandı və ona görə yüksək məhsuldarlığı ilə fərqlənən qarğıdalı əkilməsinə aludə oldu. 1955-ci ildən ənənəvi mədəni bitkiləri, o cümlədən yemçilik bitkilərini sıxışdıran qarğıdalı əkini sürətlə genişləndi. İstilik sevən bitki olan qarğıdalı hətta şimal vilayətlərində belə əkilməyə başladı ki, bu da faktiki olaraq bu yerlərdə qarğıdalının məhsul verməməsi ilə nəticələndi. 60-cı illərin əvvəllərində SSRİ-nin dənli əkin sahələrinin dörddə bir hissəsin qarğıdalı əkinləri təşkil edirdi. Qarğıdalı əkinin 80%-dən çoxu isə mal-qara yemi üçün nəzərdə tutulurdu. 1962-ci ilin quraqlığı ölkədə taxıl qıtlığına gətirib-çıxardı. SSRİ çatışmayan taxılı xaricdən almağa məcbur oldu.

N.S.Xruşşovun kənd təsərrüfatı sahəsində tətbiq etdiyi inzibati islahatlardan biri də MTS-i ləğv edib texnikanı kolxozların mülkiyyətinə verməsi oldu. İqtisadi cəhətdən bu kolxozların təşkilatı işlərinə müsbət təsir etsə də, texnikanın kolxoz vəsaiti hesabına qısa bir müddətdə satın alınması kolxozların maliyyə ehtiyatlarını tükətdi. Bir çox mütəxəssis və texniklər kolxozçu statusuna düşməmək məqsədilə şəhərlərə üz tutdu, texniki park ixtisaslı mütəxəssislərdən məhrum oldu. Odur ki 1958-1961-ci illərdə 20-ci illərin sonu ilə müqaisədə ilk dəfə olaraq kənd təsərrüfatının maşın parkında azalma qeydə alındı.

Nikita Xruşşovun aqrar siyasətində islahatlardan biri də kənd təsərrüfatının sənayeləşdirilməsini təmin edə bilən iri, nəhəng kolxozların yaradılmasıdır. İslahata əsasən, 1955-ci ildə ölkədə mövcud olan 83 min iri kolxoz təsərrüfatlarının yaranması səbəbindən 1957-ci ildə 68 min, 1960-cı ildə isə 45 minə düşdü. Liderin bu layihəsi əslində kəndin «sosialist həyat tərzi»nə uyğunlaşaraq aqroşəhərlərin salınmasına kömək edən sosial tədbirlərin artmasını nəzərdə

tuturdu. Bunun üçün küllü miqdarda kapital qoyuluşu tələb olunurdu ki, bu da kolxozların vəsaitini sərf etdiyi MTS ilə bağlı olaraq mümkünsüz idi. 1958-ci ildən kolxozçuları daha çox ictimai təsərrüfata cəlb etmək məqsədilə N.Xruşşov onların həyətyanı təsərrüfatlarını azaltdı, şəhər və fəhlə qəsəbələrində mal-qara saxlamağa icazə verilmədi.

1957-ci ildə N.S.Xruşşov «Əhalinin hər bur nəfərinə düşən ət, süd və yağ istehsalına görə Amerikaya çatmaq və onu ötüb keçmək» avantürist şuarı irəli sürdü. Əslində mayın 22-də kolxozçuların yığıncağında səsləndirilən bu şüar sovet tarixinin əvvəlki 30 ili üçün xarakterik olan qorxulu təcrübənin, yəni məsələnin həllinin volüntarist yolla «irəli tullanmaq» metodu isə həyata keçirmək arzusundan uzağa getmədiyi üçün real deyildi. Qısa müddətdə ət istehsalını artırmaq tələbi mal-qaranın kütləvi kəsilməsinə və sayının kəskin azalmasına təkan verdi. Təhlil edilmədən tətbiq olunan bu islahatlar əslində kənd əhalisinin şəhərlərə axınını sürətləndirdi. 1960-1964-cu illərdə 7 mln. nəfər kənd əhalisi şəhərlərə axın etdi ki, bunların da 6 milyonu gənclərdən ibarət idi.

Stalinin idarəçiliyindən imtina edən (destalinizatsiya) partiyanın rəhbərliyi 50-ci illərdə xalq təsərrüfatının idarə edilməsi sistemini əsaslı olaraq dəyişdirdi. 1953-cü ilin martında bir sıra nazirliklər birləşdirildi, onların sayı 51-dən 25-ə düşdü. Ancaq 1954-cü ildə əvvəlki sistem bərpa edildi və onun məsuliyyəti L.Beriyanın üzərinə qoyuldu.

1957-ci ildə N.S.Xruşşovun təşəbbüsü ilə xalq təsərrüfatının idarə edilməsinin mərkəzləşdirilməsini zəiflətməklə nazirliklərin funksiyaları ərazi xalq təsərrüfat şuralarına (Совнархоз) verildi. Sovnarxozların yaradılması xammalın komplektləşdirilməsi və göndərilməsinə çəkilən xərcin azaldılmasına, eyni ərazidə yerləşən müəssisələr arasında kooperasiyanın güclənməsinə, yerli sənayenin güclənməsinə kömək etdi. Yerli qapalılığı aradan qaldırmaq məqsədilə 1960-cı ildə RSFSR, Ukrayna və Qazaxıstanda Respublika Xalq Təsərrüfatı Şurası təşkil olundu. 1963-cü ildə SSRİ Ali Xalq Təsərrüfat Şurası (ВСНХ) yarandı. AXTŞ-yə ilk illərdə D.F.Ustinov, 1965-ci ildən V.N.Novikov başçılıq etmişdir. Bu tədbirlər idarəçilik aparatının yenidən şişməsinə gətirib çıxardı və bu, nazirliklərin ləğv edilməsi vəzifəsi ilə ziddiyyət təşkil edirdi. Başlıcası, islahatın çatışmayan cəhəti ondan ibarət idi ki, üfüqi idarəçilikdən imtina etmə müəssisələrin hüququnu genişləndirmədi, onlar ərazi xalq təsərrüfatı şuralarının diqtəsi altına düşdülər.

Ümumiyyətlə, N.S.Xruşşovun iqtisadi islahatların 1953-1958-ci illəri əhatə edən təsirli iqtisadi və sosial mexanizmə malik olan birinci, 1959-1964-cü illəri əhatə edən iqtisadi idarəetmənin Stalin və volüntarist modelin birləşdirən ikinci dövrə bölmək həqiqətə daha uyğundur. Artıq 1958-1959-cu təsərrüfat

ilindən başlayaraq tətbiq olunan iqtisadi islahatlar məhz 1940-cı illərin sonu-1950-ci illərin əvvəllərində ölkədəki mənzərəni xatırladır. Belə ki dövlət büdcəsi imkanlarını aşan kapital qoyuluşunun və kreditlərin artması, istehsal vasitələri istehsalının, sənayenin kəskin və nəzarətsiz artımı, kadr axıcılığına səbəb olan kənd yerlərindən kütləvi surətdə aşağısəviyyəli işçi qüvvəsinin gəlməsi, iqtisadi artımın sürətinin aşağı düşməsi nəticəsində mal qıtlığının yaranması bu dövrdə müşayiət olunur.

Düzdür, 50-ci illərdə SSRİ-də iqtisadi inkişaf əsasən ekstensiv yəni keyfiyyətcə deyil, kəmiyyətcə artan yolla inkişaf edirdi. Yeni enerji və xammal mənbələri ehtiyatları mənimsənilir, genişmiqyaslı sənaye tikintisi işləri görülürdü.

Xruşşov hakimiyyətinin səhvlərinə baxmayaraq, 1950-ci illər SSRİ-də bir sıra istehsal sahələrinin avtomatlaşdırılması, prinsipcə yeni elmi-texniki istiqamətləri, o cümlədən elektronika, atom enerjisi, kosmosu əhatə edən elmi-texniki inqilaba keçid dövrü kimi səciyyələndirilir. Nüvə bombası üzərində iş prosesində mahiyyət etibarilə elmin yeni sahəsi olan hesablama riyaziyyatı yarandı. A.N.Tixonov, A.A.Samarski, M.V.Keldiş kimi görkəmli alimlər yeni elm sahəsinin yaradıcıları idi. 1950-ci ildə S.A.Lebedevin rəhbərliyi ilə kiçik Elektron Hesablama Maşını, 1952-ci ildə böyük Elektron Hesablama Maşını yaradılmışdır. Bunun ardınca «Strela», «Minsk», «Ural», «Dnepr», «Mir» və b. rəqəmli Elektron Hesablama Maşınlarının yeni nəsilləri meydana gəlmişdir. 1955-ci ilin fevralında «Baykonur» raket-kosmik kompleksinin, 1957-ci ilin fevralında Arxangelsk Vilayətində (hazırda «Plesetsk») təcrübə poliqonunun tikintisi geniş miqyas almışdır.

1954-cü il iyunun 27-də SSRİ-də dünyada ilk dəfə Obninskdə Atom Elektron Stansiyası işə düşdü. Bu təcrübənin davamı kimi birinci sənaye AES olan Seversk (Tomsk-7) şəhərində Sibir atom elektrik stansiyası fəaliyyətə başladı. 1958-ci ilin dekabrında işə salınan stansiyada Sibir kimya kombinatı üçün pluton alınırdı.

1955-1958-ci illərdə ölkədə 2690 iri sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. 1956-cı ildə Qorki Hidro-Elektrik Stansiyası (ГЭС), 1958-ci ilin yayında Kuybışev (Jiqulyovsk) HES-i tikilib istifadəyə verildi. İrkutsk və Novosibirsk HES-i, Saratov Kimya Kombinatı, Novoqorki və Volqoqrad Neft Emalı zavodları, Stavropol-Moskva qaz kəməri işə salındı. Şimali Qafqaz və Volqaboyunda qaz sənayesinin inkişafı 160-dan çox şəhərin qazla təmin edilməsinə şərait yaratdı. 1958-ci ildə SSRİ-də 2 mln., 1965-ci ildə 10 mln., 1986-cı ildə 65,4 mln. mənzil qazla təmin edilmişdir.

1959-1965-ci illərdəki yeddiillikdə sənaye istehsalı planda nəzərdə tutulmuş 80% yerinə 84% artmışdır. «B» qrupu, yəni yüngül, ərzaq, ağac emalı və sə-

nayenin bir sıra digər sahələri üzrə plan tapşırıqları yerinə yetirilməmişdir. Ümumən 5,47 min yeni iri sənaye müəssisəsi tikilmişdir. Neft və qaz sənayesi, metallurgiya və elektroenergetika sahəsi daha intensiv inkişaf etmişdir. 1960-cı ildə dünyada gücünə görə birinci olan Stalinqrad (Voljskaya) HES işə düşdü. Bunun ardınca 1963-cü ildə Krasnoyarsk, 1964-cü ildə Bratsk HES-i elektrik verməyə başladı. 1964-cü ilin aprelində Beloyarsk, sentyabrında Novovoronejsk Atom Elektrik Stansiyası (АЭС) sənaye enerjisi verdi.

Bir-birinin ardınca Ural və Çerepovtsda metallurgiya müəssisələri, Novotulsk və Novolipetskdə Metallurgiya zavodları işə salındı. Kaçkanarskdə Dağ-Mədən, Barnaulda şin, Şekinskdə kimya, Soliqorskidə kalium kombinatları fəaliyyətə başladı. 1961-ci ildə Moskva-Baykal Dəmiryol Magistralının elektrikləşdirilməsi başa çatdı.

Rəsmi məlumatlara əsasən, SSRİ-də sənaye istehsalının artım surəti 1951-1955-ci illərdə 13,1%, 1956-1960-cı illərdə 10,3%, 1961-1965-ci illərdə 8,6% olmuşdur. Alternativ hesablamalar nəticəsində bütün bu göstəricilər bir neçə faiz artıq göstərilməsinə baxmayaraq, sənayenin ümumi inkişaf dinamikası heç bir şübhə doğurmur. 60-cı illərdən başlayaraq SSRİ kömür əsrindən neft və qaz əsrinə daxil oldu. Yanacaq kompleksinin strukturunun dəyişilməsinin əsası məhz 1956-1961-ci illərdə qoyulmuşdur. 1964-cü ildə «Dostluq» («Дружба») beynəlxalq neft kəmərinin birinci, 1972-ci ildə ikinci, 1981-ci ildə üçüncü növbəsi çəkilmişdir. 5,2 min km uzunluğunda olan kəmər Almetevskdən başlayıb Samara, Bryanskdan Mozıra kimi, Belarus, Polşa, Almaniyadan, keçməklə Şimala, Ukrayna, Çexiya, Slovakiya, Macarıstandan keçməklə isə Cənub qoluna ayrılırdı.

Dəmiryol nəqliyyatının strukturu əhəmiyyətli şəkildə dəyişdi, yeni teplovoz və elektrovozlar parovozları əvəz etdi. Yeni reaktiv TU-104 sərnişin və yük təyyarələri uçmağa başladı. 1957-ci ilin iyununda dünyada birinci Yerətrafı kosmik gəmi Sovet İttifaqında buraxıldı. 1961-ci il aprelin 12-də Y.A.Qaqarin ilk dəfə Yer kürəsi ətrafında kosmik gəminin sükanı arxasında 108 dəqiqə dövrə vurdu. 1963-cü ilin iyununda birinci kosmonavt qadın V.V.Tereşkova idarə etdiyi «Vostok-6» kosmik gəmisində 71 saat kosmosda qaldı. Sovet adamının kosmosa uçuşları haqqında xəbərlər dünyanın marağına səbəb oldu.

Müharibədən sonra 1959-cu il yanvarın 15-də təşkil olunan əhalinin ilk siyahıyaalınmasına əsasən ölkədə yaşayan əhalinin sayı 1939-cu illə müqayisədə 22,4% artaraq 170,5 mln. nəfərə qarşı 208,8 mln. nəfər olmuşdur. 1962-ci ildə ilk dəfə şəhər əhalisi 111,2 mln. nəfər olmaqla 108,6 mln. nəfər olan kənd əhalisini ötüb keçmişdir. 1950-ci illərdə ölkə əhalisinin özünəməxsus strukturunu təşkil edən «arxipelaq QULAQ» tarixi başa çatmışdır. 1955-ci il

yanvarın 1-də düşərgə və koloniyalarda 309 min siyasi dustaq olduğu halda onların sayı 1956-cı ilin əvvəlində 114 min, 1959-cu ilin aprelində 11 min nəfərə düşərək «QULAQ» əhalisinin cəmi 1,5%ini təşkil etdi. DİN-nin Baş Düşərgələr İdarəsinin Təsərrüfatı 1959-cu ildə 1953-cü illə müqayisədə iki dəfə azalmışdı. Burada cəmi 948 min məhkum qeydə alınmışdır. 1954-cü ildə kollektivləşdirmə vaxtı öz yerlərindən sürgün edilən keçmiş qolçomaqlara tətbiq olunan məhdudiyyətlər ləğv edildi, 1955-ci ildə xüsusi köçkünlərə pasportlar verilməyə başlandı. Onlar sovet ordusu sıralarına çağrıldı. Böyük Vətən müharibəsi illərində işğalçılarla əməkdaşlıq edən vətəndaşlar əfv edildi. 1956-1957-ci illərdə çeçen, inquş, balkar, qaraçay, kalmıkların dövlətçiliyi bərpa olundu. 1964-cü ildə sovet almanlarına qarşı verilmiş 1941-ci ilin avqust fərmanı, tam olmasa da, ləğv olundu. 1967-ci ildə Krım tatarlarına tətbiq olunan oxşar fərman ləğv olundu. 1960-cı illərin sonlarından başlayaraq ölkədəki bəraət prosesi dayandırıldı.

1953-1954-cü illərdə xalq təsərrüfatının inkişafı milli gəlirin bir hissəsinin sosial ehtiyaclara, əmək şəraitinin yaxşılaşdırılmasına, əməkhaqqının artırılmasına, əhalinin ərzaq və sənaye malları ilə təmin edilməsinə yönəltməyə şərait yaratdı. 1955-ci ildə fəhlə və qulluqçuların aylıq əməkhaqqı 71,8 rubl təşkil edirdi. Artıq 1956-cı ildə adamlar 50-ci illərin əvvəli ilə müqayisədə iki dəfə çox ət, yağ, paltar, ayaqqabı alırdı. 1957-ci ilin martında fəhlə və qulluqçulardan tutulan vergi azaldıldı. Məcburi olan daxili istiqrazlar ləğv olundu. 1956-cı ildə fəhlə və qulluqçuların iş saatı şənbə günləri və bayramqabağı iki saat azaldıldı, 1957-ci ildən isə yeddi saatlıq iş həftəsinə keçildi. Minimum əməkhaqqı 1957-ci ildəki 40-45 rubldan 1960-cı illərin ortalarında artaraq 60 rubla çatdı.

1956-cı ilin sentyabrında müharibə ərəfəsində orta və ali məktəblərdə tətbiq olunan təhsil haqqı ləğv edildi. 1956-cı ilin iyulundan kişilər 60 yaşında, qadınlar 55 yaşında təqaüdə çıxa bilərdilər. Əhalinin orta yaş həddi 1926-1927-ci ildəki 44 ilə qarşı 1953-1954-cü illərdə 63, 1958-1959-cu illərdə 68 ilə çatmışdı. 1964-cü ilin iyulun 15-dən Ali Sovet kolxozçulara təqaüd və yardım ayrılmasına dair fərman verdi. Sovet kəndinin tarixində ilk dəfə olaraq dövlətin sosial təminat sistemini kolxozlara tətbiq etməsi demək idi. Kişilər 65, qadınlar isə 60 yaşına çatdıqda təqaüd almaq hüququ qazandılar. Fəhlə və qulluqçuların aylıq təqaüdü 30-120 rubl, kolxozçularınkı 12-15 rubl arasında dəyişirdi. 1958-ci ilin fevralından kolxozçu-kəndlilər pasport almağa başladılar.

1950-1960-cı illərdə ölkədə yaşayış mənzillərinin tikintisi sahəsində nəhəng işlərin əsası qoyuldu. 1954-1957-ci illərdə qəbul edilən qərarlarla vahid tip layihələr əsasında evlərin tikilməsinin nəzərdə tutulması ev tikintisi səna-

yesinin misilsiz genişlənməsinə gətirib çıxardı. Standart konstruktiv sxemin tətbiqi nəticəsində inşa edilən mənzilin əmək tutumu 3-4 dəfə, tikintinin dəyəri 25%, təhvilvermə müddəti 1,0-1,5 ay aşağı düşdü. 1950-ci ilin sonu-60-cı illərin əvvəllərində SSRİ mənzil tikintisinin sürəti və mənzil sahələrinin istifadəyə verilməsi miqdarına görə bütün iri dövlətləri qabaqlayaraq dünyada birinci yerə çıxdı. 1956-1960-cı illərdə SSRİ əhalisinin 1/4-ni əhatə edən 54 mln. adam yeni mənzil almışdır.

Sayılan uğurlarla yanaşı, yuxarıda da qeyd etdiyimiz kimi, 1950-ci illərin sonlarından başlayaraq SSRİ-də sənayenin inkişafında neqativ meyillər ön plana çıxdı. İstehsalın artım sürəti aşağı düşdü. Əvvəllər olduğu kimi, ikincidərəcəli hesab edilən yüngül sınaye vətəndaşların gündəlik tələbat mallarına olan ehtiyacını ödəyə bilmirdi. Ölkədə istehsal edilən məhsulun texniki səviyyəsi və keyfiyyəti xarici ölkələrlə müqaisədə çox geri qalırdı. Elmi-texniki tərəqqinin nailiyyətləri istehsalata ləng tətbiq olunurdu. Bütün bunlar direktiv planlaşdırma əsasında fəaliyyət göstərən mərkəzləşdirilmiş sistemin yararsız iqtisadi mexanizm təcrübəsinin nəticəsi idi.

### §4. «Mülayimləşmə» dövründə mədəni həyat

«Antipartiya qrupunun» ləğvi şəxsiyyətə pərəstişin yeni ilmə qazanaraq təkcə İ.Stalinin deyil, onun yaxın əhatəsi olan V.Molotov, L.Kaqanoviç, G.Malenkovun da tənqid edilməsinə səbəb oldu. Xüsusilə 1961-ci ildə Sov.İKP-nin XXII qurultayında Stalin repressiyaları ciddi tənqid atəşinə tutuldu. İ.V.Stalinin cənazəsi Mavzoleydən çıxarılaraq Kremlin divarları yanında dəfn edildi. Mətbuat hərbçilər və partiya xadimlərinə qarşı tətbiq edilən əsassız repressiyalardan ətraflı yazılar çap etdi. Bir çox görkəmli ədəbiyyat və incəsənət xadimi, o cümlədən İ.E.Babel, V.E.Meyerxold, B.A.Pilnyak və başqaları bəraət qazandı. «Yeni dünya» («Новый мир») jurnalında 1954-cü ilin yazında İ.Q.Erenburqun «Mülayim hava» («Оттепель») povesti çap olundu. Əsər əvvəllər ölkədə hökm sürən zərərli ab-havadan bəhs edirdi. Məhz povest 1953-1964-cü illərin şərti adını müəyyənləşdirmişdir. K.M.Simonov «Dirilər və ölülər» («Живые и мертвые») trilogiyasında 1941-ci ilin yayındakı məğlubiyyətdən açıq bəhs etdi. S.A.Yesenin, A.A.Axmatova, M.M.Zoşşenko, M.İ.Svetayeva yenidən çap edilməyə başladı. N.S.Xruşşovun xeyir-duası ilə Stalin repressiyasının qurbanı olan insanların faciəli həyatından bəhs edən əsərlər meydana gəldi. Qırmızı Ordunun sabiq

zabiti, düşərgə həyatı yaşamış A.İ.Soljenitsinin «İvan Denisoviçin bir günü» («Один день Ивана Денисовича») povestinin 1962-ci ildə «Yeni dünya» jurnalında çap edilməsi sovet cəmiyyətində böyük hadisə oldu. A.T.Tvardovskinin 1950-1954 və 1958-1970-ci illərdə baş redaktoru olduğu «Yeni dünya» («Новый мир») jurnalı Stalinin faciəsinin bədii təsvirində və ölkənin keçdiyi keşməkeşli yolun dərk edilməsində misilsiz rol oynamışdır. Jurnalın səhifələrində ümumxalq şöhrəti qazanmış F.A.Abramov, Ç.T.Aytmatov, V.İ.Belov, V.V.Bıkov, S.P.Zalıgin, F.A.İskəndər, V.M.Şukşin kimi sovet yazıçılarının qiymətli əsərləri çap edilirdi.

1953-cü ilin martından sonra ölkənin ədəbi-bədii və ictimai həyatında antistalinist islahatçılar və mühafizəkar stalinçilər arasında mübarizə ön plana çıxmışdır. Xruşşov islahatlarının tərəfdarı olan və 1960-cı ilin sonundan liberal ziyalılar adlandırılan qrupun ideoloji axın kimi liberalizmlə heç bir əlaqəsi olmayıb, azad düşüncə, dözümlülük, mərhəmət onların başlıca məqsədi olmuşdur. 1950-ci ilin əvvəllərində ideoloji axın kimi stalinçilərin də mühafizəkarlıqla heç bir ümumi əlaqəsi yox idi. Onlar antistaliznimi sosialist quruluşu üçün təhlükəli hesab etdiklərindən ona qarşı olub, lakin partiya intizamı səbəbindən» şəxsiyyətə pərəstişə» qarşı açıq çıxış edə bilmirdilər.

«Liberal düşərgə» 1950-ci illərin ortalarından Moskva və Leninqrad Yazıçılar təşkilatlarına nəzarət etməklə bərabər, mərkəzi «Yeni dünya» («Новый мир»), «Gənclik» («Юность») jurnallarına, «Ədəbiyyat qəzetinə» («Литературная газета») də güclü təsir göstərdi. 1960-cı ilin dekabrında «Gənclik» («Юность») jurnalında tənqidçi S.B.Rassadin «Altmışıncılar» («Шестидесятники») məqaləsində yazıçıların yeni ədəbi nəslindən, onların qəhrəmanları və oxucularından bəhs etmişdir. Sonradan 1950-ci illərin ikinci yarısı və 1960-cı illərdə yazıb-yaradan demokratik istiqamətli bədii yaradıcı adamlar «altmışıncılar» adlandırılmışlar. «Altmışıncılar»ın səciyyəvi xüsusiyyətindən bəhs edən Y.Karyakin özü və «XX qurultayın uşaqları» haqqında demişdir: «Biz Stalini söyürdük, ancaq bu Ezop dilində idi, çünki əslində biz Lenini söymək istəyirdik». 1957-ci ilin əvvəllərində sovet həqiqətini nihilistcəsinə təhrif etdikləri üçün yazıçılar V.Dudintsev, A.Voznesenski, D.Qranin, S.Kirsanov, rəssam P.Falk, heykəltəraş E.Neizvestnıy, rejissor M.Xutsiyev təhqiredici tənqidə tutuldular.

1950-ci illərin ortalarında ölkədəki rus «mühafizəkarları» iki hissəyə ayrılmışdır. Birincilərə görkəmli yazıçılar S.Sergeyev-Tsenski, L.Sobolyev, L.Leonov, M.Şoloxov və b. daxil idi. İkincilər 1940-cı illərin ikinci yarısında A.M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirən dünənki cəbhəçilər idi. M.Alekseyev, Y.Bondarev, B.Busiu, V.Solouxin, İ.Stadnyuk və digərləri onlari təmsil edirdi.

«Yeni dünya» («Новый мир») jurnalının əsas opponentlərindən biri «Oktyabr» jurnalı və 1961-1973-cü illərdə onun redaktoru olan yazıçı V. Koçetov idi. Onun 1958-ci ildə yazdığı «Yerşov qardaşları» («Братья Ершовы»), 1961-ci ildə qələmə aldığı «Vilayət katibi» («Секретарь обкома») romanları oxucular tərəfindən siyasətləşmiş, ədəbi cəhətdən zəif, sxematik və təhrikedici iş kimi qiymətləndirilmişdir. Eyni zamanda jurnalın səhifələrində V.Aksenov, Y.Yevtuşenko, V.Rozov, İ.Erenburq kimi şair və yazıçılar tənqid olunurdu.

Rus «mühafizəkarlarının» başlıca yaradıcılıq uğurlarından biri 1960-cı illərdə «kənd nəsrinin» meydana gəlməsidir. 1958-ci ildə V.Solouxin «Vladimr cığırı» («Vladimirskiye proselki»), 1962-ci ildə V.Şukşin «Kənd sakinləri» («Сельские жители») kitabların çap etdirdilər. Bunun ardınca kənd mövzusundan bəhs edən yazıçı və şairlər F.Abramov, V.Astafyev, V.Belov, V.Rasputin, O.Fokina, Y.Nosov ədəbi səhnəyə çıxdılar.

«Mülayimləşmə» musiqi və teatrdan da yan keçmədi. Sov.İKP-nin 1958-ci ilin mayındakı «Böyük dostluq» («Великая дружба»), «Boqdan Xmelnitski» və «Sidq-ürəkdən» («От всего сердца») operalarına verilən qiymətdəki səhvlərin düzəldilməsinə dair» qərarından sonra bəstəkarlar D.D.Şostakoviç, S.S.Prokofyev, V.Y.Şebalin, N.Y.Myaskovski yeni yaradıcılıq mərhələsinə qədəm qoydular. 1956-cı ildə aktyor və rejissor O.N.Yefremovun rəhbərliyi ilə «Müasir» («Современник») teatrı açıldı. Həmin teatr demokratikliyi və yüksək əxlaqi dəyərləri ilə seçilirdi.

Lakin ideoloji və mədəni həyatın stalinsizləşdirilməsi və mülayimləşməsi qeyri-ardıcıl və məhdud xarakter daşıyırdı. B.L.Pasternakın xaricdə çap etdirdiyi «Doktor Jivaqo» əsərinə görə onun Yazıçılar İttifaqının üzvlüyündən xaric edilməsi və təqibi buna əyani misaldır. 1958-ci ildə B.Pasternaka Nobel mükafatı verilməsi hakimiyyətlə onun arasında olan gərgin münasibətləri daha da kəskinləşdirdi. Yazıçı SSRİ-dən sürgün olunmaq hədə-qorxusu altında 1958-ci il noyabrın 5-də «Pravda» qəzetində müraciət çap etdirərək mükafatdan imtina etdiyini və Qərbi onun əsərini siyasi məqsədlərlə istifadə etməkdə təqsirləndirdi. B.Pasternakla bağlı məsələ göstərdi ki, hələ rus ziyalıları açıq surətdə hakimiyyətin təzyiqinə qarşı dayanmağa hazır deyildir. 1962-ci ildə Manejdə təşkil edilmiş bədii rəsm sərgisində N.S.Xruşşov rəssamlar R.R.Falk, E.İ.Neizvestniy, B.İ.Jutovskini sosialist realizminə cavab verməyən əsərlər yaratdıqları üçün kobud söyüşlə təhqir etdi. Bu bir daha nümayiş etdirdi ki, partiya və dövlət rəhbərliyi incəsənətdə səriştəsizliyinə baxmayaraq, özünü yaradıcı adamlara sənətin üsullarını öyrətmək qabiliyyətində görür. Düzdür, Stalinin dövründən fərqli olaraq, partiya liderinin qəzəbinə düçar olan rəs-

samlar repressiyaya və işdən qovulmağa məruz qalmadılar, lakin onların əsərlərinin muzey və sərgilərə gedən yolu bağlandı.

Nikita Xruşşovun stalinizmi tənqidinin və ölkədə ab-havanın mülayimləşməsi xəttinin yarımçıqlığı və qeyri-ardıcıllığı 1950-ci illərin sonundan başlayaraq Sovet İttifaqında qeyri-rəsmi mədəniyyətin və fərqli düşünənlər hərəkatının meydana gəlməsinə səbəb oldu.

«Dissident» (lat. razı olmayan) sovet hakimiyyətinin rəsmi doktrinası ilə razılaşmayan şəxslərə deyilir. Fərqli düşüncə onlarla hakimiyyəti qarşı-qarşıya qoyur. XX qurultaydan sonra rejimin nisbətən liberallaşması nəticəsində ayrı-ayrı vətəndaşların və qrupların Stalin dövründə olduğundan daha çox müxalifətçilik mövqeyində özünü ifadə etmək imkanı qazanmışdı. Dissidentlərin fəaliyyətinin səciyyəvi xüsusiyyəti hakimiyyət orqanlarından gizli hərəkət edərək tərəfdarlar səfərbər etmək, «Gizli nəşr» (Самиздат) vasitəsilə yazı maşınında dissident material və sənədləri hazırlayıb yaymaq, «Orada nəşr» (Тамиздат) vasitəsilə əsərləri xarici ölkədə çap edərək SSRİ-də yaymaq idi. 1958-ci il iyulun 29-da Moskvada Mayakovskinin abidəsinin açılışında gənclər qeyri-rəsmi yığıncaq təşkil edərək öz şeirlərini oxudular. Bəzən SSRİ-də yaradıcılıq azadlığından bəhs edilir, şeirlərin oxunması getdikcə daha çox siyasi məna kəsb edirdi. Daha çox repressiyaya uğrayan müəlliflərin şeirləri səslənirdi. 1961-ci ilin payızında hakimiyyət təmsilçiləri yığıncağı qovdu, onun V.N.Osipov, E.S.Kuznetsov, İ.V.Bokşteyn kimi fəal üzvlərini antisovet təşviqatı və təbliğatı maddəsi ilə mühakimə etdilər.

1950-ci ilin sonunda bir çox liberal istiqamətli yazıçı və publisist öz əsərlərin «gizli nəşr» vasitəsilə yaymağa başladı. A.İ.Ginzburqun redaktoru olduğu «Sintaksis» jurnalı «düşərgə» nəsrinin nümayəndələri olan V.Şalamov, Y.Ginzburqun əsərlərini, B.Axmadulina, V.Nekrasov, B.Okucava və başqalarının rəsmi çap edilməyən əsərlərini nəşr etmişdir. 1961-ci ildə A.İ.Ginzburqun həbs edilərək iki il azadlıqdan məhrum edilməsi jurnalın fəaliyyətini dayandırmışdır.

1950-ci ilin sonundan liberal yazıçıların bir hissəsi öz əsərlərini «Orada nəşr» vasitəsilə Qərbdə çap etdirmişdir. A.Sinyavski 1959-cu ildə «Məhkəmə gedir» («Суд идет»), 1963-cü ildə «Lyubimov», Y.Daniel 1961-ci ildə «Danışır Moskva» («Говорит Москва»), 1963-cü ildə «Bağışlanma» («Искупление»), V.Tarsisin 1962-ci ildə «Şən həyat» («Веселенькая жизнь»), 1963-cü ildə «Göy milçək haqqında rəvayət» («Сказание о синей мухе») əsərlərin çap etdirmişdir.

1961-ci ilin sentyabrında general-mayor P.Q.Qriqorenko Moskva şəhər partiya konfransında partiyanın proqram layihəsinin müzakirəsində seçkilərin demokratikləşdirilməsindən, seçicilər qarşısında məsuliyyətin artırılmasından,

rüşvətxorluq, vəzifəpərəstlik, şəxsi mənafe üçün partiya və dövlətin aldadılmasına qarşı mübarizədən bəhs edərək yeni şəxsiyyətə pərəstişin meydana çıxmasının qarşısına sipər çəkməyi təklif etmişdir. Bunun ardınca generalın Leninizmin Dirçəldilməsi Uğrunda Mübarizə İttifaqını yaratması onun partiya və işdən qovularaq fəal dissidentə çevrilməsinə səbəb olmuşdur. Nəticədə, 1964-cü ilin fevralında P.Qriqorenkonu xüsusi psixiatriya xəstəxanasına saldılar. 1956-cı ildə DİN-in xüsusi psixi xəstəxanalarında 3350 məhkum var idi.

1962-ci ilin noyabrında görkəmli kinorejissor, beşqat Stalin laureatı M.Rommun konfransda 1940-cı ilin sonundan «kosmopolitlərə» qarşı kampaniyadan bəhs edərək onun süni, antisemit xarakter daşımasına və yazıçı kadrların əzilməsin qeyd etməsi geniş səs-küy doğurmuşdur. Böyük sənət adamı xüsusi olaraq vurğulamışdır ki, «əzilmənin» günahkarları N.M.Qribaçev, V.A.Koçetov, A.V.Sofronov və «onlar kimilər» olmuşdur. Kinorejissorun çıxışı ziyalılar arasında çox böyük təsir yaradan hadisəyə çevrilmişdir.

«Oxuyan el şairləri» («Bardov») B.Ş.Okucava, Y.İ.Vizbor, A.M.Qorodnitski, A.A.Qaliçin, V.S.Vısotskinin əsərləri səmimiyyəti, xalqa yaxınlığı və qabarıq sosial-siyasi xüsusiyyəti ilə rəsmi incəsənət nümunələrindən əsaslı surətdə fərqlənirdi. Bütün bunlarla yanaşı, şəxsiyyətə pərəstişin tənqid edilməsindən sonra stalinizmi dirçəltmək və kütləvi repressiyalar mümkün deyildi. Bunu nəzərə alan rəsmi sovet təbliğat maşını cəmiyyətdə baş verən problem və çətinlikləri görməməyə üstünlük verirdi. Belə ki, 1959-cu il yanvarın 27-də toplanmış Sov.İKP-nin növbədənkənar XXI qurultayı «SSRİ-də sosializmin tam və qəti qəsəbəsini» təsbit etdi. Qurultay elan etdu ki, sosializmin tam və qəti qələbəsini təmin edən sovet cəmiyyəti «geniş kommunizm quruculuğu» yoluna qədəm qoymuşdur. 1959-1965-ci illəri əhatə edən yeddiillik plan tapşırıqlarını da qəbul edən partiyanın XXI qurultayının qərarları göstərdi ki, XX qurultayın keçmişin cinayətlərini aşkar etməsindən fərqli olaraq rəhbərlik yenidən arxasını real həqiqətlərə çevirib öz siyasətini gurultulu şüarlarla bəzəmək niyyətindədir.

1961-ci il oktyabrın 17-dən 31-nə kimi Sov.İKP-nin XXII qurultayında sayca üçüncü olan Yeni Proqram və Nizamnamə qəbul olundu. Yeni Proqramda ölkənin «geniş kommunizm quruculuğu» dövrünə qədəm qoyduğu qeyd edilir, bu məqsədə çatmaqda «kommunizmin maddi-texniki bazası»nın yaradılmasını təmin etmək üçün on il (1961-1971-ci illər), kommunizmin mərhələsinə bilavasitə daxil olmaq üçün isə ikinci on il (1971-1981-ci illər) müddəti nəzərdə tutulurdu. N.S.Xruşşov əminliklə təsdiq edirdi ki, «Sovet adamlarının indiki nəsli kommunizmdə yaşayacaq». Yeni Nizamnaməyə əsasən, yerli partiya özəklərinin hüququnun artması, partiya vəzifələrinin rotasiyası, yəni təzələnməsi,

ictimai əsasla partiya işinin genişlənməsi irəli sürüldü. Proqramda, eyni zamanda «kommunizm qurucusunun əxlaq kodeksi» öz əksini tapdı. Proqramda yaradıcı ziyalılar qarşısında gələcək cəmiyyətin «yeni insanı»nı tərbiyə etmək vəzifəsi qoyulmuşdur. Partiyanın üçüncü Proqramı real həyatdan uzaq olduğu üçün yerinə yetirilməsi mümkün olmayan vəzifələri reallaşdırmağı planlaşdırırdı. Bu isə hər şeydən əvvəl partiyanın XX qurultayından sonra sovet cəmiyyətində meydana gələn nikbin əhvali-ruhiyyə ilə bağlı idi. Eyni zamanda hakimiyyət vətəndaşları böyük vəzifələrlə hipnoz edərək gündəlik çətinliklərdən yayındırırdı. Tez bir zamanda iki onillik müddətində kommunizmin maddi-texniki bazasını yaratmağın mümkün olmadığı aşkar oldu, gülüş və lətifə doğurdu.

1960-cı ilin əvvəllərində meydana çıxan və getdikcə dərinləşən ərzaq qıtlığı şəraitində hökumət 1962-cı ildə ət-süd məhsullarının pərakəndə qiymətlərini artırdı. Bu, bütün ölkədə narazılığa səbəb oldu. Xüsusilə ərzaq çətinliyinin daha çox hiss olunduğu sənaye mərkəzlərində vərəqələr, etiraz nümayişləri meydana gəldi, tətilə çağırış şüarları artdı. Qiymətlərin artması və Elektrovozquraşdırma zavodunda tariflərin kəskin aşağı salınması 1962-ci il iyunun 1-də Novoçerkasskda kütləvi nümayişin başlamasına gətirib-çıxardı. Yerli rəhbərlik və milis qüvvələri nümayişçiləri dağıda bilmədi. Şəhərə Mərkəzi Komitənin Rəyasət Heyətinin üzvləri A.İ.Mikoyan və F.R.Kozlov gəldi, ordu qüvvələri yeridildi. Sovet ordusu nümayişçilərə atəş açdı 23 nəfər öldü, 70 nəfər yaralandı, 49 nəfər həbs olundu, 116 nəfər cinayət məsuliyyətinə cəlb edildi. 14 nəfər hadisələrin təşkilatçısı hesab edildi, onlardan 7 nəfəri güllələnmə, qalanları isə 10-15 il müddətinə həbs cəzası aldı. Hakimiyyət orqanları hadisələri gizlətməyə çalışsa da, bu mümkün olmadı, tezliklə nümayişçilərin güllələnməsi xəbəri bütün ölkəyə yayıldı. Novoçerkassk hadisələri sovet hakimiyyəti təbiətinin dəyişmədiyini nümayiş etdirdi və N.S.Xruşşovun daxili siyasətinin puçluğunu göstərdi. Ərzaq mallarına qiymətlərin artırılması ölkənin digər şəhərlərində, o cümlədən Murom, Aleksandrov, Biysk, Krivoy Roq, Sumqayıtda da həyəcanlara səbəb olmuşdur.

N.S.Xruşşovun hakimiyyəti illərində dövlət və partiya aparatının idarə olunması tez-tez dəyişdirilirdi. 1957-ci ildə N.Xruşşov sənayenin idarə edilməsi qaydasını dəyişdirərək nazirliklərin yerinə iqtisadi idarəetmənin həlledici pilləsi kimi ərazi xalq təsərrüfatları şuraları yaratdı. Sovnarxozların yaradılması müsbət nəticə versə də, partiya aparatı işçiləri Moskvanı tərk edib əyalətlərə göndərildikləri üçün narazı qaldılar. Vilayət partiya komitəsinin rəhbərlərinin sovnarxozların rəhbər heyəti tərkibinə daxil edilməməsi təsərrüfatçıların partiya orqanlarından asılı olmamasını təmin etsə də, başqa tərəfdən partiya rəhbərlərinin narazılığını daha da artırdı. 1961-ci ildə qəbul olunan Sov.İKP-nin

Nizamnaməsinə əsasən, rəhbər seçkili partiya orqanlarının mütəmadi təzələnməsi partiya aparatını narahat edirdi. 1962-ci ildə rayon və vilayət partiya təşkilatları sənaye və kənd təsərrüfatına bölündü. Beləliklə, ərazidə iki vilayət partiya komitəsi fəaliyyət göstərməyə başladı. Sənaye vilayət komitələri faktiki olaraq iri sovnarxozlara tabe oldu. Müvafiq dəyişiklik sovetlər, komsomol, həmkarlar ittifaqı və milisi də əhatə etdi. Praktiki olaraq bu dəyişikliklər yerli partiya-sovet orqanlarının işində qarma-qarışıqlığa, aparatın süni surətdə şişməsinə, partiya və dövlət qulluqçularının öz vəziyyətlərinin sürüşkən olmasına səbəb oldu və nəticədə onları N.S.Xruşşova qarşı köklədi. N.S.Xruşşov marşal G.K.Jukovu istefaya göndərdiyi üçün, atom sualtı qayıqları ilə əlaqədar olaraq suüstü hərbi dəniz gəmilərini istifadədən çıxardığı, ordunun əhəmiyyətli dərəcədə azaldığı və bir çox zabit yeni həyata hazırlanmadan, onlara mənzil vermədiyi və ordudan təxris etdiyi üçün hərbçilər arasında öz nüfuzunu itirmişdi. Beləliklə, 60-cı illərin ortalarına doğru Nikita Xruşşov sosial dayaqlarını itirərək, partiya-dövlət aparatının, ordunun, ziyalıların, fəhlə və kolxozçuların müdafiəsindən məhrum oldu.

### §5. SSRİ-nin xarici siyasəti

İ.V.Stalinin ölümündən sonra SSRİ-nin xarici siyasəti əhəmiyyətli dərəcədə dəyişərək mülayimləşməyə istiqamətləndi. 1953-cü ilin iyulunda Koreyada atəşin dayandırılmasına dair saziş imzalandı. İsraillə 1953-cü ilin fevralından kəsilən diplomatik münasibətlər bərpa olundu. Sovet İttifaqı Türkiyəyə qarşı olan ərazi iddialarından əl çəkərək onunla münasibətləri normallaşdırdı.

N.S.Xruşşovun xarici siyasət strategiyası sosialist ölkələri cəbhəsi üçün daha çox müstəqillik, kapitalist dövlətləri ilə dinc yanaşı yaşamağın mümkün olmasını, üçüncü dünya ölkələri nümunəsində isə «sülh cığırı» yaratmağı elan etdi. Bu isə o demək anlamına gəlirdi ki, sovet xarici siyasət doktrinası müdafiə xarakteri almışdır. N.Xruşşovun təşəbbüsü ilə ordu və hərbi dəniz donanmasının canlı qüvvə və hərbi texnikasının azaldılması bunu təsdiq edir.

1953-cü il iyun ayının 17-də ADR-də xalqın sosialist quruluşuna qarşı ilk açıq çıxışları başladı və bu bütün Şərqi Avropa ölkələrini həyəcanlandırdı. Kənd təsərrüfatının kollektivləşdirilməsi ilə bağlı hökumətin tədbirləri, ikiyə bölünmüş ölkənin xarici dövlətlərlə iqtisadi əlaqələrinin zəifləməsi sayəsində əhalinin güzəranının pisləşməsi, fəhlələrin əmək normalarının artırılması hökumət əleyhinə tətil və çıxışları şiddətləndirdi. Onların da sayı 100 min nə-

fərdən çox idi. Belə çıxışlar bütün Şərqi Avropanın sosialist ölkələrində yayılmağa başladı. Onların qarşısı sovet ordu qüvvələri tərəfindən alındı. Gərginliyi azaltmaq məqsədilə 1954-cü ilin yanvarından SSRİ ADR-dən daha təzminat almadı və ona kredit verdi.

AFR-in silahlanması, İtaliya və AFR-in NATO-ya qəbul edilməsi sosialist ölkələrinin öz müdafiə ehtiyaclarını ön plana çıxardı. 1955-ci ilin may ayında Bolqarıstan, Macarıstan, Rumıniya, Albaniya, Polşa, ADR, Çexoslovakiya və SSRİ-nin səlahiyyətli nümayəndələri Polşanın paytaxtı Varşavada Avropada sülh və təhlükəsizlik məsələlərinə aid müşavirə keçirdilər. Avropanın 8 sosialist dövləti 1955-ci il mayın 14-də dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə imzaladılar və Varşava Müqaviləsi Təşkilatını (ОВД) yaratdılar. VMT-nın üzvləri beynəlxalq hüququn prinsiplərinə əməl etməyi, sülh və təhlükəsizlik naminə beynəlxalq əməkdaşlıqda iştirak etməyi və hərbi müdaxilə təhlükəsi zamanı məsləhətləşməyi öz öhdələrinə götürdülər. Təşkilatın siyasi Məsləhət Komitəsi, Silahlı Qüvvələrin Birləşmiş komandanlığı, onun Qərargahı yaradıldı. 20 il müddətinə imzalanan Müqavilənin 4-cü maddəsinə əsasən, təşkilat üzvlərindən hər hansl biri hücuma məruz qalarsa, o biri iştirakçılar dərhal ona kömək etməli idi.

1954-cü ilin yayında xarici işlər naziri V.Molotovun müqavimətinə baxmayaraq, N.S.Xruşşov Yuqoslaviya ilə 1948-ci ildən kəsilən münasibətləri qaydaya salmağa başladı. 1955-ci il mayın 23-dən iyunun 3-dək N.S.Xruşşov, N.A.Bulqanin və A.İ.Mikoyan Yuqoslaviyaya səfər edərkən N.Xruşşov əvvəllər kəsilmiş münasibətlərə görə «səmimi təəssüfünü» ifadə edərək, bu hadisənin məsuliyyətini Yuqoslaviya rəhbərliyinə qarşı saxta dəlillər hazırlayan və xalq düşməni kimi Sovet İttifaqında ittiham edilən L.Beriya, V.Abakumov və başqalarının üzərinə yıxdı. İ.B.Tito ilə aparılan danışıqlar müsbət nəticə verdi, iyunun 2-də birgə bəyannamə yayıldı. Bəyannamədə qeyd edilirdi ki, hərbi bloklar siyasəti beynəlxalq gərginliyi gücləndirir, dinc yanaşı yaşamaq prinsipi isə ictimai-siyasi quruluşlarından asılı olmayaraq bütün dövlətlərin əməkdaşlıq etməsini nəzərdə tutur. Yuqoslaviya əhəmiyyətli iqtisadi kömək almasına baxmayaraq, öz bitərəfliyini qorudu və QİYŞ, VMT-ə üzv olmadı. 1956-cı ilin aprelində Avropanın kommunist və fəhlə partiyalarının Məlumat Bürosu öz fəaliyyətini dayandırdı, dünya birliyinin parçalanması xeyli zəiflədi.

50-ci illərin ikinci yarısında N.S.Xruşşovun xarici siyasət sahəsində yeritdiyi mülayimləşmə siyasəti davam edirdi. 1955-ci il mayın 15-də Vyanada Avstriya ilə dövlət müqaviləsi imzalandı. Müqaviləyə əsasən, Avstriyanın suverenliyi 1938-ci ilin yanvarın 1-nə olan sərhədlər daxilində bərpa edilir,

Avstriya Almaniya ilə iqtisadi və siyasi ittifaq yaratmamağı öz öhdəsinə götürdü. 1955-ci il dekabrın 31-dək bütün xarici qoşunlar, o cümlədən sovet əsgərləri Avstriyadan çıxmalı idi. SSRİ, ABŞ, İngiltərə və Fransa 1955-ci il dekabr ayının 6-da Avstriyanın bitərəfliyini tanıdılar.

1955-ci ilin sentyabrında AFR-in kansleri K.Adenauer Sovet İttifaqına rəsmi səfər etdi, ayın 13-də SSRİ ilə AFR arasında diplomatik münasibətlər yaradılması haqqında razılıq əldə edildi. İmzalanmış yekun bəyannaməsində elan edildi ki, SSRİ ilə AFR arasında normal münasibətlərin yaradılması Avropada təhlükəsizlik və əməkdaşlıq məsələlərinin, Almaniyanın birləşməsi probleminin həllinə kömək edəcək. Lakin AFR və ADR-in qarşı-qarşıya duran hərbi bloklara daxil olması vahid alman dövlətinin yaranmasını uzun illər ləngitdi.

Qalib dövlətlər Qərbi Berlinin azad şəhər elan edilməsində razılığa gələ bilmədikdən sonra VMT-nın dövlət rəhbərləri müşavirəsinin təklifi ilə 1961-ci il avqustun 12-dən 13-nə keçən gecə Şərqi və Qərbi Berlin arasında əvvəlcə tikanlı məftil, sonra beton divar çəkildi. «Soyuq müharibə»nin simvolu olan divar 1990-cı il oktyabrın 3-də söküldü.

Sov.İKP-nin XX qurultayından (fevral 1956-cı il) sonra Şərqi Avropanın sosialist ölkələrində stalinizm metodundan imtinaya (destalinizatsiya) meyil artdı. 1956-cı ilin iyununda Polşanın Poznan şəhərində nümayişlər başladı, onlar azadlıq, kommunist siyasi rejiminin ləğvini, sovet ordusunun Polşadan çıxarılmasını tələb edirdilər. Nümyaiş ordu və təhlükəsizlik qüvvələri tərəfindən dağıdıldı. N.Xruşşov güzəştə gedərək 1945-ci ildən Polşanın müdafiə naziri olan K.K.Rokossovskini geri çağırmağa razı oldu, V.Qomulkanın yeni rəhbər seçildiyi Polşa Varşava Müqaviləsi Təşkilatının üzvlüyündə qaldı.

1956-cı il oktyabrın 23-24-də Macarıstanın paytaxtı Budapeştdə demokratik quruluşun bərqərar olması, sovet ordularının Macarıstandan çıxarılması, Stalinin davamçısı M.Rakoşinin istefaya göndərdiyi İ.Nadın hökumət başçısı təyin edilməsi tələbləri ilə nümayişlər başladı. Xalqın nümayiş və çıxışları sovet ordu birliklərinin iştirakı ilə macar qoşunları və təhlükəsizlik qüvvələri tərəfindən dağıdıldı. A.İ.Mikoyan və M.A.Suslov Macarıstana gələrək rəhbərliklə danışıqlara başladılar. Nəticədə oktyabrın 27-də Y.Kadar Macarıstan Zəhmətkeşlər Partiyası MK-nın birinci katibi, İ.Nad hökumətin başçısı oldu. Kompromisin əldə olunduğu və sovet qoşunlarının ölkəni tərk etməyə hazırlaşdığı bir vaxtda çox güman ki, Yaxın Şərqdə müharibənin başlanması ilə əlaqədar olaraq N.S.Xruşşov və ona yaxın olan partiya rəhbərləri fikirlərini dəyişdirdilər, noyabrın 1-də Macarıstana əlavə sovet qoşunları yeridildi. Buna cavab olaraq İ.Nad Macarıstanın VMT-dən çıxaraq bitərəfliyini elan etdi. Noyabrın 4-7-də sovet qoşunu macar üsyançılarının şiddətli müqavimətini

qıraraq etiraz çıxışlarını qan içində boğdu. Hökumətin başçısı İ.Nad həbs edilərək güllələndi. Çıxışlar yatırılarkən 2,5 min nəfər macar öldürüldü, 20 min nəfər adam yaralandı. Sovet tərəfinin itkisi 720 nəfər, 1,5 min nəfər yaralı oldu. 200 minə yaxın macar öz vətənindən didərgin düşdü. Macarıstanın işğalı göstərdi ki, Sovet İttifaqı və onun rəhbərliyi Şərqi Avropa ölkələrinin müstəqilliyi ilə barışmaq fikrindən uzaqdır. BMT-nin Baş Məclisi sovet işğalını pisləsə də, Qərb ölkələri Süveyş kanalı böhranı ilə əlaqədar olaraq heç bir qəti tədbir görə bilmədi.

Misirdə milli-azadlıq hərəkatı gücləndi, kral ölkədən qovuldu və 1953-cü il iyun ayının 18-də monarxiya ləğv edildi, «Azad zabitlər» ittifaqına başçılıq edən C.Nasir Misirin baş naziri, sonra isə prezidenti seçildi. 1956-cı ilin iyununda İngiltərə öz qoşunlarını Misirdən tamamilə çıxardı. 1956-cı il iyulun sonunda Misir hökuməti Süveyş kanalı kampaniyasını milliləşdirdi. Kampaniyanın səhmlərinin çoxu İngiltərə və Fransaya məxsus idi ki, onlar da kanalın istismarından ildə 35 mln. funt sterlinq gəlir əldə edir, ancaq Misirə cəmi 1 mln. funt sterlinq pul ödəyirdilər. Odur ki, İngiltərə, Fransa, İsrail və Qərb dövlətləri milliləşdirməyə etiraz edərək, Misirə qarşı hərbi müdaxiləyə hazırlaşmağa başladılar. 1956-cı ilin oktyabrın 29-dan 30-na keçən gecə İsrail ordusu Fələstin partizanlarına qarşı mübarizə bəhanəsi ilə Sinay yarımadasında hərbi əməliyyatlara başladı. Oktyabrın 31-də isə İngiltərə və Fransa Misirə qoşun yeritdi. Əhalinin müqaviməti, müharibə əleyhdarlarının çıxışları, SSRİ və sosialist ölkələrinin mövqeyi müdaxiləçilərin planlarını pozdu. Dekabrın 22-də İngiltərə və Fransa qoşunlarını Misirdən çıxardı. 1957-ci ilin martında İsrail qoşunlarını 1949-cu ildə təsbit olunmuş barışıq xəttinin arxasına çəkməyə məcbur oldu. Misirə qarşı üç dövlətin təcavüzünün başa çatması nəticəsində SSRİ və Şərqi Avropanın sosialist ölkələrinin Yaxın və Orta Şərq ölkələri ilə əməkdaşlığı artdı.

Süveyş kanalı böhranı ilə bağlı təşkil olunmuş konfransda imperialist dövlətlərinə qarşı sərt mövqe nümayiş etdirməməsi iddiası ilə D.T.Şepilov xarici işlər naziri vəzifəsindən azad edildi, 1957-ci il fevralın 15-də A.A.Qromıko bu vəzifəyə təyin olundu.

Sov.İKP-nın XX qurultayından sonra Sovet-Çin münasibətləri böhran vəziyyətinə düşdü. Mao Tsze Dunun başçılıq etdiyi Çin rəhbərliyi İ.Stalinin tənqid edilməsinə bütün kommunist hərəkatına ziyan vuracağı fikri ilə mənfi münasibət bildirdilər. Onlar, eyni zamanda XX qurultayın dinc yanaşı yaşamaq kursuna qarşı çıxaraq belə hesab edirdilər ki, üçüncü dünya müharibəsi nəticəsində imperializm məhv olacaq, sosializm isə güclənəcək. 1960-cı ildə ÇXR-in rəhbərliyi SSRİ-nin partiya liderlərini təftişçilikdə və dünya proleta-

riatının maraqlarına xəyanətdə təqsirləndirdilər. Buna cavab olaraq Sovet İttifaqı Çinə göndərdiyi iqtisadi köməyi dayandırdı və sovet mütəxəssislərini geri çağırdı. 1961-ci ildə iqtisadi və elmi-texniki əməkdaşlığa aid Sovet İttifaqı ilə bağlanmış bir çox sazişləri Çin tərəfi ləğv etdi. 1962-ci ildə SSRİ ilə Çin arasında əmtəə dövriyyəsinin həcmi 1959-cu ilə nisbətən 60% aşağı düşdü. SSRİ-Çin sərhədində münaqişələrin sayı artaraq, 1963-cü ildə 4 mindən çox olmuşdur. 1964-cü ilin iyulunda Çin rəsmi şəkildə SSRİ-yə qarşı ərazi iddiası ilə çıxış edərək bildirdi ki, Primorye, Xabarovsk diyarı, Saxalin, Baykal gölünədək Şərqi Sibir, Balxaş gölünə kimi Mərkəzi Asiya daxil olmaqla 1,5 mln. kv.km ərazi ona qaytarılmalıdır. Sovet-Çin münasibətləri pisləşməkdə davam edirdi.

1957-ci ildən başlayaraq SSRİ-də qitələrarası ballistik raketlərin hazırlanması, ilk peykin buraxılması sovet rəhbərliyi, ilk növbədə N.S.Xruşşovun xarici siyasət xəttini sərtləşdirməsinə şərait yaratdı. 1959-cu ildə ilk sovet rəhbəri kimi ABŞ-a səfər edən N.S.Xruşşov öz çıxışlarında tez-tez dinc yanaşı yaşamağın əhəmiyyətindən bəhs edir və hətta bunun sayəsində nəvələrin kommunizmdə yaşayacaqlarını iddia edirdi. Lakin 1960-cı il mayın 1-də Sverdlovsk (Yekaterinburq) səmasında amerikan U-2 casus təyyarəsinin sovet hərbi qüvvələri tərəfindən vurulması SSRİ-ABŞ münasibətlərini kəskinləşdirdi. Təyyarəçi F.Pauers ələ keçdi və sonra sovet kəşfiyyatçısı R.İ.Abellə dəyişdirildi. Sovet-Amerika münasibətləri 1962-ci ilin payızında Karib böhranı dövründə daha da kəskinləşdi.

1959-cu ildə Kubada F.Batistanın rejimi devrildi və hakimiyyətə üsyançıların rəhbəri F.Kastro gəldi. Kubaya Latın Amerikasında özünün strateji müttəfiqi kimi baxan SSRİ 1962-ci ilin yayında orada gizli şəkildə 42 ədəd ortamənzilli raketlər yerləşdirdi. ABŞ-ın prezidenti C.Kennedi dərhal həmin raketlərin Kubadan çıxarılmasını tələb etdi və Kubanı oktyabrın 22-də dənizdən və havadan mühasirəyə alaraq, onun sahillərinə 85 min dəniz piyadası ilə dolu olan 183 hərbi gəmi göndərdi. SSRİ ilə ABŞ arasında yaranmış hərbi qarşıdurma nüvə müharibəsinə çevrilə bilərdi. 1962-ci il oktyabrın 24-də Karib hövzəsindəki vəziyyət BMT Təhlükəsizlik Şurasında müzakirə edilərək, tərəflərə problemin həlli məqsədilə dinc danışıqlara başlamağı məsləhət bildilər. 1962-ci il noyabrın 1-də əldə edilən razılığa əsasən, ABŞ hökuməti 1962-ci il noyabrın 21-də Kubanın hərbi mühasirəsini ləğv etdi, SSRİ isə öz raketlərini Kubadan çıxartdı, böhran siyasi-diplomatik yollarla həll edildi. Ancaq SSRİ siyasi cəhətdən məğlub oldu, belə ki, onun gizli şəraitdə raketləri yerləşdirməsi avantüra idisə, onların sökülməsi Sovet İttifaqının zəifliyi demək idi.

Karib hövzəsindəki böhran nüvə müharibəsi təhlükəsini bir daha gündəmə gətirdi. 1963-cü il 15-25 iyulda Moskvada SSRİ, ABŞ və İngiltərə arasında havada, kosmosda və suda nüvə sınaqlarının dayandırılması haqqında aparılan danışıqlar avqustun 5-də müqavilə imzalama ilə başa çatdı. Giriş və 5 maddədən ibarət olan bu müqavilə 1963-cü il oktyabrın 10-da qüvvəyə mindi.

1964-cü ildə N.S.Xruşşovun həyata keçirdiyi islahatlar siyasəti başa çatdı. Həmin müddətdə onun islahatlarının əleyhinə olanların sayı durmadan artdı. Mərkəzi partiya dövlət aparatında N.S.Xruşşova qarşı yaranan müxalifət möhkəmləndi. Xalq təsərrüfatı sahəsində ölçülüb-biçilmədən, tələm-tələsik tətbiq edilən yenidənqurmalar yerlərdə ona qarşı olanların sayının artmasına səbəb oldu. Çinlə münasibətlərin kəsilməsi, amerikan kəşfiyyat təyyarəsinin vurulması N.S.Xruşşovun ünvanına deyilən tənqidlərin xarici siyasət xəttinə aid edilməsi demək idi. Onun ordunu tərxis etmək planı Baş Qərargahın ciddi narazılığına şərait yaratdı. N.S.Xruşşovun dövründəki dəyişikliklər əslində sovet cəmiyyətinin islah edilməsi yolunda atılan ilk əhəmiyyətli cəhd hesab edilə bilər. N.S.Xruşşov başda olmaqla, ölkə rəhbərliyi Stalin irsindən imtina edərək cəmiyyətin sosial və siyasi quruluşunu dəyişdirməyə qismən nail ola bildi. İqtisadi vəziyyətin pisləşməsi və xarici siyasət xəttinin uğursuzluqları 1964-cü ildə N.S.Xruşşova qarşı Sov.İKP-nin üst qatlarında qəsd hazırlanması ilə bitdi. Burada aparıcı rol Sov.İKP MK Rəyasət Heyətinin üzvləri L.İ.Brejnev, A.N.Şelepin, N.V.Podqornı və RSFSR Nazirlər Sovetinin sədri D.S.Polyanski, DTK-nın sədri B.Y.Semiçastnı oynadı. A.Şelepin 1962-ci ildə yaradılan Partiya Dövlət Nəzarəti Komitəsinin sədri kimi DTK, DİN və orduya nəzarət edirdi. N.P.Podqornı və L.Brejnev isə Sov.İKP MK-nın katibləri idi. 1964-cü ilin oktyabrın 13-də N.S.Xruşşov Pitsundadan istirahətdən təcili qaytarıldıqdan sonra MK-nın Rəyasət Heyətinin iclası çağrıldı. N.S.Xruşşov MK Rəyasət Heyətinin iclasına dəvət edilərək vəzifələrə təyin etdiyi şəxslər tərəfindən kəskin tənqid edildi və istefası tələb olundu. Özünün dayaqları hesab etdiyi adamların ona qarşı birləşdiyini görən N.S.Xruşşov təslim oldu və 1964-cü il oktyabrın 15-də qəzetlərdə belə bir məlumat dərc edildi ki, MK-nın Plenumu N.S.Xruşşovun xahişini nəzərə alaraq yaşının çox olması və səhhəti ilə bağlı onu Sov.İKP MK-nın birinci katibi, Rəyasət Heyətinin üzvü, SSRİ Nazirlər Sovetinin sədri vəzifəsindən azad etmişdir. L.İ.Brejnev Sov.İKP MK-nin birinci katibi, A.N.Kosıgin SSRİ Nazirlər Sovetinin sədri seçildi. N.V.Podqornı isə 1965-ci il dekabrın 9-da A.İ.Mikoyanı SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsində əvəz etdi. Beləliklə, Nikita Sergeyeviç Xruşşovun partiya və dövlət rəhbərliyi dövrü başa çatdı.

# XXIX FƏSİL
# SSRİ 1960-cı İLLƏRİN İKİNCİ YARISI – 1980-ci İLLƏRİN ORTALARINDA

## §1. İctimai-siyasi həyat

N.S.Xruşşovun istefası ilə onun başladığı ictimai-siyasi həyatın liberallaşması prosesinin dəyişiklikləri dayandı. N.S.Xruşşovun istefasının təşəbbüskarı və təşkilatçılardan biri olan L.İ.Brejnev Sov.İKP MK-nın birinci katibi (1966-cı ildən Baş katibi) seçildi. Brejnev Leonid İliç (1906-1982) Yekaterinoslav quberniyasının Kamensk qəsəbəsində fəhlə ailəsində doğulmuşdur. 1935-ci ildə Metallurgiya İnstitutunu bitirmiş, 1939-cu ildən partiya işinə keçmişdir. Böyük Vətən müharibəsində siyasi işçi kimi iştirak edərək general-mayor rütbəsində 4-cü Ukrayna cəbhəsinin siyasi idarəsinin rəisi olmuşdur. Qazaxıstan KP MK-nın birinci katibi kimi xam torpaqların mənimsənilməsində iştirak etmiş, 1960-cı ildən SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri seçilmişdir. N.S.Xruşşovun istefasının təşkilatçılarından biri olan L.İ.Brejnev 1964-cü ilin oktyabrın 14-də Sov.İKP MK-nın birinci katibi seçildi. Yeni birinci katib yumşaq, təvazökar, protokol qaydalarına ciddi əməl edən partiya rəhbəri kimi tarixə düşmüşdür. Xüsusilə ömrünün son illərində təntənəyə, təltiflərə, tərifə aludə olan L.Brejnevin dörd dəfə Sovet İttifaqı Qəhrəmanı, Sovet İttifaqı Marşalı, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri, Müdafiə Şurasının sədri adları və vəzifələrinə sahib olmuşdur. Hakimiyyətdə olduğu müddətdə L.Brejnev 114 dəfə SSRİ-nin Ali dövlət mükafatı ilə təltif edilmişdir. Onun ünvanına yağan tərif və təltiflər uzun müddət sovet cəmiyyətində istehza və rişxəndlə qarşılanmışdır. Eyni zamanda çox ehtiyatlı və mühafizəkar bir şəxs olan L.İ.Brejnev cəmiyyətdə sabitliyin təmin edilməsinə xüsusi önəm verirdi.

SSRİ Nazirlər Sovetinin sədri təyin edilən A.Kosıgin, Xarkov vilayət partiya komitəsinin sabiq katibi, Mərkəzi Komitənin kadr məsələsi üzrə katibi olan N.Podqornı, Rəyasət Heyətinin tərkibinə daxil edilən P.Şelest, MK-nın katibi, Partiya Nəzarət Komitəsinin sədri, Nazirlər Sovetinin sədr müavini N.Şelepin və Rəyasət Heyətinin üzvü, ideologiya sahəsində məsul şəxs M.Suslov yeni hakimiyyətin nüvəsini təşkil edirdilər. 1964-cü ildəki noyabr Plenumu N.S.Xruşşovun dövründə sənaye və kənd partiya təşkilatlarına bölünən orqanları bütün səviyyələrdə, o cümlədən sovet, həmkarlar, komsomol təş-

kilatlarının vahid təşkilatlarda birləşmələrini qərara aldı. 1964-cü ilin dekabrından başlayaraq diyar, vilayət və rayon komitələri bərpa edildi. 1965-ci ildə xalq təsərrüfatı şuraları ləğv olundu və iqtisadiyyatın sahələr üzrə idarə edilmə prinsipi bərpa edildi. 1966-cı ildə Sov.İKP-nin XXIII qurultayında N.S.Xruşşovun şəxsi təşəbbüsü ilə partiyanın Nizamnaməsinə daxil edilən seçkili partiya orqanları rəhbərlərinin vaxtaşırı məcburi dəyişdirilməsi qaydası Nizamnamədən çıxarıldı. İ.Stalin dövrünün qorxusu və N.Xruşşov dövrünün saysız-hesabsız yenilikləri ilə ümidsizliyə qapılan partiya aparatı yeni hakimiyyətin partnomenklaturanı şəriksiz hakimiyyətə qovuşdurmasını sevinclə qarşıladı. L.İ.Brejnev XXIII qurultayda Baş katib seçildi, Mərkəzi Komitənin Rəyasət Heyəti yenidən Siyasi Büro adlandırıldı. Mərkəzi Komitənin üzvlərinin sayı 1966-cı ildəki 300 nəfərdən 10 il ərzində 40% artaraq 420 nəfərə çatdı. Şəxsi sədaqətin və başda duran rəhbərə danışıqsız tabe olmaq vərdişlərinin işçinin qabiliyyətindən ön plana keçdiyi 70-ci illərdə özünəməxsus «sovet feodalizmi»n xatırladan partiya ailəçiliyi yüksək həddə çatmışdı. Buna qarşı İ.Stalin dövlət terroru, N.S.Xruşşov isə qanuni vasitələrlə uzun müddət mübarizə aparmışdır.

Ölkənin yeni rəhbərləri Sov.İKP MK-nın birinci katibi L.Brejnev ilə SSRİ Nazirlər Sovetinin sədri A.Kosıgin arasında iqtisadi strategiyanın müəyyən edilməsində fikir ayrılığı mövcud idi. L.Brejnev ilk olaraq kənd təsərrüfatı, ağır sənaye, müdafiənin, 1972-ci ildən isə «Sibirin mənimsənilməsinin» tərəfdarı idi. Hökumətin başçısı A.Kosıgin vətəndaşların həyat səviyyəsinin yüksəldilməsinin əsası olan yüngül sənayeni ön plana çəkirdi. Kosıgin Aleksey Nikolayeviç (1904-1980) Peterburqda fəhlə ailəsində doğulmuşdur. Vətəndaş müharibəsi illərində Qızıl Ordu sıralarında xidmət etmiş, Leninqrad Toxuculuq İnstitutunu bitirmişdir. 1940-1946-cı illərdə SSRİ XKS sədrinin müavini kimi müəssisələrin şərqə köçürülməsi və orada ölkənin sənaye bazasının yaradılması işinə rəhbərlik etmişdir. Maliyyə, yüngül və ərzaq sənayesi nazirləri, SSRİ Dövlət Plan Komitəsinin sədri vəzifələrində çalışmışdır. 1964-1980-ci illərdə SSRİ Nazirlər Sovetinin sədri, Sov.İKP MK Siyasi Bürosunun üzvü olmuşdur.

İqtisadi srategiyanın müəyyən edilməsində olduğu kimi, siyasi məsələlərin həlli yolunda da partiya rəhbərliyi arasında fikir ayrılığı və çəkişmələr qalırdı. Siyasi məsələlərin həllinə mühafizəkar münasibətin tərəfdarları L.Brejnev və özünü partiyalılıq prinsipinə söykənən təmiz sovet ideologiyasının qoruyucusu kimi təqdim edən M.Suslov idi. Onların belə mühafizəkar mövqeyi 70-ci illərin ikinci yarısında daha da güclənərək A.Kosıginin texnokrat istiqamətli tədbirlərinin məhdudlaşdırılmasına, bəzi partiya liderlərinin mövqelərinin zəiflədilməsinə yönəldi. Partiya və dövlətin üst qatlarında yerləşən rəhbər kadrların iddia və vəzifə çəkişmələri 1965-ci ilin sonuna doğru N.Xruşşovun

istefaya göndərilməsinin təşkilatçılarından olan N.Podqornı və A.Şelepinin mövqeyinin xeyli zəifləməsi ilə müşayiət olundu. A.Şelepin Mərkəzi Həmkarlar Şurasının sədri təyin edilərək, əslində dövlət hakimiyyətindən uzaqlaşdırılmış oldu. N.Podqornı isə fəxri kürsü hesab edilən SSRİ Ali Sovetinin sədri seçildi. A.N.Şelepinin komsomol yoldaşı, onu DTK-nın başçısı vəzifəsində əvəz etmiş V.S.Semiçastnı 1967-ci ilin martında Stalinin qızı Svetlana Alliluyevanın daimi yaşamaq məqsədi ilə Qərbdə qaldığı səbəbi ilə vəzifəsini itirdi.

1966-cı ilin aprelində Sov.İKP-nin XXIII qurultayında Baş katib seçildikdən sonra L.İ.Brejnev müharibəyə qədər siyasi fəaliyyətə başladığı Dnepropetrovskidən olan kadrları öz ətrafına yığmağa başladı. 1966-cı ildə N.Podqornını Mərkəzi Komitənin katibi vəzifəsində «dnepropetrovsk qruplaşması»na daxil olan A.P.Kirilenko əvəz etdi. L.Brejnevə yaxın olan K.U.Çernenko, V.V.Şerbitski, D.A.Kunayev, N.A.Şelokov mühüm vəzifələrə təyin edildilər.

Ağır sənaye, hərbi sənaye kompleksi və müdafiənin inkişafına üstünlük verən L.Brejnevin həyata keçirdiyi tədbirləri hərbçilər müdafiə edirdi. 1966-cı ilin əvvəllərində hərbçilər elan edilən azalan hərbi xərclərin yenidən baxılmasına nail oldular. Müdafiə sənayesinə rəhbərlik edən general D.F.Ustinov Mərkəzi Komitə Siyasi Bürosunun üzv namizədliyinə və Katibliyin tərkibinə daxil edildi. 1967-ci ilin martında Müdafiə Naziri P.Y.Malinovski vəfat etdikdən sonra bu vəzifəyə hərbçilərin təkidi ilə A.A.Qreçko təyin olundu. Yalnız onun ölümündən sonra 1976-cı ilin aprelində D. Ustinov müdafiə naziri təyin edildi. 1976-cı il mayın 7-də L.İ.Brejnev Sovet İttifaqı Marşalı oldu. Əslində bu partiya liderinin hərbçilərin rəhbəri ilə işbirliyinin nəticəsi idi. İki gün keçdikdən sonra Dnepropetrovsk əhalisi öz həmyerlisinin əzəmətli heykəlinin açılışında iştirak etdi.

70-ci illərdə tamamilə aydın oldu ki, 1961-ci ildə Sov.İKP Proqramında elan edilən kommunizm quruculuğu konsepsiyası, həqiqətdən, çox uzaq olub, daha çox mifə bənzəyir. Odur ki, sovet rəhbərliyi kommunizm quruculuğu və dövlətin ölüb getməsi yerinə hətta marksizm-leninizm klassiklərinin əsərlərində olmayan inkişaf etmiş sosializm konsepsiyası irəli sürdü. 1966-cı ilin dekabrın 21-də F.M.Burlatski «Pravda» qəzetində «İnkişaf etmiş sosializm cəmiyyəti quruculuğuna dair» məqalə çap etdirmişdir. 1967-ci ildə Oktyabr inqilabının 50 illyi ilə əlaqədar nitqində L.İ.Brejnev elan etdi ki, SSRİ-də artıq inkişaf etmiş sosializm cəmiyyəti qurulmuşdur. Bu yeni anlayış nəzəriyyə ilə həyat arasındakı uçurumu xeyli azaldaraq uzun bir tarixi mərhələni əhatə etməklə kommunizm quruculuğunu, dövlətin ölüb getməsini sonu bəlli olmayan uzaq gələcəyə istiqamətləndirirdi. 1977-ci il oktyabrın 7-də qəbul edilən Sovet Sosialist Respublikalar İttifaqının Konstitusiyası (Əsas Qanun) SSRİ-də inkişaf

etmiş sosializmin qurulduğunu təsbit etdi. 1977-ci il L.İ.Brejnev Konstitusiyası girişdən, 9 bölmədən, 21 fəsildən, 174 maddədən ibarətdir. Müqayisə üçün qeyd edək ki, 1936-cı il Konstitusiyasının yalnız 13 fəsli, 146 maddəsi var idi.

Yeni Sovet Konstitusiyası elan etdi ki, SSRİ artıq proletariat diktaturası dövləti olmayıb «fəhlələrin, kəndlilərin və ziyalıların, ölkənin bütün millət və xalqlarının zəhmətkeşlərinin iradəsini və mənafeyini ifadə edən ümumxalq sosialist dövlətidir». Sovet dövlətinin ümumxalq xarakteri sovetlərin yeni xalq deputatları sovetləri adında öz əksini tapmışdır. Bütün hakimiyyətin SSRİ-nin siyasi əsasını təşkil edən xalq deputatları sovetlərinə məxsus olması təsbit edilsə də, real olaraq bütün səviyyələrdə sovetlərin əslində heç bir hakimiyyəti yox idi, onlar yalnız partiya orqanlarının göstəriş və qərarlarını yerinə yetirirdilər. Konstitusiyanın 6-cı maddəsində inkişaf etmiş sosializm cəmiyyətinin siyasi sisteminin özəyi olan Kommunist Partiyasının rəhbər və istiqamətverici rolu rəsmi olaraq qanunvericilik yolu ilə təsbit edilmişdi. Bu rəsmi təsbit əslində ictimai həyatın bütün sahələrində hakim rol oynayan partiya aparatının mövqeyinin formal olaraq möhkəmlənməsi idi.

Konstitusiyada qeyd olunan əsas yenilik inkişaf etmiş sosializmin qurulmasının təsbit edilməsi və «ümumxalq dövləti»nin yaradılmasının elan edilməsidir. Beləliklə, dövlətin ölüb-getməsi qeyri-müəyyən vaxta təxirə salınaraq əsas diqqət qanunçuluğun və hüquq qaydalarının hərtərəfli möhkəmləndirilməsinə yönəldilmişdir. Dövlətin əsas vəzifəsi «sinifsiz kommunist cəmiyyəti» qurmaq idi. SSRİ-nin iqtisadi sisteminin əsasını istehsal vasitələri üzərində sosialist mülkiyyəti, siyasi sisteminin əsasını sovetlər, sosial əsasını fəhlə, kəndli və ziyalıların ittifaqı təşkil edirdi.

İnkişaf etmiş sosializmin Konstitusiyasında 1918, 1924 və 1936-cı illərdəki Konstitusiyalarda olmayan yeni xarici siyasət məsələlərindən bəhs edən bölmə yer almışdır. Xarici siyasətin əsas istiqamətinin «SSRİ-də kommunizm qurmaq» üçün əlverişli beynəlxalq şəraitin təmin edilməsinə, «dünya sosializm sisteminin mövqeyinin möhkəmləndirilməsinə, xalqların milli azadlıq və sosial tərəqqi uğrunda mübarizəsinin» müdafiəsinə yönəldilməsi nəzərdə tutulmuşdur. SSRİ-nin sosialist ölkələrinə və müstəmləkəçilikdən azad olmuş dövlətlərə münasibətdə sosialist beynəlmiləlçiliyi prinsipi təsbit edilmişdir. Praktik olaraq bu vəziyyət çox zaman xalqların suveren bərabərlik prinsipi öhdəliyinə, onların öz müqəddəratını təyin etməsi hüququnun pozulması, sosialist dövlətlərinə xarici siyasət müdaxilənin əsaslandırılması ilə müşayiət olunurdu.

İnkişaf etmiş sosializmin Kosntitusiyasına görə dövlət hakimiyyətinin ali orqanı olan ikipalatalı SSRİ Ali Soveti İttifaq Soveti və Millətlər Sovetindən ibarət idi. Ali Sovet mühüm dövlət məsələlərini, o cümlədən Ümumittifaq

Konstitusiyasının dəyişdirilməsi, İttifaqın tərkibinə yeni respublikaların qəbulu, dövlət büdcəsinin, sosial və iqtisadi inkişaf planının qəbul edilməsini həll etmək hüququna malik idi. SSRİ Ali Sovetinin sessiyaları arasında onun vəzifəsini Rəyasət Heyəti yerinə yetirirdi. SSRİ Nazirlər Soveti dövlət idarəçiliyi sistemi vasitəsilə cari idarəçilik işlərinə rəhbərlik edirdi.

Yeni Brejnev Konstitusiyasında milli-dövlət quruluşu məsələsi 1936-cı il Konstitusiyasında olduğu kimi qalmışdır. 69-cu maddəyə əsasən, SSR İttifaqı «vahid çoxmillətli ittifaq dövləti» kimi təsbit edilmişdir ki, bu da mərkəzi federalizmin möhkəmləndirilməsi demək idi. Bu maddə ilə ziddiyyət təşkil edən Konstitusiyanın 71-ci maddəsi hər bir respublikanın «SSRİ-dən azad çıxmaq hüququnu», 75 və 80-ci maddələr isə onların suverenliyini elan etmişdir.

1977-ci il SSRİ Kosntitusiyası Brejnev daxili və xarici siyasət istiqamətinin mühafizəkar xüsusiyyətini qəti olaraq müəyyən edib, partiyanın cəmiyyət üzərində sərt nəzarətini qanuniləşdirərək, milli məsələlərdəki təhlükəli ziddiyyətləri müəyyən müddətə dondurmuş oldu.

N.S.Xruşşovun istefasından sonra şəxsiyyətə pərəstiş siyasətinin tənqidi, demək olar ki, başa çatdı. Həbs düşərgələri və repressiyaya məruz qalan şəxslər haqqında dərc edilən məqalələr mətbuat səhifələrindən yoxa çıxdı. Rəsmi tənqid sovet tarixinə qara ləkə yaxanlara qarşı sipər aldı. Eyni zamanda mətbuatda İ.V.Stalinin Böyük Vətən müharibəsi dövründə Ali Baş Komandan kimi xidmətlərindən bəhs edən məqalələr dərc edilirdi. Hətta Sov.İKP-nin XXIII qurultayı ərəfəsində İ.Stalinə rəsmi olaraq bəraət verilməsi nəzərdə tutulduğu halda rəhbərlik açıq olaraq XX qurultayın qərarlarına yenidən baxılmasına yol verməyərək, bu məsələnin tədricən səs-küysüz həll etməyi qərara aldı. Çox güman ki, İ.V.Stalinin bəraəti ilə bağlı görkəmli elm və mədəniyyət xadimlərinin Mərkəzi Komitəyə yazdıqları etiraz məktubları və ziyalıların bu məsələyə mənfi münasibəti partiya və dövlət rəhbərliyini belə bir addım atmağa sövq etmişdir. 1969-cu ildə İ.V.Stalinin anadan olmasının 90 illiyi ilə əlaqədar olaraq XX qurultayın kursunun dəyişdirilməsinə Sov.İKP-nin ali hakimiyyət nümayəndələrindən Q.İ.Voronov, K.T.Mazurov, P.M.Maşerov, D.S.Polyanski, A.N.Şelepin yenidən cəhd etsə də, ziyalıların və xarici kommunist partiyaları liderlərinin kəskin etirazı buna mane oldu. Sovet rəhbərliyi «Pravda» qəzetində İ.Stalinin fəaliyyəti haqqında ehtiyatla, ölçülü bir məlumat dərc etdirməklə kifayətləndi. Rəsmi senzura G.K.Jukovun xatirələrindən ibarət olan kitabından İ.Stalin haqqındakı tənqidi fikirləri çıxardı. Tədricən İ.Stalinin obrazı kino ekranlarında, xüsusilə Böyük Vətən müharibəsindən bəhs edən filmlərdə göründü.

L.İ.Brejnevin başçılıq etdiyi partiya elitasının İ.V.Stalinin bəraitinə cəhd etməsi A.T.Tvardovskinin başında durduğu «Yeni dünya» («Новый мир»)

jurnalının təmsil etdiyi cəmiyyətin liberal əhvali-ruhiyyəli hissəsinin müqaviməti ilə üzləşdi. «Yeni dünya» jurnalının tənqidçi yazarları V.Y.Lakşin, İ.T.Vinoqradov, A.İ.Kondratoviç ədəbiyyatda Stalin ənənələrinə qarşı barışmaz mübarizə aparırdılar. «Yeni dünya» jurnalının əsas opponentləri ehkamçı stalinçi mövqeyi müdafiə edən «Oktyabr» və «Molodaya qvardiya» jurnalları idi. 1969-cu ildə «Oktyabr» jurnalının baş redaktoru V.A.Koçetov «Sən nə istəyirsən» («Чего же ты хочешь») romanını çap etdirdi və bu, cəmiyyətdə ziyalılara həcv kimi qəbul edildi. Romanda partiya qurultaylarında keçmişin tənqidinin qəbul edilməz olduğundan, ölkəyə Qərbin təsirinin zərərindən bəhs edilirdi. Yazıçı liberal ziyalılarla yanaşı, «millətçi slavyanpərəstləri» də tənqid etmişdir. «Pravda» qəzeti «Yeni dünya» jurnalın düzgün olmayan ideya mövqeyinə, «Oktyabr» jurnalın çap olunan əsərləri keyfiyyətin aşağı tələbkarlığa görə tənqid etdi. «Molodaya qvardiya» jurnalı 60-cı illərin ortalarından milli əsaslara söykənən mövqedən çıxış edirdi. Onun müəllifləri M.Lobanov, S.Semanov, V.Çalmayev Rusiyanın özünəməxsus inkişafını önə çəkərək mədəniyyətin amerikalılaşdırılmasına etiraz edir, Rusiyanı qəti olaraq Qərbə, ziyalıları isə xalqa qarşı qoyaraq açıq millətçiliyə meyil edirdilər.

60-cı illərin axırlarında A.T.Tvardovskinin «Gizli Nəşr»də, sonra Qərbdə çap etdirdiyi «Yaddaş haqlılığı» («По праву памяти») şəxsiyyətə pərəstişin dirçəldilməsinə qarşı yönəldilmiş antistalinçi poeması «Yeni dünya» jurnalı üzərinə hücumları gücləndirdi. Jurnalı kosmopolitizmdə təqsirləndirən Yazıçılar İttifaqının katibliyi A.Tvardovskinin bir sıra əməkdaşın redaksiya heyətindən uzaqlaşdırdı və baş redaktor da istefa verməyə məcbur oldu. Artıq əvvəlki «Yeni dünya» mövcud deyildi. Bu bir daha təsdiq etdi ki, inzibati vasitələrlə öz qələbəsini təmin edən partiya aparatı və onun rəhbərləri cəmiyyətdə açıq müzakirə aparmaq qabiliyyətindən çox uzaqdırlar. Odur ki, ictimai problemlərin həllinin müzakirələri rəsmi orqanlardan fərqli olaraq «gizli nəşr»lərə keçdi.

SSRİ-də partiya və dövlətin müəyyən etdiyi rəsmi mədəniyyətin mühafizəkar xarakteri artdıqca rəsmi olmayan, alternativ mədəniyyət geniş miqyas aldı. Daha çox əhəmiyyət kəsb edən bədii ədəbiyyat əsərləri «gizli nəşr»lər vasitəsilə çap olunurdu. A.Q.Bitovun, F.A.İskəndərin, V.Yerofeyevin əsərləri yalnız Qərbdə çap edilirdi. V.P.Aksenov, A.D.Sinyavski, V.N.Voynoviç, S.D.Dovlatov və b. yazıçılar xarici ölkələrə mühacirət etməyə məcbur oldular.

Yenistalinizm və «durğunluq» ideologiyasına qarşı duran qüvvələrdən biri də «kəndli» yazıçılar olmuşdur. F.Abramov, B.Belov, B.Mojayev, V.Rasputin, V.Tendryakov kimi yazıçılar kollektivləşmənin rus kəndinin həyatındakı mənfi nəticələrindən ətraflı bəhs etmişlər. Bu xətti, eyni zamanda S.V.Vikulovun baş redaktoru olduğu «Bizim müasirimiz» («Наш современник») və

M.N.Alekseyevin baş redaktorluğu altında «Moskva» jurnalları davam etdirmişdir.

1970-ci il noyabrın 5-də partiyanın MK-nın Katibliyinin iclası olmuşdur. «Gənc qvardiya» («Молодая гвардия») jurnalının redaktoru, keçmiş qırıcı-təyyarəçi A.V.Nikonov, V.Çalmayev və S.Semanovun məqaləsini çap etdirdiyi üçün vəzifələrindən azad edilmişdir. Onun yerinə MK-nın təlimatçısı F.Y.Ovçarenko təyin olundu. 1972-ci ildə onun ölümündən sonra jurnalın redaktoru vəzifəsinə keçmiş redaktorun ideya silahdaşı, «Kölgələr günorta itir» («Тени изчезают в полдень») romanının və «Əbədi çağırış» («Вечный зов». 1970-1976) trilogoyiasının müəllifi görkəmli yazıçı A.S.İvanov təyin edilmişdir.

Brejnev hakimiyyətinə qarşı obyektiv müxalifət mövqeyindən çıxış edən mərkəzlərdən biri 1966-cı ildə yaradılan Tarix və Mədəniyyət Abidələrini Qoruyan Ümumrusiya Cəmiyyəti olmuşdur. Hərəkatın rəhbərləri görkəmli vətənpərvərlər, arxeoloq və tarixçi B.A.Rıbakov, kimyaçı-fizik İ.V.Petryanov-Sokolov, rəssamlar P.Korin və İ.Qlazunov, yazıçılar L.Leonov, V.Solouxin, V.D.İvanov, Moskva Kreml muzeyinin rəhbəri V.N.İvanov olmuşdur. 1968-1969-cu illərdə mərkəzdə rus tarixi və mədəniyyətini kompleks şəkildə öyrənən «Rus klubu» fəaliyyətə başlamışdı ki, bu da qeyri-leqal rus ziyalılarının birliyi idi. İlk dəfə olaraq birlik rus mədəniyyəti və mənəviyyatının təşəkkülü məsələlərini müzakirə etməyə başlamışdı. Yazıçılar A.İ.Bayquşev, V.A.Çivilixin, şairlər İ.İ.Kobzev, S.Y.Kunyayev, Q.V.Serebryakov, V.V.Sorokin, tənqidçi və ədəbiyyatşünas V.A.Çalmayev, Y.L. Prokuşev, jurnalistlər İ.D.Zaxarçenko, A.V.Nikonov, QULAQ məhkum həyatı yaşamış publisist O.V.Volkov və d. klubun fəal üzvlərindən idi.

B.Ş.Okucava, Y.İ.Vizbor, Y.Ç.Kim və V.S.Vısotskinin müəllif mahnıları milyonları coşduraraq əsl şəhər folkloruna çevrilmişdi. Onların sovet reallığını tənqid edən mahnılar maqnitofon yazılışı ilə əhali arasında yayılaraq «maqnitofon inqilabının» əsasını qoymuşdur. V.Vısotskinin azadolmayan hissləri tərənnüm edən mahnıları cəmiyyətin müxtəlif təbəqələri arasında eyni dərəcədə şöhrət qazanmışdı. Ziyalıların arasında təqibi nəticəsində Yazıçılar İttifaqı və Kinematoqrafçılar İttifaqının üzvlüyündən azad edilən və xaricə mühacirətə getməyə məcbur olan A.A.Qaliçin bədii yaradıcılığı geniş şöhrət qazanmışdır. Liberal ziyalıların hakimiyyətlə olan əlaqələrinin gündən-günə pisləşməsi onların fərqli düşünənlər hərəkatını müdafiə etməsinə səbəb oldu.

Hakimiyyətin yeritdiyi rəsmi siyasətə qarşı öz etirazlarını açıq və mərdliklə bildirən dissident hərəkatı meydana gəldi. 1968-ci il avqustun 25-də Qızıl meydanda sovet qoşunlarının Çexoslovakiyaya müdaxiləsinə etiraz əlaməti olaraq səkkiz nəfər, o cümlədən tələbə T.Bayeva, filoloqlar K.Ba-

bitski, L.Boqoraz-Bruxman, şair V.Delone, fəhlə V.Dremlyuq, fizik P.Litvinov, sənətşünas V.Faynberq və şairə N.Qorbanevskaya aksiya təşkil etdilər. Onların hamısı həbs edilərək həbs düşərgələrinə, sürgün və ya məcburi psixi müalicəxanaya göndərildi.

Yeni hakimiyyətin baş ideoloqu rolunu icra edən M.A.Suslov ilk gündən N.S.Xruşşov dövrünün mədəni mülayimləşmə mərhələsinə qarşı olduğunu açıq bildirdi. 1965-ci ildə yazıçılar A.D.Sinyavski «Məhkəmə gedir» («Суд идет»), «Lyubimov», Y.M.Daniel «Danışır Moskva» («Говорит Москва»), «Bağışlanma» («Искупление») adlı totalitarizmin sosial və psixoloji mahiyyətindən bəhs edən əsərlərin xaricdə və şair V.Y.Tarsisin «Sfinks» «Gizli Nəşr» jurnalında çap etdirdikləri üçün həbs edildilər. «Sovet dövlətini və ictimai quruluşunu ləkələdikləri» üçün A.Sinyavski yeddi, Y.Daniel beş il müddətinə azadlıqdan məhrum edildilər. Bu, XX qurultaydan sonra SSRİ-də keçirilən birinci açıq siyasi məhkəmə prosessi kimi tarixdə öz yerini tutdu. 1966-cı ildə Sov.İKP-nin XXIII qurultayının ünvanına görkəmli mədəniyyət xadimləri K.İ.Çukovski, İ.Q.Erenburq, V.B.Şklovski, P.Q.Antokolski, V.A.Kaverin və b. imzası ilə yazıçılar A.Sinyavski və Y.Danielin müdafiəsi məqsədilə məktubla müraciət etdilər. Eyni zamanda yaradıcı ziyalıların bir çoxu hakim partiyanın kursunu müdafiə edirdi. Onlar arasında L.S.Sobolev, S.P.Antonov, K.A.Fedin, N.S.Tixonov, K.M.Simonov, A.A.Surkov, S.V.Mixalkov və b. var idi. 1968-ci ilin aprelindən dissident hərəkatı iki-üç aydan bir gizli surətdə çap etdirdiyi «Cari hadisələrin xronikası» («Хроника текущих событий») nəşrini buraxdı ki, burada da hakimiyyətin azadlıq üzərinə hücumları öz əksini tapırdı. 1968-ci ilin aprelindən 1983-cü ilə kimi onu tərtib edən N.Y.Qorbanevskaya və b. «gizli nəşr» vasitəsilə «hüquq müdafiəçiləri bülleteni»nin 64 nömrəsini buraxmışdır.

1960-cı illərin axırlarından dissident cərəyanları «Demokratik hərəkatda» birləşərək üç ideologiya istiqaməti müəyyən etdi. Bunlar öz hərəkat proqramlarına uyğun olaraq Roe və Jores Medvedevin təmsil etdikləri «əsl marksizm-leninizm», A.Saxarovun liberalizm və A.Soljenitsının müdafiə etdiyi «xristian ideologiyası» istiqamətləridir. Birinci proqramın ideyası ondan ibarətdir ki, İ.Stalin marksizm-leninizm ideologiyasını təhrif etdiyi üçün onun köklərinə qayıtmaqla cəmiyyəti sağlamlaşdırmaq mümkündür. İkinci proqram tədricən Qərb tipli demokratiyaya ictimai mülkiyyəti qorumaq şərtilə keçməyi nəzərdə tuturdu. A.Soljenitsının müdafiə etdiyi üçüncü proqram xristian əxlaqı dəyərini cəmiyyətin həyatının əsası kimi irəli sürərək slavyanofillər kimi Rusiyanın özünəməxsus ənənəsini önə çəkirdi. Xüsusilə iki görkəmli tarixi şəxsiyyət A.Soljenitsın və A.Saxarov dissident hərəkatının simvolları kimi öz ölkələrində

təcrid edilməklərinə baxmayaraq bütün dünyada şöhrət qazanırdılar. 1968-ci ildə Qərbdə A.İ.Soljenitsının «Dairədə birinci» («В круге первом») romanı dərc edildi ki, müəllif öz həbsinin son illərini keçirdiyi Moskva altındakı Baş Düşərgə İdarəsi sisteminə daxil olan elmi institut və konstruktor bürolarında çalışan məhbusların həyatının bir hissəsindən bəhs edir. Buna cavab olaraq hakimiyyəti təmsil edənlər onu Yazıçılar İttifaqının sıralarından xaric etdilər. 1970-ci ildə A.İ.Soljenitsın ədəbiyyat üzrə Nobel mükafatına layiq görüldü. 1973-cü ildə yazıçının Qərbdə «QULAQ Arxipelaqı» romanının birinci cildi çapdan çıxdı. 1974-cü ilin fevralında A.Soljenitsın dövlətə xəyanət maddəsilə sovet vətəndaşlığından məhrum edilərək SSRİ-dən sürgün edildi.

1970-ci ildə Sovet İttifaqında görkəmli fizik və riyaziyyatçı alim, hidrogen bombasının yaradıcılarından biri A.D.Saxarov və məhşur riyaziyyatçı İ.R.Şafareviçin iştirakı ilə İnsan Hüquqlarının Müdafiə Komitəsi yaradıldı. 1973-cü ildə «Beynəlxalq əfv» təşkilatının rus bölməsi meydana gəldi. Onun üzvləri hakimiyyət orqanlarının təqibinə məruz qalan fərqli düşünənlər haqqında məlumat toplayır, onlara hüquqi və maddi yardım edir, onların fəaliyyətinə dair məlumatları beynəlxalq mərkəzlərə ötürürdülər. Xüsusilə hakimiyyəti orduya da sirayət edən fərqli düşünənlərin fəaliyyəti bərk narahat etdi. 1969-cu ildə Baltik donanması zabitlərinin yaratdığı «Demokratik hüquqlar uğrunda mübarizə ittifaqı» darmadağın edildi. 1975-ci ildə Baltik donanmasının «Storojevoy» gəmisində üsyan başladı, heyət xalqı mövcud rejimə qarşı çıxış etməyə çağırdı. Gəmi havadan hücuma məruz qaldı, üçüncü həmlədən sonra «storojevoy» böyük qayıq əleyhinə gəminin komandirinin siyasi hissə üzrə müavini V.M.Sablinin başçılığı altındakı üsyan yatırıldı və ondan başqa heç kim cəzalandırılmadı. Təqib, təzyiq və həbslərə baxmayaraq, hüquq müdafiəçiləri hərəkatı artmaqda davam edirdi. Onun önəmli liderlərindən biri məhz akademik A.D.Saxarov idi. 1975-ci ildə ona hüquq müdafiəsi fəaliyyətinə görə Nobel sülh mükafatı təqdim edildi. Buna cavab kimi sovet hakimiyyəti mətbuat səhifələrində akademikə qarşı ittiham dolu məqalələr çap edilməsini təşkil etdi. 1980-ci ildə isə A.Saxarov əcnəbilər buraxılmayan Qorki şəhərinə sürgün edildi.

1975-ci ildə SSRİ Helsinki Yekun Aktına qol çəkdi ki, bu bir tərəfdən Avropanın müharibədən sonrakı sərhədlərini təsdiq etdiyi üçün sovet diplomatiyasının uğuru idi, digər bir tərəfdən isə Sovet İttifaqı insan hüququna hörmət etməyi öz öhdəsinə götürdüyünə görə açıq repressiyalar artıq mümkün deyildi. Yekun aktının humanitar maddələrinin pozulmasına dair məlumat toplamaq məqsədilə Y.F.Orlovun rəhbərliyi altında sovet hüquq müdafiəçiləri Moskva Helsinki Qrupunu yaratdılar. MHQ dissident hərəkatının başqa qrup-

ları ilə sıx əməkdaşlıq edərək 1982-ci ilə kimi fəaliyyət göstərdi. Hüquq müdafiəçiləri hərəkatının fəal üzvlərinin sayı çox deyildi. 1975-ci ildə «siyasi ziyankar əməlinə» görə 20 min nəfərə yaxın adam DTK-nın «profilaktik tədbirləri»nə məruz qalmışdır. Ancaq «gizli nəşr» və xarici verilişlər nəticəsində onların fəaliyyəti ölkədə geniş əks-səda doğururdu. Hüquq müdafiəçiləri mənəvi azadlıq axtaran intellektual elita ilə qarşılıqlı əlaqə saxlayırdılar.

1966-1988-ci illərdə «SSRİ vətəndaşı» yüksək adını ləkələdiyi, SSRİ dövlətinin nüfuzu və təhlükəsizliyinə zərər verdiyi üçün 100 nəfərə kimi adam, o cümlədən M.S.Voslenski (1976), P.Q.Qriqorenko (1978), V.P.Aksenov (1980), V.N.Voynoviç (1986) vətəndaşlıqdan məhrum edilmişdir. Q.Vins, A.Ginzburq, V.Morov, M.Dımşits, E.Kuznetsov kimi həbsdə olan müxalifətçilər xaricdə həbs edilən iki sovet kəşfiyyatçısı ilə, V.K.Bukovski isə Çili kommunistlərinin həbsə atılan lideri L.Korvalanla dəyişdirilmişdir.

Hakimiyyət orqanları dissidentlərlə mübarizə vasitələri kimi müvafiq qanunvericilikdən və kütləvi informasiyanın qaralama kampaniyalarından istifadə edirdilər. DTK cəza tədbirlərinin başlıca təşkilatçısı idi. Dissidentlər bir qayda olaraq, sovet ümumxalq dövlətinin zəiflədilməsi və nüfuzdan salınmasına yönəldilmiş təhlükəli ictimai fəaliyyətdə, dövlət və quruluşu, SSRİ-nin xarici təhlükəsizliyini dağıtmaq məqsədilə çalışmaqda ittiham olunurdular. SSRİ Ali Məhkəməsi və Prokurorluğun rəsmi məlumatına əsasən, ölkədə 1956-1987-ci illərdə 8145 adam oxşar maddə ilə məhkum edilmişdir. 1956-1960-cı illərdə hər il orta hesabla 935, 1961-1965-ci illərdə 214, 1966-1970-ci illərdə 136, 1971-1975-ci illərdə 161, 1976-1980-ci illərdə 69, 1981-1985-ci illərdə 108 nəfər adam mühakimə olunmuşdur.

Həyat göstərdi ki, bir neçə yüz nəfər mövcud rejimə qarşı fərqli düşünən insan Qərbin də mənəvi və maddi köməyi sayəsində ölkə vətəndaşlarının böyük bir hissəsinin rəğbətini qazanaraq rejimə qarşı müxtəlif vasitələrlə mübarizə aparmışdır. Qarşıdurma hər şeydən əvvəl, cəmiyyətdəki ziddiyyətin nəticəsində baş vermişdir. Dissidentlik ideyasını dünyanın kütləvi informasiya vasitələri daha da populyarlaşdırmışdır. Təkcə akademik A.D.Saxarov 1972-1979-cu illərdə 150 mətbuat konfransı təşkil etmiş, xarici radiolar üçün 1200 veriliş hazırlamışdır.

1980-ci illərin ikinci yarısından SSRİ-də dissident hərəkatı dayandırılmışdı, həbsdə olan dissidentlər azad edilmişdir. 1986-cı ildən dissident qruplarının yerini siyasi klublar, sonra isə xalq cəbhələri tutmuşdur.

L.İ.Brejnev və onun yaxın ətrafı sovet cəmiyyətində, hətta hakimiyyət aparatında müxalifətin meydana gəlməsini görməzlikdən gələrək ölkədəki vəziyyət və onun perspektivləri haqqında açıq müzakirə açmağa cəsarət etmədilər.

## §2. Ölkənin sosial-iqtisadi vəziyyəti

60-cı illərin ortalarına doğru Sovet İttifaqında əhalinin ərzaq məhsulları, yüngül sənayeni kənd təsərrüfatı xammalı ilə təmin edilməsi sahəsində ağır vəziyyət yaranmışdı. Kənd təsərrüfatı sahəsində ölçülüb-biçilmədən tətbiq olunan eksperimentlər 1953-1958-ci illərdə əldə edilən naliyyətləri heçə endirdi. Heyvandarlıq sahəsi ağır zərbə aldı, SSRİ xaricdən taxıl almağa məcbur oldu. Yeni hakimiyyətin qarşısında duran əsas vəzifə iqtisadi islahatları davam etdirmək idi.

1965-ci ilin martında keçirilən Sov.İKP MK-nın Plenumunda L.İ.Brejnev aqrar siyasətin yeni hədəflərini elan etdi. Sovxoz və kolxozların məhsulunun satınalma qiyməti artırıldı, dövlətə məhsul tədarükünün sabit planı müəyyən edildi, kolxozların pul gəlirlərindən tutulan verginin miqdarı azaldıldı. Buğda və arpanın əkin sahələri yenidən artrıldı. Kolxozlarda əməkgünü yerinə sabit pul məvacibi təyin edildi və bu, kəndlilərin həyat səviyyəsini yüksəltdi. Şəxsi həyətyanı təsərrüfata qoyulan qadağa ləğv olundu. Ət, süd, yumurta, yunun 25-dən 30%-nə kimi verən xüsusi bölməyə diqqət artırıldı. Ev mal-qarasının sayına qoyulan məhdudiyyət ləğv edildi, kolxozçulara öz təsərrüfatlarını abadlaşdırmaq məqsədilə banklardan kredit götürməyə icazə verildi. L.İ.Brejnevin təşəbbüsü ilə ilk dəfə olaraq kənd təsərrüfatına böyük miqdarda kapital qoyuluşu müəyyən edildi ki, bu da bütün investisiyanın 1/5 hissəsindən çox idi. Bunun sayəsində aqrar bölmə ilk dəfə xalq təsərrüfatı sahələri arasında önə çıxaraq hətta yüngül sənayeni ötüb keçdi. Baxmayaraq ki, L.Brejnevin dövründə xalq təsərrüfatı üçün ayrılan investisiyanın 20%-i aqrar bölmənin payına düşürdü (ABŞ-da bu 7-8%-ə çatırdı) xaricdən ərzaq, xüsusilə də taxıl idxalı getdikcə artırdı. Şəhərlərin kənd təsərrüfatı malları ilə təmin edilməsində çətinliklər yarandığı üçün ilk vəzifə olaraq bu məhsulların emal edilib saxlanılması irəli sürüldü. Doğrudan da, taxıl, kartof, tərəvəz, meyvənin 20-30%-i kolxoz-sovxoz sahələrindən istehlakçıya çatana kimi zay olurdu. Məhz bu itkinin qarşısını almaq məqsədilə nəhəng ərzaq proqramı işlənib hazırlansa da, Brejnev dövrünün başqa kənd təsərrüfatı proqramları kimi bu da səmərəsiz oldu.

30-cu illərdə, stalinizmin dövründə kolxozçulara kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olmaq qadağan edildiyi üçün bu işi yerinə yetirən müəssisələr böyük şəhərlərdə tikildiyinə görə tez xarab olan məhsul müəssisəyə çatdıralana kimi ya yollarda, ya anbarlarda və yaxud da sahələrdə zay olub gedirdi. Odur ki, 1977-1978-ci illərdən başlayaraq kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan ixtisaslaşdırılmış «istehsalat birlikləri» yaradıldı. Onlar kolxozları, sovxozları, yeyinti sənayesi müəssisələrini və imkan daxilində

elmi-tədqiqat laboratoriyalarını birləşdirirdi. 1982-ci ildə aqrar bölmədəki ağır vəziyyət daha qəti addım kimi Aqrosənaye Komplekslərinin (АПК) yaradılmasına gətirib çıxardı. Eyni ərazidə yerləşən kolxozlar, sovxozlar, kənd təsərrüfatının ehtiyaclarını təmin edən maşınqayırma və kimya istehsalı müəssisələri, kənd təsərrüfatı üçün xammal emal edən müəssisələr regional ASK-də birləşdilər. Bu yenidənqurma əslində kənd təsərrüfatının inteqrasiyasını təmin edərək işlərin daha operativ həllinə şərait yaratmalı idi. Lakin mövcud olduğu illər ərzində aqrosənaye kompleksləri, hər şeydən əvvəl, inzibati birlik olaraq qaldı və həyatın tələblərinə cavab verən iqtisadi təşkilata çevrilə bilmədi. İslahat nəticəsində yeni yaranan inzibati strukturlar kənd təsərrüfatın idarəetmə sistemini bürokratik aparata çevirdi. Bunun qarşısını almaq və kolxozçuların öz əməyinə marağı artırmaq məqsədilə kollektiv müqavilə əsasında işləyən briqadalar yaradıldı. Briqada üzvləri onlara ayrılmış sahədə əkilən bütün mədəni bitkilərin becərilməsinə cavabdeh olub, əldə etdikləri nəticəyə görə əməkhaqqı alırdılar. Briqada metodu aqrosənaye rəhbərliyi tərəfindən kolxoz quruculuğunda ailə təsərrüfatının bərpası qorxusu ilə tənqidi qarşılandı. Xüsusilə 30-cu illərin kolxoz quruculuğu təcrübəsi hər iki tərəfin bir-birinə etimad göstərməməsi ilə diqqəti cəlb edir. L.Brejnev rəhbərliyinin aqrar bölmənin inkişafına maliyyə dəstəyinin artırmasına baxmayaraq, kənddəki başlıca daxili ziddiyyət hesab edilən kolxozçunun torpağa yadlaşmasının qarşısını ala bilmədi. Bəhs edilən dövrdə aqrar siyasət yalnız xərclərin artması və ayrılan vəsaitin israf edilməsi ilə xarakterizə edilirdi.

Ölkənin kənd təsərrüfatı ağır vəziyyətdə qalmaqda davam edir və belə çətinliklər getdikcə dərinləşirdi. SSRİ hər il ABŞ, Kanada, Argentinadan taxıl alırdı. Ölkənin çox rayonlarında ət və süd məhsulları çatışmırdı, tərəvəz, yarma hətta çörək belə fasilələrlə verilirdi. Ərzaq məhsullarının bir ələ buraxılması norması talon sistemi ilə müəyyən olundu. Moskvadan çox da uzaq olmayan vilayətlərdə yaşayan əhali mütəmadi olaraq paytaxta ərzaq almaq üçün «kolbasa elektrik qatarları» ilə gəlirdilər.

1982-ci ilin may ayında Sov.İKP MK-nın Plenumunun əsas məqsədi on il ərzində ərzaq bolluğu yaratmaq olan ərzaq Proqramın qəbul etdi. Bu məqsədə iki yolla çatmaq planlaşdırılırdı: aqrosənayenin inteqrasiyasının gücləndirilməsi və şəxsi təsərrüfatların inkişaf etdirilməsi. Ərzaq proqramını həyata keçirmək məqsədilə beş Kənd Təsərrüfatı Nazirliyi Dövlət Aqrosənaye Mərkəzində birləşdi, yerlərdə isə Vilayət və Rayon Aqrosənaye Birlikləri (RASB) yaradıldı. Faktiki olaraq külli miqdarda maliyyə vəsaitinə nəzarət edən yeni bir bürokratik mərkəz meydana gəldi. Digər bir tərəfdən kolxozçuların şəxsi təsərrüfatlarının inkişaf etdirilməsi real olaraq kolxoz sədrləri və RASB

rəhbərlərinin müqavimətinə rast gəldi. Belə ki, şəxsi təsərrüfatla yalnız əsas iş vaxtı başa çatdıqdan sonra məşğul olmaq olardı. Əslində, ərzaq proqramı ölü doğulmuş uşaq təsiri bağışlayan sənəddən başqa bir şey deyildi, çünki kənd təsərrüfatı məhsullarının artırılmasını təmin edə bilmədi.

Xalq təsərrüfatının sənaye sahəsindəki islahatlar SSRİ Nazirlər Sovetinin sədri A.N.Kosıginin adı ilə bağlıdır. 1965-ci ildən onun təşəbbüsü ilə başlanan islahatın əsas qayəsi müəssisələrə iqtisadi müstəqillik verilməsidir. Təsərrüfat hesabına keçildi. Bu isə o demək idi ki, müəssisələr öz xərcini ödəmə, özünümaliyyələşdirmə və özünüidarəetmə prinsipi əsasında təsərrüfat hesabına keçirdilər. Belə ki, müəssisələr qazandığı gəlirin müəyyən hissəsin büdcəyə ödədikdən sonra yerdə qalan vəsait onun sərəncamına keçirdi. Müəssisələr qazandıqları gəlir əsasında istehsalın inkişafı fondu, mədəni-məişət obyektlərinin tikintisi fondu, maddi həvəsləndirmə fondu yaratdılar. Qəbul edilən tədbirlərin məqsədi müəssisələrin və onların əmək kollektivlərinin plan tapşırıqlarının yerinə yetirilməsində maraq prinsipini artırmaq, insan, maddi və maliyyə ehtiyatlarından daha səmərəli istifadə edərək məhsulun keyfiyyətini yüksəltməyə nail olmaqdan ibarət idi.

Sovet İttifaqında islahata kimi müəssisələrin əsas göstəricisi istehsal edilən məhsulun ümumi həcmi hesab olunduğu üçün, məhsulun maya dəyəri yuxarı olub, az tələb edilən, aşağıkeyfiyyətli məhsul buraxılırdı. İslahat nəticəsində məhsulun ümumi həcmi yerinə ona tələbatın olması, gəlir gətirməsi, çəkilən xərci çıxarması, qoyulan pul vəsaitinin dəyərinin artırması önə çıxdı. Planlaşdırma daha da təkmilləşdirilərək çəkilən xərci çıxara bilməyən sahə və istehsalın müdafiəsinə yönəldildi.

1966-cı ilin yanvarında ilk dəfə ölkədə 43 müəssisə yeni formaya – təsərrüfat hesabına keçdi. 1966-cı ilin martında olan Sov.İKP-nin XXIII qurultayında xalq təsərrüfatının idarə edilməsinin inzibati metodlarının iqtisadi vasitələrlə əvəz edilməsi kursu elan edildi. Növbəti 1966-1970-ci illərdəki səkkizinci beşillik planda müharibədən sonrakı dövrdə birinci dəfə xalq təsərrüfatının «A» bölməsinə kapital qoyuluşu azaldıldı, «B» bölməsinə isə kapital qoyuluşu 4,8%-dən 5,2%-ə qalxdı.

Səkkizinci beşilliyin ilk illərində islahatlar məhsul istehsalının artmasına səbəb oldu. Yeni təsərrüfat hesabı ilə işləyən müəssisələr 15%-ə çatdı ki, onlar da ümumi məhsulun 37%-ni istehsal edirdi. 1968-ci ildən başlayaraq topdan satınalma qiymətinin qaydaya salınması sayəsində sənaye sahələri gəlirlə işləyirdi. Düzdür, əmək məhsuldarlığının artması üzrə plan tapşırıqları yerinə yetirilməsə də, sənaye məhsulu istehsalının inkişaf sürəti xeyli artdı. Səkkizinci beşilliyin sonunda ölkənin 49 min müəssisənin 41 mini yeni təsərrüfat

hesabı metodu ilə işləyirdi ki, onlar da sənaye məhsulunun 93%-ni istehsal edirdi. SSRİ-də 2 min yeni sənaye müəssisəsi işə salındı. Ümumiyyətlə, 1960-70-ci illər geniş sənaye tikintiləri ilə müşayiət olunur. Krasnoyarsk HES, Qərbi Sibir və Karaqanda Metallurgiya kombinatları, Tümen Neft-Qaz kompleksi, Tolyattidə VAZ, Naberejnı Çelnıda KamAZ zavodları, Volqa-Donda Atommaş tikilib istifadəyə verildi. 1967-ci ildə dünyada ən yüksəklikdən biri hesab edilən Ostankino teleradio verilişləri mərkəzi fəaliyyətə başladı (533 m). Sibir və Uzaq Şərqin iqtisadiyyatını inkişaf etdirmək məqsədi ilə 1974-cü ildə hələ Böyük Vətən müharibəsi ərəfəsində tikilməsinə cəhd edilən nəhəng tikililərdən biri Baykal-Amur Magistral (BAM) yolunun tikintisi təzələndi. 3 min km-dən çox uzunluğu olan BAM-ın tikintisi 1984-cü ildə başa çatdı. Bu yol iqtisadi məqsədlərdən daha çox hərbi-strateji önəm daşıyırdı. Çinin sərhəd boyu ərazilərinin yaxınlığından keçən bu magistral Transsibir yoluna əvəzləyici kimi inşa edilirdi. Külli miqdarda vəsait sərf edilərək inşa edilən BAM əslində iqtisadi nöqteyi-nəzərdən özünü doğrultmadı.

1960-cı illərdə Sovet İttifaqı kömürdən neft-qaz mərhələsinə daxil oldu. 1968-ci ildən başlayaraq ölkənin yanacaq-energetika bazasında balans dəyişikliyi baş verərək neft birinci yerə çıxdı. Ölkənin ayrı-ayrı rayonlarında təbii qaz əsas yanacaq oldu. Neft və qazın önə keçməsi ölkə təsərrüfatına böyük iqtisadi üstünlük qazandırdı, çünki kömür emalındakı əmək məhsuldarlığı neft və qaza nisbətən 5 və 10 dəfə aşağı idi. 1969-cu ildə Sovet İttifaqı qaz ehtiyatına görə ABŞ-ı ötüb keçdi. 1983-cü ildə isə SSRİ dünyada qaz çıxarılmasına görə birinci yerə çıxdı. 70-ci illərin əvvəllərində SSRİ yeganə ölkə idi ki, yanacaq-energetika bazası ilə özünün xalq təsərrüfatının inkişafını tam təmin edirdi. Əgər 1960-cı ildə ölkədə çıxarılan neft və qaz SSRİ-nin Avropa hissəsinin payına düşürdüsə, 80-ci illərin ortalarında ölkə neftinin üçdə ikisi, qazın isə 60%-dən çoxu Qərbi Sibirin payına düşürdü. 1960-1985-ci illərdə SSRİ-nin neft və qaz ixracatı 16,2-dən 54,4%-ə çatdı. 1973-cü ildə dünya bazarında neft bahalaşdıqdan sonra 1975-1985-ci illərdə ölkə neft ixracından 180 milyard dollar qazandı. 1970-ci ildə 60 min km-dən çox qaz kəmərləri çəkilərək qaz mədənləri arasında əlaqə yaradılması başa çatdı. Ölkədə yanacaq sənayesi sürətlə inkişaf etdiyi üçün bütün iqtisadiyyat təbiət faktorundan asılı olmağa başladı. Bu isə 1976-1985-ci illərdə yanacaq-xammal sahəsində vəziyyətin pisləşməsi ilə bağlı olaraq ümumən iqtisadi inkişafı ləngitdi. 1984-cü ildə neft çıxarılması ilk dəfə azaldı. 1980-ci illərin ortalarında dünyada neftin qiymətinin aşağı düşməsi ölkə büdcəsinə daxil olan «neft dollarları»nın azalmasına gətirib çıxardı. Bu isə on birinci beşillikdə (1981-1985) milli gəlirin aşağı düşməsinə və sovet iqtisadiyyatının ağır zərbə almasına şərait yaratdı, plan tapşırıqları heç bir sahə üzrə yerinə yetirilmədi.

Bir-birini əvəz edən islahatlara baxmayaraq, SSRİ-nin iqtisadiyyatında meydana gələn böhran haqqında 1983-cü ildə akademik T.İ.Zaslavskaya «Novosibir məruzəsində» Akademiyanın qapalı yığıncağında, sonra isə partiya müşavirəsində məlumat vermişdi. T.Zaslavskaya və Novosibirsk iqtisadiyyat və Sənaye İstehsalının Təşkili İnstitunun nəşr etdirdiyi «Eko» jurnalı əməkdaşlarının fikrinə görə, ölkədəki böhranın başlıca səbəbi mövcud sistemin insan ehtiyatlarından və cəmiyyətin intellektual potensialından səmərəli istifadə etməyə qabil olmaması idi. Belə ki, mövcud sistem İ.Stalinin ölümündən sonra islahatlara məruz qalsa da, əslində 30-cu illərdə yaranmış iş metodundan heç də fərqli deyildi. Son dərəcə mərkəzləşdirmə, direktiv planlaşdırma ilə bərabər azad bazar qiymətlərinin olmaması, əmək adamlarının maddi maraq prinsipinin təmin edilməsinə mərkəzdən nəzarət edilməsi, istehsal, xidmət, ticarətdə əhalinin bütün fərdi əmək fəaliyyətinin məhdudlaşdırılması və ya qadağan edilməsi bu sistemin səciyyəvi xüsusiyyətləri idi. Başqa sözlə, zəhmət adamları yalnız ictimai bölmənin fəaliyyətinə arxalana bilərdilər. Hətta səmərə verən hər hansı bir şəxsi təşəbbüs leqal olmayan kölgə iqtisadiyyatına aid edilirdi. Nəzəri cəhətdən hər bir əmək adamının təşəbbüskarlığı alqışlansa da, onların müəssisələrin idarə edilməsində iştirakı müəssisənin özü tərəfindən məhdudlaşdırılırdı. Nümunəvi işçilər ən yaxşı halda əlavə əməkhaqları alırdılar və bu çox zaman real vəziyyətə uyğun gəlmirdi. Maddi maraq prinsipinə mane olan başqa bir səbəb mütəmadi olaraq müxtəlif çeşidli mal qıtlığı idi. Əmanət kassalarında əhalinin külli miqdarda pul vəsaiti yığıldığı halda onların tələbatını ödəmək üçün istehlak malları çatışmırdı. 1980-ci illərin əvvəllərində Sovet İttifaqının çox rayonlarında aqrar məhsulların bölüşdürülməsinin kartoçka sistemi tətbiq edildi. Ticarət rəflərindən birinci dərəcəli ehtiyac duyulan mallar yoxa çıxdı.

1966-1970-ci illərdəki səkkizinci, 1971-1975-ci illərdəki doqquzuncu, 1976-1980-ci illərdəki onuncu və 1981-1985-ci illərdəki on birinci beşilliklər ərzində SSRİ-nin iqtisadi və sosial inkişaf göstəricilərinin aşağı düşməsi ölkə xalq təsərrüfatının ağır vəziyyətinin sözə ehtiyacı olmayan rəqəmləridir. Belə ki, milli gəlir 1966-1970-ci illərdə 7,2, 1971-1975-ci illərdə 5,1, 1976-1980-ci illərdə 3,8 1981-1985-ci illərdə 3,1, sənaye məhsulu istehsalı müvafiq olaraq 8,5; 7,4;4,4; 3,4;, kənd təsərrüfatı məhsulu istehsalı 3,9; 2,5; 1,7; 1,1, ictimai əməyin məhsuldarlığı 6,8; 4,5; 3,3; 3,1 əhalinin hər nəfərinə düşən real gəlir 5,9; 4,4 ; 3,4; 2,1% təşkil etmişdir.

Faktlar təsdiq edir ki, 11-ci və 12-ci beşillik plan tapşırıqları heç bir göstərici üzrə yerinə yetirilməmişdir. Lakin buna baxmayaraq, 1976-1980-ci illəri əhatə edən onuncu beşillikdə SSRİ-də 1,3 min, 1981-1985-ci illəri əhatə

edən on birinci beşillikdə 1,2 min sənaye müəssisəsi işə düşmüşdür. Qərbi Sibirdə neft çıxarılması 1970-ci illə müqayisədə 12 dəfə artaraq 1984-cü ildə 377,9 mln. tona çatmışdır. 1980-ci ildə Qərbi Sibir dünyadakı neft və qazın 10%-dən çoxunu hasil etmişdir.

1976-cı ildə Oskolsk elektrometallurgiya kombinatı, 1982-ci ildə Smolensk və 1985-ci ildə Balakov atom elektrik stansiyası, 1980-ci ilin dekabrında Çeboksar HES-in birinci aqreqatı, 1982-ci ildə Açinsk neft emalı zavodu və Kostomukşsk dağ-mədən kombinatının birinci növbəsi işə düşmüşdür. Bunlarla yanaşı, dəyərindən bahalı, perspektivi olmayan, ekoloji cəhətdən tələblərə cavab verməyən tikintilər də meydana gəlmişdir. Həştərxan Qaz Kondensat kombinatı, Tengizpolimer Qazkimya kompleksi, Kalmıkiyadakı Volqa-Çoqray kanalı belə tikililərdəndir.

Onuncu və on birinci beşillik illərində və yaxud bəzi tarixi ədəbiyyatda adlandırıldığı kimi, gecikmiş inkişaf etmiş sosializm dövründə, «yuxarılarda» ölkənin iqtisadi inkişafındakı «durğunluq» şəraitin dərk edirdilər və vəziyyətdən çıxmağa çalışırdılar. Bu məqsədlə Nazirlər Sovetinin sədr müavini akademik V.A.Kirillinin rəhbərliyi ilə bir qrup analitik sovet iqtisadiyyatının vəziyyəti və perspektivləri haqqında analitik məruzə hazırlamışdır. Məruzədə sovet iqtisadiyyatının ağır vəziyyəti real olaraq göstərir və iqtisadi islahatın əsas vasitəsinin sosialist iqtisadiyyatında bazar münasibətləri elementinin tətbiqinin zəruri olduğu qeyd edilirdi. Lakin məruzə Siyasi Büro üzvlərinin böyük əksəriyyətinin narazılığına səbəb olmuşdur. Kirillin vəzifəsini itirdi, 1970-ci illərin axırlarında infarkt keçirən hökumətin başçısı A.N.Kosıgin 1980-ci ilin oktyabrında vəzifəsindən azad edildi, dekabrda isə vəfat etdi. 1980-ci ilin oktyabrın 23-də N.A.Tixonov Nazirlər Sovetinin sədri təyin olundu ki, hökumətin yeni rəhbəri də L.İ.Brejnev kimi islahatlara şübhə ilə yanaşırdı.

Beləliklə, ölkədəki vəziyyət göstərir ki, 70-80-ci illərin hüdudlarında SSRİ iqtisadiyyatı «durğunluq» vəziyyətindən böhrana daxil olmuşdur. Bunun isə səbəbləri çoxşaxəli idi. Hər şeydən əvvəl müəssisələrin yeni texnikanı mənimsəməsi, əmək məhsuldarlığının artırılması və məhsulun keyfiyyətini yaxşılaşdırılması üçün marağı təmin edilmədi. Mövcud idarəetmə sistemi daxilində müəssisələrin plan tapşırıqları ümumi istehsalın artım həcminin 5-8%-ni nəzərdə tuturdu. Plan tapşırıqlarının yerinə yetirilməməsi inzibati və təsərrüfat cəza tədbirləri olaraq rəhbərlərə töhmət verilməsi, müəssisənin sərəncamında sosial ehtiyaclar üçün saxlanılan vəsaitin azaldılması şəklində müəyyən edilirdi. Odur ki, bir çox müəssisə rəhbəri istehsalın inkişafını azaldaraq planı yerinə yetirməyə əlavə ehtiyat saxlayırdı. Buraxılan məhsulun kağız üzərində saxta rəqəmlərlə artıq göstərilməsi geniş miqyas almışdır. Bir

çox məhsulun çatışmaması, rəqabətin olmaması məhsulun keyfiyyətini yaxşılaşdırmağa və onun çeşidlərini artırmağa maraq oyatmırdı. Bu təcrübə həm istehlakçıya, həm də təsərrüfatın fəaliyyətinə ziyan vururdu. Məsələn, zavodlar kolxoz və sovxozların tələb etdiyi kiçik mexanizm vasitələri yerinə bahalı ağır traktor və kombaynlar istehsal edirdi.

Əmək məhsuldarlığının artmasını təmin edən yeni texnikanın tətbiqi yuxarıdan müəyyən olunan əməkhaqqının artmasına deyil, hazır məhsula qoyulan qiymətin aşağı salınmasına səbəb olurdu ki, bu da sıravi işçilərə sərf etmirdi. Bundan əlavə, mövcud əməkhaqqı sisteminə əsasən yeni texnikaya qulluq edən mühəndis, operator, proqramçılar fiziki əmək işçilərindən az əməkhaqqı alırdılar. Təbii olaraq onlar yeni peşələrini mənimsəməkdə maraqlı deyildilər.

İşçi qüvvəsindən çox halda səmərəli istifadə edilmirdi. Yüksək intellektual səviyyəli işçilər, tələbələr tez-tez kolxoz və sovxozların mövsümi tədarük işlərinə, tərəvəzin yığılmasına cəlb edilirdi. Ölkənin ali təhsil sistemində hazırlanan kadrlar istehsalatın tələbatına cavab vermədiyi üçün məzunlar öz ixtisası üzrə iş tapa bilmirdilər. Çox halda mühəndis-texniki kadrlar öz diplomlarını gizlədərək müəssisələrdə fəhlə kimi işə düzəlirdilər.

Dövlət büdcəsinin 10%-ə kimi böyük bir hissəsi gündən-günə şişən idarəçilik aparatının saxlanılmasına sərf edirdi. 1980-ci illərin ortalarına doğru onlar təqribən əmək qabiliyyətli əhalinin yeddidə bir hissəsini təşkil edərək 18 mln. nəfərə çatırdı. Keçmişdən miras qalan və gündən-günə artan ölkə problemlərinin həlli dünyadakı real inkişafı nəzərə almaqla onlara yeni yanaşma tələb edirdi ki, L.İ.Brejnev və onun əhatəsi buna hazır deyildir.

Həqiqətən, 1965-1985-ci illərdə sovet cəmiyyəti dərin dəyişikliyə məruz qaldı. 1939-cu ildən 1980-ci ilə qədər şəhər əhalisi 56-dan 180 mln. nəfərə çatdı. 1979-cu ildəki siyahıyaalma məlumatına əsasən, ölkənin şəhər əhalisi 62% təşkil edirdi. Beləliklə, Sovet İttifaqında şəhərləşmiş cəmiyyət formalaşdı. Ölkənin kənd əhalisi 12%-ə düşdü. SSRİ-nin slavyan olmayan əhalisi, xüsusilə müsəlmanlar daha çox artdı. Məsələn, ölkənin müsəlman əhalisi 1959-cu ildəki 22,5 mln. nəfərdən (ümumi əhalinin 10,7%-i) artaraq, 1979-cu ildə 42 mln. nəfərə (ümumi əhalinin 16%-i) çatdı.

L.İ.Brejnev hakimiyyəti dövründə əhalinin bir nəfərinə düşən real gəlir 2,5 dəfə artmsışdır. 1970-ci illərdə ölkədə hər il 100 mln.kv.m yaşayış mənzili tikilməsi sayəsində 107 mln. adam mənzil şəraitini yaxşılaşdırmışdır. On birinci beşillikdə 50 mln. adam yeni mənzil almışdır. 1976-1980-ci illərdə 527,3 mln.kv.m 1981-1985-ci illərdə 552,2 mln.kv.m sahəsi olan yaşayış evləri inşa edilmişdir. Şəhər mənzil fondu 1975-ci ildəki 1867 mln.kv.m-dən, 1985-ci ildə 2561 mln.kv.m çatmışdır ki, bu da çox böyük nailiyyət deməkdir.

İnkişaf etmiş sosializm şəraitində əhalinin həyat səviyyəsi nəqliyyatın inkişafı ilə əlaqədar olaraq xeyli yaxşılaşmışdır. SSRİ-dəki dəmiryol nəqliyyatı 1960-cı ilin sonundan 125,8 min km-ə qarşı 1985-ci ildə 144,9 min km olmuşdur. Bərk örtüklü avtomobil yolları müvafiq olaraq 258 min km-dən 812 min km çatmışdır. 1966-cı ildə Tbilisidə, 1967-ci ildə Bakıda, 1972-ci ildə Xarkovda, 1977-ci ildə Daşkənddə, 1981-ci ildə Yerevanda, 1984-cü ildə Minskdə metropoliten stansiyaları tikilib istifadəyə salınmışdır.

Sovet adamları pulsuz təhsil, tibbi xidmətdən istifadə edir, dövlət yaşayış fondlarının saxlanılmasına böyük həcmdə vəsait sərf edirdi. 1962-ci ildən balıq, şokolad, kofe, sitrus və araq-çaxır məhsulları istisna olmaqla ərzaq məhsullarının qisməti demək olar ki, dəyişməmişdir. Yalnız 1984-cü ildə ərzaq məhsullarının dövlət pərakəndə satış qiyməti 1965-ci illə müqayisədə 11% artmışdır. Ərzaq məhsullarının qiymətinin artması başlıca olaraq alkoqollu içkilər hesabına olmuşdur.

Bütün çətinliklərə baxmayaraq, 1980-ci illərin ortalarına kimi əhalinin qidalanmasında irəliləyiş diqqəti cəlb edir. 1985-ci ildə SSRİ əhalisinin hər birinə ildə 61,7 kq ət, 325 kq süd və süd məhsulları, 260 ədəd yumurta düşürdü. 1970-ci ildə hər 100 ailəyə iki, 1980-ci ildə 10, 1985-ci ildə 15 minik avtomobili düşürdü. 1970-ci ildə ölkə əhalisinin hər 100 ailəsinin 32, 1980-ci ildə iki dəfə çox, 1985-ci ildə 90 televizoru var idi.

Sənayenin, ticarət və xidmət sahələrinin, dövlət aparatının inkişafı mütəxəssislərə tələbatı artırırdı. 1980-ci ilin əvvəllərində 40%-ə qədər şəhər əhalisinin ali təhsili var idi. 80-ci illərin ortalarına doğru SSRİ-də 5 mln. tələbə ali məktəblərdə yarım mln. nəfərlik müəllim ordusundan dərs alırdı. Beləliklə, dünən sosial elita hesab edilən ziyalılar bu gün bir çox sosial qrup və kateqoriyalara, mühəndis, inzibati-idarəçi heyət, alim, artist, müəllim, siyasətçi və s. bölünmüşdür. Düzdür, 80-ci illərin ortalarına doğru SSRİ əhalisinin 70%-i qədərinin ali və orta ixtisas təhsili olsa da, mütəxəssislərin hazırlıq səviyyəsi cəmiyyətin tələblərinə cavab vermirdi.

Ölkə ehtiyatlarının böyük bir hissəsinin ağır sənayeyə, xüsusilə hərbi-sənaye kompleksi sahələrinə yönəldilməsi istehlak sahəsində vəsaitin çatışmazlığına gətirib çıxardı. Pul qiymətdən düşürdü. Baxmayaraq ki, rəqəmlərlə ifadə etdikdə 1960-cı ildə fəhlə və qulluqçuların orta əməkhaqqı 80,6, 1970-ci ildə 122, 1980-ci ildə isə 168,9 rubl olmuşdur. 1967-ci ildə ölkə beş günlük iş həftəsinə keçdi, məzuniyyət günlərinin sayı artdı. L.Brejnev dövründə bərabərləşdirici əməkhaqqı ödənilməsi tətbiq edildi. Artıq 1985-ci ildə mühəndis–texniki işçilərlə fəhlələrin əməkhaqqı arasındakı fərq minimuma endirildi.

Əhalinin əmanət kassalarındakı pul vəsaiti artaraq 1960-cı ildəki 10,9-dan 1980-ci ildə 156,9 milyard rubla çıxdı. Lakin praktik olaraq əhalinin əmanətləri əmtəə ilə təmin edilmədiyi üçün heç bir dəyəri yox idi. 80-ci illərin əvvəllərində Sovet dövləti milli gəlirin yalnız 4%-ni səhiyyə sahəsinə, 7%-ni isə təhsilə sərf edirdi ki, bu da inkişaf etmiş ölkələrdə ki, 10-12%-lik göstəricidən geri qalırdı. Məhz bu səbəbdən ölkədə uşaq ölümü, alkoqolizm artır, orta yaş həddi aşağı düşürdü. Bütün bunlar onu göstərir ki, SSRİ 80-ci illərin ortalarına doğru kəskin sosial-iqtisadi böhranla üz-üzə idi.

### §3. SSRİ beynəlxalq aləmdə

1960-cı illərin ortaları «soyuq müharibə»nin davamı kimi səciyyələndirilə bilər. İki fövqəldövlət SSRİ və ABŞ-ın hərbi potensialı tədricən bərabərləşdi. Hərbi-strateji paritet yarandı. 1964-cü ilin oktyabrında sovet dövlətinin sükanı arxasına keçən yeni hakimiyyət xarici siyasət sahəsində üç prioritet vəzifə qarşıya qoydu. Birincisi, sosialist cəbhəsinin dağılması təhlükəsinin qarşısını alaraq onların siyasi, hərbi və iqtisadi birliyini daha da möhkəmlətmək; ikincisi, Şərqlə və Qərb arasında münasibətləri «dinc yanaşı yaşamaq» prinsipi əsasında normallaşdırmaq; üçüncüsü, bütün dünyada «tərəqqipərvər» hərəkat və rejimləri müdafiə edən siyasət yeritmək. L.İ.Brejnev və onun ətrafının təmsil etdiyi yeni hakimiyyət 1956-cı ildəki Macarıstan hadisələrinin nəticələrini aradan qaldıraraq Şərqi Avropada vəziyyəti sabitləşdirdi. Siyasi vəziyyət Sov.İKP-nin nəzarəti altında qalmaqla mədəniyyət sahəsindəki azadlıqlar və Y.Kadrın iqtisadi siyasəti Macarıstanda xalqın həyat səviyyəsinin yüksəlməsinə, daxili vəziyyətin normallaşmasına səbəb oldu.

Bunun əksinə olaraq müharibə ərəfəsində Şərqi Avropanın ən inkişaf etmiş dövləti olan Çexoslovakiyada sərt siyasi rejim, iqtisadi çətinliklər ölkədə müqavimətin dirçəlməsinə, hətta partiyaya belə sirayət etməsinə gətirib çıxardı. 1967-ci ilin iyununda yazıçı-kommunistlər açıq surətdə yazıçılar qurultayının partiya rəhbərliyinə qarşı çıxış etdilər. Payıza doğru kütləvi tələbə tətillərindən sonra hakimiyyətə qarşı müxalifət daha da gücləndi. 1968-ci ilin yanvarında A.Novotnı partiya rəhbərliyini Aleksandr Dubçekə (1921-1992) verməyə məcbur oldu. Yeni partiya rəhbərliyi öz mövqeyini möhkəmlətmək məqsədilə bir sıra islahatlar, o cümlədən müəssisələrə iqtisadi müstəqillik vermək, demokratik siyasi sistem bərqərar etmək, senzuranı aradan qaldırmaq,

çoxpartiyalılıq əsasında seçki keçirmək tədbirlərini həyata keçirdi. A.Dubçekin başçılıq etdiyi Çexoslovakiya partiya rəhbərliyi demokratik dəyərlərə söykənən «insan sifətli sosializm» qurmaq niyyətində idi. Bu dəyişikliklər dövrü azadlıq və demokratiyanın ölkənin ab-havasını yumşaltdığı «Praqa baharı» adını aldı. Moskvada A.Dubçekin yeritdiyi siyasətə kommunist partiyasının inhisarının itməsi və Varşava Müqaviləsi Təşkilatının dağılması təhlükəsi prizmasından baxmağa başladılar. Rumıniya istisna olmaqla digər sosialist ölkələrinin rəhbərləri də məsələyə daha sərt müdaxilə tələb edirdi. 1968-ci il avqustun 3-də Bratislavada L.Brejnev, A.Dubçek, O. Çernikin görüşü də heç bir nəticə vermədi, Çexoslovakiya kommunistləri islahatdan əl çəkmək niyyətində olmadıqlarını nümayiş etdirdilər. 1968-ci il avqustun 20-dən 21-nə keçən gecə uzun tərəddüddən sonra sovet rəhbərliyi ADR-in partiya liderlərinin təzyiqi ilə Varşava Müqaviləsi Təşkilatının yarım milyonluq ordusunu «qardaş köməyi» adı altında ÇSSR-ə yeritdi. SSRİ ilə yanaşı Bolqarıstan, Macarıstan, Polşa və Almaniya Demokratik Respublikasının orduları Çexoslovakiya müdaxiləsində iştirak etdilər. Çexoslovakiya KP MK-nın birinci katibi A.Dubçek, hökumətin sədri O.Çernik və başqaları sovet təhlükəsizlik orqanları nümayəndələri tərəfindən həbs edilərək Moskvaya aparıldı. Moskvaya deportasiya edilən ölkə rəhbərliyi ilə avqustun 23-dən 26-na kimi aparılan danışıqlar nəticəsində vəziyyətin normallaşdırılmasından bəhs edən basqı altında protokol imzalandı. 1969-cu il aprelin 17-də A.Dubçeki ÇKP-nin birinci katibi vəzifəsində Q.Qusak əvəz etdi ki, o da noyabr ayından avqusta qədər olan dövrdə həyata keçirilən islahatları tənqid edən qətnamə qəbul edilməsinə nail oldu.

Çexoslovakiya Sovet Sosialist Respublikasına müdaxilə edilməsi nümayiş etdirdi ki, yeni sovet rəhbərliyi yalnız Şərqi Avropa ölkələrinin məhdud müstəqillik prinsipindən çıxış edir. Odur ki Qərbdə «Brejnev doktorinası» deyilən anlayış meydana gəldi. Onun mahiyyəti isə belə idi ki, hər bir sosialist dövlətinin müstəqilliyi sosializmin möhkəmləndirilməsi məqsədinə tabe tutulmalıdır. Hər bir ölkədə sosialist quruluşunun müdafiəsi bütün sosialist dövlətlərinin ümumi işidir. Bu isə praktik olaraq SSRİ-nin bütün Şərqi Avropanın sosialist dövlətlərinin daxili işinə qarışmağa şərait yaradırdı.

Çexoslovakiyaya müdaxilə nəticəsində Şərqi Avropa xalqları SSRİ-yə milli azadlığı boğan təcavüzkar bir dövlət kimi baxmağa başladı. SSRİ-nin müdaxiləni müdafiə etməyən Yuqoslaviya, Albaniya, Rumıniya, Çin kimi sosialist ölkələri ilə münasibətləri kəskinləşdi. SSRİ-nin maraqları da ciddi zərbə aldı, sovet sistemi isə daxilən çat verərək, iki onillik ərzində dağılmağa məhkum oldu.

1970-ci ildə qiymətlərin bahalaşması ilə əlaqədar olaraq Polşanın Baltik sahilboyu şəhərlərinin fəhlələri kütləvi tətilə başladı. Toqquşmalarda 44 nəfər öldü, 1164 nəfər isə yaralandı. 1971-ci ilin martında qiymətlər aşağı salındıqdan sonra vəziyyət nisbətən sabitləşdi. V.Qomulka PBFP MK-nın birinci katibi vəzifəsindən azad edilərək onun yerinə Edvard Gerek (1919-2001) təyin olundu. 70-ci illərin ortalarından başlayaraq Polşada iqtisadi çətinliklər və ölkənin xarici borcları kəskin artdı. 1976-cı ilin iyununda hökumət vəziyyətdən çıxmaq üçün əməkhaqqının qismən artırılması müqabilində ərzaq mallarının qiymətini kəskin artırdı. Bu isə fəhlələrin müqaviməti ilə üzləşdi. Təşəbbüs müxalifətin əlinə keçdi. 1980-ci ilin noyabrında müxalifəti təmsil edən müstəqil «Həmrəylik» («Солидарность») təşkilatı rəsmi qeydiyyatdan keçdi ki, onun da üzvlərinin sayı 8 mln. nəfərə çatırdı. 1981-ci ildə general Voytsex Yaruzelski PBFP MK-nın birinci katibi, Nazirlər Sovetinin sədri, milli müdafiə naziri oldu. O, 1981-ci il dekabrın 13-də ölkədə hərbi vəziyyət elan edərək, müvəqqəti də olsa, açıq siyasi qarşıdurmanın qarşısını aldı.

SSRİ ilə Çin Xalq Respublikası arasında münasibətlər gərgin olaraq qalırdı. 1969-cu ilin yazında sərhəd çayı Ussuri rayonunun Damansk adasında Sovet və Çin hərbi hissələrinin toqquşması oldu. Damansk adasının statusu iki dövlət arasında dəqiq müəyyən edilmədiyi üçün hər iki tərəf adaya sahib olmaq iddiası ilə münaqişəyə başladılar və bu az qala Sovet-Çin müharibəsinə səbəb olurdu. İlk zərbəni sərhədçilər öz üzərinə götürdükdən sonra sovet tərəfi ağır «Qrad» qurğularını işə saldı və düşmən geri çəkilməyə məcbur oldu. Martın 2-dən 14-15-nə kimi davam etmiş hərbi toqquşmada 31 nəfər sovet sərhədçisi ölmüş, 14 nəfər yaralanmışdır. Bu hadisədən sonra Damansk adasında Çinlə sərhədin möhkəmləndirilməsi tədbirləri görüldü, yeni hərbi dairə təşkil edildi. Çinlə olan təxminən 7 mln. km quru sərhəd boyu ərazidə 40 sovet diviziyası yerləşdirildi. Çin Xalq Respublikası isə bu hadisədən sonra ABŞ və onun müttəfiqləri ilə münasibətlərini normallaşdırdı ki, bu da Sovet İttifaqının əlavə narahatlığı demək idi. Yalnız 1976-cı ildə Mao Tszedun və 1982-ci ildə L.Brejnev öldükdən sonra Sovet-Çin münasibətlərinin normallaşdırmaq mümkün oldu.

1960-cı illərin ikinci yarısında SSRİ iki dəfə Vyetnam və Yaxın Şərq münaqişəsində iştirak etdi. 1965-ci ildə ABŞ Cənubi Vyetnama birləşdirmək məqsədilə Şimalı təmsil edən Vyetnam Demokratik Respublikasına qarşı müharibəyə başladı. Uzun və qanlı müharibə yalnız 1973-cü ildə başa çatdı. 1975-ci ildə Vyetnam Şimali Vyetnam kommunistlərinin hakimiyyəti altında birləşdi. SSRİ müharibə illərində Vyetnam Demokratik Respublikasının parti-

zanlarına silah, hərbi ləvazimat, tibbi avadanlıq, hərbi mütəxəssislərlə köməklik göstərdi ki, bu da SSRİ ABŞ münasibətlərini xeyli kəskinləşdirdi.

1967-ci ilin iyun ayında «altıgünlük müharibə» nəticəsində İsrail Misir, Suriya, İordaniya ordularını məğlub edərək Sina yarımadasını, Qolan təpələrini, İordan çayının sağ sahilini və Şərqi Yerusəlimi işğal etdi. SSRİ ərəb dövlətlərini müdafiə edərək İsraillə diplomatik münasibətləri kəsdi. 1973-cü ildə SSRİ-nin köməyi ilə Misir və Suriya itirdiyi əraziləri qaytarmağa cəhd etsə də, buna nail olmadı. Məğlubiyyətdən sonra Misir prezidenti A.Sadat 1979-cu ildə İsraillə Kemp-Devid sülh müqaviləsini imzaladı. Bundan sonra SSRİ-nin Yaxın Şərqdə müttəfiqi Suriya və Fələstin Azadlıq Təşkilatı oldu. 1980-ci ilin iyulunda İsrail Yerusəlimi «vahid və bölünməz» paytaxtı elan etdi. Eyni zamanda İsrail parlamenti Qolan təpələrini özünə birləşdirilməsi haqqında qərar qəbul etdi. 1982-ci ilin aprelində İsrail işğal etdiyi Sina yarımadasının qalan hissəsini Misirə qaytardı.

İnkişaf etməkdə olan ölkələrlə münasibətdə prioritet «sosialist oriyentasiyalı» ölkələr olan Kampuçiya, Laos, Somali, Anqola, Mozambik, Nikaraqua verilirdi. Bu ölkələr SSRİ-dən milyard dollar həcmində iqtisadi və hərbi kömək alırdı. Xarici siyaəstdə hərbi-bloklar mənafeyi diktatura tipli rejimlərlə də, o cümlədən İraq, Suriya, Liviya, Efiopia ilə müttəfiqlik münasibətləri yaratmağı tələb edirdi.

1970-ci illərin sonunda SSRİ 130 dövlətlə diplomatik əlaqə saxlayırdı ki, onların da yarısı inkişaf etməkdə olan ölkələr idi. Nüfuz dairəsini genişləndirmək məqsədilə SSRİ «üçüncü dünya» ölkələrinə hərbi və vətəndaş mütəxəssisləri göndərir, uzunmüddətli güzəştli kredit ayırır, onları silah və xammalla təmin edirdi. 1955-1968-ci illərdə «qardaş rejimlər» üçün 4,5 mlrd. dollarlıq silah, 1966-1975-ci illərdə 9,2 mlrd, 1978-1982-ci illərdə 35,4 mlrd. dollarlıq silah ayrılmışdı. Xarici tələbə və aspirantların təhsili üçün Sovet İttifaqı çoxlu maliyyə vəsaiti sərf edirdi. Lakin bu köməyin təsiri olduqca aşağı idi, kreditlərin çox hissəsi, demək olar ki, qaytarılmırdı.

1970-ci il avqustun 12-də SSRİ ilə AFR, 1970-ci il dekabrın 7-də AFR ilə Polşa arasında müqavilələrin bağlanması, 1971-ci ilin sentyabrın 3-də SSRİ, ABŞ, İngiltərə və Fransa arasında Qərbi Berlinə aid dördtərəfli sazişin imzalanması, 1972-ci il dekabrın 21-də AFR ilə ADR arasında diplomatik münasibətlərin yaradılmasına dair müqavilənin imzalanması Avropada beynəlxalq vəziyyətin normallaşmasına gətirib çıxardı.

1972-ci il noyabrın 22-də Finlandiya dövlətinin təklifi ilə 33 Avropa dövləti, ABŞ və Kanadanın nümayəndələri Helsinkidə Ümumavropa müşavirəsilə

bağlı yeddi aya kimi davam edən məsləhətləşmələrə başladılar. Bunun nəticəsində 1973-cü ilin iyununda «Mavi kitab» adını alan yekun tövsiyələri hazırlandı. Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə müşavirənin birinci mərhələsi 1973-cü il iyulun 3-dən 7-nə kimi Helsinkidə, ikinci mərhələ 1973-cü il sentyabrın 21-dən 1975-ci il iyulun 21-nə kimi Cenevrədə, üçüncü, yekun mərhələsi isə 1975-ci il iyulun 30-da Helsinkidə oldu. 1975-ci il avqust ayının 1-də 33 Avropa dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə müqavilənin Yekun aktını imzaladılar. Müşavirənin iştirakçısı olan dövlətlər aşağıdakı 10 əsas prinsipi qarşılıqlı münasibətlərində rəhbər tutmağı öz öhdələrinə götürdülər: suveren bərabərlik; zor işlətməmək və ya zor işlətməklə hədələməmək; sərhədlərin toxunulmazlığı; dövlətin ərazi bütövlüyü; müharibənin dinc yolla nizama salınması; bir-birinin daxili işlərinə qarışmamaq; insan hüquqlarına və əsas azadlıqlarına hörmət; bərabərlik və xalqların öz müqəddəratını təyin etmək hüququ; dövlətlər arasında əməkdaşlıq; beynəlxalq müqavilə öhdəliklərinin vicdanla yerinə yetirilməsi.

Yekun Aktının imzalanmasının tarixi əhəmiyyəti ondan ibarətdir ki, müxtəlif ictimai quruluşa malik olan dövlətlər arasında əməkdaşlıq yeni mərhələyə qədəm qoyaraq beynəlxalq gərginliyin azaldılmasına kömək etdi. SSRİ-nin isə ən böyük nailiyyəti müharibədən sonrakı sərhədlərin tanınması oldu. Bunun naminə sovet rəhbərliyi söz, mətbuat, hərəkat azadlığı, məlumat alış-verişinə və s. razı oldu.

1972-ci ilin may ayında ABŞ prezidenti R. Nikson Sovet İttifaqına səfərə gələrək ölkə rəhbəri L.Brejnevlə görüşdü, mayın 28-də isə «SSRİ ilə ABŞ arasında qarşılıqlı münasibətlərin əsasları» haqqında sənəd imzalandı. 1972-ci il mayın 26-da Moskvada SSRİ ilə ABŞ arasında «Raketlərdən müdafiə sistemlərinin məhdudlaşdırılması haqqında müddətsiz müqavilə» və «Strateji hücum silahlarının məhdudlaşdırılması sahəsində bəzi tədbirlər» haqqında müvəqqəti saziş bağlandı (SSM-1). 1973-cu ilin iyun ayında L.İ.Brejnev ABŞ-a səfər etdi və iyunun 22-də Vaşinqtonda SSRİ ABŞ arasında «Nüvə müharibəsinin qarşısının alınması» haqqında müddətsiz saziş imzalandı. 1974-cü ilin yayında ABŞ prezidenti R. Niksonun SSRİ-yə növbəti, səfəri 1974-cü ilin noyabrında Vladivostokda ABŞ-ın yeni prezidenti C.Ford və L.Brejnevin iştirakı ilə növbəti yüksəksəviyyəli Sovet-Amerikan görüşü hər iki ölkə arasında əməkdaşlığın artdığını nümayiş etdirirdi. SSRİ ilə ABŞ arasında elmi-texniki, kənd təsərrüfatı, ətraf mühitin qorunması sahəsində əməkdaşlıq genişləndi. 1976-cı ildə SSRİ-ABŞ ticarətinin həcmi 2,2 milyard dollara çatdı.

1979-cu il iyunun 18-də Vyanada yüksəksəviyyəli dövlət başçılarının iştirakı ilə Sovet-Amerika görüşündə strateji hücum silahlarının məhdudlaşdırılması haqqında ikinci müqavilə bağlandı. Lakin SSRİ-nin Əfqanıstana müdaxiləsindən sonra konqres SSM-2 müqaviləsini təsdiq etmədi. ABŞ SSRİ ilə ticarəti dayandırdı və 1980-ci ildə Moskva olimpiadasını boykot etdi. 1980-ci ildə R.Reyqan ABŞ prezidenti seçildikdən sonra hər iki ölkə arasında sərt qarşıdurma müşayiət olundu. Xüsusilə 1983-cü il sentyabrın 1-də Sovet İttifaqı səmasında Cənubi Koreyanın sərnişin təyyarəsinin hərbçilər tərəfindən vurulması SSRİ-ABŞ münasibətlərini daha da gərginləşdirdi və ABŞ Avropada xüsusi ilə AFR, Böyük Britaniya və İtaliyada yeni nüvə raketləri yerləşdirdi.

ABŞ-ın prezidenti R.Reyqan (1981-1988) administrasiyası «kommunistlərlə» dil tapmaq məqsədindən uzaq idi. 1982-ci ildə SSRİ-yə qarşı növbəti təbliğat hücumuna başlayan R.Reyqan SSRİ-ni «Şər imperiyası» («Империя зла») adlandıraraq elan etdi ki, ümumdünya demokratik inqilabı nəticəsində başqa tiranlar kimi marksizm-leninizm rejimlərin tarixin zibilliyində dəfn edəcək. 1982-ci ilin noyabrında Reyqan milli təhlükəsizliyin müdafiəsi direktivində bəyan etmişdir ki, ABŞ-ın siyasətinin məqsədi SSRİ-nin xammal kompleksini dağıtmaqdır. 1983-cü il yanvar direktivində Şərq bloku ölkələrindəki müxalifət hərəkatı üçün 108 mln. dollar miqdarında əlavə maliyyə vəsaiti ayrılmışdır. Sənədin müəllifləri açıq bildirirdilər ki, Amerikanın məqsədi «SSRİ ilə yaşamaq deyil, sovet sistemini dəyişdirməkdir».

ABŞ-ın 1983-1984-cü illərdə Avropada yerləşdirdiyi yeni raketlərə cavab olaraq SSRİ Çexoslovakiya və ADR-in ərazisində 1984-cü ildə köhnə orta mənzilli «RSD-4» və «RSD-5» raketləri yerinə yeni «RSD-20» ortamənzilli raketləri yerləşdirdi. Beləliklə, yeni silahlanma yarışı başlamış oldu. Bu sovet iqtisadiyyatına ağır yük olmaqla bərabər onun inkişaf dinamikasına neqativ təsir göstərmişdir. 1970-ci illərin sonundan başlayaraq SSRİ ayrı-ayrı silah növləri üzrə ABŞ-dan geri qalmağa başladı. Bu amerikan qanadlı raketlərin meydana gəlməsindən və 1983-cü ilin martında ABŞ-ın Strateji Müdafiə Təşəbbüsü (СОИ) proqramını elan etdikdən sonra daha çox aydın olmuşdur. Silahlanma yarışı SSRİ-də baş vermiş böhranın əsas səbəblərindəndir. Amerikan tərəfinin hesablamalarına əsasən, silahlanma SSRİ-nin istehsal gücünün 25-30%-ni mənimsədiyi halda, ABŞ-da bu 5-6% təşkil etmişdir. Ümumən, 1980-ci illərin ortalarında Avropada Şimali Atlantika paktının 94 diviziyasına qarşı Varşava müqaviləsi təşkilatının yalnız 78 diviziyası dayanmışdır. Eyni zamanda NATO-nun diviziyalarının tərkibində 16-23 min nəfər, VMT-nin diviziyalarında isə 11-12 min nəfər canlı qüvvə var idi.

1973-cü ilin iyulunda Əfqanıstanda monarxiya rejimi devrildi və ölkə respublika elan edildi. 1978-ci il aprelin 27-də ƏXDP-nin tərəfdarı olan ordu hissələri çevriliş etdi və aprelin 28-də M.Təraki başda olmaqla İnqilabi Şura yaradıldı. Pakistan və İranın yardımı ilə 1979-cu ilin sentyabrında H.Əmin hakimiyyəti ələ keçirdi. 1979-cu il dekabrın 27-də sovet hərbi dəstəsi Kabulda prezident sarayını tutaraq H.Əmini öldürdü. ƏXDP-nin başçısı B. Karməl Əfqanıstanın yeni rəhbəri təyin edildi, formal olaraq onun xahişi ilə sovet qoşunları ölkəyə müdaxilə etdi. Əfqanıstanda SSRİ-nin müdaxiləsi ilə vətəndaş müharibəsi dövrü başladı, 5 mln. əfqan ölkəni tərk edərək İran və Pakistana sığındı. ABŞ, İngiltərə, AFR, Yaponiya hər il əfqan mücahidlərinə 100 mln. dollar həcmində kömək göndərirdi. 1987-ci ilin yanvarında B.Karməli başqa bir sovetlər tərəfdarı Nəcibulla ölkə rəhbərliyində əvəz etdi. O, 1987-ci il yanvarın 15-də hərbi əməliyyatları dayandırdığını və koalisyon hökumət qurmağa razı olduğunu bəyan etdi. 1988-ci il aprelin 14-də Əfqanıstana dair Cenevrə sazişləri imzalandı, SSRİ 1988-ci il mayın 15-də Əfqanıstandan qoşunlarını çıxarmağa başladı və 1989-cu il fevralın 15-də bu başa çatdı. Əfqan xalqına «beynəlmiləl kömək» 10 il uzandı və hər ili SSRİ-yə 3-4 milyard dollara başa gəldi. 620 min nəfər sovet hərbiçisi bu müharibədən keçmişdir. Müdaxilə sayəsində 14,5 min nəfər sovet əsgəri öldü, 35 min nəfər yaralandı, 300 nəfərdən çox itkin və əsir düşdü. Beləliklə, Sovet İttifaqının L.Brejnev dövründə Əfqanıstana uğursuz müdaxiləsi onun beynəlxalq mövqeyini sarsıtdı, ABŞ və onun müttəfiqləri ilə SSRİ-nin münasibətləri daha da kəskinləşdi. Digər bir tərəfdən bu müharibə onsuz da ağır vəziyyətdə olan sovet iqtisadiyyatına ağır yük olaraq cəmiyyətdə Sov.İKP liderlərinin yeritdiyi siyasətdən narazılığın artmasına şərait yaratdı.

### §4. 1983-1985-ci illərdə daxili vəziyyət

1982-ci il noyabrın 12 də L.İ.Brejnevin ölümündən iki gün sonra Y.V.Andropov Sov.İKP MK-nın Baş katibi, 1983-cü ilin iyunundan isə SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri seçildi. 1962-1967-ci illərdə Sov.İKP MK-nın katibi işləmiş Y.V.Andropov 1982-ci ilin fevralından A.Suslovun ölümündən sonra ideologiya sahəsindəki yerinə katib seçildiyi üçün L.Brejnev dövrünün 6 ay müddətinə olsa da, ideoloqu hesab edilirdi. 1967-1982-ci illərdə isə o, 15 il müddətində Dövlət Təhlükəsizlik Komitəsinin sədri işləmişdir. Ümumən,

Y.V.Andropov intellektual səviyyəsi ilə fərqlənən, ölkənin daxili vəziyyətindən xəbərdar olan, iqtisadi məsələlərdən baş çıxarmağı bacaran və əsası ölkədə qayda-qanun yaratmaq tərəfdarı kimi şöhrət qazanmışdı. D.F.Ustinova və A.A.Qromıkoya arxalanan Y.Andropov MK-nın Siyasi Bürosun və Katibliyi «cavanlaşdırdı». SSRİ Nazirlər Sovetinin birinci müavini seçilmiş H.Ə.Əlyiev Siyasi Büronun üzvü seçildi. RSFSR Nazirlər Sovetinin sədri V.İ.Vorotnikov, Sov.İKP MK-nın partiya Nəzarət Komitəsinin sədri M.S.Solomentsev də Siyasi Büro üzvləri oldular. Siyasi Büronun üzvlüyünə yeni namizəd DTK-nın sədri V.M.Çebrikov seçildi. MK-nın yeni katibləri MK-nın İqtisadiyyat Şöbəsinin müdiri N.İ.Rıjkov, Siyasi Büronun üzvü, Leninqrad Vilayət partiya komitəsinin birinci katibi Q. V.Romanov, MK-nın partiya təşkilat şöbəsinin müdiri Y.K.Liqaçov seçilmişdir.

Hakimiyyətə gəldiyi ilk aylardan etibarən Y.Andropov bir sıra tədbirlər, o cümlədən partiyanın üst təbəqələrinin əxlaqi tərəfdən təmizlənməsinə, iqtisadi islahatlara başladı. Lakin cəmi 15 ay hakimiyyətdə qalan Y.V.Andropov nəzərdə tutulan dəyişiklikləri yerinə yetirməyə fiziki cəhətdən imkan tapmadı. Hakimiyyətdə olduğu qısa müddətdə korrupsiya və rüşvətxorluğa qarşı müharibə elan edən yeni partiya və dövlət rəhbəri ölkədə bir sıra qaranlıq işlərin üstünün açılmasına şərait yaratdı. Krasnodar Vilayət Partiya Komitəsinin sabiq birinci katibi S.F.Medunov və L.Brejnevin kürəkəni, daxili işlər nazirinin müavini Y.M.Çurbanov həbs edildi. SSRİ daxili işlər naziri N.A.Şelokov vəzifədən uzaqlaşdırıldı və özünə qəsd etdi.

L.Brejnevin dəfn mərasimində onun qızı Qalina Brejneva DTK işçilərinin müşayiəti ilə iştirak etdi. Çünki onun məşhur Yeliseyev qastronomunun müdiri ilə cinayət əlaqələri aşkar edilmişdi. Qərb mətbuatı Siyasi Büronun üzvü Q.Romanovun qızının toy məclisi üçün II Yekaterinanın Ermitajdan son dərəcə yüksək dəyəri olan servizini prokata götürməsini qalmaqal kimi qələmə verdi. Gürcüstan KP MK-nın birinci katibi, Siyasi Büronun üzvü E.Şevardnadze «Pravda» qəzetində məqalə ilə çıxış edərək Gürcüstanda korrupsiyaya qurşanmış 300 nəfər məsul şəxsin vəzifədən uzaqlaşdırdığını vurğuladı. Y.V.Andropov dövründə DİN-nin 100 min əməkdaşı işdən azad edildi, onların yerini DTK-nın əməkdaşları tutdu. 18 nəfər nazir, 37 nəfər L.Brejnev dövrünün vilayət partiya komitəsinin birinci katibi öz vəzifəsin itirdi. Özbəkistanda çoxmilyardlıq pambıq pripiskası aşkar edildi, yeyintinin miqyası son dərəcə yüksək idi. Özbəkistan KP MK-nın birinci katibi Ş.R.Rəşidov bu faktlar aşkar edildikdən sonra özünü öldürdü.

«Qayda-qanun» yaratmağın digər yolu istehsalat intizamını möhkəmlətmək oldu. İş buraxanlara və işə gecikənlərə sərt cəzalar müəyyən olundu. Küçələrdə, ictimai yerlərdə milis əməkdaşları vətəndaşların sənədlərini yoxlayırdı ki, niyə onlar işdə deyil. Hətta hamamlarda belə yoxlamalar aparılırdı. Beləliklə, Y.V.Andropov hakimiyyətdə olduğu müddətdə əsas diqqəti inzibati tədbirlərə yönəltmişdir. Bu isə o demək idi ki, partiya və dövlət rəhbərliyi ölkəni bürüyən böhranın nə qədər təhlükəli olduğundan xəbərsiz idilər. 1983-cü ilin ikinci yarısından ağır xəstə olan Y.V.Andropov 1984-cü ilin fevralın 9-da vəfat etdi. Sov.İKP MK-nın Baş katibi vəzifəsini 73 yaşlı xəstə K.U.Çernenko tutdu. O, bu vəzifəni cəmi 13 ay icra edə bildi. Yeni partiya lideri onun üçün yazılmış mətnləri belə çətinliklə oxuyurdu. Y.Andropovun başlatdığı əmək intizamını möhkəmlətmək, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə, rəhbər kadrlara tələbkarlıq kursundan imtina edildi. Bunun yerinə isə heç bir təşəbbüs irəli sürülmədi. Hətta yaranmış şəraitdə Sov.İKP-nin sıravi üzvləri belə yeni dəyişikliyin zəruri olduğuna inanırdılar. Başqa sözlə, yalnız bürokratik kağız işləri ilə 18 yaşından məşğul olan xəstə və ya yaşlı K.U.Çernenko və onun ətrafı kommunist rejiminin sosialist cəmiyyətinin böhranının qarşısını almağa qadir deyildi.

K.Çernenko hakimiyyətdə olduğu müddətdə diqqəti cəlb edən hadisə 1984-cü ilin iyununda V.Molotovu partiya sıralarına bərpa etmək olmuşdur. Siyasi Büronun stalinpərəsət mövqeyi D.Ustinovun G.Malenkov və L.Kaqanoviçi partiya sıralarına bərpa etmək təklifi nəticəsində bir daha gündəmə gəlmişdir. Ancaq 1984-cü il dekabrın 20-də D.F.Ustinovun, 1985-ci il martın 10-da K.Çernenkonun ölümü ilə gecikmiş «brejnevizm» başa çatmışdır.

# XXX FƏSİL
# «YENİDƏNQURMA» SİYASƏTİ. 1985-1991

## §1. Sosial-iqtisadi siyasət

1985-ci il martın 10-da K.U.Çernenkonun ölümündən sonra M.S. Qorbaçov Sov.İKP MK-nın Baş katibi seçildi. Qorbaçov Mixail Sergeyeviç 1931-ci ildə Stavropol diyarının Privolno stanitsasında (kazak kəndi) anadan olmuşdur. Orta məktəb illərində əmək fəaliyyətinə başlayan M.Qorbaçov MDU-nun hüquq fakültəsini və Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. Mərkəzi komsomol və partiya orqanlarında rəhbər vəzifələrdə çalışan M.Qorbaçov Sov.İKP MK-da aqrar siyasət üzrə işə cəlb edilmişdir. 1980-ci ildən Siyasi Büronun tərkibinə daxil olan M.S.Qorbaçov K.U.Çernenkonun ölümündən sonra A.A.Qromıkonun təşəbbüsü ilə gənc, dinamik lider kimi Baş katib seçildi. Ölkə tarixində onun üzərinə çətin islahatçı rolu düşdü. Onun bütün fəaliyyəti ardıcıl və uzaqgörən olmasa da, məhz M.Qorbaçov mövcud hakimiyyət strukturuna savaş açdı. Onun kosmetik xarakterli yarımçıq islahatları köhnə sistemin dağılmasını daha da sürətləndirdi. 1991-ci ilin dekabrında SSRİ dağıldıqdan sonra M.S.Qorbaçov istefaya gedərək özünün qurduğu Fond vasitəsilə fəal ictimai-siyasi iş aparırdı.

SSRİ-də geniş islahatların başlanmasını, adətən, M.S.Qorbaçovun partiya və faktiki olaraq dövlətə rəhbərlik etdiyi 1985-ci illə bağlayırlar. Lakin bəzi tarixçilər Y.V.Andropovu «yenidənqurmanın atası» adlandırırdılar, başqaları isə 1980-ci illərin birinci yarısında SSRİ-nin tədricən islahatlar mərhələsinə daxil olması məntiqinə əsaslanaraq 1983-1985-ci illəri yenidənqurmanın «rüşeym» (embrion) dövrü» hesab edirlər.

Sov.İKP MK-nın yeni Baş katibi 1985-ci il aprelin 23-də plenumda çıxış edərək cəmiyyətin hərtərəfli yenilənməsi, «ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi» əsasında geniş islahatlar keçirəcəyini bəyan etdi. İqtisadi dəyişikliklərin yeni investisiyaların və yeni obyektlərin tikilməsi yerinə mövcud müəssisələrin modernləşdirilməsi hesabına aparılması nəzərdə tutulurdu. Başlıca olaraq maşınqurașdırmanın sürətli inkişaf etdirilməsi irəli sürüldü. İslahata əsasən maşın və avadanlığın istehsalı sənayenin başqa sahələrini 1,7 dəfə ötüb keçirdi. İntizamın möhkəmləndirilməsi və maddi maraq prinsipinin artırılması vasitəsilə «insan faktorunun» fəallaşdırılmasına xüsusi diqqət ayrı-

lırdı. Bütün bu dəyişikliklər təbii olaraq sosializm çərçivəsində həyata vəsiqə qazanmalı idi.

M.S.Qorbaçovun islahatı, hər şeydən əvvəl, yuxarıdan başlanmışdı və «aşkarlıq» («гласность»), «sürətləndirmə» («ускорение»), «yenidənqurma» («перестройка») adlanan üç şüarla səciyyələndirilirdi. «Aşkarlıq» sovet sisteminin mövcud olduğu dövrdə gizli saxladıqlarının xalqa bildirilməsi demək idi. Başqa sözlə, hazırkı dövrə kimi sistemin ört-basdır etdiyi iqtisadi böhrandan, heç bir siyasi islahat irəli sürməyə qabil olmayan və iqtisadi aparatın bir hissəsinə çevrilən partiyadakı böhrandan, nəhayət, söz yığınından başqa bir şey olmayan ideoloji sistemin böhranından açıq-aşkar bəhs edilməyə başlandı. Yeni rəhbərlik öz çıxışlarında senzuranı yumşaltmaq və vətəndaşların azad məlumat əldə etmələrinə şərait yaratmağı vəd edirdi.

1980-ci illərin ortalarında SSRİ-də sosial böhran dərinləşdiyi üçün M.S.Qorbaçovun islahatları xalqın böyük əksəriyyəti tərəfindən dəstəkləndiyi halda, onun islahatlara çağırışı yeni hər bir şeyə qarşı olan təbəqələrin ciddi müqaviməti ilə üzləşdi. Odur ki, M.S.Qorbaçov daim yaranmış mürəkkəb şəraitə uyğun olaraq öz çıxış və fəaliyyət proqramını zaman-zaman dəyişdirərək islahatların tərəfdarları ilə əleyhdarları arasında ortaq nöqtə tapmağa səy göstərirdi. Partiya və dövlət rəhbərliyinin az bir hissəsi başa düşürdü ki, iqtisadi sistemi dəyişdirib, mərkəzləşdirilmiş idarəetmədən imtina edərək təsərrüfat-hesablı formanı tətbiq etməklə müəssisələrin hüququnu genişləndirmək vacibdir. Partiya və dövlət aparatını təmsil edənlərin böyük əksəriyyəti belə hesab edirdi ki, ümumiyyətlə, heç bir islahat lazım deyil, yalnız güc metodu ilə intizamı möhkəmlətməklə vəziyyəti normallaşdırmaq olar.

İqtisadi sahədə həyata keçirilməsi nəzərdə tutulan yenidənqurma və islahatın ilk konkret addımı 1985-ci il mayın 7-də Sov.İKP MK-nın qəbul etdiyi «Sərxoşluq və alkoqolizmin aradan qaldırılması tədbirləri haqqında» qətnaməsi və ölkədə antialkoqol kampaniyasının başlanmasıdır. Düzdür sərxoşluq ölkədə dözülməz həddə çatmışdı, amma onun aradan qaldırılması üçün tətbiq edilən tədbirlər də təsirsiz və son dərəcə ağır nəticələr doğurduğundan istənilən nəticə alınmadı. İnzibati metodlarla həyata keçirilən kampaniya çərçivəsində üzüm bağları, şərab istehsal edən müəssisələr ləğv olundu. Şərab mağazaları kəskin azaldıldığına görə kütləvi araq növbələri yarandı. Antialkoqol kampaniyası ölkədə narkomaniya, toksikomaniya, spirt surroqatlarından istifadənin geniş yayılmasına səbəb oldu. Dövlət büdcəsi spirtli içkilərdən gələn külli miqdarda gəlirdən məhrum oldu. Belə ki, 1985-1986-cı illərdə Sovet İttifaqında alkoqol içkilərinin iki dəfə azalması hesabına dövlət büdcəsi 1985-ci ildən 1988-ci ilə qədər 67 milyard rubl vəsait itirdi.

Bu məlumatı N.İ.Rıjkov vermişdir, M.S.Qorbaçov isə bunun 37, V.S.Pavlov 200 milyard olduğunu iddia etmişdir. Nəticədə 1988-ci ildə antialkoqol kampaniyası baş tutmaya-raq dayandı.

Yenidənqurma islahatı sahəsində növbəti inzibati tədbir 1986-cı ilin mayında «Dövlət qəbulu haqqında» («О госприемке ») Qanun oldu. Qanuna əsasən, sənaye məhsulunun keyfiyyətinə nəzarət etmək məqsədilə dövlət müfəttişləri qulluğu yaradıldı. 1987-ci il yanvarın 1-də SSRİ-nin bütün iri müəssisələrində bu sistem fəaliyyət göstərirdi. Müəssisələrin texniki nəzarət şöbələrinin (OTK) nəzarətçilərindən fərqli olaraq dövlətqəbulu müfəttişləri müəssisənin rəhbərliyindən asılı deyildirlər və planın yerinə yetirilməsində maddi maraqları yox idi. Lakin işin inzibati tərəfini önə çəkən bu tədbirin də nəticəsi gözlənildiyindən çox aşağı oldu. Planın yerinə yetirilməsi və bunun birbaşa nəticəsi olaraq əməkhaqqı aşağı düşdü. Müəssisə rəhbərləri tez-tələsik onların partiya qeydiyyatında olan müfəttişləri ilə dil tapmağa çalışırdı. Böyük bir səmərə verməyən dövlət qəbulu yalnız iki il mövcud oldu.

1986-cı ilin may ayında Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin «Zəhmətsiz gəlirlə mübarizənin gücləndirilməsi tədbirləri haqqında» qətnaməsi dərc olundu. Formal olaraq bu sənəd kölgə iqtisadiyyatının iri işbazlarına qarşı yönəlsə də, praktik olaraq bundan ən çox xırda sənətkarlar və ticarətçilər, satmaq üçün meyvə və tərəvəz yetişdirən kolxozçu və şəhərlilər əziyyət çəkdilər.

1986-cı ilin fevral-martında Sov.İKP-nin XXVII qurultayı partiya proqramını dəyişərək köhnə kommunizm quruculuğu yerinə sosializmi təkmilləşdirmək kursunu elan etdi. Qurultayın qəbul etdiyi 1986-1990-cı illərə dair XII beşilliyin direktivlərində sovet cəmiyyətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi nəzərdə tutulmuşdur. Partiya 2000-ci ilə doğru ölkənin iqtisadi potensialını iki qat artırmağı və hər ailəni ayrı mənzillə təmin etməyi vəd etdi.

Qurultay, eyni zamanda müəssisələrdə rəhbərləri seçmək hüququ olan, əməkhaqqını və sosial ehtiyaclara ayrılan vəsaiti qaydaya salan sənaye müəssisələrində əmək kollektivləri şuraları yaratmağı nəzərdə tutan əmək kollektivləri haqqında Qanunu bəyəndi. Bununla da hakimiyyət sanki xalqa müraciət edərək onların dəstəyinə arxalanmaq istəyirdi. Lakin praktik olaraq qanunun həyata keçirilməsi istehsalatın işinin pozulmasına və müəssisələrin inzibatı rəhbərliyinin fəaliyyətinin iflic olmasına gətirib çıxardı.

1985-86-cı illər dövlətin fəal sosial siyasət yeritməsilə müşayiət olunmuşdur. Həqiqətən, 1985-ci il mayın 14-də aztəminatlı təqaüdçülər və onların ailə üzvlərinin maddi vəziyyətinin yaxşılaşdırılması tədbirlərinə dair, təkyaşlı vətəndaşlara qayğının artırılması haqqında və Böyük Vətən müharibəsi iştirakçılarına tətbiq edilən güzəştlərin müharibə vaxtı şəhərdə işləyən leninqradlılara

şamil edilməsilə bağlı qətnamə qəbul edildi. Mayın 22-də bəyan edilmiş sənəddə fəhlə, qulluqçu, kolxozçu və onların ailə üzvlərinin təqaüdlə təmin edilməsini yaxşılaşdırmaq nəzərdə tutulmuşdur. 1986-cı ilin yanvarında hərbçi uşaqlarına, tək analara, dul qadınlara verilən müavinatın həcmi artırıldı. 1986-cı ilin mayında kənd yerlərində daimi yaşayan sakinlərin təqaüdü artırıldı, sentyabrda Böyük Vətən müharibəsi iştirakçıları, həlak olan döyüşçülərin ailələri üçün əlavə güzəştlər verildi.

1985-ci ilin mayında sənayedəki elmi işçi, konstruktor və texnoloqların əməkhaqqı qaydasının təkmilləşdirilməsi, iyulda aqrar bölmədə çalışan bəzi işçi kateqoriyalarının maddi marağının artırılması haqqında qərarlar qəbul edildi. 1985-ci il dekabrın 12-də qəbul olunan qərarla ustaların, sex və sahə rəislərinin maddi həvəsləndirilməsi təkmilləşdirildi.

Məktəb, uşaq bağçası, xəstəxana, poliklinikaların tikintisində əsaslı dəyişiklik nəzərdə tutulurdu. Bağçılıq və bostançılığın genişləndirilməsi məqsədilə xüsusi qərar qəbul edilmişdir. «Mənzil-2000» proqramına əsasən hər bir ailənin 2000-ci ildə ayrı mənzildə, yaxud xüsusi evdə yaşamağı nəzərdə tutulmuşdur.

Sosial siyasət sahəsindəki bu tədbirlər yığılıb qalan problemlərin təcili həlli ümidilə «inqilabi gözləmə» adını almışdır. İlk vaxtlar elə təəssürat yaranmışdır ki, nəzərdə tutulanları yerinə yetirməyə yeni rəhbərliyin siyasi iradəsi çatacaq. Lakin 1989-1990-cı illərdə aydın oldu ki, vəd olunanların böyük əksəriyyətini yerinə yetirmək mümkün olmamışdır.

Sosial proqramların həyata keçirilməsi böyük həcmdə vəsait tələb edirdi. Əlverişsiz beynəlxalq şəraitlə bağlı olaraq dövlətin vəsaiti əhəmiyyətli dərəcədə azalmışdır. 1985-ci ildə neftin qiymətinin kəskin aşağı düşməsi nəticəsində dövlətin büdcəsi milyardlarla vəsaitdən məhrum olmuşdur. Başqa bir tərəfdən islahatın ağır sənayedən deyil, kənd təsərrüfatı və yüngül sənayedən başlanması ölkədə sosial sabitliyin və əsaslı dəyişikliyin uğuru üçün möhkəm siyasi şəraiti təmin edərdi.

1986-cı ilin yazından başlayaraq məlum oldu ki, sürətləndirmə kursu səmərəsizdir və ciddi iqtisadi dəyişikliklər olmadan vəziyyəti xilas etmək mümkün deyildir. Ölkənin dövlət büdcəsinin kəsiri 1985-ci illə müqayisədə üç dəfə artdı. SSRİ-nin xarici dövlət borcu 1985-ci ildəki 27,2 milyard dollardan artaraq 1986-cı ildə 39,4 milyard dollara çatdı. 1986-cı ilin yayından partiya sənədlərində «sürətləndirmə» termini itdi, daha çox «yenidənqurma» siyasəti önə çıxdı. «Sürətləndirmə» xəttinin boşa çıxması, ilk növbədə, ölkənin dövlət büdcəsinə əhəmiyyətli qatqısı olan neft və neft məhsullarının qiymətinin dünya bazarında aşağı düşməsi ilə əlaqədardır. 1985-1986-cı illərdə neftin qiyməti üç dəfə ucuzlaşaraq bir barrel üçün 27 dollardan 10 dollara düşmüşdür.

Büdcəyə daxil olan neft dollarlarının xarici istiqrazlarla əvəz edilməsi Sovet İttifaqını borc bataqlığına sürüklədi. 1990-cı ilə doğru SSRİ-nin borcu 57,6 milyard dollara çatırdı. Borcların faizi ilə birlikdə ödənməsi zərurəti isə iqtisadiyyata ağır yük idi.

Yuxarıda da qeyd etdiyimiz kimi, antialkoqol kampaniyası üzüm bağlarının 30%-ə qədərinin kəsilməsinə, dövlət büdcəsinin isə ildə 40-50 milyard rubl itirməsinə gətirib çıxardı. Gizli olaraq araqçəkmə geniş yayıldığına görə mağazalardan şəkər, ucuz konfetlər və s. yoxa çıxdı. Bayram, toy şənlikləri və yas mərasimində spirtli içki əldə etmək məqsədilə mağazaların önündə adamların uzun növbələri əmələ gəldi ki, bu da ölkə əhalisini son dərəcə qıcıqlandırırdı.

Planı yerinə yetirmək məqsədilə kölgə iqtisadiyyatından müəssisə və regionlar arasında mal mübadiləsindən istifadə etməyə alışan müəssisə rəhbərləri normativ prinsiplərin pozulmasının ciddi təqibindən ehtiyat edərək normadan artıq fondların inkişaf etdirilməsinə marağı dayandırdılar. Bu isə normadan artıq fondların tədricən yox olması demək idi. 1986-cı ildə isə onların qiyməti 80 milyard rubl təşkil edirdi.

1986-cı il aprelin 26-da Çernobıl AES-də baş verən qəza ölkənin dövlət büdcəsinə ağır zərbə vurdu. Bu qəzanın özü birbaşa sürətləndirmə siyasətinin nəticəsində yaranmışdı. Belə ki, atom elektrik stansiyasının əməkdaşları reaktorların məhsuldarlığını artırmaqla qəza törətdilər. M.S.Qorbaçov hakimiyyəti faciənin miqyasını tez bir zamanda elan etmədiyi üçün on milyonlarla adam bundan ziyan çəkdi. Partlayışın reaktiv buludu Şərqi Slavyan torpaqları Ukrayna, Belorusiya, Rusiyanın bir çox rayonlarının zərər görməsinə səbəb oldu. 10,9 mln. hektar yararlı kənd təsərrüfatı əkin sahəsi radioaktiv çirklənməyə məruz qaldı. SSRİ-nin əraziləri ilə yanaşı, Rumıniya, Polşa, Bolqarıstan, Yuqoslaviya, hətta Kanada belə radioaktiv çirklənmədən öz nəsibini aldılar. Sovet İttifaqının partiya və dövlət rəhbərliyi adamların 1 may bayramını «korlamamaq» niyyəti ilə faciənin miqyası barədə susmağa üstünlük verdi. Təkcə 1986-cı ildə qəzanın ləğv edilməsi ölkəyə 14 milyard rubla başa gəlmişdir. Bütün bunların nəticəsində sürətləndirmə xətti uğursuzluqla nəticələndi. Ölkənin iqtisadiyyatında yaranmış əlverişsiz vəziyyət M.S.Qorbaçov hakimiyyətini yeni yollar axtarıb tapmağa məcbur etdi. Cəmiyyətdə mövcud iqtisadi sistemdə islahatlar aparılmasının yolları haqqında geniş müzakirələr açıldı. Müzakirələrdə görkəmli alimlər L.İ.Abalkin, O.T.Boqomolov, T.İ.Zaslavskaya, N.Y.Petrakov, R.A.Belousov, Q.A.Yavlinski, Q.X.Popov, S.S.Şatalin və b. iştirak edirdi. Müzakirələrin gedişində ictimai-iqtisadi, sosial və mədəni inkişaf məsələlərini yenidənqurma konteksində həll etməyin zəruriliyi irəli sürüldü. İqtisadiyyat sahəsində yenidənqurma dövlət müəssisələrinin müstəqilliyini

və bazar münasibətlərinin elementlərini artırmağı nəzərdə tuturdu. Hesab edilirdi ki, yenidənqurma islahatı müəssisələrin yeni texnologiyasının tədbiqinə maraq oyadaraq, əmək məhsuldarlığının artırılmasına stimulu təmin edərək, kölgə iqtisadiyyatını leqallaşdıraraq ona dövlətin müəyyən etdiyi çərçivədə fəaliyyət göstərməyə imkan yaradacaq. Bu məqsədlə 1987-ci il iyunun 30-da «Dövlət müəssisələri (birlikləri) haqqında Qanun» qəbul edildi. Qanun müəssisələri idarə etməyin yeni prinsipləri olan təsərrüfat hesabını və özünümaliyyələşdirməni elan etdi. Belə ki, əvvəllər yuxarının müəyyən etdiyi plan tapşırıqlarının yerinə yetirilməsi müəssisənin əsas göstəricisi olduğu halda Qanun müəssisələrə müvafiq nazirliyin təklif etdiyi planın göstəricilərin «üfüqi» əlaqə saxladığı müəssisələrin sifarişin nəzərə almaqla müstəqil yerinə yetirib istehlakçıya çatdıra bilmək hüququ verirdi. Yəni müəssisənin maraqları və müstəqilliyi ön plana keçir, hətta xarici firmalarla belə, onlar birbaşa əlaqəyə girə bilərdi.

Əsl həqiqətdə isə mərkəzi nazirliklər bürokratiyası öz mövqeyindən və əvvəlki vərdişlərindən əl çəkmək istəmirdilər. Dövlət sənayenin əsas sifarişçisi olduğu üçün müəssisələrin əsas istehsal məhsulu onun payına düşür, müəssisələr üçün isə məhdud kommersiya imkanları qalırdı. Məhsulun qiymətinin və verginin müəyyən edilməsi dövlətə məxsus olduğundan nazirliklər müəssisələrin gəlirinin qaymağın toplayaraq sözdə müəssisələrin maliyyə müstəqilliyindən ağızdolusu danışırdılar.

Başqa bir tərəfdən müəssisələr istehsal etdikləri məhsulu sata biləcəkləri topdansatış bazarları olmadığı üçün bağladıqları müqavilə şərtlərini yerinə yetirməkdə çətinlik çəkirdilər. Mərkəzləşmiş qaydada dövlət sifarişin yerinə yetirənlər isə daha əlverişli vəziyyətdə idilər, çünki onlar hazır məhsul üçün bazar axtarıb tapmağa məcbur deyildilər. Belə bir şəraitdə müəssisələrin «özünüidarə», «özünümaliyyələşdirmə» hay-küyünə baxmayaraq işçilər başa düşürdü ki, bütün qərarlar yenə də bürokratik mərkəzdən və ya sonradan elan edilən «antiyenidənqurma qüvvələri»ndən daxil olur. Əvvəlki idarəetmə strukturunun ciddi himayəsi altında olan müəssisələr özünümaliyyələşdirmə prinsipinin elan edilməsinə baxmayaraq, dövlətdən çox böyük subsidiyalar alaraq bankrot olmaqdan və şişən şəxsi heyətin işdən azad olmasından xilas olurdular. Ümumən iqtisadi islahatlarla bağlı nazirlik və başqa idarəetmə orqanlarının yenidən qurulması nəticəsində altı il müddətində bir milyona kimi qulluqçu sənaye sahələrindən ixtisar edilmişdi.

İqtisadi islahatın mühüm tərkib hissəsindən biri xüsusi təşəbbüsün fəaliyyət dairəsinin genişləndirilməsindən ibarətdir. 1986-cı il noyabrın 19-da qəbul edilən, 1988-ci il mayın 26-da əlavələr olunan qanunla 30-dan artıq istehsal

məhsulu və xidmət sahəsi üzrə xüsusi fəaliyyət leqallaşdırıldı. Öz işini açmaq istəyən hər bir şəxs qeydiyyatdan keçməli və çox yüksək – 65%-ə çatan vergi ödəməli idi. 1991-ci ilin yazına olan məlumata əsasən iş qabiliyyəti olan, ölkə əhalisinin 5%-ni təşkil edən 7 mln. nəfərdən çox adam sürətlə artan kooperativ bölməsində çalışırdı. Bundan başqa, 1 mln. adam fərdi əmək fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyat icazəsi almışdır. M.S.Qorbaçov hakimiyyətinin yenidənqurma dövründə xüsusi təşəbbüskarlığı müdafiə vədlərinə baxmayaraq, yerli hakimiyyət orqanları müxtəlif vasitələrlə kooperativlərin fəaliyyətini məhdudlaşdırırdı. Sovet adamlarının böyük əksəriyyəti siyasət və ideologiya sahəsində azadlıqları təqdir etdikləri halda sahibkarlıq fəaliyyətinə şübhə ilə yanaşırdılar. Birdən-birə islahat nəticəsində dövlət, müqavilə, kooperativ və qara bazar qiymətləri ilə üzləşən sovet adamı iqtisadi azadlıqları özlərinin həyat səviyyəsinin düşməsi səbəbi kimi görməyə başladılar. Onlar qiymətlərin sabit dövlət təminatına üstünlük verərək sahibkarlarla iş birliyindən qaçırdılar.

Əhalinin belə əhvali-ruhiyyəsi hökumətin kənd təsərrüfatı sahəsində xüsusi təşəbbüskarlığı yaymasına da mane olurdu. 1988-ci ildə rəsmən qəbul edilən «icarə müqaviləsi»nə əsasən, bir və ya bir neçə ailə torpağı 50 il müddətinə kimi icarəyə götürərək becərdiyi məhsulun tam sahibi olurdu. Həm də 1988-ci ilin martında kolxozlara dair qəbul edilən yeni əsasnamədə elan edildi ki, şəxsi təsərrüfatlarda fərdi əkin sahələrinin həcmini və mal-qaranın sayını hər bir kolxozun kollektivi «onun üzvlərinin ümumi əməkdə iştirakından asılı olaraq» müəyyən edir. Lakin əsl həqiqətdə isə bu tədbirlər simvolik səciyyə daşıyırdı. Belə ki, kooperativ təşkilatlara çevrilməsi nəzərdə tutulan kolxozlar əsl müstəqillik əldə edə bilməyərək, yenə rayon hakimiyyətinin nəzarətində qalıb dövlətə təhvil verilən məhsulun miqdarı, şəxsi sahələrin həcmi və s. onlar tərəfindən müəyyən edilirdi. Ölkədə icarə hərəkatı geniş yayılmadı, 1991-ci ilin yayına doğru torpaqların yalnız 2%-i, mal-qaranın isə 3%-i icarədarlara məxsus idi. Azad surətdə torpağı icarəyə götürərək əkib-biçməyin kəndlilər arasında geniş yayılmamasının əsl səbəbi o idi ki, onlar kənd təsərrüfatının texnikasından və kolxozların başqa infrastrukturlarından məhrum olduqları üçün istehsal etdikləri məhsulu hazır vəziyyətdə gətirib sata bilmirdilər. Odur ki, sahibkarlıq kəndlilər arasında ləng inkişaf edir, onların ən fəalları isə şəhərlərə üz tuturdu. Nəhayət, kənddə yaşayan əhalinin böyük əksəriyyəti keçmiş illərin acı təcrübəsindən, «yeni qolçomaqların» meydana gəlməsindən ehtiyat edirdilər. Kənd əhalisi kolxozlardan çıxıb fermer təsərrüfatı yaratmaq hüququ almasına baxmayaraq, lakin onlar bundan istifadə etməyə tələsmirdilər. Fermerlərə torpaqları kolxoz rəhbərləri və yerli hakimiyyətin nümayəndələri icarə haqqında müqavilə əsasında ayırırdı.

Fermerlər çox halda əlverişsiz əkin sahələri ilə təmin olunur, onlara texniki və gübrə almağa maneəçilik törədilirdi. Fermerlərə arzuolunmaz rəqib kimi öz həmkəndliləri də düşməncəsinə yanaşırdı.

Yekunda M.S.Qorbaçovun elan etdiyi islahat ondan gözlənilən nəticəni vermədi. 1988-ci ildə aqrar, 1990-cı ildən isə sənaye istehsalı azaldı. Ölkənin istehsal sahəsində ümumi milli gəlir 11% aşağı düşdü. 1989-cu ilə doğru büdcə kəsiri 10% təşkil edirdi. SSRİ-nin daxili və xarici dövlət borcu ümumi milli gəlirin üçdə iki hissəsinə çatdı. Planlı iqtisadiyyatın mövcud olduğu tarixdə ilk dəfə olaraq rəsmi aşağı çəkilərək il ərzində pulun 2-4%-nin dəyərdən düşdüyü, yəni inflyasiyaya uğradığı elan olundu. Əsl həqiqət odur ki, əvvəldən iqtisadi islahat konsepsiyası bir tam olaraq alınmadı. Bir çox partiya rəhbəri və ideoloqu əmin idi ki, dəyişikliklər əks-inqilabi xarakter daşıyır, «real sosializm»in prinsiplərinə ziddir və onun naliyyətlərini itirir. Onlar onilliklər boyu «ölməkdə» və «çürüməkdə» olan kapitalizmlə birlikdə adı çəkilən «bazar», «gəlir», «sahibkarlıq» terminlərindən müsbət mənada bəhs edilmədən qəzəblənirdi. Nəticədə, icazə verilən təsərrüfat təşəbbüskarlığı məhdudlaşdırılır və ona görə də müəssisələrin real müstəqilliyi təmin olunmurdu. Dövlət sifarişi məhsuluna qiymət əvvəllər olduğu kimi yuxarı orqanlar tərəfindən diqtə edilirdi. Sözün əsl mənasında, müəssislərin təsərrüfat müstəqilliyi, təşəbbüskarlığı təmin edilməmişdi, müəssislərin idarə olunmasında mərkəzçilik, amirlik metodları üstünlük təşkil edirdi. Qiymət, kredit, gəlir kimi iqtisadi amillər vasitəsilə stimullaşdırma ləng həyata keçirilirdi.

Xarici investisiyaya bəslənən ümidlər də özünü doğrultmadı. SSRİ-yə borc istiqrazları verilsə də, 1920-ci illərdə olduğu kimi Qərb sabit olmayan sovet iqtisadiyyatına vəsait qoymaq istəmirdi. Arxasında istehlak malları durmayan çoxlu pul kütləsi əhalinin əlində qalmışdır ki, bu da yerlərdə təsərrüfat siyasətini daha da kəskinləşdirirdi. Əmək kollektivlərinin seçdiyi və yuxarıdan nəzarət edilən müəssisə rəhbərləri çıxılmaz vəziyyətdə idi. Onların çoxu əməkhaqqı və sosial məqsədlər üçün vəsaiti artırmaq vədləri sayəsində rəhbər seçilmişdilər. Çox halda bu vədlər istehsalın inkişafı investisiyası üçün ayrılan vəsaiti və əsas fondların xərcləri hesabına yerinə yetirilirdi. 1989-cu ildə isə əməkhaqqı fonduna gəlir vergisi tətbiq edilməklə buna son qoyuldu. Ancaq müəssisə rəhbərləri vəziyyətdən çıxış yolu kimi öz işçilərinə dövlət vəsaiti qeydiyyatında olmayan kölgə iqtisadiyyatından əlavə əməkhaqqı ayırırdı. Belə ki, kölgə bazarlarının yalnız bir hissəsi leqallaşdığına görə onlar fəaliyyət göstərməkdə davam edirdi. Müəssislər məhdud iqtisadi müstəqillik alsa da, ölkədə əsas fondların azad bazar ticarəti infrastrukturu formalaşmamışdır. Kortəbii yaranan məhsul birjalarının fəaliyyətini tənzimləyən

və onlara dövlət nəzarətini təmin edən qanunlar yox idi. Ara strukturlarına isə çox halda kriminallar nəzarət edirdi. Müəssislər dövlət mülkiyyəti olaraq qalırdı və çıxılmaz vəziyyətdə dövlətin köməyinə arxalana bilərdi.

Ölkədə tam məsuliyyətsizlik və islahatın davam etdirilməsinə heç bir təminat olmadığı üçün bir çox müəssisə rəhbərləri yaranmış qarışıqlıqdan şəxsi varlanmaq məqsədilə istifadə edirdi. Müəssisələrin gəliri direktorluq tərəfindən yaradılmış kooperativlərin hesabına köçürülürdü ki, burada da real məhsul istehsalı ilə deyil, aztapılan malların və istehsal fondlarının ticarəti ilə məşğul olurdular. Kooperativ məhsulları adı ilə kütləvi tələbat malları alınıb satılırdı. Qiymətlər sürətlə artır, pul dəyərdən düşürdü. Yeni texnikanın tədbiqi və əmək məhsuldarlığının artırılmasına maraq isə durduğu yerdə sayırdı. Bir sözlə, köhnə inzibati idarəçilik sistemi dağıdılmış, yeni bazar ağırlıqlı sistem isə M.S.Qorbaçov hakimiyyətinin qətiyyətsizliyi üzündən yaradılmamışdır. 1989-1990-cı illərdə SSRİ-nin iqtisadi vəziyyəti sürətlə ağırlaşmaqda davam edirdi. Yerli əhalini başqa şəhərlərin alıcılarından qorumaq məqsədilə istehlakçı kartoçkaları tətbiq edildi. 1991-ci ildə Moskvada şəkər, tütün və arağı yalnız talonla almaq olardı.

1990-cı ildə N.İ.Rıjkov hökuməti akademik L.İ.Abalkinin rəhbərliyi ilə bir qrup alimin hazırladığı böhrandan çıxmaq proqramını təklif etdi. Proqrama görə 1991-1992-ci illər ərzində üç mərhələdə tədricən bazar iqtisadiyyatına keçmək nəzərdə tutulurdu. Proqramın müəllifləri bazar iqtisadiyyatına keçməyin əsas şərti olaraq iqtisadi sabitləşməni nəzərdə tuturdular. Proqramın çatışmayan cəhəti ondan ibarət idi ki, bazar elementlərinə tədricən mövcud dövlət mexanizminin nəzarəti ilə keçilirdi. Lakin məhz bu cəhət iqtisadiyyatı dağılmaq həddinə salmışdır.

N.İ.Rıjkov-L.İ.Abalkin proqramı ilə yanaşı bir qrup iqtisadçı akademik S.S.Şatalin və Q.A.Yavlinskinin rəhbərliyi ilə «500 gün» proqramını hazırladı. Bu müddətdə ölkə iqtisadiyyatını əsaslı surətdə yenidən quraraq dövlət əmlakını özəlləşdirib, dövlətin qiymət siyasətindən imtina edilməli idi. Hər iki proqramı birləşdirmək mümkün olmadı. 1990-cı ilin martında SSRİ-nin Prezidenti seçilən M.S.Qorbaçov həmin ilin oktyabrında N.Rıjkov-L.Abalkin proqramını müdafiə edərək akademik S.S.Şatalin və Q.A.Yavlinskinin proqramını rədd etdi. Əsas səbəb isə siyasi faktorlarla bağlı idi. Belə ki, «500 gün» proqramını B.N.Yeltsinin başçılıq etdiyi Rusiya rəhbərliyi müdafiə edirdi, onlar isə M.S.Qorbaçov başda olmaqla İttifaq mərkəzi ilə münaqişə aparırdılar. Həm də bu proqram mərkəzlə respublikalar arasında səlahiyyətlərin yenidən bölünməsini tələb edirdi ki, buna da M.Qorbaçov razı ola bilməzdi. Rusiya parlamenti «500 gün» proqramını, SSRİ Ali Soveti akademik L.İ.Abalkinin

başçılığı altında hazırlanan «Əsas istiqamət» adlı bazar islahatı planını qəbul etdi. Nəticədə ittifaq və respublika hakimiyyəti orqanları arasında qarşıdurma kəskin xarakter alaraq iqtisadi islahatın qarşısının alınmasına yönəldi. İttifaqın baş naziri N.İ.Rıjkov əvvəlki illərdəki iqtisadi uğursuzluğa görə amansız tənqid edilərək, qətiyyətsizlikdə, bazar iqtisadiyyatına keçmək arzusunun olmamasında ittiham olundu. 1990-cı ilin dekabrının sonunda onun infarkt keçirməsi baş nazir N.İ.Rıjkovun istefası ilə nəticələndi.

Hökumətə 1991-ci ilin yanvarın 11-dən başçılıq edən V.S.Pavlov pul islahatı keçirərək 100 və 50 rublları yeniləri ilə əvəz etdi. Üç gün ərzində dəyişdirilməsi nəzərdə tutulan məbləğ çox məhdud idi. Formal olaraq bu kampaniya kölgə işbazlarına qarşı yönəlsə də, praktik olaraq yalnız mövcud artıq pul kütləsinin 5%-i toplana bildi. Lakin pul islahatı iqtisadiyyatı düzəltmək əvəzinə əhalinin narazılığını daha da artırdı. 1991-ci ildə V.S.Pavlov hökuməti ticarət, nəqliyyat, məişət xidməti sahəsindəki dövlət qiymətlərini iki dəfə artırdı. Qiymətlərin mexaniki artımı iqtisadiyyatı sağlamlaşdırmaq yerinə gizli davam edən inflyasiyanı daha da dərinləşdirdi. Dövlət büdcəsi kəsirinin həcmi və işsizlərin sayı daha da artdı. Rəsmi məlumata əsasən, 1990-cı ilin əvvəllərində SSRİ-də 6 mln. nəfər işsiz var idi.

## §2. İctimai-siyasi vəziyyət

M.S.Qorbaçov və onun yaxın ətrafının iqtisadi islahatlar sahəsindəki uğursuzluğu yeni siyasi anlayışların «aşkarlıq», «plüralizm» və s. irəli sürülməsi ilə nəticələndi. Aşkarlıq o demək idi ki, ölkə rəhbərliyi bundan sonra xalqdan heç bir şeyi gizlətməməlidir. Plüralizm isə tənqidetmə azadlığını elan edirdi. 1986-cı il fevralın 25-dən martın 6-dək davam edən Sov.İKP -nin XXVII qurultayında M.S.Qorbaçov yeni ideya olaraq aşkarlığı elan etməklə bərabər partiya və sovet orqanlarının əvəzçilik yolu ilə birləşdirilməsinin yolverilməz olduğunu bildirdi. Qurultaydan sonra M.Qorbaçov və onun komandası partiya və dövlət aparatı heyətinin ciddi müqaviməti ilə üzləşdi. Yenidənqurma və aşkarlığın elan edilməsi partiya aparatının təmizlənməsi, kadrların əvəzlənməsi və M.Qorbaçovun yeni komandasının möhkəmlənməsi üçün şərait yaratdı. Birinci növbədə əvvəlki Brejnev hakimiyyəti ilə bağlı olan kadrlar partiya və dövlət vəzifələrindən uzaqlaşdırıldı. 1985-ci ilin iyulunda Q.Romanov, oktyabrıda N.Tixonov, 1986-cı ilin fevralında V.Qrişin, 1987-ci ilin yanvarında D.Kunayev, 1987-ci ilin oktyabrında H.Ə.Əliyev, 1988-ci ilin sentyabrında M.Solomentsev, A.Qromıko tutduqları yüksək partiya və dövlət rəhbərliyindən kənar edildi. Bu

uzun illər təcrübə toplayan, partiya və dövlət xadimləri M.S.Qorbaçov komandasının yeni üzvləri N.Rıjkov, E.Şevardnadze, V.Çebrikov, A.Yakovlev və b. əvəz olundu. 1985-ci ilin sentyabrında N.Rıjkov SSRİ Nazirlər Soveti sədri vəzifəsində L.Brejnevin məsləkdaşı N.Tixonovu əvəz etdi. E.Şevarnadze isə SSRİ xarici işlər naziri təyin olundu. 1987-ci ilin əvvəlinə doğru Siyasi Büro üzvlərinin 70, Sov.İKP MK üzvlərinin 40, vilayət partiya təşkilat katiblərinin 60%-i dəyişdirildi. 1986-1988-ci illərdə şəhər və rayon partiya komitəsi katiblərinin 70%-i işdən çıxarıldı. 1985-ci ilə kimi SSRİ Nazirlər Sovetinin vəzifəyə təyin edilmiş 115 nəfər işçisindən 1989-cu ildə yalnız 10 nəfəri qalmışdı. 1986-cı ilin fevralında Sov.İKP Moskva Şəhər Komitəsinin birinci katibi V.Qrişin vəzifəsindən azad edilərək onun yerinə Sverdlovsk (Yekaterinburq) Şəhər Partiya Komitəsinin birinci katibi B.N.Yeltsin seçildi. Demək olar ki, yeni Baş katib M.S.Qorbaçov bir il ərzində əvvəlki hakimiyyətin dayağı olan bütün partiya aparatı işçilərini dəyişdi. 1985-1987-ci illərdəki dəyişikliklər yerli partokratların ciddi müqaviməti ilə qarşılaşdı ki, onların da ideya rəhbəri «Brejnev» qvardiyasının mühafizəkar qanadını təmsil edənlərdən Siyasi Büronun üzvü Y.K.Liqaçov idi. Yerli partiya başçıları aşkarlıq şəraitində öz imtiyaz və toxunulmazlıqlarını itirməkdən qorxurdular. Partiya və dövlər aparatının mühafizəkar hissəsinin müqaviməti M.S.Qorbaçovu təhrik etdi ki, aşağılarda, xüsusilə ziyalılar arasında müdafiəçilər axtarsın.

1986-cı ildə aşkarlığın ilk əlamətləri görünməyə başladı, ictimai həyatda səs salan T.E.Abuladzenin «Tövbə» («Покаяние») filmi göstərildi. Filmin nümayişi göstərdi ki, kinemotoqrafçılar cəmiyyəti vətən tarixinin mühüm hadisələrini yenidən dərindən dərk edib təhlil etməyə hazırdırlar. Əvvəllər təxirə salınmış yüzdən çox film tamaşaçıya çatdırıldı. Onlar A.A.Tarkovski, A.Y.German, A.S.Mixalkov-Konçalovski və başqa rejissorların işləri ilə tanış olmaq imkanı qazandılar. 1985-1991-ci illərdə sənədli filmlər kinoda öz yerini aldı. S.S.Qovoruxinin «Belə yaşamaq olmaz» («Так жить нельзя»), Y.B.Podniyeksin «Gənc olmaq asandırmı» («Легко ли быть молодым») yarımsənədli filmləri klassik əsərlər sırasına daxil olmuşdur. Başqa incəsənət sahəsi ilə müqayisədə kinemotoqrafçılar birinci olaraq yeni kommersiya hadisəsi ilə qarşılaşdı ki, bu da onların bədii yaradıcılığına əhəmiyyətli təsir göstərdi.

Kütləvi informasiya vasitələrində «dissident», «fərqli düşünən» terminləri yoxa çıxdı, akademik A.D.Saxarov 1986-cı ilin dekabrında Qorkidəki sürgündən qayıtdı. E.V.Yakovlevin baş redaktoru olduğu «Московские новости», V.A.Korotiçin baş redaktoru olduğu «Огонек» jurnallarının səhifələrində kəskin publisist yazılar dərc olunmağa başlandı. Ölkədəki problemlərdən bəhs edən yazılara üstünlük verdiyindən «Московские новости», «Огонек»,

«Literaturnaya qazeta» nəşrləri xalq arasında geniş şöhrət qazanmışdır və onların çapı 5 mln. nüsxəyə çatırdı. 1989-cu ildə «Аргументы и Факты» qəzetinin nəşri 30 mln. nüsxəyə çataraq, Ginnesin rekordlar kitabına belə düşdü. Mərkəzi televiziyanın iş forması dəyişmişdir. Əvvəllər istifadə edilməyən «bir-başa efir» janrı tamaşaçıların rəğbətini qazanmışdı. «Baxış» («Взгляд»), «Gecə yarısından əvvəl və sonra» («До и после полуночи»), «Beşinci çarx» («Пятое колесо») verilişləri geniş tamaşaçı auditoriyası toplamışdır. Bu verilişlərin aparıcıları vətəndaşlar arasında şöhrət qazanaraq rus siyasətinin aparıcı simalarına çevrilmişdir. 1990-cı ildə «Mətbuata dair» Qanun çıxdıqdan sonra daha çox müstəqil kütləvi informasiya vasitələrinin meydana gəlməsinə şərait yaranmışdır. Əgər əvvəllər kütləvi informasiya vasitələri mərkəzdə təsdiq edilmiş bir rəsmi mövqedən çıxış etmək imkanına malik idisə, aşkarlıq şəraitində onlar cəmiyyətdə mövcud olan çoxtərəfli maraqları nəzərə almaqla siyasi plüralizmə geniş yer vermək şəraiti əldə etdilər. Stalinin şəxsiyyətinə pərəstişin səbəbləri və nəticələri, kütləvi repressiyalar, cəmiyyətin mərkəzləşmiş idarəetmə sisteminin yaranması, 1970-ci illərdə və 1980-ci illərin birinci yarısında ölkənin iqtisadi və elmi-texniki inkişafının dayanması kimi məsələlər aşkarlıq şəraitində yeni düşüncə tərzi ilə işıqlandırıldı və öz haqlı qiymətini aldı. 1987-ci ildə siyasi repressiya qurbanlarının əfv edilməsi üzrə Sov.İKP MK-nın katibləri əvvəlcə M.S.Solomentsevin, sonra isə yenidənqurmanın ardıcıl tərəfdarlarından biri olan A.N.Yakovlevin sədrliyi ilə komissiya yaradıldı. Komissiyanın təşəbbüsü ilə 1930-1950-ci illərdəki siyasi repressiya qurbanlarına hətta «mülayimləşmə» dövründə olduğundan da çox geniş əfv kampaniyası başlandı. İ.V.Stalin rejiminin müxalifət liderləri L.B.Kamenev, Q.E.Zinovyev, N.İ.Buxarin, A.İ.Rıkov və b. bəraət qazandı. Əvvəllər çap edilməsinə qadağan qoyulan arxiv sənədləri nəşr edilərək sovet tarixinin qaranlıq səhifələrinə işıq saldı. Böyük Vətən müharibəsi ərəfəsində Molotov-Ribbentrop paktı kimi tanınan sovet-alman müqaviləsi nəşr edilərək işıq üzü gördü. N.İ.Buxarin və L.D.Trotskinin əsərləri çap olundu.

1987-ci ilin yanvarında Sov.İKP MK-nın plenumunda M.Qorbaçov bəyan etdi ki, yenidənqurma yalnız demokratiya əsasında mümkündür, odur ki aşkarlığı genişləndirmək lazımdır. Yanvar plenumundan sonra mətbuatdakı tənqidi məqalələr daha kəskin xarakter aldı. Mühacirətə və repressiyaya məruz qalan yazıçılar D.S.Merejkovski, V.V.Nabokov, V.F.Xodaseviç, A.P.Platonov, B.A.Pilnyak, V.A.Şalamov və b. əsərləri çap edilərək sovet oxucusuna çatdırıldı. 1987-1988-ci illərdə stalinizm və sovet rejimini amansız tənqid etdiyi üçün senzura tərəfindən nəşri qadağan edilən əsərlər, o cümlədən D.A.Qraninin «Zubr», V.D.Dudintsevin «Ağ paltar» («Белое платье»), A.N.Rıbakovun

«Arbat uşaqları» («Дети Арбата») romanları işıq üzü görərək çap edildi. A.A.Axmatovanın «Rekviyem», M.F.Şatrovun «Brest sülhü» («Брестский мир»), E.İ.Zamyatinin «Biz» («Мы»), V.S.Qrossmanın «Həyatlar və talelər» («Жизнь и судьба») və b. əsərlər nəşr olundu. Mühacirətdə olan bir çox şair, yazıçı və ziyalı Rusiyaya qayıtdı. Bu əsərlər «aşkarlığın lokomativi» kimi totalitarizmi ifşa etməyin təqibi qorxusundan azad olmağa kömək etdi. Cəmiyyət tədricən tarixinin «ağ ləkələrin»dən azad olmaq zərurətini dərk etməyə başladı. Yeni şəraitdə köhnə yanaşma metodu yararsız olduğundan 1988-ci ildə məktəblərdə tarix imtahanları ləğv edildi.

1988-ci ilin martında «Sovetskaya Rossiya» qəzetində Leninqraddan olan müəllimə N.A.Andreyeva «Prinsiplərimdə güzəştə gedə bilmərəm» («Не могу поступиться принципами») məqaləsini dərc etdirdi. Məqalənin müəllifi yenidənqurmanın liderlərini sinfi yanaşmanı itirdikləri üçün tənqid edirdi, İ.V.Stalini isə tərifləyirdi. N.Andreyevanın məqaləsi çox güman ki, Siyasi Büroda ideoloji məsələlərə rəhbərlik edən MK-nın katibi Y.K.Liqaçovun tapşırığı ilə çoxlu yerli qəzetlərdə çap edilərək yayıldı. Yalnız bir həftədən sonra M.Qorbaçov xarici səfərdən qayıtdıqdan sonra «Pravda» qəzeti Siyasi Büronun üzvü A.N.Yakovlevin hazırladığı «Yenidənqurmanın prinsipləri: fikrin və hərəkətin inqilabçılığı» («Принципы перестройки: революционное мышление и действия») məqaləsini dərc etdi. N.Andreyevanın məqaləsi «antiyenidənqurma qüvvələrinin manifesti» adlandırıldı. Kütləvi informasiya vasitələri İ.Stalinin ifşa edilməsindən bəhs sedən məqalələri daha çox çap etməyə başladılar. Hətta V.İ.Leninin ünvanına belə əvvəllər ağlagəlməyən tənqidlər səslənməyə başlandı. Xüsusilə silahlı üsyanın ilk illərində Bolşeviklər Partiyasının qırmızı terror, din xadimlərinə və fərqli düşünən ziyalılara qarşı repressiyalar tətbiq etmələri daha çox tənqid olunurdu.

1988-ci il iyunun 28-dən iyulun 11-dək olan XIX Ümumittifaq partiya konfransında yenidənqurmanın tərəfdarları ilə əleyhdarları arasında ölkənin gələcək inkişafı ilə bağlı kəskin fikir mübadiləsi oldu. Konfrans nümayəndələrinin çoxu ölkənin iqtisadi islahatları və cəmiyyətin siyasi sisteminin dəyişdirilməsi ilə bağlı M.S.Qorbaçovun nöqteyi-nəzərini müdafiə etdi. Konfrans ölkədə hüquqi dövlət yaratmaq kursunu təsdiq etdi. Hüquqi dövlətin yaradılmasının əsas yolu isə siyasi islahatların keçirilməsi idi. Siyasi islahatın mahiyyəti isə partiya orqanları və sovetlərin səlahiyyətlərini dəqiq müəyyən edib hakimiyyətin Kommunist partiyasından Sovetlərə keçməsini təmin etməkdən ibarət idi. Əslində konfransın qərarı ilə partiya orqanları dövlət funksiyasını yerinə yetirməkdən məhrum edilir, respublikaların hüquqları genişləndirilirdi. Konfransın mühüm yekun qərarı SSRİ xalq deputatları

qurultayının çağırılması oldu. Qurultay 2250 nəfər deputatdan ibarət olmalı, deputatlar isə öz aralarında daimi fəaliyyət göstərən Ali Soveti seçməli idi. Deputatların üçdə iki hissəsi birmandatlı dairələrdən, üçdə biri ictimai təşkilatlardan seçilirdi. Ən çox deputat, yəni 100 nəfər Sov.İKP-ni təmsil edirdi. Onlarla adam komsomol, həmkarlar, Elmlər Akademiyasını, hər biri on nəfərdən ibarət olmaq etibarı ilə böyük yaradıcılıq ittifaqlarını təmsil edirdi. Ölkə tarixində ilk dəfə real səsvermə hüququ əldə edən seçicilər son dərəcə fəallıq göstərərək çox halda mövcud hakimiyyətin əleyhinə səs verirdilər. Odur ki, ərazi dairələri üzrə namizədliyini irəli sürən bir çox paykom və obkom katibləri məğlub oldular. Leninqraddan, bir nəfərdə olsa, partiya rəhbəri deputat seçilə bilmədi. Başqa sözlə, 1989-cu ilin martında keçirilən seçkilər partiya aparatına qarşı öznəməxsus inqilab səciyyəsi daşıyırdı. Seçkilər ərəfəsində Moskvada kütləvi mitinqlər oldu. Moskva dairəsində səslərin demək olar 90%-ni B.N.Yeltsin qazandı. Hələ 1987-ci ildə Moskva Şəhər Partiya Komitəsinin birinci katibi olarkən B.Yeltsin yenidənqurmanın sürətindəki nöqsanları tənqid edərək istefaya göndərilmişdi. Moskva Şəhər Partiya Komitəsinin plenumunda M.Qorbaçov və Y.Liqaçov tərəfindən təşkil edilmiş kampaniyada B.Yeltsin volüntarizmdə, hətta partiyaya arxadan xəncər vurmaqda sərt ittihamlarla üz-üzə qaldı. B.Yeltsin XIX partiya konfransında «siyasi əfv» istəsə də, rədd edildi və SSRİ Dövlət Tikinti Komitəsinin sədri kimi işini davam etdirdi. Bununla Moskva Şəhər Partiya Komitəsinin birinci katibi vəzifəsindən və Siyasi Büro üzvlüyünə namizədlikdən azad edilən B.N.Yeltsinin partiya karyerası başa çatdı, lakin onun qarşısında yeni bir yol, yenidənqurmanın xalq tribunası yolu açıldı.

Yeltsin Boris Nikolayeviç 1931-ci ildə Ural vilayətinin Butka kəndində anadan olub. Ural Politexnik İnstitutunu bitirdikdən sonra tikinti mühəndisi işləyib. Bu işdə onun kütləni böyük işlərə səfərbər etmək, təşkilatçılıq, liderlik bacarığı üzə çıxıb. 32 yaşında olarkən B.Yeltsin nəhəng evtikmə kombinatının başçısı olub. 1968-ci ildə partiya işinə keçərək, 1976-cı ildən Sov.İKP-nin Sverdlovsk vilayət komitəsinin birinci katibi seçilib. 1985-ci ildə mərkəzi partiya-dövlət aparatının yenilənməsi ilə əlaqədar olaraq B.N.Yeltsin Sov.İKP Moskva şəhər komitəsinin birinci katibi seçilib. 1987-ci ildə istefaya göndərildikdən sonra 1989-cu ilin əvvəllərindən B.Yeltsin fəal siyasi mübarizəyə qoşulub.

1989-cu ildə SSRİ xalq deputatları Qurultayına alternativ seçki əsasında keçən seçkilərdə Leninqraddan qurultayın gələcək «demokratik fraksiya» liderləri A.Sobçak, Y.Boldırev, A.Denisov deputat seçildi. İctimai təşkilatlardan deputat seçilənlər arasında A.Saxarov, P.Saqdeyev, P.Buniç, A.Yakovlev,

V.Ginzburq, N.Şmelyov, V.İvanov, S.Averentsev və b. var idi. Ümumən, 2250 deputat seçilmişdi.

1989-cu il mayın 25-də SSRİ xalq deputatlarının I Qurultayı açıldı. Qurultay M.Qorbaçovu SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri, A.Lukyanovu isə onun müavini seçdi. Qurultayda seçilmiş daim fəaliyyət göstərən iki palatadan ibarət parlament – SSRİ Ali Soveti 542 nəfər deputatdan ibarət oldu. Qurultay N.Rıjkovu Nazirlər Sovetinin sədri, E.Smolentsevi Ali Məhkəmənin sədri, A.Suxarevi Baş prokuror, Y.Matveyevi Baş dövlət arbitri təsdiq etdi. Qurultayda gedən siyasi müzakirələrdə radikal əhvali-ruhiyyəli deputatlar N.Rıjkov hökumətinin iqtisadi siyasətini kəskin tənqid edərək sürətlə bazar iqtisadiyyatına keçməyi tələb etdilər. Demokratik istiqamətli deputatlar mövcud hakimiyyətə qarşı müxalifətə keçərək Regionlararası Deputat Qrupunda birləşdilər (МДГ). 1989-cu il iyulun 29-da olan siyasi müxalifətin Regionlararası Deputat Qrupu üzvlərinin birinci ümumi konfransında B.N.Yeltsin, A.D.Saxarov, V.A.Palm, Y.N.Afanasyev, Q.X.Popov qrupun həmsədrləri seçildi. Beləliklə, qurultay M.S.Qorbaçov başda olmaqla yenidənqurma islahatının mötədil və Regionlararası Deputat Qrupunun rəhbərləri akademik A.Saxarov, B.Yeltsin, Y.Afanasyev, Q.Popov, A.Sobçak, Y.Çerniçenko başda olmaqla radikal tərəfdarlarını təsbit etdi.

1989-cu ilin payızında Şərqi Avropa ölkələrində baş verən «dinc» və «məxməri inqilab» demokratik müxalifətin daha qəti addım atması ilə müşayiət olundu. 1989-cu ilin dekabrında 2-ci xalq deputatları qurultayında Regionlararası Deputat Qrupunun üzvləri Sov.İKP-ni «sovet cəmiyyətinin aparıcı və istiqamətverici qüvvəsi, onun siyasi sisteminin nüvəsi» elan edən 1977-ci il Konstitusiyasının 6-cı maddəsini ləğv etməyi tələb etdi. Deputatların bu tələbini bir çox mətbuat orqanı, xüsusilə tətil edən mədənçilər müdafiə etdi. Keçirilən sorğuya əsasən, cəmiyyətdə mövcud ictimai rəyə görə, 50%-dən çox əhalinin bu tələbi müdafiə etməsinə baxmayaraq, qurultay səs çoxluğu ilə onu rədd etdi.

Ölkədə 1989-cu ilin yayından başlayan tətil hərəkatı müxalifətin müttəfiqinə çevrilmişdi. Avqustun 17-də Donbasın mədən və istehsalat birliklərində tətil edən mədənçilərin konfransında regionun tətil komitəsi təsis olundu, onun nizamnamə və əlaqələndirmə şurası meydana gəldi. Donbasla Vorkuta və Karaqanda mədənçiləri fəaliyyətlərini əlaqələndirdilər. Regionlararası deputat qrupunun rəhbərlərindən Q.X.Popov və N.İ.Travkin tətil komitəsinin başçıları ilə əlaqə saxlayaraq fəhlələrin çıxışlarını əlaqələndirirdilər. Bu iş birliyinin əsasını hər iki tərəfin mərkəzi hakimiyyət strukturundan narazılığı təşkil edirdi. «Demokratlar» tətilçilərə nə vaxt, hansı addımı atmalarını göstərməklə əslində mədənçıləri hakimiyyət uğrunda ümumi siyasi mübarizəyə cəlb etmişdilər.

RSFSR xalq deputatları qurultayına seçkilər yaxınlaşırdı. İttifaq rəhbərliyində və qurultayda çoxluq əldə edə bilməyən radikallar Rusiyada qələbə qazanaraq, onun müstəqilliyini elan etməklə mərkəzi hakimiyyətin real gücündən xilas olmaq niyyəti ilə 1990-cı il yanvarın 21-22-də «Demokratik Rusiya» («Демократическая Россия») blokunu yaratdılar. Blokun özəyini Regionlararası Deputat Qrupunun nümayəndələri təşkil edirdi. Onlar öz platformalarına Konstitusiyanın 6-cı maddəsinin ləğv edilməsini, istehsal və dövlət idarələrində partiya orqanlarının işinə xitam verilməsini, Ali Sovetin daimi fəaliyyət göstərən orqana çevrilməsini daxil etmişdilər. Eyni zamanda Moskva Ali Partiya Məktəbinin rektoru V.Şostakovski və elmi kommunizm müəllimi V.Lısenko «Sov.İKP-də Demokratik platforma»nı yaradaraq Sov.İKP-ni parlamenttipli partiyaya çevirmək məqsədi daşıyırdılar.

Demokratik qüvvələrin məqsədyönlü fəaliyyəti, real sosializmin total tənqidi sayəsində partiyanın daxilində ziddiyyətlər getdikcə dərinləşir, onun liderləri hakimiyyətdən və xalqdan uzaqlaşırdı. M.S.Qorbaçovun mövqeyindəki tərəddüdlər onun həm sağdan, həm də soldan tənqidini gücləndirdi. İctimai rəyin sorğusuna əsasən, 1989-cu ilin dekabrında rəyi soruşulanların 52, 1990-cı ilin oktyabrında isə yalnız 21%-i M.Qorbaçovu müdafiə edirdi. Bu isə o demək idi ki, Kommunist Partiyasının və onun lideri M.Qorbaçovun nüfuzu gündən-günə aşağı düşürdü. Cərəyan edən gərginlik Litva Kommunist Partiyasının parçalanmasına səbəb oldu. Litva Kommunist Partiyası MK-nın birinci katibi, A.Brazauskas başda olmaqla kommunistlərin böyük əksəriyyəti Sov.İKP-dən çıxdıqlarını elan etdilər. Azlığı təmsil edən ikinci qrup Sov.İKP platformasında qaldığını bəyan etdi. Belə şəraitdə, M.Qorbaçov təşəbbüsü ələ almağa çalışaraq 1990-cı ilin fevralında Mərkəzi Komitənin Plenumunda 6-cı maddədən imtina etmək haqqında qərarı keçirə bildi. 1990-cı il martın ortalarında 3-cü Xalq deputatları qurultayında SSRİ Konstitusiyasının 6-cı maddəsi ləğv edildi. Ümumxalq səsverməsi ilə deyil, qurultay nümayəndələrinin 60%-nin səsi ilə M.S.Qorbaçov SSRİ-nin ilk və son prezidenti seçildi. Beləliklə, SSRİ-də çoxpartiyalı sistemin əsası qoyuldu. 1990-cı ilin iyulunda Sov.İKP-nin XXVIII qurultayı partiyanın yeni proqramını qəbul edərək onun məqsədinin demokratik sosializm quruculuğu olduğunu elan etdi. Bu əslində M.S.Qorbaçov və onun tərəfdarlarının Qərbi Avropa sosial-demokratları ilə yaxınlaşması demək idi. Lakin Sov.İKP-ni parlament tipli demokratik partiyaya çevirmərk mümkün olmadı. B.N.Yeltsin 1990-cı ildə Sov.İKP sıralarını tərk etdiyini bildirdi. Sov.İKP-nin XXVIII qurultayından sonra bir il ərzində 4 mln. adam Kommunist partiyasının sıralarını tərk etdi. Sov.İKP parçalanması nəticəsində 1990-cı il iyunun 19-da İ.K.Polozkov birinci katib olmaqla

Sov.İKP-nin tərkib hissəsi kimi Rusiya Kommunist Par-tiyası (РКП) yarandı. Onun fəal rəhbərlərindən biri G.Züqanov oldu.

1990-cı ilin mayında 1-ci Rusiya Xalq deputatları qurultayı oldu. B.N.Yeltsin Ali Sovetin sədri seçildi. Regionlararası qrupun liderləri Q.X.Popov Moskva Şəhər Sovetinin, A.A.Sobçak isə Leninqrad Şəhər Sovetinin sədrləri seçildi. 1990-cı il iyunun 12-də deputatlar Rusiyanın dövlət müstəqilliyi haqqında Bəyannamə qəbul etdilər. 1990-cı ildə demək olar ki, bütün respublikalar müstəqillik haqqında bəyannamə qəbul etmişdi.

1990-cı ilin dekabrında 4-cü SSRİ Xalq deputatları qurultayında mühafizəkarların köməyi ilə M.S.Qorbaçov prezident kimi yeni adı Nazirlər Kabineti olan hökumətə bilavasitə rəhbərlik etmək səlahiyyəti aldı. İstefaya gedən N.İ.Rıjkovun yerinə maliyyə naziri V.S.Pavlov Nazirlər Kabinetinin sədri oldu. Yeni təsis edilən vitse-prezident vəzifəsinə M.Qorbaçovun təkidi ilə keçmiş komsomol və partiya işçisi G.İ.Yanaev təyin olundu. Mühafizəkarların nifrət etdikləri xarici işlər naziri E.A.Şevardnadze diktaturanın təhlükəsini xəbərdar edərək istefaya getdi.

1991-ci ilin yanvarında SSRİ-nin Ali Soveti M.S.Qorbaçovun ideya müəllifi olduğu Ümumittifaq referendumun keçirilməsini təsdiq etdi. 1991-ci il martın 17-də SSRİ vətəndaşları referendumda belə bir suala cavab verməli idi: «Hər hansı millətdən olan adamların hüquq və azadlığına tam təminat verən yenilənən bərabərhüquqlu suveren respublikaların federasiyası kimi Sovet Sosialist Respublikaları İttifaqının saxlanmasını zəruri hesab edirsinizmi?».

Rusiya rəhbərliyi səsverməyə bir deyil, bir neçə sual çıxarıldığı üçün referendumun əleyhinə çıxış etməklə bərabər, respublikada prezident institutunun təsis edilməsi haqqında öz referendumunu elan etdi. Seçki məntəqələrinə vətəndaşların 80%-i gəlmişdir ki, onların da 76,4%-i məsələyə «hə» cavabı, 21,7%-i «yox» cavabı vermişdir, 2%-ə yaxın bülleten etibarsız elan edilmişdir. RSFSR-də olan səsvermədə iştirak edənlərin 71,3%-i bir tərəfdən SSRİ-nin saxlanmasına müsbət cavab vermişdir, başqa bir tərəfdən onların 70%-i respublikada prezident vəzifəsinin təsis edilməsinə səs vermişdir.

1991-ci il iyunun 12-də Rusiya Federasiyası prezidenti vəzifəsinə seçkilər oldu. B.N.Yeltsin seçici səslərinin 57,3, N.İ.Rıjkov 16,8, V.V.Jirinovski 7,8, A.M.Tuleyev 6,8, A.M.Makaşov 3,7, V.V.Bakatin 3,4%-ni almışdır. Böyük səs çoxluğu ilə birinci turda qələbə çalan, xalqın seçdiyi lider statusu alan B.N.Yeltsin radikalizm tərəfdarı olan lider kimi radikal əhvali-ruhiyyəli islahatçıların müdafiəsi ilə ölkədə cərəyan edən siyasi hadisələrin gedişinə əhəmiyyətli təsir göstərmişdir.

## §3. SSRİ-nin dağılması. MDB-nin yaranması

Ölkədəki mürəkkəb iqtisadi şəraitdə aşkarlıq və kütlələrin müstəqil siyasi fəaliyyətinin artmasl millətlər arasında münasibətlərin kəskinləşməsi ilə müşayiət olundu. Mərkəzi partiya-dövlət aparatının zəifləməsi şəraitində yerli hakimiyyət milli burjuaziya ilə dil taparaq öz mövqeyini möhkəmlətmək istəyirdi. Yenidənqurmanın ilk illərindən SSRİ xalqları arasında baş qaldıran ziddiyyətlər getdikcə kəskinləşdi. Milli münaqişələrin kəskinləşməsinin bir sıra səbəbləri olmuşdur. Birincisi, uzun zaman həyata keçirilmiş bürokratik ayrı-seçkilik etnomədəni sahəyə mənfi təsir göstərmişdir. «Sosialist beynəlmiləlçiliyi» şüarı altında bütün millətləri narazı salan böyük dövlətçilik kosmopolitizmi gizlənmişdir. İkincisi, sovet hakimiyyəti dövründə ölkənin bütün xalqları deportasiyadan tutmuş milli mədəniyyətlərin təqibinə kimi müxtəlif formada ədalətsizliyə məruz qalmışdır. Yenidənqurma yeni meylli siyasətin bərqərar olması kimi başa düşülürdü. Üçüncüsü, 1918-1920-ci illərdə əhalinin milli tərkibinin və SSRİ-də milli dövlət strukturunun quruluşu ziddiyyətli təşkil edilmişdir. Ölkədə 100-dən çox böyük və kiçik xalqlar yaşadığı halda yalnız 14 «seçilmiş» xalq ittifaq respublikasına sahib olmuşdur. Başqaları müxtəlif formada muxtariyyət əldə etmiş, bir çoxuna isə bu da çatmamışdır. «Böyük» xalqlar öz ərazisində başqa milli qruplarla müqayisədə daha çox siyasi, iqtisadi, sosial, etnomədəni üstünlüklərə malik idi. 1986-cı ilin mart-aprel aylarında Yakutiyada yakut və rus tələbələr arasında ilk toqquşma baş verdi. 1986-cı il dekbarın 17-19-da Qazaxıstan KP MK-nın birinci katibi vəzifəsinə D.A.Kunayevin yerinə milliyyətcə rus olan G.V.Kolbin təyin edildikdə minlərlə qazax gənci etiraz əlaməti olaraq küçələrə çıxdı. Çıxışların qarşısını almaq məqsədilə mərkəzi hakimiyyət ordu qüvvələrindən istifadə etdi. Ölənlər və minlərlə yaralananlar oldu.

Sovet respublikalarında suverenlik, müstəqillik uğrunda hərəkat genişlənirdi. Elan edilən hüquq bərabərliyi, azad inkişaf faktiki olaraq formal xarakter daşıyırdı. Siyasətdə, iqtisadi inkişafda, mənəvi həyatda mərkəzin göstərişləri əsas rol oynayırdı. Regionların iqtisadi inkişaf səviyyələri, adət və ənələləri, milli xüsusiyyətləri kommunist ideologiyasına tabe edilmişdi. Kommunist ideologiyasına qarşı milli respublikalarda demokratiya və müstəqillik uğrunda hərəkatlar genişlənirdi.

Azərbaycan və Gürcüstan bir çox çətinliklərlə, mərkəzi hakimiyyətin onlara qarşı yeritdiyi siyasi-hərbi avantürist xətti ilə qarşılaşmışdı. 1987-ci ilin oktyabrında Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində məskunlaşan ermənilər qədim Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsi tələbilə

çıxış etdilər. Xankəndi (Stepanakert) və Yerevanda millətçilər mitinq təşkil edərək Azərbaycana qarşı əsassız, erməni təxəyyüllü şuarları səsləndirdilər. Ermənistanda yaşayan və lap qədimdən bu torpaqların sakinləri hesab edilən azərbaycanlılar basqı və fiziki cəhətdən məhvedilmə təhlükəsi altında yaşadıqları torpaqları tərk edərək Azərbaycana qaçmağa məcbur oldular. Ermənistandan Azərbaycana 165 min, Azərbaycandan Ermənistana 140 min nəfər adam qaçmışdı. Beləliklə, qədim Azərbaycan torpqaları üstündə başlayan qanlı münaqişə tezliklə tərəflər arasında müharibəyə çevrildi. 1988-ci il sentyabrın 18-21-də Dağlıq Qarabağda erməni və azərbaycanlılar arasında silahlı toqquşma baş verdi. Mərkəzi M.S.Qorbaçov hakimiyyəti Azərbaycana təzyiqi artıraraq noyabrın 24-də Bakı, Naxçıvan və Gəncədə (Kirovabad) xüsusi vəziyyət elan etdi. Dekabrın 5-də sovet ordusu Bakının mərkəzi Lenin meydanını zor tətbiq edərək mitinqçilərdən təmizlədi. 1990-ci ilin əvvəllərində Cənubi Qafqazda vəziyyət daha da kəskinləşdi. 31 dekabr–2 yanvar tarixlərində Naxçıvan MSSR-də mərkəzi hakimiyyətin siyasətinə və erməni separatçılarının hərəkətlərinə qarşı mitinqlər başladı, etiraz əlaməti olaraq Sovet-İran sərhəd qurğularının bir hissəsi dağıdıldı. Ermənistanda «Qarabağ» komitəsi səfərbərlik elan etdi. M.Qorbaçov hakimiyyətinin hər iki tərəfi razı salmaq məqsədilə yeritdiyi yarımçıq və qeyri-peşəkar siyasət və ermənilərin təcavüzkar çıxışlarının artması Bakıda vəziyyəti kəskinləşdirdi, şəhəri etiraz mitinqləri bürüdü. 1990-cı il yanvarın 19-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti yanvarın 20-də saat 00-dan «Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında» fərman verdi. Yanvarın 19-dan 20-ə keçən gecə sovet qoşunları Bakıya hücum edib, ağır və yüngül silahlardan atəş açmaqla sakinləri qətlə yetirdilər. Bakı və ətraf rayonlarda 131 nəfər öldürüldü, 744 nəfər yaralandı. Bu hadisə «Qanlı Yanvar» kimi tarixə həkk olundu. Azərbaycana qarşı Ermənistanın işğalçılıq siyasəti, zorla onun torpaqlarının zəbt edilməsi, 1990-cı ilin Qanlı Yanvar qırğını xalqı M.Qorbaçov hakimiyyətinin siyasətinə qarşı fəal mübarizəyə qaldırdı.

1989-cü ilin aprelində Gürcüstanın paytaxtı Tiflisdə kütləvi nümayişlər başladı və onlar Gürcüstanın SSRİ-nin tərkibindən çıxıb müstəqil elan edilməsi tələbini irəli sürdülər. Aprelin 9-da dinc nümayiş ordu qüvvələri tərəfindən dağıdıldı, 19 nəfər öldürüldü, yüzlərlə adam yaralandı. Bu hadisə Gürcüstanın müstəqilliyi uğrunda milli hərəkatın artmasına güclü təkan verdi. Gürcüstan Respublikasının Ali Sovetinə seçkilərdə müstəqillik uğrunda mübarizə aparan «Dəyirmi stol – Azad Gürcüstan» üstünlük qazandı.

1989-1990-cı illərdə Orta Asiya respublikalarında, xüsusilə Əndican, Fərqanə, Oş, Düşənbə və b. yerlərdə millətlər arasında qırğınlar törədildi. Özbəkistanda Məshəti türklərinə qarşı silahlı basqınlar, təqib və özbaşınalıq daha

kəskin xarakter almışdı. 1989-cu ildə Kişinyov, Suxumi, 1990-cı ildə Sxinvalidə milli-etnik zəmində qanlı toqquşmalar nəticəsində ölən və ölkəsində qaçqın vəziyyətinə düşən adamların sayı daha da artmışdır. 1989-cu ildə milli toqquşmalarda 221 nəfər öldüyü halda, təkçə 1990-cı ilin 6 ayı ərzində 632 nəfər ölmüşdür. 4648 talan qeydə alınmış, 600 min qaçqın olmuşdur.

Baltikyanı respublikalar ətrafında hadisələr sürətlə cərəyan edirdi. Milli hərəkatların başlıca ideya istiqaməti SSRİ-dən ayrılaraq müstəqillik əldə etməkdən ibarət olmuşdur. 1988-ci ilin ortalarından başlayaraq bu respublikalar SSRİ-yə birləşmələrilə əlaqədar 1939 və 1940-cı il hadisələrinə «aydınlıq gətirməyi» tələb edirdilər. Məhz bu zaman siyasi fəaliyyətdə «respublikanın suverenliyi» termini meydana gəlmişdir. Yenidənqurmanı müdafiə edən Litva Xalq Cəbhəsinin («Sayudis») proqramında qeyd edilmişdir ki, «Litva SSR-in suverenliyi iqtisadiyyat, siyasət, büdcənin formalaşdırılması, maliyyə, kredit, ticarət, vergi və kömrük siyasəti də daxil olmaqla təsərrüfatın idarə edilməsinin bütün sahələrini əhatə etməlidir». 1988-ci ilin payız-qışında Baltikyanı respublikalarda bu sahədə konkret addımlar atıldı. Yerli dillərə dövlət statusu verildi, Estoniya Ali Soveti «Suverenlik haqqında Bəyannamə» qəbul etdi. Litva və Latviya da oxşar aktlar qəbul etdi.

1989-cu ilin dekabrında SSRİ Xalq deputatlarının II qurultayında Baltikyanı respublikaların nümayəndələri 1939-cu il sovet-alman müqaviləsini pisləməyə nail oldular. 1989-cu il dekabrın 19-20-də Litva Kommunist partiyasının XX qurultayı Sov.İKP-dən ayrılaraq öz müstəqilliyini bəyan etdi.

1990-cı il martın 11-də Litvanın Ali Soveti «Litva dövlətinin müstəqilliyinin bərpa edilməsinə dair» Akt qəbul edərək yeni adı ilə Litva respublikasının ərazisində Litva SSR və SSRİ-nin Konstitusiyalarının dayandırıldığını elan etdi. Martın 30-da və mayın 4-də oxşar aktları Estoniya və Latviya da qəbul etmişdir. Beləliklə, 1990-cı ilin ortalarına doğru Baltikyanı respublikalar «azadlıq» yolunun böyük bir hissəsini keçmiş oldular.

SSRİ-də milli-etnik zəmində baş verən toqquşmalar, onlara qarşı M.Qorbaçov hakimiyyətinin qoşun işlətməklə gördüyü səbatsız tədbirlər Sovetlər İttifaqının dağılmasını daha da sürətləndirdi. SSRİ-nin dağılmasının qarşısını almağa çalışan M.Qorbaçov yeni ittifaq müqaviləsi bağlamağı təklif etdi və 1990-cı ilin noyabrında onun müzakirəsinə başlandı. Yeni dövləti güclü mərkəz olmaqla federasiya formasında yaratmaq nəzərdə tutulurdu. Gürcüstan və Baltikyanı respublikalar müstəqillik uğrunda mübarizə kursunu qəbul etdiklərinə görə bu müzakirələrdə iştirak etmirdi. Mərkəzi hakimiyyət əvvəllər olduğu kimi, güc tətbiq etməklə məsələni həll etmək niyyətində idi. 1991-ci ilin yanvarında Litvanın müstəqilliyinin əleyhdarları olan ictimai xilasetmə komitəsi

V.Landsberqin başçılığı ilə respublika Ali Sovetində qələbə çalan xalq cəbhəsini devirmək üçün hərəkətə keçdi. Sovet ordusu və DTK-nın qüvvələri Vilnüsda televiziya mərkəzini silah tətbiq etməklə tutdu. Əməliyyatın gedişində 14 nəfər öldürüldü. Vilnüs əhalisi Litva Ali Sovetinin ətrafında barrikadalar qurdu. Qanuni seçilən Litva parlamentini zor gücünə devirmək mümkün olmadı. Eyni hadisələr Riqada da təkrar olundu. M.Qorbaçov formal olaraq Baltikyanı respublikalardakı hadisələrə onun deyil müstəqillik elan edən yerli hökumətlərin cavabdeh olduğunu bildirdi. Eyni zamanda aşkarlığı elan edən M.Qorbaçov söz azadlığını məhdudlaşdıraraq mətbuat haqqında Qanunun fəaliyyətini dayandırdı. 1991-ci ilin fevralında Litvada respublikanın SSRİ tərkibində qalıb-qalmaması referendumu keçirildi. Referendumda iştirak edənlərin 90%-i müstəqilliyə səs verdi. M.Qorbaçov əvvəlcədən bu referendumu qanunsuz elan etdi.

Baltikyanı dövlətlərdəki hadisələr Rusiya hakimiyyətində narazılığa səbəb oldu, M.Qorbaçovun demokratik baxışlı qüvvələr içərisində qəti olaraq nüfuzdan düşməsinə şərait yaratdı. B.N.Yeltsin açıq şəkildə Baltikyanı respublikaların müstəqillik mübarizəsini müdafiə etdi və M.Qorbaçovu SSRİ prezidenti kimi istefaya dəvət etdi. B.Yeltsin RSFSR prezidenti seçildikdən sonra onun ümumittifaq orqanlarına, Sov.İKP-yə və M.Qorbaçovun siyasətinə qarşı amansız çıxışları daha da artmışdı.

1991-ci ilin aprelində M.S.Qorbaçov respublika liderlərinin razılığını alaraq Novo-Oqaryovda prezident iqamətgahında görüşdən sonra iqtisadiyyat və siyasi vəziyyəti sabitləşdirmək üzrə birgə tədbirlər və yeni ittifaq müqaviləsinin hazırlanmasına dair onların (doqquz respublika + SSRİ prezidenti) bəyanatı ilə çıxış etdi. 1991-ci il iyulun 23-24-də Novo-Oqaryovda müttəfiq respublika rəhbərlərinin yığıncağında 26 maddə və 4 hissədən ibarət «Suveren Dövlətlərin İttifaqı haqqında müqavilə»nin mətni razılaşdırıldı. Müqavilə iştirakçısı olan hər bir respublika suveren dövlət elan edilir, sosializmdən isə söhbət belə getmirdi. Hakimiyyət orqanları strukturunda, idarəetmədə, yeni Konstitusiyanın qəbulu və seçki sistemində dəyişikliklər tətbiq edilməsi nəzərdə tutulurdu. Müqavilənin təsdiq edilməsi 1991-ci il avqustun 20-nə təyin edilmişdir.

Lakin yeni İttifaq müqaviləsi mətn layihəsinin müzakirəsi və mətnin çap edilməsi cəmiyyəti parçaladı. M.S.Qorbaçovun tərəfdarları müqaviləyə qarşıdurmanın azalması və ölkədə vətəndaş müharibəsi təhlükəsinin aradan qaldırılması kimi baxırdı. «Demokratik Rusiya» hərəkatının rəhbərləri bir il müddətinə müvəqqəti müqavilə imzalamağı təklif edirdi. Bu vaxtda Müəssislər Məclisinə seçkilər keçirib ümumittifaq hakimiyyət orqanlarını formalaşdırmaq, sistemin müəyyən edilməsini həll etmək nəzərdə tutulurdu. Bir qrup ic-

timaiyyətçi alim müqavilə layihəsinə qarşı çıxış edərək, belə bir sənədi mərkəzi respublikların milli-separatçı qüvvələri qarşısında təslim olmaq aktı kimi qiymətləndirdi. Yeni müqavilənin əleyhdarları belə düşünürdülər ki, SSRİ-nin demontaj edilməsi mövcud xalq təsərrüfatı kompleksinin dağılmasına və iqtisadi böhranın dərinləşməsinə gətirib çıxarar.

Yeni müqavilənin imzalanmasına bir neçə gün qalmış müxalif qüvvələr islahat siyasətinə son qoymaq və dövlətin dağılmasının qarşısını almağa cəhd etdilər. SSRİ-nin bir qrup yüksək rütbəli dövlət rəhbəri, o cümlədən güc strukturlarının başçıları 1991-ci il avqustun 19-na keçən gecə Dövlət Fövqəladə Vəziyyət Komitəsi yaratdılar, «səhhəti ilə bağlı SSRİ prezidenti vəzifəsini icra edə bilmədiyinə görə M.S.Qorbaçovun istefaya göndərildiyi, SSRİ Konstitusiyasının 127-ci maddəsinə müvafiq olaraq SSRİ İttifaqı prezidentinin səlahiyyətlərinin SSRİ-nin vitse-prezidenti Gennadi İvanoviç Yanayevə keçdiyi» bildirildi. Ölkədə 6 aylıq fövqəladə vəziyyət rejimini səmərəli həyata keçirmək məqsədilə SSRİ Müdafiə Şurasının birinci müavini O.D.Baklanov, SSRİ DTK-nın sədri V.A.Kryuçkov, SSRİ-nin Baş naziri V.S.Pavlov, SSRİ daxili işlər naziri B. K.Puqo, SSRİ Kəndli İttifaqının sədri V.A.Starodubtsev, SSRİ dövlət müəssisələri, Sənaye, Tikinti, Nəqliyyat və Rabitə Obyektləri Assosiasiyasının prezidenti A.İ.Tizyakov, SSRİ-nin vitse-prezidenti G.İ.Yanayev, SSRİ müdafiə naziri D.T.Yazovdan ibarət Dövlət Fövqəladə Vəziyyət Komitəsi (ГКЧП) yaradıldı. DFVK iqtisadi və siyasi böhranı, millətlər və vətəndaşlar arasındakı qarşıdurmanı və anarxiyanı aradan qaldırmağı özünün vəzifəsi elan etdi. Bu isə o demək idi ki, SSRİ-də 1985-ci ilə kimi olan qayda-qanunu təmin etmək əsas məqsəd daşıyırdı.

Avqust hadisələrinin mərkəzi SSRİ-nin paytaxtı Moskva şəhəri oldu. Şəhərə ordu hissələri yeridildi və komendant saatı müəyyən olundu. 1991-ci il avqust qiyamının baş tutmamasında Rusiyanın prezidenti B.N.Yeltsin və demokratik qüvvələr həlledici rol oynadı. B.Yeltsin fərman imzalayaraq DFVK-nın fəaliyyətini konstitusiyaya zidd dövlət çevrilişi cəhdi kimi qiymətləndirdi. Avqustun 21-də SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasında DFVK-nın fəaliyyəti qanundan kənar elan edildi. SSRİ Konstitusiyasına nəzarət Komissiyası da onların fəaliyyətini müdafiə etmədi. İctimaiyyət də DFVK-nın siyasətini müdafiə etmədi. Rusiya hökumətin və parlamentini qiyamçılardan qorumaq üçün minlərlə moskvalı Ağ evi canlı mühasirəyə aldı. Avqustun 21-də Sovetlər evinin ətrafında DFVK-nın tərəfdarları ilə B.N.Yeltsin hakimiyyətinin tərəfdarları arasında toqquşma baş verdi, üç nəfər gənc həlak oldu. Avqustun 21-də DFVK-nın üzvləri Krımdakı prezidentin Foros iqamətgahına uçdular, eyni vaxtda RSFSR-in vitse-prezidenti A.V.Rutskoy da M.S.Qorbaçovla

görüşmək məqsədilə başqa təyyarədə ora uçdu. M.S.Qorbaçov DFVK-nın üzvlərini qəbul etməyərək Rusiya rəhbərliyinin nümayəndələri ilə Moskvaya qayıtdı. 1991-ci il avqustun 22-də DFVK-nın üzvləri dövlət çevrilişinə cəhd maddəsi ilə həbs edilərək sonradan əfv olundular. Ölkə dövlət çevrilişi və onun totalitar nəticələrindən xilas oldu.

Avqust böhranından sonra ölkədə yaranmış şəraitə uyğun olaraq siyasi liderlər qərarları Konstitusiya və SSRİ qanunları əsasında deyil, real qüvvələr vəziyyətindən istifadə edərək qəbul edirdilər. Respublika hakimiyyət orqanları mərkəzi ittifaqa məhəl qoymadan fəaliyyət göstərirdi. DFVK-nın çıxışı yeni inteqrasiya təkliflərindən imtina etməyə münasib bəhanə olmuşdur. Avqustun sonundan başlayaraq İttifaqın siyasi və dövlət strukturlarının demontajı (sökülməsi) başladı. Buna əsasən bəzi tarixçilər belə hesab edir ki, əsl həqiqətdə Sovet İttifaqı avqustdan dərhal sonra «dağılmışdır», baxmayaraq ki, formal olaraq ilin sonuna kimi fəaliyyət göstərmişdir.

1991-ci il sentyabrın 2-5-də Moskvada növbədənkənar V Xalq deputatları qurultayı böhrandan sonrakı vəziyyəti siyasi və hüquqi cəhətdən qanuniləşdirdi. Qurultay «Keçid dövründə SSRİ-nin dövlət hakimiyyəti orqanlarının idarə olunması haqqında» Konstitusiya Qanunu qəbul etdi. Qanuna əsasən, SSRİ-nin ali dövlət orqanları olan Qurultay və Ali Sovet fəaliyyətini dayandırırdı. Keçid dövrü üçün SSRİ prezidenti və respublikaların ali vəzifəli şəxslərindən ibarət real idarəetmə funksiyasını yerinə yetirmək məqsədilə SSRİ Dövlət Şurası yaradıldı.

1991-ci il avqustun 23-də B.N.Yeltsin «RSFSR Kommunist Partiyasının fəaliyyətinin dayandırılması haqqında» fərman imzalayaraq əslində faktiki olaraq Sov.İKP-nin fəaliyyətini qadağan etdi. Səbəb kimi RFKP-nin DFVK-nın dövlət çevrilişi cəhdini müdafiə etməsi göstərilmişdir. RSFSR prezidentinin sentyabrın 25-də bəyan etdiyi «Sov.İKP və RSFSR Kommunist partiyasının əmlakı haqqında» fərmanı ilə partiyanın bütün daşınmaz və daşınan əmlakı, pul və valyuta hesabları Rusiyanın dövlət mülkiyyəti elan olundu. Eyni gündə M.Qorbaçov Baş katib vəzifəsini buraxdı və partiyanı özünü buraxmağa dəvət etdi. Respublikalarda partiyanın buraxılması əsasən 1991-ci il sentyabrın ortalarında başa çatdı.

Avqustun 25-də M.Qorbaçov SSRİ Nazirlər Sovetini ləğv edərək onun yerində Rusiyanın Baş naziri İ.S.Silayevin rəhbərliyi ilə Xalq təsərrüfatı operativ idarəetmə Komitəsi yaratdı. Bu, avqust böhranından sonra İttifaq strukturlarının Rusiya hakimiyyət orqanlarına keçməsi demək idi. Beləliklə, respublika ərazisində ildən artıq mövcud olan «ikihakimiyyətlilik» aradan qalxmış oldu. 1991-ci ilin sonuna kimi Mülki və Hərbi Prokurorluq, Maliyyə Nazirliyi, SSRİ Dövlət Plan Komitəsi Rusiyanın yurisdiksiyasına keçdi.

1991-ci il avqustun 24-də Ukrayna SSR Ukraynanın müstəqilliyini bəyan edərək onun ərazisində yalnız respublika Konstitusiyası və başqa qanunvericilik aktlarının fəaliyyətdə olduğunu qeyd etdi. Eyni gündə Belarus, avqustun 27-də Moldova, 30-da Azərbaycan, 31-də Qırğızıstan və Özbəkistan öz müstəqilliyini elan etmişdir. Latviya, Litva və Estoniya avqustun 20-21-də müstəqilliklərini elan etmişdir. SSRİ V Xalq deputatları qurultayının yaratdığı Dövlət Şurasının gündəliyində duran başlıca məsələlərdən biri İttifaq respublikalarının birləşmə formasının müəyyən edilməsindən ibarət idi. Bu müzakirələr əvvəl olduğu kimi Novo-Oqaryovoda gedirdi. Mövcud olduğu sentyabr-noyabr aylarında Dövlət Şurasının 7 iclası olmuşdur.

1991-ci il oktyabrın 18-də SSRİ prezidenti və 8 respublikanın rəhbəri Kremldə suveren dövlətlərin iqtisadi birliyi haqqında müqavilə imzaladılar. Ukrayna, Moldaviya, Gürcüstan və Azərbaycan burada iştirak etmirdi. Bunun ardınca noyabrın 14-də Novo-Oqaryovodakı yekun layihəsində respublikaların birliyi «konfederativ demokratik dövlət» formasında nəzərdə tutulmuşdur. Müqaviləni 1991-ci il noyabrın 25-də paraflamaq nəzərdə tutulsa da, B.N.Yeltsinin təklifi ilə Ukraynadakı dekabrın 1-nə təyin edilən referendumu gözləmək məqsədi ilə bu baş tutmadı.

Ukraynadakı referendumda iştirak edənlərin 90,32%-i respublikanın müstəqilliyinə səs verdi, L.M.Kravçuk prezident seçildi. Dekabrın 2-də Rusiya onu tanıdı, dekabrın 3-də Amerika prezidenti C. Buşla telefon söhbətində L.Kravçuk bildirdi ki, yaxın günlərdə slavyan ölkələrinin Minskdə görüşü nəzərdə tutulmuşdur. Dekabrın 5-də L.Kravçuk and içərək prezident vəzifəsinin icrasına başladı, Ukrayna Ali Soveti «Bütün ölkələrin parlamentləri və xalqlarına müraciətində» bəyan etdi ki, SSRİ-nin təşkil edilməsi haqqında 1922-ci il müqaviləsi öz qüvvəsini itirmişdir.

1991-ci il dekabrın 8-də Belarus Respublikası Ali Sovetinin sədri S.S.Suskeviç, RSFSR-in prezidenti B.N.Yeltsin, Ukraynanın prezidenti L.M.Kravçuk Minsk yaxınlığındakı «Belaya Veja» adlı yerdə bir araya gələrək «Müstəqil Dövlətlər Birliyinin» yaradılması haqqında müqavilə imzaladılar. Sənədin preambula hissəsində bəyan olunurdu ki, «SSR İttifaqı beynəlxalq hüququn subyekti və geosiyasi reallıq kimi öz fəaliyyətini dayandırır».

Dekabrın 10-da müqaviləni Ukrayna və Belarus parlamentləri, dekabrın 12-də isə Rusiya Ali Soveti təsdiq edib, parafladı. 1991-ci il dekabrın 21-də Baltikyanı respublikalar və Gürcüstandan başqa 11 respublika, o cümlədən Azərbaycan, Belarus, Ukrayna, Rusiya Federasiyası, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tacikistan, Ermənistan və Moldova Almatı Bəyannaməsini qəbul edərək MDB-yə daxil oldu. Bəyannamədə qeyd olunurdu

ki, MDB-yə daxil olan ölkələr demokratik hüquqi dövlət qurmağı, müstəqilliyi, qarşılıqlı hörməti, bir-birinin daxili işinə qarışmamağı, bir-birinə qarşı zor işlətməməyi, azlıqların problemlərini sülh yolu ilə həll etməyi və s. kimi öhdəlikləri üzərlərinə götürmüşlər. Sənəddə göstərilirdi ki, MDB-nin yaranması ilə SSRİ öz varlığına xitam verir. 1991-ci il dekabrın 25-də Moskva vaxtı ilə saat $19^{00}$-da M.S.Qorbaçov televiziya ilə çıxış edərək elan etdi ki, «Müstəqil Dövlətlər Birliyinin yaranması ilə bağlı şəraitə uyğun olaraq SSRİ-nin Prezidenti vəzifəsindən öz fəaliyyətimi dayandırıram». Saat $19^{38}$-də Kreml üzərindəki SSRİ-nin qırmızı bayrağı üç rəngli Rusiya bayrağı ilə əvəz olundu. 1991-ci ilin dekabrın 25-də RSFSR-in Ali Soveti respublikanın yeni – Rusiya Federasiyası (Rusiya) adını qəbul etdi. Dekabrın 26-da SSRİ Ali Soveti SSRİ-nin buraxılması faktını təstiq edib öz fəaliyyətini dayandırdı.

### §4. 1985-1991-ci illərdə SSRİ-nin xarici siyasəti

1985-ci ilin martında M.S.Qorbaçovun hakimiyyətə gəlməsi ilə sovet xarici siyasətində radikal dəyişikliklər başlandı. 1985-ci ilin iyulunda bir neçə onillik boyu SSRİ-nin xarici siyasət xəttini müəyyən edən, görkəmli sovet diplomatı və siyasi xadimi A.A.Qromıkonu xarici işlər naziri vəzifəsində Gürcüstan KP MK-nın keçmiş birinci katibi, Siyasi Büronun üzvü E.A.Şevardnadze əvəz etdi. A.Qromıko fəxri vəzifə hesab olunun SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri təyin edildi və 1989-cu ilə kimi bu vəzifədə qaldı. E.Şevardnadzenin ilk işi, demək olar ki, nazirliyin bütün işçilərini, özünün 12 müavinindən 10-nu, idarə rəislərinin böyük əksəriyyətini dəyişdirmək oldu. M.Qorbaçov xarici siyasət məsələləri üzrə özünün yaxın silahdaşları E.Şevardnadze, A.Yakovlev, G.Arbatovla birlikdə dövlət xarici siyasətinin 3 əsas istiqamətini müəyyən etdi: Birincisi, ABŞ-la tərk-silah məsələsinə dair danışıqlar vasitəsilə Şərqlə Qərb arasında gərginliyi yumşaltmaq; ikincisi, Əfqanıstandan başlayaraq regional münaqişələri nizamlamaq; üçüncüsü, mövcud dünya nizamını qəbul edərək marksist-leninçi istiqamətli dövlətlərə üstünlük vermədən bütün dövlətlərlə iqtisadi əlaqələri genişləndirmək.

1985-ci ilin noyabrında Cenevrədə M.Qorbaçov R. Reyqanla görüşərək tərksilahı sürətləndirmək məsələsini müzakirə etdi. 1986-cı ilin oktyabrında Reykyavikdə M.Qorbaçovla R.Reyqanın növbəti görüşündə Avropada ortamənzilli raketlərin ləğv edilməsi, «Strateji müdafiə təşəbbüsü»nə dair işlərin dayandırılması və s. məsələlər müzakirə edilərək tərəflərin mövqelərində xeyli yaxınlaşmaya nail

olundu. 1987-ci il dekabrın 8-də Vaşinqtonda M.Qorbaçovun səfəri vaxtı yüksək-səviyyəli Sovet-Amerika görüşü zamanı yaxın və ortamənzilli raketlərin ləğvinə dair müqavilə imzalandı. Müqaviləyə əsasən, SSRİ 826 ədəd ortamənzilli, 926 ədəd yaxınmənzilli, ABŞ 683 ortamənzilli, 170 yaxınmənzilli raket ləğv etməli idi. Ortamənzilli raketlərin 3 il, yaxınmənzilli raketlərin 1,5 il müddətində ləğv edilməsi nəzərdə tutulurdu. 1988-ci ilin mayında ABŞ Senatı, ertəsi gün isə SSRİ Ali Soveti bu müqaviləni təsdiq etdi. 1988-ci ilin may-iyun aylarında ABŞ-ın prezidenti R. Reyqan Sovet İttifaqına səfərə gəldikdə yaxın və ortamənzilli raket-lərin ləğvinə dair müqavilənin paraflanmış sənədləri mübadilə edilərək qüvvəyə mindi. Yüksəksəviyyəli Sovet-Amerika görüşləri və konkret nəticə SSRİ-ABŞ qarşıdurmasını xeyli zəiflətdi. Fakt isə ondan ibarətdir ki, hərbi nöqteyi-nəzərdən yaxın və ortamənzilli raketlərin ləğvinə dair müqaviləni imzalamaqla M.S.Qorbaçov rəhbərliyi birtərəfli olaraq ABŞ-a əhəmiyyətli dərəcədə güzəştə getmişdi.

1987-ci il mayın 28-də AFR-in vətəndaşı Matias Rustun təyyarəsini maneəsiz Qızıl meydana endirilməsi orduda təmizləmə aparılmasına səbəb oldu. Mayın 30-da ordu generalı D.T.Yazov müdafiə naziri vəzifəsində S.L.Sokolovu əvəz etdi.

1987-ci ildə M.S.Qorbaçov «Bizim ölkə və bütün dünya üçün yenidənqurma və yeni təfəkkür» kitabını çap etdirdi. «Yeni təfəkkürün» beynəlxalq məsələlərdə mahiyyəti ondan ibarətdir ki, bütün bəşəriyyət sivilizasiyası bir-biri ilə sıx bağlıdır, müasir dünyada məqsədə güc vasitəsilə çatmaq qeyri-mümkündür, odur ki, ideoloji müxtəlifliyə əsaslanan qarşıdurmadan əl çəkib, bəşəriyyətin qarşısında duran qlobal problemlərin birlikdə həllinə səy göstərməliyik. Praktik olaraq «yeni təfəkkür» sovet iqtisadiyyatını hərbi yükdən azad etməyə şərait yaratmaqla bərabər iqtisadi islahatların həyata keçirilməsi məqsədilə Qərbdən kredit almağı da təmin etməli idi.

«Yeni təfəkkür» siyasətinə uyğun olaraq SSRİ-nin beynəlxalq aləmdə öz müttəfiqlərinə qarşı münasibəti dəyişdirməsini tələb edirdi. İkili standart ya-naşmasından Sovet İttifaqı əl çəkərək hər bir xalqın öz taleyini həll etmək hüququnu sözdə deyil, əməli fəaliyyətdə nümayiş etdirdi. Hələ 1986-cı ilin noyabrın 13-də Siyasi Büronun iclasında etiraf edildi ki, Əfqanıstana daxil olan sovet ordusu xalqın daxili köməyinə arxalanmır və hərbi qələbənin qa-zanılması prespektivi yoxdur. Qərara alındı ki, 1-2 il ərzində müharibəyə son qoyulsun. Uzun və gərgin danışıqlardan sonra SSRİ, ABŞ, Əfqanıstan və Pakistan nümayəndələri 1988-ci ilin aprelində Əfqanıstanda siyasi vəziyyəti normallaşdırmaq haqqında saziş imzaladılar. 1988-ci il mayın 15-dən sovet qoşunları Əfqanıstandan çıxarılmağa başlandı və bu proses 1989-cu il fevralın 15-də başa çatdı. 1989-cu ilin dekabrında 2-ci SSRİ Xalq Deputatları qurultayı sovet qoşunlarının Əfqanıstana yeridilməsini siyasi səhv kimi qiymətləndirdi.

SSRİ M.Qorbaçov hakimiyyətinin elan etdiyi xarici siyasət doktrinasına əsaslanaraq Qərblə münasibətləri yaxşılaşdırmaq, iqtisadi çətinlikləri yüngülləşdirmək məqsədilə 80-ci illərin ikinci yarısında Anqola, Mozambik, Efiopiya, Nikaraqua kimi ölkələrdəki münaqişlərə hərbi kömək göstərməkdən imtina etdi. İnkişaf etməkdə olan ölkələrə iqtisadi və hərbi kömək göstərilməsi kəskin azaldıldı.

Sovet qoşunlarının Əfqanıstandan çıxarılması, orta və yaxınmənzilli raketlərin Asiyada yerləşdirilməsindən imtina edilməsi, SSRİ-Çin sərhədində sovet qoşunlarının azaldılması, Kampuçiyada Vyetnama hərbi köməyin dayandırılması Sovet-Çin münasibətlərini normallaşdırdı. 1989-cu ilin mayında SSRİ-nin rəhbəri M.S.Qorbaçov Çinə səfər edərək Pekində ölkənin liderləri Den Syaopin və Çjao Tszıyan ilə görüşdü. Yüksək səviyyədə keçən Sovet-Çin görüşündə hər iki tərəf dövlətlər arasındakı fikir ayrılığını aradan qaldırmaq əzmini nümayiş etdirdi.

SSRİ-də meydana gələn inzibati-amirlik sistemli sovet modelli sosializm quruculuğunun ilk illərində bütün sosialist ölkələri üçün məqbul sayılsa da, sonralar sovet təcrübəsi sosialist ölkələri üçün bir buxova çevrildi. Ləngimə mexanizmi, iqtisadi böhranın dərinləşməsi sosializm sisteminin iflasını sürətləndirdi. Xalq təsərrüfatının müxtəlif sahələri intensiv inkişaf mərhələsinə keçirilmədi, elmi-texniki tərəqqinin böyük imkanları lazımınca qiymətləndirilmədi, onun nailiyyətlərinin istehsalata tətbiq edilməsində inkişaf etmiş ölkələrin təcrübəsi nəzərə alınmadı. Sənaye və kənd təsərrüfatında əmək məhsuldarlığının aşağı düşməsi sosial gərginliyin yaranmasına səbəb olur, əhalinin rifahına mənfi təsir göstərirdi. İqtisadi tərəqqi dinamikasının pozulması, xarici ölkələrə olan dövlət borclarının artması bir çox sosialist ölkələrində vəziyyəti mürəkkəbləşdirdi. Sosializmin demokratiyanın yüksək tipi olması haqqında iddia real həyatla ayaqlaşmırdı. İnsan hüquqlarının qorunması həm daxildə, həm də xaricdə əsaslı tənqid edilirdi. Demokratik prinsiplərin, aşkarlığın pozulması Kommunist Partiyasının nüfuzdan düşməsinə səbəb oldu. SSRİ-də M.S.Qorbaçovun elan etdiyi yenidənqurma siyasəti, yeni siyasi təfəkkür fəlsəfəsi sosialist ölkələrində tətbiq edilə bilməzdi. Beləliklə, Şərqi Avropanın sosialist ölkələri çətin sınaq və dəyişikliklər dövrünə daxil oldular, 1980-ci illərin sonu – 90-cı illərin əvvəllərində sosializm sistemi dağıldı.

1980-ci illərdə sosialist ölkələrini bürümüş böhran Macarıstanı da əhatə etmişdi. Macarıstan Sosialist Fəhlə Partiyası (ВСРП) xalq içərisində nüfuzunu itirmiş, köhnə totalitar üsullarla ölkəni idarə edə bilmirdi. 1989-cu ilin oktyabrında MSFP-nin qurultayı proletariat diktaturası, bir sinfin hakimiyyəti konsepsiyasından imtina edərək çoxpartiyalı sistemə keçilməsinə səs verdi. Par-

tiyanın yeni adı Macarıstan Sosialist Partiyası oldu. Macarıstan mülkiyyət formalarının müxtəlifliyinə, bazar iqtisadiyyatının inkişafına əsaslanan yola keçdi.

Sovet İttifaqında elan edilən yenidənqurma islahatları sosialist ölkələri liderlərinin müqaviməti ilə qarşılandı. Onlar öz ölkələrində totalitar metodlu iş üslubunu davam etdirməkdə idi. Polşadakı daxili gərgin vəziyyət 1989-cu ildə «Həmrəylik» müstəqil həmkarlar təşkilatını leqallaşdırmağa, müxalifətin siyasi fəaliyyət hüququnu tanımaqla «dəyirmi stol» təşkil etməyə səbəb oldu. Seymin və senatın birgə iclasında general V.Yaruzelski prezident seçildi, tezliklə onu bu vəzifədə «Həmrəyliy»in tanınmış lideri L.Valensa əvəz etdi. 1990-cı ilin yanvarında PBFP-nın qurultayı çağırıldı və partiyanın yeni adı Polşa Respublikası Sosial Demokratiyası oldu. Polşa parlament demokratiyası və çoxpartiyalı sistemə keçdiyini bəyan etdi.

Rumıniyada 1965-ci ildən hakimiyyətdə olan N.Çauşeskunun amirlik sisteminə qarşı ölkədə narazılıq get-gedə artırdı. 1987-ci ildə Rumıniyanı rejimə qarşı nümayişlər bürüdü. 1989-cu ilin dekabrında Timişoara şəhərində kütləvi iğtişaşlar baş verdi. Dekabrın 22-də Buxarestin mərkəzi meydanında N.Çauşesku siyasətini müdafiə edən mitinqdə birdən-birə «Rədd olsun Çauşesku!» sədaları ucaldı. Çaxnaşma başladı, ordunun bir hissəsi xalqın tərəfinə keçdi. Rumıniya yeganə Avropa ölkəsi idi ki, azadlıq mübarizəsində qan töküldü, 1200 nəfər öldü, minlərlə insan yaralandı. İnqilab qalib gəldi, N.Çauşeskunun diktaturası devrildi. N.Çauşesku və arvadı həbs edilərək hərbi məhkəmənin hökmü ilə dərhal güllələndilər. 1990-cı ilin mayında parlament seçkilərində Milli Qurtuluş Cəbhəsi (ФНО) aşağı palatada və senatda yerlərin mütləq çoxluğunu qazandı. Səslərin 87%-ni qazanan İ.İlyeski Rumıniyanın yeni prezidenti seçildi. 1989-cu il dekabr inqilabından sonra Rumıniya hüquqi dövlət kimi inkişaf edir, xarici siyasət sahəsində sülh və xalqların təhlükəsizliyini, əməkdaşlıq və qarşılıqlı yardım, Avropa və NATO ölkələrinə inteqrasiya yolunu müəyyən etmişdir.

Şərqi Avropanın bütün sosialist ölkələrində olduğu kimi 1989-cu ilin yayında Bolqarıstanda iqtisadi, sosial-siyasi vəziyyət kəskinləşdi. Teodor Jivkovun hakimiyyəti dövründə məhsul çatışmazlığı, inflyasiyasnın artması ilə bərabər, milli münasibətlər sahəsində də vəziyyət gərginləşdi. Xüsusilə türklərə qarşı ayrı-seçkilik, onların hüquqlarının tapdalanması daxili vəziyyətin nəzarətdən çıxmasına təkan verdi. 1989-cu il noyabrın 10-da BKP MK plenumu Y.Jivkovu baş katib vəzifəsindən azad etdi. 1990-cı ildə keçirilmiş BKP-nin XIV qurultayı T.Jivkov rejiminin daxili və xarici siyasi xəttini ifşa edərək, partiyanın adını dəyişib Bolqarıstan Sosialist Partiyası qoydu. Ölkədə prezident vəzifəsi təsis edildi və P.Mladenov Bolqarıstanın ilk prezidenti seçildi. Bolqarıstan köklü siyasi və iqtisadi dəyişikliklər yoluna qədəm qoydu.

SSRİ aşkarlıq və yenidənqurma dövrünə qədəm qoyduqdan sonra M.S.Qorbaçovun Çexoslovakiyaya səfəri və 1987-ci ilin sonunda M.Yakeşin ÇKP MK-nın birinci katibi seçilməsi ölkədə siyasi həyatın demokratikləşməsinə ümidləri artırdı. Lakin mühafizəkar ölkə rəhbərliyinin mövqeyi üzündən bu baş tutmadı. 1968-ci ildə sovet ordusunun Çexoslovakiyaya müdaxiləsinin 20 illiyi və 1988-ci ilin oktyabrın 28-də ölkənin müstəqillik günü münasibətilə Praqanın mərkəzində icazəsiz nümayişlər başlandı. 1989-cu ilin noyabrın 17-də tələbə nümayişinin hökumət qüvvələri tərəfindən dağıdılması cəmiyyəti qəzəbləndirdi və kütləvi nümayişlər başlandı. 1989-cu il noyabrın 19-da qeyri-formal təşkilatlar əsasında V.Qavelin başçılığı ilə «Vətəndaş forumu» (ГФ) hərəkatı yarandı. Hakimiyyət orqanları ilə danışıqlar nəticəsində noyabrın 24-də ÇKP MK-nın birinci katibi M. Yakeş, dekabrın 3-də isə ölkə prezidenti Q.Qusak istefa verdi. 1989-cu ilin dekabrın 29-da Federal yığıncaq V.Qaveli respublikanın prezidenti seçdi. 1993-cü ilin yanvarın 1-dən Avropanın xəritəsində Çexoslovakiya federasiyası yerinə iki müstəqil dövlət olan Çexiya və Slovakiya respublikaları meydana gəldi.

Mərkəzi və Cənub-Şərqi Avropanın sosialist ölkələrində baş verən redikal dəyişikliklər ADR-in iqtisadi və siyasi həyatına ciddi təsir etdi. Rejimdən narazı olan almanlar 1989-cu ildə Çexoslovakiya ilə sərhədi keçib Avstriya və AFR-ə köç edirdi. Ağır iqtisadi və siyasi vəziyyət Almaniya Vahid Sosialist Partiyasının (СЕПГ) nüfuzdan düşməsinə gətirib çıxardı, 1989-cu il oktyabrın 18-də AVSP-nın IX plenumunda Erix Honekker vəzifədən azad edildi, onu Eqon Krens əvəz etsə də, bu, vəziyyəti xilas etmədi. Alman xalqı mövcud rejimə qarşı ayağa qalxaraq 1961-ci ildə çəkilmiş Berlin divarını dağıtdı, Konstitusiyada AVSP-nin rəhbər rolu haqqında maddə ləğv edildi. 1989-cu ilin dekabrında olan fövqəladə qurultayda partiya Demokratik Sosialist Partiyası adlandırıldı. İki alman dövlətinin birləşdirilməsi uğrunda mübarizə genişləndi. Bu məsələnin müzakirəsi 1990-cı ilin fevralında keçirilən «2+4», yəni AFR, ADR və II Dünya müharibəsinin qalib dövlətləri ABŞ, SSRİ, İngiltərə, Fransa formulu əsasında baş tutdu. 1990-cı ilin iyulunda M.S.Qorbaçovla AFR-in kansleri Q. Kolun görüşündə SSRİ rəhbəri xərclərin AFR tərəfindən ödənilməsi şərti ilə ADR ərazisindəki 500 minlik sovet hərbi hissələrini çıxarmağa razılıq verdi. Sentyabr ayının 12-də danışıqların iştirakçısı olan dövlətlər Almaniya məsələsinin tənzimlənməsinə dair sənədi imzaladılar. 1990-cı il avqustun 31-də ADR dövlət katibi Krauzen və AFR-in daxili işlər naziri Şoyble Almaniynaın birləşdirilməsi haqqında müqaviləni imzaladılar, müqavilə sentyabrın 29-da hər iki dövlətin parlamenti tərəfindən təstiq edildi və oktyabrın 3-də qüvvəyə mindi. 1990-cı ilin noyabr ayında SSRİ ilə AFR arasında qonşuluq və əməkdaşlıq haqqında müqavilə imzalandı.

Yuqoslaviya Sosialist Federativ Respublikasının parçalanmasında Sloveniya və Xorvatiyanın 1991-ci ilin iyununda öz müstəqilliyini bəyan etməsi başlıca rol oynamışdır. Yuqoslaviya Xalq Ordusunun Sloveniya və Xorvatiyaya müdaxiləsi tərəflər arasında hərbi əməliyyatlara səbəb olsa da, tezliklə barışıq imzalanmışdır. 1991-ci ilin noyabrında Makedoniya, 1992-ci ilin martında Bosniya ittifaqdan çıxdılar, YSFR-nin dağılması başa çatmış oldu. Federasiyanın tərəfdarı olan Serbiya və Çernoqoriya 1992-ci il aprelin 27-də Yuqoslaviya İttifaq Respublikasında birləşdilər. 2003-cü il fevralın 4-də 11 ilə yaxın fəaliyyət göstərmiş və S.Miloşeviçin adı ilə bağlı olan Yuqoslaviya İttifaq Respublikası fəaliyyətini dayandırdı. Yuqoslaviya adı tarixə çevrildi. Yeni dövlət Serbiya və Çernoqoriya Birliyi meydana gəldi. 2006-cı il iyunun 3-də Çernoqoriya, iyunun 5-də isə Serbiya dövlət müstəqilliyini elan etdi.

1995-ci il noyabrın 1-də ABŞ-ın Deyton şəhərində Serbiya, Xorvatiya və Bosniya arasında danışıqlar başlandı. Noyabrın 21-də tərəflər arasında Deyton barışığı, dekabrın 14-də Parisdə sülh müqaviləsi imzalanmışdır. Bosniya ərazisinin 51%-i müsəlman-xorvat federasiyasına, 49%-i serblərə ayrılmışdır, vahid hakimiyyət orqanlarının yaradılması da nəzərdə tutulmuşdur. Aydın olduğu kimi, Bosniyada vahid dövlət konfederasiya formasında təşkil edilmişdir.

Beləliklə, 1980-ci illərin sonu – 90-cı illərin əvvəllərində sosialist ölkələrinin idarə edilməsini təmin edən Kommunist Partiyasının hakimiyyətinə xitam verildi, Cənubi Şərqi Avropa ölkələrində çoxpartiyalı sistem meydana gəldi, ADR AFR-lə vahid Almaniya dövlətində birləşdi, Macarıstan, Polşa, Rumıniya, Bolqarıstan, Çexiya, Slovakiya, keçmiş Yuqoslaviya ərazisində meydana gəlmiş ölkələr də bazar iqtisadiyyatına və demokratik prinsiplərə söykənən cəmiyyət qurmağa başladılar. 1990-cı ildən başlayaraq sovet ordusu Şərqi Avropadan çıxarılmağa başlandı. 1991-ci il aprelin 1-də Varşava Müqaviləsi Təşkilatının hərbi strukturunun buraxıldığı elan olundu. İyulun 1-də isə blokun siyasi strukturu ləğv edildi. Həmin gün sovet ordusu Macarıstan və Çexoslovakiyadan çıxarıldı. 1991-ci il iyunun 29-da Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) buraxıldı. Bununla da sosialist əməkdaşlığına son qoyuldu.

1990-cı ilin avqustunda İraq Küveyt ərazisinin tarixən ona məxsus olduğunu irəli sürərək bu ölkəni işğal etdi. Təhlükəsizlik Şurası işğalçı qoşunları Küveytdən çıxarmaq məqsədilə silahlı qüvvələrdən istifadə etməyə dair qərar qəbul etdi. 1991-ci ilin yanvarında «səhrada fırtına» əməliyyatı başlandı, əsasən ABŞ-ın hərbi qüvvələri İraq ordusunu məğlub edərək Küveyti azad etdi. SSRİ ilə İraq arasında 1972-ci ildə dostluq və əməkdaşlıq haqqında müqavilə imzalanmasına baxmayaraq, sovet diplomatiyası öz ənənəvi dostunu müdafiə etmədi və işğalçı dövlət kimi İraqa qarşı keçirilən əməliyyata razılıq verdi. Bu antihitler koalisiyasından sonra birinci hadisə idi ki, SSRİ ABŞ-ın üçüncü

dövlətə qarşı müdaxiləsini dəstəkləyirdi. Digər bir tərəfdən SSRİ ilə İraq arasında mövcud iqtisadi əməkdaşlıq və İraqın SSRİ-yə olan bir neçə milyard dollar həcmindəki dövlət borcları ona qarşı tətbiq edilən iqtisadi embarqo ilə Sovet İttifaqının iqtisadiyyatına zərbə oldu. Bununla belə, təsadüfi deyil ki, 1990-cı ilin noyabrında SSRİ-nin prezidenti M.S.Qorbaçov Sülh uğrunda Nobel mükafatına layiq görüldü. SSRİ-nin yeni xarici siyasət kursu «soyuq müharibə»nin nəticələrini aradan qaldırdı və dövlətlər arasındakı etimadsızlığa son qoydu.

1990-cı ilin noyabrında Parisdə Avropada əməkdaşlıq və təhlükəsizlik müşavirəsi çərçivəsində 34 dövlətin nümayəndələrinin görüşü oldu. Avropada qarşıdurma və parçalanma erasının başa çatdığını, yeni demokratiya, sülh və birlik erasının başlandığını bəyan edən «Yeni Avropa üçün Paris xartiyası» qəbul edildi. «Xartiyaya» imza atmış ölkələr nəinki təhlükəsizlik problemlərini həll etməyə, eyni zamanda vahid dəyərlər uğrunda geniş hərtərəfli əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını nümayiş etdirdilər.

1990-cı il noyabrın 19-da VMT və NATO-ya daxil olan 22 dövlət «Avropada adi silahlı qüvvələr haqqında» müqavilə imzalamışdır. Müqavilə Atlantikadan Urala kimi silahların əhəmiyyətli dərəcədə azaldılmasını nəzərdə tutmuşdur. Məsələn, tərəflər 20 mindən çox tanka sahib ola bilməzdi. Müqavilə imzalanan vaxtı isə NATO-nun 30 min, VMT-nin 60 min ədəd tankı mövcud olmuşdur. Müqavilə yeni təhlükəsizlik sisteminin əsasını qoymuş oldu.

1991-ci il iyulun 31-də Moskvada Sovet-Amerika strateji hücum silahlarının məhdudlaşdırılmasına dair müqavilə imzalanmışdır. Müqaviləyə əsasən, hər iki ölkənin qitələrarası ballistik raketlərinin sayı 30-40% ixtisar edilirdi. Bu 1600 daşıyıcıdan və 6000 partlayıcı maddədən çox ola bilməzdi. Sənədə görə, uzun zaman SSRİ-nin etiraz etməsinə baxmayaraq, yerlərdə nüvə silahlarının təftiş edilməsi nəzərdə tutulmuşdur. Müqavilə iki böyük nüvə dövlətinin atom silah cəbhəxanasının ixtisarı yolunda mühüm irəliləyiş idi.

Lakin SSRİ-də iqtisadi vəziyyətin pisləşməsi və siyasi çəkişmələr 1990-cı ilin sonu–1991-ci ildə xarici siyasət sahəsində fəaliyyətə mənfi təsir göstərmişdir. Sovet respublikalarındakı suverenlik hərəkatı ölkənin vahid xarici siyasət xəttinə zərbə oldu. 1991-ci ilin yazından başlayaraq ABŞ-da «Mərkəzlə münasibətləri» respublika strukturları ilə əməkdaşlıqla əvəz etmək ideyası meydana gəldi. 1991-ci ilin iyulunda Londonda «böyük yeddiliyin» görüşündə M.S.Qorbaçova xahiş etdiyi böyükhəcmli iqtisadi köməkdən imtina edildi. Konkret şəraitdə bu kömək müttəfiq hakimiyyət strukturlarının mövqeyini əsaslı olaraq zəiflətmiş olardı. 1991-ci il 19-21 avqust siyasi böhranından sonra SSRİ-də dezinteqrasiyanın, yəni bütövün öz tərkib hissələrinə parçalanması tərəfdarı olan Qərbdəki qüvvələr artıq öz baxışlarını gizlətmirdilər.

# XXXI FƏSİL
# 1940-cı İLLƏRİN İKİNCİ YARISI – 1980-ci İLLƏRDƏ SSRİ-də MƏDƏNİYYƏT

## §1. Müharibədən sonra ölkənin mənəvi həyatı. Təhsil. Elm

Müharibə ölkə mədəniyyətinə ağır zərbə vurmuşdur. Minlərlə məktəb, ali və orta ixtisas müəssisələri, muzey, maddi və mədəniyyət abidəsi dağıdılmışdır. Çoxsaylı istedadlı alim, bədii yaradıcılıqla məşğul olan ziyalı, incəsənət xadimi, mütəxəssis müharibədə həyatını itirərək, mənəvi həyatdakı yerlərini tuta bilməmişdir. Xalq üçün əsl imtahan olan 1941-1945-ci illər müharibəsi onların ən yaxşı keyfiyyətlərini üzə çıxardı. Stalin hakimiyyəti cəmiyyətin yenidən qurulmasında təhsil, elm, mədəniyyətin həlledici rola malik olduğunu dərk edərək son dərəcə gərgin vəziyyətdə olan dövlət büdcəsindən onların inkişafı məqsədilə xeyli vəsait ayırmışdır. 1946-cı illə müqayisədə 1947-ci ildə elmin inkişafına 1,5 mlrd. rubl çox ümumi vəsait qoyuluşu ayrılmışdır ki, bu da 1940-cı illə müqayisədə 3 dəfədən də artıq idi. Elmi işçilərin maddi-məişət şəraiti xeyli yaxşılaşmışdır. 1946-cı ildə professor-müəllim heyəti və elmi işçilərin əməkhaqqı orta hesabla iki dəfədən də çox artmışdır. Professor, elmlər doktorunun əməkhaqqı 2 mindən 5 min rubla, dosent, elmlər namizədinin əməkhaqqı 1,2 mindən 3,2 min rubla çatmışdır. Dördüncü beşillikdə elmi-tədqiqat institutlarının sayı 1946-cı ildəki 2061-ə qarşı 3 dəfə artmışdır. Azərbaycan, Qazaxıstan, Latviya və Estoniyada elmlər akademiyaları, SSRİ Bədii Akademiyası açılmışdır. 1952-ci ildə SSRİ-də icbari yeddiillik təhsil tətbiq edilmiş, işləyən gənclər üçün axşam məktəbləri açılmışdır. Artıq 1948-ci ildə tələbələrin sayı müharibədən əvvəlki göstəricini ötüb keçmişdir.

Özünün ilk addımlarını atan radio və televiziya verilişlərinin artması əhalinin siyasi və mədəni maariflənməsi imkanlarının geniş miqyas almasında əhəmiyyətli rol oynamışdır. Moskva və Leninqrad mərkəzləri televiziya verilişlərini 1938-ci ildən daimi yaymağa başlamışdır. 1945-ci ildə ölkədə bir neçə yüz teleqəbuledici olduğu halda, 1953-cü ildə onlar on minlərlə olmuşdur. 1949-cu ildə konstruktorlar V.K.Keniqson, N.M.Varşavski, İ.A.Nikolayevskinin başçılığı ilə ilk xalq televizoru olan KVN-49 teleqəbuledicisi istifadəyə verildi və 1962-ci ilə kimi 2,5 mln. belə qəbuledici buraxıldı. 1962-ci ildə onu «Rekord» tipli televizorlar əvəz etdi.

Müharibənin qələbə ilə başa çatması adamların nikbin əhvali-ruhiyyəsilə müşayiət olunur, onlar azad və layiqli həyat arzulayırdılar. Lakin cəmiyyət üzərində nəzarətin zəiflədilməsi ölkənin partiya və dövlət rəhbərliyinin planına daxil deyildir. Odur ki, Stalin epoxası üçün xarakterik olan mədəniyyətin böhranını səciyyələndirən yeni repressiya dalğası başladı. Müharibə illərində cəmiyyətin düşünən beyni ziyalılar üzərində nəzarəti müəyyən ölçüdə itirən partiya və hökumət total qorxu şəraitini bərpa etmək məqsədilə yaradıcı ziyalıların fəaliyyətinə təzyiqi artırdı. Elmi müzakirələrdə iştirak edən partiya və hakimiyyətin ali rəhbərləri mütəxəssisləri sərbəst fikir ifadə etməkdən məhrum edirdi. Məsələn, 1947-ci ildə fəlsəfə məsələləri üzrə müzakirələrdə ÜİK(b)P MK-nın katibi, Siyasi Büro üzvü A.A.Jdanov, 1950-ci ildəki dilçilik, 1951-ci ildəki siyasi iqtisad üzrə müzakirələrdə İ.V.Stalin şəxsən iştirak edərək alim və ziyalılara tədqiqatçılıq «dərsi» keçmişdir. SSRİ ilə Qərb arasında ideoloji divar çəkən siyasi rejim rəsmi siyasətin dairəsindən kənara çıxan mədəniyyət, incəsənət, elm xadimlərini vətənpərvər olmamaqda günahlandıraraq təqib edirdi. Bu məqsədlə nazirlik və idarələrdə bir il müddətinə 5-7 nəfərdən ibarət vicdan məhkəmələri təşkil olunmuşdur. Dövlət və coğrafi sərhədlərdən uzaq beynəlmiləl elm və mədəniyyət haqqında düşünən hər bir ziyalı vicdan məhkəməsindən keçmişdir. Belorusiya SSR EA-nın prezidenti, genetik, akademik A.R.Şebrak öz metodu ilə bütün ölkəni yedizdirməyə söz verən T.D.Lısenkonu açıq tənqid etdiyi üçün vicdan məhkəməsində alçaldılaraq prezident vəzifəsindən azad edilmişdir. Beynəlxalq Astronavtika Akademiyasının həqiqi üzvü, bir sıra xarici elmi cəmiyyətlərin üzvü, Lenin və üç dəfə Qırmızı Əmək Bayrağı ordenli akademik Vasili Vasilyeviç Parin təhqiredici vicdan məhkəməsində mühakimə edilən alimlərdən biridir. Vicdan məhkəməsinin növbəti qurbanları 1946-cı ildə «Bədxassəli şişlərin biomüalicəsi» əsərinin müəllifləri professorlar N.Q.Klyuyeva və Q.İ.Roskin olmuşdur. Alimlər nəticədə sınaqdan çıxmayan dərman preparatlarının texnologiyasını ABŞ-a verməkdə ittiham edilsələr də, onlar məhkəmədə iddiaları rədd etdilər. Lakin buna baxmayaraq, məhkəmə professorları sovet vətəndaşlarına yaraşmayan yalan ifadə verməklə təqsirləndirmişdir. Alim və yaradıcı ziyalılar haqqında alçaldıcı məhkəmələr bir qayda olaraq vətənpərvər olmayan, Qərb qarşısında sitayiş edənlər ittihamı səsləndirirdi.

1948-ci ilin avqustunda V.İ.Lenin adına Ümumittifaq Kənd Təsərrüfatı Elmlər Akademiyasının «məlum» sessiyasında genetika yalançı elm elan olunaraq SSRİ-də qadağan edildi. Akademik T.D.Lısenkonun başçılıq etidyi kampaniyanın gedişində üç min nəfərə yaxın bioloq alim işdən qovuldu və ya

repressiyaya uğradı. Oxşar aqibəti 1950-ci illərdəki fizioloqların sessiyasından sonra ölkədəki fizioloq, psixoloq və tibb alimləri də yaşamışdır.

Bütün təqib və təzyiqlərə baxmayaraq, hakimiyyəti təmsil edənlərin elm və mədəniyyət sahəsindəki diktə özbaşınalığına sipər çəkən azsaylı ziyalılar da tarixə öz adlarını yazdırmışdır. Məsələn, fizika sahəsində görkəmli akademiklər A.F.İoffe və P.L.Kapitsa elmin maraqlarını nəzərə alaraq, istedadlı alimləri açıq müdafiə edərək, təhlükəsizlik orqanları əməkdaşlarının əlindən qurtarmışdır. Əsl vətəndaşlıq mövqeyindən çıxış edən Pyotr Leonidoviç Kapitsanın yüksək elektromaqnit sahəsindəki tədqiqatları nəticəsində Sovet İttifaqında yeni istilik nüvə reaktoru yarandı.

Zəncirvari reaksiya nəzəriyyəsinə görə, Akademik N.N.Semyonov 1956-cı ildə Nobel mükafatına layiq görülmüşdür (amerikan alimi S.Xinşelvendlə birlikdə). 1958-ci idə fizika sahəsində İ.E.Tamm, İ.M.Frank, P.A.Çerenkov optik şüalanma tədqiqatlarına görə Nobel mükafatı almışdır. Maqnitizm və kvant nəzəriyyəsi sahəsində fəaliyyət göstərən, şöhrəti ölkənin sərhədlərini aşan alimlərdən biri də L.D.Landau olmuşdur. Kvant mayesi nəzəriyyəsinə görə L.D.Landau 1962-ci ildə Nobel mükafatı almışdır. Dünya şöhrətli sovet alimləri N.Q.Basov və A.M.Proxorov xarici kolleqaları G.Taunsomla birlikdə radioelektronika sahəsindəki tətqiqatlara, birinci kvant generatorunu yaratdığına görə 1964-cü ildə Nobel mükafatına layiq görülmüşdür. Müharibədən sonrakı birinci onillikdə SSRİ-də kosmik fəzanın öyrənilməsi sahəsində ilk addımlar atılmışdır. Akademik M.V.Keldışın rəhbərliyi ilə bu sahədə xüsusi komissiya təşkil edilmişdir.

1941-1945 illərdəki müharibədən sonrakı ilk onillikdə ölkənin təhsil sahəsində kəmiyyət dəyişikliyi nəzərə carpırdı. On il ərzində SSRİ-də 5 mln. yeri olan 30 mindən çox tədris müəssisəsi tikilmiş və yaxud bərpa olunmuşdur. Müharibədən sonrakı təhsil sahəsindəki quruculuq işlərində məktəblilər və onların valideynləri yaxından iştirak etdiyi üçün bu kampaniya «Xalq tikintisi» adını almışdır. 1950-1955-ci illərdə ölkədə 50 yeni ali məktəb fəaliyyətə başladı. Müharibədən sonra ölkənin xalq təsərrüfatındakı bərpa və quruculuq işlərində mütəxəssislərə artan tələbatı nəzərə alaraq ali məktəblərə qəbul planı artırıldı. Təkcə, 1951-ci ildə ölkənin ali məktəblərinə 350 min tələbə qəbul edilmişdir.

1950-ci ilin ortalarından məktəb təhsili sahəsində başlıca vəzifə «məktəbin həyatla əlaqəsinin möhkəmləndirilməsi» idi. Bu vəzifənin həyata keçirilməsi bilavasitə N.S.Xruşşovun hakimiyyəti dövründə bəyan edilən «mülayimləşmə» siyasətilə bağlıdır. 1954-cü ildə il İ.Erenburqun «Mülayim hava» («Оттепель») romanı çap olundu ki, bu ad N.S.Xruşşov dövrünün məzmununun obrazlı ifa-

dəsi oldu. İ.Stalin hakimiyyəti dövründəki totalitar siyasi rejimin tənqidi «mülayimləşmə»nin əsas hadisəsi hesab oluna bilərdi. Xüsusilə «mülayimləşmə» illərində «sosializmin deformasiyasını» tənqid edən ziyalılar nəsli formalaşdı.

N.S.Xruşşov «mülayimləşməsi» SSRİ tarixinin İ.V.Stalinin ölümündən sonra on ilinin, yəni 1950-ci ilin ortalarından 1960-cı ilin ortalarına kimi davam edən mərhələnin qeyri-rəsmi adıdır. SSRİ-nin daxili həyatında Stalinin şəxsiyyətinə pərəstişin tənqidi, 1920-1930-cu illərin repressiyalarının ifşa edilməsi, rejimin liberallaşması, siyasi məhbusların azad edilməsi, QULAQ-ın ləğv olunması, totalitar hakimiyyətin zəiflədilməsi, müəyyən söz azadlığı, siyasi və ictimai həyatın nisbi demokratikləşməsi, Qərb dünyasına açılmaq, yaradıcı fəaliyyətin azadlığı bu dövrün başlıca səciyyəvi xüsusiyyətləridir.

1950-ci illərdə maarif sistemində əsaslı dəyişiklik meydana gəlmişdir. 1959-cu ildəki siyahıyaalınmaya əsasən, ölkə əhalisinin 43%-nin ali, orta və tam olmayan orta təhsili var idi. Orta məktəb məzunları bir qayda olaraq ali məktəblərdə təhsillərini davam etdirmək məqsədilə istehsalata meyil göstərmirdilər. Müharibə ərəfəsində məktəbləri 468 min, 1951-1955-ci illərdə bir milyondan çox, 1956-1960-cı illərdə 1,7 mln. nəfər şagird bitirmişdir. Fəhlə sinfi və texniki ziyalıların sıralarını artırmaq məqsədilə məktəblərdə islahat keçirilməsi tələbata çevrilmişdir. Odur ki, 1955/56-cı tədris ilindən məktəblər politexnik təhsili artırmaq, gənc oğlan və qızları istehsalata hazırlamaq məqsədilə yeni dərs planlarına keçdi. 1958-ci ilin dekabrında «Məktəbin həyatla əlaqəsini möhkəmlətmək və SSRİ-də xalq maarifini daha da inkişaf etdirmək haqqında» qəbul edilən Qanunla ölkədə ümumicbari səkkizillik təhsil tətbiq olundu. Tam orta təhsil müddəti 10 ildən 11 ilə çıxarıldı, eyni zamanda məktəbi bitirən şagirdlər kamal attestatı ilə bərabər hər hansı bir sənətə sahib olmağa dair şəhadətnamə də alırdı. Məktəbin həyatla əlaqəsini gücləndirmək məqsədilə təhsil müddəti 1-3 il olan texniki-peşə məktəbləri şəbəkəsi yarandı. Lakin gənc oğlan və qızların istehsalata maraq göstərməməsi bu siyasətin uğur qazanmamasına, həm də ümumtəhsil səviyyəsinin aşağı düşməsinə səbəb olmuşdur. Odur ki 1964-cü ildə məktəblər yenidən 10 illik təhsil proqramına keçdi.

Ali və orta ixtisas təhsilli mütəxəssislərə tələbatın artması 1957-ci ildə ikiillik iş stajı olan gənclərin tədris müəssisələrinə qəbulu zamanı onlara üstünlük verilməsi qaydasının tətbiq edilməsini təmin etmişdir. Tələbata uyğun olaraq axşam və qiyabi təhsilin şəbəkəsi daha da genişləndi. Nəticədə xalq təsərrüfatında çalışan ali və orta ixtisas təhsilli işçilərin sayı 1959-cu ildə artaraq fəhlələr arasında 39, kolxozçular arasında isə 21% təşkil etmişdir. 1959-65-ci illərdə ali təhsil məktəbləri ölkənin xalq təsərrüfatı üçün 2,4 mln.

nəfər mütəxəssis hazırlamışdır. Lakin kadrların sayının artması onların keyfiyyət hazırlığının yüksək səviyyədə olması demək deyildir. Xalq maarifi, ali təhsil və elmi işçilərin məvacibinin artırılması, onlara bir sıra güzəştlər nəzərdə tutulmasına baxmayaraq təhsilin səviyyəsi 30-cu illərlə müqayisədə belə geri qalırdı. Müəllimlərin böyük əksəriyyəti qısamüddətli kurslarda sürətli proqram əsasında hazırlıq keçirdi ki, bu da onların səviyyəsinə öz mənfi təsirini göstərməyə bilməzdi. Eyni zamanda əvvəllər olduğu kimi, cəmiyyətdəki «mülayimləşmə» dövründə də təhsil müəssisələri vahid dərslik və proqramları ilə kommunist tərbiyəsinin mərkəzi olaraq qalırdı. Bir sıra sovet pedaqoqu, o cümlədən sonradan «mücərrəd humanizmdə» ittiham olunan V.A.Suxomlinski təhsil və tərbiyənin metodikasını dəyişərək gənclərin yaradıcılıq qabiliyyətini inkişaf etdirməyi tövsiyə etmişdir. «Mülayimləşmə» illərində formalaşan yenilikçi pedaqoqlar başa düşürdülər ki, xalq təsərrüfatının uğuru yaxın zamanda yeni elmi-tədqiqat institutlarının, konstruktor bürolarının, təcrübə zavodlarının və s. meydana gəlməsindən asılıdır. Odur ki, Yakutiyada, Saxalində, Şərqi Sibirdə, Krımda elmi tədqiqat institutlarının geniş şəbəkəsi yaranmışdır. 1957-ci ildə Novosibirskdə meydana gələn yeni elmi mərkəz mühüm hadisə olmuşdur.

1950-1960-cı illərin birinci yarısında SSRİ Elmlər Akademiyasının tərkibinə daxil olmuş elmi-tədqiqat institutlarının kəmiyyət və keyfiyyət göstəriciləri artaraq xeyli yüksəlmişdir. Məsələn, 1956-1958-ci illərdə Akademiyanın tərkibində 48 elmi-tədqiqat institutu təşkil edilmişdir. Bu illərdə SSRİ Elmlər Akademiyasına görkəmli alim və elm təşkilatları, o cümlədən 1951-1961-ci illərdə A.N.Nesmeyanov, 1961-1975-ci illərdə M.V.Keldış rəhbərlik etmişdir.

Rəsmi məlumata əsasən, 1950-ci ildə SSRİ-də 162,5 min nəfər, 1960-cı ildə isə 354,2 min nəfər elmi işçi fəaliyyət göstərmişdir.

1950-ci illərdə elmi tədqiqatlarda prioritet hərbi-sənaye komplekslərinin inkişafına verilmişdir. 1954-cü ildə HSK-nın inkişafındakı xidmətlərinə görə 5 nəfər, o cümlədən B.L.Vannikov, N.L.Duxov, İ.V.Kurçatov, Y.B.Xariton, K.İ.Şelkin üç dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. 1956-cı ildə Y.Q.Zeldoviç, 1962-ci ildə A.D.Saxarov, Y.P.Slavski, 1971-ci ildə M.V.Keldış, 1972-ci ildə A.N.Tupolev, 1973-cü ildə A.P.Aleksandrov, 1974-cü ildə S.V.İlyuşin bu şöhrətli nəslin sıralarına daxil olmuşdur.

Stalinizm dövründən fərqli olaraq elm nümayəndələri xarici ölkələrdəki kolleqaları ilə sıx əməkdaşlıq edirdi. Amerika, Avropa və Asiyanın 40 nəfərdən çox görkəmli alimi SSRİ EA-nın tərkibinə seçilmişdir. Bununla bərabər, ölkənin bir çox akademik və professoru xarici milli akademiyaların cəmiyyət və universitetlərinin fəxri üzvü seçilmişdir. Stalinizm illərində yalançı elm damğası

vurulan sahələr «mülayimləşmə» dövründə tədricən dirçəlməyə başladı. Kibernetika sahəsində akademik A.İ.Berq, avtomatika və telemexanikada akademik V.A.Trapeznikov, yarımkeçiricilər fizikası sahəsində dünyaşöhrətli akademik A.F.İoffe, sürətli elektron maşınların yaranmasında akademik S.A.Lebedev sovet elminin şöhrətini ölkəyə və dünyaya yaymışdılar. İ.Stalin repressiyasının qurbanı olaraq «ziyankar və casus» damğası vurulan S. P. Korolyovun başçılığı altında 1957-ci il oktyabrın 4-də yerin ilk süni peyki fəzaya buraxılmışdır. 1961-ci il aprelin 12-də pilot kosmonavt mayor Y.A.Qaqarin dünyada birinci «Vostok» gəmisində yer ətrafında dövrə vurdu. 1964-cü ildə dünyada ilk dəfə kosmonavtlar V.M.Komarov, K.P.Feoktistov və B.B.Yeqorov çoxyerli «Vosxod-1» gəmisində uçuş həyata keçirdilər. 1965-ci ilin martında A.A.Leonov dünyada birinci dəfə uçuş gəmisindən açıq fəzaya çıxmışdır. Sovet İttifaqının bu qələbələri bəşəriyyətin kosmosa yol açmasına xidmət etmişdir.

Adını sovet elmi tarixinə qızıl hərflərlə yazdıran İ.V.Kurçatov nüvə enerjisi sahəsində tədqiqatlarını davam etdirmişdir. 1957-ci ilin dekabrında ilk nüvə buzqıran gəmisi suya buraxıldı. 1958-ci ilin iyulunda atom sualtı gəmisi, 1959-cu ildə sualtı gəmidən hərəkət edən birinci yerli qanadlı raket sınaqdan çıxarılmışdır. 1962-ci ildə «Qrad» yayılım atəş sistemi yaradılmışdır. Şöhrəti ölkənin sərhədlərini aşan A.N.Tupolevin səsdən sürətli reaktiv sərnişin təyyarələri səmada uçmağa başladı. Digər görkəmli aviakonstruktur S.V.İlyuşin yeni sürətli təyyarələrin layihəsini hazırlamışdır.

Tibb elmi sahəsində 300-dən çox elmi-tədqiqat institutu və laboratoriya fəaliyyət göstərirdi. Onların işi nəticəsində ölkədə taun, vəba, çiçək, yatalaq, malyariya kimi qorxulu xəstəliklərin kökü kəsilmişdir. Böyük kimyaçı alimlər A.N.Nesmeyanov və İ.L.Knunyansın elmi tədqiqatlarının nəticəsi xalq təsərrüfatında geniş tətbiq olunmuşdur.

Sov.İKP-nin XX qurultayı marksizm-leninizm və partiyalılıq prinsiplərindən uzaqlaşmamaq şərti ilə müəyyən çərçivədə ictimai elmlər sahəsində məsələlərə yeni yanaşma tərzinin əsasını qoymuşdur. Əvvəllər tədqiqatlar üçün əlçatmaz olan sənədlərin üzə çıxması ictimai elmlərin öyrənilməsinə müsbət təsir etdi. Ölkə tarixinin öyrənilməsinə diqqət və maraq artdı. Çoxcildlik «Ümumdünya tarixi» («Всемирная история»), «Sovet İttifaqının Böyük Vətən müharibəsi tarixi (1941-1945-ci illər)» («История Великой Отечественной войны Советского Союза (1941-1945))», «Ən qədim zamanlardan günümüzə qədər SSRİ tarixi» (11 cild) («История СССР с древнейших времен до наших дней») (11 том), «Böyük Sovet Ensiklopediyası» («Большая Советская Энциклопедия») işıq üzü gördü. Bu əsərlərdə zəngin faktiki materiallar olmasına baxmayaraq, onlar marksist-leninçi üslubunda yazılmışdır.

Humanitar sahədə öz dövrü üçün yenilik kimi qəbul edilən əsərlər yaranır, yeni elmi məktəblər meydana gəlib inkişaf edirdi. 1950-ci illərin əvvəli 1960-cı illərin ortalarında elm sahəsində filosoflar E.V.İlyenkov,V.S.Stepin, vətən tarixi üzrə mütəxəssislər M.N.Tixomirov, N.M.Drujinin, B.A.Rıbakov, ümumi tarix üzrə V.S.Sergeyev, S.D.Skazkin, A.İ.Neusıxin, etnoloq S.P.Tolstov, arxeoloq A.V.Artisxovski, hüquqşünas N.Q.Aleksandrov, iqtisadçılar L.V.Kantoroviç, V.S.Nemçinov, ədəbiyyatşünaslar M.M.Baxtin, D.S.Lixaçev, dilşünas V.V.Vinoqradov, psixoloq A.N.Leontyev, sosioloq Q.V.Osipov, pedaqoq M.N.Skatkin və d. öz dərin izlərini qoymuşdur.

## §2. Ədəbiyyat və incəsənət

Müharibədən sonra yaradıcı ziyalıların qarşısında duran əsas vəzifə bundan ibarət idi ki, onların yaratdığı əsərlər sovet xalqının dağıdılmış xalq təsərrüfatını bərpa etmək ruhunda olmaqla yanaşı, həm də sovet cəmiyyətinin yalnız müsbət məqamların əks etdirməli idi. Beləliklə, cəmiyyətin müharibədən əvvəlki rəsmi ideologiya çərçivəsində idarə olunmasına inanmaq istəməyən ziyalılar yanılmışdır. Mədəniyyət sahəsində partiya və dövlətin siyasətinin dəyişmədiyini ÜİK(b)P MK-nın 1946-cı il 14 avqust tarixli «Zvezda» və «Leninqrad» jurnalları haqqında», 1946-cı il 26 avqust tarixli «Dram teatrlarının reperturarı və onların yaxşılaşdırılması tədbirləri haqqında», 1948-ci il 11 sentyabr tarixli «Krokodil» jurnalı haqqında qərarları göstərdi. Bu sənədlər bir çox görkəmli yaradıcı ziyalılar üzərinə geniş miqyaslı hücuma şərait yaratdı. Görkəmli yazıçı və şairlər A.A.Axmatova, M.M.Zoşşenko, E.Q.Kazakeviç, Y.P.German, istedadlı kinematoqraflar S.M.Eyzenşteyn, V.İ.Pudovkin, L.D.Lukov, Q.M.Kozintsevin yaradıcılığına ideyasızlıq, siyasi laqeydsizlik damğası vuruldu. Bədii ədəbiyyat rəsmi sovet ideologiyasının tələb etdiyi çərçivədən kənara çıxa bilməzdi. Müharibədən sonra çap olunan A.A.Fadeyevin «Gənc qvardiya» («Молодая гвардия»), V.P.Nekrasovun «Stalinqradın səngərlərində» («В окопах Сталинграда») əsərlərində döyüş və arxa cəbhədə adamların ağır vəziyyətindən, çətinliklərdən və s. bəhs edildiyi üçün ilk vaxtlar müsbət qarşılanan əsərlər ideoloji nəzarətin artması ilə əlaqədar olaraq qara siyahıya daxil edilmişdir. Ədəbiyyat ağır və faciəvi həyatdan deyil, bayram əhvali-ruhiyyəsindən, münaqişəsiz sujetlərdən, parlaq gələcəkdən bəhs edərək partiyalılıq prinsipindən kənara çıxa bilməzdi. Odur ki L.M.Leonovun «Rus meşəsi» («Русский лес»), K.A.Fedinin «Qeyri-adi yay» («Необыкновенное лето»),

V.F.Panovanın «İlin fəsilləri» («Времена года»), V.A.Koverinin «Açıq kitab» («Открытая книга») kimi yaxşı əsərləri «jdanovçuluq» dövrünün məhsulu olduğundan yenilikçi axtarışdan, janr və üslubi çeşidlikdən uzaqdır.

Müharibədən sonra ideoloji və siyasi təqibə məruz qalan kinematoqrafiyada filmlərin sayı kəskin azalmışdır. Daha çox ölkənin tarixindən bəhs edən yüksək vətənpərvər ideyalı «Sovet nağılları» yaradılması tələb olunur, partiyalılıq prinsipində çəkilməyən filmlər hakimiyyət tərəfindən təqiblə qarşlanırdı. Məsələn, L.Lukovun Donbasın bərpasından bəhs edən «Böyük həyat» («Большая жизнь») filmi ideya-siyasi cəhətdən nöqsanlı hesab edilmişdir. İdeoloji nəzarətə şəxsən rəhbərlik edən partiya MK-nin katibi, Siyasi Büronun üzvü Jdanov iddia edirdi ki, filmdəki hadisələr sovet adamının aşağı mədəni səviyyəsindən, içki düşkünü, məhəbbət aludəçiliyindən bəhs edir ki, bu da əsl həqiqətdən uzaqdır. A.Dovjenkonun «Ukrayna alovlar içində» («Украина в огне») filmi Ukrayna, sovet xalqının, partiyanın ziddinə olan məhdud Ukrayna millətçiliyi ilə damğalanmışdır. Rejissor S.Yutkoviçin «Rusiya üzərindəki işıq» («Свет над Россией»), rejissor S.Gerasimovun «Gənc qvardiya» («Молодая гвардия») filmləri sərt tənqid edilmişdir.

Siyasi hakimiyyətin bədii ziyalıların yaradıcılığına nəzarəti artırması sayəsində kino, teatr və incəsənətin başqa sahələrində sovet adamlarının gündəlik həyatı ilə, onları əhatə edən reallıqla heç bir əlaqəsi olmayan «Sovet nağılları» meydana gəlməyə başladı. İ.A.Pıryevin «Kuban kazakları» («Кубанские казаки»), Q.V.Aleksandrovun «Yaz» («Весна») musiqili komediyaları buna misaldır.

ÜİK(b)P MK-nın V.Muradelinin «Böyük dostluq» («Великая дружба») operası haqqında 1948-ci il fevraın 10-da qəbul etdiyi qərarla sovet musiqisində «formalizmlə» mübarizə kampaniyası başlamışdır. Bəstəkar Vano Muradeli bəhs olunan operasında milli hissləri qızışdırmaqda ittiham olunurdu. Hakim partiyanın hətta musiqidə belə, özlərini məsələdən baş çıxaran hesab edən rəhbərləri bir çox istedadlı bəstəkar və musiqiçilərin yaradıcılığına qara yaxaraq onların əsərlərini qadağan etmişdir. İstedadlı bəstəkar və musiqişünaslar S.S.Prokofyev, D.D.Şostakoviç, N.Y.Myaskovski, V.Y.Şebalin, A.İ.Xaçaturyan və başqalarının yaradıcılığı tənqid olunaraq əsərlərinin ifasına qadağa qoyuldu.

N.S.Xruşşovun SSRİ-nin sükanı arxasına keçməsindən sonra ölkədə başlayan mülayimləşmə siyasi sahədən daha tez mədəniyyətdə baş vermişdir. Artıq 1953-1956-cı illərdə yazıçılar İ.Erenburq, M.Dudintsev, tənqidçi V.Pomerantsev öz əsərlərində ölkənin tarixində ziyalıların rolundan, onların partiyaya olan münasibətlərindən, mövcud sistemdə yazıçı və incəsənət

adamlarının yaradıcılığının əhəmiyyətindən açıq bəhs etməyə başlamışdılar. Partiya və hökumət aparatı rəhbərliyinin mədəniyyət və incəsənətdə nəzarəti yumşaltması bir çox yaradıcı ziyalıların öz əsərlərində sosialist realizmi prinsipindən uzaqlaşmaları üçün şərait yaratdı. Hakimiyyətlə yaradıcı ziyalıların münasibətlərində dəyişikliklər baş verdi. Sovet partiya və dövlət rəhbərlərinin mədəniyyət xadimləri ilə 1957, 1962, 1963-cü illərdəki görüşləri cəmiyyətin həyatında səs doğurdu. «Mülayimləşmə» ziyalıları köhnə siyasi rejimin partiyalılıq prinsipinə sadiq qalan mühafizəkarlara və cəmiyyətdə yaradıcı ziyalıların yeri və rolunu dəyişməyə çalışan liberal altmışıncı illərdəkilərə bölmüşdür. Şairlər, «Yeni dünya» («Новый мир») jurnalının baş redaktoru A.Tvardovski, B.Axmadulina, A.Voznesenski, Y.Yevtuşenko, R.Rojdestvenski, yazıçılar Y.Naqibin, İ.Erenburq, A.Yaşin və b. ikinci istiqaməti təmsil edirdi.

Ölkənin ictimai-siyasi həyatındakı dəyişikliklər nəticəsində bir çox yazıçı və şairlər bəraət qazanaraq yenidən çap olunmağa başladı. Ölkədəki qanunsuz repressiyalardan və hakimiyyətin özbaşınalığından söhbət açan V.D.Dudintsevin «Şərikli çörək» («Не хлебом единым») romanı, V.Qrossmanın «Hər şey axır» («Все течет») povesti çap olundu. D.Qranin, A.Yaşin, Y.Germanın yaradıcılığında cəmiyyətdəki nöqsanlardan açıq bəhs olunurdu. Görkəmli yazıçı və şairlərin ədəbi axşamlarının təşkil edilməsi mədəni həyatın səciyyəvi hadisələrinə çevrilmişdir. A.Yaşinin «Vasitələr» («Рычаги»), D.Qraninin «Şəxsi mülahizə» («Собственное мнение»), S.Kirsanovun «Həftənin yeddi günü» («Семь дней недели») romanları antistalinçi əsərlər kimi tarixdə öz yerini almışdır. 1952-ci ildə «Yeni dünya» jurnalında Valentin Oveçkinin «Rayonun adi iş günü» («Районные будни») oçerklər silsiləsi çap edilərək ədəbiyyatda «kənd nəsrinin» əsası qoyulmuşdur. 1954-cü ildə tənqidçi Fyodr Abramov «Müharibədən sonrakı nəşrdə kolxoz kəndinin adamları» («Люди колхозной деревни в послевоенной прозе») məqaləsində «nə qədər xoş olmasa da, yalnız həqiqətdən» yazmağı tövsiyə etmişdi.

«Mülayimləşmə» illərində kino sənəti yeni məzmun kəsb etməyə başlamış, rəngli ekran əsərləri meydana gəlmişdir. Kinoda tamaşaçı auditoriyasına yaxın və anlaşıqlı olan əsərlər önə çıxmışdı. Rejissorlar M.Xutsievin «Çayın o tayındakı küçədə yaz» («Весна на Заречной улице»), A.Zarkinin «Yüksəklik» («Высота»), A.Xeyfsin «Böyük ailə» («Большая семья»), «Mənim əziz adamım» («Мой дорогой человек») filmləri kinoteatrlarda nümayiş etdirilməyə başlandı. Böyük Vətən müharibəsinə həsr edilən yeni məzmunlu kino filmlər meydana çıxdı. M.Kalatozovun «Durnalar uçur» («Летят журавли»), Q.Çuxrayın «Əsgər haqqında ballada» («Баллада о солдате»), S.Bondarçukun «İn-

sanın taleyi» («Судьба человека») buna misaldır. Bu filmlərdə səngər, əsgər və müharibə həqiqətləri öz bədii əksini tapmışdır. 1964-cü ildə rejissor Q.N.Daneliya yüngül romantik tərzdə «Mən Moskvada addımlayıram» («Я шагаю по Москве») kinosunu çəkmişdir.

Musiqi sahəsinə nəzarətin yumşalması ilə D.Şostakoviçin X və XI simfoniyaları, Q.Qarayevin «İldırımlı yollarla» («Тропою грома»), A.Xaçaturyanın «Spartak» baletləri mühüm hadisə oldu. S.Rixter, E.Qiels kimi pianoçular, D.Oystrax kimi skripkaçılar ölkədə və dünyada söhrət qazanmışdı. Müharibədən sonra ideoloji nəzarətin sərtləşdirilməsi nəticəsində əsərləri xalqa zidd formalizm mahiyyətində olması iddia edilən S.Prokofyev, D.Şostakoviç, V.Şebalin, Q.Popov, A.Xaçaturyan, N.Myaskovski kimi bəstəkarlar partiya MK-nın 1958-ci il 28 may qərarı ilə bəraət qazandılar.

Bədii incəsənət tədricən ideoloji basqıdan azad olmağa başladı. XIX-XX əsrlərin qovuşuğundakı avanqard incəsənət və onun nəzəri irsi bəraət almışdır. Pikasso, Lejenin sərgiləri sovet adamlarında böyük maraq doğurdu. P.Filonov, K.Maleviç, V.Kandinski, M.Şaqalın rəsm əsərlərinin şöhrəti ölkə sərhədlərini aşaraq dünyada yayıldı. Heykəltəraşlar E.Vuçetiç, M.Anikuşin, B.İoqanson, P.Korin, M.Saryan yaratdığı incəsənət əsərlərilə adamların qəlbində taxt qurdu. 1961-ci ildə M.Posoxinin layihəsi əsasında Kremlin qurultaylar sarayı, A.Vlasov, N. Ullay və b. memarlığı ilə «Lujniki» mərkəzi stadionu tikilib istifadəyə verildi. Memarlar A.V.Şusev və V.D.Kokorinin əsərləri Moskva metropoliteninin dayanacaqlarını bəzəyirdi. Heykəltəraş E.V.Vuçetiç 1963-1967-cu illərdə Stalinqrad döyüşü qəhrəmanlarının şərəfinə əzəmətli Mamayev kurqanı xatirə ansamblını işləyib hazırlamışdır. Ümumən 60-cı illərdə təsviri incəsənət sahəsində «sərt üslub» önə çıxmışdır. Başlanğıcda ziyalılara ümid bəxş edən Sov.İKP-nin XX qurultayı sovet cəmiyyətində yaradıcı ziyalıların yeri və rolu məsələsində kökündən dəyişikliyə səbəb olmadı. Belə ki, ölkənin həyatının «mülayimləşməsinə» hakimiyyət tərəfindən müəyyən çərçivə daxilində icazə verilmişdir. Təsadüfi deyildir ki, bədii yaradıcılıq üzərində partiya və dövlətin tələb etdiyi nəzarəti saxlaya bilməyən SSRİ Yazıçılar İttifaqının rəhbəri A.Fadeyev 1956-cı il mayın 13-də Peredelkinodakı bağ evində tapancadan açdığı atəşlə özünə qəsd etmişdir. Ölümqabağı yazdığı məktubda yazıçı yaranmış şəraitə görə partiya və dövlət aparatını, onun səviyyəsiz rəhbərliyini ittiham etmişdir.

İtaliya, Hollandiyada daha sonra da 18 ölkədə çap edilən «Doktor Jivaqo» əsərinə görə 1958-ci ildə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülən, lakin hakimiyyətin təzyiqi üzündən onu qəbul etməyən görkəmli yazıçı B.L.Pasternakın və gələcək Nobel mükafatçısı hakimiyyətin təqibi nəticəsində

ölkəni tərk edən azadfikirli şair İ.Brodskinin işi stalinsizləşmənin hüdudlarını açıq göstərmişdir. Yaradıcı ziyalılardan müəyyən çərçivə daxilində «yumşalan» siyasi rejimin yeritdiyi xəttə xidmət etmək tələb olunurdu. Rəsmi ideologiyanın yeritdiyi siyasətdən kənara çıxan mədəniyyət nümayəndləri hakimiyyətin, şəxsən partiya və dövlətin lideri N.S.Xruşşovun onların peşəkar yaradıcılığına kobud və təhqir-dolu müdaxiləsi ilə qarşılaşdı. 1962-ci il dekbarın 1-də Manejdəki rəsm sərgisində N.Xruşşov rəssam B.Jutovskinin tablolarını «iyrənc», «murdar cızma-qara», heykəltəraş E.Neizvestnının əsərlərini «ürək bulandırıcı qondarma» adlandıraraq onları təhqir etdi. Ölkə başçısına yaraşmayan sözlər, sərt əməli addımlar partiyanın XX qurultayından sonra ona inanan mədəniyyət xadimlərinin və cəmiyyətin çox hissəsinin N.S.Xruşşovdan uzaqlaşmasına təkan vermişdir.

### §3. 1960-cı illərin ikinci yarısı – 1980-ci illərdə mədəniyyət

N.S.Xruşşovun siyasi meydandan getməsi, hakim partiya bürokratik aparatının qələbəsi ölkənin mədəni həyatında mühafizəkar istiqamətin artmasına, stalinsizləşdirmə kursunun dəyişdirilməsinə gətirib çıxardı. Mətbuatda İ.Stalin repressiyalarını ifşa edən məqalələr yoxa çıxdı. Senzuranın yenidən sərtləşdirilməsi nəticəsində ziyalıların gizli və xarici məlumatları əldə etməsi çətinləşdir. Xarici demokratik formanı saxlamaq şərti ilə mədəniyyət sahəsinə inzibati və ideoloji təzyiq daha da artmışdır. 1960-cı illər sovet cəmiyyətində Qərbdə əsərləri nəşr edilən yazıçılar A.D.Sinyavski və Y.M.Daniel üzərindəki açıq siyasi məhkəmə işi, hüquq müdafiəçiləri A.Ginzburq, Y.Qalanski, A.Marçenko və başqalarının həbs edilməsi, A.Soljenitsının əsərlərinin xaricdə çap olunması ilə bağlı yazıçıya qarşı qaralama kampaniyası kimi hadisələr diqqəti cəlb edir. SSRİ-də siyasi və ideoloji senzuranın şiddətlənməsi bir çox mədəniyyət və incəsənət xadiminin könüllü, yaxud məcburi surətdə ölkəni tərk edərək xaricə mühacirətə getməyə sövq etmişdir. Onlar arasında yazıçılar A.Soljenitsın, V.Voynoviç, V.Aksenov, şairlər İ.Brodski, N.Korjavin, A.Qaliç, rejissorlar Y.Lyubimov, A.Tarkovski, rəssamlar E.Neizvestnı, M.Şemyakin, O.Sepkov, balet artistləri P.Nuriyev, M.Barışnikov və b. vardır. Hakimiyyət belə mədəniyyət xadimlərinin adını silərək onların yaradıcılığına uzun müddət qadağa qoymuşdur.

Ümumiyyətlə, N.Xruşşov «mülayimləşməsi» dövründən sonrakı mədəniyyətin inkişafı ziddiyyətli xarakter daşıyır. Düzdür bu mərhələdə yeni

məktəb, ali təhsli müəssisəsi, kinoteatr və mədəniyyət evləri açılır, elmi-tədqiqat institutları yaranırdı. 1970-ci illərdə ümumi orta təhsilə keçilməsi həyata keçirilmişdir. 1960-1970-ci illərdə ölkənin məktəblərində oxuyan şagirdlərin sayı 24,5% artmışdır. Şəhər və kəndlərdə tikilən yeni məktəblərin hesabına onların miqdarı 140 mini keçmişdir. Müəllimlərin də sayı durmadan artırdı. 1960-1991-ci illərdə ölkənin ümumən təhsil məktəblərində onların sayı 44,9% artmışdır. 1984-cü ilin aprelində məktəbin yenidən qurulmasına dair Qanun qəbul edildi. Qanuna əsasən şagirləri fiziki əməyə hazırlamaq məqsəsilə məktəblər ümumi peşə hazırlığını artırdı. Məktəblərdə icbari kompüter hazırlığı dərsləri tətbiq olundu. İslahata əsasən orta məktəblər 1984-cü ildən yenidən onbirillik təhsil müddətinə keçdi. İbtidai siniflər isə dördillik təhsilə keçdi. 1960-cı illərin sonundan SSRİ-də ümimu icbari orta təhsilin tətbiq edilməsilə 3-4 illik təhsil müddəti olan orta peşə texniki məktəbləri yarandı. 1960-1987-ci illərdə texniki-peşə məktəblərinin sayı 1,9 dəfə, onlarda təhsil alan şagirdlərin sayı isə 3,3 dəfə artmışdır. Məktəblərin kəmiyyət artımının göstəriciləri diqqəti cəlb etsə də, bu hələ məktəbin keyfiyyət səviyyəsinin yüksək olması anlamına gəlmirdi. Təsadüfi deyil ki, artıq 1985-1986-cı illərdən başlayaraq məktəb islahatı axsamağa başlamış və tədricən kağız üzərində qalmışdır.

1960-1980-ci illərdə ali məktəblərin keçdiyi yol da mürəkkəb və dolayı olmuşdur. Ali məktəblərin şəbəkəsi artmış, bir çox institutlar univerisitetlərə çevrilmişdir. Çalışan gənclərin ali məktəblərə qəbul olmasına şərait yartmaq məqsədilə 1969-cu ildə fəhlə fakültələri hazırlıq kursları adı ilə yenidən açıldı. Axşam və qiyabi təhsilin şəbəkəsi də genişləndirildi. 1960-1980-ci illərdə bu yolla təhsil alan tələbələrin sayı 64,3% artdı. 1985-ci ildə ölkədəki universitetlərin sayı 69-a çatdı. Artıq 1980-ci illərin ortalarında SSRİ-nin xalq təsərrüfatında 33 mln. mütəxəssis çalışırdı. 1979-cu ildə ölkədə iş qabiliyyəti olan əhalinin 80,5, 1989-cu ildə isə 92,1%-nin ali və orta (tam və natamam) təhsili vardır. Lakin onların böyük əksəriyyətinin hazırlıq səviyyəsi dövrün tələblərinə cavab vermirdi. Başqa bir tərəfdən mütəxəssislərin sayının real həyata müvafiq olmadan artırılması onların işlə təmin edilməsini çətinləşdirirdi. Odur ki, çoxlu gənc mütəxəssis ixtisası üzrə çalışmırdı.

1960-1980-ci illərdə 95%-dən çox dövlət büdcəsindən maliyyələşdirilən elm və elmi-texniki tərəqqi mərkəzləri mədəni inkişafın mühüm sahələrindən biri olaraq qalırdı. 1980-ci illərin sonunda SSRİ-nin elm sahəsində 4,4 mln. adam çalışırdı ki, onların da 1,52 mln. nəfəri elmi və pedaqoji kadrlardır. Hər il ölkədə istehsalatın perspektivli istiqamətləri ilə bağlı olan 85 min ixtira qeydə alınırdı. Atom və qaz enerjisi, kvant elektornikası, lazer texnikası

və d. sahələrdə əldə edilən nəticə xüsusi qeyd oldunmalıdır. Ay, Venera planetlərini tədqiq etmək üçün ilk avtomat stansiyalar göndərilmişdir. İstedadlı sovet tədqiqatçıları V.A.Kotelnikovun radiotexnika və elektronika, V.A.Kirillinin termodinamika, A.Y.İşlinskinin tətbiqi mexanika və avtomatika sahəsindəki elmi işləri bütün dünyada tanınmışdır. Akademik P.L.Kapitsa fizika elmindəki kəşflərinə görə 1978-ci ildə Nobel mükafatı almışdır. Daha sonra 2001-ci ildə J.İ.Alferov, 2003-cü ildə A.A.Abrikosov və V.L.Ginsburq Nobel mükafatına layiq görülmüşdür.

1960-1980-ci illərdə kənd təsərrüfatının kimyalaşdırılması kursuna uygun olaraq M.V.Katalımov, Y.V.Peyve, N.S.Avdonin yeni gübrə növlərinin tətbiqi metodunu işləyib hazırlamışdır. B.A.Şumakov meliarasiya metodunu təkmilləşdirərək, suvarmanın texnikası və vasitələri sahəsində mühüm nəticələr əldə etmişdir. Seleksiyaçı alimlər P.P.Lukyanenko, V.N.Remeslo, F.Q.Kiriçenko 100-ə yaxın yüksək məhsuldarlıq verən qışlıq və yazlıq buğda növü yetişdirmiş, V.S.Pustovoyt 42 günəbaxan, Q.S.Qalleev, B.P.Sokolov yeni qarğıdalı hibridi növləri hazırlamışdır. Zootexnik alimlər A.S.Vsyakix, S.Y.Dudin yeni yüksək məhsuldarlığı olan iribuynuzlu heyvan cinsi, L.K.Qreben, A.İ.Ovsyannikov yüksək məhsuldarlı donuz cinsi yetişdirmişdir. Ölkə alimlərinin əməyi sayəsində 1940-cı illə müqayisədə 1985-ci ildə taxılın məhsuldarlığı 8,6-dan 16,2 sen/ha, ət istehsalı 4,7-dən 17,1 mln. tona, yun 161,1-dən 446,6 min tona çatmışdır.

Lakin ölkə iqtisadiyyatının mərkəzi plan-bölgü mahiyyəti, zəif maddi texniki baza və qalıq prinsipi ilə maliyyələşdirmə elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalata tətbiqinin xarici ölkələrlə müqayisədə geri qalmasına səbəb olmuşdur. Alimlərin hesablamalarına görə, yeniliklərin tətbiqi ilə müqayisədə SSRİ Qərbdən 15-25 il geri qalırdı. Hətta 1970-ci illərdə ölkə əvvəllər kosmosun mənimsənilməsi sahəsində əldə etdiyi birinciliyi itirmişdi. Təyyarəquraşdırma, kompüterləşmə və b. sahələrdə də bu gerilik açıq nəzərə çarpırdı. 1980-cı ilin ortalarında SSRİ-də 50 mln. nəfərdən çox adam sənaye, tikinti və nəqliyyat sahəsində sənaye texnologiyasına qədərki dövr üçün səciyyəvi olan əl əməyi ilə məşğul olurdu. Maddi istehsalatda çalışanların kəmiyyətcə artması əmək məhsuldarlığının aşağı düşməsini şərtləndirən əsas səbəblərdən biridir.

Humanitar və ictimai elmlər sahəsində partiya nəzarəti və ideologiyalaşdırma daha sərt xarakter almışdı. 1960-cı illərin ikinci yarısından faktiki olaraq, sovet cəmiyyəti tarixinin Stalin sxemi bərpa edilmişdi. Sovet tarixçi və filosofları üçün bir çox mövzu və elmi istiqamət qadağan olunmuşdur. 1967-ci ildə A.M.Nekriçin müharibənin ilk aylarında sovet ordusunun məğlubiyyətindən

bəhs edən «22 iyun 1941-ci il» kitabının amansız tənqidi deyilən fikri təstiq edir. Əsərin müəllifi partiyadan xaric edilərək ölkəni tərk etməyə məcbur olmuşdur. 1970-ci illərdə M.Gefter, K.Tarnovski, P.Volobuyev kimi tarixçilər yeni istiqamətin təmsilçiləri kimi Stalin ehkam və stereotiplərindən fərqli olaraq 20-ci əsrin əvvəllərində Rusiyanın sosial-iqtisadi inkişafının xüsusiyyətlərini, Oktyabrın şərtlərini yeni konsepsiyada şəhr etmişlər. Yeni istiqamətin tərəfdarlarına qarşı partiyanın repressiya tədbirləri sərt olmuşdur.

1960-cı illdə bədii ədəbiyyatın liberal demokratik təmsilçiləri A.T.Tvardovskinin rəhbərlik etdiyi «Yeni dünya» («Новый мир») ədəbi-publisistik jurnalı ətrafında qruplaşmışdır.

Sovet yazıçılarının yaradıcılığına nəzarət edən partiya MK-nın kuratorları və ədəbiyyat tənqidçiləri 1960-1970-ci illərdə çalışırdı ki, ədəbi həyat mərkəzinin «Yeni dünya» («Новый мир») jurnalından «Bizim müasirimiz» («Наш современник»), «Moskva», «Gənc qvardiya» («Молодая гвардия») jurnal və nəşriyyatlarına keçməsinə imkan verməsinlər. Lakin onlar buna nail ola bilmədilər. V.Solouxinin «Rus muzeyindən məktub» («Письма из Русского музея»), «Qara lövhələr» («Чёрные доски»), V.Rasputinin «Qəddarla vidalaşma» («Прощание с Матёрой»), V.Belovun «Adət edilmiş iş» («Привычное дело»), B.Mojayevin «Ərlər və arvadlar» («Мужики и бабы») yazıları, D.Balaşov, V.Çivilixin, V.Pikulun Rusiyanın şanlı keçmişi haqqındakı tarixi romanları çoxları üçün yenilik və həyəcan doğurmuşdur. Bütün bunlar cəmiyyətdə böyük maraq doğurduğu üçün Sov.İKP və DTK-nın xüsusi təqiblərinə məruz qalmışdır.

Əvvəllər qadağan olunan M.Bulqakovun «Usta və Marqarita» («Мастер и Маргарита»), B.Pasternakın «Həkim Jivaqo» («Доктор Живаго») romanları ilə oxucu tanış olmaq imkanı qazandı. Oxucu 1969-cu ildə Ven. Erofeyevin «Moskva-Xoruzcuğazlar» («Москва-Петушки»), 1971-ci ildə A.Bitovun «Puşkin evi» («Пушкинский дом») kitabları ilə tanış oldu. 1965-ci ildə M.A.Şoloxov, 1970-ci ildə A.İ.Soljenitsın, 1987-ci ildə İ.A.Brodski ədəbiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür. A.Ananev, A.Çakovski, Y.Bondarev, V.Bıkov, A.Karpov və b. yazıçıların yaradıcılığında hadisə və faktların reallığı və dəqiqliyi ön plana çıxmışdır. Sovet adamının acılı-şirinli taleyi, Böyük Vətən müharibəsi mövzuları bəhs edilən dövrdə yazıçıların qələmə aldığı əsas məsələlərdir. 1960-1970-ci illərin ədəbiyyatında kənd nəsri istiqaməti, adamların torpaqdan soyuması, kənd məişətinin dağıdılması və s. məsələlərdə öz əksini tapmışdır. F.Abramov, V.Oveçkin, V.Belov, V.Astafyev, V.Rasputin, V.Şukşin kənd nəsri ədəbiyyatının başlıca nümayəndələridir.

1980-ci illərin sonlarında SSRİ-də əvvəllər qadağan olunmuş gümüş əsrin şairlərinin, mühacirətdə olan sovet müəlliflərinin və rus yazıçılarının əsərləri çap olunmağa başladı. Nikolay Qumilyov, Mixail Bulqakov, Osip Mandelştam, Andrey Platonov, Boris Pasternak, İvan Bunin, Vasili Qrossman, Yevgeni Zamyatin, İosif Brodski, Vladimir Nabokov, Vladimir Voynoviç, Andrey Sinyavski, Sergey Dovlatov xarici ölkələrdə çap edilmiş əsərləri ilə sovet oxucusunun görüşünə gəldi.

Ümumiyyətlə, SSRİ-də yenidənqurma dövründə ictimai həyatın demokratikləşməsi, bədii yaradıclığa ideoloji nəzarətin qaldırılması, «dəmir pərdənin» aradan götürülməsi nəticəsində sovet və dünya mədəni əlaqələrinin artması müşahidə olunurdu. Mədəni siyasətdəki aşkarlıq yenidənqurmanın vacib istiqamətlərindən birini təşkil edirdi. Bu siyasəti ölkə rəhbərliyi, xüsusilə Mixail Qorbaçov və onun yaxın silahdaşı Aleksandır Yakovlev müdafiə edirdi. Eyni zamanda, hakimiyyətin bu siyasətinin həyata keçirilməsində sovet liderinin həyat yoldaşı Raisa Qorbaçovanın rəhbərlik etdiyi 1986-cı ildə təşkil olunan Sovet Mədəniyyət Fondu mühüm rol oynamışdır. Bütün bunlar ölkənin yeni rəhbərliyinə yenidənqurmanın başlıca hərəkətverici qüvvəsi kimi cıxış etməyə başlayan demokratik əhvali-ruhiyyəli ziyalıların hakimiyyətin kursunu müdafiə etmələrinə, dünya ictimaiyyətinin rəğbətini qazanmağa şərait yaratmışdır.

Bu illərdəki mədəniyyətin səciyyəvi xüsusiyyəti meydana gələn yazıların publisist xarakter daşıyaraq müzakirə edilən məsələlərin cəmiyyət tərəfindən dərin marağa və diqqətə səbəb olmasıdır. 1987-ci ildə qalın jurnallarda Rusiyanın bu günü, keçmişi və gələcəyinə dair yazılar dərc olunmuşdur. «Yeni dünya» («Новый мир») jurnalında İ.M.Kalyamkinin «Hansı yol məbədə aparır?» («Какая улица ведет к храму?»), V.İ.Selyuninin və Q.N.Xaninin «Hiyləgər ədəd» («Лукавая цифра»), N.P.Şmelyovun «Behlər və borclar» («Авансы и долги») məqalələri çap edilmişdir. Bu və başqa çap edilən materiallar bəhs edilən məqalələrin yeniliyinə və ifşaedici pafosuna görə oxucuların böyük marağına səbəb olmuşdur. Bu yazılarda XX əsrdə ölkənin keçdiyi yolun qlobal mahiyyətindən və 1917-ci ildə seçilmiş inkişaf modelinin düzgün olub-olmamasından ətraflı bəhs edilir.

Məhz bilavasitə yenidənqurmanın elan etdiyi siyasətə müvafiq olaraq əvvəllər qadağan edilən əsərlərin çap edilməsi sovet oxucusuna ölkədə uzun illər mövcud sovet siyasi sisteminin faciəvi səhifələrini, repressiyaların miqyasını anlamağa kömək etmişdir. Məsələn, 1987-ci ilin dekabrında rus ədəbiyyatının ən faciəvi əsərlərindən biri olan Anna Axmatovanın «Dua» («Реквием») poeması çap olunmuşdur. 1987-ci ildə yazıçı Anatoliy Rıbakovun hələ 60-cı illərdə yazıb başa çatdırdığı cəmiyyətin stalinizm dövründəki eybə-

cərliklərindən bəhs edən «Arbat uşaqları» («Дети Арбата») romanı işıq üzü görmüşdür. 1988-ci ildə isə Stalin terrorunun özbaşınalığı haqqında Varlam Şalamovun «Kolım hekayələri» («Колымские рассказы») faciəli əsəri nəşr edilərək sovet oxucusuna çatdırlmışdır. 1990-cı ildə Aleksandr Soljenitsının «QULAQ arxipelaqı» romanı çap edildi ki, bu da sovet tarixinin Stalin repressiyasının bəddi tədqiqinin ən parlaq əsərlərindəndir. Şəxsən məhbus həyatı yaşamış müəllif belə bir nəticəyə gəlir ki, ölkədə tuğyan edən terror təsadüfi olmayıb, kommunist rejiminin bərqərar etdiyi məqsədli tədbirlər sistemidir.

1960-70-ci illər kino sənətinin inkişafında mühüm mərhələdir. Bu dövrdə bir çox klassik xarici və rus ədəbi əsərlərini ekranlaşdırmaq mümkün olmuşdur. «Müharibə və sülh» («Война и мир»), «Karamazov qardaşları» («Братья Карамазовы»), «Hamlet» («Гамлет») buna əyani misaldır. Rejissorlar S.Gerasimov, V.Şukşin, E.Ryazanov, N.Mixalkov və b.-nın çəkdiyi səhnə əsərlərində dərin əxlaqi və fəlsəfi problemlər əks edilmişdir. Kinorejissor L.İ.Qaydayın kinokomediyaları bütün ölkədə çoxlu tamaşaçı rəğbəti qazanmışdır. Onun ««I» əməliyyatı» («Операция «Ы»»), «Brilyant əl» («Бриллиантовая рука»), «Qafqaz əsiri» («Кавказская пленница») komediyaları xüsusilə məşhurdur. E.A.Ryazanovun «Qaraj» və «İşdə roman» («Служебный роман») satirik komediyaları mədəni həyatda geniş şöhrət qazanmışdır. Kino sənətində istedadlı aktyor nəsli, o cümlədən A.A.Mironov, A.D.Papanov, Y.V.Nikulin, E.A.Evstiqneyev, E.P.Leonov, L.M.Qurçenko, M.S.Boyarski kimi sənətkarlar parlamışdır.

Görkəmli aktyor V.V.Tixonovun sovet kəşfiyyatçısı Ştirlits rolunu canlandırdığı T.M.Lioznovanın «Baharın on yeddi anı» («Семнадцать мгновений весны») çoxseriyalı televiziya filmi böyük yaradıcılıq uğuru kimi xalqın geniş məhəbbətini qazanmışdır.

1986-cı ildə ekrana çıxan rejissor Tenqis Abuladzenin «Tövbə» («Покаяние») flmi hər bir sovet vətəndaşının Stalin repressiyası üçün məsuliyyət daşıdığını nümayiş etdirmişdir. Bu isə adamların sovet cəmiyyətinin humanist ideyaları uğrunda arzularını və məsuliyyətini bir daha yada salır. Filmə rekord sayda, yəni 13,6 mln. tamaşaçı baxmışdır.

1960-80-ci illərində ənənəvi sovet teatrından fərqlənən teatrlar fəaliyyət göstərirdi. Belə yenilikçi teatrların sırasına quruluşçu rejissor A.Efrosun A.S.Puşkin adına teatrı, Y.Lyubimovun baş rejissoru olduğu Taqankadakı teatr, O.Yefremov, sonra Q.Volçekin baş rejissoru olduğu «Современник» teatrı və Q.Tovstonoqovun başçılıq etdiyi Leninqrad Böyük Dram teatrı daxildi. Teatr səhnəsində N.O.Qritsenko, M.A.Ulyanov, İ.M.Smoktunovski, Y.V.Yakovlev kimi böyük sənətkarlar parlamışdılar.

1980-ci illərin ortalarında yeni tərzdə teatrlar meydana gəlmişdir. Studiya hərəkatı geniş miqyas almışdı. S.Y.Kurginyanın «Lövhələrdə» («На досках»), M.Q. Rozovskinin «Nikitsk darvazaları yanında» («У Никитских ворот»), V.R.Belyakoviçin «Cənub-Qərbdə» («На Юге-Западе») teatr-studiyaları yeni eksperiment kimi iştirakçıların marağına səbəb olmuşdur. M.A.Zaxarovun Lenin komsomolu teatrında M.F.Şatrovun «Vicdan diktaturası» («Диктатура совести»), «Qırmızı otluqda göy atlar» («Красной траве, синие кони»), «Daha uzaq, daha uzaq, daha uzaq» («Дальше, дальше, дальше «) pyesləri yeni quruluşda təqdim olunaraq tamaşaçıların dərin rəğbətini qazanmışdır.

1960-cı illərdə simfonik musiqi sahəsində bəstəkarlar D.Şostokoviç, V.Muradeli, D.Kabalevski, A.Şnitke, Q.Popov, B.Çaykovski, A.Eşpay və başqaları çalışaraq çoxsaylı musiqi əsərləri yaratmışdırlar. Eyni zamanda S.Tulikov, M.Fradkin, A.Paxmutova və b. təmsil etdikləri mahnı estradası janrı geniş yayılmışdır. Opera sənəti sahəsində R.K.Şedrinin «Ölü canlar» («Мертвые души»), K.V.Molçanovun «Sakit üfüqlər» («А зори здесь тихие»), A.P.Petrovun «I Pyotr» əsərləri opera səhnələrinin repertuarını bəzəmişdir. «Beryozka» rəqs ansamblının, İ.Moiseyevin rəhbərlik etdiyi Xalq rəqs ansamblının şöhrəti Sovet İttifaqının sərhədlərini aşaraq bir çox xarici ölkələrdə yayılmışdır. Vətən və dünya klassiklərinin ənənəsini davam etdirən sovet baleti dünya şöhrəti qazanmışdır. Böyük teatrdakı «Qu gölü» («Лебединое озеро»), «Don Kixot», «Karmen», «Spartak» və s. əsərlər tamaşaçıları daim həyəcanlandırmışdır. Q.S.Ulanova, M.M.Plisetskaya, M.E.Liepa, V.V.Vasilyev, E.S.Maksimov kimi balet ustaları dünyaya səs salmışdır.

1960-70-ci illərdə istedadlı rəssamlar İ.Qlazunov, M.Saryan, V.Şipov bir çox dəyərli əsərlər yaratmışlar. Rəssamlar T.Yablonskaya, D. Jilinskinin yaradıcılığında məişət janrı mövzusu ön planda olmuşdur. Rəsmi hakimiyyətin 1974-cü ildə buldozerlərlə dağıtdığı rəssamların sərgisini təmsil edən qeyri-formal incəsənət nümayəndələri fəaliyyətlərini davam etdirmişlər. D.Burdin, M.Şkud və b. 553 metrlik Mərkəzi Televiziya qülləsi ən yaxşı memarlıq işi kimi diqqəti cəlb edir. 1988-ci ildə Moskva və Leninqradda əvvəllər «sosializm realizmi»nə zidd olduğu üçün əsərləri qadağan edilən Pavel Filonov və Kazimir Maleviçin fərdi sərgiləri təşkil olundu.

1970-ci illərdə demokratikləşmənin və mədəniyyətin kütləviliyi elementlərini özündə birləşdirən rok musiqisi meydana gəlmişdir. İlk vaxtlar mədəniyyətin əleyhinə olduğu qəbul edilən rok musiqisi 80-ci illərin ikinci yarısından incəsənətin bir növü kimi qəbul edilmişdir. Bəhs edilən dövrdə B.Qrebenşikovun «Akvarium», A.Makareviçin «Машина времени» rok qrupları ölkədə çox

populyar idi. M.Kim, A.Dolski, S.Nikitin kimi nəğməkar şairlərin – bardların yeni nəsli meydana gəlmişdir.

Yenidənqurma dövründə xarici ölkələrdə mühacirət həyatı yaşayan bir sıra incəsənət xadimi SSRİ-yə dönərək vətəndaşlıq almışdır. Məsələn, görkəmli dirijor, dahi violonçel ifaçısı Mistislav Rostropoviç və onun həyat yoldaşı məşhur opera müğənnisi Qalina Vişnevskaya 1990-cı ilin yanvarında ölkəyə qayıdaraq vətəndaşlıq almışdır. Artıq fevral ayında Moskva konservatoriyasının Böyük zalında Rostropoviçlərin tarixi konserti iştirakçıları valeh etmişdir.

1960-1980-ci illərdə SSRİ-də mədəniyyətin inkişafı ziddiyyətli və ikili xarakterdə olmuşdur. Ölkənin mədəni elitası siyasi hakimiyyətin müəyyən etdiyi ölçüdə təhsil, elm, ədəbiyyat, incəsənət, mənəvi həyatı inkişaf etdirməyə səy göstərmişdir. Sıravi sovet vətəndaşlarının ölkə və dünya mədəniyyətinin nümunələrindən bəhrələnmək imkanı artmışdır. Əhalinin kinoteatrlara, muzey və mədəniyyət ocaqlarına gedişi kütləvi hal almışdır. Bununla bərabər, inzibati-amirlik idarəetmə forması, mədəniyyətin qalıq prinsipi ilə maliyyələşdirilməsi, cəmiyyətdəki ikili əxlaq prinsipi mənəvi həyatın böhranına, elm, təhsil, bədii yaradıcılığın səviyyəsinin aşağı düşməsinə səbəb olmuşdur.

Qeyd etmək lazımdır ki, mədəniyyət sahəsində baş verən proseslərin hamısını müsbət nöqteyi-nəzərdən qiymətləndirmək mümkün deyildir. Partiya diktaturasından azad olan kütləvi informasiya vasitələri çox halda siyasi münaqişə bataqlığına cəlb olunaraq opponentlər arasında qeyri-etik çəkişmələrlə ictimai fikrə neqativ təsir göstərmişdir. «İdeologiyasızlaşdırmanın» elan olunması və kommunist doqmatizmindən azadolma tezliklə burjua-liberal ideologiyaya istinad edilməsinə gətirib çıxarmışdır. Qərblə qarşıdurmadan uzaqlaşıb yaxınlaşma siyasətinə keçilməsi onun bir çox mübahisə doğuran nailiyyətlərinin tənqiddən uzaq qalmasına şərait yaratmışdır. Kinoteatr, televiziya, teatr səhnələrində yüksək bədii dəyəri olmayan zorbalığı, pornoqrafiyanı təbliğ edən əsərlər göstərilməyə başlanmışdır. Bu rus dəyərlərinə estetik və əxlaqi zərbə vurmaqla bərabər, gənc nəslin şüurunun formalaşmasına məhvedici təsir göstərmişdir.

# XXXII FƏSİL
# RUSİYA XX ƏSRİN 90-cı İLLƏRİ – XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ

## §1. Daxili sosial-iqtisadi siyasət

1991-ci ilin sonundan dünya xəritəsində tərkibində 89 subyekt, o cümlədən 21 muxtar respublika olan yeni dövlət – Rusiya Federasiyası meydana gəldi. Bu, yeni dövlətin yalnız adı idi, qarşıda duran əsas vəzifə dövlətin və cəmiyyətin dəyişdirilməsindən ibarət idi. Əsaslı islahatların birinci mərhələsi yeni dövlətçiliyin formalaşması, sosialist plan iqtisadiyyatının bazar iqtisadiyyatına keçməsindən ibarət olub, xronoloji cəhətdən 1992-1993-cü illəri əhatə edir. İqtisadi islahatlarla başlayan birinci mərhələ köhnə dövlət quruluşunun dağılması, sovet respublikalarının demokratik respublikalarla əvəz edilməsilə nəticələndi.

Müasir Rusiya tarixinin ikinci mərhələsi 1994-1999-cu illəri əhatə etməklə, birinci mərhələdə olduğu kimi B.N.Yeltsinin prezident olduğu vaxtdan ibarətdir. Bu zaman 1990-cı illərin əvvəllərində əsası qoyulan sosial-iqtisadi proseslərin islahatları davam etdirilirdi. Lakin ictimai həyatın yenilənməsi ləngiyir, V.S.Çernomırdin hökumətinin elan etdiyi sabitləşmə kursuna uyğun olaraq bəzən yerində sayırdı. İstehsalın aşağı düşməsi, əhalinin böyük əksəriyyətinin həyat səviyyəsinin pisləşməsi, böyük həcmdə xarici borclar, müxalifətçilik əhvali-ruhiyyəsi islahatlara mane olurdu. Bununla belə, ikinci mərhələnin sonunda cəmiyyətin modernləşdirilməsinin ilk siyasi nəticələri kimi, parlamentarizm, qubernator, mer, regional qanunverici orqanların seçkili olması, çoxpartiyalılıq formalaşırdı. İqtisadi sahədə xüsusi mülkiyyət, kapitalist istehsalı, bazar münasibətləri bərqərar olurdu.

Üçüncü mərhələ 2000-ci ildən bu günə kimi olan vaxtı əhatə etməklə V.V.Putin və D.A.Medvedyevin prezidentlik dövrlərindən ibarətdir. Rusiya rəhbərlərinin elan etdiyi bu mərhələnin başlıca vəzifəsi cəmiyyətin sabit inkişafının təminatı olan güclü dövlətin möhkəmləndirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, korrupsiya və cəmiyyətin kriminallaşmasının aradan qaldırılması, iqtisadiyyatın inkişafı üçün hüquqi və əlverişli investisiya şərtlərinin yaradılması, onun inkişaf sürətini təmin edərək, həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir.

Yeni yaranan müstəqil Rusiya dövlətinə SSRİ-dən böyük nüvə dövləti statusu, iqtisadi və elmi-texniki potensialın 60 faizə qədəri, böyük ərazi və zəngin təbii ehtiyatlar miras qalmışdır. Eyni zamanda, ciddi problemlər – SSRİ-nin 70 milyard dollara yaxın borcu, 70 faizə qədəri köhnəlmiş əsas sənaye fondları da bu mirasa daxil idi. 1992-ci ildə B.N.Yeltsin Rusiya hökumətini formalaşdıraraq, baş nazir vəzifəsini icra etməyi gənc islahat tərəfdarı, alim, iqtisad elmləri doktoru Yeqor Timuroviç Qaydara (1956-2009) tapşırdı. A.N.Şoxin və A.B.Çubays isə baş nazirin müavinləri təyin edildilər. Onlar bazar təsərrüfatına sürətli keçid hesabına iqtisadiyyatı sağlamlaşdırmaq kursunu götürdülər. Gənc islahatçıların ölkəni böhrandan çıxarmaq məqsədilə təklif etdikləri yol «şok terapiyası» adını aldı. 1992-ci il yanvarın 2-də Rusiya Federasiyası Prezidentinin fərmanı ilə qiymətlər liberallaşdırıldı, yəni malların böyük əksəriyyəti dövlətin müəyyən etdiyi qiymətdən azad olundu. Müvəqqəti olaraq, dövlətin qiymət nəzarətində enerji, çörək, süd, spirtli içki, kommunal və nəqliyyat xərcləri qaldı. Ticarətin azad olması ilə yanaşı, xarici valyutanın istifadəsinə rəsmi icazə verildi. Xaricdən ərzaq mallarının idxalı gündəlik tələbat malları bolluğu yaratdı. «Qaydar» islahatı tez və əsaslı nəticə verdi, bir neçə ay ərzində mal çatışmazlığına son qoyuldu, mağazaların rəfləri mallarla doldu.

Qiymətlərin liberallaşdırılması ilə bağlı olaraq, büdcədən maliyyələşdirilənlərin və təqaüdçülərin əməkhaqqı iki-üç dəfə artdı. Lakin istehsalın son dərəcə inhisarlaşması və ərzağın total çatışmazlığı istehlak mallarının qiymətinin 10-15, bəzi malların isə hətta 30 dəfə artmasına gətirib çıxardı. İl ərzində qiymətlər, orta hesabla, 26 dəfə artdı və əhalinin real gəliri 44 faiz aşağı düşdü. Əhalinin böyük əksəriyyəti yoxsulluq həddinə çatmışdı. Əmanət kassalarında əhalinin çoxillik əməyi sayəsində yığdığı vəsait qiymətdən düşdü. Xüsusilə təqaüdçülərin və büdcəyə baxan müəllim, həkim, elmi işçi, kitabxana və muzey əməkdaşlarının vəziyyəti daha ağır idi. Eyni zamanda azsaylı sosial üst təbəqənin gəliri sürətlə artaraq, cəmiyyətin təbəqələşməsinin əsasını qoydu. Əhalinin həyat səviyyəsi aşağı düşməkdə davam etdi, bu göstərici 1990-cı ildə 50 faiz təşkil edirdi. Əhalinin Dövlət Bankındakı qiymətdən düşmüş vəsaitinin verilməsi dayandırıldı.

İstehsalla yanaşı, sosial sahələrdə, elm, səhiyyə və təhsil sistemində də vəziyyət ağır olaraq qalırdı. Çoxlu elmi-tədqiqat institutu, laboratoriyalar bağlanır, alim və elmi-pedaqoji kadrların maddi vəziyyəti pisləşdiyi üçün onlar kommersiya strukturlarına və ya xaricə üz tuturdu. Təkcə 1992-ci ildə 90 min alim kommersiya strukturlarına keçdi. Elmi-pedoqoji kadrlar isə 27 faiz azaldı. Rusiya Elmlər Akademiyasının məlumatına əsasən, 1993-cü ilin sonunda ölkədə cəmiyyətin varlı təbəqəsi 3-5, orta təminatçılar 13-15, kasıblar 40, yoxsulluq həddindən də aşağı olanlar 40 faiz təşkil edirdi.

Ölkədə başlayan radikal dəyişikliyə kimi öz gəlirinə əsasən qulluqçular, fəhlə sinfinin yüksəkixtisaslı hissəsi, ziyalılar, dövlət qulluqçuları orta sinfi təşkil edirdi. M.S.Qorbaçovun islahatlarını ən çox məhz onlar müdafiə edirdilər. İslahatın gedişində yenə də məhz onlar heç bir şeyə nail olmadılar.

İstehsalın azalması işsizliyin artmasına səbəb oldu. Lakin sistemin ləngliyi və müəssisə rəhbərlərinin ənənəvi siyasəti ölkədə milyonlarla işsizin küçəyə atılmasının qarşısını aldı. Rusiya şəraitində işsizliyin əmək məhsuldarlığının artırılmasını və bazarın işçi qüvvəsinin səfərbər edilməsini təmin edən faktlara bağlanan ümid özünü doğrultmadı. Ölkənin plan iqtisadiyyatının və müəssisələrin yerləşməsinin xarakteri, azad əldə edilə bilən yaşayış yeri çətinliyi işsizlik problemini əsl fəlakətə çevirirdi. Ölkədə çoxlu şəhər və qəsəbə mövcud idi ki, onların taleyi birbaşa ərazilərində yerləşən müəssisələrin işləməsindən asılı idi. Yerli sənayedə çalışan adamlar yaşayış yerlərində iş tapmaq və ya başqa regiona keçmək imkanından məhrum idi. Federal orqanların rəsmi qeyd etdiyi işsizlər ölkədə faktiki mövcud olan işsizlərin yalnız bir hissəsini təşkil edirdi. Müəssisələrə gələn, lakin işləməyən, tam həftəni iş görməyən gizli işsizlər ordusu kütləvi xarakter almışdı. Müəssisə direktorlarına işçiləri azad etməkdənsə, əvəzi ödənilmədən məzuniyyətə göndərmək sərf edirdi. Bununla onlar, ən azı, işsizlər üçün vəsait ödəməkdən azad olurdular. Mütəxəssislərin hesablamalarına görə, 1994-cü ilin sonunda ölkədə potensial işsizlərin sayı bütün iş qabiliyyəti olan ölkə əhalisinin 13,2 faizini təşkil etməklə, 9,9 mln. nəfərə çatırdı. Ölkənin ayrı-ayrı regionları üzrə yerli əhali arasında işsizlərin sayı fəlakətli həddə idi. Məsələn, 1995-ci ilin əvvəllərində İvanov vilayətində yerli əhalinin 40 faizə qədəri işsiz idi. Onların isə 40 faizindən çoxu ali və orta ixtisas təhsilli idi. Moskva, Sankt-Peterburq, Saratov, Ulyanovsk, Belqorodda olan işsizlərin yarıdan çoxu ali və orta ixtisas təhsilli mütəxəssislər idi.

Özəlləşdirmə (Приватизация) – dövlət mülkiyyətinin əmək kollektivlərinin və fərdi şəxslərin əlinə keçməsi həyata keçirildi. Dərin iqtisadi islahatları həyata keçirmək üçün Rusiyada xüsusi mülkiyyəti bərpa etmək lazım idi. Faktiki olaraq, özəlləşdirmə prosesi gedirdi, belə ki, dövlət əmlakını qarət edərək, ara firma vasitəsi ilə onu aşağı qiymətə sataraq, bu işi kortəbii və qeyri-leqal olaraq davam etdirirdilər. Belə özəlləşdirmənin real gəliri isə nə dövlətə, nə də cəmiyyətə çatırdı, onu müəssisə və təşkilatların rəhbərləri mənimsəyirdilər. Bu prosesi dayandırmağa qadir olan inzibati vasitələr isə artıq mövcud deyildi. Odur ki, «direktor» özəlləşdirilməsini ancaq ümumi qanuna əsaslanan kütləvi özəlləşdirmə dayandıra bilərdi.

Özəlləşdirmə proqramını A.B.Çubaysın rəhbərlik etdiyi Dövlət Əmlak Komitəsi hazırlayıb həyata keçirdi. Müəssisələrin dəyəri ödənilmədən əmlak

kollektivlərinə verilməsi təklifi rədd edildi, çünki bu, köhnə direktorlara hakimiyyətlərini davam etdirməyə şərait yaradaraq, müəssisənin yeni faydalı mülkiyyətçinin əlinə keçməsinə mane olardı. Bundan əlavə, belə özəlləşdirmədən təqaüdçülərə, büdcədən əməkhaqqı alan işçilərə pay düşmürdü. Odur ki, özəlləşdirmənin üç variantı irəli sürüldü.

Birinci varianta görə, aksiyaların 25 faizi pulsuz, 10 faizi isə otuz faizlik güzəştlə əmək kollektivinə verilirdi. Müəssisə rəhbərliyi nominal dəyəri ilə əlavə 5 faiz aksiya da almaq hüququna malik idi. Direktor korpusunun təzyiqi ilə qanunverici orqanlar ikinci variantı təqdim etdi. Bu varianta əsasən, əmək kollektivləri aksiyaların dəyərinin nominaldan 1,7 dəfə artıq olmaq şərti ilə, onların 51 faizinə, yəni nəzarət paketinə sahib ola bilərdi. Hər bir işçi ayrılıqda aksiya mülkiyyətçisi ola bilərdi. Üçüncü varianta görə, müəssisə rəhbərliyi aksiyaların 40 faizini son dərəcə aşağı qiymətlə almaq hüququ əldə edirdi.

Müəssisə rəhbərləri və əməkdaşların əlinə keçən aksiyalar sərbəst şəkildə alınıb satıla bilərdi. Amma əhalinin özəlləşdirilmiş müəssisələrin aksiyalarını almaq üçün vəsaiti yox idi. Xarici investorları Rusiyaya cəlb etmək məqsədilə təminatlı qanunverici baza olmadığı üçün, onlara ümid bəsləmək mümkün deyildi. Pulla özəlləşdirmə isə uzun müddət tələb edirdi. Liberal islahatçılar isə özəlləşdirmənin sürətləndirilməsində maraqlı idi. Bu şəraitdə bütün əhaliyə özəlləşdirmə çeki, yəni vauçerlər verilməsi qərara alındı. Hər bir vauçerin nominal qiyməti 10 min rubl dəyərində idi. Vauçerlər məhdudiyyət qoyulmadan müəssisələrin özəlləşdirilmiş aksiyalarına dəyişdirilə bilər, çek investisiya fondlarına qoyula bilər, alınıb satıla bilərdi. Vauçerlər 1992-ci ilin avqustunda Rusiya prezidenti B.N.Yeltsinin fərmanı ilə verilməyə başladı. 1992-ci ilin oktyabrından 1993-cü ilin fevralına kimi əhaliyə vauçerlər paylandı və Rusiya əhalisinin 97 faizi vauçerlərlə təmin olundu. 1991-ci ildə Rusiyada olan bütün müəssisələrin 47 faizi 2001-ci ilə doğru özəlləşdirilmiş, 40 milyona yaxın əhali aksiya sahibi olmuşdur. Əlavə olaraq, yeni xüsusi müəssisələr meydana gəlmiş, nəticədə 2002-ci ilin sonuna doğru bütün müəssisələrin 75 faizi dövlət müəssisəsi olmaqdan çıxdı. Beləliklə, 1992-1994-cü ildə tədbiq edilən özəlləşdirmə siyasəti nəticəsində ölkə iqtisadiyyatında dövlət bölməsinin aparıcı rolu başa çatdı. Lakin mülkiyyət formasının dəyişməsi iqtisadiyyatda məhsuldarlığı artırmadı. 1993-1994-cü ilin ortalarında sənaye istehsalı 21%, o cümlədən maşınqayırma 31%, istehlak malları istehsalı 30% aşağı düşdü.

Vauçer özəlləşdirməsi ictimai tələbatı doğrultmadı. Vauçerlərin verildiyi birinci günlər qəzetlərdə iki-üç özəlləşdirmə çeki müqabilində mənzil verilməsi haqqında elanlar çap edildiyi halda, sonradan investisiya fondlarına qoyulmuş çeklərin illik gəliri bir neçə çörək "buxanka"sının (rus məişətində çörəyin

xüsusi forması) qiymətinə düşmüşdü. Lakin buna baxmayaraq, vauçer özəlləşdirməsi Rusiyada xüsusi mülkiyyətin formalaşmasına əhəmiyyətli töhfə verərək, pul özəlləşdirilməsinə keçməyə şərait yaratdı. 1994-cü il iyulun 22-dən prezidentin fərmanı ilə ölkədə pul özəlləşdirilməsi başladı. 1994-cü il iyunun 30-da Dövlət Əmlak Komitəsi çek özəlləşdirilməsinin başa çatdığını bəyan etdi. Səhmdarların çoxu əhəmiyyətli mülkiyyətçi ola bilmədi, çünki müəssisələrin idarə edilməsində iştirak etmək üçün, ən azı 10 faizlik aksiya paketinə sahib olmaq lazım idi. Bu isə adi aksiyaçılar üçün əlçatmaz hesab edilirdi. Digər tərəfdən, özəlləşdirməyə qoşulan əhalinin bir hissəsinin dividentə, yəni qazanc payına bəslənən ümidləri də özünü doğrultmadı. Belə ki, 1994-cü ildə özəlləşdirilmiş müəssisələrin yalnız 10 faizi gəlirlə işləyirdi. Bu, investisiya çekləri fondlarına da aid idi. 1994-cü ilin ikinci rübündə 646 fondun yanız 136-ı cüzi divident gətirirdi. Özəlləşdirmədən büdcəyə daxil olan gəlir də ona bəslənən ümidi doğrultmadı. İki il müddətində bütün səviyyələrdə büdcəyə ancaq bir trilyon rubl daxil oldu ki, bu da Macarıstanda özəlləşdirmədən alınan gəlirdən iki dəfə az idi. Gözlənilənin əksinə olaraq, iqtisadiyyata qoyulan xarici investisiya azaldı. Onun həcmi 1993-cü ildəki 2921 mln. rubldan 1994-cü ilin 9 ayı ərzində 768 mln. rubla düşdü. Eyni zamanda investisiyalar emal sənayesinə, yüksək texnoloji sahələrə deyil, hasilat üzrə sərf edilirdi.

Təqribən, 1,5 trilyon rubl olan vauçer fondunun nominal həcmi 1991-ci ilin sonunda Rusiyadakı əsas istehsal fondları balansının dəyərinə uyğun gəlirdi. Lakin qiymətlər liberallaşdıqdan sonra 20 dəfə artdığı halda, əsas fondların yenidən dəyərləndirilməsi ancaq 1993-cü ilin ortasında həyata keçdi. Odur ki, vauçer fondunun müəssisənin dəyərinə görə qiymətləri yüksək idi, bu isə çek investisiya fondları vasitəsilə dövlət mülkiyyətini faktiki olaraq yeni sahibinə aşağı qiymətlərlə verilməsinə gətirib çıxardı. Məsələn, 200 milyard dollardan az dəyəri olmayan özəlləşdirilmiş Rusiyanın 500 iri müəssisəsi, faktiki, 7,2 milyard ABŞ dollarına satıldı. Lixaçev adına iri Moskva avtomobil müəssisəsinin əsas fondları bir milyard dollar dəyərində olmasına baxmayaraq, cəmi 4 mln. dollara satıldı.

1994-cü ilin iyulunda Rusiya Federasiyasının Dövlət Duması özəlləşdirmənin birinci mərhələsini qeyri-qənaətbəxş hesab etdi. Ona görə özəlləşdirmə siyasəti ölkədə sosial-iqtisadi böhranı dərinləşdirərək, ondan çıxmağı daha da çətinləşdirirdi. Bəyan edilən məqsədə nail olunmadı. 1994-cü il istehsalın və investisiya fəallığının daha çox aşağı düşməsi, ölkənin elmi-sənaye potensialının dağılması ilə müşayiət olundu. Əhalinin real əməkhaqqı və orta yaşayış həddi aşağı düşdü, xalqın tənəzzül etməsi təhlükəsi artdı. Elektrik maşınlarının istehsalı 46, metalkəsici alətlər 52, minik avtomobilləri 17, traktorlar 68, kimyəvi liflər 43 faiz azaldı. Yüngül sənaye istehsalı kəskin aşağı düşdü.

Məsələn, paltar 51, ayaqqabı 51, mürəkkəb məişət texnikası 40-50 faiz az istehsal edildi. İstehlak bazarında xarici mallar 1993-cü ildəki 23 faiz yerinə, 1994-cü ildə artaraq, 35 faizə çatdı. Vətəndaşların maddi vəziyyəti pisləşdi. 1994-cü ildə əməkhaqqı 2,5 dəfə artdığı halda, qiymətlər 3,2 dəfə artdı. Faktiki, əməkhaqqı 22 faiz aşağı düşdü. Ölkədə ölənlərin sayı anadan olanların sayından 1993-cü ildə 770 min nəfər çox olduğu halda, 1994-cü ildə 920 min nəfərə çatdı, yəni artdı.

İqtisadi islahatlar proqramı kənd təsərrüfatında mühüm dəyişikliklərlə nəticələndi. 90-cı illər yeni təsərrüfat formalarının meydana gəlməsi ilə müşayiət olunurdu. İqtisadiyyatın aqrar bölməsində açıq və qapalı səhmdar cəmiyyətlər, məhdud məsuliyyətli şirkətlər, kənd təsərrüfatı kooperativləri geniş yayılmışdı. 1999-cu ildə kənd təsərrüfatı strukturunda onların xüsusi çəkisi 65,8 faizə çatırdı. İqtisadi böhran aqrar bölmənin vəziyyətinə ağır zərbə vurdu. Mineral gübrələr, kənd təsərrüfatı texnikası çatmırdı. 1996-cı ildə kənd təsərrüfatı maşınları istehsal edən müəssisələr 14 min traktor, 9800 taxılyığan kombayn buraxdığı halda, 1998-ci ildə onların sayı müvafiq olaraq, 2500 və 1000-ə düşdü. Sonrakı illərdə də onların istehsalı azalmaqda davam etmişdi. Xüsusilə fermer təsərrüfatlarında kənd təsərrüfatı texnikasının çatışmazlığı, təsərrüfat formalarının təşkilindəki nöqsanlar məhsuldarlığın səviyyəsinin aşağı düşməsi ilə nəticələndi. 1990-cı illərin ortalarında kənd təsərrüfatı istehsalının ümumi həcmi 1991-1992-ci illərlə müqayisədə 70 faiz aşağı düşmüşdür. İribuynuzlu mal-qaranın sayı 20 mln. baş azalmışdır.

1991-ci il dekabrın 29-da Rusiya Federasiyası hökuməti «Kolxoz və sovxozların yenidən qurulması haqqında» qərarı ilə torpaq islahatına başladı. Qərara müvafiq olaraq, torpaq üzərində dövlətin inhisarı ləğv edilərək, kənd təsərrüfatı istehsal subyektinin mülkiyyətinə keçdi. 1993-cü il oktyabr siyasi böhranından bir neçə həftə sonra prezident «Torpaq münasibətlərinin qaydaya salınması və Rusiyada aqrar islahatların inkişafı haqqında» fərman imzaladı. Fərmana əsasən, torpaq üzərində xüsusi mülkiyyət bərqərar oldu. 1994-cü ilin əvvəllərində torpaqların birinci bölüşdürülməsi başa çatdı. Rusiyadakı torpaqların 60 faizindən çoxu vətəndaşların xüsusi mülkiyyətinə keçdi. Təqribən, 44 mln. Rusiya vətəndaşı onlara məxsus olan kiçik torpaq paylarında şəxsi yardımçı təsərrüfatla məşğul olurdu. Bəzən zəruri əməkhaqqını qazana bilməyən adamlara bu yardımçı təsərrüfatlar ailənin vacib gəlir mənbəyi rolun oynayırdı.

Hökumət ölkədə maliyyə stabilliyini təmin etməyə və inflyasiyanı aşağı salmağa, əsasən, müyəssər oldu. Lakin xüsusilə istehsal və emal sənayesi sahəsində məhsul istehsalı aşağı düşməkdə davam edirdi. İslahat əleyhdarları belə hesab edirdilər ki, istehsalın aşağı düşməsinin səbəbi özəlləşdirmə siya-

sətidir. İslahatçılar isə bəyan edirdilər ki, özəlləşdirilmiş müəssisələrdə vəziyyət dövlət müəssisələrində olduğundan yaxşıdır. Ölkədəki qeyri-sabit siyasi vəziyyət, müharibə investisiyaların artmasına mane olurdu. Yerli biznesmenlər pullarını ya xaricə çıxarmağı, ya da kommersiya banklarında dövriyyəyə buraxmağa üstünlük verirdilər. Çox yüksək və soyğunçu vergilərə görə, ondan yayınanların sayı durmadan artırdı. Əhali vəsaitini yerli müəssisələrin səhmlərini almağa deyil, xarici valyuta, xüsusilə dollar, alman markası almağa sərf edirdi.

Büdcədə vəsait çatışmadığına görə, elmi işçilər, müəllim, həkim, hərbçilərə əməkhaqqı vaxtında ödənmirdi. Səhmdar müəssisələrin işçilərinin, xüsusilə mədən və müdafiə sahəsindəki işçilərin əməkhaqları fasilələrlə ödənilirdi. Bəzi regionlarda əməkhaqqının ödənilməsi yarımiləqədər ləngiyirdi. Büdcədəki vəsait çatışmazlığını aradan qaldırmaq məqsədilə Baş nazirin birinci müavini A.B.Çubaysın təklifi ilə büdcənin xərcləri kəskin azaldıldı. 1997-ci ildə iqtisadiyyatda sağlamlaşma meyilləri hiss edildi. Birinci yarımildə ölkənin qızıl-valyuta ehtiyatları 2,8-dən 10,7 milyard rubla çatdı. İnflyasiyanın səviyyəsi aşağı düşdü, az da olsa, iqtisadi artım nəzərə çarpdı.

1992-1998-ci illərdə Rusiyada bazar islahatı dövrü, əsasən, başa çatdı, yeni mürəkkəb inkişaf mərhələsi başladı. Ölkə rəhbərliyi qarşısında maliyyə sabitliyi yaratmaq vəzifəsi dururdu ki, bu məqsədlə inflyasiyaya qarşı mübarizə aparmaq vasitəsilə büdcə kəsirini azaltmaq tələb olunurdu. 1992-ci ildə Rusiyada infilyasiyanın səviyyəsi 25,09% təşkil etmişdir.1993-1998-ci illərdə inflasiyanın aşağı salınması yüksək sürətlə davam etmişdir. 1993-cü ildə ölkədə inflyasiya 840, 1994-cü ildə 215, 1995-ci ildə 131, 1996-cı ildə isə 21 faiz olmuşdur. Bu nəticəyə baxmayaraq, iqtisadi göstəricilərin aşağı düşməsi vəziyyəti çətinləşdirirdi. 1992-1998-ci illərdə ümumdaxili məhsul istehsalı hətta Böyük Vətən müharibəsi dövründə olan 24 faizlik göstəricini keçərək, 44 faiz aşağı düşmüşdü. İnflyasiyanın miqyası azalmış, sənaye istehsalının həcmi 56 faiz aşağı düşmüşdür. Dövlət tibb, təhsil, elm, sosial sahəyə yardımını kəsdiyi üçün, büdcənin kəsiri 30-dan 4,8 faizə düşdü. Hökumət dövlət xərclərini azaltmağa çalışsa da, bu, ümumdaxili məhsul istehsalının 45 faizə yaxınını təşkil edirdi. Bütün maliyyə sistemi vasitəsilə yığılan vəsait isə ümumdaxili məhsul istehsalının yalnız 32-33 faizini təşkil edirdi. Beləliklə, büdcə kəsiri ildən-ilə əmələ gələrək, 7 faiz təşkil edirdi. Dövlət büdcə kəsirini ödəmək məqsədilə federal istiqrazları, beynəlxalq maliyyə təşkilatlarının kreditləri, kommersiya bank və firmalarından istifadə etmək məcburiyyətində idi.

1990-cı illərdə dövlət borcu məsələləri Rusiyanın qarşısında dayanmış əsas iqtisadi problemlərdən idi. Daxili və xarici dövlət borcları sürətlə artırdı.

Ölkənin daxili borcu 1998-ci ildə ümumdaxili məhsul istehsalının 25 faizini ötüb keçmişdi. Xarici borclar 1990-cı ilin əvvəllərində 20 faiz artmışdı. SSRİ-dən Rusiyaya miras qalmış 105 mlrd. dollar xarici borcun üzərinə 50 mlrd. dollar əlavə olaraq, 1998-ci ildə 156 mlrd. dolları ötmüşdü. Bu göstəriciyə görə Rusiya dünyada 12-ci yerdən 1-ci yerə keçmişdi.

Rusiyadakı iqtisadi dəyişikliklər cəmiyyətin sinfi strukturuna əhəmiyyətli təsir göstərdi. Xüsusi mülkiyyətin və sahibkarlığın meydana gəlməsilə mülkiyyətə münasibətin dəyişilməsi, əhalinin məşğulluğundakı dəyişiklik, əhalinin böyük əksəriyyətinin həyat səviyyəsinin aşağı düşməsi, sosial dəyər sisteminin dağılması, maddi və mənəvi ehtiyatlara sahib olmadakı məhdudiyyətlər cəmiyyətin sosial strukturunun dəyişilməsinin miqyasını, dərinliyini və xüsusiyyətini müəyyən edən cəhətlərdir. Cəmiyyətin müasir sosial tərkibini, əvvəllər olduğu kimi, fəhlə sinfi, kəndlilər və ziyalılar təşkil edirdi. Sovet keçmişi ilə müqayisədə, onların kəmiyyət göstəricisi və sosial rolu dəyişilmişdi. İqtisadi, siyasi, sosial qeyri-bərabərlik sosial tərkibin dəyişilməsinin başlıca əlamətidir. Cəmiyyətin sürətlə təbəqələşməsi, əhalinin 8 faizə qədərini təşkil edən xüsusi imtiyazı yuxarı təbəqənin yaranması, sosial bərabərsizliyin artmasına, ölkə daxilində bir-birindən sürətlə uzaqlaşan iki Rusiyanın mövcud olmasına şərait yaratmışdı. Əvvəlki sinif, qrup və təbəqələr arasında yüksək əməkhaqqının ödənilməsi aradan qalxdığı üçün sədlərin yox olması prosesi baş verir, əsas məsələ kim deyil, necə və yaxud harada işləyir önə çıxırdı.

Akademik T.İ.Zaslavskaya müasir Rusiya cəmiyyətinin bölünməsi modelini belə səciyyələndirmişdir: əhalinin 0,5 faizinə qədərini siyasi və iqtisadi idarəçilər, yəni elita, 6,5 faizini iri və orta sahibkarlar, özəlləşdirilmiş böyük və orta müəssisələrin direktorları, yəni yuxarı təbəqə, 20 faizini kiçik biznes nümayəndələri, ixtisaslı peşəkarlar, idarəetmənin orta hissəsi, zabitlər, yəni orta təbəqə, 61 faizini sıravi mütəxəssislər, mütəxəssislərin köməkçiləri, fəhlələr, kəndlilər, ticarət və xidmət sahəsində çalışanlar, yəni əsas baza, 7 faizini az ixtisaslı və ixtisası olmayan işçilər, müvəqqəti işsizlər, yəni aşağı təbəqə və 5 faizini sosial «dib» təşkil edir. Maddi təminatına əsasən, aşağıdakı təbəqələr mövcuddur: varlılar – 7%, imkanlılar – 7%, təminatlılar – 15,8%, az təminatlılar – 50%, əmlaksızlar – 20,2%.

Müasir Rusiyanın sosial strukturu inkişaf etmiş ölkələrdən əsaslı surətdə fərqlənir. Bütün cəmiyyətlərin birləşdirici nüvəsi hesab edilən orta təbəqə Rusiyada azlıq təşkil edir. 1990-cı ildə ölkə intellekt və ziyalılardan ibarət olan orta sinfi itirərək, sahibkarlardan ibarət yeni orta sinif qazanmışdır. Elmi işçilər, müəllimlər, həkimlər, mühəndislər, aşağısəviyyəli idarəçilərdən ibarət olan «yeni kasıblar» meydana gəlmişdir.

## §2. İctimai-siyasi vəziyyət

Müasir Rusiya dövlətçiliyinin tarixi 1990-cı il iyunun 12-də RSFSR I Xalq deputatlar qurultayının Rusiyanın dövlət müstəqilliyin elan etməsi haqqında Bəyannamənin qəbul edilməsilə başlayır. Bir ildən sonra – 1991-ci il iyunun 12-də B.N.Yeltsin Rusiyanın Prezidenti seçildi. Rusiya yalnız SSRİ öz varlığını dayandırdıqdan sonra bir dövlət kimi fəaliyyətə başladı. Yeni Rusiyanın ərazisi 17,1 mln. kv.km olmaqla, RSFSR-in sərhədləri daxilində meydana gəldi. 1989-cu ilin siyahıyaalmasına əsasən, bu ərazidə 147,4 mln. nəfər əhali yaşayırdı ki, bunların da 120 mln. nəfəri ruslar idi. 2002-ci il siyahıyaalmasına əsasən, bu rəqəmlər müvafiq olaraq, 145 və 115,9 mln. nəfər idi. 2002-ci siyahıyaalmasına görə, şəhər əhalisinin sayı 106 mln. nəfərə çatırdı. Orta ailə tərkibi üç nəfərdən ibarət idi. 2002-ci il rəsmi məlumatına əsasən, ruslardan başqa, ölkədə 5,5 mln. tatar, 2,9 mln. ukraynalı, 1,7 mln. başqırd, 1,6 mln. çuvaş, 1,3 mln. çeçen, 0,8 mln. nəfər belarus yaşayırdı

SSRİ 1991-ci il dekabrın 26-da öz varlığına xitam verdikdən sonra əvvəlki hakimiyyət və idarəçilik strukturları ləğv edilməyə başladı. Keçmiş İttifaqın bir çox idarə və təsisatı Rusiyanın idarəetmə strukturlarının sərəncamına verildi. 1992-ci il aprelin 21-də Rusiya dövlətinin rəsmi adı olan RSFSR dəyişdirilərək, Rusiya Federasiyası – Rusiya oldu. Müstəqil Rusiyanın daxili siyasi vəziyyəti son dərəcə mürəkkəb idi. Həyata keçirilən radikal islahatlar əhalinin böyük əksəriyyətinin həyat səviyyəsinin aşağı düşməsinə, onların əmanət kassalarındakı vəsaitlərini itirməsinə gətirib çıxardı. Odur ki, əhali arasında demokratların nüfuzu aşağı düşmüş, müxalifətə isə rəğbət artmışdı.

Sov. İKP və RKP qadağan edilməsi bir sıra yeni kommunist təşkilatlarının yaranması ilə müşayiət olundu. V.İ.Anpilovun başçılığı ilə yaranan Rusiya Kommunist Fəhlə Partiyası (РКРП) və onların «Əməkçi Moskva» («Трудовая Москва»), «Əməkçi Rusiya» («Трудовая Россия») hərəkatları daha radikal mövqe tuturdu. Onların əsas hərəkat metodu «Yeltsinin antixalq rejiminin» devrilməsi şüarı, özəlləşdirmənin ləğvi, əvvəlki qiymətlərin, SSRİ-nin bərpası tələbləri ilə küçə nümayiş və yürüşləri idi. 1992-ci il aprelində 6-cı Rusiya Xalq deputatları Qurultayında prezident və hökumətin siyasətinin əleyhinə olan müxalifət qüvvələri «Rusiyanın birliyi» («Российское единство») blokunu yaratdı.

1992-ci ilin iyununda «Трудовая Москва» Ostankino televiziya mərkəzi ətrafında piket təşkil etdi. Tezliklə milis qüvvələri zor tədbiq edərək, piketçiləri dağıtdı. Ostankino ətrafında hadisələrin cərəyan etdiyi bir vaxtda DTK-nın sabiq generalı A.N.Sterliqov «Rus Milli məclisi»nı («Русский национальный

собор») yaratdı. RNS-in ideoloqları M.S.Qorbaçov və B.N.Yeltsini Qərbin xüsusi xidmət orqanlarının tapşırığı ilə SSRİ və Rusiyanı məqsədli şəkildə dağıtmaqda ittiham edir, Rusiya dövlətini 1914-cü il sərhədləri daxilində bərpa etməyi qarşılarına məqsəd qoyurdular. 1992-ci ilin sentyabrında M.G.Astafyev, S.N.Baburin, G.A.Züqanov «Milli xilas cəbhəsi» («Фронт национального спасения») yaradaraq, B.Yeltsinin «işğalçı rejimini» devirməyi, SSRİ-ni bərpa etməyi tələb etdilər.

1992-ci ilin iyununda Rusiyadakı 40-dan çox partiya və təşkilat «Vətəndaş ittifaqı» («Гражданский союз») birliyində birləşdi ki, onun da lideri sənaye və sahibkarlar ittifaqına başçılıq edən A.İ.Volski oldu. Q.X.Popov isə «Rusiyanın demokratik islahatlar hərəkatı» (РДДР) ittifaqını yaratdı. Lakin geniş əhali kütləsi hər iki hərəkatı müdafiə etmədi.

Hakimiyyətin iki mərkəzi-icraedici, yəni prezident və onun formalaşdırdığı hökumət, qanunverici, yəni Ali Sovet ölkənin sosial-iqtisadi kursunu müəyyən etməli olan yeni konstitusiya layihəsini hazırlamaq məsələsində açıq siyasi mübarizəyə başladı. Hakimiyyət məsələsində bu və ya başqa yolun seçilməsi, əslində, Konstitusiyadan başlayırdı. Dövlət quruluşunun və iqtisadi dəyişikliklərin müəyyən olunmasındakı siyasi mübarizə konkret olaraq prezident kimi B.N.Yeltsin və Ali Sovetin sədri R.İ.Xasbulatov fiqurları arasında gedirdi. Mahiyyət etibarilə, R.Xasbulatov prezidentə geniş səlahiyyətlər vermək şərti ilə parlament respublikası ideyası tərəfdarı idi. Məsələ ondan idi ki, prezident dövlət başçısı kimi hökumətin sədrini təsdiq üçün parlamentə təqdim edir, onlar isə parlament qarşısında cavabdeh olurdu. R.Xasbulatov və onu müdafiə edən deputatlara görə, imkan daxilində, yeni Konstitusiya qəbul etməyərək, qüvvədə olan dövlət hakimiyyətinin ali orqanın Rusiya Federasiyasının xalq deputatları qurultayını elan edən sənədə dəyişiklik etməklə kifayətlənmək olardı. Qurultay öz tərkibindən Ali Soveti formalaşdırırdı. B.N.Yeltsin «Sovetlərin bütün hakimiyyətini» ləğv etmək şüarın irəli sürərək, respublika yaradılmasını və bununla dövlət başçısı olan prezidentin daha çox səlahiyyət imkanları əldə etməsini istəyirdi. Onun fikrincə, bu, radikal islahatların daha təsirli həyata keçirilməsini təmin edən, federativ dövlətdə mərkəzdənqaçma meyillərinə cığır açan fəaliyyətə son qoyardı.

1992-ci il dekabr ayında 7-ci Rusiya Xalq deputatları qurultayı Y.T.Qaydar hökumətinin səlahiyyətlərini məhdudlaşdıran Konstitusiya dəyişikliyini qəbul etdi. 1992-ci il dekbarın 10-da B.Yeltsin qurultayın tribunasından Rusiya vətəndaşlarına müraciət edərək, Ali Soveti islahatlara qarşı təxribat törətməkdə ittiham etdi. Öz növbəsində, Ali Sovet prezidenti qanunverici orqanı məhv etməkdə günahlandırdı. Dekabrın 12-də Konstitusiya məhkəməsinin sədri

V.D.Zorkinin təklifi ilə kompromis qərar qəbul edildi, 1993-cü ilin aprelində yeni Konstitusiyanın əsasları haqqında referendum təyin edilir, prezident isə baş nazir vəzifəsin tutmaq məqsədilə qurultaya üç namizəd təqdim etməli idi. İrəli sürülən namizədlərdən ən çox səsi V.S.Çernomırdin (1938-2010) aldı və 1992-ci il dekabrın 14-də ölkənin Baş naziri oldu.

Çernomırdin Viktor Stepanoviç 1938-ci ildə anadan olmuş, 1957-ci ildə Orsk neft emal edən zavodda əmək fəaliyyətinə başlamışdı. 1989-cu ildən «Qazprom» dövlət konserninin idarə heyətinə başçılıq edirdi. 1992-ci ilin mayından Rusiya Baş nazirinin müavini, dekabrından isə hökumətin Baş naziri olaraq 1998-ci ilin martına kimi fəaliyyət göstərmişdir. «Naş dom – Rossiya» hərəkatının lideri, Rusiyanın Ukraynadakı səfiri olmuşdur.

1993-cü ilin fevralında G.A.Züqanovun başçılığı altında Rusiya Federasiyası Kommunist Partiyası (КПРФ) rəsmi olaraq bərpa olundu. Partiya proqramında iqtisadiyyatda çoxukladlığa və burada dövlətin rolunun artmasına, radikal islahatların və kütləvi özəlləşdirmənin tənqidinə, hökumətdən fəal sosial siyasət yeridilməsi tələbinə geniş yer verilmişdir. M.İ.Lapşinin liderliyilə demək olar ki, Kommunist Partiyası ilə eyni vaxtda meydana gələn Rusiya Aqrar Partiyası da öz proqramına görə RFKP-yə yaxın idi.

1993-cü il martın 8-12-də 8-ci Rusiya Xalq deputatları qurultayı növbəti dəfə prezidentin səlahiyyətlərini məhdudlaşdırdı, 1992-ci il dekabrın 12-də olan sazişi ləğv etdi, referendum keçirilməsi üzərinə moratorium qoydu. Buna cavab olaraq, B.Yeltsin martın 20-də hakimiyyət böhranı dəf edilənə kimi xüsusi idarəetmə qaydaları haqqında fərman imzaladı, aprelin 25-nə prezidentə etimad, yeni Konstitusiya, yeni parlamentin seçilməsi məsələlərini əhatə edən referendum təyin etdi. R.Xasbulatov, V.Zorkin, A.Rutskoy fərmana qarşı çıxdılar. Konstitusiya Məhkəməsi fərmanın bir sıra maddələrinin Konstitusiyaya zidd olmasına dair qərar qəbul etdi. Martın 26-da növbədənkənar 9-cu Rusiya Xalq deputatları qurultayı toplandı. Qurultay prezident B.Yeltsinə impiçment, yəni etimadsızlıq göstərilməsi haqqında qərar qəbul etməyə cəhd etsə də, zəruri olan 689 deputat səsinə qarşı 617 səs alaraq, məqsədə çata bilmədi. Beləliklə, qurultay 4 məsələdən ibarət referendum keçirilməsinə razılıq verdi: 1. RF prezidenti B.N.Yeltsinə etibar edirsinizmi? 2. RF prezidentinin 1992-ci ildən həyata keçirdiyi sosial-iqtisadi siyasəti bəyənirsinizmi? 3. RF prezidentinin növbədənkənar seçkisinin keçirilməsini zəruri hesab edirsinizmi? 4. RF Ali Sovetinin növbədənkənar seçkisinin keçirilməsini zəruri hesab edirsinizmi?

Bu dörd məsələyə aydınlıq gətirməli olan referendum 1993-cü il aprelin 25-də baş tutdu. Səsvermədə Rusiya əhalisinin 64 faizi, yəni 69 mln. nəfəri iştirak etdi. 40 mln. nəfər, yəni səsvermədə iştirak edənlərin 58,7 faizi prezi-

dentə etimad nümayiş etdirdi. Prezidentin sosial-iqtisadi siyasətini isə seçicilərin 36 mln. nəfəri, yəni 53 faizi müdafiə etdi. Beləliklə, qəbul edilən qərara əsasən, sorğuda iştirak edənlərin yarısından çoxu prezindenti müdafiə etdiyindən, o, qələbə çaldı, lakin siyasi böhran daha da dərinləşdi. Növbədənkənar seçkilərin keçirilməsinə dair sorğunun son iki maddəsi, müvafiq olaraq, 34 mln. və 47 mln. səs topladığı üçün əlavə seçkilər keçirmək baş tutmadı.

Müxalifətin siyasi mövqeyinin güclənməsi onların küçə fəaliyyətinin fəallaşmasına səbəb oldu. 1993-ci il mayın 1-də Moskvanın Leninqrad prospektində kommunist nümayişçilərlə milislər arasında çaxnaşma baş verdi ki, bunun da nəticəsində ölən və yaralananlar oldu. Həm qapalı qapılar arxasında, həm də meydanlarda baş verən hadisələr hər iki tərəfi qəti hərəkət etməyə sövq etdi. B.N.Yeltsinin göstərişi ilə yeni Konstitusiyanın hazırlanması prosesi sürətləndi. Yeni layihədə prezindentin səlahiyyətləri əhəmiyyətli dərəcədə artdı. Bu, Ali Sovetin böyük əksəriyyətinin narazılığına səbəb oldu. Ali Sovetin rəhbərliyi yeni qanunların qəbul edilməsinin qarşısını alaraq, hakimiyyətin üst təbəqələrində korrupsiya olduğunu bəyan etdi. Prezident 1993-cü il sentyabrın 1-də imzaladığı fərmanla vitse-prezident A.R.Rutskoyu vəzifəsindən azad etdi. Ali Sovet bu fərmanı konstitusiyaya zidd addım hesab edərək ləğv etdi, prezident və deputatların növbədənkənar seçkisini elan etdi.

1993-cü il sentyabrın 21-də B.N.Yeltsin seçilmiş nümayəndələrdən ibarət hakimiyyət orqanlarının – Rusiya Federasiyasının Ali Sovetinin və Xalq Deputatları Qurultayının buraxılmasına dair fərmanı elan etdi, dekabrın 12-nə parlamentin yeni seçkisini təyin etdi. Ali Sovet fərmanı dövlət çevrilişi kimi qiymətləndirərək, B.Yeltsini hakimiyyətdən uzaqlaşdırıb, A.V.Rutskoyu yeni prezident seçdi. Sentyabrın 24-də A.Rutskoy və R.Xasbulatovun silahlı tərəfdarları podpolkovnik S.N.Terexovun başçılığı altında Zabitlər İttifaqının üzvləri ilə birlikdə MDB silahlı qüvvələrinin Leninqrad prospektindəki Birləşmiş Qərargahını tutmağa cəhd etdilər. Sentyabrın 24-də Ali Sovetin iclaslarının keçdiyi «Ağ ev» milis qüvvələri tərəfindən mühasirəyə alındı, binanın işıq və su təchizatı kəsildi. Prezident və Ali Sovetin iki həftəlik qarşıdurması başladı. 1993-cü il oktyabrın 2-3-də qarşıdurma silahlı xarakter aldı. A.V.Rutskoyun tərəfdarları oktyabrın 3-də Yeni Arbatdakı şəhər meriyasına hücum etdilər, ilk qurbanlar oldu. A.Rutskoy və general A.M.Makaşov tərəfdarlarını Kremlə hücüm etməyə çağıraraq, Ostankino televiziya mərkəzinə hücuma keçdilər. Teleməkəz işğal edilməsi təhlükəsi altında verlişlərini dayandırdı. Yalnız 2-ci kanal ehtiyat studiyasından verilişlərini davam etdirirdi. Oktyabrın 4-də prezident B.Yeltsin Moskvada hərbi vəziyyət elan edərək, paytaxta qoşun yeritdi. «Ağ ev» tanklardan top atəşinə tutulduqdan sonra, günün ikinci yarısı

müdafiəçilər təslim oldular. A.Rutskoy, R.Xasbulatov, A.Makaşov və b. həbs edilərək, Lefortovo həbsxanasına göndərildilər. Rəsmi məlumata əsasən, oktyabrın 3-4 hadisələrində 152 nəfər, qeyri-rəsmi məlumatlara əsasən, isə 200-dən 400 nəfərə qədər adam öldürüldü. Parlament binasının tanklardan atəşə tutulması ölkədə birmənalı qarşılanmadı. Ziyalılar da iki cəbhəyə – bu aktı antikonstitusiya hərəkəti kimi qiymətləndirənlərə, yaxud «parlament rəhbərliyin başqa yolla saxlamaq mümkün deyildir» kimi fikirlər səsləndirənlərə bölündülər.

1993-cü il oktyabrın 7-də B.Yeltsinin fərmanı ilə Moskva Soveti buraxıldı. İki gündən sonra Prezident «Rusiya Federasiyasında nümayəndəli hakimiyyət və özünüidarə orqanlarında islahatlar haqqında» fərman imzalayaraq, bütün rayon, şəhər, qəsəbə və kənd sovetlərinin fəaliyyətinə xitam verdi, onların səlahiyyətləri yerli icra başçılarına verildi. Oktyabrın 24-də prezident Moskva və Moskva vilayəti dumalarına seçkilər haqqında, oktyabrın 26-da «Rusiya Federasiyasında yerli özünüidarə islahatları haqqında» fərman imzaladı ki, buna əsasən, yerli sovetlər öz fəaliyyətini dayandıraraq, səlahiyyətlərini yerli icra başçılarına təslim edirdi. Beləliklə, Rusiya Federasiyasının prezidenti B.N.Yeltsinin yuxarıda adıçəkilən fərmanları əsasında Ali Sovetin müqaviməti silah gücünə qırıldıqdan sonra 76 il mövcud olan sovet hakimiyyəti ildırım sürəti ilə ləğv edildi. Bununla da dövlət quruluşunun sovet formasına son qoyuldu.

1993-cü il dekabrın 12-də referendum keçirildi, burada iştirak edənlərin 58,4 faizi prezidentin təqdim etdiyi Konstitusiya layihəsini bəyəndi. Rusiyanın qəbul edilən yeni Konstitusiyasına görə, Rusiya Federasiyasının ali qanunverici orqanı iki palatadan, yəni Dövlət Duması və Federasiya Şurasından ibarət olan Federal Yığıncaq elan edildi. Prezident çox böyük səlahiyyətlərə malik oldu. O, hər iki palatanın qərarına veto qoymaq hüququ alırdı. Bu vetonu aradan qaldırmaq üçün palata üzvlərinin üçdə iki hissəsinin səsi tələb edilirdi. Prezident Baş nazirin namizədliyini üç dəfə rədd edən Dumanı buraxmaq səlahiyyətinə malik oldu. Əgər Duma hökumətə etimadsızlıq göstərsə idi, o zaman prezident ya hökuməti istefaya göndərər, ya da Dumanı buraxa bilərdi. Rusiya, faktiki, prezident respublikası elan edildi. Prezidentə impiçment, yəni etimadsızlıq göstərilməsinin baş tutması xeyli çətinləşdirildi. Belə ki, Konstitusiyaya əsasən, prezidenti vəzifəsindən kənarlaşdırmaq üçün Federal Yığıncağın hər iki palatası deputatlarının üçdə ikisinin səsi tələb olunurdu.

Referendumla yanaşı, Federal Yığıncağın aşağı palatası – Dövlət Dumasına seçkilər keçirildi. Seçkilər majoritar və proporsional sistem üzrə baş tutdu. 225 deputat birmandatlı majoritar dairələr üzrə, 225 deputat ümumfederal

partiya siyahısı üzrə seçilmişdi. Seçkilərdə iştirak etmək hüququ qazanan 13 partiya və birlikdən yalnız 8-i beş faizlik həddi keçərək, Dumada yer aldı. Y.T.Qaydarın rəhbərlik etdiyi «Rusiyanın seçimi»(«Выбор России») partiyası radikal islahatların tərəfdarı kimi, seçicilərin yalnız 15 faizinin səsini ala bildi. Səslərin dörddə birini, yəni 63 deputat yeri alan V.V.Jirinovskinin Liberal-Demokratik Partiyası (ЛДПР) 1990-cı ilin martında meydana gələrək, vahid Rusiya, SSRİ-nin bərpası, güclü mərkəzi hakimiyyət, bazar, sosialyönümlü iqtisadiyyat uğrunda mübarizə aparırdı. Ümumiyyətlə, Dumada M.Lapşinin rəhbərlik etdiyi Aqrar Partiya 55, G.Züqanovun Rusiya Federasiyası Kommunist Partiyası 45, Rossiyskiy Put Birliyi 25 yer qazanaraq, müxalif sol və böyük dövlətçilik-vətənpərvər qüvvələrin üstünlüyünü təmin etdilər. Demokratik partiyaları təmsil edən «Rusiyanın seçimi» («Выбор России») 76, «Yabloko» (Q.A.Yavlinski, Y.Y.Boldırev və V.P.Lukin) 23, «12 dekabr ittifaqı» («Союз 12 декабря») 12 deputat yerinə sahib oldu. Mərkəzçi mövqe tutan S.M.Şaxrayın «Rusiyanın birlik və razılıq partiyası» («Партия российского единства и согласия») 30, «Rusiya qadınları» («Женщины России») 23 deputat yeri aldı. Federasiya Şurasının birinci sədri keçmişdə iri sənaye müəssisəsinin direktoru olan V.F.Şumeyko oldu. Dövlət Dumasına İ.Rıbkin başçılıq etdi. Dumanın ilk aktlarından biri 1991-ci il avqust qiyamı və 1993-cü il oktyabr hadisələri iştirakçılarını əfv etmək qərarı oldu.

1994-cü ilin aprelində milli-vətənpərvər qüvvələr istisna olmaqla, ictimai-siyasi qüvvələrin böyük əksəriyyəti və prezident ictimai razılıq əsasında müqavilə imzaladı. Müqaviləyə əsasən, iki il müddətində cəmiyyətdə sabitliyi pozan Konstitusiya dəyişikliyinə yol verilməməli, federal hakimiyyət orqanlarına növbədənkənar seçkilər keçirilməməli idi. 800 nəfərdən çox müxtəlif hakimiyyət, siyasi partiya və birlik nümayəndələrinin bu müqaviləni imzalamasına baxmayaraq, RFKP və Aqrar Partiya, sonradan isə daha 10 partiya sənəddən imtina etdi. Bütün bunlara baxmayaraq, müqavilə, müəyyən mənada, cəmiyyətdə vəziyyətin sabitləşməsinə kömək etdi. Dövlət Dumasına 1995-ci ilin dekabrındakı ikinci seçkidə 43 partiya və seçkiqabağı birlik iştirak etdi. Sol qüvvələri təmsil edən G.Züqanovun RFKP-sinin seçki proqramı Prezidentin islahatlarının tənqidinə, onun SSRİ-ni dağıtmasında təqsirləndirilməsi və xalqın yoxsullaşmasına səbəb olmasına həsr edilmişdi. Hökumətin siyasətini NDR hərəkatı müdafiə edirdi. Demokratik qüvvələri «Yabloko» və Y.Qaydarın «Rusiyanın demokratik seçimi» (ДВР) təmsil edirdi. Seçkilərdə yalnız dörd birlik, o cümlədən 22 faiz səslə RFKP, 11 faiz səslə RLDP, 10 faiz səslə NDR və 8 faiz səslə «Yabloko» beşfaizlik səddi keçərək, Dumada təmsil edilmək hüququ qazandı. Dumada üstünlük təşkil edən kommunistlərin nümayəndəsi G.N.Seleznyov spiker seçildi.

Konstitusiya prezidentə çox böyük səlahiyyətlər tanıdığı üçün, 1996-cı ildəki prezident seçkiləri ölkənin üçüncü minilliyə hansı yolla gedəcəyi məsələsinə aydınlıq gətirmək baxımından çox böyük siyasi əhəmiyyət daşıyırdı. Siyasi partiyalar bu həlledici döyüşə ciddi hazırlaşırdı. Prezident seçkilərinin birinci turu iyunun 16-da keçirildi. Səsvermədə iştirak edən seçicilərin B.Yeltsinə 35,3, G.Züqanova 32, A.Lebedə 14,5, Q.Yavlinskiyə 7,3, V.Jirinovskiyə 5,7, S.Fyodorova 0,9, M.Qorbaçova 0,5, M.Şakkuma 0,4, Y.Vlasova 0,2 və V.Brınsalova 0,2 faizi səs verdi. Onbirinci namizəd A.Tuleyev seçkiyə kimi namizədliyini G.Züqanovun xeyrinə geri götürdü. Beləliklə, ikinci tura B.Yeltsin və G.Züqanov çıxdılar. B.Yeltsin siyasi manevr edərək, səslərin 14,5 faizini toplayan A.İ.Lebedi Təhlükəsizlik Şurasının katibi və prezidentin Milli məsələlər üzrə köməkçisi təyin etdi. Bu addım səslərin B.Yeltsinin xeyrinə dəyişməsinə şərait yaratdı. 1996-cı ildə seçkilərin ikinci turunda B.N.Yeltsin səslərin 53,7 faizini toplayaraq, Rusiya Federasiyasının Prezidenti seçildi. G.Züqanov seçicilərin yalnız 40,3 faiz səsini qazandı. Bu isə o demək idi ki, Rusiya qəbul etdiyi islahatlar yolunu davam etdirir. Y.S.Stroyev 1996-cı ildə Federasiya Şurasının sədri seçildi.

B.N.Yeltsin ikinci dəfə Rusiya Prezidenti seçildikdən sonra səhhətində yaranan problemlərlə bağlı uzun müddət dövlət işlərindən ayrı düşdü. Ürəyində mürəkkəb əməliyyat keçirən prezident B.Yeltsin yalnız 1997-ci ilin martında dövlət işlərilə fəal məşğul olmağa başlayaraq, radikal islahatlar proqramı ilə çıxış etdi. Hökumətin yeritdiyi islahat xəttinə baxmayaraq, ölkədə vəziyyət ağır olaraq qalırdı.

1997-ci ilin payızından Rusiya ixracatının əsası olan neftin qiymətinin aşağı düşməsi, Asiya maliyyə böhranı ölkə iqtisadiyyatını növbəti ağır vəziyyətə sürüklədi. Bundan xilas olmaq məqsədilə B. Yeltsin 1998-ci ilin martında 1992-ci ilin dekabrından Baş nazir olan V.Çernomırdinin yerinə hökumətin başçısı S.V.Kiriyenkonu təyin etdi. Yeni hökuməti dəmiryolu magistrallarını bağlayan mədənçilərin tətilləri, dövlət borcunun sürətlə artması, Mərkəzi Bankın valyuta ehtiyatının kəskin aşağı düşməsi qarşıladı. Onun sərt maliyyə siyasəti Dumada solların kəskin müqaviməti ilə qarşılandı. Nəticədə, 1998-ci il avqustun 17-də S.Kiriyenko hökuməti devalvasiya, yəni kağız pulların məzənnəsini aşağı salmaq yolunu tutaraq, defolt, yəni borcları ödəməkdən imtina etməyi elan etdi. Xarici investorlarla kommersiya banklarının borcları ödəməsi üzərinə moratorium, qadağa qoyuldu. 1998-ci il avqustun 23-də B.Yeltsin hökumətin başçısı S.Kiriyenkonu istefaya göndərdi. Rusiyanın bank sistemi dağılma təhlükəsi ilə üz-üzə qaldı. Bir sıra böyük banklar

fəaliyyətini dayandırdı. Əhalinin kommersiya banklarındakı əmanətləri rubl hesabı ilə 15, real olaraq isə 52% qiymətdən düşdü. Əksər halda, əmanətçilər vəsaitlərini banklardan aylarla ala bilmir və ya köhnə kursla almağa məcbur olurdular. Orta sinfə aid edilən yüz minlərlə insan iş yerlərini və gəlir mənbələrini itirdi.

S.Kiriyenko hökumətini istefaya göndərdikdən sonra B.Yeltsin V.Çernomırdini yenidən hökumətin başına gətirmək istəsə də, Duma buna razılıq vermədi. Yeni hökuməti sol müxalifətin nümayəndələri ilə birlikdə Y.M.Primakov (1929-2015) qurdu. Yeni Baş nazirin iqtisadiyyat üzrə birinci müavini RFKP-nın nümayəndəsi Y.D.Maslyukov oldu. Gözlənilənin əksinə olaraq, Y.Primakov hökuməti iqtisadi kursu dəyişdirməyərək, avqust böhranı ərəfəsində əvvəlki hökumətin Dumaya təqdim etdiyi qanunları təstiq etdirdi. İnflyasiya aşağı düşdü, rubl sabitləşdi, balanslaşdırılmış büdcə qəbul edildi. Sənaye istehsalı tədricən artdı, yerli mallar xaricilərlə müqaisədə ucuz olduğu üçün onlara tələbat artdı. Yerli mallar ucuzlaşdığından ixracı da artdı. 1999-cu ilin may ayında Y. Primakov hökuməti radikal xarakterli islahatlar keçirməkdən imtina etdiyi üçün B. Yeltsin tərəfindən istefaya göndərildi.

Əslində, ölkədə vəziyyəti stabilləşdirmək məqsədilə Baş nazir postuna B.Yeltsin tərəfindən təyin edilən akademik, keçmiş xarici işlər naziri Primakov Yevgeni Maksimoviç iqtisadiyyatda dövlətin rolunun möhkəmləndirilməsi tərəfdarı idi. İqtisadçı və tarixçi olan Y.M.Primakov hökumətin başçısı kimi 1999-cu ildə 156,7 milyard dollara çatan dövlət borclarının xarici kreditorlara ödənməsi məsələlərində güzəştə nail olaraq, böyük uğur qazanmışdı. Bununla yanaşı, rusiyalıların 2000-ci ilə doğru real gəliri 1991-ci il səviyyəsinin yalnız 47 faizini təşkil edirdi. Kasıblar və varlılar arasındakı gəlir fərqi durmadan artırdı. Bir çox göstəricilər üzrə Rusiya dünyanın az inkişaf etmiş ölkələrinin səviyyəsinə yaxınlaşmaqda davam edirdi. 1999-cu ilin mayında istefaya göndərilən Y.M.Primakovun yerinə S.V.Stepaşin Baş nazir təyin olundu və cəmi üç ay bu vəzifədə qaldı.

1998-ci ilin sonu – 1999-cu ilin əvvəllərində ölkədəki vəziyyət belə fikir yürütməyə əsas verdi ki, B.N.Yeltsinin prezident kimi siyasi rolu başa çatmaq üzrədir. Duma ilə yanaşı, prezidentə qarşı müxalifətə keçən Federasiya Şurası B.Yeltsinin istefasını tələb edən Baş prokuror Y.İ.Skuratovu vəzifədən azad etmədi. Moskva şəhərinin meri Y.M.Lujkov və onun rəhbərlik etdiyi «Vətən» («Отечество») hərəkatı B.Yeltsini və onun ətrafını kəskin tənqid etməyə başladı. Əslində ölkənin siyasi həyatında hakimiyyət böhranı daha aydın hiss edilirdi. Hökumət, nazirlik və sahə idarələrində tez-tez kadr dəyişikliyi edən

B.Yeltsinin nüfuzu və dövlətin həyatındakı rolu aşağı düşürdü. 1998-ci ilin aprelindən 2000-ci ilin martına kimi Rusiya Federasiyasının Baş naziri vəzifəsində 5 nəfər – S.V.Kiriyenko, V.S.Çernomırdin, Y.M.Pirimakov, S.V.Stepaşin, V.V.Putin bir-birini əvəz etdi. Hökumət rəhbərliyinin dəyişdirilməsi ölkədə vəziyyəti dəyişmədi.

1999-cu ilin avqustun 9-da B.N.Yeltsin RF Baş naziri vəzifəsinə V.V.Putini təyin etdi. Putin Vladimir Vladimiroviç 1952-ci ildə Leninqradda anadan olub, 1975-1990-cı illərdə SSRİ DTK-nın xarici kəşfiyyat işlərində çalışaraq, Almaniya üzrə ixtisaslaşıb. Polkovnik rütbəsində istefaya çıxdıqdan sonra 1990-cı ildən Leninqrad Sovetində, Sankt-Peterburq meriyasında çalışıb. Xarici Əlaqələr Komitəsinin sədri olub. 1997-ci ildən RF Prezidentinin İcra Aparatı rəhbərinin müavini, 1998-1999-cu illərdə Federal Təhlükəsizlik Xidmətinin (ФСБ) direktoru, 1999-cu ilin avqustundan 2000-ci ilin mayına kimi Rusiya hökumətinin sədri olub. Eyni zamanda 1999-cu il dekabrın 31-dən Rusiya Federasiyası Prezidentinin vəzifəsini icra edib. 2000-ci il martın 26-da keçirilən prezident seçkisində V.V.Putin birinci turda inamlı qələbə qazanaraq, ölkə prezidenti olub.

1999-cu ilin dekabrında Dövlət Dumasına seçkilərdə mövcud hakimiyyətin əsas rəqibi kommunistlər deyil, Y.Primakov və Y.Lujkovun başçılıq etdikləri «Отечество – вся Россия» hərəkatı oldu. Şeçkiqabağı təbliğatı hakimiyyəti kəskin tənqid edərək, B.Yeltsinin yaxın ətrafını korrupsiyada ittiham üzərində quran hərəkata cavab Kremldən gəldi. Mərkəzi televiziya kanalı vasitəsilə Y.Lujkovun ünvanına da eynisəpkili ittihamlar səsləndi. Ölkənin siyasi həyatında yeni qüvvələr əvvəllər siyasətdən uzaq olan fövqəladə hallar naziri S.K.Şoyqunun liderliyi altında V.V.Putinin müdafiə etdiyi «Birlik» («Единство») hərəkatını yaratdı. V.V.Putini S.V.Kiriyenko, B.Y.Nemtsov, İ.M.Xakamandanın başçılıq etdikləri «Sağ Qüvvələr İttifaqı» («Союз правых сил») (SPS) demokratik yönümlü birlik də müdafiə edirdi. 1999-cu il dekabr seçkilərində RFKP 24,3, «Birlik»(«Yedinstvo») 23,3, «Vətən-Bütün Rusiya» («Отечество – вся Россия») 13,3, SPS 8,5, «Yabloko» 5,9, RFLDP 5,9 faiz səs topladı. Ən çox uğur «Birlik» («Единство») və SPS qazandığı halda, RFKP və PRLD-nin nüfuzu xeyli aşağı düşdü.

## §3. Federalizmin inkişafı. Çeçenistan müharibəsi

Rusiya Federasiyasına SSRİ-dən miras qalan ən mürəkkəb məsələlərdən biri millətlərarası münasibətlər problemidir. Vəziyyəti gərginləşdirən şərait ondan ibarət idi ki, yeni Rusiyaya federativ quruluşun əvvəlki etnik prinsipi miras qalmışdı. Fərq isə yalnız onda idi ki, Federasiyanın subyektləri keçmiş Rusiya muxtariyyətləri idi. Ölkədəki etnosiyasi vəziyyət göstərdi ki, SSRİ-dən fərqli olaraq, əhalinin 80 faizindən çoxunu təşkil edən rus xalqı bütün Rusiya ərazisi üzrə yayılmışdır. Məhz bu amil respublikalarda fəaliyyətdə olan milli hərəkatlarda və ayrı-ayrı respublikaların rəhbərliyində nəzərə alınmamışdı.

1992-ci ilin martında prezidentlə respublikaların nümayəndələri arasında imzalanan federativ müqavilə problemi siyasətdən hüquq sahəsinə keçirməklə, Rusiyanın parçalanması təhlükəsin təxirə saldı. Lakin müqavilə yeni təhlükəyə – Federasiya subyekti statusunun qanun qarşısında qeyri-bərabərliyinə şərait yaratdı. Milli respublikalar vilayət və diyarlardan fərqli olaraq, daha çox səlahiyyət alırdı. Çeçenistan və Tatarıstan müqaviləni imzalamadıqlarından, Rusiya Federasiyasının bütövlüyü sual altında qalırdı. Bir çox milli hərəkatların proqram sənədlərində separat tələblər yer alırdı. Konstitusiyalarını qəbul edən bir sıra muxtar respublikalar yerli qanunları federal qanunlardan üstün tutur və Federasiyadan çıxmaq hüququnu təsbit edirdi. Tatarıstan, Çeçenistan, Başqırdıstan, Tuva, Yakutiya (Saxa Respublikası) federal büdcəyə keçirdikləri vəsaiti azaltdı. 1992-ci ildə Tatarıstan Respublikasının dövlət statusu haqqında referendum keçirildi. Səsvermədə iştirak edənlərin 60 faizi Tatarıstanın dövlət müstəqilliyinə səs verdi. 1994-cü il fevralın 15-də Federal hakimiyyətlə Tatarıstan arasında səlahiyyətlərin müəyyən edilməsinə dair müqavilə imzalandı ki, bu sənədə əsasən, respublika Federasiyanın başqa subyektlərindən daha çox hüquq, o cümlədən tatar vətəndaşlığının verilməsi, xarici dövlətlərlə münasibətlər yaradılması və b. hüquqlar aldı. Yalnız bundan sonra Tatarıstanda RF Dövlət Dumasına seçkilər keçirildi. Bir çox məsələlər üzrə kompromisin əldə edilməsində Tatarıstan Respublikasının prezidenti M.Ş.Şaymiyevin çevik və konstruktiv mövqeyi önəmli rol oynadı. 1993-cü ildəki prezident və parlament qarşıdurmasından, yeni Rusiya Konstitusiyasının qəbul edilməsindən sonra Federasiyanın subyektlərinin böyük əksəriyyətilə münasibətlər normal məcraya düşdü. 1994-1995-ci illərdə muxtar qurumlarla 20 ikitərəfli müqavilə imzalandı. Nəticədə, Federasiyanın milli-ərazi subyektləri daha çox müstəqillik əldə etdilər ki, bu da bir çox diyar və vilayət rəhbərliyinin narazılığına səbəb oldu. Bununla yanaşı, mərkəzin kompromis mövqeyi separatizmin tədricən aradan qaldırılmasına, eksteremist millətçi qüvvələrin təcrid edilməsinə kömək etdi.

Müstəqillik uğrunda cərəyan edən hadisələrin mərkəzi Şimali Qafqaz oldu. 1990-cı ilin yazında çeçen xalq konqressi Çeçenistanın müstəqilliyi haqqında qətnamə qəbul edərək, onu İçkeriya Respublikası adı ilə elan etdi. 1991-ci ilin oktyabrında Estoniyadakı keçmiş HHQ-nin diviziya komandiri, istefada olan general C.Dudayev Çeçen-İnquşetiya Respublikasının prezidenti seçildi. 1992-ci iln iyununda İnquşetiya Çeçenistandan ayrılaraq, RF tərkibində İnquş Respublikasını elan etdi. 1991-ci il oktyabrın 27-də C.Dudayev Çeçen Respublikasının prezidenti seçildi və parlament formalaşdı. 1991-ci il oktyabrın 26-da C.Dudayevin fərmanı ilə Rusiya Federasiyasının Çeçen Respublikasının ərazisində olan bütün hərbi hissələrinin silah və hərbi texnikası respublikanın mülkiyyəti elan olundu. 1992-ci ilin mayında C.Dudayevin tərəfdarları hərbi texnikanın 80, atıcı silahların 75 faizini ələ keçirdilər. 1991-ci il dekabrın 24-də imzaladığı fərmanla respublikanın bütün kişi əhalisin orduda xidmət etmək mükəlləfiyyəti ilə vəzifələndirən C.Dudayev nizami ordu yaratdı ki, onun da sayı 15 min nəfərə çatırdı.

1994-cü il noyabrın 29-da Rusiya Təhlükəsizlik Şurasının iclasında hərbi əməliyyatların başlaması barədə qərar qəbul edildi. Noyabrın 30-da prezident B.Yeltsin, «Çeçen Respublikasının ərazisində konstitusiya qanununu və hüquq qaydalarını bərpa etmək tədbirləri haqqında» gizli fərman imzaladı. Əməliyyatı 25 gün ərzində yekunlaşdırmaq nəzərdə tutulsa da, onu pis hazırlamışdılar. 1994-cü il dekabrın 11-də birinci çeçen müharibəsi başladı. Qroznıda C.Dudayevin 15 min qoşunu, 60 top və minaatanı, 30 «Qrad» qurğusu, 50 tankı vardı. Federal qoşunlar Çeçen Respublikasının ərazisinə daxil olaraq, 1995-ci ilin yayına doğru ağır döyüşlərdən sonra əsas yaşayış məntəqələrini ələ keçirərək, dudayevçiləri dağlara sıxışdırdılar. Baxmayaraq ki, müdafiə naziri P.S.Qraçov ictimaiyyəti və prezidenti inandırmağa çalışırdı ki, C.Dudayevi devirmək üçün «iki saat və bir paraşüt desant polku» kifayətdir. Əməliyyatlar göstərdi ki, dudayevçilər müasir sovet və xarici silahlarla hərbi əməliyyatlara daha yaxşı hazırlaşmışlar. «Qayda-qanunun bərpası» aviasiya, tanklar və digər ağır texnikanın tətbiqi ilə uzun və qanlı müharibəyə çevrildi.

1995-ci ilin iyulunda bir qrup çeçen döyüşçüsü Ş.Basayevin başçılığı ilə Çeçenistan sərhədindən 150 km uzaqlıqda yerləşən Stavropol diyarının Budyonovsk şəhərində 1500 nəfəri, o cümlədən uşaq və qadınları girov götürərək, Rusiya hökumətini onların tələblərini yerinə yetirməyə məcbur etdi. Federal hakimiyyət çeçen liderlərlə yenidən danışıqlara başladı. 1996-cı ilin aprelində C.Dudayev öldürülsə də, vəziyyət dəyişmədi. 1996-cı ilin avqustunda çeçen döyüşçüləri dağlardan enərək, Qroznıya hücum etdilər və onu federal qoşunlardan təmizlədilər. 1996-cı il avqustun 31-də Dağıstanın Xasavyurt qəsəbəsində

Təhlükəsizlik Şurasının katibi general-leytenant A.İ.Lebedlə çeçen qoşunlarının qərargah rəisi A.A.Masxadov arasında müharibənin dayandırılması, rus qoşunlarının respublikadan çıxarılması və Çeçen Respublikasının ərazisində demokratik seçkilərin keçirilməsi haqqında saziş imzalandı. Çeçenistanın statusunun həlli məsələsi beş il müddətinə təxirə salındı. 1997-ci ildə Çeçen Respublikasının Prezidenti seçilən A.A.Masxadov bu müqaviləyə, faktiki, Çeçenistanın müstəqilliyinin tanınması kimi baxırdı. 1997-ci ilin mayında Moskvada B.Yeltsin və A.Masxadov R.F və Çeçen Respublikası İçkeriya arasında sülh və qarşılıqlı münasibət haqqında müqavilə imzaladılar. Faktiki olaraq, Çeçenistan müstəqil elan edildi və Rusiya onun dağıdılmış iqtisadiyyatının bərpasına kömək etməyə razılıq verdi.

1999-cu ilin payızında Çeçenistan ətrafında vəziyyət yenidən kəskinləşdi. İkinci Çeçen müharibəsi başladı. 1999-cu ilin sentyabrında Rusiyanın bir sıra şəhərlərində, o cümlədən Moskvada terror aktları törədildi. Rusiya hökumətinin cavab tədbirləri sərt oldu. İkinci Çeçen müharibəsində 150 min nəfər hərbçi, milis və daxili qoşun səfərbər edildi. Çeçen tərəfinin döyüşçüləri 20 min nəfərə çatırdı. Federal qoşunlar birinci Çeçen müharibəsindən nəticə çıxararaq, əsasən, artilleriya və hava hücumlarına üstünlük verirdi. 1999-cu ilin dekabrında HHQ və sərhədçilər Gürcüstan sərhədi yaxınlığındakı Arqun dərəsini tutaraq, çeçen döyüşçülərinə gələn köməyin qarşısını aldı. 2000-ci ilin yanvarında federal qoşunlar möhkəm qalaya çevrilən Qroznını aldı. Döyüşlərin gedişində çeçen döyüşçülər 15 min, federal qüvvələr 2 min nəfər itirdi. 2000-ci ilin axırlarında federal qoşunlar Çeçen Respublikasının bütün yaşayış məntəqələrinə nəzarəti ələ keçirdi. Respublikada keçmiş müfti A.A.Kadırovun başçılığı ilə vətəndaş idarəçiliyi yaradıldı. 2003-cü ilin martında keçirilən referendumda Çeçen Respublikasının yeni Konstitusiyası qəbul edildi ki, burada da Çeçenistan Rusiya Federasiyasının ayrılmaz tərkib hissəsi elan olundu. 2003-cü il oktyabrın 5-də A.A.Kadırov Çeçen Respublikasının Prezidenti seçildi.

2000-2004-cü illərdə cərəyan edən hadisələr göstərdi ki, Moskvanın yeni çeçen siyasətinin əvvəlki kimi barışmaz rəqibləri var. Ölkədə və Çeçenistanda müqavimətin yeni növü, terror aksiyaları artdı. Çeçen Respublikasının prezidenti A. Kadırov 2004-cü il mayın 9-da Qroznıdakı stadionda təntənəli parad zamanı öldürüldü. Rusiya xüsusi xidmət orqanlarının iştirakı ilə 2005-ci ildə İçkeriyanın sabiq prezidenti A.Masxadov, keçmiş vitse-prezident V.X.Arsanov öldürüldülər. 2006-cı ilin iyulunda Rusiya təhlükəsizlik qüvvələri Ş.Basayevi məhv etdi. Çeçenistan Respublikasında vəziyyətin normallaşdırılmasında 30 minə yaxın çeçen təhlükəsizlik qüvvələri də yaxından iştirak edirdi.

2005-ci ilin noyabrında Çeçen Respublikasının iki palatalı parlamentinə seçkilər keçirildi. Bununla da Rusiyanın suverenliyi və dövlət hakimiyyət orqanlarının legitimliyi bərpa edilmiş oldu. 2006-cı ildən respublikaya R.Kadırov başçılıq edir, regionda, tədricən, dinc həyat qaydaya düşür.

### §4. Müasir Rusiyanın xarici siyasəti

1991-ci ilin dekabrında SSRİ dağıldıqdan sonra onun tərkibindən ayrılan respublikalar Müstəqil Dövlətlər Birliyini (СНГ) yaratdı. Baltikyanı respublikalarından başqa, keçmiş sovet respublikalarının hamısı MDB-də təmsil olundu. 1992-ci ilin mayın 15-də MDB ölkələri kollektiv təhlükəsizlik haqqında müqavilə imzaladı. 1993-cü il yanvarın 22-də MDB-nin Nizamnaməsi qəbul edildi. Rusiya keçmiş sovet məkanında nüfuzunu və varlığını MDB çərçivəsində səmərəli əməkdaşlıq mexanizmi əsasında davam etdirmək niyyətində idi. Digər tərəfdən, «yaxın xaric» ölkələrində xarici ölkə vətəndaşlarına çevrilən 25 mln. rus vardır ki, onların da taleyi Rusiya dövlətinin MDB daxilində yeritdiyi siyasətdən asılıdır.

Lakin MDB mövcud olduğu ilk iki il ərzində mərkəzdənqaçma meyli və keçmiş vahid SSRİ məkanının sürətlə dağılması baş verdi. 1993-cü ildə vahid valyuta – rubl sahəsinin ləğv edilməsilə ümumi iqtisadi məkan fəaliyyətini dayandırdı. Siyasi və hüquqi sistem müxtəlif istiqamətlərdə hərəkət etməyə başladı. Yeni dövlətlər müstəqil surətdə üçüncü ölkələrlə iqtisadi, siyasi, hərbi münasibətlər yaratdı. 1993-cü ildə sovet ordusunun bölünməsi və milli silahlı qüvvələrin təşkili başa çatdı. 1995-ci ilin sentyabrında B.N.Yeltsin «Rusiyanın Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərlə strateji kursu» fərmanını imzaladı. Sənədə əsasən, Birlik Rusiyanın aparıcı rolu şərtilə möhkəm geosiyasi ittifaqa çevrilməli idi. Bu məqsədlə 1990-cı illərdə MDB üzrə iki minə yaxın sənəd imzalanmasına baxmayaraq, onların böyük əksəriyyəti yerinə yetirilməmişdi. Rusiya ilə MDB ölkələri arasında iqtisadi əməkdaşlıq azalmış, qarşılıqlı hərbi-siyasi tədbirlər kollektiv təhlükəsizliyə dair 1992-ci il Daşkənd müqaviləsində nəzərdə tutulduğu miqyasda həyata keçirilməmişdi. Siyasi sahədə MDB-ni dünyada layiqli yerə sahib olan vahid siyasi dövlətlər birliyinə çevirmək mümkün olmadı. MDB ölkələri arasında humanitar sahədə də hərtərəfli əməkdaşlıq yaranmadı.

1999-cu ildən Rusiya MDB orqanlarının milli səlahiyyətlər üzərində həlledici rol oynaması siyasətindən əl çəkərək, tədricən iqtisadi əlaqələrin əsas olduğu ikitərəfli əməkdaşlığa üstünlük vermişdir.

MDB-nin tərkibinə daxil olan postsovet respublikalarının hamısı milli ordusunu yaratmışdır. Nüvə silahına nəzarət Rusiya dövlətinə məxsusdur. Belorusiya və Ukrayna ərazilərində yerləşən nüvə silahlarının Rusiyaya aparılmasına razılıq verdi. Lakin 1992-ci ilin yazında Ukrayna öz ərazisindəki nüvə silahına sahib olmaq hüququnu irəli sürdü. Qazaxıstan da oxşar təkliflə çıxış etdi. Lakin Rusiya və ABŞ-ın təzyiqi ilə hər iki dövlət nüvə silahına iddiadan əl çəkərək, nüvə silahının yayılmaması müqaviləsinə qoşuldu. Rusiya hərbi-kosmik sahədə Qazaxıstanla sıx əməkdaşlığı davam etdirərək, Baykonur kosmodromunu 20 il müddətinə icarəyə götürdü.

Qara dəniz donanmasına görə Rusiya ilə Ukraynanın münasibətləri gərgin olaraq qalırdı. 1992-ci ilin avqustunda bu donanma MDB Birləşmiş silahlı qüvvələrinin tərkibindən çıxarılaraq, Rusiya və Ukraynanın birgə idarəsinə verildi. 1995-ci ilin iyununda Rusiya və Ukraynanın dövlət başçıları Qara dəniz donanmasının bölünməsini, rus və Ukrayna hərbi-dəniz qüvvələrinin yerinin müəyyən edilməsini həll etdilər. Qəti olaraq bu məsələ 1997-ci ilin mayında öz həllini tapdı. Rusiya Qara dəniz donanmasının 87 faizinə sahib olmaqla, Sevastopol hərbi-dəniz bazasını icarəyə götürmək hüququ aldı. 1997-ci il mayın 31-də Rusiya və Ukrayna Dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında müqavilə imzaladı.

Müqavilənin imzalanmasına baxmayaraq, Krım yarımadası Ukrayna ilə Rusiya arasında mübahisəli yer kimi qaldığından, bir müddət sonra Krımın Rusiya tərəfindən ilhaqı ilə başa çatdı. Belə ki, Qərblə Rusiya arasında qalan Ukraynada vəziyyətin mürəkkəbləşməsindən istifadə edən qüvvələr Krımın Rusiyaya birləşdirilməsi məsələsini gündəmə gətirdilər. Krım yarımadasında əksəriyyəti Rusiya-Ukrayna ikili vətəndaşlığı olan ruslar yaşayırlar. Sevastopolda Rusiyanın hərbi-dəniz bazası yerləşir və 2042-ci ilə kimi bu bazada qalmaq hüququna malikdir.

Ukraynada hakimiyyətin Avropa İttifaqı ilə assosiativ razılaşmadan imtina etməsinə qarşı etiraz aksiyaları başlasa da, hərəkat tez bir zamanda istiqamətini korrupsiya və insan hüquqlarının pozulmasına qarşı yönəldi. 2013-cü il noyabrın 30-dan dekabrın 1-nə keçən gecə dinc aksiya iştirakçılarını dağıtmaq cəhdi hakimiyyətə baha başa gəldi və ölkədə durum, faktiki, nəzarətdən çıxdı. Yüz minlərlə aksiya iştirakçısı Azadlıq meydanında iqtidarın istefasını tələb etdi. Ukrayna Prezidenti Viktor Yanukoviç paytaxt Kiyevdən qaçmağa məcbur oldu. Ukraynada hakimiyyətin dəyişilməsi Rusiya Prezidenti V.V.Putin üçün çətinlik törətdi. Belə ki, prezident böyüklüyünə görə ikinci şərqi slavyan ölkəsi olan Ukraynanın gələcəkdə Avropa İttifaqının yanında yer almasından ehtiyat edirdi. Odur ki, Rusiya rusdilli əhalinin əksəriyyət təşkil etdiyi rayonlarda olduğu kimi, Krımda da yeni hakimiyyətə qarşı müxalifəti dəstəklədi. İlk növbədə, 2014-cü il

martın 16-da Krımın statusu haqqında referendum keçirildi. Referendumda iştirak edənlərin 96 faizdən çoxu Krım Muxtar Respublikasının Rusiya Federasiyasının tərkibinə daxil olmasının lehinə səs verdi. Rusiya Prezidenti V.V.Putin 2014-cü il martın 18-də Krım Respublikasının Rusiya Federasiyasının tərkibinə daxil edilməsi haqqında müqavilənin imzalanması barədə sərəncam verdi. Bunun ardınca, Dövlət Duması və Federasiya Şurası Ukraynanın Krım Muxtar Respublikasının Rusiyaya birləşdirilməsinə dair qərar qəbul edərək, yarımadanı Krım Respublikası olaraq Federasiyanın inzibati ərazisinə daxil etdilər.

İki şərqi slavyan dövləti – Rusiya və Belarus sıx əməkdaşlıq edir. 1996-cı ilin aprelində Rusiya-Belarus birliyinin yaradılmasına dair müqavilə imzalandı. 1997-ci ildə birlik Rusiya-Belarus İttifaqına çevrildi. 1997-ci il mayın 23-də İttifaqın Nizamnaməsi qəbul edildi. Rusiya-Belarus İttifaqı tədricən konfederasiya şəklində birləşməyə doğru gedir. Rusiya və Belarus vətəndaşları azad surətdə bir ölkədən digərinə getmək, əmlaka sahib olmaq hüququna malikdir. Lakin Belarusun iqtisadiyyatı bazar münasibətlərinə keçmədiyi üçün Rusiyadan fərqlidir. Siyasi sistem isə avtoritar rejimə malik olduğundan, Rusiyanın demokratik düşüncə tərzli siyasətçilərini qorxudur. Belarusun prezidentinin siyasəti həm ölkə daxilində, həm də xaricdə ciddi tənqid edilir. O, Konstitusiyaya zidd olaraq, prezidentlik hakimiyyətinin vaxtını uzatmaqda ittiham olunur. 2000-ci ildə Belarusda müxalifət Rusiya əleyhinə mitinqlər təşkil edərək, bu ölkə ilə inteqrasiyanın əleyhinə olduqlarını nümayiş etdirdi. Müxalifət belə hesab edir ki, Rusiya Belarusu öz tərkibinə qatmağı nəzərdə tutur. Bir çox rus siyasətçiləri də belə düşünür ki, birləşmə yalnız Belarusun Rusiyanın tərkibinə qatılması ilə mümkündür.

MDB daxilində Rusiyanın mühüm tərəfdaşlarından biri Qazaxıstandır. Qazaxıstan həm də Rusiya, Qırğızıstan və Belarus ilə birlikdə Gömrük İttifaqını təşkil edir. Ölkənin ruslar və ukraynalıların sıx yaşadığı şimal bölgələrində vəziyyət daha mürəkkəbdir. Şimal hissəsindəki nüfuzlu siyasi qüvvələr bu ərazilərin Qazaxıstandan ayrılıb, Rusiyaya birləşməsini tələb edir, Qazaxıstan isə bunu ərazi bütövlüyünə qəsd sayır. Bütün bu fikir ayrılığı və çətinliklərə baxmayaraq, 2014-cü il mayın 29-da Rusiya, Belarus və Qazaxıstan Avrasiya İqtisadi İttifaqının (ЕАЭС) yaradılması haqqında müqavilə imzaladılar. Avrasiya Gömrük İttifaqı əsasında yaradılan bu beynəlxalq inteqrasiya iqtisadi birliyi 2015-ci il yanvarın 1-dən fəaliyyətə başlayıb.

MDB çərçivəsində Qırğızıstan və Tacikistan Rusiya Federasiyasının yaxın tərəfdaşlarındandır. 1997-ci ildə Rusiyanın vasitəçiliyi ilə Tacikistan hökuməti ilə müxalifət arasında hərbi əməliyyatların dayandırıldı, milli barışıq komissiyası təşkil edilməsinə dair saziş imzalandı. Tacikistanın cənub sərhədlərini Rusiyanın

201-ci diviziyası qoruyur. Bu isə terrorçuların, narkotik və silah alverçilərinin sərhədi keçmələrinin qarşısına sipər çəkir.

Mərkəzi Asiyada Rusiyanın yeritdiyi siyasətin ana xəttini regiondakı münaqişələrin qarşısını alaraq, vəziyyəti sabitləşdirmək, xarici ekstremist qüvvələrin region ölkələrinə nüfuz etməsinin qarşısını almaq təşkil edir. Region dövlətləri ilə ikitərəfli əlaqələr, Şanxay əməkdaşlığı təşkilatı (ШОС) və Kollektiv təhlükəsizlik müqaviləsi təşkilatı (ОДКБ) çərçıvəsində münasibətlər inkişaf edir. 2009-cu ildə KTMT-nin tərkibinə Belarus, Qazaxıstan, Rusiya, Qırğızıstan, Tacikistan və Ermənistan daxil olmuşdur. Təşkilatın strukturunda beynəlxalq terrorizmə qarşı mübarizə aparmaq məqsədilə fövqəladə hallarda sürətlə hərəkət edən kollektiv təhlükəsizlik qüvvələri təşkil edilmişdir. 2009-cu ilin oktyabrında Qazaxıstanda bu qüvvələrin irimiqyaslı hərbi təlimi keçirilmişdir.

Rusiyanın Cənubi Osetiya üzündən Gürcüstanla münasibətləri gərgin olaraq qalmaqdadır. Belə ki, 2008-ci il avqustun 7-dən 8-nə keçən gecə Gürcüstan hərbi qüvvələri Cənubi Osetiyada qayda-qanunu bərpa etmək və yerli separatçı qüvvələrin hərəkətlərinin qarşısını almaq məqsədilə əyalətin ərazisinə daxil oldular. Avqustun 8-də Rusiyanın 58-ci ordusunun birləşmələri Roki tunelini keçərək, müstəqil Gürcrüstanın ərazisinə daxil olub, Sxinvali şəhəri istiqamətində hücuma keçdilər. Beləliklə, 5 günlük Rusiya-Gürcüstan müharibəsi başladı. Canlı qüvvə və hərbi texnika cəhətdən Gürcüstan ordusundan qat-qat üstün olan Rusiya qoşunları avqustun 9-da 150 tankla Şimali Osetiya istiqamətindən Cənubi Osetiyaya daxil olub, əks-hücuma keçdilər. Rus qoşunları tezliklə Cənubi Osetiyanın yerli əsgərləri ilə birlikdə gürcü qoşunlarını məğlubiyyətə uğradaraq, Roki tunelini və Cənubi Osetiyanı tutdular. Beşgünlük müharibə nəticəsində 215 nəfər gürcü əsgər və zabiti öldürüldü, 283 nəfər isə yaralandı. Qarşı tərəf isə, təxminən, 400 əsgər və zabit, çox sayda mülki şəxs itirdi. Müharibədən sonra Gürcüstan Rusiya ilə quru və hava yollarını bağladı. Beşgünlük Rusiya-Gürcüstan müharibəsi rus və gürcü xalqı arasında dərin uçurum yaratdı. Abxaziya və Cənubi Osetiyanın nəzarətində olan hissəsini itirməklə, Gürcüstan suveren ərazisnin 20 faizini itirmiş oldu. 2012-ci ilin dekabrında Rusiyanın Baş naziri Dmitri Medvedev bəyan etdi ki, Rusiya Mixail Saakaşvilidən sonrakı yeni hakimiyyətlə danışıqlara hazırdır, amma qarşı tərəf bölgədəki geosiyasi dəyişiklikləri qəbul etməlidir. Tanınmamış Cənubi Osetiya Respublikası ilə sərhəd xəttinin dəyişdirildiyinə görə Gürcüstan 2015-ci il avqustun 12-də növbəti dəfə Rusiya tərəfinə nota ilə müraciət etmişdir. Rusiya Gürcüstan münasibətləri bu gün də gərgin olaraq qalmaqdadır.

Rusiya ilə Azərbaycan arasında diplomatik münasibətlər 1992-ci il aprelin 4-də yaranıb. 1997-ci il iyulun 3-də Rusiya ilə Azərbaycan arasında dostluq,

əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzalanmışıdr. İki ölkə arasında siyasi, iqtisadi və mədəni əməkdaşlıq gündən-günə inkişaf edir. Azərbaycan-Rusiya ticarət əlaqələri inkişaf edərək 2007-ci ildə 1,5 mlrd. dollar həcmində olmuşdur. Rusiya Federasiyanın prezidentləri V.V.Putin və D.A.Medvedev 2001, 2006, 2008 və 2009-cu illərdə Azərbaycan Respublikasına rəsmi səfərə gələrək, dövlət başçısı Heydər Əliyev və İlham Əliyevlə işgüzar görüşlər keçiriblər. Bu, Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın artan xətt üzrə inkişaf etdiyini göstərir. Xüsusilə 2013-cü ilin avqustunda Rusiya Federasiyasının Prezidenti V.V.Putinin Azərbaycan Respublikasına növbəti səfəri və bu səfər çərçivəsində Bakıda Azərbaycan Respublikasının dövlət başçısı İlham Əliyevlə işgüzar görüşü iki tərəfin qarşılıqlı əlaqələrini daha da zənginləşdirmək marağından xəbər verir. Eyni zamanda Rusiyanın dövlət başçısı V.V.Putin 2015-ci ilin iyununda Bakıda keçirilən Birinci Avropa oyunlarının rəsmi açılışında iştirak edib, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə işgüzar danışıqlar aparıb. Hər iki lider danışıqların səmərəli olduğunu bəyan edib.

2018-ci il sentyabrın 1-də Soçidə Azərbaycan və Rusiya prezidentləri görüşərək hər iki ölkə arasında iqtisadi əməkdaşlığı müzakirə etmişdir. 2018-ci il sentyabrın 27-də Rusiya Federasiyasının Prezidenti V.V.Putin növbəti regional formun işində iştirak etmək məqsədilə Bakıda rəsmi səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevlə görüşmüşdür. Rusiya-Azərbaycan əməkdaşlığı məsələləri ikitərəfli görüşün əsas məzmununu təşkil etmişdir.

İkinci Qarabağ müharibəsi Azərbaycan-Rusiya münasibətlərinin mühüm əhəmiyyət kəsb etdiyini göstərir. Belə ki, 2020-ci il sentyabrın 27-də Ermənistan Silahlı qüvvələrinin genişmiqyaslı təxribat hərəkatlarına cavab olaraq Azərbaycan ordusu cəbhəboyu sürətli əkshücum əməliyyatına başlanması ilə İkinci Qarabağ müharibəsi alovlanmışdır. Altı həftə davam edən hərbi əməliyyatlarda 2020-ci ilin oktyabrın 4-də Cəbrayıl, oktyabrın 17-də Füzuli, oktyabrın 20-də Zəngilan, oktyabrın 25-də Qubadlı, noyabrın 8-də Şuşa şəhəri işğaldan azad edilmişdir.

İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi və yaxud «Dəmir yumruq» əməliyyatını uğurla başa çatdıran Azərbaycan Silahlı Qüvvələri Birinci Qarabağ müharibəsi nəticəsində itirilmiş Azərbaycan torpaqlarını işğaldan azad etmişdir. Noyabrın 8-də Şuşanın azad edilməsindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan 2020-ci il noyabrın 10-u saat 00:00-dan etibarən bütün döyüş əməliyyatlarını dayandıran atəşgah bəyanatı imzaladılar. Razılaşmaya müvafiq olaraq, erməni işğalı altında olan Ağdam noyabrın 20-də, Kəlbəcər noyabrın 25-də və Laçın

dekabrın 1-də Azərbaycana qaytarıldı. İki min nəfərə yaxın rus əsgəri Laçın dəhlizi boyunca 5 il müddətinə sülhməramlı qüvvələr olaraq yerləşdirildi. Eyni zamanda Azərbaycan Türkiyə və İranla həmsərhəd olan Naxçıvana dəhliz əldə etdi. Həmçinin Türkiyə-Rusiya Ortaq Monitorinq Mərkəzinin qurulması məqsədi ilə anlaşma memorandumu imzalandı.

1991-ci il dekabrın 24-də Rusiya BMT-də SSRİ-nin yerini tutaraq, Təhlükəsizlik Şurasının daimi üzvü oldu. 1992-ci ilin yanvarında Təhlükəsizlik Şurasının iclasında iştirak etmək məqsədilə ABŞ-a səfər edən Rusiya Prezidenti B.N.Yeltsin ABŞ Prezidenti C.Buşla «Rusiya və ABŞ arasında münasibətlərin prinsipləri haqqında» bəyannamə imzaladı. Bəyan edildi ki, iki ölkə arasında münasibətlər dostluq və tərəfdaşlıq əsasında qurulur. 1992-ci ilin martında Rusiya və MDB ölkələri Şimali Atlantika əməkdaşlığı Şurasına daxil oldu. Bu, MDB ölkələrinin NATO ilə tərəfdaşlığının əsasını qoydu. 1994-cü il mayın 5-də Rusiya və MDB-yə daxil olan keçmiş sovet respublikaları, o cümlədən Azərbaycan Respublikası NATO-nun Şərqi Avropa ölkələrinin də iştirak etdiyi «Sülh naminə tərəfdaşlıq» proqramına qoşuldu.

1995-ci ilin may ayında Rusiya Federasiyasına səfər edən ABŞ Prezidenti B.Klinton bildirdi ki, Avropanın yenidən parçalanmaması üçün, NATO-nun genişləndirilməsi tədricən həyata keçiriləcək. Bu məsələdə ABŞ-ın başlıca məqsədi Şərqi Avropa ölkələrinin bir daha Rusiyanın təsiri altına düşməsinə yol verməməkdir. ABŞ Rusiya Federasiyası ilə əməkdaşlığı Avropada yeni təhlükəsizlik sisteminin əsas elementlərindən biri saydığı üçün, həm «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində, həm də Rusiya ilə ikitərəfli əlaqələrin inkişafında maraqlı idi. 1997-ci ilin yanvar ayında NATO-nun Baş katibi Rusiyaya rəsmi səfərə gəldi. 1997-ci il mayın 10-da Helsinkidə B.Yeltsinlə B.Klintonun görüşü oldu. 1997-ci il mayın 27-də Parisdə NATO ilə Rusiya Federasiyası arasında «Qarşılıqlı münasibətlər, əməkdaşlıq və təhlükəsizlik haqqında akt» imzalandı. Rusiya NATO-nun genişlənməsi ilə razılaşdı, NATO isə Şərqi Avropa ölkələrində nüvə silahı yerləşdirməməyi öhdəsinə götürdü.

2002-ci ilin may ayında Rusiya NATO-nun Romada keçirilən sammitində iştirak etdi. Rusiya-NATO Şurasının yaradılmasına dair bəyannamə imzalandı. ABŞ Baltikyanı respublikaların NATO-ya daxil olmasına səy göstərirdi, Rusiya isə bunun əleyhinə idi. 2002-ci ilin noyabrında NATO-nun Praqada keçirilən sammitində Bolqarıstan, Litva, Latviya, Estoniya, Rumıniya, Slovakiya və Sloveniyaya NATO-ya daxil olmaları məqsədilə dəvətnamə göndərmək qərara alındı. 2003-cü ildə bu dövlətlərin NATO-ya qəbulu prosesi başa çatdı.

1990-cı illərdə Balkan yarımadasında cərəyan edən hadisələr Avropada və dünyada beynəlxalq münasibətləri kəskinləşdirdi. 1991-ci ilin iyununda Slove-

niya və Xorvatiya müstəqilliyini elan etdi. Serbiya və Çernoqoriya vahid İttifaq dövlətinin saxlanılması tərəfdarı idi. 1991-ci ilin martında Bosniya İttifaqdan çıxdı, YSFR-in dağılması prosesi başa çatdı. 1992-ci ilin yazında hadisələrin mərkəzi serblər, müsəlmanlar və xorvatlar yaşadığı Bosniyaya keçdi və onlar arasında hərbi əməliyyatlar başladı. Qərb dövlətlərinin Bosniya münaqişəsi ilə bağlı siyasəti fəallaşdı. Rusiya NATO-nun Bosniya münaqişəsinə qoşulmasının əleyhinə çıxış edərək, şərt qoyurdu ki, bunun üçün BMT Təhlükəsizlik Şurası icazə verməlidir. ABŞ-ın Deyton şəhərində Serbiya, Xorvatiya və Bosniya arasında danışıqlar başladı, 1995-ci ilin noyabrında onlar arasında Deyton barışığı, dekabrın 14-də isə Parisdə sülh müqaviləsi imzalandı. Bosniya ərazisinin 51 faizi müsəlman-xorvat federasiyasına, 49 faizi serblərə verildi. Beləliklə, Bosniyada vahid dövlət konfederasiya formasında saxlandı.

Yuqoslaviya İttifaq Respublikası 1992-ci ildə Serbiya və Çernoqoriyanın birləşməsi nəticəsində yarandı. Kosovo albanları müstəqillik uğrunda mübarizəyə başladı. YİR polis və ordu qüvvələri ilə Kosovodakı albanları kütləvi şəkildə ölkədən qovmağa başladı. NATO qoşunları Yuqoslaviyaya qarşı hərbi əməliyyatlara başlayaraq, Serbiyanı bombaladı. Buna cavab olaraq, Rusiya NATO ilə əməkdaşlığı dayandırdı. Rusiya Prezidenti B.N.Yeltsin V.Çernomırdini Yuqoslaviya böhranının həlli məsələsi üzrə xüsusi nümayəndə təyin edərək, 1999-cu il aprelin sonunda Belqrada göndərdi. V.Çernomırdin may ayının 18-də Belqradda S.Miloşeviçlə görüşüb, danışıqlar apardı. Uzun danışıqlardan sonra NATO qoşunları Kosovaya daxil oldu, qaçqın albanlar isə öz yerlərinə qayıtdılar. Helsinki və Kölndə əldə olunan razılıq Rusiyanın Kosovadakı sülhyaratma əməliyyatlarında iştirakına şərait yaratdı. 1999-cu il iyunun 20-də serb qoşunları və polisinin Kosovadan çıxarılması başa çatdı. NATO-nun Baş katibi X.Solana YİR-ə qarşı hərbi əməliyytların dayandırıldığını bildirdi.

1990-cı illərdə Rusiyanın xarici siyasətində ABŞ dövləti ilə münasibətlər həlledici yer tuturdu. Xüsusilə 90-cı illərdə soyuq müharibənin başa çatması ilə tərk-silah uğrunda mübarizənin əhəmiyyəti və beynəlxalq mübasibətlərə təsiri artmışdı. Bu sahədə konkret addım olaraq, 1993-cü il yanvarın 3-də Rusiya ilə ABŞ arasında strateji hücum silahlarının ixtisarına dair müqaviləni misal göstərmək mümkündür. Müqavilənin şərtlərinə əsasən, hər iki tərəfin strateji hücum raketlərindəki döyüş başlıqlarının sayı 3500 ədəd müəyyən edildi. Sualtı gəmilərdəki döyüş başlıqlarının sayı 1750-dən artıq ola bilməzdi. 2000-ci ilin aprelində Rusiya Federasiyasının Dövlət Duması strateji hücum silahlarının ixtisarına dair 1993-cü il müqaviləsini təsdiq etdi.

2001-ci il noyabrın 12-də Rusiya Federasiyasının prezidenti V.V.Putin ABŞ-da rəsmi səfərdə oldu. 2002-ci il mayın 24-də ABŞ Prezidenti C.Buş

Rusiyada rəsmi səfər zamanı iki ölkə arasında «Strateji hücum silahlarının məhdudlaşdırılması haqqında» müqaviləni imzaladı. Sənədə əsasən, tərəflər 2002-ci il dekabrın 31-dək qitələrarası ballistik raketlərdəki döyüş başlıqlarının sayını 1700-2200 həddinədək ixtisar etməli idi. Rusiya Federasiyası parlamenti müqaviləni 2003-cü ilin mayında təsdiq etdi.

2008-ci il sentyabrın 16-da ən böyük Amerika banklarından biri olan «Leman Brazers»in iflas etməsi dünya iqtisadi böhranını yaratmışdır. Bu göstərdi ki, dünya iqtisadiyyatının qlobal xüsusiyyətinə baxmayaraq, onun idarə olunması aşağı səviyyədə qalır. 1997-ci ildən Rusiyanın da qoşulduğu «Böyük yeddilik» meydana çıxmış problemləri həll etmək məqsədilə yeni inkişaf etməkdə olan ölkələri də fəaliyyətə cəlb etməyə məcbur olmuşdur. 2008-ci ilin noyabrında Vaşinqtonda Hindistan, Çin, Meksika, Braziliya, Səudiyyə Ərəbistanı, Cənubi Koreya və b. ölkə başçılarının iştirakı ilə «Böyük iyirmilik» («Большая двадцатка») sammiti işə başlamışdır. Qərb ölkələrinin mövqeyinin zəifləməsi yeni nüfuz mərkəzlərinin yaranmasına təkan verdi. Bunlardan biri BRİK (БРИК) – Braziliya, Rusiya, Hindistan, Çin olmuşdur. 2011-ci ildə Cənubi Afrikanın qrupa daxil olması ilə BRİKS (БРИКС) kimi dəyişmişdir. Yeni qrup dünya iqtisadi faktoru olmaqla bərabər, həm də geosiyasi birlik idi.

2010-cu il aprelin 8-də Praqada ABŞ Prezidenti B.Obama və Rusiya prezidenti D.Medvedev «Strateji hücum silahlarının məhdudlaşdıırlması və gələcəkdə ixtisar edilməsi tədbirlərinə dair» (SHS-3 – «CHB-3») sənəd imzalanmışdır. Sənədə əsasən, yeddi il ərzində nüvə başlıqları 1550 vahid, açılmış buxarıcı qurğularda daşıyıcılar 700 vahid, açılmamışlarda 800 vahid müəyyənləşdirilmişdir. Xərcləri və təhlükəni azaltdığı üçün razılaşma qarşılıqlı faydalı idi. Eyni zamanda Moskva öz ərazisindən NATO-nun yük təyyarələrinə Əfqanıstana tranzit yük daşımasına icazə vermişdi. Rusiya ABŞ və Aİ-nin İrana qarşı tətbiq etdiyi sanksiyanı müdafiə etmişdir. Bütün bunlara baxmyaraq, Rusiya-ABŞ münasibətlərində ziddiyyət və fikir ayrılığı qalırdı. Xüsusilə Arktika regionunun zəngin ehtiyatları rəqabət dairəsi olaraq qalırdı.

2001-ci il sentyabrın 11-də ABŞ-da baş verən terror aktı beynəlxalq vəziyyətə əhəmiyyətli təsir göstərdi və dünya birliyinin terrora qarşı səfərbər edilməsinə səbəb oldu. Sentyabr hadisəsi beynəlxalq təhlükəsizliyin yeni sisteminin yaranmasında Rusiyanın yerinin və rolunun əhəmiyyətini bir daha gündəmə gətirdi.

2001-ci ilin oktyabrında ABŞ sentyabr faciəsinin günahkarı hesab etdiyi Ben Ladenin «Əl-Kaida» təşkilatını cəzalandırmaq məqsədilə Əfqanıstana qarşı irimiqyaslı hərbi əməliyyata başlayaraq, Taliban hərəkatını hakimiyyətdən uzaqlaşdırdı. Üsamə Ben Laden ABŞ təhlükəsizlik qüvvələri tərəfindən 2011-ci il mayın 2-də Pakistanda məhv edildi.

2011-ci ilin yanvar-mayında dünya yeni fenomenlə qarşılaşmışdır. Bir çox ərəb ölkəsində avtoritar rejimlərə qarşı təxminən eyni vaxtda nümayişlər başlamışdır. İlk başlanğıcda bu demokratikləşmə prosesi kimi qəbul edilərək «ərəb baharı» («арабская весна») adını almışdır. Lakin xarici güclərin müdaxiləsi vəziyyəti mürəkkəbləşdirmişdir, humanitar şüarlar altında münasib olmayan rejimlər dəyişdirilmişdir. Xüsusilə Liviyada faciəli hadisələr baş vermiş, ölkənin başçısı M.Qəddafi üzərində ibtidai divantutma əməli dramatizmi ilə yaddaşlara həkk edilmişdir. Qərb ölkələri xarici silahlı qüvvələrin ölkədə qayda-qanun yaratmaq məqsədilə müdaxiləni qanun çərçivəsinə salmağa çalışdığı halda Rusiya xarici müdaxilə olmadan daxili milli dialoq yolu ilə məsələni həll etməyi təklif etmişdir. Liviya məsələsi BMT TŞ-də müzakirə edilərkən onun daimi üzvü olan Rusiyanın mövqeyini çox halda Çin də bölüşürdü.

2003-cü il martın 20-də ABŞ və Böyük Britaniya antiterror əməliyyatı pərdəsi altında İraqa daxil oldu. «Kütləvi qırğın silahı» axtaran müttəfiq hərbi hissələri real olaraq onu tapa bilmədilər. Rusiya rəhbərliyi bu təcavüzüABŞ-ın ciddi səhvi adlandırmışdır. İraq hadisəsi dünyada antiamerikanizmin və terrorizmin qol-qanad açmasına səbəb oldu.

Rusiyanın xarici siyasət xəttinin əsas istiqamətlərindən biri də Avropa dövlətləri ilə əlaqələrdir. Avropanın işlərində fəal iştirak etmək məqsədilə Rusiya Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Ümumavropa Müşavirəsinin (КБСЕ) fəaliyyətində yaxından iştirak edir. Başqa Avropa birliklərindən fərqli olaraq, Rusiya bu təşkilatın tamhüquqlu üzvüdür. 1999-cu il noyabrın 18-19-da İstanbulda 54 dövlətin iştirakı ilə ATƏT-in zirvə toplantısı keçirildi. Toplantıda Avropa təhlükəsizlik xartiyası, siyasi bəyannamə və Avropada adi silahlara aid müvafiq müqavilə qəbul edildi. Rusiyanın təkidilə Xartiyada antiterror problemi geniş yer aldı. Sammitdə 1975-ci ildən sonra ATƏT-in fəaliyyəti ətraflı təhlil edilmiş, XXI əsrdə qitə dövlətləri qarşısında duran başlıca vəzifələr müəyyən edilmişdi.

Lakin Rusiyanın Avropa dövlətləri ilə əlaqələri ATƏT çərçivəsində də müəyyən problem və çətinliklərlə qarşılaşır. Rusiya tərəfi ATƏT-i özünün əsas vəzifəsi olan mövcud münaqişələri həll etmək yerinə, regionda Qərb tipli demokratiyanı yaymasına çalışdığı üçün tənqid edir. Təşkilatın bəzi üzvləri, xüsusən Polşa və Baltik dövlətləri ardıcıl antirusiya mövqeyi nümayiş etdirir. 2009-cu ilin iyulunda ATƏT-in Parlament assambleyası XX əsrdə Avropa ölkələrinin iki güclü totalitar nasist və Stalin rejimlərinin genosid və cinayəti sayəsində zərər görməsinə dair qətnamə qəbul etmişdir. Avropa parlamenti 1939-cu il avqustun 23-də imzalanan Molotov-Ribbentrop paktı gününün «stalinizm və nasizmin qurbanlarının» anım günü kimi təsis etməyi irəli sür-

müşdür. Bu gün həmçinin II Dünya müharibəsinin başlanması hesab edilməli idi. Rusiya ATƏT-in qətnaməsini antirusiya çıxışı kimi qiymətləndirərək, həm də tarixi həqiqətlərin təhqir edilməsi hesab etdi. Eyni zamanda işğalçılıq konsepsiyasının əsaslandırılması Baltik və Şərqi Avropa ölkələrindən olan «qurbanlara» kompensasiya ödənilməsini nəzərdə tuturdu.

Rusiya üçün mühüm məsələlərdən biri də iştirakçı dövlətlərin inteqrasiyasını həyata keçirən nüfuzlu təşkilat – Avropa İttifaqı (EC) ilə əlaqələr idi. İnteqrasiya əlaqələrinin əsasını iqtisadiyyat təşkil etməsinə baxmayaraq, birlik başqa sahələrdə də münasibətləri inkişaf etdirir. 1990-cı illərdə Aİ Rusiyanın mühüm ticarət-iqtisadi tərəfdaşı kimi çıxış etmişdir. 1994-cü il iyunun 24-də Rusiya ilə Avropa İttifaqı arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında müqavilə imzalanmış və 1997-ci ildə qüvvəyə minmişdir. Aİ Rusiya ilə keçid dövrü iqtisadiyyatı yaşayan ölkə kimi tərəfdaşlıq və əməkdaşlıq edirdi.

Rusiya ilə Aİ-nin enerji sahəsində əlaqələri intensiv inkişaf edirdi. «Qazprom» alman kompaniyası ilə Baltik dənizinin dibi ilə boru kəməri çəkilməsi haqqında razılığa gəlmişdi. «Şimal axını» («Северный поток») qaz kəmərinin tikintisinin təməli 2011-ci ilin noyabrında atılmışdır. Macarıstanla bağlanan sazişə əsasən, «Mavi axın» («Голубой поток») Türkiyə, Bolqarıstan və Rumıniyadan keçməklə Macarıstana daxil olurdu. Eyni zamanda Aİ və Rusiya iqtisadi təhlükəsizlik məsələsində ciddi fikir ayrılığına malikdir. Rusiyanın Ukrayna və Belarus dövlətlərilə olan qaz mübahisəsi zamanı Avropanın qışda qazsız qalması Aİ-nin mənafeyinin təhlükəyə düşməsi kimi qiymətləndirilmişdir. Odur ki, Aİ Rusiya ilə üçüncü dövlətin Rusiyanın qaz kəməri sisteminə qoşulmasını nəzərdə tutan Enerji Xartiyası imzalamasında təkid edir. Rusiya isə xarici ölkələrin öz qaz kəməri sisteminə qoşulmasını istəmir.

1996-cı ildə Rusiya əsas məqsədi demokratiyanın genişləndirilməsi, insan hüquqlarının müdafiəsi, mədəniyyət məsələləri, təhsil, səhiyyə, gənclər, idman, məlumat, ətraf mühitin qorunması sahəsində əməkdaşlığın inkişafı olan Avropa Şurasına daxil olmuşdur.

1990-cı illərdə Rusiyanın Asiya-Sakit okean rayonunda xarici siyasəti dinamik inkişaf etmişdir. 90-cı illərdə ümumi ictimai məhsulun həcminə görə ABŞ və Yaponiyadan sonra dünyada üçüncü yerə çıxmış Çin Xalq Respublikasının dünyada iqtisadi və hərbi-siyasi mövqeyi xeyli möhkəmlənmişdir. SSRİ dağıldıqdan sonra 1992-ci ildə Rusiya prezidenti B.N.Yeltsin Çinə səfər edərək, iki ölkə arasında münasibətlərin inkişafını əks etdirən Pekin bəyannaməsini imzalamışdır. ÇXR Rusiyadan daha çox sənaye məhsulları və əsasən, hərbi texnika alırdı. 1991-ci ildə Rusiya ilə Çin arasında şərqi, 1994-cü ildə isə qərbi sərhəd zonalarının müəyyən edilməsinə dair sərhəd sazişləri imza-

landı. 1997-ci ildə Rusiya-Çin sərhəd xətti 97 faiz məsafədə razılaşdırılmışdır. 1996-cı ilin aprelində Şanxayda Rusiya Federasiyası ilə ÇXR arasında sərhəd zonasında etimad tədbirləri haqqında saziş imzalandı. 1997-ci ildə Qazaxıstan, Qırğızıstan və Tacikistan bu sazişə qoşularaq, «Şanxay beşliyini» təşkil etdi. Sazişə görə, sərhəd boyu 7,5 min km. uzunluğu, 100 km. dərinliyi olan aşağı hərbi fəallıqda sahə təşkil edildi. «Şanxay forumu» 5 ölkənin rəhbərlərinin sərhəd məsələlərinə dair görüşlərinin keçirilməsini də nəzərdə tuturdu.

1997-ci ilin aprelində Moskvada Rusiya ilə Çin arasında çoxqütblü dünya və yeni beynəlxalq qaydanın formalaşmasına dair Bəyannamə imzalandı. Tərəflər XXI əsrdə qarşılıqlı strateji fəaliyyət istiqamətində bərabərhüquqlu tərəfdaşlığın əsasını müəyyən etdilər.

2002-ci il iyunun 7-də Sankt-Peterburqda Rusiya, Qazaxıstan, Qırğızıstan, Çin, Tacikistan və Özbəkistanın dövlət başçıları xartiya qəbul edərək «Şanxay Əməkdaşlıq Təşkilatı»nın («Шанхайская Организация Сотрудничества – ШОС») yarandığını elan etdilər. Təşkilat mühüm regional ittifaq kimi NATO-nun genişlənməsinə və regionda ABŞ-ın nüfuzunun artmasına qarşı cavab idi. 2004-cü il iyulun 15-də Şanxayda Rusiya, Çin, Qazaxıstan, Qırğızıstan və Tacikistan dövlət başçılarının «Şanxay forumu»nun növbəti görüşü oldu. Hindistan və İran assosiativ üzv kimi təşkilata daxil oldu.

2001-ci il iyulun 16-da Moskvada Rusiya ilə Çin arasında 20 il müddətinə dostlüq və əməkdaşlıq haqqında müqavilə imzalandı. Sənəddə qeyd edilirdi ki, tərəflər bir-birinə qarşı qüvvə tətbiq etməkdən, nüvə silahı işlətməkdən və strateji nüvə silahı yönəltməkdən imtina edirlər.

Çinlə əməkdaşlıq Rusiya Federasiyası üçün xüsusi əhəmiyyət kəsb edirdi. Çin də Rusiya kimi dünyanın gələcək inkişafını «çoxqütblük» anlayışı çərçivəsində qəbul edirdi. Son illər Rusiya-Çin ticarəti iqtisadi əlaqələri daha da inkişaf etdirmişdir. 2008-ci ildə hər iki ölkə arasında mal dövriyyəsi 56 mlrd. dolları keçmişdir. Çin Rusiyanın üçüncü tərəfdaşına, Rusiya Federasiyasına ixracat üzrə isə birinci pilləyə sahib olmuşdur. 2009-cu ilin oktyabrında Uzaq Şərq və Şərqi Sibirlə ÇXR-in şimal-şərq regionları arasında 2009-2018-ci illəri əhatə etmiş əməkdaşlıq proqramı hazırlanmışdır. 2014-cü ildə Rusiya Federasiyasının Prezidenti V.V.Putinin ÇXR-ə səfəri çərçivəsində hər iki ölkə arasında 30 il müddətində şərq marşrutu ilə Çinə 38 mlrd. $m^3$ qaz nəql edilməsinə dair müqavilə imzalanmışdır. Bu layihəni həyata keçirmək məqsədilə «Sibrin gücü» («Сила Сибири») qaz xəttinin çəkilişinə başlanılmışdır.

Rusiya ilə Çinin əməkdaşlığı dünyada sabitliyin və güc tarazlığının qorunub saxlanmasına xidmət edirdi. Təbii olaraq, bu əməkdaşlıq ABŞ və bir çox Qərbi Avropa dövlətinin əlavə narahatlığına səbəb olmuşdur. ABŞ

Rusiyanın dünya bazarında dostu hesab etmədiyi ölkələrə, o cümlədən Çinə, Venesuella, İran və Suriyaya silah satmasına etiraz edirdi. 2006-cı ildə Rusiyanın xarici ölkələrə silah satışı 20% artaraq 6,5 mlrd. dollar təşkil etmişdir. Rusiya iddia edirdi ki, silah satışı ticarət xarakteri daşıyır, satılan silahlar isə müdafiə əhəmiyyəti kəsb edir.

Uzaq Şərqdə Rusiya-Yaponiya münasibətləri kifayət qədər sabit inkişaf edir. SSRİ dağıldıqdan sonra Yaponiya dörd adanın «hamısı birdən» formulu əsasında ona qaytarılmasını tələb etdi. 1992-ci ildə ictimaiyyətin etirazları, Saxalin vilayəti hakimiyyət orqanlarının mənfi münasibəti Rusiya rəhbərliyinin yapon tərəfinin tələbinin qəbuledilməz olduğunu bildirməsinə gətirib çıxardı. Yaponiya öz tələblərini yumşaltdıqdan sonra 1993-cü ilin noyabrında Rusiya Federasiyasının Prezidenti B.N.Yeltsin Yaponiyaya rəsmi səfər etdi. Səfər zamanı Prezident yapon xalqından 1950-ci illərdə sovet hərbi düşərgələrində olan hərbi əsirlərə göstərilən amansız münasibətə görə üzr istədi. Eyni zamanda qəbul edilmiş Tokio bəyannaməsinə əsasən, tərəflər sülh müqaviləsi imzalamaq üçün yollar axtarmağı və mübahisəli adalar problemini bu çərçivədə müzakirə etməyi öhdəsinə götürmüşdü. 1997-ci ildə B.N.Yeltsin və Yaponiyanın Baş naziri R.Xasimoto Krasnoyarskda görüşərək, mübahisəli adalar məsələsini 2000-ci ilə kimi həll etməyə dair razılığa gəlsələr də, bu məsələ hələ də həllini tapmamışdır.

1990-cı illərdə Rusiya ilə Cənubi Koreya arasında əlaqələr stabil olmuşdur. 1992-ci ildə tərəflər arasında dostlüq və əməkdaşlıq haqqında müqavilə imzalanmışdır. Bu, Şərqi Asiyada ABŞ-ın müttəfiqi olan ölkələrlə imzalanmış ilk belə sənəd idi. İki ölkə arasında ticarət-iqtisadi əlaqələr xüsusilə intensiv inkişaf etmişdir. Bununla yanaşı, Moskvanın Seulla diplomatik münasibətlər yaratması KXDR ilə münasibətlərin gərginləşməsinə səbəb olmuşdur.

90-cı illərin əvvəllərində Monqolustanda bazar iqtisadiyyatı və demokratiyaya əsaslanan cəmiyyət quruculuğuna başlandı. 1993-cü ildə Monqolustan Rusiya Federasiyası ilə, 1994-cü ildə Çinlə dostluq və əməkdaşlıq haqqında müqavilə imzaladı.

Rusiyanın Cənub-Şərqi Asiya ölkələri, Çin və Hindistanla iqtisadi və hərbi-texniki əməkdaşlığı ildən-ilə inkişaf edir. 2015-ci il sentyabrın 30-dan Rusiya ilk dəfə olaraq keçmiş SSRİ sərhədlərindən kənarda olan Suriyada genişmiqyaslı hərbi əməliyyatlarda iştirak edir. İtkilərin qarşısını almaq və əfqan səhvlərini təkrar etməmək məqsədilə hava-kosmik qüvvələrin yerdə B.Əsəd tərəfində vuruşan döyüşçülərə dəstək verilməsilə hərbi əməliyyatlar başlamışdır. Bu məqsədlə Xmeymimdə daimi aviasiya bazası təchiz edilmişdir. 30 təyyarə ilə hərbi uçuşlara başlayan Rusiya tərəfi 2016-cı ildə təyyarələrin sayını 70-ə çıxarmışdır. İldə on

mindən çox uçuş təşkil edən rus hərbçiləri 30 mindən çox düşmən obyektini, 5 min terrorçunu məhv etmişdir. 2015-ci ilin yayında yalnız 14% ölkə ərazisinə nəzarət edən hökumət qüvvələri artıq ərazinin təxminən 44%-ə nəzarət edirdi. 2016-cı ilin qışından etibarən Rusiyanın hava kosmik qüvvələrinin hökumət hissələrini müdafiə etməsi nəticəsində böhranın həll olunmasının siyasi istiqaməti önə çıxmışdır. Məsələnin siyasi dialoq yolu ilə həll edilməsi iştirakçısı olan Rusiya və ABŞ-ın mövqeyi bir-birinə ziddir. Rusiya belə hesab edir ki, hazırkı mərhələdə Suriyada qarşıda duran əsas vəzifə terrorizmlə mübarizə, ölkənin ərazi bütövlüyünün bərpası, ərazinin qarışıqlıq mərkəzinə çevrilməsinə yol verilməməsi daxili qarşıdurmanı silah gücünə deyil, dialoq yolu ilə həll edilməsidir. ABŞ isə legitimliyini itirdiyi üçün B.Əsədin hakimiyyəti tərk etməsini tələb edir. Əsəd və rəqibləri arasında dialoqun başlanması Rusiya və ABŞ-ın kompromissə gəlməsinə şərait yaratsa da, Suriya məsələsini hərbi və siyasi cəhətdən tamamilə həll etmək mümkün olmamışdır.

Ümumiyyətlə, son onilliklərin təcrübəsi göstərir ki, Rusiyanın dünyada fəal və müstəqil mövqeyə malik olması beynəlxalq aləmdə sabit şəraitin təminatçısı olmaqla bərabər, bütün dövlət və xalqları əhatə edən problemlərin həll edilməsində əsas rol oynayır. Rusiya Federasiyasının müasir xarici siyasət konsepsiyası Prezident V.V.Putin tərəfindən 2013-cü il fevralın 12-də təsdiq edilmişdir. Milli təhlükəsizliyin əsas məqsədi kimi şəxsiyyətin, cəmiyyətin və dövlətin müdafiə edilməsi müəyyənləşdirilmişdir. Bu vəzifəyə müvafiq olaraq Rusiya dünyada sabit və möhkəm beynəlxalq münasibətlər sisteminin bərqərar olmasına səy göstərir ki, bu sistemdə də hüququn aliliyi, qarşılıqlı hörmət və bərabərlik, dövlətlərin daxili işlərinə qarışmamaq kimi prinsiplər önə çıxır. Rusiyanın siyasi rəhbərliyinin fikrinə əsasən, XXI əsrdə beynəlxalq münasibətlərin tənzimlənməsində alternativi olmayan BMT əsas mərkəz rolunu oynamalıdır.

Rusiyanın xarici siyasət istiqamətində hakim mövqeyindən biri də MDB dövlətlər birliyinə daxil olan ölkələrlə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafından ibarətdir. Avrasiya İqtisadi Təşkilatı və Kollektiv Təhlükəsizliyə dair Müqavilə Təşkilatı Mərkəzi Asiya və Cənubi Qafqazda iqtisadi və siyasi sabitliyin pozulmasına qarşı MDB-yə daxil olan digər dövlətlər üçün model rolunu oynayır.

Rusiyanı coğrafi, iqtisadi, tarixi, ümumbəşəri köklərlə bağlayan Avro-Atlantik dövlətləri ilə münasibətlərin inkişafı Rusiya Federasiyasının xarici siyasətində başlıca yer tutur. Dünyadakı transmilli təhlükələrə qarşı dövlətlərin kollektiv sədd çəkməsi tələbi Rusiya, Avropa İttifaqı və ABŞ-ın qarşılıqlı tərəfdaşlığını tələb edir.

## §5. Rusiyanın mədəniyyəti

Rusiya mədəniyyəti yeni siyasi və sosial-iqtisadi münasibətlər şəraitində inkişaf edirdi. Mülkiyyətin dövlət formasının aradan qalxması əhalinin əmlak bərabərsizliyini daha da dərinləşdirdi. Xüsusi sahibkarlıq mədəniyyət sahəsinə də nüfuz edib möhkəmləndi. Mədəni həyatın mərkəzləşmiş idarəetmə mexanizmi başa çatdı. Sərt ideoloji diktatorluq və yuxarının «göstərişləri» aradan qalxdı. Mətbuat üzərindəki nəzarət ləğv olundu. Dövlətin mədəniyyət sahəsindəki ana xəttini keçmişin müsbət ənənələrindən bəhrələnərək, mədəniyyətin müxtəlif sahələrinin inkişafına qayğı və diqqəti təmin etmək təşkil edirdi.

Ölkədəki sosial-iqtisadi islahatlar təhsil sahəsində dəyişikliklərə zəmin yaratdı. Yenidənqurma dövründə meydana gələn alternativ təhsil sistemi möhkəmləndi. Dövlət tədris müəssisələri ilə bərabər, özəl məktəblər, litseylər, gimnaziyalar, kolleclər meydana gəldi. XXI yüzilliyin əvvəllərində Rusiyada 700-ə yaxın özəl ümumtəhsil məktəbi fəaliyyət göstərirdi ki, bu da ölkədə olan məktəblərin bir faizindən çoxu demək idi. Məktəb təhsilinin alternativ forması daha çox Moskva, Sankt-Peterburq kimi mərkəzi şəhərlərdə yarandı. Orta və ali təhsil məktəbləri daha çox ümumtəhsil və tədrisin vahid fənn proqramları çərçivəsində öyrədilməsindən uzaqlaşmağa meyil edirdi. Xüsusilə ictimai fənlər üzrə çoxlu yeni proqram və dərsliklər hazırlandı.

1992-ci ildə qəbul edilmiş «Təhsil haqqında Qanun»da məktəb təhsilinin icbari səviyyəsi 9-cu sinfə kimi müəyyən edilmişdir. Onuncu siniflərin müsabiqə əsasında seçilməsi təkcə 1995-ci ildə 1,5 mln. uşağın məktəbdən kənarda qalmasına səbəb olmuşdur. Sonradan prezidentin fərmanı ilə müsabiqə qaydası ləğv olunsa da, onun mənfi nəticələri qalmaqda davam etmişdir. Müasir məktəb cəmiyyətin sosial-sinfi inkişafında, onun qütbləşməsində mühüm rola malikdir. Sosial təbəqələrin böyük əksəriyyətinin iqtisadi vəziyyətinin pisləşməsi onların övladlarının təhsil alması imkanlarını məhdudlaşdırır. Yuxarı siniflərdə əlavə təhsil haqqı, pullu məktəb, gimnaziya, liseylərin açılması gənclər arasında sosial bərabərsizliyin meydana çıxmasına şərait yaratmışdır.

Yeni minilliyin əvvəllərində Rusiyanın təhsil sistemi qarşısında bütün istiqamətlərin modernləşdirilməsi vəzifəsi qoyulmuşdur. Məqsəd dünya təhsil sisteminin keyfiyyət göstəriciləri və standartları səviyyəsində çıxış etməkdən ibarətdir. Rusiya Federasiyası hökumətinin 2001-ci il martın 23-ü 224 saylı qərarına əsasən, hazırda şagirdlər 11 illik məktəb proqramı üzrə təhsil alır ki, bunun da 4 ili ibtidai ümumi, 5 ili əsas ümumi, 2 ili isə orta (tam) ümumi təhsilə ayrılmışdır. Buraxılış və qəbul imtahanları dəyişdirilərək, 2009-cu ildən ölkənin bütün məktəblərində təşkil edilən vahid dövlət imtahanları (VDİ – «ЕГЭ») ilə əvəz edilmişdir.

Özəl ali məktəblərin sayı artaraq, yeni əsrin əvvəllərində ali məktəblərin 27-28 faizini, burada təhsil alan tələbələr ümumi tələbələrin 8-12 faizini təşkil edirdi. Xüsusilə iqtisadçı, menecer, bank və birja sahəsində çalışan mütəxəssis hazırlığı ön plana keçdi. Özəl ali məktəblərdə yüksəkhazırlıqlı elmi-pedaqoji kadrların az olması, bir çox halda, onlarda təlim-tərbiyənin səviyyəsinin aşağı düşməsinə şərait yaradırdı.

1992-ci ildən 2000-ci ilə qədər Rusiya Federasiyasında dövlət ali məktəblərinin sayı 535-dən 590-a çatmışdır. Kommersiya ali məktəblərinin sayı 1993-cü ildəki 78-ə qarşı, 2000-ci ildə 349 olmuşdur. 1992-1995-ci illərdə ali məktəblərdə ildə, orta hesabla, 2,6 mln. tələbə olduğu halda, 2000-ci ildə onların sayı 4 mln. nəfəri keçmişdir.

Rusiya və Qərbi Avropa təhsil sistemi Boloniya prosesi çərçivəsində birləşdirmək məqsədilə 2007-ci ildə ali məktəblərdə iki səviyyəli – 4 illik bakalavr və magistratura təhsil pilləsi müəyyən olundu.

1990-cı illər elm üçün çətin dövr olmuşdur. Elmi-texniki sahədə çalışanların sayı 2,5 dəfədən çox azalaraq, 1990-cı ildəki 2,1 mln. nəfərdən 2000-ci ildə 800 min nəfərə düşmüşdür. Elm sahəsinə gələn gənc mütəxəssislərin sayı kəskin surətdə azalmışdır. 50 mindən çox alim başqa ölkələrdə çalışmaq məqsədilə Rusiyanı tərk etməyə məcbur olmuşdur.

SSRİ EA-nın xələfi olan Rusiya Elmlər Akademiyası kəskin maliyyə çatışmazlığı nəticəsində əsaslı elmi-tədqiqatlara vəsait ayırmaqda çətinlik çəkirdi. Keçmiş sovet respublikalarının və Şərqi Avropanın elmi-tədqiqat mərkəzləri ilə əlaqələr kəsilmişdi. Ölkə elminin zəif maddi-texniki bazası, aşağı əməkhaqqı bir çox aparıcı alimin ölkəni tərk edərək, xaricdə işləməyə sövq etdi. Lakin 1990-cı illərin sonundan başlayaraq, elm sahəsində işlər yaxşılığa doğru dəyişdi. Dövlət elmin bütün sahələrini vacib olan vəsaitlərlə təmin etməyə başladı. Hər il elm və texnika sahəsində ən yaxşı tədqiqatlar Rusiya Federasiyasının Dövlət mükafatı ilə təltif edilməyə başladı. 2000-ci ildə fizika sahəsində Rusiya alimləri J.İ.Alfyorov və A.A.Abrikosov Nobel mükafatına layiq görüldülər. V.L.Ginzburq 2003-cü ildə yüksəkkeçiricilik və yüksəkaxıcılığı, K.S.Novoselov və A.K.Qeym qrafiti kəşf etdiyinə görə Nobel mükafatı almışdır. A.P.Derevyankonun rəhbərliyi ilə arxeoloqlar Altayda ölkənin ərazisində bir neçə minillik bundan əvvəl məskunlaşmış, elmə məlum olmayan qədim insan qalıqlarını aşkar etmişdir. İctimai elm sahəsində çalışan alimlər əvvəllər bağlı arxivlərdə saxlanılan materialları əldə etmək imkanı qazanmışlar ki, bu da fəlsəfə, tarix, sosiologiya sahəsində yeni mahiyyətli əsərlərin yazılmasını təmin etmişdir.

Ədəbiyyatın ictimai həyatda rolu dəyişdi. Yazıçıların ictimai fikrin formalaşmasına təsiri xeyli azaldı. A.İ.Soljenitsının əsərlərinin kütləvi tirajla çap edilməsinə

baxmayaraq, yazıçının «Rusiyanın yenidən qurulması» haqqında fikirləri geniş oxucu kütləsini cəlb etmədi. V.Q.Rasputin, V.İ.Belov, Ç.T.Aytmatov, F.A.İskəndər kimi yazıçılar rus ədəbiyyatı üçün ənənəvi sosial problemlərdən bəhs edirdilər. Bu dövrdə detektiv ədəbiyyatı geniş yayılmışdı. B.Akunin, A.Marinin, V.Makanin, L.Ulitskayanın əsərlərini buna misal göstərmək mümkündür.

Ədəbiyyatda realist yaradıcılıq ənənəsi davam etmişdir. V.Astafyev, M.Alekseyev, Y.Bondarev, Q.Baklanov və b. öz yaradıcılığını bu istiqamətdə inkişaf etdirmişdir. Bu yazıçılarla bərabər, bir çox yaradıcı ziyalı postmodern tərzli əsərlərilə böyük oxucu kütləsi cəlb etmişdir. V.Voynoviç, A.Bitov, D.Priqov, L.Petruşevskaya, V.Pelevin, V.Petsux və b. əsərləri oxucular arasında geniş şöhrət qazanmışdır. Bu yaradıcılıq istiqamətinin tərəfdarları sosial və əxlaqçılıqdan imtina edərək, ədəbiyyatın estetik əhəmiyyətini ön planda təqdim edirdilər.

Teatr, musiqi, kino sahəsində ənənəvi klassik və müasir formanın çulğalaşmasından doğan əsərlər geniş yayılmışdır. Görkəmli rejissorlardan Y.M.Solomin Malı teatrda, M.A.Ulyanov E.Vaxtanqov adına teatrda, M.A.Zaxarov «Lenkomda», O.P.Tabakov «Tabakerka»da, Q.B.Volçek «Sovremennik»də klassik və müasir əsərləri repertuara daxil edərək, geniş tamaşaçı kütlələrinin rəğbətini qazanmışdılar. Y.P.Leonov, İ.M.Çurikova, A.G.Abdulov, A.B.Freyndlix, L.M.Qurçenko və b. aktyorlar yaratdığı səhnə obrazları ilə milyonların sevimlisinə çevrilmişdilər.

Opera və balet teatrının lideri Sankt-Peterburqun Mariinski teatrı idi. Teatrın baş rejissoru və bədii rəhbəri V.A.Gergievin başçılığı ilə S.S.Prokofyevin opera silsiləsinin və R.Vaqnerin «Nibelunqlar halqası» («Кольцо Нибелунгов») opera teatrologiyasının səhnələşdirilməsi bütün ölkədə şöhrət qazandı. Hər il Mariinski teatrının səhnəsində ən yaxşı yerli və xarici ifaçıların iştirakı ilə «Bəyaz gecələr» («Белые ночи») festivalı təşkil edilirdi. Rus bəstəkarlarının yenilikçi axtarışları onlara dünya şöhrəti qazandırdı. V.Artyomov, S.Qubaydulina, E.Denisov, A.Şnitke və b. buna misaldır.

Maliyyə çətinliklərinə baxmayaraq, son illər dövlət kino sahəsinə xeyli vəsait ayırıb. Odur ki, milli kino istehsalının səviyyəsi artıb. Böyük tamaşaçı auditoriyası üçün nəzərdə tutulmuş 2005-ci ildə rejissor D.X.Fayziyevin ekranlaşdırdığı «Türk qambiti» («Турецкий гамбит»), 2008-ci ildə rejissor A.Y.Kravçukun çəkdiyi «Admiral» filmləri diqqəti cəlb edir. 3D formatında birinci Rusiya kinofilmi olan F.S.Bondarçukun 2013-cü ildə ekranlaşdırdığı «Stalinqrad» hərbi dramı ən parlaq sənət əsərlərindən biridir. V.V.Bortkonun yaradıcılığında ədəbi əsərlərin ekrana daşınması xüsusi yer tutmuşdur. Onun 2008-ci ildə çəkdiyi «Usta və Marqarita» («Мастер и Маргарита»), 2009-cu ildə ekranlaşdırdığı «Taras Bulba» əsərləri geniş şöhrət qazanmışdır. Gənc rejissor A.P.Zvyaqintsevin

2003-cü ildə çəkdiyi «Qayıtma» («Возвращение») filmi Beynəlxalq Venesiya Kino FestiVolında «Qızıl şir» baş mükafatını qazanmışdır. Kino sahəsində E.V.Mironov, V.L.Maşkov, Ç.N.Xamatova kimi gənc aktyorlar yaradıcılıq fəaliyyətinə başlamışdır. S.S.Bodrovun baş rolda çəkildiyi «Qardaş» («Брат»), «Qardaş-2» («Брат-2») müasir filmi, N.Lebedevin qəhrəmanlıq tarixi epizodlarından bəhs edən «Ulduz» («Звезда») filmi tamaşaçıların rəğbətini qazanıb. Tarixi keçmişin yenidən əxz edilməsindən bəhs edən A.G.Germanın «Xrustalyev, maşını!» («Хрустаев, машину!»), A.N.Sokurovun «Rus mücrüsü» («Russkiy kovçeq»), N.S.Mixalkovun «Günəşdən yorulanlar» («Утомленные солнцем») və «Sibir bərbəri» («Сибирский цирюльник») əsərləri kino sənətinin inkişafında irəliyə doğru böyük addım hesab edilə bilər. Keçmişdəki məşhur ədəbi əsərlərin yeni realist kino ənənələri əsasında ekranlaşdırılması diqqəti cəlb edir. Y.V.Qrımovun «Mumu», A.A.Proşkinin «Rus qiyamı» («Русский бунт») ekran əsərləri bu siyahıya daxildir. Gənc rejissor A.Sidrov kütləvi rus teleserialı istehsalı olan «Briqada» əsərini ekranlara daşıdı.

Müasir Rusiyada heykəltəraşlıq və memarlıq sənəti sahəsində yeni ənənəvi istiqamətin yaradıcılarından biri Rusiya Federasiyası Bədii Akademiyasının prezidenti Z.K.Sereteli hesab edilir. Onun Moskvada və Rusiyanın başqa şəhərlərindəki heykəltəraşlıq kompozisiyaları şəhər landşaftlarına xüsusi əlamət bəxş edir. Tarixi kompozisiya və portretlər müəllifi İ.S.Qlazunov, müasir portret qalereyası yaratmış A.M.Şilov özünəməxsus rus təsviri incəsənətinin ön sıralarında yer tutmuşdular. Keçən onillik ərzində Dövlət Tarix Muzeyi, Dövlət Rus Muzeyi, A.S.Puşkin adına Dövlət Muzeyi və Sankt-Peterburqdakı A.S.Puşkinin ev muzeyi yenidən quruldu. Şəhərin 300 illiyi ilə əlaqədar, Peterburq yaxınlığındakı saray-park ansamblı bərpa olundu. 1997-ci ildə yaradıcı ziyalıların, xüsusilə akademik D.S.Lixaçevin təşəbbüsü ilə «Kultura» dövlət telekanalı fəaliyyətə başladı. Bu proqram sayəsində ölkə vətəndaşları yerli və dünya mədəniyyətlərinin ən yaxşı nailiyyətləri ilə tanış olurlar.

Cəmiyyətdə mənəvi ab-havanın formalaşmasında kütləvi informasiya vasitələri mühüm rol oynayır. İslahat dövründə onların funksiyası əsaslı olaraq dəyişilmişdir. Dövri mətbuatın həcmi, məzmunu, siyasi və məlumat istiqaməti tam fərqli olmuşdur. 1990-1999-cu illər arasında qəzet çapı 4808-dən 5535-ə çatmışdır. Eyni zamanda onların tirajı azalaraq, 166-dan 104 mln. nüsxəyə düşmüş, kitabxanalar, mədəniyyət idarələri, orta və ali məktəblər, elmi-tədqiqat institutlarına son dərəcə məhdud sayda dövri mətbuat daxil olmuşdur.

Rusiyanın bütün əhalisini məlumat məkanı ilə təmin edən televiziyanın rolu əhəmiyyətli dərəcədə artmışdır. Rusiya Federasiyasında yeni ümumrusiya kanalları və regional telekompaniya şəbəkələri açılmışdır. Bu gün cəmiyyət

KİV-in (СМИ) fəaliyyətinə «ikili standart» nöqteyi-nəzərindən qiymət verərək, onu hakimiyyətin aləti və ya vətəndaş cəmiyyəti institutu kimi səciyyələndirir.

Yeni minillikdə Rusiyada həvəskar və peşəkar idmanın inkişafında mühüm nəticə əldə olunmuşdur. 2008-ci ilin məlumatına əsasən, ölkədə 1500 və daha artıq yerə sahib olan 2687 stadion, 3762 üzgüçülük hovuzu mövcud olmuşdur. İdman bölmələrində və sağlamlıq qruplarında 22,6 mln. nəfər məşğul olurdu. XXI əsrin əvvəllərində uzun ağacla hündürlüyə tullanmaq üzrə iki dəfə Olimpiya çempionu E.G.İsinbayeva, bədii gimnastika üzrə ikiqat mütləq Dünya çempionu A.M.Kabayeva və bir çox başqaları adlarını dünya idman tarixinə yazdırmışdır.

2014-cü ilin fevralın 7-23-ü arasında Soçidə təşkil edilmiş XXII Qış Olimpiya Oyunlarında 98 komplekt medallar uğrunda yarışlarda Rusiya idmançıları 13 qızıl, 11 gümüş, 9 bürünc medal qazanaraq böyük idman ölkəsi adına sahib olmuşdur. Dünyanın 159 ölkəsi Olimpiya oyunlarını şərh etmişdir ki, bu da Olimpiya hərəkatı tarixində ən yüksək göstəricilərdən biridir.

XXI əsrin əvvəllərində əhalinin dinə meyil etməsi artmış, əsas konfessiyaların liderləri ölkənin ictimai həyatında yaxından iştirak etmişdir. Dini ayinlərin icrasında vətəndaşlar müntəzəm iştirak edərək müqəddəs yerlərə zəvvar yürüşləri təşkil etmişdir. Rusiyanın regionlarında çoxlu pravoslav məbəd və monastrları, məscidlər, sinaqoqlar bərpa edilmiş və ya yenisi tikilmişdir. Memar D.S.Sokolovun layihəsi əsasında Tolyattidə Spaso-Preobrajensk pravoslav kilsəsinin 1996-cı ildə başlanmış tikintisi 2002-ci ildə başa çatmışdır. 2005-ci ildə Kazan şəhərinin 1000 illik yubileyi şərəfinə Tatarıstanın baş məscidi Qul-Şərifin tikintisi tamamlanmışdır.

2010-cu ildə prezident D.A.Medvedyev dövlətin və bələdiyyənin mülkiyyətində olan dini əmlakın əvəzi ödənilmədən dini təşkilatlara verilməsinə dair qanun imzalanmışdır. Xeyli bina, ikona, torpaq sahəsi və s. kilsələrə təhvil verilmişdir.

2007-ci ildə Moskvadakı Xilaskar İsa məbədində (Храм Христа Спасителя) Rus pravoslav kilsəsinin Məclisində Rus pravoslav kilsəsi ilə inqilab və vətəndaş müharibəsindən sonra ölkəni tərk etmiş mühacirlərin xarici ölkələrdəki kilsələri ilə əlaqə qurmasına dair tarixi qərarı pravoslavlığın dünyada nüfuzunun möhkəmlənməsinə səbəb olmuşdur.

2008-ci ildə II Alekseyin vəfat etməsindən sonra, 2009-cu ilin fevralında Smolensk və Kaliningrad mitropoliti Kirill (V.M.Qundyaev) Moskva və bütün Rusun Patriarxı seçilmişdir. Yeni dini liderin seçilməsi ilə dövlət-kilsə münasibətlərində əhəmiyyətli dəyişikliklər baş vermişdir. Kilsə ölkənin ictimai-siyasi həyatında daha fəal iştirak etməyə başlamışdır. Kilsə hərbçilərinin mənəvi tərbiyəsində yaxından iştirak edərək orduda varlığını artırmışdır. Və-

təndaşların pravoslavların dini-əxlaqi tərbiyəsi ilə uşaqlıq yaşlarından, məktəb partası arxasından məşğul olmaq vəzifəsi nəzərdə tutulmuşdur. Kilsənin missionerlik fəaliyyətinin məzmunu və həcmi dəyişmişdir. 2009-2013-cü illərdə 88 yeni eparxiya təsis edilmişdir. RPK (РПЦ) 20-dən çox jurnal çap edir, altı radiostansiyası və iki sputnik kanalı mövcuddur. Ənənəvi əxlaqa, milli dəyərlərə, xalqın birliyinə ictimai sabitliyə üstünlük verən kilsə qüvvələrin birləşdirici mövqeyindən çıxış edir.

### §6. Rusiya yeni minilliyin əvvəllərində (2000-2020)

B.N.Yeltsin 2000-ci ilin iyulunda başa çatmalı olan prezidentlik müddətini gözləmədən təcili istefaya getməyi qərara aldı. 1999-cu il dekabrın 31-də B.Yeltsin özünün istefasını elan edərək, hakimiyyəti V.V.Putinə dövr etdi. 2000-ci il martın 26-da keçirilən prezident seçkisində V.V.Putin seçicilərin səsinin 52,9 faizini toplayaraq, birinci turda Rusiyanın növbəti prezidenti seçildi. Onun ən yaxın rəqibi G.Züqanov isə yalnız seçicilərin 29,2 faiz səsini toplaya bildi. V.V.Putin M.M.Kasyanovu Rusiyanın Baş naziri təyin etdi. Vətənpərvərlik, əxlaqi dəyərlər, milli naliyyətlərə qayğı və ölkənin təhlükəsizliyi yeni prezidentin çıxışlarının ana xəttini təşkil edirdi.

Uzun illər davam edən kəskin müzakirələrdən sonra 2000-ci ilin dekabrında Prezidentin təklifi ilə Duma Rusiyanın simvollarını qəbul etdi. Ölkənin gerbində ikibaşlı qartal, bayrağında isə üç – ağ-göy-qırmızı rənglər əks olunmuşdur. Sovet dövrünün qırmızı rəngli bayrağı silahlı qüvvələrin simvolu oldu. Böyük Vətən müharibəsi dövründə A.V.Aleksandrovun himninə S.V.Mixalkovun yazdığı yeni sözlərlə müstəqil Rusiyanın yeni milli himni təsdiq olundu. Milli simvolların keçmişlə müasirliyi birləşdirən əlamətləri, əslində, cəmiyyətdə müxtəlif siyasi qüvvələrin barışığını saxlayaraq, ölkənin keçmişi ilə yeniliyi arasında əlaqənin qanunauyğunluğunu təcəssüm etdirirdi.

2001-ci ildə «Birlik» («Единство») və «Vətən-Bütün Rusiya» («Отечество – вся Россия») birləşərək, hakimiyyətyönümlü «Vahid Rusiya» («Единая Россия») partiyasını yaratdılar. Sonradan onun sədri B.V.Qrızlov oldu. Beləliklə, hökumət Dumada özünə çoxluğun köməyini təmin etdi, bu isə vaxtı çatmış qanunların qəbul edilməsinə şərait yaratdı. Ölkədə sabitləşdirmə məqsədilə atılan addımlar, nəhayət, islahatlar başlanandan sonra ilk dəfə icraedici və qanunverici orqanlar arasında qarşıdurmaya son qoydu ki, bu da cəmiyyətin bütün təbəqələrinin mənafeyinə uyğun idi.

Yeltsin dönəminin prezidentlik və parlament qarşıdurmasından fərqli olaraq, V.Putinin prezidentliyi dövründə onun xəttini müdafiə edən «Vahid Rusiya» («Единая Россия») Partiyasının 2003-cü ildə Dövlət Dumasında səslərin böyük əkəsiyyətini alması siyasi qüvvələrin prinsipcə qruplaşmasına, dövlət başçısına isə müəyyən etdiyi kursu uğurla davam etdirməyə şərait yaratdı. Ölkədəki mövcud partiya və hərəkatın hər biri sosial-iqtisadi inkişaf prespektivini öz proqramı çərçivəsində şərh edir. Siyasi qüvvələrin sağında liberal meyilli, prorqamında daha çox sosial problemlərə yer ayıran «Sağ qüvvələr ittifaqı» («Союз правых сил») və «Yabloko» gəlir. Sol cəbhədə çoxsaylı və yaxşı təşkil olunmuş RFKP durur. Onların arasında mərkəzyönümlü partiyaların ən böyüyü «Vahid Rusiya»(«Единая Россия») gəlir ki, onun ölkənin bütün bölgələrində şöbələri mövcuddur. 2001-ci ildə partiyalar haqqında yeni qanun qəbul edilib ki, bu da onların daha səmərəli fəaliyyət göstərmələrini təmin etməlidir.

Daxili siyasətin əsas məsələlərindən biri Rusiya dövlətçiliyinin əsasının möhkəmləndirilməsidir. Bu məqsədlə 2000-ci ildə ölkənin idarəetmə mexanizmini möhkəmlətmək üçün 7 federal dairə təşkil olundu. Dairələrin başında prezidentin səlahiyyətli nümayəndəsi dururdu və Rusiya Konstitusiyasına əsasən, onlar öz fəaliyyətini yerli hakimiyyət orqanları ilə razılaşdırırdılar. Federal Yığıncaq yenidən quruldu. Qanunverici orqanın üst palatasında regionun başçısı yerinə onun təyin etdiyi, bu sahədə iş təcrübəsi olan şəxs fəaliyyət göstərməyə başladı. Federasiya Şurasının keçmiş üzvləri Prezidentin fərmanı ilə yaranmış Dövlət Şurasının tərkibinə daxil oldular.

Rusiya ordusunda yeni islahatlar həyata keçirildi. 2001-ci ilin yanvarında qəbul edilmiş «RF silahlı qüvvələrinin quruculuğu Planı»na uyğun olaraq, şəxsi heyəti azaltmaq şərtilə, onların maliyyələşdirilməsinin artırılması, ordunun müasir və perspektiv hərbi texnika ilə təchiz edilməsi, 2010-cu ildə isə ordunun, əsasən, müqavilə üzrə komplektləşdirilməsi nəzərdə tutulmuşdur. 2002-ci ilin iyununda «Alternativ vətəndaş xidməti haqqında» Qanun qəbul edilmişdir.

DİN, dövlət təhlükəsizlik orqanları, məhkəmə-hüquq sistemində əsaslı islahatlar həyata keçirilmişdir. Yeni Vergi və Gömrük kodeksləri qəbul edildi. Vergi 30-dan 13 faizə salındı ki, bu da Avropada ən aşağı göstərici idi. İslahat nəticəsində, iqtisadiyyatın bir çox bölməsi «kölgədən» çıxdı. Gömrük haqqının azaldılması 2001-ci ildə büdcənin vergi və gömrük rüsumu hesabına artmasına səbəb oldu.

2001-ci ilin sentyabrında Duma yeni Torpaq kodeksini qəbul etdi. Sənədə əsasən, torpaq üzərində xüsusi mülkiyyət hüququ təsbit edilməklə bərabər, onun alınıb-satılması mexanizmi də müəyyən olundu. 2001-ci ilin iyunundan kənd təsərrüfatı torpaqlarının da alqı-satqısına icazə verildi. Aqrar müəssisələrə kreditlərin ayrılması, texniki təchizatın artırılması aqrar bölmənin işlərinə müsbət təsir göstərdi.

2002-ci ilin ortalarından ölkədə ictimai-iqtisadi və sosial-iqtisadi vəziyyət sabitləşdi, dövlət quruluşunun təkmilləşdirilməsi, iqtisadi və sosial sahədə liberal islahatların davam etməsi sürətləndi. 2002-ci il oktyabrın 9-16 da təşkil olunmuş əhalinin ümumrusiya siyahıyaalınması ilin mühüm hadisəsi olmuşdur.

2004-cü ilin əvvəlində inflyasiyanın sürəti xeyli aşagı düşdü. 1999-cu ildə bu 36, 2001-ci ildə 18, 2003-cü ildə isə 12 faiz təşkil etmişdi. Daxili ümumi məhsul istehsalı 2003-cü ildə 7 faiz artdı. Dövlət 17 mlrd. dollar olan xarici borcunu ödədikdən sonra Mərkəzi Bankın qızıl-valyuta ehtiyatı ölkə tarixində ən yüksək səviyyəyə çataraq, 84 mlrd. dollar oldu.

2003-cü ilin dekabrında Dövlət Dumasına seçkilərdən sonra aşağı palatada siyasi fiqurların mövqeyi dəyişdi, 1990-cı illərdə siyasətdə fəal rol oynayan qüvvələrin gücü zəiflədi. «Sağ qüvvələr ittifaqı» («Союз правых сил») və «Yabloko» (Яблоко) (G.A.Yavlinski, Y.Y.Boldırev, V.P.Lukin – liderlərin baş hərfləri partiyanın adına verilmişdir) beşfaizlik səddi keçə bilmədiyi üçün Dumada təmsil olunmadı. RFKP (КПРФ) əvvəlki seçkidə aldığı 24,3 faizdən iki dəfə az – 12,7 faiz səs aldı. Parlamentə 11,6 faiz səslə RLDP (ЛДПР), 9,1 faiz səslə «Vətən» («Родина») birliyi daxil oldu. Prezidenti müdafiə edən «Vahid Rusiya» («Единая Россия») 37 faiz səs alaraq, parlamentdə ən böyük fraksiyanı yaratdı. Yeni Dumada prezidentin tərəfdarları 304 deputatla konstitusiya çoxluğunu təşkil etdilər.

2004-cü il martın 14-də olan prezident seçkilərində V.V.Putin səslərin 71,2 faizini alaraq, ikinci dəfə Rusiya Federasiyasının prezidenti seçildi. Rusiya Federasiyası Kommunist Partiyasının namizədi N.M.Xaritonov yalnız 13,7 faiz səs aldı. Rəqiblər üzərində həlledici səs çoxluğu ilə qələbə çalan V.V.Putin yeni legitimlik qazanmışdır. Gündəlik fəaliyyətində prezident özünün İcra Aparatına arxalanır. Prezident funksiyasını yerinə yetirmək vasitələrindən olan İcra Aparatı Rusiyanın dövlət orqanları içərisində xüsusi yer tutur. 2004-cü ilin mart-aprel aylarında onun strukturunda əsaslı dəyişiklik həyata keçirilmişdir. Prezidentin İcra Aparatının rəhbəri vəzifəsinə 2003-cü il oktyabrın 30-da D.A.Medvedev təyin edilmiş, 2005-ci il noyabrın 14-də onu bu vəzifədə Tümen vilayətinin qubernatoru S.S.Sobyanin əvəz etmişdi.

2004-cü ilin martında postsovet tarixi ərzində miqyasına görə ən böyük inzibati islahatlar keçirildi. 2004-2007-ci illərdə hökumətə M.E.Fradkov başçılıq etmişdi ki, sonra onu V.A.Zubkov əvəz etdi. İnzibati islahatın məqsədi idarəetmənin vahid qaydasını və icra hakimiyyəti üzərində nəzarət sistemini yaratmaq idi. Özünəməxsus hakimiyyət bölgüsü nəticəsində, hər bir «nazirlik istiqaməti» daxilində nazirlik, federal agentlik, federal xidmət yarandı. 2006-cı ildə sayı 16 olan nazirlik ümumi strategiyanı müəyyən etməklə bərabər, onun hüquqi və büdcə ilə təmin edilməsini həll etməlidir. Sayı 34 olan, Agentlik

qəbul edilən qərarların həyata keçirilməsilə məşğul olmalıdır. 34 federal xidmət sahənin maliyyə və təşkilati-hüququ fəaliyyətinə nəzarət etməlidir. Nazirlik və xidmət sahəsinin bir hissəsi Prezidentə, bir hissəsi hökumətə tabe idi. İslahatlar inzibati sədləri dəf etməyə, bir çox kommersiya strukturlarının təsirindən azad olmağa kömək etsə də, nəzərdə tutulan məqsədə tam nail olmadı. İdərələrin sayı 2004-cü ildəki 53 yerinə 2006-cı ildə 84-ə çatdı. Müvafiq olaraq, məmurların sayı da artmışdı. Digər tərəfdən, yeni strukturların fəaliyyəti üçün yeni hüquqi baza çatışmırdı.

2004-2007-ci illərdə fəaliyyət göstərən Dövlət Duması və Federasiya Şurasının əsas xüsusiyyəti ondan ibarət idi ki, postsovet tarixi ərzində ilk dəfə hakim partiya kimi, «Vahid Rusiya» («Единая Россия») hər iki palatada əksəriyyət təşkil edirdi. Eyni zamanda Dumada RFKP (КПРФ), RLDP (ЛДПР), «Vətən» («Родина») partiyalarının fraksiyaları fəaliyyət göstərirdi. Əvvəllər fraksiyaları olan SQİ (СПС) və «Yabloko» partiyaları yalnız birmandatlı deputatlarla təmsil olunmuşdu. Parlamentin belə tərkibi qanunvericilərin daha səmərəli fəaliyyətinə şərait yaratdı. İldə 300-ə yaxın qanun qəbul edilməsi nəzərə alınarsa, bu, prezident və hökumətin daha çevik hərəkət etməsinə imkan verdi. 2009-cu ildə «Vahid Rusiya» («Единая Россия») partiyasının bir milyon nəfərdən çox üzvü var idi.

2006-cı ildə Federasiya Şurasının spikeri S.M.Mironov yeni böyük sol istiqamətli partiya yaradılması ideyasını irəli sürdü. Onun fikrincə, yeni partiya sosial məsələlərin islahatı ilə daha yaxından məşğul olmaqla bərabər, gələcəkdə Rusiyada ikipartiyalı siyasi sistemin bərqərar olmasına zəmin hazırlamış olardı. Bu məqsədlə 2006-cı ilin oktyabrında yeni «Ədalətli Rusiya. Vətən. Həyat. Təqaüdçülər» («Справелливая Россия, Родина, Жизнь, Пенсионеры») Partiyası təşkil olundu.

2004-2006-cı illərdə partiya quruculuğu sahəsində bir çox əhəmiyyətli qərarlar qəbul edildi. Dövlət Dumasının təşkil olunmasının yeni qaydası təsbit olundu. Majoritar və proporsional qarışıq seçki sistemindən proporsional sistemə keçilməsi qanuniləşdirildi. Birmandatlı seçki dairəsindən deputatların seçilməsi ləğv edildi və bundan sonra deputatlığa namizədlər yalnız partiya siyahısı üzrə seçilə bilərdi. 50 min nəfərdən çox olmayan üzvü, federasiya subyektlərinin böyük əksəriyyətlərində 500 nəfərdən az olmayan təşkilatları olan partiyalar ümumrusiya partiyası hüququ alırdı. Ümumrusiya partiyalarının yenidən qeydiyyatdan keçməsi nəticəsində, onların sayı 35-dən 19-a kimi azaldı. Yeni qaydalara əsasən, seçkilərdə yalnız siyasi partiyalar iştirak etmək hüququna malik idi və 7 faizlik səddi keçən partiya Dumada təmsil edilmək hüququ qazanırdı. Yalnız partiyalar prezidentliyə öz namizədini irəli sürmək hüququna, regionlarda isə qanunverici məclisə seçkilərdə qələbə çalan partiya

qubernator vəzifəsinə namizədini təqdim etmək hüququna malik idi. Yeni qaydaya əsasən, partiyalar və onların namizədləri seçki gedişində opponentlərini tənqid etmək hüququndan məhrum idi. Eyni zamanda vətəndaşların seçki məntəqələrinə gəlməsinin minimum həddi göstəricisi də ləğv olunurdu.

2007-ci ilin dekabrında beşinci çağırış Dövlət Dumasına seçkilər keçirildi. Seçki siyahısına başçılıq edən prezident və onu təmsil edən hakimiyyət partiyası «Vahid Rusiya» («Единая Россия») qələbə çaldı. Seçki kampaniyasında iştirak edən 11 partiyadan Dövlət Dumasına 11 faizlik göstərici ilə RFKP (КПРФ), 8 faiz səslə RLDP (ЛДПР), 7 faiz seçki səsilə «Ədalətli Rusiya» («Справедливая Россия») partiyaları seçildi. «Vahid Rusiya» partiyasını təmsil edən B.V.Qrızlov spiker seçilmişdi.

2004-2008-ci illərdə federal mərkəzlə regionların hakimiyyəti arasında münasibətlərdə əsaslı dəyişikliklər baş verdi. 2005-ci il yanvarın 1-dən regionlardakı icra hakimiyyətinin formalaşması qaydası dəyişdirildi. İcra başçısı, yəni «qubernator» vətəndaşların ümumi səsverməsilə deyil, prezidentin onun namizədliyini irəli sürməsilə təyin olunurdu. 2005-ci ildən başlayaraq, qubernatorların bir hissəsi yeni qaydaya uyğun olaraq seçildi, əvvəl seçilənlər isə «yenidən təsdiq» olundu. 2007-ci il qubernatorların dəyişdirilməsində «böyük dönüş» ili oldu, uzun müddət regiona başçılıq edən şəxslər yenilərlə əvəzləndi. 2007-ci ildə Tatarıstanla Federal müqavilə yenidən imzalandı, əvvəlki regional qanunvericiliyin federaldan üstün tutulması, xarici siyasət sahəsindəki xüsusi imtiyaz mətndən çıxarıldı. 2005-ci ilin ortalarından başlayaraq, bir çox idarəçilik səlahiyyətləri regionlara qaytarıldı.

2007-ci ilin noyabrında əsas məqsədi cəmiyyəti Rusiyanın strateji inkişaf planını həyata keçirməyə səfərbər etmək olan «Putin uğrunda» («За Путина») hərəkatı meydana gəldi. 2007-ci il dekabrın 10-da «Vahid Rusiya» («Единая Россия»), «Ədalətli Rusiya» («Справедливая Россия»), «Aqrar» («Аграрный») və «Vətəndaş qüvvələri» («Гражданские силы») partiyalarının liderləri ilə görüşdə V.Putin D.Medvedevi prezident vəzifəsində özünün xələfi adlandırdı. Ertəsi gün D.Medvedev vəzifəsini tərk etməkdə olan prezident V.Putinə 2008-ci il mart seçkilərindən sonra hökumətə başçılıq etməyi təklif etdi. Dekabrın 17-də «Vahid Rusiya» («Единая Россия») Partiyasının qurultayında V.V.Putin razılıq verdi və qurultay D.A.Medvedevin namizədliyini partiyanın adından irəli sürdü. Seçki kampaniyasının gedişində V.Putin 2008-ci il fevralın 8-də Dövlət Şurasının iclasında Rusiyanın inkişaf planını nəzərdə tutan «Strategiya-2020» proqramını irəli sürdü.

2008-ci il martın 7-də əhalinin 69,7 faizinin iştirak etdiyi prezident seçkisi oldu. Seçki məntəqələrinə gələn seçicilərin 70,28 faizi D.A.Medvedevə, 17,22 faizi

G.A.Züqanova, 9,35 faizi V.V.Jirinovskiyə, 1,3 faizi A.V.Boqdanova səs vermişdi. Mayın 8-də Dövlət Duması V.V.Putinin hökumətin sədri vəzifəsinə namizədliyini təsdiq etdi. Eyni zamanda V.Putin rəsmi olaraq hakimiyyət partiyası olan «Vahid Rusiya» («Единая Россия») Partiyasına rəhbərlik etməyə başladı.

2007-2008-ci illərdəki seçki kampaniyası hakimiyyətin konfiqurasiya cəhətdən yenidən formalaşmasına şərait yaratmışdır. Bir tərəfdən konstitusiyanın tam səlahiyyət tanıdığı prezident, digər bir tərəfdən Dumada ən nüfuzlu partiyanın çoxluğuna dayanan Baş nazir ölkənin siyasi sistemində əsas rol oynayırdı. Baş nazir iqtisadi, sosial məsələlərlə məşğul olur, prezident dövlət strukturunun təkmilləşdirilməsi, xarici siyasət, demokratik institutların inkişafına diqqət yetirirdi. Bu «tandemokratiya» rejimi kimi səciyyələndirilmişdir. 2008-ci ildən başlayaraq 2020-ci ilə doğru dövlət idarəçilik orqanlarının təkmilləşdirilməsi sahəsində genişmiqyaslı işlər həyata keçirilməyə başlamışdır. 2008-ci ilin noyabrında konstitusiyada prezident və Dumanın səlahiyyət müddəti dəyişdirilərək 6 və 5 il müəyyən edilmişdir. Beşinci çağırış Dövlət Duması dörd ildə 1581 federal qanun, 27 federal konstitusiya qanunu qəbul və təsdiq edərək parlament qanunçuluğunu daha da inkişaf etdirmişdir.

Rusiya Federasiyasının Konstitusiya Məhkəməsinə dair 2009-cu il may ayındakı qanununa əsasən məhkəmənin sədrini və onun iki müavinini prezidentin təqdimatı ilə Federasiya Şurası təsdiq edirdi. Əvvəllər isə onları hakimlərin özləri seçirdi. 2008-ci ilin mayından başlayaraq ölkədə geniş məhkəmə islahatı keçirilmişdir. «Məhkəmələrin müstəqilliyi»ni təmin etmək islahatın əsas məqsədi kimi nəzərdə tutulmuşdu. Məhkəmələrin insan hüquqlarını real olaraq müdafiə etməsi məqsədilə «İnsan hüquqları və azadlıqlarının əsasının müdafiə edilməsinə dair» Avropa konvensiyasının 14-cü protokolu təsdiq olunmuşdur. Bu Rusiya vətəndaşlarının ölkə məhkəmələrindən Avropa məhkəmə sisteminə insan hüquqlarının pozulmasına dair şikayətlərin azalmasına səbəb olmuşdur. İslahat məhkəmə heyəti tərkibinin təkmilləşdirilməsini də əhatə etmişdir. «Hakimlərin statusuna dair» qanun dəyişdirilərək bir tərəfdən onların müstəqilliyinə, başqa bir tərəfdən fəaliyyətlərinə nəzarət etməyə imkan yaratmışdır. Məhkəmə sistemində andlıların yeri və hüququ dəqiqləşdirilmişdir. Məhkəmə qanunvericiliyinin humanistləşdirilməsinə xüsusi diqqət ayrılmışdır. 2010-cu ilin sonlarında Dövlət Duması Rusiya Federasiyasının Cinayət Məcəlləsində dəyişiklik haqqında qərar qəbul etmişdir. Xüsusilə iqtisadi tərkibli cinayətlərin cərimələrlə əvəz edilməsi, cinayət əməllərində peşmançılığın nəzərə alınması və s. dəyişikliklər arasında yer almışdır.

2008-ci il sentyabrın 8-də prezidentin «Silahlı qüvvələrin yenidən qurulması planı»nı təsdiq etməsilə geniş hərbi islahatlar keçirilmişdir. Ordu həyatının

bütün tərəfini əhatə edən islahatı üç mərhələdə keçirmək nəzərdə tutulmuşdur. 2008-2011-ci illəri əhatə etmiş birinci mərhələdə ordunun sayı, idarəçilik dəqiqləşdirilərək, hərbi təhsil sistemi dəyişdirilirdi. Silahlı qüvvələrin ümumi sayı bir milyon nəfərə kimi azalmış, ordudakı zabitlərin miqdarı 330 mindən 220 min nəfərə düşmüşdür. 12 ay hərbi xidmət yerinə yetirməli olan çağırışçıların sayı 450 mindən 355 min nəfərə azalmışdır. Müqavilə əsasında orduda xidmət etməli olan çavuş, gizir və sıravilərin sayı 425 min nəfər təşkil edirdi. Ölkənin hərbi təhsil sistemi 15 hərbi akademiyanı, 46 hərbi institut və uçilişi, 4 hərbi universiteti, təşkil edilmiş 10 hərbi mərkəzi əhatə edirdi. İslahatın ikinci mərhələsində yəni, 2012-2015-ci illərdə sosial məsələlərin həlli nəzərdə tutulmuşdur. Əməkhaqqını 2,5-3 dəfə, təqaüdləri 1,7 dəfə artırmaq planlaşdırılmışdır. 2016-2020-ci illəri əhatə edən 3-cü mərhələdə silahlı qüvvələrin hərbi-texniki təhcizat proqramını yerinə yetirmək məqsədilə 31 trln. rubldan çox vəsait ayrılmışdır. Ordunun 70%-ə qədəri yeni silah növü və hərbi texnika ilə təmin edilməli idi.

2010-cu il avqustun 7-də «Polis haqqında» qanun layihəsi hazırlanaraq ictimaiyyətin müzakirəsinə təqdim olunmuşdur. 2011-ci il martın 1-də qanun təsdiq olunaraq qüvvəyə minmişdir. Milisin əvvəlki adı ilə polis adlandırıldığı yeni qanunda polislə ictimaiyyət arasında tərəfdaşlıq modelinin bərqərar olması nəzərdə tutulmuşdur. Ölkə tarixində ilk dəfə polis üzərində ictimai nəzarət təmin edilmişdir. Polis sıralarına isə qəbul şərtləri daha da sərtləşdirilmişdir. 2011-ci il martın 15-dən iyunun 1-nə kimi polis işçilərinin şəxsi heyətinin yenidən attestasiyası keçirilmişdir.

Rusiyanın ən ağır sistem problemlərindən biri korrupsiya olaraq qalırdı. Beynəlxalq məlumata əsasən, bu göstərici üzrə Rusiya dünyanın 178 ölkəsi içərisində 2010-cu ildə 154-cü yeri tuturdu. Artıq 2008-ci ilin mayında prezidentin yanında Korrupsiya Əleyhinə Şura təsis edilmişdir. Korrupsiyaya qarşı 2008 və 2010-cu illərdə plan və milli strategiya hazırlanmışdır.

2011-ci il dekabrın 4-də Dövlət Dumasına seçkilər keçirilmişdir. Rəsmi məlumata əsasən, «Vahid Rusiya» partiyası 49,3%-i alaraq 238 deputat yerinə sahib olmuşdur. RFKP 19,2% səs toplayaraq 92 deputat yeri, Ədalətli Rusiya 13,2% səslə 64, RLDP 11,7% səslə 56 deputat yerinə sahib olmuşdur. Əvvəlki göstərici ilə müqayisədə «Vahid Rusiya» nümayəndələrini 15% itirməsinə baxmayaraq, konstitusiya qanunundan başqa müstəqil qanunlar qəbul etmək imkanını saxlamışdır. Bir çox müşahidəçilərin, yerli və xarici siyasətçilərin, jurnalist və ekspertlərin rəyinə görə, seçkilərin yekunu saxtalaşdırılmışdır.

2012-ci il martın 4-də prezident seçkilərində səslərin 69,6%-ni qazanmış V.V.Putin qələbə çalmışdır. Prezidentliyə namizədlər G.A.Züqanova seçicilərin

17,8%-i, V.V.Jirinovskiyə 6,22%-i, S.M.Mironova 3,85%-i səs vermişdir. «Haqq işi» («Правое дело») partiyasının sədri sahibkar M.D.Proxonov seçki səslərinin demək olar ki 8%-ni əldə etmişdir. Üçüncü dəfə ölkə prezidenti seçildikdən sonra Dövlət Dumasında çıxış etmiş V.V.Putin beş strateji vəzifə müəyyən etmişdir: Rusiya dövlətinin demoqrafik vəziyyətini təmin etmək; Şərqi Sibir və Uzaq Şərqə xüsusi diqqət verməklə ərazinin qorunaraq yenidən tikilməsi; yeni keyfiyyətli iş yerlərinin açılması; yeni iqtisadiyyatın qurulması; birinci növbədə avrasiya məkanına inteqrasiya yolu ilə dünyadakı mövqeyi möhkəmləndirmək. Mayın 7-də prezident and içərək vəzifə səlahiyyətlərini yerinə yetirməyə başlamışdır, mayın 8-də Dumanın növbədənkənar iclası D.A.Medvedevi Nazirlər Kabinetinin rəhbəri təyin etdi.

2012-ci ilin mayında fəaliyyətə başlamış dövlət başçısı V.V.Putin 11 sənədə imza ataraq dövlət siyasətinin əsas istiqamətlərini müəyyən etmişdir. Bu fərmanlar iqtisadi və sosial siyasət, səhiyyə, təhsil və elm, vətəndaşların mənzil-məişət şəraitini, dövlət idarəçiliyinin təkmilləşdirilməsini, millətlər arasındakı razılaşma, silahlı qüvvələrin inkişafı, xarici siyasətdə dövlətin mənafeyinə uyğun addımlar atılmasını əhatə edirdi.

Uzun illər sonra 2013-cü ildə güclü milli ideyalara tələbat olduğu, xüsusi eyniliyin əhəmiyyəti haqqında fikir ifadə edilmişdir. Siyasi, iqtisadi, humanitar elitanın ölkənin daxili inkişaf vəzifələrinin həllində fəallıq və məsuliyyəti ön sıraya yerləşmişdir. Dövlət qulluqçularına xarici banklarda hesab və qiymətli kağızları olması qanunla qadağan edilmişdir. Korrupsiyayla mübarizə geniş miqyas almışdır. 2013-cü ildə təhqiqatda 30 min iş var idi. Onun 2 mini xüsusi hüquqi statusu olan şəxslərlə bağlı idi. 2013-cü ildə prezident V.V.Putinin parlamentə müraciətində qeyd edilmişdir ki, dövlətin və xüsusi sahibkarlığın ehtiyatları strateji məqsədin həllinə sərf olunmalıdır.

Konstitusiyaya dəyişikliyə müvafiq olaraq altı ildən sonra, 2018-ci ilin martın 18-də Rusiya Federasiyasında növbəti prezident seçkisi keçirilmişdir. Səkkiz nəfər prezidentliyə namizədin iştirak etdiyi seçkidə Rusiya əhalisinin 67,54%-i iştirak etmişdir. Rəsmi məlumata əsasən, prezident seçkilərində V.Putin seçici səslərinin 76,69%-ni qazanaraq dördüncü dəfə Rusiya Federasiyasının prezidenti seçilmişdir. Prezidentliyə namizədlərdən P.Qrudinin 11,77%, V.Jirinovski 5,65%, K.Sobçak 1,68%, Q.Yavlinski 1,05%, digər namizədlər B.Titov, M.Suraykin və S.Baburin 1%-dən az səs toplamışdır. 2018-ci il mayın 7-də V.V.Putin and içərək prezident vəzifəsinin icrasına başlamışdır.

2020-ci il martın 11-də Federasiya Şurası plenar iclasında birinci oxunuşda «Rusiya Federasiyasının Konstitusiya dəyişiklik edilməsi haqqında» («О внесении поправок в конституцию РФ») qanun müzakirə edərək

matın 14-də səs çoxluğu ilə qəbul etmişdir. 2020-ci il iyunun 25-dən iyulun 1-nə kimi keçirilmiş referendumun rəsmi nəticələrini elan edən MSK-sı («ЦИК») səsvermədə iştirak etmiş vətəndaşların 77,92%-nin konstitusiyaya dəyişikliyin lehinə səs verdiyini, 21,27%-in isə dəyişikliyin əleyhinə səs verdiyini təsbit etmişdir.

2020-ci il iyulun 4-də Rusiya Federasiyasının Konstitusiya dəyişikliyi qüvvəyə minmişdir. Dəyişikliyə əsasən, 2024-cü ildə dördüncü prezidentliyinin müddəti başa çatan V.V.Putinin əvvəlki seçkiləri «sıfırlandığı» («обнуление») üçün o yenidən prezident seçkilərində iştirak etmək hüququ qazanmışdır.

2008-ci ilə kimi Rusiyanın iqtisadiyyatı sabit inkişaf edərək ümumdaxili məhsul illik 7%-dən çox artmışdır. Rusiya iqtisadiyyatın həcminə görə dünyada yeddinci yerə yüksəlmişdir. Əsrin əvvəllərində xarici ölkələrlə mal dövriyyəsi beş dəfədən çox artmışdır. 2007-ci ildə ölkə iqtisadiyyatına 82,3 mlrd. dollar xarici kapital axmışdır. 2006-cı ilin avqustunda Paris kredit klubuna borcun qaytarılması tarixi hadisə olmuşdur. Rusiyanın qızıl valyuta fondu artaraq 2006-cı ildə 260 mlrd. dollar, 2008-ci ildə isə 484 mlrd. dollar olmuşdur. Bu göstərici üzrə Rusiya dünyada üçüncü yerə yerləşmişdir.

2005-ci ildə xüsusi investisiya fondu yaranmışdır ki, onun həcmi 2006-cı ildə 70 mlrd. rubl müəyyən edilmişdir. Onun məqsədi regionları, fəal biznesin perspektivli istiqamətlərini 2005-ci ilin payızından işləməyə başlamış dövlət-xüsusi kapital tərəfdaşlığı çərçivəsində müdafiə etməkdir. Postsovet tarixində birinci dəfə 2007-ci ildən dövlət büdcəsi birillik deyil, üçillik planlaşdırılmışdır. İnfilyasiya ilə mübarizə iqtisadi siyasətin əsas istiqamətlərindən birini təşkil etmişdir. 1999-cu ildəki 36,5% infilyasiyaya qarşı 2007-ci ildə ölkədə 11,9% infilyasiya qeydə alınmışdır (8% planlaşdırılmışdı).

2007-2008-ci illərdə dövlətin iqtisadiyyata daxil olması ilə dövlət koorperasiyaları yaranmağa başlamışdır. Tez bir zamanda yeddi belə struktur təşkil edilmişdir. Birinci belə statusa malik yeni dövlət koorperasiyası Xarici İqtisadi Bank (Внешэкономбанк) olmuşdur. «Rosatom», «Rostexnologiya», «Nanotexnologiya» və b. ölkənin innovasiya inkişafına xidmət edirdi.

ABŞ-da başlanmış dünya maliyyə böhranı Rusiyaya da nüfuz etmişdir. Sənaye istehsalının və daxili məhsul həcminin aşağı düşməsi, işsizliyin artması, nəhəng koorparasiyaların borc və maliyyə problemi ilə qarşılaşması vəziyyəti kəskinləşdirmişdir. Məlum olmuşdur ki, dövlətin köməyi olmadan vəziyyəti normallaşdırmaq mümkün deyildir. Bununla bağlı olaraq hökumət ölkənin bank sistemini xilas etmək məqsədilə 2008-ci ilin sonuna kimi 5 trln. rubl vəsait ayırdı. Xüsusilə 2008-ci ilin sonu, 2009-cu ilin əvvəllərində iqtisadi göstəricilər son dərəcə aşağı düşmüşdür. İşsizlik 7,1% təşkil etmiş, daxili məhsul istehsalı 8%,

sənayenin həcmi 10%-dən çox azalmışdır. Bütün bunlar dünya bazarında neftin qiymətinin 40%, qazın 30%, qara metalın 43% aşağı düşməsi şəraitində baş vermişdir.

2009-cu il aprelin 6-da Duma Antiböhran proqramı təqdim edərək hökumətin iri bank və kompaniyalara, böhrandan zərər çəkmiş əhaliyə yardım edərək istehsalın aşağı düşməsinin qarşısına sədd çəkib, iqtisadiyyatın inkişafını təmin etməyə səfərbər etmişdir.Köməyə ehtiyacı olan 300-ə kimi müəssisənin siyahısı tərtib olunmuş, avtomobil sənayesi və kənd təsərrüfatına xüsusi diqqət ayrılmışdır. Ümumən antiböhran proqramını təmin etmək məqsədilə 3 trln. rubl, o vaxtkı qiymətlərlə 100 mlrd. dollardan çox maliyyə vəsaiti sərf edilmişdir. Böhranın aradan qaldırılması ilə əlaqədar olaraq Rusiyanın dövlətin fəal iştirakı ilə siyasi, iqtisadi və sosial təkmilləşdirilməsinə xüsusi əhəmiyyət verilirdi. Hakimiyyət biznesi innovasiyaların tətbiqinə istiqamətləndirmişdir.

2009-cu ildə yeddi dövlət korporasiyasına «Avtoyol» («Автодор») əlavə edilmişdir ki, bu da avtomobil yollarının və uyğun infrastrukturun inkişafı məsələlərilə məşğul olurdu. Korporasiyalar iqtisadiyyatın sabitləşməsində mühüm rol oynamışdır. Bu modeli bəzən «dövlət kapitalizmi» adlandıraraq «oliqarxiyaya» qarşı qoyurdular. 2008-ci ildən sonra dövlət korporasiyalarının fəaliyyətində effektivlik birinci plana keçmişdir. 2011-ci ilin dekabrında Rusiyanın «Ümumdünya ticarət təşkilatı»na («Всемирная торговая организация – ВТО») üzv olması ölkə iqtisadiyyatının inkişafı nöqteyi-nəzərindən mühüm hadisədir. Dövlət Duması 2012-ci ilin iyulunda üzvlük müqaviləsi təsdiq etmişdir.

Müasir Rusiyada sosial siyasət sahəsində bir çox müsbət dəyişikliklər baş vermişdir. Sosial siyasətin əsas problemlərindən biri təqaüdlərlə bağlı islahat olmuşdur. 2008-ci ildə ölkədə 38,3 mln. nəfər təqaüdçü var idi ki, onlar da əhalinin 27%-ni təşkil edirdi. 2002-2010-cu illərdə təqaüdlərlə bağlı həyata keçirilmiş islahata müvafiq olaraq əmək təqaüdü üç, yəni baza, sığorta və yığım (1967-ci il təvəllüdündən kiçik olanlar üçün) hissədən ibarət nəzərdə tutulmuşdur. Dövlət çalışırdı ki, çalışan vətəndaşlar gələcək təqaüdlərinə yığım məqsədilə pul ödəsin. Lakin bu yüksək əməkhaqqı və ödənişin inflyasiyaya məruz qalmaması üçün möhkəm təminat tələb etdiyinə görə baş tutmamışdır. Təqaüd fondu böyük ölçüdə dövlət büdcəsi hesabına maliyyələşdirilirdi.

2004-cü ildə güzəştlərin «monetləşdirilməsinə» («монетизации») dair qanun qəbul etmişdir ki, sənədə əsasən sovetlər vaxtından milyonlarla vətəndaşa məxsus olan «natural» güzəştlər, yəni pulsuz dərman, şəhər və şəhərətrafı nəqliyyat biletləri, vergi və mənzil yaşayış haqqında qismən azadolma və s. pul formasında ödənilməli idi. Qanun vətəndaşların narazılığına səbəb olduğu üçün hakimiyyət sosial ödəmələrin həcmini artırmağa məcbur olmuşdur.

2007-ci ildən başlayaraq ölkədə demoqrafik vəziyyət xeyli yaxşılaşmışdır. 143 mln. nəfər əhalisi olan Rusiya Federasiyasında doğum artmış, ömür uzanmış, ölüm halları azalmışdır. Analıq və uşaqlıq, sağlam həyat tərzi təbliğatı genişlənmişdir. Uşaqlı ailələrə yardım məqsədilə dövlət analıq vəsaiti müəyyənləşdirmişdir. 2007-ci il yanvarın 1-dən ikinci, üçüncü və növbəti anadan doğulan, yaxud övladlığa götürülmüş uşaq üçün dövlət ananın hesabına yüklü miqdarda pul vəsaiti keçirirdi ki, bu vəsait uşağın mənzil şəraitinin yaxşılaşdırılmasına, yaxud təhsilinə sərf edilə bilərdi. 2009-cu ilin iyulundan 2013-cü ilin sentyabrına kimi Rusiyada 4,6 mln. ailə analıq vəsaiti almışdır. Təsadüfi deyil ki, 1990-cı ilin əvvəli ilə müqayisədə 2013-cü ildə ölkədə doğulanlar ilk dəfə vəfat edənlərin sayını ötüb keçmişdir.

1990-cı ilin sonları – 2000-ci ilin əvvəllərindən başlayaraq Rusiya Federasiyasında kütləvi kompüterləşdirmə, müasir informasiya texnologiyasının bərqərar olması sayəsində rusiyalıların gündəlik həyatında əsaslı dəyişiklik baş vermişdir. Qloballaşmanın simvollarından biri olan internet və onun sərhəd tanımayan məlumat imkanları adamların təmas qurması üçün geniş şərait yaratmışdır.

İnternet və mobil əlaqənin mənimsənilməsi əhalinin gəlirinin sabit olaraq artması ilə əlaqədardır ki, bu da 2008-ci ildə orta hesabla 2,5 dəfə artmışdır. Ölkə əhalisinin sayına düşən avtomobillərin miqdarı artaraq 1000 nəfərə 260 maşın düşmüşdür. Əhalinin yoxsul təbəqəsinin sayı xeyli azalmışdır. Orta sinif formalaşmışdır, lakin buna baxmayaraq, əhalinin zəngin və kasıb təbəqələri arasındakı fərq başqa Avropa ölkələrində olduğundan xeyli artıqdır.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

### *ƏSAS ƏDƏBİYYAT*

## Azərbaycan dilində


1. **Baxşəliyev T.Ş.** Slavyan ölkələri tarixi. 1917-2015. Ali məktəblərin bakalavriat səviyyəsi üçün dərslik. «Bakı Universiteti» nəşriyyatı, 2016, 373 s.

2. **Baxşəliyev T.Ş.** Slavyan ölkələri tarixi. 1917-2015. Ali məktəblərin bakalavriat səviyyəsi üçün dərslik. 2-ci nəşr. Bakı, «Şərq-Qərb», 2018, 872 s.

3. **Məmmədov H.N.** Slavyan ölkələri tarixi (Uzaq keçmişdən XX əsrin 20-ci illərinədək). Dərs vəsaiti. Bakı, Elm və təhsil, 2020, 676 s.

4. **Vəliyev T.T., Şahmuradov A.Ş.** Slavyan ölkələri tarixi (XIX əsrin ikinci yarısı-XX əsrin əvvəlləri). Bakı, «Vətən», 2012, 565 s.


## Rus dilində


1. **Аджи М.** Азиатская Европа. М.: АСТ, 2006, 1128 с.

2. Административно-территориальное устройство России: история и современность. М.: Олма-Пресс. 2003, 320 с.

3. **Айрапетов О.Р.** Внешняя политика Российской империи (1801-1914). М.: Европа. 2006, 671 с.

4. Айрапетов О.Р. На пути к краху. Русско-японская война 1904-1905 гг. Военно-политическая история. М.: Алгоритм. 2014, 496 с.

5. **Аксютин Ю.В.** Хрущевская оттепель и общественные настроения в СССР в 1953-1964 гг. М.: Российская политическая энциклопедия (РОССПЭН); Фонд «Президентский центр Б.Н.Ельцина», 2010, 622 с.

6. **Алексеев Н.Н.** Русский народ и государство М.: АГРАФ. 1998, 640 с.

7. **Алексеев С.В.** Славянская Европа V-VIII веков. М.: Вече. 2009, 536 с.

8. **Амальрик А.А.** Норманны и Киевская Русь. Андрей Амальрик: науч. публикация, предисловие и комментарии О.Л.Губарева. М.: Новое литературное обозрение. 2019, 232 с.

9. **Андреев Д.А.** Пространство власти от Владимира Святого до Владимира Путина. Краткий курс. X-XXI вв М.: АИРО-XX [и др.], 2004, 160 с.

10. **Анисимов Е.В.** Россия в середине XVIII века: Борьба за наследие Петра. М.: Мысль, 1986, 239 с.

11. **Барсенков А.С., Вдовин А.И.** История России. 1917-2009. М.: Аспект Пресс. 2010, 846 с.

12. **Беляев И.Д.** Крестьяне на Руси: Исслед. о постеп. изменении значения крестьян в рус. о-ве /. М.: Гос. публ. ист. б-ка России. 2002, 418 с.

13. **Божерянов И.Н.** Романовы: Триста лет служения России. М.: Белый город, 2004, 672 с.

14. **Боффа Дж.** История Советского Союза. Т.1-2, М.: Международные отношения. 1990, 627 с.

15. **Бугай Н.Ф.** Чеченская республика. конфронтация, стабильность, мир. М.: Гриф и Ко. 2006, 476 с.

16. **Бушуев С.В., Миронов Г.Е.** История государства Российского. Историко-библиографические очерки. Кн.2. XVII-XVIII вв М.: Книжная палата, 1994, 416 с.

17. **Вахрамеев А.В., Кулешов С.Г.** Очерки истории советской внешней политики (1917-1991 гг.) М.: Вузовская книга. 2007, 329 с.

18. **Вернадский Г.В.** История России. Древняя Русь. Тверь: ТОО «ЛЕАН»; М.: АГРАФ, 1996, 445 с.

19. **Вернадский Г.В.** Монголы и Русь. Тверь: ТОО «ЛЕАН»; М.: АГРАФ, 1997, 476 с.

20. **Вернадский Г.В.** Русская история М.: Аграф, 1997, 542 с.

21. **Верт Н.** История советского государства. 1900-1991: Пер. с фр. 2-е изд. М.: Прогресс-Академия, 1998, 480 с.

22. **Ганелин Р.Ш.** Основные источники по истории России конца XIX – начала XX в. СПб.: Дмитрий Буланин (ДБ), 2000, 90 с.

23. **Гедеонов С.А.** Варяги и Русь: в 2 ч. М.: Рус. панорама, 2005, 662 с.; 420 с.

24. **Геллер М.Я.** История Российской империи. В 2 т. М. МИК, 2001, 512 с.; 535 с.

25. **Греков Б.Д.** Киевская Русь. М.: Учпедгиз, 1949, 511 с.

26. **Готье Ю.В.** Смутное время. М.: Юрайт. 2019, 147 с.

27. **Гумилёв Л.Н.** Древняя Русь и Великая степь. М.: Айрис-Пресс, 2005 (ОАО Можайский полигр. комб.), 763 с.

28. **Данилов А.А.** История инакомыслия в России. 1917-1991 гг. Уфа: Восточный университет, 1995, 102 с.

29. **Данилов А.А., Косулина Г.Г., Брандт М.Ю.** История России. XX-начало XXI века. М.: Просвещение. 2006, 400 с.

30. **Дворниченко А.Ю.** Российская история с древнейших времен до падения самодержавия. М.: Весь Мир, 2010, 939 с.

31. **Деревянко А.П.** История России. М.: Проспект, 2012, 576 с.

32. Древняя Русь: город, замок, село. М.: Наука, 1985, 431 с.

33. **Дубов И.В.** Великий Волжский путь Л.: Изд-во ЛГУ, 1989, 255 с.

34. **Дьяконов М.А.** Очерки общественного и государственного строя Древней Руси. СПб.: Наука, 2005, 383 с.

35. **Екатерина Вторая.** Записки. М.: Юрайт, 2018, 215 с.

36. **Иванова Г.М.** История ГУЛАГа, 1918-1958: социально-экономический и по- литико-правовой аспекты. М.: Наука, 2006, 438 с.

37. **Исмаилов Э.Р.** Очерки истории России советского периода. Баку: Зия-Нурлан, 2008, 248 с.

38. История международных отношений и внешней политики СССР. 1917-1987. Т.1-3. М.: Междунар. отношения, 1987, 413 с.

39. История России: С древнейших времен до конца XX века. В 3 кн. / Боханов А.Н., Горинов М.М. и др. М.: АСТ, 2001, 347 с., 277 с., 348 с.

40. История России XX – начала XXI века в 2 т. Т. 1. 1900-1941: учебник для академического бакалавриата / Д.О.Чураков [и др.]; под редакцией Д.О.Чуракова. М.: Юрайт, 2018, 424 с.

41. История России с древнейших времен до наших дней. / Даудов А.Х., Дворниченко А.Ю., Кривошеев Ю.В., Тот Ю.В., Ходяков М.В. СПб. [и др.]: Ланьо, 2019, 368 с.

42. История России с древнейших времен до наших дней: учебник: [в 2 т.] / [А.Н.Сахаров, А.Н. Боханов, В.А.Шестаков]; под редакцией А.Н.Сахарова. М.: Проспект, 2017-2018, 864 с.

43. История России: с древнейших времен до наших дней: [учебное пособие] / [А.Н.Сахаров, Л. Е. Морозова, В.А.Шестаков, М.А.Рахматуллин и др.]; под ред. А.Н.Сахарова. М.: АСТ: Астрель, 2019, 1744 с.

44. **Каллаш В.В.** Три века: Россия от Смуты до нашего времени: исторический сборник: В 6 т.-х. М.: Престиж Бук, 2007, 351 с., 351 с., 318 с., 383 с., 383 с., 414 с.

45. **Карамзин Н.М.** История государства Российского. М.: Эксмо, 2009, 1020 с.

46. **Ключевский В.О.** Исторические портреты. Деятели исторической мысли. М.: Правда, 1991, 622 с.

47. **Ключевский В.О.** Полный курс русской истории: в одной книге. М.: АСТ; СПб.: Астрель-СПб., 2010, 541 с.

48. **Короткевич В.И.** История современной России. 1991-2003: Учеб. пособие. СПб.: Изд.С.-Петербургского университета, 2005, 293 с.

49. **Костомаров Н.И.** Церковь и раскол в истории России. М.: Юрайт, 2019, 215 с.

50. **Кузьмин А.Г.** История России с древнейших времен до 1618 г. В 2 кн., Кн. 1. М.: ВЛАДОС, 2003, 448 с.

51. **Курукин И.В.** Бирон. М.: Молодая гвардия, 2006, 426 с.

52. **Кучкин В.А.** Формирование государственной территории Северо-Восточной Руси в X-XIV вв. М.: Наука, 1984, 349 с.

53. **Лебедев Г.С.** Эпоха викингов в Северной Европе и на Руси. СПб.: Евразия, 2005, 639 с.

54. **Лебедева Н.С.** Катынь: преступление против человечества. М.: Прогресс; Культура, 1996, 348 с.

55. **Левицкий Г.М.** Великое княжество Литовское. М.: Ломоносов, 2014, 239 с.

56. **Ливен Д.** Российская империя и ее враги с XVI века до наших дней. [Пер. с англ. А.Козлика, А.Платонова] М.: Европа, 2007, 678 с.

57. **Лимонов Ю.А.** Владимиро-Суздальская Русь: Очерки социально-политической истории. Л.: Наука, 1987, 213 с.

58. **Лисейцев Д.В.** Приказная система Московского государства в эпоху Смуты. М.: Ин-т российской истории РАН; Тула: Гриф и К°, 2009, 788 с.

59. **Литвин А.Л.** Красный и белый террор в России, 1918-1922 гг. [Террор для диктатуры пролетариата: Убить за веру, царя и Отечество: Белые придут-грабят. Красные придут-грабят: Карат. политика. Теория и импровизация]. М.: Яуза; ЭКСМО, 2004, 442 с.

60. **Ломоносов М.В.** Древняя Российская История от начала Российского народа до кончины Великого Князя Ярослава Первого или до 1054 года. М.: Амрита-Русь, 2020, 132 с.

61. **Ломоносов М.В.** Об истории и литературе. Избранное. М.: Юрайт, 2019, 162 с.

62. **Ляшенко Л.М.** История России. XIX – начало XX века. М.: Дрофа, 2016, 351 с.

63. **Мавродин В.В.** Образование Древнерусского государства. Л.: Изд-во Ленингр. гос. ордена Ленина ун-та, 1945, 432 с.

64. **Майоров А.В.** Галицко-Волынская Русь: Очерки соц.-полит. отношений в домонг. период. Князь, бояре и гор. Община. СПб.: Унив. кн., 2001, 639 с.

65. **Медведев Р.** Советский Союз. Последние годы жизни. М.: АСТ, 2010, 640 с.

66. Мюнхен-преддверие войны. Исторические очерки. М.: Наука, 1988, 312 с.

67. **Насонов А.Н.** «Русская земля» и образование территории древнерусского государства. СПб.: Наука, 2006, 425 с.

68. **Некрич А.М.** 1941, 22 июня: [Пробл. участия СССР во второй мировой войне]. М.: Памятники ист. мысли, 1995, 333 с.

69. **Никитин Н.И.** Освоение Сибири в XVII веке. М.: Просвещение, 1990, 143 с.

70. Новейшая история России. В 2 ч. Часть 1. 1914-1941: учебник для академического бакалавриата / М.В.Ходяков [и др.] М.: Юрайт, 2019, 270 с.

71. Новейшая история России. В 2 ч. Часть 2. 1941-2015: учебник для вузов / М.В.Ходяков [и др.] М.:Юрайт, 2019, 300 с.

72. **Новосельский А.А.** Борьба Московского государства с татарами в первой половине XVII века. М.-Л.: Изд-ва Акад. наук СССР, 1948, 448 с.
73. **Нольде Б.Э.** История формирования Российской империи. СПб.: Дмитрий Буланин, 2013, 845 с.
74. Октябрь 1917 г.: величайшее событие века или социальная катастрофа? М.: Политиздат, 1991, 240 с.
75. Октябрьский переворот: революция 1917 г. глазами ее руководителей, воспоминания русских политиков и комментарии западного историка. М.: Современник, 1991, 380 с.
**76. Орлов А.С., Георгиев В.А., Георгиева Н.Г., Сивохина Т.А.** Хрестоматия по истории России. М.: Проспект, 2001, 535 с.
77. **Павлюченков С.А.** Россия нэповская. М.: Новый хронограф, 2002, 468 с.
78. **Пайпс Р.** Россия при старом режиме. [Пер. с англ. В. Козловского]. М.: Захаров, 2004, 493 с.
79. **Пашков Б.Г.** Русь. Россия. Российская империя: Хроника правлений и событий, 862-1917 гг. М.: ЦентрКом, 1997, 635 с.
80. **Перевезенцев С.В.** Русская история: с древнейших времен до начала XXI века. М.: Академический проект, 2018, 571 с.
81. **Пихоя Р.** Москва. Кремль. Власть. Сорок лет после войны. 1945-1985. М.: Русь-Олимп: Астрель, 2007, 720 с.
82. **Пихоя Р.** Москва. Кремль. Власть. Две истории одной страны. Россия на изломе тысячелетий. 1985-2005. М.: Русь-Олимп: Астрель, 2007, 546 с.
83. **Платонов С.Ф.** Лекции по русской истории в 2 т. С древнейших времен до конца XVII века: учебник. М.: Юрайт, 2019, 417 с., 282 с.
84. **Платонов С.Ф.** Собрание сочинений по русской истории. В 2 т. СПб.: Фирма «Стройлеспечать», 1993, 733 с., 637 с.
85. **Покровский М.Н.** Русская история. В 3 т. СПб.: Полигон, 2002,– 346 с., 383 с., 367 с.
86. **Протопопов А.С.** История международных отношений и внешней политики России, 1648-2005. М.: Аспект Пресс, 2006, 398 с.
87. Реабилитация народов и граждан, 1954-1994 гг.: Документы / Рос. АН, Центр по изуч. межнац. отношений Ин-та этнологии и антропологии им. Н.Н.Миклухо-Маклая. М.: ИЭИА, 1994, 304 с.
88. Реабилитация: Политические процессы 30-50-х г.: Сборник / Сост. И.В.Курилов и др.; Вступ. ст. Н.Михайлова. М.: Политиздат, 1991, 460 с.
89. Российская империя в зарубежной историографии: работы послед. лет: антология. М.: Новое изд-во, 2005, 694 с.
90. Россия в Первой мировой войне, 1914-1918. Энциклопедия: в 3 т. / Российский гос. архив социально-политической истории, Ин-т российской

истории РАН, Изд-во «Российская политическая энцикл.»; ред. кол.: А.К.Сорокин (отв. ред.) [и др.]. М.: РОССПЭН, 2014, 818 с., 901 с., 710 с.

91. Россия в XX веке. Война 1941-1945 годов: современные подходы / Рос. акад. наук, Ин-т рос. истории, Науч. совет «История междунар. отношений и внеш. политики России»; [ред. кол.: Л. П.Колесникова (ред.-сост.) и др.]. М.: Наука, 2005, 566 с.

92. **Рыбаков Б.А.** Киевская Русь и русские княжества XII-XIII вв. М.: Наука, 1982, 590 с.

93. **Рыбаков Б.А.** Рождение Руси. М.: АиФ Принт, 2003, 443 с.

94. **Рыбаков Б.А.** Язычество древней Руси. М.: Наука, 1987, 782 с.

95. Северный Кавказ в составе Российской империи. М.: Новое лит. обозрение, 2007, 460 с.

96. **Сервис Р.** Ленин. Минск.: Попурри, 2002, 129 с.

97. Сибирь в составе Российской империи. М.: Новое лит. обозрение, 2007, 362 с.

98. Советская внешняя политика в годы «холодной войны». 1945-1985 гг. Новое прочтение. / Л.Н.Нежинский и др. М.: Междунар. отношения, 1995, 512 с.

99. **Соловьев С.М.** История России с древнейших времен. М.: Эксмо, 2010, 702 с.

100. **Соловьев С.М.** Об истории новой России. М.: Просвещение, 1993, 558 с.

101. **Соловьев С.М.** Сочинения: В 18 кн. М.: Мысль, 1988-1996, 768 с., 540 с.

102. **Устрялов Н.Г.** Русская история до 1855 года. В 2 ч. Петрозаводск: Корпорация «Фолиум», 1997, 957 с.

103. **Тихомиров М.Н.** Древнерусские города. Москва: МГУ, 1946, 253 с.

104. **Толочко А.П.** Князь в древней Руси. Власть, собственность, идеология. Киев: Наук.думка, 1992, 224 с.

105. **Трубачев О.Н.** Этногенез и культура древнейших славян: Лингвистические исследования. М.: Акад. проект, 2017, 540 с.

106. Февральская революция: от новых источников к новому осмыслению. М.: Российская Академия наук, 1997, 399 с.

107. **Федоров В.В.** Эпоха Путина: Тайны и загадки Кремлев. двора. М.: ЭКСМО; Алгоритм, 2003, 444 с.

108. Хрестоматия по отечественной истории. 1914-1945 гг. / Под ред. Киселева А.Ф., Щагина Э.М., М.: Владос, 1996, 896 с.

109. Хрестоматия по отечественной истории. 1946-1994 гг. / Под ред. Киселева А.Ф., Щагина Э.М., М.: Владос, 1996, 600 с.

110. **Цыганков А.П.** Внешняя политика России от Горбачева до Путина: Формирование национального интереса. М.: Научная книга, 2008, 270 с.

111. Центральная Азия в составе Российской империи М.: Новое литературное обозрение, 2008, 451 с.

112. **Чешко С.В.** Распад Советского Союза: Этнополитический анализ. М.: Наука, 1996, 309 с.

113. **Чураков Д.О.** История России XX – начала XXI века. В 2 т. Том 2. 1941-2016: учебник для академического бакалавриата / Д.О.Чураков, А.С.Барсенков, А.И.Вдовин; под ред. Д.О.Чуракова. М.: Юрайт, 2019, 374 с.

114. **Шайкин А.А.** Повесть временных лет: история и поэтика. М.: Русская панорама, 2011, 613 с.

115. **Шаскольский И.П.** Норманская теория в современной буржуазной науке. М.-Л.: Наука, 1965, 221 с.

116. **Шмурло Е.Ф.** Возникновение и образование Русского государства (862-1462). СПб.: Алетейя, 1998, 541 с.

117. **Штепа П.** Московство: его происхождение, содержание, формы и историческое развитие. [Пер. с укр.] Черкассы: Ю.Чабаненко, 2015, 438 с.

118. **Шубин А.В.** Парадоксы перестройки. Упущенный шанс СССР. М.: Вече, 2005, 480 с.

119. Экономические реформы в России: итоги последних лет. 1991–1996 / Отв. ред. В. П. Логинов и др. М.: Наука, 1997, 319 с.

120. Эпоха Ельцина: Очерки политической истории. М.: Вагриус, 2001, 815 с.

121. **Яковлев А.Н.** Омут памяти: От Сталина до Путина: В 2 кн. М.: Демократия, 2001, 480 с.

122. **Ясин Е.Г.** Российская экономика: истоки и панорама рыночных реформ. М.: ГУ ВШЭ, 2002, 437с.

## İngilis dilində

1. **Bushkovitch P.** A Concise History of Russia. Cambridge: Cambridge univ. press, 2012, 491 p.

2. **Kaiser D.H., Marker G.** Reinterpreting Russian History: Readings 860-1860s. New York; Oxford: Oxford univ. press, 1994, 445 p.

3. **Morewedge P.** The Hope and Challenge of the 21st Century: A Russian Vision – Putin, Medvedev, Lavrov. Global Scholarly Publications, 2012, 212 p.

4. **Nicolle D., Shpakovsky V.** Armies of Ivan the Terrible: Russian Troops 1505–1700 (Men-at-Arms). Oxford: Osprey, 2006, 48 p.

5. Russian History: A Captivating Guide to the History of Russia, Including Events Such as the Mongol Invasion, the Napoleonic Invasion,

Reforms of Peter the Great, the Fall of the Soviet Union, and More. North Charleston: CreateSpace Independent Publishing Platform, 2018,136 p.

6. **Sixsmith M.** Russia: A 1000-Year Chronicle of the Wild East. New York: Overlook, 2012, 611 p.

7. The Russia reader: history, culture, politics. Durham; London: Duke univ. press, 2010, 769 c.

***ƏLAVƏ ƏDƏBİYYAT***

## Rus dilində

1. **Абалкин Л.И.** Экономическая история СССР. М.: ИНФРА-М, 2007, 496 с.

2. **Александров В.А.** Сельская община в России (XVII - начало XIX в.). М.: Наука, 1976, 324 с.

3. **Аллен Р.С.** От фермы к фабрике. Новая интерпретация советской промышленной революции. Роберт С. Аллен [пер. с англ. Е. Володиной]. М.: Российская политическая энциклопедия (РОССПЭН), 2013, 390 с.

4. **Ананьич Б.В., Ганелин Р.Ш.** – Сергей Юльевич Витте и его время. СПб.: Дмитрий Буланин, 2000, 438 с.

5. Английские путешественники в Московском государстве в XVI веке / Х.Уиллоби [и др.]; переводчик Ю.В.Готье. М.: Юрайт, 2018, 283 с.

6. **Аникеев А.С.** Как Тито от Сталина ушел: Югославия, СССР И США в начальный период «холодной войны» (1945-1957). М.: ИС РАН, 2002, 310 с.

7. **Анисимов Е.В.** Дыба и кнут. Политический сыск и русское общество в XVIII веке. М.: Новое литературное обозрение, 1999, 720 с.

8. **Анфилов В.А.** Грозное лето 1941 г. М.: Анкил-воин, 1995, 192 с.

9. **Бердинских В.А.** Ремесло историка в России. М.: Новое литературное обозрение, 2009, 603 с.

10. **Бердяев Н.А.** Смысл истории: Новое Средневековье. М.: Канон+: ОИ «Реабилитация», 2002, 446 с.

11. **Бестужев-Рюмин К.Н.** Русская история. М.: Юрайт, 2019, 470 с.

12. **Блохин В.Ф.** Поделиться История отечества в терминах и понятиях. Смоленск: Русич, 1999, 527 с.

13. **Блюм А., Меспуле М.** Бюрократическая анархия: Статистика и власть при Сталине. М.: Российская политическая энциклопедия (РОССПЭН). 2006, 328 с.

14. **Бобков Ф.Д.** Как готовили предателей: начальник политической контрразведки свидетельствует... М.: Эксмо: Алгоритм, 2011, 237 с.

15. Большевистское руководство. Переписка. 1912-1927. Сборник документов / Составители: А.В. Квашонкин, О.В. Хлевнюк, Л.П. Коше-

лева, Л.А. Роговая. М.: Российская политическая энциклопедия (РОССПЭН). 1996, 428 с.

16. **Бондаренко В.В.** Герои Первой мировой. М.: Молодая гвардия, 2013, 548 с.

17. **Борисов Н.С. Иван III.** М.: Молодая гвардия, 2000, 644 с.

18. **Борисов Н.С.** Политика московских князей (конец XIII – первая половина XIV века). МГУ, 1999, 393 с.

19. **Боханов А.Н.** Николай II. М.: Молодая гвардия; Русское слово, 1997, 446 с.

20. **Брежнев Л.И.** Материалы к биографии. М.: Политиздат, 1991, 384 с.

21. **Бузина О.** Тайная история Украины–Руси. К.: Довіра, 2007, 335 с.

22. **Бурлацкий Ф.** Вожди и советники. О Хрущеве, Андропове и не только о них. М.: Политиздат, 1990, 384 с.

23. **Бычкова М.Е.** Русское государство и Великое княжество Литовское с конца XV до 1569 г. М.: Ин-тут истории РАН, 1996, 158 с.

24. **Ваксберг А.И.** Царица доказательств. Вышинский и его жертвы. М.: А/О «Книга и бизнес», 1992, 349 с.

25. Власть и церковь в СССР и странах Восточной Европы, 1939-1958. М.: Ин-т славяноведения РАН, 2003, 380 с.

26. **Виноградов А.Е.** В поисках начальной Руси. Латинский след в русском этногенезе. М.: Ломоносовъ, 2018, 251 с.

27. Война и общество в XX веке. В 3 кн.-х: / ред.кол.: В.А.Золотарев [и др.]; сост. О.А.Ржешевский. М.: Наука, 2008, 610 с., 673 с., 556 с.

28. **Волкогонов Д.А.** Семь вождей: галерея лидеров СССР. В 2 т.-х. М.: Новости, 1995, 494 с., 480 с.

29. **Володихин Д.М.** Иван IV Грозный. М.: Вече, 2010, 316 с.

30. **Геллер М.Я.** История России 1917-1995. В 4-х т. М.: МИК: Агар. – 1996, 499 с., 431 с., 476 с., 495 с.

31. **Георгиева Т.С.** Русская культура: история и современность. М.: Юрайт, 1998, 575 с.

32. **Гильфердинг А.Ф.** Когда Европа была нашей: история балтийских славян. М.: Алгоритм, 2010, 320 с.

33. **Голиков А.Г.** Источниковедение отечественной истории. М.: Академия, 2010, 460 с.

34. **Горский А.А.** Русское Средневековье. М.: Астрель: Олимп, 2010, 222 с.

35. **Громыко М.М.** О воззрениях русского народа. М.: Паломникъ, 2000, 541 с.

36. **Гросул В.Я.** Образование СССР (1917-1924 гг.); Общероссийская общественная орг. «Российские ученые социалистической ориентации». М.: ИТРК, 2007, 215 с.

37. **Данилов А.А.** История России, IX-XIX вв. М.: ВЛАДОС, 1998, 429 с.

38. Декабристы в воспоминаниях современников. М.: Изд-во МГУ, 1988, 507 с.

39. **Деникин А.И.** Очерки русской смуты. В 3 т. М.: Айрис-пресс, 2003, 589 с.; 733 с.; 830 с.

40. **Денисов Ю.Н.** Россия и Польша: история взаимоотношений в XVII-XX веках. М.: Флинта; Наука, 2012, 605 с.

41. **Долгов В.В.** Быт и нравы Древней Руси: миры повседневности XI-XIII вв. М.: Яуза; Эксмо, 2007, 510 с.

42. Драма российской истории: большевики и революция / О.В.Волобуев, А.А.Косаковский, В.И.Старцев [и др.]; Под общ. ред. А.Н.Яковлева. М.: Новый хронограф, 2002, 448 с.

43. **Жуков Г.К.** Воспоминания и размышления: В 3-х т. М.: Изд-во агентства печати «Новости», 1983, 364 с., 380 с., 402 с.

44. **Емельянов Ю.В.** Сталин: На вершине власти. М.: Вече, 2002, 539 с.

45. **Емельянов Ю.В.** Хрущев. От пастуха до секретаря ЦК. М.: Вече, 2005, 414 с.

46. Западные окраины Российской империи. М.: Новое лит. обозрение, 2006, 605 с.

47. **Зевелев А.И.** Расколотая власть: 14 дней и ночей гражд. войны в Москве осенью 1993 года. М.: РОССПЭН, 1995, 118 с.

48. **Зеньковский С.А.** Русское старообрядчество. В 2 т. М.: Ин-т ДИ-ДИК, 2016, 687 с.; 711 с.

49. **Зимин А.А.** Россия на пороге нового времени. М.: Мысль, 1972, 452 с.

50. **Зимин А.А.** Россия на рубеже XV-XVI столетий. М.: Мысль, 1982, 333 с.

51. **Ивницкий Н.А.** Судьба раскулаченных в СССР. М.: Собрание, 2004, 294 с.

52. Из истории борьбы за власть в 1917 году: Сборник документов. Сост.: Злоказов Г.И., Иоффе Г.З. М.: ИРИ РАН, 2002, 255 с.

53. История для бакалавров: учебник для подготовки бакалавров по дисциплине «История». Ростов-на-Дону: Феникс, 2017, 476 с.

54. История России: IX – XXI века от Рюрика до Путина. М.; Ростов-на-Дону: МарТ, 2007, 681 с.

55. История России с древнейших времен до конца XVII века. М.: Эксмо, 2006, 777 с.

56. История Украины. VI–XXI вв. / П.П.Толочко, А.А.Олейников [и др.]. К.; М.: «Киевская Русь»; Кучково поле, 2018, 472 с.

57. **Кондрашин В.В.** Голод 1932-1933 годов: трагедия российской деревни. М.: РОССПЭН : Фонд первого президента России Б. Н. Ельцина, 2008, 518 с.

58. **Коэн С.** Бухарин: политическая биография, 1888-1938. [Пер. с англ. Е.Четвергова и др.] М.: Прогресс; Минск: Беларусь, 1989, 570 с.

59. **Крамер А.В.** Раскол русской Церкви в середине XVII века. СПб.: Алетейя, 2011, 368 с.

60. **Кривошеев Ю.В.** Русская средневековая государственность. СПб.: Изд-во С.-Петербургского ун-та, 2008, 129 с.

61. Лубянка: Сталин и Гл. упр. госбезопасности НКВД, 1937-1938 / Сост.: В.Н.Хаустов [и др.]. М.: Междунар. фонд «Демократия»; Материк; 2004, 734 с.

62. **Людендорф Э.** Мои воспоминания о войне 1914-1918 гг. М.: Вече, 2014, 701 с.

63. **Мартин Т.** Империя «положительной деятельности». Нации и национализм в СССР, 1923-1939. Пер. с англ. О.Р Щёлоковой. М.: РОССПЭН, 2011, 662 с.

64. **Мартынов А.И.** История Древнего мира. Скифо-сибирский мир – евразийская цивилизация. М.: Юрайт, 2018, 209 с.

65. **Марчуков А.В.** Новороссия: формирование национальных идентичностей (XVIII-XX вв.). М.: Кучково поле, 2018, 510 с.

66. **Марьина В.В.** Закарпатская Украина (Подкарпатская Русь) в политике Бенеша и Сталина. 1939-1945 гг.: Документальный очерк. М.: Новый хронограф, 2003, 303 с.

67. **Медведев Ж.А.** Солженицын и Сахаров. Два пророка. М.: Время, 2004, 430 с.

68. **Мельтюхов М.И.** Советско-польские войны: Военно-политическое противостояние, 1918-1939 гг. М.: Вече, 2001, 460 с.

69. **Меркулов В.И.** Откуда родом варяжские гости? Генеалог. Реконструкция по нем. источникам. М.: Белые альвы; Амрита-Русь, 2005, 127 с.

70. **Миллер А.И.** Империя Романовых и национализм: эссе по методологии исторического исследования. М.: Новое лит. обозрение, 2010, 316 с.

71. **Милюков П.Н.** История второй русской революции. М.: РОССПЭН, 2001, 764 с.

72. **Минаков А.Ю.** Русская партия в первой четверти XIX века. М.: Ин-т русской цивилизации, 2013, 521 с.

73. Мировые войны XX века: В 4 кн., Кн.1: Первая мировая война: Исторический очерк. М.: Наука, 2002, 686 с.

74. **Миронов Б.Н.** Благосостояние населения и революции в имперской России: XVIII – начало XX века. М.: Весь Мир, 2012, 844 с.

75. **Молодцыгин М.А.** Красная Армия: Рождение и становление, 1917-1920 гг. М.: ИРИ, 1997, 231 с.

76. **Моруков М.Ю.** Правда ГУЛАГа из круга первого. М.: Алгоритм, 2006, 189 с.
77. Москва и Восточная Европа. Становление политических режимов советского типа (1949-1953): Очерки истории / Т.В.Волокитина, Г.П.Мурашко, А.Ф.Носкова, Т.А.Покивайлова; [Отв. ред. А.Ф.Носкова]. М.: РОССПЭН, 2002, 686 с.
78. **Мунчаев Ш.М.** Политическая история России: От становления самодержавия до падения Сов. власти. М.: НОРМА – НФРА-М, 1999, 789 с.
79. **Назаренко А.В.** Древняя Русь и славяне. М.: Русский Фонд Содействия Образованию и Науке, 2009, 528 с.
80. Население России в 1920-1950-е годы: численность, потери, миграции. М.: ИРИ, 1994, 221 с.
81. **Некрасов В.Ф.** Тринадцать «железных» наркомов: История НКВД-МВД от А.И.Рыкова до Н.А.Щелокова, 1917-1982. М.: Версты, 1995, 412 с.
82. Немцы в Катыни. Документы о расстреле польских военнопленных осенью 1941 года. М.: ИТРК, 2010, 282 с.
83. **Одинцов М.И.** Власть и религия в годы войны: Государство и религиозные организации в СССР в годы Великой Отечественной войны, 1941-1945 гг. М.: Рос.об-ние исслед, 2005, 540 с.
84. **Олейников Д.И.** Классическое российское западничество. М.: АОЗТ Механик, 1996, 164 с.
85. **Орехов А.М.** Советский Союз и Польша в годы «оттепели»: из истории советско-польских отношений. М.: Индрик, 2005, 327 с.
86. От Мюнхена до Токийского залива: Взгляд с Запада на трагич. страницы истории второй мировой войны. М.: Политиздат, 1992, 447 с.
87. **Павлюченков С.А.** Военный коммунизм в России: власть и массы. М.: Русское книгоиздательское товарищество-История, 1997, 270 с.
88. **Пейн Р.** Ленин: жизнь и смерть. Пер. с англ. О.Л.Никулиной. М.: Молодая гвардия, 2002, 666 с.
89. Политбюро и дело Берия: сборник документов. М.: Кучково поле, 2012, 1085 с.
90. Политическая история русской эмиграции, 1920-1940 гг.: Док. и материалы. М.: ВЛАДОС, 1999, 774 с.
91. Политические системы СССР и стран Восточной Европы, 20-60-е гг.: [Сб. ст.] / АН СССР, Ин-т славяноведения и балканистики; Отв. ред. А.Ф.Носкова. М.: Наука, 1991, 253 с.
92. **Почекаев Р.Ю.** Батый. Хан, который не был ханом. М.: АСТ: Евразия, 2006, 350 с.
93. **Радзинский Э.С.** Сталин. М.: Вагриус, 1997, 637 с.

94. **Рахматуллин М.А.** Екатерина II, Николай I, А.С.Пушкин в воспоминаниях современников. М.: Памятники ист. мысли, 2010, 634 с.
95. Революция и гражданская война в описаниях белогвардейцев: Деникин. Юденич. Врангель: [Сборник] / Сост.С.А.Алексеев. М.: Отечество, 1991, 508 с.
96. **Ремнев А.В.** Россия Дальнего Востока. Имперская география власти XIX-начала XX веков. Омск: Омск. гос. ун-т, 2004, 548 с.
97. Россия 1913 год: Статистико-документальный справочник. СПб.: Блиц, 1998, 413 с.
98. Русские цари, 1547-1917. М.: Зевс, 1997, 572 с.
99. **Ростунов И.И.** Русский фронт первой мировой войны. М.: Наука, 1976, 387 с.
100. **Рыдзевская Е.А.** Древняя Русь и Скандинавия в IX-XIV вв. М.: Наука, 1978, 240 с.
101. **Савва В.И.** Московские цари и Византийские василевсы: к вопросу о влиянии Византии на образование идеи царской власти московских государей. Харьков: Тип. и литогр; М.: Зильберберга и С-вья, 1901, 400 с.
102. **Самыгин С.И.** История. М.: Кнорус, 2015, 306 с.
103. **Свердлов М.Б.** От Закона Русского к Русской Правде. М.: Юрид. лит., 1988, 174 с.
104. **Седов В.В.** Древнерусская народность: Ист.-археол. исслед. М.: Яз. рус. культуры, 1999, 316 с.
105. **Семиряга М.И.** Коллаборационизм: Природа, типология и проявления в годы Второй Мировой войны. М.: РОССПЭН, 2000, 862 с.
106. Советско-польские отношения в политических условиях Европы 30-х годов XX столетия: Сб. ст / Рос. акад. наук. Ин-т рос. истории, Пол. акад. наук. Ин-т истории [и др.]; Отв. ред.: Э.Дурачински, А.Н.Сахаров. М.: Наука, 2001, 231 с.
107. Современная политическая история России (1985-1998 гг).: Хроника и аналитика. В 2 т. / Междунар. неправительств. н.-и. и образоват. орг. «РАУ-корпорация»; Под общ. ред. В.И.Зоркальцева, А.И.Подберезкина. М.: Всероссийское общественно-политическое движение в поддержку отеч. науки, культуры, образования, здравоохранения и предпринимательства «Духовное наследие», 1999, 1142 с.
108. **Столыпин П.А.** Полное собрание речей. 1906-1911. М.: Юрайт, 2020, 270 с.
109. **Тарле Е.В.** Наполеон. Очерки военных кампаний.. М.: Юрайт, 2020, 370 с.
110. **Тюкавкин В.Г.** Великорусское крестьянство и Столыпинская аграрная реформа. М.: Памятники ист. мысли, 2001, 302 с.
111. **Устрялов Н.В.** Национал-большевизм. М.: Эксмо; Алгоритм, 2003, 654, с.

112. **Уткин А.И.** Забытая трагедия: Россия в Первой мировой войне. Смоленск: Русич, 2000, 636 с.

113. **Уткин А.И.** Мировая холодная война. М.: Эксмо; Алгоритм, 2005, 732 с.

114. **Филюшкин А.И.** Василий III. М.: Молодая гвардия, 2010, 345 с.

115. **Фортунатов В.В.** История [для бакалавров и специалистов: 16+] СПб.: Питер, 2019, 461 с.

116. **Флоря Б.Н.** Польско-литовская интервенция в России и русское общество. М.: Индрик, 2005, 416 с.

117. **Хастингс М.** Операция «Оверлорд»: Как был открыт второй фронт. Пер. с англ. Е.М.Федотова. М.: Прогресс, 1989, 470 с.

118. **Христофоров И.А.** Судьба реформы: русское крестьянство в правительственной политике до и после отмены крепостного права (1830-1890-е гг.). М.: Собрание, 2011, 367 с.

119. **Черепнин Л.В.** Земские соборы русского государства в XVI-XVII вв М.: Наука, 1978, 420 с.

120. **Шубин А.В.** Диссиденты, неформалы и свобода в СССР. М.: Вече, 2008, 382 с.

121. **Щапов Я.Н.** Государство и церковь Древней Руси X-XIII вв. М.: Наука, 1989, 232 с.

122. **Щукин В.Г.** Русское западничество: Генезис-сущность-историческая мысль. Лодзь: Ibidem, 2001, 366 с.

123. **Эскин Ю.М.** Очерки истории местничества в России XVI-XVIIвв. М.: Квадрига, 2009, 512 с.

124. **Янин В.Л.** Очерки истории средневекового Новгорода, М.: Языки славянских культур, 2008, 425 с.

### İngilis dilində

1. **Troyat H.** Daily Life in Russia under the Last Tsar. New York: Macmillan, 1962, 242 p.

2. **Gessen M.** The Future Is History: How Totalitarianism Reclaimed Russia. London: Granta. 2017, 515 p.

3. **Gregory L.** Freeze. Russia: A History Revised. New York; Oxford: Oxford univ. press, 1988, 331 p.

4. **Moss W.G.** A History of Russia. Vol.1. London: Anthem, 2003. – 654 p.

5. **Moss W.G.** Russia in the age of Alexander II, Tolstoy and Dostoevsky. London: Anthem, 2002, 295 p.

6. **Riasanovsky N.V.** A History of Russia. New York; Oxford: Oxford univ. press, 2000, 726 p.

## MÜNDƏRİCAT


**Giriş** ........ 3

I FƏSİL. SLAVYANLARIN MƏNŞƏYİ

**§1.** Hind-avropalıların tərkibində slavyanların yeri ........ 12
**§2.** Qədim slavyanların sələfləril ........ 14
**§3.** Şərq slavyanları qədim zamanlarda ........ 17

II FƏSİL. RUS IX-XII ƏSRLƏRDƏ

**§1.** Şərq slavyanlarında dövlətin meydana çıxması ........ 20
**§2.** Norman nəzəriyyəsi ........ 24
**§3.** Kiyev knyazları ........ 26
**§4.** Xristianlığın qəbul edilməsi ........ 28
**§5.** Rus Yaroslav Mudrı və Yaroslaviçlər dövründə. ........ 33
**§6.** Dövlət hakimiyyəti. Erkən feodal münasibətlərinin əmələ gəlməsi. Şəhərlər, ticarət və ordu ........ 36

III FƏSİL. RUS TORPAQLARI VƏ KNYAZLIQLARI XII-XIII ƏSRLƏRDƏ

**§1.** Müstəqil Rus knyazlıqlarının yaranması. Kiyev knyazlığı ........ 44
**§2.** Çerniqov və Şimal knyazlığı ........ 47
**§3.** Qaliç-Volın knyazlığı ........ 49
**§4.** Böyük Novqorod ........ 51
**§5.** Vladimir-Suzdal knyazlığı ........ 54
**§6.** Qədim Rusun mədəniyyəti ........ 58

IV FƏSİL. RUS TORPAQLARININ VƏ KNYAZLIQLARININ XIII ƏSRDƏ MONQOL VƏ XAÇLI YÜRÜŞLƏRİNƏ QARŞI MÜBARİZƏSİ

**§1.** Monqol-tatar yürüşləri ........ 64
**§2.** Rusun şimal-qərb sərhədlərində İsveç və alman xaçlılarının işğalçılıq yürüşlərinə qarşı mübarizə ........ 70

V FƏSİL. RUS TORPAQLARI XIII ƏSRİN II YARISI – XV ƏSRİN SONLARINDA. MƏRKƏZLƏŞMİŞ RUSİYA DÖVLƏTİNİN YARANMASI

**§1.** Rus torpaqları Qızıl Ordunun hakimiyyəti altında. ........ 73
**§2.** Rus torpaqlarının birləşdirilməyə başlanması. Moskvanın yüksəlişi ........ 75
**§3.** Mərkəzləşmiş Rusiya dövlətinin yaranması ........ 81

VI FƏSİL. RUSİYA DÖVLƏTİ XVI ƏSRDƏ

**§1.** Moskva çarlığının yaranması. İvan Qroznı ........ 86
**§2.** İvan Qroznının xarici siyasəti. Livoniya müharibəsi (1558-1583) ........ 89
**§3.** Opriçnina. Ryurikoviçlərin Moskva sülaləsinin başa çatması ........ 93

VII FƏSİL. RUSİYA XVII ƏSRDƏ

**§1.** Qarışıqlıq dövrü ........ 97
**§2.** Rusiya XVII əsrin I yarısında ........ 108

**§3.** Rusiya XVII əsrin II yarısında ........ 114
**§4.** Ukraynanın Rusiyaya birləşdirilməsi ........ 117
**§5.** 1660-1670-ci illərdəki xalq həyəcanları ........ 124
**§6.** Kilsə islahatı və parçalanma ........ 126
**§7.** Sibir və Uzaq Şərqin mənimsənilməsi ........ 129

**VIII FƏSİL. XIII-XVII ƏSRLƏRDƏ RUS MƏDƏNİYYƏTİ**

**§1.** Rus mədəniyyəti XIII-XV əsrlərdə ........ 131
**§2.** XVI-XVII əsrlərdə Rus mədəniyyəti ........ 134

**IX FƏSİL. RUSİYA XVII ƏSRİN SONU – XVIII ƏSRİN I RÜBÜNDƏ. RUSİYA İMPERİYASININ YARANMASI**

**§1.** Rusiya dəyişiklik ərəfəsində ........ 142
**§2.** I Pyotrun dövrü ........ 146
**§3.** Şimal müharibəsi ........ 149
**§4.** I Pyotrun islahatları ........ 154
**§5.** Xalq üsyanları ........ 161
**§6.** XVIII əsrin I rübündə rus mədəniyyəti ........ 165

**X FƏSİL. RUSİYA İMPERİYASI XVIII ƏSRİN II RÜBÜ VƏ ORTALARINDA. SARAY ÇEVRİLİŞLƏRİ**

**§1.** Rusiya imperiyası 1725-1740-cı illərdə ........ 169
**§2.** Saray çevrilişləri ........ 176

**XI FƏSİL. RUSİYA XVIII ƏSRİN II YARISINDA**

**§1.** II Yekaterinanın taxta çıxması. «Maarifçi mütləqiyyət» ........ 190
**§2.** Y.İ.Puqaçovun başçılığı ilə 1773-1775-ci illər kəndli müharibəsi ........ 195
**§3.** Y.İ.Puqaçov üsyanından sonra II Yekaterinanın islahatları ........ 199
**§4.** XVIII əsrin II yarısında Rusiyanın xarici siyasəti ........ 201
**§5.** I Pavel ........ 207
**§6.** XVIII əsrin II yarısında Rusiyanın mədəniyyəti ........ 213

**XII FƏSİL. RUSİYA İMPERİYASI XIX ƏSRİN I YARISINDA**

**§1.** Rusiya XIX əsrin əvvəllərində ........ 225
**§2.** XIX əsrin əvvəllərində Rusiyanın xarici siyasəti. 1812-ci il Vətən müharibəsi ........ 232
**§3.** Rusiyada müharibədən sonrakı həyat. Dekabristlər hərəkatı ........ 250
**§4.** Rusiya imperiyası I Nikolayın dövründə. Daxili siyasət ........ 261
**§5.** I Nikolayın xarici siyasəti ........ 268

**XIII FƏSİL. RUSİYA XIX ƏSRİN II YARISINDA. İŞĞALLAR DÖVRÜ**

**§1.** 1860-1870-ci illərin islahatları. Təhkimçilik hüququnun süqutu ........ 275
**§2.** Rusiyanın xarici siyasəti.
1877-1878-ci illərdə Rusiya-Osmanlı müharibəsi ........ 286
**§3.** XIX əsrin II yarısında ictimai hərəkat. İmperator III Aleksandr ........ 297

### XIV FƏSİL. XIX ƏSRDƏ RUSİYADA İCTİMAİ FİKİR VƏ MƏDƏNİ HƏYAT


**§1.** Rusiya mədəniyyətinin «Qızıl əsri» XIX əsrin I yarısında mədəni həyat .......310
**§2.** Slavyanofillər və qərbçilər. Rus utopik sosializmi ....................................... 318
**§3.** XIX əsrin II yarısında Rusiya mədəniyyəti ................................................. 323


### XV FƏSİL. XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ RUSİYA İMPERİYASININ BÖHRANI


**§1.** Yeni əsrin astanasında ................................................................................. 333
**§2.** XIX-XX əsrlərin hüdudunda Rusiya dünya meydanında.
Rus-yapon müharibəsi.................................................................................... 341
**§3.** XIX əsrin sonu–XX əsrin əvvəllərində ictimai hərəkat.
Rusiyada marksizmin yaranması ................................................................ 345
**§4.** Rusiyada 1905-1907-ci illər inqilabı. Parlamentarizmin yaranması .............. 353
**§5.** Üçüncü Dövlət Duması. P.A.Stolıpinin islahatları. ....................................... 366


### XVI FƏSİL. XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ RUSİYANIN MƏDƏNİYYƏTİ


**§1.** Rusiya mədəniyyətinin «Gümüş əsri»......................................................... 371


### XVII FƏSİL. RUSİYA I DÜNYA MÜHARİBƏSİNDƏ


**§1.** Birinci Dünya müharibəsi ərəfəsində Rusiyanın xarici siyasəti .................... 380
**§2.** Birinci Dünya müharibəsinin başlanması. Hərbi əməliyyatların gedişi ......... 386
**§3.** 1917-ci il Fevral inqilabı. II Nikolayın hakimiyyətdən əl çəkməsi................ 393


### XVIII FƏSİL. FEVRAL İNQİLABINDAN OKTYABRA DOĞRU


**§1.** İkihakimiyyətlilik dövründə ictimai-siyasi şərait......................................... 400
**§2.** General L.G.Kornilovun çıxışı .................................................................... 409


### XIX FƏSİL. OKTYABR HADİSƏSİ VƏ SOVET HAKİMİYYƏTİNİN QURULMASI


**§1.** Oktyabr ərəfəsində ölkənin daxili vəziyyəti ................................................. 412
**§2.** Petroqradda silahlı üsyan və bolşeviklərin hakimiyyətə gəlməsi................... 414
**§3.** Sovet dövlət aparatının yaradılması ............................................................ 423
**§4.** Brest sülhü.................................................................................................. 428


### XX FƏSİL. VƏTƏNDAŞ MÜHARİBƏSİ VƏ XARİCİ HƏRBİ MÜDAXİLƏ


**§1.** Vətəndaş müharibəsinin səbəbləri............................................................... 431
**§2.** «Hərbi kommunizm» siyasəti ...................................................................... 438
**§3.** Vətəndaş müharibəsi və xarici hərbi müdaxilənin şiddətlənməsi ................. 441
**§4.** Polşa ilə müharibə. Vətəndaş müharibəsinin qırmızıların
qələbəsi ilə başa çatması ............................................................................. 445

**XXI FƏSİL. SOVET DÖVLƏTİ 20-ci İLLƏRİN BİRİNCİ YARISINDA**

**§1.** 1920-ci illərin əvvəllərində daxili vəziyyət. Kronştadt qiyamı ...................... 452
**§2.** Yeni iqtisadi siyasətə keçilməsi. Partiyadaxili mübarizənin başlanması ........ 455
**§3.** SSRİ-nin yaranması ........................................................................................ 465
**§4.** Milli dövlət siyasəti. ........................................................................................ 471

**XXII FƏSİL. SSRİ 20-ci İLLƏRİN İKİNCİ YARISI–30-cu İLLƏRDƏ**

**§1.** Sənayeləşdirmə siyasəti .................................................................................. 475
**§2.** Kənd təsərrüfatının kollektivləşdirilməsi ...................................................... 484
**§3.** Hakimiyyət uğrunda partiyadaxili mübarizə .................................................. 492

**XXIII FƏSİL. 1920-1930-cu İLLƏRDƏ BEYNƏLXALQ VƏZİYYƏT VƏ SSRİ-nin XARİCİ SİYASƏTİ**

**§1.** 1920-ci illərdə SSRİ-nin xarici siyasəti .......................................................... 496
**§2.** 1930-cu illərdə beynəlxalq vəziyyət və SSRİ-nin xarici siyasəti .................. 509

**XXIV FƏSİL. 1917-1940-cı İLLƏRDƏ SOVET MƏDƏNİYYƏTİ**

**§1.** Savadsızlığın ləğv edilməsi. Məktəb ............................................................. 519
**§2.** Ali təhsil .......................................................................................................... 523
**§3.** Sovet elmi 1920-1930-cu illərdə ..................................................................... 525
**§4.** Ədəbiyyat ......................................................................................................... 531
**§5.** 1920-1930-cu illərdə incəsənət ....................................................................... 535

**XXV FƏSİL. TOTALİTAR DÖVLƏT MODELİNİN BƏRQƏRAR OLMASI**

**§1.** 1920-1930-cu illərdə sovet cəmiyyəti. 1936-cı il Konstitusiyası .................. 545
**§2.** Siyasi rejim və kütləvi repressiyalar .............................................................. 552
**§3.** Sovet dövləti və din .......................................................................................... 560

**XXVI FƏSİL. BÖYÜK VƏTƏN MÜHARİBƏSİ**

**§1.** Müharibənin başlanması ................................................................................. 565
**§2.** Moskva döyüşü ................................................................................................ 574
**§3.** Antihitler koalisiyasının yaranması. Cəbhədəki yeni uğursuzluqlar .............. 576
**§4.** Müharibədə əsaslı dönüş. Stalinqrad altında qələbə ..................................... 580
**§5.** Partizan hərəkatı. ............................................................................................. 583
**§6.** Kursk döyüşü ................................................................................................... 584
**§7.** 1944-cü ilin əvvəlində sovet-alman cəbhəsində vəziyyət ............................... 591
**§8.** İşğaldan azad edlimiş ərazilərdə dövlət siyasəti. Arxa cəbhə ........................ 593
**§9.** Avropada hərbi əməliyyatlar. Almaniyanın təslim olması .............................. 600
**§10.** Podstam konfransı. İkinci Dünya müharibəsinin başa çatması .................... 604

**XXVII FƏSİL. SSRİ 1940-cı İLLƏRİN İKİNCİ YARISI – 1950-ci İLLƏRİN ƏVVƏLLƏRİNDƏ. «GECİKMİŞ STALİNİZM»**

**§1.** Daxili iqtisadi vəziyyət ........................................................................ 609
**§2.** Müharibədən sonrakı kənd ........................................................................ 613
**§3.** Əhalinin həyat səviyyəsi ........................................................................ 616
**§4.** Siyasi rejim ........................................................................ 618
**§5.** Mədəni həyat. İdeoloji kampaniya və diskussiyalar ........................................ 625
**§6.** Xarici siyasət ........................................................................ 630

**XXVIII FƏSİL. «MÜLAYİMLƏŞMƏ». 1953-1964**

**§1.** İctimai-siyasi vəziyyət ........................................................................ 638
**§2.** Sov.İKP-nin XX qurultayı ........................................................................ 643
**§3.** İqtisadi və sosial dəyişikliklər ........................................................................ 646
**§4.** «Mülayimləşmə» dövründə mədəni həyat ........................................................ 652
**§5.** SSRİ-nin xarici siyasəti. ........................................................................ 658

**XXIX FƏSİL. SSRİ 1960-cı İLLƏRİN İKİNCİ YARISI – 1980-ci İLLƏRİN ORTALARINDA**

**§1.** İctimai-siyasi həyat ........................................................................ 664
**§2.** Ölkənin sosial-iqtisadi vəziyyəti ........................................................................ 674
**§3.** SSRİ beynəlxalq aləmdə ........................................................................ 682
**§4.** 1983-1985-ci illərdə daxili vəziyyət ........................................................................ 688

**XXX FƏSİL. «YENİDƏNQURMA» SİYASƏTİ. 1985-1991**

**§1.** Sosial-iqtisadi siyasət ........................................................................ 691
**§2.** İctimai-siyasi vəziyyət ........................................................................ 700
**§3.** SSRİ-nin dağılması. MDB-nin yaranması ........................................................ 708
**§4.** 1985-1991-ci illərdə SSRİ-nin xarici siyasəti ................................................ 715

**XXXI FƏSİL. 1940-cı İLLƏRİN İKİNCİ YARISI – 1980-ci İLLƏRDƏ SSRİ-də MƏDƏNİYYƏT**

**§1.** Müharibədən sonra ölkənin mənəvi həyatı. Təhsil. Elm ........................................ 722
**§2.** Ədəbiyyat və incəsənət ........................................................................ 728
**§3.** 1960-cı illərin ikinci yarısı – 1980-ci illərdə mədəniyyət ...................................732

**XXXII FƏSİL. RUSİYA XX ƏSRİN 90-cı İLLƏRİ – XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ**

**§1.** Daxili sosial-iqtisadi siyasət ........................................................................ 740
**§2.** İctimai-siyasi vəziyyət ........................................................................ 748
**§3.** Federalizmin inkişafı. Çeçenistan müharibəsi ................................................ 757
**§4.** Müasir Rusiyanın xarici siyasəti ........................................................................ 760
**§5.** Rusiyanın mədəniyyəti. ........................................................................773
**§6.** Rusiya yeni minilliyin əvvəllərində (2000-2020) ...........................................778
**İstifadə edilmiş ədəbiyyat siyahısı ........................................................................ 789**

*Tahir Şamil oğlu Baxşəliyev*
**RUSİYA TARİXİ**
**ƏN QƏDİM ZAMANLARDAN GÜNÜMÜZƏDƏK**
Bakı, "Təhsil", 2021.

Bədii-texniki redaktor *Abdulla Ələkbərov*
Kompüter dizaynı *Səadət Quluzadə*
Üz qabığının tərtibatı *Əmiraslan Zalıyev*
Korrektor *Mətanət Kərimova*

Çapa imzalanmışdır 16.05.2021.
Kağız formatı 70x100 $^{1}/_{16}$. Fiziki çap vərəqi 50,5.
Sifariş 16. Tiraj 300.

"Təhsil Nəşriyyat-Poliqrafiya" müəssisəsinin mətbəəsində
hazır diapozitivlərdən çap olunmuşdur.

Bakı, AZ1052, Fətəli xan Xoyski küç., 149
Tel.: (+994 12) 567-81-28/29; Faks: (+994 12) 567-82-68
e-mail: tahsil_az@yahoo.com